I BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS

# QARABAĞDA YENİ İQTİSADİYYAT QURUCULUĞU: AĞDAMDAN İNKİŞAF İMPULSLARI

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

Qarabağ Dirçəliş Fondu

AMEA İqtisadiyyat İnstitutu

# “QARABAĞDA YENİ İQTİSADİYYAT QURUCULUĞU: AĞDAMDAN İNKİŞAF İMPULSLARI”

"I Beynəlxalq elmi-praktik konfrans"ın materialları

**Ağdam-Bakı – 16-17 sentyabr 2021-ci il**

## TƏŞKİLAT KOMİTƏSİ

**Nazim Müzəffərli** – AMEA İqtisadiyyat İnstitutu, Baş direktor, i.e.d., professor (sədr)

**Fidan Axundova** – Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı

**Zamin Bədirxanov** – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, "Ərazilərin bərpası və inkişafı" şöbəsinin müdiri

**Ümid İsazadə** – Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı

**Rəşad Qasımzadə** – Qarabağ Dirçəliş Fondu, "Layihələr və biznesin inkişafı" şöbəsinin müdiri

**Allahyar Muradov** – i.f.d., dosent, AMEA İqtisadiyyat İnstitutu direktorunun elmi işlər üzrə müavini

**Sadıx Nəbiyev** – AMEA RH aparatının elmi katibi (Məsul katib)

## REDAKSİYA HEYƏTİ

**Müşfiq Atakişiyev** – i.e.d., professor

**Nəsimi Əhmədov** – i.f.d., dosent

**Tərbiz Əliyev** – i.e.d., professor

**Emin Məmmədzadə** – i.f.d., dosent

**Asif Mustafayev** – i.f.d., dosent

**Tanrıverdi Paşa** – aparıcı elmi işçi

**Rəna Sultanova** – i.e.d., professor

**Gülşən Yüzbaşiyeva** – i.e.d., professor

## TEXNİKİ HEYƏT

**Nazənin Əzizzadə**

**Gülnaz Sarızadə**

## TƏŞKİLATÇI QURUMLAR

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

"Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs

AMEA İqtisadiyyat İnstitutu

# QARABAĞ AZƏRBAYCANDIR!

Bu kitab, II Qarabağ müharibəsi nəticəsində ölkəmizin işğaldan azad edilmiş ərazilərində keçirilmiş ilk elmi tədbirin – “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” mövzusunda"I Beynəlxalq elmi-praktik konfrans"ın əsasında hazırlanmışdır. Kitabda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın konfrans iştirakçılarına ünvanladığı təbrik məktubu, konfrans iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti, təşkilatçı qurumların rəhbərlərinin açılış nitqləri, konfrans iştirakçılarının məruzə və məqalələri toplanmışdır.

Həm konfransın, həm də onun materialları əsasında tərtib edilmiş bu kitabın əsas məqsədi – Qarabağın, xüsusilə də Ağdamın bərpası, yenidən qurulması, qısa, orta və uzunmüddətli perspektivdə inkişafı ilə bağlı sosial-iqtisadi tədqiqatları stimullaşdırmaq, ölkəmizin elmi ictimaiyyətini bu məsələlərlə bağlı araşdırmalara daha geniş cəlb etməkdir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Düşməndən azad edilmiş Qarabağda keçirilən ilk elmi tədbirin – "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları" mövzusunda I Beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Sizə, qalib Azərbaycan ordusunun Müzəffər Ali Baş Komandanına müraciət edir, qəhrəman Əsgər və Zabitimizi, bütün millətimizi səfərbər edərək Qarabağı Vətənə qovuşdurduğunuza, illərdən bəri bəslədiyimiz arzunu gerçəyə çevirdiyinizə, milli şərəfimizi qaytardığınıza görə Sizə sonsuz minnətdarlığımızı bildiririk.

Həqiqətən şərəfli günlər yaşayırıq. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə işğaldan azad edilmiş ərazilərə səfərləriniz zamanı verdiyiniz şərh və mesajlar, Qarabağda atdığınız hər bir addım, təməlini qoyduğunuz hər bir inşaat, keçirdiyiniz hər bir tədbir ölkəmizin yenilməz güc-qüdrətini dünyaya sübut edir. Qarabağda günbəgün vüsətlənən bərpa və quruculuq işləri qəlbimizi fərəh və qürurla doldurur, qələbə sevincimizi birə yüz artırır.

Cənab Prezident, ümid edirik ki, Azərbaycanı və bir neçə xarici ölkəni təmsil edən iqtisadçı-alimlərin iştirakı ilə keçirilən bu Konfransda aparılan elmi müzakirələr, azad olunmuş torpaqlarımızda, müasir dünya təcrübəsi də nəzərə alınmaqla, iqtisadi dirçəlişin və inkişafın təmin olunması haqqında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensial müqayisəli üstünlük sahələri və onların gerçəkləşdirilməsi yolları barəsində məruzə və çıxışlarda irəli sürüləcək elmi tövsiyələr həm Ağdamın, həm də bütövlükdə Qarabağın tərəqqisinə, kiçik də olsa, töhfə verəcəkdir.

Ulu Tanrı dövlətimizi və xalqımızı həmişə uca etsin, Sizi və ailənizi qorusun!

**Dərin ehtiramla,**
"Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları"
I Beynəlxalq elmi-praktik konfransının iştirakçıları

Ağdam, 16 sentyabr 2021-ci il



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təbrik məktubu

**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli ordumuzun igid oğulları doğma Qarabağımızı 30 illik işğaldan azad etdi. İndi hər birimizin qarşısında işğaldan azad edilən ərazilərimizin dirçəlişi kimi mühüm bir missiya dayanır.

Hazırda Qarabağın dayanıqlı iqtisadiyyata, yüksək rifaha malik regiona çevrilməsi, insanların tezliklə öz doğma torpaqlarına qayıtması istiqamətində zəruri işlər aparılmaqdadır.

Bu işlərin daha da intensivləşdirilməsi, müxtəlif fəaliyyət sahələrinin dünya iqtisadiyyatının inkişaf trendləri baxımından təhlil edilməsi olduqca əhəmiyyətlidir.

Şübhəsiz ki, Qarabağın müasir bir regiona çevrilməsində, bərpa işlərinə yerli və xarici investisiyaların daha geniş şəkildə cəlb edilməsində iqtisadi elmi tədqiqatlar xüsusi rol oynayır.

Hörmətli konfrans iştirakçıları!

Qarabağda həyata keçirdiyimiz bərpa-quruculuq işləri, habelə təşkil olunan elm və mədəniyyət tədbirləri bu bölgənin inkişafına verdiyimiz əhəmiyyətin bariz göstəricisidir.

Sizi – Qarabağ torpağında keçirilən ilk elmi Konfransın iştirakçıları kimi salamlayır, bu vacib tədbirə uğurlar arzu edirəm! Əminəm ki, aparacağınız müzakirələr Qarabağda elmi əsaslar və qabaqcıl beynəlxalq təcrübəyə söykənən yeni iqtisadiyyatın qurulmasına öz töhfəsini verəcəkdir.

Qarabağ Azərbaycandır!

**Hörmətlə,**

**Mehriban Əliyeva**
Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti

Bakı şəhəri, 15 sentyabr 2021-ci il.

# açılış nitqləri

→

## HÜSEYNOV Emin

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

→

# Salam hörmətli konfrans iştirakçıları !

Hamınızı “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” mövzusunda elmi-praktik konfransda salamlayıram. Sizləri burada görmək mənim üçün çox sevindirici haldır. Otuz ilə yaxın müddətdə Ağdam şəhəri də daxil olmaqla Azərbaycan Respublikasının bir neçə dilbər guşəsi mənfur düşmənlərimiz tərəfindən işğal altında saxlanılmış, bu dövr ərzində bizim mənəvi, mədəni, tarixi, ekoloji sərvətlərimiz talan olunmuşdur. Bunun ən bariz nümunəsi elə Ağdam rayonudur. Ağdam rayonu işğal edilmiş rayonlar arasında mina və partlayıcı maddələrlə ən çox çirkləndirilmiş ərazilərdəndir. Əlavə olaraq, gördüyünüz kimi, qəsbkar düşmən Ağdam şəhərində daşı daş üstə qoymayıb. Bizim neçə-neçə tarixi-mədəni abidələrimiz vandalizmə məruz qalıb. Burada onların dağıdılmasını, yandırılmasını və tövlə kimi istifadə olunmasını görürük. Amma, şükürlər olsun ki, 28 il sonra, Müzəffər Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasətinin, uzaqgörənliyinin, dəmir iradəsinin, onun komandanlığı ilə müstəsna inkişaf yolu keçmiş Azərbaycan Ordusunun əsgər, gizir və zabitlərinin qorxmazlığı, şücaəti və şəhidlərimizin qanı-canı bahasına bu gözəl diyarımız işğaldan azad oldu. Təbii ki, qaniçən düşmənlərimizdən fərqli olaraq biz, Azərbaycan dövləti və xalqı olaraq, işğaldan azad olunan torpaqlarımızda dərhal yenidənqurma-bərpa işlərinə başladıq.
Amma bu yenidənqurma və bərpa işləri ancaq infrastrukturun qurulması deyil, burada iqtisadiyyatın, sosial həyatın və s. bərpasını da nəzərdə tutur. Təbii ki, bunları elmə əsaslanaraq etməyimiz olduqca vacibdir. Bu baxımdan Müzəffər Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin və çox hörmətli I Vitse-prezident Mehriban xanım Əliyevanın elmə verdikləri qayğı və dəstəyin məntiqi nəticəsi olaraq işğaldan azad olunmuş Ağdam şəhərində icra olunan tədbirlərin ilkləri arasında elmi-konfransın keçirilməsi heç də təsadüfi deyil. Bizim bu konfransdan, konfrans iştirakçılarından gözləntilərimiz böyükdür. Biz gələcəkdə burada müzakirə olunacaq elmi məqalələrin Ağdamda və Qarabağda baş verəcək yenidənqurma və bərpa işlərinə yetərincə töhvə verəcəyini düşünürük.

Bildiyiniz kimi, bu konfransda yerli alimlərlə yanaşı, xarici alimlər də iştirak edir. Mən istərdim onları sizə təqdim edim:

- Amanda Paul–Avropa Siyasi Mərkəzi, Belçika
- Dr.Venzeslav Sabev–İdarəçilik, İnam və Dəyərlər Mərkəzinin təsisçisi, İsveçrə.
- Dr.Janin Mitçell–Elison Tədqiqatlar Mərkəzi. Vaşinqton Universiteti, ABŞ
- Dr.Ferit Murat Özkaleli – ADA Universiteti
  Ağdam I beynəlxalq elmi-praktiki konfransda iştirak etdiyiniz üçün hər birinizə təşəkkür edirəm. Qeyd etmək istərdim ki, əslində bu say altı olmalı idi, lakin bəzi üzrlü səbəblərdən iki xarici alimin konfransda iştirakı baş tutmadı.

Mən konfransda iştirakınıza, Azərbaycanda elmə və Qarabağda bərpa işlərinə verdiyiniz dəstəyə görə hamınıza öz dərin təşəkkürümü bildirir, konfransın işinə uğurlar arzulayıram! Qoy bu konfrans Qarabağda elmi əsaslara söykənən yeni iqtisadiyyat quruculuğu üçün sağlam bir təməl olsun!

**Təşəkkür edirəm!**

**ƏLƏKBƏROV Sahib**
AR İqtisadiyyat nazirinin müavini

→

## Hörmətli konfrans iştirakçıları, əziz qonaqlar!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi adından sizin hər birinizi müqəddəs Qarabağ torpağında, Ağdamda salamlayıram və konfransımıza öz işində uğurlar arzu edirəm. Hər birimiz yaxşı başa düşürük ki, konfransın məhz Ağdamda keçirilməsi xüsusi məna kəsb edir. Bu onu göstərir ki, biz artıq öz torpaqlarımıza qayıtmışıq, bu torpaqları dirçəldirik və yaxın vaxtlarda öz ata-baba yurduna dönən vətəndaşlarımız bu ərazilərdə yaşayıb-yaratmağa başlayacaqlar. Mənfur düşmənlərimiz və onların havadarları ümid edirdilər ki, biz bu torpaqları unudacağıq və onları unutdurmaq üçün əllərindən gələni edirdilər. Amma həyat göstərdi ki, onlar bizim xalqımızı yaxşı tanımırlar. Biz bir gün də olsa belə öz torpaqlarımızı unutmadıq. Hər gün bu məsələ üzərində düşünür, torpaqlarımıza qayıtmaq üçün nə etmək lazım idisə onu da edirdik. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həm siyasi sahədə, həm diplomatik sahədə, eləcə də digər sahələrdə lazımi işlər aparılırdı. Torpaqlarımızı işğaldan azad etmək üçün məqam gözləyirdik və nəhayət şükürlər olsun ki, o məqam gəlib çatdı. Çox düzgün seçilmiş bir zamanda biz mənfur düşmənlərimizin cavabını verdik. Bir qədər əvvəl hörmətli Emin müəllimin burda qeyd elədiyi kimi, biz şəhidlərimizin qanı və canı bahasına, Azərbaycan xalqının birliyi hesabına, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və Azərbaycan Əsgərinin gücü hesabına möhtəşəm qələbəmizi əldə etdik. Son illər ərzində təkcə ölkə rəhbərliyi və ordumuz bu istiqamətdə işləmirdi. Siyasətçilərimiz, ictimai xadimlərimizlə bərabər bizim alimlərimiz də öz üzərlərinə düşəni etməyə çalışırdılar.
Mən yadıma düşən bir-iki misalı sizin diqqətinizə çatdırmaq istəyirəm. Hələ 2010-cu ildə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstutunun direktoru, iqtisad elmləri doktoru, professor, bugünkü konfransın Təşkilat Komitəsinin sədri Nazim Müzəffərlinin həmkarı Eldar İsmayılovla birlikdə “Azərbaycanın post-konflikt ərazilərinin bərpası, konseptual əsaslar” adlı, bir sıra xarici dövlətlərin (o cümlədən Amerika, İngiltərə, Yaponiya kimi inkişaf etmiş dövlətlərin) alimlərinin diqqətini cəlb etmiş çox maraqlı bir kitabı çap etdirmişdi. Bu gün burada iştirak edən İqtisad Universitetinin rektoru, professor Ədalət Muradovun təşəbbüsü ilə aparılmış bir sıra elmi tədqiqatlar, digər alimlərimizin, siyasətçilərimizin və ictimaiyyət nümayəndələrinin yerli və beynəlxalq konfranslarda, digər tədbirlərdə mütəmadi olaraq Qarabağ məsələsini müzakirəyə çıxarması və Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırması da bunun əyani sübutudur.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamı ilə təsdiq edilmiş, 2030-cu ilə qədərki dövr üçün müəyyən olunmuş beş milli prioritetdən biri də məhz işğaldan azad edilmiş ərazilərə böyük qayıdışdır. Bu çox mühüm sənəddir və bu sənəddən irəli gələrək, bir sıra digər vacib sənədlər də hazırlanmaqdadır. Onlardan ikisini sizin diqqətinizə çatdırmaq istəyirəm. Bunlardan biri sərəncama uyğun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış “2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası”dır. Bu mühüm sənədin layihəsində də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin olunmasına geniş yer verilmişdir. Nazirlik tərəfindən hazırlanmış digər mühüm sənəddə, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı”nın layihəsində 4 əsas istiqamət-i-

darəetmə və təhlükəsizlik, infrastruktur təminatı, sosial xidmətlərin formalaşması, iqtisadiyyatın yenidən qurulması və inkişafı kimi əsas istiqamətlər üzrə görüləcək işlər öz əksini tapmışdır. Təbiidir ki, bu sənədlər dərin təhlillərə və mövcud beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmışdır və indi biz işğaldan azad olunmuş hər bir rayonun işğaldan əvvəl mövcud olmuş iqtisadi potensialını, yeni çağırışları və şəraiti nəzərə almaqla görüləcək işləri praktiki müstəviyə keçirməli, onların reallığa çevrilməsini təmin etməliyik. İki gün əvvəl İqtisadiyyat Nazirliyinin İctimai Şurasının üzvləri ilə keçirilən görüşdə nazirimiz Mikayıl Cabbarovun qeyd etdiyi kimi, niyyətlər aydındır və indi əsas vəzifə bacarıq və kompetensiyaları ortaya qoymaqla həmin niyyətləri həyata keçirməkdən ibarətdir. Gözləntilər olduqca çoxdur və bunu nəzərə almaqla onların idarə olunması məsələsinə də xüsusi diqqət yetirilməlidir. Belə ki, bütün dünyanın gözünün Azərbaycanda, xüsusilə də Qarabağda həyata keçirilən layihələrdə olduğunu nəzərə alaraq, biz elə etməliyik ki, bu gözləntilər mövcud reallığa uyğun olaraq formalaşsın və onların hər birinin özünü doğrultması təmin edilsin. Bu zaman hər bir məsələyə kompleks şəkildə, sistemli qaydada yanaşılmalı, bütün işlər yüksək keyfiyyətlə icra olunmalıdır. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında cari ilin ötən dövrü ərzində işğaldan azad olunmuş şəhərlərin baş planlarının hazırlanması, yeni yolların çəkilməsi, Şuşada aparılan geniş təmir-bərpa işləri, keçirilən möhtəşəm tədbirlər, bütün dünyanı heyrətə gətirən çox qısa müddətdə Füzuli aeroportunun tikilib başa çatdırılması, Zəngilan və Laçın aeroportlarının tikintisinə başlanılması, ağıllı şəhər və kənd layihələrinin icrası bundan sonra görüləcək işlər üçün gözəl bir örnəkdir. Bu gün Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi hörmətli Emin Hüseynov bizə Ağdamdakı mövcud vəziyyət və görülməsi nəzərdə tutulmuş işlər barədə ətraflı məlumat verdi. Şübhə yoxdur ki, biz yaxın zamanlarda bu işlərin xeyli hissəsinin reallaşdırıldığının, mənfur düşmən tərəfindən yerlə-yeksan edilmiş Ağdamın yerində əvvəlkindən də qat-qat gözəl bir şəhərin salınacağının şahidi olacağıq. Bir daha vurğulamaq istəyirəm ki, burda əsas məsələlərdən biri bu işlər aparılarkən kompleks və sistemli yanaşmaların təmin edilməsidir. Fikrimi bir misalla izah etmək istərdim. Məlum olduğu kimi, bütün dünyanın diqqət mərkəzində olan və hamını düşündürən bir vacib məsələ vardır ki, o da su təchizatıdır. Azərbaycanda da bu sahədə çox ciddi çağırışlar mövcuddur və sudan səmərəli istifadə məsələsi bizim mütəxəssislərimizin gündəlik məşğul olduğu məsələlərdən biridir. Sirr deyildir ki, dövlət tərəfindən son illər bu sahəyə çox böyük vəsait ayrılıb. Lakin hələ də bizdə su təchizatı, sudan səmərəli istifadə olunması, yağış və çirkab sularının düzgün idarə edilməsi ilə bağlı nümunə göstərilə biləcək bir dənə də şəhər, qəsəbə, kənd, yaşayış məntəqəmiz yoxdur və mövcud şəhərlərdə bu problemi kökündən həll etmək o qədər də asan deyil. Lakin yeni salınacaq şəhər və kəndlərimizdə, o cümlədən Ağdamda bu məsələlərin birdəfəlik həll olunması üçün heç bir maneə yoxdur və mövcud imkanlardan düzgün istifadə etsək, biz elə bir nümunə yarada bilərik ki, digər şəhərlərdə, digər yaşayış məntəqələrində də o nümunədən istifadə etmək olsun.

İşğaldan azad olunmuş ərazilərimizdə iqtisadiyyatın üstünlük verilməli olan sahələrinin düzgün müəyyənləşdirilməsi də günümüzün ən aktual məsələlərindən biridir. Düşünürəm ki, iqtisadçı alimlərimiz bu istiqamətdə də ciddi araşdırmalar apararaq hədəflərin düzgün seçilməsinə öz töhfələrini verəcəklər. Məlumdur ki, işğaldan əvvəlki dövrdə Ağdam rayonunda 140 min nəfərdən çox əhali yaşayırdı. Kənd təsərrüfatında çalışanlar əsasən taxılçılıqla, üzümçülüklə, pambıqçılıqla, heyvandarlıqla məşğul olurdular. 2019-cu ilin məlumatlarına görə Ağdam əhalisinin sayı 204 mini ötüb. Düzdür, onların hamısı Ağdamda yaşamırlar, səpələniblər bütün Azərbaycana. Amma fərqi yoxdur, onların dəqiq uçotu aparılır. Təkcə yeni salınacaq Ağdam şəhərində 100 minə qədər əhalinin yaşayacağı nəzərdə tutulur. Yaxşı bəs bu adamlar harda işləməlidir?! Yalnız əvvəlki, ənənəvi sahələrdəmi, yoxsa onlara yenidən baxmalı, yeni, innovativ iqtisadiyyat sahələrimi yaratmalıyıq? Təbiidir ki, bu gün yeni şərait yaranıb, yeni çağırışlar ortaya çıxıb. Yuxarıda qeyd etdiyim kimi, su problemi var. Elə məhsul var ki, onun istehsalı üçün daha çox su tələb olunur. Amma eləsi var ki, ona çox da su lazım deyil. Biz indi bugünkü şəraitdə hansı məhsulların istehsalına üstünlük verməliyik? Bunu təkcə məmurlar həll edə bilməz. Məhz alimlərimiz, iqtisadçıla-

rımız dərin təhlillər, araşdırmalar aparıb öz fikirlərini bazardakı tələbat, iqtisadi səmərəlilik baxımından əsaslandırılmaqla konkret təkliflər verməlidirlər.
İşğal edilmiş torpaqları geri qaytarmaq asan deyil. Uzun illər, 30 ilə yaxın müddət ərzində biz nələrdən keçməli olduq. O illər ərzində ermənilərin bu torpaqlarda nələr etdikləri gözümüzün qabağındadır. Bir dənə tikili qalmayıb, hamısını dağıdıblar, torpaqlar da istifadəsiz qalıb. Amma biz bütün dünyaya göstərməliyik ki, biz öz torpaqlarımızı da qaytardıq, qısa bir müddət ərzində şəhər, kəndlərimizi də bərpa etdik, əhalimizi, məcburi köçkünlərimizi də öz yurd-yuvalarına qaytardıq və onlar üçün hər şəraiti yaratdıq ki, onlar öz torpaqlarını əkib-becərsinlər, burada yeni, müasir iqtisadiyyat qursunlar. Düşünürəm ki, hər birimiz bunun üçün əlimizdən gələni edəcəyik və mən sizin hamınıza bu işlərdə uğurlar arzu edirəm.

**Diqqətinizə görə çox sağ olun.**

## HACIYEV Rəhman

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri

→

## Hörmətli konfrans iştirakçıları,

İlk növbədə hər birinizi səmimi qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram. Sizi burada görməyə çox şadam. Fürsətdən istifadə edib Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəsi Emin müəllimə göstərdiyi qonaqpərvərliyə görə öz təşəkkürümü bildirirəm.

Mən birinci dəfə deyil ki, Ağdama səfər edirəm. Hər dəfə bu ərazilərə səfər edərkən, 30 il ərzində erməni işğalçılarının burada hansı vəhşiliklər törətdiyinin şahidi oluruq. Dağıntıların miqyasının bu qədər böyük olmasına baxmayaraq, öncəki səfərimdən 2 həftə kimi çox qısa vaxt keçsə də mən artıq yolda gələrkən bir çox dəyişikliklərin olduğunu müşahidə etdim. Hansısa yeni qurğular təsis olunur, kanal çəkilir, bir sözlə, fasiləsiz olaraq işlər davam etdirilir. Qürurverici haldır ki, bütün bu işləri  biz özümüz – xalqımız həyata keçirir.

Qarabağ Dirçəliş Fondunun belə əhəmiyyətli konfransa öz dəstəyini göstərməsi əlbəttə ki, təsadüfi deyil. Yəqin ki, hər kəs bu fikirlə razılaşar ki, dirçəliş təkcə beton, kərpic, sement demək deyil. Dirçəliş həm də insan kapitalı deməkdir. İnsan kapitalının inkişaf etdirilməsi də möhtərəm cənab Prezidentin siyasətinin çox vacib elementidir. O, öz çıxışlarında bunu xüsusən dəfələrlə vurğulayıb.

Dirçəliş həm də inkişaf, o cümlədən iqtisadi inkişaf deməkdir. Məndən öncəki çıxışçıların da qeyd etdiyi kimi bu, müəyyən bacarıqlar deməkdir. Həmin bacarıqların inkişafı isə olduqca vacibdir. Mən az öncə burada səsləndirilən fikirlərlə tam razıyam ki, elmi bünövrəsi, elmi əsası olmadan heç bir dayanıqlı inkişafdan söhbət gedə bilməz.

Qarabağ Dirçəliş Fondu yaranarkən Cənab Prezident tərəfindən Fondun qarşısına qoyulan ən mühüm vəzifələrdən biri işğaldan azad edilən ərazilərin dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsində dəstəyin göstərilməsi idi. Bu da öz növbəsində o deməkdir ki, burada elm icmasının töhfəsi çox böyük ola bilər. Bir daha qeyd etmək istəyirəm ki, bizim üçün  məhz bu elmi konfransı dəstəkləmək olduqca əhəmiyyətlidir. Fürsətdən istifadə edərək təklif edirəm ki, bu konfrans yalnız bir tədbir ilə məhdudlaşmasın, hər il ənənəvi olaraq keçirilsin.

Hörmətli həmkarlar, zərərin həcmi bariz şəkildə göstərir ki, bizim qarşımızda həqiqətən də mürəkkəb işlər dayanır. Təsadüfi deyil ki, "Böyük Qayıdış" möhtərəm cənab Prezident tərəfindən imzalanmış “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı sənəddə beş mühüm prioritetdən biri kimi müəyyən edilib. Bu isə o deməkdir ki, qarşıda dayanan bu mühüm vəzifələr həyata keçirilərkən elmi tədqiqatlara da yer verilməlidir.  Arzu edirəm ki, bu konfrans Qarabağın dirçəlişi prosesində görüləcək işlərə töhfə verə bilən bir platformaya çevrilsin.

Burada Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü, bizim ağsaqqalımız Ədalət müəllim əyləşib. Elm, tədqiqat, təhlil istiqamətləri bu yaxınlarda Müşahidə Şurası tərəfindən təsdiq edilmiş Fondun yaxın gələcək üçün nəzərdə tutulan fəaliyyət istiqamətlərini əks etdirən sənədin vacib bir hissəsidir və biz bu yaxınlarda artıq elm icması üçün, alimlər üçün qrantlar ayırmağa başlayacağıq. Bu layihə çərçivəsində universitetlərlə bərabər Qarabağın gələcəyi ilə bağlı elmi işlərin, elmi məqalələrin yazılmasına xüsusi qrantlar ayıracağıq. Əsas məsələ ondan ibarətdir ki, bu, yalnız bir illik proqram şəklində nəzərdə tutulmur, əksinə uzun müddət ərzində davam etdiriləcəkdir.

Qeyd edim ki, Fond olaraq Qarabağla bağlı təşəbbüsləri və təklifləri dəstəkləməyə hazırıq. Qarabağ Dirçəliş Fondu cəmiyyətin bütün üzvləri üçün açıq bir platformadır.

Fikrimcə, biz Qarabağı həmrəylik göstərərək daha da gözəl bərpa etməliyik. Baxmayaraq ki, Qarabağ doğrudan da Azərbaycanın ən gözəl guşələrindən biri idi, amma gələcəkdə bura daha gözəl, daha dayanıqlı, daha yaşıl olacaq. Bu gün möhtərəm cənab Prezidentin səsləndirdiyi fikirlər, onun tapşırıqları əsasında aparılan işlər bunu deməyə əsas verir.

"Böyük Qayıdış" proqramı çərçivəsində kompleks tədbirlər həyata keçirilir, müasir texnologiyalara əsaslanan “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin icrasına başlanılıb. Ağıllı şəhərlərdə ağıllı sakinlər yaşamalıdır və həmin şəhərlər ağıllı adamlar tərəfindən idarə olunmalıdır. Yəni, bu o deməkdir ki, burada elmin rolu, elmin potensialı həqiqətən də çox böyük əhəmiyyət kəsb edir.

Dəyərli elm adamları, siz olmadan bütün bu işləri həyata keçirmək mümkün deyil, buna görə sizə işlərinizdə uğurlar arzulayıram. Biz isə öz növbəmizdə həmişə sizin yanınızda olmağa hazırıq.

Arzu edirəm ki, növbəti konfranslardan birini artıq bu gün bizə təqdim edilən baş planda əks olunan gözəl, yeni Ağdamda keçirək.

**Çox sağ olun, hamınıza uğurlar arzu edirəm.**

## Prof. Nazim Müzəffərli (İmanov)

AMEA İqtisadiyyat İnstitutunun Baş direktoru

→

# Hörmətli həmkarlar, əziz dostlar!

30 illik işğaldan sonra bu gün Qarabağ torpağında ilk Beynəlxalq elmi tədbir keçirilir. Bu möhtəşəm tədbirdə, bizim üçün tarixi sayıla biləcək bir gündə konfransın iştirakçılarını və təşkilatçılarını İqtisadiyyat İnstitutu adından salamlamaqdan duyduğum sevinci, qüruru və həzzi sözlə ifadə eləmək çətindir. Qəhrəman Əsgərimizə eşq olsun! “Əsgər” sözünü böyük hərflə dedim, yəni sıravi döyüşçüdən Ali Baş Komandana qədər Silahlı Qüvvələrimizin bütün heyətini, bu tarixi Qələbəyə silahı, canı-qanı ilə töhfə vermiş hər kəsi nəzərdə tuturam. Qarabağa xoş qayıtmışıq! Əbədi qayıtmışıq! Və bu gün, buralarda yüzilliklər uzunu şad-xürrəm yaşamaq üçün ərazilərimizi nə vaxt və necə həyata qaytaracağımızdan, nə cür bir iqtisadiyyat quracağımızdan və onu necə quracağımızdan danışıb, müzakirələr aparacağıq. Əminəm ki, ölkəmiz üçün gərəkli, faydalı ideyalar eşidəcəyik və onları dövlət qurumlarımıza da təqdim edəcəyik.

Bizi Bərdədən Ağdama “gətirən” yolun nə qədər yüksək bir səviyyədə inşa edildiyini hamımız gördük. Digər bərpa işləri də eynən belə yüksək səviyyədə aparılır və aparılacaq. “Biz Qarabağı təkcə Azərbaycanın yox, dünyanın ən gözəl güşələrindən birinə çevirəcəyik!”, “Biz Qarabağda cənnət yaradacağıq!” kimi bəyanatları ilə cənab Prezident əslində bərpa və yenidənqurma standartlarını müəyyənləşdirib. Olduqca yüksək standartlardır. Mənim təəssüratıma görə, istər indi gerçəkləşdirilməkdə olan infrastruktur quruculuğuna, istərsə də sonrakı bərpa və yenidənqurma işlərinin planlaşdırılmasına – ən kiçik və ilk baxışdan az əhəmiyyətli kimi görünən detalları ilə – cənab Prezident özü şəxsən rəhbərlik və nəzarət edir. Və bu işi sevə-sevə, zövq ala-ala görür.

Təəssüf ki, elmi ictimaiyyət, xüsusilə də iqtisadçılar Qarabağdakı bərpa və yenidənqurma fəaliyyətlərinə hələ yetərli töhfə verə bilmir, halbuki istər planlaşdırmanın keyfiyyəti, istərsə də ictimai inklüzivlik baxımından buna ciddi ehtiyac var. Aşkardır ki, burada iqtisadçıların görə biləcəyi və görməli olduğu xeyli işlər var. Məsələn, Qarabağın (yaxud onun ayrı-ayrı bölgələrinin – tutalım, Ağdamın) gələcək iqtisadiyyatının sahə strukturu, texnoloji səviyyəsi, iqtisadiyyat quruculuğu xərclərinin optimallaşdırılması və maliyyələşmə mənbələri, buradakı biznes imkanları haqqında elmi tədqiqatlar aparmaq, mövcud bilikləri sistemləşdirmək, Qarabağın ölkə iqtisadiyyatına verəcəyi töhfəni detalları ilə qiymətləndirmək olduqca vacibdir. Və aydın məsələdir ki, bunlar, araşdırılması zəruri olan iqtisadi problemlərin kiçik bir qismidir. İqtisadçılar öz ideyaları, təklifləri və tövsiyələri ilə bərpa və yenidənqurma işlərini koordinasiya etmək üçün yaradılmış Əlaqələndirmə Qərargahını, necə deyərlər, “bombardman” etməlidirlər. Hələlik bunlar baş vermir və konfransın keçirilməsində əsas məqsədlərdən biri də bu fəaliyyətləri stimullaşdırmaqdır.

Bir qədər “kobud” təsnifat olsa da, ümumən demək mümkündür ki, Qarabağın gələcək iqtisadiyyatı 3 hissədən ibarət olacaq.

Onların birincisi – iqtisadiyyatın bu bölgə üçün ənənəvi sayıla biləcək sahələridir. Bura kənd təsərrüfatı – həm əkinçilik, həm də maldarlıq – və kənd təsərrüfatı məhsullarının ilkin emalı daxildir. Kənd təsərrüfatı üçün Qarabağın böyük potensialı var: torpaq münbit, su nisbətən bol, iqlim əlverişlidir. Qarabağ camaatının ta qədimdən oturuşmuş əkinçilik və maldarlıq ənənələri var və bunlar köçkünlük dövründə

itirilməyib, əksinə bəlkə daha da güclənib. İşğala qədər Qarabağ ölkəmizin taxıl və üzüm istehsalı üzrə aparıcı bölgələrindən biri olub və əminəm ki, yenə də olacaq, kənd təsərrüfatı məhsulları ilə təkcə özünü, yəni öz əhalisini təmin etməklə durub-dayanmayacaq, ölkəmizin başqa bölgələrinə də göndərəcək, xarici ölkələrə də ixrac edəcək. Artıq Bakıda Kəlbəcər balı satılır – nə ətrindən, nə dadından doymaq mümkün deyil. Gün gələcək ki, uzaq-uzaq ölkələrdə də satılacaq. “Ənənəvi iqtisadiyyat”ın quruculuğu məsələləri ilə, onu proqnozlaşdırmaq və planlaşdırmaqla bir sıra dövlət orqanlarımız və ilk növbədə, əlbəttə ki, Kənd təsərrüfatı nazirliyi çox fəal surətdə məşğul olur.

İkinci hissə – yeraltı resursların hasilatıdır. “Qarabağın təbii resursları” deyəndə göz önünə dərhal qızıl və mis gəlir. Bunlar, şübhəsiz, çox əhəmiyyətlidir, amma bərpa və yenidənqurma baxımından daha vacibi – inşaat materiallarıdır. Tikinti üçün lazım olan əksər xammal növlərini Qarabağın özündə hasil etmək imkanı var. İndi qonağı olduğumuz şəhərin adı təsadüfən “Ağdam” qoyulmayıb ki?! Buranın dümağ rəngli tikinti daşı aləmdə məşhurdur. Pənahəli xanın Şahbulaq qalası da, divanxanası da o daşla hörülüb. İnşaat materialları sənayesi Qarabağda bir növ “avtomatik rejimdə” inkişaf edəcək, çünki irimiqyaslı yenidənqurma başlayandan sonra bu materiallara böyük tələb yaranacaq, burda ola-ola onların kənardan gətirilməsi bahalı və iqtisadi cəhətdən səmərəsiz bir iş olacaq. Yəni inşaat materialları istehsalı o qədər rentabelli olacaq ki, necə deyərlər, özü özünü artırıb-böyüdəcək.
Və nəhayət, Qarabağda qurulacaq yeni iqtisadiyyatın üçüncü hissəsi innovativ müəssisələrdən ibarət olacaq. Bu, yeni iqtisadiyyat quruculuğunun ən çətin, amma olduqca vacib tərkib hissəsidir. İdeal halda söhbət, təkcə Azərbaycan üçün deyil, dünya üçün, ən azı, mənsub olduğumuz region üçün yeni, qabaqcıl sayıla biləcək müəssisələrdən gedir. Qətiyyən təsadüfi deyil ki, konfransımızın Təşkilat komitəsinin plenar iclasa tövsiyə etdiyi 3 məruzənin ikisi innovativ rəqəmsal iqtisadiyyatla bağlıdır.

Əlbəttə, Qarabağda istər ənənəvi sahələrdə, istər inşaat materialları sektorunda innovativ texnologiyalardan istifadə oluna bilər və olunacaq. Belə demək mümkündür ki, bölgə üçün ənənəvi olan kənd təsərrüfatının özü ənənəvi kənd təsərrüfatı olmayacaq və innovativ üsullara söykənəcək. “Ağıllı kənd təsərrüfatı” sözü məhz buna işarədir. Rəqəmsal texnologiyaların tətbiqi üçün burada sonsuz imkanlar var. Söhbət, məsələn, əkinçilikdə əksər proseslərin “kompüterləşdirilməsindən” gedir. Bu halda torpağın tərkibinə və nəmliyinə kompüterlər nəzarət edir, almalı olduğu suyun həcmi, gübrənin tərkibi və miqdarı avtomatlaşdırılmış idarəetmə sistemləri tərəfindən müəyyənləşdirilir və bu sistem, necə deyərlər, suyun qabağını özü açıb-bağlayır. Burada insanın rolu və funksiyaları tamamilə fərqlidir. Amma hər necə olsa, kənd təsərrüfatı iqtisadiyyatın ənənəvi sahələrindən biri olmaqdan çıxmır. Biz iqtisadiyyatın innovativ sahələri dedikdə prinsipcə yeni, əvvəlkilərlə müqayisədə qat-qat daha intellekt tutumlu məhsulların və əsasən də xidmətlərin istehsalını nəzərdə tuturuq.

Bu tipli müəssisələrin yaradılması və inkişaf etdirilməsi daha bir cəhətdən əhəmiyyətlidir. Çoxlarınız bilirsiniz ki, hazırda ADA Universitetində formalaşdırılmış böyük bir tədqiqat qrupu Qarabağa repatriasiyanın effektiv təşkili üzrə araşdırma aparır. Yeri gəlmişkən, plenar iclasa çıxardığımız üçüncü məruzə məhz o tədqiqatın nəticələri ilə bağlıdır. Həmin araşdırma açıq-aşkar göstərir ki, Qarabağa qayıtmaq əzmində olan bir çox insanlar, xüsusilə də gənclər daha müasir, belə demək mümkünsə, daha “sivil” müəssisələrdə çalışmaq istəyirlər, kreativ işlərlə məşğul olmaq arzusundadırlar. Gözlənti belədir. Həmin gənclərimizin məşğulluğunu təmin etmək, onları Qarabağda məskunlaşmağa sövq etməkdən ötrü innovativ müəssisələrin, ilk növbədə də yeni məhsul və xidmətlər buraxan innovativ sahələrin inkişafı şərtdir.

Qarabağda iqtisadiyyatın ənənəvi sahələri ilə innovativ sahələr arasında düzgün müvazinət, yəni balans yaratmaq mürəkkəb olduğu qədər də vacib bir elmi problemdir. Biz plenar iclasda əsas ağırlığı innovativ iqtisadiyyata versək də, konfransın gedişində, çıxışlarda yeni iqtisadiyyat quruculuğunun bütün problemlərinə, o cümlədən ənənəvi sahələrin formalaşdırılması məsələlərinə də toxunacağıq.
Hörmətli həmkarlar, bildiyiniz kimi, bu konfrans 4 təşkilatın əməkdaşlığı sayəsində ərsəyə gəlib: Azərbaycan Respublikası Prezidentinin

Ağdam rayonu üzrə xüsusi Nümayəndəliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Qarabağ Dirçəliş Fondunun və mənim təmsil etdiyim İqtisadiyyat İnstitutunun. Maraqlısı odur ki, bizim, yəni İqtisadiyyat İnstitutunun öhdəsinə düşən əsas iş digər təşkilatçılarla birlikdə konfransın məzmunu ilə, dəbdə olan sözlə ifadə etsəm, kontentlə bağlı məsələləri həll etmək olub. Sırf təşkilati işlərə biz, demək olar ki, qarışmamışıq. Alimlərimiz üçün bu, hədiyyə kimi bir şeydir. Qarabağ Dirçəliş Fonduna maliyyə problemlərinin həllini öz üzərinə götürdüyünə görə, Təşkilat komitəsinin sədri olaraq, ayrıca təşəkkür etmək istərdim. Açığı, alimlərimizin – əlbəttə, təkcə iqtisadçıların yox, hamısının – bu cür təşkilati-maddi dəstəyə çox ciddi ehtiyacı var. Biz unutmamalıyıq ki, ölkəmizin gələcəyi elmlə, maariflə birbaşa bağlıdır. Döyüş meydanlarında müharibəni udmağımız nə qədər böyük nailiyyət olsa da, ölkələrarası rəqabət davam edir və həmişə edəcək. Bu rəqabətdə elmi, texnologiyaları irəli aparmağı bacaran və bunun üçün təhsil sistemini uğurla inkişaf etdirən millətlər önə çıxacaqlar. Biz, aydın məsələdir ki, onların sırasında olmağa çalışmalıyıq.

Konfransımızın daha bir özəlliyi ondadır ki, o, elmi ictimaiyyətlə dövlət məmurları arasında işbirliyinin əyani nümunəsidir. Açıq danışmaq lazımdır: hazırda bu iki çevrə arasında işbirliyi arzu olunandan çox-çox zəifdir, bunlar bir-birini bir sıra hallarda heç “bəyənmir”. Bəzən məmurlar elm adamlarını real həyatdan uzaq, “heç kəsə lazım olmayan”, nəticəsiz tədqiqatlar aparmaqda günahlı bilir, elm adamları isə düşünür ki, bir çox məmurların verdiyi qərarlar elmi əsaslara söykənmədiyi üçün xeyirdən çox ziyan gətirir. Dövlət məmurları ilə elm adamları bir araya gələndə, birlikdə çalışanda, problemlərin həllini birlikdə axtarıb-tapanda hər iki tərəf bu cür “ifratçı” baxışların nə qədər yanlış olduğunu əyani şəkildə görə bilir. Düşüncə tərzindəki belə dəyişikliyi biz bu konfransa hazırlıq mərhələsində müşahidə etdik və əminəm ki, konfransın gedişində də müşahidə edəcəyik.

Dövlət qurumları ilə elmi ictimaiyyət arasında əməkdaşlığın gücləndirilməsi Qarabağın bərpası, buradakı yeni iqtisadiyyat quruculuğu kontekstində xüsusilə aktualdır. Mənim müşahidələrimə görə, Qarabağın bərpası və yenidən qurulması ilə bağlı fəaliyyətlər başlayandan sonra ölkəmizin dövlət qurumları arasında üfüqi əlaqələr və koordinasiya xeyli güclənib. Əlaqələndirmə qərargahı nəzdindəki İdarələrarası mərkəzin işçi qrupları müxtəlif məsələlər üzrə qurumlararası razılaşdırmaları yetərincə operativ sona yetirir. Amma (yenə də mənim təəssüratıma görə) ekspert icması yenidənqurma problemlərinin həllinə hələ kifayət qədər fəal qoşula bilməyib. Qarabağın işğaldan azad edilməsi Azərbaycan alimləri üçün yeni meydan açıb. Özü də bu təkcə iqtisadçı alimlərə aid deyil. Ölkəmizdə elmin müxtəlif sahələri üzrə ixtisaslaşan onlarla elmi müəssisə var. Həmin müəssisələrdə yüzlərlə bilikli, qabiliyyətli insan çalışır. Dünya səviyyəli alimlərimiz var. Onların Qarabağdakı bərpanın proqramlaşdırılmasına, yeni iqtisadiyyat quruculuğuna fəal şəkildə cəlb edilməsi lazımdır. Dövlət qurumlarının onlarla “danışmasına”, onlara konkret sifarişlər verməsinə ehtiyac var. Bunun üçünsə dövlət qurumları ilə elmi təsisatlar arasında əməkdaşlıq, təkrar da olsa, son dərəcə əhəmiyyətlidir.

Əlbəttə, ola bilər ki, konfransda alimlərimizin səsləndirəcəyi hansısa fikirlər buradakı dövlət məmurlarına qeyri-adi, “qəribə” gəlsin. Nələrləsə razılaşmasınlar. Amma alimin funksiyası elə budur ki, əksəriyyətin bildiyindən, adət etdiyindən fərqlənən, heç kəsin ağlına gəlməyən ideyalar irəli sürsün, insanları düşünməyə, axtarmağa sövq etsin. Bütün yeni ideyalar dərhal işə yaramır ki. Bir konfransda səslənmiş on fikirdən bircəciyi kara gəlsə, yenə uğurdur. Qısası, bir araya gəlməyimizi, buradakı formal və qeyri-formal ünsiyyəti vacib hadisə hesab edirəm və ümidvaram ki, təməlini qoyduğumuz bu əməkdaşlıq davamlı olacaq.

Sonda onu da deyim ki, konfransın mövzusunu müəyyənləşdirərkən “hədəf ərazi” qismində Ağdamı seçməyimiz, əlbəttə, təsadüfi deyil. Bunun 3 səbəbi var. Birincisi, ölkənin (və potensial olaraq, Türk dünyasının) mədəniyyət mərkəzinə çevriləcək Şuşa şəhərinin əlahiddəliyini, xüsusiliyini nəzərə aldıqda, Ağdam rayonu, bərpası fəal surətdə başlamış ilk post-konflikt ərazidir. İkincisi, Ağdamın iqtisadiyyatı təkcə ənənəvi (keçmişdə Qarabağ üçün tipik olan) sahələrlə deyil, həm də yeni, öncül texnologiyalara əsaslanan innovativ müəssisələrlə təmsil olunacaq. Ağdam Qa-

rabağın sənaye mərkəzinə çevriləcək. Onun bərpası digər bölgələrin də bərpasına “stimullaşdırıcı impulslar” verəcək. Üçüncüsü, artıq burada Azərbaycan Respublikası Prezidentinin xüsusi Nümayəndəliyi fəaliyyət göstərir.

Bununla belə, ümidvaram ki, Ağdamın gələcək iqtisadiyyatı haqqında deyiləcək bir çox fikirlər Qarabağın hamısı üçün aktual və faydalı olacaq. Və onu da nəzərə alaq ki, məruzə və çıxışlar təkcə Ağdamı əhatə etməklə kifayətlənməyəcək.

**Konfransın işinə uğurlar arzulayıram!**

Dediyim kimi, plenar iclasda 3 məruzə dinləyəcəyik. Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradov “İnnovativ və rəqəmsal Qarabağ iqtisadiyyatı: konseptual baxış” mövzusunda, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov “Qarabağda innovativ iqtisadi sahələrin inkişaf potensialı və perspektivləri” mövzusunda, İqtisadiyyat İnstitutunun “Post-konflikt ərazilərin bərpası” Elmi mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayev “Post-konflikt ərazilərin effektiv məskunlaşdırılması məsələləri” mövzusunda məruzə edəcəklər.

**İzninizlə, məruzəçiləri səhnəyə dəvət edirəm.**

# məruzələr

**MURADOV Ədalət**
i.e.d., prof., Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru

# İNNOVATİV VƏ RƏQƏMSAL QARABAĞ İQTİSADİYYATI: KONSEPTUAL BAXIŞ

**Xülasə:** Məruzədə Qarabağın gələcək rəqabətli inkişafının rəqəmsallaşmadan asılı olduğu vurğulanır. Müəllif rəqəmsal Qarabağın formalaşdırılması üçün rəqəmsal infrastrukturun və rəqəmsal savadlılığın təmin edilməsinin zəruriliyini qeyd edir. Eyni zamanda məruzədə Qarabağın gələcək innovativ inkişafına nail olunması üçün Qarabağ Universitetinin mərkəzi rol oynayacağı Qarabağ-Elm-Təhsil-İnnovasiyalar Vadisinin yaradılması təklif edilir.

**Açar sözlər:** Qarabağ iqtisadiyyatı, rəqəmsal Qarabağ, Qarabağ-Elm-Təhsil-İnnovasiyalar vadisi, rəqəmsal infrastruktur, rəqəmsal savadlılıq

## Giriş

Mən ilk növbədə bir Ağdamlı olaraq, hər birinizə Ağdama xoş gəlmisiniz deyirəm. İqtisad Universitetinə və mənə şəxsən yer ayırdıqları üçün, Konfransın təşkilatçılarına dərin minnətdarlığımı bildirirəm.
Biz bu gün Ağdamdayıq. Mən Ağdama gələrkən yolda 2 sözdən ibarət bir status paylaşdım: “Gedirəm Ağdama” və oxucuların çox dəstəyini qazandım. Yəqin ki, bir neçə il bundan əvvəl heç kim, bunu xəyalına belə gətirə bilməzdi. Biz bu gün Ağdamdayıq. Bizə Ağdamda bu tədbiri keçirməyə, öz evimizdə hiss etməyə şərait yaradan şübhəsiz ki, Ali Baş Komandan cənab İlham Əliyevdir.
Biz zəfər çaldıq. Bu zəfər uzun illər boyu Azərbaycanda həyata keçirilmiş iqtisadi siyasət, dövlət quruculuğu, ordu quruculuğu siyasətinin, Ulu Öndər Heydər Əliyev strategiyasının, bu strategiyanı uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev siyasətinin zəfəridir. Bu zəfər canını və qanını Qarabağ torpağına qatmış şəhidlərimizin zəfəridir. Mən hər bir şəhidin ruhu qarşısında baş əyirəm. Bu zəfər Azərbaycan xalqının və Azərbaycan Ordusunun zəfəridir.
İşğal dövründə Azərbaycan xalqı belini bükmədi və başını dik tutdu, özünə inamını itirmədi. Biz güclü xalqıq, bizim güclü ordumuz var, güclü Prezidentimiz var. Mən əminəm ki, Azərbaycanı Qarabağın bərpasında da olduqca çox və çox qısa bir vaxt ərzində uğurlar gözləyir. Ağdam sovetlər dövründə Azərbaycanın inkişaf etmiş rayonlarından biri olub, ola bilsin hətta ən inkişaf etmiş rayonu olub. Ağdamın qüdrəti haqqında, inkişafı haqqında Azərbaycanda hamı bilirdi. Bu gün Ağdamın həmin o qüdrətindən heç bir əsər-əlamət qalmayıb. Ağdamı Qafqazın Xerosimasına bənzədirlər. Və bu, həqiqətdir. Amma, bizi Ağdamın sabahı da gözləyir. Ölkə başçısının dediyi kimi, “Ağdamın sabahı cənnət olacaq”. Amma cənnət Ağdamı biz Sovet Ağdamı kimi təsəvvür etmirik. Mən bu gün cənnət olacaq Ağdam haqqında danışacağam.

### Ağdamın sabahı: innovativlik, rəqəmsallaşma

Ağdamın sabahının necə olması Azərbaycanda bu gün həyata keçirilən iqtisadi siyasət tədbirlərinin təhlilindən görünür. Bütövlükdə qlobal inkişafda əsas prioritet hazırki dövrdə rəqəmsallaşma və innovasiyaya söykənməkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il dekabr ayında Davosda imzaladığı memorandumda Davos İqtisadi Forumunun Azərbaycanda, Bakıda

Regional ofisinin açılmasına dair razılıq əldə edildi. Qarabağ işğaldan azad olunduqdan sonra cənab Prezident Qarabağın bərpası istiqamətlərini, konturlarını bəyan etdi: “Ağıllı şəhər”, “Ağıllı kənd”, “Yaşıl enerji”.

Bu il 2 fevralda “2030 prioritetlərinə dair”cənab Prezidentin imzaladığı sənəddə rəqabətli insan kapitalı, dayanıqlı iqtisadi artım və müasir innovasiyalar məkanı prioritetlər sırasında vurğulanır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan hökuməti Qarabağın gələcəyini innovativ, rəqəmsal Qarabağ kimi görür. Biz əminik ki, bu doğrudur, bu, alternativi olmayan həqiqətdir və alternativi olmayan yanaşmadır. Bir sözlə, hədəfdə rəqəmsal Qarabağdır. Nə üçün Qarabağ rəqəmsal olsun? Biz düşünürük ki, Azərbaycan neft ölkəsidir. Neft ölkəsinin, neftin Azərbaycan iqtisadiyyatına verdiyi böyük üstünlüklər və perspektiv baxımdan yarada biləcək təhlükələr haqqında biz hər birimiz məlumatlıyıq. Klassik iqtisadi nəzəriyyədə bu resursların tükənməsini əsas götürür və iqtisadçılar qarşısında da bu vəzifəni qoyur ki, o tükənən resursların səmərəli istifadəsi təşkil edilsin. Amma informasiya və verilənlər bazası klassik iqtisadiyyat dediyinin tamamilə əksini sübut edir. Burda resurslar tükənmir. Burada resurslar informasiya və verilənlər istifadə edildikcə artır. Ona görə də bu üstünlüyü və bu resursu yaratmaq lazımdır və təsadüfi deyil ki, verilənlər, informasiya rəqəmsal iqtisadiyyatın nefti kimi qiymətləndirilir. Şübhəsiz ki, rəqəmsallaşma iqtisadi artımın sürətini və keyfiyyətini təmin edir.

Rəqəmsal iqtisadiyyat regiona investisiyaların, maliyyə və insan resurslarının, rəqabət qabiliyyətli insan resurslarının cəlb edilməsi baxımından əvəzsizdir. Rəqəmsal iqtisadiyyatda xarici ticarətin sürətləndirilməsi və genişləndirilməsi gözlənilir. Rəqəmsal və logistik infrastrukturun qurulması, günün istənilən vaxtına ticarət əməliyyatlarının aparıla bilməsi ilə ticarət dövriyyəsi artır, rəqabət güclənir. Rəqəmsal iqtisadiyyat C.Keynsin tələbə fokuslandığı kimi tələbə fokuslanmır. Bu daha çox iqtisadiyyatın təklif hissəsinə fokuslanır.

Müasir texnologiyaların tətbiqi nəticəsində iş axtaranlar üçün zaman və məkan anlayışı ortadan çıxır. Bu, Qarabağ üçün xüsusilə önəmlidir. Çünki Qarabağda Azərbaycanlılarla yanaşı, digər millətlər də yaşaya bilir və yaşayırlar. Qarabağın relyefini də nəzərə alsaq, bu regionda bütövlükdə rəqəmsallaşma bütün millətdən olan Azərbaycan vətəndaşlarının həmin xidmətlərə əlçatanlığını təmin edə bilir, o cümlədən də ermənilərin.

Rəqəmsallaşma nəticəsində regionlar arasında fərqlər demək olar ki, aradan qaldırılır və nəsillər arasında həmrəylik güclənir. Biz azərbaycanlılar böyüklərə hörmətimizlə seçilirik. Biz hər zaman, hər hansı bir uğurumuz olan zaman bölüşmək üçün böyüklərin yanına gedirik. Rəqəmsal iqtisadiyyat bunu dəyişir, rəqəmsal iqtisadiyyatda böyüklər yaşda kiçik olanların yanına gəlir. Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, Azərbaycan millət olaraq yaşda kiçik olanlar böyüklərə ehtiramını, etimadını azaltmırlar. Rəqəmsallaşma Azərbaycan millətinin, Azərbaycanın müxtəlif nəsillərinin həmrəyliyini gücləndirəcək.
Qarabağı rəqəmsallaşmanı həyata keçirmək üçün 2 əsas vəzifə qarşıya qoyulur.
Birincisi, rəqəmsal infrastruktur. Fiziki infrastruktur çox yaxşıdır, şübhəsiz ki, belə də olmalıdır və biz bunun şahidiyik. Amma rəqəmsal infrastruktur qurulmalıdır. Bu, ilk növbədə çox sadə görünən və həlli də çox sadə olan, amma böyük maliyyə tutumu tələb edən sürətli və keyfiyyətli internetdir.
İkincisi rəqəmsal savadlılıqdır. Burada söhbət təkcə istehsalçılardan yox, daha çox istehlakçıların rəqəmsal savadlılığından gedir.
Birinci təklifimiz ondan ibarətdir ki, Qarabağda „Qarabağ-Elm-Təhsil-İnnovasiyalar“ vadisi qurulsun. Bu vadinin əsasında Qarabağ Universiteti dayanmalıdır. Universitetin təşkilati forması tamamilə yeni olan Multiversitet kimi olsun. Müxtəlif universitetlərin, müxtəlif istiqamətlər üzrə fəaliyyəti Qarabağ Universitetində mərkəzləşsin və təhsilin bütün pillələri Qarabağ Universitetində (bir, iki, dörd illik və s.) təmin edilsin. Qarabağ Universiteti bu gün digər universitetlərdən fərqli, rəqəmsal Qarabağın tələblərinə cavab verən tamamilə yeni ixtisaslar üzrə mütəxəssis hazırlığı həyata keçirməlidir.

Qarabağ-Elm-Təhsil-İnnovasiyalar vadisində rəqəmsal istiqamətlər üzrə müasir texnopark və innovativ həllər üzərində çalışan müasir laboratoriyalar qurulmalıdır. Bundan başqa dünyada ən son innovasiyaları, smart millət, smart ölkə, smart şəhər modelini, bütövlükdə rəqəmsallaşmanın tətbiqi sahəsində ən son

yenilikləri nümayiş etdirmək üçün sərgi salonları yaratmaq lazımdır.

Vadi daxilində informasiya texnologiyaları təmayüllü məktəblərə geniş yer verilməlidir ki, gələcəkdə ölkə üçün tələb olunan mütəxəssislər burada hazırlansın. Həmin vadi daxilində müasir tələblərə cavab verən, 24 saat fasiləsiz xidmət göstərən kitabxanalar qurulmalıdır. Kitabxananın zənginləşməsində Qarabağlılar fəal iştirak edə bilər. Hər bir Qarabağlı bir və iki ən müasir kitab həmin o kitabxanaya hədiyyə etməklə, qısa bir vaxt ərzində çox zəngin kitabxana qurula bilər. Bu vadi şübhəsiz ki, Qarabağ regionunda startaplar, akselerator və inkubatorlar mərkəzi funksiyasını öz üzərinə götürə bilər. Rəqəmsal iqtisadiyyat üzrə KOS üçün bu vadi daxilində təşviq sənədinin verilməsi məsələsinə baxıla bilər.

İkinci təklif ondan ibarətdir ki, rəqəmsal Qarabağla bağlı xüsusi bir dövlət proqramına ehtiyac var. Mövcud və məhdud resursların məqsədyönlü istifadəsini və səmərəliliyini təmin etmək üçün belə dövlət proqramı faydalı ola bilər. Dövlət orqanlarının, biznes, elm, təhsil və ekspert cəmiyyətinin əlaqəli fəaliyyətinin və daimi kommunikasiyasının təmin edilməsi olduqca önəmlidir.

Üçüncü təklifimiz isə həyata keçirilən tədbirlərin nəticəsinin və səmərəliliyinin qiymətləndirilməsinə imkan verən monitorinq və diaqnostika sisteminin qurulması ilə bağlıdır. Yəni bu və ya digər tədbirlər keçirildikdən, icra müddəti bitəndən sonra nəzərdə tutulmuş tədbirin nəticəsini qiymətləndirilməsi əvəzinə icra prosesində, həmin məsələyə mütəmadi olaraq diqqət yetirilməsini biz vacib hesab edirik.

Rəqəmsallaşma statistik göstəricilərə tələbi dəyişməklə yanaşı, həm də statistik göstəricilərin dəqiqliyini tələb edir. Tamamilə yeni göstəricilərə, tamamilə yeni keyfiyyət tələblərinə cavab verən statistik göstəricilərə ehtiyac var. Düşünürük ki, Qarabağın statistikası sıfırdan yaradılmalıdır. Artıq əvvəlki analoq statistik göstəricilərin Qarabağın bərpası prosesində istifadə edilməsini çox faydalı hesab etmirik. Statistik göstəricilərin dəqiqliyinin artırılması ilə verilənlər bazasının (Big Datanın) formalaşdırılması üçün etibarlı sistemin yaradılması diqqət mərkəzində olmalıdır. Biz Big Data dediyimiz verilənlər bazasını formalaşdırdıqdan sonra, bu yəqin 5, 7, 10 il sonra ola bilər və Qarabağ iqtisadiyyatının bütövlükdə təhlili, diaqnostikasını süni intellekt elementini daxil etməklə daha asanlıqla həll edə bilərik.

Həqiqət ondan ibarətdir ki, rəqəmsal iqtisadiyyatı formalaşdırmaq üçün mütəxəssis hazırlığını qısa bir vaxt ərzində təmin edə biləcək resursumuz yoxdur. Ona görə də dünya praktikasında qəbul olunmuş çox asan və sadə təcrübəyə əsaslanaraq İT sahəsi üzrə dünyada tanınmış transmilli şirkətlərin hökumət tərəfindən müəyyən edilmiş proqramları üzrə sertifikatını qazanmış qabiliyyəti və biliyi olan şəxslərin sertifikat xərclərini dövlət kompensasiya edə bilər. Bununla da çox qısa bir vaxt ərzində ölkədə bu sahədə böyük bir irəliləyiş əldə etmək olar. Rəqəmsal iqtisadiyyat artıq bir həqiqətdir, bir faktdır. Bu faktı qəbul edərək düşünürük və əminik ki, bütün ali təhsil müəssisələrində rəqəmsal bacarıqların formalaşdırılması üzrə kafedralar yaradılmalı, hər bir məktəbdə rəqəmsal bacarıqlar üzrə müvafiq fənnin tədris proqramına daxil edilməlidir.

**MURADOV Adalat**
Doctor of economics, prof. Rector of UNEC

## INNOVATIVE AND DIGITAL ECONOMY OF KARABAKH: A CONCEPTUAL PERSPECTIVE

**Summary:** The report emphasizes that the future competitive development of Karabakh depends on digitalization. The author highlights the need to provide digital infrastructure and digital literacy for the formation of digital Karabakh. The report also recommends the establishment of Karabakh-Science-Education-Innovation Valley, which is based on Karabakh University, for the future innovative development of Karabakh.

**Keywords:** Economy of Karabakh, Digital Karabakh, Karabakh-Science-Education-Innovation Valley, Digital infrastructure, Digital literacy.

## MUSAYEV Akif

prof., Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, AMEA-nin müxbir üzvü

# POST-KONFLİKT ƏRAZİLƏRİN EFFEKTİV MƏSKUNLAŞDIRILMASI

**Xülasə:** Məqalə post-konflikt ərazilərə repatriasiya potensialının proqnozlaşdırılması və effektiv məskunlaşdırma problemi, bu əsasda dövlət strukturlarının, beyin mərkəzlərinin həyata keçirdiyi layihə və onların nəticələrinə həsr edilib. Eləcə də, Qarabağın işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində xüsusi əhəmiyyəti olan tədqiqat istiqamətləri və bu problemlərin həllinə aparıcı elmi mərkəzlər və universitetlər tərəfindən elmi dəstəyin verilməsinin zəruriliyi əsaslandırılıb.

**Açar sözlər:** post-konflikt ərazilər, repatriasiya potensialı, proqnozlaşdırma, effektiv məskunlaşdırma, elmi dəstək.

## Giriş

Müstəqil və suveren Azərbaycan dövləti post-konflikt dövründə inkişafın keyfiyyətcə fərqli 2021–2030-cu illəri əhatə edən mərhələsinə daxil olur. Yeni strateji dövrdə dövlətin qarşında duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq olunmuşdur [1]. Qəbul edilmiş beş Prioritetin dördüncüsü “İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış” kimi müəyyən olunub. Dayanıqlı, artan rəqabətli iqtisadiyyat quruculuğunda 10 illik prioritetlərindən biri kimi bu istiqamətin qəbul olunması Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdən məcburi köçkün əhalinin ora qaytarılması və məskunlaşdırılmasına dövlətin nə qədər yüksək önəm verdiyinin bariz nümunəsidir.

Lakin aydındır ki, Post-konflikt ərazilərdə əhalinin effektiv məskunlaşdırılması bir tərəfdən həmin ərazinin bərpa və yenidən qurulmasından, digər tərəfdən isə bərpa və yenidən qurma ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çox mürəkkəb, çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlər işğaldan azad olmuş ərazilərə potensial (617 min əhali, 159 min aillənin) repatriantdan qayıdacaq əhalinin sayı və qayıdış şərtlərindən asılıdır.

Fövqəladə dərəcədə mürəkkəb və dövlət əhəmiyyətli olan repatriasiya potensialının proqnozunun müəyyən edilməsi Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının idarələrarası mərkəzinin nəzdində fəaliyyət göstərən "Akademik və Təhsil məsələləri” üzrə İşçi Qrupuna həvalə edildi və bu məqsədlə ADA Universitetinin nəzdində ADA, AMEA-nın İqtisadiyyat İnstitutu, UNEC, yerli və xarici beyin mərkəzlərinin aparıcı mütəxəssislərindən ibarət tədqiqat qrupu yaradıldı. Tədqiqatın elmi rəhbəri AMEA İqtisadiyyat İnstitutunun direktoru prof. N.Müzəffərli, layihənin icraçı direktoru ADA Universitetinin prorektoru F.İsmayılzadə, Supervayzeri Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzi nəzdində fəaliyyət göstərən Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupun rəhbəri, AR Birinci Vitse-prezidentinin köməkçisi E.Hüseynovdur.

Beynəlxalq təcrübə və işğal dövrünün xüsusiyyətlərindən məlumdur ki, repatriasiya prosesi uzunmüddətli, mərhələli və potensial repatriantların həm ümumi sayı, həm mərhələlər üzrə paylanması, həm də tərkibi zaman içində dəyişkənliyi, tədqiqatın mərhələlərlə aparılmasını tələb edir.

Tədqiqat qrupu tərəfindən repatriasiyanı proqnozlaşdırmanın zəruriliyi, repatriasiya problemini çətinləşdirən amillər, analoji tədqiqatların metodologiyası və beynəlxalq təcrübə təhlil edilərək müəyyən edildi ki, repatriasiya potensialının məcburi köçkünlər haqqında statistik informasiya əsasında qiymətləndirilməsi mümkün deyil. Ona görə də tədqiqatlar empirik üsullarla, əsas etibarilə sosioloji sorğular vasitəsi ilə aparılması qərara alındı.

**Sosioloji sorğular haqqında**

Sosioloji sorğularla potensial repatriantların yaş və ailə tərkibi, peşə-ixtisas hazırlığı kimi göstəricilərlə yanaşı, onların istək və ehtiyacları haqqında məlumatlar da (repatriasiyanın zəruri və kafi şərtləri) toplanacaqdır. Bununla bərabər, məcburi köçkünlərin məskunlaşdırılması sahəsində son 10-15 il ərzində Azərbaycanda toplanmış təcrübə, bu empirik tədqiqatlar, ümumən, repatriasiya prosesinin effektiv təşkili üçün strategiyanın və kompleks proqramların hazırlanmasına mühüm töhfə verə bilər. Eyni zamanda burada sorğunun formasının (üz-üzə və ya onlayn) və keçirilmə mexanizminin seçilməsi  və seçimin reprezentativliyinin təmin olunması kimi əsas məsələlər həllini tapmalıdır. Tədqiqat qrupu tərəfindən BMT-nin Qaçqınlar üzrə Ali Kommissarlığı tərəfindən geniş istifadə olunan, məcburi köçkünlərin vəziyyətini və repatriasiya ilə bağlı rəylərini öyrənməkdə universal üsul sayılan həm üz-üzə, həm də onlayn müsahibələrin keçirilməsi qərara alındı.

Sosial sorğuların (xüsusilə müsahibə sorğular) böyük qruplar arasında keçirilməsi zamanı fərdlərin hər biri ilə ayrılıqda müsahibə aparılması, onlardan məlumat toplanması praktiki olaraq mümkün deyil. Belə hallarda araşdırma (sorğu) aparılması nəzərdə tutulan qrupun müxtəlif meyarlar üzrə xüsusiyyətlərini özündə cəmləşdirən kiçik alt qrupun seçilməsi və sorğunun həmin qrupda reallaşdırılması daha məqsədəuyğundur. Reprezentativ seçim (qrup) əldə edilən məlumatların daha geniş kütləni əhatə edərək vaxt və maliyyə baxımından itkiyə yol vermədən qərar qəbul etməyə imkan verir.

Azərbaycanda rəsmi qeydiyyatda 617.500 (161 min ailə) məcburi köçkün əhali var və müsahibə sorğunun keçirilməsi bütün məcburi köçkünlərlə mümkün olmadığından onlar arasından cins tərkibi, yaş tərkibi, məşğulluq vəziyyəti, ailə vəziyyəti, yaşayış şəraiti və s. kimi meyarlar üzrə çoxkriteriyalı reprezentativ qrup seçmək zərurəti yaranır. Sorğunun keçirilməsi üçün seçilən respondentlər ayrı-ayrı fərdlər yox, ailə başçıları olaraq müəyyənləşdirilmiş, bir sıra təsadüfi seçmə üsullarından (sistemli seçmə və təbəqələşmiş seçmə) istifadə etməklə məcburi köçkünlərin yaşadığı 10 şəhər və rayon üzrə 1500 ailə seçilmişdir. Seçim Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) məlumat bazasından aparılmışdır. Onların hər biri ilə əlaqə yaradılaraq siyahı daha da dəqiqləşdirilərək 1135 respondent müəyyən edilmişdir. Şübhəsiz ki, qeyd olunan meyarların hər biri üzrə reprezentativliyin tam təmin olunması mümkün deyil, lakin tədqiqatı reallaşdıracaq səviyyədə olduğu test edildikdən sonra seçilmiş 1135 respondentlə müsahibə sorğu prosesi həyata keçirilmişdir.

Tədqiqat çərçivəsində 5 sosioloji sorğu keçirilməsi qərara alındı:

Potensial repatriantlar arasında 50-75 min respondentin iştirak edə biləcəyi kütləvi onlayn sorğu;

Seçilmiş potensial repatriantlar arasında hər birində 1000-1100 respondentin iştirak edəcəyi intervyu formalı 2 anonim sorğu;

Sahibkarlar (o cümlədən məcburi köçkün statuslu iş adamları) arasında hər birində 250-300 respondentin iştirak edəcəyi müsahibə formalı 2 anonim sorğu.

Artıq potensial repatriantların - Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (ARQMKİDK) qeydiyyatında olan məcburi köçkünlər arasından 60 min respondentin iştirak etdiyi kütləvi onlayn sorğu; seçilmiş potensial repatriantlar arasında 1000-1100 respondentin iştirak

etdiyi intervü formalı bir anonim sorğu və sahibkarlar (o cümlədən məcburi köçkün statuslu iş adamları) arasında 250-300 respondentin iştirak etdiyi intervü formalı bir anonim sorğu yekunlaşıb. Eyni zamanda birinci iki sorğunun nəticələri tam təhlil olunub, nəticələr qiymətləndirilib və hazırlanmış yekun hesabat ölkə rəhbərliyinə təqdim edilib. Üçüncü, yəni sahibkarlar arasında anonim keçirilən birinci sorğunun nəticələri hazırda emal olunur. Qeyd edim ki, rəyi soruşulan potensial repatriantların böyük əksəriyyəti ata-baba yurdlarına qayıtmaq əzmindədir. Bu istiqamətdə işlər davam etdirilir.

**Sorğu bir neçə vacib suala cavab verməlidir:**

- Keçmiş məcburi köçkün əhalinin neçə faizi işğaldan azad olunmuş ərazilərdə məskunlaşmaq əzmindədir;
- Məskunlaşmaq əzmində olan əhali harada məskunlaşmaq istəyir (işğaldan azad olunmuş ərazinin istənilən yerində yoxsa ata-baba yurdunda);
- Məskunlaşmaq əzmində olan əhalinin dövlətdən hansı gözləntiləri var;
- Məskunlaşmaq əzmində olan əhali məskunlaşmanın hansı mərhələsində məskunlaşmaq istəyir;
- Keçmiş məcburi köçkün əhalinin işğala qədərki əmlak vəziyyəti və əmlak aktı və s.

Sorğu anketinin tərtibi zamanı tətbiq olunan repatriantın iterativ hazırlanması metodologiyasında Boqardus (sosial məsafə) ölçməsindən [2], [3] istifadə olunmuşdur. Sorğunun nəticələrinin təhlili üçün isə tezlik cədvəlləri, statistik göstəricilər müəyyən edilmişdir. Nəticələrin təhlilində alternativ yanaşma kimi “Çoxraundlu Təhlil” [4] metodundan istifadə edilməklə də qiymətləndirmələr aparılmışdır. Qeyd edək ki, hər iki yanaşma ilə aparılan qiymətləndirmələrin nəticələri kiçik xətalarla üst-üstə düşür.

Məcburi köçkünlər arasında keçirilən müsahibə sorğunun nəticələri göstərdi ki, respondentlərin böyük əksəriyyəti qayıtmaq istərdinizmi sualına “bəli” cavabını verib. Bu cavabların dəqiqlik dərəcəsini yoxlamaq, respondentlərin hansı şərtlərlə qayıtmağa razı olduqlarını müəyyən etmək üçün Boqardus (sosial məsafə) ölçməsinin modifikasiya hazırlanmış və sorğuda istifadə edilmişdir.

1924-cü ildə Emory Boqardus tərəfindən hazırlanmış Boqardus metodu cəmiyyətin ayrı-ayrı üzvlərinin hər hansı məsələ ilə bağlı münasibətlərin öyrənilməsi məqsədilə istifadə olunan psixoloji ölçmə metodudur. Boqardus ölçməsi digər vasitələr arasında daha etibarlı hesab olunur, çünki respondentlər bura daxil olan hər bir suala cavab verirlər.

Modifikasiya olunmuş Boqardus ölçməsini tətbiq etməklə respondentlərin Qarabağa minimum hansı şərtlərlə qayıtmaq istədiklərini müəyyənləşdirmək, eləcə də qayıdışın mərhələlərini planlaşdırmaq mümkündür.

Məcburi köçkün statusuna malik şəxslərin işğaldan azad olunan ərazilərdə bərpa olunacaq yaşayış məntəqələrinə qayıdış istəyi barədə ictimai rəy müxtəlif dövlət qurumları və müstəqil təşkilatlar tərəfindən keçirilən sosioloji sorğularla müəyyən edilməyə, rəyə əsasən repatriasiya proqnozu verilməyə cəhd edilir. Lakin, bu yanaşma qüsurludur. Çünki, elmdə “Sosial arzuolunanlıqdan qaynaqlanan qərəzlilik (social desireblity bias)” kimi tanınan anlayışa görə insanlar bəzi hallarda “qarşısındakı şəxsə xoş görünmək” və ya “qınaqdan yayınmaq” üçün sorğuları cavablandırarkən qərəzli yanaşır. Həmçinin, bir şəxsin “qayıtmaq istəyirəm” deməsi də həmin şəxsin əminliklə potensial repatriant olduğuna qərar verməyə əsas vermir:

Respondentlər bəzi hallarda yalnız “istəyi” ifadə edir, bu düşünülmüş qərar deyil. Repatriasiya prosesi başlayanda bu kateqoriyaya aid şəxslərin geri qayıtmamaq qərarını verməsi ehtimalı böyükdür.

Respondentlərin bəzi hallarda Qarabağa qayıdıb məskunlaşmaq üçün zəruri hesab etdiyi “təminatlar” çox genişdir, yerinə yetirilməsi mümkün deyil.

Buna görə də, “qayıtmaq istəyən” respondentlərdən potensial repatriantların xüsusi metodoloji yanaşma ilə “fərqləndirilməsi” və repatriasiya proqnozunun buna əsasən verilməsi zəruridir. Ekspert yanaşması əsasında

repatriasiya proqnozunun dəqiqləşdirilməsi problemin "qismən həllinə" kömək edir. Subyektiv yanaşmanın təsirinin minimallaşdırılması və riyazi hesablamalara əsaslanan daha dəqiq proqnozun verilməsi məqsədəuyğundur. Bu isə ilk mərhələdə verilən cavablara baxaraq ekspertlərin subyektiv dəyərləndirməsinə əsaslanan "baza ssenari"nin müəyyən olunmasını, sonra isə "Çoxraundlu Təhlil" metodologiyası əsasında baza ssenaridə "potensial repatriant hesab olunan və olunmayanların" dəqiqləşdirilməsini zəruri edir.

"Çoxraundlu Təhlil" metodologiyası qiymətləndirilən logistik reqressiya modelinin xətasının hər növbəti raundda "korreksiya edilməsi" məntiqinə əsaslanır. Çünki, Maksimum Həqiqətə Oxşarlıq funksiyası əsasında aparılan reqressiya təhlili asılı dəyişənin spesifikasiyasına istinad edir. Başlanğıc olaraq modelin asılı dəyişəninin spesifikasiyası "baza ssenari" əsasında müəyyən edilir. Lakin, asılı dəyişənin kateqoriyalar (potensial repatriant "hesab edilənlər" və "hesab edilməyənlər") üzrə tərkibi subyektiv meyarlar əsasında müəyyən olunduğu üçün baza ssenaridə "potensial repatriant hesab edilməyən" çoxsaylı respondentin "əslində potensial repatriant olması" xətası var. Və əksinə, mümkündür ki, baza ssenaridə "potensial repatriant hesab edilən" bəzi respondentlər faktiki olaraq potensial repatriant olmasın. "Çoxraundlu təhlil"in əsas məqsədi hər raundda "potensial repatriant hesab edilənlər" siyahısında Maksimum Həqiqətə Oxşarlıq funksiyası əsasında "subyektivliyi" azaltmaq və həqiqi repatriantların siyahısını "müəyyən etməkdir".

İki kateqoriyalı logistik reqressiya analizində respondentlərin hər biri üçün ayrılıqda "potensial repatriant olma" ehtimalı hesablanılır. "Çoxraundlu Təhlil" metodologiyasına görə potensial repatriantların siyahısı hər rauntdan sonra respondentlərin "hesablanılan" potensial repatriant olma ehtimalı əsasında korreksiya edilir və "yenilənmiş siyahı" əsasında növbəti model qiymətləndirilir.

Korreksiya prosesinin daha dəqiq olması üçün potensial repatriantların siyahısı (modelin asılı dəyişəni) hər raundun sonunda aşağıdakı yanaşma əsasında "yenilənib":

Əvvəlki raundda qiymətləndirmə zamanı "potensial repatriant hesab olunan"lar arasından logistik reqressiya qiymətləndirməsi nəticəsində "Qarabağa qayıdıb məskunlaşmaq" ehtimalı 10-15%-dən az olanlar çıxarılaraq "potensial repatriant hesab edilməyən"lər kateqoriyasına əlavə edilir.

Əvvəlki raundda qiymətləndirmə zamanı "potensial repatriant hesab edilməyən"lər arasından logistik reqressiya qiymətləndirməsi nəticəsində "Qarabağa qayıdıb məskunlaşmaq" ehtimalı 85-90%-dən (1-4-cü raundlarda 90%, 5-22-ci raundlarda 85%-dən) çox olanlar çıxarılaraq "potensial repatriant hesab olunan"lar kateqoriyasına əlavə edilib.

Maksimum Həqiqətə Oxşarlıq Funksiyası əsasında yerinə yetirilən "Çoxraundlu Təhlil" hər raundda modelin "doğru təxminetmə dəqiqliyinin" artmasına səbəb olub. Logistik reqressiya təhlilində ehtimalın 0.5 (50%) qiyməti "potensial repatriant hesab edilib-edilməmə" üçün ara qiymətdir. Reqressiya qiymətləndirməsində "qayıdış ehtimalı" 0.5-dən çox olanlar potensial repatriant "hesab edilir". Analoji qaydada, "qayıdış ehtimalı" 0.5-dən az olanlar isə potensial repatriant "hesab edilmir". Modelin "doğru təxminetmə dəqiqliyi" dedikdə asılı dəyişənin spesifikasiyasında potensial repatriant hesab edilənlər və edilməyənlərin nə qədərinin qiymətləndirmədə qayıdış ehtimalı (0.5-dən az və ya çox olması) əsasında doğru təxmin olunması nəzərdə tutulur.

Maraqlıdır ki, 22 raundluq təhlilin sonunda əldə olunan repatriasiya proqnozu faiz etibarı ilə ekspertlərin subyektiv qiymətləndirilməsi əsasında verilən proqnoza yaxındır. Bununla belə, "Çoxraundlu Təhlil" metodologiyası əsasında yerinə yetirilən riyazi-ekonometrik hesablamalar potensial repatriantların daha dəqiq profilinin müəyyən olunmasına və ən əsası, müxtəlif amillərin "məcburi köçkünlərin Qarabağa qayıdaraq daimi məskunlaşmaq ehtimalı"na necə təsir edəcəyini müəyyənləşdirməyə imkan verir. Bu isə repatriasiyanın effektiv təşkili üçün siyasi qərarların alınmasında faydalı ola bilər.

**Təkliflər**

Ərazilərin bərpası fəaliyyətində dünyanın müasir çağırışları da nəzərə alınmalıdır. Yəni, regionun inkişaf istiqamətləri üzrə müvafiq araşdırmalar aparılmalıdır;

Dövlət başçısının vurğuladığı kimi, azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər “smart-city”, “smart-village”, - yəni, “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyası əsasında qurulmalıdır. Bu işlər icra edilərkən dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunması nəzərdə tutulub;

Qeyd etməliyik ki, Azərbaycanın bütün ərazilərində torpaq islahatı həyata keçirilmişdir, lakin azad olunmuş ərazilərdə bu işlər hələ həyata keçirilməyib və mülkiyyət məsələləri həll olunmayıb;

Dövlətin görəcəyi işlərə elmi dəstək vermək məqsədilə müvafiq tədqiqat sahələri mövcuddur. Bu istiqamətdə ölkənin alim və tədqiqatçıları fəaliyyətlərini məqsədyönlü qurmalıdır. Nümunə olaraq qeyd etmək lazımdır ki, Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi və İqtisadiyyat İnstitutu tədqiqat işlərinin aparılacağı istiqamətlər üzrə dövlətə təkliflər vermişdir;

Bölgənin potensial müqayisəli üstünlük sahələri müəyyən edilməlidir. Post-konflikt ərazilərdə uğurlu iqtisadi inkişaf baxımından həlledici əhəmiyyətə malikdir. Həm ölkədaxili, həm də beynəlxalq üstünlüklər müəyyənləşdirilməlidir. Bölgənin iqtisadi resursları, işğala qədərki ənənəvi məşğulluq, repatriantların vərdiş və peşəkarlıq səviyyəsi nəzərə alınmalıdır. Həmçinin, post-konflikt ərazilərlə ölkənin digər rayonları arasında istehsal-emal-satış zəncirindəki qarşılıqlı əlaqələrin çərçivəsi dəyərləndirilməlidir;

Həyat təminatı sistemlərinin (su, qaz, elektrik enerjisi) bərpası xərcləri mümkün minimuma endirilməlidir. Bu, bərpanın ən maliyyə tutumlu sahələrindəndir. Bu xərclərin, təminatın keyfiyyətinə xələl gətirməmək şərti ilə, zəruri minimum səviyyəsinə endirilməsi dövlət əhəmiyyətli problemdir;

Bərpa və yenidənqurma prosesində repatriantların iştirakı təmin edilməlidir. Məcburi köçkünlərin repatriasiyası və təkrar məskunlaşması həlledici əhəmiyyətlidir. Repatriantlar post-konflikt bölgənin həyata qaytarılmasında bilavasitə iştirak etməsə, mükəmməl reabilitasiya mümkün deyil;

Post-konflikt ərazilərdə iqtisadiyyatın bərpasında dövlət-özəl əməkdaşlığının effektiv formaları işlənib hazırlanmalıdır.

### İstinadlar

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://e-qanun.az/framework/46813
2. Wark, C. Emory Bogardus and the Origins of the Social Distance Scale / C. Wark, J. F. Galliher //The American Sociologist,-2007. №4, - p. 383-395. https://www.patnauniversity.ac.in/e-content/social_sciences/sociology/MASociology9.pdf
3. Bogardus social distance scale. https://www.patnauniversity.ac.in/e-content/social_sciences/sociology/MASociology9.pdf
4. Logistic Regression. https://nhorton.people.amherst.edu/ips9/IPS_09_Ch14.pdf

**MUSAYEV Akif**
Institute of Economics, Head of the Scientific Center "Reconstruction of Post-Conflict Territories",
Professor, Corresponding Member of ANAS

## EFFECTIVE SETTLEMENT OF POST-CONFLICT AREAS

**Summary:** The article is devoted to the problem of forecasting and effective settlement of repatriation potential to post-conflict areas, the project implemented by state structures and brain centers on this basis and their results. In addition, the research areas of special importance in the revival of the liberated territories of Karabakh and the need for scientific support by leading scientific centers and universities for the solution of these problems were justified.

**Keywords:** post-conflict areas, repatriation potential, forecasting, effective settlement, scientific support.

**SALMANOV Ceyhun**
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Sədr müavini

# QARABAĞDA İNNOVATİV İQTİSADİ SAHƏLƏRİN İNKİŞAF POTENSİALI VƏ PERSPEKTİVLƏRİ

**Xülasə:** 30 il müddətində resurslarından səmərəsiz şəkildə istifadə olunmuş, bütün infrastrukturu dağıdılmış və yararsız hala salınmış Qarabağ və Şərqi Zəngəzur bölgəsinin inkişaf etdirilməsi milli iqtisadiyyatımızın prioriteti olmaqla yanaşı, mədəni dəyərlərimizin, tarixi abidələrimizin bərpası baxımından da çox əhəmiyyətlidir. İşğaldan azad edilmiş ərazilərdə ağıllı idarəetmə modellərinin tətbiqi, yaradıcı mühitin formalaşdırılması bu ərazilərin resurslarından effektiv istifadəyə imkan verəcəkdir. Şəhər və kənd infrastrukturunun qurulmasının müasir texnologiyalara əsaslanması, ağıllı şəhər və ağıllı kənd elementlərinin tətbiqi bu bölgənin texnoloji inkişafı və yaşayacaq əhalinin yaşam səviyyəsinin yüksəldilməsi baxımından vacibdir. Qarabağda yeni iqtisadi və texnoloji modellərin tətbiqi ilə bərabər dövlət xidmətləri sahəsində uğurlu təcrübə olan "ASAN xidmət" modelinin tətbiqi əhalinin dövlət xidmətlərinə rahat əlçatanlığını təmin edəcəkdir. Həmçinin bu ərazilərdə gənc istedadların startap hərəkatında iştirakına dəstək üçün “İnnoland” mərkəzlərinin yaradılması da tarixi ərazilərimizin qısa müddətdə innovasiyalar məkanına çevrilməsinə dəstək olacaqdır.

**Açar sözlər:** ağıllı idarəetmə, ağıllı şəhər, innovativ iqtisadiyyat, Ağıllı dövlət xidmətləri, startaplara dəstək, Qarabağda ASAN xidmət

→

## Giriş

İnsan orqanizminin bütün funksiyalarını yerinə yetirməsi və sağlam həyat sürməsi üçün hər bir orqanın bir-birilə vəhdət şəkildə fəaliyyət göstərməsi şərt olduğu kimi, səmərəli idarəetmədə də müxtəlif dövlət xidmətlərinin, nəqliyyat, sağlamlıq, ətraf mühit və təhlükəsizlik kimi xidmətlərin əlaqələndirilməsi zəruridir. İnformasiya əsri adlandırılan bu dövrdə şəhərlərin bugünü və gələcəyi ancaq şəhərlərin yeni ağıllı texnologiyaların tətbiqi ilə mümkündür. 90-cı illərdə həyatımıza daxil olan ağıllı şəhər, ağıllı idarəetmə, anlayışları, vətəndaşa yönəlmiş bir yanaşma ilə texnologiyanı şəhərlərə gətirdi.

Ağıllı şəhərlərin iqtisadiyyata təsiri sahəsində aparılan araşdırmalara əsasən məlum olmuşdur ki, smart şəhər quruculuğu ilə enerji səmərəliliyini 20 il ərzində 30% artırmaq mümkündür. 2020-2021-ci illər üzrə Sinqapur, Seul, London, Barselona, Helsinki, Nyu York, Monreal, Şanxay, Vyana, Amsterdam kimi şəhərlər ilk sıralarda olan smart şəhər infrastrukturuna malikdir. Bununla yanaşı 2026-cı ilə kimi ağıllı şəhərlərin iqtisadiyyata 20 trilyon ABŞ dolları fayda verəcəyi proqnozlaşdırılır. Avropa Birliyi ölkələrində xidmətlərin rəqəmsallaşdırılması nəticəsində əməliyyat xərclərinin 85%-ə qədər azaldılması müəyyən edilmişdir.

Ölkəmizdə ağıllı texnologiyaların iqtisadiyyatın, xidmətlərin, idarəetmənin müxtəlif sahələrinə tətbiqi ilə bağlı davamlı işlər həyata keçirilir. Ölkəmizdə təşkil edilən xidmətlərin vahid mərkəzdən tətbiq edilməsini təmin edən “ASAN xidmət” özündə ağıllı idarəetmə konseptini ehtiva etməklə beynəlxalq səviyyədə təqdir edilən təsisatlardır.

2012-ci ildə ölkə rəhbərliyinin sərəncamına

əsasən yaradılmış və dövlət idarəetməsi və xidmətlər sahəsində yeni yanaşmanı özündə ehtiva edən “ASAN xidmət” konsepti 2015-ci ildə BMT tərəfindən “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında 1-ci yerə layiq görülməklə mükafatlandırılmışdır. 2019-cu ildə isə “ASAN xidmət” rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatına layiq görüldü. Bu fakt ölkəmizin dövlət idarəçiliyində irəli sürdüyü yeni yanaşmanın beynəlxalq səviyyədə təsdiqidir.

İdarəetmədə və xidmətlərdə yeni yanaşmaların tətbiq edilməsi çox güclü siyasi dəstəyi labüd edir. Təsadüfi deyil ki, “ASAN xidmət” konsepti daim ölkə rəhbərliyinin diqqətində olmuş və hər bir mərkəzin açılışında şəxsən iştirak etmişdir.

Hər bir ASAN xidmət mərkəzinin açılışı zamanı ölkə rəhbərliyinə innovativ yanaşmalar və qabaqcıl texnologiyalar nümayiş olunur. Müxtəlif “ASAN xidmət” mərkəzlərinin açılışı zamanı “Smart ASAN”, “ASAN müraciət”, “İnnoland” inkubasiya və akselerasiya mərkəzi, “ASAN 2.0” konsepti, texnopark və bir sıra digər yeni idarəetmə konsepsiyalarının təqdimatı həyata keçirilib və ölkə rəhbərliyi tərəfindən icra edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Qeyd olunan yeniliklər müvəffəqiyyətlə tətbiq edilmiş və bir sıra uğurlu nəticələrə nail olunmuşdur. Artıq yerli səviyyədə hazırlanmış və uğurla fəaliyyət göstərən bu yanaşmaların işğaldan azad olunmuş ərazilərdə də tətbiqi və daha geniş müstəvidə icra edilməsi Qarabağda müxtəlif sahələrin innovativ inkişafına öz töhfəsini verəcəkdir.

**Qarabağda yeni “ASAN xidmət” konsepti**

İşğaldan azad edilmiş şəhər və rayonlarda açılması nəzərdə tutulan yeni “ASAN xidmət mərkəzlərinin” ağıllı texnologiyalara əsaslanması, xidmət köşkləri və digər elektron cihazlar üzərindən vətəndaşlara daha rahat çatdırılması və rəqəmsal texnologiyaların tətbiqi ilə proaktiv xidmətlərin göstərilməsi nəzərdə tutulur. Asan xidmət rəqəmsal köşklərində səs-tanıma, üz tanıma sistemləri, barmaq izi oxuyucu, imzalama lövhəsi, plastik kart, QR-kod oxuyucu bölməsi və digər imkanlar olacaq ki, bu da vətəndaşlara daha rahat və operativ xidmətlərin göstərilməsinə səbəb olacaqdır.

**ASAN müraciət” sisteminin tətbiqi**

“ASAN müraciət” informasiya sistemi vətəndaşların dövlət idarəetməsində iştirakını təmin etməklə ictimai əhəmiyyətli problemlərin aşkara çıxarılmasında kütlənin imkanlarından istifadə olunmasını, operativ surətdə aidiyyəti dövlət qurumlarına göndərilməsini, icrasının və şəffaf hesabatlığın təmin olunmasını özündə ehtiva edir. Bu sistem 2021-ci ilin aprel ayından pilot olaraq Sumqayıt şəhərində istifadə olunmağa başlanılmışdır. Vətəndaşlar tərəfindən xüsusi mobil tətbiqdən istifadə edilməklə yol, kommunal və digər əhəmiyyətli infrastrukturlarda baş verən bir sıra problemlərin şəkillərinin çəkilərək sistemə ötürülməsi və aidiyyəti qurumlar tərəfindən aradan qaldırılması təmin edilmişdir. Bu sistemin Qarabağ bölgəsində tətbiqi vətəndaşlar tərəfindən ictimai xarakter daşıyan kommunal, yol və nəqliyyat problemləri, infrastrukturun təmiri, təmizliyi kimi problemlərin dərhal müəyyən edilməsi ilə yanaşı təhlükəli əşya, silah qalıqları, mina və digər naməlum obyektlərlə bağlı müraciətlərinin də elektron xəritə üzərində qeyd edilməklə aidiyyəti dövlət qurumlarına göndərilməsi, həmin şikayətlərə operativ baxılmasının təmin etməklə icra ilə bağlı nəticələrin müraciətçilər tərəfindən şəffaf izlənilməsinə şərait yaradacaqdır.

**Ağıllı iqtisadiyyat**

Yeni xidmət, məhsul və ticarət modellərinin yaradılması ilə paralel dövlət, özəl sektor və universitetlərin əməkdaşlığı ağıllı iqtisadiyyatın qurulmasının əsasını təşkil edir. İnnovativ fikir proqramları, dövlət qurumları ilə startapları biraraya gətirən mərkəzlər, sahibkarlarla startapların biraraya gətirilməsi, ticarəti inkişaf etdirmək üçün istifadə olunan informasiya idarəetmə proqramları və yoxsulluğun azaldılmasına yönəldilmiş proqramlar ağıllı iqtisadiyyat başlığı altında həyata keçirilən layihələrə nümunədir. Maraqlıdır ki, dünyada innovasiyaların tətbiqi ilə əmək məhsuldarlığı 25% artmışdır. İnnovativ sahibkarlığın illik dövriyyəsi isə 3 trilyon dollara çatmışdır.

2018-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyətə başlayan “İnnoland” inkubasiya və akselerasiya mərkəzi bir sıra uğurlara

nail olmuşdur. Bu günə kimi mərkəzdə ümumilikdə 100-dən çox startap fəaliyyət göstərmiş, 3,5 milyon manat həcmində investisiya cəlb edilmiş (65% xarici investisiya olmaqla) və beynəlxalq texnologiya mərkəzləri ilə səmərəli əməkdaşlıqlar qurulmuşdur. Belə bir mərkəzin Qarabağ ərazisində qurulması və bu məkanda kovörkinq mərkəzi, inkubasiya mərkəzi, İT akademiya, laboratoriyaların fəaliyyət göstərməsi regionda innovasiya potensialının inkişafına və ideyası olan gənclərin öz təşəbbüslərini daha rahat reallaşdırmasına səbəb olacaqdır.

Bununla paralel olaraq, Qarabağda Tədqiqat Araşdırma Mərkəzi və Texnoparkın yaradılması texnologiya sahəsində fəaliyyət göstərən yerli və xarici şirkətlərin bu regiona cəlb olunmasına və xarici investisiyanın cəlbi üçün münbit şərait yaradacaqdır.

ABŞ-da aparılan araşdırmalar zamanı yeni yaranan hər 10 startapdan 9-unun universitet mühitində yaradıldığı müəyyən edilmişdir. Təsadüfi deyil ki, Facebook, Google, Dell, Dropbox kimi çox tanınmış şirkətlər universitet tələbələri tərəfindən ərsəyə gələn keçmiş startaplardır.

Qeyd olunan infrastruktur elementlərinin dayanıqlı fəaliyyət göstərməsi üçün regionda tanınmış beynəlxalq texnologiya universitetlərindən birinin iştirakı ilə birgə təhsil ocağının (universitetin) yaradılması və burada “Dövlət, Şirkət və Akademiya” üçbucağının səmərəli fəaliyyətinin təşkili innovativ iqtisadiyyatın inkişafını daha da sürətləndirəcəkdir. Bununla yanaşı regionun kadr potensialının inkişafı və parlaq beyinlərin ölkəyə cəlb edilməsi baxımından da nüfuzlu texnologiya yüklü təhsil ocaqlarının olması zəruridir.

**Ağıllı mühit**
Qarabağ bölgəsində ağıllı infrastruktur elementlərinin tətbiqi regionda səmərəli idarəetmənin qurulması baxımından önəmlidir. Daha öncə "ASAN xidmət"lərin açılışında təqdim edilən və test olaraq tətbiq edilən bəzi ağıllı mühit elementləri region əhalisinin həyat səviyyəsinin yüksəlməsinə və büdcə xərclərinə qənaət olunmasına səbəb olacaqdır:

Smart Parkinq – sensorlar, ötürücülər və digər texnoloji infrastrukturlarla təchiz olunmuş xüsusi dayanacaq layihəsidir. Dayanacaqda olan sensorlar parkinq yerlərinin boş və ya dolu olması barədə məlumatları toplayır və mərkəzləşmiş sistemə ötürür. Bu da istifadəçilərə xüsusi mobil tətbiq üzərindən maşın saxlama üçün boş yerin olub-olmaması barədə məlumat almağa, əvvəlcədən yer bron etməyə imkan verir.

"Ağıllı tullantı yeşikləri” layihəsi tullantı yeşiklərinin dolması və aşması, həmçinin yanğın təhlükəsi halında sensorlar vasitəsilə nəzarəti təmin edən xüsusi sistemdir. Xüsusi sensorlar tullantı yeşiyinin dolma səviyyəsini real vaxt ərzində izləyir və bildiriş vasitəsi ilə mərkəzi məlumatlandırır. Eyni zamanda tullantı yeşiklərində hər hansı bir yanğın hadisəsi barədə başlama anında məlumat ötürülür. Sistem tullantı yeşiklərinin yerləşdirilmə arealını daha dəqiq müəyyən etməyə, yeşiklərin boşaldılması üzrə xidməti marşrutları optimal təyin etməyə, həmçinin ətraf mühitin təmizliyini daha effektiv təmin etməyə imkan verir.

Ağıllı işıq dirəkləri - Qaranlıq səviyyəsinə uyğun avtomatik olaraq işığın artıb-azalma dərəcəsini təmin edən işıq dirəkləri enerjiyə qənaəti və işıqlandırma sisteminə ümumi nəzarəti təmin edir. Eyni zamanda işıq dirəkləri havanın rütubətliliyini və tozluluq dərəcəsini ölçərək, göstəriciləri monitorda əks etdirəcək.

Ağıllı kamera– Müəssisələrdə və ərazilərdə köməyə ehtiyacı olan insanlar varsa və ya icazəsiz giriş halları, oğurluq halları, qeyri-qanuni park etmə, qeyri qanuni zibil atma halları baş vermişsə, video-müşahidə kameraları ilə əldə olunan video-təsvirlərin süni intellekt vasitəsilə anında analizi aparılır və yerində müdaxilə edilir.

**Qlobal cəhdlər, tək hədəf**
Birləşmiş Millətlər Təşkilatı 2016-cı ildə ətraf mühit, siyasi və iqtisadi problemlərlə mübarizə aparmaq üçün dayanıqlı inkişaf məqsədlərini qəbul etmişdir. Yoxsulluğu aradan qaldırmaq, bəşəriyyətimizi qorumaq və bütün insanların sülh və rifah içində yaşamasını təmin etmək məqsədilə bəşəri hərəkətə çağırış kimi adlandırılan 17 qlobal məqsəd Qarabağın quruculuğu ilə bağlı məqalədə verilən təkliflərdə mütləq faktor olaraq nəzərə alınmışdır. Yuxarıda sadalanan layihələrin icrası ilə aşağıdakı məqsədlərə nail olunacaqdır:

Məqsəd 4. Keyfiyyətli təhsil
Məqsəd 6. Təmiz su və sanitariya
Məqsəd 8. Layiqli əmək və iqtisadi artım
Məqsəd 9. Sənaye, innovasiya, infrastruktur
Məqsəd 11. Dayanıqlı şəhərlər və icmalar
Məqsəd 12. Məsuliyyətli istehlak və istehsal
Məqsəd 15. Torpaq ekosistemin mühafizəsi

Bu gün Qarabağın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq yenidən, daha gözəl və innovativ texnologiyalardan istifadə etməklə qurulması kimi üzərimizə düşən böyük məsuliyyət var. Ölkə rəhbərliyinin dövlət idarəçiliyində müasir texnologiya və innovasiyaların tətbiqi ilə bağlı verdiyi tapşırıqların nəticəsidir ki, artıq ölkəmiz özünün yerli ağıllı konsepsiyalarını yaradır və ölkənin müxtəlif regionlarında tətbiq edir. Bu məsuliyyətin öhdəsindən layiqincə gəlmək üçün Vətən müharibəsində əldə etdiyimiz böyük zəfər bizi daha çox ilhamlandırır. Biz gördüyümüz işlərlə bir daha hamıya və bütün dünyaya sübut etməliyik ki, on illər ərzində vandalizmə məruz qalmış və sərvətləri talanmış Qarabağ Azərbaycandır və tezliklə dünyanın ən gözəl və innovativ məkanlarından birinə çevriləcəkdir.

**İstinadlar**

1. https://www.researchgate.net/figure/The-Smart-city-wheel-by-Boyd-Cohen_fig3_317269039
2. Cisco https://www.postscapes.com/anatomy-of-a-smart-city/
3. OECD https://www.oecd.org/cfe/cities/OECD_Policy_Paper_Smart_Cities_and_Inclusive_Growth.pdf
4. https://www.investmentbank.barclays.com/our-insights/Rethinking-smart-cities-prioritising-infrastructure.html?cid=-paidsearch-textads_google_google_themes_smart_cities_we_research_general_phrase_300433502566&gclid=Cj0KCQjwlMaGBhD3ARIsAPvWd6j4y3NEcfF0IP615n2dc9u39GbGdpTfj-Ip2dfJfoiOXwwUswiS5mIaAsKrEALw_wcB&gclsrc=aw.ds
5. https://www.student.com/articles/11-businesses-people-have-started-while-at-university
6. https://sdgs.un.org/ru/goals
7. https://www.smartcitygovt.com/

**SALMANOV Jeyhun**
Deputy Chairman of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan

## THE DEVELOPMENT POTENTIAL AND PERPECTIVES OF INNOVATIVE ECONOMIC FIELDS IN KARABAKH

**Summary:** The article conducts research on the application of smart governance models, the formation of a creative environment, and the effective use of resources in the liberated areas. The article also urges the significant role of construction of urban and rural infrastructure based on modern technologies, the application of “smart city” and “smart village" elements in the technological development and improvement of living standards of the population of Karabakh. The ways of implementation of “ASAN Service” model - as the successful experience in provision of public services alongside the application of new economic and technological models in Karabakh is also described in the article. It also includes justified recomendations on the establishment of “Innoland” Centers to support the participation of young talents in the startup movement in these areas, and convert the historical areas into the field of innovations in a short period of time.

**Keywords:** smart governance, smart city, innovative economy, smart public services, support for startups, ASAN service in Karabakh.

# məqalə və tezislər

→

**ABDİNOV Orman**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin baş məsləhətçisi, Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı

# AĞDAMDA POST-MÜHARİBƏ DÖVRÜNDƏ ƏLDƏ EDİLƏCƏK İQTİSADİ İNKİŞAFIN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏDƏF VƏ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

**Xülasə:** Məqalədə işğaldan azad edilən ərazilərimizin, xüsusilə Ağdam şəhərinin ölkə iqtisadiyyatına reinteqrasiyası nəticəsində əldə ediləcək sosial-iqtisadi inkişafın "Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası:2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin məqsəd, hədəf və göstəricilərinə təsiri" araşdırılmış, eyni zamanda BMT-nin Ölkə Nümayəndəliyi və Azərbaycan arasında imzalanmış "2021-2025 Çərçivə Sənədi" və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə ölkəmizin əldə edəcəyi nailiyyətlərin Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin irəliləməsi istiqamətində vacibliyi vurğulanmışdır.

**Açar sözlər:** Birləşmiş Millətlər Təşkilatı, Dayanıqlı İnkişaf Məqsədləri, Dayanıqlı inkişaf məqsədləri indeksi, Ağdam.

→

## Giriş

Dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən son illər ölkəmizdə həyata keçirilmiş böyük sosial-iqtisadi islahatlar, gələcəyə hesablanmış məqsədyönlü addımlar və həyata keçirilən kompleks tədbirlər, həmçinin uğurlu islahatlar nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmışdır.

Qeyd etmək lazımdır ki, "2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi" (UNAPF) sənədinin davamı olaraq imzalanmış "2021-2025-ci illər üçün Çərçivə Sənədi" BMT-nin "Dünyamızın transformasiyası:2030-cu ilədək Dayanıqlı inkişaf Gündəliyi"dən irəli gələn DİM-lərə uyğun olmaqla, "heç kimin kənarda qalmaması", "insan hüquqları", "gender bərabərliyi", "dayanıqlı inkişaf", "davamlılıq" və "cavabdehlik" prinsiplərinə əsaslanır. Ölkə üzrə Ümumi Təhlil prosesindən və potensial boşluqların təhlillərindən meydana gələn Çərçivə Sənədi dörd prioritet sahəyə: həssaslığı azaldan və dayanıqlığı təmin edən inklüziv artım; dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar; ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə; qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət bölünmüşdür [2].

Bununla əlaqədar olaraq, 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərinə(MİM) qoşulmuş ölkəmizdə MİM-lərə nail olunması məqsədilə kompleks tədbirləri əhatə edən "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı

həmçinin, 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf  Dövlət Proqram"larının uğurla icrası nəticəsində MİM-lər üzrə bir çox irəliləyişlərə nail olunmuşdur. MİM-lərin davamı olaraq, BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və özündə 17 məqsəd, 169 hədəf və 244  göstəricini ehtiva edən "Dünyamızın Transformasiyası:2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi" razılaşmasına qoşulmuşdur.

Buna uyğun olaraq, Dayanıqlı İnkişaf Məqsədlərinin ölkəmizdə uğurla həyata keçirilməsi məqsədilə dövlət orqanlarının səlahiyyətli nümayəndələrindən ibarət yaradılmış İşçi Qruplarının birgə müzakirəsi nəticəsində Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və ona uyğun göstəricilərin yekun layihəsi hazırlanaraq təsdiq edilmişdir. Yekun layihəyə əsasən DİM üzrə ümumi 17 məqsəd, 169 hədəf və 244 göstəricidən Azərbaycan üçün 17 məqsəd, 88 hədəf, 119 göstərici prioritet hesab edilərək təsdiq olunmuşdur. Bununla yanaşı, Dövlət Statistika Komitəsi tərəfindən dərc edilən statistik məlumatlara əsasən ölkəmiz üçün prioritet hesab edilən məqsəd, hədəf və göstəricilərin sayının artmasının mümkünlüyü bildirilmişdir [4].

***Təhlil və qiymətləndirmə***

Yuxarıda qeyd olunanlara əsasən, işğaldan azad edilmiş ərazilərimizdə, xüsusi ilə Ağdam şəhərində post-müharibə dövründə əldə ediləcək iqtisadi, sosial və ekoloji irəliləyişlərin nəticəsində qeyd edilən Çərçivə Sənədinin 1-ci (həssaslığı azaldan və dayanıqlılığı təmin edən inklüziv artımı) və 3-cü (ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə) prioritet sahələri üzrə irəliləyişlərə nail olunacaq, eyni zamanda ilkin mərhələdə Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq məqsədləri (2-ci DİM - Aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək; 4-cü DİM - Hamı üçün inklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək; 6-ci DİM - Hamı üçün su və sanitariyaya əlçatanlığı və dayanıqlı idarə etməni təmin etmək; 7-ci DİM - Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək; 8-ci DİM - Davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etmək; 9-cu DİM - Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyalara dəstək vermək; 11-ci DİM **-** *Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək; 12-ci DİM - İstehsal və istehlakın səmərəli modellərinə keçidi təmin etmək; 15-ci DİM - Yer ekosistemlərini mühafizə və bərpa etmək və onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqredasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq) məqsədləri üzrə ölkəmizin mövqeyində irəliləyişə nail olunacaqdır.*

Belə ki, işğal altında olan torpaqlarda ümumilikdə 7 rayon mərkəzi, 6 şəhər, 12 qəsəbə, 830 kənd, 700 xəstəxana və tibb müəssisəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi dağıdılmışdır. Eyni zamanda aparılmış statistik araşdırmalara əsasən, 1993-cü il 23 iyul tarixində ermənilər tərəfindən zəbt edilən Ağdam şəhərində işğaldan əvvəl təxminən 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Ərazisi 1094 kv.km olan Ağdama işğal nəticəsində təxminən 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan vurulmuşdur [5]. Buna uyğun olaraq, post-müharibə dövründə işğaldan azad olunmuş Ağdam şəhərində həyata keçiriləcək tikinti-quruculuq işləri sayəsində DİM-in xüsusi ilə 9-cu (Möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və innovasiyalara həvəsləndirmək) məqsədinin 9.4-cü (2030-cu ilədək resurslardan səmərəli istifadəni artırmaqla və təmiz və ekoloji baxımdan uyğun texnologiyaları daha geniş şəkildə qəbul etməklə, öz müvafiq imkanlarına uyğun tədbir görən bütün ölkələrlə, infrastrukturu yeniləmək və dayanıqlı etmək üçün sənayeləri müasirləşdirmək) hədəfinə nail olunması istiqamətində ölkəmiz tərəfindən əhəmiyyətli addımlar atılmış olacaqdır. Bundan əlavə, DİM-in 4-cü (Hamı üçün ayrı-seçkiliyə yol verilməyən və bərabər keyfiyyətli təhsili təmin etmək və həyat boyu öyrənmək imkanlarını təşviq etmək) məqsədinin 4.1-ci ( 2030-cu ilədək, bütün qızların və oğlanların, uyğun və effektiv təlim nəticələrinə aparmaqla, azad, bərabər və keyfiyyətli ibtidai və orta təhsili bitirmələrini təmin etmək) və 4.3-cü ( 2030-cu ilədək, bütün qadınlar və kişilər üçün əlçatan və keyfiyyətli texniki, peşə və ali təhsilə, o cümlədən universitet təhsilinə bərabər çıxış imkanını təmin etmək) hədəfləri istiqamətində həmçinin mühüm nəticələr əldə ediləcəkdir [2].

Eyni zamanda, aparılmış statistik hesablamalara əsasən, Ağdamda işğal zamanı 34 kənd təsərrüfatı mərkəzi, 1 sovxoz, 10 kolxoz, 6 təsərrüfatlararası müəssisələr, 257 avtonəqliyyat və 392 traktor bu və ya digər şəkildə qarət olunmuş, habelə işğaldan öncə iribuynuzlu 45127 mal-qara, o cümlədən 16351 inək və camış, 194300 qoyun və keçi, 1210 donuz işğalçı qəsbkarlar tərəfindən istismar edilmişdir [1]. İşğal sonrası həyata keçiriləcək abadlıq işləri nəticəsində DİM-in xüsusi ilə 2-ci (Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək) məqsədinin 2.3 (2030-cu ilədək, kənd təsərrüfatında məhsuldarlığı və başqa yollarla yanaşı torpağa, digər istehsal resurslarına və yatırımlara, biliklərə, maliyyə xidmətlərinə, bazarlara və əlavə dəyər və kənd təsərrüfatı ilə bağlı olmayan məşğulluq üçün imkanlara təhlükəsiz və bərabər çıxışla kiçik ərzaq istehsalçılarının, xüsusilə də qadınların, yerli xalqların, ailə kənd təsərrüfatlarının, fermer-maldarların və balıqçıların gəlirlərini ikiqat artırmaq) hədəfi üzrə, habelə DİM-in 9-cu məqsədinin 9.1 (Hamı üçün əlçatan və bərabər çıxış imkanına diqqət yetirməklə, iqtisadi inkişafa və insan rifahına dəstək göstərmək məqsədilə, keyfiyyətli, etibarlı, dayanıqlı və möhkəm infrastrukturu, o cümlədən regional və transsərhəd infrastrukturu inkişaf etdirmək) hədəfi üzrə irəliləyişlərə nail olunacaqdır.

Bununla yanaşı, işğala qədər ölkə üzrə Ümumi Daxili Məhsul istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i işğal altında olan torpaqların payına düşürdü. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının istehsalına nəzər salsaq qeyd etmək olar ki, təkcə Ağdam rayonu üzrə 30.1 min ton taxıl, 19.0 min ton pambıq, 1.2 min ton üzüm, 5.0 min ton kartof, 2.7 min ton ət, 12.6 min ton süd, 2.3 min ədəd yumurta, 297 ton yun, 379 ton barama istehsal olunurdu **[1]**. Bununla əlaqədar olaraq, DİM-in xüsusi ilə 2-ci məqsədinin 2.a (İnkişaf etməkdə olan ölkələrdə, xüsusən də ən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatındakı istehsal potensialını artırmaq məqsədilə, başqa üsullarla yanaşı beynəlxalq əməkdaşlığı gücləndirməklə, kənd infrastrukturuna, kənd təsərrüfatında tədqiqat və inkişaf xidmətlərinə, texnologiyaların inkişaf etdirilməsinə və bitki və mal-qara banklarının yatırımı artırmaq) hədəfi üzrə də həmçinin irəliləyişlərə nail olunacaqdır.

Azərbaycan BMT-nin 2020-ci il Dayanıqlı inkişaf hesabatında dünyanın 166 ölkəsi arasında "dayanıqlı inkişaf məqsədləri indeksi" üzrə mümkün 100 baldan 72,6 bal toplayaraq 54-cü pillədə qərarlaşmışdır. Müqayisə üçün demək olar ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 70,9-dur. Hesabata əsasən Azərbaycan səhiyyə, rifah, yoxsulluq, qidalanma, təmiz su, təmiz enerji, davamlı şəhərlər və icmalar, sülh, ədalət və güclü institutlar kimi BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üzrə əhəmiyyətli irəliləyişlərə nail olmuşdur [3].

Eyni zamanda qeyd etmək olar ki, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində görülmüş işlərin yekunu olaraq ölkəmiz tərəfindən regionda ilk ölkə olaraq BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna üç Könüllü Milli Hesabat (2017, 2019 və 2021-ci illərdə) təqdim edilmişdir. Sonuncu hesabatımız bu ilin iyul ayında BMT-nin müəyyən etdiyi "Dayanıqlı inkişafın iqtisadi, sosial və ətraf mühit aspektlərinin gücləndirilməsi məqsədilə COVİD-19 pandemiyasının mənfi təsirlərinin aradan qaldırılması: 2030-cu il Gündəliyinə nail olmaq məqsədilə inklüziv və effektiv sistemin yaradılması" tematik mövzusuna uyğun olaraq təqdim edilmişdir. Təqdim edilmiş hesabatlarda ermənilər tərəfindən işğala məruz qalmış Azərbaycan ərazilərində bütün sahələrdə məqsədyönlü şəkildə həyata keçirilmiş siyasət nəticəsində dağıdılmış infrastruktur obyektləri barədə, həmçinin işğal sonrası yaşadıqları yerləri tərk etməyə məruz qalmış qaçqın və məcburi köçkünlər barədə təfsilatlı şəkildə məlumatlar əks olunmuş və eyni zamanda, BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda üzv ölkələrin diqqətinə çatdırılmışdır [5].

***Nəticə***

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Müzəffər Ali Baş Komandan və rəşadətli Azərbaycan ordusunun qətiyyəti sayəsində 2020-ci il 20 noyabr tarixində Ağdam şəhərinin işğaldan azad edilməsindən sonra 16-cı DİM (Sülh, ədalət və səmərəli İnstitutlar) məqsədinin məqsəd, hədəf və göstəriciləri üzrə ölkəmizin mövqeyi yaxşılaşacaq, eyni zamanda gələcək illərdə qeyd edilən ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası nəticəsində ölkəmiz üçün prioritet hesab edilən DİM-in məqsəd, hədəf və göstəricilərin sayı artacaq və DİM-lərə, xüsusilə 2-ci, 4-cü, 9-cu, 12-ci, 16-cı məqsədlərə nail olunması səviyyəsinə, həmçinin "Dayanıqlı İnkişaf Məqsədləri İndeksi"nə görə ölkəmiz nəinki region, habelə dünya ölkələri arasında yuxarı mövqedə qərarlaşacaqdır.

**İstinadlar**

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI (Ermənistan-Azərbaycan münaqişəsi: Tam mətnli elektron materiallar məcmuəsi. Bakı, 2005.) (https://files.preslib.az/site/karabakh/g11.pdf).

1. https://sdgs.un.org/goals
2. https://www.sdgindex.org/
3. http://sdg.azstat.org:8484/az/summary-goals
4. https://sustainabledevelopment.un.org/memberstates/azerbaijan
5. Leyla RƏŞİD (2021). “Xalq qəzeti”
6. (https://xalqqazeti.com/mobile/az/news/65710)

**ABDULLAYEV Rəmzi**

AMEA, İqtisadiyyat İnstitutu, i.f.d., dos.,

# AĞDAM ŞƏHƏRİ VƏ ONUN GƏLƏCƏK İNKİŞAFINA ÜMUMİ BAXIŞ

**Xülasə:** Tezisdə işğaldan azad olunan rayonlardan biri olan Ağdam rayonu və onun mövcud iqtisadi potensialı nəzərdən keçirilir. Belə ki, rayonun yeni prinsiplər əsasında bərpası üçün ilk növbədə mövcud iqtisadi potensialı nəzərə alınmalıdır. Bu baxımdan Ağdam rayonunun təbii-iqtisadi potensialı qruplara bölünərək təhlil edilmişdir. Həmçinin rayonun yerləşdiyi coğrafi mövqeyi və əmək ehtiyatları da göstərilmişdir.

**Açar sözlər:** təbii-iqtisadi potensial, mineral-xammal ehtiyatları, əmək ehtiyatları, təbii-iqlim şəraiti, su və torpaq ehtiyatları, turizm-rekreasiya ehtiyatları.

## Giriş

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 23 iyul 1993-cü ildə Azərbaycanın həmin dövrdə inkişaf etmiş rayonlarından biri olan Ağdam rayonu işğal olunmuşdur. Təqribən 30 ilə yaxın ölkə ərazisinin və xüsusilə də Qarabağın işğal altında qalması və 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ordusunun parlaq qələbəsi işğal olunan ərazilərin azad olunması ilə yadda qalmışdır. Azad olunan ərazilərin yenidən bərpası təbii ki, müasir dövrün tələblərinə uğun yeni şəhər, qəsəbə və kəndlərin salınmasını, eləcədə yeni iş yerlərinin yaradılmasını zəruri edir. Bütün bu sadalananları nəzərə alan ölkə Prezidenti iqtisadi rayonların yeni bölgüsü haqqında fərman imzalamışdır. Həmin Fərmana əsasən Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilmişdir.

### Ağdam rayonunun təbii-iqtisadi potensialının qiymətləndirilməsi

Hazırda ölkə iqtisadiyyatı qarşısında duran əsas məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək dövr üzrə inkişafının təmini, zəruri infrastrukturun yaradılması və nəticədə əhalinin öz doğma yurd-yuvalarına qayıdışının təmin edilməsidir. İşğaldan azad olunmuş rayonlarımızdan biri də Ağdamdır. Ağdam rayonu 1930-cu ildə yaradılıb və həm Azərbaycan Respublikasının, həm də regionun inkişaf baxımından kifayət qədər güclü təbii-iqtisadi potensiala malikdir. Bu təbii-iqtisadi potensialı aşağıdakı kimi qruplara bölmək olar:

- mineral-xammal ehtiyatları;
- təbii-iqlim şəraiti, su və torpaq ehtiyatları;
- turizm-rekreasiya ehtiyatları;
- coğrafi-nəqliyyat mövqeyi;

- *əmək ehtiyatları.*

Ağdam rayonunda faydalı qazıntı yataqları arasında öz rəngarəngliyi ilə seçilən və çox böyük ehtiyatlara malik olan tikinti materialları istehsalı üçün yararlı xammal yataqları mövcuddur. Belə ki, sement xammalının istehsalı üçün zəruri olan əhəngdaşı yataqlarının böyük hissəsi Ağdam rayonu ərazisində yerləşir. Azərbaycanda belə yataqlar arasında ehtiyatına görə ən böyük əhəngdaşı yatağı ümumi ehtiyatı 140,5 mln. ton olan Çobandağ əhəngdaşı yatağıdır. Ağdam rayonunda yerləşən Çobandağ əhəngdaşı yataqları hazırda ehtiyatdadır. Nəzərə almaq lazımdır ki, Qaradağ sement zavodu tərəfindən istismar olunan əhəngdaşı yatağı kimi yalnız Şahqaya yatağından istifadə olunur. Eyni zamanda Ağdam rayonu sement istehsalı üçün zəruri olan gil ehtiyatlarının bolluğu ilə də seçilir. Belə ki, Qaradağ sement zavodu tərəfindən istismar olunan Qaradağ gil yatağının qalıq ehtiyatı 30,1 mln. ton, Yuxarı Qarabağ İR, Ağdam rayonu ərazilərində yerləşən və ehtiyatda olan Boyəhmədli və Şahbulaq gil yataqlarının ümumi ehtiyatları isə 69,9 mln. tondur. Bundan əlavə, Ağdam rayonu ərazisində qalıq ehtiyatı 4 mln. ton olan Gülablı mərmərləşmiş əhəngdaşı yatağı da mövcuddur.

Ölkəmizdə tikinti sənayesinin inkişafı baxımından mühüm olan xammallardan biri də mişar daşı xammalıdır. Bu ehtiyatlar daş və mişar daşı istehsalı üçün istifadə olunur. Bunlar əsasən əhəngdaşı və qismən də tuf xammalı yataqlarından ibarətdir. Bu yataqlar respublikamızın müxtəlif bölgələrində olmaqla, ümumilikdə 22 yatağı əhatə edir. Onlardan biri də Ağdam rayonu ərazisindədir.

Ağdam rayonunun əlverişli təbii-iqlim şəraiti, 1700 hektarlıq meşə massivlərinin mövcudluğu və 28 min hektar sahənin kənd təsərrüfatına yararlı olması burada təbii və yabanı müalicəvi bitkilərin yetişməsinə imkan verir ki, bunlar da əczaçılıq məhsullarının istehsalında çox mühüm əhəmiyyətə malikdir. Ağdam rayonunun əlverişli təbii-coğrafi və torpaq-iqlim xüsusiyyətlərinə malik olması burada kənd təsərrüfatı üzrə də böyük həcmdə potensial təbii ehtiyatların olmasını şərtləndirir. Belə ki, Ağdam rayonu sovet dönəmində pambıqçılıq, üzümçülük və heyvandarlıq məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Burada yun, yağ-pendir, arıçılıq məhsulları, barama, gön-dəri xammalı və s. istehsalı həyata keçirilmişdir.

Ağdam rayonunun Qarabağın demək olar ki, mərkəzində, Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində və Kür-Araz ovalığının qərbində yerləşməsi, eləcə də Tərtər, Ağcabədi, Bərdə, Əsgəran, Kəlbəcər, Xocavənd və Füzuli rayonları ilə həmsərhəd olması və füsunkar təbiəti burada turizmin inkişafı üçün də əlverişli şəraitin mövcudluğundan xəbər verir. Belə hal bir tərəfdən əlverişli nəqliyyat mövqeyinin olduğunu da şərtləndirir. Həmçinin Ağdam rayonunda işğaldan əvvəl mövcud olan bir sıra tarixi abidələr, məscidlər, türbələr və günbəzlərin yenidən bərpası rayonun gələcək inkişafı üçün faydalı ola bilər.

Ağdam rayonunun təbii-iqtisadi potensialının iqtisadi inkişaf baxımından mühüm tərkib hissələrindən birini də əmək ehtiyatları təşkil edir. 2020-ci ilin əvvəlinə olan statistik məlumatlara görə, Ağdam rayonunun əhalisi 204 min nəfər olmuşdur. Rayon əhalisi içərisində kifayət qədər ali təhsilli insanın və müxtəlif istehsal sahələrində fəaliyyət göstərə biləcək ixtisaslı işçi qüvvəsinin mövcudluğu, rayonda yeyinti, yüngül və s. sənaye sahələri, eləcə də kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və digər istehsal və xidmət sahələr üzrə ixtisaslaşmış bol və ucuz işçi qüvvəsinin olması gələcək inkişaf üçün əhəmiyyətlidir.

**Nəticə**

Ağdam rayonunun səmərəli və məqsədyönlü şəkildə inkişafı hesab edirəm ki, işğaldan azad olunan digər rayonlar üçün bir nümunə ola bilər və həmçinin bu iqtisadi rayon üçün böyük iqtisadi əhəmiyyət daşıya bilər. Digər tərəfdən isə Ağdam rayonunun inkişaf etdirilməsi rayonların tarazlı inkişafına, əmək resurslarının səmərəli bölgüsünə səbəb ola bilər. Ağdamda baramaçılıq mədəniyyəti mövcuddur ki, bu da “Şəki-İpək” ASC-nin ixrac məhsulları üçün xammal rolunu oynaya bilər. Bu rayonun uzun müddət işğal altında olması bütün infrastrukturun sıradan çıxmasına səbəb olmuşdur. Bu baxımdan hesab edirəm ki, əsas problemlərdən biri yol infrastrukturunun bərpası ilə bağlıdır.

**İstinadlar**


1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".
2. https://az.wikipedia.org/wiki/A%C4%9Fdam_rayonu.
3. https://www.stat.gov.az/.
4. İqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının fərmanı, 07 iyul 2021-ci il.
5. Nuriyev Ə. Regional siyasət və idarəetmə. Bakı, 2007, s.347.

**ABDULLAYEVA Şəfəq**

Azərbaycan Dillər Universiteti, i.f.d., dosent

# AĞDAMDA TURİZMİN YENİDƏN TƏŞKİLİ

**Xülasə:** Məqalədə Ağdamda işğaldan əvvəl və hazırda turizmin təşkili haqqında məlumat verilmişdir. Ağdamda turizm fəaliyyəti geniş rakursda araşdırılmış, turizmin müasir inkişaf mühiti xarakterizə edilmiş, onun təşkili səmərəliliyini şərtləndirən amillər aşkar edilmişdir. Ağdamda turizm bazarının özünəməxsus cəhətlərinə dair fərqli fikirlər təhlil olunmuşdur. Eyni zamanda turizmin mövcud vəziyyətinin xarakterizə edən göstəricilər səciyyələndirilmişdir. Turizmin iqtisadi, sosial, ekoloji və mədəni-tarixi funksiyalarının yerinə yetirilməsi mühiti xarakterizə olunmuşdur. Bölgədə turizmin təşkilati-iqtisadi və hüquqi aspektlərinə vahid müstəvidə yanaşmanın zəruriliyi bildirilmişdir. Ağdamda yaradılacaq turizm infrastrukturunun ölkə iqtisadiyyatına səmərəsi göstərilmişdir.

**Açar sözlər:** turizmin bərpası, turizm bazarı, turizm infrastrukturu, turizm sektoru.

→

## Giriş

Son illər sürətlə inkişaf edən turizm dünya ölkələrinin iqtisadiyyatının aparıcı sahəsi olmuşdur. Turizm bir çox ölkələrin ticarət balansının sabitləşməsi və büdcəsinin formalaşmasında mühüm rol oynayır. Həmçinin, istənilən ölkədə turizmin inkişafı ilə yeni iş yerləri açılır, bu da işsizliyin azalmasına səbəb olur. Nəticə olaraq da ölkə iqtisadiyyatı inkişaf edir. Ölkədə həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına təkan veribdir. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı vardır. Bu gün Azərbaycanda turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli, rəqabət qabiliyyətli müasir turizm kompleksləri yaratmaq, bu sahədə yeni iş yerlərinin açılmasını təmin etmək qeyri-neft sektorunun inkişafı istiqamətində əsas hədəflərdəndir.

Son zamanlar Azərbaycanda turizmin inkişafı ilə bağlı geniş miqyaslı işlər görülməsinə baxmayaraq, Qarabağ 2020-ci ilin 10 noyabr tarixinədək ermənilər tərəfindən işğal altında olduğuna görə bu proseslərdən kənarda qalmışdır. Azərbaycan torpaqlarının 20%-ni işğal edən Ermənistan bütün iqtisadi sahələrdə olduğu kimi turizm sektoruna da ciddi ziyan vurmuşdur. İşğaldan azad edilmiş ərazilərimizdə turizm infrastrukturunun qurulması vacib şərtlərdən biridir. Bu ərazilərin turizm potensialı da çox zəngindir.

Bildiyiniz kimi Qarabağ təkcə Azərbaycanın tarixi xüsusiyyətləri, milli-mənəvi dəyərlərinin məkanı deyil, həm də gözəl təbiət diyarıdır. Sovet dövründə tikilən sanatoriyalar və istirahət mərkəzləri müalicəvi xüsusiyyətlərinə görə məhşurlaşmışdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz 44 gün ərzində Ermənistanı məğlub edib parlaq qələbə qazanaraq işğal altındakı torpaqlarımızı düşməndən azad etdi. Bununla da ölkəmizin iqtisadi inkişafında yeni perspektivlər açıldı. Bu mənada azad edilmiş bölgələrdə turizmin inkişafı daha cəlbedici görünür.

**Ağdamda tarixi turizm imkanları**

Ağdamın Azərbaycanda turizm sənayesinin inkişafı üçün çox zəngin resursları vardır. Bu, ilk növbədə çox əlverişli iqtisadi və coğrafi mövqeyə bağlıdır. Rayonun təbiətinin rəngarəngliyi və gözəlliyi, mədəni irsinin, tarixi-memarlıq abidələrinin zənginliyi daima şöhrət tapmışdır. Ağdam rayonu füsunkar təbiəti ilə tanınan Qarabağın mərkəzində yerləşir. Rayon 8 avqust 1930-cu ildə yaranmışdır. Heydər Əliyev hələ Sovetlər Birliyi dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə bir neçə dəfə Ağdamda olmuş, şəhər və kəndləri gəzmiş, əməkçilərlə görüşüb, onlarla səmimi söhbət etmişdir. Ulu Öndər o illər Ağdamda olarkən demişdir: "*Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şerlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun*" [1].

Sovet dövründə Ağdamda infrastruktur inkişaf etdirilmiş, məişət-xidməti kombinatı; kənd təsərrüfatının mexanikləşdirilmə və elektrikləşdirilməsi müəssisəsi; metallurgiya, yeyinti, emal, əczaçılıq müəssisələri fəaliyyət göstərmişdir. Rayonda iki dəmir yolu vağzalı, hava limanı və magistral yollar mövcud idi.

Ağdam erməni işğalından əvvəl zəngin turizm potensialına malik idi. Dağlıq və dağətəyi ərazilərdə yerləşən rayonda çoxsaylı müalicəvi mineral bulaqlar, zəngin təbiətə malik Gülablı və Şelli kəndlərində sanatoriya, habelə, Şahbulaqda turizm bazası var idi. Bu turizm və müalicə müəssisələri Azərbaycanı dünyada tanıtmaqla bərabər, həm də dövlət büdcəsinə böyük gəlir gətirirdi.

O dövrlərdə kurort və istirahət mərkəzləri turistləri öz gözəllikləri ilə yanaşı, müalicəvi xarakterinə görə də cəlb edirdi. Ağdamın Gülablı kəndində 100 yerlik, Şelli kəndində 50 yerlik, Şahbulaqda 40 yerlik istirahət-müalicə obyektləri fəaliyyət göstərirdi.

Sevindirici haldır ki, Azərbaycan ordusu Ağdama rayonuna şəhid vermədən və qan tökmədən daxil ola bildi. Bu, ilk növbədə Azərbaycan Prezidentinin diplomatik bacarığı, dəmir iradəsi sayəsində edildi. Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində ərazilərimizin azad edilməsi Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi.

Ağdam rayonunun işğaldan azad edilməsi yeni iqtisadi təşəbbüsləri canlandırır. Rayon ərazisinin əkinçilik və heyvandarlıq təsərrüfatlarının yaradılması, sənaye bölgəsinin formalaşması, turizmin inkişafı üçün geniş perspektivləri vardır.

Ağdamın əlverişli iqtisadi və coğrafi mövqeyi, bənzərsiz təbii və iqlim xüsusiyyətləri, münbit torpaqları, zəngin ehtiyatları, qeyri-adi flora və faunası ölkənin turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açır. Bu ərazilərə qoyulan investisiyalar bu sahənin iş adamları üçün böyük imkanlar yaradacaqdır. Tezliklə Ağdam Azərbaycanın əsas turistik məkanına çevriləcəkdir. Ağdamın tarixi abidələri və bənzərsiz memarlığı yeni turizm marşrutları yaradacaqdır. Bu da turizmin inkişafı üçün çox faydalı olacaqdır. Ağdamın təbiəti burada təbiət turizmini də ön sıralara çıxarır.

Ağdamın tarixi və mədəni potensialı burada turizmi inkişaf etdirəcək əsas amillərdən biridir, çünki:

**1.** Tarixi-mədəni irslə tanışlıq turistləri cəlb etmək üçün ən vacib vasitə, ən güclü turistik motivdir;
**2.** Tarixi-mədəni irs obyektləri gəlirli ola biləcək və iqtisadi inkişafa əhəmiyyətli təsir göstərən vacib bir sərvətdir;
**3.** Turizm sektorunda təsirli bir liderlik vasitəsi olaraq istifadə edilən tarixi-mədəni irsin "marka" olaraq görülməsini təmin edərək bölgənin müsbət imicini yaradır.

Ağdamın tarixi-memarlıq abidələri Ermənistanın silahlı qüvvələri tərəfindən məhv edilməsinə baxmayaraq, Azərbaycan Prezidentinin fərman və sərəncamları çərçivəsində bərpa işlərinə başlanıbdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun işğaldan azad olunması münasibəti ilə xalqa müraciəti zamanı bildirdi ki, *indi Ağdam üçün yeni bir dövr başlayır. Ağdam yenidən bərpa edilərək Azərbaycanın ən gözəl şəhərləri sırasında olacaqdır* [2].

2021-ci ilin mayın 28-də Prezident İlham Əliyev Ağdam şəhərinə səfəri zamanı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib ki, artıq şəhərin yenidən qurulması üçün lazımi infrastruktur layihələrin hazırlanması; sosial obyektlərin və inzibati binaların tikintisi: yolların çəkilməsi və digər lazımı işlər görülməyə başlanmışdır. Dövlət başçısı həmçinin, çıxışında bildirdi ki, 140 illik tarixi olan 1 saylı məktəbin və  burada iş yerlərinin yaradılması və yüzlərlə insanın işlə təmin olunması üçün ərazisi təqribən 200 ha yaxın olan Ağdam Sənaye Parkının təməlini qoymuşdur.

Səfər çərçivəsində yaxın gələcəkdə istismara veriləcək Bərdə-Ağdam avtomobil yolunun təməli qoyulmuşdur. Həmçinin, Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. Ümumi sahəsi 22,5 ha olan Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaqdır. Köhnə Çörək muzeyi burada təkrar bərpa ediləcəkdir. Ağdam şəhərində 125 ha sahəyə malik iri meşə zolağının salınmasının təməli qoyulubdur. Burada süni gölün yaradılması, kanal və körpülərin tikintisi planlaşdırılır.

Erməni işğalçıları II Qarabağ müharibəsinin son günlərinədək Ağdamda qanunsuz arxeoloji qazıntılar aparmış və tapılmış arxeofaktları öz ölkələrinə daşımışlar. Ağdamda olan evləri dağıtmaqla yanaşı buradakı tikililərin daşlarını da söküb aparmışlar. Mədəni abidələri talan edərək bütün infrastrukturu məhv etmişlər. Tarix Ölkəşünaslıq muzeyi (2002-ci ildə Ağdam Tarix Ölkəşünaslıq muzeyi rayonun işğal altında olmayan Qaradağlı kəndində bərpa edilib), Çörək muzeyi, tarzən Qurban Pirimovun Xatirə muzeyi; Ağdam Şəkil Qalereyası; Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr; Papravənd kəndində XVIII əsrə aid günbəz və məscid; Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri; Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr; Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara tamamilə dağıdılmışdır [1]. Şəhərin mərkəzində yerləşən tarixi memarlıq abidəsi olan məscid və onun minarələri də erməni vandalizminin qurbanı olmuşdur.

Hazırda Ağdamın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, rayonun turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara başlanıb.

Rayonda təhlükəsizliyin təmini,  əhalinin geri dönüşü və infrastrukturlar tam yaradıldıqdan sonra yeni turizm məhsulları turistlərə təqdim ediləcəkdir. Birinci mərhələdə əsas istiqamət daxili turizmin təşkili olacaqdır. İlk mərhələdə Ağdamda daha çox ziyarət xarakterli turizm, daha sonra, infrastruktur tam bərpa olduqdan sonra isə istirahət turizminin təşkili planlaşdırılır.

Turistləri Ağdama cəlb etmək üçün Zəfər marşrutu üzərində işlənilir. Bu turizm növü “qara turizm” adlanır. İşğal nəticəsində dağılan tikililəri göstərmək üçün nəzərdə tutulmuşdur. Bununla da bu ərazilərə gələn turistlərə erməni vəhşiliyinin çox az qismini göstərmək olar.

Ağdamda turizmin bir çox növünün (eko, dağ, qış, ovçuluq, dini, sağlamlıq və s.) inkişafı üçün böyük imkanlar vardır. Təbii sərvətlərlə zəngin olan Ağdamda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm və yaşıl turizm təşkil edilə bilər.

Gözəl turizm məkanı olan Ağdam ekoturizm, dağ turizmi, tibbi və mədəni turizm potensialından istifadə edərək Qarabağın iqtisadi dirçəlişinə töhfə verəcəkdir. Rayon ərazisində olan iqlim-balneoloji şərait, dağ meşələri, kurort məqsədləri üçün istifadə edilən mineral bulaqlar sayəsində Ağdamda ekoturizmi sürətlə inkişaf etdirmək olar. Bundan əlavə digər müalicəvi sular bölgənin işğal olunmamış ərazilərində qalmaqdadır. Buna misal olaraq Quzanlı kəndi ərazisindəki Çullu duzlu suyu göstərmək olar. İçməli su üçün qazılan quyudan indi də gur müalicəvi su hədər yerə axır. Təəssüf ki, 1952-ci ildə qazılan quyu hələ də istifadə olunmur.

Ağdamda mövcud olan əlverişli coğrafi şərait, adət-ənənələr, qonaqpərvərlik kənd yaşıl turizminin inkişafına əlverişli şərait yaradır. Ağdam rayonu aqroturizm üçün ideal məkandır. Daha sonralar kəndlərdə yaşayan gəncləri aqroturizm, fotoovçuluq, yaşıl turizm operatorluğu kimi yeni peşə və ixtisaslara həvəsləndirmək mümkündür. Kənd turizmi həm kənd təsərrüfatı üçün yaxşı mənbədir, həm də yeni iş yerləri və kəndlilər üçün əlavə qazanc deməkdir. Kənd turizminin inkişafı ilə əhalinin məşğulluq səviyyəsini qaldırmaq olar.

Ağdamın ecazkar təbiəti turistlərin marağına səbəb olacaqdır. Rayonun meşə fondu 4,7 min ha-dır, lakin işğal dövründə onların xeyli hissəsi Ermənistan tərəfindən məhv edilmişdir. Ağdamda 85 ədəd Şərq çinarı növünə məxsus qədim ağaclar təbiət abidələri kimi qeydə alınmışdır. Bunlardan 71 ədədi Boyəhmədli kəndində idi, hündürlüyü 25 metr, yaşı isə 440 il idi. Rayon ərazisində ümumi sahəsi 732 ha. olan Püstə meşəciyi qiymətli meşə sahələrindən idi. Nadir nəbatat obyekti olan həmin ağacların yaşı 370-400 il idi [5].

Onun ərazisindən axan çaylar da rafting (raft adı verilən qayıqları avar vasitəsilə idarə edərək, çay boyu qayaları və maneələri aşaraq devrilməməyə çalışmaq) üçün çox əlverişlidir.

Zamanla turist sayının artması, fəal istehlak turizm bazarının yaranmasına, turizm sahəsi üzrə məhsul istehsalının və yerli turizm sənayesinin investisiya cəlbediciliyinin artmasına səbəb olacaqdır. Turistlərin tələbatları nəticəsində istehsalın və satışın həcmi artdıqca bölgədə turizm sənayesinə uyğun yeni obyektlər (otellər, istirahət və əyləncə mərkəzləri, iaşə müəssisələri və s.) tikilə bilər.

Ticarət mərkəzlərinin yaradılması üçün Ağdamın özünəməxsus perspektivi vardır. Topdan və pərakəndə satış məntəqələrinin açılması ilə əhalisini işlə təmin etmək mümkündür. Ticarət mərkəzlərində, yerli bazarlarda gündəlik tələbat məhsulları ilə yanaşı, tariximizi əks etdirən və turistlərin diqqətini çəkən məhsulların alqı-satqısı həyata keçiriləcəkdir. Qarabağ mədəniyyətini təzahür etdirən rəngli toxuma ilə bəzədilmiş milli geyimlər, dulusçuluq məhsulları, ağacda oyma, zərgərlik məmulatı, metalda döymə, daş üzərində naxış oyulmuş suvenirlər, tariximizi əks etdirən əşyaların satılması turistlərin marağına səbəb olacaqdır və məhsulların satışı ilə rayonun büdcəsinə xeyli vəsait daxil olacaqdır.

Turistlərin marağına səbəb olan amillərdən biri Ağdamın özünə xas milli mətbəxdir. Ağdamın milli mətbəxini, həmçinin, şərablarını dadmaq üçün çoxsaylı turistlər səfər edəcəkdir. İstifadəyə verilən kafe və restoranlar rayonun zəngin mətbəxini turistlərə nümayiş etdirəcəkdir.

İnvestisiya baxımından turizm və xidmətlər sektoru çox cəlbedicidir. Bu sektor ölkənin infrastrukturunun inkişafı və xarici valyuta axını baxımından əhəmiyyətlidir. Digər tərəfdən, turizmin inkişafı üçün iqtisadi imkanlar təşkilati və iqtisadi proseslərin inkişafı üçün əlverişli şəraitin yaradılması deməkdir. Belə şərait öz növbəsində bu gəlirli sektorun infrastrukturunun genişlənməsinə, bu sahədə əlverişli şəraitin yaradılmasına, ölkəmizə gələn xarici turistlərin sayının artmasına səbəb olur. Rayonun əlverişli təbii şəraiti, saf iqlimi, mənzərəli dağ-meşə landşaftı, mineral bulaqlar, dağ gölləri, şəlalələr beynəlxalq əhəmiyyətli istirahət müəssisələrinin yaradılmasına imkan verəcəkdir. Bölgənin qeyri-adi gözəlliyi ölkəyə gələn investorlar tərəfindən qiymətləndirilərək turizm-rekreasiya cəhətdən perspektivli olduğu göstərilmişdir [4].

Qarabağı təhlükəsiz zonaya çevrilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən bütün tədbirlər burada turizm infrastrukturunun formalaşması və dinamik inkişafına səbəb olacaqdır. Beləliklə, Qarabağın turizm potensialı haqqında dünyaya çatdırılan reallıqlar Azərbaycana yeni investisiyaların cəlb olunmasına yollar açacaqdır.

Təbii ki, Ağdamın turizm imkanlarından tam istifadə etmək yalnız 3 əsas amil nəzərə alınarsa mümkün olacaqdır:

**1.** Ərazidə təhlükəsizliyin təmin edilməsi;
**2.** Əhalinin geri qayıtması;
**3.** İnfrastrukturun yaradılması.

Şübhə yoxdur ki, yaxın gələcəkdə bütün bu məsələlər həll edildikdən sonra Ağdam Azərbaycanın turizm sektorunda hegemonluğu ilə seçiləcək. Hətta əminliklə demək olar ki, Ağdam regional, sonra dünya turizm mərkəzinə çevriləcəkdir. İllər, onilliklər, yüzilliklər keçəcək, nəsillər dəyişəcək, Ağdam bərpa olunacaq, inkişaf edəcək, dəyişəcək...Dəyişməyən isə yeganə bir şey olacaq: Azərbaycanın Müzəffər Ali Baş Komandanının yazdığı tarix! İllər keçdikcə, tarixdə bu zəfəri yazmış şəxsiyyətin adı böyüyəcək, parıltısı artacaq və heç zaman dəyişməyəcək [2].

Ümummilli lider Heydər Əliyev Ağdamın işğalı ilə bağlı 1998-ci ildə Milli Məclisdə çıxışı zamanı demişdir: "*Mən dedim və bir daha təkrar edirəm, Ağdam Azərbaycanın ən gözəl guşəsidir. İnsanların əsrlər boyu yaşadığı qüdrətli bir yerdir. Ağdam bizim hamımız üçün əziz və müqəddəs şəhər və rayondur*" [1].

**Nəticə**

Beləliklə, zəngin mədəniyyəti və təbiət gözəllikləri ilə dünyada məşhur olan Qarabağda turizmin inkişaf etdirilməsi birbaşa Ağdamda da turizmin inkişaf etdirilməsinə təkan verəcəkdir. Ağdamın da zəngin təbii-coğrafi vəziyyətini layiqli və düzgün şəkildə tanıdılması işğaldan əvvəlki məşhurluğunu qazanmağa səbəb olacaqdır.

**Ağdamda turizmi inkişaf etdirmək üçün aşağıdakı təklifləri vermək olar:**

**1.** Turizm təşkilatları Ağdamda turizmin davamlı inkişafını təmin etmək məqsədi ilə əraziləri öyrənərək araşdırmalar aparmalı;
**2.** İxtisaslı kadrlar cəlb olunmalı;
**3.** Turizm infrastrukturları yaradılmalı;
**4.** Nəqliyyat və rabitə inkişaf etdirilməli;
**5.** Turizminin inkişafı üçün bir çox sahələrə investisiya qoyulmalı;
**6.** Turizminin davamlılığı üçün məhsul müxtəlifliyi təmin edilməli;
**7.** Kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməli;
**8.** Dünya ölkələrinin təcrübələrə müraciət edilməli;
**9.** Yerli əhalinin istək və yaradıcılığı ön plana çıxarılmalıdır və s.

Ağdam öz potensialı ilə yüksək inkişaf vəd etməkdədir. Otuz il ərzində düşmən tapdağı altında qalması rayona nə qədər böyük ziyan vursa da, ümid edirik ki, çox qısa zamanda Ağdam Azərbaycanın ən əsas iqtisadi rayonlarından birinə çeviriləcəkdir.

**İstinadlar**

1. https://aqreqator.az/az/cemiyyet/1435059
2. https://news.milli.az/politics/66101.html
3. https://hafta.az/susa-ve-agdamin-turizm-imkanlarina%0D%0Adeyen-ziyan-arasdirilib-11746-xeber.html
4. https://qafqazinfo.az/news/detail/susa-ve-agdamin-turizm-potensiali-arasdirilir
5. https://report.az/turizm/ordumuzun-isgaldan-azad-etdiyi-eraziler-turizm-sektoru-ucun-ne-ved-edir/

**AĞAKİŞİYEVA Günəş**

AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, c.f.d., dos.

# AĞDAMDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAF İMKANLARI

**Xülasə:** Məqalə Ağdamda kənd təsərrüfatının inkişaf imkanlarına həsr edilmişdir. Məqalədə kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edən aqroiqlim ehtiyatları öyrənilmiş, Ağdamın əsas aqroiqlim ehtiyatları üzrə Qarabağda yeri müəyyən edilmişdir. Ağdam rayonunun təbii şəraiti kənd təsərrüfatının inkişafı baxımından qiymətləndirilmiş, kənd təsərrüfatının hər 2 sahəsi - əkinçilik və heyvandarlıq üzrə təhlillər aparılmışdır. Həmçinin, Ağdamda kənd təsərrüfatının inkişaf imkanları SSRİ və müstəqillik dövrləri üzrə müqayisəli şəkildə təhlil edilmiş, kənd təsərrüfatının hər 2 sahəsi üzrə dinamika verilmişdir. Əkinçilikdə kənd təsərrüfatı bitkilərinin əkini, yığımı və məhsuldarlığı, heyvandarlıqda məhsul istehsalı və baş say üzrə göstəricilərin dinamikası araşdırılaraq, prioritet sahələrin inkişaf imkanları göstərilmişdir. Ağdamda kənd təsərrüfatının aparıcı sahə olduğunu nəzərə alaraq, əsaslandırılmış təkliflər verilmişdir.

**Açar sözlər:** əkinçilik, heyvandarlıq, üzümçülük, tərəvəzçilik, dənli və dənli-paxlalı bitkiçilik, kartofçuluq, bostançılıq.

## Giriş

Qarabağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının cənub-qərbində yerləşən Ağdam rayonunun relyefi əsasən düzənlik və qismən dağlıqdır. Ərazisindən Xaçın və Qarqar çaylarının axdığı rayonda şabalıdı, açıq şabalıdı, dağ tünd şabalıdı, qəhvəyi dağ meşə torpaqları yayılmışdır. Qeyd edilən amillər Ağdam rayonunun kənd təsərrüfatının inkişafı baxımdan əlverişli təbii şəraitə malik olduğunu şərtləndirir. Ağdam rayonu kənd təsərrüfatında taxılçılıq, üzümçülük, pambıqçılıq və heyvandarlıq üzrə ixtisaslaşmışdır.

Azərbaycanda kənd təsərrüfatı son illər daha da inkişaf edir və maddi-texniki bazası təkmilləşir. Sovet hakimiyyəti illərində respublikamızın kənd təsərrüfatı tamamilə yenidən qurulmuş, kənd təsərrüfatı xammalının emalı ilə məşğul olan güclü yeyinti və yüngül sənaye sahələri formalaşmışdır. Həmçinin, kənd təsərrüfatı üçün maşın, avadanlıq, gübrə və yem istehsal edən sənaye sahələri və kənd təsərrüfatı texnikasının təmiri ilə məşğul olan müəssisələr şəbəkəsi yaradılmışdır.

Kənd təsərrüfatı iqtisadiyyatın aparıcı sahələrindən biri olmaqla, ərzaq təhlükəsizliyinin təminatında böyük əhəmiyyətə malikdir. Kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edən aqroiqlim ehtiyatlarına ümumi radiasiyanın illik miqdarı, radiasiya balansının illik miqdarı, havanın orta illik temperaturu, torpaq səthinin orta illik temperaturu, $5^0$C-dən yuxarı olan temperaturun illik miqdarı, $10^0$C-dən yuxarı olan temperaturun illik miqdarı, birinci payız şaxtasının orta

tarixi, axırıncı yaz şaxtasının orta tarixi, havanın orta illik nisbi rütubəti, yağıntıların illik miqdarı, qarla örtülü günlərin sayı və dolu düşən günlərin sayı aiddir [3]. Qiymətləndirmə əsasında Qarabağda aqroiqlim ehtiyatlarından – radiasiya balansının illik miqdarında və birinci payız şaxtasının orta tarixində Ağdam rayonu fərqlənir.

Bu baxımdan ümumilikdə ölkənin, o cümlədən Ağdam rayonunun təsərrüfat strukturunda vacib rol oynayan kənd təsərrüfatının tədqiqi vacibdir.

**Təhlil və qiymətləndirmə**

2019-cu ildə Azərbaycanda kənd təsərrüfatı məhsulu 7836696,2 min man, o cümlədən bitkiçilikdə 3751207,8 min man, heyvandarlıqda 4085488,4 min man olmuşdur. Ağdam rayonunda bu göstəricilər müvafiq olaraq 169422,8 min man, 104965,0 min man, 64457,8 min man təşkil etmişdir [2, s. 21-23]. "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 11.04.2017-ci il tarixli, "Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında" 19.08.2015-ci il tarixli, "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 15.04.2015-ci il tarixli, "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 03.04.2015-ci il tarixli sərəncamlar, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" haqqında 06.12.2016-cı il tarixli fərman Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsinin hüquqi-normativ bazasını təşkil edir.

Sovet hakimiyyəti illərində Ağdamda tikilib istifadəyə verilən kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrinə Konserv zavodu (1973-cü il), Çörəkbişirmə müəssisəsi (1974-cü il) və "Əli Bayramov" adına üzümçülük sovxozunda ilkin şərab zavodu (1976-cı il) aiddir [4]. 1985-ci ildə kənd təsərrüfatı təyinatlı torpaqların Ağdamda 29%-ni əkin sahələri təşkil etmişdir. Əkin sahələri rayonda 2000-2010-cu illərdə 2,6 dəfə, 2010-2019-cu illərdə isə 1255 ha artmışdır.

**Əkinçilik.**

Dənli və dənli-paxlalı bitkiçilik əkin sahəsinə görə bitkiçilikdə mühüm yer tutur. Taxılçılıq ərazinin iqlim şəraitindən asılı olaraq, payızlıq və yazlıq növlərə bölünür. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində buğda daha əhəmiyyətlidir. Arpa əkinləri əhəmiyyətinə görə, buğdadan sonra ikinci yeri tutur. Dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 1965-1975-ci illərdə Ağdamda 1,3 dəfə artmış, 1975-1985-ci illərdə isə 2,2 dəfə azalmışdır. Dənli və dənli-paxlalı bitkilərin yığımı 1965-1975-ci illərdə Ağdamda 2,3 dəfə, 1975-1985-ci illərdə isə 1,1 dəfə artmışdır. Dənli və dənli-paxlalı bitkilərin məhsuldarlığı 1965-1975-ci illərdə Ağdamda 1,8 dəfə, 1975-1985-ci illərdə isə 2,4 dəfə artmışdır.

***Tərəvəzçilik*** sürətlə inkişaf etdirilən əkinçilik sahələrindən biridir. Tərəvəz əkini 1965-1975-ci illərdə Ağdamda 1,2 dəfə azalmış, 1975-1985-ci illərdə isə 1,4 dəfə artmışdır. Tərəvəz yığımı 1965-1975-ci illərdə Ağdamda 1,3 dəfə azalmış, 1975-1985-ci illərdə isə 2,9 dəfə artmışdır.

**Cədvəl 1. SSRİ dövründə Ağdamda kənd təsərrüfatı bitkilərinin inkişaf dinamikası**

| | **Əkin sahəsi, ha** | | | **Məhsul yığımı, ton** | | | **Məhsuldarlıq, sent/ha** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1965 | 1975 | 1985 | 1965 | 1975 | 1985 | 1965 | 1975 | 1985 |
| **Dənli və dənli-pax-lalı bitkilər** | 12245 | 15956 | 7322 | 11601 | 26771 | 29766 | 9,5 | 16,8 | 41,2 |
| **Tərəvəz** | 211 | 176 | 252 | 533 | 403 | 1189 | 35 | 24 | 77 |
| **Bostan bitkiləri** | 173 | 209 | 94 | 36 | 300 | 499 | 3 | 20 | 54 |
| **Üzüm** | 3678 | 11765 | 18065 | 5873 | 37140 | 104004 | 36,3 | 60,7 | 76,0 |

***Mənbə:*** *Сельское хозяйство Азербайджанской ССР. Государственный Комитет Азербайджанской ССР по Статистике. Статистический Сборник, часть II. Баку, 1987, 472 стр.*

Yerli əhəmiyyət kəsb edən əkinçilik sahələrindən biri də ***bostançılıqdır***. Ərzaqlıq bostan bitkilərinin əkini 1970-1975-ci illərdə Ağdamda 1,2 dəfə artmış, 1975-1985-ci illərdə isə 2,2 dəfə azalmışdır. Ərzaqlıq bostan bitkilərinin yığımı 1970-1975-ci illərdə Ağdamda 8,3 dəfə, 1975-1985-ci illərdə isə 1,7 dəfə artmışdır.

Üzümçülük əkinçiliyin perspektivli sahəsi kimi fərqlənir. Üzüm bağlarının əkin sahəsi 1965-1975-ci illərdə Ağdamda 3,2 dəfə, 1975-1985-ci illərdə isə 1,5 dəfə artmışdır. Üzüm yığımı 1965-1975-ci illərdə Ağdamda 6,3 dəfə, 1975-1985-ci illərdə isə 2,8 dəfə artmışdır.

Sovet hakimiyyəti illərində ***texniki bitkiçiliyin*** inkişafına, məhsuldar sortların yetişdirilməsinə xüsusi diqqət ayrılmışdır. Pambıqçılıq yüksək keyfiyyətli əmtəəlik məhsul istehsalı üzrə ixtisaslaşdırılmış intensiv əkinçilik sahəsidir. Pambıq əkini 1965-1975-ci illərdə Ağdamda 138 ha, 1975-1985-ci illərdə isə 1,8 dəfə azalmışdır.

Yüksək dağlıq zonanı çıxmaqla, ərazinin təbii şəraitinin onun inkişafı üçün əlverişli olduğu sahə ***bağçılıqdır***. Meyvə bağlarının əkin sahəsi 1965-1975-ci illərdə Ağdamda 1,5 dəfə, 1975-1985-ci illərdə isə 1,3 dəfə azalmışdır.

Dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 2000-2010-cu illərdə Ağdamda 2,6 artmış, 2010-2019-cu illərdə isə 1,3 dəfə azalmışdır. Dənli bitkilərin əkin sahəsinin Ağdamda payızlıq və yazlıq buğda 84,5%-ni, payızlıq və yazlıq arpa 15,3%-ni təşkil edir. Dənli və dənli-paxlalı bitkilərin yığımı 2000-2010-cu illərdə Ağdamda 2,1 dəfə, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır. Dənli bitkilərin yığımının Ağdamda payızlıq və yazlıq buğda 85,6%-ni, payızlıq və yazlıq arpa 14,1%-ni təşkil edir. Dənli və dənli-paxlalı bitkilərin məhsuldarlığı 2000-2010-cu illərdə Ağdamda 1,2 dəfə azalmış, 2010-2019-cu illərdə isə 1,8 dəfə artmışdır.

Pambıq əkini 2000-2010-cu illərdə Ağdamda 2429 ha azalmış, 2010-2019-cu illərdə isə 2504 ha artmışdır. Pambıq yığımı 2000-2010-cu illərdə Ağdamda 1658 ton azalmış, 2010-2019-cu illərdə isə 7218 ton artmışdır. Pambığın məhsuldarlığı 2000-2010-cu illərdə Ağdamda 1,4 dəfə, 2010-2019-cu illərdə isə 2,8 dəfə artmışdır.

Əhalinin ərzaq məhsullarına tələbatının təmin edilməsində vacib əhəmiyyət kəsb edən sahələrdən biri də ***kartofçuluqdur***. Kartof əkini 2000-2010-cu illərdə Ağdamda 3,8 dəfə artmış, 2010-2019-cu illərdə isə 1,1 dəfə azalmışdır. Kartof yığımı 2000-2010-cu illərdə Ağdamda 5925 ton artmış, 2010-2019-cu illərdə isə 1,1 dəfə azalmışdır. Kartofun məhsuldarlığı 2000-2010-cu illərdə Ağdamda 3,3 dəfə artmış, 2010-2019-cu illərdə isə 2 sent/ha azalmışdır.

Tərəvəz əkini 2000-2010-cu illərdə Ağdamda 4,7 dəfə, 2010-2019-cu illərdə isə 2,0 dəfə artmışdır. Tərəvəz yığımı 2000-2010-cu illərdə Ağdamda 39052 ton, 2010-2019-cu illərdə isə 2,6 dəfə artmışdır. Tərəvəzin məhsuldarlığı 2000-2010-cu illərdə Ağdamda 3,3 dəfə, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır.

Ərzaqlıq bostan bitkiləri əkini 2010-2019-cu illərdə Ağdamda 1,6 dəfə, yığımı 1,6 dəfə azalmış, məhsuldarlıq isə 1,1 dəfə artmışdır.

Bağlar və giləmeyvə əkin sahəsi 2000-2010-cu illərdə Ağdamda 1,7 dəfə, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır. Meyvə və giləmeyvəlilərin yığımı 2000-2010-cu illərdə Ağdamda 1,1 dəfə, 2010-2019-cu illərdə isə 1,9 dəfə artmışdır. Meyvə və giləmeyvəlilərin məhsuldarlığı 2000-2010-cu illərdə Ağdam-da 1,2 dəfə azalmış, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır.

**Cədvəl 2. Müstəqillik dövründə Ağdamda kənd təsərrüfatı bitkilərinin inkişaf dinamikası**

| | Əkin sahəsi, ha | | | Məhsul yığımı, ton | | | Məhsuldarlıq, sent/ha | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2010 | 2019 | 2000 | 2010 | 2019 | 2000 | 2010 | 2019 |
| **Dənli və dən-li-paxlalı bitkilər** | 7459 | 19124 | 14462 | 19941 | 41703 | 55674 | 26,7 | 21,8 | 38,5 |
| **Pambıq** | 2526 | 97 | 2601 | 1756 | 98 | 7316 | 7,0 | 10,1 | 28,1 |
| **Kartof** | 102 | 393 | 373 | 500 | 6425 | 6025 | 49 | 164 | 162 |
| **Tərəvəz** | 484 | 2265 | 4497 | 2683 | 41735 | 107492 | 55 | 184 | 235 |
| **Bostan bitkiləri** | | 230 | 146 | - | 4668 | 2960 | - | 203 | 216 |

**Mənbə:** *Azərbaycanın kənd təsərrüfatı. ARDSK. Bakı, 2020, 650 s.*

***Heyvandarlıq.*** Heyvandarlığın inkişafında yem bazası mühüm əhəmiyyət kəsb edir. Sovet hakimiyyəti illərində ***yem bitkilərinin*** əkin sahəsi genişləndirilmiş və çeşidi çoxalmışdır. Yem bitkiləri əkini 1965-1975-ci illərdə Ağdamda 1,8 dəfə, 1975-1985-ci illərdə isə 1,3 dəfə artmışdır. Yem bitkiləri əkini 2000-2010-cu illərdə Ağdamda 6765 ha, 2010-2019-cu illərdə isə 1,1 dəfə artmışdır.

***Maldarlıq*** heyvandarlığın ən mühüm sahəsidir. Maldarlıqda əsas yeri qaramal tutur. İri buynuzlu mal-qaranın sayı 1965-1975-ci illərdə Ağdamda 1,1 dəfə azalmış, 1975-1985-ci illərdə isə 1,4 dəfə artmışdır. İri buynuzlu mal-qaranın sayı 2000-2010-cu illərdə Ağdamda 1,6 dəfə, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır.

İnək və camışların sayı 1965-1975-ci illərdə Ağdamda 1,1 dəfə azalmış, 1975-1985-ci illərdə isə 1,4 dəfə artmışdır. İnək və camışların sayı 2000-2010-cu illərdə Ağdamda 1,4 dəfə, 2010-2019-cu illərdə isə 1,3 dəfə artmışdır.

***Qoyunçuluq*** heyvandarlığın ənənəvi sahəsidir. Qoyun və keçilərin sayı 1965-1975-ci illərdə Ağdamda 1,4 dəfə, 1975-1985-ci illərdə isə 1,3 dəfə artmışdır. Qoyun və keçilərin sayı 2000-2010-cu illərdə Ağdamda 1,3 dəfə, 2010-2019-cu illərdə isə 3998 baş artmışdır.

***Quşçuluq*** heyvandarlığın sənaye əsasları ilə inkişaf etdirilən sahəsidir. Quşların sayı 1965-1975-ci illərdə Ağdamda 3,4 dəfə, 1975-1985-ci illərdə isə 3,2 dəfə artmışdır. Quşların sayı 2005-2010-cu illərdə Ağdamda 1,1 dəfə, 2010-2019-cu illərdə isə 1,2 dəfə artmışdır.

**Cədvəl 3. Ağdamda mal-qaranın sayının və heyvandarlıq məhsullarının istehsalının inkişaf dinamikası**

| | 1965 | 1975 | 1985 | 2000 | 2010 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Mal-qaranın sayı** | 34267 | 31417 | 43318 | 20771 | 32510 | 42297 |
| **O cümlədən inək və camışlar** | 13915 | 12168 | 16822 | 10977 | 14930 | 19165 |
| **Qoyun və keçilər** | 98102 | 135839 | 171673 | 79693 | 100770 | 104768 |
| **Quşlar** | 16901 | 57825 | 185449 | 176553 | 199803 | 250590 |
| **Atlar** | 1580 | 1483 | 915 | 334 | 240 | 356 |
| **Donuzlar** | 41 | - | 602 | | | |
| **Arı ailələri** | | | | 41 | 183 | 6118 |
| **Heyvandarlıq məhsulları istehsalı, ət istehsalı, kəsilmiş çəkidə, ton** | 1473 | 2120 | 3537 | 1119 | 1545 | 2653 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Süd istehsalı, ton** | 8567 | 11810 | 22573 | 10994 | 26856 | 37873 |
| **Yumurta istehsalı, min ədəd** | 6274 | 10212 | 17400 | 8639 | 8045 | 15019 |
| **Yun istehsalı, ton** | 158,7 | 255,5 | 348,4 | 142 | 147 | 204 |

***Mənbə:*** *Azərbaycanın kənd təsərrüfatı. ARDSK. Bakı, 2020, 650 s.*

*Сельское хозяйство Азербайджанской ССР. Государственный Комитет Азербайджанской ССР по Статистике. Статистический Сборник, часть II. Баку, 1987, 472 стр.*

***Atçılıq*** həm təsərrüfatda, həm də əhalinin həyat və məişətində qəhrəmanlıq salnaməsi yaratmasında çox əhəmiyyətli rol oynamışdır. Qarabağ atları dünyada ən qədim mədəni at cinslərindən olmaqla, xalq seleksiyası sayəsində Qarabağda formalaşmışdır. Qarabağ atlarının cins kimi təkmilləşdirilməsində Ağdam atçılıq zavodunun yaradılmasının böyük rolu olmuşdur. Bu zavod rəsmi olaraq SSRİ Nazirlər Sovetinin 8 oktyabr 1948-ci il və Azərbaycan SSR Nazirlər Sovetinin 27 may 1949-cu il tarixli qərarları ilə Xaldan quşçuluq sovxozunun ərazisində yaradılmışdır. Zavod 1949-cu ilin sentyabrında Ağdam rayonu yaxınlığındakı Göytəpə adlanan əraziyə köçürülmüşdür. 1993-cü ildə Ağdam rayonunun ermənilər tərəfindən işğal edilməsindən sonra Qarabağ atları köçkünlük həyatı yaşasa da, 44 günlük müharibə nəticəsində bütün işğal altında olan rayonlar kimi Ağdam da azad edilmişdir. 1994-cü ildən Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərən Qarabağ atçılıq kompleksi Qarabağ atlarının yetişdirməsini davam etdirmişdir.

Atların sayı 1965-1975-ci illərdə Ağdamda 1,1 dəfə, 1975-1985-ci illərdə isə 1,6 azalmışdır. Atların sayı 2000-2010-cu illərdə Ağdamda 1,4 dəfə azalmış, 2010-2019-cu illərdə isə 1,5 dəfə artmışdır.

Heyvandarlığın ənənəvi sahələrindən biri də ***arıçılıqdır***. Arı ailələri 2005-2010-cu illərdə Ağdamda 4,5 dəfə, 2010-2019-cu illərdə isə 5935 vahid artmışdır.

Heyvandarlıq məhsullarının istehsalında ət, süd, yumurta və yun istehsalı göstəriciləri təhlil edilmişdir. Ət istehsalı 1965-1975-ci illərdə Ağdamda 1,4 dəfə, 1975-1985-ci illərdə isə 1,7 dəfə artmışdır. Süd istehsalı 1965-1975-ci illərdə Ağdamda 1,4 dəfə, 1975-1985-ci illərdə isə 1,9 dəfə artmışdır. Yumurta istehsalı 1965-1975-ci illərdə Ağdamda 1,6 dəfə, 1975-1985-ci illərdə isə 1,7 dəfə artmışdır. Yun istehsalı 1965-1975-ci illərdə Ağdamda 1,6 dəfə, 1975-1985-ci illərdə isə 1,7 dəfə artmışdır.

Ət istehsalı 2000-2010-cu illərdə Ağdamda 1,4 dəfə, 2010-2019-cu illərdə isə 1,7 dəfə artmışdır. Süd istehsalı 2000-2010-cu illərdə Ağdamda 2,4 dəfə, 2010-2019-cu illərdə isə 1,4 dəfə artmışdır. Yumurta istehsalı 2000-2010-cu illərdə Ağdamda 1,1 dəfə azalmış, 2010-2019-cu illərdə isə 1,9 dəfə artmışdır. Yun istehsalı 2000-2010-cu illərdə Ağdamda 5 ton, 2010-2019-cu illərdə isə 1,4 dəfə artmışdır.

İnkişaf imkanları. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" 19.11.2014-cü il və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 21.08.2015-ci il tarixli sərəncamları ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qarabağ atı cinsinin inkişaf etdirilməsi tədbirlərinin həyata keçirilməsi məqsədi ilə ayrılmış 3,5 milyon manat vəsait əsasında Ağdam atçılıq zavodunda atçılıq kompleksi yenidən qurulmuş və digər binalar inşa olunmuşdur. Atçılığın elmi əsaslarla və yeni texnologiyalar tətbiq olunmaqla inkişaf etdirilməsi məqsədi ilə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan və fəaliyyəti məqsədəuyğun hesab edilməyən təsərrüfathesablı dövlət müəssisə və təşkilatlarının ləğvi, özəlləşdirilməsi və yenidən təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 aprel tarixli 112 nömrəli qərarına əsasən Ağdam rayonundakı "Atçılıq zavodu" MMC-nin adı dəyişdirilərək "Ağdam atçılıq təsərrüfatı" adlandırılmış və Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyinə verilmişdir.

Qarabağ ərazisi kənd təsərrüfatının inkişafı baxımından əlverişli şəraitə malik olduğundan, eləcə də əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün aqrar sahə mühüm əhəmiyyət daşıdığından, dövlət prioritet sahə kimi kənd təsərrüfatını daima diqqətdə saxlayır. İlk öncə işğaldan azad

edilən ərazilər minalardan təmizlənir və sonra həmin yerlərdə əkin işləri aparılır. Azərbaycanın işğaldan azad olunan Cəbrayıl rayonunda yeni əkin sahələri salınır. Əkin sahələrində dəmyə şəraitində becəriləcək yem bitkiləri yüksək məhsuldarlığı ilə seçilir. Yem bitkilərinin becərilməsi ilə azad edilmiş ərazilərdə yazlıq əkinlərə başlanılmışdır. Cəbrayıl rayonundan sonra işğaldan azad olunan digər rayonlarda da əkin işləri aparılacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə mövcud su ehtiyatları çərçivəsində, Ağdam rayonunda Xaçınçay su anbarı və Füzuli şəhərinin yaxınlığında su anbarı yerləşir. Prezidentin göstərişi ilə işğaldan azad edilmiş ərazilərdə olan su anbarlarının parametrlərinin təhlili məqsədilə işçi qrup bu yerlərə ezam edilmişdir ki, bunun da məqsədi həmin qurğulardan səmərəli istifadə etməkdir. Tərtərçay, Bərgüşad çayı, Həkəri çayı, Oxçuçay və digər 10-a yaxın çay həmin ərazilərdə formalaşır. Prezidentin göstərişinə görə həmin çayların potensialı təhlil edilməli, məcra ilə bağlı düzgün araşdırma aparılmalıdır. Əsas məqsəd əsasən Araz çayına axan bu çaylardan səmərəli istifadə etmək yollarını müəyyənləşdirməkdir. Həmçinin, azad edilmiş ərazilərdə su anbarlarının tikintisinə ehtiyacın olması məsələsi də gündəmdədir. Həcmi 1,6 mlrd $m^3$ olan Xudafərin su anbarından istifadə etmək üçün əlavə infrastruktur layihələri icra edilməli, kanallar çəkilməlidir. Çəkiləcək kanallar sayəsində Zəngilan, Cəbrayıl, Qubadlı və digər rayonlar da Xudafərin su anbarının suyundan istifadə etmək imkanı əldə edəcəklər. Su ehtiyatları və onlardan səmərəli istifadə məsələsi prioritet xarakter daşıdığından, dövlətin diqqətində olmaqla, bu məqsədlə büdcədən böyük həcmdə vəsait ayrılmış və genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti 27 aprel 2021-ci ildə "Respublikanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" fərman imzalamışdır. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi səlahiyyətlərinin həyata keçirilməsi Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilmişdir. Nazirliyə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi, icarəyə verilən torpaqlardan təyinatı üzrə istifadəyə nəzarətin həyata keçirilməsi, torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsi, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı yerlərinin (əkinlərinin) dəyişdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında məsələ qaldırılması tapşırılır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 31 may 2021-ci ildə Ağdam və Tərtər rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair sərəncam imzalamışdır. Sərəncama əsasən Ağdam və Tərtər rayonlarının əhalisi 25950 nəfər olan 18 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə 2021-ci il dövlət büdcəsindən 1,4 mln manat Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Cəmiyyətinə ayrılmışdır.

**Nəticə və təkliflər**

Yuxarıda qeyd edilənləri əsas tutaraq aşağıdakı nəticələrə gəlmişik:

- Ağdamda kənd təsərrüfatının inkişafını şərtləndirən amillər təhlil edilərək, ərazinin təbii şəraitinin əlverişli olduğu müəyyən edilmişdir;

- Əkinçilikdə əkin sahəsində 1965-1975-ci illərdə dənli və dənli-paxlalı bitkilər, yem bitkiləri, bostan bitkiləri, üzüm üzrə artım, pambıq, meyvə və tərəvəzdə azalma, 1975-1985-ci illərdə dənli və dənli-paxlalı bitkilər, pambıq, meyvə, bostan bitkiləri üzrə azalma, yem bitkiləri, üzüm və tərəvəzdə artım, 2000-2010-cu illərdə dənli və dənli-paxlalı bitkilər, kartof, yem bitkiləri və tərəvəzdə artım, pambıq üzrə azalma, 2010-2019-cu illərdə dənli və dənli-paxlalı bitkilər, kartof və bostan bitkilərində azalma, pambıq, tərəvəz və yem bitkiləri üzrə artım qeydə alınmışdır;

- Əkinçilikdə məhsul yığımında 1965-1975-ci illərdə dənli və dənli-paxlalı bitkilər, bostan bitkiləri və üzüm üzrə artım, tərəvəzdə azalma, 1975-1985-ci illərdə dənli və dənli-paxlalı bitkilər, bostan bitkiləri, tərəvəz və üzüm üzrə artım, 2000-2010-cu illərdə dənli və dənli-paxlalı bitkilər, kartof, tərəvəzdə artım, pambıq üzrə azalma, 2010-2019-cu illərdə dənli və dənli-paxlalı bitkilər,

pambıq və tərəvəzdə artım, kartof və bostan bitkiləri üzrə azalma müəyyən edilmişdir;

- Əkinçilikdə məhsuldarlıqda 1965-1975-ci illərdə dənli və dənli-paxlalı bitkilər, bostan bitkiləri, pambıq və üzüm üzrə artım, meyvə və tərəvəzdə azalma, 1975-1985-ci illərdə dənli və dənli-paxlalı, pambıq, meyvə, bostan bitkiləri, tərəvəz və üzüm üzrə artım, 2000-2010-cu illərdə dənli və dənli-paxlalı bitkilərdə azalma, pambıq, kartof və tərəvəz üzrə artım, 2010-2019-cu illərdə dənli və dənli-paxlalı bitkilər, pambıq, tərəvəz və bostan bitkilərində artım, kartof üzrə azalma qeydə alınmışdır;

- Heyvandarlıqda baş sayında 1965-1975-ci illərdə iri buynuzlu mal-qara, o cümlədən inək və camışlar, atlar üzrə azalma, quşlar, qoyun və keçilərdə artım, 1975-1985-ci illərdə iri buynuzlu mal-qara, o cümlədən inək və camışlar, quşlar, qoyun və keçilərdə artım, atlar üzrə azalma, 2000-2010-cu illərdə iri buynuzlu mal-qara, o cümlədən inək və camışlar, quşlar, arı ailələri, qoyun və keçilərdə artım, atlar üzrə azalma, 2010-2019-cu illərdə iri buynuzlu mal-qara, o cümlədən inək və camışlar, quşlar, arı ailələri, atlar, qoyun və keçilərdə artım müəyyən edilmişdir;

- Heyvandarlıqda məhsul istehsalında 1965-1975-ci və 1975-1985-ci illərdə ət, süd, yumurta və yun istehsalı üzrə artım, 2000-2010-cu illərdə ət, süd və yun istehsalı üzrə artım, yumurtada azalma, 2010-2019-cu illərdə ət, süd, yumurta və yun istehsalı üzrə artım qeydə alınmışdır;

- Qarabağ ərazisi, o cümlədən Ağdam rayonu kənd təsərrüfatının inkişafı baxımından əlverişli şəraitə malik olduğundan, eləcə də əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün aqrar sahə mühüm əhəmiyyət daşıdığından, dövlət prioritet sahə kimi kənd təsərrüfatını daima diqqətdə saxlayır və ilk öncə işğaldan azad edilən ərazilər minalardan təmizlənir və sonra həmin yerlərdə əkin işləri aparılır;

- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 27 iyul 2020-ci il tarixli sərəncamında edilən dəyişiklik, həmçinin "Ağdam və Tərtər rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair" 31 may 2021-ci il tarixli sərəncamı, "Respublikanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 27 aprel 2021-ci il tarixli fərmanı Ağdamda kənd təsərrüfatının inkişaf perspektivlərini stimullaşdırır.

## İstinadlar


1. Azərbaycanın kənd təsərrüfatı. ARDSK. Bakı, 2020, 650 s.
2. Azərbaycanın regionları. ARDSK. Bakı, 2020, 827 s.
3. Hacıyev Q.Ə., Rəhimov V.Ə. Azərbaycan SSR inzibati rayonlarının iqlim səciyyəsi. Bakı: Elm, 1977, 270 s.
4. Xalqa həsr olunan illər (II nəşr). ARDSK. Bakı, 2013.
5. Сельское хозяйство Азербайджанской ССР. Гос.Комитет Азербайджанской ССР по Статистике. Статистический Сборник, часть II. Баку, 1987, 472 стр

**ALIYEV Xətai**

UNEC Empirik Tədqiqatlar Mərkəzi, i.f.d., baş müəllim

# VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN ZƏFƏRİN SOSİOLOJİ TƏSİRLƏRİ VƏ QARABAĞDA İQTİSADİYYAT QURUCULUĞUNDA ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə Vətən Müharibəsinin Azərbaycan cəmiyyətində buraxdığı dərin sosial-psixoloji izlər, işğalda olan torpaqların azad edilməsi və zəfərdən qaynaqlanan milli özünüdərkin güclənməsi cəmiyyətdə düşüncə transformasiyasına təsiri keçirilən sosioloji sorğu məlumatları əsasında təhlil edilərək Vətən Müharibəsinin sosioloji təsirlərinin Qarabağın yenidən qurulması üçün əhəmiyyəti vurğulanır və zəfərin müsbət sosioloji təsirlərinin daha uzunmüddətli olması üçün Qarabağda iqtisadiyyat quruculuğunun Vətən Müharibəsinin 2-ci mərhələsi kimi cəmiyyətə təqdim edilməsi tövsiyə olunur

**Açar sözlər:** Vətən Müharibəsi, Azərbaycan, həyat məmnuniyyəti, institutsional inam, Qarabağın bərpası.

→

## Giriş

Müharibə, əlbəttə ki, arzuolunmazdır və konfliktlərin sülh yolu ilə həlli üçün bütün imkanlar bitdikdən sonra qaçılmazdır. Tarixi ədaləti və beynəlxalq hüququn tələblərini yerinə yetirmək, həmçinin də onilliklər boyunca məcburi köçkün həyatı yaşayan insanların kobudcasına pozulan hüquqlarını bərpa etmək Azərbaycan üçün müharibəni qaçılmaz etdi. Müstəqilliyin yenidən bərpasından sonra Qarabağın işğalı və yüz minlərlə insanın öz doğma yurd-yuvalarından onillər boyunca ayrı qalması Azərbaycan cəmiyyəti üçün həm siyasi və iqtisadi, həm də sosioloji baxımdan ciddi travma idi. Müxtəlif konflikt zonaları üçün aparılan tədqiqatlarda müharibə və həyat məmnuniyyəti (*Welsch, 2008; Harari, 2008; Teerawichitchainan və Korinek, 2012; Coupe və Obrizan, 2016; Frey, 2018; Jenkins, 2019*) arasında əlaqənin mövcudluğu və silahlı konfliktlərin sosial-psixoloji (*Welsch, 2008; Hagen və Yohani, 2010*) və iqtisadi inkişafa (*Gates və digərləri, 2012*) əhəmiyyətli təsiri olduğu öz təsdiqini tapıb. 1-ci Qarabağ müharibəsinin nəticələri Azərbaycan cəmiyyəti tərəfindən qəbul olunmaz idi və insanlar nə yollar olur olsun işğal altında olan torpaqların azad olunmasını tələb edirdi. Bu çərçivədə, Ermənistan tərəfindən 2020-ci ilin iyul ayında Tovuz rayonu istiqamətində təxribatlar Azərbaycanda əhalinin səbrini daşırdı və minlərlə insan müharibə tələbi ilə ayağa qalxdı (BBC, 2020). Proseslərin məntiqi davamı kimi , 2020-ci ilin sentyabrında başlayan və 44 gün ərzində Azərbaycan ordusunun zəfəri ilə nəticələnən Vətən Müharibəsi tarixdə öz yerini tapdı.

Faktiki olaraq Vətən Müharibəsi Azərbaycan üçün yeni reallıqlar yaratdı. Bu reallıqları siyasi və iqtisadi arenada daha aydın müşahidə etmək mümkün olsa da sosioloji baxımdan sorğu əsaslı əlavə təhlillərin aparılması zəruridir. 44 günlük müharibə bir daha sübut etdi ki, Qarabağ Azərbaycan cəmiyyəti üçün "birləşdirici" faktordur. Qazanılan zəfər Azərbaycan xalqı üçün milli özünüdərk və inamın yenidən "doğuşu" hesab oluna bilər. Bu isə Qarabağın bərpa və yenidən qurulmasında, həmçinin də repatriasiyanın effektiv təşkilində əhəmiyyətli rol oynayacaq.

Vətən Müharibəsinin sosioloji təsirləri dedikdə cəmiyyətdə düşüncə transformasiyası, dövlət-vətəndaş həmrəyliyi, həyatdan məmnunluq və gələcəyə olan ümidliliyin necə dəyişdiyinin təhlili nəzərdə tutulur. Sosioloji təsirlər bütün Azərbaycan cəmiyyətinə aid olsa da məcburi köçkün statusunu (rəsmi və ya qeyri-rəsmi) daşıyanlar üçün xüsusi bir nüansın varlığı diqqətdən kənarda qalmamalıdır. Vətən Müharibəsində qazanılan zəfər bu statusu daşıyan insanlara "mən daha məcburi köçkün deyiləm" demək şansı qazandırdı. Eyni zamanda, işğaldan azad olunan ərazilərin yenidən qurulması və "cənnətə çevrilməsi" birbaşa olaraq "məcburi köçkün" statusu daşıyan insanların davranış və gözləntiləri ilə əlaqəli olacaq. Buna görə də Vətən Müharibəsinin sosioloji təsirlərinin Qarabağda yeni iqtisadiyyat quruculuğu üçün fürsətə çevrilməsi məqsədəuyğundur.

Yuxarıda qeyd olunan çərçivədə Vətən Müharibəsinin sosioloji təsirlərini araşdırmaq üçün müharibədən əvvəl və sonra keçirilən ölkə səviyyəli sosial sorğuların nəticələri kifayət qədər informativdir. Təsirin təhlil olunduğu ən əsas sorğu (Sosial Sorğu -6) post-müharibə dövründə, 2021-ci ilin 1-31 yanvar tarixində keçirilib və sorğuda 2679 nəfər iştirak edib. Sorğunu cavablandıranlar arasında 1219-u kişi, 1460-ı isə qadındır və orta yaş olaraq 35.83 qeydə alınmışdır. Qeyd edək ki, iştirakçılar arasında 57 şəhid ailəsi var, 129 nəfərin ailə üzvü sağlamlığını itirib, 105 nəfər müharibə iştirakçısıdır və 207 nəfər keçmiş məcburi köçkün var. Eyni zamanda, 1260 nəfər dostu və / və ya qohumunun şəhid olduğunu, 1003 nəfər isə sağlamlığını itirdiyini qeyd edib. Müqayisə üçün istifadə edilən digər sorğu (Sosial Sorğu -5) isə 2020-ci il 10 iyul – 25 avqust tarixlərində 2258 nəfər arasında keçirilib. Hər iki sorğu pandemiya səbəbiylə onlayn formada yerinə yetirilmişdir. "Sosial Sorğu-5 (SS5)"də məcburi köçkünlərin identifikasiyası üçün sual yoxdur. Buna görə də müharibədən əvvəl və sonrakı dövrün müqayisəli təhlili bütünlükdə Azərbaycan üçün mümkündür. Məcburi köçkünlərlə bağlı xüsusi təhlil isə "Sosial Sorğu-6 (SS6)"dan əldə olunan nəticələr əsasında yerinə yetiriləcək.

**Metodoloji qeydlər**

Təhlildə istifadə ediləcək hər iki sorğuda respondentlərin həyatdan məmnunluğu xüsusi metodologiya (Pavot və Diener, 1993, 2009) əsasında 5-35 intervalında qiymətləndirilib. Bundan başqa, sorğularda qısa və uzun müddətli dövrlər (*yaxın 1 il, 1-3 il, 3-5 il, 5-10 il və 10 ildən çox müddət*) üçün iştirakçıların gələcəyə olan ümidliliyi 5-lik Likert şkalası əsasında ölçülmüşdür. Vətən Müharibəsinin sosioloji təsirlərini ölçmək üçün "Sosial Sorğu-6"da aşağıdakı suallar qoyulmuşdur:

- Vətən müharibəsindən sonra özümü daha xoşbəxt hiss edirəm;
- Vətən müharibəsindən sonra xalqıma və dövlətimə daha çox inanıram;
- Vətən müharibəsi məni ölkəm üçün daha çox və məqsədli çalışmağa sövq edib.

Qeyd edək ki, 5-lik Likert şkalası əsasında ölçmə təqdim olunan ifadə ilə respondentin razılıq dərəcəsinə əsaslanır (*1=qətiyyən razı deyiləm, 2=qismən razı deyiləm, 3=neytral, 4=qismən razıyam, 5=tamamilə razıyam*).

**Təhlil və qiymətləndirmə**

Vətən Müharibəsinin sosioloji təsirlərinin təhlili üçün müharibədən əvvəlki dövrün nəticələri ilə müqayisə etmək faydalıdır. Bu çərçivədə müqayisəli təhlil isə ancaq ölkə miqyasında mümkündür. Yuxarıda qeyd olunduğu kimi, məcburi köçkün statusuna malik şəxslər üçün Vətən Müharibəsinin sosioloji təsirlərini ancaq Sosial Sorğu-6 əsasında yerinə yetirmək mümkündür. Buna görə də məqalədə irəli sürülən hər hipotez üzrə əvvəlcə ölkə miqyaslı, sonra keçmiş məcburi köçkünlərlə bağlı təhlil aparılır.

***H1: Vətən Müharibəsində qazanılan zəfər Azərbaycanda əhalinin həyat məmnuniyyətini yüksəldib.***

Müharibədən əvvəl keçirilən sorğunun nəticələri ilə müqayisədə aydın görünür ki, Vətən Müharibəsində qazanılan qələbə Azərbaycanda əhalinin həyat məmnuniyyətinə əhəmiyyətli müsbət təsir göstərmişdir. Şəkil 1-də bu qənaət vizual olaraq daha aydın görünür.




**Şəkil 1:** *Azərbaycanda əhalinin həyat məmnuniyyəti (Müharibədən əvvəl və sonra)*

Ümumilikdə, Azərbaycan üçün həyat məmnuniyyətinin orta indeks göstəricisi 14.38-dən 17.01-ə qalxıb. Yaş qrupları üzrə baxıldıqda təsirin bütün hallarda 2 bənd artıma yaxın olduğu aydın olur. Gənclər və orta yaş qrupunda həyat məmnuniyyətində artım qismən daha çoxdur.

Vətən Müharibəsinin həyat məmnuniyyətinə müsbət təsiri respondentlərin birbaşa subyektiv dəyərləndirməsində də öz təsdiqini tapır. Respondentlərin 67.5%-i Vətən Müharibəsindən sonra özünü daha xoşbəxt hiss etdiyini qeyd edərkən 18.1% bu barədə qərarsız olduğunu bildirib. Beləliklə, əhalinin 2/3-dən çoxu üçün təsirin müsbət olduğu qənaətinə gəlmək olar.

Keçmiş məcburi köçkünlər arasında Vətən Müharibəsindən sonra özünü “daha xoşbəxt hiss edənlər”in faizi daha yüksəkdir və bu yuxarıda qeyd edildiyi kimi məntiqlidir. “Mən artıq məcburi köçkün deyiləm” ifadəsinin gətirdiyi əlavə məmnuniyyəti də nəzərə almaq ağlabatandır. Belə ki, keçmiş məcburi köçkünlərin ¾-dən çoxu, daha dəqiq desək 78.2%-i Vətən Müharibəsindən sonra özünü daha xoşbəxt hiss etdiyini qeyd edib, təxminən 12%-i zəfərin həyat məmnunluğuna təsiri barədə qərarsızdır.

***H2: Vətən Müharibəsində qazanılan zəfər Azərbaycanda əhalinin gələcəklə bağlı ümidini artırıb.***

Gələcəyə olan ümidlilik həyat məmnuniyyətinə və davranışlara təsir edən ən önəmli faktorlardan biridir. Azərbaycanda əhalinin gələcəyə olan ümidliliyi qısa müddətli dövr üçün (yaxın 1 il) qismən aşağı olsa da uzun müddətli perspektivdə gələcəklə bağlı fərdlərin ümidliliyi əhəmiyyətli dərəcədə yüksəlir. Şəkil 2-də müharibədən əvvəl və sonrakı dövr üçün Azərbaycanda insanların gələcəyə olan ümidlilik indeksi yaş qrupları üzrə ayrılıqda olmaqla təsvir edilib.




**Şəkil 2:** *Azərbaycanda əhalinin gələcəklə bağlı ümidliliyi (Müharibədən əvvəl və sonra)*

Göründüyü kimi, Qarabağ işğaldan azad olunduqdan sonra Azərbaycan cəmiyyətində əhalinin gələcəyə olan ümidliliyində əhəmiyyətli yüksəlmə nəzərə çarpır. Müharibədən əvvəl "yaxın 1 il üçün" ümidli olub-olmamaqla bağlı əsasən "neytral" (ümidlilik indeksi 3 ətrafındadır) və ya qərarsız qalan cəmiyyətdə müharibədən sonra müsbət gözləntilər yaranıb. Artım 26-35 yaş qrupu üçün xüsusilə diqqəti cəlb edir. Orta və uzun müddətli dövr üçün də gələcəklə bağlı ümidlilikdə artışın qeydə alınması müsbət haldır.

***H3: Vətən Müharibəsində qazanılan zəfər Azərbaycanda dövlət-vətəndaş birliyini gücləndirib və institutsional inamı artırıb.***

Sorğu nəticələrinə görə respondentlərin 73%-i "Vətən Müharibəsindən sonra xalqıma və dövlətimə daha çox inanıram" deyir, 14.1%-i isə qərarsızdır. Bütün respondentlərin 69.8%-i Vətən Müharibəsinin onu ölkəsi üçün daha çox və məqsədli çalışmağa sövq etdiyini qeyd edib. Hər iki nəticə bütünlükdə Azərbaycan cəmiyyətinin ictimai rəyini əks etdirir və Vətən Müharibəsindən sonra Azərbaycanda dövlət-vətəndaş birliyinin gücləndiyini, institutsional inamın artdığını göstərir.

Qarabağda iqtisadiyyat quruculuğu və işğaldan azad olunan ərazilərin yenidən bərpası üçün keçmiş məcburi köçkünlər arasında Vətən Müharibəsindən sonra institutsional inamın necə dəyişdiyini tədqiq etmək faydalıdır (Cədvəl 1). Əslində cədvəl 1-də qeyd olunan hər iki ifadə dolayı yolla cəmiyyətin dövlətə olan inamını, başqa sözlə institutsional inamı əks etdirir.

**Cədvəl 1:** *Vətən müharibəsindən sonra keçmiş məcburi köçkünlər arasında institutsional inam*

| | Cəmi | Yaş qrupları üzrə | | |
|---|---|---|---|---|
| | | 17-35 | 36-55 | 56+ |
| ***İfadə 1:*** *"Vətən müharibəsindən sonra xalqıma və dövlətimə daha çox inanıram"* | | | | |
| Razı olmayanlar | 13.9% | 11.3% | 20.3% | 7.7% |
| Neytral | 10.9% | 12.9% | 9.4% | 0.0% |
| Razıolanlar | 75.2% | 75.8% | 70.3% | 92.3% |
| ***İfadə 2:*** *"Vətən müharibəsi məni ölkəm üçün daha çox və məqsədli çalışmağa sövq edib"* | | | | |
| Razıolmayanlar | 9.9% | 8.9% | 12.3% | 7.7% |

| | | | | |
|---|---|---|---|---|
| Neytral | 13.4% | 14.5% | 9.2% | 23.1% |
| Razı olanlar | 76.7% | 76.6% | 78.5% | 69.2% |

Cədvəl 1-də ilk diqqət çəkən məsələ keçmiş məcburi köçkünlər arasında "*Vətən müharibəsindən sonra xalqıma və dövlətimə daha çox inanıram*" və "*Vətən müharibəsi məni ölkəm üçün daha çox və məqsədli çalışmağa sövq edib*" ifadələri ilə razı olanların payının ümumi Azərbaycan üzrə faiz göstəricilərindən daha çox olmasıdır. Məcburi köçkün statusu daşıyan şəxslərin 75.2%-də müharibədən sonra dövlətə olan inam artıb, 76.7%-i isə ölkə üçün daha çox və məqsədli çalışmağa "sövq olunduğunu" qeyd edib. Dövlətə və xalqa olan inamda artış yuxarı (56+) yaş qrupunda ən çox, orta (36-55) yaş qrupunda isə nisbətən daha azdır. "Ölkəm üçün daha çox və məqsədli çalışmağa sövq" olunduğunu qeyd edənlər arasında isə əmək qabiliyyəti daha yüksək olan 17-35 və 36-55 yaş qruplarının göstəriciləri yüksək (76.6-78.5%) və bir-birinə olduqca yaxındır. Bu isə təbiidir. Çünki, 56 və daha yuxarı yaşı olan şəxslər işğaldan əvvəlki Qarabağı görmüş nəsil olduğu üçün zəfər onların dövlətə olan inamını daha çox artırıb. Lakin, əmək qabiliyyəti məhdudiyyəti səbəbiylə "... daha çox və məqsədli çalışmaq..." onlar üçün arzuedilən olsa da bəzi hallarda əlçatan deyil. Buna görə də qeyd olunan ifadə ilə razı olmayanların faizi yuxarı yaş qrupunda ən aşağıdır (7.7%) və razı olanların payı da kifayət qədər yüksəkdir (69.2%).

## Nəticə və təkliflər

Vətən Müharibəsi və qazanılan zəfər müstəqil Azərbaycan respublikasının tarixində ən mühüm uğurlu hadisə hesab oluna bilər. Həm görünən (işğalda olan torpaqların azad edilməsi və özünü "məğlubedilməz", qurduqları müdafiə səddini "keçilməz" hesab edən düşmənin qısa müddətdə darmadağın edilməsi), həm də görünməz (sosial və psixoloji) nəticələri ilə bu zəfərin təsirləri hələ uzun müddət qalacaq.

Məqalədə irəli sürülən üç hipotezin hər biri sorğu nəticələri əsasında aparılan təhlillə öz təsdiqini tapmışdır. Aparılan təhlillərdən aydın olur ki, Vətən Müharibəsi və qazanılan zəfərin Azərbaycan cəmiyyətində, xüsusilə məcburi köçkün statusuna malik şəxslərdə əhəmiyyətli sosioloji təsirləri olub. Müharibədən əvvəl və sonra keçirilən sorğu nəticələrinə görə əhalinin həyat məmnuniyyətində və gələcəyə olan ümidlilikdə yüksəliş qeydə alınıb. Eyni zamanda, qazanılan zəfər dövlət-vətəndaş birliyinin güclənməsinə və ölkədə institutsional inamın artmasına öz töhfəsini verib.

İşğaldan azad olunan ərazilərin bərpası, Qarabağ iqtisadiyyatının yenidən qurulması, məcburi köçkünlərin öz yurdlarına köçürülməsi və qalıcı repatriasiyanın effektiv təşkilində Vətən Müharibəsinin sosioloji təsirlərinin öyrənilərək fürsətə çevrilməsi arzuolunandır. Qarabağın yenidən qurulması cəmiyyətdən, xüsusilə də məcburi köçkünlərdən böyük psixoloji dəstək tələb edir. Buna görə də, növbəti mərhələdə Qarabağın bərpası və məskunlaşdırılması məsələsini Vətən Müharibəsində qazanılan zəfərin davamı kimi cəmiyyətə təqdim etmək sosioloji təsirlərin daha uzunmüddətli və qalıcı olması ilə nəticələnə bilər.

Sorğu nəticələri əsasında aparılan təhlillərdən məlum olur ki, Vətən Müharibəsinin məcburi köçkünlərin əksəriyyəti üçün müsbət sosioloji təsirləri var. Bununla belə, təsirin olmadığı 25-30%-lik qrup var və bu kateqoriyaya aid insanların Qarabağda yeni iqtisadiyyatın qurulması və daimi məskunlaşmada müsbət töhfə verəcəyi sual doğurur. Vətən Müharibəsində qazanılan zəfərin müsbət sosioloji təsirləri olan ailələrin müəyyən edilərək köçürülməsi "... daha çox və məqsədli çalışmağa" sövq edildiyinə inanan insanlar üçün bir fürsətdir. Bu isə nəticədə qalıcı məskunlaşmanın və Qarabağda sosial-iqtisadi həyatın təmin olunmasında əhəmiyyətli rol oynayacaq.

## *İstinadlar*


1. BBC. (2020). Azerbaijan protesters demand war after Armenia clashes. https://www.bbc.com/news/world-europe-53415693 (29.08.2021)

2. Coupe, T., &Obrizan, M. (2016). The impact of war on happiness: The case of Ukraine. Journal of Economic Behavior & Organization, 132, 228-242.
3. Frey, B. S. (2018). Happiness and War. In Economics of Happiness (pp. 63-70). Springer, Cham.
4. Gates, S., Hegre, H., Nygård, H. M., & Strand, H. (2012). Development consequences of armed conflict. World Development, 40(9), 1713-1722.
5. Harari, Y. N. (2008). Combat flow: Military, political, and ethical dimensions of subjective well-being in war. Review of General Psychology, 12(3), 253-264.
6. Jenkins, P. S. (2019). War and Happiness. Springer International Publishing.
7. Pavot, W., & Diener, E. (2009). Review of the satisfaction with life scale. In Assessing well-being (pp. 101–117). Dordrecht: Springer.
8. Pavot, W., & Diener, E. (1993). Review of the satisfaction with life scale. Psychological Assessment, 5, 164–172.
9. Teerawichitchainan, B., & Korinek, K. (2012). The long-term impact of war on health and wellbeing in Northern Vietnam: Some glimpses from a recent survey. Social science & medicine, 74(12), 1995-2004.
10. Welsch, H. (2008). The social costs of civil conflict: evidence from surveys of happiness. Kyklos, 61(2),320-340.

## ALIYEV İsa

i.e.d.,prof., AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri

## RÜSTƏMOV Famil

i.f.d., a.e.i., AMEA İqtisadiyyat İnstitutu

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR İQTİSADİYYATIN YENİDƏN QURULMASININ TƏMƏL PRİNSİPLƏRİ HAQQINDA

**Xülasə:** Təqdim edilən tezisdə işğaldan azad edilmiş ərazilərimizdə aqrar iqtisadiyyatın yenidən qurulması zamanı nəzərə alınmalı olan bir sıra başlıca məqamlar qeyd edilir, regionun iqtisadi potensialından maksimum istifadə olunması üçün hazırlanacaq inkişaf strategiyasının vacib elementləri göstərilir.

**Açar sözlər:** aqrar sahə, iqtisadi potensial, iqtisadi artım, elektron kənd təsərrüfatı, təkrar istehsal.

→

## Giriş

Aqrar sahənin potensialından, həmçinin bu regionun sosial-iqtisadi, təbii imkanlarından maksimum səviyyədə istifadə olunması üçün bu sahədə bazar tələblərinin prinsiplərinə, rəqabət şərtlərinə və iqtisadi menecment mühitinə uyğun yeni məzmunlu müasir inkişaf strategiyası ölkə prezidentinin 06 dekabr 2016-cı il tarixli "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları"na əsalanaraq işlənib hazırlanmalıdır:

**1.** Bu yeni məzmunlu inkişaf strategiyasını işləyib hazırlamaq üçün aqrar sahənin idarə edilməsi davamlı inkişaf konsepsiyası baxımından elmli əsaslandırılmalıdır;

**2.** Regionda aqrar sahənin idarə olunmasını elmi əsaslarla aparmaq, sahibkarların və fermerlərin investisiya, maliyyə-kredit resurslarına çıxış imkanlarının asanlaşdırılması, o cümlədən yerli və xarici investorların bu sahəyə daha əlverişli şərtlərlə cəlb olunması məqsədilə regionun və inzibati rayonun ensiklopediyası və bu əsasda investisiya xəritəsinin hazırlanması və bunu elektron kənd təsərrüfatı ilə əlaqələndirilməsi zəruridir;

**3.** Region üzrə bütün sosial-iqtisadi, təbii inkişaf potensialını nəzərə almaqla onun davamlı inkişaf konsepsiyası işlənib hazırlanmalıdır;

**4.** İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin gələcək strateji inkişaf planları işlənib hazırlanmalı (və taktiki variantları), bu regionun sosial-iqtisadi inkişaf ensiklopediyası dinamik inkişaf baxımından (burada regionun relyefi, yerləşmə mühiti, bazarlara yaxınlıq səviyyəsi, regional ba-

zarda tutduğu yer, demoqrafik durumu, məşğulluq səviyyəsi və ən başlıcası, səmərəlilik dərəcəsi və s. amillər) qarşılıqlı qiymətləndirilmə əsasında hazırlanmalıdır;

**5.** Bölgədə aqrar sahənin inkişafının və ölkəmizin iqtisadi sistemi ilə vəhdətliyinin elmi məzmunu işlənilməli, mahiyyət etibarilə yeni məqsədli, müasir dövrə uyğun, mövcud situasiyaları nəzərə almaqla, çevik, taktiki inkişaf proqramları irəli sürülməlidir;

**6.** Bölgədə aqrar sahənin tarixi strukturunun nə səviyyədə elmi əsaslı olmasını, bazar tələblərinə uyğunluğunu, ölkənin iqtisadi artım, dinamizm, davamlı inkişaf prinsiplərinə nə səviyyədə cavab verdiyini müəyyən edilməlidir;

**7.** Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təbii-iqlim şəraitinə, coğrafi mühitə uyğun olaraq hansı sahələr üzrə və hansı ərazilərdə ikinci və hətta üçüncü dəfə hansı məhsulları istehsal etmək olar sualına elmi cavab verilməlidir;

**8.** Aqrar sahənin inkişafında qloballaşma mühitində dünya bazarı çərçivəsinə uyğun, həmçinin bu regionun öz geniş təkrar istehsalı baxımından qabaqcıl ölkələrin təcrübəsindən və mütəxəssislərindən, eyni zamanda yerli elmi mütəxəssislərin potensiallarından istifadə etməklə inkişaf proqnozlarının hazırlanması zəruridir;

**9.** Regionun iqtisadi inkişaf perspektivlərində aqrar sahənin, həmçinin ticarətin inkişaf imkanları müəyyənləşdirilməlidir;

**10.** Aqrar sahənin iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliyinin gücləndirilməsini və bazar qiymətinin getdikcə aşağı düşməsini özündə ifadə etməsi prinsipi nəzərə alınmaqla elmli proqram hazırlanmalıdır;

**11.** İşğaldan azad edilmiş ərazilərdə kəndlərin kənd yeri kimi qalması üçün dünyəvi çağırışa cavab verə bilən, kənd yerlərində xidmət və infrastruktur sahələrinin inkişaf proqramı hazırlanmalıdır;

**12.** Bölgənin kənd təsərrüfatı məhsulları üzrə emal, təkrar emal və yenidən emal sxem-xəritəsi hazırlanmalıdır;

**13.** Regionda aqrar sahənin texnika, yanacaq, üzvü və qeyri-üzvü gübrələrlə təmin olunması imkanlarını araşdırmaq və inkişaf yollarını göstərmək lazımdır;

**14.** Bölgənin aqrar əmtəə istehsalçılarının gəlirlərinin yüksəldilməsində mühüm rol oynayacaq kənd təsərrüfatı məhsullarının saxlanılması və satışının müasir infrastrukturu, həmçinin ərzaq bazarının tənzimlənməsinin elmi sistemi yaradılmalıdır.

### İstinadlar


1. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, 2003. 315 səh
2. I. Alıyev, İ.Soltanlı "Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri" Bakı "Avropa" nəşriyyatı 2017
3. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı, Elm, 2008, 400 s.

ALLAHVERDİYEV Elxan

Azərbaycan Dövlət Aqrar Universiteti

# BÖLGƏ İQTİSADİYYATININ İNKİŞAFINDA AQROİQLİM EHTİYATLARININ ROLU

**Xülasə:** Təqdim olunmuş tezisdə işğaldan azad olunmuş ərazilərin aqroiqlim ehtiyatları və onlardan istifadənin yolları qeyd edilmişdir. Xüsusən də Ağdam rayonunun iqtisadi inkişafı ilə bağlı torpaq münasibətlərinin xüsusiyyətləri və onlarda aqroiqlim vəziyyətinin qiymətləndirilməsi vurğulanır. Göstərilir ki, bölgənin bu baxımdan iqtisadi potensialı olduqca yüksəkdir.

**Açar sözlər:** torpaq, suvarma suyu, aqroiqlim ehtiyatları, aralıq əkin, fəal temperatur, kövşənlik əkin, örtüklü əkin.

→

## Giriş

Azərbaycanın dilbər guşələrindən biri olan Dağlıq Qarabağ Respublika ərazisinin 5,1%-ni təşkil edib, ümumi sahəsi 4,4 min km$^2$-dir. Gözəl aqroiqlim ehtiyatlarına malik olan bu bölgə respublikanın mərkəzi hissəsində yerləşir. 30 ilə yaxındır ki, bölgə erməni şovinistləri tərəfindən işğal olunmuşdur. Bu zaman Dağlıq Qarabağ ərazisi ilə bərabər qonşu rayonlar Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan əraziləri də mənfur düşmən tərəfindən zəbt olunmuşdur.

30 ildə bu torpaqlar baxımsız qaldığından və ya kortəbii surətdə becərildiyindən öz münbitliyini itirmişdir. Ərazini kol-kos basmış, alaq otları ilə zibillənmiş, bir sözlə ərazinin fitosanitar vəziyyəti korlanmışdır. Həmin ərazilərdə aqroiqlim ehtiyatlarından səmərəli istifadə etməklə, bölgənin aqrar iqtisadiyyatını inkişaf etdirmək günün aktual məsələlərindən biridir. Bunun üçün ilk növbədə ərazinin fitosanitar vəziyyəti, torpağın su-fiziki xassələri yaxşılaşdırılmalı və münbitliyi artırılmalıdır. Mövcud aqroiqlim ehtiyatlarından səmərəli istifadə olunmalıdır.

Statistik məlumatlara görə 2050-ci ilə qədər dünya əhalisinin sayı 9,3 milyard nəfərə qədər artacaq. Hesablamalara görə bu qədər əhalinin qidalanması üçün tələb olunan ümumi ərzaq istehsalının, hazırkı dövrlə müqayisədə 70% artırılmasına ehtiyac yaranacaqdır. Bu da mövcud əkin sahələrindən, aqroiqlim ehtiyatlarından səmərəli istifadə etməklə kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək zərurətinin yarandığını sübut edir.

### Təhlil

Sahəsi 1150 km$^2$ olan Ağdam rayonunun düzənlik ərazisi kənd təsərrüfatı üçün əlverişli şəraitə malikdir. Ağdam rayonu ərazisində havanın 5 dərəcədən yüksək olan temperaturunun illik

miqdarı 4500–4600$^0$C təşkil edir. Bu da ərazinin torpaq və aqroiqlim ehtiyatlarından səmərəli istifadəyə, vahid sahədən bir ildə 2-3 dəfə məhsul götürməyə imkan verir.

Ağdam rayonunda bu iqlim şəraiti bitkiçiliyin və heyvandarlığın inkişaf etməsinə, bu da öz növbəsində iqtisadiyyatın güclənməsinə imkan verir. Rayon ərazisində dənli taxıl bitkilərinin əkini üçün əlverişli şərait vardır. Ancaq dənli taxıl bitkiləri biçildikdən sonra sahə boş qaldığından onun fitosanitar vəziyyəti pisləşir və bu da torpaq münbitliyinin itirilməsinə səbəb olur.
Kövşənlik əkinlərin becərilməsi nəticəsində tarla daim yaşıl bitki ilə örtülü olur. Bu da günəş enerjisindən və torpaqdan istifadə əmsalını yüksəldir. Ancaq bitkiləri kövşənlik dövrdə becərmək və onların növlərinin düzgün seçilməsi də vacib şərtdir. Elə bitkilər əkilməlidir ki, onlar torpaq münbitliyinə mənfi təsir etməsin. Belə kövşən əkinlərində həm yemin keyfiyyətinin, həm də torpaq münbitliyinin qorunmasında qarışıq əkinlərin əhəmiyyəti daha böyükdür. Məsələn: dənli taxıl bitkilərindən biri olan qarğıdalı torpaqdan qida maddələrini çox mənimsədiyi halda onunla qarışıq səpilən soya bitkisi öz kök yumrucuqları vasitəsilə havanın sərbəst azotunu fiksə edərək torpağı azotla zənginləşdirir. Bunun sayəsində nəinki yaşıl kütlə məhsulu artır, hətta onun keyfiyyəti də yüksəlir. Qeyd etmək lazımdır ki, nəticədə kök-kövşən qalıqları da təmiz əkinə nisbətən xeyli artır ki, bu da torpağın münbitliyinə müsbət təsir edir.

Kövşənlikdə qarışıq əkinlərin əsas üstün cəhətlərindən biri də ondan ibarətdir ki, tarlada sıx bitki örtüyü yaranır, torpağın qida maddələrindən və nəmliyindən daha yaxşı istifadə olunur. Belə ki, bir qrup bitkinin kökü düz, digərininki isə saçaqlı olmaqla torpaqda kök qalıqları sıx və bərabər toplanır ki, bu da münbitliyi bütün torpaq qatları üzrə bərpa edir.
Bölgənin əlverişli torpaq-iqlim şəraiti imkan verir ki, dənli taxıl bitkiləri biçildikdən sonra həmin sahədən bir ildə iki dəfə məhsul götürülsün. Bu insanların ərzağa, heyvandarlığın yemə, sənayenin xammala olan tələbatını müəyyən qədər ödəməyə imkan verir. Bununla yanaşı torpaqdan səmərəli istifadə olunduğundan onun münbitliyi qorunur.

Uzun müddət bu rayona yaxın olan ərazilərdə apardığımız tədqiqatlar nəticəsində deyə bilərik ki, dənli taxıl bitkiləri biçildikdən sonra vahid sahədən bir ildə iki dəfə məhsul əldə etmək üçün qarışıq səpinlərin və örtüklü əkinlərin böyük əhəmiyyəti vardır.
İnsan və heyvanların qidasında zülalları heç bir başqa maddə əvəz edə bilməz. Heyvan yemlərində zülalların çatışmazlığı nəticəsində onların məhsuldarlığı azalır. Belə ki, qidada zülal çatışmazlığı maddələr mübadiləsinin ciddi pozulmasına səbəb olur. Zülal ehtiyatının artırılmasında dənli taxıl bitkiləri ilə yanaşı dənli-paxlalı bitkilərin mühüm rolu vardır. Bitkidə zülalın çox olmasının xüsusilə böyük əhəmiyyəti vardır. Bunları nəzərə alaraq bölgədə dənli taxıl bitkiləri biçildikdən sonra həmin ərazidə qarğıdalı, soya; sorqo, noxud və digər bitkilərin qarışıq becərilməsi məqsədəuyğun hesab edilir.

Qarışıq əkində dənli taxıl bitkilərin yaşıl kütləsində həzm olunan zülalın miqdarı xeyli yüksəlir. Qarışıq əkinlərdə fotosintez prosesinin məhsulları da təmiz səpinlərdən yüksək olur. Ona görə də qarışıq əkinlərdən sahə vahidinə görə daha çox quru maddə, həzm olunan zülal və yem vahidi alınır. Qarışıq əkinlərin yaşıl kütləsindən keyfiyyətli silos alınır.

Ümumiyyətlə, böyük heyvandarlıq kompleksləri üçün yaradılan yem növbəli əkinlərində aralıq bitkilərindən istifadə etməklə, mal-qaranı ilboyu yaşıl yemlə təmin etmək, torpaq münbitliyini qorumaq mümkündür.

**Nəticə**

Yekunda Ağdam rayonu ərazisində torpaqdan və aqroiqlim ehtiyatlarından səmərəli istifadə etməklə aqrar sahəni və rayonun iqtisadiyyatını yüksəltmək məqsədilə aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1.Dənli taxıl bitkilərinin sahəsi genişləndirilməsi.
2. Dənli taxıl bitkiləri biçildikdən sonra dərhal torpaq becərmə tədbirləri həyata keçirilməsi, qarışıq əkin kimi qarğıdalı+soya, sorqo+noxud bitkiləri qarışığı səpilməsi.
3. Payızlıq taxıl əkinlərinə fevral ayında əlavə olaraq yonca örtüklü əkin kimi səpilməsi.
4. Payızlıq taxıl bitkiləri biçildikdən sonra təkrar əkin kimi tərəvəz bitkilərinin becərilməsi.

**ALLAHVERDİYEVA Aynurə**

Azərbaycan Dövlət Dəniz Akademiyasının doktorantı

# QARABAĞIN "YAŞIL ENERJİ" ZONASININ YARADILMASI AKTUAL PROBLEMLƏRDƏN BİRİ KİMİ

**Xülasə:** Məqalədə ölkəmizdə bərpa olunan enerji potensialından istifadə edilməsi, Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi müasir dövrün aktual problemi olaraq ön plana çəkilmişdir. Məlumdur ki, respublikamız bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Bu kontekstdən yanaşaraq məqalədə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri araşdırılmışdır. Alternativ enerji mənbələri içərisində ən əlverişlisi sayılan günəş enerjisindən istifadə etməyin müəyyən müsbət, mənfi cəhətləri, termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyü, külək enerjisindən istifadə edilməsinin sürətli inkişafı, dünyada elektrik istehsalında istifadə edilə biləcək dalğa enerji potensialı və Dövlət Proqramı qəbul edildikdən sonra ilk illər ərzində günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin illik miqdarı, illik artımı, dünyada istehsal olunan ümumi elektrik enerjisindəki payı tədqiq edilmiş, o cümlədən Qarabağda yaşıl enerji zonasının yaradılması prioritet istiqamət olaraq təhlil edilmişdir .

**Açar sözlər:** bərpa olunan enerji, yaşıl enerji, alternativ enerji, günəş enerjisi, iqtisadiyyat, potensial.

→

## Giriş

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi bərpa olunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və bu sahədə potensialın dəyərləndirilməsinə geniş imkanlar yaratdı. Qeyd etmək lazımdır ki, 2009-cu ildən başlayaraq ölkə rəhbərliyi tərəfindən bu sahədə qəbul edilmiş qərarlar, milli enerji təhlükəsizliyinin genişləndirilməsində alternativ, bərpa olunan enerji istehsalının artırılması əhəmiyyət kəsb edir**.** Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyin yaradılması, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz Ətraf Mühi" və "Yaşıl Artım" ölkəsi) iqlim dəyişikliyi, onunla mübarizə istiqamətində ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Bu Milli Prioritet ölkəmizin bərpa olunan enerji sahəsinə və yaşıl iqtisadiyyata diqqətinin bariz nümunəsi olub, xüsusi əhəmiyyət kəsb edir.

*Qarabağın enerji mənbələrindən istifadə vəziyyətinin təhlili və qiymətləndirilməsi*

Yeni enerji mənbələrinin aşkara çıxarılması və istifadəsi bəşəriyyətin qarşısında duran ən aktual məsələlərdən biridir. Respublikamızda da bu istiqamətdə davamlı tədqiqatlar aparılır. Belə ki, Qarabağın yaxın gələcəkdə "yaşıl enerji" zonasına çevrilməsi məqsədilə işğaldan azad edilmiş ərazilər üzrə 6 rayonda (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) Günəş Elektrik Stansiyalarının (GES) tikintisi üçün ümumi potensialı 4000 MVt-dan yüksək qiymətləndirilən 8 perspektiv ərazi müəyyən edilmişdir. Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdədir. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir və həmin ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır.

Bildiyimiz kimi, ənənəvi enerji mənbələrindən başqa bir çox enerji mənbələri də məlumdur və belə enerji mənbələri alternativ enerji mənbələridir. Alternativ enerji mənbələrini əsasən aşağıdakı kimi təsnifləşdirmək olar:

• günəş enerjisi
• külək enerjisi
• biokütlə enerjisi
• dalğa enerjisi

•qradiyent-temperatur enerjisi (təbii yolla mühitin temperaturunun dəyişilməsi hesabına alınan enerji)

• qabarma-çəkilmə enerjisi (okeanlarda qabarma və çəkilmə vaxtı hərəkətdə olan suyun enerjisi)
• geotermal mənbələrin enerjisi

Yuxarıda göstərilən alternativ enerji mənbələri içərisində ən əlverişlisi Günəş enerjisidir. Çünki digər alternativ enerji mənbələrinin hamısı müəyyən dərəcədə bəzi şərtlərdən asılıdır və sabit deyildir. Günəş enerjisi isə mütləq olaraq yerüstü amillərdən asılı deyildir və ondan Yer kürəsinin hər yerində istifadə etmək mümkündür. Günəş enerjisinin alınması üçün tükənməz mənbə olub, ekoloji cəhətdən təmizdir və onun əsasında qurulmuş energetika perspektivli sahədir. Günəş sabiti adlandırılan kəmiyyətdən istifadə etməklə Yer kürəsinin Günəşdən aldığı enerji qiymətləndirilir. Günəş sabiti dedikdə, günəşdən 1 astronomik vahid məsafədə, Yer atmosferinin yuxarı qatlarında günəş şüalarına perpendikulyar $Im^2$ sahəyə düşən inteqral enerjinin miqdarı başa düşülür. 1 astronomik vahid Günəşdən Yerə qədər olan orta məsafədir və dəqiq ölçmələr nəticəsində müəyyən edilmişdir ki, günəş sabitinin qiyməti *So* ~ 1370 Vt/$m^2$-dir. Günəş sabitinin qiymətini bilməklə, mərkəzində günəş yerləşən və radiusu 1 astronomik vahidə bərabər olan sferanın tam səthindən keçən günəş enerjisinin miqdarı asanlıqla hesablamaq olar.

Günəş enerjisi ilə işləyən qurğuların ətraf mühitə zərərli təsirləri praktiki olaraq yoxdur və ya cüzi dərəcədədir. Günəş enerjisindən istifadə etməyin müəyyən müsbət və mənfi cəhətləri vardır. [1, səh. 3].

Günəş enerjisindən istifadə etmənin əsas üstünlükləri aşağıdakılardır:

- yenilənməsi və bərpa olunması;
- ehtiyatının çox olması;
- yer kürəsinin hər yerində əldə edilə bilən olması;
- ekoloji təmizliyi;
- səssizlik;
- iqtisadi səmərəliliyi və istismar xərclərinin az olması;
- tətbiq sahələrinin genişliyi;
- texnologiyalarının sürətlə tətbiq edilməsi.

Yuxarıda göstərilən üstünlükləri ilə yanaşı eyni zamanda günəş enerjisindən istifadə etməyin çatışmayan cəhətləri vardır və əsasən aşağıdakılardır:

- maya dəyərinin yüksək olması;
- kəsilən olması;
- cüzi də olsa ətraf mühiti çirkləndirməsi;
- güc sıxlığının az olması.

Bütün bunları nəzərə alaraq demək olar ki, günəş enerjisi yenilənən və bərpa olunandır. Günəş enerjisi yer kürısinin hər yerində və kosmosda istifadə oluna bilən yeganə alternativsiz enerji mənbəyidir. Enerji təminatı mərkəzlərinə qoşulmaq mümkün olmayan hər yerdə Günəş enerjisindən ən müxtəlif məqsədlər üçün istifadə olunur. Yer kürəsinin günəşdən aldığı enerjinin miqdarı dünyadakı bütün neft, qaz, kömür ehtiyatları və digər enerji resurslarının ümumi miqdarından artıqdır. Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı isə 27000 MVt-dır və bunun 23000MVt-ı günəş, 3000MVt-ı isə külək enerjisinin payına düşür. Günəş enerjisi üzrə, demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür. günəş enerjisindən istifadə edilən texnologiyaların əsas üstünlükləri isə ondan ibarətdir ki, günəş qurğuları işləyərkən yer atmosferinin aşağı qatlarının qızmasına səbəb olan istilik praktiki olaraq ayrılmır, istixana effektləri yaranmır və hava çirklənmir. [2, səh. 38 ].

Alternativ enerjidən istifadənin strukturunda regionun xüsusiyyətindən asılı olaraq bu və ya digər mənbə üstünlük təşkil edir. Məsələn, İslandiya, Danimarka və ABŞ-ın bəzi ştatlarında alternativ enerji istehsalında üstünlük geotermal mənbələrə verilir. Norveçdə, əsasən, kiçik gücə malik hidroenergetik qurğulardan istifadə edilir.

Cənub regionlarda günəş batareyalarından, düzən ərazilərdə isə külək elektro-stansiyalarından istifadə edilir. Biokütlənin yanma texnologiyasından əsasən zəngin meşə ehtiyatlarına malik ölkələrdə geniş istifadə edilir.

Qarabağda eləcə də *külək enerjisi* istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var.

*Termal mənbələrdən* enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etmək qarşıda duran vəzifələrdən biridir. Yer qabığının altında həm planetin orijinal əmələgəlməsindən, həm də mineralların radioaktiv çürüməsindən qaynaqlanan kütləvi istilik enerjisi var. İsti bulaqlar şəklində olan geotermal enerji insanlar tərəfindən minilliklər boyu istifadə edilmişdir və hazırda elektrik enerjisi istehsalında da tətbiqini tapır. Təkcə Şimali Amerikada yeraltı yerlərdə saxlanılan kömürdən 10 dəfə çox elektrik enerjisi istehsal edəcək qədər enerji var. Məhz geotermal mənbələrin istiliyindən elektrik enerjisinin istehsalı üçün geniş istifadə edilir. Qarabağ bölgəsində həmçinin daş kömür yataqları mövcuddur. Belə ki, Tərtər rayonunun Çardaqlı kəndi 8,5 milyon ton daş kömür ehtiyatına malikdir və bütün bu mənbələr işğaldan azad olunmuş rayonlarımızda yeni enerji layihələrini həyata keçirməyə imkan verir. Bu baxımdan həmin istiqamətdə genişmiqyaslı işlər nəzərdə tutulub və onlar ardıcıllıqla yerinə yetirilir.

*Külək enerjisindən* istifadə edilməsində də sürətli bir inkişaf var. Aparılan araşdırmalar və elmi tədqiqatlar ölkəmizin bu sahədə böyük potensiala sahib olduğunu göstərir. Qəbul edilmiş Dövlət Proqramları və struktur islahatları nəticəsində 2009-cu ildən başlayaraq, dövlət və qeyri-dövlət müəssisələri 10 yeni su elektrik stansiyası, 6 günəş və 5 külək elektrik stansiyası, 30-a yaxın sosial obyektdə günəş panelləri və istilik nasosları quraşdırılaraq, nəticədə 264 MVt yeni generasiya gücü yaradılıb.

Külək elektrik stansiyalarının ümumi gücü 66 MVt-dır. Xızı rayonunda Yeni Yaşmada yerləşən Yeni Yaşma Külək Parkıın layihə gücü 50 MVt həcmindədir. İlk külək turbini 2015-ci ildə istifadəyə verilib. İstehsal gücü 50 meqavat olan «Yeni Yaşma» külək elektrik stansiyası Xızı rayonunda yerləşən elektrik stansiyasında hər biri 2,5 MVt olan 20 turbin quraşdırılıb. Turbinlərin müəyyən hissəsinin quraşdırma və sınaq işləri başa çatdırılıb və ümumi elektrik sisteminə qoşulub. - Sitalçay KES – 3,6 MVt - Hökməli KES – 8 MVt – Yeni Yaşma külək parkı – 1,7 MVt.

***Bərpa olunan enerji mənbələrindən istifadə istiqamətləri***

Bərpa olunan enerji mənbələrindən istifadə dünyada yeni sənaye inkişafına gətirib çıxarır. Belə ki, dünyanın külək potensialı nəzərə alınmaqla, bu potensialın yalnız bir hissəsi istifadə olunur. Külək enerjisinin istehsalına olan maraq getdikcə daha da artır. Avropa ölkələri bu enerji mənbəyini daha geniş şəkildə istifadə edirlər. Almaniya, Danimarka və İspaniya külək enerjisindən istifadə edən ölkələrdəndir. Almaniya dünya ölkələri arasında qabaqcıl yer tutur və ölkədə "Bərpa olunan enerji haqqında" qanunun qəbul edilməsi bu sahənin inkişafı üçün şərait yaratmışdır. Hazırda orda külək enerji qurğularının istehsalı, quraşdırılması və istismarı sahəsində 35 mindən çox işçi çalışır.

Danimarka elektrik enerjisinin 40%-ni külək turbinləri vasitəsilə istehsal etməyə başlayıb. Böyük Britaniyanın böyük külək enerjisi potensialı vardır və küləkdən alınan enerji qiymətinin aşağı salınması üçün bəzi tədbirlər görülməkdədir. Belə ki, 2020-ci ilin göstəricilərinə əsasən söyləmək olar ki, Azərbaycanda istensal edilən elektrik enerjisinin 94,5 %-i istilik elektrik stansiyalarında, 4,1%-i su elektrik stansiyalarında, 1,33%-i isə külək və günəş elektrik stansiyalarında və məişət tullantılarının yandırılması zavodunda istehsal edilib.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (İRENA) dərc etdiyi «Future of Wind – Külək enerjisinin gələcəyi» adlı hesabata əsasən, qlobal külək enerjisi gücü 2050-ci ilə qədər 10 dəfə artaraq 6000 QVt-dan çox ola bilər. Bunun 5000 QVt-ı quruda, 1000 QVt-ı isə dənizdə külək enerjisinin payına düşəcək. Hesabata əsasən 2050-ci ilədək külək enerjisi qlobal elektrik enerjisi tələbatının üçdə birini təmin edə bilər. 2018-ci ildə 542 QVt olan quruda külək enerjisi gücünün 2030-cu ildə 1787 QVt, 2050-ci ildə isə təxminən doqquz dəfə artaraq 5044 QVt olması, açıq dənizdə isə külək enerjisi gücünün 2030-cu ildə 228 QVt-a, 2050-ci ildə 1000 GVt-a çatdırılması hədəflənir. Bu hədəflərə çatmaq üçün hər il quruda külək enerjisinə qoyulmuş investisiyaların 4 qat, dənizdəki investisiyaların isə 10 qat artması tələb olunur. Quruda investisiyalar illik orta hesabla 67 milyard dollardan 211 milyard dollara, dənizdə isə investisiyalar 19 milyard dollardan 100 milyard dollara çatdırılmalıdır. Külək enerjisi hesabına hər il 6,3 qiqaton karbon emissiyalarında qənaət əldə ediləcəyi də qeyd edilir.

Qarabağ bölgəsində Günəş enerjisi əsasən, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha çox qiymətləndirilir.

Dəniz üzərində küləklərin əsməsi nəticəsində meydana gələn dəniz hərəkətləri dalğa adlanır. Dalğaların birbaşa səthi və səth altındakı təzyiqli dəyişmələri ilə əldə edilən enerji növü isə *dalğa enerjisi* adlanır. Dalğa enerjisi üzərində araşdırmalar texnologiyanın inkişafı ilə aparılmış və dünyada ilk kommersiya əhəmiyyətli dalğa enerjisi 0,5 MVt tutumlu Limpet 500, 2000-ci ildə İslay adasında qurulmuşdur.  Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, dünyanın elektrik enerjisinin 10 %-i dalğa enerjisinin hesabına əldə edilir. Müddəti uzun və amplitudu geniş olan dalğalardan daha çox elektrik enerjisi istehsal edilir. Dünyada elektrik istehsalında istifadə edə biləcək dalğa enerji potensialı 2000 TVt/il olaraq təxmin edilir və enerjidən səmərəli istifadəyə görə əsas yeri külək dalğaları tutur [3, səh. 94].

**Yeni innovasiya texnologiyalarının sürətlə tətbiq edilməsi baxımından,** nanotexnologiyaların və kvant fizikasının sürətlə inkişafı daha mükəmməl və səmərəli Günəş çeviricilərinin istehsalı üçün yeni innovasiya texnologiyalarının istifadəsinə möhkəm zəmin yaradır. Yeni innovasiya texnologiyalarının tətbiqi ilə Günəş mənbəli enerjinin maya dəyərini kəskin surətdə aşağı salmaq mümkündür. Yaponiya şirkəti "Sharp" bu sahədə liderlik edir və artıq pəncərə şüşələrini əvəz edə biləcək şəffaf Günəş panelləri yaratmağa müvəffəq olmuşdur [4, səh. 4].

"Yaşıl enerji" layihələrinə xarici investorların cəlb edilməsi üçün də artıq müəyyən əməli addımlar atılıb və nəticədə, alternativ enerji mənbələrinin istehsalında kəskin artım müşahidə edilir. Belə ki, 2013-2019-cu illər ərzində külək enerjisinin istehsalı 131 dəfə artaraq, 0,8 milyon Kvt/saat-dan 105,4 milyon Kvt/saata yüksəlmişdir.

Bu gün istifadə etdiyimiz əsas ənənəvi enerji resurslarının hamısının - istər elektrik enerjisi olsun, istər yanacaq enerjisi, istərsə də atom enerjisi - geoloji, ekoloji və bioloji sistemlərə, həmçinin yer

atmosferinə ciddi zərərli təsirləri vardır ki, bu da bəzən qarşısıalınmaz fəsadların yaranmasına səbəb olur. Ancaq həm günəş enerjisi çeviricilərinin, həm də günəş enerjisi ilə işləyən qurğuların ətraf mühitə zərərli təsirləri praktiki olaraq yoxdur və ya cüzi dərəcədədir. Tətbiq sahələrinin genişliyinə nəzərən demək olar ki, günəş enerjisi yer kürəsinin hər yerində və kosmosda istifadə oluna bilən yeganə alternativsiz enerji mənbəyidir. Enerji təminatı mərkəzlərinə qoşulmaq mümkün olmayan hər yerdə günəş enerjisindən ən müxtəlif məqsədlər üçün istifadə olunur.

Günəş enerjisinin digər enerji növlərinə çevirən qurğuların istehsalı baha başa gəldiyindən, günəş enerjisindən lazım olan səviyyədə istifadə edilmir. Lakin, yeni ucuz çevirici materialların əldə edilməsi və texnoloji proseslərin təkmilləşdirilməsi bu problemi tədricən aradan qaldırır ki, bunun da nəticəsində günəş enerjisindən istifadə ildən-ilə sürətlə artır. Dövlət proqramı qəbul edildikdən sonra ilk illər ərzində hər il günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin illik miqdarı, illik artımı və dünyada istehsal olunan ümumi elektrik enerjisindəki payı əks olunmuş cədvələ əsaslanaraq deyə bilərik ki, göstərilən dövr ərzində günəş energetikasının hesabına istehsal olunan elektrik enerjisinin miqdarı demək olar ki, 216 dəfə, istehsal olunan bütün elektrik enerjisinə nisbətən payı isə 105 dəfə artmışdır.

Yaxın gələcəkdə dünyada istehsal olunan elektrik enerjisinin əhəmiyyətli bir hissəsinin günəş energetikasının payına düşəcəyini nəzərə alaraq bu sahədə tədqiqatların aparılması böyük əhəmiyyət kəsb edir. Günəş tükənməz enerji, istilik mənbəyidir və ekoloji cəhətdən də ən təmiz, sərfəli hesab edilir.

***Nəticə***

Hazırda dünyanın demək olar ki, bütün ölkələri öz enerji ehtiyaclarını neft, təbii qaz və kömür kimi ənənəvi enerji mənbələri hesabına ödəyir. Bütün bu araşdırmalara əsasən belə nəticəyə gəlmək olur ki, ənənəvi enerji resursları tükənəndir, ətraf mühit üçün zərərlidir və bundan başqa, artan enerji qiymətləri iqtisadiyyata da mənfi təsir göstərir. Ancaq bunun əksinə, alternativ enerji mənbələrinin əsas xüsusiyyəti ekoloji cəhətdən təmiz və tükənməzdir. Alternativ enerjinin istehsalını artırmaqla daxildə təbii qazın sərfiyyatının azaldılmasına nail olunar və eləcə də qənaət edilən təbii qaz isə həm sənayedə xammal kimi istifadə edilə bilər, həm də ixrac edilərək ölkəmizə əlavə valyuta qazandıra bilər. Alternativ enerji mənbələrinin inkişaf etdirilməsi enerji təhlükəsizliyi, enerji istehsalında bərpa olunan enerji mənbələrinin rolunun artırılması, innovativ texnologiyalardan istifadə edilməsi, xarici ölkələrin təcrübəsindən istifadə olunaraq beynəlxalq təcrübənin mənimsənilməsi, həmçinin yüksək texnologiyalara əsaslanan maddi-texniki baza yaradılaraq perspektiv əhəmiyyətli olan külək və geotermal resursların istifadəsinə maliyyə vəsaitlərinin qoyulması ilə həyata keçirilə bilər.

Respublikamızda günəş, külək, geotermal və digər potensiallardan istifadə etməklə ekoloji təmiz, ucuz elektrik və istilik enerjisi almaq, əhalinin sosial iqtisadi rifahını yaxşılaşdırmaqdan əlavə, atmosferə atılan istilik effekti yaradan milyon tonlarla karbon ekvivalentinin azalmasını təmin etmək, bu sahədə olan nöqsan, çatışmamazlıqları aradan qaldırmaqla əldə edilə bilər. Müasir dövrdə isə çatışmamazlıqlar texnoloji sistemlərin təkmilləşdirilməsi ilə aradan qaldırıla bilər.

Qarabağın bərpa olunan enerji istehsalı potensialı böyük olduğundan yaxın gələcəkdə buranı "yaşıl enerji" zonasına çevrilməsi perspektivli imkanlar yaradır. Aparılan araşdırmalar da göstərir ki, dünya təcrübəsindən yararlanaraq alternativ enerji mənbələrindən istifadə etməklə prioritet istiqamət kimi Qarabağımızın "yaşıl enerji" zonasına çevrilməsi reallaşar və onun üçün ən müasir texnologiyaların əsasında quraşdırılan elektrik stansiyalarının "ağıllı şəbəkə" sistemi ilə idarə olunması öz həllini tapar [5, səh. 438].

Müasir dövrün ən aktual məsələsi olaraq yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi ilə ölkəmizin enerji potensialından istifadənin səmərəliliyi artırmaq, yeni mənbələrin yaradılması hesabına Qarabağın bərpa olunan enerji sektorunun inkişafı sayəsində regionda əlavə iş yerlərinin yaranmasını təmin etmək mümkündür. Hesablamalara görə müəyyən edilmişdir ki, bəşəriyyət 2040-cı ildə bugünkü enerji istifadəsindən 56% daha çox enerji tələb edəcəkdir. Bu isə bərpa olunan enerji mənbələ-

rinin istifadə vacibliyini bir daha ortaya çıxarır. Hal-hazırda, Qarabağda yaşıl enerji zonasının yaradılması prioritet istiqamət götürüldüyündən orada alternativ enerji avadanlıqları və qurğuları istehsal edilərək dayanıqlı iqtisadi inkişafa nail olmaq olar. Belə ki, istehsal ediləcək həmin müasir standartlara cavab verən innovativ alternativ enerji qurğuları qonşu ölkələrə ixrac edilərək ölkəmizin ixrac potensialını artırar.

## İstinadlar


1. http://plusiminusi.ru/plyusy-i-minusy-solnechnoj-energetiki/
2. BP Statistical Review of World Energy June 2015, Electricity section, BP(June 2015)
3. Cəlilov M.F. Alternativ regenerativ enerji sistemləri, dərslik, Bakı: 2009, səh. 94.
4. http://www.invertor.ru/solar.htm
5. Mehdialiyev A., Mazanova O. On some problems of the creation and development of green technologies in Azerbaijan //2013 7th International Conference on Application of Information and Communication Technologies, pp. 438.

**ATAKİŞİYEV Müşfiq**

AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d., professor

# KİÇİK VƏ ORTA BİZNESİN POST-KONFLİKT ZONALARIN İNKİŞAFINDA ROLU

**Xülasə:** Münaqişədən sonrakı dövrdə əksər ölkələr iqtisadiyyatın bərpası prosesində bir sıra problemlərlə üzləşirlər. Münaqişənin vurduğu zərərlər post-konflikt ərazilərdə iqtisadiyyatın bərpası üçün ciddi problemlər yaradır. Bu səbəbdən, kiçik və orta biznes (KOB) post-konflikt zonalarda iqtisadiyyatın bərpasında və turizmin inkişafı prosesində mühüm rol oynayırlar. Çünki onlar məhsullar və xidmətlər istehsal edir və iş yerləri yaradırlar. Bu tədqiqatda münaqişədən sonrakı dövrdə KOB-ların inkişafı ilə bağlı amillər, həmçinin KOB-ların bu prosesdə əhəmiyyəti araşdırılır.

**Açar sözlər:** post-konflikt zonalar, kiçik və orta biznes, iqtisadiyyat, infrastruktur, maliyyə bazarı.

→

## Giriş

Müharibədən sonrakı dövrdə ölkələr post-konflikt zonaların bərpası prosesində KOB-ların inkişafı ilə bağlı bir çox aspektlərdə fərqlənir [1]. Çünki hər bir ölkə yerli xüsusiyyətlər, iqtisadiyyat və cəmiyyət baxımından fərqlidir. Özəl sektorun ən aparıcı subyekti kimi KOB-lar iqtisadiyyatın bərpasında həlledici rol oynayırlar. İş yerlərinin yaradılması, ÜDM-in artımı və digər iqtisadi fəaliyyət növlərinin stimullaşdırılması və s. KOB-ların aktiv fəaliyyətinin nəticəsində mümkündür [2]. KOB-ların səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə əlverişli biznes mühitindən asılıdır. Belə ki, post-konflikt zonalar zəif infrastrukturla, maliyyə bazarına və beynəlxalq bazara çıxışla bağlı əlavə problemlər yaşayır [3]. Hökumət ardıcıl olaraq ölkənin bərpasına, infrastrukturun tikintisinə və iş yerlərinin yaradılmasına öz töhfəsini verməsinə baxmayaraq, özəl sektorla tərəfdaşlıq münasibətləri zəruri məsələdir. Bu əməkdaşlıq yerli sakinlərin yaşayış şəraitini yaxşılaşdırmaqla yanaşı, bölgənin bərpa prosesini sürətləndirir və turistlərə əlçatan olan əlavə xidmətlər də yaradır [4] .

***Kiçik və orta biznesin inkişafına dövlət dəstəyi mexanizminin tədqiqi***

Müharibədən sonrakı kontekstdə KOB-ların dövlətlə əməkdaşlıq sxemi şəkil 1-də ümumiləşdirilmişdir. Bu sxem özəl sektor-dövlət əməkdaşlığının yeni istiqamətlərini və aspektlərini təqdim edir. Bununla belə, onun tətbiqi bəzi unikal yanaşmalar tələb edir. KOB-ların effektiv fəaliyyəti üçün əlverişli biznes mühiti və dövlətlə özəl sektor arasında sağlam münasibətlər vacibdir. Hökumət KOB-ların problemlərinə diqqət yetirməli və qarşılaşdıqları problemləri həll etməyə kömək etməlidir. Öz növbəsində, KOB-lar hökumətin istəklərini dinləməli və cəmiyyətə öz

töhfələrini verməlidirlər. Özəl sektorun aparıcı hissəsi olaraq, onlar bütün sektorların inkişafında aparıcı rol oynayırlar.




**Şəkil 1.** Müharibədən sonrakı kontekstdə KOB və dövlət əməkdaşlığının sxemi.

Dövlət ilə özəl sektor arasında əməkdaşlıq vasitəsilə bir çox sahələrə investisiyalar cəlb edilə bilər. Dövlətlə özəl sektor arasında tərəfdaşlıq vasitəsilə infrastruktur layihələrinin həyata keçirilməsi özəl sektorun dirçəlməsinə, səmərəliliyin artırılmasına və dövlət büdcəsinə yükün azalmasına gətirib çıxarır.

Vacib məsələlərdən biri müharibə zamanı dağıdılmış su təchizatı və elektrik təchizatı sistemlərinin bərpasıdır. Su və elektrik enerjisinin mövcudluğu və əlçatanlığı ilə bağlı infrastruktur çətinlikləri post-konflikt zonalarda KOB-ların inkişafına təsir göstərən ciddi problemlərdir [5].

Digər mühüm komponent yüksək ixtisaslı insan kapitalının çatışmamazlığıdır. Sahibkarlar tərəfindən maliyyə vəsaitinin əldə edilməsi ilə bağlı çətinliklər post-konflikt ölkələrdə KOB-lar üçün reallıqdır [7]. Belə ki, KOB-lar əsasən öz bizneslərini müstəqil şəkildə maliyyələşdirirlər, çünki kreditlərin alınması ilə bağlı ciddi problemlər var. Ölkənin post-konflikt zonalarda üzləşdiyi müxtəlif problemlər infrastrukturun, xüsusilə də su təchizatının və elektrik təchizatının keyfiyyəti, insan kapitalının zəif inkişafı, iqtisadi problemləri (işsizlik də daxil olmaqla), təhsil və səhiyyə sahəsində xidmətlərin olmamasını ehtiva edir.

İşğaldan azad edilmiş Azərbaycan ərazilərinin sonrakı dövrdə inkişafı, institusional qərarlar, bərpa-tikinti və humanitar fəaliyyət də daxil olmaqla, investorların cəlb edilməsi, dövlət ilə özəl sektor arasında əməkdaşlıq, qaçqın düşmüş vətəndaşların geri qaytarılması və sosial inkişaf məqsədi ilə xüsusi dövlət proqramlarının həyata keçirilməlidir [8]. Belə ki, 4-cü sənaye inqilabının prinsiplərinə uyğun olaraq, post-konflikt rayonları yerli xüsusiyyətlər, resurslar və perspektivlər nəzərə alınmaqla inkişaf etdirilməlidir. Qarabağın inkişaf strategiyası yerli, regional, milli və beynəlxalq səviyyələrdə qısamüddətli, ortamüddətli və uzunmüddətli tədbirləri əhatə etməlidir.

Post-konflikt dövründə quruculuq Azərbaycanda iqtisadi artıma kömək edəcəkdir. Azərbaycan regionda öz iqtisadi, siyasi və hərbi üstünlüyünü bundan sonra da daim möhkəmləndirəcəkdir.

***Post-konflikt ərazilərdə kiçik və orta biznesin prioritet inkişaf istiqamətləri***

Qarabağın inkişaf strategiyası aşağıdakı prioritetlər üzrə həyata keçirilə bilər. Qarabağın inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək üçün idarəetmə, monitorinq və qiymətləndirmə mexanizmi, həmçinin şəffaf və hesabatlı maliyyələşmə mexanizmi yaradılmalıdır.

Azərbaycanda azad edilmiş ərazilərdə texnologiyalar sahəsinə investisiyaları vençur kapitalı vasitəsilə geniş cəlb etmək mümkündür. İlkin səviyyədə böyük sərmayə qoyuluşunun çətin

olduğunu nəzərə alaraq, kiçik və orta biznes səviyyəsində investisiyaların cəlb edilməsi gələcəkdə böyük həcmdə sərmayə qoyuluşuna səbəb ola bilər[10]. İşğaldan azad olunmuş ərazilərdə dağ-mədən sənayesi, metallurgiya, qida sənayesi, emal sənayesi, turizm və istirahət, kreativ sənaye, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, tikinti materiallarının istehsalı sahələrini inkişaf etdirmək potensialı var. Bu sahələrə qoyulan investisiyalar həm qeyri-neft ixracının artması üçün vacibdir. Sənaye parkları və rayonları, Aqro və texno-parkları və digər investisiya təşviqi mexanizmləri də daxil olmaqla, bu sahələrə investisiyaların yatırılmasını təşviq etmək üçün müxtəlif mexanizmlər tətbiq oluna bilər. Qarabağda sərmayədarların marağını cəlb edə biləcək resurslar və iqtisadi potensial var. Bu baxımdan Ağdam Azərbaycanda yeni inkişaf mərkəzi olacaqdır.

Münaqişələrə məruz qalan zonalarda biznes fəaliyyətini bərpa etdirərək müəssisələr investisiya vəsaiti gətirir, sərvət yaradır, iş yerlər yaradırlar və vergi ödəyirlər. Özəl sektor mütəxəssisləri cəlb edir, xaricdən kapital və avadanlıqlar gətirir, yolların, körpülərin, su təchizatı və elektrik təchizatı sistemlərinin bərpasını effektiv şəkildə təmin edir. Onlar həmçinin nəqliyyat vasitələri, logistika dəstəyi təmin edə bilərlər. Ölkədə qaçqın və məcburi köçkünləri məskunlaşdırmaq, kənd təsərrüfatını dirçəltmək, zədələnmiş yolları bərpa etmək, dəmir yolu xətləri, telekommunikasiya, enerji təchizatı, məhkəmələr kimi dövlət qurumlarını bərpa etmək və iqtisadi artıma səbəb olan təsisatları inkişaf etdirmək lazımdır. Post konflikt zonaların bərpası çoxsahəli prosesdir və ilk növbədə sosial-siyasi sabitlik lazımdır. Buna yalnız davamlı iqtisadi artım hesabına nail olmaq mümkündür. Özəl sektor inkişafın əsas mühərriki hesab olunur. Bu iqtisadiyyatı əsaslı bir şəkildə yenidən başlatmağa, iş yerlərinin yaradılmasına və davamlı iqtisadi artımın təmin edilməsinə kömək etmək üçün son dərəcə vacibdir. Biznes üçün potensial imkanlar müəyyən edilməli və əlverişli mühit yaradılmalıdır. Özəl sektor yalnız o halda öz rolunu oynaya bilər ki, həm daxili, həm də xarici investisiyalar üçün əlverişli şərait yaradılsın. Güclü özəl sektor ümumi iqtisadi inkişafda və bərpa prosesində mühüm rolu vardır. Xarici investorlar, yerli biznes icmaları biznes liderlərinin yeni bir sinfini formalaşdırırlar.

Özəl sektorun töhfəsi post-münaqişə zonalarının bərpası üzrə səylərinin ayrılmaz hissəsi olmalıdır. Bu töhfə sadəcə humanitar səylərdə iştirakdan daha böyük olmalıdır. İşgüzar fəallığın və sahibkarlığın canlanması nəticəsində normal iqtisadi fəaliyyət bərpa oluna bilər. Bu həm daxili, həm də xarici investisiyaları stimullaşdırar ki, bu da yüksək həyat səviyyəsinin yaranmasına gətirib çıxarar. Bütün bunların müsbət nəticəsi iş yerləri yaratmaq, yerli hakimiyyət orqanları üçün vergilər və əlbəttə ki, ictimai xidmətləridir. Bu, həlledici əhəmiyyətə malikdir və möhkəm əsasda iqtisadiyyatın bərpasına və davamlı iqtisadi artımın təmin edilməsi məqsədi ilə iş yerlərinin yaradılmasına yönəldilməlidir. Münaqişənin əhatə etdiyi zonalara sərmayə qoymaqla Biznes daha yüksək sabitlik təmin edir [11]. Münaqişə ilə əlaqədar müxtəlif qruplara (Qaçqınlar, məcburi köçkünlər, Gənclər) yaxşı yaşamaq üçün iqtisadi vəsait əldə etmək imkanı verir. Bu, hökumətin vahid, eləcə də strukturlaşdırılmış məşğulluq çərçivəsində sosializasiya ilə təmin olunan inklüziv cəmiyyətin yaradılması istiqamətində səylərini asanlaşdırır. Əlbəttə ki, özəl müəssisələrin yaradılması və inkişafı üçün əlverişli şərait lazımdır. Buna investisiyaların cəlb edilməsi, məcburi köçkünlərin peşə hazırlığı, kənd təsərrüfatı istehsalının dirçəldilməsi və münaqişədən sonra ticarətin bərpası hesabına nail olmaq olar. KOB-lar ölkənin mineral ehtiyatları, bəzi kənd təsərrüfatı məhsulları kimi müqayisəli üstünlüklərə malik olduğu sektorlarda özəl sektorun, xüsusilə, qeyri-neft sektorunun inkişafında onlara kömək edə bilər. Post-konflikt ərazilərdə fiziki infrastruktur çox pis vəziyyətdədir. Buna görə də müharibə zamanı zədələnmiş və ya dağılmış yollar, körpülər, telefon xətləri, dəmir yolu xətləri, qida mənbələri, elektrikötürücü xətlər, şəhər mərkəzlərində su təchizatı və kanalizasiya sistemləri və s. kimi əsas infrastruktur obyektləri yenidən qurulmalıdır. Belə ki, 30 il əvvəl mövcud olmuş infrastrukturu bərpa etmək mümkün deyil. Özəl sektor ən yeni kommunikasiya texnologiyalarının, infrastrukturun bərpasında mühüm rol oynaya bilər. İxtisaslaşdırılmış xarici şirkətlər, ümumiyyətlə, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və ya Asiya İnkişaf Bankı kimi regional inkişaf bankları kimi çoxtərəfli təşkilatlarla infrastrukturun bərpası ilə bağlı böyük müqavilələr bağlaya bilərlər. Yerli özəl firmalar bu səylərdə iştirak etməlidirlər. Bundan əlavə, bərpa proqramının tam həyata keçirilməsi iqtisadiyyatda yeni mal və xidmətlərə tələbat yarada bilər.

Özəl sektor, xüsusilə də, xarici firmalar “nou-hau”ların və yenidənqurma proqramlarının inkişafına kömək etmək üçün son dərəcə zəruri olan bacarıqları ötürə bilərlər. Belə şəraitdə bunun

həlledici əhəmiyyəti vardır. Bu yanaşma insanların, xüsusilə də qaçqınların geri qaytarılmasına yönəldilməlidir. Bundan əlavə, özəl sektor ölkəni daha yaxşı tanıyan və evə dönməyə hazır olan xarici təlim keçmiş və təcrübəli vətəndaşları geri çəkə bilər. Bu, ölkənin kadr potensialının bərpa olunmasına gətirib çıxarardı. Bərpa prosesində iştirak edən çoxtərəfli və ikitərəfli əməkdaşlıqla özəl sektor iqtisadi potensialın artırılmasına daha çox töhfə verə bilər. Bu baxımdan 1999-cu ildə Birləşmiş Krallığın ticarət və Sənaye Nazirliyi tərəfindən yaradılmış Kosovoda Thompson hədəf qrupu yaxşı nümunədir [12]. Tədbirdə energetika, su təchizatı, tikinti, istehsal və konsaltinq sahələrində özəl sektorun liderləri iştirak ediblər. O, Avropa İttifaqı və Birləşmiş Krallıq hökuməti tərəfindən maliyyələşdirilən bir qrupdur. Hədəf qrupu regionda işləmək istəyən bütün korporasiyalardan texniki hazırlığın və texniki idarəetmənin ötürülməsinin təmin edilməsinə sadiqliyini nümayiş etdirməyi tələb edib. Müharibə aparılan zonalarda texniki bacarıqların və biznesin idarə edilməsinin çatışmazlığını aradan qaldırmaq üçün hədəf qrupu Kosovada Beynəlxalq bacarıq və kadr hazırlığı mərkəzi yaratmışdır. Mərkəzin əsas fəaliyyət istiqamətləri bacarıq və idarəetmənin öyrədilməsi, maşın və enerji sektorunun texniki xidməti üzrə təlimatçıların hazırlanması, maliyyə menecmentinin əsasları və s. olmuşdur.

Post-konflikt zonalarda əlverişli biznes mühitin yaradılması və kompleks islahatların aparılması həmin zonalarda iqtisadi yüksəlişin təmin edilməsi və möhkəmləndirilməsi üçün zəruri olan ən mühüm tədbirlərdən biridir.

Münaqişə zonalarında iqtisadi yüksəlişin təmin edilməsi və sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan ən mühüm uzunmüddətli islahatlar bilavasitə özəl sektorun fəaliyyət şəraitinin yaxşılaşdırılmasına yönəlib. Bu cür islahatlara yeni və ya təkmilləşdirilmiş investisiya qanunları, dəqiq mülkiyyət hüquqları, Torpaq reyestrləri, Biznes üçün əlverişli vergitutma, Antikorrupsiya institutları və prosesləri, şəffaflıq və maliyyə vəsaitlərinə çıxış daxildir. Onlar həmçinin elektrik və su təchizatı, məhkəmə islahatı (xüsusilə kommersiya məhkəmələri və torpaq mübahisələri sahəsində), kiçik və orta biznesin inkişafına yardım, kənd inkişaf və regional ticarət kimi mühüm xidmətlərə çıxış imkanlarının genişləndirilməsi üzrə işlər daxildir. Belə islahatların həyata keçirilməsi vaxt tələb edir. Yuxarıda qeyd edilən müzakirələrdən belə görünür ki, özəl sektorla bağlı islahatlara ehtiyac post-konflikt zonalarda bilavasitə daha kəskindir.

***Nəticə***

- İşğaldan azad olunmuş zonalarda xüsusi iqtisadi islahatlar aparılmalıdır.
- İslahatlar yerli reallıqları nəzərə alınaraq aparılmalıdır.
- Özəl sektorun inkişafı ilə bağlı islahatların ardıcıllığına əməl edilməlidir.
- Özəl sektor-Dövlət əməkdaşlığı təmin edilməlidir.
- Münaqişədən sonra ən yüksək prioritet kiçik və orta biznes üçün ekomühitin yaradılması olmalılır.
- İş yerlərinin yaradılması və gəlirlərin əldə edilməsi üçün sürətli iqtisadi artım təmin edilməlidir.
- Səhiyyə və təhsil kimi sosial xidmətlərin göstərilməsi üçün müəssisələrin bərpa olunmalıdır.
- İş yerlərinin yaradılması və həyat səviyyəsinin yüksəldilməsi əsas prioritet olmalıdır.

Beləliklə, post konflikt zonalarda özəl sektorun inkişafı üçün yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi bölgənin tezliklə bərpasını, qaçqınların öz torpaqlarına qayıtmasını və onların yüksək həyat səviyyəsini təmin edə bilər.

**İstinadlar**


1. Braşoveanu &Bălu, 2014
2. Brown et al., 2011; Knight, 2008
3. Brown et al., 2011.
4. Bysyuk, 2010; Ingram et al., 2013; Wang & Pizam, 2011.
5. Causevic & Lynch, 2013; Novelli & Morgan, 2012; UNCTAD, 2017.

6. Chen et al., 2008; Fernando et al., 2013; Gilligan et al., 2013.
7. Erasmus et al., 2013; Pansera & Sarkar, 2016; Ramukumba, 2014.
8. Games, 2011; Keyes, 2012; Novelli & Morgan, 2012.
9. Games, 2011; Hussein & Kimuli, 2012.
10. Gamge, 2014; Ramukumba, 2014.
11. Haddadi & Khodadadpoor, 2015; Novelli & Morgan, 2012; Keyes, 2012.
12. Rogerson, 2008; Mazunder et al., 2013.

**BABAYEV Cavid**

"Report" İnformasiya Agentliyi

# QARABAĞDA YAŞIL ENERJİ POTENSİALI VƏ GÖRÜLƏCƏK İŞLƏRİN TƏHLİLİ

**Xülasə:** Son illər qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Enerji keçidi müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini özündə ehtiva edir. Dünya ölkələrində olduğu kimi Azərbaycanda da bərpaolunan enerji mənbələrindən istifadə artmaqdadır. İşğaldan azad edilmiş ərazilərdə, o cümlədən Qarabağda "yaşıl" enerji zonasının yaradılması qarşıya qoyulmuş əsas məsələlərdəndir. Məqalədə Qarabağın "yaşıl" enerji potensialı və "yaşıl" enerji zonası kimi burada görüləcək işlər təhlil edilmiş və təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** Qarabağ, yaşıl enerji, bərpaolunan enerji

## Giriş

Dünya ölkələri iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq və ətraf mühiti qorumaq məqsədilə "yaşıl" enerji sayılan bərpaolunan enerji mənbələrindən istifadə edir. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) hesabatına görə, dünyada bərpaolunan enerji mənbələrinin qoyuluş gücü 3 min meqavata yaxınlaşır. [1] Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin müvafiq hesabatından görünür ki, ötən il istismara verilmiş yeni elektrik enerjisi qoyuluş güclərinin **80**%-dən çoxunu bərpaolunan enerji mənbələri təşkil edib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə geniş potensiala malik olan ölkələrdəndir. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin hesabatına görə, Azərbaycanda bərpaolunan enerji mənbələrinin qoyuluş gücü 1 291 meqavat olub ki, bu da ümumi gücün 17 faizini təşkil edir. Yaşıl enerji mənbələrindən elektrik enerjisi istehsalı isə ümumi istehsalın 7,3 fazini təşkil edib. [2]

Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə potensialı 27,000 meqavat həcmində qiymətləndirilir. Külək enerjisi potensialı **3,000** meqavat, günəş enerjisi potensialı **23,000** meqavat, bioenerji potensialı **380** meqavat, dağ çayları üzrə potensial isə **520** meqavat həcmindədir.

Respublikamızın müxtəlif ərazilərində ümumi gücü **66** meqavat təşkil edən külək, **40** meqavat olan günəş, **38** meqavat bioenerji elektrik stansiyaları, həmçinin **32** meqavat gücündə kiçik su elektrik stansiyaları istismar olunur. **2020**-ci ildə respublikada ümumi elektrik enerjisi istehsalı **25,8** mlrd. kVt/saat olub ki, bunun **1,3 mlrd** kVt/saatı su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payına düşüb. [3]

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və **2030**-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının **30**%-ə çatdırılmasının (hazırda **17**% təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Bu sahədə ilk normativ sənəd kimi "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun layihəsi hazırlanıb, müvafiq prosedurlardan sonra **31** may **2021**-ci il tarixində Azərbaycanın Milli Məclisində üçüncü oxunuşda qəbul edilib. [4]

"Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun elektrik enerjisi istehsalında bərpaoluna bilən enerji mənbələrindən istifadənin hüquqi, iqtisadi və təşkilati əsaslarını yaradır. Qanun, elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadənin hüquqi, iqtisadi və təşkilati əsaslarını, habelə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalının təşviq edilməsi üçün dəstək mexanizmlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. [5] Qanunda sahənin inkişafına özəl, o cümlədən xarici investisiyaların cəlbi istiqamətində mexanizmlər nəzərdə tutulub ki, bunlardan biri bərpaolunan enerji hərraclarının təşkilidir.

Bərpaolunan enerji mənbələrindən istifadəni inkişaf etdirmək məqsədilə, Asiya İnkişaf Bankının dəstəyi ilə "Üzən günəş panellərinin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" layihəsi həyata keçirilməkdədir. Bu layihə çərçivəsində Azərbaycanda ilk dəfə Böyükşor gölü üzərində **100** kilovatt gücündə pilot üzən fotovoltaik sistemin quraşdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədi və dövlətin vəzifələri göstərilib, enerji effektivliyi üzrə xidmətlərin təşkili və təşviqinə dair məqamlar, istehlak olunan enerjinin hesablanması, istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatında səmərəlilik məsələləri öz əksini tapıb. Layihədə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə, beynəlxalq əməkdaşlıq, dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı müddəalar ehtiva olunub. [6]

Bununla yanaşı, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkəti ilə qoyuluş gücləri müvafiq olaraq **240** meqavat olan külək elektrik stansiyası və **230** meqavat gücündə günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihələrin həyata keçirilməsinə başlanılıb. Şirkətlərlə bu istiqamətdə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Bu **470** meqavatlıq stansiyaların təxminən **500 milyon** ABŞ dolları məbləğində tam xarici investisiya hesabına tikilməsi planlaşdırılır. [7] Qeyd etmək lazımdır ki, bu stansiyalardan illik 1,5 milyard kilovat-saat təmiz enerji istehsal ediləcək. Bu da karbon qazı tullantılarını 600 min ton azaltmağa kömək edəcək, eyni zamanda ildə 330 milyon ton kubmetr təbii qaza qənaət etməyə imkan verəcək.

**Təhlil və qiymətləndirmə**

**"Azad edilmiş torpaqlarda, eyni zamanda, böyük enerji potensialı var. Bəri başdan demək istəyirəm ki, mən azad edilmiş əraziləri yaşıl enerji zonası kimi görmək istərdim. Kifayət qədər imkanlar var".** Bunu ölkə başçısı İlham Əliyev 2020-ci ilin yekunlarına həsr edilmiş müşavirədə bildirmişdi. [8] Azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi, resurslardan səmərəli istifadə hökumətin prioritetlərindəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi müasir inkişaf kursunda Qarabağın "yaşıl" enerji zonasına çevrilməsi əsas yer tutur. Bu vəzifənin Azərbaycanın yeni sosial-iqtisadi inkişaf strategiyasının prioritetləri ilə vəhdətdə həyata keçirilməsi bərpaolunan enerji sahəsinə xarici investisiyanın cəlbi üçün geniş imkanlar yaradır.

Cari ilin may ayında ölkə başçısı azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Sərəncam imzaladı. [9] Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq

məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır. Bundan əlavə işğaldan azad edilmiş ərazilərdə enerji məsələlərinin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin “Enerji təminatı məsələləri” İşçi Qrupu yaradılıb.

“Qarabağ bölgəsi “yaşıl enerji” zonası kimi dünya üçün bir nümunə olacaq.” Bu, Prezident İlham Əliyevin qətiyyətidir.

Prezident İlham Əliyevin Ağdamın bərpasının təməl daşının qoyulması mərasimində “Bütün Qarabağ zonası “yaşıl enerji” zonası olacaq” bildirməsi təsadüfi deyil: Qarabağ regionu bərpaolunan enerji mənbələri nöqteyi nəzərindən çox zəngindir.

İlkin hesablamalara görə, burada günəş enerjisinin potensialı 4,000 meqavatdan, külək enerjisinin potensialı isə 500 meqavatdan, hidroelektrik potensialı isə 700 meqavatdan çoxdur.

Qeyd edək ki, günəş və külək enerjisindən sistemli şəkildə istifadə edilməsi “yaşıl enerji” konsepsiyasının əsas elementlərindəndir. Xüsusən nəzərə alsaq ki, işğaldan azad olunmuş ərazilərimizin günəş və külək potensialı böyükdür. Bu həm də həmin ərazilərdə istehsal olunan elektrik enerjinin digər rayonlara nəql edilməsinə imkan yaradacaq.

Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli rayonları Naxçıvan MR-dan sonra ikinci yerdədir. Burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovatt-saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.



**Şəkil 1. Azərbaycanın günəş (fotovoltaik) enerjisi potensialı. (**Mənbə: globalatlas.info)




**Şəkil 2. Azərbaycanda külək enerjisi potensialı. (** Mənbə: Dünya Bankı)

Azərbaycanın ən günəşli rayonlarından biri də Ağdamdır. Burada günəşli günlərin çox olması günəş enerjisindən istifadəni aktuallaşdırır. Gələcəkdə burada da günəş enerjisindən və digər bərpaolunan enerji mənbələrindən istifadə nəzərdə tutulur.

Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Xüsusilə Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 500 meqavatadək qiymətləndirilir. Təbii ki, bunlar ilkin qiymətləndirmələrdir. Günəş enerjisi potensialının olduğu ərazilərdə istehsal olunacaq enerji 500 milyon kilovatt-saat olaraq hesablanır ki, bu da 100 mindən çox ailənin elektrik enerjisi ilə təmin olunması deməkdir.

İşğaldan azad olunan ərazilərimizdə xarici şirkətlər ilə əməkdaşlıq, ölkəmizin iqtisadi əlaqələrini genişləndirməklə yanaşı, eyni zamanda erməni işğalı nəticəsində tamamilə dağıdılmış ərazilərimizin daha intensiv bərpası baxımdan vacibdir.

Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Bütün bu mənbələr işğaldan azad olunmuş rayonlarımızda yeni enerji layihələrini gerçəkləşdirməyə imkan verir. Həmin istiqamətdə genişmiqyaslı işlər nəzərdə tutulub və onlar ardıcıllıqla həyata keçirilir. “Yaşıl enerji” layihələrinə xarici investorların cəlb edilməsi üçün də artıq müəyyən əməli addımlar atılır.

Bu ilin may ayında Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın “Tepsco” şirkəti arasında müqavilənin imzalanması işlərin uğurla irəlilədiyinin daha bir təsdiqidir. Nazirliyin bu barədə

məlumatında bildirilir ki, müqavilə işğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidro, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından səmərəli istifadə, enerji səmərəliliyi texnologiyaları, müasir enerji idarəetmə yanaşmaları əsasında regionun enerji təminatını həyata keçirmək məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanmasını nəzərdə tutur. Layihə çərçivəsində sahə üzrə beynəlxalq təcrübə araşdırılacaq, sözügedən ərazilərdə iqtisadi inkişaf və əhalinin məskunlaşmasından asılı olaraq enerjiyə tələbat və enerji təchizatı ssenariləri əhatə ediləcək. Həmçinin bərpaolunan enerjinin şəbəkəyə inteqrasiyası, enerji effektivliyi, nəqliyyat, şəhərsalma, tullantıların idarə edilməsi, ağıllı şəbəkələr, yaşıl maliyyələşdirmə və digər məsələlərə baxılacaq. [10]

Cari ilin iyun ayında Böyük Britaniyanın bp şirkəti ilə Zəngilan-Cəbrayıl zonasında **240 meqavat** gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanıb. Avropa şirkəti Qarabağdakı günəş elektrik layihələrinə 200 milyondan çox sərmayə yatıracaq. Bu, Qarabağa xarici sərmayənin cəlb edilməsi istiqamətində mühüm bir addım hesab edilir və bundan sonra da xarici investorların Qarabağda bərpaolunan enerji layihələrinə sərmayə yatırmağa cəlb edəcək. [11]

Qarabağda "yaşıl" enerji zonasının yaradılması dünya ölkələrinin diqqət mərkəzindədir. Azad edilmiş ərazilərin "ağıllı kənd" konsepsiyası əsasında qurulması xarici qonaqların və investorların marağını cəlb edir. Təsadüfi deyil ki, ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin rəhbərlik etdiyi nümayəndə heyətinin Zəngilan rayonu səfəri, layihədə alternativ enerjidən istifadəni yüksək qiymətləndirməsi bunu deməyə əsas verir.

Zəngilan rayonunun Birinci Ağalı kəndi Qarabağda, ümumiyyətlə Azərbaycanda ilk qurulacaq "ağıllı kənd" layihəsidir. Burada bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi bərpaolunan enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak etməsi, bu istiqamətdə dünya təcrübəsinin öyrənilməsi və Azərbaycanın dünya ölkələri arasında öz mövqeyini tutmasında vacib amildir.

Ağdam rayonu da "ağıllı şəhər" konsepsiyasına uyğun olaraq tikilməsi nəzərdə tutulur. Buradakı binaların da xüsusi beynəlxalq standartlara uyğun olaraq "ağıllı binalar" tipologiyasına uyğun olaraq inşası nəzərdə tutulur.

Qarabağda bərpaolunan enerji layihələrini həyata keçirmək üçün dəvət olunan şirkətlər arasında Türkiyə şirkətləri də var. Qardaş ölkənin şirkətləri Laçın və Kəlbəcər rayonlarında bərpaolunan enerji layihələrini həyata keçirmək üçün dəvət olunub.

Azərbaycanın su ehtiyatlarının 25 %-nin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı əlverişli sayılır. Qarabağda təkcə 140-150 meqavatadək kiçik su elektrik stansiyaların potensialı var.

Qarabağ bölgəsində yüksək hidroenerji potensialı mövcuddur. Cəbrayıl rayonu ərazisində "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları, "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları nəinki bölgənin enerji təminatında rol oynayaq, eyni zamanda ətraf rayonların su təminatını yaxşılaşdıracaq.

İşğaldan azad olunmuş ərazilərdə yeni elektrik stansiyaları tikilir, ermənilər tərəfindən dağıdılmış elektrik stansiyaları isə yenilənir. Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 meqavatt gücündə "Kəlbəcər-1" kiçik su elektrik stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Yeni kiçik və böyük su elektrik stansiyalarının tikilməsi, dağıdılmış stansiyaların bərpası Qarabağ bölgəsinin həm enerji həm də su təminatını yaxşılaşdıracaq.

**Nəticə**

Bərpa olunan enerji haqqında qanun layihəsinin təsdiqi Azərbaycanda bu sahənin inkişafı istiqamətdə atılmış ən vacib addımdır. İşğaldan azad olunan ərazilərin "yaşıl enerji" zonasına çev-

rilməsi nəzərdə tutulub. Qarabağda bərpaolunan enerji potensialının yüksək olması bölgənin "yaşıl enerji" zonasına çevrilməsi üçün vacib bir amildir. Bölgədə "yaşıl enerji"nin tətbiqinə su resurslarının istifadəsi vasitəsilə, eyni zamanda günəş və külək enerjisinin geniş şəkildə istifadəsi üçün müvafiq infrastrukturun yaradılması ilə mümkündür.

Ölkəmizin böyük neft-qaz ehtiyatları olsa da, ənənəvi enerji ehtiyatlarının tükənməz olmadığı sirr deyil. Təmiz və tükənməz enerjiyə keçid atmosferə atılan karbon emissiyalarının miqdarını da azaldacaq. Bundan başqa, elektrik enerjisi istehsalında əsas mənbə olan təbii qaza qənaət ediləcək. Təbii qaza qənaət olunması isə ixrac imkanını genişləndirərək, ölkənin valyuta gəlirlərini artıracaq.

Bərpa olunan enerji mənbələri həm də təbii qazın çəkilişinin texniki olaraq mümkünsüz və iqtisadi səmərəli olmayan məntəqələrin enerji tələbatı üçün həll yoludur. Kəlbəcər və Laçın rayonlarının hündür dağlıq ərazi olduğunu nəzərə alsaq, bərpaolunan enerji mənbələrindən istifadə daha səmərəli olar. Yaşıl enerji zonasında yeni elektrik stansiyaların tikintisi məşğulluğun artmasına da töhfə verəcək. Bundan əlavə, azad olunmuş ərazilərə yeni investisiyaların cəlbi, bərpaolunan enerji potensialından istifadə Azərbaycanı yaşıl enerji ölkəsi kimi dünya ölkələri arasında öz yerini tutmasına imkan verəcək.

## İstinadlar


1. IRENA–Renewable Energy Capacity Statistics 2021
2. https://www.irena.org/publications/2021/Aug/Renewable-energy-statistics-2021
3. www.berpaolunanenerji.az – Azərbaycanın bərpaolunan enerji mənzərəsi–IRENA-nın hesabatı
4. Azərbaycan Respublikası Energetika Nazirliyi, Elektrik enerjisinə dair operativ məlumat
5. https://meclis.gov.az/news.php?id=3304&lang=az
6. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, https://president.az/articles/52419
7. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Azərbaycan Respublikasının Qanunu, https://president.az/articles/52797
8. www.berpaolunanenerji.az - Bərpaolunan enerji xəbərləri informasiya portalı
9. İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib, https://president.az/articles/52797
10. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/articles/51355
11. Energetika Nazirliyi Yaponiya şirkəti ilə müqavilə imzalayıb, https://minenergy.gov.az/az/xeberler-arxivi/energetika-nazirliyi-yaponiya-sirketi-ile-muqavile-imzalayib
12. bp ilə Zəngilan-Cəbrayıl zonasında günəş enerjisi layihəsi üzrə əməkdaşlığa başlanılır, https://berpaolunanenerji.az/news/bp-ile-zengilan-cebrayil-zonasinda-gunes-enerjisi-layihesi-uzre-emekdasliga-baslanilir-2021-06-03-163513

**BABAYEV Əlican**

UNEC, i.e.d., professor

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİALI: PRİORİTETLƏR VƏ GÖZLƏNTİLƏR

**Xülasə:** Məqalədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin iqtisadi inkişaf perspektivləri təhlil edilmiş, bu resurslardan səmərəli və məqsədyönlü istifadə imkanları araşdırılmışdır. İşğaldan azad edilmiş ərazilərin təbii sərvətlərindən, aqrar-sənaye potensialından, turizm imkanlarından məqsədyönlü istifadə olunması məqsədilə həyata keçirilən tədbirlərdən bəhs olunmuş, eyni zamanda, reallaşdırılan innovativ layihələrin, "yaşıl enerji" konsepsiyasının əhəmiyyəti önə çəkilmişdir. Müəllif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan yeni idarəetmə forma və modellərinin, eləcə də rayonların yeni iqtisadi bölgüsünün – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının əhəmiyyətini xüsusi vurğulamışdır. Qeyd etmişdir ki, işğalçılıq siyasəti üzündən Cənubi Qafqazda reallaşdırılmış qlobal iqtisadi layihələrdən kənarda qalmış Ermənistan Respublikası gələcəyi naminə regionda yaranmış yeni geosiyasi və iqtisadi reallıqları düzgün dəyərləndirməli, əməkdaşlıq təşəbbüslərinə səmimi şəkildə qoşulmalıdır.

**Açar sözlər:** işğaldan azad olunmuş ərazilər, region, iqtisadi potensial, idarəetmə, əməkdaşlıq, infrastruktur.

→

## Giriş

Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri keçmiş ittifaq dövründə infrastruktur baxımından inkişaf etmiş bölgə olmuşdur. Lakin Ermənistanın işğalı nəticəsində regionun maddi-mədəni irsi ilə yanaşı, kommunikasiya, nəqliyyat, xidmət və sosial infrastrukturu, dəyəri on milyard dollarla ölçülən iqtisadi-kapital resursları tamamilə sıradan çıxarılmışdır.

Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi məqsədilə yaradılmış İşçi Qrupunun apardığı qiymətləndirməyə əsasən, ölkəmizə dəymiş iqtisadi zərər 820 milyard dollar təşkil etmişdir. Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərini işğal altında saxlamasına baxmayaraq, bu torpaqların zəngin yeraltı və yerüstü təbii ehtiyatlarından əhəmiyyətli dərəcədə faydalana bilməmişdir. Kəlbəcərdə və digər ərazilərimizdə kustar üsullarla və ətraf mühitə ziyan vurmaqla faydalı qazıntılarımızı qeyri-qanuni istismar etməyə nail olsa da, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq və digər resursları, eləcə də, kurort-rekreasiya potensialını mənimsəyə bilməmişdir. Belə ki, ermənilər bu ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək ixtisaslı kadr bazasına, qabaqcıl texnologiyalara, səmərəli investisiya planlarına malik olmamışlar.

Ərazilərimizdə qeyri-qanuni olaraq sənaye, aqrar və digər sahələrdən hər il böyük həcmdə gəlir əldə edən ermənilər hazırda bu resursların əldən çıxması ilə ciddi maliyyə itkilərinə məruz qalmışlar. Qarabağ və ətraf rayonların hesabına buğda və arpa məhsullarına olan ehtiyacının 25 faizə qədərini təmin edən, ildə təxminən 190 min tonadək taxıl yığan Ermənistan bu imkandan məhrum edilmişdir. Prezident İlham Əliyevin bildirdiyi kimi: “Ermənistanın işğal edilmiş bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısını bizim torpaqlarımızdan götürürdü. Bu, torpaqlarımızın qanunsuz istismarıdır. Buna cavab verəcək, dəymiş ziyanı ödəyəcək”(1).

**İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin reallaşdırılması**

44 günlük tarixi Zəfərdən sonra ərazi bütövlüyünü və tarixi ədalət bərpa etməsi fonunda Azərbaycan doğma torpaqlarında məcburi köçkünə çevrilmiş insanların vətənə qayıdışının təmin olunması, həmin ərazilərin iqtisadiyyatın xüsusi əlavə dəyər yaradan sektorlarına dövriyyəyə cəlb edilməsi üçün əlverişli imkanlar qazanmışdır. İlk növbədə, bu ərazilərdə zəruri infrastrukturların yaradılması və azad edilmiş ərazilərin potensialının qiymətləndirilməsi məqsədilə müxtəlif sosial-inkişaf proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.

2021-ci ilin dövlət büdcəsindən ayrılmış 2.2 milyard manat vəsaitlər hesabına cari ilin yanvar ayından etibarən ərazilərin minalardan təmizlənməsi, yol, nəqliyyat, elektrik enerjisi, su, qaz təchizatı, infrastruktur və sosial xidmət obyektlərinin, yaşayış məntəqələrinin inşası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Zəngilan rayonunun Ağalı kəndində “ağıllı kənd” layihəsinin icrasına start verilməsi yeni konseptual yanaşma olaraq regionun iqtisadi inkişafını və müasir idarəetmə modellərinin reallaşmasını, son nəticədə vətəndaş məmnunluğunu təmin edəcəkdir.

Prezident İlham Əliyev bununla bağlı demişdir: “Biz müharibədən bir neçə ay keçəndən sonra artıq bu işlərə də start verdik. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci “ağıllı kənd” layihəsi olan Ağalı kəndinin bərpasına start verilib. Ağalı kəndi, əslində, üç kənd – Birinci, İkinci, Üçüncü Ağalı kəndləri oktyabrın 28-də işğalçılardan azad edilmişdir. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu və bu nümunəvi kənd olacaq. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilibdir. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcəkdir”(2).

Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində “smart-city” (ağıllı şəhər) və “smart-village” (ağıllı kənd) konsepsiyalarının tətbiqi, ilk növbədə, dünyadakı yeni qlobal tendensiya və paradiqmalara əsaslanır. “Smart-city” və “smart-village” konsepsiyalarının tətbiqi Qarabağ regionunu texnoloji investisiyalar üçün maraq mərkəzinə çevirməklə yanaşı, həm də ölkənin digər regionlarında ağıllı şəhər-kənd texnologiyalarının tətbiqi üçün təcrübə rolunu oynayacaqdır. “Ağıllı şəhər” həllərinin tətbiqi fonunda təhlükəsizlik, vaxt və rahatlıq, sağlamlıq, ətraf mühitin keyfiyyəti, sosial əlaqə və vətəndaş iştirakı, iş yerləri və yaşayış xərci kimi müxtəlif həyat keyfiyyət göstəricilərinə təsir etmək mümkündür. Ağıllı şəhər texnologiyaları vətəndaşların sağlamlığını və rifahını yaxşılaşdırmaq təsirinə malik olmaqla bərabər, iqtisadi inkişaf üçün yeni yollar təqdim edir. Bərpa olunan ərazilərdə bulud əsaslı texnologiyaların tətbiqi regionun bərpası prosesini sürətləndirə və həmin regionu texnoinvestorlar üçün daha cəlbedici edə bilər.

“Böyük Qayıdış” proqramının icrasını və tikinti-quruculuq işlərinin ahəngdarlığını şəxsən təmin edən və nəzarətdə saxlayan Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın, Kəlbəcər və Şuşaya səfərləri zamanı mühüm infrastruktur və sosial xidmət obyektləri istifadəyə verilmiş, yeni layihələrin təməli qoyulmuşdur. Zəfər Yolunun, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi quruculuq və dayanıqlı məskunlaşmanın nəzərdə tutulduğundan daha sürətlə aparıldığını təsdiq etmişdir.

Azərbaycan ərazi bütövlüyünü təmin etmiş dövlət kimi iqtisadi siyasətində müəyyən korrektələr etmiş, regionların inkişaf istiqamətlərinə və yeni geoiqtisadi şəraitə uyğun olaraq iqtisadi

rayonlaşmanın yeni təsnifatını müəyyənləşdirmişdir. Prezident İlham Əliyevin 07 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin reallaşdırılması baxımdan vacib əhəmiyyətə malikdir. Bu sənədlər özündə həm yüksək iqtisadi səmərəliliyi, həm də tarixi reallıqları ehtiva etməklə, işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli şəkildə istifadə olunması üçün bütün işlərin vahid proqram əsasında reallaşdırılmasına imkan verir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın son illərdəki sürətli inkişafı və Vətən Müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıq fonunda iqtisadi rayonların yeni bölgüsü təkcə coğrafi-iqtisadi deyil, siyasi baxımdan da aktual, vacib məsələ kimi gündəmə gəlmişdi.

Fərmanla ölkəmizdə iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılmışdır. Ərazilərimizin iqtisadi rayonlar üzrə yeni bölgüsü ölkəmizin şəhər və rayonlarının daha dinamik, davamlı və tarazlı inkişafının təmini baxımından mühüm əhəmiyyət kəsb edir Eyni zamanda bu bölgü regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə, iqtisadi potensialının gücləndirilməsinə, bununla da əhalinin maddi rifah halının yüksəldilməsinə töhfəsini vermiş olacaqdır.

Prezident İlham Əliyevin 04 yanvar 2021-ci il tarixli fərmanına əsasən, Qarabağ Dirçəliş Fondunun yaradılması işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata, yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın yaxın 10 illik inkişaf strategiyasının ana sənədi olan 02 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışının təmin edilməsi, bu ərazilərdə iqtisadi və sosial quruculuq tədbirlərinin həyata keçirilməsi ilə bağlı mühüm hədəflər müəyyənləşdirmişdir. Sənədə əsasən, işğaldan azad olunmuş bölgələr cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatan olmalı, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması, habelə ərazilərdə "yaşıl enerji" konsepsiyasının tətbiqi Azərbaycan üçün prioritet istiqamətlərdən biridir. Azərbaycan Prezidenti İ.Əliyevin 2021-ci il mayın 3-də imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir. Sərəncama əsasən, ölkəmizin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmışdır. Belə bir sərəncamın imzalanması ölkəmizdə "yaşıl enerji" zonası yaradılması layihəsinə mühüm əhəmiyyət verməsinin bariz təcəssümüdür. Dövlət başçısı azad olunmuş ərazilərə səfəri zamanı Laçın rayonunun Güləbird kəndində çıxış edərkən demişdir: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik"(3)

"Yaşıl enerji" konsepsiyası, ərazilərin ekoloji mühitinin, turizm potensialının qorunmasına xidmət etməklə yanaşı, respublikamızın gələcək iqtisadi inkişafının təmin edilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Hazırda dünya miqyasında neft və qazın istehlakının bərpa edilən enerji mənbələri ilə əvəzlənməsi istiqamətində genişmiqyaslı işlər görülür.

Beynəlxalq Enerji Agentliyi tərəfindən hazırlanan "yol xəritəsi"nə əsasən, 2050-ci ilə qədər bütün dünya ölkələri tərəfindən atmosferə atılan sənaye tullantılarının tam şəkildə qadağan edilməsi nəzərdə tutulur. Bu prosesə perspektivdə BMT-nin də qoşulması gözlənilir. Dövlətlər atmosferə zərərli tullantıların atılmasının tam dayandırılması üçün BMT qarşısında müvafiq

öhdəliklər götürəcək və buna beynəlxalq nəzarət mexanizmi tətbiq ediləcəkdir. Enerji resurslarının böyük istehlakçılarından biri olan Avropa İttifaqı isə 2030-cu ilədək neft-qaz idxalını 25 faizdən çox azaltmağı planlaşdırır. Bütün bunlar Azərbaycanın "yaşıl enerji"yə keçid konsepsiyasının zamanın çağırışlarına adekvat olduğunu, müasir inkişaf trendləri ilə tam uzlaşdığını bir daha nümayiş etdirir.

**İşğaldan azad olan ərazilərin inkişaf yolları**

İşğaldan azad edilmiş ərazilərin zəngin qızıl və digər filiz yataqları təkcə Azərbaycan üçün deyil, xarici sərmayədarlar üçün də cəlbedicidir. Zəngilan rayonundakı Vejnəli, eyni zamanda, Kəlbəcər rayonundakı Söyüdlü (Zod) qızıl yataqlarının mənimsənilməsi ölkəmizə böyük valyuta axınları vəd edir. Bundan əlavə, Kəlbəcərdəki "Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarının 30 il müddətində qardaş Türkiyənin "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətlərinin istifadəsinə verilməsi qızıl sənayesinin gələcək inkişafına etibarlı zəmin yaratmışdır.

İşğala qədər mövcud olmuş Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarının, habelə Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət qoruqlarının bərpası flora və faunamızın tədricən yenilənməsinə, ekoloji mühitin yaxşılaşmasına imkan yaratmaqla bərabər, ekoturizmin inkişafında mühüm rol oynayacaqdır. Kəlbəcər, Laçın və Zəngilandakı təbii yaylaqlar, otlaqlar, örüş sahələri heyvandarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Xatırlatmaq yerinə düşər ki, Kəlbəcər yaylaqları sovetlər dövründə heyvan sürülərinin əsas köç yeri olmuş, işğaldan əvvəlki dövrlərdə Azərbaycanın 30-dan artıq rayonunun heyvandarlıq təsərrüfatı mövsüm zamanı bu yaylaqların imkanından yararlanmışdır. Artıq Kəlbəcərə "Böyük Köç"ün əsası qoyulmuş, damazlıq qoyunçuluq və arıçılıq təsərrüfatları yaradılmış, ölkə başçısı bu rayona səfəri zamanı həmin təsərrüfatlara baş çəkmişdir.

Vaxtilə Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olmuş ərazilərimizdə ənənəvi əkinçilik bərpa olunmuş, taxılçılıq üçün münbit torpaqlara malik Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında müasir aqrar təsərrüfatların yaradılması işlərinə başlanmışdır. İşğaldan azad edilmiş ərazilərimizdə əkinçilik, meyvəçilik, tərəvəzçilik və digər mühüm kənd təsərrüfatı sahələrinin inkişafının stimullaşdırılması istiqamətində atılan addımların yaxın dövr üçün kənd təsərrüfatında 9 faizədək artıma səbəb olacağı proqnozlaşdırılır.

İlkin hesablamalar göstərir ki, qarşıdakı illərdə Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarından əldə olunacaq əlavə dəyərin həcmi 2 milyard manatdan çox olacaqdır. Eyni zamanda, iqtisadi artım ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə ciddi töhfə verəcəkdir. İqtisadi hesablamalara və proqnozlara görə işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra ölkəmizdə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi 70-80 faizdən 90-95 faizə çatacaqdır.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması regionda fərqli geosiyasi mənzərə yaratmışdır. Bəyannamədə Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin açılmasının təşviqi kimi məsələlər də yer almışdır. *"Yenidənqurma başlayıb, infrastruktur layihələri icra olunur, ancaq gələcək üçün nəhəng potensial var və digər ölkələrdən də yeni şirkətlər işə başlayacaq. Biz bütün dostlarımızın yenidənqurma işlərində iştirakını və bu imkanlardan faydalanmasını arzulayırıq* (4)– deyən Prezident İlham Əliyev Azərbaycanın qapısının bölgədə sülh və dayanıqlı sabitlikdə, faydalı əməkdaşlıqda maraqlı olan bütün dövlətlərin üzünə açıq olduğunu diqqətə çatdırmışdır. Dövlət başçısı, eyni zamanda, indiyə qədər bölgədə siyasi və iqtisadi münasibətlərin ahəngdarlığını pozan, regionun inkişafını ləngidən yeganə ölkə olan Ermənistanın çoxşaxəli kommunikasiyalarda, regional layihələrdə təmsil olunması üçün tarixi fürsət yarandığını bildirmişdir

***Nəticə***

Göründüyü kimi, ağır iqtisadi böhran keçirən Ermənistanın nicat yolu yalnız Azərbaycanın müəllifi olduğu və hazırda gerçəkləşdirdiyi regional nəqliyyat-kommunikasiya və strateji əhəmiyyətli

iqtisadi layihələrə qoşulmasıdır. Ermənistan Azərbaycanla sərhədlərin demarkasiyası və delimitasiyası üzrə məsələlərdə əsassız və məntiqsiz iddialarından əl çəkərək sülh sazişi imzalamaqla, həm Azərbaycan, həm də Türkiyə ilə normal münasibətlər qurmaqla regional layihələrə qoşulmaq imkanı qazana bilər. Təkzibolunmaz reallıqdır ki, Ermənistanın kənardan maliyyə dəstəyi olmadığı halda, öz mövcudluğunu qoruyub saxlaması qeyri-mümkündür. Bu konteksdən qəti şəkildə qeyd etmək mümkündür ki, Ermənistanın perspektiv dayanıqlı siyasi-iqtisadi-sosial sabitliyi və inkişafı onun regional inteqrasiya proseslərinə qoşulması şərtilə mümkün ola bilər.

## İstinadlar


1. https://president.az/articles/48205
2. https://azertag.az/xeber/1766219
3. https://news.milli.az/politics/922624.html
4. https://azertag.az/xeber/1754025

BAĞIROV Mübariz

UNEC, i.e.d., professor

# POST MÜHARİBƏ DÖVRÜNDƏ AĞDAMIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Məqalədə post-müharibə dövründə Ağdamın və eləcədə Qarabağın inkişaf perspektivləri əks olunmuşdur. Müharibə dövründə dağıntılara məruz qalmış Ağdamın və digər rayonların bərpası məqsədləri və bərpanın təminatı istiqamətləri göstərilmişdir. Bu istiqamətdə hökumətin həyata keçirdiyi tədbirlər qısaca öz əksini tapmışdır.
Dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün lazım olan əsas fəaliyyət istiqamətləri göstərilmiş, Qarabağ zonasının ölkə iqtisadiyyatındakı yeri göstəricilər əsasında xarakterizə olunmuşdur. Hal-hazırda Ağdamda aparılan bərpa, quruculuq işlərinin qısa şərhi verilmişdir.

**Açar sözlər:** dayanıqlı inkişaf, “Böyük qayıdış”, dayanıqlı məskunlaşma, iqtisadi reinteqrasiya

→

## Giriş

Post müharibə dövründə işğaldan azad olunmuş ərazilərini bərpa olunması və onun insan həyatı üçün zəruri vəziyyətə gətirilməsi ölkəmizin qarşısında duran ən mühüm vəzifədir. Ölkə prezidenti tərəfindən elan edilən və fəaliyyətin prioritetinə çevrilən “Böyük Qayıdış”ın təmin edilməsi üçün həmin vəzifənin yerinə yetirilməsi çox vacibdir. Bu məsələlərin həlli əslində təkcə yalnız bu günkü cari problemlər deyil, gələcəyə, strateji məqsədlərə yönəlmiş fəaliyyətin tərkib hissəsidir.

Strateji məqsədlər dedikdə isə, bu istiqamətdə vacib məsələlərdən biri Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın Transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf gündəliyi”nin məqsəd, hədəf və göstəricilərinin təmin edilməsindən ibarətdir.

Məlumdur ki, işğal dövründə ən çox dağıntılarda məruz qalan rayonlardan biri də Ağdamdır. Bu rayonun mövcud potensialının tamamilə dağıdılması sonda Ağdamı Cənubi Qafqazın Xirosiması adlandırılması ilə nəticələnmişdir. Bu xarici media nümayəndələrinin Ağdama verdiyi qiymətdir.

Statistik məlumatlara əsaslanaraq deyə bilərik ki, işğala qədərki dövrdə Ağdam rayonunda kənd təsərrüfatı əsas fəaliyyət istiqamətlərindən biri olmaqla aşağıdakı istehsal göstəriciləri ilə xarakterizə olunurdu:

- Taxıl – 30,1 min ton;
- Kartof – 5 min ton;
- Pambıq – 19 min ton;
- Ət – 2,7 min ton;
- Üzüm - 1,2 min ton;
- Süd – 12,6 min ton;
- Yun – 297 ton;
- Barama 379 ton;
- Yumurta – 2,3 min ədəd və s.

Belə istehsal potensialına malik olan Ağdamın post-müharibə dövründə inkişaf etdirilməsi üçün ilkin olaraq infrastrukturun formalaşması və kompleks xidmətlər sahəsinin bərpası həyata keçirilir. Bütövlükdə Qarabağın bərpası onun istehsal gücünün tam işə salınmasına gətirib çıxaracaqdır. Qarabağın işğaldan əvvəlki gücü 7 min müəssisə tərəfindən istehsal edilən ən mühüm məhsullar üzrə aşağıdakı kimi olmuşdur:

- ölkənin taxıl istehsalının 24%-i,
- kartof istehsalının 46%-i,
- ət istehsalının 18%-i,
- süd istehsalının 34%-i,
- spirtli içki istehsalının 41%-i və s.

Nəzərdə tutulan inkişaf proqramlarının yerinə yetirilməsi Qarabağ ərazisində yeni inkişaf parametrləri yaratmaqla dayanıqlı inkişaf məqsədlərinin bütün istiqamətləri üzrə dinamik vəziyyət yaradacaqdır.

**Ağdam iqtisadiyyatının inkişaf perspektivləri**

Tərkibinə Ağdam da daxil olmaqla bütün Qarabağın bərpasını mərkəzləşdirilmiş şəkildə həyata keçirmək üçün əsaslı tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə hökumət tərəfindən "Əlaqələndirmə qərargahı" yaradılmışdır. Onun tərkibində isə "İdarələrarası mərkəz" fəaliyyət göstərir. Bu strukturun gəlirli fəaliyyəti üçün Mərkəzin nəzdində müxtəlif istiqamətlərdə fəaliyyət göstərən 17 işçi qrupu yaradılmışdır. Bu işçi qrupları beynəlxalq təcrübəyə uyğun olaraq müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, hərbi, humanitar, hüquqi, ekoloji, sosial və digər sahələrdə ixtisas mütəxəssislərindən formalaşmışdır. Bu işçi qruplarının kompleks fəaliyyətinin təşkil olunması məqsədilə hökumət tərəfindən strateji fəaliyyət planı hazırlanaraq icra olunmağa başlamışdır.

Cari ilin əvvəlində "Azərbaycan 2030: sosial iqtisadi inkişafına dair Milli Prioritetlər" adlı sənəd qəbul olunmuş və bu sənəddə "Böyük Qayıdış"ın əsas istiqamətlərindən biri kimi öz əksini tapmışdır. Bu prioritetin həyata keçirilməsi üçün iki mühüm istiqamətdə fəaliyyət nəzərdə tutulur. Bunlardan birincisi dayanıqlı məskunlaşma, ikincisi isə iqtisadi fəaliyyətə reinterqasiyadır. Bu qeyd edilən istiqamətdə fəaliyyətin qurulması ölkəmizdə dayanıqlı inkişaf məqsədlərinin uğurla həyata keçirilməsinə təkan verəcəkdir. 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində icrası nəzərdə tutulan 17 məqsəd və 169 hədəfin yerinə yetirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur. 06 oktyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında fərman imzalamışdır. Bu şuranın əsas vəzifəsi Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə mənimsənilməsi, hərtərəfli təmin olunması və monitorinqi istiqamətində hökumətin və aidiyyəti olan digər milli təşkilatların səylərini əlaqələndirməkdən ibarətdir. Məhz bu istiqamətdə fəaliyyətin düzgün qurulması işğaldan azad edilmiş ərazilərin və iqtisadi potensialdan istifadə edərək dayanıqlı inkişafın məqsədlərinə uğurla çatmaqda mühüm bir vasitə olacaqdır.

Hal-hazırda Ağdam rayonu ərazisində aparılan bərpa işləri, infrastrukturun yaradılması məhz dayanıqlı inkişafın regional təməlinin qoyulması kimi qiymətləndirilə bilər. Nəqliyyat sektoru üzrə yenidənqurma və bərpa işləri, enerji sektoru üzrə yenidənqurma və bərpa işləri, həmçinin yaşıl zonanın yaradılması "Müasir şəhər" və "Ağıllı kənd" layihəsinin və s. reallaşdırılması dayanıqlı inkişaf məqsədlərinin icra olunması üçün mühüm impuls olacaqdır.

## Nəticə

“Böyük Qayıdış” planının tərkib hissəsi olan Ağdam rayonunun bərpası ölkəmizin iqtisadiyyatına öz töhfəsini verəcəkdir. Belə ki, özünün iqtisadi göstəriciləri ilə hələ Sovet İttifaqı dövründə rayonlar içərisində ön yerdə olan Ağdamın böyük iqtisadi potensialı vardır. Kənd təsərrüfatı məhsulları istehsalının böyük həcmi ilə seçilən bu rayonda bərpa dövründə innovativ üsulların tətbiqi vasitəsilə daha çox məhsul istehsal etmək mümkün olacaqdır. “Ağıllı kənd” və “Müasir şəhər” adlı layihələrin bu rayonda tətbiq olunması vasitəsi ilə yeni iş yerləri açılacaq, regionda məşğulluğun səviyyəsi yüksələcək, ölkənin ümumi daxili məhsulunun artımına əsaslı təsir olacaq. Bərpa məqsədilə aparılacaq tikinti işləri xüsusi ilə seçilərək ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynayacaq. Sosial və infrastruktur layihələrin reallaşdırılması həm Ağdamın, həm də bütövlükdə Qarabağın ölkənin digər hissələri ilə həm də iqtisadi həyatı ilə inteqrasiyanı bərpa edəcək və bu prosesi sürətləndirəcəkdir. Bu tədbirlərin həyata keçirilməsi regionun inkişafını təmin edərək Ağdamı yenidən ən inkişaf etmiş bir ərazi vahidinə çevirəcəkdir.

## İstinadlar


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası (Ermənistan-Azərbaycan münaqişəsi, Tammətnli elektron materialları məcmuəsi – Bakı: 2005) (https://files.preslib.az/site/karabakh/g11.pdf)
2. https://sdgs.un.org/goals
3. https://sdgindex.org
4. https://xalqqazeti.com/mobile/az/news/65710

**BAĞIRZADƏ Cavid**

Gəncə Dövlət Universiteti, tarixi üzrə fəlsəfə doktoru, dos.

# ERMƏNİ İŞĞALI NƏTİCƏSİNDƏ DƏYMİŞ MADDİ-MƏNƏVİ ZİYANLAR HAQQINDA

**Xülasə:** Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızı zəbt edilib, ərazi iddialarını "əsaslandırmaq" məqsədilə maddi və qeyri-maddi mədəni irsimiz təcavüzkar tərəfindən xüsusi qəddarlıq və həyasızlıqla talan və məhv edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 13 dünya əhəmiyyətli, 292 milli əhəmiyyətli, həmçinin 330 yerli əhəmiyyətli abidə dağıdılmış və ya istifadəyə yararsız hala salınmışdır. 804 qəbiristanlıq və 10 məscid talan və təhqir edilib, 40 min eksponatın saxlandığı 22-si tarix, 5-i xatirə muzey (bütövlükdə, muzeylərdə 77 mindən artıq zəngin eksponat olmuşdur.) və dörd rəsm qalereyası vəhşicəsinə yerlə-yeksan olunmuşdur. Dağıdılmış və yandırılmış 927 kitabxanada 4,6 milyon nüsxə kitab və qiymətli əlyazmalar məhv edilmişdir. Qarabağın erməni qəsbkarlarının işğal altında qalmış hissəsindəki zəngin təbii sərvətlər Rusiya, Kanada, İsveçrə, Fransa, Almaniya iş adamları və şirkətləri tərəfindən talan edilmişdir. Talan edilən Azərbaycan sərvətlərindən gələn gəlirlərin çox hissəsi isə ermənilərə çatmışdır.

**Açar sözlər:** Qarabağ, təbii sərvətlər, maddi və mənəvi irs, tarixi-arxeoloji abidələr, inzibati rayon, münbit torpaqlar.

→

## Giriş

Azərbaycanın olduqca əlverişli təbii-coğrafi mövqeyə və təbii mühitə malik, mühüm strateji əhəmiyyətli ərazilərindən biri olan Qarabağ bölgəsi əcdadımızın ən qədim zamanlardan sıx məskunlaşdığı və davamlı olaraq bütün tarixi dövrlərdə yaşadığı tarixi-etnoqrafik vilayət olmuşdur. Təsadüfi deyildi ki, Qarabağ bölgəsində məskunlaşma paleolit dövründən başlayaraq çağdaş dövrümüzə kimi fasiləsiz olaraq davam etmişdir. Təsadüfi deyildi ki, Qarabağ ərazisində çoxlu sayda tarixi yaşayış yerləri mövcud olmuş, buradan mühüm ticarət-karvan yolları keçmişdir. Eyni zamanda VI əsrdən etibarən Albaniyanın dini mərkəzi və Alban katolikosluğunun ləğv olunmasına kimi, onun iqamətgahı da Qarabağ bölgəsində yerləşmişdir. Müxtəlif tarixi dövrlərdə, uzun əsrlər boyu ölkənin iqtisadi, siyasi və mədəni mərkəzlərindən olan Qarabağda şəhər mədəniyyəti çiçəklənmiş, burada zəngin mədəniyyət yaranmışdır. Buna görə də Qarabağ bölgəsində çoxlu sayda tarixi memarlıq abidələri mövcuddur. Erməni işğalı nəticəsində Qarabağ ərazisində yerləşən tarixi, dini və memarlıq abidələrinə böyük ziyan dəymiş, erməni vandalizmi nəticəsində Azərbaycanın Qarabağ bölgəsindəki maddi-mənəvi irsi talan edilmiş və dağıdılmışdır.

*Qarabağın maddi-mədəni irsinə dəymiş ziyanlar haqqında*

Qarabağın mühüm hissəsi uzun illər erməni işğalı altında olduğundan buradakı abidələrimizin vəziyyəti haqqında danışmaq çox çətindir. O da sirr deyil ki, işğal altında olan Qarabağ ərazisindəki abidələrimiz ermənilər tərəfindən ya dağıdılır, ya da saxtalaşdırılaraq "erməni abidələri" kimi təqdim olunur. Acınacaqlı hal ondan ibarətdir ki, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızdakı ilk orta əsrlər dövrünə aid yaşayış yerlərində, o cümlədən də şəhər yerlərində "erməni arxeoloqları" qanunsuz qazıntı işləri aparmış, maddi mədəniyyətimizi qəsb edərək, öz adlarına çıxmış, tarixi saxtalaşdırmağa çalışmış, əldə etdikləri arxeoloji materialları erməni maddi mədəniyyət nümunələri kimi təqdim etmişdilər. Erməni arxeoloqları qanunsuz qazıntı işləri zamanı aşkar etdikləri yaşayış yerlərini, həmçinin şəhər yerlərini "qədim erməni şəhərləri, yaşayış yerləri" kimi qələmə vermiş və ya hansısa "erməni hökmdarı" tərəfindən salındığını iddia etmişdilər. Bütün bunlar Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərinin tarixi-arxeoloji baxımdan kompleks olaraq öyrənilməsi zərurətini ortaya qoyur, elmi baxımdan aktuallığını şərtləndirir, eyni zamanda tədqiqatın elmi nəticələrinin siyasi əhəmiyyətinin də olmasını müəyyən edir.

Yazılı mənbələrin verdiyi məlumatlara görə, eləcə də aparılmış tarixi-arxeoloji tədqiqatlara görə Qarabağ ərazisində ilk orta əsrlər dövründə çoxlu sayda şəhərlər və şəhərtipli yaşayış yerlərinin mövcud olması ilə yanaşı bu bölgədə ilk orta əsrlər dövründə bir çox mühüm tarixi-siyasi hadisələr baş vermişdir. Albaniyada xristianlığın ilk təşəkkül tapdığı, möhkəmləndiyi bölgələrdən biri də Qarabağ ərazisi olmuşdur. Qarabağ bölgəsində ilk orta əsrlər dövründə mövcud olmuş şəhərlər eyni zamanda dini mərkəz rolunu oynamışdır. Bu dövrdə Bərdə şəhəri Alban katolikosluğunun mərkəzi idisə, bölgədəki şəhərlərdən Aluen, Amaras, Tsri (Sri), Kaqankat (Kalankatuk), Bərdəkür (Berdakur, Berdakan) yeparxiya və ya dini təhsil mərkəzləri, mədəni mərkəzlər olmuşlar. Məlumdur ki, Bərdə şəhərindən sonra Alban katolikosluğunun mərkəzi əvvəllər katolikosluğun yay iqamətgahı olmuş Bərdəkür şəhərinə köçürülmüşdür.

Tədqiqatlardan və mənbə məlumatlarından aydın olur ki, Qarabağ bölgəsindəki tarixi şəhərlər əsasən Tərtərçay, Xaçınçay və Qarqarçay hövzələrində yerləşmişdir. Təbii ki, bu da təbii-coğrafi amillərlə bağlı olmuşdur. Bunlardan başqa, Qarabağın digər ərazilərində də şəhərlər mövcud olmuşdur. Qarabağ bölgəsində, xüsusilə, hazırda Rusiyanın dəstəyilə erməni qəsbkarlarının işğalı altında olan Yuxarı Qarabağda arxeoloqlarımız tərəfindən vaxtilə aparılmış arxeoloji tədqiqatlar nəticəsində çoxlu sayda ilk orta əsrlər dövrünə aid müxtəlif tipli yaşayış yerləri aşkar edilmişdir. Qarabağ bölgəsində ilk orta əsrlər dövrünə aid şəhər yerləri, o cümlədən şəhərgahlar Bərdə, Ağdərə, Ağdam, Xocavənd, Ağcabədi, Füzuli, Kəlbəcər rayonları ərazisində aşkar edilmiş, burada arxeoloji tədqiqatlar aparılmışdır. Tarixi-arxeoloji tədqiqatlar nəticəsində yazılı mənbələrdə adları çəkilmiş ilk orta əsrlər dövrünə aid bir çox yaşayış yerləri Qarabağ ərazisində lokallaşdırılmışdır.

"Böyük Ermənistan" xülyası ilə yaşayan bədnam "qonşularımız?" (tarixi taleyimizin üzüdönüklüyündən Rusiya tərəfindən torpaqlarımıza köçürüldükdən sonra "qonşularımız" oldular. – **C.B.**) Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızı zəbt edib, ərazi iddialarını "əsaslandırmaq" məqsədilə maddi və qeyri-maddi mədəni irsimiz təcavüzkar tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 13 dünya əhəmiyyətli, 292 milli əhəmiyyətli, həmçinin 330 yerli əhəmiyyətli abidə dağıdılmış və ya istifadəyə yararsız hala salınmışdır. 804 qəbiristanlıq və 10 məscid talan və təhqir edilmiş, 40 min eksponatın saxlandığı 22-si tarix, 5-i xatirə muzey (bütövlükdə muzeylərdə 77 mindən artıq zəngin eksponat olmuşdur.) və dörd rəsm qalereyası vəhşicəsinə yerlə-yeksan olunmuşdur. Dağıdılmış və yandırılmış 927 kitabxanada 4,6 milyon nüsxə kitab və qiymətli əlyazmalar məhv edilmişdir [1, səh. 5; 2, səh. 330; 3, səh. 41-42]. Nəzərə alsaq ki, qeyd olunan faktlar heç də Qarabağ abidələrinin, Qarabağın maddi mədəniyyətinin hamısını əhatə etmir. 1988-ci ildən başlayan məlum Dağlıq Qarabağ hadisələri və Birinci Qarabağ savaşı ilə əlaqədar olaraq bu bölgədə arxeoloji tədqiqatlar aparmaq mümkün olmamışdır. Buna görə də tədqiqata cəlb edilməmiş, qeydə alınmamış abidələrin sayı haqqında da qəti bir fikir söyləmək çətindir. Birinci Qarabağ müharibəsi dövründə hərbi əməliyyatlar nəticəsində dağıdılaraq xarabazarlığa çevrilmiş müasir yaşayış yerləri ilə bərabər Qarabağ ərazisindəki abidələrin də məhv olunması faktını da nəzərdən qaçırmaq olmaz. Erməni vandalizminə və saxtakarlığına məruz qalan Qarabağ abidələrinin mühüm hissəsini əsasən ilk orta əsr abidələri təşkil edir.

***Qarabağın tarixi inkişaf yolu***

XIX əsrin ortalarına kimi Qafqazda, o cümlədən Azərbaycanın tarixi torpaqlarında, onun Qarabağ bölgəsində yaşamamış, bu torpaqlara məkrli siyasətin nəticəsi olaraq köçürülmüş erməni qəsbkarları tərəfindən dağıdılan, maddi mədəniyyəti qəsb edilən abidələr içərisində Qarabağın ilk orta əsr şəhər yerləri üstünlük təşkil edir.

Azərbaycanın Qarabağ bölgəsi tarixən, təbii-coğrafi baxımdan iki əraziyə bölünmüşdür: Yuxarı Qarabağ (Dağlıq Qarabağ) və Aran Qarabağ (Qarabağın düzənlik hissəsi). Qarabağ ərazisi relyefinə görə üç hissəyə bölünür: 1) Dağlıq ərazi; 2) Dağətəyi ərazi; 3) Düzənlik (aran) ərazi.

Bütün tarixi dövrlərdə təbii-coğrafi şərait əhalinin məskunlaşmasına, məhsuldar qüvvələrin inkişaf səviyyəsinə, əhalinin məşğulluq sahələrinin formalaşmasına təsir göstərmişdir. Buna görə də təbii-coğrafi şərait amili nəzərdən qaçırılmamalıdır.

Tədqiqatçı X.D. Xəlilov (sonralar X.D.Xəlilli) haqlı olaraq göstərir ki, hər bir ölkə lokal təbii-coğrafi şəraiti, təsərrüfatın, maddi və mənəvi mədəniyyətin özünəməxsusluğu ilə fərqlənən etnoqrafik əyalətlərə bölünür. Tarixi etnoqrafik əyalətlərə bölünmə Azərbaycan üçün də qanunauyğun hal olmuşdur. Qarabağ, Şirvan Azərbaycanın etnoqrafik əyalətləridir. Təsərrüfatının, maddi və mənəvi mədəniyyətinin özünəməxsusluğu ilə Qarabağ ümumazərbaycan tarix və mədəniyyətində lap qədimlərdən xüsusi yerə və mövqeyə malik olmuşdur [4, səh. 7]. Bu mənada şübhəsiz ki, Qarabağ bölgəsinin xüsusi özünəməxsusluğu vardır.

Azərbaycanın mühüm tərkib hissəsi olan, özünəməxsus maddi, təsərrüfat və mənəvi mədəniyyəti ilə xarakterizə olunan Qarabağ bir tarixi-etnoqrafik əyalət kimi öz inkişafını fasiləsiz olaraq davam etdirmişdir [4, s.8]. Bütün tarixi dövrlərdə Qarabağın mühüm inkişaf dövrü keçməsi şübhəsizdir və bu inkişaf mövcud arxeoloji abidələr və materiallarda da əyani şəkildə müşahidə olunur.

Qarabağ mühüm strateji mövqeyə malik olmaqla yanaşı, mülayim iqlimə, zəngin bitki və heyvanat aləminə, bol şirin su ehtiyatlarına malikdir. Buna görə də burada insanların məskunlaşması ən qədim dövrlərdən başlamış və davamlı xarakter daşımışdır. Təsadüfi deyildir ki, Qafqazın, o cümlədən də Dünyanın ən qədim insan məskənlərindən olan Azıx, Tağlar, Zar mağaraları Qarabağ ərazisindədir.

Azərbaycanın tarixi vilayəti olan Qarabağ Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı əraziləri əhatə edir [5, səh. 19]. Qarabağ ərazisinə Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Ağdam, Ağcabədi, Bərdə və Tərtər inzibati rayonlarının və Dağlıq Qarabağın ərazisi (Şuşa, Xocavənd, Xocalı rayonları, Xankəndi şəhəri. Vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə 5 inzibati rayon – Martuni, Hadrut, Şuşa, Ağdərə, Əsgəran rayonları və muxtar vilayətin mərkəzi şəhəri olan Xankəndi şəhəri daxil idi.) daxildir. Qarabağın dağlıq hissəsində 1923-cü il 7 iyul tarixində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Azərbaycan Respublikasının Ali Sovetinin 1991-ci il 26 noyabr tarixli qərarı ilə DQMV-nin statusu ləğv edilmişdir. Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi və yeni inzibati bölgüyə görə keçmiş Hadrut və Martuni rayonları bazasında Xocavənd rayonu yaradılmışdır [6, səh. 181]. Dağlıq Qarabağın ən böyük rayonu olan Ağdərə rayonunun inzibati statusu 1992-ci il oktyabrın 13-də ləğv edilmiş, onun ərazisi qonşu Ağdam, Kəlbəcər və Tərtər rayonlarının inzibati ərazisində daxil edilmişdir. Dağlıq Qarabağ ərazisində yaradılmış yeni inzibati rayon isə Xocalı rayonudur. Daha doğrusu 1991-ci il noyabrın 26-da Əsgəran rayonu bazasında Xocalı rayonu yaradılmışdı [6, səh. 51].

***Qarabağın təbii resursları və onların qəsbkarlar tərəfindən qəsb edilməsi.***

Əsrarəngiz təbiəti, təbii gözəllikləri, çoxsaylı müxtəlif mineral bulaqları, strateji mövqeyi və əhəmiyyəti, zəngin faydalı qazıntıları və sərvətləri ilə Kiçik Qafqaz özünəməxsusluq təşkil edir. Qarabağ bölgəsi əsasən Kiçik Qafqazda, onun ətəklərində yerləşir, münbit torpaqlara malik Mil-Qarabağ və Yuxarı Qarabağ düzlərini əhatə edir.

Qarabağda təbii gözəlliyi ilə seçilən göl Ağdərə ərazisindəki Sərsəng göludür. Bu göl məlum olduğu kimi, təbii deyil, Tərtər çayının qarşısının kəsilməsi ilə salınmışdır ki, su anbarı və qovşağı, eləcə də su elektrik stansiyası kimi, nəzərdə tutulmuşdur. Sərsəng gölünün inşası 1976-cı ildə başa çatmışdır. Görünüşünə görə əsrarəngiz Göygölü xatırladan Sərsəng gölü 560 milyon kubmetr su tutur, ümumi uzunluğu 100 km olan kanallar vasitəsilə Dağlıq Qarabağın və onun qonşuluğundakı rayonların 120 min hektar əraziyə malik tarlalarının suvarılmasını həyata keçirirdi. Sərsəng su elektrik stansiyasında hər il 125 milyon kilovat-saat elektrik enerjisi hasil edilirdi [7, səh. 27; 6, səh. 101].

2021-ci il iyulun 7-də Prezident İlham Əliyevin imzaladığı fərmanla yeni iqtisadi rayonlar yaradılmışdır. Bu fərmana qədər Qarabağın Ağdam, Cəbrayıl, Tərtər, Füzuli rayonları və Dağlıq Qarabağ bölgəsi (Xocavənd, Şuşa, Əsgəran, Xocalı) iqtisadi baxımdan Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunda qruplaşdırılmışdır [8, səh. 424]. Kəlbəcər, Laçın, Zəngilan inzibati rayonları Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu olaraq formalaşmışdır [8, səh. 441]. Qarabağın düzənlik ərazisində yerləşən Bərdə və Ağcabədi inzibati rayonları isə Aran iqtisadi-coğrafi rayonuna aid edilmişdir [8, səh.389].

İnzibati ərazi bölgüsünə görə Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun tərkibinə 7 rayon, 9 şəhər, 21 qəsəbə, 188 kənd inzibati dairələri (bələdiyyələr) və 533 kənd daxil idi. Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun əhalisi 631 min nəfər təşkil edirdi. Burada respublika tabeli Xankəndi və Şuşa şəhərləri ilə yanaşı, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Xocavənd şəhərləri və qəsəbələri vardır [8, səh. 430].

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun tərkibində Aşağı Qarabağ rayonlar qrupu müəyyənləşdirilmişdir ki, Ağdam, Tərtər, Füzuli və Cəbrayıl inzibati rayonları bu qrupa daxil edilmişdir. Dağətəyi zolaq boyu yerləşən Aşağı Qarabağ rayonlarını təbii şəraiti, təbii ehtiyatları, məskunlaşması, milli tərkibi, təsərrüfat strukturu, hərbi-siyasi vəziyyəti və s. olan bir çox oxşar cəhətlər birləşdirirdi[8, səh. 438].

Dağlıq Qarabağın Ağdərə bölgəsində – Dəmirli, Qızılbulaq, Canyataq və Gülyataq qazıntı yatağında mis-qızıl, Mehmanda sink-qurğuşun, müxtəlif tikinti materialları yayılmışdır, Şuşa rayonunda tikinti daşı, Şırlan və Turşsu mineral bulaqları sənaye əhəmiyyətlidir. Xocalı, Ağdam, Cəbrayıl inzibati rayonlarının əraziləri mişar və üzlük daşları, qum-çınqıl, gəc, gil, sement xammalı və s. kimi tikinti materialları ilə zəngindirlər.

Qarabağın (hal-hazırda Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibindədir) Kəlbəcər-Laçın bölgəsi zəngin təbii ehtiyatları ilə seçilir. Burada çeşidli faydalı qazıntı yataqlarının 4-ü qızıl, 6-sı civə, 13-ü üzlük daşlar, 11-i mişar daşı, 1- soda istehsalı üçün xammal, 4-ü gil, 19-u pemza və vulkan külü, 1-i dəvəgözü, 3-ü əlvan bəzək daşları (əqiq və başqaları), 8-i mineral sulardan və s. ibarətdir. Sənaye ehtiyatı olan iri qızıl yataqları Söyüdlü, Ağduzdaq, Turxun Kəlbəcərdə, Vejnəli isə Zəngilan rayonunun ərazisindədir. Azərbaycanın civə ehtiyatlarının hamısı – Ağyataq, Levçay, Şorbulaq Kəlbəcər rayonunda, Çiləgəz və Narzanlı isə Laçın rayonundadır. Azərbaycanda olan mineral suların ümumi ehtiyatlarının 33%-i bu bölgənin payına düşür [8, səh. 443-444]. Xüsusilə Kəlbəcər və Laçın inzibati rayonlarının ərazisindəki mineral sular nəinki respublika, dünya əhəmiyyətlidir və məşhur İstisu bulaqlarının tayı-bərabəri isə dünyada yoxdur. Arxeoloji materialların təhlilindən də aydın olur ki, əcdadımız qədim zamanlardan üzü bəri Qarabağın zəngin sərvətlərindən istifadə etmişdir.

Qarabağın 30 ilə yaxın erməni qəsbkarlarının işğal altında olan hissəsindəki zəngin təbii sərvətlər Rusiya, Kanada, İsveçrə, Fransa, Almaniya iş adamları və şirkətləri tərəfindən amansızcasına talan edilmişdir. Talan edilən Azərbaycan sərvətlərindən gələn gəlirlərin çox hissəsi isə ermənilərə çatırdı[7, səh. 28].

Coğrafi və geoloji tədqiqatlardan və ədəbiyyatdan məlumdur ki, Tərtərçay vadisinin Qarabağda xüsusi yeri vardır. Şübhə yoxdur ki, Qarabağın Tərtərçay vadisi faydalı qazıntıları, qızıl, mis, civə və s. yataqları, zəngin tikinti materialları, qiymətli ağacların olduğu sıx meşələri, bol şirin su ehtiyatı, çoxsaylı müxtəlif mineral bulaqları, təbiətən müdafiəsi əlverişli olan strateji coğrafi mövqeyi ilə fərqlənir.

Qarabağ bölgəsi əkinçiliyə yararlı münbit torpaqları olan geniş düzləri ilə, bol meyvəli bənzərsiz bağları ilə, çoxçeşidli zəngin təbii ehtiyatları və sərvətləri ilə, zəngin flora və fauna aləmi ilə, böyük şirin su ehtiyatları ilə, sıx və zəngin meşələri ilə, maldarlıq üçün əlverişli geniş yaylaqları ilə, əsrarəngiz təbii gözəllikləri ilə, olduqca strateji əhəmiyyətli coğrafi mövqeyi ilə tayı-bərabəri olmayan özünəməxsusluq təşkil edir.

***Nəticə***

Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin məqsədyönlü siyasətinin, siyasi iradəsinin qətiyyəti və Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində azad edilmiş Qarabağda yeni bir dövr başlayır. Qarabağ və onun yeraltı və yerüstü sərvətləri əsl sahiblərinə qovuşmuşdur. Qarabağın zəngin sərvətləri, münbit torpaqları heç şübhəsiz ki, həm bölgənin, həm də respublikamızın iqtisadi inkişafına böyük töhfələr verəcəkdir.

**İstinadlar**


1. “Xalq qəzeti”, № 264 (28067), 1 dekabr 2015-ci il.
2. Qarabağlı (Məmmədov) A.B. Qarabağ, onun qədim tayfaları və toponimləri. Bakı, Mütərcim nəşriyyatı, 2008, 480 s.
3. Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, Təhsil nəşriyyatı, 2010, 152 s.
4. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 119 s.
5. Hüseynov Y.R. Qarabağ tarixi mənbələrdə. Bakı, Şuşa nəşriyyatı, 2012, 248 s.
6. Qarabağ yaddaş. Bakı, “MHS-poliqraf, 2010, 192 s.
7. Məmmədov N.R. Azərbaycanın Ağdərə rayonunun tarixi. Bakı, “Avropa” nəşriyyatı, 2014, 502
8. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. (prof. V.Ə.Əfəndiyevin redaktəsi ilə) Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2010, 496 s.

BAYRAMOV Şahin

Mingəçevir Dövlət Universiteti, Rektor

# AĞDAMDA YENİ İQTİSADİYYAT QURUCULUĞUNDA TƏHSİLİN ROLU

**Xülasə:** Məqalə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ağdam bütün Qarabağın təhsil mərkəzi olacaq" konseptual tezisinə əsaslanmışdır. Məqalədə dördüncü sənaye inqilabı ("Sənaye 4.0") dövründə yüksək keyfiyyətli orta təhsil modelinin qurulması məqsədilə Dünya İqtisadi Forumunun "Təhsil 4.0" təşəbbüsü diqqətə çatdırılıb. Regionun tərəqqisinə və innovativ ekosistemin formalaşmasına fokuslanması məqsədilə Qarabağ Universitetinin "Universitet 4.0" modeli əsasında qurulması təklif edilib və onun smart ixtisaslaşmasının önəmi vurğulanıb. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərin hərtərəfli inkişafına ali təhsil müəssisələrinin mümkün dəstək istiqamətləri vurğulanıb.

**Açar sözlər:** Sənaye, Təhsil, universitet , smart ixtisaslaşma, Ağdam, Qarabağ Universiteti.

→

## Giriş

Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi və yenilməz Azərbaycan Ordusunun rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra yaranan yeni geosiyasi və geoiqtisadi reallıqlar, ölkə başçımızın qlobal əhəmiyyətli addımları və təşəbbüsləri bölgədə sülh, təhlükəsizlik, sabitlik və tərəqqini möhkəmləndirir, Azərbaycanın Cənubi Qafqazda regional mərkəz və qovşaq kimi mövqeyini daha da gücləndirir.

Şübhəsizdir ki, 30 ilə yaxın bir müddətdə erməni vandalizminə məruz qalmış Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının post-konflikt dövründə davamlı inkişaf konsepsiyasına uyğun sürətli və hərtərəfli şəkildə dirçəldilməsi, kənd təsərrüfatı, sənaye və turizmin inkişafı üçün zəngin resurs potensialına malik olan bu ərazilərin ölkənin iqtisadi sisteminə reinteqrasiyası dayanıqlı iqtisadi artım və qeyri-neft sektorunun inkişafı üçün ciddi impuls qazandıracaqdır.

Ölkə ərazisində digər regionlara və əsas kommunikasiyalara yaxın strateji mövqedə yerləşən, ümumrespublika infrastrukturlarına çıxış imkanlarına malik və əhalisinin sayına görə regionun ən böyük rayonu olan Ağdamın mövcud potensialına və müasir dövrün əsas çağırışlarına uyğun yenidən qurulması, tezliklə, Qarabağın sənaye, iqtisadi və ticarət mərkəzi kimi onun tarixi mövqeyini və funksiyasını bərpa etməsi, bölgənin digər rayonlarının inkişafına əhəmiyyətli təsir göstərməsi üçün ciddi əsaslar yaradır.

*Ağdam rayonunda təhsil sisteminin yaradılması və inkişafı*

Şəhərin yeni baş planına əsasən Ağdamda insan resursları potensialının inkişafı məqsədilə təhsilin bütün pillə və səviyyələri üzrə dövlət və xüsusi təhsil müəssisələrinin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi, xüsusilə regional inkişafın drayveri, "ağıllı şəhər" (smart city) və "ağıllı kənd"lərin (smart village) innovasiya ekosisteminin əsas aktorlarından biri olacaq Qarabağ Universitetinin yaradılması, yaxın perspektivdə rayonun elm, təhsil və innovasiya mərkəzinə çevrilmək imkanlarını genişləndirir. Təhsilin önəmini və hazırkı dövrdə hərtərəfli inkişafda rolunu yüksək qiymətləndirən möhtərəm Prezidentimiz cari ilin 28 may tarixində Respublika Günündə Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində bəyan etmişdir: *"Ağdam bütün Qarabağın təhsil mərkəzi olacaq".*

Bu kontekstdə qeyd etmək olar ki, yeni bilik və bacarıqlara tələbatın dinamik artdığı dördüncü sənaye inqilabı (Industry 4.0) dövründə regionda fəaliyyət göstərəcək orta təhsil müəssisələrində Dünya İqtisadi Forumunun "Təhsil 4.0" (Education 4.0) təşəbbüsünə uyğun yeni model və standartların tətbiqi mühüm əhəmiyyət kəsb edəcəkdir. Belə ki, təhsilin məzmununda 8 başlıca xüsusiyyəti (qlobal vətəndaşlıq vərdişləri, innovasiya və yaradıcılıq bacarıqları, texnologiya bacarıqları, fərdlərarası ünsiyyət bacarıqları, fərdlərə əsaslanan təhsil, əlçatan və inklüziv təhsil, problem əsaslı və birgə öyrənmə, ömür boyu və tələbə mərkəzli təhsil) özündə ehtiva edən "Təhsil 4.0" konsepsiyası müasir çağırışlara cavab verən, tam hazırlıqlı və rəqabətqabiliyyətli insan resurslarının formalaşdırılması, regionda yüksək keyfiyyətli təhsil modelinin qurulması baxımından faydalı istinad kimi qəbul edilə bilər.

Eyni zamanda, "Sənaye 4.0", "Təhsil 4.0" paradiqmaları və regionun inkişaf konsepsiyası elm, təhsil və innovasiya mərkəzi kimi Ağdamda yeni nəsil "Universitet 4.0" modeli əsasında ali təhsil müəssisəsinin yaradılmasını labüd edir. Regionda və ölkədə əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadr hazırlığını həyata keçirmək, müvafiq istiqamətlər üzrə elmi-tədqiqat işlərini yerinə yetirmək və innovativ həllər təqdim etməklə yanaşı, Qarabağ Universiteti bölgənin və şəhərin ictimai həyatında fəal rol oynamaq, sosial missiyası çərçivəsində əhəmiyyətli töhfələr vermək potensialına sahib olacaqdır.

Birincisi, universitet təhsil və tədqiqat fəaliyyətləri ilə regional iqtisadiyyatın inkişafına, əmək məhsuldarlığının yüksəlməsinə töhfə verəcək, regionda alıcılıq qabiliyyətinin və işgüzar fəallığın artmasında müsbət rol oynamaq imkanı əldə edəcəkdir.

İkincisi, universitet regionun elm və innovasiya potensialının inkişafında, bütövlükdə, regional ekosistemin formalaşmasında fəal iştirak edə biləcəkdir. Burada söhbət, ilk növbədə, texnologiyaların transferindən, texnoparkların, biznes-inkubatorların və ixtiraların patentləşdirilməsi sisteminin yaradılmasından, məsləhət xidmətlərinin göstərilməsindən gedir.
Üçüncüsü, işəgötürən müəssisə, yüksək ixtisaslı işçi qüvvəsini və gəncləri cəlb edən mərkəz kimi universitetin regionda məşğulluğun təmin edilməsindəki rolunu qeyd etmək olar. Belə ki, digər müəssisə və təşkilatlarla müqayisədə stabil məşğulluğu təmin edən universitet həm özündə, həm də müasir funksiyaları çərçivəsində formalaşdıracağı yeni strukturlarında (texnoparklar, spin-off şirkətlər, startaplar və s.) iş yerlərini yaratmaqla, məzunlarının regionda işə düzəlməsinə dəstək göstərməklə məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verə bilər.

Dördüncüsü, xeyriyyəçilik, könüllülük və digər sosial layihələrdə yaxından iştirak etməklə universitet bölgə əhalisinin rifahının yüksəlməsinə töhfə vermək gücünə malik olacaqdır.

Təbii ki, regionda ictimai həyatın bütün sahələrinin inkişafında hərəkətverici qüvvə rolunda çıxış edəcək, belə bir müasir tipli innovativ universitetin qurulmasında qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq əməkdaşlıqla yanaşı, respublikamızda fəaliyyət göstərən aparıcı ali təhsil müəssisələrinin mövcud akademik potensialı və təcrübəsindən istifadədə məqsədəuyğun olardı. Bu zaman universitetin strateji inkişaf planının hazırlanması, regional, ölkə və qlobal əhəmiyyətli hədəflərinin müəyyən edilməsi, səmərəli institusional strukturunun və müvafiq bazasının formalaşdırılması, regionun inkişafına və problemlərinə fokuslanma məqsədilə ağıllı ixtisaslaşmasının (smart specilization) təmin edilməsi, dayanıqlı inkişaf əsaslı birgə fəaliyyətlərin reallaşdırılması başlıca istiqamətlər kimi nəzərdə tutula bilər.

*Nəticə*

Respublikamızın digər regionlarında yerləşən ali təhsil müəssisələri Ağdamın və işğaldan azad edilmiş digər ərazilərin dirçəldilməsi istiqamətində aparılan quruculuq işlərinə aşağıdakı istiqamətlər üzrə əhəmiyyətli töhfələr verə bilərlər:

– Qarabağda hərtərəfli iqtisadi inkişafın təmin olunmasında iştirak edəcək yüksək ixtisaslı mütəxəssislərin hazırlanması (standart tədris proqramları ilə bərabər konkret olaraq Ağdamın və bütövlükdə, Qarabağın ehtiyaclarına uyğun məqsədli əlavə təhsil proqramlarının təqdim edilməsi);

– Ağdamın potensial iqtisadi inkişafının müxtəlif aspektlərini əhatə edən fundamental və tətbiqi elmi tədqiqatların aparılması, müvafiq ekspert rəyi və məsləhətlərinin verilməsi;

– Ağdamın davamlı inkişafına və innovasiya ekosisteminin formalaşmasına hədəflənən təşəbbüslərin irəli sürülməsi, layihələrin hazırlanması və reallaşdırılması;

– Ağdamın hərtərəfli inkişaf problemlərinə və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə həsr olunan konfransların, simpoziumların və forumların təşkili;

– Ağdamda fəaliyyət göstərən sənaye müəssisələri ilə qarşılıqlı faydalı əməkdaşlığın yaradılması, universitet-sənaye işbirliyi çərçivəsində müxtəlif tədbirlərin həyata keçirilməsi (məsələn, Qarabağdan olan tələbələr üçün xüsusi təcrübə proqramlarının təşkil edilməsi) və s.

İlkin təhlillər göstərir ki, Ağdamın Qarabağın elm, təhsil və innovasiya mərkəzinə çevrilməsi üçün unikal şərtlər və real perspektivlər mövcuddur. Eyni zamanda, hesab edirik ki, bütövlükdə Qarabağda innovativ ekosistemin formalaşmasında və Ağdamın sözügedən regionun iqtisadi inkişafının drayverinə çevrilməsində təhsil faktoru müstəsna əhəmiyyət kəsb edəcəkdir.

**İstinadlar**


1. İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb(https://president.az/articles/51777);
2. World Economic Forum. Platform for Shaping the Future of the New Economy and Society. Schools of the Future Defining New Models of Education for the Fourth Industrial Revolution. (http://www3.weforum.org/docs/WEF_Schools_of_the_Future_Report_2019.pdf);
3. European University Association Study. The Role of Universities in Regional Innovation Ecosystems(https://www.eua.eu/downloads/publications/eua%20innovation%20ecosystem%20report_final_digital.pdf);
4. European Union Regional Policy. Connecting Universities to Regional Growth: A Practical Guide(https://ec.europa.eu/regional_policy/sources/docgener/presenta/universities2011/universities2011_en.pdf)
5. Australian Government. Department of Industry, Innovation and Science. How Regional Universities Drive Regional Innovation(https://www.industry.gov.au/data-and-publications/how-regional-universities-drive-regional-innovation);
6. Yükseköğretim Kurulu. Yükseköğretimde yeni YÖK Projeleri. Yükseköğretimde ihtisaslaşma ve misyon farklılaşması. Bölgesel kalkınma odaklı üniversiteler. Ankara 2020.(https://www.yok.gov.tr/Documents/Yayinlar/Yayinlarimiz/2020/bolgesel_kalkinma_odakli_universiteler.pdf)

**BƏDƏLOV Etibar**

AMEA akad. H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu, c.ü.f.d., dosent

# ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ İQTİSADİ RAYONLARINDA ŞƏHƏR MƏSKUNLAŞMASI VƏ ŞƏHƏR ƏHALİSİNİN DEMOQRAFİK İNKİŞAF PROBLEMLƏRİ

**Xülasə:** Məqalədə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında şəhər məskunlaşmasının formalaşması və inkişafı, həmçinin iqtisadi və inzibati rayonlar üzrə şəhər əhalisinin və urbanizasiya səviyyəsinin dinamikası təhlil edilmişdir. Regionlar üzrə 2000-2020-ci illər ərzində şəhər əhalisinin artımının əsas xüsusiyyətləri, o cümlədən təbii artım və miqrasiyanın rolu təhlil edilmiş, həmçinin kəndlərə qəsəbə statusu verilməsi də bir amil kimi göstərilmişdir. Regionların inzibati rayonları üzrə şəhər əhalisinin demoqrafik proseslərin tədqiqi araşdırılmış, son illər əhali arasında təbii artım, doğum və nikahların dinamikasında azalma, ölüm, körpə ölümü və boşanma proseslərində artım müşahidə edilmişdir. Bəzi rayonlarda doğulan uşaqların ümumi sayında rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların xüsusi çəkisinin artımı baş vermişdir. Bəzi demoqrafik göstəricilərin nisbi əmsalı ölkə üzrə səviyyədən yüksək doğum və nikah, ölüm və körpə ölümü, aşağı səviyyə təbii artım və boşanmalar üzrə müşahidə olunmuşdur. Regionda II Vətən müharibəsindən sonra şəhərlərin demoqrafik inkişaf və şəhərsalma problemləri və onların həlli istiqamətləri üzrə təkliflər və tövsiyələr verilir.

**Açar sözlər:** şəhər məskunlaşması, urbanizasiya, demoqrafik proses, təbii artım, doğum, ölüm, nikah, boşanma.

→

## Giriş

Azərbaycan bəşər cəmiyyətində şəhər məskənlərinin formalaşdığı ən qədim məkanlardan biri olmuşdur. Qarabağ ərazisində ən qədim şəhər məskəni Bərdə olmuş, onun yaranması e.ə. I minillikdən əvvəl baş versə də, lakin çiçəklənmə mərhələsi e.ə IV-II əsrlər və VII-X əsrlər ərəb xilafəti dövrü baş vermiş, XIII-XVIII əsrlərdə tənəzzül dövrü keçirmişdir. XVIII əsrin ortaları bu ərazidə Qarabağ xanlığının yaranması ilə Şuşa şəhəri tikilir və xanlığın paytaxtı olur, Ağdam kiçik ticarət mərkəzi kimi fərqlənirdi. Şuşanın inkişafında baş verən köklü dəyişikliklər kapitalizm münasibətlərinin inkişafı ilə bağlı olaraq baş vermişdir. Azərbaycanın XIX və XX əsrin əvvəli Bakı və Gəncədən sonra ən böyük şəhərlərindən biri idi. Bu dövrdə Ağdam və Füzuli (Karyaqin) kiçik şəhərlər idi.

Sovet hakimiyyətinin ilk illərində 1923-cü ildə Xankəndi və Laçına şəhər statusu verilir. Həmçinin, bu dövrdə şəhər statusunu 1948-1949-cu illərdə Bərdə və Tərtər, 1962-1967-ci illərdə Ağcabədi və Zəngilan, 1980-cı ildə Kəlbəcər və Cəbrayıl, 1989-1991-cı illərdə Ağdərə, Xocalı, Xocavənd

və Qubadlı almış, 2007-ci ildə Horadizə şəhər statusu verilmişdir [5].

1991-ci ildə istiqlaliyyətimizin bərpa edilməsi, 1992-1994-cü illərdə Qarabağ və ya I Vətən müharibəsinin baş verməsi və iqtisadiyyatımızda yaranan böhran demoqrafik proseslərə də təsirini göstərmiş oldu. Ermənistan dövləti tərəfindən Şərqi Zəngəzur ərazisinin tamamilə və Qarabağın böyük hissəsi işğal edilir, burada olan şəhər və kəndlərimiz xarabalığa çevrilir. Ölkəmizdə bu dövrdə kütləvi miqrasiyalar baş verir, bir milyona yaxın soydaşımız köçkün həyatı sürməyə məcbur olur, həmçinin müharibədə on minlərlə kişi əhalisinin həlak olması, təbii artımın azalmasına və əhalinin cins-yaş tərkibinin dəyişilməsinə də səbəb olmuşdur.

2020-ci ildə 44 günlük II Vətən müharibəsində qazanılan zəfər nəticəsində torpaqlarımız düşməndən azad olunmuş, hər iki iqtisadi rayonda quruculuq işlərinə başlanmışdır. İlk növbədə mənfur düşmən tərəfindən minalanmış ərazilər təmizlənir, yol infrastrukturu sürətlə çəkilir, Füzuli hava limanı artıq istifadəyə verilmiş, Şuşa və Tərtər şəhərlərinin bərpasında böyük işlər görülmüş, Ağdam şəhərinin yenidən tikintisinə başlanmış, digər şəhərlər də layihələr üzrə yenidən tikiləcəkdir.

### Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları

Qarabağ iqtisadi rayonu ölkədə (2020-ci il) ərazi üzrə 1-ci yeri, ümumi əhali sayına görə 3-cü yeri və şəhər əhalisi sayına görə 5-ci yeri tutur. Şərqi Zəngəzur iqtisadi rayonun ölkə üzrə payı ümumi əhaliyə görə 13-cü yer və şəhər əhalisi üzrə 14-cü yer olmuşdur.

**Cədvəl 1. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları (2020)**

| İqtisadi rayonlar | ərazi | | əhali | | şəhər əhalisi | | |
|---|---|---|---|---|---|---|---|
| | (min kv.km) | Payı % | say (min nəfər) | Payı% | Say(min nəfər) | Faiz% | Payı% |
| **Azərbaycan** | 86,6 | 100 | 10119,11 | 100 | 5358,5 | 53 | 100 |
| **Qarabağ** | 8,99 | 10,4 | 904,5 | 8,9 | 300,6 | 33,2 | 5,6 |
| **Şərqi Zəngəzur** | 7,47 | 8,6 | 343,5 | 3,4 | 71,4 | 20,8 | 1,3 |

**Mənbə:** *Azərbaycanın Əhalisi Bakı: DSK, 2021*

### Şəhər məskunlaşması

1991-ci ildə Şərqi Zəngəzurda 5 şəhər və 11 qəsəbə, Qarabağda isə 11 şəhər və 6 qəsəbə olmuşdur. Hazırda rayonlarda aparılan quruculuq işləri ilə bağlı Füzulidə 16 və Ağdamda 13 qəsəbə tikilməkdədir. Qarabağın dağıntıya çox məruz qalan şəhəri Tərtər, nisbətən az məruz qalan Ağcabədi, Bərdə və Horadiz, qəsəbələrdən Quzanlı, Hindarx olmuşdur. Bu şəhər və qəsəbələrdə əhali hətta müharibə dövründə də köçüb getməmiş, yaşamış və təsərrüfat fəaliyyəti ilə məşğul olmuşlar.

**Cədvəl 2. İnzibati rayonlar üzrə əhalinin dinamikası və urbanizasiya səviyyəsi (min nəfər və %)**

| | 1989 | | | 2009 | | | 2020 | | | Artım |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnzibati rayonlar | ümumi | şəhər | urb. səviy.% | ümumi | şəhər | urb. səviy.% | ümumi | şəhər | urb. səviy.% | 1989-2020% |
| **Qarabağ** | **650,8** | **215,1** | **33,1** | **803,2** | **274,9** | **34,2** | **904,5** | **300,6** | **33,2** | **40,9** |
| Ağcabədi | 85,6 | 25,0 | 29,2 | 121,7 | 46,6 | 38,3 | 137,5 | 50,6 | 36,8 | 102,4 |
| Bərdə | 107,3 | 30,6 | 28,5 | 141,7 | 37,8 | 26,7 | 158,2 | 40,3 | 25,5 | 31,7 |
| Ağdam | 128,9 | 27,1 | 21,0 | 175,6 | 39,7 | 22,6 | 205,1 | 46,3 | 22,6 | 70,9 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Füzuli | 88,7 | 22,3 | 25,1 | 115,5 | 27,6 | 23,9 | 134,7 | 32,6 | 24,2 | 46,2 |
| Tərtər | 51,2 | 12,3 | 24,0 | 97,3 | 29,8 | 30,6 | 105,0 | 30,2 | 28,8 | 45,5 |
| Şuşa | 20,6 | 14,6 | 70,9 | 28,6 | 21,2 | 74,1 | 34,9 | 25,3 | 72,5 | 73,3 |
| Xankəndi ş. | 57,8 | 57,8 | 100 | 55,1 | 55,1 | 100 | 55,9 | 55,9 | 100 | - |
| Ağdərə | 46,9 | 12,7 | 27,1 | 26,1 | 7,7 | 29,5 | 29,0 | 9,8 | 33,8 | - |
| Xocalı | 20,8 | 2,0 | 9,6 | | | | | | - | |
| Hadrut | 14,1 | 2,6 | 18,4 | 41,6 | 9,4 | 22,6 | 44,2 | 9,6 | 21,7 | - |
| Xocavənd | 28,3 | 8,1 | 28,6 | | | | | | - | |
| **Ş.Zəngəzur** | **203,5** | **39,8** | **19,6** | **295,5** | **59,9** | **20,3** | **341,5** | **71,4** | **20,9** | **80,3** |
| Kəlbəcər | 44,0 | 8,0 | 18,2 | 80,8 | 11,0 | 13,6 | 94,7 | 13,7 | 14,5 | 71,3 |
| Qubadlı | 28,1 | 5,4 | 19,2 | 35,6 | 8,1 | 22,8 | 41,9 | 9,6 | 22,9 | 77,8 |
| Laçın | 51,6 | 7,9 | 15,3 | 69,1 | 11,7 | 16,9 | 79,2 | 13,9 | 17,6 | 76,0 |
| Zəngilan | 31,3 | 11,6 | 37,1 | 39,4 | 17,7 | 44,9 | 45,5 | 20,5 | 45,1 | 76,7 |
| Cəbrayıl | 48,4 | 5,9 | 12,2 | 70,6 | 11,4 | 16,2 | 82,2 | 13,7 | 16,7 | 132,2 |

**Mənbə:** *Eminov Z. 2005; Azərbaycanın demoqrafik göstəriciləri Bakı: DSK, 2020; Azərbaycan əhalisi. Bakı. DSK . 2021.*

Hazırda Rusiyanın sülhməramlılarının nəzarəti altında ermənilərin yaşadığı şəhərlər Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və qəsəbələrdən Əsgəran, Qırmızı Bazar sayılır. Şərqi Zəngəzurda ərazisinin bütün şəhər və qəsəbələrinin əhalisi, Qarabağın isə Ağdam və Füzuli, həmçinin ermənilərin yaşadığı şəhər və qəsəbələrinin azərbaycanlı əhalisi köçkün olsalar da, yaxın vaxtlarda vətənlərinə qayıdacaqlar.

**İnzibati rayonlar üzrə şəhər əhalisinin sayı 1989-2020-cu illər üzrə köçkün həyatı yaşayan Şərqi Zəngəzur və Qarabağın şəhər əhalisi üzrə daha sürətlə artmış, digər rayonlar arasında Ağcabədi yüksək artım və urbanizasiya səviyyəsi, Bərdə isə zəif artım və urbanizasiyası ilə fərqlənmişlər. Ağcabədi rayonunda 2007-ci** ildə Hindarx kəndinə qəsəbə statusunun verilməsi şəhər əhalisinin həm artım və həm də urbanizasiya səviyyəsinə təsir etmişdir [6].

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının şəhər əhalisinin artım dinamikası təhlili göstərir ki, 1970-1989-cu illərdə 1,6 dəfə artdığı halda, lakin müstəqillik dövründə Şərqi Zəngəzurda 1,8 dəfə və Qarabağda isə 1,4 dəfə olmuşdur. Hər iki iqtisadi rayonda urbanizasiya səviyyəsi 30 ildə çox az dəyişilmişdir.

**İnzibati rayonlar üzrə şəhər əhalisinin sayı 1989-2020-c**i illər üzrə köçkün həyatı yaşayan Şərqi Zəngəzur və Qarabağın şəhər əhalisi daha sürətlə artmış, digər rayonlar arasında Ağcabədi yüksək artım və urbanizasiya səviyyəsi, Bərdə isə zəif artım və urbanizasiyası ilə fərqlənmişdir. Ağcabədi rayonunda 2007-ci ildə Hindarx kəndinə qəsəbə statusunun verilməsi şəhər əhalisinin həm artım və həm də urbanizasiya səviyyəsinə təsir etmişdir.

**Cədvəl 3.** Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının şəhərlərinin əhali sayının artım dinamikası (min n.)

| İnzibati rayonlar | 1970 | 1989 | 2020 | Artım %-lə 1989-2020 | Yaranma tarixi |
|---|---|---|---|---|---|
| **Qarabağ** | | | | | |
| Ağcabədi | 17,0 | 25,0 | 41,4 | 65,6 | 1962 |
| Bərdə | 20,8 | 30,6 | 40,2 | 31,4 | 1948 |
| Tərtər | 8,8 | 12,3 | 19,9 | 61,8 | 1949 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Horadiz | 4,6 | 5,7 | 7,6 | 33,3 | 2007 |
| Ağdam | 21,3 | 27,1 | 42,8 | 57,9 | 1747 |
| Füzuli | 11,3 | 16,6 | 24,7 | 48,8 | 1827 |
| Şuşa | 8,7 | 14,7 | 23,9 | 62,6 | 1752 |
| Xankəndi | 30,3 | 57,8 | 53,7 | - | 1923 |
| Ağdərə | 5,7 | 8,1 | 10,2 | - | 1989 |
| Xocalı | - | 2,0 | 8,1 | - | 1990 |
| Xocavənd | 4,7 | 7,1 | 5,9 | - | 1989 |
| **Ş. Zəngəzur** | | | | | |
| Kəlbəcər | 4,8 | 7,2 | 12,2 | 69,5 | 1980 |
| Qubadlı | 2,7 | 5,4 | 9,5 | 75,9 | 1991 |
| Laçın | 5,0 | 7,9 | 13,4 | 69,6 | 1923 |
| Zəngilan | 4,1 | 6,9 | 11,3 | 63,8 | 1967 |
| Cəbrayıl | 3,7 | 5,9 | 11,0 | 86,4 | 1980 |

**Mənbə:** Eminov Z. 2005; Azərbaycan əhalisi. Bakı. 2021. DSK

Qarabağın şəhər əhalisinin 120 min nəfər daimi yaşayış yeri olan şəhər və qəsəbələrdə yaşayır, lakin hazırda ermənilərin yaşadığı şəhərlərin köçkün azərbaycanlı əhalisinin sayı 25 min nəfərə yaxındır. Təhlillərə görə ermənilərin yaşadığı şəhərlərin əhalisi statistikada olan rəqəmlərdən 2-3 dəfə azdır. Xankəndi şəhərinin erməni əhalisi 25 min nəfərdən çox deyil, azərbaycanlı əhalisi isə 15 min nəfərdən çoxdur.

İşğaldan azad olunmuş şəhərlərimiz “ağıllı şəhər” standartlarına uyğun qurulması ilə bağlı artıq işlər gedir, Ağdam ərazisində əhali sayı 100 min nəfərdən çox olan şəhər artıq tikilir.

**Demoqrafik proseslər**

Azərbaycan regionlarının şəhər əhalisinin geodemoqrafik şəraiti və inkişaf problemlərinin təhlili, ölkədə baş verən sosial-iqtisadi siyasətin əsas hissəsini təşkil edərək, insan potensialının tərəqqisinin cəmiyyətdə nə dərəcədə inkişafının göstəricisidir. Şəhər yerlərində sosial qruplar arasında həyat şəraiti və tərzinin, milli-mədəni dəyərlərin dəyişməsi ilə bağlı təbii artım prosesi zəifləyir, həmçinin bu proses cəmiyyətin sosial-iqtisadi inkişafı və sosial vəziyyətin yaxşılaşmasından da asılıdır. Geodemoqrafik şərait əhalinin təbii hərəkəti, onun strukturu və yerləşdirilməsi qanunauyğunluqlarını əks etdirir.

İqtisadi rayonlarda demoqrafik proseslərin təhlili göstərir ki, ölkə səviyyəsi ilə müqayisədə işğaldan azad edilmiş rayonların köçkünlükdə yaşayan şəhər əhalisi daha sürətlə artmış, demoqrafik inkişaf özünəməxsus spesifik xüsusiyyətə malik olmuşdur. Ağcabədi, Bərdə və Tərtər rayonlarında kənd yerlərindəki yüksək təbii artım prosesi, şəhər yerlərinə nisbətən sürətli və əmsal göstəricisinə görə böyük olması ilə fərqlənirdi. Regionda 1960-1990-cı illər ərzində əhalinin təbii artım və nikah-boşanma proseslərinin dinamikasında çox əlverişli demoqrafik şərait yaranmış, doğum, təbii artım və nikah göstəriciləri yüksəlmiş, ölüm və boşanma göstəriciləri aşağı düşmüşdür. Müstəqillik dövrünün son 10 ilinin (2010-2020) təhlili göstərir ki, işğalda olmayan hər üç rayonun şəhər yerlərinin əhalisinin artımı təbii artım hesabına olmuş və onlar üçün mənfi miqrasiya saldosu səciyyəvi olmuşdur. Lakin, bu şəhərlərin hər birində 10 minə yaxın köçkün yaşayır və yeni salınmış köçkün şəhərcikləri vardır.

**Cədvəl 4. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının şəhər əhalisinin təbii artım dinamikası (Hər 1000 nəfərə görə)**

| İnzibati rayonlar | təbii artım | | | doğum | | | ölüm | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2015 | 2020 | 2005 | 2015 | 2020 | 2005 | 2015 | 2020 |
| **Qarabağ** | **6,6** | **9,1** | **3,7** | **11,1** | **13,7** | **10,3** | **4,5** | **4,6** | **6,6** |
| Şuşa | 7,7 | 14,4 | 4,8 | 13,1 | 17,9 | 12,5 | 5,4 | 3,5 | 7,7 |
| Aqdam | 6,6 | 14,7 | 6,7 | 12,4 | 21,2 | 15,9 | 5,8 | 6,5 | 9,2 |
| Bərdə | 10,7 | 9,1 | 2,9 | 18,6 | 15,3 | 12,8 | 7,9 | 6,2 | 9,9 |
| Ağcabədi | 11,6 | 9,7 | 3,7 | 18,0 | 15,7 | 11,3 | 6,4 | 6,6 | 7,6 |
| Füzuli | 7,1 | 16,6 | 6,8 | 11,9 | 23,2 | 16,9 | 4,8 | 6,6 | 10,1 |
| Tərtər | 8,2 | 3,0 | 1,7 | 14,0 | 9,1 | 9.1 | 8,2 | 6,1 | 7,4 |
| Xocavənd | 5,8 | 6,5 | 11,4 | 7,6 | 7,7 | 14,2 | 1,8 | 1,2 | 2,8 |
| Xocalı | 6,5 | 23,5 | 10,0 | 8,5 | 27,3 | 17,6 | 2,0 | 3,8 | 7,6 |
| Xankəndi | 2,4 | 5,5 | 1,7 | 4,1 | 7,2 | 3,9 | 1,5 | 1,7 | 2,2 |
| **Ş. Zəngəzur** | **12,1** | **16,9** | **9,2** | **18,4** | **22,3** | **17,0** | **6,3** | **5,4** | **7,8** |
| Cəbrayıl | 15,6 | 20,4 | 11,3 | 20,9 | 24,7 | 18,1 | 5,3 | 4,3 | 6,8 |
| Kəlbəcər | 17,7 | 20,8 | 8,0 | 27,2 | 26,4 | 16,5 | 9,5 | 5,6 | 8,5 |
| Laçın | 10,4 | 15,7 | 10,7 | 15,1 | 22,0 | 19,9 | 4,7 | 6,3 | 9,2 |
| Zəngilan | 9,0 | 13,8 | 5,8 | 15,7 | 19,4 | 13,4 | 6,7 | 5,6 | 7,6 |
| Qubadlı | 11,6 | 13,0 | 12,9 | 17,7 | 17,3 | 20,2 | 6,1 | 3,4 | 7,3 |
| Ölkə | 8,7 | 10,1 | 3,6 | 7,4 | 17,2 | 11,6 | 6,4 | 5,9 | 8,0 |

**Mənbə:** *Azərbaycan Əhalisi. DSK. Bakı. 2006, 2011, 2016, 2021-ci illər üzrə məcmuələr*

Son illər regionda şəhər əhalisinin təbii artımın mütləq göstəricilərin artım tempinin təhlili göstərir ki, 2000-2009-cı illərdə şəhər əhali sayı Qarabağda 26,5 min nəfər, Şərqi Zəngəzurda 13,9 min nəfər, 2010-2020-ci illərdə müvafiq olaraq 24,0 min nəfər və 11,0 min nəfər olmuşdur. Hər iki 10 illikdə şəhər əhalisi sayı azalmış, lakin təbii artımın mütləq say göstəricisi Qarabağda 18,6 mindən-23,4 min nəfərə kimi, Şərqi Zəngəzurda isə 7,0 mindən-9,3 min nəfərə kimi artmışdır. Qarabağ inzibati rayonları arasında son on ildə şəhər əhalisinin mütləq təbii artım tempi yüksək olan Ağdam (5,5 min n.), Ağcabədi (4,9 min n.) və Füzuli (4,2 min n.) fərqlənmişdir. Şərqi Zəngəzurda isə rayonlar üzrə bu göstərici 2 min nəfərdən çox və ya ona yaxın olmuşdur. 2010 və 2015-ci illərdə təbii artım və doğumun nisbi göstəricisi Şərqi Zəngəzur iqtisadi rayonda ölkə üzrə olan göstəricidən yüksək olmuş, bütün rayonlar fərqlənmişdir. Qarabağ iqtisadi rayonu üzrə təbii artım və doğumun nisbi əmsal göstəricisi ölkə üzrə olandan aşağı olmuş, xüsusilə köçkün həyatı yaşayan rayonların şəhər əhalisi üzrə bu göstəricilər çox yüksək, lakin Bərdə və Tərtər üzrə çox aşağı olmuşdur.

2020-ci ildə ölkə üzrə pandemiya şəraitində geodemoqrafik şərait xeyli pisləşmiş, xüsusilə doğumun və təbii artımın nisbi əmsal və mütləq say göstəriciləri xeyli aşağı düşmüş, ölümün isə bu göstəriciləri sürətlə artmışdır. 2020-ci ildə təbii artımın nisbi əmsal göstəricisi Qarabağ regionu və ölkə üzrə bərabərləşmiş, köçkün şəhər əhalisi olan rayonlardan Xocalı və Xocavənd üzrə bu göstəricilər yüksək olmuş, ən aşağı göstərici Tərtər və Bərdə üçün səciyyəvi idi. Hər iki regionda şəhər əhalisi üzrə ölümün nisbi göstəricisi ölkə səviyyəsindən aşağı olmuş, lakin Füzuli, Bərdə və Ağdam rayonlarında 2020-ci ildə bu göstərici çox yüksək olmuşdur (bax: Cədvəl 5).

Hər iki regionda ölüm prosesinin əsas göstəricilərindən olan körpə ölümü nisbi əmsal göstəricisi üzrə ölkə səviyyəsindən aşağı olması, daha çox dövlət qayğısının köçkün əhaliyə yönəlməsi ilə bağlı olmuşdur. Qarabağın şəhərləri arasında təkcə Bərdədə bu göstərici çox yüksək idi. Regionda son illər doğum prosesində baş verən ən böyük problemlərdən biri ümumi doğulanlar üzrə rəsmi qeydə alınmamış nikahdan doğulanların payının Ağcabədi və Bərdə rayonlarında sürətlə artmasıdır.

**Cədvəl 5. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının nikah və boşanma dinamikası (hər 1000 nəfərə görə)**

| İnzibati rayonlar | nikah | | | | | boşanma | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2000 | 2005 | 2010 | 2015 | 2020 |
| **Qarabağ** | **3,1** | **5,8** | **6,3** | **5,5** | **3,0** | **0,3** | **1,0** | **1,2** | **1,3** | **1,6** |
| Bərdə | 7,8 | 11,0 | 8,6 | 8,2 | 4,6 | 0,8 | 2,1 | 1,8 | 1,9 | 2,6 |
| Ağcabədi | 3,9 | 7,2 | 9,2 | 7,3 | 3,4 | 0,4 | 0,7 | 1,0 | 1,1 | 1,6 |
| Füzuli | 4,2 | 5,4 | 10,3 | 8,0 | 4,2 | 0,3 | 1,9 | 1,9 | 1,9 | 2,3 |
| Ağdam | 0,9 | 6,7 | 8,5 | 7,1 | 4,5 | 0,1 | 1,3 | 2,1 | 2,1 | 2,7 |
| Tərtər | 4,2 | 4,9 | 4,0 | 4,7 | 2,5 | 0,6 | 1,3 | 0,8 | 1,8 | 1,6 |
| Xocalı | 0,8 | 5,0 | 9,4 | 7,1 | 4,3 | - | 0,7 | 2,2 | 3,3 | 1,6 |
| Şuşa | 3,5 | 7,4 | 5,9 | 7,2 | 3,6 | 0,2 | 1,0 | 1,8 | 1,2 | 1,9 |
| Xocavənd | 1,7 | 1,1 | 0,9 | 1,6 | 1,6 | - | 0,1 | 0,2 | 2,4 | 1,2 |
| Xankəndi | 0,1 | 0,6 | 0,6 | 2,2 | 1,0 | - | 0,1 | 0,1 | 0,7 | 1,0 |
| **Ş.Zəngəzur** | **3,9** | **9,0** | **10,0** | **7,1** | **4,5** | **0,4** | **2,3** | **2,3** | **2,1** | **2,2** |
| Kəlbəcər | 2,9 | 12,7 | 11,4 | 8,6 | 5,8 | 1,0 | 1,9 | 2,1 | 3,4 | 1,9 |
| Laçın | 1,9 | 6,8 | 9,1 | 7,2 | 4,9 | - | 0,8 | 1,8 | 4,9 | 1,8 |
| Qubadlı | 8,2 | 7,8 | 9,6 | 6,5 | 4,1 | 0,3 | 1,5 | 2,2 | 2,3 | 2,1 |
| Zəngilan | 3,3 | 8,8 | 9,4 | 6,1 | 4,0 | 0,5 | 1,6 | 2,9 | 1,2 | 2,2 |
| Cəbrayıl | 5,2 | 10,5 | 10,3 | 6,7 | 3,7 | 0,1 | 2,9 | 2,1 | 1,8 | 2,8 |
| Ölkə | 4,9 | 8,4 | 8,8 | 7,2 | 3,5 | 1,1 | 1,6 | 1,4 | 1,7 | 1,8 |

**Mənbə:** *Azərbaycan Əhalisi. DSK. Bakı. 2001, 2006, 2011, 2016, 2021-ci illər üzrə məcmuələr*

Demoqrafik proseslərin sabitləşməsi üçün ölkədə davamlı demoqrafik siyasət proqramı həyata keçirilməli, xüsusilə gənc ailələrə dövlət qayğısını artırmaq üçün "ana kapitalı" yaradılmalı, onların həyat və yaşayış şəraitinin yaxşılaşdırılması və sonsuzluğa qarşı tibb elminin nailiyyətlərindən istifadə üçün davamlı proqramlar hazırlanmalı və həyata keçirilməlidir. Ailələrdə bütün uşaqlara 18 yaşına kimi uşaq pulunun verilməsi zəruridir.

Əhalinin təbii artımına təsir edən ən mühüm amillərdən biri nikah və boşanma prosesləridir. Bu proseslərin dinamikasının təhlili göstərir ki, 2000-ci ildə tədqiqat regionlarında hər iki göstərici aşağı olmuş, lakin 2005-2015-ci illər nikah əmsalları yenidən yüksək səviyyəyə çatmış, lakin Qarabağ regionu üzrə bu göstəricilər ölkə səviyyəsindən aşağı olmuşdur. 2015-ci ildə boşanmanın əmsal göstəricisi Qarabağda ölkə səviyyəsindən aşağı, Şərqi Zəngəzurda isə yüksək olmuşdur. 2018-ci ildən sonra yenidən nikahların azalma prosesi ilə bağlı boşanma proseslərinin də azalması baş vermiş, 2020-ci ildə isə pandemiya ilə bağlı nikahların əmsal göstəricisi minimum səviyyəyə düşərək, ölkə göstəricisi ilə müqayisədə Şərqi Zəngəzurda (4,5 %) yuxarı, Qarabağda isə (3,0 %) aşağı olmuşdur. Qarabağda nikahın və boşanmanın ən yüksək göstəriciləri Bərdə və Ağdam rayonlarında müşahidə edilmişdir. 2010 və 2020-ci illərin müqayisəsinə görə nikahların mütləq sayı hər iki regionda 2 dəfə azalmış, boşanmanın mütləq sayında isə artım baş vermişdir. 2020-ci ildə inzibati rayonların şəhər əhalisi üzrə nikahın nisbi əmsalının ən yüksək göstəricisi (hər 1000 nəfərə görə) Laçın və Kəlbəcərin köçkün şəhər əhalisi və Bərdə üzrə olmuşdur. Boşanmanın daha yüksək nisbi əmsal göstəricisi Cəbrayıl və Ağdam rayonlarının köçkün şəhər əhalisi üzrə və Bərdə üçün səciyyəvi idi. Boşanma əhalinin nikah və ailə strukturunun formalaşmasına, həmçinin əhalinin təbii artım prosesinə mənfi təsir göstərən mühüm amildir.

Geodemoqrafik şəraitin formalaşmasında ailə əhalinin təbii hərəkətinin əsası olduğu üçün onun reproduktiv funksiyası ön plana çəkilir. Müasir dövrdə cəmiyyətin inkişafında sosial proseslərin

ailənin inkişafına təsiri böyük olduğu halda, həmçinin bunun əksi olan yəni ailənin inkişafı sosial münasibətlərə təsir edir. Əhalinin əlverişli yaş strukturu və cinslərin nisbəti nikah və ailə tərkibinin formalaşmasına təsir göstərən mühüm amildir. Ailələrin inkişaf səviyyəsini göstərən ən mühüm göstərici ailənin orta ölçüsüdür. Aparılan tədqiqatlardan aydın olur ki, 2009-cu ildə ailələrin orta ölçüsünün 5-dən yüksək olduğu rayonlar Ağcabədi və Tərtər, 4,5-dən çox olan Bərdə və şəhər əhalisi köçkünlükdə yaşayan Şuşa və Kəlbəcər rayonları olmuşdur. Ailələrin mütləq sayına görə 2009-cu ildə Qarabağda Ağdam (13,7 min n.), Ağcabədi (10,8 min n.) və Füzuli (9,7min n.), Şərqi Zəngəzurda Kəlbəcər (6,0 min n.) və Laçın (5,7 min n.) rayonları fərqlənirdi. Son illər demoqrafik proseslərdə baş verən meyillər, o cümlədən doğumun aşağı düşməsi və ölümün artması ailələrin orta ölçüsünün azalmasına səbəb olmuşdur.

## Nəticə

Tədqiqatlar göstərir ki, inzibati rayonlar üzrə şəhər əhalisinin sayı 1989-2020-cu illər üzrə köçkün həyatı yaşayan Şərqi Zəngəzur və Qarabağın şəhər əhalisi üzrə daha sürətlə artmış, digər rayonlar arasında Ağcabədidə nisbətən yüksək artım və urbanizasiya səviyyəsi, Bərdə üçün isə zəif artım və urbanizasiyası səviyyəsi səciyyəvi olmuşdur.

Demoqrafik proseslərin inkişafında baş verən meyllər köçkün və daimi şəhər əhalisi üzrə fərqli olmuş, birincilərdə daha yüksək təbii artım, doğum və nisbətən aşağı ölüm, ikincilər üçün isə aşağı təbii artım və doğum, yüksək ölüm göstəriciləri səciyyəvi idi.

Azərbaycanın tarixi ərazi suverenliyinin bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni imkan yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün nəqliyyat infrastrukturu qurulduqdan sonra, tam dağıdılmış Ağdam və Füzuli "ağıllı şəhər" layihələri üzrə iri və böyük şəhərlər kimi, digərləri bu layihələr üzrə orta şəhər kimi qurulmalı, ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa isə yeni layihə üzrə bərpa olunur. Gələcəkdə şəhərlərdə demoqrafik şəraitin yaxşılaşmasının təmin edilməsi üçün şəhər sistemində sosial və istehsal infrastruktur sahələrinin kompleks inkişafı, şəhərlərin iqtisadi funksionallıq prinsipi üzrə çoxfunksiyalı olmaları təmin edilməsi məqsədəuyğun olardı. Ağdamda texnoparkın yaradılması bu şəhərin az bir vaxtda regional mərkəzə çevirəcək.

Qarabağ regionunun birinci və ya ikinci mərkəz rolunu oynayan orta şəhərlərdən Ağcabədi, Bərdə və Tərtər şəhərlərinin sosial-iqtisadi inkişafları təmin olunmalı digərlərinin ərazisi genişləndirilməli, həmçinin nəqliyyat və sosial infrastruktur sahələr inkişaf etdirilməsi vacib problemlərdəndir. Şərqi Zəngəzur ərazisində olan Zəngilan, Laçın və Kəlbəcər şəhərlərində sənaye məhəllələri yaradılmalı, onların şəhər əhalisinin sayı 30-40 min nəfər civarında olması təmin edilməsi tövsiyə edilir.

Bu il az bir vaxtda Füzuli şəhərinin hava limanın açılması, Zəfər yolunun böyük hissəsinin və digər yolların sürətlə çəkilməsi bu regionlarda baş verən davamlı sosial-iqtisadi inkişaf üçün möhkəm stimul yaradır.

## İstinadlar

1. 1.Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 2009. XXI cild . Bakı, 2011, 632 s.
2. Azərbaycan Əhalisi. DSK. Bakı. 2006, 2011, 2016, 2021-ci illər üzrə məcmuələr
3. 3.Azərbaycanda ailələr. Bakı, DSK.2009. 385 s.
4. 4.Azərbaycan Respublikasının coğrafiyası. II cild, Avropa, Bakı-2013, 501 s.
5. 5.Azərbaycan Respublikasının. Bakı- inzibati ərazi bölgüsü 2013, 485 s.
6. 6.Bədəlov E.S. Azərbaycanın regionlarında şəhər məntəqələrinin demoqrafik inkişafının əsas meyilləri /ACC Coğrafiya və Təbii Resurslar, 2017, № 2, s. 34-39
7. 7.Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı-2005, Çıraq. 560 s.
8. 8.Eminov Z.N. Azərbaycanın inzibati rayon mərkəzləri və onların sosial-demoqrafik inkişaf xüsusiyyətləri. Bakı-2005ACC Coğrafiya və Təbii Resurslar, 2019, № 2, s. 54-63

**CAVADOV Ramiz**
UNEC, i.f.d., dosent

**YUSİFOV Yusif**
UNEC, i.f.d., dosent

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN DAYANIQLI İNKİŞAF STRATEGİYASI VƏ RƏQABƏT MÜHİTİNƏ YENİ BAXIŞ

**Xülasə:** "Yeni Qarabağ" sakinləri icması doğma diyarlara qayıdışı üç onillik ərzində gözləyib tab gətirməyi bacarmış, buna rəğmən yeni sakinlər Qarabağlıların "əvvəlki yaşadıqları məğlubiyyət ruhunu yox etməli, regionu sabitliyin qarantına və milli sərvətə çevirməlidir. Strategiya 2025-in əsas üstünlüyü eyni zamanda onun Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair prioritetlərə uyğunluğunun təmin edilməsidir. Belə ki, 44-günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

**Açar sözlər:** işğaldan azad edilmiş ərazi, davamlı inkişaf, Qarabağ, marketinq, brendinq, SWOT təhlil

→

## Giriş

İnkişaf etmiş ən qabaqcıl ölkələrin sırasında (ən azından birinci 50 ölkə sırasında) yer almaq üçün gələcək dövrdəki davranışımız çətin xarici şərtlərdə baş verəcəkdir. Çünki, səbəb və nəticələri daha yaxşı bəlli olan 2007-2009-cu illərdəki qlobal maliyyə böhranı da dünya iqtisadiyyatı və geosiyasətində sürətli və təhlükəli dəyişikliklərin başlanğıc nöqtəsi oldu. Dünyanın çoxqütblü bir modelə keçidi münaqişələr və böhranlar, iqtisadi, texnoloji və geosiyasi rəqabətlə müşayiət olundu. Nəzəri yanaşmalara görə qlobal rəqabət qabiliyyətinin əsas amilləri aşağıdakılar hesab edilir: 1.yüksək səviyyədə milli insan kapitalı; 2. texnoloji modernləşmə və rəqəmsallaşma; 3. iqtisadi artımın keyfiyyəti.

Dünyanın inkişaf etmiş iqtisadiyyatında həm əvvəl, həm də pandemiya dövründə görünməmiş yenilik dalğası Azərbaycanda baş verən əsaslı dəyişikliklərə sürətli reaksiya göstərilməsini tələb edir. Sənaye - 4.0 yeni texnoloji qaydaya keçildiyi bir şəraitdə iqtisadi geriləmənin qəbulu yol-

verilməzdir. Qlobal iqtisadiyyatdakı dinamik dəyişiklikləri nəzərə alaraq, 2030-cu ilə qədər olan dövr ölkəmiz üçün strateji bir zaman kimi xarakterizə olunur.

**İşğaldan azad edilmiş ərazilərin inkişaf strategiyasının əsas istiqamətləri**

Qarabağ regionunun sosial-iqtisadi inkişaf strategiyası, iqtisadi diversifikasiyanın yeni mexanizmlərinin yaradılması, iqtisadi münasibətlərin bütün iştirakçılarının fəaliyyətində qənaətcil istehsal texnologiyalarının tətbiq edilməsi, vətəndaş cəmiyyəti qurumlarının inkişafı, yeni sənaye siyasətinin, milli sahibkarlıq və texnoloji təşəbbüslərin həyata keçirilməsi vasitəsilə monoprofilli ixtisaslaşmadan imtina zərurətindən ibarət region qarşısında duran problemlərin həllini özündə əks etdirir.

Müasir reallıqlar hədəflərə çatma dinamikasını artıra biləcək yeni mexanizmlərin tətbiqinə yönəlmiş prinsipial qərarların zəruriliyini ön plana çıxarır. Bunun üçün “Yeni Qarabağ” sakinləri icması doğma diyarlara qayıdışı üç onillik ərzində gözləyib tab gətirməyi bacarmış, buna rəğmən yeni sakinlər Qarabağlıların “əvvəlki yaşadıqları məğlubiyyət ruhunu yox etməli, regionu sabitliyin qarantına və milli sərvətə çevirməlidir. Əgər “əvvəlki sakinlər” həyati problemlərə məruz qalmışdırsa, “Yeni Qarabağ” ekologiyada, geologiyada yeni texnologiyaların, yeni şəhər və kəndlərin salınmasında “ağıllı” iqtisadiyyat elementlərinin istifadəsi ilə innovativ texnologiyaların mənimsənilməsi və yaradılması üçün bir çağırışdır. Bu, yaradıcı və təşəbbüskar, uzun və sağlam həyat yönümlü, innovativ sahibkarlıq enerjisi ilə dolu yeni bir işçi qüvvəsinin hazırlanmasıdır. Bu, geniş miqyaslı təsərrüfat fəaliyyəti yerlərində təbii mühitə diqqətli münasibətdir. Bu, xarici və daxili ərazilərin bütün ən yaxşı dünya təcrübələrindən istifadə edən və sahibkarların, vətəndaş cəmiyyətinin və sakinlərin səriştəlik resurslarını fəal şəkildə əhatə edən yeni bir idarəetmədir.

Bu yeni texnologiyaların tətbiqi, innovativ iqtisadiyyat inkişafının astanasında duran regionun iqtisadi inkişafının yeni mərhələsinin, əvvəlki qüvvəsinin bərpasının növbəti mərhələsinin əsasını təşkil edəcəkdir. İndiki Qarabağ nəsli ölkənin iqtisadi inkişafında avanqard rolunu qorumaq potensialına malikdir ki, gələcək nəsillər onların qazandıqları uğurlarla fəxr etsinlər və yenilikçilik estafetini qəbul etsinlər.

Müasir «şəbəkə» iqtisadiyyatı üçün xarakterik olan bir çox sahibkarların, alimlərin, iri və xırda firmaların qarşılıqlı fəaliyyətinin sinerji effekti sayəsində iqtisadi artımı təmin edə bilən regional iqtisadiyyatın lokomotivlərinə çevrilməlidir.

Strategiya - 2025-in metodoloji xüsusiyyətini iqtisadiyyatda ayrı-ayrı sahələrin iqtisadi rolunun dərin təhlilinə əsaslanmış, regionun inkişafının prioritet istiqamətlərinin seçilməsinə elmi yanaşma təşkil edir. Bunun üçün multiplikator təhlili (iqtisadiyyatın müəyyən bir sahəsindəki dəyişikliklərin bir regionun və ya bütöv ölkənin iqtisadiyyatına təsirinin təhlili) və müəyyən iqtisadi fəaliyyət növlərinin məhsuldarlığının təhlili metodları tətbiq edilmişdir.

Digər metodoloji fərq dövlət idarəçiliyinin optimallaşdırılması maraqlarına görə ərazinin zonalaşdırılmasıdır. Zonalaşdırma (həmçinin rayonlaşdırma) müxtəlif təbii və sosial-iqtisadi şərtli ərazilər üçün dövlət iqtisadi və sosial siyasət alətlərinin çevik seçiminə əsaslanmış təbii elmi və tətbiqi dövlət idarəetmə metodudur.

Strategiya 2025-in başqa bir metodoloji xüsusiyyəti də iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsinin mexanizmlərini müəyyənləşdirməyə imkan yaradan marketinq təfəkkürü prinsipi və bununla əlaqəli klaster inkişafı paradiqmasıdır. Marketinq təfəkkürü klaster sisteminin yenidən qurulmasını tələb edir. İqtisadi inkişafın klaster paradiqması nöqteyi-nəzərindən innovasiyaların yaradılması üçün ən effektiv sayılan sektorlararası klasterlərin inkişafı variantları təklif olunmuşdur.

Strategiya 2025-in əsas üstünlüyü eyni zamanda onun Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair prioritetlərə uyğunluğunun təmin edilməsidir. Belə ki, 44-günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbay-

canın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir. Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli “hərəkətverici qüvvələri”nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi (3)

**2.Ərazinin kompleks marketinqi və brendinqi**

Marketinqin beynəlxalq səviyyədə qəbul edilmiş müasir elmi prinsipləri sosial-iqtisadi inkişafın tədqiqat miqyasına yenidən baxılmasını tələb edir. Sektor yanaşmasından ayrı-ayrı istehsal sahələrinin inkişafı tədqiqatına, ayrı-ayrı məhsul növlərinin istehsal olunması perspektivlərinin təhlilinə keçmək lazımdır, çünki dünya bazarında ayrı-ayrı məhsul növləri rəqabət edir. Strategiya 2025-in hazırlanmasında marketinq təfəkkürünün tətbiqi, istehsalın sahə strukturunun yeni anlayışını təmin etdi və, xüsusilə də, yeni bir klasterin - «İnsanlar üçün texnika və texnologiyalar»ın formalaşması üçün potensialı görməyə imkan yaratdı.

Regionun inkişafının strateji hədəfi innovasiyaya əsaslanan və qlobal rəqabət qabiliyyətinə malik yeni iqtisadi modelin formalaşması nəticəsində əhalinin həyat keyfiyyətini artırmaqdır.

Eyni zamanda, mövcud şəraitdə aktual məsələlər yeni bir şəkildə - ayrı-ayrı sektorlar və sosial-iqtisadi inkişaf sahələri üzrə məsələləri sistematik şəkildə birləşdirən dörd prioritet blokda qruplaşdırılır.

Birinci blok, sektorların innovativ transformasiyasına, marketinq təfəkkürünün diversifikasiya əsası kimi tətbiqinə əsaslanan yeni «ağıllı iqtisadiyyat» modelinin formalaşdırılması və regionun əsas texnoloji platsdarm kimi formalaşmasıdır.

İkinci blok dünya miqyasında rəqabətli insan kapitalının formalaşmasıdır; yerli mütəxəssislərin peşə hazırlığı, sağlamlıq və ömür uzunluğu, mədəni və təhsil səviyyəsi baxımından dünya rəqabət qabiliyyətinə çatma məqsədlərini (həmçinin innovativ inkişaf üçün əsas impuls mənbəyi kimi universitetlərin prioritet layihəsinin icrası vasitəsilə) əhatə edir.

Üçüncü blok «yaşıl enerji» və tullantıların idarə olunması üçün innovativ texnologiyaların kəskin inkişafına əsaslanan sağlam ekoloji mühitin formalaşdırılması, gələcək nəsillər üçün təbii potensialın qorunub saxlanılması məqsədilə rasional ətraf mühitin idarəetmə standartlarının formalaşdırılması və tətbiqidir.

Dördüncü blok səmərəli istehsal prinsiplərinə və qənaətcil region konsepsiyasının həyata ke-

çirilməsinin məkan forması kimi zonalaşma yanaşmasına əsaslanan sosial-iqtisadi inkişafın səmərəli idarə edilməsinin formalaşdırılması, vətəndaş cəmiyyətinin, effektiv dövlət və bələdiyyə xidmətinin inkişafıdır. Strategiya - 2025-in həyata keçirilməsi vasitələrindən biri də ərazinin ümumi marketinqi və brendinqi olacaqdır.




**Sxem.1.Ərazinin kompleks marketinqi və brendinqi**

Regionun sosial-iqtisadi inkişafının müasir iqtisadi potensialı (istehsal, əmək, insan resursları, təbii ehtiyat, enerji, infrastruktur) növbəti əhəmiyyətli rəqabət üstünlüklərinin kombinasiyası ilə formalaşır:

- region ölkənin iqtisadiyyatının mövcud vəziyyətini və ölkənin büdcə və maliyyə sisteminin sabitliyini müəyyənləşdirən, ölkənin iqtisadi baxımdan ən vacib dəstəkləyici regionlar qrupuna aiddir ki, bu da iqtisadi sabitləşmə tədbirləri mərkəzi tərəfindən birbaşa və dolayı əlavə dəstək imkanlarını nəzərdə tutur.

Son otuz il ərzində region işğalçılar tərəfindən tamamilə talan edilmişdir və bütün infrastruktur obyektləri məhv edilmişdir.

Regionun ərazisindən Qərbi Şərqlə birləşdirən mühüm tranzit nəqliyyat yolları keçir. Regionun ərazisindən keçən avtomobil və dəmir yolları milli nəqliyyat sisteminin mühüm bir hissəsidir: Bakı - Hacıqabul - Horadiz - Mincivan - Meğri - Ordubad avtomobil yolu (Türkiyəyə keçid etmək və Avropanın nəqliyyat şəbəkəsinə daxil olmaq perspektivi ilə); dünya səviyyəli «Şərq - Qərb» (Çin - Qazaxıstan - Azərbaycan - Ermənistan – Naxçıvan (Azərbaycan) – Türkiyə) marşrutunun bir hissəsi olan perspektivli dəmir yolu dəhlizi «Bakı - İmişli - Horadiz - Mincivan - Meğri (Ermənistan) - Ordubad - Culfa - Naxçıvan - Şərur - Aralık (Türkiyə)».

Mövcud təbii resurs, enerji və infrastruktur potensialı regionun tədricən və qaçılmaz, obyektiv olaraq ölkənin texnoloji, intellektual və insan resursları bazasına çevrilməsi üçün ilkin şərt kimi çıxış edir.

**3. Regionun dayanıqlı sosial-iqtisadi inkişafın imkanları, məhdudiyyətləri və təhlükələri (SWOT-analiz**)

SWOT-analiz ərazinin sosial-iqtisadi inkişafının güclü tərəfləri və yeni imkanlarının aktivləşdirilməsi yolu ilə zəif tərəfləri və təhlükələrinin kompensasiyasının potensialının öyrənilməsini əhatə edir.

| **Güclü tərəflər:** | **Zəif tərəflər:** |
|---|---|
| Yüksək təbii potensial | İnfrastruktur obyektlərinin olmaması |
| Yüksək enerji potensialı | Təbii və relyef şəraitinin mürəkkəbliyi |
| Yüksək turizm və rekreasiya potensialı | İnformasiya təhlükəsizliyinin olmaması |
| Yüksək aqlomerasiya potensialı | Əhəmiyyətli investisiyaların cəlb edilməsinə ehtiyac |
| Dünya səviyyəli sağlamlıq mərkəzlərinin inkişafı üçün yüksək potensial | Investisiyaların qaytarılmasının uzunmüddətliliyi |
| | Pirotexniki vasitələrin tam təmizlənməməsi |
| | İnfrastrukturun olmaması və s. |
| **İmkanlar:** | **Təhdidlər:** |
| Mövcud təbii ehtiyatların yataqlarının işlənməsinin inkişafı | Düşmən qonşudan təhlükə (təxribat ehtimalı) |
| Elektrik stansiyalarının tikintisi | Üçüncü ölkələrin müdaxiləsi |
| Ərazilərin yaşıllaşdırılması proqramlarının inkişaf etdirilməsi | Əhalinin tarixi torpaqlara qayıtmaqdan imtina etməsi |
| Beynəlxalq səviyyəli nəqliyyat dəhlizi olmaq | Regionda yeni bir müharibəynin başlaması qorxusu |
| Kənd təsərrüfatının inkişafı | Hazırkı şəraitdə bölgənin cəlbediciliyinin aşağı olması |
| Sahibkarların mənəvi borc hissinin güclü olması | |
| Siyasi iradə | |
| Bölgəyə siyasi marağın iqtisadi marağa çevrilməsi | |

**Sxem.2. SWOT təhlil**

Regionun **əsas güclü tərəfi** zəngin təbii ehtiyat, enerji, turizm və rekreasiya potensialının qorunmasıdır. Bütün digər regionların fonunda seçilən aqlomerasiya effektini almağa imkan verən dağ və düzənliklər, informasiyalaşdırmanın inkişafının yüksək potensiallı imkanları, səhiyyə, təhsil, mədəniyyət təşkilatlarının yaradılması sahəsində ixtisaslı xidmətlərin geniş spektri - bütün bunlar regionu yaşam və investisiya baxımından cəlbedici edir. Məhz bu yığılmış potensial regionun zəif tərəflərinin: infrastrukturun olmaması, elektrifikasiyanın, yol xətlərinin, telefon şəbəkələrinin, qazlaşdırmanın, sosial obyektlərin olmaması kimi çətin relyef şəraitlərinin mənfi təsirlərinə qarşı əsas dempferdir (qarşı tarazlıq). Sosial-iqtisadi inkişafın digər bir zəifliyi, informasiya təhlükəsizliyinin aşağı səviyyəsi və nəticədə potensial investorlarla əlaqələrin olmaması və mövcud imkanlardan səmərəli istifadə etməklə qismən aradan qaldırıla bilən dövlətin iştirakından yüksək asılılığıdır. Sosial-iqtisadi inkişafın əsas imkanı zəif tərəfləri güclü tərəflərə çevirməkdir: çətin şəraitdə idarəetmə təcrübəsindən, yeni yataqların kəşfi və yeni ərazilərin infrastrukturunun inkişafı təcrübəsindən istifadə edərək region yeni bilik infrastrukturu yaratmaq üçün mövcud dövlət yardımı və özəl maliyyə imkanlarından istifadə edə bilər və bu regionu ölkənin yenilikçi və intellektual platsdarmına çevirməyinə imkan verəcəkdir. İndiki mərhələdə ölkənin çətin təbii və iqlim şəraiti olan az inkişaf etmiş ərazilərdə yerləşən yeni təbii sərvət yataqlarının işlənməsi üçün yeni, qənaətcil və ekoloji cəhətdən təhlükəsiz texnologiyalara ehti-

yacı, artıq inkişafın yeni mərhələsində «ağıllı» mədən texnologiyalarının inkişafı və regionun təsərrüfat inkişafının rasional, ekoloji cəhətdən məsuliyyətli təşkili vasitəsilə, regionun təbii sərvətlərin inkişafında lokomotiv rolunu qorumaq üçün imkan yaradır.

**Nəticə**

Çətin təbii şərait və nəqliyyatın əlçatanlığının aşağı səviyyəsi bir çox məhsul növlərinin istehsal xərclərinin artmasına səbəb ola bilər və kütləvi sənaye istehsalının inkişafına maneə ola bilər. Lakin yeni regional bilik iqtisadiyyatının formalaşması, əsas rəqabət üstünlüyünün xidmətin maya dəyəri ilə deyil, tələbatın spesifikasını dərindən bilmə sayəsində yarandığı sahələrdə rəqabətli təklif formalaşdırmağa imkan verəcəkdir (kütləvi tələbatın stereotip mal və xidmətlərinin istehsalına yönəlmiş sektorlarda olduğu kimi). Regionun iqtisadi potensialı rəqabət qabiliyyətinin səriştəlik, texnologiyanın inkişaf səviyyəsi və tələbata dair xüsusi biliklər ilə təmin olunduğu dar bazar seqmentlərinə yönəlmiş mal və xidmətlərin yaradılmasından ibarətdir - bunlar istehlaka yönəlmiş intellektual xidmət və mallardır. Regiondakı bilik iqtisadiyyatının rəqabət qabiliyyəti ölkə üçün intellektual mallar və xidmətlərin istehsalında ixtisaslaşması ilə təmin ediləcəkdir. Uzun müddətdə belə ixtisaslaşmış bilik iqtisadiyyatı inkişaf etdirərək, region, cəlbedicilik səviyyəsinin azalması ilə əlaqəli mümkün təhlükələrə mühüm dərəcədə müqavimət göstərə biləcəkdir. Bilik iqtisadiyyatının inkişafı yolunda əsas təhlükə həm əhalinin, həm də dövlətin və bələdiyyə orqanlarının yeni müharibə qorxusunun qeyd-şərtsiz hökmranlığına inancından ibarət olan sosial-iqtisadi inkişafın koqnitiv bloklamasıdır.

**İstinadlar**


1. https://cyberleninka.ru/article/n/mirovoy-finansovyy-krizis-i-azerbaydzhan
2. https://azerbaijan.un.org/az/sdgs
3. https://president.az/articles/50474
4. https://www.azstat.org/portal/
5. R.C.Cavadov, M.Ə.Feyzullayev ”Qarabağ regionunun sosial-iqtisadi inkişaf strategiyası”, Bakı -2021

**CƏFƏRLİ Vüsal**

Bakı Avrasiya Universiteti, doktorant

# QARABAĞDA TURİZM SƏNAYESİNİN İNVESTİSİYA TƏMİNATININ YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə:** Məqalədə işğaldan azad olunmuş ərazilərdə turizmin inkişafının ölkə iqtisadiyyatına iqtisadi, sosial, ekoloji və mədəni təsirləri araşdırılmış, bu sahənin millli-mədəni irsin, adət-ənənələrin, ölkə əhalisinin ictimai, siyasi və dini baxışlarının tanınmasında əvəzsiz rolu qeyd edilmiş, turizm sahəsində beynəlxalq təcrübə öyrənilib ümumiləşdirilmiş, onlardan Azərbaycanda istifadə imkanları müəyyən edilərək hüquqi, təşkilati, texnoloji və iqtisadi tədbirlərin aparılmasının vacibliyi qeyd edilmiş, turizmin inkişafına dair tövsiyələr irəli sürmüşdür.

**Açar sözlər:** Sturizm, investisiya, infrastruktur, səmərəlilik, məşğulluq, gəlir.

→

## Giriş

Müasir dövrdə turizm milli iqtisadiyyatın prioritet sahələrindən biridir. Dünya təcrübəsi göstərir ki, turizm iqtisadiyyata təsir göstərən sektor olaraq, dövlət büdcəsinin formalaşmasında mühüm rol oynayır. Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi, bu sahəyə investisiya qoyuluşlarının artırılması nəticə etibarilə mövcud turizm potensialından səmərəli istifadə imkanlarının daha da genişləndirilməsinə, turizm fəaliyyətinin regionlarda stimullaşdırılmasına, fərqli turizm marşrutlarının yaradılmasına, eləcə də səmərəli qiymət rəqabətinin aparılmasına zəmin yaradır.

Bu baxımdan düşünürük ki, dayanıqlı inkişafın təmin edilməsində turizmin rolu və onun potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi məqsədilə geniş araşdırmalar aparılmalı, milli turizmin inkişafının maliyyə-investisiya problemləri öyrənilməli və onların aradan qaldırılmasına dair təsirli təklif və tövsiyələrin işlənilməsinə ehtiyac duyulur.

**Qarabağda dünya turizm təcrübəsindən istifadə: təhlili və qiymətləndirilməsi**

Bütövlükdə ölkə miqyasında və Qarabağ zonasında turizm sektorunun bərpası və inkişafı təşkilati, hüquqi amillərlə yanaşı səmərəli investisiya təminatına söykənir. Reallıq ondan ibarətdir ki, işğaldan azad olunan ərazilər iqtisadi dövriyyəyə yeni cəlb olunmuş ərazilər kimi qəbul edilməli, onların inkişafı proqramları və konsepsiyaları hazırlanmalıdır. Regionun tarixi, mədəni inkişaf səviyyəsi və bənzərsiz təbiəti turizmin inkişafının da diqqət mərkəzində saxlanılmasına zəmin yaradır. Bu vəzifənin uğurla reallaşdırılması üçün aşağıdakı tədbirlərin görülməsini zəruri hesab edirik:

- regionda azad iqtisadi zona kimi turist-rekreasiya tipli yerlərin yaradılması;
- region və sektorların inkişafı üçün dövlət tərəfindən subvensiya və subsidiya şəklində borcların verilməsi;
- regionda geniş miqyaslı turizm layihələrinin həyata keçirilməsinə dəstək vermək üçün müvafiq ərazilərin ayrılması;
- turizmin sosial-iqtisadi faydalılığını artırmaq üçün bölgələrin rekreasiya imkanlarından səmərəli istifadə istiqamətində işlərin gücləndirilməsi.

Ölkənin sosial-iqtisadi inkişafı baxımından turizmin əhəmiyyəti böyükdür. Müxtəlif regionlarda, bölgələrdə, həmçinin bütövlükdə ölkədə turizmin inkişaf etdirilməsi bir çox sosial-iqtisadi problemlərin əsaslı şəkildə həll olunması üçün əlverişli mühit yaradır. Turizmin inkişaf etməsi ilə yeni iş yerlərinin yaranmasına, kənd əhalisinin şəhərə kütləvi axınının qarşısının alınmasına, əhalinin kommunikasiya və mədəni əlaqələrinin artmasına nail olmaq mümkündür. Turizmin inkişaf etdiyi regionlarda mədəniyyətlər arası inteqrasiyanın güclənməsi üçün də əlverişli şərait yaranır. Bildiyiniz kimi, digər xidmət sahələri kimi, turizmin inkişafı, turist biznesi ölkədə başqa sahələrin inkişafına da təkan verir. Turizm biznesinin üstün cəhəti kimi, az miqdarda ilkin investisiya ilə artan turist xidmətləri tələbatının, yüksək səviyyəli rentabellik, qısa müddətdə gəlir əldə olunması kimi xüsusiyyətlərinə görə sahibkarları özünə cəlb edir. İqtisadi inkişafın, onun rəqabət qabiliyyətliliyi və dünya ölkələrinə inteqrasiyanı xarakterizə edən əsas göstəricilərdən biri də ölkə ərazisində iqtisadiyyata qoyulan investisiyaların həcmidir. İnvestisiya fəaliyyəti ölkədə ümumi sosial-iqtisadi rifahın yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin həll olmasına və müasir texnologiyaların tətbiq edilməsinə şərait yaradır. Dünya təcrübəsi göstərir ki, turizm iqtisadiyyata təsir göstərən əhəmiyyətli qüvvə olub, dövlət büdcəsinin formalaşmasında və ticarət balansının stabilləşməsində mühüm rol oynayır. Ancaq turizmin rolu iqtisadiyyatda bununla bitmir. Bütün dünyada hərəkət edən milyonlarla insana xidmət etmək, turizm sənayesi və infrastrukturunu təşkil edən əlaqəli sahələrdə işləmək üçün minlərlə işçi qüvvəsinin cəlb olunması tələb olunur. Belə olduqda isə sosial problemlərin, məşğulluğun məsələsinin həll olmasında, yaşayış səviyyəsinin və rifahın yüksəlməsində əhəmiyyətli rol oynayır. Turizm fəaliyyəti ilə bəzi əlçatmaz ərazilərdə məşğulluq məsələsini həll etmək olar.

Belə ki, heç bir istehsal mümkün olmayan ərazidə turizm vasitəsilə insanların işlə təmin etmək mümkündür. Belə olduğu halda turizm fəaliyyətinə yalnız səyahətlərin təşkili xidmətlərinin təklif olunması kimi deyil, həmçinin iqtisadiyyatın başqa sektorlarının, dövlətin gəlir mənbələri kimi baxılacaqdır. İnvestisiya fəaliyyətində əsas əhəmiyyət kəsb edən məsələ investisiyaların təşviqi və səmərəli idarə olunmasıdır.

Bir ölkənin zəngin sərvətlərə sahib olması, o ölkənin digər sektorlarına qoyulan investisiyalarında maliyyə sərmayəsi tərəfindən asanlıq yaradacaqdır. Digər resurslar kimi, bir ölkə zəngin turizm qaynaqlarına və potensialına sahibdirsə, bunu da lazımlı infrastruktur investisiyaları ilə dəstəkləyəcək istehlakçıya uyğun keyfiyyət və qiymətdə marketinq araşdırması edə bilirsə, bu sektora qoyulacaq investisiyaların və burdan əldə ediləcək gəlirin ölkə iqtisadiyyatına ciddi fayda yaradacağı şübhə doğurmur. İnvestisiyalar hər bir ölkə üçün çox böyük əhəmiyyətə malikdir. Turizm investisiyası, "bir turizm müəssisəsinin məqsədi qənaətbəxş fəaliyyət şərtlərilə davam etdirilməsi, inkişaf etdirilməsi, rəqabət gücünün qorunması və başqa məqsədlərlə, bir ildən uzun vaxt istifadə edilə biləcək kapitalın əldə edilməsi və fəaliyyətlərin axsamadan davam edə bilməsi üçün lazımlı müəssisə kapitalı aktivlərinin satın alınması" kimi bilinir. Turizm investisiyaları, bir destinasyanı turizm məqsədilə ziyarət edən yerli və xarici turistlərin qeyd olunan destinasiyada keçirtdiyi vaxt içərisində qonaqlama, yemək-içmək, əyləncə və istirahət tələbatlarını qarşılamaq məqsədilə qurulan bina, obyekt, ərazi və nəqliyyat vasitələri ilə bunların istifadəsinə görə edilən xərclərin hamısı kimi ifadə olunur (Bahar, O. və Kozak, M. 2013, səh 31).

Əlbəttə, investisiya qoyulan regionda iqtisadi böhran, xəstəliklər, viruslar və ya təbii fəlakətlərin və digər hadisələrin baş verməyəcəyinə zəmanət yoxdur. Bu səbəbdən, dünya miqyasında turizm investisiyaları riskli investisiya olaraq qəbul edilir və tətbiq olunan təşviq proqramları ilə dəstəklənir. Digər sahələrdə olduğu kimi, turizm sahəsində də investisiyaların bəzi özünə məxsus xüsusiyyətləri var. Bu sektorda investisiya qoymaq istəyən insanlar və təşkilatların turizm investisiyalarının vacib xüsusiyyətlərinin nələr olduğunu bilmələri lazımdır.

Hazırda ölkəmizdə turizm sənayesinin inkişafını ləngidən aşağıdakı bir sıra problemlərin mövcudluğunu da qeyd edə bilərik:

- Regionlarda aeroportların, dəmir yolu və su yolu kimi nəqliyyat infrastrukturunun aşağı səviyyədə olması, bəzən heç olmaması. Füzulidə Laçın və Zəngilanda hava limanlarının inşası bu problemin aradan qaldırılmasına öz töhfəsini verəcəkdir.

- Əhəmiyyətli turizm potensialına sahib olan regionlarda telekommunikasiya xətlərinin, mərkəzi su və isitmə sisteminin, eyni zamanda turizm marşrutları üzrə istirahət dayanacaqlarını özündə əhatə edən regional infrastrukturun olmaması və ya mövcud infrastrukturun beynəlxalq standartlara cavab verməməsi;

- Regionlarında yerləşən qonaqlama obyektləri arasında üç ulduzlu otellərin, motellərin və hostellərin yetəri qədər olmaması, həmçinin yüksək səviyyəli alış-veriş mərkəzlərinin çatışmazlığı;

- Turizm obyektlərini müəyyən müddət çərçivəsində gəlir vergisindən azad olunması və ya aşağı dərəcələrin tətbiq edilməsi proqramlarının olmaması;

- Ölkəmizin mövcud turizm imkanlarının beynəlxalq səviyyədə yetərincə tanıdılmaması. Buna görə də sərmayəçilərin öz vəsaitlərini yönəltmək üçün kifayət qədər informasiyası yoxdur.

- Müasir turizm komplekslərinin qurulmasına irihəcmli maliyyə vəsaitlərinin tələb olunmasına görə bu sahəyə investisiya qoyuluşunun yüksək risk yaratması;

- Qonşu ölkələrlə müqayisədə gündəlik xərclərin daha çox olması.

Bu problemlərin aradan qaldırılması nəticəsində investisiya qoyuluşlarının artmasına müsbət təsir göstərə bilər. Turizm resurslarından məqsədyönlü şəkildə formalaşmasına dair metodoloji yanaşma, ilkin olaraq turistlərin dəyişkən istək, tələbatlarının dinamikliyi və dövriyyəliyinə, xidmətlərin zəruriliyi və yetərliliyinə, əlaqəli xidmətlərin istehlak edilən daha çox tələbat olan turizm xidmətlərinin xarakter və keyfiyyətinə uyğunluğuna, təqdim edilməsinin vaxtlı vaxtında olması kimi, innovasiya-investisiya fəaliyyətlərinə əsaslanmalıdır.

**Qarabağ zonasında turizmin inkişafının ölkə iqtisadiyyatına təsiri**

Ölkəmizdə kompleks tədbirlər sistemi çərçivəsində turizm sektoru üçün investisiya prosesinin səmərəliliyinin yüksəldilməsi metodu kimi maliyyə sferası vasitəsilə reallaşdıran fəaliyyətlərdir. Ümumiyyətlə investisiyalaşma prosesində daxili (xüsusi ilə müəssisənin mənfəəti və amortizasiya xərcləri) və kənar (qiymətli kağızlar və müxtəlif kreditlər vasitəsilə) maliyyələşmə mənbələri üçün çevik təsir vasitələrindən biri kimi bu sektordan istifadə məqbul hesab olunur. Dövlət sürətli amortizasiya siyasətinin köməkliyi ilə investisiyaların müxtəlif kateqoriyaları üzrə stimullaşdırılmasına, mənfəət vergisinin isə müəyyən şərtlər daxilində güzəştli tarif dərəcələri və digər mexanizmlərin tətbiq edərək, dövlətin investisiya resursları həcmini və istiqamətlərini tənzimlənməsinə xidmət edir. Dövlətin amortizasiya ayırmaları ilə bağlı siyasətində qanunvericilik mexanizmlərinin təkmilləşdirilməsi investisiya fəaliyyəti üçün ən sabit mənbələrdən biri kimi hesab olunur. Dünya təcrübəsinə əsaslanaraq deyə bilərik ki, iqtisadiyyatın təşviq etdirilən müxtəlif sahələrində olduğu kimi bu sektorunda investisiya fəallığını yüksəltmək və stimullaşdırılması üçün dövlət tərəfindən hər zaman istifadə olunan alətlərdən biri də investisiyalar üçün vergi kreditidir. Həmçinin turizm sektorunun inkişafı üçün dövlət tərəfindən edilən stimullaşdırıcı tədbirlərdən biri kimi investisiya layihələrinin və proqramlarının böyük korporativ şirkət və ya müəssisələr tərəfindən payçılıq əsasında kapitalla təmin edilməsi ola bilər. Belə olduqda lokal əhəmiyyətli, müqayisədə sadə həcmli layihələri maliyyələşdirə bilmək üçün yerli hakimiyyət orqanlarının yardımı ilə müxtəlif səhmdar cəmiyyətlərinin yaradılması mümkündür. Fərdi kapital qoyuluşları əsasında əmanətçilərin payçılıqla maliyyələşdirilmə prosesində stimullaşdırılması kimi bu metodlarla yaradılmış müəssisənin əldə etdiyi mənfəətin50 % -nə qədər olan hissəsindən vergi dərəcəsinin azaldılması, habelə yeni yaradılan obyektlərə payçı qismində sahib olmaq imkanının verilməsini aid etmək olar (A.F.Mirzəyev, 2016, səh. 140-145).

Burada müxtəlif sahələri özündə ehtiva edir ki: nəqliyyat, iaşə xidmətləri, mehmanxanalar və s. bunlar da öz növbəsində yeni iş yerlərinin yaranması deməkdir. İşçilərin beynəlxalq standartlara cavab verən mütəxəssislər səviyyəsində formalaşa bilməsinə görə Türkiyənin Turizm Nazirliyi və TİKA adlı beynəlxalq təşkilatın köməkliyi ilə müxtəlif təlim kursları təşkil olunmuşdur. Ölkəmizdə olan geniş turizm potensialı imkan verir ki, fərqli regionlarda müxtəlif turizm bazaları yaradılsın və bu istiqamətdə baş verən müəyyən çatışmazlıqları aradan qaldıraq. Hökumətin müxtəlif sahələrdə apardığı islahatlar turizm sektorundan da yan keçməmişdir. Belə ki, turizmin inkişafı məqsədi ilə lisenziya verilməsi prosedurası asanlaşdırılıb və dövlət rüsumunun azaldılmasını göstərə bilərik (Məmmədov E.Q. 2005, səh111-113).

Turizmin inkişafı iqtisadiyyatın prioritet istiqamətlərindən biri olduğuna görə ölkənin rekreasiya ehtiyatları proqnozlaşdırılması və qiymətləndirilməsi prosesinin miqyasının genişliyi nəzərə alınmaqla bu sahəyə dövlət yardımlarının ayrılması da vacibdir. Onu da nəzərə almaq lazımdır ki, iqtisadi baxımdan özəl turizm təşkilatları tərəfindən qoyulan investisiyalar dövlət və xarici təşkilatların bu sahəyə ayırdığı yatırımlardan daha üstündür.

**Nəticə və təkliflər**

Yuxarıda aparılan araşdırma və təhlillərdən bu nəticəyə gəlmək olar ki, dövlət dəstəyi, xarici və yerli investisiyaların cəlb olunması ilə Qarabağ zonasında yüksək səviyyədə xidmət göstərəcək turizm obyektləri yaratmaq mümkündür. SSRİ dövründə də Ağdam rayonunun turizm məkanı kimi fəaliyyət göstərməsi, Qarabağ zonasının müəyyən hissəsinin düzənlikdə və digər hissəsinin dağlıq ərazidə yerləşməsi, tarixi abidələrin həmin ərazilərdə çox olması, Füzuli rayonunda beynəlxalq hava limanının açılması, Şuşanın mədəniyyət paytaxtı elan olunması hər biri öz növbəsində turizmin inkişafına öz töhfəsini verəcəkdir. Təklif olaraq onu qeyd edə bilərəm ki:

1. Ağdam rayonunda tarixi abidələrə turların təşkil olunması və erməni vəhşiliyinin, müharibənin vurduğu ziyanı göstərmək üçün gələn turistlərə ekskursiyaların təşkil olunması;

2. Ağdamın SSRİ dövründə olan turizm məkanı olmasını nəzərə alaraq həmin dövrdəki turizm marşrutlarından yararlanmaqla daha müasir və dünya standartlarına cavab verən turizm xətlərinin yaradılması;

3. Ağdamla yanaşı Kəlbəcərdə və Zəngilanda termal suların olmasını nəzərə alaraq müalicə turizminin inkişaf etdirilməsi;

4. Eyni zamanda ölkə ərazisində çox da inkişaf etməyən qeyri-ənənəvi turizm növlərinin də yaradılması Ağdam və digər Qarabağ zonasında yerləşən rayonların da dünya səviyyəsində tanınmasına və ölkə iqtisadiyyatına yüksək gəlir daxil olmasına səbəb olacaqdır.

**İstinadlar**


1. “Azərbaycan Respublikasının Turizm haqqında Qanunu”. Qanun, Bakı 2000.
2. Abbasova Q. F. “Turizm sferasinda investisiya qoyuluşundan səmərəli istifadə edilməsi istiqamətləri” Bakı 2013, 150səh.
3. Bilalov.B.Ə., Gülalıyev Ç.G. “Turizmin əsasları” Bakı 2015, 496 səh
4. Əlirzayev Ə., Aslanova. S. İ. “Turizmin inkişafının sosial iqtisadi problemləri” Bakı 2006, 164səh.
5. Hüseyn A. “Turizmin inkişafi: dünya praktikasi və Azərbaycan reallıqları”. Bakı 2015. 257 səh.
6. Məmmədov E.Q. “Azərbaycanda turizm bazarinin formalaşması və idarə olunmasının regional xüsusiyyətləri”. Bakı 2013.45səh.
7. Mirzəyev.A.F. “Azərbaycanda Turizm potensialindan istifadənin səmərəliliyinin artırılması istiqamətləri”. Bakı 2016. 166səh.
8. İnternet resursları

ƏHMƏDOV Elçin

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, siyasi elmlər doktoru, prof.,

# AZƏRBAYCANIN İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ TARİXİ QƏLƏBƏSİ: HƏRBİ-DİPLOMATİK VƏ İNFORMASİYA MƏKANINDA UĞURLAR

**Xülasə:** Məqalədə Azərbaycanın II Qarabağ müharibəsində tarixi Qələbəsi geniş təhlil edilir. Məqalənin əvvəlində Ermənistan tərəfindən Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətininin beynəlxalq aləmdə ifşası geniş tədqiq edilir.
Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları təhlil edilir. Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da Azərbaycanın uğurlarını şərtləndirirdi. Həmçinin, Azərbaycanın hərbi, diplomatik qələbəsi ilə yanaşı, informasiya məkanında da mühüm uğurları da ayrıca təhlil edilir. Xüsusilə, Şuşa şəhərinin işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərməklə, Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

**Açar sözlər:** Azərbaycan Respublikası, Qarabağ, hərbi-diplomatik uğurlar, Şuşa, Ağdam

→

## Giriş

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli Ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğalı altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi,

Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Sukurataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu (16).

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi (19).

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi (21).

Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi (4). Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir (19).

**Təhlil və qiymətləndirmə**

**Ağdam rayonunun işğaldan azad olunması BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnamənin icrasını şərtləndirdi**

1993-cu il iyulun 23-də Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra iyulun 29-da BMT Təhlükəsizlik Şurasının 3259-cu rəsmi iclasında müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi. Bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilir, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunur, hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğaldan azad olunması mühüm tarixi hadisədir. Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan çıxmasını nəzərdə tutan 853 saylı qətnamə də məhz Azərbaycanın şərtləri ilə icra edildi (4).

Ağdam rayonu Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında, yəni Qarabağ

silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərb hissəsində yerləşir. Relyefi əsasən düzənlik, qismən dağlıqdır. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Şimalda Tərtər və Bərdə rayonları, cənubda Xocavənd, şərqdə Ağcabədi rayonu, qərbdə isə Kəlbəcər rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

Bununla yanaşı, işğal nəticəsində Ağdam rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Aparılan arxeoloji tədqiqatlar zamanı aydın olmuşdu ki, Üçoğlantəpə deyilən yerdə ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə yiyələnmişlər. Rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı eneolit və orta tunc dövrünə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkarlanıb.

Tarixi və memarlıq abidələrindən Sarıhacılı kəndindən 3 kilometr cənub-şərqdə Çinartəpə yaşayış yeri (e.ə. II-I minilliklər), Göytəpə kəndinin qərbində Göytəpə yaşayış yeri (tunc dövrü), Papravənd kəndinin cənub-şərqində Güllütəpə - II yaşayış yeri (son tunc dövrü, ilk orta əsrlər), Güllütəpə - I yaşayış yeri (III-XIII əsrlər), Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), Şeyx Nigari türbəsi, türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr) və türbəsi, iki sandığabənzər abidə (XVI əsr), o cümlədən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Ağdam şəhərinin Qaraağacı qəbiristanında Uğrulla bəyin türbəsi (XIX əsr), Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara, eləcə də rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr məhv edilmişdir.

Bununla yanaşı, Ağdamda bütün dünyada yeganə olan "Çörək muzeyi" ilə yanaşı, tarzən Qurban Pirimovun xatirə muzeyi, Ağdam Şəkil Qalereyası və şəhərin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Ümumilikdə, 130-dan çox tarixi abidə və maddi-mədəniyyət nümunələri yer üzündən silinmişdir. Bundan əlavə, işğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu fəaliyyət göstərmişdir (4).

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciətində qeyd etmişdir ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur, işğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı, hazırda isə Ağdam rayon sakinlərinin sayı 204 mindir (9).

Prezident İlham Əliyev indi Ağdam üçün yeni dövrün başladığını vurğulayaraq demişdir: "Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi" (9).

2021-ci il mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin Ağdama səfəri zamanı dövləti başçısının rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü oldu və qısa müddət içərisində mükəmməl hazırlanmış şəhərin baş planı təqdim edildi.

**Ermənistan tərəfindən Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətininin beynəlxalq aləmdə ifşası**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında (1) və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında (2), oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi (14). 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr (17) zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində (6) Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Mühüm beynəlxalq toplantılarda "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanır və heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində diqqətə çatdırıldı ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsassızdır, tarixi faktların və beynəlxalq hüquq prinsiplərinin ermənisayaq təfsirindən başqa bir şey deyil. Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycanın işğal altında olan ərazilərində hərbi gücdən istifadə nəticəsində formalaşdırılmış oyuncaq, qeyri-qanuni və heç bir dövlət tərəfindən tanınmayan qondarma qurumun rejimini tanıtmaq üçün göstərdiyi cəhdlər beynəlxalq hüquqa ziddir və heç bir əsası yoxdur. Çünki Dağlıq Qarabağ bölgəsinin erməniləri digər ölkələrdə yaşayan ermənilər kimi, Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər.

Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bununla yanaşı, əgər bütün xarici ölkələrdə yaşayan erməni icmaları yaşadıqları həmin ölkələrin ərazilərində "öz müqəddəratını təyin etmək" adı ilə yeni süni dövlətlər yaratsalar, bu halda dünyada, o cümlədən Fransada, ABŞ-da, Rusiyada, Gürcüstanda, Azərbaycanda, Livanda, Argentinada və erməni icmaları yaşayan digər ölkələrdə yüzlərlə yeni qondarma erməni "dövlətləri" yaradıla bilər?! Bu baxımdan, ermənilərin öz müqəddəratını təyinetmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə dövlətlərin ərazi bütövlüyü, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Bu baxımdan Prezident İlham Əliyev Ermənistanın baş nazirinin diqqətinə çatdırdı ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib, onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!" (17)

Dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyindən dönməyəcək.

Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları

məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər" (3).

Dövlət başçısı hər zaman mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Xüsusilə son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

**Azərbaycan Prezidentinin prinsipial mövqeyi informasiya məkanında da uğurlarımızı təmin etdi**

Qeyd etmək vacibdir ki, 2016-cı ilin Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasına son qoydu. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Azərbaycan Prezidentinin Vətən müharibəsi ərəfəsində və gedişində günlər ərzində 30-a qədər xarici KİV təmsilçilərinin, xüsusilə "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global", "Haber Türk", "NTV", "France 24", televiziya kanallarına, Rusiyanın TASS, Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir" (10).

Hər zaman, xüsusilə, Münxen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

**Nəticə**

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Azərbaycanın hərb meydanında tarixi Qələbəsini yüksək dəyərləndirən dünyanın bir sıra hərbi-siyasi ekspertlərinin fikirlərini Ukraynanın "İnter" telekanalının müxbiri də təsdiq etdi: "Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat mənim fikrimcə, həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu, bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək" (10).

Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə, həm də fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-lərinin gündəmində, əsas xəbər başlıqlarında yayılaraq Azərbaycan həqiqətləri bütün dünyaya çatdırıldı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik.

Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyuldu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

Azərbaycan Prezidenti diqqətə çatdırmışdır ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Dövlət başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

**İstinadlar**


1. Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı. – 03.10.2019. - https://azertag.az/xeber/VIDEO-1338718
2. Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı. – 11.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1341121
3. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti. – 24.10.2020. - https://azertag.az/xeber/1622977
4. Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi. – 26.11.2020. - https://azertag.az/xeber/ -1651629
5. Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli rayonuna və Şuşa şəhərinə səfəri. – 15.01.2021. - https://azertag.az/xeber/ VIDEO-1688523
6. Azərbaycan Prezidenti İlham Əliyevin Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammitində çıxışı. – 19.06.2020. - https://azertag.az/xeber/ VIDEO-1516471
7. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri. – 16.03.2021 - https://azertag.az/xeber/ VIDEO-1735497
8. Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti. – 08.11.2020. - https://azertag.az/xeber/ VIDEO-1636809

9. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciəti. – 20.11.2020. - https://azertag.az/xeber/VIDEO-1646639
10. Azərbaycan Prezidenti, İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı – 26.02.2021. - https://azertag.az/xeber/ VIDEO -1722043
11. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. – 15.06.2021. - https://azertag.az/xeber/1808083
12. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 03.12.2020. - https://azertag.az/xeber/ -1657265
13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. - "Azərbaycan" qəz., 25 oktyabr 2011.
14. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü. – 25.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1347207
15. Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü. – 15.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1342635
16. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz. - 01.12.2020. - https://azertag.az/xeber/ -1622227.
17. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. – 16.02.2020. - https://azertag.az/xeber/ VIDEO-1415483
18. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 07.05.2021. - https://azertag.az/xeber - 1775545
19. 2020-ci il sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan əks-hücum əməliyyatları ilə bağlı mühüm hadisələrin xronikası. - https://files.preslib.az/site/qarabag/xronika_az.pdf.
20. BRUSSELS SUMMIT DECLARATION Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Brussels 11-12 July 2018. - https://www.mfa.gov.az/files/documents-of-international-organizations-on-the-armenia-azerbaijan-conflict.pdf
21. Statement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. – 10 november 2020.- https://en.president.az/articles/45923
22. 18th Summit of Heads of State and Government of the Non-Aligned Movement. Baku, the Republic of Azerbaijan 25 - 26 October 2019. FİNAL DOCUMENT. Baku, Azerbaijan, 25-26 October 2019; bax: DOCUMENTS OF INTERNATIONAL ORGANIZATIONS ON THE ARMENIA-AZERBAIJAN CONFLICT. - https://www.namazerbaijan.org/pdf/BFOD.pdf

ƏHMƏDOV Elşan
Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, i.f.d., dos.

# AĞDAM RAYONUNUN SU RESURSLARININ DAYANIQLI İDARƏ EDİLMƏSİ

**Xülasə:** Ali Baş Komandan İlham Əliyevin, ordu və bütöv xalqımızın 44 günlük vətən müharibəsində zəfər səlnaməsi, ölkəmizin qarşısında sosial-iqtisadi və ekoloji yeni perspektivlər açmışdır. Məqalədə su resurslarının süni intellektin və ağıllı şəhər layihələrinə uyğun idarə edilməsi araşdırılır. Ağdam və bölgələrdə çayların, su anbarların, su kanalların tutumu və onların su-enerji-torpaq idarəetmə mexanizmləri tədqiq edilir. Texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi su resurslarının idarə olunması üçün zəmin yaradır. Dünyadakı sürətli dəyişiklikləri nəzərə alaraq, yeni layihələr hazırlanmasında hədəf, məqsəd, proqnozlaşdırma, diaqnoz və uyğunlaşdırma üsullarından istifadə olunmalıdır.  Məqalədə Ağdam rayonunun su resursları və onların dayanıqlı idarə edilməsi təhlil edilmişdir.

**Açar sözlər:** Qarabağ, Ağdam, davamlı idarəetmə, dayanıqlı iqtisadiyyat, su resursları, Qarqarçay, Xaçınçay, rəqəmsal idarəetmə, ağıllı texnologiyalar.

→

## Giriş

2020-ci ildə Azərbaycanın şanlı tarixini yazan Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan Respublikasının ayrılmaz hissəsi və əzəli torpağı olan Qarabağı Azərbaycan xalqına geri qaytararaq 30 illik münaqişəni 44 günə həll etmişdir. Ali Baş Komandan ölkəmizin iqtisadi siyasi prioritetlərini müəyyən edərkən Qarabağın su potensialını və onun regional iqtisadi inkişafa davamlı təsir mexanizmlərini müəyyən etməyi mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında vəzifə qoymuşdur. Ölkə Rəhbərinin göstərdiyi bütün siyasi-diplomatik səylər Qarabağ iqtisadi rayonun gələcəyində həlledici rol oynamışdır. Bu gün, qürur hissi ilə deyə bilərik ki, regionların davamlı və inklüziv inkişafının təmin edilməsi, Qarabağın nəqliyyat və digər iqtisadi sahələrə sürətlə inteqrasiyası Azərbaycanın bütöv və davamlı inkişafına öz töhvəsini verəcəkdir. Buda öz növbəsində, Azərbaycanın bütün regionlarının inklüziv idarə edilməsini şərtləndirəcəkdir. Hər bir ölkənin ictimai-siyasi həyatında idarəetmənin və dövlət xidmətinin əvəzsiz rolu vardır. Mərkəzdə isə insan faktoru və onun inkişaf potensialı dayanır. Su resurslarının dayanıqlı idarə edilməsi sosial-iqtisadi, texnoloji, ekoloji və siyasi faktorları özündə cəmləşdirir. Mürəkkəb idarəetmə quruluşuna malik olan su idarəetmə prinsipləri gələcəkdə digər bütün dövlət və özəl sektor layihələrində uğurla istifadə edilə bilər.

***Su resurslarının dayanıqlı idarə edilməsi***

Su resurslarının dayanıqlı idarə edilməsi siyasi-ictimai, sosial-iqtisadi və ekoloji əhəmiyyətə malik, günümüzün ən aktual mövzularından biridir [6]. Su resursu həm insan potensialının inkişafı üçün, həm də iqtisadiyyatın demək olar ki bütün sahələrində - iqtisadi artımın əsas lokomotivi hesab edilən kənd təsərrüfatı, sənaye, tikinti və energetikanın dayanıqlı inkişafı üçün tələb olunan əsas resursdur. İnsan potensialının inkişafı üçün zəruri sayılan qida və enerji təhlükəsizliyi kimi bir çox fərqli sahələri əhatə edir. Siyasi baxımdan transsərhəd sular geosiyasi və geoiqtisadi məkanda ölkələr arası əlaqələrin inkişafında mühüm yerə malikdir. Ümumiyyətlə hər bir dövlət inkişaf potensialını müəyyən etmək üçün sudan səmərəli istifadəni qarşıya məqsəd qoymaqdadır. Suyun həm gündəlik yaşamda, həm də iqtisadi sahələrdə rəqəmsal idarə edilməsi olduqca aktual sahədir. Çayların idarə edilməsi, onun təmiz ekosistemi həm də ona yaxın ərazilərdə yaşayan insanlar üçün logistika, balıqçılıq, idman, turizm və s. kimi istiqamətlərdə iş imkanı yaradır. Bu baxımdan daxili suların təhlükəsizliyi hüquqi normativ aktlarla tənzimlənməli və onun optimal istifadəsi planlaşdırılmalıdır. Aşağıdakı cədvəl 1-də Azərbaycan Respublikasında suyun istehlakı və ondan istifadə göstəriciləri öz əksini tapmışdır.

**Cədvəl 1.** Su ehtiyatlarının mühafizəsini və onlardan istifadə edilməsini səciyyələndirən əsas göstəricilər

| | 1990 | 2000 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Təbii mənbələrdən götürülən su - cəmi | 16176 | 11110 | 11566 | 12285 | 12504 | 12781 | 12847 | 13227 |
| adambaşına düşən, m$^3$ | 2293 | 1397 | 1295 | 1289 | 1297 | 1313 | 1308 | 1335 |
| Su istehlakı cəmi | 12477 | 6588 | 7715 | 8567 | 8824 | 9154 | 9205 | 9472 |
| onlardan: | 402 | 449 | 405 | 323 | 308 | 291 | 306 | 312 |
| məişət-içməli məqsədlər üçün | 3418 | 2316 | 1742 | 2117 | 2108 | 2224 | 2111 | 2070 |
| istehsal ehtiyacları üçün | 317 | 82 | 54 | 46 | 43 | 31 | 44 | 42 |
| onlardan içməli su | 8627 | 3819 | 5497 | 6057 | 6342 | 6570 | 6722 | 7038 |
| suvarmaya və kənd təsərrüfatının təchizatına | 1628 | 1875 | 1787 | 2441 | 2346 | 2398 | 2345 | 2358 |
| Dövri və ardıcıl istifadə olunan suyun həcmi | 32 | 45 | 51 | 54 | 53 | 52 | 53 | 53 |
| istehsal ehtiyacları üçün ümumi su istehlakına nisbətən, faizlə | 4206 | 3053 | 3851 | 3718 | 3680 | 3627 | 3642 | 3755 |
| Nəql zamanı itən su | 5026 | 4106 | 6037 | 5575 | 5673 | 5453 | 5147 | 4863 |
| **Çirkab suların atılması** | **303** | **171** | **164** | **305** | **319** | **326** | **272** | **218** |
| onlardan təmizlənməmiş | | | | | | | | |

***Mənbə:*** *Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məlumatları*

Cədvəl 1-dən göründüyü kimi təbii mənbələrdən götürülən su resursları miqdarca çoxluq təşkil edir. İstehlakda isə su ən çox suvarmaya və kənd təsərrüfatı təchizatına sərf olunur. Su resurslarından səmərəli istifadədə, üç (3) istiqamət - dayanıqlı infrastruktur; yeni texnologiyaların tətbiqi; rəqəmsal idarəetmə labüddür. Əgər bu üç faktorun həyata keçirilməsini məhdudlaşdıran hər hansı hüquqi normativ aktla üzləşiriksə, onun yenidən təshihi məqsədə uyğundur. Burada adaptiv idarəetmənin meyarlarından istifadə etmək vacibdir. BMT-nın qlobal miqyasda su çatışmazlığı ilə bağlı xüsusi hesabatında vurğulanmışdır ki, dünyada su çatışmazlığından əziyyət çəkən insanların sayı kəskin şəkildə artır. BMT-nin hesabatına əsasən 2050-ci ildə 65 ölkədə 5 milyard nəfərə yaxın insanın su çatışmazlığı problemi ilə üz-üzə qalacaqdır. Qlobal çağırışlar siyahısında üst yerləri bölüşən iqlim dəyişikliyi dünya ölkələrinin milli iqtisadiyyatlarına təsir edən digər əsas amil kimi ortaya çıxmışdır. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti tək Azərbaycanda deyil dünyanın bir sıra ölkələrində daha çox hiss olunmaqda və canlı aləm üçün yeni çağırışlar ortaya qoymaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra dünya ölkələri rəhbərləri-

nin dünya sammiti və sosial-iqtisadi forumlarda mütəmadi dilə gətirdikləri həyəcan təbirində göstərir. Alimlərinin beynəlxalq tədbirlərdə, o cümlədən elmi və praktiki konfranslarda bu problemə diqqətin yönəldilməsində cəmlənir. Nyu-Yorkda keçirilən Dayanıqlı inkişaf üzrə Sammitdə “Bizim dünyamızı dəyişərək: 2030-cu ilə qədər dayanıqlı inkişafın gündəliyi” adı altında yekun sənəd qəbul edildi. Sənəddə 17 dayanıqlı inkişaf məqsədi yer almaqdadır. Məqsədin 6-cı bəndi hər kəs üçün su ehtiyatlarının mövcudluğu və onlardan səmərəli istifadənin və təmizliyin təmin edilməsidir. Qeyd etmək lazımdır ki, su resurslarına dair dayanıqlı inkişaf məqsədləri aşağıdakı 3 əsas istiqaməti əhatə edir:

a) Təhlükəsiz qaydada təmizlənən çirkab suları
b) Sudan istifadə səmərəliliyinin dəyişməsi
c) Su yükünün səviyyəsi, götürülmüş şirin suyun mövcud şirin su ehtiyatlarında çəkisi

Qrafik (a, b, c) – də Azərbaycan Respublikasında suya dair dayanıqlı inkişaf məqsədləri göstərilmişdir.

Qrafik a) göründüyü kimi təhlükəsiz qaydada təmizlənən çirkab sular ildən ilə artmaqdadır. Ancaq 2019- cu ildə bu miqdar qismən azalmışdır. Təhlükəsiz qaydada təmizlənən çirkab suların çəkisinin artımı həm sanitariya normalarına və qaydalarına, həm də gigiyena normativlərinə görə lazımdır, digər bir tərəfdən isə istifadə məkanından və şəraitindən asılı olaraq təhlükəsiz qaydada təmizlənən çirkab sular həm sudan səmərəli istifadəyə öz töhvəsini verir, həm də yer üstü və yer altı suların çirklənməsinin də qarşısını alır. Eyni qrafik sudan istifadə səmərəliliyinin dəyişməsində də özünü göstərir. Belə ki, 2016-cı ildən başlayaraq sudan istifadə səmərəliliyi artım tempi ilə davam etmişdir. Sudan istifadə səmərəliliyinin dəyişməsi 1m$^3$ suyun ABŞ Dolları dəyəri ilə müəyyən edilir. Əgər 2016-cı ildə 1m$^3$ sudan istifadə səmərəliliyinin dəyəri 3,70 ABŞ Dolları idisə, bu rəqəm 2017-ci ildə 3,89, sonra 2018 –ci ildə 4,85 və daha sonra 2019-cu ildə 4,58 ABŞ Dolları dəyərində olmuşdur.

a)




b)




c) [13]




**Mənbə:** Azərbaycan Respublikasının statistika komitəsi

Qrafik b)-dən də görüldüyü kimi son 5 ildə 1m$^3$ sudan istifadə səmərəliliyinin dəyişməsi orta hesabla artan templə davam etmişdir.

Azərbaycan Respublikasında son illərdə həyata keçirilən islahatlar və digər tərəfdən “Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları” su resurslarının dayanıqlı idarə edilməsində səmərəlilik indeksinin artımına gətirib çıxarmışdır. Burdan nəticə çıxarmaq olar ki, ölkəmizdə aparılan islahatlar və sosial-iqtisadi regional inkişaf proqramları faydalıdır və əhalinin rifahının yüksəlməsinə xidmət etməkdədir. Suya dair dayanıqlı inkişaf məqsədlərini göstərən digər indikator su yükünün səviyyəsi: götürülmüş şirin suyun mövcud şirin su ehtiyatlarında xüsusi çəkisidir.

Qrafik c) göründüyü kimi 2016-cı ildən 2020-ci ilə qədər ki dövrdə, su yükünün səviyyəsi: götürülmüş şirin suyun mövcud şirin su ehtiyatlarında xüsusi çəkisi indikatorlarında artım müşahidə

olunur. Bu artım tempi təbii olaraq şirin su ehtiyatlarından istifadənin ildən ilə artdığını sübut edir. Ona görə də, ölkəmizdə məhdud miqdarda olan təmiz su ehtiyatının maksimum səmərəli istifadəsi və dayanıqlı idarə edilməsi labüddür.

Qeyd etmək lazımdır ki, ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşmış və Respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Azərbaycanın regionlarında su potensialının düzgün qiymətləndirilməsi və davamlı idarə edilməsi dövlətin iqtisadi siyasətini təyin edərkən qarşıya qoyduğu ilkin məqsədlərdən biridir. Son 10 ildə xüsusilə 2012-ci ildən başlayaraq su resurslarının davamlı idarə edilməsi istiqamətində çox sayda dövlət proqramları icra edilmiş, Respublika regionların inkişafı istiqamətində səmərəli layihələrə imza atılmışdır.

Görüləcək işlərin nəticəsi olaraq, Azərbaycan Respublikasında içməli və tullantı su infrastrukturunun genişləndirilməsi, habelə təchizatın və istehlakın səmərəliliyinin yüksəldilməsi yolu ilə effektiv su təchizatı sistemi yaradılmaqdadır. Burada strateji hədəf yüksək səviyyəli su idarəetmə strukturunun yaradılmasıdır [4]. Prioritet isə içməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi olmuşdur. Məişət və sənaye tullantıların düzgün idarə olunması üçün xüsusi müəssisələr yaradılmalı, daşqın və subasmaya meylli olan ərazilər müəyyənləşdirilməli, daimi proqnozlar hazırlanmalı, torpaqların atropogen, səhralaşma, həddən artıq çirklənməsinə və zərər görməsinə, yararsız hala düşməsinə qarşı zəruri tədbirlər görülməlidir. Cədvəl 2-də iqtisadi fəaliyyət növləri üzrə su ehtiyatlarını səciyyələndirən göstəricilər verilmişdir [12].

**Cədvəl 2.** 2019-cu ildə iqtisadi fəaliyyət növləri üzrə su ehtiyatlarını səciyyələndirən əsas göstəricilər

| | Təbii mənbələrdən götürülən su | Su istehlakı | Dövri və ardıcıl istifadə olunan su | Nəql zamanı itən su | Çirkab suların atılması | Onlardan təmizlənməmiş çirkab su |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **13227,5** | **9472,2** | **2357,6** | **3755,3** | **4863,2** | **218,4** |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 11617,8 | 7004,1 | - | 3641,3 | 3283,3 | 0,4 |
| Sənaye: | 1595,6 | 2425,4 | 2333,6 | 110,8 | 1243,2 | 58,0 |
| Mədənçıxarma sənayesi | 333,0 | 342,1 | 370,4 | - | 291,9 | 15,1 |
| Emal sənayesi | 11,9 | 39,5 | 254,3 | 1,5 | 17,1 | 4,0 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 1250,7 | 2043,8 | 1708,9 | 109,3 | 934,2 | 38,9 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 7,4 | 11,9 | 9,8 | 3,2 | 9,9 | 9,6 |
| Digər iqtisadi fəaliyyət növləri | 6,7 | 30,8 | 14,2 | 0,0 | 326,8 | 150,4 |

**Mənbə:** Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məlumatları

Təhlil göstərir ki, burada xüsusilə yeni texnologiyaların tətbiqi ilə dövri və ardıcıl istifadə olunan suyun sənaye, nəqliyyat, kənd təsərrüfatı və digər iqtisadi fəaliyyət sahələrində istifadəsinin artırılması və eyni zamanda yeni texnologiyaların istifadəsi ilə nəql zamanı itən suyun miqdarının azaldılması vacibdir.

**Ağdam rayonunun su təchizatı perspektivi**

Ağdam rayonu Qarabağ iqtisadi rayonun mərkəzi hesab edilməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamın "Ağıllı şəhər" "smart city" layihəsinə daxil edildiyi-

ni qeyd etmişdir [1]. Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi dayanıqlı inkişafın əsas prioritetlərindəndir. Müasir telekommunikasiya, sensor, "Böyük həcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır [5]. Qeyd edilən texnologiyaların inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır [2].

İlk növbədə 100 min əhalisi olacaq Ağdam rayonunun su təminatına, həm də suvarma sistemləri şəbəkəsinin qurulmasına ehtiyac vardır. Burada yeraltı və yerüstü suların davamlı və müasir texnologiyalar əsasında idarə olunmasının böyük önəmi vardır. Qeyd etmək lazımdır ki, Ağdam rayonu ərazisində sular iki mənbədən, yəni həm yeraltı, həm də yerüstü sulardan formalaşır. Rayonun yerüstü suları Xaçınçay və Qarqarçaydan qidalana bilir. Xaçınçay su anbarı Ağdam rayonunda Xaçınçay üzərində yerləşir. Su anbarı, əkin sahələrinin suvarılması üçün su ehtiyatının təmin edilməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən 1964-cü ildə istismara verilmişdir. 1993-cü ildə Ağdam rayonunun Erməni qəsbkarları tərəfindən işğalı nəticəsində Azərbaycan tərəfindən su anbarının istismarı 2020-ci ilin sonuna qədər mümkün olmamışdır.

Tərtərçaydan fərqli olaraq Xaçınçayın su miqdarı aşağı olduğu üçün enerji göstəriciləri də yüksək deyil. Çayın ən yüksək gücü Qanzak qolunun birləşməsindən Çurzan qolunun birləşməsinə qədər olan hissədə 626 kVt/km həcmində müəyyən edilir. Enerji səmərəliliyi baxımından bu sahənin təsviri iki hissəyə ayırır. Yuxarı və Aşağı hissələr.

Yuxarı hissə Q – 1,5 $m^3$ / san, Hp – 110 m, N – 1300 kVt.

Aşağı hissə su alma qurğularından ibarət kəndlərdən 1 km aşağıda yerləşir. Əlverişli topoqrafik şəraitdə keçən açıq derivasiya kanalı olan Sabitkeçməz, H - 120 m axın sürətində konsentrasiyalı düşüşə malik olub, Q - 1.6 $m^3$ / san istehlak ilə 1500 kVt dəyərində su elektrik stansiyasının gücünü təyin edəcək.

Kənd ərazilərində, daha kiçik su elektrik stansiyalarının qurulması ehtimalı da istisna edilmir. Onlar Çurxana və Kolotlaq qolunda yerləşə bilər. Bu hidroelektrik stansiyaları yalnız kənd təsərrüfatının yerli elektrikləşdirilməsi üçün enerji mənbəyi kimi istifadə edilməsi əhəmiyyətli ola bilər. İrriqasiya

Hazırda Xaçınçayda sırf suvarma dəyəri olan kiçik tutumlu su anbarı vardır. Xaçınçayın geoloji xüsusiyyətləri K formada eroziyalı dərəsi möhtəşəmliyi ilə diqqəti cəlb edir. Yuxarı axınlarda ətrafdakı su hövzələri 2300-2500-ə çatır.

Qarqarçay iki əsas çayın birləşməsi nəticəsində əmələ gəlir; qolları Xalfalıçay və Daşaltıçaydır. Qolların enerji dəyəri çox əhəmiyyətsizdir. 171 və 187 kVt gücündəki spesifik potensial güclər böyük konsentrasiyalı güclərin yaradılması perspektivini ifadə etmir. Burada nisbətən əlverişli sahə, iki əsas qolun birləşmə nöqtəsinin altındakı Qarqarçaydır. Daşaltıçay qolu axınından istifadə edən Qarqarçay su axınının mövcud enerji istehlakı Ağdamın və Şaşanın elektrikləşdirilməsi ilə məhdudlaşır. Bu su elektrik stansiyasının parametrləri aşağıdakı kimidir:

Q - 0,3 $m^3$/ san;  H - 80 m;  N - 190 kVt.

Qarqarçayda kiçik su stansiyaları da mövcuddur - Qarqarçayın 60 kVt qolu olan Əsgəran SES-i və Qarqarçayın digər bir qolu olan Balıcaçay 35 tutumlu Balıca SES. Xaçınçayın orta illik su sərfi saniyədə 1.7 kubmetr, Qarqarçayın isə 1.28 kubmetr təşkil edir. Buradan aydın olur ki, bu iki çayın hidroloji şəbəkəsi çox zəngin deyil. Zamanla Ağdam rayonun əhalisi 100 minə qədər

artarsa, o zaman rayonun su təminatına problemlər yarana bilər. Əgər buraya suvarma sistemləri, heyvandarlıq və bəzi sənaye sahələrini də əlavə etsək o zaman rayonun su resursları ilə təminatı axsaya bilər. Buna görə də alternativ su mənbəyi kimi yeraltı sulardan istifadə əsas faktorlardan biri sayılacaq. Ağdam rayonu Qarabağ düzü yeraltı su yatağı zonasında yerləşir. Bu yatağın illik resursu 1.9 milyard kubmetr təşkil edir. Əgər bu sudan effektli istifadə edilərsə, onun istismar resursları Ağdam şəhərinin həm su ilə təchizatına, həm də torpaq sahələrinin suvarılması üçün yetərli ola bilər. Lakin burada bir nüans da qeyd olunmalıdır. Artezian quyularında suyun istehlakı böyük enerji sərfi hesabına başa gəldiyinə görə burada enerji su torpaq (nexus) yanşmasının tətbiqi və sudan daha konstruktiv və səmərəli istifadəyə ehtiyac yaranır. Bunun üçün bilavasitə Ağdam şəhərinin su ilə təminatında yeraltı artezian quyularının istifadəsi nəzərdə tutulub. Çünki bu sular davamlı, dinamik, eyni zamanda təhlükəsiz sayılır. Digər bir alternativ isə Sərsəng su anbarından Xaçın su anbarına su kanalının çəkilməsidir. Bu layihə baş tutarsa geniş ərazidə bütün təsərrüfat kateqoriyaları sudan yararlana biləcəklər. Onu da qeyd etmək lazımdır ki, yerüstü sularda çirklənmə və ya təhlükəli tendensiyalar hər an baş verə bilər, yeraltı sularda isə bu faktor mümkün olsa da, qismən daha təhlükəsizdir. Burdan irəli gələrək 29 iyul 2019-cu il "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin strukturu ilə bağlı bəzi məsələlər barədə Nazirlər kabinetinin qərarı ilə "Azərsu" ASC-nin tabeliyində Bərdə, Ağdam, Tərtər, Ağcabədi, Laçın, Beyləqan, Füzuli və Xocavənd sukanal idarələrinin bazasında 5 №-li regional sukanal idarələri yaradılmışdır [12]. "Ona görə də artıq yeni layihə əsasında "Azərsu" ASC Ağdam şəhərinin su ilə təchiz edilməsində ümumi su resursu saniyədə 40 kubmetr olan iki sugötürücüdən istifadə edəcək. Artıq bu istiqamətdə kəşfiyyat quyularının qazılmasına başlanılıb, yəni Ağdam şəhərinin su ilə təchiz edilməsi üçün resursların kəşfiyyatı və qiymətləndirilməsi mərhələsi gedir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Ağdam rayonunun şərq hissəsində hələ 1990-cı illərə qədər qazılmış 752-dən artıq quyu mövcuddur ki, bu quyuların bir qisminin texniki vəziyyəti korlansa da, onların bərpası və istismara qaytarılması məsələsi var. Enerji sərfiyyatının azaldılması məqsədilə alternativ enerji mənbəyi olan günəş enerjisindən istifadə yolu ilə artezian quyularının istismarı nəzərdə tutulur. Güman edilir ki, "Ağıllı şəhər" və "ağıllı kənd"lərin salınmasında Ağdamın yerüstü və yeraltı sularından effektiv şəkildə istifadə ediləcək. Burada hətta ətraf rayonlara belə yardım edə biləcək səviyyədə ehtiyatlar mövcuddur".

**Cədvəl 3.** Ayrı-ayrı şəhərlər üzrə dövri və ardıcıl su təchizatının həcmi

| | 1990 | 2000 | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 1628 | 1875 | 2224 | 1787 | 2441 | 2398 | 2345 | 2358 |
| o cümlədən şəhərlər üzrə: | | | | | | | | |
| Bakı | 530 | 189 | 711 | 335 | 489 | 431 | 550 | 554 |
| Gəncə | 119 | 41 | 59 | 0,1 | - | - | - | - |
| Mingəçevir | 10 | 1529 | 1283 | 639 | 908 | 993 | 914 | 864 |
| Sumqayıt | 867 | 89 | 160 | 366 | 414 | 437 | 402 | 404 |
| **Şirvan** | **55** | **20** | **1** | **437** | **614** | **521** | **458** | **516** |
| Azərbaycan Respublikası | 32 | 45 | 49 | 51 | 54 | 52 | 53 | 53 |
| o cümlədən şəhərlər üzrə: | | | | | | | | |
| Bakı | 51 | 63 | 73 | 47 | 55 | 50 | 54 | 57 |
| Gəncə | 77 | 87 | 88 | 13 | - | - | - | - |
| Mingəçevir | 0,6 | 50 | 50 | 49 | 50 | 50 | 50 | 50 |
| Sumqayıt | 67 | 59 | 84 | 62 | 67 | 65 | 65 | 65 |
| **Şirvan** | **7** | **3,6** | **0,1** | **50** | **52** | **50** | **50** | **50** |

**Mənbə:** Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məlumatları

Qarabağın işğaldan azad edilməsi ilə birlikdə ətraf rayonların su resursları ilə təmin olunması və kənd təsərrüfatı sahəsində suya olan ehtiyacın ödənilməsi hazırkı tədqiqat işini aktual etməkdədir. Tədqiqatın əsas istiqamətini regionu su resursları ilə təmin edən Xaçınçay, Qarqarçay, Xaçınçay su anbarı və Ağdamın yer altı su ehtiyatlarını tədqiq etməkdir. Onların səmərəli və optimal istifadəsi, əhalinin təmiz su ilə təchizatı, ən yeni texnologiyaların istifadəsi ilə su-enerji ehtiyatlarının dayanıqlı idarə edilməsini optimallaşdırmaqdır. Çaylarda suyun səviyyəsinin azalması onların suvarmaya yararlı olmaması ilə nəticələnir. Belə olan hallarda isə alternativ suvarma vasitəsi kimi su anbarlarına ehtiyac duyulur. Qarabağ iqtisadi rayonunun iqtisadiyyatı da kənd təsərrüfatı üzərində qurulduğundan bu sahənin inkişafı iqtisadi rayon üçün əsas prioritetlərdən biri hesab olunur [7]. Bu baxımdan da kənd təsərrüfatını inkişaf etdirmək üçün su anbarları xüsusi əhəmiyyətə malikdir. Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibəyə qədər Aran Qarabağın rayonlarını əhatə edən 97 min hektar məhsuldar torpağın suvarılması Tərtərçay üzərində qurulmuş Sərsəng, Madagiz su anbarları, Sağ və Sol Sahil magistral kanalları vasitəsilə həyata keçirilib [3]. 25 ildən artıqdır ki, su anbarlarının işğal altında olması Ağdam, Ağcabədi, Tərtər, Bərdə, Yevlax və Goranboy rayonlarında əkinlərin suvarma suyu ilə təminatında çətinliklər yaradıb. Odur ki, dövlətimiz tərəfindən həmin ərazilərdəki əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülüb.

**Nəticə**

Qarabağın çayları, su anbarları və su kanalları işğal altına düşməmişdən əvvəl Azərbaycanın iqtisadi inkişafında, xalqın rifahının yaxşılaşmasında böyük rol oynayıb, bunun nəticəsində Qarabağın iqtisadi səmərəsi, sənaye sahəsi və kənd təsərrüfatı sürətlə inkişaf edib. Təəssüf ki, respublikamız üçün böyük həyati əhəmiyyətə malik olan Tərtərçay, Xaçınçay, Qarqarçay, Xalfalıçay, Daşaltıçay və digər əhəmiyyətli çaylar; Sərsəng su anbarı, Suqovuşan su anbarı, Xaçınçay su anbarı və s. kimi stratejik əhəmiyyətə malik su anbarları; Sağ və Sol Sahil magistral kanalları və beton üzlüklü paylayıcı kanallar və digər su kanalları və çox sayıda orta və kiçik SES-lər 1992-ci ildən işğal altında düşüb.

Ermənilər torpaqlarımıza və cəbhəyanı rayonların əhalisinə zərər vermək üçün Sərsəng və Suqovuşan su anbarlarının suyunu payızın sonunda və qış aylarında buraxıb, suya ehtiyac olan yaz-yay aylarında isə kəsiblər. Nəticədə əkin sahələrinin suvarma suyu ilə təminatında çətinlik yaranıb. Su torpaq məcralı kanallar vasitəsi ilə nəql edildiyinə görə itkinin miqdarı həddindən artıq çox olub. Hal hazırda bütün regionda fəaliyyət göstərən fermerlər, sənaye və kənd təsərrüfatı sektorlarının davamlı su ilə təmin edilmə potensialı artmışdır. Bu isə öz növbəsində Qarabağda və ona bitişik rayonlarda insanların rifahının yaxşılaşdırılması, iqtisadi potensialdan istifadə, kənd təsərrüfatı sahəsində və iqtisadiyyatın digər sahələrində öz müsbət nəticəsini qısa müddət ərzində göstərəcəkdir.

**İstinadlar**


1. İlham Əliyev. Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündən nitqi. 28 may 2021.
2. “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
3. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi / Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında Azərbaycan Respublikasının Qanunu. 07 Oktyabr 2020. https://president.az/
4. Azərbaycan Respublikasi Milli Su Strategiyası, 2016.
5. Azərbaycan Respublikası Prezidentinin “Milli iqtlsadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” 16 mart 2016-cı il
6. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafına dair Milli Proqramı. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bakı 2002
7. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi”;

8. Əliyeva Mehriban https://mehribanaliyeva.preslib.az
9. Ələkbərov, A. Heydər Əliyev fondunun timsalında Azərbaycanda fond siyasəti, «Ozan», 2009, 152 səh.
10. Əhmədov, E. Davamlı inkişaf müasir Azərbaycanın siyasi-iqtisadi və sosial strategiyası kimi. Dövlət İdarəçiliyi Nəzəriyyə və Təcrübə № 2 (58) / 2017 s.214-227
11. Məmmədov Q., Xəlilov M. Ekologiya və ətraf mühitin mühafizəsi. Elm, Bakı 2005
12. Azərsu https://azersu.az/az
13. Azərbaycan Respblikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az
14. Ахмадов Э.Н., Вардомский Л.Б. Международные подходы к решению водной проблемы в странах СНГ (на примере Азербайджанской Республики). Российский экономический журнал 3 / 2020

**ƏHMƏDOV Nəsimi**

AMEA İqtisadiyyat İnstitutu, i.f.d., dosent

# QARABAĞDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Son illərdə dünyada bərpa olunan enerji sahəsində baş vermiş böyük texnoloji nailiyyətlər və xərclərin kəskin azalması Qarabağda enerji səmərəliliyi ilə uzlaşdırılmış şəkildə isitmə və soyutma, nəqliyyat və elektroenergetika sektorlarında bərpa olunan enerji mənbələrindən istifadənin geniş tətbiqinə imkan yaradır. Qarabağ regionunun Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, əhalinin məskunlaşması, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı baş verdikcə ölkənin ÜDM-i artmaqla yanaşı, regionda enerjinin istehlakı da yüksələcəkdir. Bu potensialdan səmərəli istifadə Azərbaycanda karbon emissiyalarının sabitləşdirilməsinə, enerji tutumunun azalmasına, enerji səmərəliliyinin yüksəldilməsinə, ölkənin beynəlxalq enerji reytinqlərində mövqeyinin yaxşılaşmasına imkan yaradacaqdır.

**Açar sözlər:** bərpa olunan enerji, Qarabağ, elektroenergetika, hidroenerji, külək enerjisi, günəş enerjisi, bioenerji, enerji səmərəliliyi.

→

## Giriş

illərdə dünyada bərpa olunan enerji sahəsində böyük texnoloji nailiyyətlər və xərclərin kəskin azalması baş vermişdir. Öhdəliklər, maliyyə və fiskal təşviqlər, tikinti normaları isitmə və soyutma sektorlarında enerji səmərəliliyi ilə uzlaşdırılmış şəkildə bərpa olunan enerji mənbələrindən istifadənin geniş yayılmasına imkan verir. Nəqliyyatda bərpa olunan enerjidən istifadə bu mənbələrdən istehsal edilmiş enerji daşıyıcılarının mövcudluğunu, bu növ yanacaqla işləyən nəqliyyat vasitələrinin yayılmasını və enerji və yanacaq paylama infrastrukturunun inkişafını tələb edir. Enerji sektorunda inzibati qaydada qiymətqoyma siyasətinin dəyişən bazar şərtlərinə davamlı uyğunlaşması, tarif səviyyəsinin müntəzəm tənzimlənməsi zəruridir. Bərpa olunan enerji texnologiyalarının təkmilləşməsi, dəyişkən bərpa olunan enerji mənbələrinin sürətlə yayılması daha etibarlı və səmərəli sistem inteqrasiyasını təmin etmək üçün daha çevik enerji sistemlərini tələb edir.

### Təhlil və qiymətləndirmə

Enerji üzrə Davamlı İnkişaf Məqsədi (SDG) 7-nin hədəflərindən biri 2030-cu ilə qədər müasir enerji xidmətlərinə universal çıxışın təmin edilməsindən ibarətdir. Bu baxımdan bərpa olunan enerji mənbələri ilə bağlı məsələlərin müstəqil idarə olunan, yerli səviyyədə kiçik enerji şəbəkələ-

ri ilə həll edilməsi mühüm əhəmiyyət daşıyır. Bu isə Qarabağ regionunda yaşayış, təhsil, səhiyyə, su, məşğulluq və gender bərabərliyi bağlı digər Davamlı İnkişaf Məqsədlərinə (SDG) nail olmağa imkan yarada bilər. Bu faydaların reallaşdırılması isə enerjiyə çıxışı sürətləndirmək üçün bərpa olunan enerji mənbələrindən geniş istifadəni dəstəkləyən xüsusi fəaliyyət istiqamətlərinin hazırlanmasını tələb edir. Bu istiqamətdə bir çox inkişaf etməkdə olan ölkələrin təcrübəsindən istifadə etmək olar. Bu zaman kiçik enerji şəbəkələrinin inkişafı baxımından elektrik enerjisinin istehsalı və satışı hüququ, tariflərin müəyyən edilməsi və əsas şəbəkə istifadəçiləri, subsidiyalar, qrant və vergi güzəştləri kimi fiskal və maliyyə təşviqləri ilə əlaqədar tənzimləyici tədbirlərə ehtiyac vardır.

Qarabağın geniş dağlıq ərazilərində 100 metr hündürlükdə küləyin orta illik sürəti saniyədə 7-8 metr təşkil edir. **İlkin qiymətləndirmələrə görə, Qarabağın külək enerjisi potensialı 500 Meqavattdır. Bu isə həmin ərazilərin** yüksək dərəcədə əlverişli enerji potensialına malik olduğunu göstərir. Burada külək enerjisi qurğularının tətbiqi rentabelli hesab olunur və bu ərazilərdə istifadə imkanlarının artırılması üçün perspektivli mövqelərin seçilməsi vacibdir.

İlkin qiymətləndirmələrə görə, Qarabağ ərazisində ümumi günəş enerjisi potensialı 4000 meqavatdan çoxdur. Qarabağın cənub hissəsində bir kvadrat metr səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVt-saat təşkil edir. günəş enerjisi istehsal edən müasir tipli elektrik stansiyaların, qurğuların inşası, günəş batareyalarından istifadə edilməsi, istilik və elektrik enerji tələbatını ödənilməsində Hibrid tipli (külək, günəş və bioqaz) elektrik və istilik stansiyalarının yaradılması, pilot layihələr kimi həm külək, həm də günəş elektrik enerjisinin istehsalı regionda mühüm əhəmiyyət kəsb edir.

Ölkədə çayların tam enerji potensialı 40-45 milyard kVt.saat təşkil edir ki, bunun əsasında gücü 6,0 milyon kvt olan SES-lər yaratmaq olar. Texniki cəhətdən əlverişli potensial isə 16 milyard kVt.saat, o cümlədən kiçik su elektrik stansiyalarının potensialı 5 milyard kVt.saat təşkil edir. (1, s.82;1, s.7). Lakin ölkənin geniş hidroenergetika ehtiyatları potensialından tam istifadə edilmir. Belə ki, istehsal olunan elektrik enerjisi texniki hidroenerji potensialının 10-15 faizini təşkil edir. Məhz Qarabağın ölkə iqtisadiyyatına reinteqrasiyası burada mühüm rol oynayacaqdır. Belə ki, Qarabağ böyük hidroenerji potensialına malikdir. Burada dağ çayları, kanallar, su təsərrüfatı obyektləri üzərində kiçik su elektrik stansiyalarının tikilməsi üçün geniş imkanlar vardır. Qeyd edək ki, Qarabağda 30-a yaxın kiçik su elektrik stansiyası olsa da, onların əksəriyyəti yararsız haldadır. Qarabağ ərazisində yüksək meyllilik və axın sürətinə malik olan kiçik çayların, xüsusən dağ çaylarının böyük enerji ehtiyatlarının mənimsənilməsi üçün kiçik SES-lərin tikilməsi məqsədəuyğundur. Dağlıq rayonlarda fərdi tələbatçılar üçün kiçik dağ çaylarının enerjisindən istifadə etməklə kiçik gücə malik (30 kVt-a qədər) qurğuların istifadəsi çox fayda verir.

Qarabağ dağ çaylarından axan suların tərkibində olan qum, çınqıl və s. qırıntılar kiçik SES-lərin turbin və hidrotexniki avadanlıqlarının vaxtından tez sıradan çıxmasına gətirib çıxarır. Eyni zamanda, kiçik SES-lərdə hər 1 kVt gücün inşası 1000-1200 ABŞ dolları tələb edir və əldə edilən elektrik enerjisinin maya dəyəri onun satış tarifini ötüb keçir (6, s.58). Bu isə daha müasir texnologiyaların tətbiqini tələb edir.

Gələcəkdə qeyd edilən tədbirlərin reallaşması nəticəsində ekoloji iqtisadi cəhətdən təmiz hidroenerji potensialından daha da səmərəli istifadə ediləcək, elektrik enerjisində SES-lərin xüsusi çəkisi nisbətən çoxalacaqdır (8, s.5). Su-elektrik stansiyaları sel suları tənzimlənməsi, yeni suvarma sistemlərinin yaradılması baxımından da əhəmiyyətlidir. Xüsusən, vahid enerji sistemindən uzaqda yerləşən obyektlərdə, yaşayış məntəqələrində mikro SES-lərin tikilməsi elektrik enerjisi təchizatı ilə bərabər sosial məsələlərin də həllinə imkan verir.

Biokütlənin mənbələri əsasən aqrar, sənaye, energetika, meşə təsərrüfatı və məişət və kommunal sahələrində mövcuddur. Qarabağın iqtisadiyyatı ölkə iqtisadiyyatına reinteqrasiya etdikcə, sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişaf etdikcə biokütləyə əsaslanan enerji istehsalı üçün potensial imkanlar da genişlənəcəkdir. Meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları, kənd təsərrüfatı məhsulları tullantıları; yanma qabiliyyəti olan sənaye tullantıları; neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar; məişət və kommunal sahələrinin orqanik tullantıları, energetik plantasiyalar; bitkiçilik məhsullarının tullantıla-

rı, mal-qara peyini və s. biokütlənin mənbələri ola bilər. Ümumiyyətlə, bioenergetikada biokütlə istehsalı, hidrogenin biosintezi, maye bioyanacaq (etanol, bitki yağı və s.), bioqaz, zibilin qurğularda yandırılması, ağac həbləri (ağac tullantılarından yanacaq) mühüm yer tutur. İstehsal tullantılarının tərkibinin əsas hissəsini təşkil edən biokütlə maddələrindən bioqaz, biomaye və bərk biokütlə əldə olunur ki, onlar da elektrik enerjisinin istehsalında istifadə olunur.

Biokütlədən əldə olunan enerji resursları xammalın birbaşa yandırılması yolu ilə istilik enerjisinin alınması və kimyəvi proseslər nəticəsində əldə olunan bioyanacaqlar (bioqaz, piroliz qazları, maye bioyanacaq formasında bioetanol və biodizel) formasında və bərk yanacaq formasında - pilletlər, kriketlər, kömür tipli məhsulların əldə olunması və istifadəsi əsasında həyata keçirilir. Bu baxımdan ölkədə ağac qırıntıları, saman, pambıq çöpləri, şəkər çuğundurunun cemindən istifadə perspektivləri genişdir (5, s.82,123).

Ümumiyyətlə, Qarabağda, xüsusilə onun iri şəhərlərində məişət tullantılarını utilizasiyası etməklə elektrik və istilik enerjisi istehsal etmək, bioyanacaq əldə etmək üçün istilik elektrik mərkəzləri, bioqaz qurğuları, defraqmentator və piroliz qurğuları quraşdırılmalıdır (5, s.124).

Məişət tullantılarından istifadəsi zamanı onların çeşidlənməsi məsələsinə xüsusi diqqət yetirilməlidir. Belə ki, məişət tullantılarının tərkibində olan müxtəlif növ materialların kompleks istifadə məsələsi həll edilməlidir. İnkişaf etmiş ölkələrdə (Almaniya, Yaponiya və s.) ayrılmış bəzi materiallar (şüşə, plastik, metal və s.) ilk növbədə təkrar xammal kimi nəzərdən keçirilir və qalıq tullantılar xüsusi yaradılmış elektrik stansiyalarında yandırılmaqla elektrik enerjisi əldə olunur (6, s.60).

Kənd yerlərində ailələr biokütlədən, yəni konkret olaraq mal-qaranın və həyətlərinin tör-töküntüsündən istifadə edərək yanacağa və isitməyə olan tələbatlarını ödəyirlər. Kənd əhalisinin yanacaq qazı istehsal edən bioqaz qurğularına marağını artırmaq üçün vergi, kredit güzəştləri etmək, müəssisələrdə onların istehsalı və quraşdırılmasını həyata keçirmək lazımdır.

Bioyanacaqdan istifadə zamanı kənd təsərrüfatının təhlükəsizliyi məsələləri də nəzərə alınmalıdır. Onun alınmasında düyü, şəkər qamışı, dənli bitkilər, əsasən də qarğıdalıdan istifadə olunur. Buna görə də bioyanacaq istehsalında ərzaq mənşəli məhsullardan digər xammal növlərinə keçmək lazımdır (11, s.29-32).

Qarabağın kənd yerlərində, xüsusən ucqar bölgələrdə bioqazlardan istifadə etməklə istilik enerjisini təmin etmək olar. Quşçuluğun inkişaf etdiyi ərazilərdə sutkada məhsuldarlığı 5-15 kubmetr olan kiçik bioqaz qurğularından istifadə çox effektivdir. Bu zaman alınan maye gübrələr əkinçilikdə məhsuldarlığı 15-20 faiz artırmağa imkan yaradır. Qərbi Avropada fermaların yarıdan çoxunun istiliyə tələbatı bioqaz hesabına ödənilir. Qərbi Avropanın bəzi ölkələrində (Danimarka, İsveçrə və s.) bioqazın payı ümumi enerji balansında 10 faizdən çoxdur. Bir sıra Asiya ölkələrində (Çin, Hindistan, Vyetnam və s.) kiçik bioqaz qurğuları məişətdə geniş tətbiq olunur. Qarabağda da yaradılacaq iri fermer təsərrüfatlarında bioqazdan istifadə həm onların öz enerji ehtiyacının qarşılanmasına, həm də orada məskunlaşacaq əhalinin qazla təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərə bilər.

**Nəticə**

Beləliklə, Qarabağın bərpa olunan enerji potensialı enerji səmərəliliyi ilə uzlaşdırılmış şəkildə isitmə və soyutma, nəqliyyat və elektroenergetika sektorlarında bərpa olunan enerji mənbələrindən istifadənin geniş tətbiqinə əlverişli şərait yaradır. Qarabağ regionunun Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, əhalinin məskunlaşması, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı baş verdikcə ölkənin ÜDM-i artmaqla yanaşı, regionda enerjinin istehlakı da yüksələcəkdir. Qarabağda bərpa olunan enerji potensialından geniş istifadə edilməsi ölkənin karbon emissiyalarının sabitləşdirilməsinə, enerji tutumunun azalmasına, enerji səmərəliliyinin yüksəldilməsinə, Azərbaycan Respublikasının beynəlxalq enerji reytinqlərində mövqeyinin yaxşılaşdırılmasına əlverişli şərait yaradacaqdır.

## İstinadlar


1. AR-nın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, s.13// www.area.gov.az. İstinad tarixi: yanvar, 2019.
2. Azərbaycanda Ətraf Mühit. Statistik məcmuə. Bakı, 2020.
3. Azərbaycanda Kənd Təsərrüfatı. Statistik məcmuə. Bakı, 2020.
4. Energetika Nazirliyi Dağlıq Qarabağ və ətraf regionların enerji potensialı ilə bağlı məlumatları açıqlayıb. https://minenergy.gov.az/az/meqaleler-ve-musahibeler/02112020-energetika-nazirliyi-dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali-ile-bagli-melumatlari-aciqlayib. İstinad tarixi: iyul, 2021.
5. Əliyev R. Alternativ enerji və ekologiya. Bakı -»Təknur» 2015, 368 s.
6. Göyçaylı Ş., İsmayılov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Dərslik, 2-ci nəşr, Bakı, «MBM», 2009, 232 səh.
7. Qarabağda bərpaolunan enerji mənbələrinin potensialı 4,5 min MVt həcmində qiymətləndirilir.
8. http://interfax.az/view/823888/az. İstinad tarixi: iyul, 2021.
9. Həsənov Q. Təbii ehtiyatların səmərəli istifadəsinin ekoloji-iqtisadi problemləri. "Respublika", 2010, 13 aprel, N 76, s.5.
10. IRENA, IEA and REN21. 'Renewable Energy Policies in a Time of Transition'. IRENA, OECD/IEA and REN21, 2018.
11. Məmmədov T. Qarabağın çoxşaxəli iqtisadi potensialı mövcuddur. https:// science. gov. az/az/news/ open/16213. İstinad tarixi: avqust, 2021.
12. Şalbuzov N.Ə., Hüseynov R.Z.. İqlim dəyişikliyi və bioenerji konfransında qaldırılan məsələlərə Azərbaycan Respublikasinin prizmasindan baxiş // "İqtisadiyyat və audit", 2009, № 9.

**ƏHMƏDOV İnqilab**
Xəzər Universiteti, professor

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASINDA DÖVLƏTİN İNFRASTRUKTUR VƏ SOSİAL LAYİHƏLƏRİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

**Xülasə:** Bu məqalədə işğaldan azad edilmiş ərazilərdə reallaşmaqda olan dövlət investisiya proqramları, habelə yaxın gələcəkdə orada həyata keçiriləcək sosial layihələrin səmərəliliyinin vacibliyi qeyd edilir. Ərazidə dövlət infrastruktur layihələrinə böyük həcmdə vəsaitin yatırılmasına ehtiyacın, eyni zamanda dövlət vəsaitinə rasional yanaşmanın hökumətin prioritet siyasətinə çevrilməsi bu məsələni daha da aktual edir.
Dövlət infrastruktur və sosial layihələrin səmərəliliyinin artırılması istiqamətində "Təsadüfi İdarə Olunan Sınaqlar" (Randomized Controlled Trials- RCT) metodundan istifadə təklif olunur. Bu metodun hazırda eksperimental iqtisadiyyat kontekstində dünyada geniş tətbiqi və bir çox halda uğuru, habelə Qarabağ regionunun adı çəkilən metodun tətbiqi üçün əlverişliliyi məqalənin ana xəttini təşkil edir.
RCT metodunun Qarabağın bərpası prosesində pilot qaydada uğurlu tətbiqi gələcəkdə Azərbaycanda onun daha geniş istifadəsinə zəmin yaradacaq.

**Açar sözlər:** dövlət investisiya proqramları, sosial layihələr, səmərəliliyin ölçülməsi, Təsadüfi İdarə Olunan Sınaqlar.

## Giriş

İşğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına uğurlu inteqrasiyası hökumətin əsas prioriteti elan edilmişdir. Sözün əsl mənasında indiyə qədər görünməmiş belə nəhəng miqyasda işlər hökumətdən və bütövlükdə cəmiyyətdən möhkəm əzmlə yanaşı, həm də qeyri-standart yanaşma tələb edir.

Vətən müharibəsinin ölkəmiz üçün zəfərlə başa çatmasından dərhal sonra 24 noyabr 2020-ci ildə Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı" Əlaqələndirmə Qərargahı yaradılmış, Qərargaha dövlətin yüksək vəzifəli şəxsləri daxil edilmişdir(1).

İlk addım kimi, hökumət 2021-ci ilin dövlət büdcəsində İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2,2 mlrd. man vəsait nəzərdə tutub ki, bu da ümumi dövlət xərclərinin 7,7 %-ni təşkil edir (2). O da qeyd edilməlidir ki, 2021-ci ilin ilk 6 ayında bu məbləğin cəmi 372,1 mln. manatı xərclənib və bu da nəzərdə tutulan vəsaitin 16,9%-ni təşkil edir (3). İlkin

mərhələdə nisbətən zəif templi xərcləmə gözlənilən idi. Böyük miqyaslı bərpa işləri ilk öncə ərazilərin minalardan təmizlənməsini, hazırlanması və minimum infrastrukturun yaradılmasını tələb edir ki, bu da bir qədər vaxt aparır.

Digər tərəfdən hökumətin bu istiqamətdə xərcləmələrə ehtiyatlı yanaşması onu göstərir ki, dövlət vəsaitinin xərclənməsinə "yüz ölçüb bir biçmək" prinsipi əsas götürülür. Amma, bütün çətinliklərə rəğmən, Qarabağ və ətraf regionlarda işlərin böyük miqyasda aparılması hökumətin bu taleyüklü məsələdə elan etdiyi hədəflərə çatmasında israrlı olmasından xəbər verir.

**Bərpa prosesində dövlət və özəl sektorun iştirakı**

Hazırkı mərhələdə, gözlənildiyi kimi, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin maliyyə yükü əsasən hökumətin üzərinə düşür. Özəl biznesin bu prosesə qoşulması hələ ki, dövlətin sifarişi əsasında reallaşan infrastruktur layihələrdə əksini tapır. Hökumətin yaxın və orta müddətdə davamlı olaraq bu istiqamətdə iri tutumlu infrastruktur və sosial layihələrin həyata keçirilməsi üçün dövlət büdcəsindən külli miqdarda vəsait ayrıması qaçılmaz görünür və bu xərc istiqamətinin dövlətin əsas prioriteti olacağı labüddür.

Müdafiə və təhlükəsizlik, habelə büdcənin sosial yönümlü yükünün ilbəil artması Qarabağ və ətraf ərazilərdə sosial infrastruktur layihələrinə hökumətin rasional yanaşmasını, xərclənən vəsaitin səmərəliliyinə xüsusi diqqətin ayrılmasını tələb edir.

**Dövlət investisiya xərcləmələrinin riskləri**

İqtisadçılar dövlət investisiya layihələrinin həyata keçirilməsində adətən 2 böyük riski qeyd edirlər. Bunlardan biri mümkün makroiqtisadi fəsadlarla, digəri isə layihələrin səmərəliliyi ilə bağlıdır. Makroiqtisadi aspektdən yanaşsaq, dövlət investisiyalarının həcminin ümumi investisiya portfelində həddən artıq çox olması potensial özəl investisiyaların sıxışdırılıb çıxarılması ilə müşayiət oluna bilir (8). Belə ki, hökumətin maliyyə imkanı kifayət etdikdə və layihələrin qısa zaman kəsiyində həyata keçirilməsini hədəflədikdə, bazar üçün daha sərfəli olan dövlət investisiya layihələri üstünlük təşkil edir və hətta mövcud özəl sektor bazardan sıxışdırılıb çıxarıla bilir.

Dövlət investisiya layihələrinin imtiyazlılığı, risklərin dövlətin üzərinə götürülməsi və hətta bəzi hallarda zərərlə fəaliyyət göstərən biznes layihələri dövlət hesabına kompensasiya edildiyindən özəl sektor onunla rəqabət apara bilmir. Dövlət maliyyəsinin son anda limitsiz olmadığını nəzərə alsaq, hökumət bu layihələrin bazarda özəl biznesi sıxışdırıb aradan çıxarmaması üçün ehtiyatlı davranmalı, balanslı bazar strukturunu təmin etmək üçün izafi layihələrə getməməlidir.

İkinci daha böyük risk layihələrin səmərəliliyi ilə bağlıdır ki, bu da klassik dövlət infrastruktur, xüsusən də sosial layihələrin qiymətləndirilməsindən və təsirlərinin ölçülməsindən keçir.

Müasir iqtisadiyyatda sosial infrastruktur layihələrinin səmərəliliyinin ölçülməsi istiqamətində çoxsaylı metodlar mövcuddur. Bu yazıda biz daha çox sosial rifahın bərqərar olmasına yönəlik layihələrdə istifadə edilən metodlara fokuslanacağıq. Bu tip layihələr, Qarabağ və ətraf regionların spesifikasiyasını nəzərə alıb, məsələn, aqrar sektorda imtiyazların müəyyənləşdirilməsi, habelə təhsil və ictimai səhiyyə layihələrinin səmərəliliyinin ölçülməsi üçün böyük önəm daşıyır.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin özəlliyi

Qarabağ və ətraf rayonların mümkün qədər qısa zaman kəsiyində bərpası və ölkə iqtisadiyyatına inteqrasiyası layihəsi unikallığı ilə seçilir. Bu baxımdan oxşar təcrübəyə əsaslanmaqla standart fəaliyyət planını hazırlayıb, onu həyata keçirmək real görünmür.

Bərpa və reinteqrasiya layihəsi bütövlükdə aşağıdakı özəllikləri özündə ehtiva edir:

- İşğaldan azad edilmiş ərazi böyük sahəni əhatə edir, ölkə ərazisinin təxminən səkkizdə birinə bərabərdir və bir hissəsi mürəkkəb relyefə malikdir;

- Ərazidə infrastrukturun yaradılması bu böyük layihənin yalnız 1-ci mərhələsidir. Daha vacibi, köçkünlərin doğma yurdlarına qaytarılması və onlara müvafiq sosial-iqtisadi şəraitin yaradılmasıdır ki, birinci ilə müqayisədə bu vəzifə daha çətindir;

- Layihənin xüsusilə ilkin mərhələsində əsas maliyyə yükü dövlətin üzərinə düşəcək. Özəl sektor, ən yaxşı halda, müvafiq əlverişli biznes şəraiti qurulandan sonra regionda yatırımlarda maraqlı ola bilər;

- Dövlət maliyyəsinin əsas hədəfi sosial transfer olacaq ki, bu da sosiumun yerləşdirilməsi, onlara müvafiq imtiyazların yaradılması zərurətindən irəli gəlir;

- Layihənin uzunmüddətli perspektivdə uğuru və davamlılığı üçün sosial layihələrin səmərəliliyi böyük önəm daşıyır. Səmərəliliyi təmin etməklə qısamüddətli perspektivdə dövlət vəsaitinə qənaət etmiş olarıq, ortamüddətli perspektivdə regiona etibarlılığı artırıb, özəl sektora müvafiq mesajı verə bilərik və nəhayət, uzunmüddətli perspektivdə regionun inklüziv və davamlı inkişafını təmin edərik.

Yuxarıda sadalananlar onu deməyə əsas verir ki, hazırkı mərhələdə, görülməkdə olan işlərlə yanaşı, hökumətin əsas hədəfi sosial layihələrin ölçülməsi və təsirlərinin qiymətləndirilməsi hesabına səmərəliliyin artırılması olmalıdır.

Bu kontekstdə ən çətin məsələ sosial-iqtisadi nəticənin (outcome) doğrudan da məhz bu və ya digər töhfənin (input) səbəbindən əldə edilməsini müəyyənləşdirməkdir. Bu bir həqiqətdir ki, xüsusən sosial yönümlü layihələr dönməz (irreversible) effektə malikdir. Əgər zaman ötəndən sonra məlum olursa ki, nəticə-səbəb əlaqəsi düzgün qiymətləndirilməyib, o zaman böyük miqdarda maliyyə ilə yanaşı vaxt itkisi yaranır. Bir çox hallarda zaman itkisi daha vacibdir.

Beləliklə, Qarabağ regionunun bərpası kimi iri tutumlu və uzunmüddətli layihələrdə belə qiymətləndirmənin paralel olaraq elə ilk mərhələlərdə aparılması xeyli dövlət vəsaitinə qənaət etmək imkanı verməklə, həm də uzunmüddətli perspektivdə regionun davamlı inkişafı üçün yaxşı zəmin yaradardı. Sual olunur, sosial transfer və ya infrastruktur layihələrinin ölçülməsi nə dərəcədə realdır və bu qiymətləndirmə mümkün riskləri nə dərəcədə azalda bilər?

**Sosial layihələrin səmərəliliyinin ölçülməsi: TIOS**

Təsadüfi İdarə Olunan Sınaqlar (TİOS) (Randomized Controlled Trials - RCT) metodu yuxarıdakı suala cavab verən və eyni zamanda yoxsul ölkələrin məhdud maliyyə tutumlu layihələrindən maksimum fayda əldə etmək üçün istifadə edilən ən etibarlı metodlardan biridir. Dünya Bankı TİOS-u, qısa olaraq, həyata keçirilən layihənin onun maraqlı tərəflərinə müsbət və mənfi təsirlərinin sistematik olaraq öyrənilməsini nəzərdə tutan metod adlandırır (9). Başqa sözlə, qeyri-biznes layihəsi olduğundan, bu tip layihələrin faydalılığını və hətta mənfi təsirlərini öyrənmədən, sadəcə böyük məbləğdə vəsaitin xərclənməsi nəinki proqnozlaşdırılan müsbət nəticəni verməyə bilər, hətta mənfi nəticəyə gətirib çıxara bilər. Və bu təsirləri ölçmək üçün digər, daha çox təbiət elmlərində istifadə edilən, eksperimental metodlar sosial sahədə də yaxşı effekt verir. Bu baxımdan TİOS, əsasən eksperimental yanaşmaya əsaslanan sahə kimi təsirləri düzgün ölçmək üçün səbəb-nəticə əlaqəsini araşdırıb tapmağa köklənir (7).

TİOS ilk baxışdan sadə görünən suala cavab verir. Layihəyə cəlb edilmiş benefisiarların digər kənarda qalan kontingent ilə müqayisədə əldə etdiyi fayda nədir və bu fayda necə ölçülür? TİOS-nin əsas missiyası onun çətin ölçülən sosial layihələrin səbəb-nəticə əlaqəliliyini tapmaqdır. Bu baxımdan adı çəkilən metod hansı layihələrin işlədiyini və əksinə hansının işləmədiyini zamanında ayırd etməyə kömək edən rasional vasitələrdən biridir. Təsadüfi deyil ki, bu metodu ədəbiyyatda sosial layihələrin ölçülməsi yönümündə qızıl standart adlandırırlar (9). Praktikada bu metod, məsələn, tibb elmində olduğu kimi, təsir və müqayisə qrupları yaradaraq onları müşahidə etməklə həyata keçirilir. Bizim halda, bu metodla, məsələn, aqrar sektora ayrılan subsidiyaların effektivliyini çox böyük dəqiqliklə ölçmək olur. Bunun üçün pilot qaydada, sadəcə müvafiq metodoloji prinsiplərə əməl etməklə, 2 fermer qrupu yaradılır, eyni şərtlərlə biri subsidiyalaşdırılır, digəri isə müqayisə üçün istifadə edilir. Eyni qaydada bu tip eksperimenti təhsil

layihələrində, səhiyyə proqramlarında və digər sahələrdə istifadə edib az vəsaitlə daha böyük nəticə əldə etmək və maliyyə vəsaitlərinin daha rasional istifadəsinə nail olmaq olur.

Paralel olaraq bu yolla həm də unikal verilənlər sistemi (data collection) yaratmaq olur ki, dövlət onu istənilən məqsəd üçün gələcəkdə istifadə edə bilir.

Digər bir nümunə tədqiqatçıların Hindistanda çayın üzərində bənd tikintisinin ətraf mühitə və yaşayış məntəqələrinə fərqli təsirlərini özündə ehtiva edir. Belə ki, tədqiqatçılar məhz TİOS metoduna əsaslanaraq müəyyənləşdiriblər ki, çayın üzərində tikilmiş nəhəng bənd son nəticədə nəinki bu məntəqədə kənd təsərrüfatı məhsullarının artımına gətirib çıxarmır, əksinə yoxsulluğu bir qədər də artırır. Tikilmiş bənddən aşağı relyefdə yerləşən təsərrüfatda irriqasiyanın inkişafı nəticəsində kənd təsərrüfatı məhsulları artsa da, ümumilikdə həmin zonada yoxsulluğun tempində daha yüksək artım müşahidə edilib ki, bu da bəndin mənfi təsirləri ilə bağlı olub (5).

Aşağıdakı nümunə eksperimental iqtisadiyyatın xüsusilə sosial layihələrin səmərəliliyi üçün nə qədər faydalı olmasını yaxşı sübut edir. İnkişaf etməkdə olan ölkələrdə təhsilə yatırılan investisiyaların çox zaman effektiv olmaması heç kim üçün sirr deyil. Amma səbəbini araşdırıb tapmaq üçün ənənəvi nəzəri yanaşmalar kifayət etmir. Keniya və Hindistanda aparılan eksperimentlər sübut edib ki, orta məktəblərdə təhsilin səviyyəsini artırmaq üçün əlavə dərsliklər, pulsuz naharla təminat və hətta yeni informasiya texnologiyalarının istifadəsi vəziyyəti yaxşılığa doğru demək olar ki, dəyişmir (6). Əvəzində məktəb müəllimlərini dövrü olaraq müqavilə ilə işə götürüb, onlarda öz işinə motivasiya yaratmaq həmin məktəblərdə təhsilin keyfiyyətini təsirli sürətdə artırır, dərslərə davamiyyət artır, şagirdlər daha çox bilik əldə etməyə can atırlar.

**TİOS nə verir?**

- Xərc-fayda mexanizminin işə salınması;

İlk növbədə TİOS-un ən böyük üstünlüyü sosial layihələrdə xərc-fayda mexanizmini bərqərar etməkdir. Bildiyimiz kimi, sosial layihələrdə bu prinsipi rəhbər tutmaq, bu sahələrdə sırf bazar prinsiplərinin və klassik biznes yanaşma üçün şəraitin olmaması səbəbindən, praktikada əsas hədəf kimi xərcləmələrin artım tempini nümayiş etdirməyə üstünlük verilir. Bu yanaşma faktiki olaraq hökumətin sosial yönümlü xərcləri permanent olaraq artırmasını labüd edir və bu maliyyə yükünü davamlı olaraq çəkmək istənilən, hətta ən varlı dövlət üçün olduqca çətin bir vəzifəyə dönür. Təsadüfi deyil ki, hətta ən inkişaf etmiş ölkələr bu gün dövlət büdcəsinin ilbəil artan xərcləmələrini həyata keçirməkdə çətinliklə qarşılaşır və büdcə defisitin artımı ilə üzləşir.

Azərbaycanda bu problemin kritik olmaması ilk növbədə neft gəlirlərinin dövlət büdcəsində xüsusi çəkisinin böyük olmasından və hazırkı mərhələdə sosial yönümlü xərclərin nisbətən yaxşı idarə olumasından irəli gəlir. Neft gəlirlərinin yaxın və orta perspektivdə tədricən azalması proqnozlarını və paralel olaraq işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində dövlətin maliyyə yükünün ilbəil artması perspektivini nəzərə alsaq, məhz bu metodun bel sütunu olan xərc-fayda mexanizminin ön plana çəkilməsi zamanında ehtiyac duyulan prioritet vəzifə kimi hökumətin qarşısında durmalıdır.

Bu sahələrdə xərc-fayda mexanizmini işə salmaqla xeyli miqdarda dövlət vəsaitinə qənaət etmiş olarıq.

- Motivasiyanın artırılması;

TİOS-un ikinci ən böyük üstünlüyü onun layihələrə cəlb edilmiş maraqlı tərəflər üçün güclü motivasiyanı yaratmasıdır. Məsələn, Keniya və Hindistanda aparılan eksperimentlər sübut edib ki, orta məktəblərdə təhsilin səviyyəsini artırmaq üçün əlavə dərsliklər, pulsuz naharla təminat və hətta yeni informasiya texnologiyalarının istifadəsi vəziyyəti yaxşılığa doğru demək olar ki, dəyişmir. Əvəzində məktəb müəllimlərini dövrü olaraq müqavilə ilə işə götürüb, onlarda öz işinə motivasiya yaratmaq həmin məktəblərdə təhsilin keyfiyyətini təsirli sürətdə artırır, dərslərə davamiyyət artır, şagirdlər daha çox bilik əldə etməyə can atırlar (6). Azərbaycan üçün və xüsusilə bərpa prosesinin yeni başlandığı Qarabağ regionunda sosial yatırımların uğurlu alınması üçün

bu olduqca vacib görünür. Bildiyimiz kimi, təhsil və ictimai səhiyyə sahələrində işçilərin motivasiyasının artırılması hazırda çox aktualdır. Məhz Qarabağ regionunda pilot layihə kimi reallaşdırılan layihələr sonrakı mərhələdə bütövlükdə ölkənin sosial layihələrinin uğurluluğu üçün yaxşı təcrübə ola bilərdi.

- Çoxölçülü verilənlər sisteminin (multidimensional data collection) yaradılması;

TİOS-un orta və uzunmüddətli perspektivdə uğuru yalnız eksperimental qruplarda həyata keçirilən layihələrlə kifayətlənmir. Daxili etibarlılıq (internal validity) adlandırılan bu effektdən savayı, bu metod həm də geniş kənar etibarlılıq (external validity) mühiti yarada bilir (9). Başqa sözlə, bu metod yalnız eksperimentin predmeti olan layihələrə etibarın yaradılması ilə bitmir, daha geniş mənada, bütövlükdə müvafiq sahələrə yatırımlar üçün biznesin etibarlılığını qazanmağa kömək edir. Hərçənd ki, birinci ilə müqayisədə kənar etibarlılığın əldə edilməsi daha çətindir, ilk növbədə keyfiyyətli verilənlər sisteminin yaradılmasından keçir.

**TİOS-un mümkün mənfi tərəfləri**

TİOS-nin müsbət tərəfləri ilə yanaşı onun, digər metodlarda olduğu kimi mənfi tərəfləri də mövcuddur. İlk növbədə bu metodun düzgün aparılması üçün onun nisbətən böyük maliyyə tələb etdiyi və bununla yanaşı həm də nəticə əldə etmək üçün zaman lazım olduğu vurğulanır. Burada müəyyən qədər həqiqət var, amma onu nəzərə almaq lazımdır ki, TİOS müəyyən mənada uzunmüddətli perspektivə tuşlanan metoddur. Başqa sözlə, qısa müddətli perspektivdə əldə edilən nəticə qarşılığında sərf edilən maliyyə nisbətən böyük görünsə də, orta və uzun müddətli perspektivdə yatırım öz bəhrəsini verir və yaradılmış verilənlər sistemi sonrakı mərhələlərdə xərclərin minimum, nəticənin isə etibarlı və gələcək layihələrə qənaət baxımından faydalı olmağına şərait yaradır.

Digər bir mənfi təsir kimi, TİOS-un yalnız konkret layihəyə yönəlik olduğu və bu səbəbdən onun ümumiləşdirilib bu istiqamətdə müvafiq siyasət formalaşdırmaq üçün ümumən yararsız olduğu önə çəkilir. Burada daxili və kənar etibarlılıq proporsiyasından söhbət gedir və təbii ki, istənilən layihənin ölçülməsində onun daxili etibarlılığı daha asan əldə edilir. O ki qaldı kənar etibarlılığa, yəni konkret layihə çərçivəsində əldə edilmiş nəticələri ümumiləşdirərək, bütöv sahəyə aid etməklə onların səmərəliliyini təmin etməyə, burada çox şey verilənlər sisteminin düzgün tərtibatından asılıdır ki, bu da birinci ilə müqayisədə bir qədər zaman istəyir.

TİOS-un dolayı effektlərindən biri də "biletsiz sərnişin" (free rider) problemidir. Bildiyimiz kimi, dövlət maliyyəsində bu fenomen kollektiv ödəmələrdə digərlərinin hesabına ödəmədən yayınmaq deməkdir. Məsələn, zibil daşınmasında ödəmədən yayınaraq, qonşularının bu xərcləri ödəməsi hesabına fayda əldə etməyi misal gətirmək olar. TİOS metodunda bu yayınma spesifik xarakter daşıyır. Belə ki, sosial layihələrdə, adətən, sosial transfer maddələri üzrə maliyyə vəsaitinin (əmək haqqı, müavinətlər, qonorar, pensiyalar və s.) cüzi hissəsi itkiyə məruz qalıb korrupsiya predmeti olur. Bunun qarşılığında material alışı, təchizat və digər bu tipli daha çox maliyyə tutumuna malik olan maddələr birinci ilə müqayisədə böyük yeyinti mənbəyinə çevrilir, dövlət vəsaitinin itirilməsi ilə nəticələnir. Bunu tədqiqatçı İn Olken İndoneziyanın 608 kəndində məhz infrastruktur layihələrin reallaşdığı nümunələrdə apardığı tədqiqatda müəyyənləşdirib.[4]

Lakin bütün bunlara baxmayaraq, tədqiqatçılar TİOS-un daha çox faydalılığını önə çəkir və dövlət vəsaitinin rasional və səmərəli xərclənməsi istiqamətində hökumətə müəyyən mənada bələdçilik funksiyasını daşıdığını vurğulayırlar.

**Nəticə və tövsiyələr**

İşğaldan azad edilmiş ərazilərin bərpası nisbətən uzunmüddətli proses olsa da, onun yaxın və orta perspektiv üçün konkret hədəfləri indidən müəyyənləşdirilməlidir. Bu baxımdan dövlət investisiya layihələrinin, xüsusilə sosial layihələrin səmərəliliyinin ölçülə bilən olması böyük önəm daşıyır.

Təklif edilən TİOS metodu ilə sosial layihələrin həyata keçirilməsində təsirlərin qiymətləndirilməsi və onların səmərəliliyinin ölçülməsi orta və uzunmüddətli perspektivdə bir tərəfdən böyük

məbləğdə dövlət vəsaitinə qənaət etməyə imkan yaradar, digər tərəfdən sosial investisiyaların uğurlu olmasına və davamlılığına töhfə verərdi.

TİOS yalnız nəzəri əhəmiyyət daşımır. Daha vacibi bu metodun düzgün tətbiqi zamanı onun siyasi qərara verdiyi konkret töhfədir.

TİOS-un tətbiqi ilə bağlı aşağıdakı tövsiyələr hökumətin bu istiqamətdə fəaliyyətinə töhfə ola bilərdi;

- Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlikdə TİOS-un öyrənilməsi və tətbiqi ilə bağlı işçi qrupunun yaradılması;

- Beynəlxalq Maliyyə İnstitutları, xüsusilə Dünya Bankı ilə məsləhətləşmələrin aparılması, bu sahədə əməkdaşlığın çərçivələrinin müəyyənləşdirilməsi;

- Pilot sahələrin və layihələrin seçilib bu istiqamətdə fəaliyyətin başlanmasına start verilməsi;

- TİOS-un daha çox gələcəyə köklənən fəaliyyət olmasını nəzərə alıb, onun tətbiqi zamanı əldə edilən tapıntıların ictimaiyyət üçün daim nəzarətdə saxlanması və bu metodun uğurlu alındığı təqdirdə, onun davamlı olaraq tətbiqinin iqtisadi siyasətin tərkib hissəsinə çevrilməsinə nail olunması.

**İstinadlar**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərərgahının yaradılması haqqında Azərbaycan Respublikasıının Sərəncamı. 24 noyabr 2020-ci il. https://president.az/articles/47738.
2. Azərbaycan Respublikasının Dövlət Büdcəsi haqında Azərbaycan Respublikasının Qanunu :http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5feddb273fa5d.pdf.
3. 2021-ci ilin yanvar-iyun aylarında Azərbaycan Respublikası dövlət büdcəsinin, o cümlədən büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə proqramların icrasına dair hesabat. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/61125f4229408.pdf.
4. Anders Olofsgard: Randomized Controlled Trials: Strengths, Weaknesses and Policy Relevance, 2014. https://www.oecd.org/derec/sweden/Randomized-Controlled-Trials_EBA.pdf.
5. Esther Duflo and Rohini Pande: Dams, 2005 https://economics.mit.edu/files/796.
6. Esther Duflo, Pascaline Dupas, Michael Kremer: Peer effects, teacher incentives, and impact of tracking: Evidence from a Randomized Evaluation in Kenya, 2008. https://www.nber.org/ system/ files /working_papers/w14475/w14475.pdf.
7. Əhmədov İnqilab. Azərbaycanda sosial inkişaf: illyüziya və reallıq. Bakı Tədqiqat İnstitutu, 20 iyun, 2020. https://bakuresearchinstitute.org/az/social-development-in-azerbaijan-illusion-and-reality/.
8. Introduction to Macroeconomics. 6th Edition, by Edwin Dolan, 2016.
9. Running Randomised Controlled Trials in Innovation, Entrepreunership and Growth: An Introductory Guide. 2016. https://media.nesta.org.uk/documents/a_guide_to_rcts_-_igl_09aKzWa.pdf.
10. Worldbank: Impact Evaluation Research https://www.worldbank. org/en/research/ dime/research.

ƏHMƏDOVA Rəhilə / BABAYEVA Tünzalə
Sumqayıt Dövlət Universiteti

ABDULLAYEVA Maya
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

# QARABAĞIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ BİOMÜXTƏLİFLİYİN BƏRPA OLUNMASI

**Xülasə:** Qarabağ müharibəsinin nəticəsi ətraf mühitin, o cümlədən torpaqların intensiv istifadəsinə və çirklənməsinə səbəb olmuşdur. Torpağa daxil olan çirkləndirici maddələr onun fiziki, kimyəvi və bioloji xassələrinə təsir edir, torpağın parametrlərinin dəyişilməsinə səbəb olur. Məsələn, silahların tərkibində olan fosfor, kükürd və azot birləşmələri torpaqların keyfiyyət göstəricisini aşağı salır. Ağır metallar, zəhərli kimyəvi maddələr, neft məhsulları, sənaye sahələrində istehsalat tullantıları, silahların və bombaların təsiri torpaqlara və onda olan canlılara mənfi təsir edir. Çirkləndiricilərin təsirini inaktivləşdirməkdən ötrü fitoremediasiya üsulu çox əlverişli hesab olunur.

**Açar sözlər:** ətraf mühit, çirklənmə, torpaq, tullantı, zərərli duzlar, fitoremediasiya.

→

## Giriş

Son illərdə temperaturun yüksəlməsi, yağıntıların azalması torpaqlarda kalsium karbonatların və zərərli duzların artmasına səbəb olmuşdur. Torpaq məhlulunda oksigen azalır, ağır metallar isə torpaqdan itmir və təhlükəli formalar ala bilir.

Son elmi araşdırmalara əsasən qeyd etmək olar ki, canlı orqanizmlərdə, həmçinin torpaqda 70-dən çox mikroelement mövcuddur. Bunlardan 65-i müəyyən canlı orqanizmlərdə çox əhəmiyyətli fizioloji funksiyalar həyata keçirirlər. Mikroelementlər sırasına aid edilmiş 12 kimyəvi element müxtəlif bioloji aktiv birləşmələrin – fermentlərin, piqmentlərin tərkibinə daxildir ki, onlar da orqanizmdə gedən maddələr mübadiləsində, bitkilərin məhsuldarlığının artmasında böyük rol oynayırlar[1].

Son 50 ildə müxtəlif tədqiqatçılar tərəfindən mikroelementlərin, o cümlədən ağır metalların (Mn, Cu, Zn, Ni, Mo, Cd və s.) fizioloji, biokimyəvi, aqrokimyəvi roluna dair aparılan geniş tədqiqatlar nəticəsində həm mikroelementlərin canlı orqanizmlərin həyat fəaliyyətindəki rolu öyrənilmiş, həm də müəyən olunmuşdur ki, torpaqəmələgəlmə və dağ süxurlarının aşınması prosesi nəticəsində əmələ gələn mikroelementlər torpaqda yayılma qanunauyğunluqlarına malikdir [2].

Ağır metallar torpaqda kompleks birləşmələr (xelatlar) əmələ gətirir. Ağır metallar torpaqdakı gil

minerallarının kristallik şəbəkəsinə daxil olaraq, torpaq məhlulunda həll olmuş formada, torpaq havasında qaz şəkilində, üzvi qalıqların və torpaq biotasının tərkibində toplanır. Torpağa daxil olan ağır metalların miqdarına ərazinin iqlim şəraiti və geomorfoloji elementləri (dərə-təpələrin, terrasların olması) də bilavasitə təsir göstərir. Yay mövsümündəki atmosfer yağıntılarında ağır metalların miqdarı qışla müqayisədə nisbətən artıq olur. Hesablamalar göstərir ki, atmosfer yağıntıları ilə bir ildə orta hesabla hər hektara təxminən 200 qram sink, 55 qr qurğuşun, 75 qr mis və 5 qr kadmium daxil olur. Torpağın əsasən üst qatında toplanan ağır metallar yuyulma, eroziya, bitki tərəfindən mənimsənilmə prosesində torpaqdan çox ləng, tədricən çıxarılır. Məsələn, sink üçün bu dövr 70-510 il, kadmium - 13-110, mis - 310-1500, qurğuşun üçün isə 740-5900 ildir [2,6].




***Şəkil 1*** *Təmiz və texnogen çirklənmiş sahələrdə ağır metalların ümumi miqdarı.*

Tədqiqatlarla sübut edilmişdir ki, çirklənmə mikroorqanizmlərin miqdarına və inkişafına təsir etməklə üzvi qalıqların və humusun parçalanmasının sürətlənməsinə, o cümlədən müxtəlif tip mikroorqanizmlərin artmasına mənfi təsir edir. Mikroorqanizmlərin miqdarı torpaq havasında karbon qazının mənbəyi, bitki köklərinin tənəffüsünü intensivləşdirir. Mikroorqanizmlərin təsiri ilə tənəffüs prosesində torpaq oksigenlə zənginləşir. Ağır metallarla torpağın çirklənməsi nəticəsində karbon qazı torpaqüstü havaya asan daxil ola bilmir və bitkilərin qidalanması üçün bir çox çətinliklər yaradır. Mikroorqanizmlər humusun yaranması və parçalanmasını sürətlənir[9,5].

Mikroorqanizmlərin kəmiyyət göstəriciləri ağır metalların miqdarı ilə sıx sürətdə bağlıdır. Təmiz sahədə ağır metalların miqdarı 3500 mq/kq olduğu halda, texnogen çirklənmiş sahələrdə isə 7500 mq/kq-dır. Çirklənməmiş sahələrdə texnogen çirklənmiş sahələrə nisbətən ağır metallar az toplanır.

Ağır metallar torpaqda yol verilən həddən yüksək olduğu halda mikroorqanizmlərə mənfi təsir göstərir, onların sayını azaldır. Nəticədə torpaqəmələgəlmədə iştirak edən və onun münbitliyinin formalaşmasında iştirak edən mikroorqanizmlər kəskin azalır.

## Təhlil və qiymətləndirmə

Məlumdur ki, 30 ilə yaxın müddətdə Qarabağ torpaqları işğal altında idi. 30 illik həsrətdən sonra, yəni 2020-ci ilin 10 noyabr tarixindən etibarən öz doğma torpaqlarımıza qovuşduq. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarda təbiət abidələrinə, biomüxtəlifliyə, meşə sahələrinə, yeraltı və yerüstü təbii sərvətlərə ciddi zərər vurmaqla böyük miqyaslı ekoloji terror aktları törətmişlər. Nəticədə bu bölgədə ciddi ekoloji fəsadlar yaranmışdır. Bu səbəbdən işğaldan azad olunmuş torpaqların çirkləndiricilərdən təmizlənməsi, qida rejiminin və məhsuldarlığının artırılması günümüzün qlobal problemlərindən biridir.

İşğaldan azad olunmuş ərazilərdə müharibənin baş verməsi ilə əlaqədar olaraq atmosfer havası, torpaq örtüyü, yeraltı və yerüstü sular çirklənməyə məruz qalmışdır. Bu isə ətraf mühit üçün real təhlükə sayılan ağır metallarla, radioaktiv elementlərlə çirklənmiş torpaqların təmizlənməsini olduqca aktual edir. Torpağın ağır metallardan təmizlənməsi üçün fiziki, kimyəvi, termiki, bioloji prosesləri özündə cəmləşdirən bir sıra metodlar mövcuddur. Dünya təcrübəsində ağır metallarla çirklənmiş ərazilərin təmizlənməsində tətbiq olunan bahalı və ənənəvi mühəndislik texnologiyaları yerinə son illərdə iqtisadi cəhətdən daha səmərəli yaşıl texnologiya (fitoremediasiya) tətbiq edilir. Fitoremediasiya metodunda ağır metalları absorbsiya edən bitkilərin müxtə-

lif orqanlarında, toxumalarında, kökümeyvələrində, yarpaqlarında və.s. yüksək konsentrasiyada depolayan və müəyyən müddət sonra təsirsiz hala gətirən hiperakkumlyator bitkilərdən istifadə olunur [3,4].

Hiperakumlyator bitkilər müəyyən elementlərin yüksək konsentrasiyasını toplamaq qabiliyyətlərinə malik bitkilərdir. Çiçəkli bitkilərin 0,2%-ni təşkil edən hiperakumlyator bitkilərin sayı 450-ə qədərdir. Bol və keyfiyyətli məhsul alınmasını təmin edən, həmçinin torpaqların yaşıl metodla təmizlənməsini həyata keçirtmək üçün mühüm aqrotexniki tədbirlərdən biri də gübrələrin tətbiqidir. Tədqiqatçılar görstərir ki, torpaqlara üzvi gübrələrin verilməsi onun ağır metallarla çirklənməsinin qarşısını alır və qida elementlərinin nizamlanması üçün əlverişli mühit formalaşdırır. Ona görə də dünyanın bir çox ölkələrinin təcrübəsi göstərir ki, ağır metallarla çirklənmənin zəhərliliyini zəiflətmək üçün hiperakumlyator bitkilərə üzvi və mineral gübrələrin tətbiq edilməsi tövsiyə edilir. Müəyyən edilmişdir ki, üzvi və mineral tərkibli gübrələrin tətbiqi çirklənmiş torpaqların sanasiyası (sağlamlaşdırılması tədbirləri) texnoloji cəhətdən təhlükəsiz, iqtisadi səmərəli və ekoloji nöqteyi-nəzərdən əlverişlidir [7,8].

Cədvəl 1-dən göründüyü kimi torpaqların ənənəvi becərilməsi və gübrələrin tətbiqi nəticəsində ağır metalların miqdarında azalma müşahidə edilmişdir. Təcrübənin birinci ilində (2015-ci il) küknar bitkisi altında nəzarət variantında torpağın 0-20 sm qatında Cd miqdarı 0,98 mq/kq olduğu halda, mineral gübrə verilən variantda Cd miqdarı 0,84 mq/kq, fon + 15t/ha peyin verilən variantda Cd miqdarı 0,69 mq/kq, fon + 5,0t/ha vermikompost verilən variantda isə həmin qatda 0,57 mq/kq olmuşdur. Gübrələrin verildiyi variantlarda torpaqda ağır metalların təmizlənməsi nəzarət (gübrəsiz) varianta nisbətən 1,7 dəfə artmışdır. Fon +30t/ha peyin + 2,5 t/ha vermikompost verilən variantında 0,48 mq/kq təşkil etmişdir. Ən yaxşı nəticə fon +30t/ha peyin + 2,5 t/ha variantında olmuşdur. Absorbsiya olunma nəzarətə nisbətən 2 dəfə artmışdır.

Eyni artım növbəti 2 ilin tədqiqatlarında da müşahidə edilmişdir. Təcrübənin ikinci və üçüncü illərində (2016-2017-ci illər) Cd miqdarı nəzarət variantında torpağın 0-20 sm qatında 0,96; 0,97 mq/kq, mineral gübrə verilən variantda Cd miqdarı 0,85; 0,82 mq/kq, fon +15t/ha peyin verilən variantda həmin qatda 0,72; 0,67 mq/kq olmuşdur. Fon + 5,0t/ha vermikompost tətbiq olunan variantda torpağın 0-20 sm-lik qatında 0,60; 0,58 mq/kq təşkil etmişdir. Ən yaxşı nəticə fon +30t/ha peyin + 2,5t/ha vermikompost variantda olmuşdur. Bu variantda nəzarət variantına nisbətən 0–20 sm-lik qatda Cd miqdarında 0,47 və 0,49 mq/kq təşkil etmişdir. Ağır metalların torpaqdan təmizlənməsi 2 dəfə artmışdır. Bu artım digər ağır metallarda da özünü göstərmişdir. Torpaqda olan ağır metalların absorbsiya olunması nəzarətə nisbətən Pb, Cu, Zn elementində 1,5-2 dəfə artmışdır.

**Cədvəl 1.** Torpaqlarda ağır metalların küknar bitkisi altında ümumi miqdarının dəyişməsinə mineral və üzvi gübrələrin təsiri, mq/kq

| s/s | Təcrübə sxemi | Dərin-lik, sm | 2015-ci il | | | | 2016-cı il | | | | 2017 –ci il | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Cd | Pb | Zn | Cu | Cd | Pb | Zn | Cu | Cd | Pb | Zn | Cu |
| 1. | Nəzarət gübrəsiz | 0-20 | 0,98 | 34,1 | 86 | 79 | 0,96 | 34,9 | 88 | 78 | 0,97 | 34,9 | 84 | 78 |
| 2. | $N_{60}P_{60}K_{60}$ (fon) | 0-20 | 0,84 | 30,1 | 82 | 72 | 0,85 | 30,2 | 84 | 70 | 0,82 | 30 | 80 | 69 |
| 3. | Fon+15t/ha, peyin | 0-20 | 0,69 | 25,2 | 76 | 67 | 0,72 | 24,2 | 78 | 61 | 0,67 | 25,5 | 72 | 59 |
| 4. | Fon+5,0t/ha vermikom-post | 0-20 | 0,57 | 20,2 | 67 | 59 | 0,60 | 19,2 | 69 | 50 | 0,58 | 20,6 | 63 | 48 |
| 5. | Fon+2,5t/ha vermikom-post+30t/ha peyin | 0-20 | 0,48 | 16,1 | 58 | 49 | 0,47 | 13,6 | 59 | 41 | 0,49 | 14 | 55 | 39 |

## Nəticə və təkliflər

Üzvi və mineral gübrələrin tətbiq edilməsi çirklənmiş torpaqların münbitliyinin bərpa edilməsi, ağır metalların təsirinin inaktivləşdirilməsi nəticəsində torpaqların aqroekoloji baxımdan sağlamlaşdırılması mühüm nəzəri, praktiki, təcrübi əhəmiyyətə malikdir. Təcrübələrdə mineral gübrələrdən azot gübrəsi kimi ammonium şorasından, fosfor gübrəsi kimi sadə superfosfat, kalium gübrəsi kimi kalium xloriddən, üzvi gübrə kimi isə tərkibində 0,5% azot, 0,3% fosfor və 0,6% kalium, nəmliyi 65% olan yarımçürümüş inək peyini və tərkibində 2,8% azot, 2,5% fosfor ($P_2O_5$), 1,2% kalium ($K_2O$), üzvi maddə 38%, pH-ı 6,5, nəmliyi 42% olan vermikompostdan istifadə olunması tövsiyə olunur.

## İstinadlar


1. Akhmedova R.R., Ashurova N.D, Babayeva T.M. Investigation of pollution of the soil cover of objects of Sumgait area of the Absheron peninsula with heavy metals. Bulletin of Science and Practice Scientific Journal. volume 5, issue1, pp.151-156. Нижневартовск (2019).
2. Axundova A.B. Torpaqların ağır metallarla çirklənməsinin ekoloji aspektləri. Bakı: Elm, Torpaqşünaslıq və Aqrokimya əsərlər toplusu. c.17, s.249. (2007).
3. Бабаева Т.М. Очистка загрязненных тяжелыми металлами почв методом фитомелиорации . Bulletin of Science and Practice Scientific Journal, 5(9), pp.234-23. Нижневартовск (2019).
4. Hirashi A. Biodiversity of dioxin deqradinq mikroorqanizms and potential utilization in bioremediation. Mikrobial an Environ, №3, pp. 105-125. (2003).
5. Henry J. An Overview of The Phytoremediation of Lead and Mercury. U.S. EPA, Office of Solid Waste and Emergency Response Technology Innovation Office. Report, p.51. (2000).
6. Колесников С.И. Экологические последствия загрязнения почв тяжелыми металлами. Ростов-на-Дону: Изд-во СКНЦ. ВШ, 232 с. (2000).
7. Məmmədov Q.Ş. Aqroekologiya. Xəlilov, M.Y, Məmmədova, S.Z. Bakı: Elm, I hissə, 551 s. (2010)
8. Məmmədov T.S. Azərbaycan dendroflorası: [ 1cilddə]. Bakı: Elm, c.I. 312 s. (2011).
9. Orudzheva N.I. Microbiological Charactheristics of different tipes of irrigated soils in the subtropical zone of Azerbaijan. Eurasian Soil Science, № 11, pp. 1355-1363. (2011).
10. Рубин Б.А. Курс физиологии растений. Москва: Высшая школа, 672 с. (1971).

ƏLİRZAYEV Əli
UNEC, i.e.d.,prof

ƏLİRZAYEV Emin
i.f.d.

QURBANOVA Fəridə
UNEC, i.f.d, dos.

# QARABAĞ İQTİSADİ REGİONUNUN SOSİAL İNKİŞAF PROBLEMLƏRİ

**Xülasə:** Məqalədə işğaldan azad olunmuş regionların sosial-iqtisadi problemləri əsaslandırılır. Daha çox regiondaxili və regionlararası prioritetlərin qiymətləndirilməsi və onların idarə edilməsi aspektləri tədqiq olunur. Müasir şəraitdə hər bir iqtisadi regionun sahə və ərazi inkişaf istiqamətləri və amilləri təhlil olunur. Ağdamın sosial iqtisadi problemləri və onun rolunun artırılmasına təsir edən mexanizmlər verilir. Regional iqtisadiyyat özünün tədqiqi metodları. Konseptual yanaşma istiqamətləri real iqtisadi vəziyyət və idarəetmə obyekti olaraq özünün resurs əsaslarını, metodoloji yanaşma prinsiplərini və idarəetmə mexanizmlərini kəsb edir. Müasir şəraitdə regionallaşma elmi baxımdan kompleks və sistemli idarəetmə, səmərəli struktur dəyişmələr, lokal və qlobal meyarlar baxımından Qarabağ iqtisadiyyatı, onun tədqiqi və təşkili nəzəri və praktiki əhəmiyyət kəsb edir.

**Açar sözlər:** regional inkişaf, investisiya layihələri, sosial inkişaf, məskunlaşma, özünüməşğulluq, özəlləşdirmə, dövlətin qorunması, infrastruktur, xidmətlər, sosial hədəflər, tənzimləmə, regional siyasət.

→

## Giriş

İşğaldan azad olmuş regionların resurs potensialı əhalinin rifahı və həyat şəraitini, istehsal və infrastruktur əlaqələrinin səmərəli təşkili sistem struktur baxımından iqtisadi və sosial səmərəlidir. Bu regionları bağlayan təbii coğrafi resurslar, birgə istifadə üçün müştərək iqtisadi və sosial potensial region hədəflərini respublika daxili iyerarxiyasını və mənasını, həmçinin hər bir regiondaxili iqtisadi-inzibati regionun, sahələrin və fəaliyyətlərin eyniliyi, təsirləri səmərəli təşkil olunur.

İşğaldan azad olmuş regionların Azərbaycan daxili ərazi vahidi kimi baxmaqla bərpa və inkişaf strategiyası, respublika iqtisadi və sosial inkişafın hədəf və imkanları ilə uzlaşdırılır. Digər tərəfdən hər bir regionun, tarixi inkişafı və əsas resursları, ixtisaslaşma səviyyəsini nəzərə almaqla xüsusiləşdirilir. Fikrimizcə bu regionun sosial iqtisadi inkişafının ilkin mərhələsi məskunlaşma və özəlləşmə islahatları ilə başlanmalıdır. Təbii ki, məskunlaşma varislik və fəallığı nəzərə almaqla hər bir hüquqi olan vətəndaşlara şamil edilməlidir.

Məskunlaşmanın dövlət siyasəti, əhalinin rifahı, strateji fəaliyyətlərin tənzimlənməsi və sahələr üzrə iqtisadi səmərə əldə etməklə, biznes sahibkarlıq fəaliyyətinin təşkili istiqamətlərini əhatə

edir. Regionların istifadəsi zamanı mövsümü xarakteri fəaliyyət və resurslardan istifadə üçün güzəştli və orta səviyyəli növlər tətbiq edilir. Regionların resurs potensialından və onların gəlirlilik səviyyəsindən asılı olaraq yerli büdcəyə ayırmalar mərkəzi fondlar hesabına və dövlət büdcəsindən qismən və bütövlükdə müəyyən dövr və hədəf üçün ayrılır. Daha çox gəlirli olan təbii sərvətlərin istifadəsi, o cümlədən biznes mühiti üçün əlverişli fəaliyyətlər sahibkarlıq obyekti olmaqla, təkrar istehsalın təminatına uyğun bölgü və yenidən bölgü sistemi tətbiq edilə bilər. Fikrimizcə, Kəlbəcər və Qubadlının təbii sərvətləri bütün respublika üçün istifadə olunar.

**Təhlil və qiymətləndirmə**

Qarabağın sosial inkişaf problemləri müasir şəraitdə yeni texnologiyaların tətbiqi, ənənəvi sahələrin inkişaf və həmçinin rəqabət mühiti üçün təşviq qaydalarının və prinsiplərinin tətbiqi ilə mümkün olmalıdır. Eyni zamanda əhalinin məskunlaşması üçün məşğulluq və sosial infrastruktur obyektlərinin inkişafı, yerləşməsi və istifadəsi yollarında bazar tələbi və nominal dəyərlər arasında optimal nisbətlər proqnozlaşmalıdır. Hər bir sakinin tələbi ilə yanaşı ölkə üçün zəruri əhəmiyyət kəsb edən hədəflər balanslı və tarazlı olmalıdır. Azad olunmuş regionlarda məşğulluq daha çox yerli resurslardan istifadə və xidmət sferası ilə ixracat potensialını artırmağa yönəlməlidir. Ev təsərrüfatlarının xırda sahibkarlıq fəaliyyəti ilə iş yerləri genişlənir. Dövlətin regional siyasətinə uyğun olaraq bu regionlarda sahibkarlığa dəstək proqramları dövlət sifarişi ilə uyğun təşkil oluna bilər. Ağdam regionunda sənətkarlıq, emal sənayesi, kənd təsərrüfatı, turizm və heyvandarlıq və sosial infrastruktur obyektləri yolu ilə məşğulluğa dəstək proqramları tətbiq edilə bilər. Azad olunmuş regionların sosial-iqtisadi inkişafı sistemli və kompleks proqramlar əsasında reallaşmalıdır.

**Fikrimizcə bu proqramların konturları aşağıdakı ardıcıllıq və mərhələlər ilə reallaşa bilər:**

- regionların qlobal və lokal hədəflərinin əsaslandırılması və alternativ qərarlar üçün səmərəlilik meyarlarının verilməsi;

- bu hədəflərə nail olmaq üçün resurs potensialı, subyekt və təşkilati vəzifələr müəyyənləşməli;

- hər bir regionun özünün lokal vəzifələri, inkişaf dinamikası və reallaşma dövrü əsaslandırılır;

- regionların inkişafında maliyyə dəstək proqramları, gəlirlərin formalaşması mənbələri və bölgü sistemindəki pay və xərc strukturunun əsas istiqamətləri proqnozlaşdırılır;

- regiona xarici şirkətlərin və dövlət investisiya xərclərinin istiqamətləri və yerli resursların istifadəsində təkrar istehsal dəyərlərinin qiymətləndirilməsi ilə layihələr tərtib olunur.

Müasir şəraitdə regionların resurs potensialını və ehtiyatları qiymətləndirməklə sahibkarlıq, özünəməşğulluq və xarici müəssisələrin yerləşməsi sxemi tərtib olunmalıdır. Regionların sosial-iqtisadi inkişaf və səmərəli ərazi təsərrüfat əlaqələrinin əlverişli variantlarla əsaslandırıb kompleks sənaye qovşaqları, klasterlər və birgə müəssisələr formasında layihələndirilir. Fikrimizcə, azad olunmuş kommunikasiya, nəqliyyat və insan resurslarını nəzərə almaqla aşağıdakı istiqamətlərdə istehsal, xidmət və istehlak obyektləri inkişaf etdirmək olar.

- Kəlbəcər regionunda mineral su istehsalı və turizm qovşağına mərkəzi və regional resurslar, həmçinin sahibkarlıq fəaliyyəti kimi kompleks təsirlər hazırlamaq olar. Kəlbəcərin sarı-otlaq və su ehtiyatları yerli və digər regionlar üçün, heyvandarlıq sahələri üçün bazalara çevrilə bilər;

- Ağdam regionunda emal sənayesi, kənd təsərrüfatı, sənaye sahələri, infrastruktur obyektləri və elmi-tədqiqat mərkəzləri inkişaf etdirirlər;

- Zəngilan və sərhədyanı iqtisadi-sosial bazasını nəzərə almaqla azad iqtisadi zonalar və ticarət mərkəzləri, nəqliyyat qovşaqları, turizm: dağ və beynəlxalq turizm mərkəzləri inkişaf etdirirlər. Daha çox sənaye sahəsinin dağ-mədən və meyvə-tərəvəz emalı müəssisələri yaradılmalıdır.

Azad olunmuş regionların aparıcı həlqəsini Ağdam və ona bitişik regionların kompleks inkişafı təşkil edir. Ağdamın digər regionlarla əlaqəsinin təsərrüfat və kommunikasiyalar üzərində genişlənməsi təşkilatı ərazi quruluş kimi prioritet ola bilər. Ağdamın sənaye potensialı və infrastruktur qovşaqları digər regionların kənd təsərrüfatı, enerji resursları və əmək ehtiyatlarının intensiv və səmərəli istifadəsinə imkan verir. Güclü region və güclü respublika hədəflərinə uyğun olaraq Ağdama kapital qoyuluşları və pay bölgüsünün ədalətli sistem üzərində qurulması mümkündür. Hər bir regionun istehsal və xidmət sferası resurslara əsaslanmaqla ağıllı kənd və şəhər konteksində dövlət idarəetmə resurs və mexanizmlərinin, yerli və əhali imkanlarının iqtisadi və sosial dövriyyəyə cəlb edilməsi bacaracağından və idarəetmə sisteminin əlverişli variantlarının tətbiqi ilə bağlıdır. Belə ki, sığorta sistemi qiymətləndirmə, asan xidmət və dəyərlərin təkrar istehsalında əlverişli xərc strukturunun seçilməsi və tətbiqi vacibdir. Ağdam regionunun sahibkarlıq ənənəsi, resurslardan istifadə etməklə, təbii – coğrafi və dominant vəzifəsini yerinə yetirən rayon kimi təşkil olunmalıdır. Ağdam rayonunun və digər qonşu regionların Ağdamla əlaqəsini stimullaşdırmaq üçün güzəştli maddi-maliyyə yardımları, subsidiyalar və dövlət himayəsi, ictimai təminat sistemi tətbiq olunmalıdır.

**Nəticə**

Sosial təminat sistemində bir sıra ucqar kənd və qəsəbələrdə əmək haqqına əlavələr, yaxud ünvanlı fəaliyyəti tənzimləmək üçün əlavə əmək haqqı və sosial müavinət sistemi tətbiq olunmalıdır. Dövlət hesabına maliyyələşən bir sıra infrastruktur layihələri normalara uyğun inkişaf etdirilməlidir.

**İstinadlar**


1. Bəsirət ünvanı  Bakı, Odlar Yurdu 202-250 səh.
2. Əlirzayev Ə.Q., Əlirzayev E.Ə. Sosial inkişaf: Hədələr və mexanizmlər Bakı-2020 monoqrafiya 100 səh.
3. Əlirzayev Ə.Q. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmilləşməsi üzrə təcrübə və perspektiv düşüncələr Bakı Adil oğlu 2005 312 səh.

ƏLİYEV Əlövsət
AMEA İnformasiya Texnologiyaları İnstitutu, i.f.d., dosent

# QARABAĞ İQTİSADİYYATININ BƏRPASI VƏ İNKİŞAFINDA RƏQƏMSAL TRANSFORMASİYA MƏSƏLƏLƏRİ

**Xülasə:** Məqalədə regional iqtisadiyyatın rəqəmsal transformasiyasının ölkənin əsas Milli Prioritetləri kontekstində qarşıda duran əsas məsələlərdən olduğu göstərilmişdir. Qarabağ iqtisadiyyatında ənənəvi sahələrin və yeni sektorların inkişaf etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılmış, orada yeni iqtisadiyyat quruculuğunun inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Qarabağda rəqəmsal iqtisadiyyatın inkişafında 4.0 Sənaye inqilabının tətbiqləri və beynəlxalq təşkilatların tövsiyələri diqqətə çatdırılmışdır. Qarabağ regionunda iqtisadi inklüzivliyin yüksəldilməsi yolları göstərilmişdir. İnnovativ infrastrukturun, rəqəmsal texnologiyaların və yeni iqtisadi trend olan data iqtisadiyyatının formalaşması, tətbiqi, inkişafı xüsusiyyətləri şərh olunmuşdur. Göstərilmişdir ki, işğaldan azad edilmiş ərazilərdə İKT infrastrukturunun təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi yeni iqtisadi idarəetmə şəraitində iqtisadiyyatın səmərəliliyinin artırılmasına və dövlətin Qarabağın dirçəldilməsi və inkişafı kursuna əlavə imkanlar yarada bilər.

**Açar sözlər:** E-Qarabağ, rəqəmsal iqtisadiyyat, rəqəmsal transformasiya, data iqtisadiyyatı, smart şəhər və kənd, yaşıllaşdırma və inklüziv texnologiyalar, 4.0 Sənaye inqilabı.

→

## Giriş

Müasir dövrdə iqtisadiyyatın texnoloji innovasiyalar əsasında modernləşdirilməsi, süni intellekt, robotlaşdırma, informasiya-kommunikasiya, kosmik və s. kimi yüksək texnoloji sektorların inkişaf etdirilməsi real iqtisadi sektorların daha sürətli inkişafına nail olmağın əsas yollarından hesab olunur. Son illərdə meydana gələn 4.0 Sənaye inqilabının çağırışlarına [10] müvafiq olaraq elmtutumlu yüksək texnologiya məhsullarının istehsal sahələri dünya iqtisadiyyatının əsas sektoruna çevrilmişdir.

Azərbaycanın sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində [2] işğaldan azad edilmiş post-konflikt ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin yaradılması və onun imkanlarından faydalanma Azərbaycanın inkişafına böyük təkan verəcəyi göstərilmişdir. Ölkənin və regionun Milli Prioritetləri Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir [2].

İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə ölkə qarşısında duran ən mühüm məsələlərdən birinə çevrilmişdir [9]. Bu istiqamətdə İKT infrastrukturunun əsasını təşkil edən İnternet şəbəkəsinin inkişafı, “Hökumət buludu” (G-Cloud), “Böyük həcmli verilənlər” (Big Data), “Ağıllı şəhər” (Smart City), “Ağıllı kənd” (Smart Village) və s. kimi perspektivli rəqəmsal layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır [9].

Azərbaycanda **İKT əsasında yeni texnoloji innovasiya iqtisadiyyatı sektorları daha sürətlə inkişaf etdikcə mobil idarəetmə, mobil bulud texnologiyaları, mobil hökumət texnologiyaları, mobil nəqliyyat vasitələri və s. kimi sahələrin də inkişafında yeni imkanlar yaranır. Bu baxımdan,** ənənəvi iqtisadiyyat sektorlarının daha sürətli inkişafına nail olmaq üçün Qarabağ iqtisadi regionunda yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılması və yüksək ixrac potensiallı müxtəlif təyinatlı innovativ strukturların yaradılması nəzərdə tutulmalıdır. Qarabağ iqtisadi regionunda milli iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, inşaat və s. kimi sektorlarının innovativ, rəqəmsal texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi üçün qlobal çağırışlar, iqtisadi inkişaf üzrə beynəlxalq trendlər maksimum nəzərə alınmalıdır. Həmin regionlarda innovativ inkişaf infrastrukturunun formalaşmasında startapların, biznes-inkubatorların, innovativ-sahibkarlıq mərkəzlərinin, sənaye, aqrar yönümlü innovasiya müəssisələrinin inkişafını stimullaşdıran klasterlərin və yüksək texnologiyalar parklarının yaradılmasına da diqqət yetirilməlidir. ***Ənənəvi*** *Qarabağ iqtisadiyyatından smart tipli* Qarabağ rəqəmsal iqtisadiyyatına keçid üçün yüksək texnologiyalar parkı, elm əsaslı sənaye, aqrar texnoparkları əsas hərəkətverici qüvvəyə çevrilə bilər. Qarabağ iqtisadi regionunda Elektron Qarabağ kompleks proqramı işlənilməli və həmin proqram çərçivəsində müvafiq işlərin görülməsi respublika üçün əhəmiyyətli məsələyə çevrilməlidir. Məhz buna görə də, Qarabağ iqtisadi regionunda “ağıllı şəhərlər və kəndlər”, intellektual sistemlərin, infrastrukturların yaradılması, Qarabağ iqtisadiyyatının bərpası və inkişafında rəqəmsal transformasiyanın  və onun problemlərinin həlli üzrə perspektiv istiqamətlərin müəyyənləşdirilməsi ölkə qarşısında duran əsas məqsəd və vəzifələrdəndir.

## Qarabağ regionunda yeni iqtisadiyyat quruculuğunun inkişaf istiqamətləri

Qarabağda yeni iqtisadiyyat quruculuğunun inkişafının sürətləndirilməsi üçün ölkədə dövlət strukturları ilə yanaşı akademik təşkilatlarda da müxtəlif istiqamətlərdə işlər həyata keçirilir [13]. Burada əsasən**:** konflikt sonrası reabilitasiyanın ümumi metodoloji prinsiplərinin hazırlanması; ərazilərin konfliktdən əvvəlki və konfliktdən sonrakı vəziyyətinin müqayisəli qiymətləndirilməsi; post-konflikt ərazilərdə dövlət idarəetmə sisteminin və özünü idarəetməsinin spesifik xüsusiyyətləri; post-konflikt ərazilərdə həyat təminatı sistemlərinin, o cümlədən yaşayış fondunun, enerji təminatının, su və qaz təchizatının yenidən qurulması və əhalinin repatriasiyasının təşkili; post-konflikt ərazilərdə infrastrukturun, o cümlədən mülki idarəetmə orqanlarının iş infrastrukturunun, nəqliyyat infrastrukturunun, telekommunikasiyaların və sosial obyektlərin bərpası; post-konflikt ərazilərdə iqtisadiyyatın dirçəldilməsi üzrə tədbirlərin, ölkədaxili və beynəlxalq müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsi; konfliktdən sonrakı reabilitasiya sahəsində beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq imkanlarının qiymətləndirilməsi; konfliktdən sonrakı reabilitasiya prosesində ortaya çıxa biləcək potensial xarici və daxili risklərin idarə olunması və s. kimi istiqamətlərdə araşdırmalar aparılmaqdadır.

## Qarabağ iqtisadiyyatının inkişafında 4.0 Sənaye inqilabının tətbiqləri

Qarabağ regionunda rəqəmsal transformasiyanın həyata keçirilməsinin müəyyən xüsusiyyətləri vardır. Azərbaycanda və onun regionlarında rəqəmsal transformasiyalara uyğun olan müvafiq infrastruktur, ilk növbədə, dünya trendlərinə uyğun olaraq formalaşmalıdır. Qarabağ regionunda 4.0 Sənaye inqilabı çərçivəsində bəzi texnoloji innovasiyaların tətbiqi və əhəmiyyəti daha böyükdür **[8].** Maliyyə, o cümlədən blokçeyn texnologiyalarının inkişafı, yeni şəbəkə kriptovalyutalarının meydana gəlməsi beynəlxalq pul-maliyyə münasibətlərində bir çox sosial-iqtisadi dəyişmələrə səbəb olacaqdır. 3D çapı yeni istehsal, satış, marketinq, reklam texnologiyaları yaradacaqdır. Sənaye inqilabı nəticəsində enerjinin toplanması, saxlanması sahəsində və yeni alternativ enerji mənbələrinin meydana gəlməsi hesabına insan-təbiət münasibətlərində yeni tənzimlənmə mexanizmlərinə ciddi ehtiyac yaranacaqdır. Müxtəlif sahələrdə 4.0 Sənaye inqilabına [10] əsaslanan implant texnologiyaları, yeni görmə interfeysi, daşınan İnternet, Əşyalar

İnterneti, "ağıllı şəhər", "ağıllı ev", "rəqəmsal insan", "cib superkompüteri", "Big data texnologiyaları", "pilotsuz avtomobillər", "süni intellekt", "robototexnika", "kriptovalyuta texnologiyaları", istehsalatda, təhsildə, tibbi sferada və kütləvi tələbat malları sahəsində "3D çap" kimi əsas İnternet və informasiya texnologiyalarının tətbiqi genişləndirilməlidir. Tədqiqatlar göstərir ki, 4.0 Sənaye inqilabının gətirəcəyi yeniliklər, müasir dövrdə yeni inqilabların yaranması, ona keçid üçün perspektiv imkanlar yaradır. Belə ki, 4.0 Sənaye inqilabında mövcud olan innovativ texnologiyaların struktur elementlərinin bir-biri ilə qarşılıqlı əlaqədə olması, fəaliyyət göstərməsi və yaxın gələcəkdə həmin elementlər arasında əlaqələrin daha da təkmilləşdirilməsi, yeni texnologiyaların davamlı inkişafı üçün geniş imkanlar yaradır.

Yeni texnologiyaların önəmlilərindən olan böyük verilənlər (big data) m*üasir dövrdə* xeyli vaxtdır ki, əsas əmtəə funksiyasını daşıyır. Bu cür irihəcmli, qarışıq və nizamlanmamış strukturlu verilənlərin toplanması, saxlanılması, emalı, mühafizəsi, istifadəsi və ötürülməsi üçün ən yeni üsullar tətbiq edilir.

İndiki dövrdə dünya ölkələri 5G, böyük verilənlər bazası, süni intellekt və kvant hesablama kimi texnologiyalara daha çox sərmayə yatırırlar. 5G-nin 2035-ci ilə qədər 13 trilyon dollarlıq dəyər yaradacağı və 22 milyon yeni iş yeri açacağı, qlobal süni intellekt bazarının isə 2030-cu ilə qədər 15 trilyon dollara çatacağı proqnozlaşdırılır. 2025-ci ilədək qlobal IoT texnologiyası üzrə gəlir üç dəfədən çox artaraq 1,1 trilyon dollara çatacaqdır. 2035-ci ilə qədər iş yerlərinin 50%-ə qədəri avtomatlaşdırılacaqdır.

Beynəlxalq trendlərə müvafiq olaraq Azərbaycanda rəqəmsal transformasiya konsepsiyasının formalaşmasında informasiyanın məxfiliyinin qorunması, kontentin və rəqəmsal ticarətin tənzimlənməsi, kibertəhlükəsizliyin təmin edilməsi kimi vacib məsələlər nəzərdə tutulur. Hazırda əksər supergüclü dünya dövlətləri özlərinin *data* iqtisadiyyatlarını formalaşdırırlar. Dünyada rəqəmsal transformasiyanın sürətlə inkişafı kvant transformasiyasının yayılmasına da imkanlar yaratmaqdadır. Dünya iqtisadiyyatına İKT-nin inkişafı nəticəsində 2030-cu ilə 15,7 trilyon ABŞ dolları vəsait cəlb etmiş olacaqdır. Bu proqnozlar rəqəmsal transformasiyanın ölkənin, o cümlədən Qarabağın iqtisadi inkişafı üçün nə qədər əhəmiyyətə malik olduğunu göstərir.

**Qarabağ iqtisadiyyatının İKT əsasında «yaşıl» inkişafı məsələləri**

Regionlarda qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq İKT əsasında ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır [2, 6]. İKT əsasında ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində, strateji dövrdə yüksək keyfiyyətli ekoloji mühit, yaşıl enerji məkanı kimi məqsədlərin effektiv reallaşdırılmasına müvafiq innovasiya və informasiya infrastrukturunun formalaşdırılması əsasında nail olunmalıdır. Hazırda Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində müvafiq işlər yerinə yetirilir. Bu regionda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyaların tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbədən az sonra başlanmışdır.

2020-ci ilin yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdur. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. Bu il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır [4].

Strateji dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən İKT sistemlərinə əsaslanmaqla istifadə xüsusilə daha çox artacaqdır. Bunu nəzərə alaraq, enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan və İKT

sistemlərinə əsaslanan “yaşıl” texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə də müsbət təsir göstərəcəkdir [2].

**Qarabağ regionunda iqtisadiyyatın inklüzivliyinin** yüksəldilməsi texnologiyaları

Ölkənin regionlarında əhalinin rifahının daha da artırılması üçün sosial yönümlü bazar iqtisadiyyatı inkişaf etdirilir [2]. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkənin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaqdır. Dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılması, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli “hərəkətverici qüvvələri”nin möhkəmləndirilməsi – insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi tələb edilir.

Regional iqtisadi inklüzivliyinin artırılması üçün əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi tədbirlər həyata keçirilir [3]. Regionlarda cəmiyyətin inklüzivliyini yüksəltmək üçün müvafiq sahələri əhatə edən, inklüziv siyasəti reallaşdıran inklüziv strateji konsepsiyalar, layihələr, proqramlar həyata keçirilməlidir. E-elm, e-tan inklüziv strateji konsepsiyalar, layihələr, proqramlar və s. kimi İKT platformaları cəmiyyət üzvlərinin istəkləri əsasında formalaşmalıdır. Onlar informasiya və biliklər cəmiyyətinin zəruri komponentləri kimi qlobal **dünya sistemləri ilə inteqrasiya olunmalıdır. İKT vasitəsilə effektivliyini artıran kommunikasiya və kommunikativ mühit inklüzivlik səviyyəsinin yüksəldilməsinə böyük imkanlar yaradır. Mobil telefon, kompüter, veb-saytlar və s. yeni tipli iş alətləri kimi zamandan və məkandan asılı olmayaraq yeni məhsuldar qüvvə formasında çıxış edir. Bu problem yalnız İKT-yə və innovativ texnologiyalara əsaslanan informasiya və biliklər cəmiyyəti şəraitində öz müsbət həllini tapa bilər. Qlobal miqyasda tətbiq olunan “Əşyaların İnterneti” (IoT), Cloud computing, softkomputing, bigdata texnologiyaları, IV Sənaye inqilabı komponentləri cəmiyyətdə vətəndaşların birgə fəaliyyətinə, inklüzivlik səviyyəsinin artmasına əlavə imkanlar yaradacaqdır.**

**Qarabağ iqtisadi regionunda innovativ mühitin formalaşması**

Müasir yüksək texnologiyaların regional iqtisadiyyatda tətbiqləri göstərir ki, işğaldan azad olunmuş ərazilərdə innovativ mühitin formalaşması hazırkı dövrün əsas tələbidir. İnnovasiya mühitinin inkişafına sosial-iqtisadi şərait, idarəetmə təcrübəsi, insan kapitalı, innovativ potensial və s. kimi amillər təsir edir. Yüksək texnologiyaların regional iqtisadiyyatda tətbiqinin yüksəlməsi həmin regionun ÜDM-də innovativ, rəqəmsal texnologiyaların payının yüksəlməsinə səbəb olan amillərdəndir [5, 7, 11, 12].

Hal-hazırda dünya dövlətlərinin ÜDM-nin təxminən 22%-i İKT, rəqəmsal iqtisadiyyat sayəsində formalaşaraq inkişaf edir. Hesablamalara görə, iş yerlərinin avtomatlaşması hesabına dünya ÜDM-i 2030-cu ilə qədər 9 trilyon dollara qədər artması proqnozlaşdırılır. 2030-cu ilə qədər dünyada işçi qüvvəsinin təqribən 14 faizi öz peşəsini dəyişmək məcburiyyətində qalacaq. 2035-ci ilə dünya rəqəmsal iqtisadiyyatının proqnozlaşdırılan həcmi 16 trln. dollar təşkil edəcəkdir. 2025-ci ildə Çində ÜDM artımının 22%-nə qədəri İnternet texnologiyası hesabına təmin ediləcəkdir. İnnovativ, rəqəmsal texnologiyalar müasir sosial-iqtisadi inkişafın innovativ istiqamətlərinə daxildir. Sosial-iqtisadi inkişafda innovativ, rəqəmsal texnologiyaların tətbiqi müasir dövrdə dünya ölkələrinin əsas innovativ inkişaf istiqamətlərindən birinə çevrilib. Rəqəmsal iqtisadiyyatda innovativ texnologiyaların tətbiqi ilə istehsal olunan BioTech, FinTech, Digital-marketing, Grid-texnologiyalar, BlockChain, RetailTech, NanoTech, GovTech, LegalTech və s. kimi məhsul və xidmətləri göstərmək olar. İKT əsasında formalaşan yeni texnoloji innovasiya iqtisadiyyatı sek-

torlarının [8] inkişaf səmərəliliyinin yüksəldilməsində 4.0 Sənaye inqilabının tətbiqi tələblərini nəzərə almaqla regionun iqtisadiyyatında uğurlu nəticələr qazanmaq mümkündür.

**Qarabağda iqtisadiyyatın rəqəmsallaşdırılması və rəqəmsal texnologiyaların tətbiqi xüsusiyyətləri**

İşğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələrinin də 4.0 Sənaye inqilabının əsas trendlərindən olan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında bərpa olunacağını Ölkə Prezidenti çıxışlarında bəyan etmişdir. Ölkənin 4.0 Sənaye inqilabı üzrə regional mərkəzə çevrilməsi üçün 2021-ci il aprelin 19-da "Ağıllı şəhər" (Smart City) və "ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncamın [1] imzalanması onun bariz nümunəsidir. Azərbaycan Respublikasının şəhər və kəndlərində müvafiq sahə üzrə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir.

Müasir telekommunikasiya, sensor, "Böyük həcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-biri ilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır [1]. **"**Ağıllı kənd" ideyası dünyada kənd yerlərində həyatın asanlaşdırılması, kəndlərin yaşayış üçün daha yararlı hala gətirilməsi yolu ilə urbanizasiyanın-şəhərləşmənin qarşısının alınması məqsədilə irəli sürülmüş layihədir ki, əsasən kəndlərdə xidmətlərin asanlaşdırılmasına yönəldilmiş bütün işlərin şəbəkə üzərindən həyata keçirilməsindən ibarətdir. Digər bir məqsəd - kənddə kiçik və orta sahibkarlığın inkişafı üçün real şərait yaratmaq, insanlara kənddə pul qazanmaq imkanının yaradılmasıdır. Dövlət xidmətlərinin asanlaşdırılması, İnternetlə təqdim olunması kənd sakinlərini yaşadıqları əraziyə bağlayan amillərdən birinə çevrilməsi ideyasının özəlliyi sakinlərin kiçik sahibkarlar kimi fəaliyyət göstərməsidir. Bunların əsasında "ağıllı kənd"də ağıllı infrastruktur və xidmətlər, ağıllı təsərrüfat və biznes, ağıllı dövlət idarəçiliyinin vəhdəti təmin edilir**.**

Qarabağ və digər regionlarda kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi ölkədə hazırki dövrdə əsas məsələlərdəndir. Kənd təsərrüfatında tətbiq olunan pilotsuz uçuş aparatı texnologiyası vasitəsi ilə kənd təsərrüfatı sahələrinin xüsusiyyətlərini, aqrokimyəvi tərkibini təhlil etmək imkanları yaratmaq mümkündür. Həmçinin bu, əkin sahələrinin səmərəliliyinin artırılması, maya dəyərinin azaldılması, ətraf mühitin qorunması və məhsuldarlığın artırılmasına yönəlmiş müasir texnologiyadır. Burada əsas məqsəd - müəssisənin istehsal etdiyi dronun, həmçinin multispektral kamera vasitəsilə çəkilişlərin və PUA-nın pambıqçılıqda tətbiqi imkanlarını nümayiş etdirməkdən ibarətdir.

**Nəticə və təkliflər**

Regional iqtisadiyyatın rəqəmsal transformasiyası son illərdə ölkə qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. Regionlarda İKT infrastrukturunun inkişafı, "Ağıllı şəhər", "Ağıllı kənd" və s. kimi perspektivli rəqəmsal layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bununla region rəqəmsal mərkəzə çevrilə bilər və "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri üzrə müvafiq zəruri xidmətlər formalaşdırıla bilər. Regionun şəhər və kəndlərində müasir İKT-nin tətbiqi ilə göstərilən xidmətlərin keyfiyyətinin səmərəliliyini artırmaq olar. Post-konflikt ərazilərdə ənənəvi iqtisadiyyatdan texnoloji innovasiya əsaslı iqtisadiyyata keçid xüsusi əhəmiyyətə malikdir. Yeni rəqəmsal və süni intellekt texnologiyaları iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Həmin texnologiyaların istifadəsi ilə rəqəmsal məlumatların işlənilməsi və idarəetmənin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar açılır. Ənənəvi iqtisadiyyatdan innovativ iqtisadiyyata keçid üçün innovasiya strukturları hərəkətverici qüvvəyə çevrilir. Onların yaradılması ölkədə innovasiyaya əsaslanan iqtisadiyyatın inkişafı üçün əhəmiyyətlidir Qarabağ

iqtisadiyyatının bərpası və inkişafında rəqəmsal transformasiya üzrə perspektiv istiqamətlərin formalaşdırılması, onun sosial-iqtisadi proseslərə təsiri aspektlərinin müəyyənləşdirilməsi üzrə müəyyən tədbirlər yerinə yetirilməlidir. Ölkə iqtisadiyyatının işğaldan azad olan ərazilərində inkişafın modernləşdirilməsində beynəlxalq təşkilatların tövsiyələri, çağırışları, 4.0 Sənaye inqilabının tələbləri də nəzərə alınmalıdır.

BMT-nin 2030-cuilədək dayanıqlı inkişaf sahəsində dünyanın transformasiyası üzrə öhdəliklərinin icrası istiqamətində formalaşan və Ölkənin əsas Milli Prioritetlərinə uyğun olan Qarabağ iqtisadiyyatında ənənəvi sahələrin və yeni sektorların inkişaf etdirilməsinin xüsusi əhəmiyyəti vardır. Qarabağda yeni iqtisadiyyat quruculuğunun rəqəmsal texnologiyalar əsasında inkişafı istiqamətlərində araşdırmaların aparılması, sosial rifah səviyyəsinin davamlı artması məqsədilə, inklüzivliyin yüksəldilməsi üçün müasir texnologiyaların tətbiqi prioritet məsələlərdəndir. Qarabağ iqtisadi regionunda innovasiya infrastrukturunun formalaşması və rəqəmsal texnologiyaların tətbiqi ölkə üçün də aktual məsələlərdəndir. İşğaldan azad edilmiş ərazilərdə İKT infrastrukturunun təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi yeni iqtisadi idarəetmə şəraitində rəqəmsal iqtisadiyyatın səmərəliliyinin artırılmasına və dövlətin Qarabağın dirçəldilməsi və inkişafı kursuna əlavə imkanlar yaradacaqdır.

**İstinadlar**


1. "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 19 aprel 2021. https://president.az/articles/51179.
2. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və onun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2 fevral 2021. https://president.az/articles/50474.
3. Aliyev A.G. Development of the indicators system for the assessment of the inclusive development level of information economy. The 13th IEEE International Conference Application of Information and Communication Technologies. Bakı, 2019, pp.276-279.
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 03 may 2021. https://president.az/articles/51355.
5. Digital Economy Report. 2019, 194 p.
6. Əliquliyev R.M., Əliyev Ə.Q. Yaşıl iqtisadiyyatın formalaşmasında İKT-nin rolu, problemləri və perspektivləri. İnformasiya Cəmiyyəti Problemləri jurnalı, 2017, №2, səh.64-73.
7. Əliyev Ə.Q. Postkonflikt ərazilərdə innovativ inkişaf infrastrukturunun formalaşması problemləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2021, №1, səh.60-71.
8. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşması və onların sosial iqtisadi proseslərətəsiri aspektləri . İnformasiya cəmiyyəti problemləri, 2021. №1, səh. 94-110.
9. Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 aprel 2021. https://president.az/articles/51299.
10. Schwab K. The Fourth Industrial Revolution. Limited, 2017, 192 p.
11. Стародубцева Е.Б., Маркова О.М. Цифровая трансформация мировой экономики. Вестник АГТ университета. Серия: Экономика, 2018, №2, с.7-15. 21.
12. Сычева Е.В., Вахутова В.В., Савицкая К.С. Цифровая экономика: перспективы инновационного развития территорий Российской Федерации. Научный ежегодник Центра анализа и прогнозирования, 2018, №2, стр.104-108.
13. https://science.gov.az/az/news/open/16136

ƏLİYEV Şəfa

Sumqayıt Dövlət Universiteti, i.e.d., professor

# AĞDAMDA YENİ İQTİSADİYYAT QURUCULUĞUNUN STRATEJİ ASPEKTLƏRİ VƏ PRİORİTETLƏRİ

**Xülasə:** Məqalədə Ağdamda müasir reallıqlar şəraitində yeni iqtisadiyyat quruculuğunun strateji tərəflərinin və prioritetlərinin müəyyənləşdirilməsinə baxılır. İşğaldan azad olunmuş ərazilərin sistemli, komplekslilik prinsipləri əsasında bərpası və inkişafı, bunlarla bağlı optimal yanaşmalar formalaşdırılır. Ağdamın inkişafında tətbiq olunan dirçəliş və inkişaf strategiyasının özündə qabaqcıl dünya təcrübəsini ehtiva etməklə, bu ərazilərin ənənəvi inkişaf xüsusiyyətlərini və potensialını əks etdirməsi fikrinin əsaslandırılması verilir. Ağdamın yaranması, inkişaf prosesləri, iqtisadi imkanları açıqlanır. İşğaldan sonrakı dövrdə Ağdamın inkişaf prioritetləri və bununla bağlı potensial araşdırılır, təhlil olunur və qiymətləndirilir. Ağdamın Qarabağın mərkəzində yerləşməsinin strateji üstünlükləri və əhəmiyyəti diqqətə çatdırılır. Mövcud imkanlardan, strateji hədəflərdən, müəyyənləşdirilmiş prioritetlərdən, Ağdam şəhərinin təsdiq olunmuş Baş Planından çıxış etməklə, Ağdamda yeni iqtisadiyyat quruculuğu istiqamətləri üzrə tövsiyələr verilir və təkliflər irəli sürülür.

**Açar sözlər:** Ağdam, Baş Plan, yeni iqtisadiyyat, Qarabağ, iqtisadi potensial, prioritet, infrastruktur, sənaye parkı, inkişaf və s.

→

## Giriş

2020-ci ildə sentyabrın 27-dən başlayan 44 günlük Böyük Qarabağ Zəfərindən sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və ən yüksək texnologiyalar əsasında bərpa edilməsi istiqamətində böyük həcmli işlərə başlamışdır. Hədəf Qarabağı və ona bitişik ərazilərimizi sosial-iqtisadi inkişaf baxımından ən yüksək standartlar səviyyəsinə qaldırmaq, bu regionu dinamik inkişaf edən və həyat səviyyəsi yüksək olan bölgəyə çevirməkdir. Qarabağın mərkəzində yerləşən Ağdam bu regionun qürur yeri kimi tarixə düşmüşdür. Ağdam qəhrəmanlıq rəmzi ilə yanaşı, həm də güclü təbii və iqtisadi resurslara malik olmuşdur. İşğal dövründə erməni vandalları tərəfindən Ağdam şəhəri və onun ərazisi yerlə yeksan edilmişdir. 2008-ci ildə “Lonely Planet” jurnalı Ağdamı “Qafqaz Hiroşiması” kimi qiymətləndirmişdir. 2010-cu ildə isə Əl-Cəzirən internet nəşri Ağdamı “ruhlar şəhəri” siyahısına əlavə etmişdir. Ermənilərin vəhşiliyi nəticəsində Ağdamda salamat heç nə qalmamışdır və iqtisadi, təbii resurslar talan olunmuşdur. Tədqiqatda başlıca məqsəd Qarabağda yeni iqtisadiyyat quruculuğu konsepsiyasının reallaşdırılmasında Ağdamın iqtisadi və təbii potensialının təhlil olunması, qiymətləndirilməsi və prioritet istiqamətlər üzrə təkliflərin irəli sürülməsidir.

**Təhlil və qiymətləndirmə**

Azərbaycan işğaldan azad olunmuş ərazilərin planlı və geniş həcmli işlərə söykənmiş fəaliyyət strategiyasını artıq ortaya qoymuşdur, regionun dirçəlişinin strateji hədəfləri müəyyənləşdirilmişdir, pilot-layihələrin icrasına başlanılmışdır. Hər tərəfdə infrastruktur şəbəkəsi formalaşdırılır, bir sözlə, həyat Qarabağda və ona bitişik rayonlarda böyük sürətlə canlanmaqdadır. Məhz belə bir şəraitdə və həlledici məqamda ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonlaşmanın yeni bölgüsünün aparılması, onların sayının artırılması ölkədəki regional inkişafa və bütövlükdə milli iqtisadiyyatın inkişaf modelinin təkmilləşdirilməsinə, idarəetmə mexanizmlərinin gücləndirilməsinə yeni təkan verəcəkdir [1]. Fərmanda qeyd edilir ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Hesab edirik ki, bu tədbirlərin daha səmərəli təşkilində yeni iqtisadi rayonlaşmanın strateji əhəmiyyəti olacaqdır. Məlumdur ki, Qarabağ bölgəsi yarandığı dövrdən özünəməxsus xüsusiyyətləri ilə, məşğuliyyət formaları, təbii ehtiyatları, zəngin tarixi-mədəni irsi ilə daha çox yadda qalmışdır. Qarabağa tarixən onun döyünən ürəyi Şuşa ilə yanaşı, Xankəndi şəhəri, Ağcabədi və Bərdə rayonları, Ağdam, Füzuli, Tərtər, Xocavənd və Xocalı rayonları aid olmuşlar.

Ağdam rayonunun formalaşması və inkişafına tarixi aspektdən qısaca yanaşsaq, Qarabağın mərkəzində yerləşən, ərazisi 1094 kvadrat km. olan bu rayon 1930-cu il avqustun 8-də yaranmışdır. [2] 2021-ci il yanvarın 1-nə rayon əhalisinin ümumi sayı 204 min nəfər təşkil etmişdir, bunun 47 min nəfərə yaxını işğal olunmayan kəndlərdə yaşayan əhalidir [3]. Hazırda öz yurdlarından didərgin düşmüş 34516 ailə, yaxud 146931 nəfər məcburi köçkün ölkəmizin 62 şəhər və rayonunda müvəqqəti olaraq məskunlaşmışdır [4]. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” mənasını versə də, həmişə düşmənlərimizin gözündə alınmaz qala olmuş və ox kimi onların hiyləgər gözlərinə batmışdır. Buna görə də əllərinə düşmüş ilk fürsətdəcə yırtıcı düşmənlərimiz Ağdamı viran qoydular. Sovetlər Birliyi dövründə Ağdamda əsas etibarilə ağır, yeyinti və yüngül sənaye sahələri, həmçinin öz dövrünə görə yüksək inkişaf etmiş kənd təsərrüfatı və aqrar-sənaye kompleksi mövcud olmuşdur. Rayonda çoxlu sayda sənaye, tikinti-quraşdırma müəssisələri və sosial müəssisələr fəaliyyət göstərmişdir. Burada dünyaca məşhur olan və 1949-cu ildə yaradılan Ağdam Atçılıq Zavodu fəaliyyət göstərmişdir. 1993-cü il iyul ayının 23-dən işğal olunan Ağdam bütün bunlardan məhrum olmuşdur və yalnız 20 noyabr 2020-ci ildə işğaldan azad olunduqdan sonra Ağdamın bərpa və dirçəldilməsi proseslərinə yenidən başlanılmışdır.

Ağdamın iqtisadi potensialı və müasir dövrdə onun yenidən qurulmasının strateji aspektlərini müəyyənləşdirmək üçün bir sıra məqamlara diqqət yetirmək lazımdır. Əgər 1980-ci illərin statistik rəqəmlərindən yanaşsaq, Ağdamda 7,7 min hektarda taxıl əkilmiş, 7,6 min hektarda pambıq becərilmişdir. 13 min hektardan çox sahədə isə üzüm yetişdirilmişdir və ümumilikdə əkin sahələrinin həcmi 28,8 min ha olmuşdur. Aqrar Tədqiqatlar Mərkəzinin proqnozlarına baxsaq, Ağdamda perspektivdə əkin sahələrinin ümumi həcmi təxminən 63,3 min ha gözlənilir. Bunun 28,9 min hektarında taxılçılıq, 10,9 min hektarında isə yem bitkilərinin istehsalı təşkil edəcəkdir. 1980-ci ildə Ağdamda taxıl istehsalı 30,1 min ton təşkil etmişdirsə, yaxın perspektivdə bu rəqəmin 102 min tona qədər artacağını gözləmək olar [5].

Analoji perspektivlər heyvandarlıqda da diqqət çəkir, məsələn, 1980-ci ildə Ağdamda iribuynuzlu heyvanların sayı 44,4 min baş və xırdabuynuzlu heyvanların sayı 191,8 min baş olmuşdursa, yaxın illərdə bu göstəricilərin müvafiq olaraq: 59,4 min baş və 273,2 min baş olacağı perspektivləri vardır. İşğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar keyfiyyət xüsusiyyətlərinə və məhsuldarlıq qabiliyyətinə görə respublikanın digər rayonları ilə müqayisədə yüksək xüsusi çəkiyə malikdir. Ərazinin torpaq-iqlim xüsusiyyətləri burada kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin yüksək və səmərəli inkişafına imkan verir [6, s. 43].

Bundan əlavə, işğala qədər olan dövrdə Ağdamda ağır sənaye müəssisələri, cihazqayırma müəssisələri, dəzgah avadanlıqları zavodu, yeyinti və yüngül sənaye müəssisələri, o cümlədən yağ-pendir və çörək zavodları, taxıl məhsulları emalı müəssisəsi, pambıq, şərab zavodları, traktor və avtomobil təmiri zavodu və s. fəaliyyət göstərmişdir. Maraqlıdır ki, təkcə Ağdam Dəzgahqayırma Zavodunda 950 nəfər işləmişdir və bu zavodun məhsulları keçmiş SSRİ-nin 125 şəhərinə yola salınırdı. Taxıl məhsulları kombinatı il ərzində 80 min ton məhsul istehsal edirdi [7]. Məhz

bu kimi potensial komponentlərindən və ənənəvi fəaliyyət sahələrindən çıxış etməklə, Ağdamın güclü və perspektivli iqtisadi potensialının olması qənaətinə gəlmək mümkündür.

Qeyd olunan sahələrlə yanaşı, digər iqtisadiyyat sahələrinin, ilk növbədə tikinti materialları sənayesinin və turizmin inkişaf etdirilməsi üçün də güclü imkanlar vardır [8]. Ağdam rayonu qısa zamanda Azərbaycan iqtisadiyyatına xüsusi töhfə verə biləcək bir rayondur. Ağdam rayonunun torpaqlarının 92 %-i əkin üçün yararlı torpaqlardır. Bu isə rayonun böyük aqrar potensialının olmasından xəbər verir. Ağdam yeni bərpa və quruculuq mərhələsinə qədəm qoyur [9]. Bu rayonda müxtəlif sənaye və kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi imkanları investorlar üçün kifayət qədər cəlbedici olacaqdır. Belə ki, məhsuldarlıq baxımından, həm də təbii və iqtisadi resurslar nöqteyi-nəzərindən Ağdamda investisiya layihələrinin səmərəlilik problemlərinin az olacağını söyləmək mümkündür. Xüsusilə, qeyri-neft məhsullarından ibarət milli brendlərin formalaşdırılması və dünya bazarlarına çıxarılmasında güclü potensialı vardır. Məsələn, keçmiş SSRİ-də "Ağdam" şərabı brend kimi məşhur idi [10]. Hesab edirik ki, hazırda qeyri-neft məhsullarının ixrac strukturunun diversifikasiyalaşdırılması və həcminin artırılması baxımından, Ağdamda onlarla sənaye və kənd təsərrüfatı məhsullarından ibarət milli brendlərin formalaşdırılması imkanları yaranacaqdır. Bu təkcə ixrac məsələsi deyildir, həm də Ağdamın-Qarabağımızın toponimlərindən formalaşmış adlarla milli brendlərin hazırlanması və dünya bazarlarına çıxarılması deməkdir.

Digər tərəfdən, bu torpaqlarda taxıl məhsullarının istehsalının artırılması üçün güclü potensial olduğu məlumdur və bu amil yaxın perspektivdə Azərbaycanın ərzaq təhlükəsizliyinin daha dayanıqlı olmasında və idxaldan asılılığının azaldılmasında mühüm rol oynaya bilər. Hazırkı reallıqlar nəzərə alınmaqla, regionda kənd təsərrüfatı istehsalının genişləndirilməsi üçün bitkiçilik və heyvandarlıqla yanaşı, üzümçülük, baramaçılıq və digər sahələrin inkişafında, həmçinin intensiv meyvəçilik sahəsinin yaradılmasında böyük perspektivlər vardır. Bu sahələrin inkişaf etdirilməsi ölkəmizin ümumi kənd təsərrüfatı məhsulları istehsalının 8-10 % səviyyəsində artmasına imkan verəcəkdir.

Ağdam rayonu üzrə statistik təhlildən yanaşsaq, bir sıra məqamlar düşündürücüdür. Bir tərəfdən bunlar qiymətləndirmələr tələb edir, digər tərəfdən isə bunların əsasında yeni yanaşmalar və çağırışlar nəzərə alınmaqla optimal planlaşdırma aparmaq, perspektivləri müəyyənləşdirmək və proqnozlar hazırlamaq mümkündür. Məsələn, rayon əhalisinin sayı 1991-ci ildə 142 min nəfərə yaxın olmuşdursa, 2020-ci ildə bu göstərici 205,1 min nəfər təşkil etmişdir, deməli rayonda kifayət qədər əmək ehtiyatları resursları vardır və onlardan səmərəli istifadə edilməsi prioritetlik təşkil etməlidir. Amma qeyd etdiyimiz kimi, Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində Ağdam rayonunun işğal altında qalan ərazisi tamamilə dağıdılmış, rayonun bütün sənaye müəssisələri məhv edilmişdir.

Hazırda Ağdam şəhərinin yenidən qurulması, şəhər infrastrukturunun yaradılması, dirçəliş və bərpa işlərinin aparılması prosesləri intensiv fazaya keçmək üzrədir. Artıq Ağdam şəhərinin Baş Planı təsdiq olunmuşdur. 28 may 2021-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulmuşdur. Bu tədbirdə çıxışında İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki, bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir...Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq. Vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar idi. İndi iki dəfə böyüdürük" [11].

Müasir şəhər tikintisi ilə bərabər, həm də sənaye infrastrukturunun yaradılması xüsusi diqqət mərkəzində saxlanılır. Belə ki, ölkə Prezidentinin 28 may 2001-ci il tarixli fərmanı ilə Ağdam sənaye parkı yaradılmışdır. Bu parkın yaradılmasında strateji məqsəd sosial-iqtisadi inkişaf imkanlarının şaxələndirilməsi, rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılması və sənaye məhsullarının istehsal olunması, logistika potensialının yaradılması və rayonda iqtisadi fəallığın əhəmiyyətli səviyyədə artırılmasından ibarətdir [12]. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını xeyli artırır [13]. Eyni zamanda, Ağdamda Qarabağ Universitetinin yaradılması sayəsində regionun inkişafı üçün zə-

ruri olan kadr potensialının yetişdirilməsi və insan kapitalı potensialının gücləndirilməsi təmin ediləcəkdir [ 14].

Hesab edirik ki, Ağdam müasir dövrdə Azərbaycanın siyasi və iqtisadi qüdrətini bütün dünyada bir daha nümayiş etdirmək iqtidarında olan, dinamik inkişafı özündə əks etdirən, yüksək, həm də "ağıllı" texnologiyaların cəmləşdiyi gözəl və güclü bir şəhərə çevriləcəkdir. Bu istiqamətlərdə proqnozlar və ekspert rəyləri də qeyd olunan fikirləri söyləməyə əsas verir. Şəhərdə 100 min əhalinin yaşaması nəzərdə tutulub və bununla da Ağdam Qarabağın ən böyük şəhərinə çevriləcəkdir. Şəhərdə geniş funksiyalı şəhər təsərrüfatı infrastrukturu, sosial infrastruktur şəbəkəsi və əhalinin rahat yaşaması üçün zəruri şərait yaradılacaqdır. Ağdamın kreativ nəqliyyat infrastrukturu və sistemi müasirlik və əlverişlilik baxımından ölkəmizdə ilk olacaqdır [15]. Burada bir neçə il ərzində müasir, həm də kifayət qədər iddialı və cəlbedici bir şəhərin yaranacağını gözləmək olar və Ağdam dünyanın uğurlu şəhərlərindən, yüksək texnologiyalar, rəqəmsal mexanizmlər, bərpa olunan enerji resursları ilə qidalanan "yaşıl" şəhər statusuna malik olacaqdır [16].

Yaradılan yeni universal və səmərəli infrastrukturun hesabına xain ermənistanın viran qoyduğu Ağdam tezliklə regionun ən gözəl şəhərlərindən birinə çevriləcəkdir [17]. Azərbaycan Respublikası Prezidentinin Ağdam üzrə xüsusi nümayəndəsi, iqtisadçı-alim E.Z.Hüseynov qeyd edir ki: "Ağdamda mövcud olan faydalı təbii qazıntılar həmin müqayisəli üstünlüyün reallaşması üçün zəmin yaradır... Ağdam kənd təsərrüfatı və emal sənayesi üzrə daha çox ixtisaslaşıb...burada həmçinin tikinti materialları bazarının inkişafı üçün də şərait var" [18]. Göründüyü kimi, Ağdamın yeni iqtisadiyyat quruculuğunda rolu, strateji üstünlükləri və bununla bağlı prioritetlər kifayət qədər çoxşaxəli və perspektivli qiymətləndirilir.

**Nəticə**

Ağdamın yaxın perspektivdə inkişaf hədəfləri, perspektiv və prioritetləri, ilk növbədə ölkə Prezidentinin tapşırıq və tövsiyələrində, daha geniş formada isə əvvəldə qeyd etdiyimiz kimi təsdiq olunan Baş Planda öz əksini tapmışdır. Bu planda Ağdam şəhərinin inkişafı, sosial infrastrukturun və istehsal sahələrinin yaradılması, sənayenin inkişafı və s. üzrə konkret hədəflər verilmişdir. Bunlarla belə, bir qrup məsələlərə və sosial-iqtisadi inkişaf baxımından səmərəli ola biləcək strateji aspektlərə və prioritetlərə diqqət yönəltmək istərdik:

– ilk növbədə, hesab edirik ki, Ağdamın perspektiv inkişafında bu rayonun formalaşması və inkişafı proseslərində özünü doğrultmuş ənənəvi sahələrin dirçəldilməsinə və yüksək texnologiyalar, innovasiyalar əsasında inkişafına üstünlük verilməsi məqsədəuyğun olardı;

– Ağdamın Qarabağın mərkəzinə çevriləcəyi kontekstindən, həm də Baş Planda təklif olunan xidmət, sosial, təhsil, səhiyyə, nəqliyyat və istehsal-sənayeyönümlü hədəflərdən yanaşsaq, Ağdamda Qarabağ Elm və Texnologiyalar mərkəzinin yaradılmasını vacib sayırıq və gələcəkdə regionda yeni innovasiyaların formalaşdırılması, işlənməsi və tətbiqi potensialının artırılması mümkünləşərdi;

– Ağdamda və digər işğaldan azad olunmuş ərazilərdə geniş çeşiddə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, aqrar məhsulların istehsalı potensialının yaradılması nəzərdə tutulur və bu amillərdən çıxış etsək, ixtisaslaşdırılmış "Ağdam qida və tekstil" aqrar-sənaye klasterinin yaradılması təklif olunur. Bu klaster təkcə kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə məşğul olmur, həm də "Ağdam", "Qarabağ" milli brendlərinin formalaşdırılması, festivalların, sərgilərin keçirilməsi məkanı kimi də ixtisaslaşa bilər, bu isə dünyanın hər yerindən investorların və turistlərin marağına səbəb olar;

– işğaldan azad olunmuş ərazilərdə uzun müddət ərzində tikinti və quruculuq işləri gedəcəkdir və şübhəsiz yüksək keyfiyyətli, həm də iri həcmdə tikinti materiallarına ehtiyac yaranmışdır. Bu əsasdan baxaraq ənənəvi xüsusiyyətləri də nəzərə alsaq, "Ağdam tikinti materialları istehsalı klasteri"nin yaradılması, bu klasterin fəaliyyətinə potensial investorların, tikinti materialları üzrə tədqiqat mərkəzlərinin, universitetlərin və peşə-texniki məktəblərinin, sənaye müəssisələrinin, investisiya fondlarının, o cümlədən xarici partnyorların cəlb edilməsi faydalı ola bilər;

– Qarabağ atları amilindən və Ağdam atçılıq zavodunun tarixindən çıxış etməklə, burada müasir iri "Qarabağ-Ağdam atçılıq kompleksi"nin yaradılması, bu kompleksin tərkibində atçılıq zavodunun və beynəlxalq standartlara cavab verən "Qarabağ atçılıq idmanı mərkəzi"nin yaradılması məqsəduyğundur. Gözlənilən dividentlər və nəticələr kimi burada dünya səviyyəli atçılıq yarışlarının keçirilməsi, atçılıq biznesinin və idmanının inkişaf etdirilməsi, daha çox turistin, iş adamlarının və investorların gəlməsinin motivasiyalaşdırılmasını göstərmək olar;

– tarixi kontekstdən, ənənəvi məşğulluqdan və milli koloritdən baxmaqla, Ağdamda "Qarabağ ipək fabriki"nin yaradılmasını təklif edirik və bunun elmi-iqtisadi arqumenti kimi regionda güclü xammal bazasının olması və ipəkdən çoxlu sayda milli brendlərin formalaşdırılması və dünya bazarlarına çıxarılması potensialının olmasıdır, eyni zamanda hər il "Qarabağ ipək festivalı"nın keçirilməsi səmərəli ola bilərdi və dünyanın hər yerindən bu festivala turistlərin, biznes nümayəndələrinin və investorların axınını proqnozlaşdırmaq mümkündür;

– regionda üzümçülüyün inkişafının güclü potensialından və ənənəvi sahə olmasından yanaşmaqla, "Ağdam beynəlxalq şərab şirkəti"nin yaradılmasını vacib sayırıq və burada istehsal zavodu ilə yanaşı, şərab muzeyi, dünya səviyyəli şərab festivalı üçün infrastrukturun təşkili təklif olunur və hər il beynəlxalq şərab festivalının keçirilməsi fayda verə bilər, daha çox turist və iş adamlarının axını təmin olunar;

– Ağdamın yeni iqtisadiyyat quruculuğunun mərkəzinə çevrilməsində "yaşıl" iqtisadiyyat mexanizmləri və elementləri əsas rol oynayacaqdır, buna görə də gecikdirilmədən "Ağdam bərpa olunan enerji kompleksi"nin yaradılmasına ehtiyacın olduğunu vurğulayırıq;

– geniş həcmli dirçəliş və bərpa işlərinin aparılması, innovasiya, yüksək texnologiyalar əsaslı layihələrin həyata keçirilməsi davamlı şəkildə, həm də iri məbləğdə maliyyə-kredit resursları və investisiyalar tələb edir. Bunlar nəzərə alınmaqla, müstəqil balansa malik "Ağdam investisiya-tikinti bankı"nın yaradılması vacibdir, bu həm dövlət statusuna, yaxud özəl statusa, eyni zamanda xarici partnyorlarla birgə müştərək statusa malik maliyyə-kredit müəssisəsi ola bilər, əsas məqsəd maliyyə-kredit xidmətlərinin və investisiya resurslarına əlçatanlığın, operativliyin, bürokratiyadan uzaq bank və maliyyə xidmətləri paketinin təmin olunmasıdır və s.

## İstinadlar


1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
2. Rayon haqqında. http://www.agdam-ih.gov.az/page/10.html.
3. Ağdam. Ümumi məlumat. https://www.virtualkarabakh.az/az/post-item/27/97/agdam.html.
4. Əhalisi. http://www.agdam-ih.gov.az/page/12.html.
5. Fikrətzadə F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpasi istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması // Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). –s.23-37.
6. Vəliyev A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). – s. 38-44.
7. Ağdam iqtisadiyyatı: reallıqlar, perspektivlər. 27.11.2020. https://www.azerbaijan-news.az/view-205536/agdam-iqtisadiyyati-realliqlar-perspektivler.
8. Ağdamın azad edilməsi iqtisadi təşəbbüsləri canlandırır. https://ordu.az/az/news/177942/agdamin-azad-edilmesi-iqtisadi-tesebbusleri-canlandirir.
9. Ağdam iqtisadiyyatımıza böyük töhfə verəcək. 20 Noyabr 2020. https://aqreqator.az/az/iqtisadiyyat/1117658.
10. Osmanova S. Ağdam-Qarabağın sənaye mərkəzi. 03.06.2021. https://hafta.az/agdam-%E2%80%93-qarabagin-senaye-merkezi-302218-xeber.html.
11. Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. AZƏRTAC. 28 may 2021. https://files.preslib.az/projects/regions/r4/c10.pdf.
12. Ağdam Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fər-

manı. 28 may 2021. https://president.az/articles/51773/print
13. İlham Əliyev Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib. 28 may 2021. https://president.az/articles/51769.
14. «Ağdamda Qarabağ Universitetinin yaradılması çox önəmlidir». https://525.az/news/169220-agdamda-qarabag-universitetinin-yaradilmasi-cox-onemlidir.
15. "Xəyalət şəhəri" Ağdam Şərqi Avropanın ən gözəl və "ağıllı" şəhəri olacaq. https://bakuexo.az.
16. Сафаров Г. Агдам: из «Кавказской Хиросимы» в город будущего. 26 Августа 2021. https://caliber.az/ru/post/19332/.
17. Ermənistanın viran qoyduğu Ağdam tezliklə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək. 2021-06-14. http://www.agdam-ih.gov.az/news/865.html.
18. «Ağdamda işləyəcək şirkətlər üçün geniş imkanlar yaradılacaq» - Emin Hüseynov. 04 06 2021. https://rupor.az/sosial/20230-adamda-ilyck-irktlr-n-geni-imkanlar-yaradlacaq.html.

**ƏLİYEV Tərbiz**
AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d.,professor

**ZEYNALOV Mahir**
AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d., dosent

# AĞDAMIN ƏNƏNƏVİ İQTİSADİYYATI VƏ SAHİBKARLIĞIN İNKİŞAFI PERSPEKTİVLƏRİ

**Xülasə:** Məqalədə Ağdam rayonunun ənənəvi iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı sahələrinin işğaldan əvvəl və son illərdəki vəziyyəti araşdırılmış, ənənəvi bitkiçilik, heyvandarlıq sahələri, bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı təhlil edilmişdir. Ağdam rayonunun iqtisadiyyatının müasir standartlar səviyyəsində yenidən qurulmasında sahibkarlığın inkişafının zəruriliyi əsaslandırılmışdır.

**Açar sözlər:** Ağdam rayonu, ənənəvi iqtisadiyyat, heyvandarlıq və bitkiçilik sahələri, sahibkarlıq, özəl sektor

→

## Giriş

İşğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişi üzrə tədbirlər, orada uzunmüddətli perspektiv üçün yeni "inkişaf ocağı" formalaşdırmağa köklənməlidir. Son illərdə qəbul olunmuş və əsasən uğurla həyata keçirilən hökumət proqramları, o cümlədən yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, orta və kiçik sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın qeyri-neft sahələrinin üstün (prioritet) inkişafı üzrə və başqa istiqamətlərdəki dövlət proqramları, post-konflikt rayonların resurs potensialının təsərrüfat dövriyyəsinə daxil olunması sayəsində öz məntiqi davamını tapacaq və bitkin hala gələcəkdir. Azad edilmiş rayonların ölkə iqtisadiyyatına qovuşaraq onun bir parçasına çevrilməsi sayəsində baş verəcək daha bir mühüm irəliləyiş bu olacaqdır ki, iqtisadiyyatın neft amilindən asılılığı xeyli dərəcədə zəifləyəcək və bu da iqtisadiyyatın daha ahəngdar və səbatlı inkişafına yol açacaqdır [6, 199].

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) və Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) yaradılmışdır [1].

Qarabağ iqtisadi rayonunda, o cümlədən Ağdam rayonunda ənənəvi iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil etmişdir. Kənd təsərrüfatının başlıca sahələri üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq, baramaçılıq və tütünçülük idi. Regionda həmçinin meyvə, kartof, bostan-tərəvəz məhsulları becərilib. Burada barama saxlanması üçün geniş sahələrdə tut bağları salınmışdı.

Üzümün məhsuldarlığına görə iqtisadi rayon xüsusilə seçilirdi. Heyvandarlıq, əsasən, ətlik-südlük, yüksək dağlıq sahələrdə isə ətlik-yunluq istiqamətlərində inkişaf etmişdi. İqtisadi rayonun sənayesi yerli kənd təsərrüfatı xammalının emalına əsaslanır. Şərabçılıq, konserv məhsullarının istehsalı, digər kənd təsərrüfatı məhsullarının emalı yeyinti sənayesinin əsas sahələridir. Ağdamda kənd təsərrüfatının ənənəvi sahələrinin və özəl sahibkarlığın, fermer təsərrüfatlarının inkişafı üçün böyük potensial vardır.

**Ənənəvi bitkiçilik sahələri və bitkiçilik məhsullarının istehsalı**

Çox münbit və məhsuldar torpaqlara malik Qarabağda taxıl, pambıq, üzüm, tütün, kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə istehsalı ənənəvi sahələrdir. 1980-ci illərdə ildə regionda 200 min tona yaxın taxıl (ölkə üzrə taxıl istehsalının 14%-i qədər), 20,8 min ton pambıq (ölkə üzrə 3,4%), 4,7 min ton, tütün (ölkə üzrə 8,1%), 3 min ton kartof (ölkə üzrə 1,8%), 9,61 min ton tərəvəz (ölkə üzrə 1,1%), 2,18 min ton bostan məhsulları (ölkə üzrə 3,4%), 1,72 min ton meyvə və giləmeyvə (ölkə üzrə 0,4%), 320 min ton üzüm (ölkə üzrə üzüm istehsalının 25,5%-i qədər) istehsal olunurdu. Göründüyü kimi, ənənəvi sahələr arasında üzümçülük, taxılçılıq və tütünçülük həm əhatə etdiyi əkin sahələrinə, həm də istehsal həcminə görə daha yüksək xüsusi çəkiyə malik olmaqla üstün və inkişaf etmiş sahələr olmuşdur (Cədvəl 1).

**Cədvəl 1. 1980-ci illərdə bitkiçilik məhsullarının istehsalına dair statistika, min ton**

| | **Taxıl** | **Pambıq** | **Tütün** | **Kartof** | **Tərəvəz** | **Bostan** | **Meyvə və giləmeyvə** | **Üzüm** |
|---|---|---|---|---|---|---|---|---|
| Keçmiş Yuxarı Qarabağ | 100.1 | - | 0.3 | 2.77 | 6.6 | 0.3 | 1.1 | 71.8 |
| Ağdam | 30.1 | 19.3 | - | 0.01 | 1.4 | 0.9 | 0.48 | 86.1 |
| Cəbrayıl | 20.1 | - | - | 0.01 | 0.5 | 0.3 | 0.03 | 42.0 |
| Füzuli | 31.9 | 1.5 | - | - | 0.6 | 0.5 | 0.05 | 100.8 |
| Kəlbəcər | - | - | 0.9 | - | - | 0.01 | - | - |
| Qubadlı | 6.7 | - | 2.1 | 0.06 | 0.01 | 0.1 | 0.01 | 2.9 |
| Laçın | 3.0 | - | 0.1 | 0.05 | 0.4 | 0.02 | 0.02 | 0.0 |
| Zəngilan | 4.6 | - | 1.3 | 0.06 | 0.1 | 0.05 | 0.04 | 16.3 |
| **Qarabağ və ətraf rayonlar üzrə cəmi istehsal** | **196.5** | **20.8** | **4.7** | **2.96** | **9.61** | **2.18** | **1.72** | **319.9** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***13.9*** | ***3.4*** | ***8.1*** | ***1.8*** | ***1.1*** | ***3.4*** | ***0.4*** | ***25.5*** |

**Mənbə:** ARKTN

Müqayisə aparanda aydın olur ki, 1980-ci illərdə olduğu kimi son illərdə, 2019-cu ildə də rayonlarda kənd təsərrüfatında ənənəvi bitkiçilik sahələri ilə yanaşı digər sahələr də inkişaf edib. Belə ki, Ağdam və Füzulidə dənli və dənli paxlalılar, pambıq, tərəvəz, şəkər çuğunduru, kartof, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm yetişdirilib. Cəbrayılda dənli və dənli paxlalılar, tərəvəz, şəkər çuğunduru, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm istehsal olunub. Hər 3 rayonda yeni sahə kimi şəkər çuğunduru əkilib. Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayondan olan məcburi köçkünlər isə məskunlaşdıqları rayonlarda dənli və dənli paxlalılar, tərəvəz və bostan bitkilərinin əkin-biçini ilə məşğul olublar (Cədvəl 2).

**Cədvəl 2. 2019-cu ildə bitkiçilik məhsullarının istehsalına dair statistika, ton**

| | Dənli və paxlalılar | Pambıq | Tərəvəz | Şəkər çuğunduru | Kartof | Bostan | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|
| Ağdam | 55674 | 7316 | 107492 | 12160 | 6025 | 2960 | 4649 | 402 |
| Cəbrayıl | 10185 | - | 540 | 429 | - | 92 | 1279 | 175 |
| Füzuli | 118088 | 1629 | 5525 | 17134 | 1872 | 3169 | 1421 | 960 |
| Kəlbəcər | 422 | - | - | - | - | 123 | - | - |
| Qubadlı | 123 | - | 5 | - | - | 22 | - | - |
| Laçın | 2545 | - | 771 | - | - | 152 | - | - |
| Zəngilan | 88 | - | 1 | - | - | 5 | - | - |

ARDSK məlumatları əsasında tərtib olunub

Ağdamda 2019-cu ildə 55674 ton dənli və dənli paxlalılar (Cəbrayılda 10,2 min ton, Füzulidə 118,1 min ton), 7316 ton pambıq (Füzulidə 1,6 min ton), 402 ton üzüm (Cəbrayılda 180 ton, Füzulidə 960 ton), 107,5 min ton tərəvəz, 6 min ton kartof (Füzulidə1,872 min ton), 2,960 min ton bostan məhsulları (Füzulidə 3,169 min ton), 4,65 min ton meyvə və giləmeyvə (Füzulidə 1,4 min ton) istehsal olunub. Biktiçilikdə yeni sahə kimi Ağdamda 12,160 min ton, Cəbrayılda, 0,429 min ton, Füzulidə 17,134 min şəkər çuğunduru yetişdirilib.

Ağdamda digər bitkiçilik məhsulları üzrə isə 1980-ci illərlə müqayisədə 2019-cu ildə tərəvəz (107,5 min ton), kartof (6025 ton), bostan (2960 ton), meyvə və giləmeyvə (4649 ton), taxıl (55,7 min ton) istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Füzulidə də taxıl istehsalı 4 dəfəyə yaxın (118,1 min ton), bostan bitkiləri 6 dəfə (3,169 min ton), tərəvəz (5,5 min ton) və kartof (1,872 min ton), meyvə və giləmeyvə (1,4 min ton) istehsalı çoxalmışdır (Cədvəl 3).

**Cədvəl 3. 1980-ci və 2019-cu illərdə bitkiçilik məhsullarının istehsalı, min ton**

| Rayonlar sahələr və illər üzrə | | Taxıl | Pambıq | Tərəvəz | Şəkər çuğunduru | Kartof | Bostan | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ağdam** | 1980-ci i | 30.1 | 19,3 | 1,4 | - | 0.01 | 0.9 | 0.48 | 86.1 |
| | 2019-cu il | 55,7 | 7,3 | 107,5 | 12,160 | 6,025 | 2,960 | 4,65 | 0,4 |
| **Cəbrayıl** | 1980-ci il | 20.1 | - | 0.5 | - | 0.01 | 0.3 | 0.03 | 42.0 |
| | 2019-cu il | 10,2 | - | 0,5 | 0,429 | - | 0,9 | 1,3 | 0,18 |
| **Füzuli** | 1980-ci il | 31.9 | 1,5 | 0.6 | - | - | 0.5 | 0.05 | 100.8 |
| | 2019-cu il | 118,1 | 1,6 | 5,5 | 17,134 | 1,872 | 3,169 | 1,4 | 0,96 |

**Mənbə:** KTN-nin və ARDSK-nın məlumatları əsasında tərtib olunub

Ağdam rayonunda 2010-2019-cu illərdə əsas bitkiçilik məhsullarının istehsalı əhəmiyyətli həcmdə artmışdır. Belə ki, həmin illərdə dənli bitkilərin istehsalı 41703 tondan 55674 tona, o cümlədən, buğda 33189 tondan 47660 tona, pambıq 98 tondan 7316 tona, şəkər çuğunduru 1252 tondan 12160 tona, tərəvəz 41735 tondan 107492 tona, meyvə 2498 tondan 4649 tona, 350 tondan 402 tona yüksəlmişdir (Bax cədvəl 4). [2].

***Cədvəl 4. Ağdamda əsas bitkiçilik məhsullarının istehsalı, 2010-2019-cu illər, ton***

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 41703 | 59273 | 60259 | 36526 | 52534 | 55674 |
| **o cümlədən**, buğda | 33189 | 47089 | 48403 | 28856 | 44655 | 47660 |
| Pambıq | 98 | 71 | 833 | 6179 | 5822 | 7316 |
| Şəkər çuğunduru | 1252 | 1673 | 6997 | 41071 | 20204 | 12160 |
| Dən üçün günəbaxan | 88 | 112 | 50 | 22 | 7 | 12 |
| Kartof | 6425 | 7560 | 7607 | 5860 | 5923 | 6025 |
| Tərəvəz | 41735 | 49515 | 49806 | 75325 | 102578 | 107492 |
| Bostan məhsulları | 4668 | 5140 | 5241 | 2454 | 2570 | 2960 |
| Meyvə və giləmeyvə | 2498 | 2826 | 2835 | 4058 | 4640 | 4649 |
| Üzüm | 350 | 382 | 325 | 396 | 397 | 402 |

***Mənbə:*** *ARDSK*

Ağdam rayonu işğaldan azad edildikdən sonra ərazilər minalardan təmizləndikcə yerli fermerlər və torpaq mülkiyyətçiləri kənd təsərrüfatı işlərini uğurla davam etdirirlər. Rayonda məhsul yığımı ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında mühüm rol oynayan təkrar əkinin tətbiqi həyata keçirilir. Fermerlər 2021-ci il sentyabrın 1-dək 429 hektar sahədə təkrar əkin aparıblar. Təkrar əkinlərin 411 hektarı yem bitkiləri, 18 hektarı isə müxtəlif növ tərəvəz bitkiləridir. Bundan başqa, Ağdam rayonunda payızlıq yem bitkiləri və dənlilərin səpilməsi üçün 7025 hektarda şum qaldırılıb, 30 hektar sahədə xəsil əkilib [4].

Ənənəvi heyvandarlıq sahələri və heyvandarlıq məhsullarının istehsalı. Qarabağın iqtisadiyyatında özünəməxsus mühüm yer tutan ənənəvi sahələrdən biri də heyvandarlıqdır. 1980-ci illərdə Qarabağ və ətraf rayonlarda 321 min baş iribuynuzlu (ondan 110,3 min başı inək və camışlar), 1106,7 min baş xırdabuynuzlu heyvanlar bəslənilirdi. İribuynuzlu heyvanların sayının ölkə üzrə cəmi heyvan sayına nisbəti 16,2%, xırdabuynuzlu heyvanların sayının ölkə üzrə cəmi heyvan sayına nisbəti isə 19,3% təşkil edirdi ki, bu da o dövr üçün kifayət qədər əhəmiyyətli rəqəmlərdir (Cədvəl 5).

**Cədvəl 5. 1980-ci illərdə heyvanların baş sayına dair statistika, min baş**

| | İribuynuzlu heyvanlar cəmi | *ondan inək və camışlar* | Xırdabuynuzlu heyvanlar cəmi |
|---|---|---|---|
| **Keçmiş Yuxarı Qarabağ** | **95.6** | ***30.7*** | **264.3** |
| Ağdam | 44.4 | *16.4* | 191.8 |
| Cəbrayıl | 26.4 | *8.9* | 114.2 |
| Füzuli | 37.8 | *13.4* | 149.0 |
| Kəlbəcər | 31.9 | *11.0* | 97.4 |
| Qubadlı | 22.8 | *8.3* | 30.6 |
| Laçın | 43.0 | *14.8* | 224.8 |
| Zəngilan | 19.1 | *6.8* | 34.6 |
| **Qarabağ və ətraf rayonlar üzrə cəmi heyvan sayı** | **321.0** | ***110.3*** | **1,106.7** |
| ***Ölkə üzrə cəmi heyvan sayına nisbəti, %*** | ***16.2*** | ***14.8*** | ***19.3*** |

**Mənbə:** ARKTN

Qarabağın iqtisadiyyatında ənənəvi sahə olan heyvandarlıq yaxşı inkişaf etmişdi. Belə ki, 1980-ci illərdə keçmiş Yuxarı Qarabağ və Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın və Zəgilan rayonlarında ildə 27,5 min ton ət, 163,8 min ton süd, 94,3 milyon ədəd yumurta istehsal edilirdi. Ölkə üzrə ət və süd istehsalının 15%-i, yumurta istehsalının isə 8,8%-i bu regionun payına düşürdü (Cədvəl 6).

**Cədvəl 6.1980-ci illərdə heyvandarlıq məhsullarının istehsalına dair statistika, min ton**

| | Ət | Süd | Yumurta, (mln. ədəd) |
|---|---|---|---|
| **Keçmiş Yuxarı Qarabağ** | **10.9** | **53.9** | **31.7** |
| Ağdam | 3.8 | 24.4 | 19.2 |
| Cəbrayıl | 2.3 | 14.0 | 11.4 |
| Füzuli | 2.8 | 20.0 | 11.8 |
| Kəlbəcər | 2.0 | 16.3 | 8.1 |
| Qubadlı | 1.3 | 12.1 | 4.4 |
| Laçın | 3.3 | 13.9 | 4.1 |
| Zəngilan | 1.1 | 9.2 | 3.6 |
| **Qarabağ və ətraf rayonlar üzrə cəmi istehsal** | **27.5** | **163.8** | **94.3** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***14.9*** | ***15.4*** | ***8.8*** |

Mənbə: ARKTN

2010-2019-cu illərdə Ağdam rayonu üzrə mal-qaranın sayı və heyvandarlıq məhsullarının istehsalı da əhəmiyyətli həcmdə artmışdır. Belə ki, müqayiə edilən 10 il ərzində rayonda iribuynuzlu mal-qaranın sayı 32510 başdan 41297 başa, qoyun və keçilərin sayı 100770-dən 104768-ə, quşların sayı 199803-dən 250590-na, arı ailələrinin sayı 183-dən 6118-ə yüksəlmişdir. Bu tendensiyaya uyğun olaraq ət (1545 tondan 2653 tona), süd (26856 tondan 37873 tona), yumurta (8045 mindən 15019 minə) və yun (147 tondan 204 tona) istehsalı artmışdır (Cədvəl 7). [2].

***Cədvəl 7. Ağdamda mal-qaranın sayı (baş) və heyvandarlıq məhsullarının istehsalı (ton)***

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **İribuynuzlu mal-qara, baş** | 32510 | 39762 | 40518 | 40992 | 41634 | 42297 |
| **o cümlədən inək və camışlar** | 14930 | 18400 | 18691 | 18844 | 19147 | 19165 |
| **Qoyunlar və keçilər** | 100770 | 105611 | 105724 | 104518 | 104940 | 104768 |
| **Quşlar** | 199803 | 229785 | 245904 | 247838 | 249344 | 250590 |
| **Arı ailələri** | 183 | 367 | 370 | 374 | 6054 | 6118 |
| **Ət (kəsilmiş çəkidə)** | 1545 | 2243 | 2337 | 2385 | 2504 | 2653 |
| **Süd** | 26856 | 33312 | 34168 | 34612 | 35866 | 37873 |
| **Yumurta, min ədəd** | 8045 | 8315 | 8540 | 8676 | 13206 | 15019 |
| **Yun (fiziki çəkidə)** | 147 | 156 | 157 | 157 | 194 | 204 |

***Mənbə:*** *ARDSK*

**Ağdamda sahibkarlığın inkişafı perspektivləri.** Yüksək iqtisadi potensiala malik Ağdamın iqtisadiyyatı yenidən qurulacaq, pioritet istiqamətlərdən biri rayonda sahibkarlığın inkişaf etdirilməsidir. Rayon iqtisadiyyatının müasir standartlar səviyyəsində yenidən qururlmasında sahi-

bkarların mühüm rolu olacaq. Bu baxımdan, yerli sahibkarlarının post-konflikt reabilitasiyada yaxın və fəal iştirakı, işgüzar fəallığının yüksəldilməsi çox əhəmiyyətlidir. Cünki rayon iqtisadiyyatının inkişafı həm də burada sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Bütövlükdə Azərbaycan iqtisadiyyatında olduğu kimi Ağdamın iqtisadiyyatında da özəl sektorun yüksək paya malik olacağı gözlənilir.

Qarabağda bərpa və yenidənqurma, yeni iqtisadiyyat quruculuğu ölkəmizin sahibkarları qarşısında tamamilə fərqli, indiyədək görünməmiş, genişmiqyaslı və geniş spektrli imkanlar açır. Söhbət sahibkarlarımızın, sadəcə, öz vətəndaşlıq borclarını yerinə yetirərək, bu ərazilərin həyata qaytarılmasında iştirakından deyil, eyni zamanda, öz professional fəaliyyətləri çərçivəsində yeni biznes layihələri gerçəkləşdirməsindən gedir [7].

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-cu ilə olan məlumatına əsasən, Qarabağ İqtisadi Rayonunda 10328 mikro, kiçik və orta sahibkarlıq subyektləri fəaliyyət göstərir ki, bu da ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (271304) 3,8%-ni əhatə edir. Onlardan 10139-u mikro (ölkə üzrə payı 3,9%), 133-ü kiçik (ölkə üzrə payı 2,2%), 56-sı orta (ölkə üzrə payı 2,1%) müəssisələrdir [3].

Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı Ağdamda 1552 (1524 mikro, 22 kiçik, 6 orta), Tərtərdə 1082 (1055 mikro, 14 kiçik, 13 orta), Ağcabədi 2108 (2070 mikro, 27 kiçik, 11 orta), Bərdə 4089 (4037 mikro, 40 kiçik, 12 orta), Füzuli 1413 (1380 mikro, 22 kiçik, 11 orta), Xocalı 11 (9 mikro, 1 kiçik, 1 orta), Xocavənd 59 (53 mikro, 4 kiçik, 2 orta), Şuşa 13 (10 mikro, 3 kiçik), və Xankəndi şəhərində 1-dir (Cədvəl 8).

**Cədvəl 8. Qarabağ İqtisadi Rayonunda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı, 2019-cu il**

| Rayonlar | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | mikro | Kiçik | Orta |
| **Ölkə üzrə cəmi** | **271304** | **262622** | **5956** | **2726** |
| **Qarabağ iqtisadi rayonu** | **10328** | **10139** | **133** | **56** |
| **Ölkə üzrə payı, faizlə** | **3,8** | **3,9** | **2,2** | **2,1** |
| Ağdam rayonu | 1552 | 1524 | 22 | 6 |
| Tərtər rayonu | 1082 | 1055 | 14 | 13 |
| Xocavənd rayonu | 59 | 53 | 4 | 2 |
| Xocalı rayonu | 11 | 9 | 1 | 1 |
| Şuşa rayonu | 13 | 10 | 3 | - |
| Füzuli rayonu | 1413 | 1380 | 22 | 11 |
| Xankəndi şəhəri | 1 | 1 | - | - |
| Ağcabədi rayonu | 2108 | 2070 | 27 | 11 |
| Bərdə rayonu | 4089 | 4037 | 40 | 12 |

**Mənbə:** ARDSK https://www.stat.gov.az/source/entrepreneurship/ 08.09.2021.

Sahibkarlığın inkişafında maraqlı olan dövlət də bu sahəyə dəstək göstərəcək. Xüsusən də, aqrar sektora maliyyə yardımı olunacaqdır. 2022-ci ildə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən fermerlərə əkin subsidiyaları veriləcək. Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq, 2022-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə

qərar qəbul edib. Aqrar Subsidiya Şurasının qərarına əsasən meyvəçilik sahəsində 2022-ci ildə salınacaq aşağıdakı bağlara bir dəfəyə məxsus əkin subsidiyası ödəniləcək: [5]

– 2022-ci ildə Ağdam, Ağsu, Cəlilabad, Füzuli, Xocavənd, İsmayıllı, Qəbələ, Qobustan, Qubadlı, Lerik, Siyəzən, Şabran, Şamaxı, Şəki, Yardımlı və Zəngilan rayonlarında dəniz səviyyəsindən 400 metrdən hündürdə yerləşən ərazilərdə dəmyə şəraitində 2022-ci ildə salınacaq üzüm bağlarının hər hektarına görə 8000 manat birdəfəlik əkin subsidiyası veriləcək;

– Deqradasiyaya uğramış və bonitet balı aşağı olan torpaq sahələrində 2022-ci ildə salınacaq intensiv nar və zeytun bağlarının hər hektarına müvafiq olaraq 5000 və 4900 manat, boş olan Meşə Fondu torpaqlarında, dağlıq və dağətəyi ərazilərdə salınacaq intensiv fındıq bağlarının hər hektarına görə 4400 manat birdəfəlik əkin subsidiyasının ödənilməsi nəzərdə tutulur;

– 2022-ci ildə salınacaq damcı suvarma sistemi ilə təmin olunmuş və bir hektarda ən azı 650 tingin əkildiyi kivi bağlarının hər hektarına görə fermerlərə 9000 manat birdəfəlik əkin subsidiyası veriləcək. Habelə, 2021-ci ildən başlayaraq salınan qeyd edilən kivi bağlarına görə fermerlərə 640 manat, digər kivi bağlarının hər hektarına görə isə 230 manat əkin subsidiyasının ödənilməsi nəzərdə tutulur.

Pambıq, çəkər çuğunduru və tütün bitkiləri üzrə 2022-ci ildə məbləği artırılmaqla yalnız məhsul subsidiyası veriləcəkdir. Bu ildə fermerlər tədarük məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 170 manat (bundan əvvəl 100 manat), Virciniya sortu üzrə yaşıl tütünün hər tonuna görə 26 manat (əvvəl 5 manat), digərləri üzrə quru tütünün hər tonuna görə 180 manat (əvvəl 50 manat) və yaş tütünün hər tonuna görə 18 manat (əvvəl 5 manat), şəkər çuğundurunun hər tonuna görə 12 manat (əvvəl 4 manat) məhsul subsidiyası alacaqlar. Pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Tərtər, Ucar, Yevlax və Zərdab rayonlarına şamil edilir, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul olunur.

Ağdam fermerləri də qeyd edilən subsidiyalardan yararlanmaqla öz təsərrüfatlarını qurmaq və inkişaf etdirmək imkanları əldə edirlər. Ağdamın yüksək iqtisadi potensialı sahibkarlar qarşısında da yeni biznes imkanları açır. Həm rayonun yenidən qurulması prosesində, həm də əhalinin məskunlaşdırılmasından sonrakı iqtisadi inkişafı dövründə özəl sektorun fəaliyyəti, gəlir əldə etməsi, quruculuq işlərində yaxından iştirakı üçün əlverişli şərait olacaq. Dövlət də özəl sahibkarlığın inkişafına dəstək verəcək, sahibkarlığın inkişafını müxtəlif iqtisadi alətlərlə stimullaşdıracaq.

**Nəticə və təkliflər**

Qarabağ bölgəsinə daxil olan rayonların hər biri, o cümlədən Ağdam rayonu özünəməxsus zəngin təbii resurslara, yüksək iqtisadi potensiala və inkişaf perspektivlərinə malikdir. Bu rayonların iqtisadiyyatında ənənəvi kənd təsərrüfatı sahələrinə üstünlük verilməklə yanaşı, rəqabətədavamlı qeyri-ənənəvi sahələrin də inkişaf etdirilməsi zəruridir. Xüsusən də, kənd təsərrüfatının və emal sənayesinin inkişafı üçün yaxşı imkanlar var. Çox münbit və məhsuldar torpaqlara malik Qarabağda taxıl, üzüm, pambıq, tütün, kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə istehsalı perspektivli sahələrdir. Ənənəvi sahələr arasında heyvandarlıq da böyük potensial inkişaf imkanlarına malikdir və hazırda da rayon iqtisadiyyatında əsas aparıcı sahələrdəndir.

Rayon iqtisadiyyatının inkişafında mühüm rola və perspektiv imkanlara malik özəl sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, bu sahəyə dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi vacibdir. Çünki rayon iqtisadiyyatının gələcək sosial-iqtisadi inkişafı həm də burada sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Ona görə də, əvvəlki dövrün yaxşı ənənələri, hazırkı potensial imkanları və müqayisəli üstünlükləri nəzərə alınmaqla yerli iqtisadiyyatın yeni bazar tələblərinə uyğun müasir standartlar səviyyəsində inkişafı təkcə rayonun deyil, bütövlükdə Azərbaycan iqtisadiyyatının daha da böyüməsinə təkan verəcəkdir.

**İstinadlar**


1. “Azinadlarsadiyyatının inkişafında mühüm rola və perspektiv imkanlara malik özəl sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, bu sahəyə dövlət dəstəyi tədbirhttps://president.az/articles/52389
2. Azərbaycanın regionları. ARDSK İnternet saytı.  https://www.stat.gov.az/source/regions/ 08.09.2021.
3. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. ARDSK İnternet saytı.  https://www.stat.gov.az/source/entrepreneurship/  08.09.2021.
4. Ağdam rayonunda 429 hektar sahədə təkrar əkin aparılıb. AzərTAC.  https://azertag.az/xeber/Agdam_rayonunda_429_hektar_sahede_tekrar_ekin_aparilib-1870833 08.09.2021.
5. Aqrar Subsidiya Şurası 2022-ci il üçün subsidiya əmsallarını açıqladı. ARKTN İnternet saytı. https://www.agro.gov.az/az/news/aqrar-subsidiya-surasi-2022-ci-il-uecuen-subsidiya-emsallarini-aciqladi 07.09.2021
6. Müzəffərli N.M., İsmayılov E.M. Azərbaycan post-konfilikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, «Qafqaz», 2010.
7. Zeynalov M.H. İqtisadçı alimlər Qarabağın bərpası layihələrinə elmi dəstək verirlər. “Xalq qəzeti”,  24 iyul 2021.

**ƏLİYEV Ümüdvar**

UNEC, i.e.d., prof., əməkdar müəllim

**QULİYEVA Günay**

UNEC, i.f.d.

# QARABAĞIN BƏRPA PROSESİNDƏ AĞILLI ŞƏHƏR – AĞILLI KƏND KONSEPSİYASININ TƏTBİQİNİN İQTİSADİ FAYDALARI

**Xülasə:** Müasir dünyada insanların 54 faizi şəhərlərdə yaşayır və bu nisbət 2050-ci ildə 66 faizə çatacağı gözlənilir. Əhalinin ümumi artımı ilə birlikdə urbanizasiya növbəti üç onillikdə şəhərlərə daha 2,5 milyard insan əlavə edəcəkdir.
Müasir dünyada ağıllı-şəhərlərin yaradılması qloballaşmanın və 4-cü sənaye inqilabının yaratdığı bir çox problemləri də aradan qaldıra bilər. Eyni zamanda şəhərləri daha davamlı, əhatəli və təhlükəsiz hala gətirmək Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərindən biri olaraq müəyyənləşmişdir.
Məqalədə Qarabağın bərpa prosesində ağıllı şəhər-ağıllı kənd konsepsiyasının tətbiqinin iqtisadi faydaları araşdırılır.

**Açar sözlər:** ağıllı şəhər, ağıllı kənd, iqtisadi bərpa, səmərəlilik, Qarabağ

## Giriş

Şəhərlərdə çox sayda insanın və onların həyatları ətrafında qurulmuş ekosistemlərin cəmləşməsi həm də iqlim dəyişikliyinin əsas səbəblərindən biri olmuşdur. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) yeni bir hesabatına görə, qlobal istixana qazı tullantılarının 70 faizdən çoxu şəhərlərin payına düşür [8]. Urbanizasiyanın töhfə verdiyi iqlim dəyişikliyi, xüsusilə istilik stresi, daşqın və səhiyyə ilə bağlı fövqəladə hallarının bir çox təsirinə elə şəhər sakinləri özləri daha çox məruz qalırlar.

Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərinə əsasən hər kəs üçün ən yaxşı şəhərlər inklüziv, təhlükəsiz, möhkəm və dayanıqlı olanlardır [8]. Bütün bunlara nail olmaq üçün hökumətlər öz vətəndaşları ilə rəqəmsal əsrin tələblərinə uyğun formalarda əlaqə qurmalıdır.

İlk dəfə dünya liderləri 2019-cu ildə Osakada keçiriləcək G20 Sammitində "ağıllı şəhər" anlayışını ciddi müzakirə müstəvisinə gətirməklə həmin məkanların qurulması ilə bağlı çalışan mövcud müəssisə-təşkilatları birləşdirəcək zəruri qlobal çərçivənin müəyyənləşməsi üçün ittifaqın yaradıldığını elan etdilər. Beynəlxalq Dövlət və Özəl İşbirliyi Təşkilatı olaraq, Dünya İqtisadi Forumu G20 Qlobal Ağıllı Şəhərlər İttifaqının katibliyi olaraq seçildi [9].

## Qarabağda ağıllı şəhər – ağıllı kənd konsepsiyasının tətbiqi imkanları

Ümumiyyətlə "smart city" konsepsiyasını işğaldan azad olunmuş ərazilərimizdə reallığa çevirmək üçün ilk növbədə davamlı beynəlxalq təcrübələri öyrənmək, növbəti mərhələdə tətbiq və təşviq etmək üçün əsasən İnformasiya və Kommunikasiya Texnologiyalarından geniş istifadə etmək lazımdır.

Ağıllı şəhər həllərini tətbiq etməklə təhlükəsizlik, vaxt və rahatlıq, sağlamlıq, ətraf mühitin keyfiyyəti, sosial əlaqə və vətəndaş iştirakı, iş yerləri və yaşayış xərci kimi müxtəlif həyat keyfiyyəti göstəricilərinə təsir edə bilərik.

Ağıllı şəhər texnologiyaları, vətəndaşların sağlamlığını və rifahını yaxşılaşdırmaq gücünə sahib olmaqla bərabər iqtisadi inkişaf üçün yeni yollar təqdim edir [1]. Bərpa olunan ərazilərdə bulud əsaslı texnologiyaların tətbiqi regionun bərpa prosesini sürətləndirə və həmin regionu texnoinvestorlar üçün maraqlı edə bilər.




**Şəkil 1.** *Ağıllı şəhər həllərinin qrafiki təsviri*

İşğaldan azad edilmiş regionda "smart-city" layihələrinin tətbiqi həmin regionu bu günün tələbi olan innovativ, texnologiya əsaslı investisiyaların axınını sürətləndirməklə, eyni zamanda növbəti mərhələdə Qarabağda xüsusilə, Ağdamda innovasiya mərkəzləri və texnoparkların yaradılması üçün fundamental əsas rolunu oynaya bilər.

Post-konflikt ərazilərində ən vacib məsələlərdən biri olan-ictimai təhlükəsizliyi artırmaq üçün "ağıllı-şəhər" həllərini-ərazidə potensial qaynar nöqtələrin müəyyənləşdirilməsi və cinayətlərin baş verməsinin qarşısını almaq üçün real vaxtda cinayəti xəritələşdirmə, silah səslərinin aşkarlanması və proqnozlaşdırıcı polis vasitələrini tətbiq etmək olar [2]. Bu məsələləri "Azərspace" peykinin təklif etdiyi xidmətlərdən istifadə etməklə reallaşdırmaq mümkündür.

Prezidentin xüsusən qeyd etdiyi kimi işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonasının yaradılması nəzərdə tutulub [7]. Həmin ərazilərdə ağıllı şəhər həllərinin-elektrik istehlakının izlənməzi, ağıllı işıqlandırma, sensor küçə işıqları və sensor işıqforlar kimi texnologiyaların tətbiqi bir tərəfdən istixana qazı tullantılarının, digər tərəfdən elektrik və istilik sərfini əhəmiyyətli azalda bilər [4].

İnformasiya texnologiyalarının köməyi ilə Qarabağda enerji paylanmasını yaxşılaşdırmaq, tullantıların yığımını asanlaşdırmaq, nəqliyyat sıxlığını azaltmaq və hətta hava keyfiyyətini yaxşılaşdırmaq olar. Məsələn, həmin ərazilərdə avtomatik olaraq tullantıların idarə olunması şirkətlərinə məlumat göndərən və lazım olduqda götürülməsini əvvəlcədən planlaşdırılan qrafikə malik ağıllı zibil qutularının qoyulması həmin regionu Azərbaycanın tullantısız, təkrar emal mərkəzinə çevirə bilər. Ağdam Qarabağın əsas sənaye mərkəzi olduğundan orada qurulacaq sənaye obyektlərinin tullantısız, ətraf mühitə ziyan vermədən işləməsi üçün bu xüsusilə əhəmiyyətlidir.

Bütövlükdə ölkə iqtisadiyyatı üçün əhəmiyyətli olan su ehtiyatlarına qənaət edilməsi aspektindən işğaldan azad olunmuş ərazilərdə yaradılacaq "ağıllı şəhər" konsepsiya əsasında su istehlakının azaldılmasında mühüm rol oynayacaqdır. Ağıllı suvarma sistemləri, su sızıntısı, su keyfiyyəti və istehlakının izlənməsi kimi tətbiqetmələr bir gündə adam başına su istehlakını 25-80 litr arasında saxlaya bilər [6].

Bulud əsaslı informasiya texnologiyaları tətbiqetmələri təkcə cəmiyyət həyatını deyil, həmçinin ərazi idarəetməsini də asanlaşdıra bilər [3]. Yerli dövlət idarəetmə orqanları, bələdiyyələr, özəl müəssisələr və vətəndaşlar öz həyat keyfiyyətini artıran daha yaxşı qərarlar vermək üçün məlumatları bu elektron tətbiqlər vasitəsilə real vaxtda qəbul, təhlil və idarə edə bilər.

"Ağıllı şəhər"lərlə bağlı maraqlı məsələlərdən biri də, ağıllı şəhər həllərini ən çox tətbiq edən 5 şəhər Sinqapur, London, Amsterdam, Honq-Konq, Nyu-York həm də dünyanın əsas turizm mərkəzləridir [5]. Deməli "ağıllı şəhər" texnologiyaları böyük potensiala malik Qarabağ regionunda turizm sektorunu inkişaf etdirmək üçün əlavə imkan yarada bilər. Bu aspektdən ilk olaraq pilot layihə kimi Şuşa şəhərinin "ağıllı şəhər" konsepsiyası çərçivəsində qurulması oranın turizm potensialına əlavə üstünlük verəcək. Məsələn Şuşada interaktiv məlumatverici lövhələrin quraşdırılması, turizm xidmətləri ilə bağlı mobil tətbiqlər, tarixi abidələr, keçmiş münaqişənin izləri haqqında məlumat verən robot-bələdçilər, intellektual nəqliyyat sistemi, "yaşıl" enerji istehsalının tətbiq olunması ilə ekoloji daha təmiz turizm məkanlarının mümkünlüyü həmin regiona xarici turist axınına şərait yaradacaq.

"Ağıllı şəhər"lə bərabər Qarabağda "ağıllı kənd" layihəsi də həyata keçirilməsi nəzərdə tutulub. Beynəlxalq təcrübədə "Smart village" dedikdə, kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həlli və daha da önəmli olan kənd ərazilərində yeni iqtisadi imkanların yaradılması başa düşülür. Ağıllı kənd texnologiyası rəqəmsallaşma, kənd sərhədlərindən daha böyük düşünmə, kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatı deməkdir.

İşğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" texnologiyalarını tətbiq etməklə Şəkil.2-də göstərilən "azalma həlqəsinin" (circle of decline) yaranma ehtimalını da bloklaya biləcək [10]. Həmçinin, "smart-village" texnologiyaların tətbiqi həmin ərazilərə sosial innovasiyaların, start-up tipli mikro və kiçik sahibkarlığın kənd əhalisi arasında geniş yayılmasına şərait yaradacaq.




**Şəkil 2.** *Azalma həlqəsi*

Ağıllı kənd həllərinə misal olaraq bitkiçilikdə tətbiq olunacaq torpaq səthlərini pilotsuz uçuş aparatları-dronlarla izləmə, sensorlar vasitəsilə birbaşa kəndlinin smartfonlara məlumatların ötürülməsi həmin sahədə səmərəliliyi artıracaq. İlk növbədə əkinçilik və heyvandarlıq fəaliyyətinin hər sahəsində istifadə edilən cihazlar ağıllı hala gətirilir. Əkinçilik sahəsindəki bütün fəaliyyətlər, avtomatlaşdırma sistemləri və mobil telefonlar vasitəsi ilə idarə edilir. Məsələn kəndli mobil telefonunda yalnız bir düyməni basmaqla bütün təsərrüfat sahəsini suvara və ya gübrələyə bilər. Digər tərəfdən uşaqlar, gənclər və qadınlar üçün sosiallaşma və təhsil proqramlarının açılacağı ağıllı kəndlərdə gündəlik süd istehsalından toyuq yumurtasının ağırlığına, havadan kənd təsərrüfatı maşınlarının yanacaq səviyyələrinə qədər bütün məlumatlar smartfonlardan idarə oluna bilər.

Ağıllı kənd ənənəvi əkinçilik metodlarını qabaqcıl texnologiya imkanları ilə birləşdirən, istehsalın səmərəliliyini informasiya və kommunikasiya texnologiyaları ilə artırmağı və istehsalçının sosial həyat səviyyələrini ixtisaslı biliklərlə yüksəltməyi vahid bir hədəf halına gətirən yeni nəsil kənd həyat modelidir.

Kənddə müasir meyvə yetişdirmə sahəsi, müasir istixana tətbiqetmələri, açıq sahə tərəvəz və yem bitkiləri becərmə, meyvə və tərəvəz emalı anbarı, soyuducu anbarlar, kollektiv sağma və süd soyutma sistemi, müasir otlaq (çəmənlik) sahəsi qurulacaqdır. Bütün bu sahələrə monitorinq və izləmə mərkəzi tərəfindən nəzarət olunacaqdır. Əlavə olaraq su və gübrə idarəetmə mərkəzi, heyvan qidalanma və idarəetmə mərkəzi, fermer qərarlarına dəstək mərkəzi, bərpa olunan enerji həll mərkəzi, torpaq analiz laboratoriyaları, digər kəndli-fermerlər üçün təcrübə-təlim mərkəzləri qurulacaqdır.

Fermerlərin avtomatik suvarma, avtomatik istixana, gübrələrin səpilməsinin avtomatlaşdırması, avtomatik quşçuluq, avtomatik süd yığımı, avtomatik arıçılıq erkən xəbərdarlıq sistemi kimi elektron xidmətlərlə təmin olunacaqlar. Məsələn, kəndli-fermer ağıllı suvarma sistemi ilə mobil telefonun bir düyməsi vasitəsilə istədiyi gün və saatda suvarma proseslərini uzaqdan idarə edə və izləyə biləcək. Arıçılıqda GPS İzləmə Sistemi sayəsində pətəklər izlənə bilər. Ağıllı qapı, təhlükəsizlik sistemləri və avtomatik sağım sayəsində heyvandarlıq asanlaşacaq.

Ağıllı ev həlləri ilə kəndlilərin həyatları asanlaşa bilər. Ağıllı həllər evdə olmadığı müddətdə də elektrik və istilik idarəçiliyinin mobil telefonlar vasitəsi ilə idarə olunmasını təmin edərək ev təsərrüfatlarının rəqəmsallaşmasına kömək edir.

Ağıllı kənd layihələrinin tətbiqi bitkiçilikdə istehsalı xərclərində ən az 20% qənaət, heyvandarlıq xərclərində ən azı 22% qənaət, ümumi istehsalda 10% artıma gətirib çıxarda bilər. Ağıllı kənd layihələrinin ətraf mühit və sosial həyat üçün də əhəmiyyəti böyükdür. Belə ki, kənd təsərrüfatında suvarma ilə ən az 20 faiz su qənaətinə, yanlış gübrələmə nəticəsində yaranan torpaq və su çirklənməsinin qarşısını almağa, kənd yerlərində həyat keyfiyyətinin artırılmasına, yaşıl artıma və davamlı iqtisadi inkişafa gətirib çıxardacaq. Aparılan tədqiqatlar göstərir ki, ağıllı kəndi həllərinin tətbiqi, kənd təsərrüfatı istehsalında xərcləri 20 faiz, suvarmada su sərfinin 20-25 faiz və heyvandarlıq xərclərində isə 22 faiz qənaət olunmasına gətirib çıxarır.

**Nəticə**

Böyük Qayıdış zamanı diqqəti cəlb edəcək əsas məsələlərdən biri də rayonlarda və kəndlərdə məskunlaşacaq vətəndaşları layiqli həyat şəraiti ilə təmin etməkdir. Bunun üçün ağıllı şəhər-ağıllı kənd texnologiyalarının tətbiqi ən vacib amillərdən biridir.

Böyük Qayıdışın səmərəliliyini təmin etmək məqsədi ilə aşağıdakıların həyata keçirilməsi məqsədəuyğundur:

1. İşğaldan azad olunmuş rayonların iqtisadiyyatının sahələrinin müəyyənləşdirilməsi.
2. Regionun təbii-iqtisadi resurslarının (cəlb edilə biləcək işçi qüvvəsi də daxil olmaqla) qiymətləndirilməsinin aparılması.
3. Regionun iqtisadiyyatının bərpası və inkişaf etdirilməsində maraqlı olan özəl sahibkarlığın stimullaşdırılması mexanizminin yaradılması.
4. Təkcə kənd təsərrüfatında deyil, iqtisadiyyatın mümkün bütün sahələrində kiçik sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi.
5. Bu regionda fəaliyyət göstərən özəl sahibkarların investisiya yönümlü maliyyə-kredit resurslarına əlçatanlığın təmin etmək.
6. Regionda strateji məhsulların istehsalını stimullaşdırmaq məqsədi ilə dövlət satınalmasından istifadə edilməsi.
7. Bərpa prosesində informasiya texnologiyalarının imkanlarından geniş istifadə etməklə Qarabağın smart regiona çevrilməsi.
8. Regiona texnoloji investisiyaların cəlb olunması.

Yekun olaraq, "ağıllı şəhər" və "ağıllı kənd", texnologiyaların tətbiqi Qarabağ regionunu dünyanın süni intellekt və təbiət gözəlliyinin vəhdətindən yaranan turizm incisinə və eyni zamanda Azərbaycanın innovasiya-start up fabrikinə çevirə bilər.

**İstinadlar**


1. Aguilera, U.; Peña, O.; Belmonte, O.; López-de-Ipiña, D. Citizen-Centric Data Services for Smarter Cities. Future Gener. Comput. Syst. 2017, 76, 234–247.
2. Alsaig, A.; Alagar, V.; Chammaa, Z.; Shiri, N. Characterization and efficient management of big data in iot-driven smart city development. Sensors 2019, 19, 2430.
3. Innes, J.E.; Booher, D.E. Reframing public participation: Strategies for the 21st century. Plan. Theory Pract. 2004, 5, 419–436.

4. Hintz, A.; Dencik, L.; Wahl-Jorgensen, K. Digital citizenship and surveillance. Digital citizenship and surveillance society— introduction. Int. J. Commun. 2017, 11, 731–739.
5. Hoang, G.T.T.; Dupont, L.; Camargo, M. Application of Decision-Making Methods in Smart City Projects: A Systematic Literature Review. Smart Cities 2019, 2, 27.
6. Porter, A.J.; Jackson, M.H. The paradox of digital civic participation: A disorganization approach. In Dis/Organization as Communication: Exploring the Disordering, Disruptive and Chaotic Properties of Communication; Vásquez, C., Kuhn, T., Eds.; Routledge: London, UK, 2019; pp. 197–219.
7. https://president.az/articles/50373
8. https://www.un.org/sustainabledevelopment/cities/
9. https://www.weforum.org/projects/future-of-cities
10. https://enrd.ec.europa.eu/enrd-thematic-work/smart-and-competitive-rural-areas/smart-villages_en

**HACIYEV Ceyhun**

UNEC, i.f.d., elmlər doktorluğu üzrə doktorant

# AĞDAM RAYONUNDA İSTEHSAL MÜƏSSİSƏLƏRİNİN BƏRPASI VƏ İNKİŞAFI

**Xülasə:** İbtidai icma quruluşundan tutmuş indiki dövrlərədək ilkin olaraq qəbilə və tayfa birlikləri, sonralar isə dövlətlər arasında qeyri-müəyyən sayda müharibələr baş vermişdir. Əgər tarixə nəzər salsaq bütün bu müharibələrin, münaqişələrin, kökündə siyasi amillər arasında gizlənmiş iqtisadi maraqlar dururdu. Çox nadir hallarda bu müharibələr xalqın iradəsi və istəkləri ilə baş vermişdir. Bu müqabildən olan Azərbaycan və Ermənistan Respublikaları arasında 2021 ci il 27 sentyabrda başlanmış 44 günlük müharibədə Ali Baş Komandanımız, müzəffər ordumuz və xalqımız bir dəmir yumruq altında birləşərək, minlərlə şəhid və yaralı verərək 30 illik fasilədən sonra Azərbaycan Respublikası öz ərazi bütövlüyünü yenidən bərpa etmişdir.
Bu yazıda bütün Qarabağ bölgəsinin ən perspektivli bölgələrindən olan Ağdamın keçmiş iqtisadi vəziyyətindən və onun bərpası üçün görüləcək işlərin effektivliyindən bəhs edəcəyik.

**Açar sözlər:** iqtisadi inkişaf, post-konflikt ərazilər, repatriasiya, bərpa, sənaye, kənd təsərrüfatı.

→

## Giriş

Ağdam rayonu 1154 kvadrat kilometr ərazini əhatə edir və Ağdamın ümumi inzibati ərazisi hazırda Ağdam şəhərini, 138 kənd və qəsəbəni əhatə edir. İşğaldan əvvəl Ağdamın təxminən 160 min əhalisi vardı. Bu dövrdə Ağdamda iri sənaye müəssisələri var idi. 1993-cü ilin iyul ayına qədər Ağdamda müxtəlif sənaye müəssisələri fəaliyyət göstərirdi. Bu müəssisələrə dəzgahlar, aerokosmik və rabitə avadanlığı, yarı mebel, konserv, traktor və avtomobil təmiri, asfalt, yağ, 16 şərab zavodu və 1 şampan fabriki və xalça, taxıl məhsulları, tikinti materialları, ət emalı zavodları daxildir. Eyni zamanda Ağdamda kənd təsərrüfatı müəssisələri, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi məntəqələri fəaliyyət göstərirdi. Ağdamın öz hava limanı və dəmir yolu stansiyası var idi. Qarabağ Atçılıq paktortiyası da bölgədə fəaliyyət göstərir və bu gün də fəaliyyətini davam etdirir. Üzümçülük, şərabçılıq, pambıqçılıq, baramaçılıq, taxılçılıq, meyvəçilik və tərəvəzçilik çox yaxşı inkişaf etmişdir. İlk böyük tonluq üzüm saxlama soyuducusu Ağdamda quraşdırılıb. Bu, qışda belə Azərbaycan və keçmiş SSRİ-nin digər şəhərlərinin əhalisinə Ağdamdan təzə üzüm məhsullarının tədarük edilməsinə imkan yaratdı.

Münaqişədən sonrakı yenidənqurma işlərində beynəlxalq şirkətlərin rolu beynəlxalq yardım agentliklərinin işini tamamlayır. Bununla birlikdə, dövlət özəl investisiyalardan maksimum fayda əldə etmək istəyirsə, fərqli şirkətlərin və sektorların fürsət və riskə necə baxdıqlarını anlamalı və münaqişədən sonrakı vəziyyətlərdə ümumi təsirlərini nəzərə almalıdırlar.

İnkişaf dairələrində, münaqişədən təsirlənən bölgələrdə biznesin rolu ilə bağlı müzakirələr əsasən keçmişdə inkişaf etmiş sahələr mövzusuna yönəlib. Bu məqalədə kənd təsərrüfatı və sənayenin bərpası və inkişafı nəzərdən keçirilməsi ilə başlayır.

Dörd sektor ehtiyac duyulan investisiyanın miqyasına və gəlir əldə etmə müddətinə görə dəyişir. "Junior" neft və mədən sənayesi şirkətləri, riskə qarşı rəqiblərindən əvvəl daha böyük kəşflər etmək ümidi ilə yüksək siyasi və təhlükəsizlik risklərini qiymətləndirirlər. Bununla birlikdə, şirkətlər 20-30 il davam edə biləcək irimiqyaslı layihələrə başlamazdan uzunmüddətli sabitlik perspektivi gözləyirlər.

**1. Ağdam rayonunda istehsal sahələrinin günümüzə uyğun modern avadanlıqlarla təmin edilməsi.**

Cədvəldə görünən rəqəmlərin izahı bizim məqalənin ana xəttini təşkil edir. Bu göstəricilər müəyyən ölkələrdə bir çox xarici şirkətlər tərəfindən investisiya olunaraq yaradılmış zavod və fabriklərin məlumatları əsasında yaradılmışdır.

**Cədvəl 1. Zavodların tikintisinə kapital qoyuluşu, dövriyyə və işçi sayı**

| | kapital qoyuluşu | dövriyyə (1ci il) | işçi sayı | sahə kv.m |
|---|---|---|---|---|
| kənd təsərrüfatı maşınqayırması | 45000000,00 | 20250000,00 | 2000 | 130000 |
| soyuducu istehsalı | 9000000,00 | 4050000,00 | 150 | 10000 |
| mətbəx plitələri və su qızdırıcıları | 85000000,00 | 38250000,00 | 2100 | 120000 |
| mikrodalgalı soba istehsalı | 60000000,00 | 27000000,00 | 500 | 15000 |
| kondisioner istehsalı | 235500000,00 | 105975000,00 | 4000 | 150000 |
| avtomobil istehsalı | 500000000,00 | 225000000,00 | 3500 | 216000 |
| mebel zavodu | 60000000,00 | 27000000,00 | 500 | 8000 |
| asfalt zavodu | 800000,00 | 360000,00 | 100 | bzi1000 |
| şərab zavodu | 2500000,00 | 1125000,00 | 250 | 30000 |
| paltaryuyan maşın | 45000000,00 | 20250000,00 | 420 | 10000 |
| xalça toxuma fabriki | 6000000,00 | 2700000,00 | 150 | 5000 |
| atçılıq zavodu | 1000000,00 | 450000,00 | 100 | 300000 |
| | 1049800000,00 | 472410000,00 | 13770,00 | 995000,00 |

Mənim fikrimcə Ağdam rayonunda iri həcmli kənd təsərrüfatı maşınlarının istehsalının yaradılması məqsədəuyğundur. Rayonda vaxtilə maşın avadanlıqları zavodu olub və bu zavodun məhsulları keçmiş SSRİ ərazisinə ixrac edilib. İndi isə daha konkret olaraq kənd təsərrüfatı avadınlaqlarının istehsalı həm respublika daxilində və eyni zamanda xarici ölkələrə ixrac edilməsi istiqamətində işlərin görülməsi vaxtıdır. Araşdırmalar sayəsində Yaponiyanın KAMS şirkətinin 2017-ildə Çinin Suzhou şəhərində qurduğu zavodun göstəricilərinin daha qənaətbəxş olduğu ortaya çıxır. 2017-ci ildə ümumi sahəsi 127000 m$^2$ olan ərazinin 29000 m$^2$ hissəsində 297 milyon Cin yuanı investisiya edərək kənd təsərrüfatı üzrə nəqliyyat vasitələrinin istehsalına başladı. Bu zavod hal hazırda il ərzində 81500 ədəd məhsul istehsal edir və 2000 nəfərə yaxın işçi heyəti vardır.

**Avtomobil zavodları.** Respublikamızda son illərdə bir neçə avtomobil zavodu açılmışdır. Bunlara Naxçıvan, Gəncə və Neftçala şəhərlərindəki zavodları aid etmək olar. Ağdam rayonunda yeni avtomobil zavodunun inşasının da aparılması, A-dan Z-yə qədər bütün işlərin ən son texnologiyalar əsasında qurulması, daha müasir və keyfiyyət göstəricilərinə uyğun istehsal ən vacib amillərdən biridir. Əhalinin pul gəlirini əsas götürərək demək olar ki, bu regionda əsasən Çin av-

tomobillərinin istehsalı (yığılması yox) daha məqsədə uyğundur. Apardığım təhlilə əsasən Great Wall Motors şirkətinin "Haval" markalı avtmobillərinin istehsal daha məqsədə uyğundur. Ancaq istənilən şirkətə ölkəmizdə investisiya qoyduğu təqdirdə stimullaşdırıcı tədbirlərin görülməsi və vergi güzəştlərinin edilməsi vacibdir. Belə ki, bu şirkət ümumiyyətlə modern və rəqəmsal səviyyədə avtomobil zavodunun qurulmasına 500 mln ABŞ dollarına yaxın investisiya qoyur. Zavodun fəaliyyət dairəsinə eyni zamanda mühərrik, sürət qutusu, elektron blokların quraşdırılması və idarəetmə sisteminin istehsalı da aiddir. İlk illər üçün ümumi istehsal gücü 80000 sonrakı illər isə tələbata uyğun olaraq 150000-ə qədər dəyişə bilər.

***Furnitur mebel zavodu.*** Bildiyimiz kimi Ağdamda SSRİ dövründə mebel furnitur zavodu fəaliyyət göstərmişdir. Bu zavod tək Azərbaycan istehlakçıları üçün deyil, eyni zamanda region üçün əhəmiyyətli bir müəssisə kimi istehsalla məşğul olmuşdur. Bu gün Azərbaycanda yerli sahibkarların da bu bizneslə məşğul olduğu və eyni adlı bazarda möhkəm mövqe tutduqları məlumdur. Lakin əlavə olaraq bu biznesin necə yaradıldığı və hansı iqtisadi amillərin əsas rol oynadığı tərəfimdən araşdırılıbdır.

Furnitur mebel istehsalında geniş istifadə olunan nisbətən sadə köməkçi məhsullardır. Furnitur, mebel hissələrinin hərəkətli və ya sabit bir əlaqəsini təmin etməli olan hissələr və ya mexanizmlər kimi başa düşülür. Bir qayda olaraq, onların istehsalı üçün əsas mebel istehsalı texnologiyasından əhəmiyyətli dərəcədə fərqlənən xüsusi texnologiyalar istifadə olunur, buna görə də aksesuarlar ixtisaslaşdırılmış müəssisələr tərəfindən verilir. Sərmayəçilər, mebel sənayesinin bu seqmentini böyük investisiyalar üçün çox əhəmiyyətsiz və cəlbedici hesab edərək, çox vaxt buna məhəl qoymurlar. Eyni zamanda, mebel furniturlarına mebel istehsalında istifadə olunan on minlərlə əşyalar daxildir. Bir sənaye standartı var «Mebel furniturları. Ümumi texniki tələblər «, 100 -dən çox elementdən ibarət furniturların təsnifatını ehtiva edir. Buraya mebel aksesuarlarına aid olan ön və montaj aparatları, menteşələr, bağlar, maqnitlər, rəflər və güzgülər üçün tutacaqlar, mandallar, bələdçilər, tutacaqlar, dekorativ elementlər və s. Güzgülər və s.) daxildir. Furnitur və komponentlərin istehsalı üçün müxtəlif materiallardan istifadə olunur - plastik, ağac, metallar.

Əlavə olaraq zavodun daxilində furnitur istehsalı emalatxanamızı təşkil etmək üçün ilkin xərclər 1000000 ABŞ dolları və ya daha çox olacaq. Bu daha yüksək planlaşdırılan istehsal həcmindən, çeşiddən, işçilərin sayından asılı olaraq dəyişilir. İlk partiya xammalının alınması üçün əlavə xərclər 3 milyon ABŞ dollarını əhatə edəcək. Gəlirlik təxminən 30%olaraq qiymətləndirilir. Öz istehsalınızı sıfırdan təşkil edərkən ortalama geri ödəmə müddəti 3-4 ildir, hazır bir iş alarkən-1,5 ilə özünü doğrulda bilər.

Şərab zavodu. Şərab zavodları üçün ümumi investisiya xərcləri 2.000 qutu üçün 560.894 ABŞ dollardan 20.000 qutuluq üçün 2.400.000 ABŞ dollara qədər dəyişir. Tikinti və torpaq xərcləri bütün şərab fabrikləri üçün ümumi investisiya xərclərinin ən böyük faizini təşkil edir. Çəllək istehsalı isə ümumi investisiya dəyərinin ikinci ən böyük faizini təşkil edir. Hər bir şərab fabriki üçün dəyişən xərclərin ən yüksək faizi qablaşdırma xərcləridir. Tam zamanlı əmək, çəllək və üzüm alışı faizlə növbəti ən yüksək əməliyyat xərcləridir. Əsas vəsaitlərin amortizasiyası sabit xərclərin ən yüksək faizini təşkil edir. Xərclərin bütün şərab zavodları arasında azalma dərəcəsi ilə mövcuddur. Yəni, şərab zavodunun istehsalı artdıqca məhsulun vahid başına düşən xərcləri azalır. Ümumi xərclər 2.000 şərab fabriki üçün 154.41 dollardan 20.000 qutu şərab fabriki üçün 124.93 dollara qədər azalır. Araşdırmada iştirak edən şərab fabrikləri, bütün əməliyyat xərcləri və borc öhdəliklərinin yerinə yetirilə biləcəyini göstərən, üçüncü ilə qədər müsbət pul axını yaratmaq qabiliyyətinə malikdir. Nəticələr göstərir ki, bütün şərab zavodları bütün borc öhdəliklərini ödəmək və özünü təmin edən müəssisələr kimi fəaliyyət göstərmək qabiliyyətinə malikdir.

Ağdam rayonundakı şərab sənayesi vaxtında sürətli və çoxşaxəli bir artım yaşamışdı. Bu müəssisələrin hazırladığı məhsullar əsasən masa şərabı kimi öz mövqeyini saxlayırdı. Ağdam şərablarının yüksək keyfiyyətli məhsul kimi tanınmasının artması səbəbindən Ağdam şərab sənayesində artımın davam edəcəyi gözlənilirdi. Bu regionda əkilən üzümlüklərin sayı, şərab zavodlarının və şərab satışlarının sayının artması ilə birlikdə sənayenin inkişafını əks etdirirdi.

İqtisadi mühəndislik yanaşması, illik 2, və 20 min qutu istehsalı olan şərab zavodları üçün investisiya və əməliyyat xərcləri haqqında məlumat toplamaq üçün istifadə edilmişdir (bir qutu

750 ml həcmli 12 şüşə). İqtisadi mühəndislik yanaşması ABŞ şərabçılıq anket məlumatları ilə birlikdə mövcud bir şərab zavodları arasında dəyişiklik problemindən qaçınmaqla bir standart hazırlamaq üçün istifadə edilmişdir.

Mükəmməl bir şərab zavodu istehsal proseslərinin bir çox aspektlərinə təsir edir, buna görə də tələb olunan bəzi kapital aktivlərinə təsir göstərir. Şərabçılıqda temperaturun idarə edilməsi ticarət glikollu hava emalçıları vasitəsi ilə həyata keçirilmişdir. Ofislər, istehsal və pərakəndə satış sahələri də daxil olmaqla digər sahələrin standart bir ticarət iqlimi HVAC (istilik, havalandırma və kondisioner sistemi) sisteminə sahib olduğu qəbul edilir. Bütün üzüm preslərinin ölçüləri saatda bir tondan dörd tona qədər olan membran presləri olduğu qəbul edilir.

Bitki və ofis avadanlığı şərab zavodunun investisiya xərclərinin böyük hissəsini təşkil edir (Cədvəl 2). Bitki və ofis avadanlığı üçün investisiya xərcləri ümumi investisiyanın 49 ilə 56 faizi arasında dəyişir. Zavod və ofis investisiya xərclərinin digər xərclərdən çox yüksək olmasının səbəbi, bina və torpaq xərclərini ehtiva etməsidir. İkinci ən əhəmiyyətli investisiya dəyəri çəlləklə bağlı xərclərdir (taxta şərab barelləri). İlkin investisiya xərcləri bəzi şərab fabrikləri üçün investisiya dəyərinin 9-22 faizini təşkil edir. Nisbətən əhəmiyyətli bir investisiya dəyəri, şərab fabrikinin ümumi investisiya dəyərinin 6 ilə 11 % arasında dəyişən avadanlıqları alır.

**Cədvəl 2. Avadanlıq kateqoriyasına və şərab zavodunun ölçüsünə görə ümumi investisiya xərcləri ($)**

| **Xərc kateqoriyası** | **2000 qutu** | **20000 qutu** |
|---|---:|---:|
| Xammal qəbulu qvadanlığı | $58,023.75 | $136,900.00 |
| Zirzəmi avadanlığı | $16,623.25 | $24,117.85 |
| Materialla işləmə | $49,520.00 | $49,800.00 |
| Soyuducu sistemi | $28,918.57 | $160,248.32 |
| Fermentasiya və saxlama | $49,800.45 | $186,873.75 |
| Çəllək | $51,944.00 | $519,200.00 |
| Dequstasiya otağı | $3,675.95 | $4,203.95 |
| Bitki və Ofis | $302,388.00 | $1,257,764.00 |
| Ümumi İnvestisiya | $560,893.97 | $2,339,107.87 |
| **Vahid başına** | | |
| Qutu | $280.45 | $116.96 |
| $/750 ml | $23.37 | $9.75 |

Şərab zavodu üçün pul axını hesabatı hazırlanmışdır. Bu hesabat, gəliri əməliyyat xərcləri, sabit xərclər və gəlir vergiləri ilə müqayisə edərək xalis pul axını rəqəmini qaytarır. Nağd pul axını hesabatı üçün gəlir, hər bir işin qiymətinin məhsulu və hər il satılan işlərin sayı kimi hesablanırdı. Qiymətlər və miqdarlar şərab zavoduna və şərabın topdan və ya dequstasiya otağından satılıb satılmamasına görə dəyişir. İlk üç ildə bütün şərab fabrikləri üçün gəlir dramatik şəkildə artır. Bir və iki il ərzində istehsal olunan bütün şərab satılmağa hazır deyil. Üç ilə on il ərzində satışlar istehsalın ekvivalentidir. Nəticə, illik pul axınının artmasına və ya artmasına səbəb olan artan bir gəlir rəqəmi alınır.

**Cədvəl 3. Şərab zavodunun ölçüsünə və ilinə görə pul axını proqnozları ($)**

| **İllər** | **2000 qutu** | **20000 qutu** |
|---|---:|---:|
| 1 | ($211,701.87) | ($1,336,218.07) |
| 2 | ($82,146.79) | ($671,170.75) |
| 3 | $47,287.86 | $578,969.30 |

| | | |
|---|---|---|
| 4 | $62,609.42 | $721,883.52 |
| 5 | $65,791.88 | $743,868.36 |
| 6 | $125,463.12 | $1,002,053.46 |
| 7 | $128,297.17 | $1,016,097.16 |
| 8 | $130,753.75 | $834,098.07 |
| 9 | $112,738.86 | $833,473.79 |
| 10 | $114,973.82 | $851,743.61 |

Gəlirlərin kəskin artması iki fərqli səbəbdən qaynaqlanır. Birinci səbəb, hər bir şərab zavodunun ilk illərində hasilat və gəlirin reallaşması arasındakı vaxt gecikməsidir. Daha çox şərab satışa hazır olduqda, gəlirlər mütənasib olaraq artır. Gəlirlərin dəyişməsinin ikinci səbəbi inflyasiyadır. Gələcək pul axınlarını hesablamaq üçün istifadə edilən inflyasiya dərəcəsi yüzdə iki idi. Hər ilin satışları, o ilin gəlirini təyin etmək üçün inflyasiya səviyyəsi ilə aparılır. Gəlirlərin qiymətləndirilməsindən sonra əməliyyat xərcləri və sabit xərclər hesablanır. Qeyd etmək lazımdır ki, kredit ödənişlərindən olan amortizasiya və faizlər vergi xərclərindən əvvəlki kimi hesablanmış və pul vəsaitlərinin hərəkəti bölməsinin sabit xərclərinin hissəsinə daxil edilmişdir. Beləliklə, amortizasiya və kredit faizi hər bir şərab zavodunun vergi yükünü azaldır. Vergi tutulan gəlir hər il üçün ümumi gəlirdən ümumi xərcləri çıxmaqla hesablanır. Ümumi pul axınını hesablamaq üçün hesablanmış gəlir vergisi vergiyə cəlb ediləndən çıxılır.

**Nəticə**

Məqalədə araşdırılmış məsələlər Ağdam rayonunun gələcək inkişafı və perspektivlərinə iqtisadi və sosial baxışın bir təzahürüdür. Mənim fikrimcə, yaxın 5 il ərzində bu rayona daxili və xarici investorların cəlb edilməsi, rayonda mövcud olmuş istehsal müəssisələrinin bərpası və əlavə müəssisələrin açılması, həm rayon, həm ölkə və eyni zamanda region ölkələri üçün böyük əhəmiyyət daşıyır.

**İstinadlar**


1. N.Muzəffərli, E.İsmayılov. Azərbaycan post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, «Qafqaz», 2010.
2. https://www.azerbaijan-news.az/posts/detail/ilham-eliyev-agdamda-dunyada-tayi-beraberi-olmayan-cennetmekan-qurur-1622580119
3. https://apa.az/az/apa-tv/xeber/xeberler/prezident-ilham-eliyev-agdam-rayonuna-sefer-edib-65534
4. https://www.stat.gov.az/
5. https://dvizhok.su/business/haval-investiruet-bolee-42-mlrd-rublej-v-proizvodstvo-v-rossii
6. http://ses.wsu.edu/wp-content/uploads/2015/02/eb1996_05.pdf
7. https://www.kubota.com/news/2016/20160509.html

**HACIYEVA Leyla**

Azərbaycan Dillər Universiteti, doktorant

# AĞDAMDA ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN YENİDƏN BƏRPASI

*"Qeyri-neft sektoru Azərbaycanın gələcəyidir, Azərbaycan iqtisadiyyatnın hərtərəfli inkişafı üçün başlıca şərtdir".*
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

**Xülasə:** Məqalədə Ağdamda işğaldan öncə və hazırkı dövrdə üzümçülük və şərabçılığın təşkili haqqında məlumat verilmişdir. Həmçinin, Ağdamda üzümçülüyün təşəkkülü mühitini şərtləndirən amillər xarakterizə olunmuşdur. Üzümçülüyün, o cümlədən, şərabçılıq bazarının səmərəli fəaliyyəti üçün zəruri şərtlər açıqlanmışdır. Şərabçılıq fəaliyyətinin bazar iqtisadiyyatının əsas prinsipləri çərçivəsində baş verməli olduğu göstərilmişdir. Üzümçülüyün regionda məşğulluğun səviyyəsi və strukturuna təsiri, tarazlı regional inkişafda rolu xarakterizə edilmişdir. Həmçinin, Ağdamda üzümçülük və şərabçılığın vəziyyətinin qiymətləndirilməsi özünəməxsus meyar və göstəricilərlə təhlil edilmişdir. İşğaldan azad ediləndən sonra Ağdamda kənd təsərrüfatının inkişafı istiqamətində mövcud olan bir sıra problemlərin olması və onların həlli yolları məqalədə göstərilmişdir.

**Açar sözlər:** üzümçülük, şərabçılıq, qeyri-neft sektoru, əkinçilik, üzümçülüyün bərpası.

## Giriş

Azərbaycanın iqtisadi inkişafında işğaldan azad edilmiş ərazilərin təbii sərvətləri, xüsusilə kənd təsərrüfatı potensialı həmişə böyük **əhəmiyyət daşımışdır**. Bu ərazilər hər zaman Azərbaycanın ən böyük kənd təsərrüfatı bölgəsi olmuşdur. Məlumdur ki, 1988-ci ildən erməni təcavüzkarlarının işğalı nəticəsində Azərbaycan torpaqlarının 20%-ə qədəri işğal olunmuş, qədim yaşayış məskənlərimiz, sənaye və kənd təsərrüfatı sahələri məhv edilmiş, ekoloji tarazlıq pozulmuşdur. İşğal nəticəsində Azərbaycanın kənd təsərrüfatına ağır zərbə dəymişdir. Əkin sahələri yandırılmış, kənd təsərrüfatı kompleksləri dağıdılmışdır. Ermənistanın təcavüzü zamanı (1990-1994-cü illər) Azərbaycanda ÜDM 63% azalmışdır. Bunun 43%-i kənd təsərrüfatının payına düşmüşdür.

Ermənistanın təcavüzü nəticəsində regionda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, o cümlədən, sovxoz və kolxozlar, təsərrüfat birlikləri öz fəaliyyətini dayandırmışdır. Beləliklə, işğal olunmuş ərazilərdə 1988-ci ildən qalan 311 kənd təsərrüfatı müəssisəsi, 145 yeni yaradılmış, müasir texnika ilə təchiz olunmuş üzümçülük-şərabçılıq sovxozları, xüsusilə, məşhur Qarabağ cins-cıdır atları yetişdirən Ağdam atçılıq sovxozu, 135 kolxoz və 31 təsərrüfatlararası müəssisələr dağıdılmışdır. Kənd təsərrüfatının maddi texniki bazasını təşkil edən 1365 avto-qoşqu nəqliyyatı

və 3425 müxtəlif əkin və qoşqu traktorları, taxıl və pambıq yığan kombaynlar və s. çıxarıla bilmədiyindən işğal ərazilərində qalmışdır. İşğal olunmuş ərazilərdə 7296 ədəd hidroqurğular, 36 ədəd nasos stansiyaları, 26 ədəd suvarma sistemləri, 18 ədəd suvarma sisteminin baş qurğuları, 1,2 min km təsərrüfatlararası suvarma kanalları, 5,6 min km təsərrüfatdaxili sistemləri sıradan çıxarılmış, 128 min ha keyfiyyətli suvarılan torpaqlar düşmən tapdağı altında qalmışdır [4]. Halbuki, bu ərazilərdə taxılçılıq, tütünçülük, pambıqçılıq, üzümçülük, kartofçuluq, yem istehsalı, ətlik-südlük heyvandarlıq, xüsusilə də, qoyunçuluq sahələri yüksək inkişaf etmişdir.

Azərbaycanda istehsal edilən üzümün 31,5%-i, yunun 19,3%-i, baramanın 17%-i, südün 17,1%-i, ətin 14,5%-i və taxılın 14,3%-i bu rayonların payına düşürdü. Bu regionda ekoloji cəhətdən ən təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilirdi.

**Üzümçülük və şərabçılığın yenidən bərpası**

Ölkəmizin bütün sahələrində olduğu kimi, aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsində ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. 1994-cü ilin mart ayında Prezident sarayında keçirilən müşavirədə Heydər Əliyev demişdir: "Bildiyiniz kimi, respublikamız ağır iqtisadi-sosial böhran içərisindədir. Respublikanın iqtisadiyyatının və sosial həyatının bütün sahələrini bürüyən bu böhran təəssüf ki, ilbəil dərinləşir, ölkənin həyatına onun mənfi təsiri güclənir. Mən Respublikanın bu vəziyyətdə olması barədə öz fikirlərimi dəfələrlə demişəm, təkrara ehtiyac yoxdur. Ancaq qısaca bir daha qeyd etmək istəyirəm ki, respublikanın böhran vəziyyətində, müharibə şəraitində olması müstəqil Azərbaycanı həddindən ziyadə ağır vəziyyətə salmışdır. Bunlar hamısı əhalinin həyat tərzinə mənfi təsir edir və ümumiyyətlə, Respublikanın bu günü və gələcəyi üçün çox böyük çətinliklər yaradır. Ancaq eyni zamanda xalqımız, ictimaiyyət bilməlidir ki, Azərbaycanın daxili imkanları çox böyükdür, böhran vəziyyətindən çıxmaq üçün mümkünatlar var. Biz bu imkanların hamısını işə salmalı, onlardan səmərəli istifadə etməli və respublikamızı bu ağır vəziyyətdən çıxarmalıyıq" [3].

H.Əliyev Azərbaycan dövlətinin gələcək inkişafını, dövlətçiliyin, Azərbaycançılığın, onun tərəfindən başlanmış və həyata keçirilməkdə olan bütün işlərin ardıcıllıqla yerinə yetirilməsini məhz cənab Prezident İ.Əliyevin rəhbərliyində görürdü. H.Əliyev 2003-cü ildə xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [3].

Ölkə başçısı İ.Əliyev 1 noyabr 2003-cü il Respublika Prezidenti kimi andiçmə mərasimində xalqa müraciətində demişdir: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm" [3].

Bu gün hamımız yüksək kürsüdən deyilmiş dahiyanə sözlərin yerinə yetirilməsinin, gələcəkdə daha intensiv olaraq həyata keçiriləcəyinin canlı şahidləriyik.

Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Qarabağda başlatdığı uğurlu əks-hücum nəticəsində Ermənistan 44 gün sonra məğlubiyyət sənədi imzalamaq məcburiyyətində qaldı və Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərimizə "Böyük Qayıdış"ı təmin etmək üçün hərtərəfli fəaliyyət planlarının hazırlanması ilə yanaşı, bu istiqamətdə çox vacib praktiki fəaliyyətlərə başlanılmışdır. Belə ki, işğaldan azad edilmiş ərazilərdə humanitar, sosial-iqtisadi, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə səlahiyyətli dövlət orqanlarının rəhbər şəxslərindən ibarət Əlaqələndirmə Qərargahı formalaşdırılmışdır [1].

Həmçinin, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır [1].

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı ilə də bağlı dövlət başçısı tərəfindən hökumətə tapşırıqlar verilmişdir: "Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. İlk növbədə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir? Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var" [3].

Hal-hazırda qarşımızda işğaldan azad edilmiş ərazilərdə aqrobiomüxtəlifliyin yoxlanılması, bitkiçilik, meyvəçilik, üzümçülük və yemçiliyin inkişafı, həmçinin, bərpası kimi vacib vəzifələr durur.

Ölkəmizdə üzümçülük qədim dövrlərdən bəri kənd təsərrüfatı sektorları arasında xüsusi çəkiyə malik olmaqla böyük sənaye xarakteri daşıyır. Bu gün üzümçülük ölkə iqtisadiyyatının yüksəldilməsi baxımından prioritet sahələrdən biridir. Son tədqiqatlar göstərir ki, Azərbaycanda 600-ə yaxın aborigen və introduksiya olunmuş üzüm sortu əkilmişdir ki, bunun da 400-ə yaxını yerli üzüm sortudur. Keçən əsrin 70-ci illərdən sonra Qarabağda üzümçülüyün inkişafına daha çox diqqət yetirilməyə başlanılmışdır. Üzümçülük və şərabçılığın inkişafı üçün böyük sovxoz-zavodlar istifadəyə verilmişdir.

İşğaldan azad edilmiş Qarabağda üzümçülük və şərabçılığın inkişafı, tingçilik, klon seleksiyası, biotexnologiya, hibridləşmə, genetik ehtiyatların qorunması, şərab üzümünün keyfiyyətinin öyrənilməsi və digər bu kimi sahələrdə birgə layihələrin gerçəkləşdirilməsinə qərar verilibdir.

30 ilə yaxın müddət idi ki, erməni qəsbkarları tərəfindən işğal edilən rayonlar arasında Ağdam da vardır. 1930-cu ildə yaradılan Ağdam rayonunun ərazisi 1150 kv.km-dir. Ağdamın inzibati ərazisinə Ağdam şəhəri, 138 kənd və qəsəbə daxildir. Bu ərazilərdə işğala qədər 160 minə yaxın əhali yaşamışdır. **İşğaldan əvvəl Ağdamda iri sənaye müəssisələri fəaliyyət göstərmişdir. 23 iyul 1998-ci ilə qədər Ağdamda maşınqayırma, traktor, avtomobil təmiri, aerokosmik və rabitə avadanlıqları zavodu;** metis-furnitir və konserv zavodu; asfalt, yağ, şərab və şampan zavodu; xalça fabriki; tikinti materialları, taxıl məhsulları və ət kombinatı və digər sənaye müəssisələri mövcud olmuşdur.

Ağdamda kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar vardır. Ağdamın bir çox sahələrdə uğurları olsa da, kənd təsərrüfatı xüsusi ilə seçilirdi. Ərazisinin bir hissəsi dağətəyi, digər hissəsi isə aran bölgəsi olmaqla əkinçilik üçün əlverişlidir. Rayonda münbit və qara torpaqların olması aqrar sektorun müxtəlif istiqamətlərdə inkişafını təmin edir. Rayonda üzümçülük, şərabçılıq, taxılçılıq, pambıqçılıq, baramaçılıq, meyvə və tərəvəzçilik çox yaxşı inkişaf etmişdir. Ona görə də Ağdamda konserv zavodları fəaliyyət göstərirdi. Kənd təsərrüfatı məhsullarının təkcə satışı deyil, həm də onların sənaye üsulu ilə hazırlanması və daxili bazara çıxarılması həyata keçirilirdi. Ağdamda məhsuldarlığın yüksək olması regionda onu lider aqrar rayona çevrilməsinə imkan vermişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistanın işğalından əvvəl Ağdamın iqtisadi, o cümlədən, sənaye, kənd təsərrüfatı və digər sahələr üzrə geniş potensialı olub. Eyni zamanda Ağdam mədəni və tarixi abidələr baxımından da çox böyük əhəmiyyətə malik idi **[5].**

Eyni zamanda burada əkin sahələrinin çox olması səbəbindən kənd təsərrüfatı planları, öhdəlikləri vaxtında yerinə yetirilirdi. SSRİ dövründə planlı iqtisadiyyat olduğuna görə bəzi ərazilərdə təbii şəraitə uyğun olmayan təsərrüfatlar yaradılırdı. Bu da bəzən narazılığa səbəb olurdu. Hal-hazırda isə azad iqtisadiyyat dövrüdür və düzgün təsərrüfatların yaradılmasına imkanlar vardır. Lakin bunu da qeyd edim ki, Ağdamın inkişafını o torpağın mahiyyətini bilən, orada doğulub, yaşayıb və böyüyən insanlarla birlikdə müəyyən etmək lazımdır.

**Cədvəl 1. 1980-ci illər üzrə Ağdamda əkin sahələrinin strukturu, ha**

| Üzüm | Taxıl | Pambıq | Tərəvəz və bostan | Meyvə | Cəmi sahə |
|---|---|---|---|---|---|
| 13,042 | 7,660 | 7,565 | 259 | 285 | 28,813 |

**Mənbə:** Dövlət Statistika Komitəsi

Qarabağ bölgəsinin əsas bitkilərindən olan üzüm Ağdamda da ənənəvi sahələrdən biri hesab olunmuşdur. Araşdırmalar göstərir ki, 1985-ci ildə 21,3 min ha sahədən 104 min ton üzüm çıxarılsa da, artıq 1988-ci ildə üzüm sahələri 15,5 min ha endirilərək 86,1 min ton üzüm yığılmışdır. 2019-cu ildə isə Ağdamda üzüm istehsalı 402 ton olmuşdur ki, bu da üzüm bağlarının qalmadığını, geniş ərazilərin işğal altında olduğunu, digər ərazilərdəki üzümlüklərin tərəvəz və s. digər sahələrlə əvəz olunmasının nəticəsidir.

Təhlillərdən görünür ki, Ağdamda üzümçülüyün yüksək məhsuldarlıq dövrü 1985-ci il idi. İşğaldan əvvəlki dövrdə (1980-1988-cı illər) ölkədə üzüm bağlarının maksimum məhsuldarlığı 95,3 sent/ha olduğu halda, Ağdamda məhsuldarlıq 68,4 sent/ha idi. 1980-1988-ci illərdə ölkə üzrə üzüm istehsalının təxminən 7,2%-ni Ağdam təşkil edirdi. Həmin illərdə məhsuldarlığın ölkə səviyyəsinin 89,6%-ni təşkil etməsi üzüm istehsalında Ağdam rayonunun liderliyini göstərir.

Yeni texnika və texnologiyaların tətbiqi, həmçinin, işğaldan azad edilmiş torpaqlar üçün qəbul edilmiş yeni tədbirlər planı çərçivəsində digər bitki növləri ilə yanaşı, üzümlük sahələrinin artımı və daha yüksək məhsuldarlığın səviyyəsi hesabına ölkənin üzümə olan tələbat səviyyəsinin tam təmin edilməsi gözlənilir. Üzümçülük sahəsinin, o cümlədən, texniki üzüm sortlarının yetişdirilməsi bu rayonda şərabçılıq sektorunun canlanmasının bilavasitə əsas amili olacaqdır. Belə ki, 2025-ci ildə üzüm istehsalında Ağdam rayonunun ölkədəki payının 1,8% təşkil edərək 3,8 min ton üzüm istehsal edilməsi proqnozlaşdırılır **[6]**.

Ağdamda şərabçılığı inkişaf etdirmək üçün bütün imkanlar vardır. Sovet dövründə Azərbaycan "Ağdam" şərabı ilə məşhur idi. İstehsalına 1948-ci ildən başlanan "Ağdam" portveyn tipli tünd şərabdır. O vaxtdan bəri tərkibində şəkər və alkoqolun yüksək olması səbəbindən məşhurlaşmışdır. Bir çox portveynlərdən fərqli olaraq, "Ağdam"da şəkərin miqdarı 8%, spirtin tündlülüyü isə 19%h. idi. Buna görə də SSRİ respublikalarında "Ağdam" şərabına tələbat böyük idi.

Rayonda torpağın münbitliyi üzümçülük üçün əlverişlidir və yenidən bu sahənin inkişafına nail olmaq olar və dünya bazarına rəqabətə tab gətirən şərablar çıxarıla bilər.

Ağdamda ilk şərab zavodu 1860-cı ildə tikilib istifadəyə verilmişdir. 70-ci illərin sonunda isə Ağdamda ilk çox tonluq üzüm saxlama soyuducusu quraşdırılmışdır. Nəticə olaraq qış aylarında da Azərbaycan və SSRİ-nin digər şəhərlərinin əhalisinə Ağdamdan təzə üzüm məhsulları tədarük etməyə imkan vermişdir. Bu soyuducu Ağdam rayonundakı "Qarabağ üzümçülük və şərabçılıq sovxozu"nda tikilmiş və o dövrün ən son texnologiyalarına əsaslanmışdır.

Həmçinin, rayonda kənd təsərrüfatı müəssisələri, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi stansiyaları fəaliyyət göstərmişdir. Ağdamda hava limanı, dəmir yol stansiyası və müasir standartlara cavab verən avtomobil yolları vardır.

Ağdamın 28 nəfər Sosialist Əməyi Qəhrəmanı (Əminə Surxay qızı Cəfərova, Sədrəddin Fərrux oğlu Ələsgərov, Xuraman Zeynal qızı Abbasova, Sürəyya Abbasqulu qızı Kərimova və s.) var idi. Bir rayon üçün isə bu çox böyük göstəricidir. Bu da yerli əhalinin nə qədər zəhmətkeş olmasına və nəticə olaraq, rayonun böyük gəlirlər əldə etməsinə daha bir sübutdur.

**Cədvəl 5. Perspektivdə Ağdamda bitkiçilik məhsullarının istehsalına dair proqnoz, min ton**

| Üzüm | Taxıl | Pambıq | Tərəvəz | Bostan | Meyvə |
|---|---|---|---|---|---|
| 5,6 | 101,9 | 13,2 | 183,2 | 6,1 | 17,4 |

**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi

Bu gün azad olmuş Ağdamda ən yüksək texnologiyalara malik zavodların, elmi mərkəzlərin yaradılması, kənd təsərrüfatı istiqamətində yeni müəssisələrin qurulması üçün çox böyük imkanlar vardır.

Ağdamın işğala məruz qalmamış hissəsində 2019-cu ilin əkin sahələrinin strukturuna nəzər saldıqda da taxıl (65,5%) və pambıq sahələri (11,8%) azalmış olsa da, daha geniş sahələri əhatə etdiyi görünür. Bununla belə, tərəvəz (20,4%), o cümlədən, kartof (1,7%) və soğan (3,7 min ha) bitkilərinin də xüsusi çəkiləri nəzərə çarpan dərəcədə fərqlənməkdədir. Ağdamın işğala məruz qalmamış hissəsində üzümlük sahələri demək olar ki, yoxdur. Lakin meyvə və giləmeyvə sahəsi 764,8 hektardır. İllər keçdikcə əkin strukturunda pambıq sahələrinin çoxillik əkmələr və tərəvəz sahələri ilə əvəzləndiyi müşahidə edilir [7].

Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam tamamilə talan edilmiş, ümumi infrastruktur sahələri dağıdılmışdır. İşğal nəticəsində Ağdam rayonuna 6,2 mlrd. dollar məbləğində ziyan dəymişdir. Təkcə kənd təsərrüfatı sahəsinə 992,8 milyon manat ziyan vurulmuşdur.

Peyk görüntülərindən Ağdamın işğal olunmuş əraziləri ilə işğal edilməmiş ərazilər arasındakı fərq aydın görünür. Vaxtı ilə qaynar həyatın olduğu, Azərbaycanın gözəl məkanlarından biri olan Ağdamdan əsər-əlamət qalmamışdır. Bu, ermənilərin düşünülmüş qərəzli və separatçı siyasətinin bariz nümunəsidir. Bu gün Ağdam azaddır və böyük ümidlər var ki, özünün əvvəlki vəziyyətindən də daha çox inkişaf edəcəkdir.

2020-ci ilin noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Ağdam şəhərindəki çıxışında demişdir: "Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik" **[9]**.

Ağdam minalardan tamamilə təmizləndikdən sonra ilk növbədə burada infrastruktur layihələr həyata keçirilməlidir. Məqsədyönlü işlər aparılmalı, konkret müəssisələr yaradılmalıdır. Ağdam rayonunun potensialı yüksəkdir, bu da ÜDM-nin və ixrac həcminin artımına səbəb ola bilər. Sadəcə Ağdamın potensialını düzgün qiymətləndirmək vacib məsələdir.

Prezident İlham Əliyev Ağdamla bağlı demişdir: "İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq" **[6]**.

Ümid edirik ki, tezliklə insanlar öz ata-baba yurdlarına qayıdacaq və dinc şəkildə yaşayacaqlar. Ağdam rayonunda əsas ixtisaslaşma sahələri olan üzümçülük, taxılçılıq, və tərəvəzçiliyin bərpası ölkə iqtisadiyyatına əhəmiyyətli töhfə verəcəkdir.

**Nəticə**

Hazırda işğaldan azad edilmiş ərazilərin inkişafı üçün lazımi addımların atılmasına ehtiyac vardır. Dövlətimizin üzərinə düşən əsas öhdəliklər Ağdamda üzümçülük, taxılçılıq, pambıqçılıq və heyvandarlıqda prioritet sahələri müəyyən etməkdir.

İlk növbədə uzun illərdir istifadəsiz qalan torpaqların bərpası, deqradasiya proseslərinin aradan qaldırılması ilə paralel olaraq meliorasiya və suvarma sistemlərinin qurulması çox vacibdir. Növbəti mərhələdə torpaqların uçotu aparılmalı, kateqoriyalar hazırlanmalı, əkin və otlaq sahələri müəyyən edilməlidir.

Ağdamda üzümçülüyü inkişaf etdirmək üçün yeni üzüm bağlarının salınması zamanı torpağın düzgün seçilməsi, torpaq-iqlim şəraitinin uyğun olub-olmaması, tənəklərin su və qida maddələri ilə təmin olunması, həmçinin, üzümlüklərdə intensiv becərmə texnologiyalarının tətbiqinə xüsusi fikir verilməlidir. Eyni zamanda üzüm bağlarında çeşid qarışığının qarşısının alınması,

bitkinin böyüməsi və məhsuldarlığına dayaq sisteminin seçilməsinə diqqət yetirmək lazımdır.

Müvafiq dövlət proqramları əsasında Ağdamda üzümçülüyü genişləndirilmək üçün aşağıdakı məsələləri həll etmək lazımdır:

– Bölgədəki torpaq və iqlim şəraitinə uyğun olaraq yeni əkinlərin salınmasında yararsız torpaqların əkin dövriyyəsinə daxil edilməsi və istifadəsi;

– Üzümçülük və şərabçılıq infrastrukturunun təkmilləşdirilməsi, elmi kadr potensialının gücləndirilməsi;

– Üzüm istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqi;

– Üzüm emal müəssisələrinin bərpası və yeni müəssisələrin yaradılması;

– Üzümçülük və şərabçılığın şöhrətini əvvəlki səviyyəyə qaldırmaq üçün fərdi üzümçülük fermerləri və torpaq mülkiyyətçiləri Ağdamda əkdikləri üzüm bağlarını bazar iqtisadiyyatı ilə əlaqələndirməli;

– Ağdamda üzümçülüyü, xüsusən də şərabçılığı canlandırmaq üçün bir çox məsələlər dövlət səviyyəsində həll olunmalıdır.

Aqrar islahatların uğurla həyata keçirilməsinə dövlət qayğısı və bu sahədə sahibkarların inkişafı üçün yaradılan əlverişli şərait Ağdamda üzümçülüyün əvvəlki şöhrətinin bərpasına ümid verir. Düşünürəm ki, belə tədbirlər nəticəsində tezliklə Ağdamda üzümçülük ənənələri bərpa olunacaqdır.

**İstinadlar**


1. Pənahov T.M., Səlimov V.S., Zari Ə.M. Azərbaycanda üzümçülük. B., 2010.
2. Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. B., 2012.
3. http://www.garabagh.net/content_184_az.html
4. http://shusha.az/ermənistanin-azərbaycana-təcavuzu/
5. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirəkeçirilib.https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_2020_ci_ilin_yekunlarina_hesr_olunmus_videoformatda_musavire_kechirilib_YENILANIB_VIDEO-1682565
6. https://banker.az/agdamin-boyuk-potensiali/
7. https://azertag.az/xeber/Isgaldan_azad_olunmus_Agdamin_aqrar_potensiali__TAHLIL
8. http://agdam-ih.gov.az/news/340.html
9. https://president.az/articles/47685

HƏSƏNOV Niyazi
Azərbaycan Dövlət İqtisad Universiteti, i.f.d., dos.

# AĞDAM RAYONUNDA İNVESTİSİYA STRATEGİYALARININ HAZIRLANMASINA SİSTEMLİ YANAŞMA

**Xülasə:** Məqalədə, Ağdam rayonunun iqtisadi cəhətdən səmərəli təşkilinin və gələcək inkişafının vacib şərtləri və bu ərazidə investisiya layihələri çərçivəsində, investisiya strategiyalarının hazırlanması, onların həyata keçirilməsi sayəsində müvafiq ərazidə iqtisadi sahələrin dinamik təşkili və inkişafının təmin edilməsi məsələlərinin təhlili aparılmışdır. Bu iqtisadi-inzibati rayon ərazidə investisiya strategiyasının düzgün formalaşdırılması, daxili və xarici amillərin təsirinin nəzərə alınması, bu rayonun iqtisadi cəhətdən səmərəli təşkili gələcəkdə dayanıqlı inkişafı təmin edən mühüm məsələlərin qiymətləndirilməsi problemləri araşdırılmışdır. İnvestisiya layihələri çərçivəsində, bu ərazidə investisiya strategiyasının düzgün təşkili məsələləri öyrənilmiş və bazar iqtisadiyyatı şəraitində tətbiq olunan digər məqamlar nəzərə alınmaqla, azad edilmiş Ağdam rayonunun ərazisinin yeni inkişaf mərhələsi, investisiya strategiyalarının səmərəli tətbiq edilməsinin təhlili aparılmışdır.

**Açar sözlər:** investisiya, strategiya, investisiya layihəsi, inflyasiya, sosial – iqtisadi.

→

## Giriş

Azərbaycan Ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbə əlbəttə, hər bir azərbaycanlı üçün ən böyük qürur mənbəyidir. Lakin indi tam əminliklə deyə bilərik ki, cəbhədə olan uğurların ən başlıca səbəbkarı Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət - güclü ordu strategiyası, milli birlik və döyüşçülərin ruh yüksəkliyi idi.

Azad edilmiş Ağdam rayonu ərazisində, strateji inkişafın həyata keçirilməsi, sosial-iqtisadi, siyasi və mikro -maliyyə sabitliyinin təmin olunması, inflyasiyanı nəzərə almaqla, səmərəli islahatların təşkili, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşlarının təmin edilməsi, müxtəlif mülkiyyət və təsərrüfat formalarına bərabər imkanlarından yararlanmaq, sərbəst rəqabət şəraitində, insanların iqtisadi fəallığının təmin edilməsi və s. məsələlərin həlli günün aktual problemləridir. İqtisadiyyatın real bölməsində idarəetmə və təşkilati strukturların yaradılması və inkişafı, maddi istehsalın texnoloji quruluşunun müasir ETT əsasında təşkil edilməsi, istehsalın səmərəli iqtisadi fəaliyyətinin təmin edilməsi, daxili və xarici bazar üçün rəqabət qabiliyyətli milli məhsulların istehsalını təmin edən tədbirlərin görülməsi vacib məsələlərdəndir.

Rayonda görüləcək işlərin başlıca istiqaməti - mülkiyyət və təsərrüfat formalarından asılı olmadan fəaliyyət göstərəcək firma və ya şirkətlərin fəaliyyəti üçün əlverişli iqtisadi və hüquqi mühit yaratmaq lazımdır ki, bazarda fəaliyyət göstərəcək bütün iştirakçılar daxili və xarici imkanlar əsasında stimullaşdırıcı tədbirlər həyata keçirilməsi mümkün olsun. İlk əvvəl təsərrüfat fəaliyyətinə dövlət müdaxiləsi zəruri olsa da, getdikcə belə müdaxilə məhdudlaşdırılmalı və özəl sektorda fəal göstərən firma və ya şirkətlərin təsərrüfat fəaliyyəti üçün əlverişli iqtisadi və təşkilati şərait yaradılmalı, sahibkarların mülkiyyət hüququ təmin edilməklə, investisiyaların cəlb edilməsi üçün himayədarlıq siyasəti aparılması hazırkı dövrdə daha çox məntiqə uyğundur.

Müasir şəraitdə rayonun iqtisadi cəhətdən səmərəli təşkilinin və gələcək inkişafının vacib şərtlərindən biri, investisiya layihələri çərçivəsində investisiya strategiyalarının hazırlanması, onların həyata keçirilməsi sayəsində ərazinin bütün sahələrinin dinamik təşkili və inkişafının təmin edilməsidir. Bu ərazidə investisiya strategiyasının düzgün formalaşdırılması, daxili və xarici amillərin təsirinin nəzərə alınması rayonun iqtisadi cəhətdən səmərəli təşkili gələcəkdə dayanıqlı inkişafı təmin edən mühüm məsələlərdən biri kimi qiymətləndirilməlidir.

Hal-hazırda investisiya layihələri çərçivəsində, bu ərazidə investisiya strategiyasının düzgün təşkili məsələləri daha dəqiq öyrənilməli və bazar iqtisadiyyatı şəraitində tətbiq olunan digər məqamlar da gözdən keçirilməlidir. Nəzərə almalıyıq ki, azad edilmiş Ağdam rayonunun ərazisinin yeni inkişaf mərhələsinə qədəm qoyması, investisiya strategiyalarının səmərəli tətbiq edilməsi üçün müvafiq mühit daha da cəlbedici olmalı və müvafiq layihələrin icrasının daxili motivləri müvafiq səmərəli təkliflərlə gücləndirilməlidir.

**Ağdam rayonunda tətbiq ediləcək investisiya layihələrinin strateji cəhətdən hazırlanmasına elmi-nəzəri tələblər**

Ağdam rayonunun investisiya siyasətini stimullaşdırmaq üçün, həm də rayonda rəqabət qabiliyyətli məhsulların istehsalının, ixrac yönümlü istehsal sahələrinin fəaliyyətinin təşkil edilməsi üçün sistem xarakterli tədbirlər görməklə yanaşı, rayonda tamam dağıdılmış müəssisələrin qanunvericiliklə müəyyən edilmiş qaydalarla bərpası təmin edilməlidir. Bu ərazidə bazar iqtisadiyyatı institutlarının formalaşması və inkişaf istiqamətlərinin müəyyən edilməsi strategiyası və iqtisadi fəaliyyətin yenidən təşkil edilməsi, dövlət və özəl mülkiyyətin səmərəli təşkili və idarə edilməsi, maliyyə və qiymətli kağızlar bazarının və bank sektorunun imkanlarından bəhrələnmək üçün müvafiq şərait yaradılmalıdır.

Bu məsələnin həllinin nəzəri aspektinə fikir versək görərik ki, Amerika iqtisadçıları R.Eysner [1. s. 21.], S.Fişer, R.Dornabuş və R.Şmalenzi [2. s. 15.], U.Şarp [3. s. 31.] öz əsərlərində belə vəziyyətə uyğun tətbiq ediləcək investisiya layihələrinin idarə olunması və müəssisələrin qabaqcadan təyin olunmuş strategiyası əsasında fəaliyyətinin müəyyən edilməsini zəruri tələb kimi qoyurlar. Avropa iqtisadçı alimlərindən isə biz M.İ. Rimer, A.D Kasatov, N.N.Matenko [4. s. 64.], L.Qitman və E.Xenniqer [5. s. 24.], S.Vayn [6. s. 14.] və s. əsərlərindən bu problemin həllində bəhrələnə bilərik.

Belə problemlərin uyğun həlli üçün, dünya bankının metodikasında isə - müvafiq ərazidə investisiya layihəsinə pulun bank yolu ilə kompleks şəkildə qoyulması, vaxtdan düzgün istifadəsi və büdcədə qoyulmuş məqsədlərə çatılması, müvafiq biliklərə sahib olunması və s. diqqət yetirilməsi tələb edilir. Bizim problemimizin timsalında investisiya layihəsinin tətbiqi fəaliyyəti onun növlərini müəyyən etməyi tələb edir, buna görə də, ilk öncə aşağıdakılar həll edilməlidir:

1. Məqsədlərin müəyyən edilməsi;
2. Maliyyə və vaxt ehtiyatlarına, onların bütün ömrünə zəmanətin məhdud olduğunun təyin edilməsi;
3. Şərtlərin icra edilməsi üçün daxili amillərin təsirinin (siyasi, hüquqi, iqtisadi və s.) müəyyən edilərək və şərh edilməsi;
4. Bir-biri ilə müxtəlif əlaqələrin qurulması və onların son nəticələrini müəyyən edilməsi.

Bu istiqamətdə yeni axtarışların məqsədini nəzərə alaraq, qeyd edək ki, strateji məqsədlər müvafiq şərtlərə uyğun gəlməli və izahlı layihələrə üstünlük verilməlidir. Bu baxımdan, təklif edilən yanaşmanın mahiyyətini əsas görürsək, qeyd etmək olar ki, əvvəlcə tərtib olunmuş layihənin

məqsədini bütün mərhələlərdə ciddi yoxlamaq lazımdır. Çünki hər bir investisiya layihəsinin dəyişməsi, bu layihədən imtina etmək və ya onun yenisi ilə işləmək deməkdir.

Şərq tədqiqatçıları bu vəziyyətdə səbəbləri təhlil etdikdə, belə qənaətə gəlmişlər ki, hər bir investisiya layihəsinin məhv olması onun ilkin məqsədinin dəyişilməsi məsələsidir. Növbəti mühüm anlayış - onun, maliyyə vəsaitlərinin məhdudluğu və bu ehtiyatların layihənin büdcəsinə necə təsir göstərməsi "məqsədlər açarı" vasitəsi ilə müəyyən edilməlidir. Bu baxımdan, müvafiq olaraq rayonda, investisiya layihəsini icra edən işçilər üçün əsas icra müddəti intervalına xüsusi diqqət yetirilməli və vaxtın məhdudluğu daim nəzərə çatdırılmalıdır.

İnvestisiya layihəsinin seçilməsi və maliyyələşməsi üçün metodiki məsləhət, işçi qrupu tərəfindən müəyyən edilməlidir. Layihənin həyata keçməsi məhz, qarşıya qoyulan fəaliyyətin məqsədi hesab edilir və təcrübə baxımından, müvafiq fəaliyyət, layihələrin təhlili və ekspertizası bir daha onu deməyə əsas verir ki, bütün təklif edilən investisiya layihələrinin öncə təhlil edilməsi vacib məsələdir. İnvestisiya layihəsinin müvafiq fəaliyyəti və onun əsas rolu və qiymətli olması, yalnız onun metodologiyasından aşlı deyil, eyni zamanda beynəlxalq təcrübənin ümumi anlama gətirilməsi məhz müvafiq investisiya layihələrini səmərəli edə bilər.

Ağdam rayonunda tətbiq ediləcək hər bir investisiya layihəsi ekspert təhlilindən keçməli və səmərəli idarə olunması üçün aşağıdakı metodiki göstərişlərdən istifadə edilməlidir:

- alternativlik prinsiplərdən istifadə edilməsi;
- istehsal ediləcək məhsulların modern olması və bütün ehtiyatların maliyyə vəsaitlərinə satılmaşının mümkün olması;
- investisiya layihəsinin yenidən işlənməsi və ya bölmələrin ayrı-ayrılıqda ekspertizası və ya yenidən işlənməsi (texniki, kommersiya, ekologiya, sosial, maliyyə, iqtisadiyyat);
- dünya təcrübəsində istifadə olunan bütün normaların - səmərə və ya başqa gəlir və xərc şərtlərini nəzərə almaqla həyata keçirilməsi;
- investisiya layihəsinin icra olunması dövrünün təyin edilməsi, qeyri müəyyənliyin və risklərin nəzərə alınması

Göstərilən prinsiplərin ən mühüm məqamlarını qısa təhlil etsək, demək olar ki, alternativ anlayışlardan istifadə edilməsi mahiyyətcə bazar münasibətlərinə əsaslanır və həm də təbii ehtiyatların zaman çərçivəsində, hər bir anı üçün məhdudolma, həm də rəqabət prinsipindən çıxış edən anlayışlarla ilə bağlıdır. Qəbul edilmiş hər bir qərarın qiyməti, məhz bu qərara alternativ olan, lakin qəbul edilməyən ən yaxşı mümkün qərarların əsas qiyməti ilə ifadə olunur. Məsələn, iqtisadiyyatda məlum olan "yığım və ya sərf etmə" anlayışlarına alternativ, təbii ehtiyatların məhdud olması problemi ilə bağlıdır və müəyyən məbləğdə maliyyə vəsaitlərinin xərclənmiş müvafiq investisiya layihəsinin həyata keçirilməsinə aid edilməsi haqqında qərar qəbul edilməsi, onun başqa məqsədlərə istifadəsi zatən qəbul edilməzdir.

### *2. Ağdam rayonunda investisiya layihələrinin strategiyalarının hazırlanmasına təsnifat sistemli yanaşma*

Müasir dövrdə metodik göstəriciləri müvafiq müddəalar baxımından, ətraf mühitlə birləşdirsək, onda daxil olan gəlirlər və çıxan xərclər arasında olan maliyyə axınlarının strukturunun təhlili bir tələb kimi qarşımızda durduğunu görərik. Belə məqamda, məhz bu anlayışın, ərazidə maddi-fiziki müxtəlifliyi və onun dəyərinin zaman və məkanla müqayisə edilməsi və tutuşdurulması yeganə ölçü vahidini yerinə yetirdiyini unutmaq olmaz.

Eyni zamanda, yaddan çıxarmaq olmaz ki, müvafiq prinsiplərlə investisiya layihəsinin daxili strukturuna təsir edən və müəyyən edilən istiqamətlərdə onun kompleks və çox sahəli ekspertizanın aparılması, müvafiq ətraf mühitlə qarşılıqlı əlaqəsinin olduğunun müəyyən edilməsidir. Məhz belə yanaşma, müəyyən bir ərazidə, investisiya layihəsinin xarici və daxili amillərinin üstün cəhətlərini aşkar etməyə kömək edir və müəyyən edilmiş investisiya layihəsi haqqında danışmağa əsas verir. Yalnız ondan sonra müəyyən edilmiş müqavilə forması, müvafiq kriteriyalar əsasında xüsusi hesablamalar apardıqdan sonra, uyğun olub-olmaması müəyyən edilməlidir. Metodiki göstəricilərin müvafiq prinsipi, xarici aləmin dəyişməsinin ehtimal şərtlərini və

bu dəyişmənin, investisiya layihəsinin daxili strukturuna və səmərəli olmasına müvafiq təsirin nəzərə alınması lazımlı amil olduğunu qeyd etmək olar, çünki layihə riskləri məhz təhlil əsasında müəyyən edilir.

İqtisadi fəaliyyətin reallığı investisiya layihələrini növlərinə görə təsnifatlara bölür və baxılan təsnifatlardan birincisi, iki investisiya layihəsinin müqayisəsi ilə bağlıdır və təsnifat əaməti olaraq gəlir və xərclərin nisbəti baxımından səmərəli investisiya layihəsini sadəcə və dürüst istifadə edilməsi üçün götürülməsi məntiqə daha çox uyğundur. İki layihədən birini qəbul edərkən, o birisinin rentabelliyi sıfıra qədər azalırsa və ya əksinə, onda bunlar bir-birini inkar edən adlanır. Həmin layihələrin başqa alternativi ondan ibarətdir ki, bu iki layihə eyni məqsədlər üçün müəyyən ediliblər və onları eyni vaxtda qəbul edib faydalı tətbiq etmək qeyri-mümkündür. İki investisiya layihəsi o zaman xətalı olar ki, layihələrdən hər hansı birini qəbul etmədən, hər iki layihənin ayrı-ayrılıqda rentabelliyi sıfıra bərabər olsun. Həm də, şərtli əlaqə həmişə simmetrik olmalıdır ki, əgər bir layihənin qəbul və ya rədd edilməsi, o birinin rentabelliyinə təsir etmirsə, onda bunlar asılı olmayan layihələr adlanır. Yox əgər, bir layihəni qəbul edərkən o birinin rentabelliyi azalarsa (lakin tam yoxa çıxmır), onda bunlar əvəzedici layihələr ola bilər. Bu nisbət simmetrik olduğu kimi, olmaya da bilər və müvafiq olaraq, gəlir və xərclər hər iki tərəfə dəyişə bilər. Əgər bir investisiya layihəsinin qəbulu o biri layihənin rentabelliyini artırarsa, belə layihələr simmetrik layihələr hesab olunur. Lakin bu nisbət simmetrik olduğu kimi, olmaya da bilər. Bu əsasda başqa həm xərclərdə, həm də qazancda rentabelliyin artması mümkündür.

İnvestisiya layihələrinin təsnifatı (bu qeyri investisiya layihəsi də ola bilər), layihələrin sintezinin rahat olması, həmçinin layihələrin idarəetmə sisteminin yaradılması məqsədi ilə V.İ. Voropayevanın "Rusiyada layihələrin idarə edilməsi" adlı əsərində [7. s. 128.], onların ümumi tətbiqi yolları elmi şəkildə əsaslandırılmışdır. Bu təsnifata uyğun olan investisiya layihələri, birinci olaraq öz fəaliyyət sahəsində uyğun tiplərinə görə bölünürlər:

- texniki;
- təşkilatı;
- iqtisadi;
- sosial;
- qarışıq.

İkinci, siniflərə görə tərkibi bölünür, yəni:

- layihənin strukturuna görə;
- tədqiqat sahəsinə görə.

Məhz onların əsasında mono, multi və mezo layihələr müəyyən edilir. Mono layihə dedikdə, müxtəlif tipli, növlü və miqyaslı ayrıca layihələr başa düşülür. Multi layihə isə bir sıra mono layihədən ibarət olan və çox layihəli rəhbərlik tələb edən kompleks layihələrdir. Mezo layihənin tərkibinə bölgə, sahə və digər qurumların məqsədli inkişaf proqramları olan bir sıra mono və multi layihə daxil edilə bilər.

Üçüncü əlamət, layihələrin miqyaslarına görə ayrılması ilə bağlıdır (layihənin ölçüsü, iştirak edənlərin sayı və ətrafa təsir göstərməsinə görə). Miqyasa əsasən layihələr şərti olaraq xırda, orta, iri və çox iri layihələrə bölünürlər və bu baxımdan, investisiya layihələrini miqyaslarına görə daha konkret formada təqdim etmək olar.

Layihələr həm də dövlətlərarası, beynəlxalq, milli, bölgələrarası və bölgədaxili, sahələrarası və sahədaxili, korporativ, təşkilati, bir firma və ya şirkətin layihəsi kimi də fərqlənə bilər. Mürəkkəbliyinə görə layihələr sadə, çətin və ya çox çətin olur və layihənin tətbiq sahəsi, onu investisiya, innovasiya, elmi-tədqiqat, tədris-təhsil və qarışıq növlərə ayırmaq olar. İnvestisiya tələb edən və əsas məqsədi müvafiq formaların yaradılması və ya innovasiya əsaslı olan layihələr, adətən investisiya layihələri kimi də başa düşülə bilər.

Bu baxımdan, V.V.Şeremetin ümumi rəhbərliyi ilə hazırlanmış mütəxəssis və müəllimlər üçün iki cildli kitabında[8.s56-98.], layihənin ölçüsü, həyata keçmə müddəti, keyfiyyəti, ehtiyatların

məhdudluğu, yeri və həyata keçmə şərtləri əsasında xüsusi layihələr qrup halında təsnifləşdirilməsi təklif olunur.

## Nəticə

Əlbəttə, yuxarıda sadalanan amillərdən hər biri həlledici rola malikdir və özlərinə xüsusi diqqət tələb edir, qalan digər amillərin təsirini isə nəzarətin standart üsulları ilə həll etmək olar, riskləri isə idarəetmənin köməyi ilə neytral hala gətirmək lazımdır. Bu təsnifata uyğun olan müasir investisiya layihələri:

**a)** kiçik, cəlbedici ehtiyatların həcminin məhdud, miqyasının kiçik meyl və sadəliyinə görə uyğunlaşdırılması və təsnifləşdirilməsi ;
**b)** müqavilələr, müxtəlif səviyyəli məqsədyönlü proqramlar kimi təsəvvür edilə bilən (beynəlxalq, dövlət, milli, bölgə üzrə, sahələr arası, sahədaxili və qarışıq), ümumi məqsədə əsasən birləşmiş, müvafiq ehtiyatlar ayrılmış və işin yerinə yetirilməsi üçün vaxt təyin edilmiş, tərkibində çoxlu qarşılıqlı əlaqəsi olan layihələrin təsnifləşdirilməsi;
**v)** qısamüddətli layihələrin təsnifləşdirilməsi;
**q)** qüsursuz layihələrin (yüksək keyfiyyətli) əsaslandırılaraq təsnifləşdirilməsi;
**d)** mono layihələrə və onlara alternativ olan multi layihələrə (layihə sifarişçinin niyyəti, qarşılıqlı əlaqəsi olan bir neçə layihəyə aid olduqda) bölünməlidir.

Təklif etdiyimiz təsnifat layihələrin tətbiq edilmə əlamətinə görə iki qrupa bölünməsi ilə fərqlənir. Burada önəmli odur ki, investisiya layihəsi artıq fəaliyyətdə olan obyektə qoşulur və bu halda yeni layihəni işləyən müvafiq qurumun cari fəaliyyətinə, həm də belə fəaliyyətə uyğun olaraq, layihəyə təsiri altında olan aspektlərə yenidən baxmağı tələb edir. Belə hallar “müəssisə-layihə” adlandır və əgər layihə “boş yerdə” və ya “göy ot” üstündə həyata keçirilirsə, layihə ”müəssisə yaradan” olur və bu hal əvvəlkindən fərqli olaraq ”müəssisənin layihəsi” adlanır. İnvestisiya layihəsinin eyniləşdirilməsi və fəaliyyətdə olanın hesablanması və səmərəliliyinin qiymətləndirilməsi həmişə layihəsiz və ya layihə ilə şəraitin nəzərdən keçirilməsini tələb edir. Bu isə yalnız gəlir və xərclərin əlavə, artım adlanan qiymətlərinin, layihəsiz uyğun qiymətlərlə müşahidəsi, tutuşdurma metodunun köməyi ilə həyata keçirilə bilər.

## İstinadlar


1. Роберт Эйснер «Инвестиции: факт и воображение» (Инвестмент. Фажт анд фанжй.2013).
2. Коммерческая оценка  инвестиционных проектов. Основные положения методики. С-Пб., изд. Фирма «Альт», 2011.
3. Лившиц В.Н. Проектный анализ: методология, принятая во всемирном банке. Экономика и математические методы, 2013, Том 31, вып. 4, .
4. Блех Ю., Гетце У. Инвестиционные расчеты. Модели и методы оценки инвестиционных проектов. Калининград: Янтарный сказ, 2014.
5. Економика СНГ. Выпуск №8. «Инвестиционная деятельност в государствах-участниках СНГ». М. ЗАО. «Финстатинформ» 2012.
6. Şəkərəliyev A.Ş., Quriyev  C.Q., Əliyev A.Ə. «Gömrük işinin təşkili və idarə edilməsi». Bakı  - Qanun – 2013-cü il.
7. Hertz D.B. Investment Policies that Pay Off, Harvard Business Review, 46: 96-108 (January-February, 2016).
8. Управление инвестициями. Под обшей ред. Шеремета В.В. М.: Высшая школа, 2009.

## HÜSEYN Afaq

UNEC, i.f.d, dosent

# QARABAĞIN YENİDƏN QURULMASI VƏ İNNOVATİV İNKİŞAFI: İDARƏETMƏ, İSTEHSAL VƏ İNFRASTRUKTURUN TƏŞKİLİ

**Xülasə:** Tədqiqatın məqsədi Qarabağın yenidən qurulmasında mövcud problemlər və amilləri, innovativ bərpa və inkişafla bağlı qərar qəbul edərkən diqqət yetirilməli olan meyarları təhlil etmək, bu sahədə praktiki həll yollarını müəyyən etməkdir. Tədqiqatda müşahidə, təhlil, müqayisə metodlarından istifadə edilmişdir. Hesab olunur ki, idarəetmə, istehsal və infrastrukturun təşkili üzrə təklif edilən institusional və digər mexanizmlər Qarabağın yenidən qurulmasında və innovativ inkişafında özəl bölmə və dövlət xidmətləri tərəfindən istifadə edilə bilər.

**Açar sözlər:** innovasiya, bərpa, infrastruktur, idarəetmə, mexanizm.

→

## Giriş

Azərbaycanın 44 günlük İkinci Qarabağ Vətən Müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması və innovativ inkişaf etdirilməsi nəinki dövlətin, həm də cəmiyyətin əsas məqsədidir. İşğaldan azad edilmiş ərazilərin nəinki əvvəlki iqtisadi vəziyyətinin bərpası, həmçinin yenidən qurulması və inkişaf etdirilməsi dövlətin prioritet məqsədidir. Öyrənilən məsələlərin ilkin təhlili göstərir ki, Qarabağ regionunda aparılan bütün tədbirlər birbaşa dövlət tərəfindən tənzimlənməklə təşkil edilir. Bu çərçivədə regionda iqtisadi inkişafın formalaşması, innovativ idarəetmə və tənzimləmə mexanizmlərinin optimal seçimi üzərində işlər davam etdirilir. Qarabağın nəinki Azərbaycan daxilində, hətta Avrasiyada nümunəvi sosial-iqtisadi mərkəz olaraq formalaşması və inkişafı üçün dövlət idarəetmə və tənzimlənməsinin yeni mexanizmləri araşdırılır. Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə 2004-2023-cü illəri əhatə edən 4 dövlət Proqramının qəbulu və icra edilməsi ölkəmizin sosial-iqtisadi inkişafı və qüdrətli dövlətə çevrilməsində mühüm bir mərhələ kimi dəyərləndirilməlidir. “Hazırkı mərhələdə regionların sosial-iqtisadi inkişaf siyasəti Azərbaycan iqtisadiyyatının gələcək inkişafının prioritetlərini müəyyənləşdirilmişdir. Bu siyasət ayrı-ayrı iqtisadi rayonların sosial-iqtisadi inkişafının əsas istiqamətini müəyyən edir, sonra isə bu, onların reallaşdırılması üçün mümkün tədbirlərin seçilməsi və onların icrasının mərhələləri, müddətləri və ən başlıcası isə icraçılarının əks etdirilməsini təmin edir. Burada real vəziyyətin qiymətləndirilməsi mərhələsində strateji məqsədlərin seçilməsi və bu məqsədlərin həyata keçirilməsi üçün faktiki tədbirlərin müəyyən edilməsi, xüsusi ilə onların icrası üçün istər infrastruktur, istər təşkilatı, istərsə də resurs çatışmazlıqlarının aşkar edilməsi və onların aradan qaldırılması yollarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir” (Mahmudov M, Mahmudova İ, 2011, səh.21) .

Məhz Qarabağın, iqtisadi sistemin agentləri arasında yeniliklərin ötürülməsi üçün əlverişli bir yer kimi seçilməsi, müxtəlif innovativ əməkdaşlıq və tərəfdaşlıq formalarının yaradılması prosesini sürətləndirməyə imkan verən bir fürsətdir. Qarabağda «ağıllı» innovativ inkişaf strategiyasını formalaşdırmaq üçün özünəməxsusluğunu və rəqabət üstünlüklərini ayrı-ayrılıqda nəzərə alaraq, iqtisadi sistemin, təbii-resurs potensialının xüsusiyyətlərinə, sahə ixtisaslaşmasına və digər fürsətlərə diqqət yetirmək vacibdir. Yaradılacaq innovasiya mühiti bu vəziyyətdə bölgəyə xas innovasiya mədəniyyətinin formalaşmasına kömək edəcək ki, bu da öz növbəsində müxtəlif qrupların (dövlətlərin idarəetmə orqanlarının, iş dünyasının, vətəndaş cəmiyyətinin, elm və təhsil müəssisələrinin və s.) maraqlarını birləşdirən bir mexanizm rolunu oynaya bilər.

**Qarabağın yenidən qurulmasının və innovativ inkişafının təmin edilməsinin təhlili**

Hazırda Qarabağın işğaldan azad edilmiş ərazilərinin bərpası və dayanaqlı inkişaf planı səmərəli ola biləcək və hər növ riskləri minimuma endirən innovativ tədbirləri əhatə etməlidir. Yeni fikirlərin, ideyaların və innovasiyaların yaranması hələ onların həyata keçirilməsi demək deyil. Yeni fikirlər ümumiləşdirilmədiyi, təsnif edilmədiyi və prioritetlərin ayrılması ilə sistemləşdirilmədiyi və daha sonra həyata keçirilmə mərhələsinə keçmədiyi təqdirdə çox şey vermir [4]. Hər bir innovativ proses ilk növbədə texniki həlləri təhlil edilmiş, təşkilati-idarəetmə resurslar ilə təmin edilmiş olmalıdır. Bunun üçün xüsusi innovasiya mühiti formalaşdırılmalıdır.

İdarəetmə üzrə təhlil**.** Yenilikləri tətbiq etmək üçün innovasiya mühitinin yaratdığı imkanları müəyyənləşdirmək tələb olunur. Yerli və xarici alimlərin müxtəlif məlumat mənbələrinin təhlili bizə yalnız innovativ imkanlar haqqında deyil, iqtisadi inkişafın bu və ya digər mərhələsində innovasiya mühitində görünən "fürsət pəncərələri" haqqında danışmağa imkan verir [6]. Şübhəsiz ki, bu cür "fürsət pəncərələri" öz növbəsində xarici mühitin qeyri-müəyyənliyi, mürəkkəbliyi və dinamizmi ilə səciyyələnən müəyyən şərt və amillərin birləşməsindən yaranır. Bu "fürsətlər pəncərəsi"ni formalaşdırmaq üçün isə innovasiyaların həyata keçirilməsində maraqlı olan müxtəlif iş strukturlarının nümayəndələri, regional, milli və lazım gələrsə, dövlətlərin qarşılıqlı əlaqə zəncirini qurmaq üçün xüsusi addımlar atılmalı olur. Yəni bölgənin innovativ inkişaf strategiyasının formalaşdırılmasında innovativ fəaliyyət iştirakçılarının maraqlarının balansını yaradan «qızıl orta»nı tapmaq və qorumaq lazımdır. Bir çox hallarda isə bu əsas şərtdir. Əsasən də təhlil zamanı vacib meyarlar-göstəricilər «giriş», «proses» və «çıxış»ı xarakterizə edən üç qrup imkanların üzərində qurulur. Lakin innovativ inkişaf bir proses yanaşmasıdır və bir proses olaraq bölgənin innovativ inkişafını nəzərdə tutur.

İndiyə qədər innovativ inkişafın təhlili üçün təklif olunan bütün rəsmi metod və üsullarda yalnız «müsbət» göstəricilər açıqlanır. Lakin, hər hansı bir nəzarət olunan prosesi, o cümlədən bölgənin innovativ inkişafının əsas performans göstəricilərinə (KPI) uyğun olaraq qiymətləndirərkən, «mənfi» göstəricilər də nəzərə alınmalı və istifadə olunmalıdır. Məhz "mənfi fəaliyyət" göstəricisi həm bölgə müəssisələrini, həm də regional və mərkəzi hakimiyyət orqanlarını köklü yeniləməyə dəstək verməyə məcbur edəcəkdir [6]. Bu baxımdan Azərbaycanın Qarabağ və ətraf ərazilərinin 30 illik mənfur düşmən tərəfindən işğal edilməsi dövründə sosial-iqtisadi sistemin dağıdılması "mənfi" göstərici kimi qəbul edilir və işğaldan azad edildikdən sonra bu ərazilərin innovativ inkişaf etdirilməsi üçün bir əsasdır.

Qarabağ və ətraf bölgələrin «ağıllı» innovativ inkişaf strategiyasını formalaşdırmaq üçün özünəməxsusluğunu və rəqabət üstünlüklərini ayrı-ayrılıqda nəzərə alaraq, iqtisadi sistemin, təbii-resurs potensialının xüsusiyyətlərinə, sahə ixtisaslaşmasına və digər fürsətlərə diqqət yetirmək vacibdir. Bunun üçün strateji baxışı müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bağlı Konsepsiya", "Azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli məqsədilə hazırlanmış Strateji Fəaliyyət Planı" və 59 dövlət orqanı, müəssisə və təşkilatının cəlb edildiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmış, Qarabağ Dirçəliş Fondu, "Yaşat" Fondu təsis edilmişdir. Dövlət idarəetmə sisteminə də innovativ yanaşma müşahidə edilir. Belə ki, işğaldan azad olunmuş ərazilərdə (məsələn, Şuşa rayonuna, Ağdama) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi fəaliyyətə başlamışdır. Ölkə başçısı tərəfindən 26 vəzifəsi təsdiq edilmiş xüsusi nümayəndə

bu vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin tərkibi, yəni xüsusi nümayəndə, onun müavini, xüsusi nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının əməkdaşlarından təşkil edilir. Bu artıq yeni bir idarəetmə sisteminin formalaşmasını göstərir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirmək üçün müvəqqəti komendantlıqlar da yaradılmışdır.

Qarabağ bölgəsinin innovativ inkişaf metodologiyası bölgə iqtisadiyyatında struktur dəyişikliklərinə başlayaraq bölgənin yerli imkanları və ehtiyatlarının koordinasiyasını nəzərə almalıdır. Bərpa və yenidənqurma, inkişaf məsələlərinin mərkəzləşdirilmiş qaydada həlli üçün Prezident İ.Əliyevin Sərəncamı ilə Əlaqələndirmə Qərargahı, onun nəzdində isə İdarələrarası Mərkəz və 17 işçi qrupu təşkil edilmişdir. Bu işçi qruplar bərpa və yenidənqurma işləri ilə bağlı tədbirlər planına uyğun olaraq fəaliyyətin səmərəli təşkilində məsuliyyət daşıyır. Əsasən torpaq islahatları, iqtisadi aktivliyin dəstəklənməsi, maliyyə və beynəlxalq əməkdaşlıq sahəsində işlək mexanizmin formalaşdırılması və icrası bu işçi qruplarının əsas işi hesab edilir. İnnovativ aktivliyi təmin etmək, müasir uğurlu beynəlxalq təcrübənin Qarabağ rayonunda tətbiq edilməsi üçün artıq institusional əsaslar formalaşdırılmışdır. Bu bölgə üçün innovativ zəmin yalnız elmi texnologiyalar deyil, həm də xidmət, sosial xidmətlər, turizm və s. sahədəki yeniliklər ola bilər. Ona görə 7 dövlət orqanının (4 Nazirliyin, 1 komitənin, 1 Prokurorluq orqanının, 1 Agentliyin) və yerli icra hakimiyyətlərinin nümayəndələrindən ibarət 13 işçi qrupu özündə birləşdirən Dövlət Komissiyası formalaşdırılmış ki, bu da işğaldan azad olunmuş rayonlarda 200-dən artıq ekspertin cəlb edilməsi ilə zərərin qiymətləndirilməsi işini həyata keçirməyə başlamışdır.

İdarəetmənin hər bir səviyyəsində və seçilmiş müddətdə innovativ inkişafın planlaşdırılması, bölgənin sosial-iqtisadi inkişafı planının hazırlandığı dövrdə müvafiq xarici və daxili mühit barədə müəyyən miqdarda məlumatlara əsaslanır. Qarabağ iqtisadi rayonunda təhlükəsizlik, sabitlik, qarşılıqlı səmərəli əməkdaşlıq və sosial rifahın təmin edilməsi üçün müasir innovasiya məkanının formalaşdırılması, təmiz ətraf mühit, “yaşıl artım”, rəqabətli iqtisadiyyat və insan kapitalı prioritetləri böyük qayıdışın əsasını təşkil edir. Uğurlu təcrübələri nəzərə alaraq bərpa və innovativ inkişaf 4 mərhələdə həyata keçirildiyindən ilkin mərhələ idarəetmə və təhlükəsizlik məsələlərinin önə çəkilərək həll edilməsinə istiqamətlənmişdir. Bu səbəbdən idarəetmədə dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin bərpa edilməsi və işlərinin innovativ idarəetmə konsepsiyasına uyğun qurulması vacibdir. İnnovativ inkişafın effektivliyi texniki, təşkilati və investisiya risklərini azaltmaq üçün planlaşdırma mərhələsində proqnozlaşdırılmalı olan bir-biri ilə əlaqəli çox sayda amil ilə müəyyən edilir [10]. Məhz bu da dövlət hakimiyyəti orqanlarından iştirakı zəruri olanların seçilməsini və iştirak səviyyəsinin və dərəcəsinin təyin edilməsini ön plana çəkir. Dövlət hakimiyyəti orqanlarından Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan İnvestisiya Holdinqi və s. bərpa və yenidənqurma işlərinə yaxından cəlb edilir. Fikrimizcə, biznes və hakimiyyət ölkənin və cəmiyyətin xeyrinə olan ümumi maraqlara, məqsədlərə və vəzifələrin həllinə yönələn qarşılıqlı əməkdaşlıq modeli ölkəmiz üçün maraq doğurur. Belə ki, dövlət-özəl tərəfdaşlığı əsasında hər hansı bir tərəfin dominantlığı nəticədə, narazılıqların artmasına səbəb olur. Ona görə hər iki tərəfin maraqlarını təmin edən tərəfdaşlıq – “qarşılıqlı əməkdaşlıq” modelinin tətbiqi daha əlverişli hesab edilir. Məsələn, turizmin təşkili üçün hökumət-biznes platformasının yaradılması bu istiqamətdə ilk addımlardan olacaqdır. Sadəcə olaraq müxtəlif idarəetmə səviyyələrində sahibkarlıq subyektlərinin innovasiya prosesində iştirakında yerinin təyin edilməsi və istifadə sahəsini müəyyənləşdirmək zəruridir ki, bu da“qarşılıqlı əməkdaşlıq” modelinin icrasını tezləşdirə bilər.

İqtisadiyyat üzrə təhlil**.** İqtisadiyyatın hər bir sahəsi konkret idarəetmə quruluşuna malik kompleks sosial-iqtisadi sistemdir. Bütün sahələrin inkişafı tikinti sənayesinin innovativ inkişafı ilə ayrılmaz şəkildə bağlıdır. Hazırda işğaldan azad olunan ərazilərdə “tikinti bumu” gözlənilir. İnşaat sənayesinin innovativ inkişafı, inşaat məhsullarının yaradılmasının əsas texniki və iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına yönəldilmişdir, bunlara obyektlərin maya dəyərinin azaldılması, standart tikinti müddətinin azaldılması və keyfiyyətinin yaxşılaşdırılması daxildir.

Regional inşaat kompleksinin innovativ inkişafının idarə olunması yalnız ölkənin deyil, bölgənin

də ən yüksək səviyyədə idarə olunmasında strateji qərarlar tələb edən bir fəaliyyətdir. Nəticədə, iqtisadiyyatın digər sahələrindən gələn investisiyaların bütövlükdə inkişafında, o cümlədən innovasiyalarda daha səmərəli istifadəsi üçün bir fürsət yaranır. Əsas meyarlar - geoloji və ətraf mühit şərtləri, təbii və texnogen təsirlərə həssaslıq, xammal və maddi-texniki ehtiyatların vəziyyəti və onların çatdırılma üsulları, tikinti sahəsinin infrastrukturu, tikinti və istismar üçün mümkün olan enerji tutumu obyektin, lazımi ixtisas və potensialın, tikinti təşkilatlarının mövcudluğu təhlil edilir. İcra müddəti, idarəetmə səviyyəsi və investisiya qoyuluşu əsasən təklif olunan texniki həllin mürəkkəbliyi və tətbiqetmə həcmi ilə müəyyən edilir. Nəzərə alaq ki, innovativ fəaliyyət iştirakçıları bir çox hallarda təkcə innovativ məhsulların əldə ediləcəyi bir iqtisadiyyat sektorunun deyil, həm də məhsul istehlak edən, resursları və  mənbələri tədarük edən, texnologiya və enerjini təmin edən sahələrin maraqlarına təsir göstərir. Bu da iqtisadiyyatın canlanması məsələlərinin sistemli şəkildə həll edilməsinin lazım olduğu aydın əks etdirir. Əsasən torpaqların və digər təbii resursların iqtisadi dövriyyəyə cəlb edilməsi, inventarlaşması yekunlaşmış obyektlərin özəlləşdirilməsi, innovasiya və kreativ sənaye subyektlərinin bərpası, sənaye zona və aqroparkların yaradılması, kənd təsərrüfatı subyektlərinin yaradılması üçün müxtəlif tədbirlərin, stimullaşdırıcı maliyyə-kredit mexanizmlərinin həyata keçirilməsi, Qarabağ regional innovasiya siyasətində «ağıllı ixtisaslaşma» yanaşmasının tətbiqi, regional innovasiya iqtisadi sisteminin qurulmasını, layihələndirilməsini tələb edir.

Bu yanaşmanın əsas xüsusiyyəti və üstünlüyü ondan ibarətdir ki, işgüzar dairələr innovasiya prosesində fəal mövqe tutur və bununla da təkcə iqtisadi subyektin deyil, həm də ərazinin innovativ fəaliyyətlərini inkişaf etdirir. Nəticədə bölgənin özünəməxsusluğunun aspektlərini müəyyənləşdirmək, müasir texnologiyalardan istifadə imkanları və əsas texnoloji səriştələrin inkişaf etdirilməsi baxımından sənaye ixtisaslaşmasına diqqət yetirmək lazımdır. Hazırda Qarabağ regionu ilə bağlı 5 innovasiya layihəsinin maliyyələşdirilməsi 2023-2025-ci illərdə planda nəzərdə tutulmuşdur. Prioritet biznes sahələrinin siyahısının hazırlanması da bu sahədə atılan əsas addımlardandır. İnnovativ iqtisadiyyatın formalaşdırılması üçün elmtutumlu texnoparkların yaradılması və klasterləşmənin təşkil edilməsi isə təkcə Qarabağ regionunun inkişafı üçün deyil, həm də milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və dayanıqlı olması üçün vacibdir. İşğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat həcmində vəsait ayrılıb. Xarici ölkələrlə əməkdaşlıq üzrə artıq bir sıra əlaqələr (“Ansaldo Energia” şirkəti (İtaliya), “GOSB” texnoparkı və TÜMKİAD Türk Dərnəyi (Türkiyə),“EximBank”(Macarıstan) və s.) yaradılmış, işlər görülmüşdür[1,2].

İşğaldan azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən indiyədək İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə 409 müraciət daxil olub ki, onun da 53-cü 12 xarici ölkənin təmsil edən şirkətlərə məxsusdur.




**Mənbə:** *Qarabağda biznes qurmaq istəyənlərin sayı 400-ü keçib. Elektron resurs: https://yenixeber.org/iqtisadiyyat/111006-qarabagda-biznes-qurmaq-isteyenlerin-sayi-.html*

Diaqram 2 və 3. Ağdam rayonu üzrə əmək bazarında vəziyyət

Mənbə: https://www.stat.gov.az/source/regions/

Cədvəl 1. Ağdam rayonu üzrə iqtisadi göstəricilər

| | 2010 | 2015 | 2018 | 2019 |
|---|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi, mln. manat** | 24,3 | 34 | 43,3 | 45,2 |
| **Yerli istehsal məhsullarının pərakəndə ticarət dövriyyəsi, min manat** | ... | 24262,2 | 30789,4 | 36373 |
| **Pərakəndə ticarət dövriyyəsində idxal məhsullarının xüsusi çəkisi, faizlə** | ... | 28,7 | 28,9 | 19,6 |
| **Pərakəndə ticarət dövriyyəsində qeyri-neft məhsullarının xüsusi çəkisi, faizlə** | ... | 100 | 93,9 | 84,2 |
| **İaşə dövriyyəsi, min manat** | 68 | 102,3 | 130 | 135,3 |
| **Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, min manat** | 6517,2 | 8109,4 | 6203,8 | 6498 |
| **Sənaye məhsulu (müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə), min manat** | 3538 | 6841 | 12608,8 | 13730,9 |
| **Yük dövriyyəsi, mln. ton-km** | 174,9 | 240,7 | 267,7 | 271,6 |
| **Sərnişin dövriyyəsi, mln. sərnişin-km** | 43 | 55,7 | 58,1 | 58,8 |

**Mənbə:** https://www.stat.gov.az/source/regions/

Diaqram 3. Diaqram 4. Ağdam rayonu üzrə kənd təsərrüfatının vəziyyəti

Mənbə: https://www.stat.gov.az/source/regions/

Təhlildən göründüyü kimi 2019-cu ildə 2010-cu illə müqayisədə əhalinin sayı 1,13 dəfə, məşğul əhalinin sayı 1,11 dəfə, iqtisadiyyatda muzdla işləyənlərin sayı 0,92 dəfə, yeni iş yerlərinin sayı 1,57 dəfə artmışdır. Sənaye məhsulu istehsalı 3,9 dəfə, yük dövriyyəsi 1,6 dəfə, sərnişin dövriyyəsi 1,4 dəfə, pərakəndə ticarət dövriyyəsi və iaşə dövriyyəsi 2 dəfə artmışdır. Dənlilər və dənli paxlalıların əkin sahəsi 0,8 dəfə, istehsalı 1,3 dəfə, ət istehsalı 1,7 dəfə, süd istehsalı 1,4 dəfə, yumurta istehsalı ,9 dəfə, yun istehsalı 1,4 dəfə artmışdır. Əsas kapitala qoyulan investisiyaların ən yüksək göstərici 2010-cu ildə, ən aşağı göstərici isə 2016-cı ildə müşahidə edilib. Növbəti illərdə investisiya qoyuluşlarının artırılması gözlənilir.

İnfrastrukturun təşkili üzrə təhlil**.** Qarabağ regionunun innovativ inkişafı innovasiya diffuziyası və innovasiya infrastrukturu özündə birləşdirməlidir. İnnovasiya diffuziyası yalnız innovasiyaların yayılmasına deyil, həm də bölgədəki innovasiyanın inkişafı prosesinin iştirakçıları arasında əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin qurulmasına diqqət yetirir. İnnovasiya infrastrukturu sahibkarlıq subyektləri üçün innovativ potensialın inkişafının ümumi şərtlərini əks etdirir. Lakin hər iki element bölgədə infrastruktur obyektlərinin formalaşdırılması zaman nəzərə alınmalıdır. Hazırda nəqliyyat infrastrukturu (avtomobil, dəmiryolu, hava limanı və s.), kommunal infrastrukturun (su, qaz, işiq və s.) yenidən yaradılması və bərpasında innovasiya elementlərinin nəzərə alınması bölgənin innovativ inkişafına zəmin yaradacaqdır. Hesab edirik ki, infrastruktu-

run onlayn naviqator sisteminin, innovasiya infrastrukturunda şirkətlərin istiqamətləndirilməsi üzrə köməkçi ola bilər.

**Nəticə və təkliflər**

İnnovativ inkişaf mexanizmləri mikro, mezo, makro və meqa səviyyəyə qədər bütün proseslərə təsir edə bilər. Bölgələrin innovativ inkişafı mexanizmləri, bütün səviyyələrdə sosial-iqtisadi sistemlərin yenidən qurulmasına və inkişafı proseslərini təminetməyə yönlənmiş olmalıdır. Bu baxımdan bölgələr yalnız milli sistem şəklində deyil, dünya sisteminin bir hissəsi kimi nəzərdən keçirilməlidir. İstənilən bölgə üçün innovasiya mühiti, maraqlı tərəflərin bu prosesdə iştirakının ilkin əsasıdır. Bu baxımdan yeniliklərin tətbiqi üçün şərait yaradan, onların nəticəsində mövcud həyat proseslərinə fərqli fürsətlər və ya təhdidlər gətirən, təsiri birbaşa və ya dolayı olan innovasiya mühitinin təhlil edilməsi zəruridir. Hesab edirik ki, sahibkarlıq subyektlərinin axtarışı üçün isə Qarabağ bölgəsinin müqayisəli rəqabət üstünlüklərinin inkişafı potensialının açıqlanması, lokal vəziyyətin qiymətləndirilməsi üçün şəffaf, rəqəmsal məlumat bazalarının formalaşdırılması mütləqdir. Yəni naviqator lazımi məlumatlarla doldurulmuş portalla əlaqələndirilməlidir və infrastruktur obyektlərinin interaktiv xəritəsi tərtib edilməlidir. Qarabağ iqtisadi rayonunda innovativ bir xidmət vasitəsi olan kovorkinq mərkəzlərinin tərtib edilməsi məqsədəuyğundur.

**İstinadlar**


1. Akif Musayev. Qarabağın iqtisadiyyatı yenidən qurulacaq. http://science.gov.az/az/news/open/16136
2. Vüsal Qasımlı: Qarabağın böyük iqtisadi potensialı var. https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050
3. Hansı ölkələr Qarabağ bölgəsinə investisiya yatıracaq?"Vestnik Kavkaza" nəşri 24 yanvar 2021, https://konkret.az/hansi-olkeler-qarabag-bolgesine-investisiya-yatiracaq-siyahi/
4. Mahmudov M, Mahmudova İ. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı 2011
5. Брюс, Энди. Инновации: Пер.с анг. / Э. Брюс, Д. Берчелл. – М.: Дело и Сервис, 2010. – 240 с. – Доп. лит. Л. Англ. – (серия «Секреты успеха»)
6. Деменок В. В., Ремина Г. В., Саванович А. В. Инновационный аспектразвития малого предпринимательства в регионе // Актуальные проблемы инновационной экономики и стратегического управления в Калининградской области: сборник научных трудов / БФУ им. И. Канта. Калининград : БФУ им. И. Канта, 2017. С. 97–101
7. Король С. П. Инновационное развитие строительной отрасли как экономическая категория объекта управления// Региональная экономика и управление: электронный научный журнал. ISSN 1999-2645. — №1 (45). Номер статьи: 4501. Дата публикации: 06.02.2016. Режим доступа: https://eee-region.ru/article/4501/
8. Мерзликина Галина Степановна Инновационное развитие региона: новые критерии - показатели оценки // Вестник АГТУ. Серия: Экономика. 2020. №3. URL: https://cyberleninka.ru/article/n/innovatsionnoe-razvitie-regiona-novye-kriterii-pokazateli-otsenki (дата обращения: 02.06.2021).
9. Татенко Г.И., Бахтина С.С., Грекова А.Е. Инновационная среда для развития региона в концепции «Умной специализации» // Вестник Алтайской академии экономики и права. – 2020. – № 11-2. – С. 340-348;
URL: https://vaael.ru/ru/article/view?id=1431 (дата обращения: 02.06.2021).
10. Тронина И. А., Татенко Г. И., Грекова А. Е. Инновационная инфраструктура как драйвер развития региона // Вестник Воронежского государственного университета. Серия: Экономика и управление. 2020. № 3. С. 101–112.
11. Charman, Projekt Risk Management/John Willile, Jnc., 1997/ — 322 p.
12. https://www.stat.gov.az/source/regions/

**HÜSEYNOV Əkbər**

AMEA İqtisadiyyat İnstitutu, elmi işçi

# AZƏRBAYCANDA ROBOT İQTİSADİYYATININ YÜKSƏLİŞİNDƏ AĞDAM RAYONUNUN GƏLƏCƏK ROLU

**Xülasə:** Dördüncü Sənaye İnqilabı dövründə süni intellektdən geniş istifadə dünya ölkələrinin iqtisadiyyatında əsas faktora çevrilmişdir. ÜDM-in artım tempində robot iqtisadiyyatının (Robonomiks) rolunun getdikcə artması, beynəlxalq əmək bölgüsündə də ciddi dəyişikliklərə səbəb yaratmışdır. Eyni zamanda, sosial-iqtisadi problemlərin həllində yeni nəsil texnologiyaların tətbiqi beynəlxalq ticarətdə ölkələrin mövqeyinin güclənməsinə xidmət edəcək. 44 günlük Vətən müharibəsindən sonra doğma torpaqlarımızın işğaldan azad olunması, həmin ərazilərdə iqtisadiyyatın yenidən dirçəldilməsini əsas hədəf kimi qarşımıza qoydu. Ağdam rayonunun əlverişli coğrafi mövqeyi xarici investorlar üçün geniş imkanlar yaradır. Bu investisiyaların süni intellektli robot iqtisadiyyatının inkişafına yönəldilməsi Ağdam rayonunun iqtisadi potensialını artıracaqdır.

**Açar sözlər:** robot iqtisadiyyatı, rəqəmsal iqtisadiyyat, ağır sənaye sektoru, gəlir sistemi, işsizlik, vergi güzəştləri, əmtəə və xidmətlər bazarı

→

## Giriş

Dünya ölkələrində dördüncü sənaye inqilabında süni intellektdən geniş istifadə edilməyə başlanılması diqqətçəkən bir məsələdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının” icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışında bildirdi ki: “Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir”.Məhz Dövlət Başçısının tapşırığı ilə son illərdə ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafında çox ciddi nəticələr əldə edilmiş və elektron ticarətin istifadə imkanları genişləndirilmişdir.

Yeni dövrdə ən aktual məsələlərdən biri də – süni intellektin iqtisadiyyatın önəmli sektorlarında tətbiqidir. Bildiyimiz kimi, Qarabağın azad olunmasından sonra hal-hazırda əsas hədəf – doğma torpaqlarımızda iqtisadiyyatı yenidən dirçəltməkdir. Ağdam rayonunun coğrafi mövqeyinə görə bərpa işlərinin aparılmasında daha sürətli ola biləcəyimizi nəzərə alsaq, burada qısa zamanda ölkəmizin iqtisadi qüdrətinin artırılması yolunda hansı iqtisadi sektorlarının daha faydalı ola biləcəyini öncədən bilməliyik. Fikrimcə, çiçəklənəcək Ağdamda robonomiksin (robot iqtisadiyyatı) tətbiqi üçün ciddi imkanlar mövcuddur. Əvvəla, bu sektor çox yenidir və bu sahənin güclənməsi Respublikamızın iqtisadi potensialını nəinki Qafqazda, hətta Şərqi Avropa və Cənubi-Qərbi Asiyada da xeyli gücləndirəcəkdir. Ən əsası, Qarabağın iqtisadi dirçəlişinə yeni bir təkan verəcəkdir.

***Müasir dövrdə robot əməyinin tətbiqinin əsas xüsusiyyətləri***

Robotların istehsal prosesində insan həyatı üçün təhlükə kəsb edən ağır sənaye sektorunda tətbiqi imkanları daha genişdir. Əksər alimlərin fikrincə, kiçik və orta müəssisələrdə iqtisadi faydalılığı artırmaq, əlavə xərclərdən azad olmaq yolunda bu sektor daha effektivdir. OECD son hesabatlarda süni intellektdən geniş istifadə edən ölkələrdəki müəssisələrin, bundan istifadə etməyənlərlə müqayisədə 2 qat daha səmərəli işlədiklərini ifadə edir [3]. Aparılan araşdırmalarda istehsalda robot texnologiyasının geniş istifadəsi istehsal prosesindələngimələrin qarşısının vaxtında alınmasına, əmtəə və xidmət keyfiyyətinin artmasına, xarici ticarətdə müəssisənin iqtisadi potesialının illik 1.4 % yüksəlməsinə səbəb olur. McKinsey Mərkəzi qeyd edir ki, qarşımızdakı 50 il ərzində ÜDM-də 3 % artım tempinin əldə olunması üçün, bunun 1.5 %-i mütləq robonomiksin payına düşməlidir [2]. İqtisadçı Graetz 17 Avropa ölkəsində robonomiksi qiymətləndirmiş və bu nəticəyə gəlmişdir ki, bu ölkələrdə müəssisələrdə robotların tətbiqi ÜDM-i illik 0.37-0.39 % artırmışdır [1]. Brooking Mərkəzinin alimi Skott Andes robot iqtisadiyyatına qoyulan investisiyalar və bundan səmərəli istifadə adambaşına düşən ÜDM-i illik 10 faiz artırmaq potensialındadır [4]. Alim qeyd edir ki, 2030-cu ilə qədər dünyanın ən böyük 25 ixracatçı ölkəsi istehsalda robot əməyini 25 faizə qaldıracaq və əlavə xərcləri 16 faiz azalacaq. Əlavə xərclərin azaldılması ilə digər sektorların vəziyyəti avtomatik olaraq yaxşılaşacaq və bu ölkələrdə ÜDM-in artım tempinə ciddi təsirlər göstərəcəkdir. Cənubu Koreyanın artıq 2025-ci ildə bu hədəfə gerçəkləşdirmə ehtimalı yüksəkdir.

Robonomiksin uzun müddətdə insanlara ən çox fayda verəcəyi vəziyyət - istehsal prosesində gündəlik ağır işlər görərək, işçilərin təhlükəsizliyini artırır, onların işini yüngülləşdirir. Fiziki yorğunluğun azalması ilə bərabər insanların həyat keyfiyyəti də artır. Bu şəkildə insanlar yaradıcı fəaliyyətə, sağlam həyata başlayacaq və ya səyahət etmək üçün daha çox boş vaxtları olacaq. İşlə əlaqədar stressin azalması nəticəsində insan ömrünün artması birbaşa olaraq əsas iqtisadi göstəricilərdən biri olan – insan inkişafı indeksini yüksəldəcək. Robot iqtisadiyyatının sürətlə böyüməsi şirkətlərin məhsuldarlığını artıracaq, istehsal şaxələnəcək və süni intellektə əsaslanan yeni əmtəə və xidmətlər bazara çıxacaqdır. Yaranan bu vəziyyət isə dünya ölkələri arasında rəqabət üstünlüklərini ciddi şəkildə dəyişə bilər.

Robot əməyindən geniş istifadənin ölkədə işsizliyi artırması ilə bağlı xeyli fikirlər olsa da, bildirmək istərdim ki,inkişaf etmiş ölkələrin bəziləri bu məsələni artıq həll etmək üzrədir. Bu prosesin qarşısının alınması yolunda 2 effektiv yol var: robot əməyinin vergiləndirilməsi və universal gəlir sisteminin tətbiqi. Birincinin tətbiqi məsələsində artıq Qərbi Avropada və Cənubi Koreyada hüquqi müstəvidə danışıqlar aparılmaqdadır və 2025-ci ilə qədər yekun qərarın qüvvəyə minməsi gözlənilir. Universal gəlir sistemi isə artıq İsveçrədə tam, Skandinaviya ölkələrində və Hollandiyada isə qismən təmin olunub. Bu sistemin tətbiqi ilə əhalinin sosial vəziyyəti xeyli yaxşılaşmış, insan inkişafı indeksinə görə bu ölkələr digərlərini xeyli ötüb keçmişdir.

***Nəticə***

1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» əsasında dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatı təmin etmək üçün inkişaf etmiş və yeni sənaye ölkələrinin təcrübələrini nəzərə alaraq,dördüncü sənaye inqilabının yeni iqtisadi sektoru – süni intellektli robot iqtisadiyyatının Azərbaycanda inkişaf etdirilməsi vacibdir.

2. Ağdam rayonunun əlverişli coğrafi mövqeyini, şəhərin artıq Baş Planının hazır olduğunu və ən əsası, bölgədəki keçmiş iqtisadi qüdrətini yenidən bərpa edilməsinin əhəmiyyətini nəzərə alaraq, Ağdamda istehsal olunacaq əmtəə və xidmətlərin xüsusi çəkisinin artırılması yolunda robot əməyindən geniş istifadə edilməlidir. Bu sahə ilə bağlı vergi güzəştlərini müvafiq qanunvericiliyə əlavə etməklə, xarici investorları (xüsusilə də Cənubi Koreya şirkətlərini) bölgəyə cəlb etmək olar.

**İstinadlar**


1. Graetz, G. and Michaels, G. - Robots at work. The Review of Economics and Statistics, 100 (5), 753-768. 2018.
2. 2. Mc Kinsey Global Institute. A Future That Works: Automation, Employment and Productivity. 2019.
3. OECD 2020 report. The Future of Productivity.
4. Wall ve Andes -Robots Seem to Be Improving Productivity,Not Costing obs. Harward Business Review, 2015.

**HÜSEYNOV Tofiq**

AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d.,professor, əməkdar iqtisadçı

# AĞDAM RAYONUNUN SU RESURSLARININ DAYANIQLI İDARƏ EDİLMƏSİ

**Xülasə:** Məqalədə hökumət tərəfindən Azərbaycanın iqtisadi rayonlarının yeni strukturunun yaradılmasının onların ixtisaslaşması baxımından məqsədəuyğunluğu, kənd təsərrüfatına yararlı torpaqların fərdi qaydada paylanmaması, beynəlxalq təcrübəni nəzərə almaqla, dövlət tərəfindən kooperativlərin və qapalı səhmdar cəmiyyətlərin yaradılması, Ağdam Sənaye Parkında rezidentlərin seçilməsini kənd təsərrüfatı məhsullarının (pambıq, üzüm və s.) emalının klasterləşmə əsasında həyata keçirilməsi əsaslandırılmışdır.

**Açar sözlər:** Ağdam Sənaye Parkı, iqtisadi rayon, klasterləşmə, kooperativ.

→

## Giriş

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə ölkədə iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmişdir. Əvvəlki bölgüdən fərqli olaraq iqtisadi rayonların sayı 10-dan 14-ə qədər artırılmışdır. Onlardan biri də Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilmiş Qarabağ iqtisadi rayonudur. Hesab edirəm ki, yeni bölgü iqtisadi rayonlar üzrə planlaşdırma işlərinin səmərəliliyini artırmaqla, iqtisadi idarəetmədə çevikliyi təmin etməklə yanaşı, onların ixtisaslaşdırılmasına da müsbət təsir edəcək və asanlaşdıracaqdır. Çünki yeni bölgüdə ərazilərin coğrafi quruluşu, təbii iqlim şəraiti, torpaqların xüsusiyyəti, əhalinin məşğulluq və digər xüsusiyyətləri nəzərə alınmışdır.

### Təhlil və qiymətləndirmə

Hal-hazırda günümüzün ən vacib problemlərindən biri erməni vandallarının darmadağın etdikləri regionlarda həyatı bərpa etməkdir. Belə regionlardan biri də Qarabağ iqtisadi rayonudur. Sevindirici haldır ki, Azərbaycanın özünün maliyyə vəsaitlərinin olması, dövlət başçısının möhkəm iradəsi yeni texnika və texnologiyalar, qabaqcıl dünya təcrübəsi əsasında bərpa işlərini həyata keçirməyə imkan verir.

Məlum olduğu kimi işğaldan azad edilmiş ərazilərin bərpasına aid Strateji Fəaliyyət Planı hazırlanmışdır. Bu plan əsasında ərazilərimiz vahid konsepsiya əsasında bərpa edilir. Heyvandarlıq, bağçılıq, pambıqçılıq, üzümçülük və taxılçılıq sahələri inkişaf etdiriləcək, həmin ərazilər yaşıl enerji zonasına çevriləcək. Bunun üçün külək, günəş və su elektrik zonaları tikiləcək və ya bərpa ediləcək. Apardığımız hesablamalar göstərir ki, həmin regionlarda təkcə ev tikintisi üçün tex-

minən 11-12 milyard, sənaye və kənd təsərrüfatının bərpası üçün ən azı 800-900 milyon manat investisiya tələb olunur.

2020-ci ilin əvvəlinə 900 min nəfərdən çox əhalisi və 242 min ha qədər kənd təsərrüfatı bitkilərinin əkilməsi üçün istifadə edilən torpaq sahəsi olan Qarabağ iqtisadi rayonunun sosial iqtisadi inkişafını təmin edə bilən məhz bu bölgəyə məxsus istiqamətləri və vasitələri müəyyən etmək tələb olunur. Məhz bu əsasda regionun ixtisaslaşdırılması zərurəti meydana çıxır. Hesab edirəm ki, strateji istiqamət kimi regionun ixtisaslaşdırılması, meqapolislərin formalaşdırılması regional inkişafda həlledici rola malikdir. Mənim fikrimcə, istər sənaye, istərsə də kənd təsərrüfatı sektorlarının inkişafı üzrə Azərbaycan regionlarının, o cümlədən Qarabağ iqtisadi rayonunun ixtisaslaşdırılması müasir dövrün müasir məsələlərindəndir.

Məlumdur ki, işğala qədər olan dövrdə, xüsusilə sovetlər dönəmində Qarabağ iqtisadi rayonuna daxil olan inzibati ərazilərdə kənd təsərrüfatı əsasən pambıqçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıq istiqamətlərində inkişaf edirdi.

“Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında” ölkə başçısının 15 iyul 2021-ci il tarixli fərmanında deyilir ki, ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Fərmanda kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması bir hədəf kimi müəyyən edilmişdir.

Beynəlxalq təcrübədə dəyər zəncirinin həlqələri üzrə istehsalın artımı klasterlərin yaradılması yolu ilə həyata keçirilir. 2010-cu ildə qəbul edilmiş “Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının qanununda deyilir ki, ölkədə pambıqçılıq klasterlər əsasında inkişaf etdirilsin. Dövlət başçısı bu məsələyə 2011-ci ilin mart ayında bir daha qayıdaraq fərman imzalamışdır. Fərmanda ölkənin pambıqçılıq rayonları üçün bu istiqamətdə inkişaf bir daha vurğulanmışdır. Bu baxımdan klasterləşmənin şaquli modelindən istifadə etməklə, Ağdamda yaradılması qərara alınmış Sənaye Parkının fəaliyyətinin təşkil edilməsi məqsədəuyğun olar. Sənaye Parkının rezidentləri elə seçilməlidir ki, onlar texnoloji kooperasiya sxeması üzrə birgə fəaliyyət göstərməklə, dəyər zənciri əsasında istehlaka hazır məhsul istehsal etsinlər. Bu Sənaye Parkında, əsasən, pambığın istehlaka hazır məhsula qədər emalının təşkili səmərəli ola bilər. Sovetlər dönəmində bu region pambıq istehsalının lideri olduğunu hamımız bilirik. Həm də nəzərə alınmalıdır ki, DSK-nın rəsmi informasiyasına əsasən 2014-2019-cu illərdə Azərbaycan 48 milyon $m^2$ pambıq parça idxal etmişdir. Onun müqabilində 20,4 milyon dollar valyuta itirmişdir. Apardığımız hesablamalar göstərir ki, təkcə 50 min ton pambığı emal edib, 121 milyon $m^2$ parça istehsal etsək həm daxili tələbatı təmin edə, 20 milyon dollar valyutaya qənaət edə, həm də parça ixrac etməklə qazana bilərik.

Ölkə başçısının 15 iyul 2021-ci il tarixli fərmanında nəzərdə tutulan çox mühüm məsələlərdən biri də torpaq islahatı həyata keçirilməmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə mexanizminin formalaşdırılmasıdır. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinə tapşırıq verilmişdir. Hesab edirəm ki, bu tədbirin birinci növbədə işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Qarabağ iqtisadi rayonunda həyata keçirilməsi məqsədəuyğun olar.

Bizim fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə torpaqlar fərdi qaydada paylanmamalıdır. Apardığımız araşdırmalar göstərir ki, Azərbaycanın aqrar sektorunda əmək məhsuldarlığı aşağıdır. Mütəxəssislərin hesablamalarına görə məsələn, torpaqları yüz faiz dövlətə məxsus olan İsraildə 1 fermer orta hesabla 92 nəfəri ərzaqla təmin edirsə, Azərbaycanda bu göstərici 3-4 nəfərdir. Bu və digər səbəblərdən həmin ərazilərdə dövlət tərəfindən kooperativlərin yaradılması daha məqsədəuyğundur (Yaponiya modeli). Kənd təsərrüfatı kooperativlərinin səhmdar cəmiyyəti formasında da təsis edilməsi beynəlxalq praktikada mövcuddur.

**Nəticə və təkliflər**

1. Azərbaycanın kənd təsərrüfatında əmək məhsuldarlığı çox aşağıdır. Belə ki, torpaqları yüz faiz dövlətə məxsus olan İsraildə bir fermer orta hesabla 92 nəfəri ərzaqla təmin edirsə, Azərbaycanda bu göstərici 3-4 nəfərdir.

2. İşğaldan azad edilmiş ərazilərdə torpaqların fərdi qaydada paylanması məqsədəuyğun deyil.

3. Kənd təsərrüfatına yararlı torpaqlarda dövlət tərəfindən kooperativlərin və səhmdar cəmiyyətlərin yaradılması düzgün olar.

4. Yeni təşkilati-idarəetmə formalarının təsis edilməsinin normativ hüquqi bazasının hazırlanması tələb olunur.

**İstinadlar**


1. 1.T.Hüseynov, "Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika", "Elm" nəşriyyatı, Bakı, 2015, 463 s.
2. 2.T.Hüseynov, "Tarazlı regional inkişaf iqtisadi siyasətin hədəfi kimi", "Azərbaycan" qəzeti, 24.06.2021

**HÜSEYNOVA Arzu**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, i.e.d., professor

**SÜLEYMANOVA Əlvan / ƏLƏKBƏROV Elnur**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İSTEHSAL POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏR

**Xülasə:** Tezisdə istehsalın təşkilini və istehsal potensialının formalaşmasını təmin etmək üçün işğaldan əvvəlki vəziyyət araşdırılmış, mövcud potensialdan səmərəli istifadə olunması istiqamətdə təklif və tövsiyələr verilmişdir. İstehsal potensialının müəyyən edilməsi və qiymətləndirilməsi ilə bağlı elmi ideya digər nəzəriyyələrdən fərqli olaraq regionların təbii-iqlim xüsusiyyətlərini, resurs potensialını, ixtisaslaşmanı və s. nəzərə olaraq istehsal potensialının artırılması yollarının elmi cəhətdən əsaslandırılması nəzərdə tutulur. Qeyd edilir ki, istehsal potensialının qiymətləndirilməsi və işğaldan əvvəlki illərdə həmin ərazilərdə ənənəvi iqtisadi sahələri müəyyən etmək üçün statistik məlumatları təhlil edilməklə yanaşı orda əvvəllər yaşayan əhali arasında anket sorğusu aparılmaqla həmin ərazilərin istehsal potensialının artırılması və inkişafı perspektivlərini müəyyən edilməlidir.

**Açar sözlər:** işğaldan azad edilmiş ərazi, istehsal potensialı, ənənəvi sahələr, səmərəli istifadə.

→

## Giriş

İşğaldan azad edilmiş ərazilərdə təbii resurs potensialından səmərəli istifadə etməklə həmin ərazilərin təsərrüfat dövriyyəsinə cəlb edilməsi, həmin ərazilərdə həyatın bərpa edilməsi üçün vacib şərtlərdən biridir. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin böyük bir qismini əkinə yararlı torpaqlar təşkil edir. Həmçinin bu zonalar meşə ehtiyatları, mineral və xammal, yanacaq və enerji resursları ilə zəngin torpaqlardı. Həmin ərazilərdə işğaldan öncə ənənəvi əkinçilik və istehsal mədəniyyəti formalaşmışdır. Bu torpaqların yenidən iqtisadi sistemə inteqrasiya etdirilməsində ilk növbədə ənənəvi sahələrinin üzə çıxarılması, eyni zamanda həmin ərazilərin innovativ texnologiyaların tətbiqi ilə daha səmərəli istifadəsinin təmin edilməsi zərurəti yaranmışdır.

### Təhlil və qiymətləndirmə

İşğaldan əvvəlki illər ərazilərin iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edib. Bu da məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz–qəhvəyi torpaq sahələrinin olması ilə izah edilir. İşğala qədər ərazilərdə pambıqçılıq, taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf edib. Ümumrespublika əmək bölgüsündə bu ərazilərin iştirakı pambıq-xammal, üzüm, taxıl, süd və yun istehsalındadır. Kənd təsərrüfatının bu istiqamətlərindən irəli gələrək ərazilərin aparıcı sənaye sahəsi yünügül və yeyinti sənaye-

si, meşə və taxta emalı, elektrik enerji sənayesi, kimya və neft-kimya, maşınqayırma və metal emalı, sənaye tikinti materialları, un-taxıl və kombikorm sənayesi, bitkiçilik, heyvandarlıq təşkil etmişdir. Bəhs edilən sənaye sahələri iqtisadi rayonun ümumi sənaye məhsulu buraxılışının böyük hissəsini əhatə edirdi. Yeyinti sənayesinin strukturunda yağ-pendir kombinatı, ilkin şərab emalı zavodu olmuşdur. Məsələn: Füzuli yaxınlığında Horadiz şəhər tipli qəsəbəsində pambıqtəmizləmə zavodu ilə təmsil olunurdu. Bu zavod 58,8 min ton illik pambıq xammalı alışı əsasında 8,6 min ton pambıq lifi buraxırdı. Zavodda əsas məhsullardan biri pambıq dəsmallar idi və respublikada bu profildə yeganə müəssisə idi.

Statistik məlumatlar və əhalinin yaddaşı əsasında (əhali arasında sorğu apararaq) işğaldan azad olunmuş ərazilərin istehsal potensialını müəyyən etmək olar[1,2].

İşğaldan azad edilmiş ərazilərdə əvvəllər kolxoz və sovxozlar, fermer təsərrüfatları, üzüm emalı müəssisələri və s. fəaliyyət göstərirdilər. Kənd təsərrüfatı ilə yanaşı, su anbarı, tikinti tresti, nəqliyyat təşkilatları, sənaye müəssisələri və s. fəaliyyət göstərirdi.

Mədəniyyətin inkişafına görə, ölkənin digər bölgələrindən geri qalmayan ərazidə işğala qədər kitabxanalar, mədəniyyət evləri, klub, kinoqurğu, muzey, xalq və dövlət dram teatrları, istirahət parkları fəaliyyət göstərib. Təhsil və səhiyyədə də yaxşı göstəricilərə malik rayonda xəstəxana, həkim məntəqələri, feldşer–mama məntəqələri, vərəm, dəri və zöhrəvi xəstəlikləri dispanseri, texnikum, ümumtəhsil məktəbləri, texniki peşə məktəbləri, məktəbəqədər müəssisə, stadion, və s. obyektləri olub.

Eləcə də güclü kadr potensialı, yüksək intellektə malik ziyalıları, görkəmli alimləri ilə respublikamızda ad-san qazanmışdır. Əməyə bağlılıq, halal zəhmət və həyat tərzi olmuşdur. Bu ərazilər həm də yaşı minilliklərə gedib çıxan Azıx mağarası, mədəniyyəti, tarixi və memarlıq abidləri ilə tanınır.

Bu baxımdan hazırda ən perspektivli sahələri inkişaf etdirmək imkanına malik ərazilər üzrə istehsal potensialından daha səmərəli istifadənin təmin edilməsi məsələsi aktuallaşır.

**Nəticə və təkliflər**

Qarabağda istehsal potensialından istifadə ilk növbədə torpaq, əmək və əsas vəsaitlərlə təminatı, müasir texnologiyalar əsasında istehsalın təşkilini önə çəkir. Bu amillərin istehsaldakı rolunu nəzərə alsaq onlardan istifadənin səmərəliliyinin təmin edilməsi və yüksəldilməsinin nə qədər əhəmiyyətli olduğunu qeyd edə bilərik. Bununla yanaşı, istehsal potensialından istifadə səviyyəsinin əksər istehsalçılar tərəfindən qiymətləndirilməməsi istehsalın nəticəsinə və onların gəlirlərinin səviyyəsinə mənfi təsir edir. İstehsal potensialından istifadə səviyyəsini təhlil etmək və ondan daha səmərəli istifadə üzrə mövcud ehtiyatları aşkara çıxarmaq təkcə qeyd olunan problemlərin həllinə hədəflənmir, eyni zamanda istehsalçıları iqtisadi cəhətdən daha səmərəli və rəqabət qabiliyyətli istehsala, habelə ixrac yönümlü məhsullar istehsalına təşviq etməklə onların daha çox gəlir əldə etməsinə zəmin hazırlayır.

Göstərilənlər hər bir işğaldan azad edilmiş iqtisadi rayon, eyni zamanda həmin iqtisadi ərazilərdə daxil olan inzibati ərazilər üzrə istehsal potensialının qiymətləndirilməsinin və bu sahədə mövcud ehtiyatların müəyyən edilməsinin iqtisadi əhəmiyyətini və aktuallığını şərtləndirir. Bu, eyni zamanda bütövlükdə istehsal potensialının artırılması və inkişafı perspektivlərini müəyyən etməyə imkan verir.

**İstinadlar**


1. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili,. Bakı: Elm və təhsil, 2013, 385 s.
2. Основные направления развития и размешения производительных сил Азербайджанской ССР на 1976-1990гг. Том 1-3, Баку 1978

3. Ерыгин Ю. В., Улицкая Т. Р. Потенциал: содержание понятия и его структура. – Электронный источник. – Режим доступа. – http://science-bsea.narod.ru/2008/ekonom_2008/erygin_potencial.htm
4. Материалы по региональной экономике / Оценка экономического потенциала региона. – Электронный источник. – Режим доступа. – http://allendy.ru/regecon/56-ocenka.html

HÜSEYNOVA Xatirə

AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, i.e.d., professor

# QARABAĞ VƏ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ QÜTBLƏŞMİŞ VƏ İNNOVASİYALI İNKİŞAF PRİNSİPİ

**Xülasə:** Məqalədə Azərbaycanda yeni regional siyasətin formalaşdırılması və regional inkişaf srategiyaları hazırlanmasının əsasında durmalı olan ideologiyaya xüsusilə diqqəti cəlb edir. Bu Qütbləşmiş və İnnovasiyalı inkişaf prinsipləridir. Bu prinsip tədricən regional inkişaf səviyyələrinin tarazlaşdırılması prinsipini əvəz etməli və maliyyə, inzibati-idarəetmə, yüksək texnologiyalı sahə və müəssisələrin və digər resursların "dayaq regionlarda" (qütblərdə, artım lokomotivlərində) cəmləşdirilməsini nəzərdə tutur. İşdə "Tarazlı" və "qütbləşmiş" regional inkişaf siyasətinin xüsusiyyətləri göstərilmişdir. Nəticədə, Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının bərpası "dayaq regionları" şəbəkəsinin hissəsi olmaqla sosial-iqtisadi inkişafı sürətləndirilməsinə böyük təkan vermiş olmaları qənaətinə gəlinmişdir.

**Açar sözlər:** Qarabağ iqtisadi regionu, Şərqi Zəngəzur iqtisadi regionu, "dayaq regionları", "balanslaşdırılmış" Regional İnkişaf, "polarizə olunmuş" Regional İnkişaf.

→

## Giriş

Bu gün respublikamızda artıq dövlət proqramları formasında "proqram" mexanizmi mövcuddur. Regional siyasət və idarəetmənin ən mühüm metodoloji və praktiki vasitəsi məqsədli sosial-iqtisadi inkişaf proqramlarıdır. Regional proqramlar ərazi idarəetməsinin elementlərindən biri kimi çıxış edir. Bu proqramlarda konkret problemlərin həllində müxtəlif mərkəzi hakimiyyət orqanları ilə yanaşı digər təsərrüfat subyektləri də iştirak edir və regional iqtisadi inkişafa kömək edirlər. Son illərdə Azərbaycanda çox saylı müxtəlif sosial inkişaf proqramları, müxtəlif institusional proqramların həllinə yönəldilmiş proqramlar, regional və respublika əhəmiyyətli kompleks proqramlar qəbul olunmuşdur.

Təhlillər göstərir ki, Respublikamızda regionların inkişafı özünün assimetrik xarakterini hələ də saxlamaqdadır ki, bu həm kəmiyyət həm də keyfiyyət xarakterlidir. Əgər kəmiyyətcə asimmetriyanı hətta rəsmi statistik məlumatlarda asanlıqla müşahidə etmək mümkündürsə, onun keyfiyyət tərəfi daha dəqiq ekspert qiymətləndirməsi tələb edir. Regional asimmetriyanı həm iqtisadi, həm də sosial sahələrdə müşahidə etmək olar.

Azərbaycanda regional inkişafdakı başlıca fərqlər ilk növbədə Bakı şəhəri və digər iqtisadi rayonlar arasında özünü daha qabarıq əks etdirir. Bakının paytaxt və sənaye mərkəzi kimi üstün cəhətləri burada bir sıra xidmət sahələri və infrastruktur, kommunikasiya və s. sistemlərinin müəyyən səviyyədə digər şəhərlərdən fərqli və üstün inkişafına səbəb olmuşdur. Şəhərin nəq-

liyyat sistemi təkmilləşmiş, bir sıra yeni xidmət, ticarət, ictimai-iaşə obyektləri üçün, geniş fəaliyyət imkanı yaranmışdır. Belə ki, Bakıda yeni bazar iqtisadi sisteminə müvafiq iş imkanlarının açılması, xarici firma və müəssisələrin fəaliyyəti ilə bağlı bir sıra üstün imkanlar bu fərqi meydana gətirir.

Rəsmi məlumata görə, Azərbaycan təxminən 23%-lə paytaxt məskunlaşmasının yüksək olduğu ölkələr sırasındadır. Belə yanaşmalar paytaxtda kommunal xidmət istehlakının səviyyəsinin ölkə göstəricisinin 40%-nə yaxın olmasına əsaslanır. Belə ki, rəsmi statistikanın məlumatına görə, 2019-cu ildə yalnız ölkə əhalisinin ev təsərrüfatlarında istehlak etdiyi təbii qazın həcmi 2.9 mlrd.kubmetr, elektrik enerjisinin həcmi isə 6.3 mlrd. kVt/saat təşkil edib. Bakı şəhərində əhali kateqoriyasının təbii qaz istehlakı 1.1 mlrd.kubmetr və ya ölkə göstəricisinin 38%-i, elektrik enerjisi istehlakı isə 2.7 mlrd. kVt/saat, yaxud ölkə üzrə göstəricinin 43%-i qədər olub.

Tarazlı regional inkişaf, balanslı şəhər inkişafı baxımından dünya təcrübəsində qabaqcıl təcrübələr öyrənilməsi məqsədə müvafiqdir. ABŞ-ın transmilli maliyyə institutu Morgan Stanleynin inkişaf etməkdə olan bazarlar üzrə bölməsinin rəhbəri R.Şarma qeyd edir ki, bir sıra ölkələrin iqtisadi inkişafında ikinci şəhər fenomeni mühüm rol oynayıb. Müəllifin fikrincə, dövlətlər özlərinin coğrafi yerləşməsinin üstünlüklərindən maksimum yararlanmaq üçün potensialı olan bölgələrini, xüsusilə, şəhərlərini qlobal ticarət sisteminə qoşmağı bacarmalıdır.

## Yeni regional siyasət

Bütövlükdə, regional siyasətin məqsədləri ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi, regional inkişafın xüsusiyyətləri ilə müəyyənləşdirilir. Bunlara aşağıdakılar daxildir:

– dövlətin sosial-iqtisadi əsaslarının möhkəmləndirilməsi və ərazi bütövlüyünün, iqtisadi təhlükəsizliyinin və ekoloji dayanıqlığının təmin olunması;

– vahid minimal sosial standartların və bərabər sosial müdafiənin təmin olunması, yaşayış yerindən və regionun iqtisadi vəziyyətindən asılı olmayaraq vətəndaşların sosial hüquqlarına zəmanətlərin, sosial müdafiəsinin təmin edilməsi;

– ayrı-ayrı sosial qrupların həyat səviyyəsində sosial tarazlığın, onların maraqları ilə dövlətin sosial-iqtisadi siyasəti arasında balansın təmin olunması;

– regionlarda sosial yönümlü bazar iqtisadiyyatının, əhalinin sosial müdafiəsinin təmin edilməsi mexanizmlərin formalaşdırılması;

– ölkənin müxtəlif regionlarının əhalisinin həyat səviyyəsinin yüksəldilməsi;

– istehsalın, infrastrukturun (istehsal və sosial) inkişaf səviyyəsində regionlar arasında tarixən yaranmış kəskin fərqlərin tədricən aradan qaldırılması;

– regionların sosial-iqtisadi inkişaf şəraitinin tarazlaşdırılması, təbii-iqlim şəraitindən maksimal istifadə etməklə regionların iqtisadi bazasının möhkəmləndirilməsi üçün şəraitin yaradılması;

– yerli özünüidarəetmənin formalaşması və inkişafına zəmanətlərin təmin olunması.

Regional siyasətin prioritet *vəzifələrinə* aşağıdakıları aid etmək olar:

– iqtisadi islahatların inkişafına və dərinləşməsinə yardım etmək, regionda və ölkədə əmtəə, əmək və kapital bazarlarının, institusional və bazar infrastrukturunun formalaşması və inkişafına yardım etmək;

– regionların sosial-iqtisadi inkişafındakı dərin fərqlərin azaldılması, özlərinin iqtisadi bazasının möhkəmləndirilməsi üçün mərhələlərlə şəraitin yaradılması, əhalinin rifah halının yüksəldilməsi, məskunlaşma sisteminin rasionallaşdırılması;

- regionların təsərrüfat strukturunun düzgün iqtisadi və sosial kompleksliik və rasionallıq səviyyəsinə nail olunması, onun bazar iqtisadiyyatı şəraitində həyat qabiliyyətliliyinin yüksəldilməsi;
- regionlararası infrastruktur (nəqliyyat, rabitə, informatika və s.) sistemlərinin inkişafı;
- ekoloji fəlakət rayonlarına, işsizlik, demoqrafiya və miqrasiya problemlərinin kəskin olduğu regionlara dövlət yardımının edilməsi;
- regionların xarici bazara çıxış imkanlarının genişlənməsi, ixrac fəaliyyətinin yeni səmərəli istiqamətdə formalaşması;
- keyfiyyətli və rəqabət qabiliyyətli məhsullar istehsalının genişləndirilməsi və bu yolla region əhalisinin tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi.

Regional siyasətin məqsədlərinə nail olmaq üçün aşağıdakı kimi bir sıra məsələlərin həlli tələb olunur:

- hər bir regionda sosial-iqtisadi inkişaf məsələlərinin həllinə kifayət edəcək maliyyə-resurs potensialının yaradılmasına yardım edilməsi;
- regionlar arasında rasional iqtisadi əlaqələrin yaradılmasına kömək göstərilməsi;
- regional əmtəə, xidmət, kapital və işçi qüvvəsi bazarlarının inteqrasiya olunmuş sistemi kimi ümumdövlət bazarının inkişafı;
- iri mərkəzlərdə və sənaye rayonlarında işsizliyin sosial baxımdan təhlükəsiz hədlərdə saxlanılması;
- iqtisadi rayonlaşdırılmanın təkmilləşdirilməsi;
- əhalinin miqrasiyasının tənzimləməsi üçün tədbirlərin görülməsi və s.

Regional siyasətin əsas *istiqamətləri* olaraq:

- həm ümumdövlət, həm də regional miqyasda idarəetmə səviyyələrinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi;
- regionun xüsusiyyətlərini nəzərə almaqla onun səmərəli ixtisaslaşma istiqamətinin müəyyənləşdirilməsi;
- depressiv rayonların iqtisadiyyatının dirçəldilməsi;
- resurs potensiallarını nəzərə almaqla yeni rayonların mənimsənilməsi;
- vahid sosial siyasətin yeridilməsi və s. aid etmək olar.

**Qütbləşmiş və innovasiyalı inkişaf prinsipi**

Azərbaycanda yeni regional siyasətin formalaşdırılması və regional inkişaf strategiyaları hazırlanmasının əsasında durmalı olan ideologiyaya xüsusilə diqqəti cəlb edir. Nəzəriyyədə və dünya ölkələrinin praktikasında belə ideologiyanın aşağıdakı kimi növlərinə rast gəlinir:

–*qütbləşmiş regional inkişaf konsepsiyası* (bunu çox vaxt klasterlər konsepsiyası da adlandırırlar). Bu konsepsiya ona əsaslanır ki, region rəqabətqabiliyyətli artım potensialına malik sahə və müəssisələr çoxluğuna malikdir. Həmin sahə və ya müəssisələr “artım nöqtələri” və ya “qütbləri” əmələ gətirir ki, bunların da artımı digər sahə və müəssisələrin artımını stimullaşdırır. Liderlik edən sahələr ərazidə bir-birini tamamlayan digər fəaliyyət növlərini region çərçivəsində birləşdirməklə aqlomerasiya effekti (təsir zonası) yaradır;

–*yeni sənaye rayonu konsepsiyası*, burada iqtisadi artıma müəssisələrin ərazidə bir-birinə yaxın yerləşdirilməsi hesabına istehsal xərclərinin azaldılması yolu ilə nail olunur;

–*innovasiyalı inkişaf konsepsiyası*. Bu konsepsiya regionda iqtisadi artımı innovasiya siyasəti ilə, yəni yeniliklərin işlənib hazırlanması və tətbiqinə dəstək verilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi ilə əlaqələndirməyə imkan verir. İnformasiya cəmiyyəti şəraitində bu hər şeydən əvvəl innovasiya fəaliyyətinə, həmçinin onun nəticələrindən istifadə edən yüksək texnologiyalı sahə və müəssisələrə dəstək verilməsini nəzərdə tutur.

Azərbaycanda yeni regional siyasətin missiyası aşağıdakı kimi müəyyənləşdirilə bilər: ölkə ərazisində əhalinin rifahını və həyat keyfiyyətini yüksəltmək, keyfiyyətli iqtisadi artım templərinin davamlılığını təmin etmək, ölkənin və regionların rəqabət üstünlüklərini gücləndirmək məqsədi ilə regionların (o cümlədən bələdiyyələrin) sosial-iqtisadi inkişafına yardım göstərilməsi.

Azərbaycanda yeni regional siyasətin məqsədi aşağıdakıları əhatə edə bilər: regional iqtisadi və sosial inkişafı optimallaşdırmaq, yerli resurslardan səmərəli istifadə etmək, innovasiya fəaliyyətinə, həmçinin onun nəticələrindən istifadə edə yüksək texnologiyalı sahə və müəssisələrə dəstək verilməsini nəzərdə tutur, "artım qütblərinin" stimullaşdırılması və s.

Yeni regional siyasətin başlıca prinsipi kim *Qütbləşmiş və İnnovasiyalı inkişaf prinsipi* qəbul oluna bilər. Bu prinsip tədricən regional inkişaf səviyyələrinin tarazlaşdırılması pinsipini əvəz etməli və maliyyə, inzibati-idarəetmə, yüksək texnologiyalı sahə və müəssisələrin və digər resursların "*dayaq regionlarda*" (qütblərdə, artım lokomotivlərində) cəmləşdirilməsini nəzərdə tutur.

*"Tarazlı" və "qütbləşmiş" regional inkişaf siyasətinin xüsusyyətləri*

| **Dövlət siyasəti** | **Regionların inkişaf səviyyəsinin tarazlaşdırılması siyasəti** | **Regionların qütbləşmiş inkişafı siyasəti** |
|---|---|---|
| Əsas paramertlər | Ölkə üzrə regionların sosial-iqtisadi potensialının orta qiyməti əsasında fərqləndirilməsi | Digər regionlara innovasiya-investisiya təsirlərini yaradan "inkişaf lokomotivlərinin" (dayaq regionların) yaradılması |
| İnzibati-ərazi bölgüsü | Coğrafi qonşu ərazilərin müəyyənləşdirilməsi, mövcud inzibati-ərazi strukturunun saxlanılması | Ölkə daxilində "dayaq regionlarının" adi inzibati ərazi vahidindən fərqli statusu da ola bilər |
| Əsas idarəetmə mexanizmi | Dövlət kapital qoyuluşlarının yardıma ehtiyacı olan regionlar arasında bərabər paylanması | Dövlətin kapital qoyulşlarının "dayal regionları"na yönəldilməsi, innovasiyaların digər regionlara yayılmasına manelərini aradan qaldırılması |

Bu regionlardakı innovasiya aktivliyi sonradan digər rayonlara da ötürülür. Beləliklə "dayaq region"larındakı iqtisadi artım, işgüzar aktivlik daha intensiv olmaqla yanaşı həm də "qütbə" daxil olmayan digər ərazilərə də təsir edir. Qütbləşmiş inkişaf prinsipindən sosial-iqtisadi yüksəliş mərhələsini yaşamış demək olar ki, bütün ölkələrdə istifadə olunmuşdur və yüksəlişin ilkin mərhələlərində tətbiq olunmuşdur. Son yarım əsrə qədərki müddətdə yüksək davamlı artım templəri nümayiş etdirmiş dövlətlər buna regionlararası fərqlər nəticəsində, başqa sözlə bir neçə baza regionunun hesabına əldə etmişlər. Sənayecə inkişaf etmiş digər ölkələrdə də "artım qütbləri" mövcuddur. Məsələn Fransada Paris rayonu, İtaliyada Lombardiya (Milan), İspaniyada Madrid aqlomerasiyası və Barselona, Yaponiyada Kanto (Tokio), Kinki (Osako,Kioto) və Tokay (Naqoya) rayonları bu rolu yerinə yetirirlər. ABŞ-da, Almaniyada, İngiltərədə də digər rayonların fonunda kəskin fərqlənən və "artım qütbü" hesab olunan bir neçə rayon qeyd etmək olar. Beləliklə, hər bir dövlətin ərazisində tarixi və iqtisadi səbəblərdən bir və ya bir neçə rayon digərlərindən əhəmiyyətli dərəcədə fərqlənir.

**Nəticə**

Regional iqtisadi və sosial inkişafı optimallaşdırmaq, yerli resurslardan səmərəli istifadə etmək, innovasiya fəaliyyətinə, həmçinin onun nəticələrindən istifadə edən yüksək texnologiyalı sahə və müəssisələrə dəstək verilməsi, "artım qütblərinin" stimullaşdırılması və s. yeni regional siyasətin məqsədləri ola bilər. Qütbləşmiş və innovasiyalı inkişaf prinsipi yeni regional siyasətin başlıca prinsipi kim qəbul oluna bilər.

Zənnimcə, Azərbaycanda Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonları "dayaq regionları" şəbəkəsinin hissəsi olmaqla sosial-iqtisadi inkişafı sürətləndirilməsinə böyük təkan vermiş olacaqlar.

**İstinadlar**


1. www.prezident.az- Azərbaycan Respublikası Prezidentinin saytı
2. Dövlət Statistika Komitəsi. Ölkənin inzibati ərazi vahidləri üzrə əhalininsayı.
3. https://www.stat.gov.az/source/demoqraphy/az/001_18.xls
4. Azərbaycanın enerji balansı, 2007-2019-cu illər.
5. https://www.stat.gov.az/source/balance_fuel/az/002_47-49.xls
6. Bakı şəhərinin statistik göstəriciləri – 2019. Statistik məcmuə, səh. 216
7. X.M.Hüseynova – Regional inkişaf proqramları: nəzəri və praktik məsələlər/ Bakı-2010
8. X.M. Hüseynova, M. Quliyev - Qlobal rəqabət qabiliyyətlilik, Dərs Vəsaiti, Bakı-2017

**XANKİŞİYEVA Ellada**
AMEA İqtisadiyyat İnstitutu, elmi işçi

# QARABAĞIN QIZIL EHTİYATLARININ ÖLKƏNİN İQTİSADİ DÖVRİYYƏSİNƏ CƏLB EDİLMƏSİ İMKANLARI

**Xülasə:** Məqalə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iqtisadiyyatın bərpasında böyük rol oynayan zəngin təbii mineral ehtiyatların rasional istifadəsi və ölkənin iqtisadi sisteminə inteqrasiyası məsələlərinə həsr edilmişdir. Məlum olduğu kimi, əvvəllər işğal altında olan ərazilərdə ölkənin iqtisadi potensialı üçün əhəmiyyətli olan 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl yatağı yerləşir. Ermənistan şirkətləri Azərbaycan Respublikasına məxsus olan bu yataqlardan sərbəst şəkildə mənfəət mənbəyi kimi istifadə edirdilər.
Qeyd edilmişdir ki, faydalı qazıntıların mövcudluğu, zəngin olması və düzgün istismarı Qarabağ iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcəkdir. Təbii mineral ehtiyatlarının aktiv inkişafı çoxşaxəli regional inkişaf sisteminin bir hissəsidir və müvafiq dövlət proqramlarına daxil edilmişdir.

**Açar sözlər:** təbii mineral ehtiyatları, faydalı qazıntılar, mədən sənayesi, qızıl, dövlət proqramı.

→

## Giriş

Məlum olduğu kimi, Azərbaycanda ən zəngin minerallar 30 ilə yaxın müddət erməni terrorçularının işğalı altında idi. Düz 30 il ərzində bu təbii resurslar və yataqlar ermənilər tərəfindən sərbəst mənfəət mənbəyi kimi istifadə olunurdu. Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, əvvəllər işğal altındakı ərazilərdəki təbii sərvətləri qarət etmək üçün Qarabağda 30-dan çox erməni şirkəti yaradılmışdır [1]. Bu ərazilərdə təşkil edilmiş mədən sənayesi erməni terrorçularına böyük mənfəət gətirən əsas sahə idi. Əvvəllər işğal olunmuş Azərbaycan ərazilərində mədən sənayesinə kapital qoyuluşlarının həcmi çox əhəmiyyətli idi və əsasən xarici investorlar hesabına böyüyürdü. Məsələn, Kəlbəcər rayonundakı “Qızılbulaq” mis-qızıl yatağını araşdırmaq və istismar etmək üçün Ermənistanın “Vallex Group” şirkəti ilə xarici investorlar tərəfindən “Base Metals” adlı şirkət yaradılmışdır. Bütün bu illər işğal altında olan ərazidə “Base Metals” ən uğurlu müəssisə hesab olunurdu və ən böyük istehsalçı və vergi ödəyicisi idi.

**Qarabağın** müasir iqtisadiyyatının bərpasında təbii resursların əhəmiyyəti

Qarabağ kifayət qədər təbii sərvətlərlə zəngin olan Azərbaycan bölgəsidir və Qarabağ iqtisadiyyatının funksional inkişafı mineral yataqlarının məqsədəuyğun istismarına və hasil edilmiş metalların rasional istifadəsinə bağlıdır.

“Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulan hədəflərə nail olunması nəticəsində Azərbaycanda real ÜDM-in 1 milyard 560 milyon manatadək artacağı, ondan 1 milyard manat artımın mədən sənayesi və metallurgiya kompleksinin inkişafı hesabına həyata keçirilməsi planlaşdırılır. Azərbaycan torpaqlarının zəfərlə işğaldan azad edilməsi və bununla zəngin təbii mineral yataqlarının qayıdışı Azərbaycanın mədən hasilatı sənayesində “ikinci nəfəsin” açılmasına töhfə verir. Bu, həmçinin Azərbaycanın qeyri-neft sektorunun inkişafına ciddi təkan verəcək.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların ərazilərinin bərpası və yenidən qurulması və davamlı iqtisadiyyatı olan firavan bölgələrə çevrilməsi üçün qlobal planlar bu ərazilərdəki zəngin təbii ehtiyatların ölkənin iqtisadi sisteminə inteqrasiyası ilə ayrılmaz şəkildə bağlıdır. Belə addımdan Azərbaycanın əldə edəcəyi əsas üstünlüklərini daha ətraflı nəzərdən keçirək:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların təbii mineral resursların istifadəsi və istismarı Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Bu o deməkdir ki, bu ərazilərdəki faydalı qazıntı yataqlarının istismarı ilə Azərbaycan potensial iqtisadi mənbələr əldə edəcəkdir. Bütün yataqlar zəngin təbii mineral ehtiyatlarının, o cümlədən qızılın olması səbəbindən mədən sənayesinin inkişafı üçün böyük perspektivlər vəd edir.

- Qarabağda qiymətli metalların hasilatı ölkə iqtisadiyyatının qeyri-neft sektorunun mədən sənayesində mühüm rol oynayır. Yeni qızıl və digər əlvan metal yataqlarının istismara verilməsi mədən sektorunun yeni inkişaf templərinə kömək edəcək və ölkənin iqtisadi böyüməsinə verilən töhfə daha da artıracaqdır.

- İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə görə, bu ərazilərdə təkcə qızıl ehtiyatları 8 milyard dollar olaraq qiymətləndirilir. Qızıldan və azad edilmiş ərazilərin digər sərvətlərindən ölkənin xeyrinə istifadə edilməklə, Azərbaycan iqtisadiyyatına əlavə dəyərin 2 milyard ABŞ dolları təşkil edəcəyi təxmin edilir.

- Azərbaycanın azad edilmiş bölgələrində aparılan yenidənqurma işləri mineral ehtiyatların və qızılın ixrac potensialını əhəmiyyətli dərəcədə artıra bilər. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından səmərəli istifadə edildikdən sonra qeyri-neft sektorunun üç aparıcı malından biri sayılan qızılın ixracı artırılacaqdır.

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mineral resursların istehsalı ilə yanaşı, gələcəkdə ölkədə onu emal edəcək komplekslərin yaradılmasına başlana bilər. Məsələn, erməni əsilli isveçrəli iş adamı Sirmakes Ermənistanda Qarabağda hasil edilən qiymətli metalların emalı üçün zavod tikməyi planlaşdırırdı. 2014-cü ildə o, Ermənistan hökuməti ilə memorandum imzalamışdır. Memorandumun şərtlərinə görə, zavod 2020-ci ilə qədər işə düşməli idi və bu zavodda istehsal olunan qızılın “erməni qiymətli metalları” kimi etiketlənməsi düşünülürdü. Ölkəmizdə belə bir emal kompleksinin olması Azərbaycanın regional sənaye mərkəzinə çevrilməsinə, iqtisadi inteqrasiyaya və satış bazarlarının genişlənməsinə kömək edə bilər.

- Qarabağ və **Şərqi Zəngəzur iqtisadi rayonlarda** faydalı qazıntı yataqlarının işlənməsinə qoyulacaq investisiyalar dərhal effekt verəcəkdir, çünki mədən sənayesi bərpa olunduqdan sonra yeni sənaye zənciri - metallurgiya, elektrik enerjisi, maşınqayırma inşa ediləcək və rayonların sakinlərinin çoxu işlə təmin olunacaqdır.

- Qarabağ və **Şərqi Zəngəzur iqtisadi rayonlarda** yeni qızıl yataqlarının istismara verilməsi gələcəkdə “sarı metal” istehsalını və dünya bazarında qızılın bahalaşmasını nəzərə alaraq, Azərbaycan üçün müsbət bir tendensiyaya çevriləcəkdir. Qızılın etibarlı maliyyə varlığına çevrilməsi prosesi dünyadakı siyasi qeyri-sabitlik dövründə və ya qlobal iqtisadi böhran fonunda baş verir. Son illərdə dünya dövlətlərinin hökumətləri valyuta ehtiyatlarındakı dollar aktivlərinin payını azaldaraq, qızıl payını sürətlə artırırlar.

- “Söyüdlü” yatağındakı qızılın və digər faydalı qazıntıların işlənməsi ilə əlaqədar ölkəmizin mədən mərkəzi olan Kəlbəcər ilə Daşkəsən arasında birbaşa əlaqə qurulması və gələcəkdə bu istiqamətdə dəmir yolunun inşası Kəlbəcərin ümumi iqtisadi potensialını artıracaqdır. Ümumiy-

yətlə, geri qaytarılan ərazilərdə birbaşa nəqliyyat və dəmir yolu xətlərinin yaradılması Ordubad qızıl yataqlarının zonasına çıxışı əhəmiyyətli dərəcədə asanlaşdıracaqdır.

Bununla yanaşı 30 il işğal altında qalmış Azərbaycan ərazilərində erməni şirkətləri tərəfindən təbii resurslarının qanunsuz istismarı nəticəsində ölkənin məruz qaldığı itkilərin miqyasını aydınlaşdırmaq vacib məsələlərdən biridir. Hazırda Azərbaycan Qarabağda qanunsuz iqtisadi fəaliyyətlə məşğul olan şəxslərin tutulması tələbi ilə artıq İnterpola müraciət edib. Azərbaycan Prezidenti İlham Əliyev bu şirkətlərə son xəbərdarlığını etmişdir: təzminat ödəməsələr, məsələ beynəlxalq məhkəməyə göndəriləcək.

Azərbaycan tərəfi həmişə əvvəllər işğal olunmuş ərazilərdə proseslərə nəzarət edib və orada qazma və kəşfiyyat işlərini görən şirkətlərin beynəlxalq məhkəməyə cəlb edilməsini tələb edib. Lakin əvvəllər işğal olunmuş ərazilərdə beynəlxalq ekspedisiyanın təşkili ilə bağlı bütün cəhdlər nəticə verməyib. Eləcə də Ermənistan, Böyük Britaniya hökumətləri, ABŞ Dövlət Departamenti, BMT və digər təşkilatlara Azərbaycanın bu ərazilərindəki qızıl yataqlarının qanunsuz istismarında xarici şirkətlərin iştirakı ilə bağlı müraciətlər cavabsız qalmışdır [3].

Münaqişə ölkələrindəki vəziyyət üzrə ixtisaslaşmış işçi qrupu, Azərbaycan ərazilərinin 20%-nin Ermənistan tərəfindən işğalından dəyən ziyanı 818,88 milyard dollar olaraq qiymətləndirib və bunlar son rəqəmlər deyil. Qiymətləndirmədə işğal dövründə itirilmiş əmlakın və itirilmiş qazancın dəyəri nəzərə alınmışdır. Əlbəttə ki, bu məbləğə əvvəllər işğal altındakı ərazidə yerləşən faydalı qazıntı yataqlarının istismarından əldə edilə biləcək itirilmiş gəlirlər daxildir.

Qarabağ ərazisinin yeraltı və yerüstü sərvətlərinin mövcud vəziyyətini öyrənmək, qalıq ehtiyatlarını qiymətləndirmək və müasir metodlardan istifadə etməklə geoloji kəşfiyyat aparmaq üçün elmi araşdırmalar aparmaq lazımdır. Bu məqsədlər üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının birgə fəaliyyəti zəruridir. Bundan başqa bu istiqamətdə görüləcək vəzifələrə aşağıdakılar aiddir:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müvafiq komissiya tərəfindən hər bir faydalı qazıntı yatağını hərtərəfli öyrənərək qiymətləndirmə aparılsın, nəticədə dəymiş ziyanın həcmi, habelə bölgədə olan digər resurslar və yeni perspektivləri müəyyən edilsin və bundan sonra Qarabağ və **Şərqi Zəngəzur iqtisadi rayonların** mineral ehtiyatlarının yeni geoloji xəritəsi hazırlansın;

- Audit şirkətlərinin mütəxəssislərini ən qısa müddətdə cəlb etməklə, Qarabağ və **Şərqi Zəngəzur iqtisadi rayonlarda** qızıl və digər əlvan metal ehtiyatlarının talan edilməsi üzrə dəymiş ziyanın həcmi müəyyən edilsin və bununla bağlı faktlar Azərbaycan dövlətinə və vətəndaşlarına, habelə dünya ictimaiyyətinə çatdırılsın;

- Mineral resurslarının ermənilər tərəfindən qanunsuz istismarı nəticəsində çəkilmiş və itirilmiş gəlirin məbləği hesablandıqdan sonra, əvvəllər işğal olunmuş ərazilərdə biznes qurmuş erməni və xarici şirkətlərə təzminat ödətdirmək üçün beynəlxalq məhkəmələrə müraciət edilsin.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özünəməxsus təbii mineral resurs bazasının olması ölkəmizin iqtisadi və müdafiə təhlükəsizliyinin gücləndirilməsində, eyni zamanda iqtisadi sahələrin balanslı inkişafının təmin edilməsində son dərəcə vacibdir. Böyük xammal obyektlərinin inkişafı ilə nəqliyyat, enerji, su infrastrukturu tikilir və ya yenilənir, evlər və kəndlər tikilir. Yeni iş yerlərinin birbaşa mədən hasilatı müəssisələrində açılması ilə yanaşı, əlaqədar infrastruktur və sosial layihələrin icrası da əlavə məşğulluq tələb edir.

Beləliklə, təbii sərvətlərdən tam və səmərəli istifadə, sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsi, dəyər zəncirinin bütün sahələrində innovativ inkişafın, elmi-texniki tərəqqinin istifadəsi ilə yaşıl iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılması, ölkədə neft sektoru ilə yanaşı qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunda ixrac artımına nail olunması, kənd yerləri daxil olmaqla rayonlarda layiqli məşğulluq və gəlir imkanlarının genişləndirilməsi və sosial təminatlarının yaxşılaşdırılması rayonlarının davamlı və tarazlı inkişafına səbəb olacaqdır.

## Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii mineral resurs bazasının elmi və texniki potensialını inkişaf etdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının rolu danılmazdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədən hasilatı ilə bağlı klasterlərin yaradılması, habelə Geoloji Tədqiqatlar Mərkəzinin yaradılması məqsədəuyğun olardı. Geoloji Tədqiqatlar Mərkəzinin yaradılması Avstraliyada olduğu kimi Azərbaycanda dünya səviyyəli infrastruktur, tədqiqat laboratoriyalarının inşasına təkan verərdi. Bu, öz növbəsində, ölkə daxilindəki təhlillər nəticəsində geoloji materialların emalı üçün maliyyə xərclərinin və vaxtının əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaqdır. Geoloji Tədqiqatlar Mərkəzinin yaradılması mədənçilik sahəsində aparıcı bir məktəbin (School of Mines) formalaşmasını və beynəlxalq səviyyəli ixtisaslı kadrların hazırlanmasını təmin edəcəkdir.

Beləliklə, mədən sənayesinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında oynayacağı mühüm rol aydın şəkildə görünür. Məsələn, hazırda hasil olunan qızıl artıq dünya bazarında satılır, bu da ölkənin qeyri-neft ixracını şaxələndirir və ölkəyə xarici valyuta axınını təmin edir. Eyni zamanda qızıl hasilatı sənayesindəki istehsal həcmləri dövlət qızıl ehtiyatlarını kifayət qədər səviyyədə saxlaya və zərgərlik və iqtisadiyyatın digər sahələrinin artan ehtiyaclarını qarşılaya bilər.

## İstinadlar

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları.
3. Xankişiyeva E.M. Azərbaycanın qızıl hasiledici sənayesi geosiyasi problemlər kontekstində. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2014, № 4, s.341-345.

**XƏLİLOV Yasin**

Bakı Mühəndislik Universiteti, t.e.n., dosent

# AĞDAMDA İNŞAAT MATERİALLARI İSTEHSALININ KOMPLEKS TƏŞKİLİ HAQQINDA

**Xülasə:** Məqalədə işğaldan azad olunmuş ərazilərdə inşaat materialları istehsalının yaradılması imkanları və perspektivləri nəzərdən keçirilmişdir. Bölgənin qeyri-filiz xammal ehtiyatları Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq hesabatlarına istinad edilərək ətraflı araşdırılmış və müəyyən edilmişdir ki, Ağdam rayonu inşaat sənayesinin ana xammalları olan sement, kərpic, beton, quru inşaat qarışıqları, beton doldurucuları, boya istehsalı üçün ən münasib ərazidir. Belə ki, rayonun ərazisində yüksək keyfiyyətli portlandsement istehsalı üçün kifayət qədər böyük ehtiyatları olan əhəngdaşı və gil yataqları mövcuddur. Bu portlandsement istehsalı ilə yanaşı quru inşaat qarışıqları, beton, kərpic, keramzit, kirəmit və boya istehsalını da təşkil etməyə və beləliklə bölgənin nəhəng inşaat materialları istehsalı kompleksini yaratmağa imkan verə bilər. Nəhəng istehsalat kompleksinin xammala yaxın bir ərazidə yaradılması həm, infrastruktur xərclərini azaltmağa imkan verəcək, əhalinin böyük ölçüdə məşğulluğunu təmin edəcək, həm də bölgənin inşaat materiallarının əsas qruplarına tələbatının ödənilməsinə ciddi töhfə verəcəkdir.

**Açar sözlər:** Ağdam, inşaat materialları, infrastruktur, istehsal, layihə, sənaye, tikinti, zavod və s.

→

## Giriş

Məlumdur ki, Ermənistanın Azərbaycan dövlətinə və xalqına qarşı təcavüzü, 30 ildən bəri davam edən işğal nəticəsində rayon və şəhərlərimiz, o cümlədən yüzlərlə yaşayış məntəqəsi, yaşayış evləri, dövlət əmlakı və xüsusi əmlak, çoxsaylı infrastruktur obyektləri məhv edilərək tam yararsız hala salınıb. Döyüş əməliyyatları başa çatdıqdan dərhal sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsinə, minatəmizləmə tədbirlərinin təşkil olunmasına, habelə su, elektrik enerjisi, qaz təchizatı, rabitənin bərpası, həmçinin yol infrastrukturunun qurulması ilə əlaqədar işlərin icrasına başlanılıb. Növbəti illər ərzində isə bu tədbirlərin daha geniş miqyasda davam etdirilməsi, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün lazımi şəraitin təşkil edilməsi, sözügedən ərazilərdə iqtisadi fəaliyyətin bərpa olunması istiqamətində tədbirlərin maliyyələşdirilməsinə ehtiyac var.

Azərbaycan Qarabağın bərpasına elə bir vaxtda başlayır ki, bütün dünya pandemiyanın törətdiyi maliyyə çətinliklərinin məngənəsindədir. Bu göstərir ki, dövlətimiz kifayət qədər güclüdür, qüdrətlidir, pandemiya nə qədər ziyan vursa da, bizi zəif düşürə, Qarabağı inkişaf etdirmək planlarımıza maneə törədə bilməz. Azad olunmuş ərazilərimizin bərpası məsələsində incə və

xüsusi məqam odur ki, dövlət başçısı Qarabağı müasir dünyanın ən gözəl, analoqu olmayan bir məkanına çevirməyə hədəfləyib. Onun açıqlamaları və atdığı addımlar bunu deməyə əsas verir. Prezidentin göstərişi ilə azad olunmuş bütün şəhərlərin ayrı-ayrılıqda, coğrafi relyefə və digər parametrlərə uyğun baş planları hazırlanır. Yəni, heç bir ən kiçik iş belə plansız, kor-təbii, naşı şəkildə həyata keçirilmir.

Prezident İlham Əliyev bunu dəfələrlə deyib: “Qarabağı cənnətə çevirəcəyik”. Bu, həm praktik, həm də fəlsəfi baxımdan çox dərin məna kəsb edir.

**Ağdamın iqtisadi potensialı**

Təbii ki, bölgənin bərpasında iqtisadiyyatın lokomotivi hesab edilən inşaat sektorunun kompleks şəkildə yenidən qurulması və inkişafı olduqca mühüm əhəmiyyət kəsb edir. İnşaat sektorunun inkişafı yerli inşaat materialları istehsalının təşkili ilə həm ciddi sürət əldə edəcək, istifadə olunacaq materialların maya dəyərinin aşağı düşməsinə imkan verəcək və eyni zamanda əhalinin məşğulluğunun təmin olunmasına töhfə verəcəkdir.

Məlumdur ki, inşaat sənayesinin ana xammal və materiallarına müxtəlif növ yapışdırıcılar (sement, gips, əhəng və onların müxtəlif proporsiyalarda qarışıqları), divar, hörgü materialları (beton və beton məmulatları, gil kərpicləri, əhəngdaşı və digər təbii dağ süxurlarından mişar daşları və s.), damüstü materiallar (gil və metal kirəmitlər, azbestsement şiferlər və s.), bünövrə, su, səs, istilik izolyasiya materialları, o cümlədən, daş yunu, tol, ruberoid, mastikalar və s. üzlük dekorativ bəzək materialları (divar, döşəmə üçün keramik, daş və plitələr, adi və dekorativ gips, sement və s. astar və üz suvaqları, boyalar və s.), sement, əhəng və gips əsaslı quru inşaat qarışıqları aid edilir.

Qarabağ coğrafiyasının xammal ehtiyatlarının araşdırılması göstərir ki, inşaat sənayesinin yaradılması baxımından ən uyğun bölgə Ağdam rayonudur [1]. Belə ki, sement istehsalı üçün əsas xammallar əhəngdaşı və gildir. Əhəngdaşı həmçinin gips və sement əsaslı quru inşaat qarışıqlarının QİQ və boyanın əsas xammalı hesab olunur. Eləcə də ondan mineral əlavə kimi polimer, şüşə və s. istehsalında geniş istifadə olunur. Həmçinin qonşu ölkələrə böyük ixrac imkanları olduğunu da qeyd etmək yerinə düşər. Ədəbiyyatların [1-2] araşdırılması göstərir ki, ən böyük əhəngdaşı yatağı Ağdam rayonu ərazisindədir (Çobandağ əhəngdaşı yatağı 140000000 ton). Bu uzun illər (layihələndirilən sement zavodunun məhsuldarlığından asılı olaraq 100 ildən çox) nəhəng sement zavodunun fasiləsiz işləməsinə imkan verə biləcək bir yataqdır və istismarı açıq üsulla, az kapital qoyuluşu ilə həyata keçiriləcəkdir. Cəbrayıl, Füzuli və digər bölgələrdəki əhəngdaşı ehtiyatlarının və kimyəvi-mineraloji tərkibinin öyrənilməsi nəticəsində müəyyən olundu ki, bu yataqlar xammal bazası kimi sement və digər inşaat materialları istehsalı üçün məqsədəuyğun hesab edilmir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq hesabatlarına görə Ağdam rayonunda həmçinin, Çəmənli-1 və Çəmənli-2 gil yataqları da mövcuddur ki, onlardan da həm sement, həm də gil məmulatları istehsalında istifadə oluna bilər (ehtiyatları ilkin qiymətləndirməyə görə uyğun olaraq 2200000 və 2300000 m3 təşkil edir). Beləliklə bu nəhəng xammal bazalarının mövcudluğunu nəzərə alaraq Ağdam rayonu ərazisinin bölgədə inşaat materialları istehsalı üçün ən münasib olduğunu qətiyyətlə konstatasiya edə bilərik. Ağdamda fikrimizcə, aşağıda adlarını çəkdiyimiz zavodların inşası məqsədəuyğun olardı:

- Sement zavodu.
- Quru inşaat qarışıqları zavodu (mikro və hidrofob kalsit emalını da nəzərdə tutmaqla).
- Beton zavodu.
- Beton məmulatları İstehsalı müəssisəsi.
- Gil kərpici və kirəmit istehsalı.
- Keramzit istehsalı.

- Boya istehsalı.

- Çınqıl və qırmadaş istehsalı.

- Mişar daşı istehsalı.

- Dekorativ keramik plitələr istehsalı.

Təbii ki, bu və ya digər müəssisənin yaradılması xammal ehtiyatlarının olması ilə yanaşı, həm də etibarlı istehlak bazarının olması ilə də şərtlənir. Bölgənin perspektiv inkişafı haqqında ən yüksək səviyyələrdə səslənən fikirlər və proqnozlar müəyyən müsbət qənaətə gəlməyə imkan verir. Əlbəttə, bu kontekstdə rəqəmlərin də rolu danılmazdır.

Məlumdur ki, Azərbaycanda sement zavodlarının ümumi illik layihə istehsal gücü-5-5,2 mln. ton təşkil edir. Qazax Sement zavodu-1,5 mln. ton, Norm Sement zavodu-2,2 mln. ton, Holsim-1,7 mln. ton. Dünya sement istehlakı bazarının analizi göstərir ki, adambaşına sement tələbatı ortalama 626 kq təşkil edir:

Azərbaycan əhalisinin 10 mln. nəfər olduğunu nəzərə alsaq, ölkə üzrə ümumi illik sement tələbatı 6260000 ton təşkil edir. Bu hesabdan çıxış etsək və əhali artımının dinamikasını nəzərə alsaq, istehsal gücü 12000000 ton sement təşkil edən yeni bir zavodun qurulmasına ehtiyac olduğunu deyə bilərik.

Quru inşaat qarışıqlarının (QİQ) Avropa ölkələri üzrə adambaşına orta tələbatı 20-70 kq arasında dəyişir. Azərbaycanda əsas istehsalçılar (Mətanət A-ümumi istehsal gücü 300000 ton/illik, Mister fiks-75000 ton/il, FAB-120000 ton/il, Gilan Knauf-900000 ton/il, Azbentonit MMC-120000 ton /il təşkil edir. Ümumilikdə, Azərbaycanda 700000 ton istehsal gücü olan QİQ sənayesi mövcuddur. Hesablamalardan göründüyü kimi, Qarabağda planlaşdırılan nəhəng quruculuq işlərinin ehtiyaclarının tam və operativ ödənilməsi üçün bu rəqəm kifayət deyildir. Digər tərəfdən, bu müəssisələrin demək olar ki, hamısı alınma sement əsasında istehsallarını qurublar və bu da onlara maya dəyəri baxımından baha başa gəlir. Ona görə də yuxarıda deyilənlər, əhali artımı və bölgənin inkişafı məsələləri Quru inşaat qarışıqları istehsal edən müəssisənin qurulmasının əhəmiyyətini şərtləndirir. Qeyd edək ki, nəzərdə tutulan bəzi məhsulların Azərbaycanda heç istehsal olunmaması da layihənin səmərəli olacağını deməyə əsas verir (məsələn, kalsit tozu, xüsusilə kaplanmış kalsitə tələbat getdikcə artır və böyük ixrac imkanları var). Beləliklə, yuxarıdakı mülahizələrdən çıxış edərək və mövcud müəssisələrin işinə xələl gətirməmək məqsədilə illik məhsuldarlığı 120000 ton QİQ zavodunun qurulmasını məqsədəuyğun hesab edirik.

Beton zavodu daşınma nöqteyi-nəzərindən inşaat meydançasına yaxın olmalıdır və bu zərurətdən onun inşasının əsaslandırılmasına ehtiyac yoxdur. Digər tərəfdən beton zavodunun tikintisi meqa layihələrin icrasının ilk mərhələsində həyata keçirilməlidir ki, inşa ediləcək müəssisələrin beton ehtiyacı həmin zavodun hesabına ödənilsin. Beton zavodunun məhsuldarlığını 90 m3/saat olaraq tövsiyə edirik. Bu seçim həm tələbatın həcminə, həm də betonqarışdırıcıların standart məhsuldarlığına əsaslanır.

Beton məmulatları istehsalı zavodu. Beton məmulatları adı altında presləməklə alınan və buxar-istilik emalını keçmiş plitələr, müxtəlif təyinatlı dekorativ üzlük daşlar, səki məmulatları nəzərdə tutulur. Hesab edirik ki, gündəlik istehsal gücü 1000 $m^2$ (bu tip sexlər üçün xarakterik məhsuldarlıq) olan sexin inşası məqsədəuyğundur. Belə ki, sement istehsalı, eləcə də qum, çınqıl, qırmadaş istehsalı qurulduğu halda bu sexin rentabelli işi tam təmin olunacaq. Sex digər zavodlar qurulmamışdan öncə inşa edilib istismara buraxılarsa (hələlik alınma xammal hesabına), daxili tələbatı (qurulacaq müəssisələrin ərazisinin abadlaşdırılması və s.) ödəməklə sexin ahəngdar, mənfəətli işini təmin etmək mümkün olacaq.

Gil kərpici və kirəmit istehsalı bazarını araşdıraraq müəyyən etdik ki, hazırda Azərbaycanda 10-dan çox kərpic zavodu fəaliyyət göstərir və onların ümumi istehsal gücü təxminən 40000000 əd/il təşkil edir. Əsasən zavodlar Bakı-Abşeron, Masallı-Salyan-Şirvan ərazisində cəmləşib. Tikintinin qismən soyuq havalı günlərinin çox olması ilə əlaqədar zəif olduğu Rusiyada adam başına

kərpic istehsalı 40-50 ədəd təşkil edir. Türkiyədə bu rəqəm 100 ədədə yaxınlaşır. Düşünürük ki, il ərzində Respublikamızda müxtəlif çeşidli kərpiclərə tələbat 60-70000000 əd/il təşkil edir. Ağdamda yerli və bölgə tələbatını nəzərə alaraq illik məhsuldarlığı 12000000 ədəd kərpic və 1000000 ədəd kirəmit məmulatları istehsal edən kompleksin qurulmasını məqsədəuyğun hesab edirik.

**Keramzit istehsalı.** Araşdırmalarımız göstərir ki, Azərbaycanda yüngül beton istehsalı demək olar ki, yoxdur. Günəşli qəsəbəsində yerləşən yeganə keramzit istehsal edən xətt köhnəlmiş və tam gücü ilə işləyə bilmir. Ona görə də bu istehsalın təşkilini fövqəladə vacib hesab edirik. Bölgədə belə zavodun inşası alçaq binalar üçün isti və kəskin soyuq iqlim şəraitində önəmli yüngül beton konstruksiyaların inşasına şərait yaradar. Gündəlik məhsuldarlığı 50 $m^3$ olan mini keramzit zavodları Rusiyada, Çində və s. təklif olunur.

Boya istehsalı. Azərbaycanda boya istehsalı ilə bir sıra böyük şirkətlər (NB qrup, Sobsan, FAB, Mətanət və s.) məşğuldur. Bununla belə kalsit istehsalı təşkil olunursa, onda Ağdamda boya sektorunun yaradılması daha ucuz boya istehsalına imkan verəcək və bazarda qısa müddətdə mövqeləri bərkitmək mümkün olacaq (boyalarda 50%-ə qədər kalsit tozu istifadə olunur). İlkin mərhələdə 12 ton/gün məhsuldarlıqda zavodun qurulmasını tövsiyə edirik. Gələcəkdə genişləndirmək imkanı nəzərdə tutula bilər.

Çınqıl və qırmadaş istehsalı. Beton zavodunun qurulması qum, çınqıl və qırmadaş istehsalını zəruri edir. Beton zavodunun tələbatına uyğun saatlıq məhsuldarlığı 100 $m^3$ olan xəttin qurulmasını tövsiyə edirik. Zavod yaxınlıqdakı çay hövzələrinin birində təşkil edilə bilər.

**Mişardaşı istehsalı**. Geoloji hesabatların araşdırması göstərdi ki, Ağdamda nəhəng karbonat yatağı var və bəzi laylar mişar daşı, bloklar və s. istehsalına tam yararlıdır. Təsis qurulduğunda orda yaxın dağ bölgələrdən qranit, mərmər və s. blokların da daşınıb kəsilib doğranması təşkil edilə bilər. Təsisin ilkin gücü 480000 ədəd mişar daşı, 3000 $m^3$ bloklar, 60000 m2 aqlay üzlük materialı kimi qəbul edilə bilər.

Dekorativ keramik plitələr istehsalı. Azərbaycanda keramik üzlük plitələr istehsalı ilə Gilan Seramik və NB qrupun Gəncə zavodu məşğul olur. Bununla belə hər iki zavod assortiment, dizayn, rəsm və baxımından bazarın artan tələbatını ödəyə bilmirlər. Xırda sifarişlərin icrasını həyata keçirmək mümkün deyil. Bununla belə özəl sifarişlər həm yetərincədir, həm də baha təklif oluna bilər. Tarixi, dini və s. binaların dekorativ üzlənməsi, milli ənənələrə uyğunlaşdırılması üçün bu tip istehsal sahələri əvəzsizdir və müxtəlif kreativ layihələrin icrası üçün geniş imkanlar açır. Şəxsi təcrübəmizdən çıxış edərək bildiririk ki, bu zavodlar olduqca rentabellidir.

Beləliklə, apardığımız araşdırmalar göstərir ki, Qarabağ İqtisadi Zonasında Ağdam, inşaat materialları sənayesinin qurulması baxımından öz coğrafi mövqeyinə, təbii ehtiyatlarına görə ən münasibidir. Tövsiyə etdiyimiz layihələr icra olunduğu təqdirdə bölgənin sürətli inkişafı, əhalinin məşğulluğu böyük həcmdə təmin oluna bilər.

## İstinadlar

1. Fətəliyev A.C., İmanov Ə.M., Bayramov F.H. Azərbaycan Respublikasında Tikinti materiallarının xammal ehtiyatları. Bakı, 2000.-200 s.
2. Геология Азербайджана. Под ред. М.Кашкая.. Баку, 1957, 540 с.

XƏLİLOVA Vəsilə
ƏƏSMN, 4 saylı Ərazi Məşğulluq Mərkəzi filialı

# POST-KONFLİKT ƏRAZİLƏRDƏ ƏHALİNİN MƏŞĞULLUQ İMKANLARININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə:** Məqalədə işğaldan azad olunmuş ərazilərdə məcburi köçkünlərin işədüzəltmə imkanlarının yaxşılaşdırılması üzrə müxtəlif layihələrin yerinə yetirilməsindən bəhs olunur. Məcburi köçkünlərin məşğulluq imkanlarının (işədüzəlməsinin) yaxşılaşdırılması onların sosial statusunun bərpasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanır. Qarabağda "ağıllı şəhər" konsepsiyasının tətbiqi ixtisaslı kadrlar üçün daha çox iş yerlərinin yaradılması imkanları qiymətləndirilir. Bunun post-konflikt ərazilərin inkişafında rolu əsaslandırılır.
Həmçinin dövlətin məcburi köçkünlərin məşğulluğunun təmin olunması siyasətini yerinə yetirən Dövlət Məşğulluq Agentliyi orqanlarının son illər üzrə müqayisəli təhlili aparılır, Qarabağ zəfərindən sonra regionun dirçəlişi üzrə təklif və tövsiyələr verilir.

**Açar sözlər:** məcburi köçkün, məşğulluq, dövlət proqramları, işədüzəltmə imkanları, beynəlxalq layihə.

→

## Giriş

Dağlıq Qarabağ və onun ətrafında baş vermiş hadisələr **nəticəsində bir milyondan çox insanın öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalması** keçmiş SSRİ ərazisində baş vermiş məcburi miqrasiya prosesinin ən böyük insanlıq faciəsi kimi qiymətləndirilə bilər. Təəssüf ki, müstəqilliyimizin bərpasının ilk illərində mənfur erməni işğalçıları tərəfindən torpaqlarımızın 20%-ni işğal olunması yüz minlərlə əmək qabiliyyətli insanlarımızın daimi iş yerlərinin və doğma yurdlarının itirilməsi ilə nəticələndi və bu acınacaqlı vəziyyət 30 ilə yaxın davam etdi. Bu müddətdə məcburi köçkünlərin məşğulluğu və sosial müdafiəsinin təmin edilməsi problemi ölkəmiz üçün də kifayət qədər taleyüklü məsələ olmuşdur.

Humanitar fəlakətlər və ekstremal vəziyyətlər şəraitində insanların kütləvi surətdə yerdəyişməsi nəticəsində yaranan problemlərin həlli yolları üzrə müəyyən dünya təcrübəsi mövcuddur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün yaşayış kompleksinin təməl qoyma mərasimindəki çıxışında bildirmişdir: Azərbaycan dövlətinin bu sahədə təcrübəsi həm çadır şəhərciklərinin ləğvi, həm də demək olar ki, humanitar faciənin qarşısının alınması çox nadir bir təcrübədir. Bu təcrübə, bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi

nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur”[2]. Bəli, bu gün ölkəmizdə məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bir model formalaşıb .

Son illər bu istiqamətdə bir sıra ciddi addımlar atılmış, Azərbaycan Respublikasının dövlət büdcəsinin, Dövlət Neft Fondunun, beynəlxalq humanitar təşkilatların və donor ölkələrin vəsaiti hesabına onların sosial müdafiəsi və məşğulluğu ilə bağlı çoxsaylı humanitar layihələr həyata keçirilmişdir.

Azərbaycan Respublikasında əmək bazarının müasir dövrün tələbləri səviyyəsinə çatdırılması, müxtəlif sosial cəhətdən zəif əhali qruplarının işədüzəlməsinin yaxşılaşdırılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilir. Bu tədbirlər möhkəm hüquqi bazaya əsaslanır. Ölkə prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”, “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” və s. haqqında imzaladığı fərman və sərəncamlarda sosial müdafiəyə daha çox ehtiyacı olan əhali kateqoriyasının üzləşdiyi sosial-iqtisadi problemlərin həlli mühüm vəzifə kimi müəyyən edilmişdir. 2019-2030-cu illəri əhatə edən Azərbaycan Respublikasının Məşğulluq Strategiyası və onun həyata keçirilməsi üzrə Dövlət Proqramı da bu qəbildəndir. Aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi strategiyanın həyata keçirilməsinin əsas istiqamətlərindəndir[4].




**Şəkil 1. Mənbə: müəllif tərəfindən hazırlanmışdır.**

Məcburi köçkünlərin sosial statusunun bərpasında mühüm rol oynayan işədüzəlmə imkanlarının yaxşılaşdırılması üçün bir qrup üsullardan istifadə daha geniş yayılmışdır (bax: şəkil 2.).




***Şəkil 2. Məcburi köçkünlərin sosial statusunun bərpasında mühüm rol oynayan işədüzəlmə imkanlarının yaxşılaşdırılması üsulları (praktiki materiallar əsasında müəllif tərəfindən hazırlanmışdır).***

Dövlətin məcburi köçkünlərin məşğulluğunun təmin olunması siyasətini Dövlət Məşğulluq Agentliyi orqanları həyata keçirir. Bu gün ölkəmizdə gedən yüksək dinamik inkişaf, dövlət məşğulluq siyasətinin ildən-ilə güclənməsi, dövlət məşğulluq orqanlarının da fəaliyyətinin müasir iş üsulları, innovativ yanaşmalar əsasında təkmilləşdirilməsini, əmək bazarı proqramlarının daha effektli şəkildə təşkil olunmasını bir vəzifə kimi qarşıya qoyur. Son zamanlar bu sahədə əldə olunan uğurlar sosial cəhətdən həssas digər əhali qrupları kimi məcburi köçkünlərin də əmək bazarına inteqrasiyasına, məşğulluğunun yüksəldilməsinə müsbət zəmin yaratmışdır [4].

Bu orqanlara iş axtaran vətəndaş kimi müraciət edən məcburi köçkünlər xidmətdən istifadə etməkdə digər vətəndaşlarla müqayisədə üstün hüquqa malikdirlər. Belə ki, sosial müdafiəyə ehtiyacı olan digər əhali təbəqəsi kimi, məcburi köçkünlər üçün də idarə və müəssisələrdə kvota yerləri təyin olunur.

Məcburi köçkünlərin işədüzəlməsinin yaxşılaşdırılması onların sosial statusunun bərpasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, işədüzəlmə ilə onların yalnız maddi vəziyyətinin yaxşılaşdırılması məsələsi həll olunmur, şəxsiyyətin təsdiqlənməsinə, psixoloji maneələrin aradan qaldırılmasına da imkan yaranır. Bu baxımdan 2010-2019-cu illər ərzində Dövlət Məşğulluq agentliyinin yerli Qurumları tərəfindən 23537 məcburi köçkün işlə təmin edilib.

Məcburi köçkünlərin əmək bazarında münasib işlə təmin edilməsi ilk növbədə onların müasir tələblərə cavab verən peşə və ixtisaslar üzrə hazırlıq işinin təşkilindən asılıdır. Belə ki, 2010-2019-cu illər ərzində 3429 nəfər məcburi köçkün Dövlət Məşğulluq Xidmətinin nəzdində fəaliyyət göstərən Bakı və Göyçay Regional Peşə Tədrisi Mərkəzlərində, habelə Təhsil Nazirliyinin tədris bazası olan müəssisə və təşkilatların bazasında fəaliyyət göstərən peşə kurslarında peşə hazırlığına cəlb edilmişdir (cədvəl 1).

**Cədvəl 1.** Azərbaycanda məşğulluq xidmətləri tərəfindən işə düzəldilmiş və işsiz statusu verilmiş məcburi köçkünlər, 2010-2019-cu illər (nəfər)

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Daimi işlə təmin olunmuşdur** | 1625 | 1797 | 1325 | 2244 | 1787 | 1726 | 2778 | 2235 | 2686 | 5334 | 23537 |
| **Mövsümi işlə təmin olunmuşdur** | 4458 | 2532 | 1858 | 4404 | - | - | - | - | - | - | 13252 |
| **İşsiz statusu verilmişdir** | 104 | 352 | 570 | 570 | 403 | 383 | 1003 | 1186 | 182 | - | 4753 |
| **İşsizlik müavinəti təyin edilmişdir** | 123 | 430 | 605 | 615 | 513 | 422 | 1091 | 1418 | 219 | - | 5436 |
| **İşsizlikdən sığorta ödənişi təyin edilmişdir** | - | - | - | - | - | - | - | - | - | 238 | 238 |
| **Peşə təliminə göndərilmişdir** | 363 | 478 | 385 | 455 | 369 | 310 | 317 | 304 | 215 | 233 | 3429 |
| **İctimai işlərə cəlb olunmuşdur** | *312* | *140* | *139* | *185* | *298* | *203* | *114* | *128* | *56* | *3784* | *5359* |
| **Cəmi** | *6985* | *5729* | *4882* | *8473* | *3370* | *3044* | *5303* | *5271* | *3358* | *9589* | *56004* |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

2010-2019-cu illər ərzində 1226 nəfər qaçqın və məcburi köçkün haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir. Kiçik sahibkarlığın inkişaf etdirilməsində və əhalinin məşğulluğunun təmin olunmasında özünüməşğulluq imkanlarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Məcburi köçkünlərin özünüməşğulluğu onların özünütəsdiqi və gəlir əldə etməsi baxımından xüsusilə əhəmiyyətlidir. Ölkəmizdə bu sahədə artıq müsbət addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünü məşğulluq proqramında digər həssas qruplar kimi, məcburi köçkünlərin də fəal iştirakına şərait yaradılmışdır. 2010-2019-cu illərdə bu proqram çərçivəsində Respublika üzrə ümumilikdə 4550 nəfər məcburi köçkün cəlb edilmişdir. Onlardan 3228 nəfəri Yuxarı Qarabağ iqtisadi rayonuna,1322 nəfəri isə Kəlbəcər-Laçın iqtisadi rayonuna daxildir. (cədvəl 1.)

Yaradılmış bu təsərrüfatlar maldarlıq, quşçuluq, arıçılıq, bağçılıq, xidmət və s. sahələri əhatə edir. Məcburi köçkünlər bu təsərrüfatları genişləndirərək öz doğma evlərinə qayıdandan sonra da bizneslərini davam etdirmək imkanı qazanmışlar.

Digər bir aktiv məşğulluq tədbirlərindən olan Əmək Yarmarkaları işaxtaran və işsiz vətəndaşların layiqli işlə təmin olunması sahəsində xüsusi əhəmiyyət kəsb edən tədbirlərdən biridir. Azərbaycan Respublikasının bütün bölgələrində hər il keçirilən əmək yarmarkaları işsiz və işaxtaran vətəndaşların işəgötürənlərlə bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanların yaradılması, eyni zamanda işsiz və işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsi baxımından mühüm əhəmiyyət daşıyır [3].

Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşəbbüsü ilə 2018-ci ilin iyun və oktyabr aylarında Bakı şəhəri, Qaradağ rayonunun Müşviqabad qəsəbəsində və “Qobu Park” yaşayış

kompleksində, Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində məcburi köçkünlər üçün keçirilən Əmək yarmarkaları bu sahədə atılan uğurlu addımlardandır[4]. Ümumilikdə bu yarmarkalarda 1602 məcburi köçkün iştirak etmiş,167 müəssisədən 1221 vakant yer təklif edilmişdir. Hər üç yarmarkada 218 nəfər məcburi köçkünə seçimləri üzrə peşə və bacarıqlarına, əmək vərdişlərinə uyğun vakant iş yerlərinə göndərişlər verilmiş,26 nəfər daimi iş yerləri ilə təmin olunmuşdur.74 nəfər peşə hazırlığına cəlb edilmiş, 93 nəfər özünüməşğulluq proqramına cəlb edilmək məqsədilə təlimatlandırılmışdır.

İşğal altında olan rayonların (Ağdam, Füzuli, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Xocalı, Xocavənd, Cəbrayıl, Kəlbəcər) Məşğulluq Mərkəzləri (İARMM) bilavasitə məcburi köçkünlərlə işlədiyinə görə bu işdə xüsusi rol oynayır. 2007-2019-cu illər ərzində bu Məşğulluq Mərkəzlərinə 49525 nəfər müraciət etmişdir. Onların 15993 nəfəri və ya 32,3%-i işə düzəldilmiş, 3427 nəfəri və ya 6,9%-i peşə təliminə göndərilmiş, 3628 nəfərinə və ya 7,3%-nə işsiz statusu verilmiş, 4034 nəfərinə və ya 8,1%-nə işsizlik müavinəti təyin edilmiş, 1874 nəfəri və ya 3,8%-i ictimai işlərə cəlb olunmuşdur (cədvəl 2)

**Cədvəl 2.** İşğal altında olan rayonların Məşğulluq Mərkəzlərində xidmət göstərilmiş məcburi köçkünlər (nəfər)

| İllər | | Müraciət etmişdir | İşə düzəldilmişdir | İşsiz statusu verilmişdir | İşsizlik müavinəti təyin edilmişdir | Peşə təliminə göndərilmişdir | İctimai işlərə cəlb olunmuşdur |
|---|---|---|---|---|---|---|---|
| **2010** | qadın | 827 | 350 | 20 | 26 | 125 | 56 |
| | gənc | 905 | 493 | 22 | 24 | 251 | 36 |
| **2011** | Cəmi | 3041 | 1139 | 197 | 246 | 369 | 217 |
| | qadın | 1081 | 456 | 54 | 77 | 198 | 73 |
| | gənc | 1296 | 507 | 90 | 101 | 316 | 95 |
| **2012** | Cəmi | 2509 | 1220 | 193 | 255 | 384 | 200 |
| | qadın | 919 | 451 | 52 | 78 | 205 | 47 |
| | gənc | 1172 | 555 | 74 | 89 | 312 | 52 |
| **2013** | Cəmi | 2078 | 1078 | 215 | 249 | 312 | 175 |
| | qadın | 862 | 449 | 53 | 67 | 161 | 27 |
| | gənc | 1025 | 454 | 31 | 37 | 227 | 50 |
| **2014** | Cəmi | 1920 | 1051 | 315 | 349 | 299 | 237 |
| | qadın | 784 | 396 | 86 | 98 | 122 | 56 |
| | gənc | 815 | 448 | 89 | 89 | 242 | 85 |
| **2015** | Cəmi | 2032 | 1031 | 259 | 285 | 222 | 174 |
| | qadın | 803 | 455 | 65 | 80 | 104 | 45 |
| | gənc | 836 | 415 | 79 | 91 | 145 | 29 |
| **2016** | Cəmi | 6115 | 1331 | 632 | 711 | 202 | 120 |
| | qadın | 1327 | 243 | 167 | 193 | 76 | 31 |
| | gənc | 2481 | 618 | 246 | 258 | 151 | 11 |
| **2017** | Cəmi | 4267 | 1028 | 752 | 929 | | |
| | Qadın | 1167 | 433 | 230 | 296 | | |
| | Gənc | 1805 | 459 | 306 | 344 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Cəmi | 6786 | 1097 | 138 | 164 | | |
| 2018 | Qadın | 1727 | 344 | 27 | 43 | | |
| | Gənc | 1851 | 369 | 30 | 32 | | |
| | Cəmi | 10640 | 2513 | | | 169 | 134 |
| 2019 | Qadın | 2812 | 797 | | | 60 | 47 |
| | Gənc | 2347 | 504 | | | 14 | 8 |

***Mənbə:*** *İARMM məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Məcburi köçkünlərin məşğulluğunun artırılması və işədüzəlmə imkanlarının yaxşılaşdırılması məqsədi ilə beynəlxalq humanitar təşkilatların iştirakı ilə də bir sıra layihələr həyata keçirilmişdir.

9 noyabr 1999-cu il tarixində Azərbaycan Hökuməti və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (Dünya Bankı) arasında bağlanmış Kredit Sazişinə əsasən 2001-2005-ci illərdə Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu (MKSİF) tərəfindən "Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi" həyata keçirilmişdir. [3].

2005-ci il noyabr ayında Dünya Bankı və Azərbaycan Hökuməti arasında "Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi"nin həyata keçirilməsi məqsədilə Kredit Sazişi imzalanmışdır. Bu layihə 2006-2008-ci illərdə MKSİF tərəfindən həyata keçirilmişdir. Dünya Bankı və Azərbaycan Hökumətinin birgə maliyyələşdirdiyi bu layihə iki əsas komponentdən ibarət olmuşdur: 1) icma mikrolayihələri və 2) mikrokredit proqramı. Layihə çərçivəsində 168 müxtəlif növ icma mikrolayihəsi həyata keçirilmişdir və bu mikrolayihələrdən 110 minə yaxın adam faydalanmışdır ki, onların da 80%-i məcburi köçkünlər olmuşdur [3]. 15 may 2008-ci il tarixində Dünya Bankı və Azərbaycan Hökuməti arasında "Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi üçün Əlavə Maliyyələşdirmə Layihəsi"nin həyata keçirilməsi məqsədilə Kredit Sazişi imzalanmışdır. 2009-2011-ci illərdə həyata keçirilmiş layihə çərçivəsində 50 min nəfərin faydalandığı, dəyəri 4,2 milyon manat olan 73 icma mikrolayihəsi icra edilmişdir[3]. 2016-cı ildə Dünya Bankı ilə 78,5 milyon ABŞ dolları dəyərində yeni saziş imzalanmışdır. Saziş məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, gəlir imkanlarının dəstəklənməsi komponentlərini özündə əks etdirir. Bütün bu tədbirlərin nəticəsidir ki, məcburi köçkünlər arasında yoxsulluq həddi 75%-dən 12%-ə düşmüşdür ki, bu da respublika üzrə müvafiq göstəricidən (5%) 2,4 dəfə çoxdur [6].

**Nəticə və təkliflər**

Beləliklə, sosial qruplara daxil olan bütün insanlar kimi məcburi köçkünlər də üzvü olduğu cəmiyyətin həyatında fəal iştirak etmək, o cümlədən çalışmaq hüququna malikdir. Bu baxımdan onların cəmiyyətə tam inteqrasiyası üçün onların sosial mühitdə fəaliyyət göstərmə bacarığının, fərdi və peşə statusunun bərpasına yönəlmiş müəyyən kompleks proqramlar və tədbirlər həyata keçirilmişdir.

Böyük fəxarət hissi ilə qeyd etmək istəyirəm ki, 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük müharibə Böyük Qarabağ zəfəri ilə nəticələndi və Azərbaycan xalqı üçün tarixi hadisə baş verdi. İşğalçı Ermənistan təslimçilik sazişini imzalamağa məcbur oldu və mənfur düşmən diz çökdü.

Azərbaycan xalqının və Ali Baş Komandanın, rəşadətli ordumuzun bir yumruq kimi birləşməsi hiyləgər və xain düşmənin başını əzməklə nəticələndi, torpaqlarımız işğaldan azad olundu. Amma, bununla belə məcburi köçkünlərin işədüzəlmə imkanlarının yaxşılaşdırılması problemlərinin adekvat həlli yollarının müəyyənləşdirilməsi və əsaslandırılması, müvafiq mexanizmlərin və təkliflərin hazırlanması zərurət olaraq qalır.

Odur ki, yeni şəraitdə – Qarabağ zəfərindən yaranan reallıqlar və işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi reabilitasiyası, dirçəlişi proseslərində məcburi köçkünlərin işədüzəlmə imkanlarının modelləşdirilməsi və bunlarla bağlı prioritet istiqamətlərin müəyyənləşdirilməsini elmi cəhətdən araşdırmaq və əsaslandırmaq çox faydalı olar və səmərə verər;

İşğaldan azad olunmuş ərazilərdə məcburi köçkünlərin layiqli iş yerləri ilə təmin edilməsi və işədüzəlmə imkanlarının maksimum yaxşılaşdırılması məsələlərinə kompleks və sistemli yanaşma təmin olunmalıdır və bununla əlaqəli bir sıra məsələlər yüksək prioritetlik səviyyəsinə qaldırılmalı və nəzərə alınmalıdır:

✓ Qarabağ zəfərindən sonra regionun dirçəlişi və "Böyük qayıdış"ın təmin edilməsi ilə bağlı strateji yanaşmalar və prioritet vəzifələr əsas götürülməklə, 2030-cu ilədək fəaliyyətdə olan Məşğulluq Strategiyasının hədəfləri yenidən baxılmalı və təkmilləşdirilməlidir;

✓ 2030-cu ilədək olan milli prioritetlər üzrə hədəflər nəzərə alınmaqla, məcburi köçkünlərin məşğulluq problemlərinin həlli məsələlərinə yeni yanaşmalar təmin edilməli və bununla bağlı müvafiq mexanizmlər hazırlanmlı və tətbiq olunmalıdır;

✓ İşğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işlərində, dirçəliş və bərpa tədbirlərində məcburi köçkünlərdən ibarət işsiz mütəxəssislərin, işçi qüvvəsinin fəal cəlb edilməsinə dair müvafiq qanunvericilik aktı və ya dövlət başçısının fərmanı, sərəncamı ilə tənzimlənən müvafiq rəsmi sənədlərin hazırlanması, qəbul edilməsi və reallaşdırılması böyük səmərə verə bilər, bu halda məcburi köçkünlərin Qarabağ regionunda işlə təminatı məsələləri xeyli sürətləndirilmiş olar və böyük qayıdış proseslərinə müsbət təsir göstərər;

✓ İşsiz məcburi köçkünlərin vahid elektron bazasının yaradılması, təsnifləşdirilməsi, əmək bazarının tələblərinə uyğun modelləşdirilməsi, onların işədüzəlməsi ilə bağlı xüsusi proqram təminatının işlənib hazırlanması məqsədəuyğundur;

✓ Azərbaycan Respublikasında elektron dövlətin qurulması istiqamətində həyata keçirilən dövlət siyasətinə diqqət yetirsək, görərik ki, Azərbaycanda elektron dövlətin yaradılması «Elektron Azərbaycan" proqramı daxilində həyata keçirilir. Bu dövlət İdarəçiliyinin keyfiyyətinin artırılmasına yönəldilmişdir. Dövlətin praktiki idaraedilməsində innovativ metodların tətbiqi elektron hökumət texnologiyalarından istifadə etməklə həyata keçirilir [7].

İşğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd", "ağıllı şəhər", digər yüksək texnologiyaların tətbiqinin prioritetliyi nəzərə alınmaqla, işsiz məcburi köçkünlərin intellektual səviyyələrin artırılması, texnoloji yanaşmaların və biliklərin mənimsənilməsi, yüksək texnologiyalar əsaslı iş yerlərində hazırlıqlı olmaları üçün məqsədli kursların, təlim və treninqlərin təşkil olunması vacibdir;

**İstinadlar**


1. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası(2019-2030-cu illər)
2. http://www.president.az/articles/23979
3. Xəlilova V.Ə. "Əmək və sosial problemlər" elmi əsərlər toplusu. Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi, Bakı, 2016, № 1 (17), s.137-143.
4. Xəlilova V.Ə. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı:dünən,bu gün və sabah"Beynəlxalq elmi-praktik konfransın materi alları,"İDEALPRİNT"MMC Bakı,2019, s.238-243
5. Quliyeva N.Q, Xəlilova V.Ə."Əmək və Sosial Problemlər"elmi əsərlər toplusu, Bakı, 2017, №2(20)
6. Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin 2009-2015-ci illərin yekununa həsr edilmiş hesabatı: [Elektron resurs] / URL: www.refugees-idps-committee.gov.az/az/pages/26.html
7. Ofelya Mazanova, "Dövlət fəaliyyətində innovativ texnologiyaların inkişaf perspektivləri", Elektron dövlət qurulculuğu problemləri, 1 Respublika elmi-praktiki konfrans;, 2014, 28-30.

XUDİYEV Nizami

UNEC, i.e.d., professor

# QARABAĞ İQTİSADİ RAYONUNUN MALİYYƏ POTENSİALININ FORMALAŞMASININ SUBSTANTİV ELMİ-EMPİRİK SSENARİSİ

**Xülasə:** Empirik təhlil əsasında aparılmış tədqiqatda Qarabağ iqtisadi rayonunun müharibədən sonrakı dövrdə bərpası və davamlı inkişafı strategiyasının əsas konturları müəyyənləşdirilmiş, regionun artan maliyyə potensialının ehtimal proqnozları verilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, iqtisadiyyatın ənənəvi sahələri kənd təsərrüfatı, emaledici sənaye, yüngül, o cümlədən toxuculuq sənayesi, yeyinti-ərzaq istesalı, kənd təsərrüfatı maşınqayırması və cihazqayırma, tikinti sektoru, aktiv turizm, xidmət və əyləncə sektoru, sanatoriya-kurort müalicəsi və s. sahələrin inkişafı Qarabağ regionunun iqtisadi və maliyyə potensialının yüksəldilməsinin real maddi bazasına çevriləcəkdir.

**Açar sözlər:** Qarabağ iqtisadi rayonu, maliyyə potensialı, itirilmiş gəlirlər, bərpa və iqtisadi inkişaf.

→

## Giriş

Millətimizin möhkəm mənəvi iradəsi, birliyi, diriliyi və gücü hesabına qazanılmış böyük Qələbə millətimizə dərk edilmiş könüllü fədakarlıq və qurbanlar bahasına nəsib olmuşdur. Məhz buna görə səbirsizliklə gözlənilən və can fədakarlığı ilə qazanılan bu Qələbə Azərbaycan xalqı üçün müqəddəs, doğma və əzizdir. Baş vermiş triumfal zəfər şərəfinə hələ uzun illər möhtəşəm fikirlər söylənəcək, əsərlər yazılacaq, bədii kompozisiyalar bəstələnəcəkdir. Yağı düşmən və onun əli qanlı riyakar havadarları üzərində qazanılmış bu şanlı Qələbə, eyni zamanda təkcə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası prosesi kimi qavranılmayacaqdır. Bu zəfər, habelə xalqımızın mənəvi-əxlaqi, siyasi-təşkilati, milli bütövlük və saflıq identifikasiyasının özünəqayıdışının bir şəhadəti olacaqdır. Nəticə etibarı ilə bu o deməkdir ki, azərbaycanlıların bir millət kimi substantiv olaraq ruhən və cismən bütövləşməsi prosesi tam və qəti şəkildə başa çatacaqdır. Bu millət və onun qurduğu dövlət əbədidir – fikri bir daha təsdiqlənəcəkdir.

Millətimizin bu tarixi qələbəsində milli birlik, tarixi, mənəvi-əxlaqi ədalət hissi, haqqa olan sonsuz inam, gəncliyin milli sədaqəti, milli ordunun hərbi qüdrəti, şəhidlik zirvəsi, dost və qardaş dəstəyi- bir ruhi cövhər kimi qaynaqlanacaqdır. Qlobal miqyasda tarixi ədaləti təmin etmək iqtidarında olan bir millət, eyni zamanda bu işi, ölkə daxilində də onun bütün sferalarında – dövlət quruculuğunda, kadr və məmur keyfiyyətində, iqtisadiyyatda, təhsil və səhiyyə sistemində, ictimai həyatda - əmək kollektivlərində, konkret fərdlər arasındakı münasibətlərdə - bir toplum

olaraq təmin edə biləcəkdir. Bu baxımdan, şanlı zəfər tarixi yazan bir millət və dövlətin bilavasitə prinsipial idarəçiliyi və rəhbərliyi altında hərbi quruculuq işinin düzgün formalaşdırılması nəticəsində əldə olunan bu Qələbə, Azərbaycan dövlətinin və millətinin digər xarici və daxili fəaliyyət sahələrində də əldə edəcəyi möhtəşəm uğurların yeni başlanğıcı olacaqdır.

**Təhlil və qiymətləndirmə**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə formalaşdırılmış Qarabağ iqtisadi rayonu 2020-ci il Vətən müharibəsindən sonrakı dövrdə bərpa və quruculuq işlərinin möhtəşəm platsdarmına çevrilməkdədir. Müasir mərhələdə işğaldan azad olunmuş ərazilərdə infrastrukturun qurulması, tikinti abadlıq işlərinin görülməsi, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində yeni layihələr hazırlanması prosesi sürətlə getməkdədir. Bu baxımdan, Qarabağ Dirçəliş Fondunun yaradılması, Füzuli aeroportunun tikilməsi, Füzuli – Şuşa avtomobil yolunun çəkilməsi çox böyük önəm daşıyır. Qeyd edək ki, təkcə 2021- ci ildə dövlət büdcəsində Qarabağda quruculuq işlərinin aparılması üçün 2,2 mlrd. manat vəsait xərclənməsi proqnozlaşdırılaraq icra olunmaqdadır.

Apardığımız empirik ekstropolyasiya təhlili əsasında gəldiyimiz qənaət belədir ki, 2050-ci ilədək Qarabağ iqtisadi rayonunun maliyyə potensialının (regionun öz vəsaiti və cəlb edilmiş resurslarının məcmusu) ölkə üzrə maliyyə potensialının 30-40%-ni təşkil etməsi ehtimalı kifayət qədər realdır. Qeyri karbohidrogen ehtiyatları sektorunun dinamik artımı və iqtisadiyyatın şaxələndirilməsi prosesinin dərinləşməsi, bizə bu qənaətə gəlməyə əsas verir. Qeyd edək ki, təkcə Qarabağın Dağlıq bölgəsinə 1971-1985-ci illərdə, təqribən 96,6 mln. ABŞ dolları (483 mln. sovet rublu) sərmayə yatırılmışdır ki, bu da ildə orta hesabla 6,5 mln. dollar investisiya demək idi. Qarabağın Dağlıq bölgəsinin həmin dövrdə, onun aran bölgəsindən 0,7-0,8 dəfə üstün sürətlə inkişafını nəzərə alsaq, hətta Sovet dövründə belə Qarabağ iqtisadi rayonunun kifayət edici iqtisadi potensiala malik olmasını qeyd etməliyik. 30 illik işğal dövründə barbarcasına dağıdılmış bu potensialın bərpasına və tədrici inkişafına 2021-ci ildən etibarən start verilmişdir.

***Cədvəl 1.*** *Qarabağ iqtisadi rayonunun maliyyə potensialı, empirik proqnoz (2030-2050- ci illər, mlrd. ABŞ dolları)*

| | **2030-cu illər** | **2040 –cı illər** | **2050-ci illər** |
|---|---|---|---|
| Toplam maliyyə potensialı | 30-40 | 150-200 | 300-370 |
| o cümlədən: | | | |
| - öz vəsaiti | 10-15 | 50-80 | 100-110 |
| - cəlb edilmiş vəsaitlər | 20-25 | 100-120 | 200-260 |

***Mənbə:*** *müəllif hesablamaları əsasında tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, 2030-2050-ci illər ərzində Qarabağ iqtisadi rayonunun maliyyə potensialı 10 dəfədən də çox artacaqdır. Bu baxımdan Qarabağ əsrin ortalarına doğru nəinki ölkəmizin və Cənubi Qafqazın, eyni zamanda Trans İpək Yolu regionunun ən inkişaf etmiş bölgəsinə çevriləcəkdir.

Qeyd edək ki, işğaldan azad edilmiş Qarabağ iqtisadi rayonunun makro və mikro sosial-iqtisadi və maliyyə potensialının artırılması istiqamətləri, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı əsasında qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də tapmışdır. Milli Prioritetlərə istinad edərək qarşıdakı onillikdə ölkənin sabit və dayanıqlı inkişafında müəyyən olunmuş aşağıdakı beş milli fundamental vəzifənin yerinə yetirilməsi ölkəmizin qarşısında duran taleyüklü prioritet kimi qəbul olunmuşdur: a) dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; b)dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; c) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; d)işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; e) "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Milli Prioritetlərin məhz, dördüncü istiqaməti işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın sosial-iqtisadi, təşkilati-maliyyə və hüquqi-praktiki əsaslarını özündə ehtiva edir. Apardığımız

empirik nəzəri-substantiv təhlil bizə onu deməyə elmi əsas verir ki, regionun bərpası və gələcək inkişafı məhz dövlətimizin iqtisadi və maliyyə resursları hesabına reallaşdırılacaqdır ki , bunda da mərkəzləşdirilmiş büdcə sistemi vəsaitlərinin müstəsna rolu olacaqdır.

Apardığımız iqtisadi təhlil nəticəsində işğaldan azad olunmuş rayonlarda artıq müəyyən gəlirlər bazasının yaradılması prosesinin dinamikasını görə bilirik. Belə ki təkcə, 2021-ci il büdcəsində Qarabağ iqtisadi rayonunun bir çox bölgələri üzrə yerli xərclərini hələ ödəyə bilməməsinə baxmayaraq stabil müəyyən yerli gəlirlərin formalaşdığını görə bilərik.

***Cədvəl 2.*** *Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş bəzi bölgələrinin gəlir və xərcləri (2021-ci il, min manat)*

| Rayonlar | Yerli gəlirlər | Yerli xərclər | Yerli gəlir və xərcləri tarazlaşdirmaq üçün mərkəzləşdirilmiş xərclərdən ayırmalar |
|---|---|---|---|
| Ağdam | 5 385 | 10 425 | 5 075 |
| Cəbrayıl | 998 | 3 669 | 2 687 |
| Füzuli | 7 966 | 10 351 | 2 402 |
| Kəlbəcər | 1 300 | 4 989 | 3 693 |
| Qubadlı | 3 417 | 3 413 | - |
| Laçın | 2 420 | 5 459 | 3 114 |
| Zəngilan | 1 631 | 2 855 | 1 227 |

***Mənbə:*** *Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında qanun*

Fikrimizcə, müəyyən mənada, məhz bu gəlirləri, yaxın perspektivdə Qarabağ regionuna axıdılacaq milyardlarla dollarlıq daxili və xarici maliyyə axınlarının simvolik başlanğıcı da hesab edə bilərik.

Apardığımız empirik təhlil nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, işğal olunmuş ərazilərdə faktiki işğal müddəti ərzində (1988-2020-ci illər) itirilmiş yerli və mərkəzləşdirilmiş büdcə sistemi gəlirlərinin təqribi multiplikativ məbləği 40-50 milyard manat civarında olması ehtimalı kifayət qədər real görünür. Təhlil göstərdi ki, bu məbləğin müəyyən edilməsi üçün Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik situasiya, məhsuldar qüvvələrin yerləşdirilməsi səviyyəsi, sahibkarlıq strukturlarının sayı və dinamikası, kənd təsərrüfatı müəssisələrinin inkişafı tendensiyası və s. nəzərə alınmaqla yaradıla biləcək ÜDM-in həcminin tapılması işi ilk növbədə həyata keçirilməlidir. ÜDM-in proqnozlaşdırılan həcmi tapıldıqdan sonra həmin ərazilər üzrə 30 illik orta vergi yükü səviyyəsi tapılmalı və bu əsasda korrelyasiya üsulu ilə Azərbaycan Respublikasının dövlət büdcə sisteminin əldə edə bilmədiyi daxilolmalarının məbləğini təqribi və ehtimal həcmini müəyyən edə bilərik.

Tədqiqatın sonrakı mərhələsində daxilolmaların analitik və diferensial təhlilini davam etdirərək, yəni, fiziki şəxslərin gəlir vergisi üzrə itkiləri, mənfəət vergisi üzrə itkiləri, torpaq vergisi üzrə itkiləri, əmlak vergisi üzrə itkiləri, sosial sığortaya ayırmalar üzrə itkiləri ayrı- ayrılıqda hesablayıb əldə edəcəyimiz ehtimal rəqəmi daha da dəqiqləşdirə bilərik. Tədqiqatı müqayisəli “analoq” metodu ilə zənginləşdirib, biz eyni zamanda, Qarabağ iqtisadi bölgəsinin iqtisadiyyatına yaxın ərazilər üzrə (məsələn, Bərdə, Tərtər, Ağcabədi və s.) rayonların 1990-2020-ci illər ərzindəki inkişaf və iqtisadi artım sürətinə əsaslanmaqla faktiki orta dinamik sürəti Qarabağ bölgəsinə tətbiq etmək olar. Bu yolla Qarabağ rayonlarının inkişaf istiqamətlərini də dəqiqləşdirə bilərik. Bizcə, məhz bu istiqamətdə tədqiqatların aparılması büdcə daxilolmalarının azalması məbləğinin daha da dəqiq müəyyən edilməsinə əsas verə bilər. Digər tərəfdən, bu işdə regionun təbii ehtiyatları, mövcud olmuş və dağıdılmış potensial maddi texniki bazası da diqqətdən yayınmamalıdır.

**Nəticə**

Azərbaycan iqtisadiyyatının ənənəvi və qeyri-ənənəvi sahələrinin müvazinətli və dinamik inkişafı fonunda tərəqqi edən Qarabağ iqtisadi rayonunun əsrin ortalarına doğru bütün Qafqa-

zın mini "İsveçrəsinə" çevrilməsi proqnozunu tamamilə real hesab edirik. Onlarla yerli və xarici banklar və filialları, sığorta və broker şirkətləri, investisiya fondları və maliyyə qurumları, nəqliyyat və turizm şirkətləri – bütün bunlar nəhəng infrastruktur konqlomeratın fundamental əsaslarını formalaşdıracaqdır. Logistik kommunikasiya əlaqələri, böyük nəqliyyat – avtomobil, dəmiryolu və hava dəhlizləri nəhəng kapital axınlarına şərait yaradacaqdır.

İqtisadiyyatın ənənəvi sahələri kənd təsərrüfatı, emaledici sənaye, yüngül, o cümlədən toxuculuq sənayesi, yeyinti-ərzaq istehsalı, kənd təsərrüfatı maşınqayırması və cihazqayırma, tikinti sektoru, aktiv turizm, xidmət və əyləncə sektoru, sanatoriya-kurort müalicəsi və s. sahələrin inkişafı Qarabağ regionunun iqtisadi və maliyyə potensialının yüksəldilməsinin real maddi bazasına çevriləcəkdir.

## İstinadlar


1. Qarabağ Dirçəliş Fondunun yaradılması haqqında AR Prezidentinin 04 yanvar 2021-ci il tarixli fərmanı.
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlət" haqqında AR Prezidentinin 02 fevral 2021- ci il tarixli sərəncamı.
3. Sadıqov M.M. Maliyyə potensialı: formalaşması və aqrar sahənin prioritetliyi. Bakı. 2009.
4. Musayev A., Zeynalov M. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir. AMEA-nın saytı. 27.01.2021.
5. AR 2021- il dövlət büdcəsi haqqında qanun. www/ maliyye. qov. az saytı.
6. AR Dövlət Statistika komitəsinin məlumatları.

**İBRAHİMOV Elşən**

Azərbaycan Kooperasiya Universiteti, i.f.d., dosent

# AĞDAM RAYONUNUN İQTİSADİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə:** Tarixən iqtisadi potensialı kənd təsərrüfatı və bir çox sənaye məhsullarının istehsalı ilə tanınan Qarabağ iqtisadi rayonu üzrə Ağdam rayonunun sosial-iqtisadi inkişafı mühüm əhəmiyyət kəsb edir. Məqalədə Ağdam rayonunun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı məsələlər, mövcud iqtisadi potensialı və ticarətin inkişafının əsas istiqamətləri təhlil edilmişdir. Burada Ağdam rayonunun 1970-1987-ci illər üzrə ticarət dövriyyəsi təhlil edilərək qiymətləndirilmiş və qeyri-neft məhsullarının pərakəndə ticarət dövriyyəsi ilə sənaye məhsulu arasında korrelyasiya-reqressiya əlaqəsi müəyyən edilmişdir.

**Açar sözlər:** Ağdam rayonu, iqtisadi potensial, qiymətləndirmə, korrelyasiya, reqressiya, dövriyyə və s.

→

## Giriş

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin strateji rəhbərliyi ilə Dağlıq Qarabağ və digər işğal olunmuş Azərbaycan ərazilərinin Ermənistanın əsarətindən azad edilməsi respublikamızın dünya dövlətləri arasında nüfuzunun daha da artması ilə bərabər. ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə həyata keçirilən ən mühüm tədbirlərdən biri kimi regionların sosial-iqtisadi inkişafına istiqamətlənən layihələrin həyata keçirilməsi milli iqtisadiyyatın rəqabət qabiliyyətini daha da artıraraq, davamlı və yüksək iqtisadi artımın təmin edilməsini şərtləndirməklə ölkəmizdə dinamik və inklüziv cəmiyyətin formalaşmasına öz töhfəsini verəcəkdir. Bu baxımdan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 oktyabr 2021-ci il tarixli sərəncamına əsasən ölkənin sosial-iqtisadi inkişafına dair Milli Prioritetin reallaşdırılması üzrə işğaldan azad olunmuş ərazilərə böyük qayıdış proqramı mühüm əhəmiyyət kəsb edir [4]. Bu proqram əsasən vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilər üzrə məskunlaşması və həmin ərazilərin iqtisadi fəaliyyətinin bərpasına istiqamətlənmişdir.

### Sovetlər dövründə Ağdam iqtisadiyyatı

Qeyd edək ki, 1987-ci ildə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində 97,4 min ton taxıl istehsal edilmişdir. Bu taxılın 3000 tonu Laçın, 1000 tonu Kəlbəcər, 30100 tonu Ağdam, 31900 tonu Füzuli, 2010 tonu Cəbrayıl, 6700 tonu Qubadlı və 4600 tonu Zəngilan rayonunda istehsal edilmişdir. Ağdam rayonu tarixən inkişaf etmiş kənd təsərrüfatı və sənayenin ağır, yeyinti

və yüngül sahələri ilə tanınmışdır. İşğaldan əvvəlki dövrdə 36 min əhalisi olan Ağdam rayonunun mərkəzi sahəsi 700-800 hektar olmuşdur. 71 kəndi, 1700 hektar meşə ərazisi və 91,3 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi ilə zəngin olan Ağdam rayonunda, kənd təsərrüfatında heyvandarlıq məhsulları, tərəvəz, dənli bitkilər, şəkər çuğunduru, pambıq, üzüm, meyvə və giləmeyvə, günəbaxan, kartof və bostan məhsulları istehsal edilirdi [2,5]. Ağdam rayonunda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları emalı ilə bağlı müəssisələrin sayı digər rayonlarla nisbətən daha çox idi [2]. Bu iqtisadi potensial Ağdam rayonunun SSRİ dövründə ticarət dövriyyəsinin digər rayonlarla müqayisədə yüksək olması ilə nəticələnmişdir. Aşağıdakı qrafikdə Ağdam rayonunun 1970-1987-ci illər üzrə ticarət dövriyyəsi üzrə göstəriciləri əks edilmişdir [2].

*Qrafik 1. Ağdam rayonunun ticarət dövriyyəsi (1970-1987-ci illər, mln..rubl)*




**Mənbə.(2)** məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, Ağdam rayonunun iqtisadiyyatda ticarət dövriyyəsi keçmiş SSRİ dövründə artan dinamika ilə inkişaf etmişdir. Belə ki, 1970-ci ildə ticarət dövriyyəsi 24,9 milyon rubl olsa da, sonrakı illərdə bu artaraq 1987-ci ildə 84,5 milyon rubl olmuşdur ki, bu da 1970-ci illə müqayisədə 3,4 dəfə çoxdur. Keçmiş SSRİ dövründə kənd təsərrüfatı ilə bərabər sənayenin bütün sahələri üzrə inkişaf edən Ağdam rayonunun sosial-iqtisadi layihələrində də, bir çox yeni sahələrin və ənənəvi sahələrin inkişafı nəzərə alınmaqla, keçmiş SSRİ-nin statistikası da daxil olmaqla, bölgənin mövcud potensialından səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir.

## İşğaldan azad edilmiş Ağdam

2021-ci ilin 28 may tarixində Azərbaycan Respublikasının Prezident İlham Əliyevin Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimindəki çıxışında Ağdam rayonunun inkişafının xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi. Qeyd etmək lazımdır ki, Ağdamda həyata keçiriləcək infrastruktur layihələr üzrə Ağdamın mərkəzinin 100 min əhali üçün planlaşdırılması, işğaldan əvvəlki 700-800 hektardan 1700 hektara çatdırılması, rayon mərkəzinə yaxın ərazilərdə yerləşmiş 8 kəndin Ağdam şəhərinə birləşdirilməsi, əhali üzrə adambaşına 25 sot əkin, kəndlərdə ailə başına 18 sot torpaq sahələrinin ayrılması, 23 mindən çox mənzil tikintisi və s. kimi planda nəzərdə tutulan sosial-iqtisadi xarakterli tədbirlərin həyata keçirilməsi, rayonun iqtisadi potensialının mənimsənilməsi bölgə üzrə investisiya cəlbediciliyini artıraraq iqtisadi artımı stimullaşdıracaqdır. Qeyd etmək lazımdır ki, Ağdam rayonunda pərakəndə ticarət dövriyyəsində qeyri-neft məhsullarının həcmi artan dinamika ilə inkişaf edir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

*Qrafik 2. Ağdam rayonunun ticarət dövriyyəsi üzrə qeyri-neft məhsullarının həcmi (2010-2019-ci illər, mln manat)*




***Mənbə:* (3)** *məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən göründüyü kimi Ağdam rayonunda pərakəndə ticarət dövriyyəsində qeyri-neft məhsullarının həcmi 2010-2020-ci illər üzrə artan dinamika ilə inkişaf etmişdir. Bu inkişaf Zəngəzur dəhlizinin bərpa edilərək istifadəyə verilməsi ilə əlaqədar olaraq daha da artacaqdır. Əsasən Ağdam rayonunda pərakəndə ticarət dövriyyəsində qeyri-neft məhsullarının həcmi ilə sənaye məhsullarının həcmi arasında da sıx əlaqə vardır.

**Nəticə**

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Ağdamın sosial-iqtisadi potensialının yüksəldilməsi üzrə nəzərdə tutulan proqram layihələrində Ağdamın sənayenin bütün sahələri və kənd təsərrüfatı üzrə ənənəvi sahələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Qarabağın işğaldan azad edilməsi ilə nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi Ağdam rayonunun iqtisadi potensialını daha da artıracaqdır.

**İstinadlar**


1. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika.  Bakı-2020. 352  səh.
2. Народное хозяйство Азербайджанской ССР в 1987 г. Статистический ежогодник-Б, Азернешр,1988-323с.
3. http://www.stat.gov.az/
4. https://apa.az/az/xeber/maliyye/Agdamin-isgaldan-azad-edilmsi-yeni-iqtisadi-tsbbuslri-canlandirir-615990
5. Зейналов З.А. «Стальной магистрали Азербайджана 100 лет» Баку, 1980.

İBRAHİMOV Rövşən

Regionşünaslıq üzrə Hanquk Universiteti Prof. Dr.

# AĞDAMDA “AĞILLI ŞƏHƏR” QURUCULUĞU VƏ KOREYA TƏCRÜBƏSİ

**Xülasə:** Azərbaycan 44 günlük müharibə nəticəsində qazandığı qələbə sonrası azad etdiyi ərazilər üzərində dərhal geniş çaplı yenidənqurma layihələrə başlamışdır. Bunların arasında, birinci növbədə bərpa olunacaq şəhərlərin arasında Ağdam şəhəri yer almaqdadır. Ağdam şəhəri Sovet vaxtlarında da Azərbaycanın əhəmiyyətli iqtisadi mərkəzlərindən biri olmuşdu. Burada kifayət qədər inkişaf etmiş sənaye və kənd təsərrüfatı mövcud idi. Bu aspektdə məqalədə “ağıllı şəhər” kontekstində bir sıra məsələlər araşdırılmışdır.

**Açar sözlər:** Azərbaycan, Ağdam, “ağıllı şəhər”, konsepsiya, şəhər, nəqliyyat vasitələri və s.

→

## Giriş

Yeni layihələrə əsasən, Ağdam Azərbaycanın əhalisinə görə dördüncü şəhəri (burada 100 minə yaxın əhalinin yaşayacağı təxmin edilir) olacaqdır. Şəhər post-modern cəmiyyətin tələblərinə əsasən, “ağıllı şəhər” konsepsiyası çərçivəsində qurulacaqdır. Bu konsepsiya dünyada yenidir və 21-ci əsrdə, insanlığın əldə etdiyi nailiyyətlərin cəminin məhsulu kimi meydana gəlmişdir. Həmin konsepsiya, bərpa olunan mənbələrin geniş istifadəsini, tullantıların minimumlaşdırılması və sürdürülə bilir iqtisadi əsaslara dayanmaqdadır. Bununla əlaqəli, BMT-nın “Ağıllı dayanıqlı şəhər fəaliyyət planı-inkişafı üçün rəhbər qaydalar”(1) adlı tədqiqatı hazırlanıb, təqdim olunmuşdur. Burada ən önəmli vurğu, “Ağıllı şəhər”lərin dayanıqlı inkişafa əsaslanaraq qurulmasına yönəlmişdir. Çünki, belə olmadığı təqdirdə, sistem işləyə bilməz.

Azərbaycan üçün də eyni zamanda bu konsepsiya yeni bir anlayışdır və yeni bir təşəbbüs olduğuna görə, dünyada belə növ təcrübələri təhlil etmək son dərəcə böyük əhəmiyyət kəsb edir. Belə edildiyi halda, aparıcı təcrübələrdən müsbət tərəflərindən yararlanmaq mümkündür, eyni zamanda qarşılaşdığı problemləri öyrənərək, onları təkrarlamamaq üçün gözəl imkanlar yaradılır.

Bu növ təcrübələrdən biri də, Cənubi Koreyada Sonqdo şəhəridir. Şəhər 2002-ci ildə salınıb və inşaatına başlanılıb. Tam adı ilə isə, Sonqdo Beynəlxalq Biznes Bölgəsidir (Songdo International Business District). Sonqdo, on illiyi əhatə edən və təxminən 40 milyard dollara inşası nəzərdə tutulan yeni bir yaşayış və biznes məskənidir. Şəhər 600 hektarlıq ərazi üzərində Sarı dənizin sahilində qurulmuşdur. Sonqdonun əhəmiyyəti ondan ibarətdir ki, o həm də dünyanın ilk “ağıllı şəhəri” kimi təqdim olunur. Bütün “ağıllı şəhərlərdən” gözlənildiyi kimi, Sonqdo şəhərinin əsas konsepsiyası ətraf mühitin qorunması, maksimum dərəcədə yaşıllaşdırmanın təmini və texnoloji infrastrukturundan yararlanmasıdır. Ağdamda da, nəzərdə tutulduğu kimi, şəhərdə geniş

yaşıl sahələrin quraşdırılması nəzərdə tutulmuşdu. Belə ki, ənənəvi şəhərlərdə böyük sıxlıq və tikintilərin çoxluğu nəzərən, həmin konsepsiya insanlar üçün daha cazibəli olacaq düşünülmüşdü. Şəhər ərazisinin təxmini 40%-i yaşıl sahəsi kimi nəzərdə tutulmuşdur. Bu planlaşdırma yanaşmasının misalı, Sonqdo sakinləri və Seuldan gələn turistlər arasında populyar olan 40 hektar ölçüsündə olan Mərkəzi Parkdır. Şəhərin qalan hissəsi kimi, bu park da suvarma üçün yağış sularını toplayan və saxlayan yeraltı su sisteminə malikdir.

Görüldüyü kimi, həmin layihəyə əsasən şəhər sakinləri üçün əsl cənnətə çevirilməli idi. Sonqdoda tətbiq edilməsi planlaşdırılan texnologiyalar arasında küçələrdəki interaktiv panellər vasitəsi ilə şəhər daxilində evlərdə olan məişət cihazlarını uzaqdan idarə etmək imkanı, uzaqdan idarə olunan giriş qapıları, mənzillərin avtomatik təmizlənməsi üçün xüsusi pnevmatik avadanlıqların quruluşu təmin edilməkdədir.

Cənubi Koreya artıq cəmiyyət və iqtisadiyyat cəhətindən post-modern cəmiyyət mərhələsinə keçid etdiyinə görə, bu növ yeni mentalitet və yanaşmanı tələb edən gələcək üçün layihəni həyata keçirmişdi. Sonqdo Koreyanın paytaxtı Seulun (cəmi 40 km məsafədə yerləşir, yani nəqliyyatla orta sürətlə bir saatlıq yol məsafəsində) və ikinci böyük şəhəri olan İnçonun (12 km) yaxınlığında qurulmuşdu və burada həm yaşayış, həm də iş şəraiti geniş şəkildə tərtiblənmişdir.

Qeyd eləmək lazımdır ki, Sonqdo şəhəri, İnçon Azad İqtisadi Zonasında yerləşir. İnçon şəhərində Koreyanın ən böyük eyni adlı beynəlxalq hava limanı yerləşir. Eyni zamanda, həmin şəhərlər inkişaf etmiş yeraltı və yerüstü metro şəbəkəsi ilə birləşdirilməkdədir. Koreyada hər növ nəqliyyat sistemi olduqca inkişaf etmişdir və onu istifadə etməkdə çətinliklər yaranmır. Yəni, Sonqdo ilə böyük şəhərlər arasında olduqca rahat və müxtəlif nəqliyyat sistemləri mövcuddur. Bunların olmasına baxmayaraq, yaxın gələcəkdə Seuldan Songdoya yüksək sürətli yeraltı dəmir yolu tikiləcək, hansı ki, iki şəhər arasındakı səyahət müddətini 30 dəqiqədən də aza endirə bilər.

Bütün bunlarla yanaşı Sonqdoda məskunlaşma problemi yaşanmaqdadır. Koreyada urbanizasiya səviyyəsi 94% olmasına (müqayisə üçün Azərbaycanda şəhər əhalisinin payı cəmi 53% təşkil edir) baxmayaraq, Sonqdoda məskunlaşmada müəyyən problemlər yaşanırdı. Baxmayaraq ki, Koreya iqtisadiyyatı və cəmiyyəti artıq post-modern cəmiyyət mərhələsindədir və bu konsepsiya onlar üçün anlaşılandır. Həm də, nəzərə alsaq ki, Sonqdo şəhəri Seula və İnçondan heç də uzaq yerləşmir.

Cənubi Koreyanın utopiyası da adlanan Sonqdo, 300 minlik əhalinin yaşayacağı şəhər kimi nəzərdə tutulmuşdu (yada salaq ki, Ağdam şəhərində 100 min nəfər yaşayacağı düşünülür). Bu, Koreya ölçülərində elə də böyük şəhər deyil. Misal üçün, paytaxt Seulda 9 milyon 750 min, İnçonda-3 milyon, Seulun digər bir peyk şəhəri və Sonqdondan uzaqda olmayan Suvon şəhərində-1 milyon 200 min nəfər yaşayır. Belə olduğu halda belə, bu şəhəri məskunlaşdırmada problemlər yaşanır. Şəhər hələ də tam potensial əhalisinə çatmayıb və bir çox evlər və iş yerləri boş durur. Belə ki, 2021-ci ildə Sonqdoda cəmi 184 000 sakin var idi. Başqa mənbələrə görə, həmin rəqəm daha da azdır.

O demək deyil ki, Sonqdo da iş yerləri və imkanları yoxdur, əksinə həmin şəhərdə yeni iş yerləri açılmaqdadır. Amma belə olsa da, Seulda, İnçonda və Suvonda işləyən insanlar da, Sonqdoda yaşamağa can atmırlar. İşin paradoks tərəfi həm də ondan ibarətdir ki, Sonqdoda evlərin qiyməti, Seuldan qat-qat daha ucuzdur. Belə ki, avqust ayı 2021-ci ili üçün, Sonqdoda evin bir kvadrat metrin qiyməti 12.09 million Koreya vonu olduğu halda, ($10.359), Seulun mərkəzində bu qiymət 21.88 milyon Koreya vonu ($ 18.747) təşkil edirdi.(2)

Ekoloji cəhətdən təmiz bölgədə, böyük şəhərlərin yanında və inkişaf etmiş nəqliyyat sisteminə sahib olan Sonqdo, hal-hazırda əhali cəhətindən tam potensialına çata bilməmişdir. Əsas etibarı ilə, görüldüyü kimi problem iqtisadi deyil, daha çox psixoloji-sosial xarakter daşıyır. Koreyada insanlar Seulda və Seula yaxın bölgələrdə yaşamağa öyrəşiblər. Sonqdo hələ ki, "Seula yaxın bölgədə yerləşən şəhər" kimi Koreyalılar tərəfindən qəbul edilmir. Belə ki, bu yazını hazırladığım vaxt, bir sıra Koreyalıdan: "Sonqdoda yaşamaq istəyərsənmi" sualına cavab olaraq: "Uzaqdır" demişdi.

Bənzər psixoloji-sosial həqiqəti qəbul etmək xüsusiyyəti Azərbaycanda da mövcuddur. Belə ki,

Azərbaycanda əsas əhali Bakı və Abşeron yarımadasında və burada yerləşən şəhərlərdə məskunlaşıb. Belə olduğu halda, Ağdam da, Sonqdonun qarşılaşdığı problemlə üzləşə bilər. Həm də Ağdam ilə Bakı arasında məsafə daha uzundur. Düz xətt üzərində 266 km olduğu halda, avtomobil yollarını nəzərə alsaq bu 448 km təşkil edir. Avtomobil ilə ortalama 80 km sürətlə, bu təxmini 5 saat yarımdan çox vaxt təşkil edir. Eyni zamanda, hal hazırda Bərdə şəhərindən Ağdama dəmiryolu tikilir. O dəmiryolu tikiləndən sonra, qatar həmin məsafəni ortalama 3 saat 50 dəqiqəyə keçəcək. Yəni, misal üçün Bakıda iş sahibi olan Ağdamlılar, Ağdama yaşayış üçün keçmələri qeyri-mümkün olacaqdır. Hətta, onlara eyni kateqoriyadan iş və maaş təklif olunduğu halda belə, bəzilərin tam qayıdışa razı olmaya bilər. Diqqəti cəlb edən önəmli xüsusiyyətlərdən biri də, Ağdam 100 min adamın yaşayacağı şəhər kimi nəzərdə tutulmasıdır. Halbuki, münaqişədən öncə həmin şəhərdə daha az insan yaşayırdı.

Qeyd eləmək lazımdır ki, Sonqdonun əhalisinin müəyyən bir hissəsini tələbələr və professorlar təşkil edir. Belə ki, Sonqdoda Koreyanın və dünyanın bir sıra məşhur universitetlərin filialları fəaliyyət göstərir. Misal üçün burada, Yonsei Universitetinin beynəlxalq şəhərciyi, Nyu-York Dövlət Universitetinin Koreya beynəlxalq şəhərciyi və İncheon Qlobal beynəlxalq şəhərciyi fəaliyyət göstərir. Ağdamda da Qarabağ Universitetinin qurulması nəzərdə tutulub. Bu universitet məskunlaşmya öz töhfəsini verəcəkdir. Lakin burada onun böyüklüyü və inşasının nə zaman tamamlanacağı böyük əhəmiyyət daşıyır. Ayrıca, təhsilin keyfiyyəti və ona qarşı ölkə daxili və xarici tələbələrin marağı nə dərəcədə olacağı da son dərəcə əhəmiyyətli amildir. Ola bilsin ki, Ağdam kimi şəhərin məskunlaşdırılması və beynəlxalq səviyyəyə çatdırılması üçün bir yerli universitetin qurulması kifayət etməyə bilər. O zaman dünyada təhsil keyfiyyəti ilə məşhur olan hər hansı universitetin burada filialını açması yerinə düşə bilərdi.

Məskunlaşma problemləri ilə yanaşı, Sonqdoda nəzərdə tutulan və qurulan infrastruktur da müəyyən dərəcədə fəaliyyətsiz qalıb. Bütün şəhəri əhatə edən velosiped yolları az saylı istifadəçidən xaric, demək olar ki gözlənildiyi kimi geniş şəkildə istifadə olunmur. Burada yaşayan əhali hələ də avtomobillərdən istifadə etməyə üstünlük verir. Halbuki, plana əsasən Sonqdoda yaşayacaq əhali əsasən velosipedlərdən və ictimai nəqliyyatdan istifadə etməli idi.

Bu məsələyə əslində xüsusi diqqət yetirilməlidir, çünki həmin problem Ağdamda da yaşana bilər. Belə ki, Koreyada velosipedlərdən və ictimai nəqliyyatdan istifadə ənənəsi geniş olaraq inkişaf edib. Avtobus və metro nəqliyyatı tamamilə proqramlaşdırılmışdır. Belə olduqda, sərnişinlər, nəqliyyatın gəlmə vaxtını, boş yerlərin mövcudluğu və digər lazım olan məlumatları telefona yüklədikləri proqramlardan asanlıqla öyrənə bilirlər. Azərbaycanda bu növ sistem hələ ki yoxdur. Bunun xaricində, bütün şəhərlərdə velosiped dayanacaqları vardır. Həmin dayanacaqlardan, xüsusi telefon proqramından istifadə edərək, velosiped sifarişi etmək mümkündür və bunu heç bir vasitəçi olmadan edilir.

Koreyada bu sistemlər və ənənələr olduğu halda, Sonqdo yenə də ekoloji təmiz nəqliyyatdan istifadəsində müəyyən problemlər yaşayır. Halbuki, Azərbaycanda velosipeddən istifadəetmə dərəcəsi Koreyadan qat-qat aşağıdır, eyni zamanda ictimai nəqliyyatı yox, şəxsi avtomobillərdən istifadəyə üstünlük verilir. Əlavə etməli olacaq məqam isə ondan ibarətdir ki, Ağdama dönəcək əhalinin böyük hissəsi ənənəvi və ya modern cəmiyyətə məxsusdur: aralarında post-modern cəmiyyətə aid olacaq hissə çox balacadır. Ona görə də, Ağdama dönəcəkləri vəziyyətdə yeni üslub yaşayışdan daha çox, ənənəvi öyrəşdikləri şəkildə yaşamaq istəyəcəklər.

Belə olduğu halda, özəl nəqliyyat vasitələrindən istifadə etmək istəyəcək əhali, ətraf mühitə ciddi zərər gətirə bilər. Belə ki, Azərbaycanda istifadə edilən özəl avtomobillərin böyük hissəsi ortalama yaşı 10 ili keçmişdi, bir çoxunun da 20-25 yaşı vardır. Bu vəziyyət xüsusən Azərbaycanın rayonlarında daha çox müşahidə olunur.

Bir digər ciddi problem, ekoloji cəhətdən yararlı hesab olunan elektromobillər və hibrid avtomobillərlə bağlıdır. Bu avtomobillər Azərbaycanda nə istehsal olunur, nə də ki, kifayət qədər idxal olunur. Belə ki, statistikaya görə, 2018-ci ildə 146 ədəd, 2019-cu ildə 3645-ə, 2020-ci ildə 5080 ədəd, 2021-ci ildə isə, ilin ilk 7 ayı ərzində 5 min 879 ədəd hibrid avtomobili gətirilib. Hibrid avtomobillərin idxalı artsa da, bu yenə də kifayət etmir. Misal üçün 2021-ci ilin ilk 7 ayında ümumi olaraq 47 min 374 avtomobil idxal olunub (3). Yəni, hibrid maşınların payı olduqca aşağıdır.

Elektromobillərə gəlincə, vəziyyət daha da acınacaqlıdır. Belə ki, 2021-ci ilin ilk altı ayında ölkəyə cəmi 167 elektrikli avtomobil gətirilib. Müqayisə üçün, Norveçdə 2020-ci ildə satılan avtomobillərin 54,4 % elektromobil olub. Azərbaycanda isə ötən il bu rəqəm ancaq 0,3 % təşkil edib(4). Azərbaycanda həmin sektorun inkişafı üçün ayrıca maneə olan amillər arasında, elektrik və hibrid avtomobillərin ölkəyə gətirilməsinə təşviq etmək üçün proqramların olmaması, həm də elektromobillər üçün elektrik doldurma stansiyaların, təmir məntəqələrin inkişaf etməməsidir.

Ənənəvi avtomobillərin ətraf mühiti çirkləndirməsinin yüksək olması və ölkəyə əsasən ikinci əl maşınların gətirilməsi ilə yanaşı, ölkədə hələ də Aİ-95 və Aİ-98 markalı keyfiyyətli yanacağın istehsalının olunmamasıdır. Həmin yanacaq tamamı ilə idxal olunur. Düzdür, Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan modernizasiya nəticəsində 2022-ci ildən sonra zavodda Aİ-95 benzinin istehsalı nəzərdə tutulur. Amma hələ ki, 2021-ci ilin birinci rübündə Azərbaycana gətirilən benzinin əsas hissəsini Aİ-95 («Premium») markalı avtomobil benzini təşkil edib. Ölkəyə 16,781 milyon dollarlıq 26 277,71 ton Aİ-95 benzinindən gətirilib. Eyni vaxtda, Azərbaycana Rumıniyadan 562,73 min dollarlıq 718,75 ton Aİ-98 benzini idxal olunub (5). Rəqəmlərdən də görüldüyü kimi, bu marka benzinlərin Azərbaycanda istifadəsi olduqca azdır.

**Nəticə**

Ümumi olaraq, gələcəkdə “yaşıl şəhər” ekoloji konsepsiyasını həyata keçirmək və problemlərlə üzləşməmək üçün, indidən kompleks tədbirlər həyata keçirilməlidir. Misal üçün, yaşı 10-15-i ötən avtomobillərin yerinə, ən azı yerli istehsal avtomobillərin dövlətin köməyi ilə güzəştli ya da kredit əsasında alışını təşviq etmək, elektromobillərin və hibrid avtomobillərin ölkəyə gətirilməsində gömrük güzəştləri tətbiq etmək, bu maşınlar üçün Qarabağda daxili və xarici infrastrukturu lazımi səviyyədə inkişaf etdirmək.

Sonqdonun qarşılaşdığı bir digər problem isə, bütün şəhəri birləşdirən mərkəzdən zibil toplama sistemi də ideal şəkildə çalışmamasıdır. Çünki, şəhər hələ də tam potensialına gəlib çatmayıb. Plana görə, toplanılan zibil ayrılaraq, xüsusi borular vasitəsilə, birbaşa zibil toplama məntəqəsinə çatdırılmalıdır, burada bu zibilin 99 %-i yenidən istehsal üçün yararlı olan hissəsi sənayedə və kənd təsərrüfatında istifadə olunmalıdır, qalan hissəsi isə şəhərin tələbini qarşılamaq üçün elektrik istehsalına yönləndirilməliydi. Onu qeyd eləmək lazımdır ki, Koreyada zibil ayrılma mərhələsi əhali tərəfindən həyata keçirilir. Ümumi olaraq zibillər bir neçə kateqoriyaya görə ayrılır: dəmir, şüşə, kağız, vinil, plastmas, qida qalıqları və digər növ zibillər. Hər bir növ zibil üçün ayrı-ayrı konteynerlər quraşdırılıb və əhali hökmən zibilləri bu sistemə görə ayırıb atmalıdır. Buna riayət etməyən hər kimsə ciddi cərimələrə məruz qalır. Əsas etibarı ilə, zibil konteynerlərin yanında kameralar quraşdırılıb və həmin kameralarla zibilləri düzgün atmayanları müəyyən edilməyə çalışırlar.

Eyni zamanda, qida məhsulları tullantıları və digər növ zibillər üçün, bələdiyyələr tərəfindən xüsusi paketlər satılır. Bu növ zibilləri ancaq həmin paketlərə atmaq icazə verilir. Həmin proses, bələdiyyələr tərəfindən zibillərin yığımı üçün nəzərdə tutulan vergilərin toplamağa kömək edir, çünki zibil vergisi həmin paketlərin qiymətinə daxildir.

Azərbaycanda zibillərin ayrılması yeni bir hadisədir və pilot səviyyəsində Bakının ancaq bir neçə rayonlarında tətbiq olunur. Qeyd etmək lazımdır ki, bu məsələdə hələ ki, istənilən nəticələr əldə olunmayıb. Lakin, “ağıllı şəhər” konsepsiyanın ən önəmli xüsusiyyətlərindən biri də, tullantıların idarə olunmasıdır. Böyük ehtimal ki, Ağdamın özünün də, zibil tullantıların xüsusi idarəetmə sistemi quraşdırılacaq və tullantı əsasında zavodlar və elektrik stansiyası inşa olunacaqdır.

Belə olduğu halda, artıq bu gün gələcək Ağdam əhalisi üçün maarifləndirmə seminarları keçirilməli, eyni zamanda toplu şəkildə yaşayan yerlərdə Qarabağ köçkünləri üçün bənzər layihələr həyata keçirilməlidir. Əks təqdirdə, bu barədə gələcəkdə ciddi problemlərlə üzləşmək mümkün olacaq.

### İstinadlar


1. https://unece.org/DAM/hlm/documents/Publications/Guidelines_for_SSC_City_Action_Plan.pdf
2. https://www.mansionglobal.com/articles/sustainable-and-smart-south-koreas-songdo-offers-green-spaces-and-good-schools-228684?fbclid=IwAR33fKi3Gp_Fx4wT6U-wnOlKeLeM-1zZuWcxmAlxAFeqJw-Es5qtNnMZ4VS8
3. https://yenisabah.az/azerbaycana-hibrid-avtomobil-idxali-40-defe-artib
4. https://apa.az/az/xeber/sosial-xeberler/azerbaycan-oten-il-167-elektromobil-idxal-edib-650405
5. https://apa.az/az/xeber/senaye-ve-energetika/azerbaycanda-ai-95-ve-ai-98-benzini-bahalasib-645928

İSMAYILOV Altay
UNEC Tədqiqat Mərkəzi

ƏHMƏDOVA Emel
UNEC, Magistrant

QASIMOV Əhliman
UNEC Tədqiqat Mərkəzi, doktorant

# QARABAĞIN QURUCULUQ İŞLƏRİNDƏ İNNOVASİYA VƏ RƏQƏMSALLAŞMANIN TƏTBİQİ İMKANLARI

**Xülasə:** Müasir dövrdə bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovativ iqtisadiyyat və rəqəmsallaşma ən əsas strateji inkişaf prioritetlərindən biridir. Bu baxımdan, Qarabağda effektiv rəqəmsal iqtisadiyyatın formalaşdırılması yeni biznes sahələrinin yaradılması və inkişafına təkan verəcək, regiona investisiya axınının artmasına, insan və maliyyə resurslarının cəlb edilməsinə öz müsbət təsirini göstərəcəkdir. İqtisadi baxımdan Qarabağda ilkin olaraq daha çox kənd təsərrüfatı, sənaye, turizm sahələri üzrə potensialın mövcudluğu görünür. Bunu nəzərə alaraq bu çalışmada Qarabağ iqtisadiyyatının əsasını təşkil edən sektorlar üzrə innovativ yanaşma, rəqəmsallaşmış texnologiyalar nəzərdən keçirilmişdir. Çünki bu sahələr üzrə innovasiyanın tətbiqi istehsal xərclərini minimuma endirəcək, ətraf mühitə təsirləri azaldacaq, xammal, torpaq, su və s. kimi resurslara qənaət edərək istehsalın və gəlirlərin artmasına təkan verəcəkdir. Bu isə əsaslı olaraq İKT infrastrukturunun formalaşdırılması və inkişafından birbaşa asılıdır. Bundan başqa, innovasiya sahəsində yeniliklər (Startup layihələri) daima izlənilməli və Qarabağ bölgəsinə tətbiqi imkanları da araşdırılmalıdır. Regionda elmi-texniki və tədqiqat bazasının yaradılması ilə “Universitet – Dövlət – Sənaye Modeli’nın (Triple helix model) effektiv şəkildə tətbiqinə imkan əldə edilə bilər. Bütün bu qeyd olunanlarla regionun “Qarabağ Regional İnnovasiya Mərkəzi” kimi qurulması və bu brend ilə tanıdılması həm bu coğrafi ərazinin, həm də ətraf bölgələrin inkişafına öz müsbət töhfəsini verəcəkdir.

**Açar sözlər:** Qarabağ, Regional İnnovasiya Mərkəzi, Universitet-Dövlət-Sənaye modeli, innovasiya, rəqəmsallaşma, texnologiya.

→

## Giriş

Müharibədən sonrakı dövrdə Azərbaycan hökumətinin qarşıya qoyduğu əsas prioritet istiqamətlərdən biri azad olunmuş Qarabağ torpaqlarında innovativ quruculuq və bərpa işlərinin aparılmasıdır. Qarabağ zonasının təbii sərvətlərlə (qızıl, civə, xromit, polimetal filizləri, neft, təbii qaz, müxtəlif tikinti materialları (mərmər, sement xammalı, tikinti daşı, perlit) və meşə ehtiyatları) zəngin olması müxtəlif sənaye sahələrinin inkişafına və görülən işlərin uğurlu şəkildə davam etməsinə (əsasən, tikinti materialları üzrə) öz müsbət təsirini göstərəcəkdir. Digər tərəfdən, Qarabağın azad olunması Azərbaycanda kənd təsərrüfatı üçün istehsal potensialını da əhəmiyyətli dərəcədə genişləndirir. İlkin qiymətləndirmələrə görə, torpaqların azad olunması ilə becərilən torpaq sahələri 11%, meşə fondu 28%, yay otlaqları 2 dəfəyə yaxın artmışdır. Nəticədə, kənd

təsərrüfatı üzrə qoyunçuluq, üzümçülük, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq, tumlu meyvəçilik və s. sahələrdə əlavə istehsal potensialı yaranmışdır.

Bununla birlikdə, Qarabağ iqtisadiyyatının inkişaf perspektivi sadəcə təbii ehtiyatlara deyil, həmçinin müasir dövrün tələblərinə uyğun olaraq elm, texnologiya, innovasiya, rəqəmsallaşmaya əsaslanmalıdır. İnnovativ quruculuq işlərinin həyata keçirilməsi, ilk növbədə bölgənin iqtisadi və ekoloji göstəricilərinin yaxşılaşmasına, insanların həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaqdır. Bu, regionun cəlbediciliyini artıraraq iqtisadi resursların oraya axınını təmin edəcəkdir. Belə ki, Qarabağda effektiv rəqəmsal iqtisadiyyatın formalaşdırılması yeni biznes sahələrinin yaradılması və inkişafına təkan verəcək, regiona investisiya axınının artmasına, insan və maliyyə resurslarının cəlb edilməsinə öz müsbət təsirini göstərəcəkdir.

## Ədəbiyyat icmalı

Azad edilmiş torpaqlarda bərpa işlərinin demək olar ki, təməldən (0-dan) başlanmasını, innovasiya və rəqəmsallaşma baxımından zəruri olan texnoloji infrastrukturun qurulması ilə fürsətə çevirmək olar. Çünki yaşayışın davam etdiyi, köhnə infrastrukturun olduğu ərazilərdən fərqli olaraq burada arzu edilən infrastruktur layihələrinin planlı şəkildə həyata keçirilməsi üçün müəyyən maneələrin olmamasını bir üstünlük kimi dəyərləndirmək mümkündür. Buna görə də Qarabağ iqtisadiyyatı üçün başlanğıc mərhələsində əsas sektorlar olan kənd təsərrüfatı, sənaye və turizm sahələri üzrə innovativ yeniliklər, rəqəmsallaşmış texnologiyalar nəzərdən keçirilməlidir. Bu istiqamətdə aşağıda beynəlxalq təcrübədə uğurla sınaqdan çıxmış bir sıra elmi-texniki yeniliklərə yer verilmişdir.

Son dövrlərdə dünya bazarında investisiyaların çoxu insan kapitalının inkişafına və ekosistemin təhlükəsizliyinin təmin olunmasına yönəldilir. Ətraf mühitə təsirin azaldılması şərtilə metal məmulatların keyfiyyətinə tələblər getdikcə artmaqdadır. Metallurgiya sahəsində məhsulların rəqabət qabiliyyətinin davamlılığı innovativ yeniliklər və əsas amil olan bilik vasitəsilə təmin olunur. Dünya təcrübəsi göstərir ki, sənayedə baş verən mühüm innovativ yeniliklər birbaşa olaraq materialşünaslıqda həyata keçirilən yeni yanaşmalarla bağlıdır. Buna misal olaraq, son illərdə yüksək möhkəmliyə malik polad istehsalının sürətlə artmasını göstərmək olar. Bu polad digər materiallarla müqayisədə çəki olaraq yüngül, ancaq daha möhkəm olduğundan Avropa mütəxəssisləri tərəfindən gələcək illərdə də ona tələbatın artacağı proqnozlaşdırılır. Bu baxımdan, nanotexnologiyanın sənayedə tətbiqi süni metalların formalaşmasına, plazma çiləmə üsulu (plasma spraying), toz metallurgiyası kimi sahələrin inkişafına təkan verəcəkdir. İT inteqrasiyası, 3D çap, CRM, ERP, SCM sistemlərinin, məlumat bazalarının, bulud xidmətləri kimi texnologiyaların tətbiqi, avadanlıqların modernləşdirilməsi sənayedə əməliyyat xərclərinin azalmasına, metal məhsullarının keyfiyyətinin və məhsuldarlığın artmasına gətirib çıxaracaqdır (Romanova, Sirotin, 2019). Qeyd olunan yeniliklərin Qarabağda təməli atılacaq metallurgiya sənayesində tətbiqi imkanları bu gündən ələ alınmalıdır.

Dünya ölkələrinin təcrübəsində inşaat sənayesi və digər sənaye sahələri ilə rəqəmsallaşma prosesinin baş verdiyini görmək mümkündür. Bu, rəqəmsallaşma şəhər və torpaq istifadəsi planlamasından başlayaraq tikinti prosesinin son mərhələsinə qədər bütün prosesləri əhatə edir. Tikinti sənayesində istifadə olunan avadanlıqların avtomatlaşdırılması, dizayn prosesinin rəqəmsallaşması, “Big Data”-nın tətbiqi və s. bu sahədə olan innovasiyanın aktuallığını göstərir (Leviäkangas et al, 2017). Qarabağın quruculuq işləri ilə əlaqədar regionda yeni bir inşaat bumunun başladığını nəzərə alaraq, sözü gedən rəqəmsallaşma tətbiqlərinin müxtəlif yönlü tikinti-inşaat işlərində tətbiqi zəruridir. Bu, gələcəkdə sözügedən infrastruktur layihələrinin dayanıqlılığı və tətbiq ediləcək texnoloji tətbiqlərə uyğunluğu baxımından da mühüm məsələdir.

Son onilliklərdə sənayedə baş verən texnoloji inqilablar kənd təsərrüfatı istehsalının təşkilində, istehlak strukturunda və aqro-innovasiyalar sistemində də dəyişikliklərə səbəb olur. Şirin suyun əhəmiyyətli dərəcədə azalması, torpaqların deqradasiyası, ekoloji cəhətdən zərərli əkinçilik üsullarının məhdudlaşdırılması kimi problemlər kənd təsərrüfatında rəqəmsal inqilabın təmin edilməsi üçün fəaliyyətlərin həyata keçirilməsini tələb edir. Aqrar sənaye sahəsindəki yeniliklər sürətlə artmaqdadır. Kənd təsərrüfatı ilə bağlı həyata keçirilmiş “Startup”-larda yeniliklərin həcmi son illərdə 10 dəfədən çox artmışdır. “Big Data”, robototexnika, süni intellekt, coğrafi istinad

sistemlərinin istifadəsi, vahid donanma idarəçiliyi, dəqiq əkinçilik və digər texnologiyalar kənd təsərrüfatında istifadə olunanlar sırasındadır. Bununla kənd təsərrüfatında əsl rəqəmsal inqilabın baş verməsi gözləniləndir. Hazırda bu sahədə olan yeniliklərin çoxu kənd təsərrüfatı texnika və maşınlarının robotlaşdırılması ilə bağlıdır (Sulimin et al, 2019).

İnnovasiya sahəsində aparıcı konsaltinq şirkətlərindən birinin araşdırmasına görə dünyada kənd təsərrüfatı üzrə rəqəmsallaşmanın həllinin inteqrasiya olunmuş bulud (məlumat bazası) xidmətləri olduğunu qeyd etmişdir. Bu xidmət vasitəsilə şirkətlər faydalı olan məlumatların ən səmərəli istifadəsini təmin edə bilər (Brönnimann et al., 2018; Sulimin et al., 2019). Qarabağ iqtisadiyyatının inkişafının ilkin mərhələsində üzərində qurulacaq sektorun kənd təsərrüfatı olduğunu, müasir dövrdə bu sektorun inkişafının ənənəvi şəkildə olmasının qeyri-mümkünlüyünü, sahə üzrə innovativ həll yollarının mövcudluğunu nəzərə alsaq, bu, regionda da qurulacaq kənd təsərrüfatı sahələrinin innovasiya və yeniliklərə əsaslanmalı olduğunu zəruri edir.

“Big Data” məlumat bazalarının toplanması, emalı və təhlili üçün rəqəmsal vasitələrdən istifadəni özündə əks etdirir. Bu texnologiya, qida və kənd təsərrüfatı sahəsinin iştirakçıları (məsələn, fermerlər və kənd təsərrüfatı şirkətləri arasında) arasında uzun müddət davam edən əlaqələri qurmaq potensialına malikdir. “Big Data” nəinki torpağın münbitliyi, eyni zamanda alaq otlarının növləri, hava haqqında məlumatlar ötürməklə bir tərəfdən fermeri məlumatlandırır, digər yandan məhsul istehsalını proqnozlaşdırır. Kənd təsərrüfatı texnikası tərəfindən toplanılmış məlumatların dəqiq analizlərindən istifadə edilməsi ilə fermerlərin təsərrüfat daxilində qərar qəbul etməsi asanlaşır (Bronson and Knezevic, 2016).

Robototexnologiyanın intellektual funksiyası vasitəsilə kənd təsərrüfatı istehsalında həyata keçirilən proseslər və istehsal olunan məhsullar haqqında məlumatları tez bir zamanda əldə etmək mümkündür. Robototexnologiyanın əsas mahiyyəti insan əməyinə qənaət etməklə, onu avtomatlaşdırmış bir versiya ilə əvəz etməsidir (Skvortsov et al., 2018). Süni intellekt sistemlərindən (AI) istifadə, havanın temperaturu, rütubət, torpağın münbitliyi və məhsuldarlığı kimi məlumatları təhlil edərək, hansı ildə hansı bitkinin əkiləcəyini və məhsulun yetişmə tarixinin nə vaxt olacağını proqnozlaşdıran anlayışlar təmin edəcəkdir. AI texnologiyalarının tətbiqi ilə ətraf mühitə təsir azaldıla və işçilərin təhlükəsizliyi artırıla bilər ki, bu da ərzaq məhsullarının qiymətlərini aşağı salacaq və qida istehsalının artan əhali ilə ayaqlaşmasını təmin edəcəkdir (Eli-Chukwu, 2019). Qarabağda ilk mərhələdə süni intellekt və robotexnikaya əsaslanan texnologiyaların tətbiqi idxala dayansa da, orta və uzun müddətli dövrdə, regionun texnoloji-innovasiya mərkəzi halına gətirilməsi hədəfi, bu texnologiyaların da burada istehsal edilməsinin mümkünlüyünü ortaya qoyur.

İntensiv kənd təsərrüfatı ilə məşğul olan əksər ölkələrdə pilotsuz uçuş aparatlarından və fotoqrammetrik texnologiyalardan istifadə edilir. Bu texnologiyalardan istifadə nəticəsində iri əkin sahələrində bitkilərin inkişaf səviyyəsinin, suya olan tələbatın, zərərvericilərin və s. müəyyən olunmasında istifadə olunur. Meşə və yaylaq monitorinqi zamanı isə etibarlı məlumatlar toplanaraq heyvandarlıq sahələrinin inkişafında istifadə olunur (Oliveira et al., 2018). Kənd təsərrüfatında pilotsuz uçuş aparatlarından istifadə məhsulların rəqabət qabiliyyətini artırmaqla istehsalın səmərəliliyini yüksəldir (Sulimin et al., 2019). Regionun coğrafi mövqeyi, münaqişənin tam şəkildə səngiməməsi, əkinə yararlı sahələrin və otlaqların yerləşdiyi ərazilərin relyefi nəzərə alındıqda bu texnologiyaların Qarabağda da istifadə edilməsinin əhəmiyyəti ortaya çıxır.

Vahid idarəçilik sistemləri kənd təsərrüfatı birlikləri arasında məlumat mübadiləsini təmin edir. Bu sistem tətbiqləri kənd təsərrüfat maşınlarının yerləşdiyi, onun iş vəziyyəti, yerinə yetirdiyi əməliyyatlar və bu kimi məlumatlar barədə ümumi mənzərəni təqdim edir (Achillas et al., 2019). Regionda fəaliyyət göstərəcək fermer təsərrüfatlarının da Azərbaycanın digər regionları kimi kiçik ərazilər üzərinə deyil daha böyük sahələr üzərinə inşa ediləcəyi zərurəti, qurulucaq təsərrüfatlar arasında təmin ediləcək bu tip vahid idarəçilik sisteminin tətbiqi sahənin rəqabətqabiliyyətliliyini artıracağı şübhəsizdir.

Həssas əkinçilik (precision farming) texnologiyası istehsal xərclərini minimuma endirərək, ətraf mühitə təsirləri azaldaraq, torpaq, su kimi mənbələrə qənaət edərək insanlara iqtisadi cəhətdən mümkün olan qida maddələrini təklif edir. Bu texnologiya, fermerlərə rəqəmsallaşmış mə-

lumatlar vasitəsilə məhsuldarlıqdakı baş verən dəyişiklikləri idarə etməyə və maliyyə gəlirlərini artırmağa imkanlar yaradır (Maloku et al., 2020).

Aqrar sahədə geniş tətbiq olunan tendensiyalardan biri də qorunan torpaq texnologiyasıdır. Bu texnologiya, mənfi ekoloji amillərin əhəmiyyətli təsirini həll etməyə imkan verir (Mitchell et al., 2018; Deeken et al., 2018; Sulimin et al., 2019).

Müasir maliyyə texnologiyaları istifadə olunan qiymətləndirmə sisteminin əsasını təşkil edir. Əhəmiyyətli olan bu cür texnologiyalar ABŞ, AB, Kanada və digər inkişaf etmiş ölkələrdə tətbiq olunur. Aqro-maliyyə sisteminin rəqəmsallaşdırılması da öz növbəsində kənd təsərrüfatında inkişafın və yeni keyfiyyət səviyyəsinin təmin olunmasına təkan verəcəkdir. Daha çox Afrika ölkələrində tətbiq olunan avtomatlaşdırılmış qiymətləndirmə sistemi fermerlərin və kənd təsərrüfatı sahibkarlarının kredit qabiliyyətinin qiymətləndirərək onların kredit fondlarına geniş çıxışını təmin edir (Chatterjee et al., 2017; Sulimin et al., 2019). Regionda fəaliyyət göstərəcək aqrar müəssisələrin ən çox ehtiyac duyacağı məsələlərdən birinin də maliyyə məsələləri olduğunu nəzərə aldıqda, bu yanaşmanın tətbiqinin faydalılığı şübhəsizdir. Bununla maliyyə resurslarının ədalətli və effektiv bölünməsi məsələsi də obyektiv kriteriyalar çərçivəsində öz həllini tapacaqdır.

Son zamanlar İT sahəsində baş verən dəyişikliklərin turizm sahəsinə də necə təsir etdiyini görmək mümkündür. Belə ki, sosial platformalarda səyahət məlumatlarının yerləşdirilməsi, turizm məkanları üzrə saytların, otel, mehmanxana və günlük icarəyə verilən evlər barədə elektron məlumat bazasının yaradılması kimi texnoloji yeniliklər bu sahədə olan təməl inkişaf göstəricilərini əks etdirir (Xiang, 2018). Qarabağın inkişaf perspektivində turizm əhəmiyyətli rol alacağına görə bu və digər yeniliklərin sektora tətbiqi zəruridir.

Yuxarıda qeyd olunan yeniliklər artıq müasir dövrdə sektorların inkişafının ənənəvi yollarla aparılmasının böyük xərclərə səbəb olduğunu və rəqabətqabiliyyətlilikdə geri qaldığını göstərir. Bunu nəzərə alaraq, dünya təcrübəsində sahəvi olaraq innovasiya və yeniliklərin öyrənilməsi, tətbiqi ən əhəmiyyətli məsələlərdən biridir. Qarabağın azad edilməsi bu istiqamətdə böyük fürsətlər açmışdır. Belə ki, regionun yenidən bərpası mövcud infrastrukturun tamamilə yenilənməsi, yeniliklərin tətbiqi üçün də böyük imkanlar yaradır. Bu baxımdan, Qarabağın gələcək inkişafı uğurlu bir elm, texnologiya, innovasiya, rəqəmsallaşma siyasəti və bu sahədəki ən son yeniliklərin tətbiqi ilə dünya təcrübəsində uğurlu bir model olaraq yer ala bilər.

**Təhlil və müzakirə**

Qarabağda görülən quruculuq işlərinin yerinə yetirilməsində yuxarıda da qeyd olunduğu kimi ilk növbədə, İKT sektoruna ayrıca diqqət yetirilməlidir. Burada əsas olaraq, yüksək sürətli internetin tətbiqi və əlçatan olması, kommunikasiya əlaqələrinin inkişafını qeyd etmək lazımdır. Bu sahənin inkişaf etdirilməsi gələcəkdə iri şirkətlərlə yanaşı kiçik şirkətlərin də inkişafına müsbət təsir göstərəcək, istehsal xərclərinin azaldılması nəticəsində onların rəqabətqabiliyyətliliyini və dünya bazarına ixrac imkanlarını artıracaqdır. İKT sektorunun inkişafı ilə müəssisələr həm də ucuz və keyfiyyətli xammal bazarlarını tapma imkanları əldə etmiş olurlar. Bu baxımdan regionun inkişafı üçün qəbul ediləcək dövlət proqramlarında bu sahə prioritet sahə kimi nəzərə alınmalıdır.

SMART idarəetmə Qarabağda görülən quruculuq işlərində diqqət yetirilməli olan digər əsas məsələlərdən biridir. Bu yanaşma, Qarabağın quruculuq işlərində, böyük layihələrin idarə edilməsində qarşıya qoyulan məqsədə nail olmaq baxımından çox önəmlidir. Burada həyata keçirilən layihələrdə əsas məqsəd - mövcud olan ehtiyacları ödəməklə konkret bir sahənin inkişafına nail olmalı, ölçüləbilən olmalı, mövcud resursları və məhdudiyyətləri nəzərə alan realist hədəfləri olmalı, qoyulan digər hədəflərlə uyğunlaşmalı, görüləcək işlərin son tarixi və müəyyənləşdirilmiş bir yekunu olmalıdır.

Qarabağda ilkin olaraq mövcud təbii sərvətlərdən istifadə edərək, bölgədə sənaye sahələrinin innovativ inkişafına nail olmaq mümkündür. İnnovasiyanın və rəqəmsallaşmanın sənayedə tətbiqi son istehlak məhsullarının istehsalı və artımına, ixracatın artmasına və idxalın azalmasına

gətirib çıxara bilər. Bütünlükdə Qarabağda sənayenin inkişafı innovativ sənaye tətbiqləri ilə paralel şəkildə həyata keçirilməlidir.

Yuxarıda da qeyd olunduğu kimi, Qarabağda mövcud olan münbit şərait kənd təsərrüfatı üçün mühüm imkanlar yaradır. Kənd təsərrüfatında da innovasiyanın və son texnoloji yeniliklərin (Big Data, robototexnika, süni intellekt, coğrafi istinad sistemlərinin istifadəsi, vahid idarəçilik, həssas əkinçilik, ağıllı sifonlar və digər texnologiyalar) izlənilməsi fermerlərə havanın temperaturu, rütubət, torpağın münbitliyi, məhsuldarlıq, iri əkin sahələrində bitkilərin inkişaf səviyyəsi, suya olan tələbat, zərərvericilər, kənd təsərrüfat maşınlarının olduğu yer, onun iş vəziyyəti, yerinə yetirdiyi əməliyyatlar və s. bu kimi məlumatları əldə etməyə, istehsal xərclərini minimuma endirərək məhsuldarlığı artırmağa, ətraf mühitə təsirləri azaldaraq, torpaq, su kimi mənbələrə qənaət edərək istehsalın və gəlirlərin artmasına imkan tanıyacaqdır.

Qarabağda əkinçilik və heyvandarlıq üçün potensial və tarixi ənənələr vardır. Ancaq hazırda qarşıya qoyulan məsələ innovativ metodların tətbiqi ilə əkinçilik və heyvandarlığa nail olmaqdır. Bu sahə üzrə konkret olaraq tətbiq olunan bəzi yeni yanaşmalara “mal-qara idarəetmə metodu”, “əkinçiliyin avtomatlaşdırılması”, “suvarmada ağıllı sifonlar” və s. aid etmək olar.

Ənənəvi qaydada mal-qaranın idarə olunması həm vaxt itkisinə, həm də əlavə xərcə başa gəlirdi. Ancaq hazırda yeni texnologiya ilə mal-qaranın uçotu və real vaxtda izlənməsini həyata keçirmək mümkündür. Nümunə olaraq bu proqramlara Cattlesoft, Inc şirkəti tərəfindən yaradılan CattleMax-ı göstərə bilərik. Proqram mal-qaranı izləyir, sağlamlıq vəziyyətinə aid qeydlər aparır, damazlıq qeydlərini aparır, satış və alışları qeyd edir. Mal-qaranın izlənməsi elektron oxucu identifikasiya vasitələri ilə mal-qara şəxsiyyət nişanlarının (RFID mal etiketləri) istifadəsi ilə həyata keçirilir. Düşünürük ki, Qarabağda maldarlıqla məşğul olacaq fermer təsərrüfatlarının bu tip proqramlardan istifadə etməklə təsərrüfatlarını effektiv şəkildə idarə etməsi təşviq edilə bilər.

Təsərrüfatlarda yeni texnologiya vasitəsi ilə daha asan, gündəlik işləri sürətli və məhsuldar şəkildə görmək mümkündür. Bu sahə üzrə fermerlərə təklif olunan texnologiyalara - məhsul yığımının avtomatlaşdırılması, avtonom traktorlar, toxumsəpən, alaqtəmizləyən, gübrələyən, dronlar və s. daxildir. Əkinçiliyin avtomatlaşdırılması, artan əhali, kənd təsərrüfatı işçilərinin çatışmazlığı və istehlakçı seçimlərinin dəyişməsi kimi bir çox problemləri də həll edir. Bu texnologiya, eyni zamanda ənənəvi əkinçilik proseslərini avtomatlaşdırmaqla, istehlakçı seçimləri, işçi çatışmazlığı, ətraf mühitlə bağlı digər problemləri həll etməkdə də böyük əhəmiyyət kəsb edir. Düşünürük ki, bu texnologiyalardan Qarabağda istifadə edilməsi zəruridir. Çünki bu, eyni zamanda Azərbaycanın kənd təsərrüfatında mühüm problemlərdən biri olan məhsuldarlıq məsələsi baxımından da effektiv bir həll yolu ola bilər.

Regionda əvvəlki illərlə müqayisədə yağıntının miqdarı azalmış və çaylarda suyun səviyyəsi aşağı düşmüşdür. Bu problemin təsirlərini minimuma endirmək üçün ənənəvi suvarma metodlarından uzaqlaşmaq və “ağıllı sifonlar” layihəsini tətbiq etmək lazımdır. “Ağıllı sifonlar” layihəsi Avstraliyada tətbiq olunmağa başlamış və çox miqdarda suyun lazımsız şəkildə israf edilməsi əvəzinə bir çox pambıqçıları məhsullarını tam avtomatlaşdırılmış sistemlərlə nə vaxt sulayacaqlarını təyin etməyə köməklik göstərir. Su ehtiyacı ilə əlaqədar məlumatlar, bu məlumatı bitkinin suya ehtiyacı olub olmadığını hesablayan bir qərar vermə vasitəsinə ötürən sensorlar tərəfindən toplanır. Bu, məhsulun ehtiyaclarını nəzərə alaraq suvarma sistemini real vaxtda işə salır. Bu tip texnologiya, son 15 ildə Avstraliyanın pambıq sənayesində sudan istifadə səmərəliliyini 40% -dən çox artırmışdır. Qarabağ zonasında tarixən pambıq istehsalının olmasını, ümumilikdə Azərbaycanın su ehtiyatlarının da yetərsizliyini nəzərə aldıqda bu texnologiyanın quruculuq prossesində kənd təsərrüfatı ilə, xüsusilə pambıqçılıqla məşğul olan fermerlərə təklif və təşviq edilməsi əhəmiyyətlidir.

Hazırda ölkə üzrə turizm sahəsində informasiya məlumat bazaları mövcud olsa da, geniş miqyaslı deyil. Qarabağda turizm sektorunun inkişafına tamamilə yeni bir perspektivdən baxmaq zəruridir. Bunun üçün Qarabağ üçün xüsusi bir turizm siyasəti formalaşdırılmalı, qısa və uzun müddətli hədəflər müəyyənləşdirilməli, turizm infrastrukturu “smart” olmalı, xidməti göstərəcək heyət çoxşaxəli təlimlərə cəlb edilməli, bölgəyə səyahət ilə bağlı reklam və təbliğatda yeni yanaşmalara üstünlük verilməlidir.

Dünya təcrübəsində innovasiya sahəsində yeniliklərin əldə olunmasında Startup-ların rolu böyükdür. Ölkəmizdə də bu tip layihələr, sahə üzrə müxtəlif müsabiqələr həyata keçirilir. Hələlik bu müsabiqələr nəticəsində ortaya çıxan Startup-ların qlobal səviyyədə uğurlu nümunələri yoxdur. Amma bu prosesin davam etdirilməsi, təkmilləşdirilməsi vacibdir. Hesab edirik ki, Startup-larda əldə olunan yeniliklərin Qarabağa tətbiq olunma imkanları da ayrıca nəzərdən keçirilməlidir.

Təkmil idarəetmə sisteminin uğurlu şəkildə həyata keçirilməsi yetişmiş insan kapitalını zəruri edir. Qarabağda yeni quruculuq və inkişaf prossesində rol alacaq kadrlar yüksək təhsilli, zəngin dünyagörüşlü, yenilikçi və yetişmiş kadrlardan formalaşdırılmaldır. Çünki bu yanaşma yalnız müasir texnoloji avadanlıqların və ya proqram təminatının quraşdırılmasını ehtiva etmir, həm də bu prosesin sürətləndirilməsində təhsilin rolu danılmazdır. Araşdırmalar da göstərir ki, Azərbaycan iqtisadiyyatı üçün təhsilin iqtisadi artıma müsbət təsiri var (İsmayilov et al., 2020a, 2020b). Bu səbəbdən də, tədqiqatçıların elmi-tədqiqat işlərinin Qarabağ zonası üzrə aparılmasına marağın yaradılması vacib məsələlərdən biridir

Yuxarıda bəhs edilən yenilik və innovasiyaların tətbiqi, regionun elm-texnologiya, tədqiqat bazasına yatırılacaq investisiyalar, Qarabağın gələcəkdə Regional İnnovasiya Mərkəzi olma planı həm bu regionun, həm də ətraf bölgələrin inkişafına öz müsbət töhfəsini verəcəkdir. Bundan əlavə, Regional İnnovasiya Mərkəzi Azərbaycan üçün iqtisadi baxımdan:

- Strateji imkanlar yaradacaq;
- İnsan və fiziki resursların ölkə üzrə mobilliyini artıracaq;
- İnklüziv inkişafa müsbət təsir göstərəcək;
- İxrac potensialının həm keyfiyyət, həm də kəmiyyət baxımından artıracaq;
- texnologiya, innovasiyaların inkişafı ilə dayanıqlı iqtisadiyyatın formalaşmasına öz müsbət təsirini göstərəcəkdir.

**Nəticə və təkliflər**

Qarabağ regionunda ilkin olaraq kənd təsərrüfatı, sənaye, turizm sahələri üzrə potensial mövcuddur. Bu sahələrin innovativ, modernləşdirilmiş, rəqəmsallaşmış avadanlıq və üsullarla təchizi Qarabağ bölgəsinin və ümumilikdə, ölkənin iqtisadi inkişafında həlledici rol oynayacaqdır. Bu isə əsaslı olaraq, İKT infrastrukturunun yaradılması və inkişafından birbaşa asılıdr. Bundan başqa, əsasən innovativ yeniliklərə əsaslanan yanaşmaların Qarabağ bölgəsinə tətbiqi həyata keçirilməlidir. Qarabağ zonasında kənd təsərrüfatı sahəsində innovativ yeniliklərin ("mal-qara idarəetmə metodu", "əkinçiliyin avtomatlaşdırılması", "suvarmada ağıllı sifonlar" və s.) tətbiq olunması bu sahənin intensiv inkişafına və ixrac potensialının genişlənməsinə gətirib çıxaracaqdır. Qarabağda turizmin inkişafının təmin edilməsində xüsusi bir turizm siyasəti formalaşdırılmalı, qısa və uzun müddətli hədəflər müəyyənləşdirilməli, infrastrukturu "smart" olmalı, xidməti göstərəcək heyət çoxşaxəli təlimlərə cəlb edilməli, bölgəyə səyahət ilə bağlı reklam və təbliğatda yeni yanaşmalara üstünlük verilməlidir. Regionda yeni universitetin qurulması ilə "Universitet – Dövlət – Sənaye Modeli'nın (Triple helix model) effektiv şəkildə tətbiq edildiyi "Qarabağ Regional İnnovasiya Mərkəzi"nin yaradılması Azərbaycan üçün iqtisadi baxımdan strateji imkanlar yaradacaqdır.

**İstinadlar**

1. Achillas, C., Bochtis, D., Aidonis, D., Marinoudi, V., Folinas, D. (2019). Voice-driven fleet management system for agricultural operations. İnformation processing in agriculture, 6, 471-478.
2. Brönnimann, S., Brugnara, Y., Allan, R.J., Brunet, M., Compo, G.P., Crouthamel, R.I., Jones, P.D., Jourdain, S., Luterbacher, J., Siegmund, P., Valente, M.A., Wilkinson, C.W. (2018). A roadmap to climate data rescue services. Geoscience Data Journal, 5, 28–39.
3. Bronson, K., Knezevic, I. (2016). Big Data in food and agriculture. Big Data & Society, 3(1), 1–5. DOI: 10.1177/2053951716648174

4. Chatterjee, N., Kaushik, N., Gupta, D., Bhatia, R. (2017). Ontology merging: a practical perspective. Smart Innovation Systems and Technologies, 84, 136–145.
5. Deeken, H., Wiemann, T., Hertzberg, J. (2018). A spatio-semantic model for agricultural environments and machines. Lecture Notes in Computer Science, Lecture Notes in Artificial Intelligence and Lecture Notes in Bioinformatics, 10868, 589–600.
6. Eli-Chukwu, N.C. (2019). Applications of artificial intelligence in agriculture: a review. Engineering, Technology & Applied Science Research, 9 (4), 4377-4383.
7. Ismayilov, A., Kasumov, A., Ahmadova, E. (2020a). Education and economic growth: The case of Azerbaijan. Economic and Social Development: Book of Proceedings, 4, 581– 587.
8. Ismayilov, A., Kasumov, A., Ahmadova, E. (2020b). The impact of higher and secondary education on economic growth in Azerbaijan. ASERC Journal of Socio-Economic Studies, 3 (2), 60-68.
9. Leviäkangas, P., Paik, S.M., Moon, S. (2017). Keeping up with the pace of digitization: The case of the Australian construction industry. Technology in Society, 50, 33–43.
10. Maloku, D., Balogh, P., Bai, A., Gabnai, Z., Lengyel, P. (2020). Trends in scientific research on precision farming in agriculture using science mapping method. International Review of Applied Sciences and Engineering, 11 (3), 232-242.
11. Mitchell, S., Weersink, A., Erickson, B. (2018). Adoption of precision agriculture technologies in Ontario crop production. Canadian J. of Plant Science, 98, 1384–1388.
12. Oliveira, R.A., Khoramshahi, E., Suomalainen, J., Hakala, T., Viljanen, N., Honkavaara, E. (2018). Real-time and post-processed georeferencing for hyperspectral drone remote sensing. The International Archives of the Photogrammetry, Remote Sensing and Spatial Information Sciences, 42 (2), 789-795.
13. Romanova, O.A., Sirotin, D.V. (2019). Metal industry development in the conditions of formation of new technological and institutional trends. Theoretical and practical conference with international participation and School for young scientists «FERROALLOYS: Development prospects of metallurgy and machine building based on completed Research and Development», KnE Materials Science, 15–28. DOI 10.18502/kms.v5i1.3949
14. Skvortsov, E.A., Skvortsova, E.G., Sandu, I.S., Iovlev, G.A. (2018). Transition of agriculture to digital, intellectual and robotics technologies. Econ. Reg., 14, 1014-1028. doi 10.17059/2018-3-23
15. Sulimin, V.V., Shvedov V.V., Lvova, M.I. (2019). Digitization of agriculture: innovative technologies and development models. Conference on Innovations in Agricultural and Rural development, IOP Conf. Series: Earth and Environmental Science, 341 012215, 1-6. doi:10.1088/1755-1315/341/1/012215
16. Xiang, Z. (2018). From digitization to the age of acceleration: On information technology and tourism. Tourism Management Perspectives, 25, 147-150. 221197361730137X–doi:10.1016/j.tmp.2017.11.023

İSMAYILOV Bəhruz

AMEA İqtisdiyyat İnstitutu, elmi işçi

# KƏND TƏSƏRRÜFATI QARABAĞ İQTİSADİYYATININ APARICI SAHƏSİ KİMİ

**Xülasə:** Tezisdə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərinin aparılması prosesində iqtisadiyyatın dirçəlməsi və əhalinin repatriasiyası istiqamətində həyata keçirilən tədbirlər planı çərçivəsində kənd təsərrüfatının bərpa edilməsinin imkanları araşdırılmışdır. Qarabağda bərpa ediləcək müqayisəli üstünlüyə malik sahə kimi kənd təsərrüfatının ölkə üçün strateji əhəmiyyəti əsaslandırılmışdır.

**Açar sözlər:** Qarabağda iqtisadiyyat, kənd təsərrüfatı, bərpa.

## Giriş

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin Ermənistanın hərbi təcavüzünə məruz qalması nəticəsində bir milyondan artıq vətəndaşımızın öz doğma yurdlarından didərgin düşməsi və ölkə ərazisinin 20 faizinin işğal edilməsi ölkəmiz üçün ağır sosial-iqtisadi nəticələr yaratmışdır. Ermənistanın təcavüzü nəticəsində Qarabağda demək olar ki, bütün kənd və şəhərlər tamamilə dağıdılmış və ərazinin ekosisteminə çox ciddi ziyan vurulmuşdur. Azərbaycanın iqtisadi, hərbi və siyasi qüdrətinin artmasının fərqində olmayan Ermənistan son illərdə atəşkəs rejimini tez-tez və kobud şəkildə pozaraq ölkəmizə qarşı təxribatlar törətməsinin nəticəsini çox ağır bir şəkildə ödəməli oldu. 2020-ci il sentyabr ayının 27-də Ermənistan Respublikasının silahlı birləşmələri tərəfindən ölkəmizə qarşı törədilən növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri qətiyyətli əks-hücum əməliyyatlarına başlamışdır. Rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Vətən torpaqları işğaldan azad edilmişdir.

### Təhlil və qiymətləndirmə

Möhtəşəm Qələbədən sonra Respublikamızın qarşısında duran növbəti çox vacib və strateji hədəf Qarabağın bərpasıdır. Bununla bağlı “Azərbaycan Respublikasının İşğaldan Azad Edilmiş Ərazilərin 2021-2025-ci illər Üzrə Bərpası və Dayanaqlı İnkişafı” adlı Dövlət Proqramı hazırlanmışdır. Post-konflikt dövründə çox mühüm məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı iqtisadi quruculuq işlərinin aparılması və bu ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasını təmin etməkdir. İşğaldan azad edilmiş ərazilərin bərpası həmin ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, layiqli yaşayış mühitin təmin edilməsi və ən əsası əhalinin düzgün və ədalətli şəkildə repatriasiyası istiqamətində tədbirlərin həyata keçirilməsi

kimi tədbirləri özündə əhatə edir. Post-konflikt ərazilərdə kənd təsərrüfatının inkişafı həmçinin kənd yerlərində sosial rifahın yüksəlməsinə töhfə verə biləcək rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının və emalının formalaşdırılması üçün əlverişli mühitin yaradılmasını ehtiva edir. Lakin bu məqsədlərə nail olunması üçün effektiv torpaq islahatları reallaşmalıdır. Qarabağ iqtisadiyyatının strukturunda xüsusi yeri olan kənd təsərrüfatının səmərəli strukturunun formalaşması üçün prioritet olan sahələri müəyyən edilməlidir.

**Qarabağ iqtisadiyyatının strukturunda kənd təsərrüfatının yeri**

İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatının inkişaf potensialını qiymətləndirmək üçün işğaldan əvvəlki dövrdəki vəziyyətin təhlil olunması vacibdir. Beləliklə ötən əsrin 80-ci illərin sonuna olan statistik göstəricilərə görə Dağlıq Qarabağ və digər ətraf rayonlar yüksək kənd təsərrüfatı göstəricilərinə malik olublar. Nəzərə alınmalıdır ki həmin dövrdəki texnoloji və idarəetmə sistemi ilə əldə olunan bu nəticələrin indiki zamanda prioritet sahələrin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyəti vardır. İşğaldan əvvəlki dövrdə Qarabağ ölkəmizin əsas strateji məhsullarından sayılan taxıl istehsalının təxminən 14.3%-ni, pambıq istehsalının 3.3%-ni, ət istehsalının 14.5%-ni təmin edirdi, həmçinin digər məhsullar istehsalı üzrə də nəzərə çarpacaq dərəcədə ərzaq təhlükəsizliyinin təmin olunmasında böyük paya malik idi. Üzüm istehsalının 31.5%-i, yun istehsalının 19.3%-i, barama istehsalının 17%-i, süd istehsalının 17.1%-i, kartof istehsalının 6.3%-i ölkə üzrə iribuynuzlu mal-qaranın 15.1%-i, xırdabuynuzluların 19.2%-i həmin ərazilərin payına düşürdü.

2008-ci ildə dünyanın üzləşdiyi ərzaq böhranı təhlükəsi açıq şəkildə göstərdi ki, ölkəmizdə kənd təsərrüfatının sahə strukturuna baxışlarda müəyyən dəyişikliklər etməyə ehtiyac vardır. Azərbaycan hər il 1 mln. tondan artıq taxıl idxal edir və nə qədər ki, ölkə öz daxili ehtiyaclarını yerli istehsal hesabına ödəyə bilmir taxılçılıq ölkəmizin iqtisadi inkişafında prioritet istiqamətlər sırasına aid edilməlidir. İşğaldan azad edilmiş ərazilərdə həmçinin heyvandarlığın inkişafı üçün böyük potensial imkanlar mövcuddur. Geniş otlaq sahələrinin olması, taxıl və buğda əkini ilə yanaşı dağlıq zonalarda xırda buynuzlu heyvanların saxlanılmasına əlverişli şərait yaradır. Heyvandarlıq sahəsində regionun həm çoxəsirlik ənənəsi, həm də müasir istehsal təcrübəsi vardır. İşğaldan azad edilmiş əksər rayonlarda elit üzüm növlərinin yetişdirilməsi üçün əlverişli təbii-iqlim şəraiti mövcuddur. Odur ki, qeyd olunan sahələrin üstün inkişafını nəzərdə tutan proqramların qəbuluna və həyata keçirilməsinə ehtiyac vardır.

**Nəticə və təkliflər**

Bütün bu işlərin həyata keçirilməsi üçün ilk strateji addım işğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsidir ki, hal hazırda bu proses sürətlə davam etdirirlər və işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri geniş vüsət almaqdadır. Azad edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsinin hərtərəfli inkişafı Respublikamızın ərzaq təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün ilkin zəruri tədbirlər sırasına aşağıdakıların aid edilməsi məqsədə uyğun olardı:

1. Qarabağda torpaqların invertarlaşması, inzibati rayonlar üzrə elektron torpaq-kadastr xəritələrinin hazırlanması və torpaqların kəmiyyət və keyfiyyət göstəricilərinin dəqiqləşdirilməsi;

2. Əkin üçün istifadə edilən torpaqların eləcə də çoxillik əkmələr altında olan torpaq sahələrinin müəyyən edilməsi;.

3. Müxtəlif bitkiçilik sahələrinin inkişafı, orada istehsalının səmərəli təşkili və suvarma sistemlərinin inkişaf etdirilməsi;

4. Örüş-otlaq sahələrinin əkinçilik və heyvandarlıq təsərrüfatlarının istifadəsinə verilməsi tədbirlərinin həyata keçirilməsi.

Bizim fikrimizcə, həmin təklif və tövsiyələrin nəzərə alınması Qarabağda kənd təsərrüfatının

kompleks və dayanıqlı inkişafına təkan verməklə yanaşı onun səmərəli strukturunun formalaşmasını təmin edəcəkdir.

**İstinadlar**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı. Bakı -2021
2. N. Müzəfférli., E. İsmayılov. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar., "Qafqaz", Bakı, 2010
3. Vahid Abbasov. Aqrar sahədə iqtisadi tənzimlənmənin aktual problemləri. Bakı-2012
4. https://president.az/articles/23335
5. https://www.agro.gov.az

İSMAYILOV Rəşail

"Azərsu"ASC, "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu

# QARABAĞ ÇAYLARININ HİDROLOJİ REJİM XÜSUSİYYƏTLƏRİ VƏ ƏRAZİNİN DAVAMLI İNKİŞAFINDA ÇAYLARIN SU EHTİYATLARININ ROLU

**Xülasə:** Məqalə Qarabağın davamlı inkişafında çayların su ehtiyatlarının roluna həsr edilmişdir. Qarabağ Azərbaycanın yerli su ehtiyatlarının formalaşdığı əsas bölgələrdən biridir. Məqalədə işğaldan əvvəl Qarabağ çaylarında fəaliyyət göstərən hidroloji müşahidə məntəqələrinin məlumatlarından istifadə edərək, ərazinin su ehtiyatları hesablanmışdır. Orta illik su sərfinin tədqiqi və təhlili üçün Qarabağ çaylarında fəaliyyət göstərmiş hidroloji məntəqələrin çoxillik müşahidə məlumatları toplanaraq SPSS Statistika proqramına inteqrasiya edilmişdir. Tədqiqatın aparılması üçün 20 çay üzərində fəaliyyət göstərən 32 hidroloji məntəqənin çoxillik orta müşahidə məlumatları toplanmışdır. Ərazidə fəaliyyət göstərən hidroloji məntəqələrin dəqiq yerini müəyyən etmək üçün fonda və arxiv materiallarına istinad edilərək, Coğrafi İnformasiya Sistemindən istifadə edərək xəritəsi tərtib edilmişdir. Bundan əlavə, Qarabağın oroqrafik xüsusiyyətlərindən asılı olaraq hidroloji rayonlaşdırılması həyata keçirilmişdir.

**Açar sözlər:** Qarabağ çayları, hidroloji məntəqə, sutoplayıcı hövzə, su ehtiyatları, su balansı, hidroloji rayonlaşdırma.

→

## Giriş

Müasir şəraitdə əhalinin içməli su təchizatı problemi ölkələrin davamlı inkişafına təsir edən əsas amillərdən biridir. Yer kürəsində kifayət qədər su ehtiyatı olmasına baxmayaraq, bu ehtiyatlar ərazi üzrə çox qeyri-bərabər paylanmışdır. Su mənbələrinin çatışmazlığı geniş ərazilərdə ciddi problemə çevrilmişdir. Bir çox ölkələrdə iqtisadi inkişaf səviyyəsi aşağı olduğundan, hər il milyonlarla insan, əsasən də uşaqlar, su təchizatı və kanalizasiya xidmətləri ilə qeyri-qənaətbəxş təmin olunur və bu, çoxsaylı insan tələfatı ilə nəticələnir. Su probleminin kəskinləşməsi əhalinin ərzaq təminatına və regionların ekoloji təhlükəsizliyinə birbaşa təsir göstərir. Gələcəkdə su təminatını yaxşılaşdırmaq üçün yalnız sudan istifadəni azaltmaq, ondan qənaətlə istifadə etmək kifayət deyil və su ehtiyatlarının artırılması istiqamətində tədqiqatlar və praktiki işlər sürətləndirilməlidir. Məhz bu yolla, əhali və iqtisadiyyatın bütün sektorlarını tələb olunan həcmdə və beynəlxalq standartlara uyğun keyfiyyətdə su ilə təmin etmək və eyni zamanda çay, göl və su anbarlarında yaxşı ekoloji statusa nail olmaq mümkündür. Təsadüfi deyil ki, Davamlı İnkişafda nəzərdə tutulan 17 məqsəddən 6-cısı yalnız təmiz su və sanitariya məsələlərinə həsr olunmuşdur. Ən azı daha 5 məqsəd (2 - aclığa son qoymaq, qida təhlükəsizliyinə nail olmaq və dayanıqlı kənd təsərrüfatını təbliğ etmək; 7 - hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə

çıxışı təmin etmək; 13 - iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təcili addımlar atmaq; 14 - dayanıqlı inkişaf üçün okean, dəniz və digər su hövzələrini qorumaq və onlardan düzgün istifadə etmək; 15 - ekosistemlərin dayanıqlı istifadəsini müdafiə, bərpa və təbliğ etmək, meşələri dayanıqlı idarə etmək, səhralaşma ilə mübarizə aparmaq, torpaq deqradasiyasının qarşısını almaq və dayandırmaq, o cümlədən biomüxtəliflik itkisini dayandırmaq) bu və ya digər səviyyədə su məsələsi ilə əlaqədardır.

Azərbaycanda düzənlik ərazilərin iqlim şəraiti əsasən quraq olduğuna görə, suvarma əkinçiliyi geniş inkişaf etmişdir. Bu səbəbdən, ölkədə ən böyük su istehlakçısı kənd təsərrüfatıdır **(Məqsəd 2)** və 2015-cü ildə bu sektorun ümumi su istifadəsində payı 70,7% olmuşdur. Hazırda suvarılan torpaqların sahəsi 1,45 mln. hektardır və bu rəqəmi 1,60-1,65 mln hektara çatdırmaq mümkündür. Azərbaycanda kiçik çayların hidroenerji ehtiyatlarından istifadə edərək hər il 6 mlrd. kVt/saat elektrik enerjisi istehsal etmək mümkündür **(Məqsəd 7)**. Havanın temperaturunun 2-3°C-yə qədər artacağına dair proqnozları nəzərə alsaq, qarşıdakı 50 il ərzində həm yerüstü, həm də yeraltı suların 15% azalacağı gözlənilir (Məqsəd 13). Azərbaycanda çaylar həm transsərhəd, həm də yerli çirklənməyə məruz qalır və çirkləndirilmiş sular Xəzər dənizinin ekoloji statusuna, eyni zamanda bioloji resurslarına mənfi təsir göstərir (Məqsəd 14). Çaylardan suvarma və digər ehtiyaclar üçün götürülən suyun miqdarı getdikcə artmaqdadır. Lakin çox vaxt su ehtiyatlarından istifadə əsas su mənbələri olan çayların ekoloji vəziyyətinə mənfi təsir edir, çay və sahilyanı ekosistemlərində gedən maddə və enerji mübadiləsini pozur. Xüsusilə bitkilərin vegetasiya dövründə əksər çayların mənsəb hissəsində axımın ekoloji baxımdan çatışmazlığı müşahidə olunur (Məqsəd 15).

Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və respublikanın 20 faizdən çox ərazisini işğal etməsi nəticəsində, bu zonada yerləşən və respublika iqtisadiyyatında mühüm rol oynayan su ehtiyatlarına və su təsərrüfatı fonduna külli miqdarda ziyan dəymişdir. Qeyd etmək lazımdır ki, ərazilərimizin Ermənistanın işğalı altında olduğu müddətdə ətraf ərazilərin su təchizatında ciddi problemlər yaratmışdır.

İşğaldan azad olunan ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir. Bu sərəncamdan irəli çıxan məsələlərindən biri də, su ehtiyatlarından səmərəli istifadə və işğal dönəmində su ehtiyatlarına dəyən zərərin hesablanmasıdır. Uzun müddət işğal altında qalan ərazilərdə su ehtiyatlarının öyrənilməsi baxımından heç bir monitorinq aparılmadığından, ərazinin hidroqrafik xüsusiyyətlərinin təhlili və su ehtiyatlarının qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

**Təhlil və qiymətləndirmə**

İstehsalın intensivləşdirilməsi, onun səmərəliliyinin artırılması, bunun əsasında xalqın maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi hər hansı bir dövlətin iqtisadi strategiyasının əsasını təşkil edir. Ölkəmizin sürətli və davamlı inkişaf strategiyası, regionların sosial-iqtisadi inkişaf problemlərinin uğurlu həyata keçirilməsi, neft-qaz sənayesindən əldə olunan gəlirlərin qeyri-neft sektoruna cəlb edilməsi yerüstü təbii sərvətlərdən, o cümlədən su ehtiyatlarının potensial ehtiyatlarından səmərəli istifadə etməyi tələb edir. Bu məqsədlə də ayrı-ayrı regionların, iqtisadi rayonların potensial ehtiyatlarının müəyyənləşdirilərək təhlil edilməsinə ehtiyac vardır.

Bazar iqtisadiyyatı şəraitində istehsal sahələrinin inkişafında, cəmiyyətin istehlak məhsullarına olan tələbatın ödənilməsində su ehtiyatlarından səmərəli istifadə olunması mühüm iqtisadi əhəmiyyət kəsb edir. Su ehtiyatlarının istehsal dövriyyəsinə cəlb olunması ərazinin əmək ehtiyatlarının zənginliyindən və istehsal vasitələrinin inkişaf səviyyəsindən asılı olaraq daha da intensivləşir. Hazırda əsrimizin qlobal problemlərindən biri - əhalinin və müxtəlif təsərrüfat sahələrinin su ilə təmin olunmasıdır.

Qarabağın su ehtiyatının formalaşmasına ərazinin iqlimi, relyefi və geoloji quruluşu əhəmiyyətli təsir göstərir. Qarabağın mürəkkəb oroqrafiyasından və yamacların səmtindən asılı olaraq at-

mosfer yağıntılarının ərazidə nəinki şaquli, həm də üfüqi paylanması mürəkkəb xarakter daşıyır (İsmayılov, 2021). A.H.Vajnova görə Qarabağ da daxil olmaqla Kiçik Qafqazda yağıntıların hündürlükdən asılı olaraq dəyişmə qradiyentinin özü müxtəlif olub, 1000-1500 m hündürlükdən sonra azalır (Важнов, 1956). Onun araşdırmalarına görə Qarabağda yağıntı layının qradiyenti hər 100 m üzrə, 500-1000 m hündürlükdə dekabr mart-aylarında 2 mm, aprel-may aylarında isə 12 mm-dir. Bu rəqəmlər 1000-1500 m hündürlüklərdə müvafiq olaraq dekabr-mart ayları üçün 2 mm, aprel-iyun ayları üçün isə yenidən 12 mm-dir. Daha sonra isə yəni 1500-2000 m hündürlükdə artım qradiyenti azalır və 2000 m hündürlükdən sonra qradiyent sıfıra bərabər olur. Bu dəyişmə, çayların su rejiminin formalaşmasına böyük təsir göstərir.

Ərazinin hidroqrafik şəbəkəsinin və çaylarının hidroloji rejiminin şaquli landşaft qurşaqları ilə sıx əlaqəsi mövcuddur. Ərazinin əsas hidroqrafik vahidləri çaylar, su anbarları, kanallar və əsasən dağlıq hissədə yerləşən göllərdir. Ərazidən axan çaylar əsasən iki qrupda birləşdirilir: Kürün sağ qolları və Arazın sol qolları. Birinci qrupa daxil olan çaylar Qarabağ yaylası və dağlıq Qarabağ ərazisini əhatə edir. Dağ silsilələrinin (Şahdağ, Murovdağ, Qarabağ və Şərqi Göyçə) yerləşməsi və morfoloji quruluşu hidroqrafik şəbəkənin əsas xüsusiyyətlərini müəyyən edir. Qarabağ silsiləsinin şimal-şərq yamaclarından Xaçınçay, Qarqarçay, cənub-şərq yamaclarından Köndələnçay, Quruçay, Qozluçay və s. çaylar axır. Şərqi-Göyçə Tərtərçayla Göyçə gölünə tökülən çaylar arasında suayırıcı sayılır.

Qarabağda vulkanagen süxurların üstünlük təşkiletmə xüsusiyyəti yağıntıların intensiv surətdə hopmasına və nisbətən aşağı zonalarda yeraltı suların güclü bulaqlar şəklində yer səthinə çıxmasına şərait yaradır. Qarabağ silsiləsindən axan çayların suyu düzənliyə çıxdığı hissədə allüvial çöküntülərdə hopurdu və bir qədər aşağıda Qarabağ Qarasusu adlanan bataqlıq sahələr əmələ gətirirdi. Kür çayının axımı tənzimlənənə qədər daşqın dövründə Qarasu çökəkliyinə çoxlu su daxil olurdu. Qarqarçayın aşağı axınında Qarasu Ağ göllə birləşirdi. Çayların məcrası düzəldilib təmizləndikdən sonra bu suların bir hissəsi Kürə tökülür. Tərtər, Xaçın və Qarqar çayları dağlıq sahələrdən düzənliyə çıxdığı hissədə xarakterik gətirmə konusları əmələ gətirirlər.

Qarabağın hidroqrafik səciyyəsinin təhlili və çayların su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə ərazidə yerləşən bütün hidroloji müşahidə mənəqələrinin məlumatları toplanmış və ümumiləşdirilmişdir. Ərazidə fəaliyyət göstərmiş hidroloji müşahidə məntəqələrin dəqiq yerini müəyyənləşdirmək üçün fond və arxiv materiallarına istinad olunaraq ArcGİS proqram təminatından istifadə etməklə xəritəsi tərtib olunmuşdur (şəkil 1).




**Şəkil 1.** Qarabağ çayları üzərində fəaliyyət göstərmiş hidroloji məntəqələrin xəritəsi

Qarabağ çaylarının su rejimi haqqında məlumatları ilk dəfə S.H.Rüstəmov ümumiləşdirmişdir (Rüstəmov, 1960). Həmin işdə Qarabağ çayları yay aylarında yağış sularından daşqın əmələ gətirən çaylar və yaz-yay aylarında qar sularından daşqın əmələgətirən çaylar qrupuna aid edilmişdir. Qeyd etmək lazımdır ki, çayların su rejiminin yuxarıda göstərilən təsnifatı yerinə yetirilərkən S.H.Rüstəmov 1952-1953-cü illərə qədərki dövrün müşahidə məlumatlarından istifadə etmişdir.

S.H.Rüstəmov, B.S.Cəfərov və N.Q.Hacıbəyovla birlikdə 1969-cu ildə Qarabağ çayları da daxil olmaqla Kiçik Qafqaz çaylarının axımının il ərzində paylanmasını yenidən təhlil etmiş və ərazi çaylarını 2 tipə bölmüşdür (Рустамов и др., 1969): Yaz-yay gursululuqlu çaylar və Yaz gursululuqlu və payız daşqınlı çaylar. 1989-cu ildə S.H.Rüstəmov və R.M.Qaşqay birlikdə Qarabağ çaylarının su rejiminə görə dəqiqləşdirilmiş təsnifatını vermişlər (Рустамов и Кашкай, 1989). Bu təsnifat yerinə yetirilərkən 1975-ci ilə qədər olan dövrün müşahidə məlumatları təhlil edilmişdir. Qarabağ çayları yenə də 2 müxtəlif qrupa aid edilmişdir:

1. Yaz-yay gursululuqlu və daşqınlı çaylar. Bu qrupa ərazinin yüksək sutoplayıcıya malik çayları daxildir.
2. Yaz və payız daşqınlı çaylar. Bu qrup isə hündürlüyü nisbətən az olan çay hövzələrini əhatə edir.

F.Ə.İmanov Qafqaz çaylarında müşahidə olunan azsulu dövrləri təsnifatlandırarkən Qarabağın bütün çaylarını eyni bir qrupa aid etmişdir. Bu çayların hamısında iki azsulu dövr: yay-payız və qış azsulu dövrləri qeydə alınır (Иманов, 2000).

Çay rejiminin kəmiyyət göstəricilərindən biri də daşqınlıq dərəcəsidir. ($K_ə$). Bu əmsal, maksimal və illik axım normalarının nisbətinə bərabərdir. M.Ə.Məmmədov daşqınlıq əmsalının ərazi üzrə dəyişməsini təhlil edərək, Qarabağ çaylarını iki qrupa ayırmışdır (Мамедов, 1989): Zəif daşqınlıq dərəcəli çaylar: $K_ə$< 5; Orta daşqınlıq dərəcəli çaylar: 5£ $K_ə$<20. Birinci qrupa Tərtər hövzəsinin yuxarı hissəsi və Qarabağ vulkanik yaylasından Araza axan çaylar aid olunur. İkinci qrupa isə Qarabağ silsiləsinin şərq yamacından axan çaylar daxil edilmişdir. Qarabağ vulkanik yaylasının hidrogeoloji şəraiti yeraltı axımın əmələ gəlməsi üçün əlverişli olduğundan, bu ərazi çaylarında əhəmiyyətli daşqınlar əmələ gəlmir və daşqınlıq dərəcəsinin qiymətləri kiçikdir. Məsələn, Zabuxçay-Zabux məntəqəsi üçün $K_ə$=2,6.

Qarabağ çaylarının əsas qida mənbələrini qar, yağış və yeraltı sular təşkil edir (cədvəl 1). Ərazinin su ilə təminatında əsas rola malik olan Tərtər çayının əsas qida mənbəyini yeraltı sular təşkil edir. Çay üzərində aparılmış müşahidə məlumatlarının təhlilinə əsasən Tərtər çayının (Çardaqlı) Maqavuz məntəqəsində yeraltı sularla qidalanma illik axımın 51%-ni, Suqovuşan məntəqəsində isə 56%-ni təşkil edir.Qarqarçayın Ağa körpü hidroloji məntəqəsinin məlumatlarına əsasən bu çayda yağış suları ilə qidalanma illik axımın 36%-ni, yeraltı suları ilə qidalanma 37%-ni, qar suları ilə qidalanma isə illik axımın 27%-ni təşkil edir. Ərazi çaylarından Köndələnçayın əsas qida mənbəyini yağış suları təşkil edir. Köndələnçayın Qırmızı Bazar məntəqəsinin məlumatlarına əsasən yağış suları ilə qidalanma illik axımın 59%-ni, yeraltı sularla 29%-ni, qar suları ilə isə qidalanma 12%-ni təşkil edir.

Qarabağ ərazisi fiziki-coğrafi şəraitdən asılı olaraq 2 hidroloji rayona ayrılır (Рустамов и др., 1969): Kəlbəcər-Laçın rayonu və Qarabağ rayonu.

Kəlbəcər-Laçın hidroloji rayonu Qarabağ ərazisinin yüksək və orta dağlıq hissəsindən ibarətdir. Çayların əsas qidasını yeraltı (45-70%) və qar suları (30-40%) təşkil edir. Sutoplayıcının yüksəklik vəziyyətindən asılı olaraq yağış suları ilə qidalanma 10-20% arasında dəyişir. Sutoplayıcı hövzəsi böyük hündürlükdə yerləşən çaylarda (Tərtərçay və onun qolu Toraqayçay) yeraltı sularla qidalanma 65-70%-ə çatır ki, bu da səth sularının çatlı süxurlara keçməsi ilə izah olunur. Kəlbəcər-Laçın hidroloji rayonunun çayları yaz, yay aylarında qar sularından daşqın əmələ gətirən rejimə malikdirlər. Aprel-iyun aylarında illik axımın 45-50%-i keçir. Bəzən yay aylarında yağan yağışlar, maksimal sərfi yaz dövründən artıq olan daşqınlar əmələ gətirir.

**Cədvəl 1. Qarabağ çaylarının qidalanma mənbələri (Rüstəmov, 1960)**

| № | Çay | Məntəqə | Hövzənin sahəsi, km$^2$ | Sutoplayıcının orta yüksəkliyi, m-lə | Qidalanma mənbəyi, illik axımdan %-lə | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | qarla | yağışla | yeraltı sularla |
| **1** | Tərtər | İstisu | 102 | 2500 | 40 | 9 | 51 |
| **2** | Tərtər | Kəlbəcər | 483 | 2000 | 29 | 8 | 63 |
| **3** | Tərtər | (Çardaqlı) Maqavuz | 2160 | 1800 | 36 | 13 | 51 |
| **4** | Tərtər | Suqovuşan | 2460 | 1920 | 31 | 13 | 56 |
| **5** | Torağayçay | (Çardaqlı) Maqavuz | 172 | 2320 | 21 | 15 | 64 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **6** | Xaçınçay | Kolataq | 341 | 1740 | 26 | 36 | 38 |
| **7** | Qarqarçay | Ağa körpü | 238 | 1530 | 27 | 36 | 37 |
| **8** | Qarqarçay | Xocalı | 744 | 1600 | 27 | 45 | 28 |
| **9** | Köndələnçay | Qırmızı Bazar | 154 | 1130 | 12 | 59 | 29 |
| **10** | Quruçay | Tuğ | 203 | 1590 | 34 | 47 | 19 |
| **11** | Oxçuçay | Qafan | 685 | 2430 | 46 | 10 | 44 |
| **12** | Bazarçay | Eyvazlar | 2020 | 2260 | 32 | 11 | 57 |
| **13** | Bazarçay | Qubadlı | 2320 | 2180 | 29 | 6 | 65 |
| **14** | Həkəri | Abdallar | 1180 | 2005 | 23 | 15 | 62 |
| **15** | Həkəri | Qaraçanlı | 2300 | 1735 | 16 | 14 | 70 |

Qarabağ Xaçınçaydan Qarqarçaya (Kür hövzəsi) və Oxçuçaydan (aşağı axını) Köndələnçaya (Araz hövzəsi) qədər Qarabağ silsiləsindən axan çayları əhatə edir. Çayların sutoplayıcıları az yüksəklikdə yerləşir. Burada ən böyük zirvə Böyük Kirs dağıdır (2725 m). Onların əsas qidasını yağış (40-50%) və yeraltı sular (25-35%) təşkil edir. Oroqrafik şəraitdən asılı olaraq digər alçaq sutoplayıcıları olan hövzələrdən qar örtüyünün davamlılığı ilə fərqlənirlər. Burada qar suları ilə qidalanma 20-25%-ə çatır. Axımın il ərzində paylanmasına görə çaylar yaz, yay aylarında yağışdan daşqın əmələ gətirən rejimə malikdir. Bununla yanaşı, apreldə qarların əriməsi nəticəsində zəif daşqınlar əmələ gəlir. Çayların sululuğunun intensiv artması may-iyun aylarında yağan yağışlar hesabına baş verir. Aprel-iyun aylarına qədərki dövrdə illik axımın 50-75%-i keçir. Araz hövzəsi çayları yay aylarında, demək olar ki, quruyur. Payız yağışları rayonun bütün çaylarında zəif daşqınlar əmələ gətirir. Bəzən bu daşqınlar formalaşmır, bəzən isə yaz-yay daşqınlarından güclü olur.

Əhalinin sayının artması və məişətdə, sənayedə, kənd təsərrüfatında sudan istifadənin müntəzəm şəkildə çoxalması ilə əlaqədar olaraq hidroloji tədqiqatların aparılması getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Konkret ərazi və çay hövzələrində, o cümlədən Qarabağ ərazisində müşahidə məntəqələrinin yerləşdirilməsi kompleks yanaşma tələb edir (İsmayılov, 2021).
Tədqiqat işlərinin aparılması və orta illik su sərflərinin təhlili üçün Qarabağ çayları üzərində fəaliyyət göstərmiş su ölçmə məntəqələrinin çoxillik müşahidə məlumatları toplanmış və SPSS Statistics proqramına inteqrasiya edilmişdir. SPSS Statistics proqramı ilə təhlil, Qarabağ çayları üçün 1926-1992-ci illər üzrə müşahidə məlumatlarına görə aparılmışdır (cədvəl 2).

Tədqiqat işinin aparılması üçün 20 çayda 32 suölçmə məntəqəsinin çoxillik orta müşahidə məlumatları toplanmışdır. Bu məlumatlar su kadastırından, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fond materiallarından, habelə ayrı-ayrı müəlliflərin əsərlərindən götürülmüşdür. Tədqiqatda epizodik müşahidə aparılan məntəqələrin də məlumatlarından istifadə olunmuşdur.

**Cədvəl 2. Qarabağ çaylarında orta illik axım sıralarının statistik parametrləri**

| № | Çay-məntəqə | Sıranın uzunluğu, (N) | Orta çoxillik su sərfi, m³/s | Variasiya əmsalı | Assimetriya əmsalı |
|---|---|---|---|---|---|
| **1** | Tərtər-Kəlbəcər | 38 | 5,16 | 0,15 | 0,05 |
| **2** | Tərtər-Suqovuşan | 63 | 18,3 | 0,53 | -0,35 |
| **3** | Tərtərçay-İstisu | 9 | 1,54 | 0,26 | 0,87 |
| **4** | Tərtər-Vaqauz körpüsü | 17 | 15,8 | 0,27 | 0,53 |
| **5** | Tərtər-(Çardaqlı) Maqavuz | 15 | 17,8 | 0,26 | 1,12 |
| **6** | Torağayçay-(Çardaqlı) Maqavuz | 38 | 3,30 | 0,22 | 0,24 |
| **7** | Levçay-Qamışlı | 29 | 5,80 | 0,27 | 1,13 |
| **8** | Tutğun-Mənsəb | 23 | 3,68 | 0,32 | 0,09 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **9** | Atakürd-Tuğ | 21 | 0,31 | 0,37 | 0,37 |
| **10** | Quruçay-Tuğ | 29 | 1,69 | 0,53 | 1,59 |
| **11** | Badaraçay-Xansın | 10 | 2,25 | 0,31 | 0,58 |
| **12** | Ballıca-Ballıca | 18 | 0,76 | 0,36 | 0,65 |
| **13** | Bazarçay-Eyvazlar | 37 | 20,4 | 0,17 | 0,44 |
| **14** | Şəlvə-Pirican | 1 | 2,60 | - | - |
| **15** | Həkəri-Qaracanlı | 5 | 14,6 | 0,26 | 0,44 |
| **16** | Həkəri-Abdallar | 37 | 10,7 | 0,27 | 0,05 |
| **17** | Həkəri-Laçın | 32 | 10,8 | 0,27 | 0,08 |
| **18** | Kavirtuçay-Maniklu | 9 | 0,20 | 0,44 | 0,64 |
| **19** | Köndələnçay-Qırmızı Bazar | 33 | 0,65 | 0,43 | 1,98 |
| **20** | Köndələnçay-Dövlətyarlı | 1 | 1,99 | - | - |
| **21** | Oxçuçay-Qafan | 26 | 9,82 | 0,27 | 0,50 |
| **22** | Pitiket-Badara | 17 | 0,24 | 0,62 | 3,59 |
| **23** | Qarqarçay-Əsgəran | 14 | 3,46 | 0,65 | 1,13 |
| **24** | Qarqarçay-Lisoqorsk | 4 | 0,02 | 1,36 | 7,29 |
| **25** | Qarqarçay-Xocalı | 26 | 3,25 | 0,45 | 1,32 |
| **26** | Qarqarçay-Ağa körpü | 49 | 1,72 | 0,39 | 0,66 |
| **27** | Xaçınçay-Vəngli | 24 | 1,25 | 0,24 | 0,25 |
| **28** | Traket-Kesalar | 2 | 0,08 | - | - |
| **29** | Xaçınçay-Kolatak | 12 | 3,08 | 0,46 | 2,26 |
| **30** | Xaçınçay- Rozdərə | 25 | 2,15 | 0,38 | 0,29 |
| **31** | Zabuxçay-Zabux | 32 | 5,23 | 0,14 | 0,61 |
| **32** | Zabuxçay-Minkənd | 20 | 2,68 | 0,19 | 0,47 |

SPSS Statistics proqramında Qarabağ çaylarının orta illik axım sıralarının tezliyi təhlilinə görə ərazi çaylarının axımı üzərində aparılmış hidrometrik məlumatları üç qrupa bölmək olar: birinci hissəyə - uzun sıralı hidrometrik müşahidələrə əsaslanan məlumatlar (Tərtər-Suqovuşan, Bazarçay-Eyvazlar, Həkəri-Abdallar, Həkəri-Laçın, Köndələnçay-Qırmızı Bazar, Zabuxçay-Zabux), ikinci hissəyə qısa sıralı və keyfiyyətli hidrometrik müşahidə məlumatları (Tərtər-Vaqauz körpüsü, Tərtərçay-(Çardaqlı) Maqavuz, Ballıca-Ballıca, Levçay-Qamışlı, Oxçuçay-Qafan, Pitiket-Badara, Qarqarçay-Xocalı, Xaçınçay-Vəngli, Xaçınçay-Rəzdərə, Quruçay-Tuğ, Tutqun-Mənsəb, Zabuxçay-Minkənd), üçüncü hissəyə isə qısa sıralı və keyfiyyəti nisbətən aşağı olan hidrometrik müşahidə məlumatlarını (Tərtərçay-İstisu, Badaraçay-Xansın, Şəlvə-Piracan, Həkəri-Qaracanlı, Kavirtuçay-Maniklu, Köndələnçay-Dövlətyarlı, Qarqarçay-Əsgəran, Qarqarçay-Lisoqorsk, Traket-Kesalar, Xaçınçay-Kolatak) aid etmək olar. Sıraların tezliyi təhlil olunduqdan sonra hər bir çay üçün paylanma parametrlərinin qiyməti hesablanmışdır. Təhlil nəticəsində müəyyənləşdirilib ki, bir sıra məntəqələrdə müşahidə müddəti arasında çoxsaylı fasilələr mövcuddur (Köndələnçay-Qırmızı Bazar, Qarqarçay-Ağa körpü, Atakürd-Tuğ, Quruçay-Tuğ, Bazarçay-Eyvazlı və s.)

Ərazi çaylarının və yeraltı sularının ehtiyatları müxtəlif müəlliflər tərəfindən hesablanmışdır (Велиев, 1961; Рустамов и др., 1969; Рустамов и Кашкай, 1989; Иманов, 2000; İmanov və Ələkbərov, 2017). Ərazinin 30 ilə yaxın işğalda qalması digər təbii ehtiyatlar kimi çayların su ehtiyatlarının yenidən hesablanması zərurətini ortaya çıxarır. 1969-cu ildə aparılmış qiymətləndirməyə görə Qarabağın su balansı iki hidroloji rayon üçün qiymətləndirilmişdir. Bu qiymətləndirməyə əsasən Qarabağın səth su ehtiyatı 1,42 $km^3$-dir. Bunun 0,63 $km^3$-i çayların səth axımının payına, 0,79 $km^3$-i isə yeraltı axımın payına düşür. Araşdırmalar göstərir ki, Qarabağ ərazisinə 4,18 $km^3$ yağıntı düşür ki, bunun 1,42 $km^3$ çay axımına, 4,26 $km^3$ buxarlanmaya sərf olunur.

Ərazinin su balansı müfəssəl şəkildə 1978-ci ildə yenidən qiymətləndirilmişdir (Рустамов и Кашкай, 1978). Bura Qarabağın düzən əraziləri də daxil edilmişdir . Bu qiymətləndirmə zamanı Qarabağ ərazisinə 9,59 $km^3$ yağıntı düşür ki, bunun 1,80 $km^3$ çay axımına, 7,79 $km^3$ buxarlanmaya sərf olunur. Bu iki qiymətləndirmənin təhlili zamanı düşən yağıntı arasındakı fərq 5,41 $km^3$, çay axımı arasındakı fərq 0,38 $km^3$, cəm buxarlanma arasındakı fərq isə 3,53 $km^3$ təşkil edir. Bu fərqin səbəbi ikinci qiymətləndirmə zamanı müşahidə aparılmayan ərazilərin məlumatlarının əlavə olunması və suölçmə məntəqələrinin sayının artırılmasıdır.

Öyrənilən çayların mənsəblərində hidroloji ölçmələr aparılmadığından ayrı-ayrı çayların və ümumiyyətlə bütün ərazinin su ehtiyatının hesablanması mürəkkəb məsələdir. Bunun üçün hesablamada axım modulunun ərazinin orta hündürlüyündən asılılıq qrafiklərindən istifadə olunmuşdur. Bu bircins hidroloji rayon üçün aparılmışdır. Bundan başqa, mənsəbə yaxın müşahidə məntəqəsi olan çaylarda su ehtiyatları həmin məntəqələrdəki su sərflərinin sıralarına görə hesablanmışdır. Bunun üçün ilkin mərhələdə axımın Qarabağın oroqrafik xüsusiyyətlərindən asılı olaraq hidroloji rayonlaşdırılması aparılmışdır. Təhlil zamanı iki hidroloji rayon müəyyənləşdirilmişdir. Birinci hidroloji rayon Tərtərçay-Quruçay hidroloji rayonu, ikinci rayon isə Həkəri-Oxçuçay hidroloji rayonu (şəkil 2).




Şəkil 2. Qarabağda axımın hündürlükdən asılı olaraq dəyişməsinə əsasən hidroloji rayonlaşdırılması

Ərazidə hər bir çayın su ehtiyatı hesablanaraq müqayisə olunmuşdur (cədvəl 5).

**Cədvəl 3. Qarabağ çaylarının su ehtiyatları**

| № | Çay-məntəqə | Hövzənin sahəsi, $km^2$ | Hövzənin orta hündürlüyü, m | Su ehtiyatları | | |
|---|---|---|---|---|---|---|
| | | | | $m^3/s$ | $km^3$ | $l/s*km^2$ |
| 1 | Tərtər | 2460 | 1920 | 18,3 | 0,58 | 7,44 |
| 2 | Quruçay | 203 | 1590 | 1,69 | 0,05 | 0,25 |
| 3 | Köndələnçay | 154 | 1130 | 0,65 | 0,02 | 4,22 |
| 4 | Oxçuçay | 685 | 2430 | 9,82 | 0,31 | 14,3 |
| 5 | Qarqarçay | 783 | | 3,46 | 0,11 | 4,42 |
| 6 | Xaçınçay | 175 | 1780 | 1,25 | 0,04 | 7,14 |
| 7 | (Bəsitçay) Xaçınçay | 266 | 1710 | 2,15 | 0,07 | 8,08 |
| 8 | Həkəri | 2300 | 1735 | 14,6 | 0,46 | 6,35 |
| **Cəmi** | | | | **51,9** | **1,64** | **52,2** |

Beləliklə, 1969-cu ildə aparılmış qiymətləndirməyə görə Qarabağın səth su ehtiyatı 1,42 $km^3$ (Рустамов и др., 1969), 1978-ci ildəki qiymətləndirməyə görə isə 1,80 $km^3$ olmuşdur. Tərəfimizdən aparılmış qiymətləndirməyə görə isə 1,64 $km^3$ olduğu müəyyənləşdirilmişdir. Belə ki, bizim qiymətləndirmə ilə 1969-cu ildə aparılan qiymətləndirmə arasındakı 0,22 $km^3$ təşkil edir. 1978-ci ildə aparılmış qiymətləndirmə ilə müqayisə etdikdə isə bizim qiymətləndirmədən 0,16 $km^3$ çox alınır. Bu fərqlərin alınmasına səbəb bizim qiymətləndirməmizin faktiki hidroloji müşahidə məntəqələrinin məlumatlarına əsasən aparılmasıdır. Həm 1969-cu ildəki qiymətləndirmədə (Рустамов и др., 1969), həm də 1978-ci ildəki qiymətləndirmədə (Рустамов и Кашкай, 1978) axım ilə sutoplayıcı hövzənin orta hündürlüyü arasındakı əlaqələrdən istifadə olunmuşdur. Beləliklə, ərazidə aparılmış bütün hidroloji müşahidə məlumatları əsasında Qarabağın çay su ehtiyatının 1,64 $km^3$ olduğu qiymətləndirilmişdir.

Məlum olduğu kimi artıq Qarabağ ərazisində müxtəlif təsərrüfat tədbirlərinin o cümlədən, su təsərrüfat tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Su təsərrüfatı tədbirləri həyata keçirilən zaman əsas məsələ ərazinin su təhlükəsizliyinin təmin olunmasıdır. Bu baxımdan ərazidə su balansı elementlərinin o cümlədən, su ehtiyatının hündürlüyə görə dəyişməsinin qiymətləndirilməsi su təsərrüfatı tədbirlərinin planlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Qarabağ ərazisində atmosfer yağıntılarının ən yüksək resurs potensialı 200 m mütləq yüksəklikdən aşağı olan ərazilərdə (2885 mln.$m^3$) və 1000-2000 m mütləq hündürlükdə (2323 mln.$m^3$) müşahidə edilir. Çay axımının ən yüksək potensialı isə 1000-2000 m mütləq hündürlükdə (718 mln. $m^3$) və 2000-3000 m mütləq hündürlükdə (679 ml.$m^3$) olduğu müəyyənləşdirilmişdir.

Buxarlanmanın təhlili zamanı ən yüksək buxarlanmanın 200 m mütləq yüksəklikdən aşağı olan ərazilərdə (2875 mln.$m^3$), 200-500 m mütləq hündürlükdə (1671 mln.$m^3$) və 1000-2000 m mütləq hündürlükdə (1605 mln.$m^3$) olduğu müəyyənləşdirilmişdir.

Ərazidə su təsərrüfatı tədbirləri həyata keçirilən zaman həmçinin ərazinin su təhlükəsizliyinin təmin olunması məqsədi ilə ərazi üçün atmosfer yağıntılarının və çay axımının resurs potensialı təhlil edilərək xəritələri tərtib edilmişdir (şəkil 3 və 4). Xəritənin tərtibi zamanı hər $km^2$-a düşən atmosfer yağıntılarının və çay axımının potensialı müəyyənləşdirilmişdir. Hesablanmış qiymətlərə əsasən ərazinin oroqrafik xüsusiyyətlərindən asılı olaraq atmosfer yağıntılarının və çay axımının potensialı xəritələri tərtib edilmişdir. Atmosfer yağıntıları resursunun əsasını 2000 m-dən yüksək olan ərazilərdə olduğu, bu hündürlükdə atmosfer yağıntılarının resurs potensialının modulu 0,75 mln.$m^3$*il/$km^2$-dan yüksək olduğu müəyyənləşdirilmişdir.

Qarabağda iqtisadi inkişafın davamlı olması və su ehtiyatlarına artan tələbatın ödənilməsi üçün bu ehtiyatların səmərəli istifadəsi olduqca vacibdir. 2030-cu ilədək Azərbaycan üçün əhəmiy-

yət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Su sektoru, o cümlədən Su təchizatı və tullantı sularının idarə edilməsinə xüsusi diqqət yetirilmişdir. Bu sənəd 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir. Sənəddə sahə üzrə fəaliyyət səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi üzrə təkliflər verilmişdir.







**Şəkil 3. Qarabağda atmosfer yağıntılarının resurs potensialı xəritəsi**

**Şəkil 4. Qarabağda çay axımının resurs potensialı xəritəsi**

Ümumən, Qarabağ ərazisində çay axımının resurs potensialı ən minimal ≤0,02 mln.$m^3$*il/$km^2$ və ən maksimal kəmiyyət 3000 m-dən yüksək ərazilərdə olduğu müəyyən edilmişdir.

Su sektoru üçün Strateji hədəflər kimi "Yüksək səviyyəli su idarəetmə strukturunun yaradılması" və "Su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi" müəyyən olunmuşlar.

**Nəticə və təkliflər**

Beləliklə, Qarabağda həyata keçirilən ekoloji siyasətin mühüm istiqamətlərindən olan su ehtiyatlarından səmərəli istifadə və su mənbələrinin çirklənməsinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər ölkə əhalisinin keyfiyyətli və dayanıqlı suya olan tələbatının ödənilməsini yaxşılaşdırmaqla bərabər, ekosistemin bütövlüyünün qorunub saxlanmasını daha da gücləndirəcəkdir.

Tədqiqat nəticəsində Qarabağ çaylarının su ehtiyatının 1,64 $km^3$ olduğu müəyyənləşdirilmişdir ki, bu da Azərbaycanın ümumi su ehtiyatının 5,31%-ni, yerli su ehtiyatının isə 15,9%-ni təşkil edir. Ərazi çaylarında orta çoxillik su sərfinin 0,65-18,3 $m^3$/s arasında, axım modulunun isə 0,25-14,3 l/s*$km^2$ arasında tərəddüd etdiyi qiymətləndirilmişdir.

Qarabağın hidroqrafik xüsusiyyətlərinin təhlili və su ehtiyatlarının qiymətləndirilməsi nəticəsində müəyyən olunmuşdur ki, su təsərrüfatı tədbirləri həyata keçirilən zaman su təsərrüfat obyektlərinin normal istismar rejimini təmin etmək, ərazinin ekoloji təhlükəsizliyinə və davamlı su təminatına nail olmaq üçün 700-1500 m hündürlükdə aparılması məqsədəuyğun hesab olunur. Çünki bu hündürlüklər arası ərazi həm atmosfer yağıntılarının həm də, çay axımının resurs

potensialı ilə kifayət qədər yaxşı təmin olunmuşdur. Bundan əlavə bu hündürlüklərdə aparılan tədbirlər nəticəsində su təminatında özüaxımlı rejimə nail olmaqla, enerji istehlakını minimuma endirmək olar.

Qarabağın su ehtiyatlarının təhlili zamanı su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, sudan inteqrasiyalı və davamlı istifadə, tullantı sularının idarə olunması sahəsində mövcud problemlərin aradan qaldırılması məqsədilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, ərazidə məskunlaşacaq əhali arasında maarifləndirmə işlərinin aparılması məqsədəuyğun hesab edilir. Ərazinin su təhlükəsizliyinin təmin olunması üçün ərazidə həyata keçirilən müxtəlif tədbirlər zamanı su mənbələrinin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə su ehtiyatlarından səmərəli istifadə, qlobal su problemləri üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi məqsədəuyğun hesab edilir.

## İstinadlar


1. İmanov F.Ə., Ələkbərov A.B. Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi. Bakı: Mütərcim, 2017, 352 s.
2. İsmayılov R.A. Qarabağ Çaylarının su ehtiyatları. “Su problemləri: elm və texnologiyalar” Beynəlxalq resenziyalı elmi jurnalı. Bakı, № 1(17) 2021, s. 20-37.
3. Məmmədov M.Ə. Azərbaycanın hidroqrafiyası. Bakı, “Təhsil” NPM, 2012, 254 s.
4. Rüstəmov S.H. Azərbaycan SSR-nin çayları və onların hidroloji xüsusiyyətləri. Bakı, Azər. SSR EA-nın nəşri, 1960, 196 s.
5. Важнов А.Н. Средний многолетний сток рек Армянской ССР и его внутригодовое распределение, Ереван, 1956, 156 с.
6. Велиев Н.А. Минимальный сток рек Карабаха и его вертикальное зональное распределение. Труды ИГ, Баку, 1961, с. 141-160.
7. Рустамов С.Г., Джафаров Б.С., Гаджибеков Н.Г. Водный баланс бассейнов рек Малого Кавказа. Баку, Элм, 1969, 163 с.
8. Рустамов С.Г., Кашкай Р.М. Водный баланс Азербайджана. Баку, Элм, 1978, 110 с.
9. Рустамов С.Г., Кашкай Р.М. Водные ресурсы Азербайджанской ССР. Баку, Элм, 1989, 180 с.
10. Иманов Ф.А. Минимальный сток рек Кавказа. Баку, «Нафта-spесс», 2000, 298 с.
11. Мамедов М.А. Расчеты максимальных расходов воды горных рек. Л.: Гидрометеоиздат, 1989, 182 с.

İSMAYILOVA Bahar

UNEC Zaqatala filialı, doktorant, əməkdar müəllim

# “AĞILLI ŞƏHƏR” VƏ “AĞILLI TƏHSİL” ÜZRƏ İNKİŞAF TENDENSİYALARI

**Xülasə:** Məqalədə “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyasının tətbiqi ilə elm və texnologiyanın yüksək inkişafı nəticəsində şəhər və kəndlərin əhalisinin həyat tərzinin fərqli formada olacağından danışılır. “Ağıllı şəhər”, “Ağıllı kənd” layihələrinin tətbiqinin Qarabağ regionunun inkişafında mühüm rol oynayacağı qeyd edilir. Bu istiqamətdə beynəlxalq təcrübə geniş təhlil edilmiş və nümunələr göstərilmişdir. Məqalədə “Smart School” elektron təhsil sisteminin inkişafından bəhs edilir və müəyyən təkliflər verilir.

**Açar sözlər:** “Ağıllı şəhər”, “ağıllı təhsil”, Qarabağ, inkişaf, İKT, layihə, konsepsiya, texnologiya və s.

→

## Giriş

Məlumdur ki, informasiya cəmiyyətinin, biliyə əsaslanan iqtisadiyyatın inkişafı bir çox sahələrdə, o cümlədən insanların düşüncə və davranışlarında ciddi dəyişikliklərə səbəb olmuşdur. Belə ki, cəmiyyətin inkişafı, rəqəmsal əsrin tələblərinə uyğun olaraq təhsilalanların aktiv öyrənmə strategiyalarını, dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək, təhsilalanın sərbəst öyrənmə, yaradıcı fəaliyyət göstərmə, liderlik bacarıqlarının formalaşması, problemlərin kompleks həlli, koordinasiya və vaxtın düzgün idarəedilməsi, resurslardan səmərəli istifadə kimi bacarıqlara malik olmasını təmin etmək təhsil sisteminin əsas vəzifələrindəndir. Bir məfhum kimi təhsil praktik fəaliyyət üçün gərəkli olan biliklərin, müvafiq bacarıq və səriştələrin məcmusudur.

YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. 1916-cı ildə nəşr edilmiş “Demokratiya və Təhsil” əsərində amerikalı ictimai xadim Con Dyui yazırdı: “Təhsil həyata hazırlıq deyil, təhsil həyatın özüdür. [4]

Artıq neçə illərdir ki, sənaye cəmiyyətinin təhsil paradiqmasından informasiya cəmiyyətinin təhsil paradiqmasına keçid baş vermişdir və artıq təhsil şəxsiyyətin nailiyyətidir, onun həyatda özünü realizə etməsi, şəxsi karyera qurması, əsas hüquq və azadlıqlarından istifadə etməsi üçün bir vasitədir. Təhsilin məzmunu, məqsədləri və metodlarına dair paradiqmalar yenilənmişdir. Həmin yeni paradiqmaların mahiyyəti Böyük 8-liyin 2006-cı il Sankt Peterburq sammitində qəbul edilmiş “XXI əsrdə İnnovativ Cəmiyyətlər üçün Təhsil” adlı müraciətində belə ifadə olunmuşdur: “Təhsil insan inkişafının təməlində durur. XXI əsrdə hər bir dövlətin iqtisadi və sosial tərəqqisi cəmiyyətin bütün üzvlərini sürətlə dəyişən dünyada irəli getməyə hazırlayacaq təhsil

ilə təmin edə bilməsindən asılıdır. İnnovasiya cəmiyyəti bu cəmiyyətin üzvlərini dəyişikliklərə uyğunlaşmağa hazırlamalıdır" [5].

**Təhlil və qiymətləndirmə**

Son illərdə ölkəmizdə təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğun olması üçün davamlı olaraq islahatlar aparılır, müxtəlif istiqamətli işlər görülür. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da qeyd olunur ki, son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi ön plana çəkilir [1].

Təhsilin bu formada təşkili ilə bağlı həyata keçirilən məqsədyönlü fəaliyyət, layihələr haqqında danışarkən qeyd etmək lazımdır ki ölkəmizdə də idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın və monitorinqin artırılması, ictimai iştirakçılığın genişləndirilməsi sahəsində islahatlar uğurla həyata keçirilir.

Ölkədə sosial-iqtisadi və inzibati sahələrdə davamlı olaraq həyata keçirilən tədbirləri, o cümlədən biznes mühitinin əlverişliliyinin daha da yüksəldilməsi, əmlakın qeydiyyatının asanlaşdırılması, elektron satınalma, kreditlərin əlçatanlığı, vergi və gömrük inzibatçılığının sadələşdirilməsi, biznes dairələrinə göstərilən dövlət dəstəyinin artırılması sahəsində görülən tədbirləri nüfuzlu beynəlxalq təşkilatlar yüksək qiymətləndirmiş, "Doing Business" hesabatına əsasən Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilmişdir [7].

Son illərdə informasiya-kommunikasiya texnologiyaları (İKT) cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Bu texnologiyaların kompleks şəkildə istifadəsi və məlumatların təhlili şəhər və kənd mühitində daha ağıllı və operativ qərarların verilməsinə imkan yaradır. Bu gün bir çox inkişaf etmiş ölkələr "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinə üstünlük verir. Azərbaycanda "ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi Prezident İ.Əliyevin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapmışdır [8]. 2021-ci il aprelin 19-da Azərbaycan Prezidenti "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncam imzalayıb [10].

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" ölkəmizdə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi məqsədilə həyata keçirilən islahatların tərkib hissəsi olmaqla, burada nəzərdə tutulan tədbirlər dövlət xidmətlərinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi, ictimai nəzarətin gücləndirilməsi, korrupsiyanın qarşısının alınması, maliyyə şəffaflığının artırılması, həmçinin informasiya əldə edilməsinin təmin olunması sahələrində mühüm töhfə verəcəkdir.

Ölkə Prezidentinin 2021-ci il aprelin 19-da imzaladığı "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncamı da məhz bu yeni layihənin effektiv həyata keçirilməsi məqsədini daşıyır. Sərəncamda qeyd olunur ki, müasir telekommunikasiya, sensor, "Böyükhəcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-biri ilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır.

Müasir dövrdə dünya urbanizasiya prosesi gedir. Bir çox insanlar əhalisi az olan bölgələrdə yaşamaq istəmir, böyük və müasir şəhərlərə üstünlük verirlər. İndi dünya əhalisinin təxminən 50%dən çoxu şəhərlərdə yaşayırsa, 2050-ci ilə qədər bu rəqəmi 70%-ə qədər yüksələcəyi ehtimal edilir. Şəhər əhalisinin artımı ilə paralel sakinlərin tələbləri də artır: rahat yaşayış üçün münasib infrastruktur, ekoloji təhlükəsizliyin qorunması və s. ehtiyacı olur [12].

“Ağıllı” anlayışı bu kontekstdə təkcə yeni texnologiyaların tətbiqi deyil, həm də sakinlər ilə şəhər arasında hər gün ətrafında baş verən proseslərə təsir edə biləcək bir dialoqun yaradılması kimi qəbul olunmalıdır. Ağıllı şəhər vətəndaşların ehtiyaclarını effektiv şəkildə ödəmə qabiliyyətinə malikdir.

U.E.Tausendə görə “ağıllı şəhərlər” sistem deyil, vasitədir. Yəni, belə şəhərlərin vahid, mütləq strukturu olmur, daha praktik və daha rahat, əlverişli olması üçün bu strukturu daim dəyişirlər, təkmilləşdirirlər. Belə sistem ABŞ və Avropa ölkələrinin “ağıllı şəhərlərində” olduqca populyardır. Məsələn, Almatıda “A-Park” layihəsi ilə 10 min dayanacaq yeri üçün 120-dən çox parkomat quraşdırılıb. Yeni sistem sayəsində mobil əlavələr vasitəsi ilə dayanacaq üçün ödəniş də etmək olur.

“Ağıllı şəhər” bu və ya digər şəkildə hər kəsə təsir edir. Gündə neçə dəfə şəhərdə baş verən proseslərlə qarşılaşdığınızı düşünün: ictimai nəqliyyatdan istifadə, zibil atmaq və ya sadəcə şəhər havası ilə nəfəs almaq. Bütün bunlar “Ağıllı şəhər” anlayışına daxil olan texnologiyalardan istifadə etməklə izlənilə, təkmilləşdirilə, optimallaşdırıla bilər. GPS-naviqatorların köməyi ilə ictimai nəqliyyatın hərəkətini izləyə bilərsiniz. Ağıllı sensorlar ilə tullantıların idarə olunmasını, temperaturu, havanın çirklənməsini və ya səs-küy səviyyəsini real vaxtda izləmək və buna uyğun olaraq göstəriciləri artırmaq da olar. “Ağıllı şəhər”in sakinləri daha rahat, sakit, təhlükəsiz, ekoloji təmiz mühitdə yaşayırlar. Eyni zamanda “Ağıllı şəhər”də aktiv və öz yaşayış mühitini yaxşılaşdıraraq şəhərin formalaşması proseslərində iştirak edən (tənbəl olmayan) “ağıllı sakinlərin” yaşaması da son dərəcə vacibdir. Məsələn, Almatıda WeAlmaty meydanı var, burada hər bir şəhər sakini onu təkmilləşdirmək üçün ideyalarını, təkliflərini bildirə, müxtəlif sahələr üzrə mütəxəssislər, ekspertlərlə fikir mübadiləsi edə və sosial liderliyi öyrənə bilər. Əsas məsələ şəhərin inkişafına töhfə verməkdir.

Dünyada, hər bir qitədə Latın Amerikasından Okeaniyaya qədər “ağıllı şəhərlər” var. İlk dəfə Avropada “ağıllı şəhərlər” yaradıldı. Bu konsepsiya sürətlə dünyanın digər ölkələrinə yayılmağa başladı. Asiyada Sinqapur və Tokio, Amerikada New York və Çikaqo, Avropada Barselona və Amsterdam - bütün bu şəhərlər “ağıllı şəhərlərin” inkişafı üçün proqramları uğurla həyata keçirir və populyarlaşdırırlar. 2016-cı ildə ekspertlərin apardığı tədqiqatların nəticələrinə görə, 2020-ci ilə qədər dünyada təxminən 600 ağıllı şəhər olacağı haqda proqnoz verilmişdi [9].

“Ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyasının əsas ideyası yaşayış məntəqəsinin bütün xidmət və obyektlərini vahid kompüterləşdirilmiş sistemdə birləşdirib idarə etməkdən ibarətdir. Həmin ərazidə göstərilən xidmət və yerləşən obyektlərin fəaliyyəti nəticəsində formalaşan və müvafiq qərarların real vaxt rejimində qəbul olunması üçün lazım olan məlumatlar informasiya-kommunikasiya və Əşyaların İnterneti (İoT) texnologiyalarından istifadə edilməklə toplanır və istifadə olunur. Nəticədə vətəndaşlar üçün daha asan və təhlükəsiz həyat təmin edilir, sosial və iqtisadi keyfiyyət yaxşılaşır.

Dünya Bankının apardığı araşdırmaların nəticələrinə görə Avropanın və Orta Asiyanın bir çox ölkələrindən fərqli olaraq, Azərbaycanda kənd əhalisi arasında gənclər say baxımından üstünlük təşkil edir və kənd yerlərində mobil əlaqə yüksək səviyyədədir. Ölkəmizin Avropa İttifaqı, Rusiya və Orta Şərq bazarlarına yaxın strateji coğrafi mövqeyi, habelə ixracat və turizmin inkişafı üçün zəmin yarada biləcək kənd təsərrüfatı məhsulları, misilsiz sənətkarlıq və mədəni irsi bu prosesin sürətlənməsinə təkan verəcək. “Ağıllı kənd” sistemi kənd ərazilərində uzaq məsafənin və əhali sıxlığının yaratdığı məkan maneələrini aşmağa şərait yaradacaq.

“Ağıllı kənd” layihəsinin tətbiq edilməsi kənd yerlərinə yatırılan investisiyanın miqdarını çoxaldacaq, texnoloji yeniliklərin köməyilə məhsuldarlıq və göstərilən sosial xidmətlərin çeşidliliyini artıracaq, yüksək sürətli fiberoptik internet və inkişaf etmiş rabitə xidmətlərinin əhatə dairəsini genişləndirəcəkdir. Həmçinin bərpa olunan enerji mənbələrindən istifadə edilməsi imkanları artacaq, ekoloji cəhətdən təhlükəsiz məhsulların istehsalında ciddi artım özünü göstərəcək”. Azərbaycanda fəaliyyət göstərən Beynəlxalq Ekoenerji Akademiyasında da yaşıl iqtisadiyyat və ağıllı ev layihələri üzrə müəyyən işlər görülməkdədir. Hal-hazırda Azərbaycanın Energetika Nazirliyi yanında Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı üzrə proqramın hazırlanması istiqamətində də işlər görülür [2].

“Ağıllı şəhər”, “Ağıllı kənd” layihələrinin tətbiqi Qarabağ regionunun inkişafında mühüm rol oynayacaq. İşğaldan azad olunmuş ərazilərdə reallaşdırılacaq bu layihələr bölgənin iqtisadi imkanlarının, infrastrukturunun, orada göstəriləcək xidmətlərin və idarəetmə sisteminin yaxşılaşdırılmasına yeni imkanlar yaradılmasını nəzərdə tutur. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində bir çox işlərə start verilib. Prezident İ.Əliyev tərəfindən Zəngilan rayonunun Ağalı kəndlərinin ərazisində “Ağıllı kənd” layihəsinin təməli qoyulub, tikinti işləri davam etdirilir. Burada hər şey sıfırdan qurulmağa başladığından nəticədə texnoloji qaydalara əməl edilən mükəmməl görünüş və infrastruktur ortaya çıxacaq. İlk mərhələdə Ağalı kəndində həyata keçiriləcək layihənin icrası 5 komponent üzrə aparılacaq: [11].




***Şəkil 1** Ağıllı kəndin komponentləri*
***Qeyd.** Sxem müəllif tərəfindən tərtib edilib.*

Əsas məqsəd isə elektron xidmətlərdən istifadənin genişləndirilməsi, kəndlərdə və regionun ucqar ərazilərində davamlı inkişafın təmin edilməsidir. “Ağıllı şəhər”, yaxud “Ağıllı kənd” konsepsiyasının tətbiqi ilə elm və texnologiyanın yüksək inkişafı nəticəsində şəhər və kəndlərin əhalisinin həyat tərzi fərqli formada olacaq. Məsələn, Yaponiyanın Fudzisava yaşayış məntəqəsi dünyada “ağıllı şəhər” kimi tanınır. Tokiodan bir saatlıq məsafədə yerləşən bu qəsəbə gələcəyin enerji səmərəsi, ekoloji və rahat şəhərləri üçün model kimi düşünülüb. 3 min nəfər əhalisi olan şəhərin bütün evlərində yalnız günəş enerjisindən istifadə edilir. Əsas nəqliyyat vasitələri elektriklə işləyən avtomobil və velosipeddir. Küçələr sensorlu işıqlandırma sistemləri ilə təchiz olunub. Zəlzələ və digər fövqəladə hadisələr zamanı şəhər özünü 3 gün ərzində saxlaya bilir.

Ölkəmizdə də “ağıllı şəhər” konsepsiyasının tətbiqi ilə bağlı təkliflər hazırlanır. Layihə ixtisaslı kadrların işlə təmin olunması və onlar üçün daha çox iş yerlərinin yaradılmasına imkan yaradır. Başqa sözlə, bu, ixtisaslı kadrların daha qısa zamanda işlə təmin olunması sistemidir. Əsas üstünlük odur ki, “ağıllı şəhər”in özündə məşğulluğun təmin edilməsi və kadrların işlə təminatına imkan yaradılır [13].

3 Mart 2020-ci ildə Rusiya Tikinti Nazirliyi ilk dəfə şəhər iqtisadiyyatının rəqəmsallaşma indeksini “Şəhərlərin IQ”-nü təqdim etdi. Nazirlik bu indeks əsasında Rusiya şəhərlərinin rəqəmsallaşdırılması reytinqini tərtib etdi. Reytinq, ölkənin şəhərlərində 2018-ci ildəki vəziyyəti əks etdirirdi. Bu prosesdə ümumilikdə 191 şəhər iştirak etmişdir. 1 milyon və ya daha çox əhalisi olan ən böyük şəhərlər arasında reytinqdə ilk yerləri Moskva, Kazan və Sankt-Peterburq tuturdu [14].




***Şəkil 2** "Ağıllı" texnologiyaların payı*
***Qeyd.** Diaqram müəllif tərəfindən tərtib edilib.*

Hələ 2018-ci ildə Moskva müəllimləri və məktəbliləri sübut etdilər ki, təhsil sahəsində Moskva dünyanın ən uğurlu və "ağıllı şəhərləri" arasında tanınan liderlərdən biridir. Beynəlxalq PISA qiymətləndirməsi zamanı son testlərin nəticələrinə görə, oxuyub- anlama və riyazi savadlılıq baxımından Moskva məktəbləri dünyanın ən yaxşı altı məktəbi sırasında idi.

KPMG beynəlxalq konsaltinq şirkətinin 2016-cı il üçün son araşdırmaları informasiyalaşdırma sferasında Moskva məktəblərinin planetin ən qabaqcıl, «ağıllı» meqapolisləri-London, New York və Hong Kong ilə eyni səviyyədə olduğunu təsdiqlədi. Hətta məktəblərin infrastrukturu və idarə edilməsində tətbiq olunan «ağıllı» texnologiyaların payı Rusiyada 90%-dir, Londonda isə oxşar səviyyə 80%-i, Honq Konqda - 70%-i və Nyu -Yorkda - 60%-i keçmirdi [9].




Gamifikasiya müasir elektron təhsilin inkişafındakı əsas tendensiyalardan biridir. Gamifikasiyanın əhatə dairəsi çox genişdir [18]. Müxtəlif sferalarda intellektual oyunlardan istifadə effektiv nəticələrin alınmasına əhəmiyyətli dərəcədə təsir edir [6].

"Smart School" elektron təhsi sistemi rəqəmsal texnologiyaların köməyi ilə bilik və bacarıqların öyrədilməsi sistemidir. Sistemin məktəblərdə tətbiq edilməsinin əsas məqsədi müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə əsaslanan rahat və əlverişli mühitin yaradılmasıdır.

"Smart School" sistemi avtomatlaşdırılmış informasiya sistemləri sinfinə aiddir. Texniki cəhətdən, sistem informasiya təminatı da daxil olmaqla, proqram-aparat kompleksi kimi həyata keçirilir və onu funksional olaraq aşağıdakı komponentlərə bölmək olar: [16].




***Qeyd**: Sxem müəllif tərəfindən tərtib edilib.*

İnteraktiv dərslərdə planşet və kompüterlərdən istifadə etməklə iş birliyi, komanda şəklində fəaliyyət reallaşdırılır və maraqlı bir öyrənmə mühiti təmin edilir. Planşetlərlə dəstəklənən həvəsləndirici, motivasiyaedici atmosfer, qrup tapşırıqları, müzakirələr sinifdə əməkdaşlıq mühitinin yaradılmasına kömək edir. Müəllimlər tez-tez test və müxtəlif vasitələrdən istifadə etməklə faktiki qiymətləndirmə aparır [3].




Qeyd. Diaqram müəllif tərəfindən tərtib

“Ağıllı Məktəb” öyrənməyə yeni bir yanaşma olmaqla, texnologiyaya az çıxışı olan kənd yerlərində məktəblərin, öyrənənlərin problemlərini aradan qaldırmağı hədəfləyir.

Dünya üzrə “Ağıllı Məktəb”lərdə təhsil alan şagirdlərin sayı 4.131.285 nəfərdir (2020-ci ilin statistik göstəriciərinə görə). Aşağıdakı diaqram bu məktəblərin fəaliyyət göstərdiyi regionları əks etdirir [17].

**Nəticə**

“Ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin Qarabağda həyata keçirilməsi Qarabağımızın dünyada misli olmayan məkana çevrilməsinə təkan verəcəkdir.

Qarabağda “Ağıllı Məktəb” yaradılması texnologiyaya az çıxışı olan kənd yerlərində məktəblərin, öyrənənlərin problemlərini aradan qaldırmağı hədəfləyir. “Ağıllı məktəb” Qarabağda kənddə və ucqar bölgələrdə yaşayan öyrənənlərin dünya ilə ünsiyyət qurmasına və yeni texnologiyalar vasitəsilə istedadlıların üzə çıxması, şagirdlərin potensialının maksimum dərəcədə artırmaları üçün dəstəkləyici bir mühit yaradacaqdır.

“Ağıllı sistem” davamlı olaraq öyrənən, təhlil edən, intellektual sistemdir. O, keçmişi, bu günü və gələcəyi uzlaşdıran, optimal qərarlar qəbul edən sistemdir. “Ağıllı” konsepsiyası öz-özlüyündə “ağıllı fəaliyyət” göstərən qurumların, komponentlərin birgə fəaliyyətini əks etdirir və bu komponentlərin “kəsişmə nöqtələri” vardır. Həmin “nöqtələri”ni tapıb o sahələrdə yarana biləcək vəziyyəti araşdırmaqla problemləri aradan qaldırmaq olar.

“Ağıllı şəhər” “ağıllı sistem”lərin (“ağıllı məktəb”, “ağıllı poliklinika”, “ağıllı mənzil istismar idarəsi” və s) çoxluğudur . Hər bir obyekt özü ağıllı sistem olaraq qlobal ağıllı sistemə (məsələn, “ağıllı şəhər”ə ) qoşulur. Obyektlərin müştərək, qarşılıqlı təsirinə əsaslanan fəaliyyət prosesində qlobal sistem ümumi problemləri (qarşılıqlı təsirlərin analizi ilə) həll edərək optimal həll yolunu tapır.

Təhsil ocağına gedən (məktəb, bağça və s.) uşaqların, insanların təhlükəsizliyini, onların hərəkət yollarının (məsələn, məktəbə-geriyə) təhlükəsizliyini təmin etmək üçün müxtəlif tədbirlər görmək, məsələn, videonəzarət sisteminin o istiqamətdə yaxşılaşdırılması, daha dəqiq izlənilməsi, svetafor sisteminin daha “ağıllılaşdırılması” və bu baxımdan şəhərin” ağıllı xəritə” sisteminin yaradılması bir çox problemlərin aradan qaldırılmasına səbəb ola bilər. “Ağıllı svetofor” sistemi elə idarə edilə bilər ki, fövqəladə hallar (qəzalar və s.) zamanı nəqliyyat vasitələri alternativ və tıxaclardan boşaldılmış yollardan istifadə edərək situasiyanı analiz edib optimal qərar verə bilsin, lazım olan obyektə daha tez çata bilsin. Uşaqları məktəbə aparmaq üçün xüsusi avtobuslardan istifadə olunsa və hər bir valideyn uşağın məktəbə getməyəcəyi təqdirdə “Ağıllı sistem”ə informasiya versə, avtobus o istiqamətə yönəlməz və zamana qənaət olunar.

“Ağıllı şəhər”də mütəmadi olaraq İKT bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsi ilə bağlı müxtəlif səviyyəli (məsələn, təhsilalanın yaşı və potensialına uyğun) təlimlərin keçirilməsi fikrimizcə vacibdir və effektiv nəticələr verə bilər.

**İstinadlar**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası”, 24 oktyabr 2013
2. Mehdialiyev AghaMehdi; Mazanova Ophelia, Ieee. On some problems of the creation and development of green technologies in Azerbaijan. 2013 7th İnternational conference on application of information and communication technologies (AICT) Book series: International Conference on Application of Information and Communication Technologies. 2013; Web of Science, Google Scholar: 438–442.
3. Huseynova A., & Mazanova, O. (2021). Expanding the application of cloud and mobile technologies for information exchange in the use of e-learning management systems. Economic and Social Development: Book of Proceedings, 99-103.
4. www.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/HDtextbook/5.pdf,
5. Statement of G8 Summit on “Education for Innovative Societies in the 21st Century”, St.

Petersburg, July 16, 2006, http://www.mofa.go.jp/policy/economy/summit/2006/education.html
6. Humeyir Ahmadov, Bahar Ismayilova, Rovshan Humbataliyev "The role of modern educational theories and computer technology in the development of intelligence", International Journal of Psychosocial Rehabilitation, Vol. 24, Issue 09, 2020 ISSN: 1475-7192
7. https://translate.google.com/translate?hl=ru&sl=az&u=http://www.aztv.az/az/news/1553/doing-business-2020-azerbaycan-en-islahatci-20-olke-sirasinda-markvideomark&prev=search&pto=aue)
8. "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı http://www.e-qanun.az/framework/44619
9. https://www.techrepublic.com/article/new-forum-seeks-to-unite-100-cities-in-standards-to-drive-smart-city-innovation/
10. https://president.az/articles/51179
11. https://science.gov.az/az/news/open/17052
12. https://www.un.org/development/desa/en/news/population/2018-revision-of-world-urbanization-prospects.html)
13. http://news.unec.edu.az/ekspert-reyi/7124-garabagda-agilli-sheher-konsepsiyasinin-tetbigi-bolgenin-inkishafini-daha-da-suretlendirecek
14. https://www.tadviser.ru/index.php/Статья:Рейтинг_умных_городов_в_России
15. https://www.mk.ru/social/2017/02/01/umnomu-gorodu-umnoe-obrazovanie.html)
16. https://idrak.com/az/solutions/smart-school-agilli-mekteb-elektron-tehsil-sistemi-2/
17. http://csr.samsung.com/en/programViewSs.do
18. https://www.calltouch.ru/glossary/geymifikatsiya/

**İSMAYILOVA Səhər**

Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatı, sektor müdiri

# AĞDAM RAYONUNUN RESURS POTENSİALI VƏ DAYANIQLI SOSİAL-İQTİSADİ İNKİŞAFI

**Xülasə:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət proqramları son 15 il ərzində sosial-iqtisadi baxımdan Azərbaycanı dünyada yüksək inkişaf nəticələri əldə edən ölkələr sırasında qərarlaşdırmışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşmış və Respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır. 2020-ci il 44 günlük vətən müharibəsi ərzində Ali Baş Komandan İlham Əliyevin düşmən üzərində çaldığı zəfər, bütöv Qarabağın azad edilməsi ölkəmizin qarşısında yeni-yeni imkanlar və perspektivlər açmışdır. Məqalədə Qarabağ iqtisadi rayonun mərkəzi şəhəri hesab edilən Ağdam rayonunun inkişaf proqramı çərçivəsində ağıllı şəhər layihəsi, yaşıl enerji, rəqəmsal iqtisadiyyat, uğurlu layihələr, sosial rifahın yaxşılaşması istiqamətində görüləcək işlər və bu proseslərin davamlı inkişaf perspektivləri təhlil edilmişdir. Eyni zamanda Ağdam rayonu ərazisində bərpa işlərin aparılması, Qarabağ iqtisadi rayonunun dayanıqlı iqtisadiyyatı və resurs potensialı tədqiq edilməkdədir.

**Açar sözlər:** Ağdam rayonu, dayanıqlı inkişaf, dövlət proqramı, resurs potensialı, iqtisadi inkişaf.

→

## Giriş

Ölkəmizin şəhər və rayonlarının dayanıqlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbəyə güclü zəmin yaratmışdır.

Qarabağın azad edilməsində Ali Baş Komandan İlham Əliyevin, Azərbaycan Respublikasının I Vitse-Prezidenti Mehriban Əliyevanın, şücaət göstərən mərd ordumuzun rolu danılmazdır. Xalqımızın zəfər sevincinin həddi hüdudu yoxdur. Bu zəfərdə xüsusilə Azərbaycan qadınının, anaların fədakarlığı göz qabağındadır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən, humanizm və nəciblik missiyasını şərəflə yerinə yetirən Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri misilsizdir. O, fəaliyyət göstərdiyi hər bir sahədə böyük uğurların qazanılmasına, qlobal layihələrin gerçəkləşməsinə, Azərbaycanın mədəni irsinin bütün dünyada tanınmasına və yüksək səviyyədə təbli-

ğinə nail olub. 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesinə başlanıb. Belə ki, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın rəhbərliyi ilə fond tərəfindən Qarabağdakı dini abidələrimizin, məscidlərimizin restavrasiyasına başlanılıb. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondunun budəfəki layihəsi Qarabağdakı dini irsimizin, məscidlərimizin bərpasına həsr olunub [11].

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində dövlətimiz tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirirdi. Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması bu sahədə atılmış yerində addımlardan biridir.

**Qarabağ iqtisadi rayonu**

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edirdi. Bu məqsədlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının ərazisini əhatə edən, Azərbaycan Respublikasının zəngin bölgələrindən olan Qarabağ iqtisadi rayonu yaradıldı. Qarabağ iqtisadi rayonunun əsas təbii sərvətləri polimetal filizləri, neft, təbii qaz, müxtəlif tikinti materialları (mərmər, sement xammalı, tikinti daşı) təşkil edir. Meşələrdə tapılan müxtəlif ağac növləri ağac emalı müəssisələrinin inkişafına kömək edir. Sənaye sahəsi yerli kənd təsərrüfatı xammalının emalına əsaslanır. Qida sənayesinin əsas qolları şərabçılıq, müxtəlif kənd təsərrüfatı məhsulları və konserv məhsullarının istehsalıdır. Kənd təsərrüfatının sahələri isə üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq və tütünçülükdür. Bölgədə meyvə, kartof, bağçılıq bitkiləri də yetişdirilir. Bölgədə ipəkçiliyin inkişafına kömək edən tut bağları geniş yayılmışdır. Heyvandarlıq xüsusilə inkişaf edir, əsasən ətlik və südlük heyvandarlıq, ət və yun heyvandarlığı yüksək dağlıq ərazilərdə inkişaf edir. Turizm sahəsində təbii balneoloji ehtiyatlar, meşələr, mineral bulaqlar (Turşsu, Şırlan) istirahət və müalicə üçün əlverişlidir.

İqtisadi rayonun ümumi ərazisi 7,25 min kv. km olmaqla ölkə ərazisinin 8,4 faizini təşkil edir [10]. Burada relyefin mürəkkəbliyi ilə əlaqədar, iqlimlərin müxtəlifliyi mövcuddur: quru qış ilə mülayim isti iqlimdən soyuq iqlim növlərinə qədər. Şərq və aran rayonlara aid olan hissədə yay mülayim istidir. İyul ayının orta temperaturu 22-25–dir. Fəal temperaturların cəmi burada 3500-4000° arasında tərəddüd edir. Qış fəsli mülayim keçir. Yanvar ayının orta temperaturu 0.2- 1.8°, mütləq minimumların orta temperaturu 9-13° şaxta təşkil edir. Qar örtüyü ilə olan günlərin sayı 30-dan artıqdır. Yüksək ərazilərdə yay sərin, qış isə şaxtalı və qurudur. İyul ayının orta temperaturu 18-19°-dir, yanvar ayının orta temperaturu -2-4°-dir, Qar örtüyünün davamiyyəti 60-70, şaxtasız günlərin sayı 215-240 gün təşkil edir. İllik yağıntıların miqdarı 460-650 mm-dir. Ərazisinin nəmlənmə şəraiti qeyri-nəm və mülayim - nəm kimi qiymətləndirilir [6]. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Ölkə üzrə kənd təsərrüfatı məhsullarının əmək bölgüsündə rayon meyvəçilik, taxılçılıq, ət-süd və ət-yun təmayüllü qoyunçuluqla təmsil olunur.

**Ağdam rayonun sosial-iqtisadi inkişafı**

Ağdam rayonu 1930-cu ildə yaradılıb. Sahəsi 1094 kvadrat km olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır. Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Rayonun ərazisində 50-ci illərdən başlayaraq aparılan arxeoloji tədqiqat işləri

zamanı məlum olmuşdur ki, Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir [13]. Arxeoloqlar Üzərliktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Zaqafqaziyada ən zəngin abidələri olan yerlərdən biri olmuşdur [13].

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir [7].

Bütün bu göstəricilər inklüziv inkişafa keçid üçün zəmin yaratmaqdadır. Bəlli olduğu kimi, beynəlxalq inkişaf təşkilatlarının təhlillərinə görə, Azərbaycan Respublikası sosial sahənin inklüziv inkişaf naminə optimal idarə edilməsində yüksək nəticələr əldə etmişdir [13, s. 94].

İnklüziv inkişafın iqtisadi bazasını lazımi səviyyəyə qaldırandan sonra növbəti mərhələdə sosial sahənin vəziyyətinin təhlilinə başlanılır. Sosial indikatorların təhlili əsasında cəmiyyətin sosial durumunun inklüziv cəmiyyətin tələblərinə uyğun olması müəyyən edilir. Ehtiyac olduğu halda bu istiqamətdə mövcud olan çatışmazlıqlar müəyyənləşdirilir və onların bərpası üçün tədbirlər həyata keçirilir. İnklüziv inkişafın üçüncü komponenti olan və onun davamlılığının təmin edilməsində əhəmiyyətli rol oynayan indikatorlar da eyni yolla təhlil edilir və ehtiyac olduğu halda təkmilləşdirilir [13, 95]. Burada regional dövlət proqramlarının rolu olduqca əhəmiyyətlidir. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ÜDM 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir [9]. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. İşğaldan azad olunmuş ərazilərimizə “Böyük qayıdışın” təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən kompleks fəaliyyət planlarının hazırlanması ilə bərabər artıq bu istiqamətdə olduqca əhəmiyyətli praktiki fəaliyyətlərə də başlanılıb.

Belə ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə səlahiyyətli dövlət orqanlarının rəhbər şəxslərindən ibarət Əlaqələndirmə Qərargahı formalaşdırılmışdır. Həmçinin işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxs yaradılmışdır. 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik”. Bir sözlə, artıq işğaldan azad olunmuş ərazilərdə inzibati idarəetmə orqanlarının bərpası və nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində zəruri işlər görülür. Bütün bu tədbirlər işğaldan azad olunmuş ərazilərdə məskunlaşma, bərpa və inkişaf fəaliyyətlərinin tam sürətlə icra olunmasına imkan verəcəkdir. Ağdam rayonu 20 noyabr 2020-ci il tarixində işğaldan azad edildikdən sonra rayona Prezidentin xüsusi nümayəndəsi təyin olunub. Bu da işğaldan azad edilmiş ərazilərin dirçəlişi və tərəqqisi üçün mühüm təkandır.

Ağdam şəhərinin yenidən qurulması, bərpa edilməsi üçün baş plan hazırlanmışdır. Həmin Plan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 2021-ci il mayın 28-də təqdim edilmişdir. Plana əsasən nəqliyyat infrastrukturunda əsas üstünlük piyadalara veriləcək, ikinci velosiped,

sonra ictimai nəqliyyatdır, ondan sonra isə taksi və “Carsharing” gəlir. Artıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoymuş, Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam vermişdir. Qarabağın sürətli bərpası, xüsusi iqtisadi zonaların ahəngdar və hərtərəfli inkişafı ölkəmizin iqtisadiyyatına və xalqımızın rifahına öz töhfələrini verəcəkdir.

Ağdam rayonu ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayondur. Sahəsi 1150 kvadrat km, əhalisi 204015 olan rayonun [1] relyefi əsasən düzənlik, qismən dağlıqdır. Ağdam rayonu ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayondur.

Erməni işğalından əvvəl Ağdam rayonunda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları; asfalt; traktor və avtomobil təmiri; konserv, yağ-pendir; barama toxumu, pambıq; şərab və mexanikləşdirilmiş çörək zavodları; xalça fabriki; taxıl məhsulları, eyni zamanda tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət-xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi və Ü.Hacıbəyov adına musiqi texnikumu, Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı fəaliyyət göstərirdi. İşğaldan əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı, 15 şərab zavod, 1 şampan zavodu, 10 istirahət mərkəzi, Qarabağın ən böyük musiqi məktəbləri bu rayonda yerləşib. Birinci Qarabağ müharibəsi zamanı Qəhrəman rayon adını alıb. Ağdamın şəhid sayı 6570 nəfər, Milli Qəhrəmanı 16 nəfər, döyüşlərdə iştirak edən ağdamlı sayı 40,000 nəfər, ağdamlı Qarabağ qazisi 4950 nəfər [1]. Respublikanın digər regionlarında olduğu kimi Qarabağ iqtisadi rayonunda da inzibati və idarəetmə quruluşu yerli icra hakimiyyəti və bələdiyyələrdən ibarətdir. Hal hazırda Ağdam rayonun bərpası işləri davam etdirilir və Ağdam şəhərində tədricən 100 min nəfər əhalinin yerləşəcəyi təxmin edilir.

**Cədvəl 2.** Kənd Təsərrüfatı bitkilərinin əkin sahəsi

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha** | | | | | | |
| Dənlilər və dənli paxlalılar | 19124 | 18277 | 18230 | 9811 | 14126 | 14462 |
| o cümlədən buğda | 16439 | 14780 | 14785 | 7465 | 11874 | 12228 |
| Pambıq | 97 | 36 | 390 | 3005 | 3100 | 2601 |
| Şəkər çuğunduru | 68 | 63 | 299 | 1002 | 537 | 309 |
| Dən üçün günəbaxan | 45 | 52 | 23 | 9 | 3 | 5 |
| Kartof | 393 | 450 | 452 | 348 | 351 | 373 |
| Tərəvəz | 2265 | 2534 | 2545 | 3724 | 4533 | 4497 |
| Bostan bitkiləri | 230 | 240 | 244 | 114 | 119 | 146 |
| Meyvə və giləmeyvə | 609 | 720 | 723 | 726 | 772 | 765 |
| **Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton** | | | | | | |
| Dənlilər və dənli paxlalılar | 41703 | 59273 | 60259 | 36526 | 52534 | 55674 |
| o cümlədən buğda | 33189 | 47089 | 48403 | 28856 | 44655 | 47660 |
| Pambıq | 98 | 71 | 833 | 6179 | 5822 | 7316 |
| Şəkər çuğunduru | 1252 | 1673 | 6997 | 41071 | 20204 | 12160 |
| Dən üçün günəbaxan | 88 | 112 | 50 | 22 | 7 | 12 |
| Kartof | 6425 | 7560 | 7607 | 5860 | 5923 | 6025 |
| Tərəvəz | 41735 | 49515 | 49806 | 75325 | 102578 | 107492 |
| Bostan məhsulları | 4668 | 5140 | 5241 | 2454 | 2570 | 2960 |
| Meyvə və giləmeyvə | 2498 | 2826 | 2835 | 4058 | 4640 | 4649 |
| Üzüm | 350 | 382 | 325 | 396 | 397 | 402 |
| **Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha** | | | | | | |
| Taxıl | 21,8 | 32,4 | 33,1 | 37,2 | 37,2 | 38,5 |
| o cümlədən buğda | 20,2 | 31,9 | 32,7 | 38,7 | 37,6 | 39,0 |
| Pambıq | 10,1 | 19,8 | 21,4 | 20,6 | 18,8 | 28,1 |
| Şəkər çuğunduru | 184 | 266 | 266 | 415 | 389 | 428 |
| Dən üçün günəbaxan | 19,6 | 21,5 | 21,7 | 24,4 | 22,7 | 24,0 |
| Kartof | 164 | 168 | 168 | 168 | 169 | 162 |
| Tərəvəz | 184 | 195 | 196 | 202 | 217 | 235 |
| Bostan bitkiləri | 203 | 214 | 215 | 215 | 216 | 216 |
| Meyvə və giləmeyvə | 48,5 | 42,4 | 42,9 | 61,0 | 64,9 | 65,1 |
| **Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), baş** | | | | | | |
| İribuynuzlu mal-qara | 32510 | 39762 | 40518 | 40992 | 41634 | 42297 |
| o cümlədən inək və camışlar | 14930 | 18400 | 18691 | 18844 | 19147 | 19165 |
| Qoyunlar və keçilər | 100770 | 105611 | 105724 | 104518 | 104940 | 104768 |
| Quşlar | 199803 | 229785 | 245904 | 247838 | 249344 | 250590 |
| Arı ailələri | 183 | 367 | 370 | 374 | 6054 | 6118 |
| **Heyvandarlıq məhsullarının istehsalı, ton[x)]** | | | | | | |
| Ət (kəsilmiş çəkidə) | 1545 | 2243 | 2337 | 2385 | 2504 | 2653 |
| Süd | 26856 | 33312 | 34168 | 34612 | 35866 | 37873 |
| Yumurta, min ədəd | 8045 | 8315 | 8540 | 8676 | 13206 | 15019 |
| Yun (fiziki çəkidə) | 147 | 156 | 157 | 157 | 194 | 204 |

[x)] İl üzrə heyvandarlıq məhsullarının istehsalı hesablanarkən həmin ilin 1-i yanvar vəziyyətinə olan mal-qara və quşların sayı nəzərə

**Mənbə:** Azərbaycan Respublikasının Statistika Komitəsinin rəsmi məlumatları.

Ağdam rayonunun perspektiv sahələri içərisində kənd təsərrüfatının inkişafı əsas yerlərdən birini tutur. Burada xüsusilə bitkiçilik, quşçuluq və heyvandarlıq məhsullarının istehsalının və emalının inkişafının dəstəklənməsi vacibdir. Kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsinin dəstəklənməsinin davam etdirilməsi, digər tərəfdən heyvandarlıq, taxılçılıq, pambıqçılıq və tərəvəzçiliyin inkişafının dəstəklənməsi vacibdir. Aqroservis xidmətlərinin yaxşılaşdırılması, kənd təsərrüfatı bitkilərinin əkin sahəsi kateqoriyalarının inkişafı vacib amillərdəndir. Ümumilikdə, Ağdam rayonunda 1988-ci ildə mövcud olan taxıl sahələri ölkədəki müvafiq əkin sahəsinin 1,4 faizini, eləcə də rayonda mövcud olan pambıq sahələri isə ölkədəki sahənin 2,5 faizini təşkil etmişdir [14].

Ağdam rayonunda potensial bitkiçilik məhsulları aşağıdakı kimi sıralanmışdır.

- Taxıl istehsalı potensialı
- Pambıq istehsalı potensialı
- Tərəvəz istehsalı potensialı
- Üzüm istehsalı potensialı

Müstəqilliyimiz bərpa olunduqdan sonra aqrar sahədə aparılmış əsaslı islahatlar və innovativ texnologiyaların tətbiqi nəticəsində ölkədə məhsuldarlığın artması ilə yanaşı, Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində yeni aqrar islahatların aparılması və innovativ texnologiyaların tətbiqi ilə ümidverici nəticələr əldə etmək olar. Tədqiqatlar nəticəsində proqnoz inkişaf dövrü hesab edilən 2025-ci ilə qədər Ağdam rayonunda taxıl istehsalının 86,6 min tona çatdırılması gözlənilir [14].

Qarabağ iqtisadi rayonunun ərazisi faydalı qazıntılarla zəngindir. İqtisadi regionun ərazisində kükürd kolçedanı, əhəngdaşı, sement xammalı, iri polimetal yataqları yerləşir. Dağlıq və dağətəyi yerlərdə çınqıl, qum və başqa tikinti materialları mövcuddur. Bu baxımdan Ağdamda sənayenin inkişaf perspektivi yüksəkdir. Ağdamda fəaliyyət göstərən müəssisələr, xüsusilə sənaye məhsulunun payının artırılması perspektiv sahələrdən biridir. Cədvəl 3-də Ağdam rayonunda fəaliyyət göstərən müəssisə miqdarı göstərilmişdir. Ancaq Ağdam rayonu işğaldan azad edildikdən sonra bu sayının yüksələn templə artacağına şübhə yoxdur.

**Cədvəl 3.** Ağdamda sənaye sahəsində fəaliyyət göstərən müəssisələr

| | 2010 | 2015 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 8 | 9 | 10 | 12 |
| Sənaye məhsulu (müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə), min manat | 3538,0 | 6841,0 | 12608,8 | 13730,9 |
| Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə) | 113,1 | 109,3 | 97,2 | 105,2 |
| Sənaye məhsulunda qeyri dövlət sektorunun xüsusi çəkisi, faizlə | 5,1 | 1,4 | 2,0 | 3,1 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 22,0 | - | - | - |
| Əsas məhsul növlərinin natura ifadəsində istehsalı: | | | | |
| Yolları döşəmək üçün daş, ton | - | 40,3 | - | - |

***Mənbə**: Azərbaycan Respublikasının Statistika Komitəsinin rəsmi məlumatları.*

Kənd təsərrüfatı və sənayenin inkişafı ilə paralel kommunal xidmətlər, tikinti və energetika sahələrində pilot layihələrin həyata keçirilməsi əsas istiqamətlərdən biridir. Buraya ölkə əhəmiyyətli avtomobil yollarının əsaslı təmiri; (Qrafik 1) yerli əhəmiyyətli avtomobil yolunun asfaltlaşdırılması və yeni kənd yollarının çəkilməsi; məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxeminin işlənməsi [12]; tikinti materialları (gil, qum, mişar daşı və s.) yataqlarının axtarışı və kəşfiyyat işlərinin aparılması; rayonun yaşayış məntəqələrinin qazlaşdırılması; rayonun və kəndlərinin su təchizatının təmin edilməsi; rayon-

da subartezian quyularının qazılması; rayon ərazisində meliorasiya-irriqasiya işlərinin həyata keçirilməsi; işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərinin davam etdirilməsi; rayonun elektrik şəbəkələrinin yenidən qurulması və hava elektrik verilişi xətlərinin özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz edilməsi; rayon ərazisində mədəniyyət obyektlərinin təmiri; rayonda məktəblərin əsaslı təmiri; yeni məktəb binalarının tikintisi; rayonlarda sahə baytarlıq məntəqələrinin tikintisi və digər əsaslı təmir-bərpa işlərinin planlaşdırılması xüsusi önəm kəsb etməkdədir.




**Qrafik 2.** Yuxarı Qarabağ iqtisadi rayonu üzrə ümumi istifadədə olan avtomobil yollarının uzunluğu, km-lə

***Mənbə:*** *Azərbaycan Respublikasının Statistika Komitəsinin rəsmi məlumatları.*

Rayon ərazisində kəndlərarası yolların əsaslı təmiri digər sahələrdə həyata keçirilən təmir-bərpa işlərinin effektiv və dinamik qurulmasının təminatçısıdır. Rayonda subartezian quyularının qazılması, kəndlərin içməli su xətlərinin çəkilməsi, Ağdam şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması, rayon ərazisində yaşayış məntəqələrinin telefonlaşdırılması, rayonun əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması qarşıya qoyulan əsas hədəflər sırasında olmalıdır. Burada əsas məsələ rəqabət qabiliyyətli şirkətlərin və layihələrin maraqlı tərəfləri təmir-bərpa işlərinə cəlb etməsidir. Bunun üçün təcrübəli və bilikli mütəxəssislərin yenidən qurma işlərinə cəlb edilməsi labüddür.

Xaçınçay, Qarqarçay və Tərtər çayında sahilbərkitmə işlərinin başlanması, yeni səhiyyə müəssisələrinin tikintisi, idman-sağlamlıq obyektlərinin tikintisi, rayonun kəndlərində tarix-mədəniyyət abidələrinin bərpası digər vacib istiqamətlərdir. Əlavə olaraq yerli əhəmiyyətli yolların əsaslı təmiri və asfalt-beton örtüyün çəkilməsi, Turaqaçay, Tərtər çayı, Xaçınçay, Qarqarçay üzərində körpülərin tikintisi, şəhərin özündə küçələrə asfalt-beton örtüyünün çəkilməsi, rayonda gil, tikinti qumları və s. tikinti materialları yataqlarının axtarışı və kəşfiyyat işlərinin aparılması, yeni qaz kəmərlərinin çəkilişi, ATS-in yenidən qurulması, rayon ərazisində sakinlərin yaşaması üçün yeni qəsəbələrin salınması əsas hədəfləri əhatə edir.

**Nəticə**

Tədqiqat işində iqtisadi rayonun ərazisi, inzibati ərazi bölgüsü, coğrafi yerləşməsi, relyefi, iqlimi, faydalı qazıntı ehtiyatları, iqtisadi potensialı, o cümlədən iqtisadi rayonun əhalisi, sənaye, kənd təsəərrüfatı, tikinti və s. kimi önəmli sahələrin tədqiqi aparılmışdır. Məqalədə regionun investisiya istiqamətləri göstərilmiş və burada olan və yaxud yaradılacaq müəssisələrin iş prinsipləri, habelə dövlət və özəl sektorların marağı olan tərəflərlə əlaqəli, birgə layihələrdə iştirakının əhəmiyyəti və eyni zamanda rəqabət qabiliyyətli təşkilatların quruculuq işlərində fəal iştirakının vacibliyi qeyd edilmişdir. Əlbəttə, beynəlxalq təcrübədən yararlanmaq, xarici investisiyaların adı keçən sahələrə cəlb edilməsi əsas şərtlərdən biridir. Burada korporativ məsuliyyətli yanaşma və dayanıqlı inkişaf konsepsiyasının əsas ideyası sosial-iqtisadi və ekoloji inkişafın qarşılıqlı bağlılığı üçün şərait və mexanizmlərin yaradılması, təbii mühitin problemlərinə sosial-iqtisadi proseslərlə vəhdətdə baxılması uğurlu siyasətin başlanğıcını təmin edəcəkdir. Eyni zamanda tədqiqat işi rayonun sosial-iqtisadi vəziyyəti haqqında informasiya verməklə, mövcud potensialdan istifadə səviyyəsini qiymətləndirmək, regionun iqtisadiyyatının ayrı-ayrı sahələrinə xarici və yerli investorları cəlb etmək üçün əhəmiyyətə malikdir.

**İstinadlar**


1. 1. Azərbaycan Respblikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az.
2. 2. Azərbaycan Respublikası Ağdam Rayon İcra Hakimiyyəti http://www.agdam-ih.gov.az.
3. 3. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtlsadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" 16 mart 2016-cı il.
4. 4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi.
5. 5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" https://president.az/.
6. 6. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafına dair Milli Proqramı. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2002.
7. 7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti http://sosial.gov.az.
8. 8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://www.economy.gov.az.
9. 9. Azərbaycan Respublikasinin Kənd Təsərrüfati Nazirliyi http://www.agro.gov.az.
10. 10. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları, AR Təhsil Nazirliyi, Dərslik, Bakı, «Təhsil», 2018, 216 s.
11. 11. Əliyeva Mehriban. https://mehribanaliyeva.preslib.az.
12. 12. Əhmədov E.N., Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırılması, AR Təhsil Nazirliyi. Dərs Vəsaiti, Bakı, Avropa nəş. 2017., 328 s.
13. 13. Həsənov T. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı, Çaşıoğlu, 2002.
14. 14. İşğaldan azad olunmuş Ağdamın aqrar potensialı https://azertag.az.
15. 15. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqi.

**KAZIMOV Mirəli**

AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəis əvəzi, h.e.d., dosent

**FƏRZƏLİYEVA Süsən**

UNEC, i.f.d., Baş müəllim

# QARABAĞA BÖYÜK QAYIDIŞ: İŞĞALÇI DÖVLƏT TƏRƏFİNDƏN VURULMUŞ ZƏRƏRİN ÖDƏNİLMƏSİNİN HÜQUQİ ƏSASLARI KONTEKSTİNDƏ

**Xülasə:** Məqalədə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatmış Vətən müharibəsindən sonra Qarabağın işğaldan azad edilmiş ərazilərində başlanılmış möhtəşəm bərpa və yenidənqurma proseslərinə, habelə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin öz mülkiyyətlərini itirmələri, fiziki, maddi və mənəvi zərərə məruz qalmaları, bütün bunlara görə onlara dəymiş zərərin beynəlxalq hüquq doktrina və təcrübə əsasında Ermənistan dövləti tərəfindən ödənilməsinə nail olmaq istiqamətində görülməli olan tədbirlərə nəzər yetirilir və bu istiqamətdə müvafiq təkliflər verilir.

**Açar sözlər:** Qarabağ, işğalçı dövlət, maddi zərər, zərərin ödənilməsi, hüquqi əsas, beynəlxalq hüquq, kompensasiya, təzminat..

→

## Giriş

2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsi Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən II Qarabağ müharibəsi düşmən ordusunun tam məğlubiyyəti və Ermənistanın dövlət səviyyəsində kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda öz əksini tapan məsələlərdən biri məcburi köçkünlərin və qaçqınların BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara geri qayıtmasının təmin edilməsidir.

Məlum olduğu kimi, Ermənistanın xalqımıza və dövlətimizə qarşı 1988-ci ildən başlamış olduğu növbəti təcavüz və etnik təmizləmə aktları nəticəsində bir milyon nəfərdən artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür [3]. Düşmən, eyni zamanda, işğal altında saxladığı ərazilərdə bütün yaşayış məntəqələrini, o cümlədən həyati vacib təsərrüfat sahələrini, yaşayış evlərini tamamilə dağıtmışdır. Bir faktı qeyd etmək kifayətdir ki, işğal olunmuş Füzuli və Ağdam şəhərləri yerlə yeksan edilmiş, bu şəhərlərdə bir salamat bina qalmamışdır. Ağdamı ziyarət edən xarici jurnalistlər şəhəri "Qafqazın Xirosiması" adlandırıblar.

Azərbaycan dövləti bütün çətinliklərə baxmayaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş şəxslərin yaşayış şəraitlərinin yaxşılaşdırılması, ehtiyaclarının ödənilməsi üçün əlindən gələni əsirgəməmiş, Qarabağın işğal altında olmayan ərazilərində, habelə Bakı şəhəri yaxınlığında onlar üçün yeni yaşayış məntəqələri salmışdır. Bu yolla 300 mindən çox məcburi köçkün dövlət tərəfindən mənzillərlə təmin edilmişdir. Lakin təbiidir ki, məcburi köçkünlərin əzəli arzusu öz doğma yurdlarına qayıtmaq olmuşdur. Digər tərəfdən, uşaq bağçalarında, yataqxanalarda və digər yararsız, yəni uyğunlaşdırılmış binalarda hələ də xeyli sayda köçkün yaşayır və səbirsizliklə öz doğma yurdlarına qayıtmalarını gözləyirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu həssas məqamı həmişə diqqətində saxlamış, ona görə də qələbədən saylı günlər keçmiş, 16 noyabr 2020-ci il tarixdə birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına etdiyi səfərdə demişdir ki, münaqişədən zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar, bu işlər planlı şəkildə aparılacaq, ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri aparılacaq [4].

Müasir siyasi və iqtisadi münasibətlər, habelə dövlət quruculuğu sahəsində dərin peşəkarlığı ilə dünyada böyük nüfuza sahib olan, siyasi uzaqgörənliyi və düzgün proznozlaşdırma hesabına nəyin nə vaxt və hansı **şəkildə edilməli olduğunu dəqiqliklə bilən, populizmdən həmişə uzaq olan, xalqa səmimi şəkildə xidmət etməyi öz həyatının və siyasi fəaliyyətinin əsas məqsədi kimi müəyyən edən müdrik rəhbərimiz, eyni zamanda,** hər kəsdən yaxşı bilir ki, məcburi köçkünlərin Qarabağa qayıdışının təmin edilməsi asan proses deyildir, bundan ötrü ilk öncə zəruri infrastruktur, sosial-mədəni və təsərrüfat obyektləri, habelə yaşayış məntəqələri salınmalı, həmçinin təhlükəsizlik məsələləri həll edilməli (təkcə Ağdam rayonunda 97 min mina basdırılıb), erməni işğalçıları tərəfindən törədilmiş cinayətlərə beynəlxalq səviyyədə kompleks şəkildə hüquqi qiymət verilməlidir. Bu baxımdan dövlət başçısı haqlı olaraq erməni işğalçıları tərəfindən vurulmuş ziyanın beynəlxalq ekspertlər tərəfindən qiymətləndirilməsini vacib hesab etmiş və bu istiqamətdə işlərin planlı surətdə aparılmasına başlanılmışdır. Əks halda, yəni vurulmuş ziyanın real mənzərəsinin sənədləşdirilməsi, faktların lazımı qaydada, hüquqi baxımdan düzgün təsbiti aparılmasa və vurulmuş ziyan beynəlxalq səviyyədə tanınmış ekspertlərin bilavasitə iştirakı ilə qiymətləndirilməsə, erməni işğalı nəticəsində respublikamıza vurulmuş ziyanın təqsirkar dövlət tərəfindən geri almağımızda çətinliklər yarana bilər.

***Təhlil və qiymətləndirmə***

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti erməni işğalı ilə vurulmuş ziyanın müəyyən edilib tələb olunması məsələsini hələ torpaqlarımızın işğaldan azad edilməsindən çox-çox əvvəl qaldırmış və bu barədə müvafiq Sərəncam imzalamışdır. Belə ki, dövlət başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırılması üzrə Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. Proqramda Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin əsas hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması, işğal nəticəsində mülkiyyətlərini itirmələri, fiziki, maddi və mənəvi zərərə məruz qalmaları, bütün bunlara görə onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsinə nail olmaq istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ermənistanın vurduğu ziyanın məbləği isə kifayət qədər böyükdür. Araşdırmalara görə, Ermənistanın Azərbaycana vurduğu maddi zərərin məbləği 1.3 trilyon dollara yaxındır. Düşmən işğal altında saxladığı ərazilərimizdə yerləşən infrastrukturu elə dağıtmışdır ki, onların bərpası mümkün deyildir, demək olar ki, hər şey dağıdılıb, hər şey yenidən yaradılmalıdır. Yeri gəlmişkən, Ermənistanın keçmiş baş prokuroru, həmçinin Ermənistanı Avropa İnsan Hüquqları Məhkəməsində təmsil etmiş G.Kostanyan 2020-ci il 12 noyabr tarixdə verdiyi açıqlamasında Ermənistanın Azərbaycana təcavüzü ilə ölkəmizə 50 milyard dollar məbləğində zərərin vurulduğu göstərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məsələdə də qəti mövqe nümayiş etdirərək demişdir ki, "Ermənistanın Azərbaycana vurduğu zərər beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq və fərdi və mütəşəkkil qaydada düşməni beynəlxalq məhkəmələrə verəcəyik. Onlar təzminat ödəyəcək, öz çirkin əməllərinə görə cavab verəcəklər". Dövlət başçısı

bu məqsədlə 2020-ci il 6 noyabr tarixdə Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək üçün müvafiq Dövlət Komissiyasının yaradılması barədə Sərəncam imzalamışdır.

Məlum olduğu kimi, hər bir dövlətin əsas iqtisadi göstəricilərindən biri onun xarici borcu, öhdəliklərinin həcmi sayılır. Ona görə də hər bir dövlətin baş maliyyə orqanı tərəfindən onun beynəlxalq borclarının balansı adlı sənəd tərtib edilir. Hazırda bu sənədi daha çox ölkələrin beynəlxalq investisiya mövqeyi adlandırırlar. Beynəlxalq investisiya mövqeyi birbaşa, portfel investisiyaları, nağd valyutanı, depozitləri, beynəlxalq ehtiyatı və sairəni əhatə edir. Bu sənəd bir dövlətin digər dövlətlərə qarşı tələblərinin və digər dövlətlər qarşısında öhdəliklərinin balansını əks etdirir. Tələblər ilə öhdəliklər arasında fərq ölkənin təmiz investisiya mövqeyi adlandırılır. Bu sənəd əslində dövlətin kreditor, yoxsa borclu olduğunu müəyyən edən sənəddir. Beynəlxalq hüquqa görə Ermənistan dövləti Azərbaycan Respublikasına qarşı törətmiş olduğu beynəlxalq cinayətlərə görə təzminat ödəməlidir. Fikrimizcə, həmin ziyan obyektiv hesablansa, Ermənistanın dövlət büdcəsi onu tam ödəmək iqtidarında olmayacaq, bu dövlət defolt vəziyyətinə düşər.

Ermənistanın işğalı ilə respublikamıza vurulmuş ziyanın düzgün hesablanıb və geri alınmasının yəmin edilməsinin dövlətimiz üçün mühüm iqtisadi amil olmaqdan daha çox siyasi və mənəvi əhəmiyyət kəsb edir. Belə ki, Ermənistan tərəfindən vurulmuş ziyanın geri alınması onu bir dövlət olaraq defolt vəziyyətinə salacaq, eyni zamanda, erməni xalqına tarixi dərs olmaqla, cinayətlərinə görə layiqli cəzalarını almış olacaqlar. Ona görə də bu yerdə aşağıdakı məqamı da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycan dövləti və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər (təcavüzkar müharibəni aparma, soyqırım, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma və s.), terrorçuluq həyata keçirməsi son nəticədə həm də öz xalqına və dövlətinə qarşı maliyyə terrorçuluğunun törədilməsi ilə nəticələnmişdir. Bəlli olduğu kimi, terrorizmin ayrı-ayrı meyarlar əsasında müxtəlif növləri fərqləndirilir: dini terrorizm, milli terrorizm, nüvə terrorizmi, bioloji terrorizm, ekoloji terrorizm, kimyəvi terrorizm və s. Dövlətin maliyyə resurslarının məhv edilməsi, qiymətsizləşdirilməsi, ölkədən qanunsuz çıxarılması, lüzumsuz xərclərə israf edilməsi, əhalinin həyat səviyyəsinin pisləşdirilməsi, iqtisadi inkişafa maneə olan şərtlərin yaradılması, dövlətin müflis həddinə çatdırılması kimi əməllər yekun nəticədə onun milli təhlükəsizliyini sarsıdır və dövlətin müvafiq səlahiyyətli şəxsləri tərəfindən sadalanan əməllərin törədilməsi maliyyə terrorizmi sayılır.

Digər tərəfdən, Ermənistanda uzun müddətdir ki, siyasi xaos, vətəndaş qarşıdurması, hakimiyyət böhranı hökm sürür, müxalifət liderləri təqib olunur və ya həbs olunur. Məğlubiyyətə görə əvvəlki hakimiyyət indikini, indiki hakimiyyət isə əvvəlkiləri günahlandırır. Halbuki Ermənistan yalnız döyüş meydanında deyil, bütün sahələrdə (iqtisadi, sosial-mədəni və s. münasibətlər üzrə) Azərbaycana uduzmuşdur. Və bunun başlıca səbəbi Ermənistanın Azərbaycana qarşı təcavüz etməsi, xalqımıza qarşı mənfur siyasətindən əl çəkməməsi olmuşdur. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzü bir dövlət kimi onun özünün siyasi iflasına gətirib çıxarmışdır.

Azərbaycan Prezidenti üçün əsas prioritetlərdən biri Qarabağa böyük qayıdışın təmin edilməsi olduğundan, işğal nəticəsində vurulmuş zərərin sənədləşdirilməsi və qiymətləndirilməsi prosesi ilə paralel olaraq böyük vüsətlə ərazilərin bərpası və yenidən qurulması işlərinə başlanılmışdır. İşğal altında olmuş bütün şəhərlərin baş planı hazırlanır və bu, ilk növbədə, Ağdam şəhərini əhatə etmişdir. Həyata keçirilən tədbirlərin əsas məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etmək və məcburi köçkünlərin həmin ərazilərə qayıtmasını təmin etməkdir. Bu məqsədlə işğal altında olmuş rayonlarda gələcəkdə yaşayacaq insanların istifadəsi və rahatlığı üçün elektrik enerjisi təchizatı, beynəlxalq hava limanları, avtomobil yolları, dəmir yollarının tikintisindən ötrü mühüm praktiki addımlar atılmışdır. Lakin bərpa-yenidənqurma işlərinin aparılması heç bir vəchlə erməni işğalı ilə dövlətimizə və ayrı-ayrı vətəndaşlarımıza vurulmuş ziyanın beynəlxalq qurumlar vasitəsilə tələb olunması prosesinin qarşısını almalı deyildir.

Bu baxımdan müasir beynəlxalq hüquq təcrübəsində silahlı münaqişələr nəticəsində vurulmuş zərərin ödənilməsi vəziyyətini qısa da olsa nəzərdən keçirməyimiz məqsədəuyğundur. Ermənistan məlum münaqişə nəticəsində təcavüzkar müharibəni aparma, soyqırım, muzdluluq,

müharibə qanunlarını və adətlərini pozma və s. beynəlxalq cinayətlər törətmişdir. Beynəlxalq cinayət nəticəsində zərərçəkmiş şəxslərin isə onlara vurulmuş zərərin əvəzinin tam şəkildə ödənilməsini tələb etmək hüququ vardır. Beynəlxalq hüquqda zərərçəkmiş şəxslərə ziyanın ödənilməsinin müxtəlif formaları fərqləndirilir: restitusiya, kompensasiya və satisfaksiya. Bu formalar bəzən ayrılıqda, bəzən isə qrup halında tətbiq edilir və ziyanı yetirən əməlin xarakterindən və ictimai təhlükəliliyindən, habelə zərərçəkmiş şəxsin iddiasının predmetinin həcmindən asılıdır. Ümumiyyətlə isə, beynəlxalq-hüquqi məsuliyyətin formaları sistemində restitusiya prioritet əhəmiyyət kəsb edir. L.H.Hüseynov hesab etmişdir ki, restitusiya hüquq pozuntusu törədilməmişdən əvvəl mövcud olmuş vəziyyətin (status quo ante-nin) bərpa edilməsidir. O, bu məsuliyyət formasına aşağıdakıları aid etmişdir: zəbt edilmiş ərazinin bütünlüklə azad edilməsi; qeyri-qanuni ələ keçirilmiş əmlakın geri qaytarılması; qeyqi-qanuni həbs edilmiş və ya həbsdə saxlanılan şəxsin azad edilməsi və s. [1, s. 325]. **İşə baxılarkən mübahisə predmeti olan obyektin əvvəlki kimi mövcud olduğu müəyyən edildikdə, beynəlxalq hüququn zərərə məruz qalmış subyektinə onun natura şəklində geri qaytarılması məqsədəuyğundur. Zərərə görə edilən ödəmə adekvat olmalı olduğundan, bəzən restitusiya onu tam əhatə edə bilmir. Çünki zərər təkcə obyektin geri qaytarılmasını deyil, həm də onun qanunsuz ələ keçirilməsi ilə mülkiyyətçiyə vurulmuş zərəri, mülkiyyətçinin həmin əmlakından məhrum olması ilə itirmiş olduğu gəliri də nəzərdə tutur. Bu halda pul şəklində edilən kompensasiya zərərin ödənilməsi ilə bağlı mövcud olan bütün boşluqların doldurulmasının ideal variantı sayılır. Məcburi qüvvəyə malik olmasa da, müasir dövrdə meyar sənəd kimi qəbul edilən "Dövlətlərin məsuliyyəti haqqında maddələr layihəsi"nin 36-cı maddəsinə əsasən, beynəlxalq-hüquqa zidd olan əmələ görə məsuliyyət daşıyan dövlət restitusiya ilə ödənilə bilinməyən zərəri kompensasiya etməlidir. Kompensasiya, əldən çıxmış fayda da daxil olmaqla, maliyyə şəklində ifadə oluna bilən hər cür zərəri əhatə edir** [6].

Hüquq doktrinasında restitusiyanın iki forması fərqləndirilir: əvvəlki maddi vəziyyətin bərpasını nəzərdə tutan naturada restitusiya (restitutio in integrum), və qeyri-maddi hüquqların bərpası (restitutio in pristinum). Bura inzibati, qanunverici və məhkəmə aktlarının ləğv edilməsini aid etmək olar. Restitusiyanın sərhədləri qeyri-məhdud deyildir. Onu həyata keçirmək mümkün deyildirsə, restitusiyadan imtina olunmalıdır. Məsələn, əmlak tam məhv olmuşdursa və onu bərpa etmək mümkün deyildirsə, restitusiya həyata keçirilə bilməz [5]. Kompensasiya («emenda») silahlı münaqişələr nəticəsində zərərin ödənilməsinin ən geniş yayılmış forması sayılır. Dövlətlərin məsuliyyəti haqqında maddələr layihəsində göstərilir ki, vurulmuş ziyan restitusiya yolu ilə bərpa olunmamışdırsa, dövlət onu kompensasiya ilə bərpa etməlidir. Həmin layihənin şərhində qeyd olunur ki, restitusiyanın hüquqi prinsip kimi ilkinliyinə baxmayaraq, bir çox hallarda qeyri-mümkün və ya qeyri-adekvat olur. Kompensasiyanın rolu vurulmuş zərərin əvəzinin tam ödənilməsi məqsədi ilə hər hansı boşluğu doldurmaqdan ibarətdir [6].

Silahlı münaqişələr nəticəsində vurulmuş zərərin ödənilməsinin digər forması satisfaksiyadır. Təcrübədə bəzi hallarda hüquqazidd əmələ qədər mövcud olmuş vəziyyətin bərpası kifayətedici olmaya bilər. Çünki həmin əməllər nəticəsində əlavə maddi və mənəvi ziyanın vurulması mümkün ola bilər. Satisfaksiya zərərin ödənilməsinin qeyri-maddi forması sayılır. Satisfaksiya nəzərdə tutur ki, beynəlxalq hüquqazidd əmələ görə cavabdeh olan dövlət həmin əməl nəticəsində vurulmuş ziyanının restitusiya və ya kompensasiya ilə əvəz edilməsi mümkün deyildirsə, həmin ziyana görə satisfaksiya təqdim etməyə borcludur. Satisfaksiya pozuntunun etiraf olunmasında, təəssüfün bildirilməsində, rəsmi üzr istəmə və ya hər hansı digər formada ifadə oluna bilər [5].

Silahlı münaqişələr nəticəsində baş vermiş cinayətlər nəticəsində vurulmuş zərərin ödənilməsi haqqında müddəalar Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunda daha da inkişaf etdirilmişdir. Roma statutu 17 iyul 1998-ci ildə qəbul olunmuş, 1 iyul 2002-ci ildən qüvvəyə minmişdir. Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutu ilə beynəlxalq hüquq normaları silahlı münaqişələr nəticəsində zərərçəkmiş fiziki şəxslərə, cinayət qurbanlarına vurulmuş zərərin ödənilməsi və təqsirkar şəxslərin fərdi qaydada cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində xeyli irəli getmişdir. Belə ki, Roma statutunun 75-ci maddəsində cinayətin törədilməsində təqsirkar olan şəxs barəsində cəzanın təyin edilməsi ilə yanaşı, restitusiya, kompensasiya və reabilitasiya daxil olmaqla zərərçəkmişə vurulmuş ziyanın ödənilməsinin prinsipləri müəyyən edilmişdir. Beynəlxalq məhkəmə zərərin ödənilməsi öhdəliyini ya bilavasitə təqsirkar olan şəx-

sin üzərinə qoya bilər, ya da statutun 79-cu maddəsinə əsasən bundan ötrü xüsusi yaradılmış fondun hesabına ödənilməsi barədə qərar qəbul edə bilər. Zərərin ödənilməsi məsələsinə ya bilavasitə zərərçəkmişlərin müraciəti əsasında, ya da məhkəmənin öz təşəbbüsü ilə baxılır. Beynəlxalq cinayət məhkəməsinin bu fondu məhkəmənin cərimə və əmlak müsadirəsi ilə əldə etdiyi əmlak və pul vəsaitləri hesabına formalaşır. Beləliklə, ad hoc beynəlxalq trubunallarından fərqli olaraq Roma statutu ilə formalaşmış Beynəlxalq Cinayət Məhkəməsinin həm restitusiya, həm kompensasiya, həm də reabilitasiya tətbiq etmək hüququ vardır və zərərin ödənilməsinin bu formalarının tətbiqi artıq məhkəmənin hüququ kimi deyil, vəzifəsi kimi müəyyən edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, hələ işğal dövründə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin əsas hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması, işğal nəticəsində mülkiyyətlərini itirmələri, fiziki, maddi və mənəvi zərərə məruz qalmaları və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsinə nail olmaq istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Bundan ötrü, ilk növbədə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin imkanlarından istifadə etmək lazım idi. Azərbaycanın Laçın rayonundan olan 6 nəfər məcburi köçkünün - Çıraqov və digərlərinin Ermənistana qarşı şikayətləri üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatasının 2015-ci il 16 iyun tarixli qərarında iddiaçıların “İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyası çərçivəsində bir sıra hüquqlarının (mülkiyyətin qorunması hüququ (1 saylı Protokolun 1-ci maddəsi), şəxsi həyata və ailə həyatına hörmət hüququ (Konvensiyanın 8-ci maddəsi) və səmərəli hüquqi müdafiə vasitələri hüququnun (Konvensiyanın 13-cü maddəsi) Ermənistan tərəfindən pozulması, Ermənistanın Dağlıq Qarabağ ərazisinə nəzarət etməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin işğal edilməsi faktları təsdiq olunmuşdur.

Ermənistanın beynəlxalq-hüquqi məsuliyyəti təkcə beynəlxalq cinayətlər törətməsindən deyil, həm də insan hüquqlarının müdafiəsi baxımından ağır pozuntulara yol verməsindən irəli gəlir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsində baş verən hüquqi proses əslində Azərbaycan vətəndaşlarının hüquqlarının pozulmasına görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyət daşımasının beynəlxalq məhkəmə tərəfindən artıq təsdiq olunması sayılır. Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanın vətəndaşlarının müraciəti üzrə qəbul etdiyi bu qərar presedent əhəmiyyətinə malikdir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Avropa İnsan Haqları Məhkəməsinin həmin qərarı ilə bağlı yaydığı bəyanatında haqlı olaraq qeyd olunmuşdur ki, qərarda məcburi köçkünlərin öz evlərinə və ya daimi yaşayış yerlərinə qayıtmaq hüquqları bir daha təsdiq edilmiş, ev və əmlakın restitusiyası ilə bağlı hüquqi və texniki məsələləri özündə əks etdirən beynəlxalq humanitar və insan hüquqları çərçivəsində müvafiq standart və prinsipləri yenidən xatırladılmışdır. Məhkəmənin nöqteyi-nəzərincə, Ermənistanın və onun dəstək verdiyi qoşunların davamlı mövcudluğu və atəşkəsin pozulması daxil olmaqla, azərbaycanlıların öz evlərinə qayıtmaları praktiki baxımdan real olmamışdır. Məhkəmə, eyni zamanda, vurğulamışdır ki, ATƏT-in Minsk Qrupu çərçivəsində davam edən danışıqlar qüvvədə olan əmlak hüquqları daxil olmaqla, azərbaycanlı məcburi köçkünlərin hüquqlarına müdaxilə üçün hüquqi əsas vermir. Münaqişə zamanı didərgin düşməyə məcbur qalmış Azərbaycan vətəndaşlarına münasibətdə Ermənistan öhdəlik daşıyır. Ermənistan iddiaçılara münasibətdə Konvensiyadan irəli gələn hüquq pozuntularının aradan qaldırılması və müvəffəqiyyət əldə etmək perspektivi olan vasitələrlə təmin edilməsi üçün öhdəliklərini yerinə yetirməmişdir. Eyni səbəblərə görə iddiaçıların Laçın rayonundakı mülkiyyət və evlərindən istifadə edilməsinə imkan verilmədiyi ilə bağlı pozulmuş hüquqların bərpası üçün səmərəli vasitələr mövcud deyildir [2].

***Nəticə və təkliflər***

**1**. Beynəlxalq hüquq təcrübəsinə əsasən, silahlı münaqişələr nəticəsində dinc əhaliyə vurulmuş zərərin ödənilməsi üçün aşağıdakı şərtlərin mövcud olması zəruridir: 1) zərər real olaraq mövcud olmalı; 2) silahlı münaqişələr zamanı beynəlxalq hüquq normaları pozulmalı; 3) beynəlxalq hüquq normalarının pozulması ilə vurulmuş zərər arasında səbəbli əlaqə mövcud olmalı. Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu cinayətlərdə bu şərtlərin hamısı mövcuddur;

**2**. Ermənistan dövlət olaraq ölkə daxilində öz əhalisinə qarşı maliyyə terrorizmi cinayətini törətmiş, ölkə xaricində isə milli terrorizm, bioloji terrorizm, ekoloji terrorizm və beynəlxalq terrorizmin subyektinə çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu cinayətlərə görə

ölkənin hərbi-siyasi rəhbərliyi və həmin cinayətlərdə iştirak etmiş bütün digər şəxslərin müəyyən edilib, beynəlxalq məhkəmə tərəfindən mühakiməsi təmin edilməlidir;

**3**. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində bərpa-yenidənqurma işlərinin aparılması heç bir vəchlə Ermənistan tərəfindən dövlətimizə və ayrı-ayrı vətəndaşlarımıza vurulmuş zərərin beynəlxalq ekspertlərin iştirakı ilə hesablanması və beynəlxalq məhkəmələr vasitəsilə tələb olunması prosesinin qarşısını almalı deyildir. Vurulmuş ziyanın obyektiv müəyyən edilib, beynəlxalq məhkəmələr vasitəsi ilə Ermənistan dövlətindən tələb olunması və bu barədə müvafiq qərarların qəbul edilməsinə nail olunması Azərbaycan Respublikasına maddi fayda verməklə yanaşı, Ermənistanın bu münaqişədə tarixi-siyasi və hüquqi baxımdan təqsirli olması kimi mühüm beynəlxalq təminat əldə etməsinə imkan verəcək.

**İstinadlar**


1. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. B., “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2002, 420 s.
2. XİN Avropa Məhkəməsinin qərarına münasibət bildirdi / http://qafqaznews.az/2015/06/xin-avropa-m-hk-m-sinin-q-rarina-munasib-t-bildirdi/
3. İlham Əliyev MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib / https://president.az/articles/49197
4. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar / https://president.az/articles/46840
5. Milli qanunvericilik və beynəlxalq hüquq cinayət nəticəsində vurulmuş zərərin ödənilməsini tələb edir / http://supremecourt.gov.az/static/view/248
6. Резолюция Генеральной Ассамблеи ООН 56/83 от 12 декабря 2001 г. «Ответственность государств за международно-противоправные деяния»(Проектстатей)

**KƏLBİYEV Ramiz / ZEYNALOVA Adilə**

Azərbaycan Texniki Universiteti, tex. f.d., dosent

# AZƏRBAYCAN RESPUBLİKASININ AĞDAM RAYONUNDA GÜNƏŞ ENERJİSİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə:** Məqalədə Ağdam rayonunun günəş potensialının imkanları göstərilmiş, potensialın hesablanması üçün istifadə olunan düsturlar verilmiş, cədvəllər şəklində təkcə Ağdam rayonu ilə yanaşı işğaldan azad olunmuş Zəngilan, Kəlbəcər, Laçın, Fizuli, Cəbrayıl, Qubadlı rayonlarının da günəş enerji potensialı haqqında məlumatlar sistemləşdirilmiş, onların qiymətləndirilməsi metodu işlənilmiş, alternativ və bərpa olunan enerji resurslarından səmərəli istifadə imkanları qeyd edilmişdir.

**Açar sözlər:** Ağdam, günəş enerjisi, potensial, qiymətləndirmə

→

## Giriş

Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarət olmuşdur.

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı»nın qəbul edilməsi olub. Proqramın qəbulu bərpa olunan enerji mənbələrinin istifadəsində köklü dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaratdı.

2009-cu ildən başlayaraq ölkə rəhbərliyi tərəfindən bu sahədə qəbul edilmiş qərarlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsinə xüsusi diqqət göstərdiyini sübut edən nümunələrdir. Ölkə rəhbərliyi tərəfindən qəbul edilmiş qanunvericilik aktlarında milli enerji təhlükəsizliyinin genişləndirilməsində alternativ və bərpa olunan enerji istehsalının artırılmasının böyük rolu olduğu dəfələrlə vurğulanmışdır.

## Təhlil və qiymətləndirmə

Hal-hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7144 MVt, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1273 MVt-dır ki, bu da ümumi gücün 18%-ni təşkil edir.

Ölkəmizin bərpa olunan enerji potensialının səmərəli istifadəsi üçün qəbul edilmiş qərarlar və həyata keçirilmiş layihələr alternativ və bərpa olunan enerji istehsalının artırılmasında nailiyyətlərin əldə edilməsinə imkan vermişdir. Bərpa olunan enerji mənbələri ilə fəaliyyət göstərən müasir tələblərə uyğun elektrik stansiyalarının istifadəyə verilməsi energetika sektorunda yeni mərhələnin başlandığını göstərməkdədir. Elektroenergetika sistemində ümumi gücü 1134 MVt olan 21 ədəd su elektrik stansiyası (11 ədədi kiçik su elektrik stansiyası), 37 MVt gücündə bərk məişət tullantılarının yandırılması zavodu, ümumi gücü 66 MVt olan 4 külək elektrik stansiyası, ümumi gücü 34 MVt olan 7 günəş elektrik stansiyası və bir ədəd hibrid elektrik stansiyası fəaliyyət göstərir.

Bu stansiyalar, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 22 MVt-lıq günəş elektrik stansiyası, 2018-ci ildə "Azərişıq" ASC tərəfindən istismara verilmiş külək elektrik parkı ölkə iqtisadiyyatının və əhalisinin elektrik enerjisi ilə təminatında və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamağa başlamışdır. Eyni zamanda elektrik enerjisinin istehsalı üçün istifadə olunan təbii qaz və digər resurslara da ciddi şəkildə qənaət edilməkdədir.

Azərbaycan Respublikası günəş, külək və digər bərpa olunan enerji mənbələri ilə zəngindir və onların istifadəsi üçün intellektual potensiala malikdir. Ekoloji və iqtisadi cəhətdən əlverişli olan günəş enerjisinin ölkəmizdə istifadəsi mühüm əhəmiyyət kəsb edir. Buludsuz havadakı insolyasiyanın qiymətləri Abşeron yarımadası və Xəzər sahili zolağı üçün il ərzində 800÷1000 kVt. Burada günəşli saatların il ərzindəki miqdarı isə 2500 saatdır. Naxçıvan Muxtar Respublikası üçün isə bu rəqəmlər daha münasib olub, uyğun olaraq 1100÷1200 kVt və 2900 saat təşkil edir.

Müasir fotoelektrik modullar sənaye obyektlərini, yaşayış sahələrini və kommersiya obyektlərini yüksək texniki xarakteristikaya elektrik enerjisi ilə təmin etmək üçün mövcud olan günəş qurğularıdır. Bu qurğular eyni zamanda invertor vasitəsi ilə sabit cərəyan enerjisinin, dəyişən cərəyan enerjisinə çevirib, etibarlı enerji mənbəyinin yaradılmasında istifadə olunur.

Günəş enerjisinin istifadəsinin metodları içərisində fototermiki çevrilmənin iki variantından daha çox istifadə olunur: yaşayış, kommunal və kənd təsərrüfatı müəssisələrinin istilik təchizatı; buxar və qaz turbinləri vasitələri ilə elektrik enerjisinin alınması.

Birinci variant daha çox istifadə olunur, ikinci variantın istifadəsinə az keçid vardır.

Regionun günəş enerjisinin potensial miqdarı dedikdə, bir il müddətində region ərazisinə düşən günəş şüalanmalarının cəmi nəzərdə tutulur və bu regionun iqlim şəraitindən asılıdır. Zonaların xətti ölçüsü 200 km-ə qədər götürülür .

Günəş enerjisi potensialını təyin etmək üçün kadastr məlumatlarından istifadə edilir. Göstərilən məlumatlar günəş radiasiyasının düşməsinin məkan-vaxt dinamikasını və ona təsir edən meteoroloji faktorların xüsusiyyətlərini əks etdirməlidir. Adətən günəş kadastrına aşağıdakı məlumatlar daxil edilir: orta aylıq və orta illik ümumi buludluluq; təmiz və tutqun səmanın ehtimallılığı; aydın havanın davamiyyət əmsalı; günəş şüalanmasının orta aylıq və orta illik davamiyyəti; orta buludluluq şəraitində üfüqi səthə düşən günəş radiasiyasının əsas elementlərinin orta saatlıq qiymətləri. Adətən düşən günəş radiasiyasının 0,1%-i texniki potensiala aid edilir. Azərbaycan Respublikası ərazisində meteoroloji stansiyalarda helioqraf müşahidələrin 38-42-ci paralellərdə günün uzunluğunun ildaxili davamiyyəti (saatla) müəyyən olunmuşdur.

Atmosferin hüdudunda üfüqü müstəviyə düşən günəş radiasiyası analitik yolla hesablana bilər[1]. Aktinometrik müşahidələr bütün məntəqələrdə aparıla bilməz, lakin analitik yolla istənilən en dairəsində atmosferin yuxarı sərhəddində böyük dəqiqliklə üfüqü səthə düşən günəş radiasiyasını hesablamaq olar. Günəş radiasiyasının qiymətləri Azərbaycan Respublikasının bü-

tün ərazisini əhatə edən en dairələri üzrə, yəni 38-ci en dairəsindən 42-ci en dairəsinədək 1 dərəcədən bir hesablanmış və Şəkil 1-də qrafiklə verilmişdir. Qrafikdən göründüyü kimi ərazinin kiçik olması səbəbindən günəş radiasiyası qiymətləri isti dövrdə demək olar ki, fərqlənmir, soyuq dövrdə isə en dairələri kiçik fərqlər müşahidə olunur.




Şəkil 1. Günəş radiasiyasının qiymətləri

Ərazinin istilik və elektrik enerjisinin texniki potensialı götürülmüş texniki vasitələrin yaratdığı istilik və elektrik enerjisinin cəmi kimi götürülür. İstilik enerjisinin təyini zamanı texniki qurğunun yəni, günəş kollektorunun texniki xarakteristikası götürülür. Elektrik enerjisinin təyin olunmasında isə fotoelektrik qurğuların enerji xarakteristikaları əsas kimi qəbul olunur.

Günəş Enerjisinin texniki potensialı aşağıdakı qaydada hesablanır :

$$E_{tex} = E_{\text{üm}} * S * \tau * \eta_{gp} * \eta_0 (1)$$

$E_{tex}$- günəş enerjisinin texniki potensialı

$E_{\text{üm}}$-günəş enerjisi ümumi potensial

$S$- günəş panelinin sahəsi ( $\mathbf{m^2}$)

$\tau$ – günəş panelinin işıqburaxma qabiliyyəti (0.85)

$\eta_{gp}$- günəş panelinin faydalı iş əmsalı (0.15)

$\eta_0$- enerjinin çevrilməsi və istehlakçıya ötürülməsinin faydalı iş əmsalı (0.83)

$\eta_0$öz növbəsində aşağıdakı qaydada hesablanır.

$$\eta_0 = K * \eta_{\text{çevrilmə}} * \eta_{\text{ötürülmə}} (2)$$

**Burada**

$\eta_{\text{çevrilmə}}$ – çevrilmənin faydalı iş əmsalı (0.9)

$\eta_{\text{ötürülmə}}$ – ötürülmənin *faydalı iş əmsalıdır* (0.95)

$K$ panelin meyl bucağına görə əmsalıdır.

Meyl bucağı məntəqənin en dairəsinə bərabər olduqda K=1,3, yəni radiasiya 30% artır.

Yuxarıdakı əmsalları qəbul etməklə Günəş enerjisinin texniki potensialı aşağıdakı qaydada hesablaya bilərik :

$$E_{tex} = E_{\text{üm}} * 1 * 0.85 * 0.12 * 0.83 = 0.085 * K * E_{\text{üm}} \quad (3)$$

Cədvəl 1 –də günəş enerjisinin yuxarıdakı qaydada hesablanmış potensialı verilmişdir. Verilmiş günəş qurğusu üçün üfüqü qoyulmuş panellərlə ərazinin orta illik texniki potensialı hər kvadrat metrə 121,23 kVt-saat təşkil edir. Bu zaman ərazi üzrə orta texniki potensial 100-160 kVt-saat arasında tərəddüd edir.

Günəş qurğularının orta texniki gücünü aşağıdakı qaydada tapırıq:

$$\bar{P} = \frac{E_{tex}}{8760} (4)$$

Texniki potensialın gücü yanvar ayında 8-15 Vt/$m^2$, iyul ayında isə 22-36 Vt/$m^2$ təşkil edir. Orta illik qiymətlər isə 15-23 Vt/$m^2$ təşkil edir.

Yuxarıdakı formulalardan, hidrometroloji stansiyaların məlumatlarından və AMEA institutlarının araşdırma nəticələrindən istifadə edərək Azərbaycan Respublikasının və onun inzibati rayonlarının ayrı-ayrılıqda günəş enerjisi potensialı hesablanmışdır. Hesablamalarda kənd təsərrüfatı üçün yararlı sahələr, meşə və su fondlarının sahələri nəzərə alınmamışdır (Cədvəl 1).

**Cədvəl 1**. Azərbaycan Respublikasının və onun inzibati rayonlarının ayrı-ayrılıqda günəş enerjisi potensialı

| Rayonların adı | Ümumisahə, ha | K/t yararlısahə,ha | Meşəfondu torpaqlar | Sufondu torpaqları, ha | Günəşenerjisindən istifadə üçün yararlı ərazilər, ha |
|---|---|---|---|---|---|
| Ağdam | 137221 | 90376 | 1014 | 2924 | 42907 |
| Zəngilan | 72550 | 33548 | 11365 | 0 | 27637 |
| Kəlbəcər | 124300 | 48183 | 29716 | 0 | 46401 |
| Laçın | 166488 | 75781 | 34877 | 0 | 55830 |
| Füzuli | 128016 | 101765 | 78 | 0 | 26173 |
| Cəbrayıl | 118865 | 60117 | 4280 | 1144 | 53324 |
| Qubadlı | 79812 | 33629 | 11434 | 790 | 33959 |

Günəş radiasiyasının parametrlərindən istifadə edərək işğaldan azad edilmiş rayonların, iri şəhərlərin texniki potensialı aşağıdakı kimi təyin olunmuşdur (Cədvəl 2).

**Cədvəl 2.** İşğaldan azad edilmiş rayonların, iri şəhərlərin texniki potensialı

| Rayonların adı | Günəş radiasiyasının davamiyyəti, saat | Günəş enerjisinin cəm radiasiyası (kVt*saat/m2) | İllikcəm (düz səpələnən) radiasiyanın potensial-gücü (Vt/m2) | Günəş enerjisindən istifadə üçün yararlı ərazilərə düşən cəm günəş radiasiyasının texniki potensialı, (QVt*saat) | Texniki potesialın alınmasında qurulan Günəş panellərinin gücü, MVt |
|---|---|---|---|---|---|
| Ağdam | 2310 | 1499,51 | 160 | 643 | 557 |
| Zəngilan | 2450 | 1400 | 160 | 387 | 316 |
| Kəlbəcər | 2117 | 1372,24 | 160 | 637 | 602 |
| Laçın | 2300 | 1350 | 155 | 754 | 655 |
| Füzuli | 2200 | 1350 | 150 | 353 | 321 |
| Cəbrayıl | 2300 | 1350 | 155 | 720 | 626 |
| Qubadlı | 2350 | 1350 | 155 | 458 | 390 |

**Nəticə**

Hesablamalar göstərir ki, təkcə Azərbaycan Respublikasının Ağdam rayonunun 643 mln.kVt-saat günəş enerjisi potensialı və qurulacaq günəş panelləri ilə əldə olunacaq texniki potensial isə 557 MVt təşkil edir. Bu potensialdan istifadə edərək ölkəmizin neft-qaz resurslarına külli miqdarda qənaət olunması və Ağdam rayonunun enerji dayanıqlılığının artırılmasına imkan yaratmış olacaqdır.

**İstinadlar**


1. 1. Cəlilov M.F. Alternativ regenerativ enerji sistemləri. Bakı-2009.
2. 2. F.F.Məmmədov. Azərbaycanda günəş enerjisindən istifadə və müasir günəş energetik qurğuları. Dərs vəsaiti. “Proqres” nəşriyyatı, Bakı-2011, 204 səh.
3. 3.Q.Ş.Məmmədov. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. “Elm”, 2003.-448s.
4. 4. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin hesabatları (2011-2013-cü illər).
5. 5. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı.–2004–cü il.
6. 6.Бекман У., Клейн С., Даффи Д., Расчет систем солнечного теплоснабжения, М., Энергоиздат, 1982.
7. 7. Даффи Д.А., Бекман А. Тепловые процессы с использованием солнечной энергии. М., Мир, 1977- 429 с.
8. 8. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyininrəsmiinternetsə-hifəsi:
9. http://www.area.gov.az

**KƏRİMLİ Afaq**
UNEC, doktorant

# QARABAĞ UNİVERSİTETİ AZƏRBAYCANIN RƏQƏMSAL TRANSFORMASİYASININ TƏMİNİ ROLUNDA

**Xülasə:** Müasir dövrümüzdə universitet təkcə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin edən elm, mədəniyyət, təlim, tədris mərkəzi kimi deyil, həmçinin intellektual məhsul istehsalçısı simasında bazar iqtisadiyyatının subyektinə çevrilir. Bununla əlaqədar olaraq, universitetlərdə ixtiraların bazara çıxarıla bilməsinə yönəldilmiş xüsusi infrastruktur formalaşdırılır. İş dünyası daima universitetlər ilə əməkdaşlıq edir və əvvəllər yalnız özəl sektor sadəcə xeyriyyə, sponsorluq və ya ianə verməklə məhdudlaşırsa, bu gün təhsil müəssisələrinin inkişafında fəal rol oynayır, öz hesabına universitetin maddi bazasının daha da yaxşılaşdırılması və kadr hazırlığı sisteminə mütəxəssislərin daxil edilməsi üçün çalışır, öz mütəxəssislərini təhsil müəssisələrinin modernləşdirilməsi prosesinə cəlb etməklə, həmçinin birgə təhsil layihələrinin reallaşdırılması üçün digər xeyriyyəçilərdən vəsaitlərin cəlb olunması ilə məşğul olur. Buna nümunə kimi həm şirkətlərin özündə, həm də ali təhsil müəssisələrinin daxilində korporativ universitetlərin yaradılmasını qeyd edə bilərik. Hal-hazırda bu şərtləri əsas tutaraq Qarabağ Universiteti ölkəmizin rəqəmsal transformasiyasını təmininə nail olacaq insan kapitalını formalaşdıran, sənaye universiteti kimi əhəmiyyətli rol oynayacaq. Qarabağ Universiteti yenilikçi bir iqtisadiyyatın əsas lokomotivlərindən olmaqla yanaşı, ölkənin elmi və texnoloji inkişafına təsir göstərməsi, innovasiya sahəsində azad yer tutması, yüksək ixtisaslı kadrların hazırlanması və yenidən qurulması məsələsində əhəmiyyətliliyi, və sosial-iqtisadi siyasətin həyata keçirilməsinə töhfə verə bilməsi danılmaz hal hesab olunmaqdadır.

**Açar sözlər:** Qarabağ Universiteti, təhsil, elm, insan kapitalı, innovasiya

→

## Giriş

Beynəlxalq arenada baş verməkdə olan qlobal proseslər və dəyişikliklər respublikamızda radikal və ardıcıl addımlar atılmasını, tədbirlər həyata keçirilməsini tələb etməkdədir. Bunlarla bərabər yeni iqtisadi münasibətlərin yaranması şəraitində təbii ehtiyatlardan səmərəli istifadə olunması, sahibkarlığın inkişafına nail olunması, istehsal prosesinin şaxələndirilməsi və təhsil sisteminin müasir tələblərə cavab verməsini qarşılamaq, rəqabət qabiliyyətin yüksəldilməsi məqsədi ilə insan kapitalının formalaşdırılıb, inkişaf etdirilməsi bütün respublikamız üçün əhəmiyyətli dərəcədə sosial-iqtisadi mahiyyət daşımaqdadır. Milli iqtisadiyyatın hər bir sahələrində spesifik olaraq istehsal və təsərrüfat fəaliyyəti və sosial-iqtisadi münasibətlərdə insanlar aparıcı rola malikdirlər. Bu səbəbdən insan resursları hər bir dövlət üçün əhəmiyyətli olduğu kimi, ölkəmiz üçün də milli sərvəti və sosial-iqtisadi artımın vacib halqası olmaqla, əsas hərəkətverici qüvvəsi hesab olunur.

Bildiyimiz kimi, ölkədə həyata keçirilən sistemli və ardıcıl islahatların tərkib hissəsi kimi insan kapitalının inkişaf istiqamətində həyata keçirilən tədbirlərdən ən əsası təhsilin inkişaf etdirilməsi, habelə ölkədə elm-təhsil-istehsalat əlaqələrinin də və çevik idarə olunma mexanizminin qurulması vacib məsələ kimi ön plana çəkilməkdədir. Bu səbəbdən 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq ən əhəmiyyətli imkanlardan biri kimi region səviyyəsində modern ali təhsil müəssisəsi modelinin bənzəri olmayan nümunəsi olacaq Qarabağ Universiteti hal-hazırki IV sənaye inqilabının şərtlərini əsas tutaraq, Respublikamızın rəqəmsal transformasiyasını təmininə nail olacaq insan kapitalını formalaşdıran ali təhsil müəssisəsi kimi həyatımızda öz rolu olacaq.

**Təhlil və qiymətləndirmə.**

Respublikamızda Qarabağ Universitetinin yaradılması və fəaliyyətinin təmin olunması məsələsi hələ işğal dövründə bir neçə dəfə gündəmə gətirilmiş və müzakirə olunmuşdur. Bu müzakirələr zamanı bir neçə universitetin yerləşəcəyi bölgələr barədə təkliflər var idi ki, Qarabağ universiteti ya Ağcabədi rayonunda, ya da Bərdə rayonunda inşa olunsun və fəaliyyətini bu rayonlardan birində həyata keçirtsin. Bütün bunlara baxmayaraq, bu dövrlər müddətində yeni universitetin yaradılması təklifi və müzakirələri təklif olaraq qalmaqda idi və bu barədə addımlar atılmamışdır. Lakin, zəfərlə nəticələnən Vətən müharibəsi Respublikamızda yeni reallıqlar meydana çıxartmağa səbəb oldu. Artıq bu gün vaxtilə Qarabağla bağlı irəli sürülən ideya və təkliflərin həyata keçirilməsi istiqamətində konkret və uğurlu addımlar atılmaqdadır. Prezidentin tapşırığı əsasında Ağdam şəhərində Qarabağ Universitetinin yaradılmasının nəzərdə tutulması bunun bariz nümunəsi kimi göstərilə bilər.

“Qarabağ” Ağdamda qurulacaq yeni ali təhsil müəssisəsinin adı olmaqla bərabər, həmçinin də güclü bir universitet brendi olacaqdır. Bu ali təhsil müəssisəsinin özünəxas özəlliliklərini aşağıdakı kimi səciyyələndirə bilərik:




***Şəkil 1.*** *“Qarabağ” Universitetinin özəllikləri*

Habelə bunlarla yanaşı Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradovun qeyd etdiyi kimi, “distant təhsil istiqamətində yaranan üstünlükləri maksimal formada həyata keçirən universitet, dünyada olan universitetlərin və peşəkarların bilik və bacarıqlarından, həmçinin potensialından faydalanan şöbə universiteti, rəqəmsal iqtisadiyyat sferasında ixtisaslaşan tədris və elm mərkəzi, xətti-funksional idarəetməni proseslərin idarə olunması ilə əvəzləyən universitet, “Smart universitet”, şəhid övladlarının təhsil aldığı universitet kimi modellərini qeyd etmək olar”. Bütün bunlara əsaslanaraq qeyd etmək olar ki, Qarabağ Universiteti Azərbaycan Respublikasında şübhəsiz ki, güclü bir brend universitet olacaq.

Respublikamızda elmin inkişafı üzrə həyata keçirilən dövlət siyasətlərinin əsas istiqamətlərini aşağıdakılar ilə ümumiləşdirə bilərik:

İnnovasiya fəaliyyətinə dövlət tərəfindən maliyyə dəstəyinin təmin olunması

İnnovasiya fəaliyyəti infrastrukturunun inkişaf olunması, həmçinin texnoparklar, texnologiya mərkəzləri, biznes inkubatorları şəbəkəsinin çoxaldırması və genişləndirilməsi

Tətbiqi elmi tədqiqatların rəqabətədavamlı sahələrinin yaradılması və inkişafının təmin olunması

Müasir texnologiyaların öyrənilməsi, yaradılması, elmdə və iqtisadiyyatın müxtəlif sahələrində tətbiqinə və inkişaf etdirilməsinə nail olunması

İstehsal və tədqiqat sahələri arasında davamlı inteqrasiyanın təşkilinə təkan verilməsi

İnsan kapitalının formalaşması və inkişafında birbaşa ixtisaslı kadrların hazırlanması və yeni biliklərin öyrənilməsi və tətbiqi, habelə ötürülməsi zəruri şərtlərdən hesab edilir. Nəzərdə tutmaq lazımdır ki, Qarabağ Universitetində habelə digər hər bir ali təhsil müəssisəsində yetişdirilən, təhsil alan hər bir mütəxəssis dövlətimiz üçün milli iqtisadiyyatın və respublikanın idarə edilməsində, sosial-iqtisadi inkişafının təmin edilməsində əhəmiyyətli rol oynamaqdadır. Bu səbəbdən qloballaşmaqda olan cəmiyyətimiz üçün iqtisadi biliklərə əsaslanan, müasir tələbləri nəzərə alan təhsil müəssisəsinin yaradılması, elm-təhsil-istehsalat əlaqələrinə xüsusi diqqət edilməlidir. Universitetin yaradılması zamanı təhsil və elm sahəsində infrastruktur təkmilləşdirilməli, innovativ və inklüziv təhsil və təlimlərinin tətbiqi şaxələndirilməli, qarşıya qoyulan hədəflərin həyata keçirilməsi üçün maddi-texniki baza yaradılmalı, daha da möhkəmləndirilməsinə investisiyalar yönləndirilməlidir.

Ali təhsil müəssisələrin təcrübələri, habelə araşdırılmalar göstərir ki, bir çox amillər təhsilin səviyyəsinə təsir etməkdədir, hansı ki, bu amillər də öz növbəsində Qarabağ Universitetinin reallaşdırılmasında da təsir edən amillərdən olacaqdır. Bu amilləri aşağıdakı kimi səciyyələndirə bilərik:

- Universitetdə təhsilin nəticələrinə görə cavabdehlik və idarəetmə sistemlərinin qurulması.
- Ali təhsil müəssisəsində innovativ təlim metod və texnologiyalarından istifadə olunması.
- Universitetdə təhsilin keyfiyyətinin və şəffaflığın təmin olunması.
- Universitetdə təhsil infrastrukturunun tələbatlara uyğun olması.
- Ali təhsil müəssisəsində fənn proqramları, dərs vəsaitləri və dərsliklər, elmi-metodiki təminatın səviyyəsinin müasir tələblərə uyğun olması və.s.

Qeyd edilənlər ilə yanaşı, ali təsil müəssisəsində insan kapitalının formalaşdırılması beynəlxalq standartlara uyğun olması, rəqabətə davamlılığın təmin olunması, keyfiyyətli təhsil sisteminin qurulması, bunlarla yanaşı ölkədə müsbət meyillərin və dünya təhsil sistemində rəqabətə daxil olma kimi müsbət aspektləri də qeyd etmək olar.

Azad edilən torpaqların bərpa olunmasında təhsilin inkişafına böyük rol düşür. Bunu qeyd etmək lazımdır ki, Azərbaycan haqlı savaşında zəfərlə başa çatan şanlı qələbəmizdən sonra azad edilən torpaqlarımızda sosial-iqtisadi layihələrin reallaşdırılmasına başlanılması istiqamətində təhsilin də bərpası əsas yer tutur. Həmin ərazilərdə təhsilin bərpasına və inkişafına nail olunması ilə əlaqədar dövlətimiz tərəfindən bütün lazımi addımların planlaşdırıldığı və quruculuq işlərinə başlanıldığını vurğulamaq lazımdır. Azərbaycan və Türkiyə Prezidentlərinin qarşılıqlı razılığı ilə Şuşa şəhərində məktəb tikintisi ilə bağlı layihənin təsdiqi, Ağdamda məktəb və digər təhsil müəssisələrinin təmir və tikintisinin yüksək templə davam etdirilməsi və bir çox digər bu istiqamətdə atılan addımlar dövlətimizin bu sahəyə diqqət və qayğısının bariz nümunəsi hesab etmək olar. Hal-hazırda qarşıda duran əsas məqsəd kimi doğma Qarabağda aktiv həyatın yenidən bərpa olunmasını təmin etmək, bir çox sahələrdə quruculuq işlərini reallaşdırmaqdan ibarətdir. Qarabağ Universitetinin Ağdamda yaradılması dövlətimiz üçün çox yüksək qiymətləndirmək lazımdır. Qarabağda yalnız ali təhsil müəssisəsi deyil, həmçinin peşə təhsilinin inkişaf etdirilməsi də əhəmiyyətli məsələlərdəndir.

Qeyd edilənlər ilə yanaşı əlavə olaraq Qarabağ Universitetində təhsilin keyfiyyətli təmini olması və daima yüksəldilməsi, habelə insan kapitalının formalaşdırılmasına nail olunması üçün aşağıdakı istiqamətləri sistemli və daima reallaşdırmaq məqsədəuyğun olardı:

- Təhsilin Avropa standartlarına uyğunlaşdırılması baxımından milli iqtisadiyyatın inkişafı prioritetləri əsas götürülərək keyfiyyət təminatı standartlarının hazır olunması, keyfiyyətdə təminat sisteminin inkişaf olunması və Qarabağ Universitetinin digər universitetlər ilə əlaqələrinin yaradılması və təmin olunması əsas vəzifə kimi qarşıya qoyulması labüddür.

- Universitetdə təhsilin keyfiyyəti baxımından təhsilin keyfiyyətinə nəzarətin təmin olunması, həmçinin tədrisin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı olaraq müasir texnologiyalar və metodların tətbiq olunmasının təmin edilməsi, proqram və mühazirələrin məzmunun müasir tələblərə uyğunlaşdırılması, aktuallığın olmasının labüdlüyü.

- Araşdırma və istehsalat təcrübələrinin keyfiyyətin yüksəldilməsi, təhsil-elm-istehsalat əlaqlərinin, həmçinin unviversitet və biznes (sahibkarlıq) əlaqələrinin formalaşdırılması, investisiya dəstəyi mexanizminin hazır edilməsində insan kapitalının inkişafında mühüm mərhələ ola bilər.

- Universitet təhsil alanlar üçün iş təcrübələri qazana bilmələri üçün müəssisə və təşkilatlarda imkan yaratmalı, həmin müəssisələr ilə əməkdaşlıq etməlidir.

Təhsil insan inkişaf konsepsiyası aspektindən yanaşdıqda insanın imkanlarının genişləndirilməsində əhəmiyyətli rol oynayır. Belə ki, Qarabağ ərazisində yüksək keyfiyyətli təhsil və əmək bazarının tələblərini qarşılayan peşəkar hazırlıq insanlara layiqli məşğulluq, potensiallarını tam formada inkişaf etdirərək reallaşdırmaq, əməyin məhsuldarlığını artırmaq üçün imkana şərait yaradılması, daxili və xarici investisiyalar üçün əlverişli şəraitin yaradılması, əmək gəlirlərinin artırılması üçün zəmin yaradır. Bilirik ki, təhsil hər bir dövlət üçün insan inkişafı və dövlətin gələcəyi baxımından vacibdir. Bu səbəbdən, sürətlə inkişaf edən dövrdə, təhsil sahəsində atılan hər bir addımlar müasir tələblər ilə deyil, habelə gələcəyin perspektivləri üzərində fokslanmalı və kəmiyyət baxımından yox, keyfiyyət baxımından yönləndirilməlidir.

Qeyd etmək lazımdır ki, innovasiya fəaliyyətinin səmərəliliyi əsasən innovasiya infrastrukturu ilə müəyyənləşdirilməlidir. İlk növbədə, innovativ iqtisadiyyatın formalaşmasının intensivləşdirilməsi ölkənin bütün bölgələrində paylanmış bir innovasiya-mühəndislik və investisiya şəbəkəsi infrastrukturunun yaradılmasının vacibliyi ilə bağlıdır.

İnnovasiya iqtisadiyyatının formalaşması və inkişafının əsas komponentini-kadr elementini təmin edən ali təhsil sisteminin mövcud infrastrukturu innovasiya və investisiya strukturları (texnoparklar, komplekslər, institutlar, filiallar, tədqiqat və istehsal mərkəzləri və s.) ilə tamamlanmalıdır, belə ki, universitetlər təhsil-elm-innovasiya kompleks rolunu oynayırlar. Digər tərəfdən, yenilikçi iqtisadiyyata malik bir cəmiyyətdə innovativ fəaliyyətin aktiv inkişafı şəraitində, əsas məhsuldar qüvvəyə münasibət-yüksək intellektual, yüksək məhsuldar işçiyə olan tələbat tamamilə dəyişməlidir.

Qeyd etmək vacibdir ki, innovasiya iqtisadiyyatında yüksək ixtisaslı mütəxəssislərin rolu çox böyükdür və daim inkişaf edəcəkdir. Buna görə innovasiya proseslərini səmərəli idarə edə bilən, innovativ layihələri inkişaf etdirən və tətbiq edən kadrların hazırlanması prioritet dövlət və regional proqram olmalıdır. Azərbaycanda innovativ inkişafın obyektiv ehtiyacını, innovativ iqtisadiyyatın yaranmasını nəzərə alaraq mövcud kadr hazırlığı konsepsiyasını dəqiqləşdirmək lazımdır. Həmin konsepsiya bu prinsiplərə əsaslanır: (The New York Times, 2019)

| |
|---|
| Təhsilin kredit texnologiyasını tətbiq etməklə dünya təhsil məkanına keçid əsasında yaradıcı insanın formalaşması, inkişafı və özünü reallaşdırması. |
| Yüksək ixtisaslı və yüksək səviyyəli mütəxəssislər, mühəndislər, innovasiya fəaliyyətinin sistem menecerləri təliminə yönəldilmişdir. |
| İstehsal prosesinin tərkib hissəsi kimi təhsil və təlimin nəzərdən keçirilməsi və təlimlərin dəyəri işçilərin xərcləri kimi deyil, müəssisələrin, təşkilatların, sənaye və regionların rifahı üçün zəruri olan uzunmüddətli investisiyalar kimi qiymətləndirilməlidir. |

| |
|---|
| Yüksək texnologiyalı yeniliklər, nano texnologiyaları yaratmaq proseslərinin sosial və psixoloji aspektlərinin idarə edilməsində təlimlər, yenilikçi inkişafların tətbiqinə geniş miqyaslı tətbiqi sürətləndirmək üçün işçilərin yaradıcı potensialından istifadə etmək. |
| Yenilikçi məhsulların, malların və xidmətlərin istehsalı sisteminə inteqrasiya olunmuş kadrların davamlı təhsili və inkişafı sisteminin yaradılması və s. |

Təcrübə göstərir ki, ali məktəbdə tədqiqat fəaliyyəti öz xüsusiyyətlərinə malikdir və bu, universitetin əsas fəaliyyəti-təhsildir. Eyni zamanda universitetin yenilikçi fəaliyyəti də təhsil komponentləri ilə bağlı öz xüsusiyyətlərinə malikdir. Buna görə də, komponent təhsil fəaliyyəti kimi daxil olan elementlərin birləşməsində, innovasiya fəaliyyətində ali təhsilin rəqabət üstünlüyünün təmin edilməsi üçün təbii imkanlar görünür. Beləliklə, yenilikçi bir iqtisadiyyat formalaşdırarkən, universitetlərin ölkənin elmi və texnoloji inkişafına təsir göstərməsi, innovasiya sahəsində azad yer tutması, yüksək ixtisaslı kadrların hazırlanması və yenidən qurulması problemini həll etmək və sosial-iqtisadi siyasətin həyata keçirilməsinə töhfə verə biləcək nəticələr formalaşdırmaq Azərbaycan Respublikası və əhalisinin həyat səviyyəsini artırır.

**Nəticə**

Qarabağda elə bir ali təhsil müəssisəsi yaratmaq lazımdır ki, beynəlxalq sferada rəqabətə davamlı ola bilsin. Bu səbəbdən bunun üçün peşəkar professor-müəllim heyəti formalaşdırılmaq, universitetin maddi-texniki bazası ən son texnologiyalar əsasında qurmaq vacib məsələlərdəndir. Bunlarla yanaşı, rəqabətqabiliyyətli ixtisasların da olmasını təmin etmək uğurlu nəticə əldə edilməsi üçün müsbət olardı. Misal olaraq, müasir dövrün tələblərini nəzərə alaraq İT sahəsinə yönəldilmiş-informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, kompüter mühəndisliyi və həmçinin yeni sahələrdən olan kosmik texnologiyalar mühəndisliyi, uçuş aparatlarının hazırlanması mühəndisliyi və bunlarla yanaşı silah hazırlığı mühəndisliyi, riyaziyyat müəllimliyi, fizika müəllimliyi, informatika müəllimliyi, mühasibat, maliyyə, dövlət və bələdiyyə idarəetməsi, menecment, biznesin idarəolunması, coğrafiya müəllimliyi, beynəlxalq münasibətlər, beynəlxalq jurnalistika, hüquqşünaslıq, dövlət və ictimai münasibətlər, tarix, tarix müəllimliyi, Azərbaycan dili və ədəbiyyat müəllimliyi, ingilis dili və ədəbiyyat müəllimliyi, ibtidai sinif müəllimliyi, tərcümə, tibb, ictimai səhiyyə, beyin cərrahlığı, biotibbi texnologiya mühəndisliyi, gen mühəndisliyi, biologiya müəllimliyi, kimya müəllimliyi, musiqi nəzəriyyəsi, muğam sənəti və xanəndəlik, idman və s. ixtisaslar olması çox yaxşı olardı. Qarabağ Universitetində şəhid övladlarının ödənişsiz təhsil almaları təmin edilməli, həmçinin, qazi övladlarına ödənişsiz təhsil almaq hüququ verilməlidir. Universitetə peşəkar müəllimlərin olması üçün, əsasən Türkiyə və Avropa ölkələrində təhsil almış yüksəkixtisaslı kadrlara-vətəndaşlarımıza üstünlük verilməyi yaxşı olardı. Qarabağın təbliğatı aparmaq baxımından xarici ölkə vətəndaşlarının universitetə qəbulunu həyata keçirtmək yaxşı olardı. Həmçinin ali məktəbin həm kampusunun, həm də yataqxanasının olması əhəmiyyətli məsələdir. Bu, universitet tələbələrinin rahat təhsil almaları üçün olduqca vacibdir. Qarabağ Universitetinin təşkili prosesində bunların nəzərə alınmasının nəticəsi olaraq, ali təhsil müəssisəsinin beynəlxalq arenada digər ali təhsil müəssisələri ilə rəqabət apara və rəqabətə davamlı hala gələcək.

**İstinadlar**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Prezidentin 24.10.2013-cü il tarixli Təhsilin inkişafı ilə bağlı sərəncamı.
3. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”.
4. Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 2018.13 səh.
5. https://azerforum.com/az/edalet-muradovqarabag-universiteti-iv-senaye-inqilabinin-teleblerini-nezere-alacaq
6. https://525.az/news/170045-qarabag-universiteti-guclu-bir-universitet-brendi-olacaq-tehsil
7. https://xalqqazeti.com/az/news/77712

8. Əliyev T.Q., Əliyeva T., Əliyev R.T. İnsan resuslarının idarə edilməsi Bakı, 2012, s. 303.
9. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi Bakı 2010, 300 səh.
10. Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. —Yeni Azərbaycan qəzeti, 13 yanvar 2011-ci il
11. Каверзин, И. Л..( 2015) Стратегическое управление вузом в условиях новой экономики: «Принцип корпорации». http://journal.vlsu.ru/index.php?id=288.
12. Wissema J., (2009) Advancement in the 3 rd Generation University areas: At the same time, balancing the administration of universities. Northampton, MA: Edward Elgar, 478 p.
13. Arbo P., Benneworth P.S. (2007). Understanding the Regional The impact of universities: Literature Assessment // OECD Education Workers' Newspaper 2007/09. Paris: OECD, s.150.
14. "İnnovasiya Fəaliyyətlərinin İnkişafında Universitet-İş dünyası Əməkdaşlığının Yeri", AMEA Milli Elmlər Akademiyası Elmi İnnovasiyalar Mərkəzi, Korporativ İdarəetmə və İqtisadiyyatın İnnovasiya İnkişafı Beynəlxalq Elmi-Praktiki Konfransın Materialları, Bakı, Azərbaycan, 31 mart 2011, səh. 195-200.

**KƏRİMLİ İrşad**
UNEC, i.e.d., professor

# QARABAĞDA EMAL SƏNAYESİ, KƏND TƏSƏRRÜFATI VƏ İNFRASTRUKTURUN MƏRHƏLƏLİ BƏRPASINA MÜVAZİNƏTLİ YANAŞMA

**Xülasə:** Tədqiqatın məqsədi – Qarabağ regionunda emal sənayenin, kənd təsərrüfatının və infrastrukturun prioritet sahələrinin bərpası və yenidən qurulması üçün həyata keçirilən mərhələli və ardıcıl tədbirlərin səmərəli əlaqələndirilməsi imkanlarının tədqiqi.
Tədqiqatın nəticələri – Qarabağ regionunda iqtisadiyyatın prioritet sahələri sayılan emal sənaye, kənd təsərrüfatı və infrastrukturun müvazinətli və balanslı inkişafının tənzimlənməsi sistemli tədqiq edilmiş, ənənəvi tənzimləmə metodları və üsullarının təkmilləşdirilməsinə dair təkliflər verilmişdir.
Tədqiqatın praktiki əhəmiyyəti – emal sənayenin qida və yüngül, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, infrastrukturun qeyri-ənənəvi alt-sahələrinin inkişafına yönəldilmiş iqtisadi tədbirlərin hazırlanmasında elmi yanaşma mənbəyi kimi istifadə mümkünlüyü.

**Açar sözlər:** qida sənayesi, yüngül sənaye, yaşıl enerji, iqtisadi bərpa, iqtisadi quruculuq

→

## Giriş

Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunda emal sənayenin qida və yüngül, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, infrastrukturun nəqliyyat-kommunikasiya alt-sahələrin rolunu və əhəmiyyətini müəyyən etməklə həmin sahələrin sırasında prioritetləri dəqiqləşdirmək, prioritet sahələrə investisiya yatırımlarının, xüsusən xarici investisiya yatırımlarının mövcud vəziyyətini öyrənmək, təsir istiqamətlərini aydınlaşdırmaq tələb olunur.

Ölkə iqtisadiyyatının mövcud tələbləri ilə ölçülən, xüsusən, son vaxtlar işğaldan azad olunan ərazilərimizi hərtərəfli bərpa etmək istiqamətində investisiya siyasətinin düzgün reallaşdırılması üçün dövlət – özəl investisiya əməkdaşlığının inkişafını təmin edən, eləcə də xarici və daxili investisiyaların cəlb edilməsi ilə bağlı zəruri təşviqat işlərini sürətləndirməyə daha çox ehtiyac yaranmışdır.

Azərbaycanın milli iqtisadiyyatının inkişaf perspektivləri üzrə istər Strateji Yol Xəritələrinə və istərsə də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışa dair Milli Prioritetlərə uyğun olaraq Qarabağda emal sənayesi, kənd təsərrüfatı və infrastrukturun bərpası və yenidən qurulması ilə birgə öz həllini tapmalıdır. Bu məqsədlə Ağdamın və bütünlükdə Qarabağın təbii və resurs potensialından səmərəli istifadə üçün əlverişli şəraitin təminatı üzrə bütün təsərrüfat subyekt-

lərinin məqsədəuyğun fəaliyyəti daha da canlandırılmalıdır [1]. Bərpa, quruculuq işlərini mərhələli və eyni zamanda ardıcıl aparılmasının Azərbaycan dövləti tərəfindən tənzimlənməsi çox mühüm əhəmiyyət daşımaqla, məqalə çərçivəsində araşdırılan bu mövzu xüsusi aktuallıq kəsb edir. Bütünlükdə, ölkənin milli iqtisadiyyatı çərçivəsində Qarabağ regionunun iqtisadi bərpasına və yenidən qurulmasına təkan verən, bir növ region iqtisadiyyatının hərəkətverici qüvvə kimi formalaşan emal sənayenin və kənd təsərrüfatının, yaşıl enerji alt-sahələrinin həyat fəaliyyətinə xarici investisiyaların cəlb edilməsi təmin edilməlidir. Bunun üçün prioritetlər sayılan həmin sahələrin yenidən qurulmasına və inkişafına yatırılacaq xarici investisiyaların məsuliyyətinin, səlahiyyət və fəaliyyət dairəsinin təhlilinə diqqəti artırmaq, beynəlxalq investisiya bazarından daha səmərəli investisiya layihələrini Azərbaycana cəlb etmək lazımdır. Emal sənayenin maşın və avadanlıqlar, qida və yüngül, infrastrukturun yaşıl enerji, nəqliyyat-kommunikasiya və s. kimi sahələrinin sürətlə inkişaf etdirilməsi məqsədilə xarici investisiya layihələrinin düzgün seçilməsi yolundan daha səmərəli istifadə etməklə investisiya resursları daha səmərəli səfərbər edilə bilər.

**Emal sənayesi, kənd təsərrüfatı və infrastruktur sahələr üzrə investisiya resurslarının düzgün seçimi və səmərəli bölgüsü**

Azərbaycanın işğaldan azad olunan Qarabağ regionunun iqtisadi dirçəlişi üçün investisiyaların cəlb edilməsi şəraitinə fikir verdikdə aydın olur ki, regionun həyat fəaliyyətinin bütün sahələri üçün aqrar-torpaqla bağlı əsaslı islahatların bundan sonra da aparılmasına böyük ehtiyac vardır. Nəzərə almaq lazımdır ki, ölkəmizdə torpaq islahatları özünün bütün cəhətləri ilə tam aparılmadığından ayrı-ayrı regionlarda olduğu kimi Qarabağda da təsərrüfatçılıq üçün yararlı torpaq sahələri istehsal-təsərrüfat dövriyyəsindən kənarda qala bilər. Bu barədə ölkə başçısı İlham Əliyevin Nazirlər Kabinetinin 7 yanvar 2021-ci il tarixli iclasında torpaq islahatlarının davam etdirilməsinə dair konkret fikirlərini və iradlarını bildirmişdir. Fikrimizcə, islahatlar yalnız ayrı-ayrı alt-sahələrdə xüsusi proqramların və yaxud yalnız bir sahəyə aid olan tədbirlərin həyata keçirilməsi xarakterində olmamalıdır. Kənd yerlərində təsərrüfatçılıq üçün yararlı torpaq sahələrinin bölgüsü təyinatı üzrə aparılmalı, ilk növbədə pay torpaqları, həyətyanı sahə, yardımçı təsərrüfatlar çərçivəsində ayrılacaq torpaq sahələri həmin torpaqlarda yaradılacaq kəndli və fermer təsərrüfatlarının fəaliyyət və qabiliyyətlərinə uyğunlaşdırılmalıdır.

İşğaldan azad olunmuş ərazilərdə istər kənd və qəsəbə, istərsə də şəhərsalmada müasir, eyni zamanda milli memarlıq üslubu əsas götürülməli, ilk öncə yuxarıda qeyd etdiyimiz kimi, təsərrüfatçılıq üçün yararlı torpaq sahələrinin düzgün və təyinatı üzrə səmərəli bölgüsünə diqqət daha çox artırılmalıdır. Hazırda ərazilər minalardan və partlamamış hərbi sursatlardan təmizlənilir, bu iş çox məsuliyyətli və vaxt aparan olsa da, hər halda dövlətin strateji torpaq sahələri və bələdiyyə torpaqları da nəzərə alınmaqla ərazilərdə məskunlaşacaq Azərbaycan vətəndaşlarına ayrılacaq pay torpaqları, həyətyanı sahə və yardımçı təsərrüfatlar kimi sahələrin xəritəsi tezliklə başa çatdırılmalıdır. Bu işlə bir-başa əlaqələnən, onunla paralel olaraq kənd təsərrüfatının və habelə kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən uyğun qida və yüngül sənaye alt-sahələrinin səmərəli yerləşdirilməsinin bütün cəhətləri işlənilərək qeyd edilən xəritədə öz əksini tapmalıdır.

İnzibati-ərazi vahidliyi kimi strateji əhəmiyyət kəsb edən Ağdamda və istərsə də bütünlükdə Qarabağda aparılacaq bərpa və quruculuq işlərinin, ölkənin milli iqtisadi inkişafını dayanıqlı etmək baxımından həyata keçiriləcək tədbirlərin mürəkkəb və uzunmüddətli olacağı aydın görünür. Mürəkkəblik, hər şeydən əvvəl, nəzərdə tutulan tədbirlərin strukturun geniş və sayca çox olmasındadır. Bunun üçün həyata keçirilməkdə olan tədbirlərin prioritet istiqamətlərinin seçilməsi və bu istiqamətdə dəqiq və ardıcıl fəaliyyətin davam etdirilməsi tələb olunur. Emal sənayenin qeyd edilən sahələrinin yenidən qurulması üçün bu sahələrin ayrı-ayrı müəssisələrinə investisiya yatırımlarının tələb etdiyi mühitin yaradılmasında biznes mühiti, sahibkarlıq qabiliyyəti, texnoloji innovasiyaların tətbiqi, maliyyə bazarlarının inkişaf səviyyəsi, infrastrukturun vəziyyəti nəinki xarici, habelə daxili investorların diqqət mərkəzində dayanır. Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti tərəfindən nəinki ayrılıqda emal sənaye sahələrinin, habelə onların infrastrukturunun yaradılması ilə əlaqədar vergi və məhkəmə sistemində investorların hüquqlarının, xüsusən mülkiyyət hüquqlarının qorunması, infrastruktura investisiya qoyuluşunun həcmi istiqamətində inzibati maneələrin məhdudlaşdırılmasında məqsədyönlü işlər görülür. Nəzərdə tutulur ki, həmin məsələnin həlli üçün emal sənaye, kənd təsərrüfatı və infrastruktur

alt-sahələrindən elələri seçilməlidir ki, həyata keçirilən islahatlar xarici investorlar üçün birbaşa maraqlı olsun və bununla da cari bərpanın və perspektiv yenidənqurmanın istiqaməti düzgün tutulmuş olsun.

**Qarabağ regionunun iqtisadi dirçəlişində ənənəvi və qeyri-ənənəvi istehsal sahələrindən səmərəli istifadə imkanları**

İşğaldan azad olunan ərazilərimizin iqtisadi dirçəlişi, Azərbaycan vətəndaşlarının haqlı və əzəli torpaqlarında məskunlaşması üçün tələb olunan şəraiti yaratmaq məsələsinin həlli dövlətimizin və hökumətimizin daim diqqət mərkəzindədir. Məskunlaşmanın aparılması prosesi ilə paralel ərazinin kənd təsərrüfatı, emal sənaye və infrastrukturun prioritet sahələrinə xarici investisiyaların yatırılması ilə əlaqədar iqtisadçı mütəxəssislərin rəyi də nəzərə alınır. Belə ki, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, emal sənayesinin qida və yüngül, infrastrukturun nəqliyyat, yaşıl enerji kimi alt-sahələrində xarici investorlar üçün investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlərin müəyyən edilməsində xüsusi diqqət yetiriləsi məsələ tədbirlərin beynəlxalq standartların tələblərinə uyğun yerinə yetirilməsidir. Tələblər tam nəzərə alınmalı, tədbirlərin ardıcıllığına fikir verilməli, yəni eyni vaxtda çoxsaylı tədbirin həyata keçirilməsində işin başlanğıcı ilə nəticəsi arasında əlaqəni dəqiqləşdirməli, prioritetlik gözlənilməli, kənd təsərrüfatı məhsulları istehsal edən alt-sahələr ilə həmin məhsulların emalı ilə məşğul olan sənayenin qida və yüngül sənaye məhsulları istehsal edən alt-sahələr arasında daha çox tələb olunan birbaşa qarşılıqlı əlaqə qurulmalı, dayanıqlı iqtisadi artım təmin olunmalıdır.

Bütün bunlardan nəticə çıxaran Azərbaycan hökuməti hazırda işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının və emal sənayenin prioritet alt-sahələri üzrə həyata keçiriləcək tədbirlər prosesinə düzgün istiqamət verməyə, onların mərhələli, ardıcıl, ünvanlı və məqsədyönlü olmasına çalışır. Fikrimizcə, daha düzgün olardı ki, Qarabağ regionunun iqtisadi dirçəliş proqramı “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinə  uyğunlaşdırılmaqla müvafiq olaraq 2025-ci ilədək olan dövr üçün uzunmüddətli strateji tədbirlər və 2025-ci ildən sonrakı dövr üçün strateji hədəflər müəyyən edilsin. İlk növbədə, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, Ağdam və bütünlükdə Qarabağ Azərbaycanın ən abad guşələrindən birinə çevrilməlidir”. Müasir quruculuq dövrünə uyğunlaşacaq Qarabağ regionu Azərbaycanın bütöv milli iqtisadiyyatını ahəngdar, dayanıqlı edəcək, perspektivdə onun tam inteqrasiyasını təmin edəcəkdir. Böyük gələcəyi olan belə iqtisadiyyat xarici və daxili investorların və daha çox dövlət-özəl investisiyaların birgə fəaliyyətinə qarşı qoyulan tələblərə, eyni zamanda işğaldan azad olunan ərazilər üçün prioritet hesab edilən sahələrin tələbatına tam uyğunlaşacaqdır. İşğaldan azad olunan Qarabağ ərazilərinin bərpası və yenidən qurulması proqramı da daxil olmaqla, Azərbaycanın milli iqtisadiyyatına yatırılacaq investisiyaların cəlbediciliyinin aşağıda göstərilən prinsiplərinə əməl olunması və ardıcıllıqla həyata keçirilməsi nəzərə alınmalıdır (bax: şəkil 1).




**Şəkil 1. İnvestisiya cəlbediciliyinin başlıca göstəriciləri**
***Qeyd:*** *Şəkil müşahidə olunan məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Şəkil 1-dən göründüyü kimi, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, bunlarla bir-başa əlaqələnəcək emal sənayesinin qida və yüngül alt-sahələrində xarici və daxili investisiyaların dövlət-özəl əməkdaşlığı ilə birgə yatırımları üçün əlverişli mühitin yaradılması istiqamətində ölkənin institusional sferasında çoxsaylı problemlər öz həllini tapa bilər. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, sənayenin qida və yüngül alt-sahələrinin müəssisələri ölkənin müxtəlif bölgələrinin ərazilərində yerləşmələri ilə əlaqədar hər bir ərazinin yerli bələdiyyə və ümumdövlət idarəetmə strukturlarına uyğunlaşması ilə yanaşı, xarici investorlar beynəlxalq standartlara uyğun olan təlimatları və hüquqi aktları tələb etməli olurlar. Bu mənada Azərbaycan regionlarının idarəetmə strukturlarının təlimatları ilə investorların beynəlxalq təlimatları arasında koordinasiyanın yaradılması şəraitində kənd təsərrüfatının və emal sənayenin ilk növbədə prioritet sahələrinə, sonra isə tədricən digər sahələrinə xarici investisiya yatırılmasını sürətləndirmək mümkün olacaqdır.

**Emal sənayenin qida və yüngül, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq, infrastrukturun nəqliyyat-kommunikasiya, yaşıl enerji alt-sahələrinin əlaqəli inkişafı**

Çox böyük təbii və iqtisadi resurslara, əlverişli coğrafi mövqeyə malik Qarabağ regionunun bərpası, zaman etibarilə orta və uzunmüddətli dövrü əhatə edə bilər. Regionun emal sənaye, kənd təsərrüfatı və infrastruktur sahələrində institusional mühitin yaradılması müddətinin uzunluğu investorları heç də qane edə bilməz. Əgər sahədə institusional strukturların hər birinin tədricən və mərhələli formalaşması üçün zaman müddətini nəzərə alsaq, bunun üçün 7-10 il vaxtın lazım olması gərəkdir. Belə ümumiləşdirməni birmənalı qəbul etmək olmaz. Bunu əsaslandırmaq yolunda regionun emal sənaye və kənd təsərrüfatı sahələrinə yatırılacaq investisiya layihələrinin təkrar müqayisəli təhlilini aparmaqla həyata keçiriləcək tədbirlərin dəqiqləşdirilməsi lazımdır. Belə ki, təhlil prosesində emal sənaye sahələrindən hər hansı birində, məsələn, sənayenin qida və yüngül alt-sahələrində yaradılan institusional mühit həmin sahə ilə birbaşa əlaqəli olan aqrar sahədə də investorlar üçün faydalı olmalıdır. İqtisadi inkişafın hərəkətverici amilləri (məsələn, əmək ehtiyatları, torpaq resursları, yol-tikinti təminatı, investisiya vəsaitləri və s.) infrastrukturun nəqliyyat-kommunikasiya və yaşıl enerji, kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, tərəvəzçilik alt-sahələri ilə emal sənayenin qida və yüngül alt-sahələri arasında birgə fəaliyyətin real təminatı özlüyündə həmin birliyin birbaşa investisiyalaşmasına yol açır.

Qarabağ regionunun iqtisadi bərpası üçün istər müəssisə, təsərrüfatlar və istərsə də region və ölkə səviyyəsində sənayenin qida və yüngül, kənd təsərrüfatının əkinçilik və heyvandarlıq sahələrinə cəlb ediləcək xarici investisiya resurslarının fəallaşmasına təsir edən amilləri aşkara çıxarmaq olar. Həmin amillər çoxsaylı olduğundan, onların təhlilini sadələşdirmək məqsədilə qruplaşdırma aparmaqla sistemli təhlili həyata keçirmək lazımdır. Bu yolla Qarabağın ərazisində formalaşacaq hər iki iqtisadi rayonun prioritet sahələrinə xarici investisiyaların cəlb edilməsi üçün hərtərəfli rəqabət üstünlüyünün necə qazanılması yollarının tapılmasına nail olmaq olar. Bu yolların tapılmasında dövlət müdaxiləsinin, daha çox isə bazar müdaxiləsinin amilləri, onların sistemli əlaqələnməsi ilə prioritet sahələrə xarici investisiyaların cəlb edilməsi sürətləndirilə bilər. Hər bir amillər qrupunun xarakteristikasını verməklə investisiya yatırılacaq sahələrin və alt-sahələrin mövcud vəziyyətində özünü göstərən proseslərin real mənzərəsini düzgün görmək olar (bax: şəkil 2).

Şəkil 2-dən göründüyü kimi, Qarabağ regionunun emal sənaye, kənd təsərrüfatı və infrastrukturun prioritet sahələrinin inkişafı üçün ümumilikdə onun bütün alt-sahələrinə, ayrılıqda isə onun ayrı-ayrı müəssisələrinə xarakterik olan xarici və daxili investisiyaların cəlb olunmasının daha əlverişli şərtlərini formalaşdıran amillər 2 başlıca qrupa ayrılaraq hər bir qrupu xarakterizə edən daha konkret göstəricilər öz ifadəsini tapmışdır. Bunların sırasında bir qrup amillər vardır ki, onlar daha çox dövlət tənzimləməsi metodları ilə, ikinci qrup amillər isə, bazar tənzimi metodları ilə əlaqələnir.




**Şəkil 2. Xarici və daxili investisiyaların cəlb edilməsinin sürətləndirilməsi amilləri**
***Qeyd:*** Şəkil mövcud reallığı ifadə edən məlumatların təhlili və ümumiləşdirilməsi əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Hər iki qrup amillər Qarabağ regionu da daxil olmaqla bütünlükdə Azərbaycanın mikroiqtisadi göstəricilərilə əlaqələnir və bu amillər hər bir alt-sahə və onların müəssisəsinə xarici investorların cəlb edilməsinin səmərəli imkanlarından istifadə yollarını açıb göstərə bilir. Belə yollardan biri investisiya proqramlarının hazırlanması və reallaşdırılmasıdır ki, bu prosesə yalnız sadə və universal tədbirlərin həyata keçirilməsi ilə yenidən qurulma kimi baxılmamalıdır. Bir çox ölkələrin təcrübəsi göstərir ki, investisiya yatırımlarının sürətləndirilməsinə həddindən çox cəhd göstərdikdə, istər-istəməz çoxsaylı maneələr qarşıya çıxa bilir. Bunun üçün investisiya subyektlərinin, regionun qida və yüngül sənaye müəssisələri ilə birgə kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, meyvəçilik, tərəvəzçilik təsərrüfatlarının kompleks inkişafı məqsədilə investisiya yatırımlarının həvəsləndirilməsi sisteminə yenidən baxılmalıdır. Bir tərəfdən böyük tarixi təcrübəyə malik olan dünyanın inkişaf etmiş ölkələrinin keçdiyi yoldan, digər tərəfdən isə, Azərbaycanın qısa da olsa, hər halda emal sənaye, kənd təsərrüfatı və infrastruktur sahələrin inteqrasiya olunmasına dair topladığı tarixi təcrübədən bəhrələnmək lazımdır. Hər iki təcrübə göstərir ki, Azərbaycan hökuməti post-münaqişə dövrünü nəzərə alaraq həm daxili, həm də xarici investorlar arasında uzunmüddətli investisiyalar yatırımları sahəsində qarşılıqlı əlaqələrə tamamilə yenidən baxmalı, Ağdamın və bütünlükdə Qarabağın dirçəldilməsi ilə bağlı mövcud problemlər ardıcıl və mərhələli şəkildə öz həllini tapmalıdır. Daxili investisiya şirkətləri hələ ki, öz vəsaitlərini sənayenin qida və yüngül, kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, infrastrukturun yol çəkilişi və yaşıl enerji kimi alt-sahələrinə nisbətən ticarət-kommersiya sahəsinə, offşor zonalarına yatırmağa daha çox üstünlük verirlər. Lakin belə üstünlük meyli mövcud zamanla, şəraitlə əlaqədar olsa da, hər halda müvəqqəti hal sayılmalıdır. Bu mənada prioritet sayılan Qarabağ iqtisadiyyatının prioritet sahələrinə daxili və xarici investorların investisiya yatırımlarında sosial məsuliyyətin nəzərə alınması olduqca vacibdir.

Qarabağ regionunda qida və yüngül sənaye, əkinçilik və heyvandarlıq məhsulları istehsalına daxili və xarici investorların marağını artırmaq istiqamətində əsaslı dəyişikliklərə və yeni yanaşmalara ehtiyac vardır. Bu ehtiyac Qarabağ regionunun bərpası ilə əlaqədar daha geniş miqyas almışdır. Region ərazisinə xarici və daxili investorların cəlb edilməsinin sürətləndirilməsi üçün stimullaşdırıcı maliyyə-iqtisadi alətlərin müsbət və daha səmərəli cəhətlərindən istifadə etməyi

davam etdirmək lazımdır. Sistemli idarə olunan bərpa proqramlarına uyğun olaraq xarici və daxili investorların birgə layihələri çərçivəsində ərazinin, ilk növbədə, sosial-iqtisadi infrastrukturu əsaslı olaraq yenidən qurulmalıdır.

Qarabağ regionunun dağlıq və düzən hissəsinə birgə ərazi kimi baxsaq, hər iki hissənin ayrılmaz olduğunu və bütöv Azərbaycan ərazisinin vahid bir iqtisadi sistem kimi birləşməsini görə bilərik. Ərazidə yüngül sənayenin, tekstil, toxuculuq və əyirici fabriklərinin, qida sənayesinin süd kombinatlarının, çörək-bulka, qənnadı-şirniyyat fabriklərinin bərpası diqqət mərkəzində saxlanılır. Nəzərə alsaq ki, Qarabağın ərazisində yerləşən emal müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın digər ərazilərindən gətirilən yanacaq, xammal və materiallar əsasında öz fəaliyyətini qurmaqla ölkənin vahid bir iqtisadi sisteminin tərkib hissəsi kimi formalaşmışdı.

Qarabağın Xankəndindəki ipək kombinatının istehsal prosesinə daxil olan xammal-materialların yalnız 8,0%-i Dağlıq Qarabağın ərazisində istehsal olunurdusa, qalan 92,0% isə Azərbaycanın digər ərazilərindən gətirilirdi. Diqqətəlayiq cəhət odur ki, erməni işğalından əvvəl Dağlıq Qarabağın xarici ticarət əlaqələrinin 0,3%-i, bunun tərkibində idxalının 14,0%, ixracın isə 17,0% Ermənistanın payına düşdüyü halda, həmin göstəricilərdə Azərbaycanın payı uyğun olaraq 69,7%; 56,0%; 33,3% idi. Emal sənaye müəssisələrinin istehsal güclərinin əksəriyyəti ilkin və aralıq məhsullar hesabına komplektləşirdi. Fikrimizcə, Qarabağ regionunun iqtisadi bərpası prosesi tarixən formalaşmış ərazi əmək bölgüsünün elmi prinsiplərinə uyğunlaşdırılmalı və bununla da, bütöv Azərbaycan ərazisi kompleks iqtisadi inkişaf proqramı çərçivəsinə salınmalıdır.

**Nəticə**

***İlk növbədə***, hökumət işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial bərpasının vahid ölkə iqtisadiyyatının, xüsusən regionların sosial-iqtisadi inkişaf proqramlarının tərkib hissəsinə çevrilməsi istiqamətini nəzərə almalıdır.

***İkinci,*** *qeyd edilən* istiqamət üzrə beynəlxalq investisiya bazarından (yaxşı olar ki, daha çox etibarlı və ölkəmizin perspektiv inkişafına zəmanət verən ölkələrin investorlarının) daha səmərəli investisiya layihələrini Azərbaycana cəlb etməklə investisiya resurslarının daha səmərəli olanlarını səfərbər edib, ərazinin infrastruktur, emal sənaye və kənd təsərrüfatı və infrastruktur sahələri arasında optimal yerləşdirilməsi nəzərdə tutulmalıdır.

***Üçüncü,*** həm xarici, həm də daxili investisiyaların tərkibində dövlət və özəl investisiya resurslarının səfərbər edilməsi dəqiqləşdikdən sonra həyati əhəmiyyət kəsb edən yol, su, elektrik enerjisi, qaz təchizatı kimi infrastrukturların bərpası və yenidən qurulması istiqaməti daim diqqət mərkəzində saxlanılmalıdır.

***Dördüncü,*** regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin Azərbaycanın Qarabağ regionunun bərpası və inkişafı ilə əlaqələndirilməsi bir daha nəzərdən keçirilməli, tədbirlərin ardıcıllığı, tamamlanması, işin başlanğıcı ilə nəticəsi arasında sistemli əlaqə təmin edilməlidir.

***Beşinci,*** fikrimizcə, Qarabağ regionunun bütün ərazisi üzrə aparılacaq iqtisadi bərpa və quruculuq işlərinin son illərdə Azərbaycanın milli iqtisadiyyatının inkişaf perspektivlərini özündə əks etdirən 12 strateji yol xəritəsinə, yəni 2025-ci ilədək olan dövr üçün qısa müddətli tədbirlərə və 2025-ci ildən sonrakı dövr üçün strateji hədəflərə uyğunlaşdırılması daha düzgün və səmərəli nəticə verə bilər.

**İstinadlar**


1. Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri. Bakı, 2016.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı: Statkom, 2018.

4. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu, 22 dekabr 2020-ci il.
5. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı.
6. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının hesabat materialları, 2017.
7. Beynəlxalq iqtisadiyyatın müasir problemləri. İrşad Kərimli. Bakı: 2006, 304 s.
8. Nazirlər Kabinetinin 7 yanvar 2021-ci il tarixli iclasinin materialları.
9. Qarabağın böyük iqtisadi potensialı var. https://iqtisadiislahat.org/news
10. https://ordu.az.news.

**QAFAROV Kənan**
"Kenan Consalting" Company ASC, h.f.d.,

**ƏMİROV İmran**
Sumqayıt Dövlət Universiteti

# AĞDAM RAYONUNDA İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Hazırda ölkə iqtisadiyyatının qarşısında duran mühüm məsələlərdən biri erməni terrorçu¬larından azad edilmiş bölgələrimizin təhlükəsizliyinin təmin edilməsi və əzəli torpaqlarımıza qayıdışın həyata keçirilməsindən ibarətdir. Aparılan tədqiqatda işğaldan azad edilmiş ərazilərdə ilk növbədə yol infrastrukturunun yaradılması, dağıdılmış mədəniyyət ocaqlarının, elm, tibb mərkəzlərinin, sənaye obyektlərinin, yaşayış yerlərinin bərpa edilməsi və biznes strukturlarının qurulması problemlərinin həll edilməsi yollarının axtarılması bir məqsəd kimi qarşıya qoyulmuşdur.
Hazırlanan məqalədə erməni faşizminin nəticələrinin aradan qaldırılması məsələləri, xüsusilə Ağdam regionun sosial-iqtisadi inkişaf istiqamətlərinə önəm verilmişdir. Burada həmçinin Ağdam bölgəsinin mövcud coğrafi şəraiti, relyefi, təbii resursları araşdırılmaqla ənənəvi istehsal sahələrinin bərpa edilməsi məsələlərinə də aydınlıq gətirilmişdir.

**Açar sözlər:** iqtisadiyyat, proqram, sənaye, region, iqtisadi potensial, bölgü, qiymətləndirmə.

## Giriş

Ərazi bütövlüyünü bərpa etdikdən sonra ölkəmizin qarşısında duran prioritet vəzifələrdən biri azad olunan rayonların tezliklə bərpa edilməsi və vətəndaşlarımızın bu bölgələrdə məskunlaşdırılmasını təmin etməkdən ibarətdir. Bunun üçün dövlətimiz kompleks tədbirlər görməli, müxtəlif investisiya layihələrini həyata keçirməli, əhalinin yaşayışını və təsərrüfatçılıq fəaliyyətini həyata keçirmək məqsədilə infrastruktur yaratmaqla, həmin iqtisadi rayonların milli iqtisadiyyatımıza inteqrasiyasını gücləndirməlidir.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri çox sürətlə davam etməkdədir. İmzalanmış üçtərəfli bəyanatın (10 noyabr 2020-ci il) müddəalarına əsasən bölgədə yeni reallıqlar yaranır, ölkəmiz özünün suverenliyini və təhlükəsizliyini təmin etməklə yanaşı ərazi bütövlüyünə edilən bütün təxribatların qarşısını almaq əzmindədir. Sülhün, sabitliyin və tərəqqinin təmin edilməsində marağı olmayan Ermənistan respublikası mütəmadi olaraq adı çəkilən bəyanatın müddəalarını davamlı olaraq pozur və yaranan məğlubiyyətlə barışmaq istəmir. Ona görə də region dövlətləri, eləcə də dünya ölkələri terrorçu, cinayətkar Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərini tanımağa məcbur etməli, onu üzərinə düşən öhdəliklərə əməl etməyə vadar etməlidirlər.

Ölkəmizin qarşısında erməni terrorçularından azad edilmiş torpaqlarımıza qayıdışın həyata keçirilməsi və bununla əlaqədar təhlükəsizliyin təmin edilməsi, nəqliyyat əlaqələrinin yaradılması, dağıdılmış şəhərlərdə, kəndlərdə yaşayış binalarının tikilməsi, infrastruktur obyektlərinin yaradılması və s. problemlər durur. Qarşıda duran çoxsaylı vəzifələrin yerinə yetirilməsi üçün, ilk növbədə, minalanmış ərazilərin təmizlənməsi, mövcud resursların yenidən tədqiq edilməsi və onlara uyğun planların hazırlanması çox vacibdir. Erməni vandallarının dağıtdığı ərazilərin bərpa edilməsi şübhəsiz ki, mərhələli formada və qısa müddətdə aparılmalıdır. Bunun üçün ölkəmiz bütün qüvvələrini səfərbər etməli, bu bölgəyə investisiya axınına nail olmalı və yeni layihələr işləyib hazırlamalıdır. Göstərilən problemlərin aradan qaldırılması məqsədilə müvafiq təhlillər, ekspert qiymətləndirmələri aparılmalı və Qarabağın ölkə iqtisadiyyatına inteqrasiyası daha da sürətləndirilməlidir. Böyük iqtisadi potensiala malik olan bu bölgədə iqtisadiyyatın ənənəvi sahələri bərpa edilməli və mövcud təbii resurslardan faydalanmaqla yeni biznes sahələri yaradılmalıdır.

**Təhlil və qiymətləndirmə**

İqtisadi rayonların dövriyyəyə qaytarılması və büdcə vəsaitlərinin şəffaf xərclənməsi məqsədi ilə ölkə prezidenti 07.07.21 tarixində fərman imzalamışdır. Yeni bölgünün aparılmasında əsas məqsəd regionların tarazlı inkişafını təmin etmək, sahibkarlıq fəaliyyətini genişləndirmək və mərhələli formada gizli iqtisadiyyatın aradan qaldırılmasından ibarətdir [3].

Onu da qeyd etmək lazımdır ki, rayonların əvvəlki bölgüsündə say az olsa da, son bölgüdə rayonların sayı 14-ə çatır. Bu bölgüyə sahəsi 6,420 min km$^2$ olan Şərqi Zəngəzur və tərkibində Xankəndi ş., Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını birləşdirməklə sahəsi 7,330 min km$^2$ olan Qarabağ olmaqla digər yeni bölgələr daxil edilmişdir (cədvəl 1).

***Cədvəl 1 AR-da iqtisadi rayonların yeni bölgüsü***

| № | İqtisadi rayonlar (sahəsi min km$^2$) | Tərkibdəki şəhər və rayonlar |
|---|---|---|
| *1* | *2* | *3* |
| 1 | Bakı (2,140) | Bakı ş. |
| 2 | Naxçıvan 5,500 | Naxçıvan ş., Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları |
| 3 | Abşeron-Xızı 3,730 | Sumqayıt ş., Abşeron və Xızı rayonları |
| 4 | Dağlıq Şirvan 6,130 | Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları |
| 5 | Gəncə–Daşkəsən 12,300 | Gəncə və Naftalan ş., Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları |
| 6 | Qarabağ 7,330 | Xankəndi ş., Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları |
| 7 | Qazax–Tovuz | Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları |
| 8 | Quba–Xaçmaz 6,960 | Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları |
| 9 | Lənkəran–Astara 6,070 | Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları |
| 10 | Mərkəzi Aran 21,150 | Mingəçevir ş., Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları |
| 11 | Mil–Muğan | Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları |
| 12 | Şəki–Zaqatala 8,840 | Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları |
| 13 | Şərqi Zəngəzur 6,420 | Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları |
| 14 | Şirvan–Salyan | Şirvan ş., Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları |

***Mənbə**: [4] Экономические_районы_Азербайджана*

Əzəli torpaqlarımıza qayıdışın sürətlə həyata keçirilməsini gələcəkdə təmin edəcək iqtisadi rayonların yenidən bölgüsü “AR regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na (29.01.19 tarixli 500 №-li Fərman) uzlaşdırılmaqla gerçəkləşdiriləcəkdir. Eyni zamanda rayonlarımızın yenidən bölgüsü biznes proseslərinin canlandırılmasına və qurulan strateji planların səmərəli idarə edilməsinə zəmin yaradacaqdır.

Xatırladaq ki, Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü yağı düşməndən azad olunan torpaqlarımızda aparılacaq tədqiqatlar zamanı aşkar edilən faydalı qazıntıların yeni üsullarla hasil edilməsinə və regionların iqtisadi qüdrətinin artırılmasına əlverişli şərait yaradacaqdır. Yeni iqtisadi rayonlar üzrə bölgü büdcə resurslarından effektli istifadəyə sövq etməklə yanaşı, 30 il özünün dədə-baba torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz torpaqlarında məskunlaşdırılmasını da sürətləndirəcəkdir. Adı çəkilən bölgü Qarabağa qayıdışı sürətləndirə biləcək yeni layihələrin həyata keçirilməsi istiqamətində xarici sərmayədarların və iş adamlarının cəlb edilməsini artıracaqdır.

İşğaldan azad olunan ərazilərdən biri yuxarı Qarabağ iqtisadi rayonun tərkibi kimi sayılan və sahəsi 1150 $km^2$ olan Ağdamdır. Bu rayon öz tərkibində bir şəhəri, 2 qəsəbəni (Quzanlı və Açarlı) və 123 kəndi birləşdirir. Ağdamın ərazisinin 77%-nin 27 il işğal altında qalması və onun digər rayonlarla yanaşı vəhşicəsinə yağı düşmən tərəfindən dağıdılması nəticəsində iqtisadiyyatımıza külli miqdarda ziyan vurulmuşdur.

Ağdam iqtisadi rayonu dəniz səviyyəsindən 410 m hündürlükdə yerləşməklə, əhalisinin tərkibi də əsasən azərbaycanlılardan ibarət olmuşdur. Sabiq İttifaq dövründə əhalinin siyahıya alınması nəticəsində Ağdamda yaşayanların sayının 131293 nəfərə çatdığı rəsmən qeydə alınmışdır. Yaranışı 1930-cu ilə təsadüf edən bu rayonun 2019-cu ildə əhalisi 202200 nəfərə çatır. Lakin zaman-zaman bu iqtisadi rayonda müxtəlif illərdə əhalinin siyahıyaalınması aparılmışdır. Həmin siyahıyaalınmalar zamanı da əhalinin milli tərkibində bilavasitə azərbaycanlıların üstünlük təşkil etdiyini 2 saylı cədvəldə əyani görmək mümkündür.

**Cədvəl 2.** *Agdam rayonu əhalisinin milli tərkibi (nəfər, %)*

| Əhalinin tərkibi | 1939 | 1959 | 1970 | 1979 |
|---|---|---|---|---|
| Azərbaycanlı | 8953 (83,3%) | 14782 (92%) | 20202 (94,9%) | 22780 (97%) |
| Rus və ukraynalı | 979 (9,1%) | 579 (3,6%) | 433 (2%) | 298 (1,3%) |
| Erməni | 567 (5,3%) | 544 (3,4%) | 472 (2%) | 279 (1,2%) |
| Digər | 247 (2,3%) | 156 (1%) | 215 (1%) | 126 (0,5%) |
| Cəmi | 10746 | 16061 | 21277 | 23483 |

**Mənbə:** *https://ru.wikipedia.org/wiki/Агдам#cite_note-10*

Qeyd edək ki, SSRİ dönəmində 1989-cu ildə əhalinin siyahıya alınması nəticəsində Ağdam şəhərində 28031 sakinin, kənd yerlərində isə 103200 nəfərin yaşadığı qeydə alınmışdır. Eyni zamanda həmin dövrdə ailə üzvlərinin sayının artımı əsasən Orta Asiya respublikalarında və Azərbaycan SSR-də baş vermişdir. Müvafiq olaraq artımın bu respublikalar üzrə 22 və 29%-ə çatması rəsmi olaraq qeydə alınmışdır.

Ağdam iqtisadi rayonunda əhalinin etnik tərkibinə nəzər salsaq, burada rusların, ukraynalıların, ermənilərin və digər millətlərin davamlı olaraq azalmasına rəğmən azərbaycanlıların çoxalması qeydə alınmışdır. Bu faktın özü həm Qarabağın və həm də bölgənin Ağdam rayonun özünün Azərbaycana məxsus olduğunu birbaşa təsdiqləyir.

Əvvəlki bölgüdə Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibində olan Ağdam rayonunda hüquqi və fiziki şəxslərin sayı 2003-cü ildə müvafiq olaraq 283 və 447-yə çatdığı halda, artıq bu rəqəm 2009-cu ildə 347 və 920-yə qədər artmışdır. Bu rəqəmlərin artıma meylli olması Ağdam regionunda iqtisadi fəaliyyətin daha da genişləndirilməsindən xəbər verir [1, s.10].

Regionların sosial-iqtisadi inkişafı üzrə 2019-2023-cü illərdə Dövlət proqramına görə Ağdam iqtisadi rayonunda qeyri-neft sektorunda sənayenin inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur. Kənd təsərrüfatı (k/t) məhsulları istehsalı və emalı sahəsində aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçiriləcəkdir:

- tərəvəzçiliyin, pambıqçılığın, taxılçılığın, heyvandarlığın inkişafı;

-k/t məhsullarının istehsalının inkişafına xidmət edən infrastrukturun, maddi-texniki bazanın möhkəmləndirilməsi.

Adı çəkilən proqramda Ağdam rayonu üzrə heyvandarlığın inkişafına 966 min manat, əkinçiliyin inkişafı üçün 95 min manat məbləğində güzəştli kredit verilmişdir. Eyni zamanda 8203 k/t məhsulları istehsalçısına 21962,77 hektar sahədə becərdikləri əkinlərə və çoxillik əkmələrə görə büdcə vəsaiti hesabına 3711,83 min manat məbləğində əkin subsidiyası verilmişdir. Xam pambığa görə də 521,8 min manat subsidiya ayrılmışdır. Bütün bu maliyyə ayırmaları Ağdam rayonunun iqtisadi inkişafına yaxın gələcəkdə təminat verəcəkdir [2, s.689].

Ağdamda k/t-nın inkişaf etdirilməsi üçün regionun əlverişli relyefi, su ehtiyatlarının paylanması və əkinçiliyin genişləndirilməsi üçün torpaq ərazilərinin münbitliyi vardır. Regionun şimal-şərqinin düzənlik formasında olması burada aqrar sənaye maşınlarının istifadəsinə böyük imkanlar yaradır.

Ağdamda sənaye müəssisələrinin fəaliyyətini təhlil etsək, burada 12 təşkilatın fəaliyyət göstərdiyini və onların 13730,9 min manatlıq məhsul istehsal etdiyini söyləmək mümkündür. Bu bölgədə qeyri-dövlət sektorunun xüsusi çəkisi təqribən 3%-dən bir qədər yuxarıdır (cədvəl 3).

**Cədvəl 3.** *Ağdamda sənaye məhsulu istehsalının dinamikası*

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Fəaliyyətdə olan müəssisələr | 9 | 9 | 10 | 10 | 12 |
| Sənaye məhsulu (min man.) | 6841 | 7110,9 | 12693,2 | 12608,8 | 13730,9 |
| Sənaye istehsalı indeksi (%) | 109,3 | 100,4 | 89,1 | 97,2 | 105,2 |
| Sənayedə özəl sektorun payı (%) | 1,4 | 1,4 | 1,5 | 2 | 3,1 |
| Hazır məhsul qalığı (min man.) | | | | | |
| Əsas məhsul növlərinin istehlakı | | | | | |
| Yolları döşəmək üçün daş, ton | 40,3 | 22 | - | - | - |

**Mənbə:** *[5] https://www.stat.gov.az/source/regions/*

Göstəricilərə nəzər salsaq, 5-ci və 6-cı sətir üzrə məlumatların müvafiq qurumlar tərəfindən qeydə alınmadığını görərik. Bu da regionun təxminən 80%-ə qədər ərazisinin erməni vandalları tərəfindən işğal altında olması və burada təsərrüfatçılıq fəaliyyətinin aparılmaması ilə izah edilir. Qeyri-dövlət sektorunun da xüsusi çəkisinin həddindən artıq aşağı olması bölgənin mənfur düşmən tapdağı altında olması ilə əlaqədar olmuşdur. Ümid edirik ki, fəaliyyətdə olan təşkilatların sayı və sənaye məhsulunun istehsal göstəriciləri post-müharibə dövründə bir neçə dəfə artaraq (6-7 dəfə) dəyişəcəkdir.

Sənaye sahələrinin inkişafını təhlil etsək, bu bölgədə yeyinti və yüngül sənayenin sürətlə inkişaf etdirilməsini əvvəlcədən proqnoz etmək olar. Belə ki, Sabiq İttifaqın dövründə Ağdam bölgəsi özünün istehsalı olan keyfiyyətli şərabları ilə bütün dünyada tanınmışdır. Bundan başqa, regionun Qarabağda rayonların qovşağında yerləşməsi, onun əlverişli coğrafi mövqeyə malik olması burada ticarətin genişləndirilməsi potensialından xəbər verir. Başqa sözlə, Türkiyə ilə Orta Asiya arasında yaradılacaq nəqliyyat dəhlizinin buradan keçməsi ticarət əməliyyatlarını gələcəkdə daha da artıracaqdır. Təbii ki, bu proseslər biznes əlaqələrini artırmaqla öz növbəsində gələcəkdə Ağdam regionun inkişafına yeni töhfələr verəcəkdir.

Ağdam regionunda qeyri-neft sektoru hesab edilən tikinti sənayesinin də inkişaf etdirilməsi üçün münbit şərait mövcuddur. Belə ki, bu bölgədə olan mişar daşı, əhəng resursları, gil yataqları, qarışıq qum-çınqıl yataqlarının olması tikinti sektorunun daha da inkişaf etdiriləcəyini deməyə əsas verir. Bu baxımdan zəngin ehtiyatlara malik olan bu bölgədə yeni müəssisələrin yaradılması bütövlükdə doğma Qarabağımızın hərtərəfli inkişaf etdirilməsində hədsiz dərəcədə xidmət göstərə bilər.

Dövlət Proqramında yol təsərrüfatı və nəqliyyatın inkişafı üzrə də fəaliyyətlər davam etdiriləcəkdir. Burada, həmçinin kommunal və rabitə xidmətlərin yaxşılaşdırılması, meliorasiya və irriqasiya tədbirləri, mənzil təsərrüfatı və abadlıq-quruculuq işləri, sosial infrastrukturun yaxşılaşdırılması və s. tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

**Nəticə**

Ağdamda texnoparkların, yeni müəssisələrin və infrastrukur obyektlərinin yaradılması bütövlükdə Qarabağa qayıdışı daha da sürətləndirəcəkdir. Bu regiona xarici investisiyanın və iş adamlarının, o cümlədən qardaş Türkiyə Cümhuriyyətinin sərmayədarlarının cəlb olunması resurslardan effektli istifadə edilməsinə səbəb olacaqdır. Dövlət proqramları çərçivəsində həyata keçirdilən layihələr milli maraqlarımıza cavab verməklə Ağdamın sosial-iqtisadi inkişafını sürətləndirəcək və Qarabağa qayıdış proqramlarının gerçəkləşdirilməsində bu regionun rolunu xüsusilə artıracaqdır.

Dövlət başçısı Qarabağa qayıdış proqramlarının hazırlanması ilə yanaşı, ölkə qarşısında bir sıra yaxın perspektivə hesablanmış hədəflər müəyyən etmişdir. Onların sırasında Ağdam şəhərinin respublikamızın 4-cü ən böyük şəhərinə çevrilməsi məqsədi də vardır. Ümid edirik ki, yuxarıda göstərilən fəaliyyət istiqamətlərinin həyata keçirilməsi nəticəsində Ağdam şəhəri nəinki böyüyüb çiçəklənəcək, hətta iri sənaye mərkəzinə çevriləcəkdir. Beləliklə, Ağdam regionunun inkişafı Qarabağda yeni iqtisadiyyatın qurulmasında önəmli rol oynamaqla, bütövlükdə ölkəmizin iqtisadi qüdrətini daha da gücləndirəcəkdir. Qarabağın iqtisadi potensialının əvvəlkindən daha da güclü olmasında Ağdam regionunun inkişaf etdirilməsinin sanki bir hərəkətverici rol oynaması və bu rayonun imkanlarından effektli istifadə edilməsinin nəticələrindən ölkəmizin gözləntiləri böyükdür. Ümid edirik ki, Ağdam rayonunun özünün sosial-iqtisadi inkişafı, burada olan mövcud resurslardan səmərəli istifadə edilməsi, bütövlükdə doğma Qarabağımızın ölkə iqtisadiyyatına sürətlə reinteqrasiya olunması istiqamətində bütün imkanlar əldən verilməyəcək və nəticədə dövlətimiz bundan fayda götürəcəkdir.

**İstinadlar**


1. AR İqtisadi İnkişaf Nazirliyi, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu Yuxarı Qarabağ İqtisadi Rayonunun Pasportu. Bakı, 2011, s.51. https://www.economy.gov.az/ media/pdf/ yuxari_qarabag. pdf. Müraciət tarixi 21.08.21.
2. AR DSK Regionların sosial-iqtisadi inkişafı (2019-2023) statistik məcmuə. Bakı, 2021, s.728.
3. Əliyev İ.H. Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü AR Prezidentinin Fərmanı Bakı ş. 7.07.21 https://president.az/articles/52389 müraciət tarixi 20.08.21.
4. https://ru.wikipedia.org/wiki/Экономические_районы_Азербайджана. Müraciət tarixi 21.08.21.
5. https://www.stat.gov.az/source/regions/. Müraciət tarixi 25.08.21.

QƏNBƏROV Fuad

AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d.

# ZƏNGƏZUR DƏHLİZİNİN REGİONAL İQTİSADI ƏLAQƏLƏRƏ TƏSİRİ

**Xülasə:** Məqalədə Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti araşdırılaraq, region ölkələri arasında iqtisadi əlaqələrə təsiri təhlil edilir. Qeyd edilir ki, bu nəqliyyat marşurutu dünyanın əksər ölkələrinin maraq dairəsində olmaqla yanaşı, Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistanın xarici ticarət əlaqələrinin inkişafında mühüm əhəmiyyətə malikdir. Statistik məlumatlar göstərir ki, region ölkələri arasında xarici ticarət dövriyyəsinin xüsusi çəkisi yüksəkdir və bəzi ölkələr arasında birbaşa əlaqələrin olmaması ticarət əlaqələrinə mənfi təsir göstərir. Məqalədə həmçinin Bakı-Naxçıvan-İqdır-Qars dəmir yol xəttinin perspektivləri və səmərəliliyi araşdırılır.

**Açar sözlər:** Zəngəzur, nəqliyyat, xarici ticarət, region

## Giriş

Son illər ölkəmizdə yaranan nəqliyyat habı hesabına Azərbaycan, Asiyanı Avropa ilə birləşdirən mühüm əhəmiyyətli Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə tarixi İpək yolunun bərpasını təmin edib və hazırda regionda qitələr arası daşınmaların həyata keçirilməsində böyük rol oynayır. Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyi qələbə nəticəsində isə, Qarabağın işğaldan azad edilməsi ilə Azərbaycanın regionda mövqeyi daha da güclənmiş və nəqliyyat layihələrinin həyata keçirilməsi üçün geniş imkanlar yaranmışdır. Ümumilikdə Qarabağın nəqliyyat infrastrukturunun yenidən qurulması bir neçə istiqamətdə planlaşdırılır:

1) Mühüm regional əhəmiyyəti olan Zəngəzur dəhlizinin açılması;
2) Qarabağda beynəlxalq hava limanlarının tikintisi;
3) Qarabağın Şərq istiqamətində Bərdə-Ağdam, Yevlax-Xankəndi, Horadiz-Füzuli-Şusa dəmir yol xəttinin tikintisi;
4) Əhmədbəyli-Füzuli-Şuşa, Tərtər şəhərini Suqovuşan və Talış kəndlərini birləşdirən, Talışdan Naftalana, Göy Göldən Kəlbəcərə gedən, Horadiz-Zəngilan-Qubadlı-Laçın avtomobil yolunun tikintisi.

Bu layihələrin içərisində region ölkələrinin və ümumilikdə Avropa və Asiyanın əksər ölkələrinin maraq dairəsində olanı Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur qədim Azərbaycan torpağı olmaqla 1921-ci ildə Sovet İttifaqı tərəfindən Ermənistana birləşdirilmişdir. Bununla da, Azərbaycanın Naxçıvan və Türkiyə ilə birbaşa əlaqəsi kəsilmişdir. Azərbaycanın Ermənistan üzərində şanlı qələbəsi nəticəsində, 2020-ci ili 10 noyabrında imzalanmış üçtərəfli bəyanata əsasən icra-

sı nəzərdə tutulmuş maddələrdən biri də Zəngəzur dəhlizinin istifadəyə verilməsidir. Bu dəhliz Zəngəzurdan keçərək Naxçıvan və Türkiyəyə uzanan Bakı-Horadiz-Meğri-Naxçıvan dəmir yolu xətti və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan avtomobil yollarının yenidən bərpa edilərək, istifadəyə verilməsini nəzərdə tutulur. Qeyd edək ki, SSRİ dövründə Zaqafqaziyanın dəmiryol daşımalarının 80%-i Azərbaycan vasitəsilə həyata keçirilirdi. Birinci xətt SSRİ-ni Türkiyə ilə birləşdirən Tbilisi-İrəvan-Culfa xətti, ikinci isə SSRİ-ni Türkiyə (Leninakan, Qars-Ərzurum-Ankara) və İran ilə birləşdirən Culfa-Tehran xətləri idi. SSRİ-dən Türkiyə və İrana bu xətlər vasitəsilə ildə 5 mln. ton yük daşınırdı. Lakin Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin başlaması ilə bu nəqliyyat yolunun fəaliyyəti dayanmışdır.

Zəngəzur dəhlizinin açılması region ölkələrinin inkişafına təkan verməklə, dünyanın güc mərkəzlərinin maraq dairəsindədir. Uzun illərdir beynəlxalq nəqliyyat layihəsi olan TRASEKA-nın Azərbaycandan keçən hissəsi yalnız Bakı-Ələt-Qazı Məmməd-Yevlax-Gəncə-Gürcüstanla dövlət sərhədinə uzanan marşrutdan deyil, eyni zamanda Bakı-Əli Bayramlı-Saatlı-Horadiz-Zəngilan-Meğri-Naxçıvan-İrəvan marşrutundan ibarət olsa da, Ermənistanla hərbi münaqişə səbəbindən bu marşrut fəaliyyət göstərmir. Zəngəzur dəhlizinin açılması ilə TRASECA layihəsi regionda tam gücü ilə işləmək imkanı yaranacaq. 2019-cu ilin statistik məlumatlarına görə, TRASECA layihəsinin Azərbaycan hissəsindən yük daşımalarının həcmi 52.7 mln. ton, tranzit yük daşımaları isə 8 mln. ton olmuşdur. Azərbaycanın bu layihədən illik gəliri 836,5 mln. manat təşkil etmişdir. Zəngəzur dəhlizinin açılması ilə yük daşımalarının həcminin kəskin artacağı proqnozlaşdırılır.

Zəngəzur dəhlizi ilə daşımaların Şimal-Cənub və Şərq-Qərb layihələrinə qoşulması region ölkələri üçün xüsusi əhəmiyyət daşıyacaq. Çinin «Bir kəmər, bir yol», «Lapis-Lazuli» nəqliyyat marşrutları layihəsi, Hindistan-İran-Rusiya arasındakı «Şimal-Cənub» nəqliyyat marşrutunun Zəngəzur dəhlizi ilə birləşdirilməsi qeyd edilən nəqliyyat layihələrinin səmərəliliyini daha da artıracaq.

Digər tərəfdən mühüm məslələrdən biri də, bu istiqamət üzrə Bakıdan Qarsa yeni dəmir yol xəttinin birləşdirilməsinin mümkünlüyüdür. Bununla da, Bakı-Tbilisi-Qars dəmir yol xətti Bakı-Naxçıvan-İğdır-Qars dəmir yol xəttinə birləşəcək ki, bu da regionun bütün ölkələri üçün əlavə imkanlar yaradacaq. Bəzi qiymətləndirmələrə görə, Zəngəzur dəhlizinin Türkiyənin Naxçıvan istiqaməti ilə İqdır və Qars şəhərlərinə qədər uzadılması Gürcüstan ərazisindən keçən yoldan təqribən 340 km qısadır. Bu da əlavə olaraq 20 tonluq vaqon üçün 400-500 dollar daha ucuz başa gəlir. Və bu yollarda təqribən 3000 işçiyə qənaət deməkdir.

2014-cü ildə ekspert qiymətləndirmələrinə görə, bu layihənin yerinə yetirilməsi təqribən 433.7 mln dollara başa gələcək ki, bunun da 278,6 mln. dolları Azərbaycanın, 104, 6 mln. dolları Ermənistanın, 52 mln. dolları Türkiyənin payına düşür. Layihədən investisiyaların geri qayıtması üçün 10 il vaxt tələb olunacaq.

**Cədvəl:1 Bakı-Naxçıvan-İğdır-Qars dəmir yol xətti**

| | Məsafə | Təqribi xərc mln. dollar |
|---|---|---|
| Bakı-Horadiz | 266 | 26.6 |
| Horadiz-Meğri | 108 | 162 |
| Meğri-Naxçıvan | 41 | 61.5 |
| Meğri-Ordubad | 11 | 11 |
| Ordubad-Julfa-Sədərək | 190 | 76 |
| Sədərək-Yeraks | 4 | 8 |
| Yeraks-Gümrü | 192 | 19.2 |
| Gümrü-Akuryan | 13 | 13 |
| Akuryan_Doğukapi | 0.7 | 1.4 |
| Dogukapi-Qars | 52 | 52 |
| Cəmi | 877.7 | 430.7 |

Qeyd edək ki, Bakıdan Horadizə gedən dəmir yol xətti istifadə üçün hazırdır. Horadiz-Ağbənd dəmir yol xəttinin tikintisinə 2021-ci ilin fevral ayından başlanılıb. Ermənistan ərazisindən keçən yolun hələ də təmirinə başlanılmayıb. Ermənistanda bəzi qüvvələrin əleyhinə olmasına baxmayaraq bir müddət sonra Zəngəzur dəhlizinin açılması proqnozlaşdırılır. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə bildirib ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. Bu baxımdan Zəngəzur dəhlizinin fəaliyyət göstərməsi yaxın müddətdə mümkün olacaq.

**Təhlil və qiymətləndirmə**

Zəngəzur dəhlizinin siyasi və regional iqtisadi inteqrasiya üçün əhəmiyyəti ilə yanaşı, region ölkələri arasında xarici ticarətin artırılması üçün də əhəmiyyəti böyükdür. Son illərdə Azərbaycanın Rusiya, Türkiyə və İran ilə xarici ticarət əlaqələrində önəmli artım olsa da, tam potensial imkanlara uyğun deyil. 2019-cu ildə Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsi 2018-ci il ilə müqayisədə 33 faiz, 2017-ci il ilə müqayisədə isə 73 faiz artıb. Buna baxmayaraq Azərbaycan Türkiyə arasında xarici ticarət əlaqələri birbaşa nəqliyyat əlaqəsinin olmaması səbəbindən tam potensial imkanlardan qat-qat aşağı səviyyədədir. Ticarət əlaqələrində əmtəələrin rəqabətqabiliyyətliliyi üçün ən önəmli məsələ qiymətdir ki, bunun da formalaşmasında əsas rollardan biri nəqliyyat xərcləridir. Digər tərəfdən Azərbaycanın MDB ölkələri ilə azad ticarət tariflərinin olması Türkiyənin qiymət rəqabətindən uduzmasına səbəb olur. Bunun qarşısının alınması üçün bir sıra sazişlər imzalanıb və bunlardan ən önəmlisi 1 iyul 2020-ci il tarixində təsdiq edilən "İki hökumət arasında Preferensial Ticarət Sazişi"dir. Bu saziş, 15 mal qrupunda tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılmasını nəzərdə tutub. Qeyd edək ki, 2020-ci ildə Azərbaycan və Türkiyə liderlərinin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasındakı çıxışında bu rəqəmin 15 mlrd. dollara çatdırılmasının hədəfləndiyi bildirilib. Zəngəzur dəhlizinin açılması ilə bu hədəfə çatılması daha da sürətlənəcək.

**Cədvəl:2 Region ölkələri arasında idxal-ixrac əməliyyatları, mln. dollar (2019)**

| | Azərbaycan | | Türkiyə | | Rusiya | | İran | | Ermənistan | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal | İxrac | İdxal |
| **Azərbaycan** | 0,0 | | 1788,8 | 411,2 | 2312,5 | 857,5 | 410,5 | 20,6 | 0 | 0 |
| **Türkiyə** | 2862,7 | 1646,7 | 0,0 | | 21149,7 | 4978,8 | 2367,2 | 2580,4 | 2,1 | 265,4 |
| **Rusiya** | 724,3 | 2287,1 | 4152,1 | 23115,2 | 0,0 | 0,0 | 280,5 | 1342,6 | 719,7 | 1489,3 |
| **İran** | 41,1 | 452,6 | 2737,3 | 3608,2 | 1518,2 | 584,5 | | | 83,8 | 324,7 |
| **Gürcüstan** | 96,9 | 71,4 | 1578,1 | 272,4 | 882,6 | 449,4 | 161,5 | 18,1 | 68,9 | 78,3 |
| **Ermənistan** | 0,0 | 0,0 | 0,2 | 2,7 | 1690,9 | 854,7 | 158,9 | 22,2 | 0,0 | 0,0 |
| **Orta Asiya Respublikaları** | 81,9 | 463,9 | 3475,6 | 3164,2 | 21248,3 | 7398,3 | 784,1 | 184,2 | 18,1 | 11,4 |
| **Ölkə üzrə cəmi** | 19635,2 | 13649,5 | 180835,9 | 210343,5 | 426720,3 | 247261,7 | 96617,5 | 41236,2 | 2620,1 | 5071,0 |
| **Region üzrə cəmi** | 3806,9 | 4921,7 | 13732,1 | 30573,9 | 48802,2 | 15123,2 | 3752,2 | 4147,5 | 892,6 | 2169,1 |
| **Region üzrə xüsusi çəki** | 19,4% | 36,1% | 7,6% | 14,5% | 11,4% | 6,1% | 3,9% | 10,1% | 34,1% | 42,8% |

***Qeyd:*** *İrana aid məlumatlar 2018-ci ili əhatə edir*

Cədvəldən göründüyü kimi, region ölkələri arasında, xüsusilə də Azərbaycan və Ermənistanın regionun digər ölkələri ilə idxal-ixrac əməliyyatlarının xüsusi çəkisi yüksəkdir. Azərbaycan üzrə boru vasitəsilə Türkiyəyə ixrac edilən, eyni zamanda ümumi ixracdan mineral yanacağın məbləğini çıxsaq, Azərbaycanın region üzrə ixracının xüsusi çəkisi xeyli artacaq. Ermənistanın ümumi xarici ticarət dövriyyəsində Rusiya və İranın xüsusi çəkisinin yüksək olmasına baxmayaraq malların daşınmasında əsaslı manelər var. Lakin Zəngəzur dəhlizinin açılması ilə Ermənistanın bu ölkələrlə ticarət dövriyyəsində ciddi artım olması mümkündür. İndi isə Zəngəzur dəhlizinin regionun ayr-ayrı ölkələri üçün əhəmiyyətinə baxaq.

**Azərbaycan:** Azərbaycan üçün ən əsas əhəmiyyət Naxçıvana və Türkiyəyə birbaşa əlaqə yaradıl-

maqla, iqtisadi əlaqələrin genişlənməsidir. Həmçinin Ermənistandan Rusiyaya, Ermənistandan İrana, Çindən Rusiyaya yük daşımalarının artması, Türkiyədən Rusiya və Orta Asiya ölkələrinə yük daşımaları Azərbaycan üçün əlavə tranzit gəlirlərinin əldə edilməsinə imkan verəcək.

Zəngəzur dəhlizinin Şimal-Cənub nəqliyyat marşrutu ilə birləşməsi Azərbaycan üçün əlavə imkanlar yaradacaq. Şimal-Cənub Nəqliyyat Dəhlizi əsasən Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanıb. Şimal-Cənub Tranzit Dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik Dənizindən keçərək, Helsinki şəhərinə 45-60 gün ərzində daşıma müddəti təşkil edirsə, Şimal-Cənub Tranzit Dəhlizi ilə bu müddət 20-25 gün təşkil edir. Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoyub. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Azərbaycan İran tərəfinə Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kreditin ayrılmasını nəzərdə tutub.

Həmçinin yeni tikilən Ələt limanının potensial imkanlarından daha çox istifadə etməyə imkan verəcək. Ələt limanı son illərdə yenidən qurulub və ilbəil limanın yükdaşıma potensialı artır. 2019-cu ildə birinci mərhələnin inkişafı başa çatdırılıb və sonra Bakı Limanında ümumi yükdaşıma imkanı artaraq, 15 mln. ton ümumi yük və 100 000 TEU-ya qədər konteyner olub. Liman kompleksinin tikintisinin ikinci mərhələsinin başa çatdırılması ilə Bakı Limanının ümumi yükdaşıma imkanı artaraq, 25 mln. ton ümumi yük və 500,000 TEU-ya qədər konteyner olacaq. 2019-cu ildə limandan tranzit yük daşımalarının həcmi 3.45 mln. ton olub. Zəngəzur dəhlizinin açılması ilə Türkiyədən Orta Asiya Respublikalarına yük daşımalarının artması Ələt limanının tam gücdə işləməsinə səbəb olacaq.

Ermənistan ilə iqtisadi əlaqələrin də bərpası mümkündür. 1987-ci ildə Azərbaycandan Ermənistana 451 mln. RUB mal ixrac edilib və Ermənistandan 117 mln. RUB idxal olub. Azərbaycandan əsasən xam neft, benzin və kimyəvi mallar ixrac olunub. Ermənistandan isə ziynət əşyaları idxal edilib.

**Ermənistan.** Ermənistan Qafqazın yeganə ölkəsidir ki, dənizə çıxışı yoxdur və xarici ölkələrə çıxışı olan 3 dəmiryol xəttindən (Azərbaycan, Türkiyə, Gürcüstan) yalnız Gürcüstan istiqaməti işləyir. Ermənistandan xarici ölkələrə Gürcüstan üzərindən yük daşınması Batumi və Poti limanlarına, quru yolu ilə isə Kazbek dağları ilə Rusiya ərazisindən mümkündür. Batumi və Poti limanlarına yüksək tariflərin mövcudluğu, Kazbek dağları ilə isə təbii şəraitlə əlaqədar olaraq davamlı bağlı olması, Ermənistanın ixrac-idxalı üçün əlavə problemlər yaradır. Həmçinin Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı olması, Gürcüstan-Abxaziya, Gürcüstan-Osetiya, Gürcüstan-Rusiya münaqişələri Ermənistanın Rusiya ilə nəqliyyat əlaqələrinə ciddi problem yaradır. Rusiya ilə Ermənistan arasında dəmir yolu ilə yük daşınması səmərəli deyil. Həm mövsümi xarakter daşıyır, həm də çox hallarda Poti limanına qədər gəmi ilə, oradan isə dəmir yol vasitəsi ilə gəlir. Quru yolu ilə də çətin dağ yolları ilə getdiyindən maya dəyəri yüksəkdir. Təqribən 20 ton yükün daşınması 4000 USD a başa gəlir. Ermənistan və Rusiya arasında illik ticarət dövriyyəsi 2.4 mlrd dollardır ki, bu da Ermənistanın ticarət dövriyyəsinin 35%-ni təşkil edir. İran İslam Respublikası ilə də, nəqliyyat əlaqələrində ciddi problem var. Hazırda İranla ancaq çətin relyefdən keçən quru yolu əlaqəsi var. İranla dəmir yolu əlaqəsinin qurulmasına cəhd 2009-cu ildə, Ermənistan və İran arasında İrəvan və Təbrizi Sünik üzərindən birləşdirəcək “Cənubi Ermənistan Dəmir Yolu” nun inşası barədə bir müqavilə imzalandığı zaman edilib. Dəmir yolu xəttinin ümumi uzunluğu 470 kilometrdir və ümumi dəyəri 3,5 milyard ABŞ dollarına başa gələcək ki, bu da təqribən Ermənistanın illik büdcəsinə bərabərdir. Layihə məhdud maliyyə imkanları və siyasi iradə səbəbindən həyata keçirilməyib. Son illərdə Ermənistan hökuməti Çini Kəmər və Yol Təşəbbüsü (BRI) çərçivəsində dəmir yolu layihəsinin maliyyələşdirilməsinə cəlb etməyə çalışdı. Bununla belə, bu səylər heç bir nəticə verməyib. Bu baxımdan Ermənistanın Naxçıvan üzərindən İrana dəmir yol xətti vasitəsilə nəqliyyat daha səmərəlidir. Bütün qeyd edilənlər göstərir ki, Zəngəzur dəhlizinin açılması ilə Ermənistan İran və Rusiyaya daha ucuz nəqliyyat əlaqələri quracaq. Ermənistanın daxilində iqtisadi böhranın genişlənməsi və əhalinin sosial vəziyyətin pisləşməsi hökumət üçün

əlavə problemlər yaratdığından nəqliyyat dəhlizinin açılması ilə iqtisadi əlaqələrin inkişafı qarşıda duran problemlərin həlli üçün əhəmiyyət daşıyır.

İran. 1930-1940-cı illərdə Bakı ilə Naxçıvan arasında Ermənistanın Meğri bölgəsindən İran sərhədinə paralel olaraq dəmir yolu çəkildi. Ötən əsrin sonlarında Naxçıvanın Culfa rayonu ilə İranın şimal-qərbindəki Şərqi Azərbaycan Əyalətinin Colfa şəhərindən keçən İran dəmir yolu ilə yük daşımalarının həcmi yüksək idi. Belə ki, 1990 və 1991-ci illərdə Colfa sərhədindən keçən yüklərin həcmi İranın idxalının 10 %-dən çoxunu təşkil edərək, 2.69 və 2.37 milyon ton təşkil edirdi. Birinci Qarabağ müharibəsindən sonra İran sərhədinə yaxın Füzuli, Cəbrayıl və Zəngilan bölgələrinin Ermənistanın nəzarətinə keçməsi ilə Naxçıvanla Azərbaycan arasında dəmir yolu əlaqəsi kəsildi. Ermənistandan Gürcüstana və Azərbaycandan Rusiyaya şimal dəmir yolları fəaliyyət göstərməyə davam etsə də, İranın Qafqazla dəmir yolu əlaqəsi kəsildi və sərhəddən keçən yük mübadiləsi kəskin şəkildə azaldı. Hazırda İranın Ermənistan ilə nəqliyyat əlaqələrində ciddi problemlər yaşanır. Bu baxımdan Zəngəzur dəhlizinin bərpası İranın Ermənistan, Rusiya ilə əlaqələrinə müsbət təsir edəcək.

**Türkiyə.** Türkiyə bu yolun açılması ilə birbaşa Xəzər dənizi və Qafqaza çıxış əldə edir və Azərbaycanla birbaşa əlaqə yaranır. Bu dəhliz vasitəsilə Türkiyənin Şimal-Cənub nəqliyyat layihəsində səmərəli fəaliyyət göstərməsinə imkan yaranacaq. Zəngəzur dəhlizi Türkiyənin Rusiya və Orta Asiya Respublikaları ilə əlaqələrin qurulmasında da mühüm əhəmiyyət kəsb edir.

## Nəticə

Yuxarıda qeyd edildiyi kimi, Zəngəzur dəhlizinin açılması regionun bütün ölkələri üçün, xüsusilə ,Azərbaycan üçün əhəmiyyət kəsb edir. Naxçıvan MR ilə Azərbaycanın qalan hissəsi arasında quru yolunun açılması hesabına yaradılacaq yeni nəqliyyat dəhlizi, Azərbaycan üzərindən daşınan beynəlxalq yüklərin həcmini artırmaqla bərabər, Azərbaycanın regional mövqeyini daha da gücləndirəcək. Azərbaycanın istehsal etdiyi məhsulların həm Naxçıvana, həm də Türkiyə bazarlarına daha asan və az xərclə çıxarılmasına imkan yaranacaq. Bu isə nəticə etibarilə sahibkarların ixrac imkanlarını genişləndirəcək. Bundan başqa, dəhliz Naxçıvanda fəaliyyət göstərən sahibkarlara Azərbaycanın Qərb bölgəsi vasitəsilə daha geniş bazarlara məhsul ixrac etmək imkanı verəcək. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşmasında aktiv şəkildə iştirak etdiyindən, bu dəhliz, Azərbaycan üzərindən daşınan beynəlxalq yüklərin həcminin, dolayısı ilə ölkəmizin beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirin artmasına imkan verəcək. Ölkəmizin coğrafi mövqeyi və nəqliyyat infrastrukturu beynəlxalq yükdaşımaların həcmini, o cümlədən Qarabağın qeyri-neft məhsulları üzrə iqtisadi potensialından istifadənin səmərəliliyinin artırmasına, həmçinin region ölkələrin xarici ticarət əlaqələrinin optimal nəqliyyat marşrutları əsasında inkişafına geniş imkanlar yaradacaqdır.

## İstinadlar


1. 1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanda nəqliyyat", Bakı 2021., səh. 26
2. 2. https://www.bbc.com/azeri/azerbaijan-56844543
3. 3. http://www.ipr-ras.ru/old_site/articles/tsvetkov-and11-04.pdf
4. 4. https://www.international-alert.org/sites/default/files/Caucasus_RailwaysRehabilitationPt2_RU_2013.pdf
5. 5. https://president.az/articles/35961
6. 6. https://president.az/azerbaijan/silkroad
7. 7. https://portofbaku.com/Ourport/PortDevelopment

QULİYEV Cəlil

AMEA İqtisadiyyat İnstitutu, Baş elmi işçi, i.f.d., dosent

# AĞDAMDA DEMOQRAFİK DƏYİŞİKLİKLƏRİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ (1990-2000-Cİ İLLƏR)

**Xülasə:** Demoqrafiya-humanitar elmlərin müstəqil sahəsi kimi müəyyən ərazi məkanında demoqrafik proseslərdə baş verən dəyişiklikləri təhlil edir və qiymətləndirir. Demoqrafik proseslərin qanunauyğunluqlarını dərk etmədən, gələcəkdə baş verə biləcək dəyişiklikləri görmədən və qiymətləndirmədən, bu proseslərə təsir göstərmək imkanlarını və yollarını bilmədən iqtisadiyyatı idarə etmək və tənzimləmək qeyri-mümkündür.

**Açar sözlər:** Ağdam, təkrar istehsal, əhali, demoqrafik proseslər, insan amili, sosial-iqtisadi, həyat səviyyəsi və s.

## Giriş

Əhalinin mövcud və yaxın gələcəyə yaşına və cinsinə görə sayı və quruluşu haqqında məlumatlar əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin, istehlak məhsulları istehsalının, mənzil tikinti, təhsil, səhiyyə və s. bu kimi digər problemlərin və sosial-iqtisadi sahələrin inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsinə geniş imkanlar açır.

İnsan amilinin ön plana çəkildiyi indiki şəraitdə demoqrafik proseslərin qarşılıqlı əlaqəsində baş verən dəyişikliklərin öyrənilməsi ilə yanaşı eyni zamanda sosial-iqtisadi və siyasi hadisələrin bilavasitə əhalinin inkişafından asılılığının tədqiq edilməsi, təkcə əhalinin deyil, eləcə də maddi nemətlərin geniş təkrar istehsalının qanunauyğunluqlarının düzgün müəyyən edilməsində əhəmiyyətli rol oynayır.

Konkret məkanda və zamanda əhalinin təkrar istehsalında baş verən dəyişikliklər, cəmiyyətin sosial-iqtisadi həyat tərzi ilə, başqa sözlə orada məskunlaşan əhalinin həyat səviyyəsi ilə müəyyən edilir. Çünki, insanlar maddi nemətlərin deyil, həm də özlərinin təkrar istehsalını təmin etmiş olurlar.

### Ağdamda demoqrafik dəyişikliklər

Müstəqilliyin ilk illərində Ermənistanın ərazilərimizin 20 faizini o cümlədən Ağdam rayonunu işğal edərək, otuz ilə yaxın işğal altında saxlaması nəticə etibarı ilə ölkəmizdə sosial-iqtisadi inkişafı ilə yanaşı əhalinin demoqrafik inkişafı proseslərinə və onların quruluşuna da ciddi təsir göstərmişdir. Əhalinin təkrar istehsalını əks etdirən əsas göstəricilərdə baş verən dəyişiklikləri xarakterizə edən 1 saylı cədvələ nəzər salsaq görərik ki, 1990-cı illə müqayisədə 2000-ci ildə

doğulanların sayı 3324 nəfərdən 2782 nəfərə qədər və ya 16,3 faiz bəndi azalması, ölənlərin 702 nəfərdən 818 nəfərə qədər, və ya 16,5 faiz artması nəticə etibarı ilə təbii artımın 2622 nəfərdən 1964 nəfərə və ya 25,1 faiz bəndi azalmasına səbəb olmuşdur. Sonrakı illərdə baş verən dəyişikliklərə məsələn əhalinin hər 1000 nəfərinə 1990-cı ilə nisbətən 2020-ci ildə ölüm əmsalının 5,2 promildən 8,0 promilə qədər və ya 2,8 promil bəndi artsa da, doğum promilinin daha sürətlə-24,7 promildən 13,37 promilə qədər və ya 11.0 promil bəndi azalması nəticəsi etibarı ilə təbii artım əmsalı 13,8 promil bəndi azalmasına səbəb olmuşdur.

**Cədvəl 1**.Ağdam rayonu üzrə əhalinin təkrar istehsalı

| | nəfər | | | əhalinin hər 100 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | Təbii artım | O cümlədən | | Təbii artım | O cümlədən | |
| | | doğulan | Ölənlər | | doğulan | Ölənlər |
| 1990 | 2622 | 3324 | 702 | 19,5 | 24,7 | 5,2 |
| 1995 | 1300 | 1768 | 468 | 8,5 | 11,6 | 3,1 |
| 2000 | 1964 | 2782 | 818 | 12,5 | 17,8 | 5,3 |
| 2005 | 1974 | 2878 | 904 | 11,9 | 17,3 | 5,4 |
| 2010 | 2518 | 1572 | 1054 | 14,0 | 19,9 | 5,9 |
| 2015 | 2590 | 3770 | 1180 | 13,4 | 19,5 | 6,1 |
| 2016 | 2472 | 3577 | 1105 | 12,6 | 18,2 | 5,6 |
| 2017 | 1932 | 3134 | 1202 | 9,8 | 15,8 | 6,0 |
| 2018 | 1833 | 3044 | 1211 | 9,1 | 15,1 | 6,0 |
| 2019 | 1849 | 2998 | 1149 | 9,1 | 14,8 | 5,7 |
| 2020 | 1162 | 2795 | 1633 | 5,7 | 13,7 | 8,0 |

***Mənbə:*** *Azərbaycanın demoqrafik göstəriciləri. Bakı 1992. Səh.133.*

Ölənlərin yaş qrupları üzrə cinsinə görə quruluşunun təhlili göstərir ki, ayrı-ayrı dövrlərdə yaş qrupları üzrə ölənlərin xüsusi çəkisi müxtəlif olmuşdur. Əgər 1990-cı illə müqayisədə 1995-ci ildə 0-14 yaşlı uşaqların xüsusi çəkisi 18,1 faizdən 14,1 faizə qədər və ya 4,3 faiz bəndi azaldığı-30-64 yaşlıların xüsusi çəkisinin-34,4 faiz dəyişməz qaldığı halda, 15-29 yaşlı gənclərin xüsusi çəkisi 0,6 faiz bəndi, 65 və yuxarı yaşda olanların xüsusi çəkisi isə 4 faiz bəndi artmışdı. 2000-ci ildən başlayaraq, 2015-ci ilə kimi yaş qrupları üzrə ölənlərin tərkibində ciddi bir dəyişiklik olmamış, lakin sonuncu 5 ildə 2015-ci illə müqayisədə 2020-ci ildə 0-14 yaşında ölənlərin xüsusi çəkisi 5,1 faizdən 2,4 faizə qədər və ya 2,7 faiz bəndi, 65 və yuxarı yaşlıların xüsusi çəkisi 58,6 faizdən 57,5 faizə qədər və ya 1,1 faiz bəndi azaldığı halda, 15-29 yaşlı ölən gənclərin sayı 2,3 dəfə, xüsusi çəkisi isə 2,8 faizdən 4,7 faizə qədər və ya 1,9 faiz bəndi artmışdır. 2020-ci ildə 15-29 yaşlı ölənlər arasında ölənlərin cinsinə görə quruluşunda baş verən dəyişikliklərə nəzər salsaq görərik ki, doğulanların xüsusi çəkisi 65-70 faiz təşkil etmişdisə, bu göstərici 2020-ci ildə ikinci Qarabağ müharibəsində şəhid olan gənclərin hesabına 37,3 faizə qədər artmışdır.

**Cədvəl 2.** Əhalinin və ölənlərin yaş qruplara görə sayı və quruluşu

| | Əhalinin sayı, ilin əvvəlinə min.nəfər. | | | | | Ölənlərin sayı, nəfər | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən yaş qrupları | | | | Cəmi | O cümlədən yaş qrupları | | | |
| | | 0-14 | 15-29 | 30-64 | 65 və yuxarı | | 0-14 | 15-29 | 30-64 | 65 və yuxarı |
| **1990** | 7131,9 | 2346,9 | 2076,5 | 2367,2 | 341,2 | 42819 | 8036 | 1891 | 14739 | 18153 |
| | 100,0 | 32,9 | 29,1 | 33,2 | 4,5 | 100,0 | 18,8 | 4,4 | 34,4 | 42,4 |
| **1995** | 7643,5 | 2487,1 | 1992,4 | 2746,6 | 417,4 | 50828 | 7178 | 2559 | 17505 | 23586 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 100,0 | 32,6 | 26,0 | 35,9 | 5,5 | 100,0 | 14,1 | 5,0 | 34,4 | 46,4 |
| **2000** | 8032,8 | 2545,6 | 2088,0 | 2979,7 | 419,5 | 46701 | 3863 | 1820 | 15353 | 25665 |
| | 100,0 | 31,7 | 26,0 | 37 | 5,2 | 100,0 | 8,3 | 3,9 | 32,9 | 55,0 |
| **2005** | 8447,6 | 2198,1 | 2399,0 | 3302,9 | 547,4 | 51962 | 2728 | 1783 | 15345 | 32106 |
| | 100,0 | 26,0 | 28,4 | 39,1 | 6,5 | 100,0 | 5,2 | 3,4 | 29,5 | 61,8 |
| **2010** | 8997,6 | 2030,7 | 2664,3 | 3767,6 | 535 | 53580 | 2729 | 1749 | 16668 | 32434 |
| | 100,0 | 22,6 | 29,6 | 41,9 | 5,9 | 100,0 | 5,0 | 3,3 | 31,1 | 60,5 |
| **2015** | 9593,0 | 2152,7 | 2564,5 | 4305,9 | 670,7 | 54697 | 27,65 | 1515 | 18375 | 32042 |
| | 100,0 | 22,4 | 26,7 | 44,9 | 7,0 | 100,0 | 5,1 | 2,8 | 33,6 | 58,6 |
| **2016** | 9705,6 | 2186,9 | 2509,9 | 4411,3 | 597,5 | 96648 | 2495 | 1531 | 18383 | 34239 |
| | 100,0 | 22,5 | 25,9 | 45,5 | 6,2 | 100,0 | 4,4 | 2,7 | 32,5 | 60,4 |
| **2017** | 9810,0 | 2219,8 | 2447,7 | 4522,2 | 620,3 | 57109 | 2465 | 1381 | 19486 | 33777 |
| | 100,0 | 22,6 | 25,0 | 46,1 | 6,3 | 100,0 | 4,3 | 2,4 | 34,1 | 59,1 |
| **2018** | 9898,1 | 2234,2 | 2387,0 | 4628,7 | 648,2 | 57250 | 2251 | 1327 | 19120 | 34552 |
| | 100,0 | 22,6 | 24,1 | 46,8 | 6,5 | 100,0 | 3,9 | 2,3 | 33,4 | 60,4 |
| **2019** | 9981,5 | 2239,1 | 2324,2 | 4739,9 | 678,3 | 55916 | 2323 | 1390 | 19198 | 33005 |
| | 100,0 | 22,4 | 23,3 | 47,5 | 6,8 | 100,0 | 4,2 | 2,5 | 34,3 | 59,0 |
| **2020** | 10067,1 | 2256,7 | 2255,8 | 4834,7 | 719,9 | 75647 | 1830 | 3530 | 26809 | 43478 |
| | 100,0 | 22,4 | 22,4 | 48,0 | 7,2 | 100,0 | 2,4 | 4,7 | 35,4 | 57,5 |
| **2021** | 10119,1 | 2260,8 | 2189,4 | 4918,5 | 756,4 | - | - | - | - | - |
| | 100,0 | 22,3 | 21,5 | 48,6 | 7,5 | - | - | - | - | - |

***Mənbə.*** *AR Dövlət statistika Komitəsi*

Əhalinin təkrar istehsalında baş verən dəyişikliklər də öz növbəsində demoqrafik göstəriciləri olan nikahların və boşanmaların sayına ciddi təsir göstərmişdir. Ağdamda 1990-cı illə müqayisədə 2020-ci ildə rəsmi qeydə alınmış nigahların sayı 47,4 faiz bəndi azalmış, boşanmaların sayı 2,6 dəfə artmışdır. Nikahların və boşanmaların sayında baş verən dəyişikliklər də öz növbəsində doğulanların sayına ciddi təsir göstərən amillərdən biri olmuşdur.

**Nəticə**

Doğum əmsalının və təbii artımın nisbətən artdığı 2000-2015-ci illərdə doğulan uşaqlar 15 ildən sonra (15 yaş əmək qabiliyyətli yaş həddidir) daha doğrusu 2015-ci ildən başlayaraq 2031-ci ilə kimi əmək qabiliyyətli əhalinin sayının artmasına şərait yaradacaq. Lakin, 2020-ci ildə pandemiyadan və 2-ci Qarabağ müharibəsində ölənlərin sayının artması səbəbindən 2032-ci ildən məşğulluq sahəsində ciddi problemlər yarada bilər.

QULİYEVA Şəfa
UNEC, i.e.d., professor

# AĞDAM RAYONUNUN İQTİSADİ POTENSİALININ REALLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə:** Məqalədə təxminən 30 ilə qədər bir dövrdə Azərbaycan Respublikası ərazisinin 20%-ə qədəri erməni vandallarının işğalı altında olması, Ali Baş Komandan Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad edərək, xalqın uzunmüddətli həsrətinə son qoyması Azərbaycan Respublikasının öz qanuni torpaqlarına məxsus olan resurslardan istifadəsi iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün geniş imkanların açılmasını şərtləndirən aspektlər tədqiq edilmiş, ərazilərin iqtisadi potensialının reallaşdırılması istiqamətləri müəyyən olunmuşdur.

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, Ağdam rayonu, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı

→

## Giriş

Pandemiya və dünya iqtisadi böhranı səbəbindən 2020-ci ildə əksər dünya ölkələri irimiqyaslı strateji planları təxirə salmaqla xərcləri tarazlamaq məcburiyyətində qaldıqları bir vaxtda, Azərbaycan dövləti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə iqtisadi və sosial çətinliklərə, müharibə ilə əlaqədar maliyyə xərclərinə baxmayaraq, erməni təcavüzünə sinə gərmiş və işğal altında olan torpaqları azad edərək Şanlı Qələbə qazanmışdır. Dağlıq Qarabağ və ətraf rayonları zəngin təbii resurslara malikdir. İşğal səbəbindən həmin ərazilərdəki resurslardan istifadənin mümkünsüzlüyü Azərbaycan iqtisadiyyatı üçün böyük itkilərlə nəticələnmişdir. Ağdam rayonunun işğaldan azad edilməsi ilə yeni iqtisadi imkanların ölkə iqtisadiyyatına inteqrasiyası gələcəkdə iqtisadiyyatın inkişafı üçün perspektiv imkanlar yaratmış olur. İşğal altında olan torpaqların azad edilməsindən sonra həmin torpaq sahələrindən istifadə yeni iş yerlərinin açılmasında başlıca rol oynamış olacaqdır. Bu torpaqlarda becərilən müxtəlif növ kənd təsərrüfatı məhsullarının emalı yeyinti sənayesinin inkişafında xüsusi rol oynayacaq və etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir.

### Təhlil və qiymətləndirmələr

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik illərində Ağdam rayonunun digər rayonlar kimi Ümumilli Liderin daim qayğısı ilə əhatələnib və buradakı sosial iqtisadi inkişaf hər zaman diqqətdə saxlanılıb. Heydər Əliyev 1996-cı ildə Ağdam ictimaiyyəti ilə görüşündə rayonun işğalına belə münasibət bildirmişdir: “Ağdam şəhəri heç vaxt işğal oluna bilməzdi. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanan təcavüz–ilk atışmalar, ilk qığılcım, təcavüzün ilk addımları

məhz Ağdama tərəf yönəldilmişdi. Bu da təbiidir, çünki Dağlıq Qarabağa gedən yolların hamısı Ağdamdan keçir. Eyni zamanda, Dağlıq Qarabağda yaşayan ermənilər Ağdamın nə olduğunu yaxşı bilirdilər. Ağdamın tarixini də, keçmişini də, Ağdamın insanlarının nə qədər dəyanətli, nə qədər cəsarətli olduqlarını da yaxşı bilirdilər. Strateji nöqteyi-nəzərdən isə Ermənistan təcavüzünün qarşısının alınması üçün Ağdam şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtə idi. Ağdam qorunmalı idi, Ağdam saxlanılmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi. 1992-ci ilin sentyabrında Abdal-Gülablı kəndinin işğal olunması, ondan sonra da, rayonun digər kəndlərinə hücumlar, Ağdama qarşı yönəldilmiş təcavüzkar planlar, nəhayət, Ağdam şəhərinin işğalına gətirib çıxardı". Ümumilli Lider qeyd etmişdir: "Ağdamlılara mənim daim xüsusi hörmətim və qayğım olubdur. Hələ 70-ci illərdə mənim burada işlədiyim zaman Ağdama nə qədər çox diqqət göstərilmişdir. Ağdamda nə qədər böyük işlər görülmüşdür–həm şəhərin qurulması, yaradılması, həm qəsəbələrin abadlaşdırılması, həm Ağdamın iqtisadiyyatının inkişaf etdirilməsi baxımından. Ağdamın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf edirdi. Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. Çünki Ağdamın çox gözəl torpağı var, çox gözəl təbiəti var, çox fədakar, zəhmətkeş insanları var. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır. Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər. Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etdirilməsində fəal iştirak etmişlər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir".

Ulu Öndər ağdamlılarla keçirdiyi görüşlərində hər zaman onların doğma yurdlarına qayıdacaqlarına inam hissi yaratmışdır. Prezident İlham Əliyevin başçılığı altında ötən illər ərzində Ağdam sakinlərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə geniş miqyaslı tədbirlər həyata keçirilmişdir. Ağdam rayonu ərazisində asfalt örtüklər salınmış, subartezian quyular qazılmış, Quzanlı, Təzəkənd, İmamqulubəyli kəndlərində məktəb binaları, Quzanlıda və Xındırıstanda uşaq bağçaları istifadəyə verilmişdir. Dövlət başçısının təşəbbüsü ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində Avropa standartlarına cavab verən Olimpiya idman kompleksi istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılan Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam rayonu Qarabağın mərkəzində - eyni adlı dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Ağdam işğaldan əvvəl ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayon olmuşdur. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektar sahəsi isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir. Kənd təsərrüfatı əsas bitkiçilik məhsullarının istehsalında ilk yerdə tərəvəz, daha sonra dənli və dənli paxlalılar (o cümlədən buğda) və şəkər çuğunduru olmaqla qərarlaşıb. Digər bitkiçilik məhsullarından isə pambıq, üzüm, meyvə və giləmeyvə, dən üçün günəbaxan, kartof və bostan məhsullarını göstərmək olar. Kənd təsərrüfatının heyvandarlıq məhsullarının istehsalında ət, süd, yumurta və yun məhsullarının payı geniş vüsət almışdır.

İşğaldan əvvəl Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları və s. istehsal olunurdu. Ağdam rayonunda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları emalı ilə bağlı müəssisələr var idi. Qeyd etmək lazımdır ki, 2018-ci ildə Ağdam rayonu üzrə istehsal edilən sənaye məhsullarının dəyəri müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə 12,6 milyon manat olmuşdur. Həmin dövr pərakəndə ticarət dövriyyəsinin dəyəri isə 43,3 milyon manata çatmışdır. Ağdamın 27 il işğalda qalmış ərazisinin azad edilməsi rayon iqtisadiyyatının bərpasından sonra iqtisadi inkişafı daha da sürətləndirəcəkdir.

Dağlıq Qarabağ və ətraf rayonların işğal altında olan ərazilərinin azad edilməsindən dərhal sonra həmin ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi məsələsi gündəmə gəlmişdir. İşğaldan azad edilmiş torpaqların bərpası və inkişaf konsepsiyası Prezident İlham Əliyevin tapşırıqlarına uyğun hazırlanmışdır. İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir [1].

Qeyd etmək lazımdır ki, işğaldan azad edilən ərazilərin bərpası və inkişafı üzrə Azərbaycanın kifayət qədər təcrübəsi var. 2016-cı ilin aprelində Cocuq Mərcanlı kəndində bərpa və yenidənqur-

ma işləri "Böyük qayıdışın başlanğıc" nöqtəsi oldu. Azad edilmiş ərazilərin minalardan təmizlənməsi və zərərsizləşdirilməsi tədbirlərindən sonrakı bərpa və yenidənqurma işləri "Böyük qayıdışın" davamı kimi çıxış edir. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər iqtisadiyyata yerli və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaratmış olacaqdır.

İşğaldan azad edilən ərazilərin yeni texnologiyalardan istifadə etməklə iqtisadiyyatının bərpası və inkişafı həmin ərazilərdə intensiv iqtisadiyyata keçid üçün əsaslı zəmin yaratmış olacaqdır. Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, II dünya müharibəsindən sonra ən çox dağıntıya məruz qalan iki ölkə - Almaniya və Yaponiya yeni texnologiyaların tətbiqi və intensiv iqtisadiyyata keçid nəticəsində daha sürətli inkişafa nail olmuşlar.

Bugün Azərbaycan öz tarixinin yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişaf mərhələsinə uyğun yeni vəzifələr ilk növbədə işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə əlaqədardır. Bunun üçün 2021-ci il üçün dövlət büdcəsindən 2,2 mlrd manat vəsait ayrılıb. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı siyasətini yerinə yetirmək üçün koordinasiya qurumu yaradılmışdır.

Qarabağ və ətraf rayonların işğaldan azad edilmiş ərazilərində qaçqınların və məcburi köçkünlərin ən yaxın zamanda öz doğma torpaqlarına qayıtmaları üçün yeni yaşayış binaları, məktəblər, xəstəxanalar, inzibati binalar tikiləcək, müasir infrastruktur yaradılacaqdır. Müvafiq olaraq, bərpa işləri tamamlanandan sonra işğaldan azad edilmiş torpaqlar ölkəmizin iqtisadi inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Azad edilmiş ərazilərin iqtisadi potensialının realizasiyası Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafına böyük töhvə vermiş olacaqdır. Məlumdur ki, neft-qaz sektorundan asılılığın aşağı salınması məqsədilə Azərbaycan Respublikası Prezidenti və ölkə hökuməti tərəfindən iqtisadi vəziyyətin sabitləşdirilməsinə yönəlmiş bir sıra tədbirlər qəbul edilmişdir. Məsələn, "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında əsas qismində ixracyönümlü iqtisadi model götürülmüşdür və nəzərdə tutulmuşdur ki, rəqabətqabiliyyətliliyin yüksəldilməsi və iqtisadiyyat strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artmasına səbəb olacaqdır [2]. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də məhz ixrac potensialının artırılmasına istiqamətlənmişdir [3].

Hesab edirik ki, AR-nın işğaldan azad edilmiş ərazilərinin iqtisadi potensialının reallaşması nəticəsində ölkə iqtisadiyyatına daha böyük töhfəni aşağıdakı istiqamətlər üzrə verəcəkdir:

1. kənd təsərrüfatı məhsulunun istehsalı və emalının inkişafı;

2. ixtisaslaşdırılmış turizm sənayesinin inkişafı.

2020-ci ildə kənd təsərrüfatında, meşə təsərrüfatında və balıqçılıqda ÜDM-in 6,9%-i istehsal edilmişdir [4]. Müstəqillik dövrü ərzində həmin sferanın ÜDM-dəki payı (bütün digər sahələrin də olduğu kimi) transformasiyaya uğramışdır: əgər 1990-cı ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payı əlavə dəyərdən 26,50% təşkil edirdisə, 2019-cu ildə bu göstərici 5,72%-dək aşağı düşmüşdür. 1990-2019-cu illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın ən yüksək payı 1994-cü ildə - 45%, ən aşağı payı isə - 2006-cı ildə (7,09%) olmuşdur [5]. Gözləmək olar ki, azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı şəraitində (burada heyvandarlıq, bitkiçilik, bağçılıq, meyvəçilik və s. inkişaf etdirilə bilər) bu pay artacaq. Belə bir perspektiv həmçinin onunla öz təsdiqini tapır ki, dövlət başçısı cənab İlham Əliyevin göstərişinə əsasən həmin ərazilərdə artıq payız əkini aparılmışdır. Beləliklə, Strateji Yol Xəritəsində də nəzərdə tutulmuş kənd təsərrüfatı payının 2025-ci ilə əhəmiyyətli dərəcədə artımı icra ediləcəkdir [3].

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı, ərzaq məhsullarının müxtəlif növlərinin istehsalı ölkənin ərzaq məhsulları ilə təminatı və ixracın diversifikasiyası üçün xüsusilə önəmlidir. COVİD-19 pandemiyasının təsiri altında bir çox ölkələr məhz bu istiqamətdə işləməyə başlayıb. Ölkənin ərzaq məhsulları ilə daxili istehsal hesabına təmin edilməsi zərurətindən irəli

gələrək, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı məsələsi, heç şübhəsiz, çox aktualdır.

AR turizm sferasının inkişaf etdirilməsi üçün zəngin mədəni-tarixi və təbii irsə malikdir. 2019-cu ildə AR-nın ÜDM-nə səyahətlər və turizmin verdiyi töhfə 7,2% təşkil etmişdir [6], lakin COVİD-19 pandemiyası bu sferada ciddi tənəzzülə gətirib çıxarmışdır. AR Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan 155 dünya ölkəsindən 720,3 min nəfər xarici vətəndaş və vətəndaşlığı olmayan şəxslər qəbul etmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə azdır [7].

Azad edilmiş ərazilərdə turizmin inkişafında kənd turizmi xüsusi yer tuta bilər. Burada Asiya modeli olan "Milli kənd" prinsipi üzrə turistik etnoqrafik kəndləri yaratmaq olar. Müalicəvi-sağlamlıq turizmin inkişafına əhəmiyyət verməmək də olmaz, çünki azad edilmiş ərazilərdə mineral suların və müalicəvi palçıqların qaynaqları yer alır. Kurort-sağlamlıq mərkəzlərin (SPA-mərkəzlərin) tikintisi turizmi bütün il boyu inkişaf etdirməyə imkan verəcəkdir.

Erməni işğalından azad edilmiş ərazilərin bərpası nəhəng maliyyə resursları tələb edir. Azərbaycan Respublikası dövlət büdcəsindən maliyyə vəsaitlərinin ayrılması ilə yanaşı, Dağlıq Qarabağın və onun ətraf rayonlarının bərpası üçün fondlar yaradılmışdır. Qeyd etmək lazımdır ki, Qarabağda və onun ətraf rayonlarında dağıdılan və viran edilən hər şeyə görə Ermənistan maddi cəhətdən məsuliyyətə cəlb edilməlidir. Azərbaycan Respublikası bununla bağlı beynəlxalq məhkəmələrə iddialar artıq hazırlanmışdır.

2021-ci il üçün makro iqtisadi göstəricilər planlaşdırılarkən işğaldan azad olunmuş ərazilərdə geniş bərpa quruculuq işlərinin qeyri-neft sektorunda və ümumiyyətlə iqtisadiyyatda fəal artım aparıcı rolunu oynaması nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycan iqtisadiyyatı üçün artım tempini 1,7-2% arasında proqnozlaşdırmışlarsa, qəbul olunmuş parametrlərə əsasən biz iqtisadi artım tempini 3,4% planlaşdırmışıq [1]. Dağlıq Qarabağ və ətraf rayonlarının bərpa və yenidənqurma prosesləri sürətləndikcə həmin ərazilərin iqtisadi potensialı Azərbaycan Respublikası iqtisadiyyatının dayanıqlı inkişafına daha da əhəmiyyətli tövhə vermiş olacaqdır. Bununla əlaqədar regionun faydalı qazıntı potensialını da xüsusilə dəyərləndirmək lazımdır. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mövcud olan faydalı qazıntıların istismarının üç istiqamətdə aparılması məqsədəuyğun hesab edilir: əlvan metallar və onların metallurgiyası, tikinti materialları və nadir metallar. Əlvan metallar və tikinti materialları ənənəvi iqtisadiyyata xas olan sahələr olduğundan işlərin görülməsi zamanı bu sahədə aparılmış tədqiqatlara və ilkin infrastruktura əsaslanmaq mümkündür lakin, yüksək texnologiyalarda geniş istifadə edilən nadir metalların mövcudluğu ilə bağlı yeni araşdırmaların aparılması tələb oluna bilər.

Qarabağ və ətraf rayonların işğaldan azad edilmiş ərazilərinin sənaye potensialı ümumi halda aşağıdakı aspektlərdə nəzərdən keçirilə bilər:

**Zəngin su təchizatı:** Qeyd etmək lazımdır ki, ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir. Bu kontekstdə işğaldan azad edilmiş ərazilərin zəngin su ehtiyatları sənaye və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Sərsəng su anbarının yerləşdiyi Ağdərə rayonun işğaldan azad olunması respublikanın altı rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təmin etməyə imkan yaradacaqdır. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarı 75 min hektar yeni ərazilərin suvarılması və mövcud suvarılan ərazilərdə suvarılmanın yaxşılaşdırılması deməkdir.

**Elektrik enerjisi resursu**: Qarabağ və ətraf rayonlarının işğaldan azad edilmiş ərazilərinin əsas elektrik enerjisi istehsalı su yığımı və təchizatı ilə əlaqədardır. Sərsəng və Xudafərin SES-nın ölkənin enerji sisteminə qatılması ətraf rayonların enerji təminatının yaxşılaşdırılmasında, güclərin artırılması ilə yanaşı mənbələrin coğrafi diversifikasiyasında, yəni Abşeron, Şirvan və Mingəçevir üzərindən yüklərin azadılmasında, həmçinin alternativ enerji istehsalının ümumi istehsalda payının artırılmasında müstəsna rol oynamış olacaqdır.

**Sənaye rekreasiya imkanları:** Qarabağ və ətraf rayonlarının işğaldan azad edilmiş ərazilərində xüsusi müalicə əhəmiyyəti olan 120-ə qədər müxtəlif tərkibli mineral su yataqları vardır. Məsələn, Kəlbəcər rayonunda yerləşən İstisu, Laçın rayonunda İlıqsu, Şuşada yerləşən Turşsu və s. mineral suları misal göstərmək olar.

**Faydalı qazıntı potensialı**: Məlumdur ki, Qarabağ və ətraf rayonların işğaldan azad edilmiş əraziləri yeraltı və yerüstü təbii ehtiyatlarla zəngindir. Həmin ərazilərdə əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq və digər faydalı qazıntılar var. İşğal zamanı Ermənistan bu potensialdan tam yararlana bilməsə də ətraf mühitə ziyan vurmaqla faydalı qazıntılarımız talanıb. Əlbəttə ki, buna görə erməni işğalçıları mütləq məsuliyyətə cəlb ediləcəklər.

Qarabağ və ətraf rayonlarının işğaldan azad edilmiş ərazilərində yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin inkişafını təmin etmək üçün perspektivdə iqtisadi potensialını tam reallaşdırmaq imkanına malikdir. “AzerGold” QSC və Azərbaycan Sənaye Korporasiyası bu ərazilərdəki təbii ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək ixtisaslı kadr, təcrübə, ixrac və investisiya imkanlarına malikdir. Metallurgiyanın inkişafı Azərbaycanda hərbi sənayenin inkişafını da sürətləndirmiş olacaqdır. Prezident İlham Əliyev Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında sərəncam imzalamışdır. Məlumdur ki, Ağduzdağ Kəlbəcər rayonunda qızıl yatağıdır. Sərəncama əsasən, yerin təkindən istifadə sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq Qaşqaçay filiz yatağı “Eti Bakır A.Ş.” şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları “Artvin Maden A.Ş.” şirkətinə öyrənilmə, tədqiq, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilmişdir.

Ali Baş Komandan Prezident İlham Əliyev 28 May Respublika günündə Ağdama səfəri zamanı qeyd etmişdir ki, Ağdam şəhəri dünya üçün nümunə olacaq, Ağdam şəhərinin Baş Planının təqdimatından göründüyü kimi Ağdamın gələcəkdə regionun sənaye mərkəzlərindən birinə çevriləcəyi gözlənilir. Ağdamda sənaye parkının yaradılması investisiyaların cəlb edilməsi baxımından böyük əhəmiyyətə malikdir. Nəticədə Ağdam rayonu Azərbaycan iqtisadiyyatına mühüm töhfə vermiş olacaqdır. Ağdamı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcək Baş Planda Qarabağ Universitetinin yaradılması da nəzərdə tutulur. Qarabağ Universitetinin Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıran ali təhsil müəssisəsi kimi fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, Qarabağ Universiteti bölgənin daha sürətlə inkişafına təkan verəcəkdir və Qarabağın sosial-iqtisadi inkişaf perspektivləri ilə bağlı vahid strategiya çərçivəsində bölgədə təhsil sisteminin inkişafında əhəmiyyətli rol oynamış olacaqdır. Prezident İlham Əliyevə mayın 28-də Ağdam şəhərinin Baş Planı təqdim olunan zaman Dövlət Başçısı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış etmişdir: “Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq”. [8]

**Nəticə**

Qarabağda bərpa və quruculuq işləri nəticəsində Ağdam rayonunun iqtisadiyyatının inkişafı Prezident İlham Əliyevin dediyi kimi, Ağdam üçün yeni bir dövrün başlanmasına səbəb olacaqdır. Məlumdur ki, rayon ərazisi bitkiçilik və heyvandarlıq üzrə fermer təsərrüfatlarının və aqroparkların yaradılması, müalicəvi və idman turizminin inkişafı istiqamətində geniş imkanlara malikdir. Ağdam rayonunda topdan və pərakəndə ticarət məntəqələrinin fəaliyyətinin təmin edilməsi rayon əhalisinin məşğulluq probleminin həllində geniş perspektivlərə malikdir. Eyni zamanda, Ağdam rayonunda müalicəvi və idman turizminin inkişafı, tikinti materiallarının istehsalı, xüsusilə də Şahbulaq yüksəkliyində yerləşən daş karxanasının fəaliyyətinin bərpası rayon iqtisadiyyatının inkişafına öz önəmli tövhəsini vermiş olacaqdır.

İkinci Qarabağ müharibəsinin zəfərlə başa çatmasına görə Ulu Öndər Heydər Əliyevə, onun ruhuna minnətdarıq. Ümumilli Liderin şah əsəri olan müstəqil Azərbaycan dövlətinin sükanı bugün tam etibarlı əllərdədir. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin milli

dövlətçilik siyasəti Azərbaycana tarixi qələbələr qazandırmaqdadır. 44 gün davam edən vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə çevrildi. Azərbaycan xalqı müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü nümayiş etdirdi. Prezident İlham Əliyev həmçinin diplomatik cəbhədə də böyük strategiya nümunəsi nümayiş etdirərək xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. İndi hər bir Azərbaycan vətəndaşı əmindir ki, Azərbaycan xalqını daha uğurlu bir gələcək gözləyir.

**İstinadlar**


1. İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib, 6 yanvar 2021. https://ru.president.az/
2. "Azərbaycan 2020: Gələcəyə baxış" https://president.az/files/future_ru.pdf
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi 6 dekabr 2016-cı il, 1138 nömrəli. https://cis-legislation.com/document.fwx?rgn=91715
4. Azərbaycan Respublikası Statistika Komitəsi. https://www.stat.gov.az/news/index.php?id=4795
5. The World Bank. Agriculture, forestry, and fishing, value added (% of GDP). https://data.worldbank.org/
6. World Travel & Tourism Council. https://wttc.org/Research/Economic-Impact
7. Azərbaycan Respublikası Statistika Komitəsi. https://www.stat.gov.az/news/index.php?id=4753
8. 28-may 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam şəhərinin Baş Planı təqdim olunan zaman çıxışı

**QURBANOV Firuz**
Qərbi Kaspi Universitet, baş müəllim, i.f.d.,

**HEYDƏROVA Züleyxa**
Qərbi Kaspi Universiteti, magistr

# AĞDAMDA TURİZMİN İNKİŞAFI PERSPEKTİVLƏRİ

**Xülasə:** Bir zaman Qarabağın Şuşadan sonra ikinci böyük turizm mərkəzi olmuş Ağdam vandallar tərəfindən işğal nəticəsində tamamilə dağıdılsa da, aparılan yenidənqurma işlərindən sonra Ağdamın, nəinki Qarabağın eləcə də Azərbaycanın qabaqcıl turizm regionlarından biri olacağı gözlənilir. Belə ki, Ağdam Qarabağın təhsil mərkəzi olacağından burada dolayı elm və konqres turizmi, soydaşlarımızın ata-baba yurdlarına səyahət etmək istəklərindən dolayı etnik və nostalji turizm, şəhidlərin və işğaldan öncə dünyasını dəyişmiş qohumlarının qəbirlərini ziyarət etmək istəklərindən dolayı ritual turizm, yaradılmış kanalda su turizmi, tarixi muzeylər, memarlıq nümunələri və komplekslərinə, tarixi irs hesab olunan yerlərə səyahət etmək tələbatının çox olacağından dolayı mədəni-maarifləndirici turizm, ədəbi turizmin ekskursiya, əyləncəli və maarifləndirici növləri, eyni zamanda Qarabağın balneoloji, mətbəx zənginliklərindən istifadə olunduğu təqdirdə müalicəvi və qastronomik turizm növlərinin hər birinin inkişaf edəcəyi gözləniləndir.

**Açar sözlər:** Turizm, infrastruktur, yenidənqurma, dəmiryol vağzalı, karvansaray, Zəfər muzeyi, ədəbi turizm, konqress turizmi, etnik turizm

→

## Giriş

1988-1993-cü illərdə torpaqlarımızın 20%-i Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edildi və bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı öz əzəli torpaqlarından çıxaraq qaçqın və məcburi köçkün düşdü. Bu hadisə Qarabağın, o cümlədən Ağdamın tarixində yaşadığı ən ağır və acılı tarix idi. İşğal dövründə ermənilər tərəfindən faşizmə məruz qalmış, onun tarixi-mədəni irsi məhv edilmiş, şəhər və kəndləri və hətta dini abidələri belə demək olar ki, tamamilə dağıdılmışdır. Lakin buna baxmayaraq Qarabağ ən şanlı tarixini 27 sentyabr 2020-10 noyabr 2020-ci il tarixləri arasında 44 günlük müharibədə yaşadı. 44 günlük müharibə Azərbaycan üçün yeni tarix qazandırdı. Belə ki, tarixin son beş əsrində Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycanın ilk dövlət başçısı oldu ki, işğal olunmuş torpaqları geri qaytardı. Son 5 əsrdə Azərbaycan məhz bu döyüşlə tarixdə ilk dəfə işğal altında qalan torpaqlarını geri qaytara bildi. [2]

Eyni zamanda bu zəfər Azərbaycan üçün tam yeni, şanlı bir tarix yazmaqla yanaşı, dünya tarixində ilk dəfə olaraq məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıtması hadisəsi ilə adını tarixə yazmış oldu. Azərbaycan 44 günlük müharibə ilə dünya üçün bariz bir müharibə sərgilədi.

**Təhlil və qiymətləndirmə**

30 il ərzində Qarabağın mədəni-tarixi irsini demək olar ki, tamamilə məhv etmiş, yaşayış yerlərini tamamilə dağıdaraq, böyük miqyasda maddi və mənəvi zərər vurmuşdur. Təkcə Ağdama təxminən 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan vurub. Hal-hazırda beynəlxalq məhkəməyə müraciət etmək üçün beynəlxalq ekspertlər Ermənistanın 30 il ərzində Azərbaycanın işğal altında saxladıqları ərazilərinə vurduqları ziyanla bağlı məlumatlar toplayırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində bildirdiyi kimi, Ağdam şəhərində Cümə məscidindən başqa heç bir salamat bina qalmamışdır. O qeyd edib ki, bu vəhşilik əvvəla tarixi-mədəni abidələrimizin məhv edilməsi ikincisi isə Azərbaycan əhalisinin bu torpaqlara qayıda bilməməsi məqsədi ilə törədilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 yanvar 2021-ci il fərmanı əsasında əsas məqsədi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin etmək, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirmək, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatı təmin edilmək, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılmasını, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasını dəstəkləyən olan “Qarabağ Dirçəliş Fondu” yaratdı. Fond fiziki və hüquqi şəxslərin ianələri, qrantlar, qanunla qadağan olmayan digər mənbələrlə maliyyələşir. [3] Lakin bununla yanaşı işğaldan azad olunmuş ərazilərin bərpası məqsədi ilə xarici investorlar və beynəlxalq donor qurumların da cəlb olunması da diqqətdə saxlanılır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədi ilə Əlaqələndirmə Qərargahı yaradılmışdır. [7]

Ölkə başçısı İ.Əliyevin göstərişi ilə işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin - Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılması nəzərdə tutulub.

Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. [6] İşğaldan sonra Ağdamın baş planı hazırlanıb, sürətli şəkildə yenidənqurma işləri həyata keçirilsə də, bu məsələdə ən böyük problemlərdən biri Ermənistanın Azərbaycana bugünədək mina xəritəsini tam və dəqiq verməməsidir. Lakin ölkə prezidenti İ.Əliyevin diplomatik siyasəti nəticəsində Ağdam rayonu ərazisində basdırılmış 97 min minanın xəritəsi verilmişdir. Bu da Ağdamda yenidənqurma işlərinin sürətlənməsini təmin etmişdir. [4]

Ağdam Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Cənubi Qafqazın ən zəngin abidələrinin olduğu yerlərdən biri olub. İşğalı zamanı tamamilə məhv edilən Ağdamda yeganə olaraq Cümə məscidinin qalıqları qalmışdır. Bu vandallıq “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanunun müddəalarınının, “Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında” 1954-cü ildə Ermənistanın da bu protokolun üzvü olduğu Haaqa Konvensiyasının 1990-cu il protokolunun, “Arxeoloji irsin qorunması haqqında” 1992-ci il tarixli Avropa Konvensiyasının tələblərinin pozulmasıdır.

İnkişaf etmiş kənd təsərrüfatına malik Ağdam şəhərinin pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, iki dəmir yol vağzalı, aeroport, Ü.Hacıbəyli adına musiqi texnikumu, Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı və s. mədəniyyət obyektləri yerlə yeksan edilmiş, tamamilə məhv edilmişdir. İşğal dövründə vandallar Ağdam ərazisində qanunsuz arxeoloji qazıntılar aparmış və artefaktları Ermənistana daşımış, yaşayış binalarını dağıtmaqla bərabər, məşhur Ağdam daşlarını da söküb aparmışlar. XX əsrin 70-ci illərində tikilmiş, 7000 yaşlı buğdanın və eləcə də çörək və taxılçılıqla bağlı nadir eksponatların saxlanıldığı Ağdam Çörək Zavodu, Tarix Ölkəşünaslıq Muzeyi, tarzən Qurban Pirimovun Xatirə Muzeyi və

Ağdam Şəkil Qaleriyası, Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa Künbəzi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndindəki XVIII əsrə aid gümbəz və məscid, Ağdamda İmarət adlanan ərazidəki XVIII əsrə aid abidələr, künclərdə qoç başı təsvir olunmuş kapitel və formalı daşlar, Xaçın-dərbəndli kəndi yaxınlığında 12 künclü türbə, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Rahib Məmmədov adına döyüş şöhrəti muzeyi, Xan qızı Xurşudbanu Natəvanın və oğlunun türbələri, Şahbulaq ərazisindəki Şahbulaq qalası və Karvansara vandallar tərəfindən vəhşicəsinə dağıdılmışdır. Bundan əlavə dini ibadətgahlardan rayonun Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın edilmişdir.

**Ağdamda turizmin inkişafı**

Ağdamda turizm ötən əsrin 80-ci illərindən etibarən inkişaf etdirilməyə başlamışdır və onun turizm potensilalı xeyli gənc idi. Belə ki, işğaldan öncə burada Sanatoriya Azərbaycan Kollektiv Təsərrüfatlararası İstirahət Sağlamlıq Mərkəzləri birliyinin nəzdində olan 100 nəfərlik Abal-Gülablı sanatoriyası, 50 nəfərlik Şelli sanatoriyası, 40 nəfərlik Şahbulaq turist bazası ( burada turistlərə məşhur Qarabağ cins atları ilə gəzinti də təklif olunurdu), Abdal-Gülablı sanatoriyasının yeni binası, məktəbli düşərgələri, obyektlər və müəssisələr fəaliyyət göstərib, Bütün bunlardan 30 ildir istifadə edə bilməyən Azərbaycan üçün bu həm də iqtsadi cəhətdən çox böyük zərbə hesab olunur ki, hal-hazırda bu sanatoriyaların tamamilə məhv edilməsi yenidən infrastrukturun qurulması üçün əlavə vəsait tələb edir. 30 ildə təkcə Ağdam şəhərinin məhv edilməsi səbəbi ilə Azərbaycan iqtisadiyyatına dəymiş ziyan milyardlarla manatdır.

Ağdam şəhərinin Baş planı 2021-ci il mayın 28-i Respublika Günündə təsdiq edildi, ölkə Prezidenti İlham Əliyev və şəhər ictimaiyyətinin birgə iştirakı ilə Ağdam şəhərinin bərpasnın təməlqoyma mərasimi təşkil olundu. Ölkə başçısı ilk ağ binanın təməlini qoydu və təməl daşının Ağdamda gələcək nəsillərin görməsi üçün təməl daşı qoyulması nəzərdə tutuldu. Ağdam şəhərinin təməlqoyma mərasiminin təşkili və Baş planının təsdiqinin məhz bu gün, tarixi əhəmiyyətli bir gündə olması həm də xüsusi bir rəmzi xarakter daşıyır. Eyni zamanda qeyd etmək olar ki, Baş Planın hazırlanmasında dövlət başçımız İlham Əliyevin göstərişi əsasında mütəxəssislərlə yanaşı, şəhər sakinlərinin də iştirakı bu planı daha ecazkar edir ki, şəhərsalma təkcə memarlıq qanunauyğunluqlarına əsasən yox, həm də şəhərin tarixi görünüşünə, şəhər sakinlərinin tarixi ənənə və inanclarına əsasən olur və bu da hər bir Ağdam sakini və ən azından bir dəfə Ağdamı görmüş turist üçün çox maraqlı və təsirli olmuş olur.

Məsələn, Ağdamda salınacaq meşə massivində dağdağan ağaclarının əkilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İDEA İctimai Birliyinin və yerli sakinlər üçün dağdağan ağacının simvolik xarakter daşıması əsasında qərara alınmışdır. Və bu səbəbdən də ölkə başçısı Ağdama ilk ağac olaraq şəhər əhalisi tərəfindən gözdəymənin qarşısını aldığına və müqəddəs ağac olduğuna inandıqları dağdağan ağacını əkmişdir. Eyni zamanda Bərdə-Ağdam yolunun tikintisi zamanı bu ağacların hər biri yararlı torpaqları ilə bərabər götürülərək Ağdam Meşə Parkına köçürüləcəkdir ki, elə 1700 hektarlıq Ağdam Meşə Parkının yaradılmasının səbəbi də bu hesab olunur ki, yenidənqurma işləri zamanı qədim ağaclar dərhal yeni ərazilərə yerləşdirilsin və bu yaşlı ağaclar məhv olmasın.

Ağdamın Baş planına əsasən Ağdamda Ağdam Gənclər Mərkəzi, 4-5-6 mərtəbəli yaşayış binaları, Qarabağ Universiteti, Asan Xidmət, Ağdam Mall, Ağdam Mərkəzi Bazar, körpülər, İmarət Stadionu, Meşə Parkı, Zəfər muzeyi, Ağdam şəhər Mərkəzi Parkı, Sənaye Parkı və s. tikiləcək, şəhər mərkəzində süni göl, şəhərin mərkəzini iki yerə ayıracaq çaylar yaradılacaqdır.

Ağdam şəhərində nəqliyyat infrastrukturunda öncəliyin birinci yerdə piyadalar, ikinci yerdə velosiped, üçüncü yeri isə ictimai nəqliyyat tutacağını, sonrakı yerləri taksi, "Carsharing" və eyni zamanda relslər olmadan hərəkət edəcək tramvay xətlərinin fəaliyyət göstərəcəyini nəzərə alsaq deyə bilərik ki, Ağdam həm də ekoloji tarazlığın qorunduğu bariz şəhərlərdən olacaqdır. 79 kilometrlik velosiped yollarının olacağı, "Smart mobility" və yaxud elektrik samakatlarının gənclər arasında çox marağa səbəb olması və ən əsası elektriklə işləyən bu tramvaylar ekoloji tarazlığı pozmamaqla yanaşı həm də hələ ki, ölkəmizin heç bir yerində olmaması və bunun Azərbaycan üçün bir ilk və yenilik olması ilə turistlərin çox marağına səbəb olacağını deyə bilərik.

Ağdamda şəhərin içərisindən çay kimi axan, daimi sulu olacaq və bulvara sahib bir kanal salınacaq. Turistlər bu 2 kilometrlik məsafədə qayıqlarla gəzə biləcək və bulvar boyunca Ağdamın özünə məxsus, zəngin mətbəxi ilə tanış olub, ləziz təamlardan dada biləcək restoranlarda qonaq ola biləcəklər.

Ağdamlıların böyük xatirəsi olan "Fərhad Bisutun dağını çapır" heykəl kompozisiyası da bərpa olunacaq. insanların yayda istirahət etmələrinin və istirahət zonalarının yaradılması məqsədi ilə dünyanın ən yaxşı körpülərindən hesab olunacaq körpülər salınacaqdır. Ağdam şəhəri bu yenidənqurma işlərindən sonra əvvəlki sahəsindən təxminən iki dəfə çox böyüdüləcək, sıxlığına görə təkcə Gəncə və Sumqayıtdan sıx olacaq və hətta ərazi baxımından Sumqayıtdan da böyük olacaqdır.

Turizm üzrə "Ağıllı kənd" modeli ekoloji, mədəni və mənəvi irs, sağlamlıq, sosial media kimi sahələri əhatə edərək turizmdə davamlılığa zəmin olacaq, xidmətlərdə əlçatanlığın olması isə sosial, ictimai, dövlət və digər xidmətlərə əlçatanlığı təmin edəcək və nəticədə marketinq, PR işinin genişlənməsinə, sosial media marketinqinin inkişafına, turistlərin gələcəyi yerlər haqda məlumatların virtual şəkildə tanışlığına və bütün bu xidmətlərin əlçatanlığına zəmin olacaqdır.

Şəhərdə kütləvi tədbirlərin, sərgilərin, kənd təsərrüfatı sərgilərinin, turizm sərgilərinin təşkili üçün konqres mərkəzlərin (hall) tikilməsi və Dağüstü park kimi hündürlükdə açıq teatr tikilməsi nəzərdə tutulur ki, şəhərdə təşkil olunacaq muğam konserti zamanı musiqi sədaları şəhərə yayılsın.

Eyni zamanda 15 məktəb, Qarabağ Universiteti, xüsusi orta təhsil müəssisələri və liseyləri yaradılacaq, Ağdam Qarabağın təhsil mərkəzi olacaq və bu da o deməkdir ki, Ağdam həm də elm və konqres turizm növünün geniş yayıldığı bir regiona ev sahibliyi edəcək.

Ağdamda tikiləcək şəhər dəmiryol vağzalı öz tarixi torpaqlarına nisbətən ucuz gəlmək və nostalji turizmin bir iştirakçısı olmaq istəyən səyahətçilər üçün böyük maraq doğurur və bu ölkədə dəmiryol turizminin inkişafına güclü impuls verəcək.

Bu ərazidə olan Natəvan xanımın məzarı, Pənahəli xanın imarəti, yaşayış yeri, bağı, karvansarayı bütünlüklə məhv edilib. İmarət Pənahəli xanın atlarının saxlandığı, atların burada nümayişə və satışa çıxarıldığı, sonradan isə Ağdam ictimaiyyətinin bayram keçirdiyi yer idi. Bu İmarət sarayı nəinki Ağdamın, Azərbaycanın ən çox səyahət olunacağı yerlərdən biri olacaq və çox mühüm əhəmiyyətli turizm obyektinə çevriləcək. Burada stadion, Pənahəli xanın türbəsi, İbrahim xanın dağıdılmış türbəsi, dağıdılmış məzarlıqlar vardır. Ağdamın böyük tarixi olan Qarağacı qəbirstanlığı bu gün demək olar ki, tamamilə məhv edilsə də, onun mümkün qədər bərpası nəzərdə tutulur ki, bu da xüsusilə Ağdam sakinlərinin ziyarət edəcəyi yerlər siyahısındadır.

Ağdamda İtaliya şirkəti tərəfindən konsepsiyası hazır edilmiş Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq. İşğal muzeyi kompleksində həm muzey, həm də 18 hektar ərazidə memorial bağ yaradılacaqdır. Burada "yaddaş gölü" adlanan göldə həm gündüz , həm də axşam rəqəmsal işıqlandırmalar vasitəsi ilə Ağdamda Dram teatrının qapıları, kitabxana və poçt ofisinin görüntüləri əks olunacaqdır. Hətta dağıdılmış evlər və yanmış avtomobillərin qalıqları da bu memorial bağda yerləşəcək və nar bağları arasından çəkilmiş cığırlar boyunca "mented Reality" mobil tətbiq vasitəsi ilə keçdikdə, həmin yer haqqında lazımi məlumatlar verilmiş olacaqdır. Bu cığırlar hamısı sonda Zəfər muzeyinə birləşir. Həmçinin Bayraq meydanı, Zəfər arenası və bərpa olunacaq Çörək muzeyi də bu kompleksdə yerləşir. Zəfər muzeyinin giriş hissəsində böyük monitorlar vasitəsi ilə Ağdamın işğalı dövründə məruz qaldığı təcavüzlərin görüntüləri, birinci zalda Qarabağın, Ağdamın tarixi faktları, ikinci zalda isə 360 dərəcəlik rəqəmsal ekranlarda müharibə dövrünün çətin günləri, dairəvi zalda isə Ağdamın necə dağıdılması və yerlə yeksan olunması hekayələrlə göstəriləcək. Dördüncü zal isə 30 illik dövr ərzində verdiyimiz qurbanların əziz xatirəsini daimi dərin ehtiramla yad etmək məqsədi ilə yaradılmış çox böyük və eyni zamanda hündür zaldır. Ən vacib otaq isə bizim qəhrəman oğullarımızın adları həkk edilmiş divarda sakit axan şəlalə, üstündə qırmızı güllər olacaq. Beşinci zal isə xüsusi olaraq çox soyuq olacaq ki, burada olanlar həmin o günün şaxtasını hiss edə bilsin. Xocalı soyqırımında Ağdama üz tutmuş köçkünlərimizin keçdiyi əzab-əziyyətli yolu əks etdirəcək. Sükunət zalında

isə sarı xətt kimi işıq görünəcək və ona yaxınlaşan zaman dağıdılmış evlər, yandırılmış və talan edilmiş Ağdamın görüntüləri əks olunacaq. Arxiv zalında isə tarixi faktlar əks olunacaq.

Ağdamın özünəməxsus daşı söküntülərdən alınaraq işğal muzeyində sərgilənəcək.

Dram teatrının qapıları, tağlardan ibarət hasar və göl böyük maraq doğuracaq. Belə ki, bu tağ Qələbə rəmzi hesab olunur və ən maraqlısı da odur ki, bu hasar tamamilə Ağdam daşlarından qurulacaqdır.

Zəfər muzeyinin simvolikası Şuşa qalasının qapısını və Qələbə rəmzini təcəssüm edir. Qeyd edək ki, bu simvolikadan istifadə olunaraq belə bir Zəfər muzeyi Bakıda da yaradılmışdır. Ağ və qara fonlarda hazırlanmış bu muzeyin üstündəki tağ Günəşin ardınca, Günəş enerjisi ilə hərəkət edəcək. Burada Günəş enerjisinin istifadəsi Günəş enerjisi kimi bizim Zəfərimizin, Qələbəmizin də tükənməz və əbədi olduğu anlamına gəlir. İçərisindəki muzey dəmir və şüşə konstruksiyalardan ibarətdir ki, bu "Dəmir yumruq" əməliyyatı və şüşə isə bizim müharibədə Qələbəmizin ədalətli, saf olduğu anlamına gəlir.

Atıcılıq kompleksi əvvəlki dövrdə Ağcabədidə qurulsa da, artıq işğaldan azad olduğu üçün məhz onun öz tarixi yeri Ağdamda qurulması nəzərdə tutulur.

**Nəticə**

Qarabağ Azərbaycanın ən böyük turizm potensialına malik turizm bölgəsidir. Ağdam isə vaxtıkən Şuşadan sonra ikinci turizm mərkəzi olmuş rayon olmuşdur. Ağdamda yenidənqurma işlərindən sonra Ağdam xarici turistlərlə yanaşı, yerli turistlərin çox marağına səbəb olacağı danılmazdır.

Ağdam Qarabağın təhsil mərkəzi olacağından burada dolayı elm və konqres turizm, soydaşlarımızın ata-baba yurdlarına səhayət etmək istəklərindən dolayı etnik və nostalji turizm, şəhidlərin və işğaldan öncə dünyasını dəyişmiş qohumlarının qəbirlərini ziyarət etmək istəklərindən dolayı ritual turizm, yaradılmış kanalda su turizmi, tarixi muzeylər, memarlıq nümunələri və komplekslərinə, tarixi irs hesab olunan yerlərə səyahət etmək tələbatının çox olacağından dolayı mədəni-maarifləndirici turizm, ədəbi turizmin ekskursiya, əyləncəli və maarifləndirici növləri, eyni zamanda Qarabağın balneoloji, mətbəx zənginliklərindən istifadə olunduğu təqdirdə müalicəvi və qastronomik turizm növlərinin hər birinin inkişaf edəcəyi gözlənləndir.

Hal hazırda isə bütün bunları həyata keçirərkən işğal nəticəsində Ağdamın turizm potensialına dəymiş ziyanın xüsusi işçi qruplar tərəfindən hesablanaraq beynəlxalq müstəviyə çıxarılması və ictimaiyyətə çatdırılması, məqsədi bölgənin tarixinə, ədəbiyyatına, mədəniyyətinə olan marağın yenidən canlandırılması, milli-ənənələrimizi yaşatmaq və onu bütün dünyaya tanıtmaq olan ədəbi turizm növünün inkişafı üçün təkcə elə Ağdamda inkişafı üçün bu qədər zəngin imkan və resursların olması gələcəkdə ədəbi turizm üçün ümumi Qarabağ ədəbi turizm xəritəsinin hazırlanması, bu sahədə məlumatlı və yüksək səviyyədə xidmət göstərə biləcək tur operatorların yaradılması, bu barədə internet vasitəsilə kifayət qədər təbliğatın aparılması labüd hesab olunur.

**İstinadlar**


1. https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F
2. https://www.azerbaijan-news.az/posts/detail/pilham-eliyev-yeni-tarix-yazirp-1609365004
3. https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_Dir%C3%A7%C9%99li%C5%9F_Fondu#M%C9%99qs%C9%99di
4. https://apa.az/az/xeber/resmi-xeber/prezident-ilham-eliyev-agdam-seherinin-berpasinin-temel-dasini-qoyub-yenilenib-1-video-645255
5. https://mehriban-aliyeva.az/kids_azerbaijan/qarabagimiz
6. http://idp.gov.az/az/news/1199
7. https://president.az/articles/47738

MEHDİ Şamil
i.f.d., “4 İn”MMC

# İŞĞALDAN AZAD EDİLMIŞ ƏRAZİLƏRİN BƏRPA VƏ İNKİŞAF PROQRAMININ SOSİAL HESABLAR MATRİSİ ƏSASINDA HAZIRLANMASI HAQQINDA

**Xülasə:** 44-günlük Vətən müharibəsi nəticəsində azad olunan ərazilərdə infrastrukturun, sənaye və kənd təsərrüfatı, emal müəssisələrinin, ev təsərrüfatlarının tamamilə dağıdıldığının şahidi olduq. Qeyd olunan ərazilərin iqtisadi bərpasının modeli Sosial Hesablar Matrisi (SHM) və Leontiev tarazlıq modeli əsasında qurulsa uzunmüddətli və optimal nəticələr əldə etmək olar.
Məqalədə Sosial Hesablar Matrisinin növləri, strukturu, istifadə potensialı araşdırılır. Regionlar (rayonlar) üçün qurulan SHM-in ölkələr üçün qurulan modellərdən fərqli cəhətlərinə diqqət verilir.

**Açar sözlər:** Sosial Hesablar Matrisi – (SHM) (Sosial Accaunting Matrix (SAM)), Leontiev tarazlıq modeli, (Leontief Equilibrium Model), Sahələrarası Balans Matrisi (SBM), ((Intersectoral Balance Matrix (İBM)), Simmetrik Giriş-Çıxış Cədvəli (SGÇC) ((Simmetric İnput Output Table (SIOT)), Milli Hesablar Sistemi (MHS) (National Accounts Systems (NAS)).

→

## Giriş

Müasir qloballaşmış dünyada ölkələrin iqtisadi inkişafı uzunmüddətli strateji proqramların əsasında mümkündür və son illərdə uğurla tətbiq edilən model Sosial hesablar matrisidir (SHM). W.Leontief (Nobel mükafatı 1973) tərəfindən yaradılmış Sahələrarası Balans Matrisi (SBM) (Input-Output economics, 1966) Sosial Hesablar Matrisinin əsasını təşkil edir. R.Bayron (1) və Richard Stone (2) (Nobel mükafatı 1984) SHM-ın hal-hazırda geniş istifadə olunan formasını tərtib və inkişaf etdirdilər. Sonralar SHM matrislərinin qurulmasının müxtəlif aspektləri ilə bağlı bir xeyli yeni tədqiqatlar aparıldı (3).

İlkin olaraq SHM model milli iqtisadiyyatlar üçün qurulurdu, sonralar effektivliyi nəzərə alınaraq regional modellər geniş tətbiq edilməyə başladı (4). Hazırda bir çox ölkələr üçün, o cümlədən qonşularımız Türkiyə, Ukrayna, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və digər SHM modelləri qurulub və tətbiq edilir (5).

### SHM modeli və onun tətbiq potensialı

SHM modeli müəyyən dövr üçün iqtisadi agentlər arasındakı bütün əməliyyatları qeyd edən hərtərəfli və ümumi iqtisadi məlumat bazasıdır. SHM klassik iqtisadiyyatda tam dairəvi gəlir axını daxil olmaqla giriş-çıxış strukturunu genişləndirir. SHM modellər ikitərəfli maraq kəsb edir: birin-

cisi, iqtisadi modelləşdirmə ilə məşğul olan mütəxəssislərə çoxsektorlu xətti modellər və ya daha mürəkkəb ümumi tarazlıq modelləri (CGE modelləri) qurmaq üçün standart verilənlər bazasıdır, ikincisi, nəzərdən keçirilən iqtisadiyyatın tam, intuitiv başa düşülən mənzərəsini təmin edir.

SHM müxtəlif iqtisadi istiqamətlərin göstəricilərini əks etdirən, bir-biri ilə əlaqəli cədvəllər toplusundan ibarət balans modelidir. SHM modelinin qurulmasında məqsəd, istehsal, gəlir, istehlak, investisiya və s. komponentlərin öz aralarında əlaqələndirilmiş vahid matris şəklində, müxtəlif iqtisadi subyektlərin əlaqələrinin ətraflı, detallı yazılışının əldə edilməsidir. Burada, faktiki olaraq, bir tərəfdən pul axını, digər tərəfdən mal və qulluq axını əks etdirməklə iqtisadiyyatda xərclər dövriyyəsi təsvir edilir.

SHM ölkə iqtisadiyyatı çərçivəsində baş verən bütün iqtisadi əməliyyatların (regional və milli) axınlarını əks etdirir və eyni zamanda qeyri-milli axınları əhatə etməklə genişləndirilə bilir, regionlar və ya rayonlar üçün yaradılır. SHM modeli birillik və çoxillik dövr üçün qurula bilir (6).

SHM, Simmetrik Giriş-Çıxış Cədvəlinin (SIOT) genişləndirilmiş formasıdır. Ənənəvi giriş-çıxış sistemi sektorlararası əlaqələrin tam təsvirini verir və iqtisadi analizin əsas vasitəsidir. Lakin bu təhlillər məhduddur, çünki onlar iqtisadi sistemin davranışı haqqında tam təsəvvür yaratmır və sistemin bütün iqtisadi əməliyyatlarını əhatə etmir. SHM bu məhdudiyyətlərin əhəmiyyətli hissəsini aşa bilir. SHM, hər bir hesabın (fəaliyyət növü, məhsul, faktor və ya institusional sektoru təmsil edən) sətir və sütunla təmsil olunduğu kvadrat matrisdir. Hər hücrə sətir hesabından sütun hesabına ödənişi göstərir. Beləliklə, hesabın “daxilolmaları” və gəlirləri sətirdə göstərilir, “xərclər/ödənişlər” -sütunlarda. İkili mühasibat uçotu sistemində SHM-ın hər hesabı üçün ümumi daxilolmalar dəqiqliklə ümumi ödəmələrə uyğun gəlir, nəticədə hər sətrin cəmi müvafiq sütunun cəminə bərabərdir (7).

**Regional hesablar və regionun sosial hesablar matrisinin qurulması**

Region ərazisində təkrar istehsal prosesində iqtisadi vahidlərin qarşılıqlı əlaqələri, təkrar istehsal dövrünün bütün mərhələlərində (istehsal, gəlirin ilkin və təkrar bölüşdürülməsi, son istehlak və yığım üçün istifadə) iqtisadi əməliyyatların təsvirini əhatə edən regional hesablar sistemi vasitəsilə qeydə alınır. İqtisadi təhlildə regional hesablar milli hesablarla eyni funksiyaları yerinə yetirir: milli səviyyədə regional siyasətin inkişafı üçün məlumat verir, milli siyasətin regional səviyyədə iqtisadi fəaliyyətə təsirini qiymətləndirməyə imkan verir.

Regional hesablar milli hesablar sisteminin məntiqi davamıdır, ayrı-ayrı hesabların giriş və çıxışları bazar iqtisadiyyatı şəraitində yaranan səbəb-nəticə əlaqələri əsasında qurulur. Regional hesabların tam sistemi regionun fəaliyyət proseslərini və iqtisadi təsvirini başa düşmək üçün vacib əlaqələrin aydınlaşdırılmasını və təsbit edilməsini nəzərdə tutur.

Regional hesablar sistemi qurmaq milli hesablar qurmaqdan daha çətindir. Regional səviyyədə toplanan statistik göstəricilər toplusu, milli səviyyədə olan göstəricilər sistemindən daha azdır, dardır. Regionun əsas xüsusiyyəti regionlararası qarşılıqlı təsirlərə və beynəlxalq mal axınlarına və istehsal faktorlarına aid olan açıqlığıdır. Müəyyən regionlarda beynəlxalq axınlar haqqında statistik məlumatların toplanması ilə əlaqədar problemlər olur. Buna görə, MHS-də region üçün tövsiyə olunan hesablar regional imkanların təhlili və ehtiyaclarından asılı olaraq formalaşdırıla bilir. Bəzən iqtisadi əməliyyatlar və gəlir axınlarını müəyyən regiona aid etmək çətin olur, xüsusilə bura, mərkəzi hökumətin xərclərini, regionlararası fəaliyyət göstərən şirkətlərin və maliyyə təşkilatlarının fəaliyyətini aid etmək olar (8).

Regional təhlildə ən çox istifadə edilən hesablar aşağıdakılardır:

- istehsal hesabları,
- gəlirin bölüşdürülməsi və istifadəsi ilə bağlı hesablar,
- mal və xidmətlərin hesabları,
- regionun sahələrarası balansı,
- maliyyə aktivləri hesabları,
- regionun tədiyyə balansı.

İstehsal hesabında regiondakı məhsul istehsalı və xidmətlər əks etdirilir. İstehsal hesabı milli iqtisadiyyatın səlahiyyətinə aid olan fəaliyyət növləri (müdafiə, mərkəzi bank fəaliyyəti, fundamental elm və s.) istisna olmaqla, regiondakı bütün iqtisadi fəaliyyət sahələrini əhatə etməlidir.

Regional təhlil üçün regionun xarici əlaqələri əsas obyektlərdən biridir, buna görə də regional hesablar sistemi region məhsulunun formalaşmasına və maliyyə axınlarına xarici təsiri əks etdirəcək şəkildə qurulmalıdır. Hesabların strukturu regional inkişafın ekzogen və endogen elementlərini özündə birləşdirməli və milli, regional və regionlararası fəaliyyətlər arasındakı qarşılıqlı əlaqəni göstərməlidir (9).

Regional hesablar regionun dünyanın qalan hissəsi ilə qarşılıqlı əlaqələrini təhlil etməli və mərkəzi hökumətin regiona təsirini əks etdirməlidir. Regionlarda məhsulların idxalı və ixracı üçün kəmiyyət qiymətləndirilməsinə ehtiyac var. Regional hesablar sisteminin korrekt qurulușu milli hesablar sisteminin regionlaşdırılmış forması olmalı və özündə milli iqtisadiyyat çərçivəsində bütün regionların giriş və çıxışlarının balanslaşdırılmasını əks etdirməlidir.

Hesablar sisteminin regionlaşdırılmasında rezident və qeyri-rezident vahidlərinin pul və maliyyə axınlarının ayrılması qalan dünya və qalan iqtisadiyyat hesabları vasitəsilə formalaşdırılmalıdır. Bunun üçün hər hesabda mal axınları (məhsulun regiona giriş və çıxışı) və maliyyə transfertləri korrekt bölünməli, müvafiq hesablarda əks etdirilməlidir (10).

Regional hesablar regiondakı iqtisadi fəaliyyətin nəticəsi haqqında hərtərəfli təqdimatı təmin edən statistik göstəricilər sistemidir. Bu göstəricilər standart iqtisadi təhlildə, regional siyasətin təsirini qiymətləndirməkdə və s. istifadə edilir. Eyni zamanda regional hesablar xüsusi metod - regional hesabların matrisinin qurulması metodu əsasında qarşılıqlı əlaqəli şəkildə qaydaya salına və əks etdirilə bilər. Ayrıca götürülmüş region üçün hesablar toplusu matris şəklində təqdim edilirsə, bu regionun bütün makroiqtisadi göstəricilər sistemini uyğunlaşdırmağa və analitik hesablamalar aparmağa imkan verir. Region üçün hesablar qrupu müxtəlif hesabları özündə birləşdirə bildiyinə görə, matrisin konkret növü tərtib edilmiş hesablara daxil edilmiş göstəricilərdən asılı olur.

Matrisin təqdimatı və eyni zamanda bu cür matrislərin qurulmasının mürəkkəbliyi milli mühasibatlıq prinsiplərinə görə hesabların hər bir elementinin iki dəfə - bir dəfə hesaba resurs kimi, ikinci dəfə istifadə kimi daxil edilməsidir. O, cari və kapital hesablar üçün ən uyğunudur, çünki, bu hesablarda hər əməliyyat üzrə həmişə bir və ya daha çox hesaba uyğun olan giriş mövcuddur. Cədvəl 1-də cari hesablar da daxil olmaqla regionun vahid hesablar sisteminin matris təqdimatının nümunəsi göstərilir: mal və xidmətlərin hesabı, istehsal hesabı, gəlirin ilkin və təkrar paylanması hesabları, gəlirin istifadəsi hesabı, kapital hesabı və regionun xarici əlaqələri üçün iki hesab - milli iqtisadiyyatın digər regionlarının və dünyanın qalan hissəsinin hesabları (11).

İnteqrasiya edilmiş hesabların matrisi bütün əsas iqtisadi makro göstəricilər arasındakı balans nisbətini təqdim edir və onun təsviri analitik vasitə, sosial hesablar matrisinin işlənməsi üçün əsas kimi geniş istifadə olunur. Milli iqtisadiyyatın hesab sistemi, bir qayda olaraq, ilkin statistik məlumatlara əsaslanır, yəni, hesabların əsas məcmusu statistik müşahidələr nəticəsində əldə olunur. Regional hesablar üçün daha tipik vəziyyət, məlumatların yalnız kiçik bir hissəsinin ilkin statistikaya əsaslanaraq hesablanmasıdır. Onların əhəmiyyətli hissəsi, ya digər göstəricilərdən istifadə edilməklə hesablanmalı, ya da ekspertlər tərəfindən müəyyən olunmalıdır (12).

İnteqrasiya edilmiş hesabların matrisi regional analizdə iqtisadi və riyazi modellərin qurulması üçün əsas kimi istifadə olunur. Buna, ya matrisin ayrı -ayrı bloklarına əlavə məlumat daxil etməklə və onları ayırmaqla, ya da modeldə əks olunan iqtisadi fəaliyyətin müəyyən aspektlərini xarakterizə edən əlavə dəyişənlərin və formulların tətbiqi ilə nail olunur.

Hesabların matris təqdimatı, regional hesabların bütün göstəricilər sisteminin balansını yoxlamaq və onların ayrı-ayrı elementlərini razılaşdırmaq üçün münasib alətdir.

**Nəticə**

SHM müəyyən dövr üçün müxtəlif iqtisadi fəaliyyət göstəricilərinin arasında olan əlaqəni əks etdirən, bir-biri ilə əlaqəli cədvəllərdən ibarət balans modelidir. Bu göstəricilər ən müxtəlif fəaliyyət istiqamətlərinin – istehsal faktorları, istehlak məhsulları, servis, kapital, xarici təsir və s. detallı yazılışını özündə əks etdirir. Matris forması makroiqtisadi göstəriciləri müxtəlif iqtisadi informasiyalarla bir araya gətirməyə imkan verir, onu analitik alət kimi istifadə etməyə şərait yaradır.

SHM iqtisadi sektorlar arasında müqayisə oluna bilən birbaşa və dolayısı multiplikatorları müəyyən edə bilir. Bu da ayrıca nəzərdən keçirilən iqtisadi fəaliyyət növünün vaciblik dərəcəsinin anlaşılmasına və qiymətləndirilməsinə imkan yaradır.

Dünyada qurulmuş və uğurla tətbiq edilmiş SHM modellər ölkələrin iqtisadi statistik məlumatlarına, Milli Hesab Sistemlərinin göstəricilərinə əsaslanır və mövcud iqtisadi baza üçün nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərin son 30 illik iqtisadi statistik məlumatlarının tam və ya qismən olmaması, iqtisadiyyatın tam dağıdılması, əhalinin didərgin düşməsi, bərpanın və inkişafın "təmiz vərəqdən" başlanması region (rayon) üçün sosial hesablar matrisinin qurulmasına maneə yaradır.

Problemin həlli üçün iki təklif irəli sürülür:

a) İşğaldan azad edilmiş region (rayon) üçün analoji iqtisadi göstəriciləri olan digər region/rayonların statistik məlumatları əsasında Sosial hesablar matrisi qurulur;

b) ilkin olaraq son 30-50 illik statistik göstəricilərə əsaslanaraq 3-5 il ərzində nail olunması məqsəd qoyulmuş iqtisadi hədəflər müəyyən edilir, bunların əsasında yenidənqurma analizlərinin və simulyasiyaların aparılır və alınmış nəticələr əsasında bərpa və inkişaf planları tənzimlənir.

Bir ilin yekununda, nəticələrə görə qurulmuş SHM-ə korreksiya etmək, bərpa və inkişaf perspektivlərini müəyyənləşdirmək mümkün olar.

**Cədvəl 1. Regional hesabların matris təqdimatı**

| Hesab | Mal və xidmətlər | İstehsal | Gəlirin bölüşdürülməsi | Gəlirin istifadəsi | Kapital | Qalan dünya |
|---|---|---|---|---|---|---|
| Mal və xidmətlər | | aralıq istehlak | | son istehlak xərcləri | ümumi kapitalın yığımı | mal və xidmətlərin eksportu |
| İstehsal | Subsidiyalar çıxılandan sonra ümumi məhsul | | | | | |
| Gəlirin bölüşdürülməsi | | xalis daxili məhsul | əmlak gəliri, cari vergilər və köçürmələr | | | işçilərin təzminatı, əmlak gəliri, cari vergilər və dünyanın qalan hissəsindən köçürmələr |
| Gəlirin istifadəsi | | | istifadə edilə bilən xalis gəlir | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Kapital | | əsas kapital istehlakı | | xalis qənaət | kapital köçürmələri | dünyanın qalan hissəsindən alınan (+) və ya ödənilən (-) kapital köçürmələri |
| Qalan dünya | mal və xidmətlərin importu | | işçilərin təz-minatı, əmlak gəliri, cari vergilər və dünyanın qalan hissəsinə köçürmələr | | dünyanın qalan hissəsinə xalis kreditlər {+) və ya borc artımı (-) | |

***İstinadlar.***


1. Byron, R. P. (1978): The estimation of Large Social Account Matrices. In: Journal of the Royal Statistical Society, Series A, 141 (3): 359-367.
2. https://documents1.worldbank.org/curated/en/645001467980482557/pdf/REP65000The0e-s0ial0account0matrices.pdf
3. Stone, R (1977): Foreword to G. Pyatt & A. R. Roe (with R.M. Lindley, J.I. Round and others), Social Accounting for Development Planning (Cambridge, Cambridge University Press), pp. xvi-xxxi. http://www.roiw.org/1977/339.pdf
4. Pyatt, G. Fundamentals of Social Accounting. Economic System Research. - 1991. № 3; https://publications.jrc.ec.europa.eu/repository/bitstream/JRC111812/jrc__biosam_technical_report_final_24052018.pdf; Robinson S„ Thorbecke E. Macro. Models and Multipliers: Leontief, Stone, Keynes and CGE Models, https://www.researchgate.net/publication/227214150_Macro_Models_and_Multipliers_Leontief_Stone_Keynes_and_CGE_Models ; Thorbecke, Erik (1985). "The Social Accounting Matrix and Consistency-Type Development Planning Models." https://www.researchgate.net/publication/227013915_Erik_Thorbecke_Growth_and_Roots
5. Mainar, A.; Rueda-Cantuche, J.; Cardenete, M; Fuentes-Saguar, P.; Delgado, M.; Santini, F.; Mary, S.; Gómez, P. (2017) Estimating regional social accounting matrices to analyse rural development. SORT 41 (2), pp. 319-346.
6. https://www.researchgate.net/publication/321937309_Estimating_regional_social_accounting_matrices to_analyse_rural_development.; Mueller, M.; Ferrari, E. (2012) Social Accounting Matrices and Satellite Accounts for EU27 https://ideas.repec.org/p/ipt/iptwpa/jrc73088.html; Álvarez-Martínez M.T.; López-Cobo M. (2016) Social Accounting Matrices for the EU-27 in 2010. https://ec.europa.eu/jrc/sites/default/files/JRC101673.pdf .
7. https://www.researchgate.net/publication/2620575_A_SAM-Based_Computable_General_Equilibrium_Model_of_the_Turkish_Economy; https://www.researchgate.net/publication/350326989_A_2014_Social_Accounting_Matrix_SAM_for_Uzbekistan_with_a_Focus_on_the_Agricultural_Sector_-_A_Technical_Documentation; https://cyberleninka.ru/article/n/macroeconomic-analysis-of-georgia-s-economic-development-using-a-social-accounting-matrix-1999-2008; https://www.researchgate.net/publication/267374726_non-tarıff_measures_and_country_welfare_analysıs_wıth_the_cge_model_for_ukraıne_1 .
8. Михеева Н.Н. Матрицы социальных счетов: направления и ограничения использования. https://cyberleninka.ru/article/n/matritsy-sotsialnyh-schetov-napravleniya-i-ogranicheniya-ispolzovaniya
9. Темников С.С., Васильева О.Г. матрицы социальных счетов: методический аспект. https://docplayer.com/46410256-Matricy-socialnyh-schetov-metodicheskiy-aspekt.html
10. 8 Михеева Н.Н. Региональная экономика и управление. Хабаровск, изд-во РИОТИП, 2000 https://www.studmed.ru/miheeva-nn-regionalnaya-ekonomika-i-upravlenie_82d0970.html

11. Захарченко, Н. Г. Использование матриц социальных счетов в моделировании структуры экономической системы. 2012; https://www.researchgate.net/publication/270554563_Using_Social_Accounting_Matrices_in_Modeling_the_Structure_of_Economic_System
12. Белоусов А. Р., Абрамова Е. А. Экспериментальная разработка интегрированных матриц финансовых потоков. Вопросы статистики. – 1999.№ 7; http://www.forecast.ru/_ARCHIVE/Analitics/PP03-2008.pdf.
13. Михеева Н.Н. Региональная экономика и управление. Хабаровск, изд-во РИОТИП, 2000 https://www.studmed.ru/miheeva-nn-regionalnaya-ekonomika-i-upravlenie_82d0970.html
14. Maınar, C.A.; Ferrarı, E; Mcdonald, S. Social Accounting Matrices: basic aspects and main steps for estimation. 2018. https://publications.jrc.ec.europa.eu/repository/handle/JRC112075

MEHDİ Şamil
"4 İn"MMC, i.f.d.,

NƏBİYEV Sadıx / MEHDİYEV Nicat

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ PUBLİK İDARƏETMƏ ÜÇÜN SÜNİ İNTELLEKT SİSTEMLƏRİNİN KONSEPTUAL ƏSASLARI VƏ TƏTBİQ İMKANLARI

**Xülasə:** İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyası irəli sürülüb və ona əsaslanan planlar təsdiqlənmək üzrədir. Bərpa ediləcək inzibati ərazilərdə müasir idarəetmə üsulları və potensialını sınaqdan keçirmək və sonra bütün ölkə üzrə tətbiq etmək nəzərdə tutulur. Bu prosesdə Süni İntellektin (Sİ) imkanlarından geniş istifadəsi labüddür. Məsələnin aktuallığını nəzərə alaraq, məqalədə "Publik İdarəetmə" (Public Administration) və "Yeni Publik Menecment" (New Public Management) çərçivəsində Sİ əsaslı İnformasiya Sistemlərinin (İS) tətbiqi və bununla bağlı imkanlar və problemlər nəzərdən keçirilir, inkişaf etmiş ölkələrin qabaqcıl praktikasından nümunələr gətirilir.
Məqalənin məqsədi - dövlət idarəçilik sistemində müasir idarəetmə metodlarını və həmin yanaşmalarda Sİ-nin yaratdığı imkanları göstərməkdir. Praktiki tətbiq nöqteyi-nəzərindən Sİ-nin bu günə imkanları və gələcək potensialı dəyərləndirilir, nümunələr gətirilir, müasir Sİ həllərin izaholunan nəticələrlə dəstəklənməsi və avtomatlaşdırılması, real vaxt rejimində istifadəsi üçün tövsiyələr verilir.

**Açar sözlər:** Publik İdarəetmə, Public Administration, Yeni publik menecment, New Public Management, Süni İntellekt (Sİ), Artificial Intelligence (Aİ), İzaholunan Süni İntellekt (İSİ), Explainable Artificial Intelligence (XAİ).

## Giriş

Publik İdarəetmə dövlət idarəçiliyinin inkişafında xüsusi bir mərhələdir və müasir cəmiyyətin inkişafını əks etdirən texniki və sosial şərtlər sayəsində mümkün olmuşdur. Publik İdarəetmənin əsas təzahürləri dövlət xidmətlərinin səmərəliliyi və əhalinin ictimai nəzarət və dinləmələr, qanunvericilik aktlarının müzakirəsində iştirakı, seçkili bələdiyyə orqanları və KİV üzərindən təsiri vasitəsilə idarəetmədə iştirakıdır.

Publik İdarəetmə termini özündə dövlət idarəçiliyinin müasir mərhələsinin əsas xüsusiyyətlərini əks etdirir. Onun birinci hissəsi – Publik (ictimai) əhalinin idarəetmədə iştirakını, idarəetmə orqanlarının məcburi hesabatlılığını, icraçı məmurların seçilməsini əhatə edir. Terminin ikinci hissəsi – idarəetmənin keyfiyyət və effektivliyinin yüksəldilməsi, islahatlar nəticəsində dövlət xidmətləri sahəsində xərclərin azaldılmasını, səmərəliliyinin artırılmasını, xidmətlərin əhali qarşısında məcburi hesabatlılığını, idarəetməyə hazırlıqlı kadrların cəlb edilməsini nəzərdə tutur (2).

Publik İdarəetmə aşağıdakı prinsiplərə əsaslanır:

1) şaquli idarəetmə kommunikasiyalarından imtina və tənzimləyici idarəetmə sisteminə keçid;
2) dövlət idarəçiliyi sahəsində menecmentin tətbiqi;
3) informasiya şəffaflığının müxtəlif formalarının tətbiqi;
4) əhalinin idarəetmə qərarlarının qəbulunda iştirakı;
5) idarəetmə qərarlarının qəbulu keyfiyyətinin daimi monitorinqi və s.(3)

Son onillikdə bir sıra inkişaf etmiş ölkələrdə Publik İdarəetmənin yeni modeli - Yeni Publik Menecment (New Public Management) tətbiq edilməyə başlanmış və onun təkmilləşdirilməsi istiqamətində çalışmalar davam etməkdədir. Mahiyyətcə, YPM dövlət aparatının səmərəliliyinin və çevikliyinin artırılmasını, onun cəmiyyətin və biznesin ehtiyaclarına uyğunlaşdırılmasına yönəlmiş islahatlar konsepsiyasını nəzərdə tutur. YPM konsepsiyası dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinin kompleks mexanizmlərini, mərkəzdənqaçma (əksmərkəzsizləşdirmə), özəlləşdirmə, dövlət səlahiyyətlərinin bir hissəsinin outsorsinqə (kənar idarəçilərə) verilməsini, demokratikləşmə, dövlət qulluqçularının tərkibinin keyfiyyət və kəmiyyətcə optimallaşdırılmasını əhatə edir (4).

Sİ-nin əsasını çoxsaylı və böyük məlumatların (verilənlərin) qavranılması və təfsiri üçün alqoritmlər, nəticə çıxara bilən, öyrənmə qabiliyyətinə malik, uyğunlaşa bilən, müəyyən edilmiş çərçivələrdə parametrləri sazlaya bilən proqram təminatı və insanın qərar qəbul etməsini dəstəkləyən metodlar da daxil olmaqla bir çox müasir texnologiya təşkil edir (5).

Avropa Birliyində ictimai sektorda Sİ layihələrinin araşdırılmasında 85 Süni İntellekt tətbiqləri müəyyən edilib və nəzərdən keçirilib. İlkin təhlillər göstərir ki, Sİ tətbiqlərinin əksəriyyəti səmərəliliyin artırılmasına yönəldilib və əsasən ümumi ictimai xidmətlər sahəsinə təsir göstərir (6)

**Süni İntellektin Publik idarəetmədə tətbiq sahələri**

Dövlət idarəçiliyinin rəqəmsallaşmasının müasir səviyyəsində mövcud Sİ texnologiyalarının imkanlarını ümumiləşdirərək qeyd etmək lazımdır ki, onun istifadəsinin ən aktual və tələb olunan istiqaməti, vətəndaşlara və təşkilatlara dövlət xidmətlərinin göstərilməsi, geniş çeşidli inzibati vəzifələrin icrasıdır.

Sİ dövlət satınalmalarının təşkilində və aparılmasında, vergi sisteminin səmərəliliyinin artırılmasında effektiv nəticələr göstərir. Sİ həlləri dövlət satınalmaları və vergitutmada boz sxemlərin tətbiqinin qarşısını almağa, dövlət idarəetmə sistemində şəffaflığın tədricən artmasına və son nəticədə sistemin özünün səmərəliliyinin artmasına səbəb ola bilər.

Publik İdarəetmənin bir özəlliyi də biznesdən götürülmüş müştəriyönümlülük, müştəri məmnuniyyəti, müştəri loyallığı prinsiplərinin tətbiq edilməsidir. Vətəndaşlar artıq istənilən zaman, istənilən yerdə internet vasitəsi ilə məlumat və ya mallar/xidmətlər axtarmağa, aviabilet və otel sifariş etməyə, sınaq və qəbul imtahanlarının nəticəsini öyrənməyə, bank hesablarını izləməyə, vaksinasiya üçün randevü almağa, E-COVİD pasportu əldə etməyə və s. alışmışlar. Lakin onların dövlət idarələrindən birbaşa xidmətlər almaq (ASAN xidmət və DOST bu işi son dərəcə rahatlaşdırsa da, prosesdə yalnız vasitəçi rolunu oynayır) imkanı yoxdur. Müasir informasiya sistemləri və onların üzərində qurulan Sİ əsaslı intellektual texnologiyalar bu problemi həll etmək imkanındadır.

Sİ-nin idarəetmə kontekstində istifadə edilmə nümunəsindən biri söhbət botlarıdır. Bunlar təbii dildən istifadə edərək mətn və ya səsli ünsiyyəti həyata keçirə biləcək danışıq sistemləridir. Çatbotlar (chatbotlar) insanla müəyyən dərəcədə dialoq qura bilir. Tezarus (thesaurus), ontologiyalar və özünü öyrənmə sistemləri üzərində qurulmuş söhbət botları daha mükəmməl nəticə əldə etməyə imkan verir. İstifadəçi öz şəxsi fərdi hesabına bağlanmaqla, xüsusi bilik tələb olmadan, ehtiyac duyduğu məlumatı tapa və anlaşılan formada ala bilir (7)

Bir çox inzibati xidmətlər xidmət göstərilən şəxsin mütləq iştirakını tələb edir. Belə prosesləri asanlaşdırmaq üçün bəzi vətəndaş xidməti ofislərində rəqəmsal xidmət robotlarından istifadə

edirlər. İnsan nitqini anlayan xidmət robotları vətəndaşlara uyğun şöbələri və ya işçiləri tapmasına yardım edir, məlumat, qeydiyyat funksiyalarını üzərinə götürür. Ehtiyac olduğu halda, yardımçı robot vətəndaşı müşayiət edə bilər (8).

İdarəetmədə böyük həcmdə işlər biznes termini ilə ifadə etsək, arxa ofisdə (backoffice) görülür. Sənədlərin işlənməsi, fayl və işlərin baxılma prosedurları, proseslərin qanunauyğun, səmərəli, təhlükəsiz şəkildə təşkil edilməsi məsələlərində Sİ böyük rol oynaya bilər. İnzibati (administrativ) proseslər, adətən, fərqli şəxslər və təşkilatlar tərəfindən həyata keçirilə bilən bir neçə əsas və yardımçı-alt prosesdən ibarətdir. Bu proseslər koordinasiya olunmalı və vahid bir prosesdə cəmləşdirilməlidir. Mövcud potensialdan optimal istifadə etmək üçün işçilərin fərdi bacarıqları və məşğulluğu nəzərə alınmalıdır. “Ağıllı” sistemlər, təyin edilmiş bacarıq və təcrübəyə əsaslanaraq işçilərin konkret işlərə uyğunluğunu qiymətləndirməklə yanaşı, həm də təşkilatların və fərdlərin iş yükünü təyin edə və zəif bəndləri vaxtında aşkarlaya bilir. “Ağıllı” fayl və sənəd axını idarəetmə sistemləri eyni vaxtda bir çox işçiyə istifadə imkanı təmin edir. Sİ sistemləri emal prosesində kimlərin iştirak etməli olduğunu müstəqil olaraq müəyyənləşdirir (9)

Sİ ilə işləyən skanetmə və mətn tanıma sayəsində mətnin məzmunu sürətlə qiymətləndirilə və sənəd axını emal sistemi vasitəsilə elektron şəkildə müvafiq şöbəyə və məsul şəxsə göndərilə bilər. “Ağıllı” sənədlər emalın vəziyyətini və əvvəlki analoji qərarları, hansı şöbə və şəxslərin növbəti prosesə cəlb olunacağını müəyyənləşdirir. Bu, tələb olunan insan resurslarını əhəmiyyətli dərəcədə azaldır. Təcrübədə özünü doğrultmuş Robotik Proseslərin Avtomatlaşdırılması (RPA) paketləri fəaliyyətinə mövcud proqram məhsullarını işə salmaqla başlayır və bu proqram artıq insanlar tərəfindən deyil, avtomatik alqoritmlərlə idarə olunur. Obrazlı ifadə etsək, robot kompüterin klaviatura və siçanını faktiki olaraq idarə edir və bununla da mövcud İT tətbiqlərinin avtomatlaşdırılmasına imkan verir (10)

Qərar qəbuletmə prosesinin ilkin mərhələsində Biznes İntellekti (Bİ) texnologiyaları deskriptiv və ya diaqnostik analizlərin yerinə yetirilməsinə imkan verir. Bu həllər, çoxsaylı məlumat və informasiyanı qavranması asan olan rəqəmlər, qrafiklər şəklində vizuallaşdırır və rahat anlaşılan şəkildə təqdim edirlər. Sonrakı mərhələlərdə prediktiv və ya preskriptiv analizləri icra etmək üçün müasir maşın öyrənməsi əsaslı qərar dəstək sistemi (QDS) qərar qəbul edən şəxs üçün müvafiq məlumatı işlənmiş formada təmin edir ki, o, xüsusi səy göstərmədən qısa zamanda qərar qəbul edə bilsin (11)

Sİ-nin idarəetmədə tətbiq sahəsinin bir istiqaməti təhlükəsizliyin təmini ilə bağlıdır. İctimai təhlükəsizliklə bağlı Sİ tətbiqi uğurla aparılır – quraşdırılmış çoxsaylı “ağıllı” kameralar, sosial şəbəkələrə, rabitə şəbəkələrinə, elektron poçtlara və s. nəzarət edən həllər cinayətlərin qarşısının alınmasına, terrorun önlənməsinə, dövlət təhlükəsizliyinə öz töhvəsini verir.

Kiber cinayətkarlığın artdığı dövrdə məlumat bazalarının qorunması və təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir. İnformasiya texnologiyalarının müasir inkişaf səviyyəsində yalnız Sİ texnologiyaları bu təhlükəsizliyi təmin edə bilər. Maliyyə sahəsində tətbiqlər banklarda, sığorta şirkətlərində, mikro kredit təşkilatlarında və s. fırıldaqçılıq hallarının qarşısını ala bilmək imkanındadır.

Sİ-nin geniş tətbiq edildiyi sahələrdən biri də real vaxtda baş verən hadisələrin (nəqliyyat axınının idarə edilməsi, təbii və antropogen fəlakətlər zamanı xilasedici xidmətlərin əlaqələndirilməsi, ətraf mühitin çirklənməsinin monitorinqi, yol-nəqliyyat hadisələrinin nəticələrinin aradan qaldırılması və s.) idarə olunmasıdır. Zəlzələ, daşqınlar, fırtınalar, terror aktları zamanı xüsusi xidmətlərin maksimal sürətlə reaksiya verməsində Sİ əvəzsiz rol oynayır. Avtomatlaşdırılmış sistemlər vaxta qənaət edir və manevr üçün daha çox zaman qazandıra bilir (12).

44 günlük Vətən müharibəsində istifadə edilən silah və sursatlarda Sİ-nin yaratdığı üstünlüklərin şahidi olduq. İşğaldan azad olunmuş torpaqların minalardan təmizlənməsində istifadə edilən mexaniki vasitələr və mini pilotsuz uçan aparatlarda süni intellekt geniş istifadə olunur.

Qarabağda məskunlaşma prosesinin mühüm tələblərindən biri köçəcək məcburi köçkünlərin təhlükəsizliyinin təmin edilməsidir. Qarabağ ərazisində erməni silahlı qruplaşmaları tam tərksilah olana qədər süni intellekt əsasında təhlükəsizlik sisteminin qurulması aktual olaraq qalır.

Sİ əsaslanan həllər salınacaq "ağıllı " şəhər və kəndlərdə sərf ediləcək enerjiyə (elektrik, qaz) 40%-ə qədər qənaət etmək imkanı verəcək, qiymətli sərvətə çevrilən su itkilərini əhəmiyyətli dərəcədə azaldacaq. Məişət tullantılarının effektiv toplanması, emalı, təkrar istehsala yönləndirilməsi imkanı əldə ediləcək.

Qarabağda turizmin müxtəlif istiqamətlərinin yaradılması və inkişaf etdirilməsi prosesini əvvəldən axıra qədər Sİ texnologiyaları əsasında qurmaqla qısa zaman çərçivəsində əlavə dəyər zəncirinin yaranmasına nail olmaq mümkündür. Nəqliyyat, iaşə, müalicə, ticarət, əyləncə və s. sektorlar turizmin birbaşa təsir etdiyi sahələrdir və bunların idarə olunmasında süni intellektdən istifadə praktikaları mövcuddur.

Ümumiyyətlə, insan və fəaliyyətində elə bir sahə yoxdur ki, orada Sİ texnologiyaları tətbiq edilə bilməsin.

**Süni İntellektin Publik İdarəetmədə tətbiq problemləri**

Sİ terminin ilk istifadəsindən keçən 50-60 il ərzində onun tətbiqi fərqli nəticələr yaradıb. Bir tərəfdən, idarəetmədə vəzifələrin icrasını Sİ sistemlərinə ötürmək, mütəxəssisləri təkrarlanan bezdirici proseslərin icrasından azad etmək, mövcud problemləri aradan qaldırmaq mümkün olub. Digər tərəfdən, sistemlərin avtonomluğu, insan nəzarətinin itirilməsi və Sİ-nin insanlar üzərində mümkün üstünlüyü ilə bağlı narahatlıqlar var.

Yeni texnologiyaların tətbiqi əmək bazarında dəyişikliklərə - yüz minlərlə iş yerinin bağlanmasına, bir sıra ixtisas və peşələrin sıradan çıxmasına gətirib çıxarır, insanlara davamlı özünüinkişaf məcburiyyəti yaradır. Eyni zamanda, istifadəsi nə qədər sadələşdirilsə də, Sİ həlləri məmurdan, istifadəçidən minimal səviyyədə informasiya texnologiyaları haqqında bilik və bacarıq tələb edir.

Dövlət idarələri öz vəzifəsini yerinə yetirmək üçün müxtəlif mənbələrdən çoxsaylı məlumat və informasiya toplayır. Eyni zamanda vətəndaşların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilən "ağıllı" əşyalar - smartfonlar, "ağıllı" saatlar, "ağıllı" sayğaclar və ya "ağıllı" ev elektronika əşyaları böyük həcmdə məlumat generasiya edir ki, bunlar da müxtəlif dövlət agentlikləri tərəfindən toplanır və istifadə edilir. Müxtəlif dövlət qurumlarının (səhiyyə, sosial, kommunal xidmət, hüquq-mühafizə və təhlükəsizlik orqanları və s.) nəzarətində olan bu məlumatlardan vətəndaşların şəxsi həyatına müdaxilə edilməsi, şəxsi azadlıqların məhdudlaşdırılması, şərəf və ləyaqətin alçaldılması, özəl informasiyanın məxfiliyinin pozulması kimi qeyri-qanuni məqsədlərlə istifadəsinə yol verməmək üçün Sİ tətbiqinin qanunvericilik və etik aspektlərinin dəqiq işlənməsi zəruridir (13)

Sİ ilə bağlı tez-tez qeyd olunan qüsurlardan biri də sistemlərin şəffaf olmaması və onların həll yollarını izləmək imkanının yoxluğudur. Xüsusilə, süni neyron şəbəkələr "qara qutu" prinsipi ilə işləyir, qərar modellərini baxılacaq və başa düşüləcək formada hazırlamır. Publik idarəetmədə şəffaflıq və ədalət prinsipləri vacib rol oynadığı üçün İzaholunan Süni İntellekt (İSİ) yanaşmaları tətbiq edilməyə başlayır və nəticədə Sİ-dən qüsursuz istifadə etmək imkanı yaranır. Dövlət qurumları üçün həllər xüsusilə şəffaf, ədalətli olmalı, diskriminasiyaya yol verməməli, ayrıseçkilik etməməlidir. Bu kontekstdə, Sİ sisteminin, əldə edilən nəticələri və onların əldə olunma üsulunu izah edilə bilməsi vacibdir. İzaholunan Sİ yanaşmaları Sİ sistemlərinin əldə etdiyi nəticələrdə lazımi şəffaflığı, təhlükəsizliyi təmin edə bilir. Misal olaraq, Almaniya Federativ Respublikasında İSİ-nin vergi auditi tətbiqi ssenarisi uğurla nəzərdən keçirilib, proseslərin effektivliyinin artırılması və vergi orqanlarının işinin yaxşılaşdırılması kimi nəticələr əldə olunub. Bu mövzuda azsaylı araşdırmalarda İzaholunan Sİ həllinin dövlət idarəçiliyi kontekstində digər sahələrdə də uğurla tətbiq edilə biləcəyi göstərilir (14)

**Nəticə**

Çağdaş dünyanın inkişaf etmiş cəmiyyətlərində dövlət orqanları göstərdikləri xidmət subyektlərini "müştəri" kimi qəbul edir və onların "məmnuniyyətini" və "loyallığını" qazanmağa çalışır. "Publik idarəetmə", "Yeni Publik Menecment" modelləri dövlət-vətəndaş münasibətlərinin optimal şəkildə qurulması üçün tətbiq edilən modellərdir. Nəticə etibarı ilə bu modellərin tətbiqi

“Güclü dövlət-Güclü vətəndaş”, “Varlı dövlət-Varlı vətəndaş” formulunu həyata keçirmək imkanı yaradır. Dövlətimizin qarşısında duran çağırışları – işğaldan azad olunmuş ərazilərin bərpasını, müvəqqəti məskunlaşmış əhalinin daimi yaşayış yerlərinə tezliklə qayıtmasını, suverenliyimizin tam bərpasını, davamlı inkişafın təmin edilməsini və s. nəzərə alaraq, ləngimədən Publik İdarəetmə modelinin tətbiqinə başlanması faydalı olacaqdır.

Müasir idarəetmə modelləri İnformasiya və Sİ texnologiyaları əsasında qurulur və onlarsız effektiv fəaliyyət göstərə bilməz. Mövcud problemlərin hərtərəfli həllini qismən təmin edə bilən Sİ bir çox sahələrdə inqilabi dəyişikliklərə səbəb olsa da, həm də yeni texnoloji, mənəvi-etik problemləri üzə çıxarır. Sİ-nin inkişafın müəyyən səviyyəsində insan nəzarətindən çıxması, müstəqil qərar qəbul etməsi və onu həyata keçirmə bacarığının yaranması ehtimalları insanlığa ciddi təhlükələr yaradır.

Hökumətlər dövlət xidmətlərinin göstərilməsində Sİ-nin uğurlu tətbiqini yalnız dövlət qurumlarının iştirakı ilə təmin edə bilməzlər. Bunun üçün mütləq dövlət, özəl sektor və elmi mərkəzlər birgə fəaliyyət göstərməli, qarşıya çıxan problemləri sıx əməkdaşlıq sayəsində həll etməlidir. Bu cür yanaşma, artıq bütün dünyada tətbiq olunan normadır.15

Ölkəmizdə Sİ geniş tətbiq edilməsi üçün alimlərin, inzibatçı-idarəçilərin, müstəqil ekspertlərin cəlb edilməsi ilə strategiya yaradılmalı, prinsiplər müəyyənləşdirilməli və mərhələlərlə həyata keçirilməlidir. Müvafiq təşkilat və komitələr yalnız məsələnin texnoloji tərəfi ilə deyil, eyni zamanda etik cəhətləri ilə məşğul olmalı, Sİ istifadə üçün müvafiq qaydalar müəyyən olunmalı, qanunlar qəbul edilməli, riskləri minimallaşdıran nəzarət mexanizmi yaradılmalıdır.

Strategiya çərçivəsində yüksək ixtisaslı kadrların yetişdirilməsi, onların müvafiq işlə təmin edilməsi məsələlərinə xüsusi diqqət ayrılmalıdır. Münasib şərait yaradılacağı halda Sİ həllərinin böyük ixrac potensialı reallaşa bilər. Ali təhsil müəssisələrində ödəniş əsasında xarici tələbələrin hazırlanması perspektivi də realdır.

Şübhəsizdir ki, qloballaşmış müasir dünyada Sİ əsasında qurulmuş idarəetmə modellərini tətbiq etmiş dövlətlərin inkişaf perspektivləri daha cəlbedici görünür.

## İstinadlar


1. https://azertag.az/xeber/Agilli_seher_Smart_City_ve_Agilli_kend_Smart_Village_konsepsiyasinin_hazirlanmasi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1759209
2. Барабашев А.Г., Уткина В.В. Государственное управление в России: основные предметные области и тренды научных исследований // Вестник университета (Государственный ун-т управления). – М., 2014. – № 16.
3. Понкин И.В. § 7.11. Использование технологий искусственного интеллекта в государственном управлении // Понкин И.В. Теория публичного управления: Уч. для магистратуры и программ Master of Public Administration / Предисл. А.Б. Зеленцова / Институт государственной службы и управления РАНХиГС при Президенте РФ. – М.: Буки Веди, 2017. – 728 с.
4. Ewalt, S. (2001) Theories of governance and new public management: links to understanding welfare policy implementation.
5. T. Q. Sun and R. Medaglia, “Mapping the challenges of Artificial Intelligence in the public sector: Evidence from public healthcare,” Government Information Quarterly, 2018.
6. Gianluca Misuraca, Colin van Noordt, Anys Boukli. 2020. The use of AI in public services: results from a preliminary mapping across the EU. In Proceedings of the 13th International Conference on Theory and Practice of Electronic Governance (ICEGOV 2020), 23-25 September 2020, Athens, Greece. 10 pages. https://doi.org/10.1145/3428502.3428513
7. Stucki T, D’Onofrio S, Portmann E (2018) Chatbot – Der digitale Helfer im Unternehmen. HMD Prax Wirtschaftsinform 55:725
8. Goldacker G (2017) Die Perspektive wechseln, Kommune 21, 07.03.2017. https://www.kommune21.de/ meldung_25900_Die+Perspektive+wechseln.html. Zugegriffen: 13. März 2019

9. Etscheid J (2018) Automatisierungspotenziale in der Verwaltung. In: Kar R, Thapa B, Parycek P (Hrsg) (Un)Berechenbar. ÖFIT, Berlin
10. Scheer A-W (2017) Robotic Procress Automation (RPA) – Revolution der Unternehmenssoftware. IM+io Mag Innov Org Manag 32(3):30–41
11. Kitchin R, Lauriault T, McArdle G (2015) Knowing and governing cities through urban indicators, city benchmarking and real-time dashboards. Reg Stud Reg Sci 2(1
12. Lauterjung J, Acksel D (2015) Das Tsunami-Frühwarnsystem für den Indischen Ozean, Helmholtz-Zen-trum, Potsdam. https://media.gfz-potsdam.de/gfz/wv/doc/GITWES/GITEWSBroschuere2015dt.pdf. Zugegriffen: 13. März 2019; Bauer V (2019) Wie KI und Satelliten helfen können, Vulkanausbrüche vorherzusagen, Mobile Ge-eks. https://www.mobilegeeks.de/news/wie-ki-und-satelliten-helfen-koennen-vulkanausbrueche-vorherzusagen/. Zugegriffen: 9. März 2019
13. Wang W., Siau K. Artifcial Intelligence: A Study on Governance, Policies, and Regulations, MW AIS, 2018, Proceedings 40 // https://aisel.aisnet.org/mwais2018/40 (дата обращения: 07.05.2019).
14. Mehdiyev, Nijat; Houy, Constantin; Gutermuth, Oliver; Mayer, Lea; and Fettke, Peter, “Explainable Artificial Intelligence (XAI) Supporting Public Administration Processes – On the Potential of XAI in Tax Audit Processes” (2021). Wirtschaftsinformatik 2021 Proceedings. 5. https://aisel.aisnet.org/wi2021/SSmartCity/Track08/5
15. Slava Jankin Mikhaylov, Marc Esteve and Averill Campion. Artificial intelligence for the public sector: opportunities and challenges of cross-sector collaboration. https://royalsocietypublishing.org/doi/full/10.1098/rsta.2017.0357

**MƏHƏRRƏMOV Rəşad**

UNEC, s.e.ü.f.d.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ PRİORİTETLƏR VƏ GÖZLƏNTİLƏR

**Xülasə:** Bu məqalədə Qarabağın işğaldan sonra post-konflikt bərpa problemləri və bu problemlərin həll olunması istiqamətində dövlətin apardığı məqsədyönlü siyasətin təzahürləri, o cümlədən, həmin ərazilərdə investisiya prioritetliyi barədə danışılır. Post-konflikt dövründə iqtisadi, sosial, mədəni sahələrin bərpası dövlətimiz qarşısında olduqca vacib məqsədlərdəndir. Bu məqsədlər arasında, dövlət və özəl sektorun sahibkarlıq fəaliyyəti subyektlərinin müəyyən olunmuş ərazilərdə fəaliyyətini həyata keçirmək və ya təqdim etmək istədikləri biznes layihələrinin, həmin ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu təmin etmək baxımından, müvafiq tədbirlər görmək xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu məqsədlərin təmin olunması baxımından isə vahid iqtisadi inkişaf strategiyasının düşünülməsi, bu istiqamətdə əsas prioritetlərdəndir. Ölkə başçısı tərəfindən yaradılmış müvəqqəti xüsusi idarəetmə qurumunun fəaliyyəti və əhəmiyyəti bəh olunan məsələlərin prioritet həlli baxımından, mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri" nin təsis olunması barədə fərmanı və bu fərmandan irəli gələn əsas məsələlər vaxtında reallaşdırılan və diqqətəlayiq bir tədbir kimi qiymətləndirilməlidir. Belə bir müvəqqəti qurumun yaradılması, münaqişə sonrası həmin ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədi baxımından olduqca əhəmiyyətli olacaqdır.

**Açar sözlər:** işğaldan sonra, post-konflikt bərpa və yenidənqurma, investisiya, özəl sektor, sahibkarlıq fəaliyyəti, insan kapitalı

→

## Giriş

2020-ci ilin sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz düşmən üzərində inamlı qələbə qazandı. Azərbaycanın hərbi tarixinə yazılmış Vətən Müharibəsi, Azərbaycan Respublikasının siyasi rəhbərliyinin iradəsini və Silahlı Qüvvələrin beynəlxalq aləmdəki hərbi gücünü sübut etdi. Beləliklə, bir çox spesifik xüsusiyyətləri ilə seçilən Vətən Müharibəsi, yaxın gələcəkdə və hətta uzunmüddətli perspektivdə də müxtəlif istiqamətlərdə mütəxəssislərin diqqətini çəkərək bir çox sahələr üçün tədqiqat mövzusu olacaqdır [5].

Məlum olduğu kimi işğaldan azad edilmiş torpaqlar yeraltı və yerüstü sərvətlərlə olduqca zəngindir. Burada mədən sənayesi, metallurgiya, tikinti materialları istehsalı, kreativ emal sənayesi, qida sənayesi, turizm və istirahət, əczaçılıq, taxılçılıq və tərəvəzçilik, üzümçülük, pambıqçılıq və meyvəçilik, heyvandarlıq sahələri- iri və xırda buynuzlu heyvandarlıq, quşçuluq, arıçılığın inkişafı üçün çox böyük potensial imkanlar mövcuddur.

Qarabağın hüdudlarında sərmayəçilərin marağına səbəb ola biləcək resursları, strateji imkanları, səmərəliliyi və bazarları vardır. Bundan əlavə qeyd etmək yerinə düşər ki, bölgədə böyük müalicə əhəmiyyəti olan 120-dən çox müxtəlif tərkibli mineral su yataqları mövcuddur. Bu, Azərbaycanda mövcud mineral suların ümumi geoloji ehtiyatlarının təxminən 40%-i məhz işğaldan azad edilən rayonların payına düşür. Regionun enerji resurslarına gəlincə bu resurslar (hidroenerji, günəş, külək və termal enerji potensialı) nəinki əhalinin enerjiyə olan gündəlik tələbatının ödənilməsində həmçinin bütün iqtisadiyyat sahələrinin vacib təminatçısı kimi çıxış etmək gücündədir.

İşğaldan azad edilən ərazilərin bu qədər təbii resurslarla zənginliyi bu sahələrdə ölkəmiz üçün rəqabət üstünlüklərinin maksimum əldə olunmasına əlverişli şərait yaratmış olur.

Bütün bu faktlar onu göstərir ki, həmin ərazilərdə sahibkarlığın çox müxtəlif mülkiyyət formalarında və müxtəlif məzmunda yaradılaraq inkişaf etdirilməsi üçün kifayət qədər xammal və enerji resursları mövcuddur.

**Təhlil və qiymətləndirmə**

Münaqişədən sonrakı bərpa proseslərinin başlanmasında beynəlxalq təcrübədən istifadə etmək olduqca vacibdir. Bu dövrdə təsirli, eləcə də sürətli inkişaf modelinin həyata keçirilməsi yüksək keyfiyyətli institusional mühitin qurulması, maliyyə mənbələrinin tapılması və islahatların tədricən həyata keçirilməsi tələb olunur.

Dünya təcrübəsinə görə, keçmiş münaqişə zonalarının qiymətləndirilməsi zamanı iki amil xüsusi nəzərə alınmalıdır:

-İlk öncə keçmiş münaqişə zonasının əhalisini əhatə edən daxili insan kapitalının öyrənilməsi;

- Həmin bölgədə sərmayə imkanlarının qiymətləndirilməsi.

İnsan amili burada əzmkarlıq, çalışqanlıq və yenilik göstərməklə əlavə dəyər yaradılmasında olduqca vacib amildir. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının çağırışlarına görə, yerli iqtisadi iştirakçıların ərazilərin bərpa planında əsas rol oynaması mütləqdir [7]

Sərmayə imkanlarının qiymətləndirilməsinə gəlincə isə işğaldan azad edilən ərazilərin bərpası istiqamətində həyata keçiriləcək investisiya layihələrilə bağlı bir neçə sahədə düşünmək lazım gəlir.

-**İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində** ilk öncə, yerlərdə fəaliyyətə başlayacaq fermerlərə fəaliyyət sahələri ilə bağlı məsləhət və informasiya xidmətlərinin düzgün təşkil edilməsi, əkin yerlərinin bərpası üçün innovativ üsulların tətbiqinə stimul verəcək tədbirlərin, o cümlədən yerli və xarici sərmayəçilərin bu istiqamətdə yatırım etmələri zəruridir.

Artıq azad edilmiş ərazilərdə ilkin mərhələdə fəaliyyət istiqamətləri əsasən şəhərlər, qəsəbələr və kəndlər üçün yeni əsas innovativ bərpa planlarına uyğun olaraq tikinti və abadlaşdırma işlərinin həyata keçirilməsinə artıq start verilmişdir. Yollar, meliorasiya və suvarma sistemləri, elektrik enerjisi, qaz, su təchizatı, kanalizasiya və s. daxil olmaqla ərazinin iqtisadi infrastrukturunu yaratmaq, bərpa etmək və inkişaf etdirmək istiqamətində əməli tədbirlər görülməkdədir.

Əhalinin öz torpaqlarına qayıdışını təmin etmək əhalinin bu ərazilərə təkcə fiziki yox, həm də müvafiq idarəetmə institutlarının qurulması fonunda baş verməlidir. Eyni zamanda, təhsil və

səhiyyə də daxil olmaqla, sosial infrastrukturun inkişaf etdirilməsi lazım gələcəkdir. Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünüməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikro-sahibkarlıq fəaliyyətini təşkil etmək vacib məsələlərdəndir.

Azad edilmiş ərazilərdə dövlət və bələdiyyə orqanlarının tam fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrinin inkişafında məşğulluq və o cümlədən özünüməşğulluq məsələlərinə üstünlük verilməsi olduqca zəruridir.

İşğal altında olan əzəli tarixi torpaqlarımızın düşmən əsarətindən geri qaytarılması, bu ərazilərdə post-konflikt bərpa proseslərinin başlanması üçün zəmin yaratmış və Azərbaycan hökuməti tərəfindən Vətən Müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə təcili olaraq bərpa işlərinə artıq başlanılmışdır. Belə ki, dövlətimizin qarşısında ən ümdə vəzifə - hazırda qısa müddət ərzində işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi, orada ilkin infrastrukturun qurulması və sonrakı mərhələdə isə insanların öz tarixi torpaqlarına qayıdışını təmin etmək məqsədilə yaşayış evlərinin tikintisinə başlamaqdır.

Azad olunmuş ərazilərin yenidən qurulması və bərpası eləcə də həmin ərazilərin idarə edilməsinə münasibətdə vətəndaşlarımızın böyük bir gözləntisi mövcuddur. Belə ki, bu gözlənti əsasən ondan ibarətdir ki, həmin ərazilərdə ən yaxşı nümunələr tətbiq ediləcəkdir.

Azad edilmiş ərazilərdə dövlət və bələdiyyə orqanlarının tam fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrinin inkişafında məşğulluq və o cümlədən, özünüməşğulluq məsələlərinə üstünlük verilməsi olduqca zəruridir.

– ***Dağ-mədən, metallurgiya, yeyinti, emal sənayesi*** ilə bərabər, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq kimi istiqamətlərin inkişaf potensialı nəzərə alınaraq, sahibkarlarda bu sahələrə investisiya qoyuluşuna maraq yaradılması olduqca zəruridir.

– ***İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının təşkili üçün*** mövcud enerji sistemi ilə inteqrasiya edilməsinə xarici investorların dəstəyindən yararlanmaqla ciddi sərmayələr yatırılmalıdır. Zəngin enerji resursları nəinki işğaldan azad olunan ərazilərə investorları cəlb edə biləcək ən yaxşı strateji aktiv hesab oluna, hətta gələcəkdə ölkəmiz üçün bu sahədə xarici bazarlara çıxış imkanlarının əldə olunmasına zəmin yarada bilər.

- ***Qarabağda çoxsaylı faydalı qazıntı yataqlarının mövcudluğu*** burada həm yerli həm də əcnəbi sərmayəçilərin cəlb olunması ilə xüsusən Kəlbəcər və Zəngilan rayonları ərazisində dağ-mədən və əlvan metal istehsal edən müştərək müəssisələrin yaradılmasına yaxşı imkanlar vermiş olur. Bundan əlavə, Kəlbəcər və Laçın rayonlarında böyük həcmdə mineral su ehtiyatlarının mövcudluğunu nəzərə alsaq, orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektlərinin yaradılması çox böyük iqtisadi səmərə verə bilər.

**Nəticə və təkliflər**

Bir çox mütəxəssislərin fikirlərinə görə, bu sahələrə investisiyaları stimullaşdırmaq üçün sənaye parkları və rayonları, aqropark və texnoparkların yaradılması da daxil olmaqla. müxtəlif müasir sahibkarlıq növlərinin tətbiqi mexanizmlərindən istifadə edilə bilər. Beləliklə, həmin sahələrə gələcəkdə qoyulan investisiyalar qeyri-neft sahələrinin inkişafı potensialının artırılması, həmçinin istehsalda dəyər zəncirinin yaradılması baxımından olduqca əhəmiyyətlidir.

Beləliklə, münaqişə sonrası Qarabağ torpaqlarının bərpası və inkişaf etdirilməsi Azərbaycanda yenidənqurma, iqtisadi təhlükəsizlik, o cümlədən ərzaq təhlükəsizliyinin təmin olunması baxımından ölkəmiz üçün olduqca əhəmiyyətli bir rol oynayır.

Bütün bu məsələlər, dövlət qarşısında yeni iqtisadi inkişaf strategiyası - Qarabağın ümumi İnkişaf Strategiyasının hazırlanmasını və onun prioritet istiqamətlərinin müəyyənləşdirilməsini zəruri edir.

***Prioritet istiqamətlərə aşağıdakılar daxil edilə bilər:***

- iqtisadi və sosial məsələlər nəzərə alınaraq məcburi köçkünlərin yaşayış yerlərinə tədricən qayıtması;

- insan kapitalının inkişafı;

- dövlət investisiyaları ilə yanaşı xarici və yerli birbaşa investisiyaların cəlb edilməsi;

- sahibkarlığın, xüsusən mikro, kiçik və orta sahibkarlığın inkişafına, eyni zamanda iqtisadiyyatın yenilikçi həllər, yeni texnologiyaların tətbiqi məsələləri və s. [8].

Münaqişədən sonrakı vəziyyətdə ölkələrin təcrübəsində yeni iqtisadi inkişaf strategiyası makroiqtisadi sabitliyi təmin etmək üçün aşağıdakı tələblərə cavab verməlidir:

1. iqtisadi islahatların tədricən və ardıcıl həyata keçirilməsi;

2. özəl investisiyaların əsas prioritetə çevrilməsi;

3. iqtisadi canlanmanı təmin edən pul və maliyyə siyasətinin yenidən qurulması;

4. bərabər maliyyə davamlılığını təmin edərkən, maliyyə siyasətinin əsas məqsədi kimi bərpa və məşğulluğun artması üçün maliyyələşdirilməsi;

5. sahibkarlıq fəaliyyəti subyektlərinin müəyyən olunmuş ərazilərdə həyata keçirilməsi və ya təqdim etmək istədikləri biznes layihələrinin, həmin ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu təmin etmək baxımından, müvafiq tədbirlər görülməsi;

6. fərdlər və ailələr üçün bütün sosial xidmətlərin bərpası;

7. beynəlxalq yardım və qrantların idarə edilməsində şəffaflığın və səmərəliliyin təmin edilməsi;

8. donor mərkəzlərinin düzgün təşkili;

9. həmin iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində iştirakını təmin etmək məqsədilə qeyri dövlət qurumunun (ictimai təşkilat formasında) yaradılması və s.

Bu strategiyanın həyata keçirilməsini təmin etmək üçün ilk öncə, şəffaf idarəetmə, izləmə və qiymətləndirmə mexanizmi, habelə şəffaf və hesabatlı bir maliyyələşdirmə mexanizminin yaradılması olduqca əhəmiyyətlidir.

Yuxarıda sadalanan amillərin vacibliyini nəzərə alaraq, dövlətimiz tərəfindən aparılan bir sıra tədbirlər xüsusi qeyd olunmalıdır. Bu ilin yanvar ayında prezident İlham Əliyev konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə əsasən, müvəqqəti məqsədlərlə qurum təsis etməsi səlahiyyətlərindən istifadə etməklə, işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə “İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri”ni təsis etmişdir. [6] [1].

Xüsusi nümayəndəlik prezidentin müəyyən etdiyi ərazi hüdudlarında onu təmsil edən və fəaliyyət göstərən şəxsdir [2]. Xüsusi nümayəndəliklər spesifik bir məqsədlə (işğaldan azad edilmiş ərazilərdə infrastruktur işlərinin səmərəliləşdirilməsi və bu prosesi prezidentin nəzarətinə götürülməsi) müvəqqəti əsaslarla bu məqsədə nail olunana qədər yaradılır [2]. Buradan aydın olur ki, bir çox ekspertlərin fikirlərinə əks olaraq, xüsusi nümayəndəliklər Azərbaycanın ənənəvi yerli icraedici hakimiyyəti olan yerli icra hakimiyyəti orqanlarını rayonlar və şəhərlər çərçivəsində əvəz etmək xarakteri daşımır. Xüsusi nümayəndələr prezidentin müəyyən edəcəyi ərazi hü-

dudları çərçivəsində onu təmsil etməklə işğaldan azad edilmiş ərazilərdə infrastruktur işlərinə nəzarət niyyətinə nail olmaq üçün müvəqqəti, bir məqsədlə yaradılır.

Fikrimizcə, növbəti mərhələdə bu nümayəndəliyə Qarabağda məhz inkişaf strtegiyasının planlı həyata keçirilməsində iştirak etmə, nəzarət etmə səlahiyyətlərinin, xüsusi dövlət proqramlarının hazırlanmasında iştirak və s. tapşırıqların verilməsi mümkün ola bilər.

**İstinadlar**


1. Azərbaycan Respublikasının Konstitusiyası 00 - Azərbaycan Respublikasının Konstitusiyası (e-qanun.az)
2. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında ƏSASNAMƏ Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi - SƏNƏDLƏR » Fərmanlar (president.az)
3. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar Bakı, “Qafqaz” nəşriyyat evi, 2010. – 270 s.
4. İbrahimov İbrahimxəlil. (2014) Bələdiyyə idarəçiliyinin beynəlxalq təcrübəsi “Ziya” NPM. 336 səh
5. Iskandarov, K., & Gawliczek, P. (2021). The second Karabakh war as a war of new generation. Journal of Scientific Papers «Social development and Security», 11 (2), 91-99.
6. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi - SƏNƏDLƏR » Fərmanlar (president.az)
7. United Nations Development Programme UNDP SDG | UNDP Transparency Portal
8. Vusal Gasimli: Karabakh will be a new driver of economic growth in Azerbaijan - AZERTAC - Azerbaijan State News Agency (azertag.az)
9. Наше внимание | ПРООН в Азербайджане (undp.org)

**MƏMMƏDLİ Mübariz**
UNEC, i.f.d., dosent

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNESİN TƏŞKİLİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**Xülasə:** Məqalədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində biznesin təşkilinin müxtəlif aspektlərinə toxunulmuşdur. Regionda iqtisadiyyatının sürətli inkişafı üçün müəyyən sahələrdə atıla biləcək addımlar vurğulanmışdır. Bu sahələrə, şəhər planlaşdırılması, kənd təsərrüfatı, təhsil, mülkiyyət kimi müxtəlif sahələri qeyd etmək olar. Eyni zamanda işğal edilmiş ərazilərdə biznesin məhsuldar təşkili üçün biznes ekosisteminin alt sistemləri verilmişdir.
İşğaldan azad olunmuş ərazilərində biznesin inkişafı üçün tətbiq edilə biləcək təşviqlər müzakirə edilmiş, bu təşviqlərin xüsusiyyətləri və xarakteri qeyd edilmişdir. Xüsusilə vergi azadolma və güzəştlərinin sahibkarları daha çox təşviq edəcəyi, gömrük güzəştlərinin və bu sahədə prosedurların sadələşdirilməsinin əhəmiyyəti vurğulanmışdır. Aqrar sahənin inkişafı üçün qəbul edilə biləcək proqramlar və torpaq islahatları, bu sahələrdə kooperasiyaların qurulması potensialına toxunulmuşdur.

**Açar sözlər:** biznes, kənd təsərrüfatı, mülkiyyət, təşviq

## Giriş

Müzəffər Azərbaycan ordusu uzun illər işğal altında qalan Vətən torpaqlarının böyük hissəsini azad etdi. İndi hamı, Dövlət, Xalq "Böyük Qayıdış"a hazırlaşır. Ən əsas olan bu qayıdışı bütün anlamlarda sərfəli və düzgün etməkdir. Həm siyasi, həm sosial, həm iqtisadi, həm psixoloji, həm də ekoloji anlamlarda bu qayıdışın optimal olması üçün elmi ictimaiyyətin üzərinə böyük məsuliyyət və iş düşür.

İşğaldan azad olunmuş ərazilərdə biznesin təşkili üçün ilk növbədə burada bizneslə məşğul olmanın cazibədarlığını artırmaq lazımdır. Bunun üçün təşviqedici güzəştlər, üstünlüklər verilməlidir. Çünki təşviq sistemi ölkələrin inkişaf səviyyələrinə görə müxtəlif yollarla tətbiq olunsa da, regional balanssızlığa birbaşa təsir edən və regionun inkişafını sürətləndirən bir məsələdir.

### Təhlil və qiymətləndirmə

İşğaldan azad olunmuş ərazilərdə biznesin çiçəklənməsi, biznes infrastrukturunun yaradılması, bizneslə məşğul olmağın sadə və asan olmasıdır. İşğaldan azad olunmuş ərazilərdə biznesin inkişafı niyə önəmlidir? Çünki biznesin bu ərazilərdə inkişafı həmin ərazilərdə məskunlaşma və rifahın artırılması üçün xüsusilə mühümdür.

Təşviqlər tətbiq edilən zaman iki xüsusiyyət mütləq nəzərə alınmalıdır. Birincisi, təşviqlər asan, aydın və faydası ölçüləbilən olmalıdır. İkincisi isə, təşviqlər Qarabağ regionuna uyğun ümumi xarakter daşımalıdır. Təşviqlər yüksək işsizlik və gəlirlərin aşağı olduğu mühitlərdə xərclərin aşağı düşməsinə və böyümənin sürətləndirilməsində təsirli olur. Buna görə də təşviqlər müəyyənləşdirilərkən mühit və hansı istehsal amillərini əhatə edəcəyi effektivlik və məhsuldarlıq baxımından çox əhəmiyyətlidir. Təşviqlər hər istehsal amili üçün eyni, ancaq digər bölgələrə nisbətən daha sərfəli bir mühit yaradırsa, onda resurslar daha rasional istifadə edilə bilər. Bu məqsədlə, biznesə güzəştlərin geniş nəzərdə tutulduğu proqramlar qəbul edilməlidir. Vergi və gömrük güzəştləri verilməlidir. Verilən güzəştlər ən azı texnoloji parklarda verilən güzəştlərdən az olmamalıdır. 7 il ərzində torpaq və mənfəət vergisinin alınması bu istiqamətdə fəaliyyətləri genişləndirə bilər [1]. Eyni zamanda ƏDV ilə bağlı da güzəşt və azadolmaların tətbiq edilməsi və ya sıfır dərəcə ilə ƏDV tətbiqi həmin bölgələrdə istehlakın və istehsalın artırılmasına ciddi təkan verəcəkdir.

Regionda uğurlu biznesin təşkili üçün yeni, innovativ metodların tətbiqi təşviq edilməlidir. Bu məqsədlə ya yeni mal və xidmət istehsalı, ya da sınanmamış yeni üsullardan istifadə üçün biznes mühiti yaradılmalıdır. Ümumiyyətlə, biznesdə yenilikçilik və innovativ yanaşma onun fəaliyyət göstərdiyi ekosistemin xüsusiyyətləri ilə birbaşa bağlıdır. Belə ki, biznes ekosistemi - biznesin fəaliyyət göstərdiyi region, orada tətbiq edilən qaydalar, həmçinin istehsalçı və istehlakçıların davranışlarını müəyyən edən iqtisadi, siyasi, sosial və mədəni dəyişənlərin qarşılıqlı əlaqəsi olan sahələrdir. Biznes ekosistemininin alt sahələrinə aşağıdakılar aiddir OECD [2]:

- tənzimləyici infrastruktur,
- biliklərin formalaşması və yayılması,
- bazar şərtləri,
- maliyyələşmə,
- təşəbbüskarlıq bacarığı,
- mədəniyyət.

Bu sahələr ölkə daxilində regionlara görə bir-birindən fərqlənə bilər. Qarabağ regionunda biznes ekosisteminin yaradılması üçün onun spesifik xüsusiyyətləri nəzərə alınmalı və biznes ekosisteminin hər bir alt sistemi gücləndirilməlidir. Yuxarıda qeyd edilən biznes ekosistemini yaratmaq üçün mühüm şərtlərdən biri şəhərlərin və kəndlərin planlaşdırılmasıdır. Belə ki, şəhərlərin və kəndlərin planlaşdırılmasında elmi yanaşmanın olması bu ərazilərdə biznesin təşkilinə və zəruri ekosistemin yaradılmasına ciddi təsir göstərəcəkdir. Çünki planlaşdırma bir anlayış olaraq, əsasən üç əvəzolunmaz xüsusiyyəti özündə birləşdirir. Bu xüsusiyyətlərə aiddir:

• gələcəyi dizayn edir,
• konkret hədəflərə çatmaq üçün aparılır,
• fəaliyyətlərin sistemli və ardıcıl olmasını təmin edir.

Bu bölgü göstərir ki, Qarabağ regionunun düzgün planlaşdırılması gələcəkdə qarşıya qoyulan hədəflərə çatmaqda və zəruri iqtisadiyyatının gücləndirilməsində əvəzedilməz rol oynayır. Beləliklə, Qarabağ regionunun planlaşdırılması üçün atılacaq addımlar özü də müəyyən fazalardan ibarət olmalıdır (Sxem 1).




Sxem 1. Qarabağ regionunun planlaşdırılmasında fazalar

Sxem 1-də əks olunduğu kimi, regionun planlaşdırılması üçün infrastruktur investisiyalara böyük ehtiyac var. Bu ehtiyac həm dövlət tərəfindən, həm də digər iri şirkətlər tərəfindən təmin edilə bilər. Əslində Qarabağ regionuna iri investisiya qoyuluşları bu regionun iqtisadiyyatının müxtəlif sahələrinə cəlb edilməlidir. Çünki iri investisiya qoyuluşları öz növbəsində kiçik və orta sahibkarlığı da stimullaşdıracaqdır. Dövlət tərəfindən investorlara veriləcək investisiya təşviqi müxtəlif funksiyaları reallaşdıracaqdır:

- Yerli şirkətlərin fəaliyyətini yenidən qurulmasını dəstəkləyəcəkdir,
- Yeni texnologiyaları təqdim edəcəkdir,
- Az inkişaf etmiş bölgələr üçün istehsal alətlərini və ehtiyatlarını səfərbər edəcəkdir,
- Məşğulluğu tənzimləyəcək və qoruyacaqdır,
- Yeni investisiyaları dəstəkləyəcəkdir.

Digər tərəfdən, regionun inkişafı üçün dövlət tərəfindən verilən sifarişlərdə şəffaflıq və ədalət prinsipləri tam qorunmalıdır. Belə olduqda sahibkarlıq özünü hərəkətə gətirmiş olacaq, sifarişləri əldə etmək üçün axın və rəqabət təmin ediləcəkdir.

Bütün qeyd edilənlərlə yanaşı, aqrar sahənin inkişafı üçün xüsusi proqramlar işlənilməlidir. Bu zaman torpaq islahatının işğaldan azad olunmuş yerlərdə aparılmadığı nəzərə alınmalıdır. Bu ərazilər üçün torpaq islahatı aparılarkən bu islahatlardan sonra həmin sahələrin kooperasiyalarda birləşməsi potensialı qiymətləndirilməli və bu təşviq edilməlidir. Arzu edən hər Vətəndaş torpaq sahəsi əldə edə bilmək imkanında olmalıdır. Yerli əhali isə ödənişsiz əsaslarla torpaq sahəsini əldə edə bilməlidir.

Aqrar sahənin inkişafı işğaldan azad olunmuş ərazilərin bərpası zamanı əsas xətt olmalıdır. Aqrar sahənin inkişafında torpaq islahatının rolu əsas olacaq. Bundan əlavə Hökumət regional tədarük müəssisələri təsis etməli və bu müəssislərin laboratoriyaları, anbarları, texnikası və sərbəst maliyyəsi olmalıdır. Laboratoriya hansı ərazilərdə nələrin əkilməsinin sərfəli olduğunu müəyyən etməlidir. Anbarlar məhsulları ucuz satmaqdan mühafizə edəcək, texnika ödənişli əsaslarla fermerə yardım edəcəkdir. Ayrılan maliyyə məhsulların alınması üçün istifadə ediləcəkdir. Tədarük məntəqələri məhsulları yığmalı və sonra satışını təşkil etməlidir. Bu halda fermerlər saxlama, sərfəli satma kimi qayğılardan qurtulacaqdır. Məntəqələr hər il üçün tələb olunan məhsulun miqdarı haqqında hesabat yayacaqlar və fermerlərə əvvəlcədən nəyi necə əkməyi tövsiyə edəcəklər. Belə olduqda fermerlerin itki riskləri xeyli azaldılmış olacaqdır. Tədarük olunan məhsulların satışı, istər daxili bazarda, istərsə də xarici bazarda daha düzgün idarə olunma şansı qazanacaqdır. Bu zaman ekoloji təmiz məhsul brendlərinin yaradılması xüsusilə önəmlidir. Dünya bazarında ekoloji təmiz məhsullar daha baha satılır və biz də təbiətimizin bizə verdiyi bu üstünlüklərdən faydalanmalıyıq.

İlk zamanlar aşağıda qeyd edilən biznes sahələrinə daha çox tələb olacaqdır:

1. Tikinti və tikinti materialları istehsalı;
2. Kənd təsərrüfatı;
3. Kənd təsərrüfatı məhsullarının emal sənayesi;
4. Turizm;
5. Təhsil;
6. Səhiyyə və əczaçılıq;
7. Nəqliyyat.

Qeyd edilən hər bir sahənin gücləndirilməsi işğaldan azad edilmiş regionunun inkişafı üçün mühümdür. Məsələn, bu sahələrdən nəqliyyat sektoruna nəzər salsaq, deyə bilərik ki, müəssisələr istehsal, marketinq və ya məhsulların paylanmasında regionun mütərəqqi nəqliyyat sisteminin köməyi ilə rəqabət güclərini artıra bilirlər. Bu zaman biznes subyektləri logistik xidmətlərini yüksəldə və xərclərini azaltmaq imkanına sahib ola bilərlər.

Digər tərəfdən biznes ekosisteminin qurulması üçün təhsil sistemi də gücləndirilməlidir. Çünki informasiya əsri adlanan və biliyin cəmiyyətlərin sahib ola biləcəyi ən böyük güc mənbəyinə çevrildiyi günümüzdə biliklərin yaradılması, formalaşması və ötürülməsi təhsildən keçir. Qa-

rabağ regionunun rəqabət üstünlüyü qazanması üçün təhsilə daha çox əhəmiyyət verilməlidir. Biliyin sürətli formada bütün əhaliyə yayılması regionda məhsuldarlığı artıracaqdır. Bunun üçün isə biliyin mübadiləsini və informasiya texnologiyalarının istifadəsini genişləndirən bir mədəniyyət yaratmaq zəruridir.

Başqa bir mühüm məsələ regionda mülkiyyət hüququ ilə bağlıdır. Mülkiyyət hüququ məsələsi çox kəskin və ağır bir sual kimi görünür. Niyə? Çünki, həm torpaq islahatı, həm də əmlakın özəlləşdirilməsi buralarda aparılmayıb. İndi isə geri dönən insanlar ölkənin digər vətəndaşları kimi həm torpaq, həm də əmlakdan pay istəyəcəklər. Torpaq qalıb amma əmlak yoxdur. Birinci Özəlləşdirmə Proqramında nəzərdə tutulurdu ki, işğal altındakı ərazilər azad olunandan sonra burdakı dövlət əmlakı (müəssislər, fabriklər, zavodlar) yerli əhali arasında ödənişsiz özəlləşdirilsin. Amma heçnə yoxdu, hər şey viran qoyulub. Bu zaman torpaq islahatlarının keçirilmə qaydası biznesə çox güclü təsir edəcək.

**Nəticə**

Beləliklə, işğaldan azad olunmuş ərazilərdə biznesin təşkili üçün müəyyən tədbirlər görülməlidir. Bu məqsədlə, maliyyə üstünlükləri, vergi azadolmaları və güzəştləri tətbiq edilərək iqtisadi fəaliyyətlər təşviq edilməlidir. Regional inkişaf üçün tələb olunan investisiyalar (hər bir sahə üzrə) müəyyənləşməli və cəlb edilməlidir.

İşğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasında təməldən halallıq və şəffaflıq gözlənilməlidir. Bu zaman “şüurlu vergi ödəyicisi” şüarı təmin edilməlidir. Qarabağ regionunda biznes ekosisteminin gücləndirilməsi üçün onun özünəməxsus cəhətləri nəzərə alınmalı, regionda innovativ metodların tətbiqi təşviq edilməli, biznes sahəsi üzrə biliklərin artırılmasına şərait yaradılmalıdır.

Aqrar sahənin, turizm sahəsinin və tikinti sahəsinin inkişafı üçün xüsusi proqramlar işlənilməlidir. Proqramlar regionun işğaldan azad olunmuş yerlərdə aparılmadığı nəzərə alınaraq hazırlanmalı və yarana biləcək riskləri əvvəlcədən müəyyənləşdirməlidir. Kənd təsərrüfatında fermerlərə xüsusi dəstək olunmalı, təlimlər keçilməli, əvvəlcədən nəyi necə əkməyin məhsuldar olacağı haqqında məlumatlandırılmalıdır. Göstərilməli olan dəstək həm də məhsulların satışını əhatə etməlidir.

İşğaldan azad olunmuş ərazilərin iqtisadiyyatını inkişaf etdirmək üçün tələbin yüksək olduğu sahələrin (tikinti və tikinti materialları istehsalına, kənd təsərrüfatına, kənd təsərrüfatı məhsullarının emal sənayesinə, turizm, nəqliyyat, təhsil, səhiyyə və əczaçılıq sahəsi) fəaliyyəti dəstəklənməlidir.

**İstinadlar**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 11 iyul 2000, https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi
2. OECD, (2012), Entrepreneurship at a Glance, OECD, Paris.

**MƏMMƏDOV Coşqun**
Xəzər Universiteti, doktorant, AMEA Rəyasət Heyəti aparatının vitse-prezidentin xidmətində Elmi katib

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin mövcud enerji potensialı, regionun sosial-iqtisadi göstəriciləri və gələcək perspektivləri öyrənilmiş, bu ərazilərin bərpası və yenidən qurulması məqsədi ilə qəbul edilmiş icrası vacib olan qərarlar və dövlət proqramları geniş tədqiq edilmişdir.
Həmçinin məqalədə azad edilmiş ərazilərdə tətbiqi nəzərdə tutulan müasir texnologiyalar əsasında "Ağıllı kənd", "Ağıllı şəhər" və "Yaşıl zona" kimi layihələrin regionun sosial-iqtisadi inkişafının sürətləndirməsində əhəmiyyəti də nəzərdən keçirilmişdir.
Azad edilmiş ərazilərin bərpası və yenidən qurulması sahəsində böyük təcrübəyə malik beynəlxalq nüfuzlu təşkilatlar və yüksək ixtisaslı xarici ekspertlər səviyyəsində uğurlu əməkdaşlığın qurulması, onların mövcud proseslərə fəal surətdə cəlb olunmaları, bu sahə üzrə bilik və təcrübələrindən geniş şəkildə faydalanmaqla fikir və tövsiyələrinin həyata keçirilməsinin məqsədəuyğunluğu təklif edilmişdir.

**Açar sözlər:** alternativ və bərpa olunan enerji mənbələri, günəş enerjisi, külək enerjisi, hidroenerji, bioenerji, geotermal enerji, yaşıl enerji, ağıllı kənd, sosial-iqtisadi, işğaldan azad, dövlət proqramı, beynəlxalq əməkdaşlıq.

→

## Giriş

Respublikamızda həyata keçirilən genişmiqyaslı və məqsədyönlü sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatının gücləndirilməsini, onun hərtərəfli inkişafının sürətləndirilməsini təmin etmişdir. Bunun nəticəsidir ki, bu gün ölkəmiz regionda iqtisadi gücünü və həlledici rolunu artırmaqla yanaşı, regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaqla regionun mühüm tranzit mərkəzinə çevrilərək beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəltmiş, ümumilikdə dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaşa çevrilmişdir.

Uğurlu sosial-iqtisadi siyasət iqtisadiyyatın inkişafı ilə yanaşı, ölkənin hərbi potensialının yüksəldilməsinə də öz töhfəsini vermişdir. Belə ki, uzun illərə söykənən ardıcıl və sistematik şəkildə həyata keçirilən məqsədyönlü islahatların və gələcək hədəflərə yönəlik uğurlu siyasətin nəticəsində müzəffər Azərbaycan ordusu otuz ilə yaxın davam edən münaqişəyə son qoyaraq öz əzəli torpaqlarını işğalçılardan azad etdi, şanlı Azərbaycan bayrağını işğaldan azad edilmiş ərazilərdə dalğalandırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qırx dörd

gün davam edən Vətən Müharibəsi ölkəmizin hərbi-siyasi və diplomatik qələbəsi ilə yekunlaşdı. Düşmənin "məğlubedilməz ordu" kimi illərlə formalaşdırdığı mif, rəşadətli Azərbaycan ordusu önündə sabun köpüyü kimi dağıldı. Düşmən tapdağı altında inildəyən vətən torpaqları Dəmir Yumruq sayəsində xilaskar Azərbaycan ordusuna qucaq açdı, həqiqi sahiblərinə qovuşdu.

Özündə kapitulyasiya aktının bəndlərini əks etdirən 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli tarixi Bəyanat – münaqişənin qələbəmizlə sonuclanmasının və ərazi bütövlüyümüzün bərpa olunmasının təsdiqi ilə yanaşı, respublikamızın gələcək davamlı sosial-iqtisadi inkişafının təmin olunmasına, xalqımızın yaşayış səviyyəsinin daha da yüksəldilməsinə, işğaldan azad edilmiş ərazilərin bərpasına, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışına və onların sosial rifahının yaxşılaşdırılmasına öz layiqli töhfəsini verəcəkdir.

Lakin çox təəssüflər olsun ki, uzun dövrü əhatə edən bu otuz illik işğal müddətində torpaqlarımız mənfur düşmən tərəfindən vəhşicəsinə talan edilmiş, şəhər və kəndlərimiz viran qoyulmuş, zəruri infrasturuktur sahələri tamamilə dağıdılmış, xalqımıza məxsus tarixi, mədəni və dini abidələrimiz yerlə-yeksan edilmişdir. Bölgənin iqtisadiyyatına və ekoloji mühitinə əhəmiyyətli dərəcədə ziyan dəymişdir.

Bu isə azad edilmiş ərazilərdə böyük qayıdışın və daimi məskunlaşmanın həyata keçirilməsində xeyli çətinliklər yaradır. Bu mənada əvvəl mövcud olmuş zəruri infrastruktur sahələrinin yenidən və daha müasir şəkildə qurulması ərazidə köklü və geniş bərpa və quruculuq işlərinin həyata keçirilməsini, yüksək məbləğdə maliyyə vəsaitinin cəlbini tələb edir. Lakin dövlətimizin bu istiqamətdə sərgilədiyi qəti siyasi iradə və ölkəmizin davamlı artan iqtisadi-maliyyə imkanları regionun dirçəliş prosesini daha sürətli şəkildə aparmağa və bütün tədbirlərin zamanında yekunlaşacağına böyük ümid və imkanlar yaradır.

Bunun göstəricisidir ki, bu gün artıq işğaldan azad edilmiş vətən torpaqlarında genişmiqyaslı quruculuq və bərpa işlərinə başlanılmışdır. Bütün bu görülən işlər isə dövlət başçısının daim diqqət mərkəzindədir. Onun qətiyyətli qərarları, müdrik və uzaqgörən siyasəti nəticəsində regionda həyata keçirilməsi planlaşdırılan mühüm istiqamətlər müəyyənləşdirilir, regionun inkişafı naminə lazımi addımlar atılır.

**Mövcud enerji potensialı və planlaşdırılan işlər**

Azad edilmiş ərazilərdəki enerji şəbəkələri əvvəllər kənardan – Kür çayı üzərindəki SES (Şəmkir-Yenikənd) və Mingəçevirdəki AzDRES-dən 35-330 kV-luq Gəncə-Ağdam, AzDRES-Ağdam və Ağdam-İmişli yüksəkgərginlikli ötürücü xətlər vasitəsi ilə təchiz olunurdu. Bu yolla Ağdam elektrik yarımstansiyasına (330/110 kV) gətirilən elektrik enerjisi oradan isə 110 kV-luq yüksək gərginlikli ötürücü xətlər vasitəsilə paylaşdırılırdı. Azərbaycana qarşı hərbi təcavüz nəticəsində bütün bu sistem, Ağdam elektrik yarımstansiyası da daxil olmaqla, tamamilə sıradan çıxarılmış, 17000 km-dən artıq elektrik paylayıcı şəbəkələr və 2500 yarımstansiya ya oğurlanıb xaricə satılmış, ya da sadəcə olaraq dağıdılıb yerlə yeksan edilmişdir [8, s.117].

Belə olduğu təqdirdə azad edilmiş ərazilərdə bölgənin inkişafı üçün ilk növbədə ən zəruri yeni sosial infrastruktur layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu kimi zəruri layihələrin icrası olmadan qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışı və bölgədə yenidən daimi məskunlaşmanın təmin edilməsi mümkün deyildir. Bu baxımdan, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizin mövcud ekoloji vəziyyəti, iqtisadi potensialı və enerji ehtiyatlarının dəyərləndirilməsi bölgədə quruculuq-bərpa işlərinin aparılmasını və daimi məskunlaşmanı təmin etmək üçün olduqca önəmlidir.

Bu gün dövlətimizin qarşıya qoyduğu əsas məqsədlərdən biri də məhz Qarabağ və Şərqi Zəngəzur bölgələrinin iqtisadi, ekoloji və enerji potensialının, xüsusilə də günəş, külək, hidroenerji, bioenerji və geotermal enerji kimi alternativ və bərpa olunan enerji mənbələrinin dəqiq potensialının müəyyən edilməsidir.

İlkin mərhələyə – böyük imkanlara malik olan rayonları ayrı-ayrılıqda qiymətləndirməklə, həmin ərazilərdə günəş və külək enerjisi üzrə dəqiq potensialın müəyyən edilməsi üçün ölçü müşahi-

də stansiyalarının quraşdırılması, texniki imkanların və iqtisadi səmərəliliyin qiymətləndirilməsi kimi işlər daxildir. Beləliklə, azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinin potensialının və mövcud coğrafi və ekoloji vəziyyətinin öyrənilməsi bu sahənin hərtərəfli inkişafı və investisiya cəlbediciliyinin artırılması üçün geniş imkanlar açacaqdır [10, 11].

Hesablamalara əsasən, yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin cənub düzənlik hissəsi – Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikasının ərazisindən sonra ikinci yerdədir. Burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVt.s təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı isə 3000-4000 MVt-dır. Bu məqsədlə, Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən ilkin olaraq Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarının ərazisində yüksək günəş enerjisi potensialına malik ümumi sahəsi 14 427 ha olan 8 potensial ərazi seçilmişdir. Məlum olmuşdur ki, bu ərazilərdə ümumilikdə 7 214 MVt gücündə günəş elektrik stansiyalarının yerləşdirilməsi mümkün görünsə də, cənub ərazilərin bir hissəsinin kənd təsərrüfatı təyinatlı ola biləcəyi nəzərə alınaraq, burada ümumi potensial 4 000 MVt-dan yüksək qiymətləndirilir.

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin dağlıq ərazilərində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. Ümumilikdə isə bölgədə külək enerjisinin potensialı 300-500 MVt qiymətləndirilir. Lakin bu potensialın böyük hissəsi yuxarıda adıçəkilən rayonların Ermənistanla sərhəd zonalarına düşür ki, burada da küləyin orta illik sürəti 10 m/s-ə çatır. Bu cür böyük potensiala baxmayaraq, hələ ki, ərazidə əlverişli infrastrukturun olmaması və eyni zamanda sərhədinin delimitasiyası və demarkasiyası işlərinin aparılması səbəbindən bu sahələrdə külək enerjisindən elektrik enerjisinin hasil edilməsi məsələsi gələcəkdə bu ərazilərdə yenidən hərtərəfli araşdırma və geniş tədqiqat işlərinin aparılmasını tələb edir.

Həmçinin ölkəmizin ümumi yerli su ehtiyatlarının 25%-nin, yəni ildə təqribən 2 mlrd. 560 mln. $m^3$ su ehtiyatlarının Qarabağ və Şərqi Zəngəzur bölgələrində formalaşdığını nəzərə almaqla, Tərtər, Bazarçay, Həkəri kimi böyük hidroenerji potensialına malik əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı məqsədi ilə kiçik su elektrik stansiyalarının yaradılmasının mümkünlüyü müəyyən edilmişdir. Mövcud su elektrik stansiyaları isə əsasən Tərtər, Laçın və Kəlbəcər rayonlarının ərazisində yerləşir. Artıq bəzi kiçik su elektrik stansiyalarında təmir-bərpa işlərinə də başlanılmışdır.

Qarabağ və Şərqi Zəngəzur ərazisində üç iri su elektrik stansiyası mövcud olmuşdur ki, bu stansiyalardan biri “Tərtər” SES 1976-cı ildə Tərtər rayonu ərazisində, Tərtərçayın üzərində Sərsəng su anbarı ilə birgə inşa edilmişdir. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidroaqreqatdan ibarətdir. Bəndinin hündürlüyünə görə (125 m) Sərsəng ölkədə ən hündür bəndli su anbarlarından biridir. Sərsəng su anbarı  6 rayonunun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 125 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. 1990-cı ildə stansiyanın il ərzində istehsal etdiyi elektrik enerjisi 81.9 mln. kVt.s olmuşdur.

Regiondakı digər mühüm enerji obyektləri “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyalarıdır. Azərbaycanın Cəbrayıl rayonundakı Xudafərin kəndindən 1 km şimal-qərbdə yerləşən “Xudafərin” Su Elektrik Stansiyası layihəsinin ərazisi 1992-ci ildən Cəbrayıl rayonunun işğalı nəticəsində Ermənistanın nəzarəti altına düşmüş və stansiyanın Azərbaycan tərəfdən tikintisi dayandırılmışdır. Lakin stansiyanın İran tərəfdən tikintisi davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, stansiyanın Azərbaycan tərəfində hər birinin gücü 50 meqavata bərabər olan 2 hidroaqreqatdan ibarət olması planlaşdırılır. Araz çayı üzərində tikintisi nəzərdə tutulmuş “Qız Qalası” Su Elektrik Stansiyasının isə hər biri 20 MVt olan 2 hidroaqreqatdan ibarət olacağı planlaşdırılır. «Xudafərin” və «Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi və istifadəsi iki ölkə arasında 2016-cı ildə imzalanmış sazişlə tənzimlənir.

Ümumilikdə post-konflikt dövrdə azad edilmiş ərazilərin yenidən bərpası, zəruri infrastruktur sahələrinin yaradılması, ev və fermer təsərrüfatlarının, məişət obyektlərinin, sənaye müəssisələrinin, yaşayış məntəqələrindəki kommunal təsərrüfatların elektrik enerjisinə olan tələbatının ödənilməsi və beləliklə daimi məskunlaşma prosesinin sürətləndirilməsi üçün ilk növbədə kiçik və mini su elektrik stansiyalarından istifadəyə əsaslanan lokal elektrik şəbəkələrinin qurulması

ərazilərin elektrik enerjisi ilə təmin edilməsində olduqca böyük əhəmiyyət kəsb edir. Gələcəkdə isə bu kimi yerli ərazi elektrik şəbəkələri ölkə üzrə vahid energetika sisteminə qoşulacaqdır.

Həmçinin gələcəkdə regionun bioenerji və geotermal enerji mənbələri kimi alternativ və bərpa olunan enerji mənbələrindən elektrik və istilik enerjisi istehsalı da mümkündür. Belə ki, Kəlbəcər rayonu ərazisində 3 093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su ehtiyatları mövcuddur.

Eyni zamanda, bu ərazilərdə yaranan və regionun ekoloji durumuna ciddi problemlər törədə biləcək istehsalat və məişət tullantılarının səmərəli idarə edilməsi məqsədilə yığılma, daşınma və zərərsizləşdirilmə kimi xidmətlərin yaradılması əlavə xammal bazarının və təkrar emalın formalaşdırılmasına, tullantıların ətraf mühitə mənfi təsirlərinin minimuma endirilməsinə, beləliklə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət göstərməsi ilə yanaşı kommunal xidmətlərin daha da yaxşılaşdırılması üçün beynəlxalq təcrübədən yararlanmaqla və müasir texnologiyalardan istifadə etməklə elektrik enerjisinin əldə edilməsi üçün də əlverişli şərait yaranacaqdır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikası Energetika Nazirliyi bərpa olunan enerji mənbələrinin dəqiq potensialının hesablanması sahəsində görüləcək işləri özündə ehtiva edən Tədbirlər Planının hazırlanması, bu sahə üzrə aidiyyəti qurumlarla əməkdaşlıq, həmçinin günəş və külək enerjisi potensialının yüksək olduğu ərazilərdə ölçü müşahidə stansiyalarının quraşdırılması kimi işlərə başlamışdır.

**Regionun sosial iqtisadi inkişafı və yaşıl enerji məkanı**

Yeni strateji dövrdə qarşımızda duran məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında 02 fevral 2021-ci il tarixli, №2469 nömrəli Sərəncam imzalamışdır [5]. Milli Prioritetlər növbəti 10 il ərzində ölkə qarşısında həlli vacib olan əsas sosial-iqtisadi istiqamətləri özündə əks etdirir.

Sərəncama əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Sərəncamın 5-ci bəndinə əsasən ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. İstilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması məqsədilə qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə təşviq edilməlidir. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır:

- yüksək keyfiyyətli ekoloji mühit;
- yaşıl enerji məkanı.

Ölkədə yüksək keyfiyyətli ekoloji mühitin yaradılmasında ilkin şərt mövcud resurslardan səmərəli istifadə edilməsi, eyni zamanda iqtisadi və demoqrafik artım səbəbi ilə ətraf mühitə yönəlik risklərin önlənməsidir. Bu məqsədlə yaşıllıqların payı artırılmalı, yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslar bərpa edilməlidir.

Yaşıl enerji məkanın yaradılması isə bir növ zərurətdən yaranır. Belə ki, müasir dövrdə dünyada iqtisadi və demoqrafik artım mövcud enerji mənbələrindən səmərəli istifadə edilməsi ilə yanaşı dayanıqlı enerji kimi alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilməsini tələb edir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri çərçivəsində yaxın gələcəkdə quruculuq konsepsiyası əsasında regionda reallaşdırılması planlaşdırılan bir sıra önəmli layihələrin əsası qoyuldu. Onlardan biri də məhz azad edilmiş ərazilərin ekoloji cəhətdən daha təmiz vasitələr və müasir dövrün tələblərinə cavab verə biləcək yüksək texnologiyalar əsasında yenidən bərpa olunmasıdır. Bu məqsədlə ölkə başçısı azad edilmiş ərazilərdə "Ağıllı kənd", "Ağıllı qəsəbə" və "Yaşıl zona" kimi layihələrin tətbiq edilməsi məqsədilə 19 aprel 2021-ci ildə "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Sərəncam imzalanmışdır.

Beləliklə, bölgədə kommunal xidmətlər şəbəkəsinin yaradılması üçün elektrik enerjisi, təbii qaz, su və istilik təchizatı istiqamətləri üzrə istehlakçıların tələblərini keyfiyyətli və səmərəli şəkildə qarşılamaq məqsədilə bir sıra kompleks tədbirlərin reallaşdırılması planlaşdırılır.

Bu məqsədlə, ən müasir texnologiyalar tətbiq etməklə, elektrik enerjisinə qənaət edən texnologiyalar, effektiv və keyfiyyətli yaşıl enerji – su, külək, günəş kimi alternativ və bərpa olunan enerji növlərinə əsaslanan enerji layihələrinin həyata keçirilməsinə başlanılmışdır [2].

Plana əsasən müasir texnologiya və innovasiyaların tətbiqinə əsaslanan sosial-iqtisadi inkişafın təmin olunduğu ilk "Ağıllı kənd" layihəsi Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra ediləcəkdir. Layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. Layihəyə əsasən iki yüz evdən ibarət inşa ediləcək kəndin enerjiyə olan tələbatı məhz alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin ediləcəkdir [9].

Sonrakı mərhələdə də regionda sosial infrastruktur və xidmətlərin təşkilinə, dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modellərinin yaradılması və innovativ idarəetmənin reallaşdırılmasına söykənən "yaşıl enerji zonası" və "ağıllı" konsepsiyalarının bölgənin digər ərazilərində tətbiqi nəzərdə tutulur [2].

Bu kimi layihələrin icrasında əsas məqsəd regionda münbit şəraitin yaradılması ilə əhalinin gündəlik həyat şəraitinin yaxşılaşdırılması, yarana biləcək problemlərin həllinin asanlaşdırılması, məşğulluğun təmin edilməsi, insanların öz yaşadığı ərazidə yüksək qazanc əldə etməsi ilə gəlir səviyyəsinin artırılması, istehsal olunmuş kənd təsərrüfatı və sənaye məhsullarının ölkə və dünya bazarlarına rahat çıxışının təmin edilməsi, qısacası yüksək qazanc və rahat xidmətlərdən yararlanmaqla kənd və şəhər fərqinin azaldılmasıdır.

Xüsusilə regionda bütün yaşayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı və sənaye məhsullarının emalı və istehsalı prosesinin alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin edilməsi bu layihələrin bir daha nə qədər önəmli, yüksək üstünlüklərə malik olduğunu göstərir. Belə ki, bu kimi mühüm layihələr ənənəvi enerjiyə nisbətdə günəş və külək enerjisi, su elektrik stansiyaları vasitəsi ilə enerjiyə olan tələbatın ödənilməsi, avtomobil yollarının "ağıllı" işıqlandırılması, bioqaz enerjisindən istifadə edilməklə əhalinin təbii qaza olan tələbatının ödənilməsi, geotermal enerji hesabına mənzil və obyektlərin istiliyinin təmin edilməsi kimi müasir yanaşmaları özündə cəmləşdirir. Beləliklə, bu ərazilərdə ekoloji təmiz vasitələrdən istifadə edilməsi regionun ümumi ekoloji mühitinə öz müsbət təsirini göstərəcəkdir. Eyni zamanda Prezident İlham Əliyevin tapşırığı ilə bu layihələrin icrası işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramının sürətlənməsinə də öz töhfəsini verəcəkdir.

İstehsal olunmuş elektrik enerjisinin güzəştli şərtlərlə, xüsusi enerji istehlakı normaları çərçivəsində satışı da (təhcizatı) bölgənin yenidən tez bir zamanda bərpasına imkan yaradacaqdır. Xüsusilə respublikada regionlar üzrə elektrik enerjisi istehlakının əhali və digər istifadəçilər (istehsal, ticarət və xidmət müəssisləri) arasında 60/40 nisbətinə olan bölgünü nəzərə alsaq bu tətbiq azad edilmiş ərazilərə kütləvi qayıdış və daimi məskunlaşmaya da xüsusi stimul verəcəkdir [8, s.119].

Ərazilərin bərpası və yenidən qurulması üzrə dövlət proqramları

Ölkə başçısı cənab İlham Əliyevin 2303 nömrəli, 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli

gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır [2].

Qərargah işğaldan azad edilmiş ərazilərdə beynəlxalq standartlara uyğun nəqliyyat və rabitə infrastrukturunun qurulması, müasir çağırışlarla uzlaşan yüksək texnologiyaların tətbiqi, o cümlədən həmin ərazilərdə nəqliyyatın bütün növlərindən rahat və təhlükəsiz istifadə olunması, tranzit nəqliyyat əlaqələrinin bərpası və bu sahədə regional əməkdaşlığın genişləndirilməsi, magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümum istifadəli telekommunikasiya şəbəkəsinə qoşulması, orada yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında telefon, internet, radio-televiziya yayımı, poçt xidmətlərinin göstərilməsi, həmçinin “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının tətbiqi məsələlərinin təmin edilməsi üzərində çalışır.

Məqsəd ölkə başçısı tərəfindən verilən tapşırıqlar əsasında, işğaldan azad edilən ərazilərə kütləvi qayıdış və daimi məskunlaşma tədbirləri çərçivəsində görüləcək quruculuq, bərpa işləri və ərazilərin dayanıqlı inkişafı üçün əsas istiqamətləri müəyyənləşdirmək, gələcək tələbat və perspektivlər, yeni çağırışlar və konsepsiyalar nəzərə alınmaqla vəzifələri icra etməkdir.

Bu məqsədlə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı”nın layihəsi tərtib edilmişdir. Proqramın əsas məqsədi: bölgədə iqtisadi, sosial və ekoloji ünsürlərin harmonik inkişafını sürətləndirəcək ərazilərin davamlı və tarazlı tərəqqisinin təmin olunması, dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, iqtisadi cəhətdən layiqli yaşayış şəraitinin yaradılması ilə konflikt sonrası reabilitasiyanın mühüm hissəsi olan əhalinin repatriasiyası, dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl sektorun investisiyaları cəlb edilməsi, habelə dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə olunması, ərazilərin bərpası prosesinin yerli istehsala tələb yaratması və iqtisadi artımı stimullaşdırılması, işğaldan azad edilmiş ərazilərin təhlükəsizlik məsələləri, infrastruktur təminatı və iqtisadi potensialı nəzərə alınmaqla yenidən qurulması və bərpası, yüksək standartlara cavab verən sosial rifahın əldə edilməsi, təbii resursların effektiv istifadəsi, ətraf mühitin etibarlı mühafizəsinə əsaslanan ekoloji təhlükəsizlik sisteminin formalaşdırılması üçün əlverişli mühitin yaradılması təşkil edir.

Dövlət proqramının 2021-2025-ci illər üzrə Tədbirlər planında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə üzrə aidiyyəti qurumlarla birlikdə görülməsi nəzərdə tutulan tədbirlər aşağıdakı kimi təsnifləşdirilir:

- Əhalinin enerji təminatında alternativ və bərpa olunan enerji mənbələrindən (günəş enerjisi, külək enerjisi, geotermal enerji, bioenerji, biokütlə və s.) istifadə perspektivlərinin öyrənilməsi və qiymətləndirilməsi üzrə təkliflərin hazırlanması;

- Mövcud hidroenerji infrastrukturun bərpası və ya yenidən qurulması məqsədilə hidroenerji potensialın qiymətləndirilməsi üzrə təkliflərin verilməsi;

- İşğaldan azad edilmiş ərazilər üzrə elektrik enerjisinin istehsalı üçün günəş və külək elektrik stansiyalarının tikintisi;

- İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin mövcud potensialının ölçülməsi və ərazilərin enerji xəritələrinin tərtib edilməsi.

Dövlət Proqramı çərçivəsində yerinə yetiriləcək vəzifələrdən biri də “yaşıl enerji zonası” və “ağıllı” konsepsiyası əsasında yeni müasir şəhərlərin qurulmasıdır. Bu məqsədlə aidiyyəti qurumlarla birlikdə görülməsi nəzərdə tutulan tədbirlər aşağıdakı kimi təsnifləşdirilir:

- Müasir texnologiyalara əsaslanan infrastruktur sisteminə malik “Ağıllı kənd” layihələrinin hazırlanması və tikinti üzrə tədbirlərin görülməsi;

- “Yaşıl məkan” konsepsiyasının reallaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi və “Ya-

şıl şəhər"lərin yaradılması;

- "Ağıllı şəhər" konsepsiyasının pilot olaraq tətbiqi və innovativ həll üsulları ilə keyfiyyətli xidmətlərin göstərilməsi (12).

Ölkə ərazisində inzibati rayonlara bölünmə ilə yanaşı, iqtisadi rayonlaşdırma da mövcuddur ki, bu da idarəetmənin səmərəliliyinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əvvəllər Azərbaycan Respublikası ərazisi on iqtisadi regiona bölünmüşdü ki, işğaldan azad edilmiş ərazilər bu iqtisadi regionların ikisində təmsil olunurdu. Yuxarı Qarabağ iqtisadi regionuna yeddi inzibati rayon – Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Füzuli və Cəbrayıl rayonları, habelə Xankəndi şəhəri, Kəlbəcər-Laçın iqtisadi regionuna isə dörd inzibati rayon – Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxil idi [8, s.51-52]. Lakin Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 07 iyul 2021-ci il tarixli Fərmanına əsasən, iqtisadi rayonların sayı artırılaraq on dördə çatdırıldı. Yeni bölgüyə əsasən indiyə qədər mövcud olan Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları, o cümlədən Aran iqtisadi rayonundan Ağcabədi və Bərdə inzibati rayonları əsasında Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradıldı. Fərmana əsasən işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Eyni zamanda azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir [1].

Onu da nəzərə almaq lazımdır ki, ölkəmiz regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə dair 2004-2023-cü illəri əhatə edən ümumilikdə dörd Dövlət Proqramının hazırlanması və icrası üzrə böyük təcrübəyə malikdir. Bu mənada, bu Dövlət Proqramlarının tərtibi və tətbiqi zamanı qazanılan uğurlu təcrübə yuxarıda qeyd olunan Dövlət Proqramının təkmil hazırlanmasına və onun tətbiqinə öz töhfəsini verəcəkdir. Bu isə nəticədə azad edilən ərazilərdə mövcud potensialdan səmərəli istifadə olunması, bu ərazilərdə ölkənin digər bölgələrində olduğu kimi innovasiyalara əsaslanan istehsalat və xidmət sahələrinin dəyər zəncirinin bütün həlqələrinin inkişaf etdirərək, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafının təmin edilməsi, yaşıl iqtisadiyyatın inkişafına münbit şəraitin yaradılması, ölkənin qeyri-neft sektorunun inkişafında azad edilmiş ərazilərin rolunun və əhəmiyyətinin artırılması və nəhayət məskunlaşma zamanı əhalinin məşğulluq və gəlir əldə etmə imkanları, sosial şəraitinin yaxşılaşdırılması təmin ediləcəkdir [7, s.10].

Ölkənin ərazi bütövlüyünün təmin edilməsinin mühüm şərtlərindən biri də işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı iqtisadi quruculuq işlərinin aparılması və bu ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlə 29 dekabr 2020-ci il tarixli №233-VIQ nömrəli "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqında" Qanuna əsasən işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.) üçün 2021-ci ilin təsdiq edilmiş dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur [3].

Maliyyə Nazirliyinin 2022-2025-ci illər üçün makrofiskal çərçivə və 2022-ci il üçün icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasına əsasən, 2021-ci ilin birinci yarımilində dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası xərcləri üzrə 372,1 milyon manat vəsait sərf edilmişdir. Bu vəsait avtomobil yollarının layihələndirilməsinə, tikintisinə, yenidən qurulmasına, həmçinin dəmir yolu xəttinin layihələndirilməsi və tikintisinə,

digər kommunikasiya xətlərinin yenidən qurulması və layihələndirilməsinə yönəldilmişdir. Eyni zamanda, Zəngilan rayonunun İkinci Ağalı kənd ərazisində “Ağıllı Kənd”in layihələndirilməsi və tikintisi üçün də Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə 10,8 milyon manat vəsait ayrılmışdır.

Həmçinin 2021-ci il üçün büdcə zərfinə daxil olan «Azərbaycan Respublikasının 2021-ci il və növbəti 3 il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri»ə əsasən “İşğaldan azad edilən ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı konsepsiya” qəbul ediləcəkdir [4].

Konsepsiya çərçivəsində dövlət investisiyaları ilə yanaşı, yerli və xarici investisiyaların cəlb edilməsi ilə işğaldan azad edilən ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlərin həyata keçirilməsi prioritet olacaqdır.

Göstərilənləri nəzərə alaraq, ortamüddətli dövrdə ölkəmizdə işğaldan azad edilən ərazilərin bərpası, regionların davamlı və tarazlı inkişafının təmin edilməsi siyasətinin aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- işğaldan azad edilən ərazilərdə kommunal, iqtisadi və sosial infrastrukturun qurulması;

- işğaldan azad edilən inzibati rayon mərkəzlərində və kəndlərdə yaşayış binalarının və evlərin tikintisi və əhalinin məskunlaşmasının təmin edilməsi;

- həmin ərazilərdə istehsal, xidmət və ticarət sahələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi və s.

Həmçinin Prezident İlham Əliyev 04 yanvar 2021-ci il tarixdə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artımının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında 1243 nömrəli Fərman imzalamışdır [6].

Fərmana əsasən Fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Beləliklə, Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada və dövlət-özəl tərəfdaşlığı ilə görüləcək işlər nəticəsində ərazilər tamamilə yenidən qurulacaq, yeni infrastruktur sahələri yaradılacaq, müasir dövrün tələblərinə cavab verə biləcək şəkildə yaşıl kənd, qəsəbə və şəhərlər salınacaq, qaçqın və məcburi köçkünlər öz tarixi torpaqlarına qayıdacaq, bölgədə rahat və təhlükəsizlik həyat təmin ediləcəkdir. Dirçəliş prosesində yeni iş yerləri açılaraq məşğulluq təmin ediləcəkdir. Bütün bunlar ümumilikdə ölkənin sürətli inkişafına nail olunmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

**Nəticə**

Ümumi yanaşdıqda, işğaldan azad edilən ərazilərin bərpası, eyni zamanda regionun sosial-iqtisadi vəziyyətinin dirçəldilməsi üçün ölkənin iqtisadi potensialı yüksəkdir. Həmçinin bu məqsədlərə müəyyən edilmiş müddət ərzində çatmaq üçün qətiyyətli siyasi iradə də mövcuddur.

Lakin onu da nəzərə almaq lazımdır ki, hazırda dünyada post-konflikt dövr üçün ərazilərin bərpası sahəsində ölkələr və müxtəlif beynəlxalq nüfuzlu təşkilatlar səviyyəsində yetərincə böyük təcrübə vardır. Bu məqsədlə onlarla uğurlu əməkdaşlığın qurulması, onların prosesə fəal surətdə cəlb olunması qəbul edilmiş icrası vacib olan dövlət proqramlarının qısa zaman ərzində həyata keçirilməsi baxımından faydalı olardı.

Həmçinin beynəlxalq səviyyədə tanınan yüksək ixtisaslı xarici ekspertləri bu sahəyə cəlb etmək, onların bu sahə üzrə nəzəri və praktik biliklərindən faydalanmaqla fikir və tövsiyələrinin həyata keçirilməsi olduqca önəmlidir.

İşğaldan azad edilmiş ərazilərdə müasir çağırışlara cavab verə biləcək zəruri infrasturuktur sahələrinin yaradılması, oraya yenidən həyatın qayıtması nəinki ölkəmiz üçün, həm də region ölkələri, ümumilikdə dünya birliyi üçün son dərəcə mühüm rol oynayacaqdır.

Gələcəkdə isə işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialını və perspektiv inkişaf istiqamətlərini müəyyən edən daha geniş elmi-praktiki araşdırmaların aparılmasına ehtiyac duyulur.

**İstinadlar**


1. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli Fərmanı. “Respublika” qəzeti, №140 (7036), 08 iyul 2021-ci il, s.1
2. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması” haqqında Azərbaycan Respublikası Prezidentinin 2303 saylı, 24 noyabr 2020-ci il tarixli Sərəncamı. Azərbaycan qəzeti. №246(8562), 25 noyabr 2020-ci il, s.7
3. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqında” Qanun, 29 dekabr 2020-ci il tarixli №233-VIQ nömrəli, “Azərbaycan” qəzeti, №1 (8594), 06 yanvar 2021-ci il, s.6
4. “Azərbaycan Respublikasının 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2021-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24 sentyabr 2020-ci il tarixli № 355 nömrəli Qərarı, “Xalq” qəzeti, №199 (29464), 30 sentyabr 2020-ci il, s.7
5. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli, №2469 nömrəli Sərəncamı. Azərbaycan qəzeti №24 (8617), 03 fevral 2021-ci il. s.1
6. “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 04 yanvar 2021-ci il tarixli, 1243 saylı Fərmanı. “Azərbaycan” qəzeti, №1 (8594), 06 yanvar 2021-ci il, s.6
7. Məmmədov M.A. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin iqtisadiyyatının yenidən qurulmasının inkişaf perspektivləri. “Tikintinin iqtisadiyyatı və menecment” elmi-praktiki jurnal, №3, Bakı 2020
8. Müzəffərli N, İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı 2010.
9. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. “Xalq” qəzeti, №035 (29577), 16 fevral 2021-ci il, s.1
10. https://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-edilmis-erazilerde-berpa-olunan-enerji-uzre-deqiq-potensialin-hesablanmasi-sahesinde-gorulecek-isler-muzakire-edilib-AzərbaycanRespublikası Energetika Nazirliyi: İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji üzrə dəqiq potensialın hesablanması sahəsində görüləcək işlər müzakirə edilib.
11. https://minenergy.gov.az/az/xeberler-arxivi/dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali - Dağlıq Qarabağ və ətraf regionların enerji potensialı. Azərbaycan Respubliikası Energetika Nazirliyinin rəsmi internet ünvanı
12. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı”

**MƏMMƏDOV Məhəbbət**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, i.e.d., professor,

**MƏMMƏDOVA Fidan**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, i.f.d., dosent,

**HƏSƏNOVA Türkan**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant

# MİLLİ PRİORİTETLƏR İŞĞALDAN AZAD EDİLMİŞ REGIONUN İQTİSADİ İNKİŞAFININ ƏSASIDIR

**Xülasə:** Məqalədə post-konflikt dövründə işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı tədqiq edilmiş, ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dəyərləndirilmiş, milli prioritetlərin və bərpa modelinin formalaşdırılması prosesi nəzərdən keçirilmişdir. Eyni zamanda, dövlət-özəl sektorlarının, fərdi sahibkarların birgə fəaliyyət mexanizminin yaradılması və onların roluna ətraflı baxılmışdır. Bunlar ilə yanaşı ölkədə son illərdə iqtisadiyyatın sahələrində aparılan inkişaf xarakterli islahatlar nəticəsində dinamik inkişaf konkret göstəricilər əsasında araşdırılmış və ölkənin ümumi iqtisadiyyatının tərkibində Qarabağ iqtisadi rayonunun və Şərqi Zəngəzur iqtisadi rayonunun inkişaf imkanları və prioritetləri məqalədə ətraflı şərh edilmişdir. Eyni zamanda post-konflikt ölkələrin ərazilərinin bərpası strategiyasının hazırlanmasının Beynəlxalq təcrübələri nəzərə alınmaqla, ölkədə milli prioritetlərə əsaslanan rəqəmsal transformasiya modelinin əhəmiyyəti şərh edilmişdir.
Məqalənin məqsədi - dövlət idarəçilik sistemində müasir idarəetmə metodlarını və həmin yanaşmalarda Sİ-nin yaratdığı imkanları göstərməkdir. Praktiki tətbiq nöqteyi-nəzərindən Sİ-nin bu günə imkanları və gələcək potensialı dəyərləndirilir, nümunələr gətirilir, müasir Sİ həllərin izaholunan nəticələrlə dəstəklənməsi və avtomatlaşdırılması, real vaxt rejimində istifadəsi üçün tövsiyələr verilir.

**Açar sözlər:** milli prioritet , rəqəmsallaşma, model, işğaldan azad, bərpa, infrastruktur, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu, strategiya, proqram.

→

## Giriş

Azərbaycanda müstəqillik illərində formalaşan iqtisadi inkişaf modelinin əsas prioritetləri iqtisadiyyatın bütün sahələrində dayanıqlı inkişafı və dünya iqtisadi sistemə səmərəli inteqrasiyanı təmin etməklə ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi nəticəsində ərazi bütövlüyünün bərpası istiqamətlərdir. Bu strateji inkişaf mərhələsində rəqabətli iqtisadiyyatın formalaşması, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir inno-

vasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmini və "yaşıl artım" ölkəsinin formalaşdırılması "Milli Prioritetlər - 2030"-da əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir [1].

Bunlar ölkənin işğaldan azad olunmuş Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi regionların infrastrukturun bərpası və inkişaf etdirməsi, bu ərazilərə investisiya qoyuluşlarının və digər mənbələrdən sərmayələrin cəlb edilməsini, dövlət-özəl iqtisadi əməkdaşlıq mexanizminin formalaşdırılmasını və bu mexanizmdə tədbirlərin zamana və həyata keçirilmə ardıcıllığı ilə aparılma prioritetlərinin müəyyənləşdirilməsini vacib edir. Yəni qeyd olunanlar post-konflikt dövründə iqtisadiyyatın sahələrinin prioritetliyini dəyərləndirmək imkanlarını və buna müvafiq mərhələli həll edilməsini müəyyən edir. Vurğulamaq lazımdır ki, dünyanın bir sıra ölkələrində işğaldan azad olunmuş ərazilərin bərpa prosesi təcrübəsinin araşdırılması göstərir ki, ilkin mərhələdə sahələr üzrə zərərlərin dəyərləndirilməsindən sonra bu ərazilərdə minimum yaşayış səviyyəsinin və bununla əlaqədar müvafiq infrastrukturların yaradılması ilkin prioritet məsələdir. Bu prioritetlərdə ərazilərin minalardan, digər zərərli partlayıcılardan təmizlənməsi, içməli su və elektrik enerji təminatı infrastrukturu, sahələrin irriqasiya sistemlərinin bərpası və yenidən qurulması, yol infrastrukturunun bərpası, humanitar və həyat üçün zəruri olan yüklərin daşınmasını təmin edən hava limanlarının bərpası kimi ilkin tədbirlər ərazilərin sonrakı sosial-iqtisadi inkişafının həyata keçirilməsində xüsusi rola malikdir.

Belə ki, dünyada post konflikt dövrdə ərazilərin bərpası və infrastrukturların yenidən qurulması təcrübələrinin tədqiqi göstərir ki, bu istiqamətlərdə aparılan tədqiqatlarda və dəyərləndirmələrdə dövlətin müvafiq strukturları ilə yanaşı beynəlxalq təşkilatların, özəl sektorların, qeyri-hökumət təşkilatlarının, ayrı-ayrı sahibkarların fəal iştirakı məqsədə müvafiq hesab edilir və tələb olunan hallarda bu istiqamətlərdən istifadə olunur.

**Azərbaycanda qəbul edilmiş prioritetlər və onların işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatının bərpasına təsiri**

Ölkə iqtisadiyyatının sahələrində həyata keçirilən sosial-iqtisadi layihələrin araşdırılması göstərir ki, yuxarıda qeyd olunan təşkilatlar bu layihələrin hazırlanması və yerinə yetirilməsi proseslərində tələb olunan hallarda iştirak edirlər. Eyni zamanda qeyd olunanlar ölkə prezidenti İ.Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanına müvafiq iqtisadi rayonların yeni bölgüsünə daxil olan, o cümlədən Qarabağ iqtisadi rayonuna daxil olan Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarında həyata keçiriləcək tədbirlərin prioritetliyinin müəyyən edilib dəyərləndirilməsi prosesində, bu ərazilərdə post-konflikt dövründə iqtisadiyyatın sahələrinin inkişaf səviyyəsinin araşdırılması, qiymətləndirilməsi və müvafiq təkliflərin hazırlanması post konflikt dövründə regionun inkişafının təmin edilməsi istiqamətində həyata keçiriləcək prioritet məsələlərdəndir. Ölkəmizdə Dövlət Proqramları, İnkişaf Konsepsiyaları, Strateji Planlar çərçivəsində iqtisadiyyatın sahələrində islahat, islahat-inkişaf xarakterli tədbirlərin həyata keçirilməsi və bunların nəticəsində iqtisadiyyatın dayanıqlığının təmini, əsas iqtisadi göstəricilərin inkişaf səviyyəsi, alınmış nəticələr yuxarıda qeyd olunan təşkilatların işğaldan azad olunmuş ərazilərin bərpa prosesində iştiraklarının təmin edilməsində stimullaşdırıcı amillərdən olub və regionun inkişafında xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, post konflikt dövrdə bu regionda strateji sahələrin inkişafına yönəldilmiş proqram, layihə və inkişaf konsepsiyaları çərçivəsində tədbirlərin həyata keçirilməsini təmin edən müəssisə və şirkətlərin Strateji İnkişaf Planlarının hazırlanması və onun həyata keçirilmə mexanizminin işlənilməsi vacib və məqsədə müvafiqdir. Qeyd olunan bu təkliflər regionun iqtisadiyyatının bütün sahələrində fəaliyyəti bərpa olunan müəssisələrin, yeni istehsal və xidmət müəssisə və təşkilatlarının yaradılmasını, regionun iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasının təminində mühüm rolu ola bilər.

Eyni zamanda nəzərə almaq lazımdır ki, Azərbaycanda hazırlanmış proqram və layihələr çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində ölkədə iqtisadi artım müşahidə olunsa da, COVİD-19-un dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərməsi ölkənin iqtisadiyyatından da kənarda qalmamış və ona öz təsirini göstərmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq Tədbirlər Planında iş yerlərinin və sosial vəziyyətin dayanıqlığının təmini, işgüzar fəallığın qorunmasına vergi stimullarının verilməsi, güzəştli şərtlərlə

kredit resurslarına çıxışının təmin edilməsi kimi zəruri istiqamətlər nəzərdə tutulmuş və hal-hazırda bu prioritetlərin həyata keçirilməsi istiqamətində müvafiq işlər aparılır .

Qeyd olunan prioritet istiqamətlər və digər həyata keçirilən məqsədyönlü kompleks tədbirlər pandemiyanın sahibkarlığın inkişafına və əhalinin həyat səviyyəsinə təsirinin azaldılmasına, ölkə iqtisadiyyatının sürətlə aşağı düşməsinin qarşısının alınmasına şərait yaratmışdır. Bunun nəticəsi olaraq ÜDM 2020-ci ildə 2019-cu ilə nisbətən 4,3% azalmışdır. İqtisadi göstəricilərin təhlili göstərir ki, qeyri-neft sektorunda ÜDM 2020-ci il ərzində 2019-cu ilə nisbətən real ifadədə 2,6% azalmışdır. Ancaq, həmin dövr ərzində qeyri-neft sənayesi 12,2%, informasiya və rabitə sahəsi 0,6%, kənd təsərrüfatı 1,9% və nəqliyyat və anbar təsərrüfatının 4,6% artması təmin edilmişdir.

Ölkə prezidenti İlham Əliyevin "2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın icrasının 2020-ci ilin yekunlarına həsr edilmiş konfransda ölkə başçısı xüsusi olaraq qeyd etmişdir ki, Azərbaycan digər ölkələrə nisbətən pandemiya dövründə iqtisadiyyatın bütün sahələrində ili daha az itkilər ilə başa vurmuşdur. Belə ki, ölkə iqtisadiyyatı təqribən 4%-dən bir qədər çox artıb, ancaq iqtisadiyyatın şaxələndirilməsi hesabına qeyri-neft sektorunun 11%-dən çox artması müşahidə olunmuşdur. İşğaldan azad olunmuş torpaqların bərpası və inkişafı konsepsiyasına müvafiq dövlət tərəfindən həyata keçiriləcək tədbirlər bu regionun iqtisadi potensialına, əsasən də qeyri-neft sektorunun inkişafına yerli və xarici investisiyaların cəlb edilməsinə əlverişli şərait yaradacaqdır. Post-konflikt ərazilərin bərpası, infrastrukturların yenidən qurulması və inkişafının təmininin dörd mərhələdə aparılması, yəni, ilk mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur işləri, növbəti mərhələdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələlərinin həll edilməsi prioritet istiqamətlər kimi nəzərdə tutulmuşdur. 2021-ci ilin makroiqtisadi göstəricilərinin planlaşdırılmasında işğaldan azad olunmuş ərazilərdə bərpa quruculuq işlərinin qeyri-neft sektorunun və ümumiyyətlə, ölkə iqtisadiyyatının fəal artım drayverlərinin biri rolunu oynaması burada aparılan işlərin xüsusi əhəmiyyətini göstərir .

Ölkə regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında 2020-ci ildə nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin araşdırılması göstərir ki, bundan əvvəlki digər üç dövlət proqramlarında olduğu kimi dördüncü proqramda da bu ildə nəzərdə tutulan tədbirlərin bütün sahələr üzrə ardıcıl və uğurla həyata keçirilməsi təmin edilmiş və ölkənin iqtisadi regionlarının sosial-iqtisadi inkişaf potensialının yüksəldilməsi, bölgələrdə iqtisadiyyatın sahələrinin infrastrukturlarının yenidən qurulması və müasir standartların tələbləri səviyyələrində yüksəldilməsi təmin edilmiş və bu tədbirlərin həyata keçirilməsi əhalinin maddi, mənəvi, təhsil, sosial rifahının yüksəldilməsinə və müasir dövrün ən vacib və həlli tələb olunan ekoloji təhlükəsizliyinin bu dövrlər ərzində gücləndirilməsinə əlverişli şərait yaratmışdır. Nəzərə almaq lazımdır ki, bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi qeyd olunan dövr ərzində daimi ölkədə yeni sosial layihələrin icrasını təmin etmiş, həmçinin yeni müəssisələrin və iş yerlərinin yaradılması zəruri prioritetlər olmuşdur. Belə ki, bu ildə Bakı şəhəri ilə yanaşı Abşeron, Ağcabədi, Kürdəmir, Goranboy, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Samux, Tərtər, Şamaxı, Qobustan, İsmayıllı, Balakən, Şəki, Qəbələ rayonlarında, həmçinin Mingəçevir, Gəncə, Sumqayıt şəhərlərində 100-dən artıq istehsal müəssisələri, yol infrastruktur layihələri, elektrik və su təchizatı layihələri həyata keçirilmiş, səhiyyə və təhsil müəssisələri istifadəyə verilmişdir. Ölkənin rayon və şəhərlərinin sosial-iqtisadi inkişafı ilə əlaqədar layihələrin icrasını təmin etmək məqsədi ilə dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu və eyni zamanda prezidentin ehtiyat fondundan ümumilikdə 740,7 milyon manat vəsait ayrılmış və COVİD-19-un mənfi təsirləri fonunda yaranmış vəziyyətin aradan qaldırılması istiqamətində ölkədə çevik iqtisadi siyasət tədbirləri müəyyənləşdirilərək icrası təmin edilmişdir. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik təmin edilmiş, ölkə iqtisadiyyatının dayanaqlığı və inkişaf dinamikası saxlanılmış, qeyri-neft sənayesində 12,5% artıma nail olunmuşdur. Xüsusi olaraq nəzərə almaq lazımdır ki, pandemiya dövründə regionların sosial iqtisadi inkişafı üzrə 2019-2023-cü illər üzrə Dövlət Proqramı çərçivəsində milli prioritetlərin tərkibi olan regionların sənayeləşmə siyasəti davam etdirilmiş və işğaldan azad olunan ərazilərdə bu sahədə ilkin işlər həyata keçirilməyə başlanılmışdır . Belə ki, 2020-ci ilin əvvəlinə Sumqayıt Kimya Sənaye müəssisələrinin sayı 24-ə çatdırılmış, Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-də sahə istiqamətində iki müəssisə fəaliyyətini davam etdirir. Həmçinin 2021-ci ilin əvvəlinə Neftçala Sənaye Məhəlləsində isə 6 layihənin və digər sahələrdə də müvafiq tədbirlərin icrası davam etdirilmişdir.

2019-2023-cü illəri əhatə edən dördüncü Dövlət Proqramının hesabatının təhlili göstərir ki, regionlarda digər prioritet istiqamətlər ilə yanaşı bölgələrin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi məqsədi ilə 2020-ci ildə 6 elektrik stansiyası əsaslı təmir edilmiş, 2302 kilometr yeni elektrik xətləri çəkilmiş və 2635 kilometr elektrik xətləri əsaslı təmir edilmiş və qaz təchizatını yaxşılaşdırmaq, təhlükəsiz və fasiləsiz qazla təmin etmək üçün 2020-ci ildə ölkə üzrə bu məqsədlə 1394,3 kilometr qaz xətti çəkilmiş və 605 kilometr qaz xətti əsaslı təmir olunmuş, o cümlədən regionlarda 1119,8 kilometr qaz xətti çəkilmiş ,605 kilometr qaz xətti əsaslı təmir olunmuşdur. Bu ildə 562440 ədəd qaz sayğacı quraşdırılmış və yaxud yenisi ilə əvəz edilmişdir. Təhlilin aparıldığı 2020-ci ildə yol infrastrukturunu təkmilləşdirmək məqsədi ilə 1385,3 kilometr, o cümlədən regionlarda 1035,2 kilometr ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 7,56 kilometr, o cümlədən regionlarda 5,73 kilometr dəmir yolu çəkilmiş və yaxud təmir edilmişdir [2].

Ümumiyyətlə, 2020-ci ildə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı“ndakı tədbirlərin icrası təmin edilmiş, bu işlərin davam etdirilməsi ilə yanaşı işğaldan azad olunmuş ərazilərin bərpası, sahələr üzrə infrastrukturların yenidən qurulması, iqtisadi fəallığın təmin edilməsi prioritetləri üzrə genişmiqyaslı tədbirlərin və müvafiq işlərin aparılması zəruri istiqamətlər kimi daim nəzərdə tutulmuşdur.

Ölkə regionlarının iqtisadiyyatının sahələrində qazanılmış inkişaf, iqtisadiyyatın inkişafının dayanıqlığının təmin edilməsi Dünya Bankı ilə yanaşı Beynəlxalq Maliyyə Korporasiyalarını, İslam inkişaf Bankını və digər iqtisadiyyat və maliyyə təşkilatlarını işğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə potensialının müəyyənləşdirilməsi, dəyərləndirilməsi prosesində, işğaldan azad olunan ərazilərin bərpa edilməsində iştirakının cəlbediciliyini stimullaşdırır və onların iqtisadi maraqlarını artırır. Yəni, son illərdə həyata keçirilən inkişaf xarakterli islahatlar Azərbaycan iqtisadiyyatının dinamik inkişafını təmin edir və bunun nəticəsində ölkədə formalaşmış iqtisadi potensial işğaldan azad olunmuş ərazilərdə mərhələlərlə prioritet istiqamətlər üzrə Beynəlxalq maliyyə təşkilatlarını cəlb etməklə Qarabağ iqtisadi rayonunun (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonunun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, və Zəngilan) təbii və iqtisadi potensiallarından istifadə etməklə bu regionda müasir istehsal və xidmət müəssisələrinin yaradılmasını və rəqabət qabiliyyətli ixrac məhsullarının istehsal edilməsini mümkün edəcəkdir [3].

Beləliklə, yuxarıdakı təhlilə və işğaldan azad olunmuş ərazilərin bərpası, bu ərazilərin iqtisadiyyatının sahələrinin yenidən qurulması və modernləşdirilməsi üzrə apardığımız araşdırmaların nəticələrinə, post-konflikt ölkələrdə makroiqtisadi sabitliyi təmin etmək məqsədi ilə yeni iqtisadi strategiyanın formalaşdırılması və onun həyata keçirilməsi təcrübəsinə əsasən belə bir nəticəyə gəlmək olar ki, bu strategiyada ilk növbədə, iqtisadi islahatların mərhələlərlə ardıcıl aparılması, özəl investisiyaların ərazilərin bərpasına yönəldilməsi əsas prioritet olmalıdır. Bunlar ilə yanaşı məşğulluğun təmini və artırılması əsas istiqamətlərdən olmalı, ev təsərrüfatı üçün müxtəlif çeşidli və növlü xidmətlərin bərpa olunması mütəmadi təkmilləşdirilməli, beynəlxalq maliyyə və digər təşkilatların ərazilərin bərpası üçün göstərdikləri yardım və qrantların istifadə edilməsinin idarə olunmasında səmərəliliyi təmin edən strategiya formalaşdırılarkən orada nəzərdə tutulan tədbirlərin icrasını təmin edən struktur və onun fəaliyyətini tənzimləyən mexanizm yaradılmalıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu istiqamətdə dövlət səviyyəsində ilkin tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Belə ki, yuxarıda qeyd olunanların həyata keçirilməsini və eyni zamanda bərpa prosesində könüllülük və bərabər hüquqluluq prinsipi əsasında iştirak etmək istəyən vətəndaşlar üçün Ölkə Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı ilə “Qarabağ Dirçəliş Fondu” publik şəxs yaradılmışdır. Qarabağ Dirçəliş Fondunun yaradılmasında əsas məqsəd işğaldan azad olmuş ərazilərdə dayanaqlı məskunlaşma məqsədi ilə müasir əlverişli yaşayışın təmini, bütün sahələrdə bərpa, quruculuq və abadlıq işlərinin həyata keçirilməsi, bununla yanaşı təhlükəsizlik, səmərəli fəaliyyətin və əhalinin rifahının davamlı dəstəklənməsidir. Onu da nəzərə almaq lazımdır ki, bərpa prosesi böyük həcmli maliyyə vəsaitlərinin və resurslarının cəlb edilməsini tələb edən proses olduğu üçün Fond nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədi ilə müxtəlif iqtisadi-maliyyə güclərinin birləşdirilməsini və əlaqələrini təmin edən, bərpa prosesinin şəffaf, səmərəli və sürətli həyata keçirilməsi üçün zəruri və əlverişli şərait yaradır [4].

Eyni zamanda, dövlət-özəl əməkdaşlığının yaradılması Qarabağ regionunun və Şərqi Zəngəzur regionunun dirçəlişi və inkişafında mühüm əhəmiyyətə malik ola bilər. Yəni, müxtəlif layihələrin

icrasına özəl müəssisələr və təşkilatların cəlb edilməsi bərpa proseslərinin tezləşdirilməsində, müasir tələblərə müvafiq infrastruktur layihələrinin yaradılmasında və rəqəmsallaşdırmanın tətbiqi sahənin rəqabət qabiliyyətliyinin artırılmasında mühüm rola malik ola bilər.

Beləliklə, post-konflikt dövründə ərazilərin bərpası və yeni infrastrukturların yaradılmasında Beynəlxalq maliyyə və digər strukturların təcrübələrindən istifadə etməklə yanaşı, dünya trendlərinə müvafiq olaraq prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda elektronlaşma və rəqəmsallaşma strategiyasına müvafiq olaraq iqtisadiyyatın sahələrinin müxtəlif istiqamətlərində uğurla həyata keçirilən rəqəmsal transformasiya modelini də nəzərə almaqla ölkənin milli prioritetlərə əsaslanan bərpa modelinin formalaşdırılması Qarabağ iqtisadi rayonunun və Şərqi Zəngəzur iqtisadi rayonunun iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatının tərkibində mərhələlərlə inkişafını təmin edəcəkdir [5].

**Nəticə**

Aparılan araşdırma nəticəsində qeyd etmək olar ki, ölkədə formalaşmış iqtisadi potensial ilə yanaşı beynəlxalq maliyyə təşkilatlarını cəlb etməklə Qarabağ iqtisadi rayonunun və Şərqi Zəngəzur iqtisadi rayonunun təbii potensiallarından istifadə edərək bu regionlarda yeni müasir istehsal və xidmət müəssisələrinin yaradılması ixrac yönümlü rəqabətqabiliyyətli məhsulları təmin edəcəkdir. Bu mərhələdə qeyd olunan regionlarda yeni yaradılan müəssisələrin səmərəliliyini təmin edən inkişaf strategiyalarını hazırlayarkən nəzərdə tutulan tədbirlərin icrasını təmin edən müvafiq strukturlar yaradılmalı və onların fəaliyyətini tənzimləyən mexanizm formalaşdırılmalıdır. İşğaldan azad olunan ərazilərin bərpası və sahələr üzrə yeni infrastrukturun yaradılması prosesində dövlət özəl sektorun birgə fəaliyyətinin təmini qeyd olunan proseslərin səmərəli və sürətli həyata keçirilməsi üçün zəruri və əlverişli mühit yaradır.

**İstinadlar**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair MİLLİ PRİORİTETLƏR. Bakı 2021.
2. Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişafı modeli , monoqrafiya, Elmi redaktor M. Məmmədov, Bakı-2020, 495 səh. AzMİU Nəşriyyat – Poliqrafiya Mərkəzi.
3. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının 2020-ci il hesabatı. İqtisadiyyat Nazirliyi, Bakı , 2020.
4. M.A. Məmmədov, F.Ə. Məmmədova – “Qarabağ regionunun post-konflikt dövründə inkişafının idarəetmə mexanizmi” – “Qarabağ regionunun iqtisadi və sosial inkişaf proqnozları” adlı Respublika elmi- praktiki konfrans, Bakı 2021.
5. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Qarabağın iqtisadi inkişafı mövzusunda materialları. Bakı 2020.

**MƏMMƏDOV Yaşar**

AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.f.d. dosent,

# QARABAĞIN TƏBİİ RESURSLARINA DƏYMİŞ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ EKOLOJİ AUDİTDƏN İSTİFADƏ İMKANLARI

**Xülasə:** Müasir dövrdə yaranan ekoloji vəziyyət ciddi narahatlıqlar doğurmaqdadır. Xüsusilə ekoloji mühitin çirklənməsi, təbii balansın getdikcə pozulması, baş verməkdə olan hərbi konfliktlər bu sahədəki vəziyyəti daha da gərginləşdirməkdədir. Azərbaycan Respublikasının Ermənistan tərəfindən məcburi cəlb olunduğu hərbi konflikt nəticəsində ölkəmizə ciddi iqtisadi və ekoloji zərərlər dəymişdir. Azərbaycan ordusunun şanlı qələbə zəfəri torpaqlarımızın azad olunması ilə nəticələnmişdir. Ölkəmizə dəyən maddi və ekoloji zərərin tam qiymətləndirilməsi və onun geri alınması məqsədilə ölkə başçısı tərəfindən əsaslı tədbirlər həyata keçirilməkdədir. Belə tədbirlərə dəstək məqsədilə ekoloji auditin imkanlarından tam genişliyi ilə istifadə edilməsi məqsədəuyğun hesab olunar. Məqalədə ölkəmizin işğal olunmuş ərazilərinə, o cümlədən Qarabağ bölgəsinə dəymiş ekoloji zərərin miqyası göstərilir. Yaranmış ekoloji problemin həlli baxımından ekoloji auditin istifadə zərurətləri irəli sürülür. Ölkədə mövcud vəziyyət və təbii zərərlərlə bağlı ekoloji auditin həyata keçirilməsi üzrə təkliflər verilir.

**Açar sözlər:** ekoloji terror, təbii resursların mühafizəsi, münaqişə əraziləri, ekoloji audit

→

## Giriş

Müasir dünyada qlobal inkişaf və onun fəsadlarının artdığı bir dövrdə ekoloji auditin imkanlarından istifadəyə ehtiyac artmaqdadır. Xüsusilə, ekologiyaya vurulan zərərin qiymətləndirilməsi və bu zərərdən əmələ gələn riskin müəyyən olunması məsələləri həm təbiət istifadəçilərinin özləri, həm də nəzarət aparan dövlət institutları, özəl və ictimai təşkilatlar qarşısında durur. Ekoloji problemlər münaqişə zonalarında da öz ciddiliyi ilə diqqəti cəlb etməkdədir. Belə ciddi problemi müasir təcrübədə Ermənistan dövləti yaratmışdır. Belə ki, Ermənistanın 1988-ci ildə Azərbaycana qarşı ərazi iddialarının həyata keçirilməsinə başladığı müharibə nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal olunmuşdu. Təcrübə göstərir ki, zəruri qulluq və qayğı olmadıqda, ekosistem dağılmağa başlayır, onun təbii balansı pozulur. Flora məhsuldarlığı azalır və tədricən yox olur və fauna növləri daha yaxşı təbii yaşayış mühiti olan digər sahələrə miqrasiya edir.

Erməni vandalları bunu dərk edərək, təxminən 30 il ərzində təbiətimizi şüurlu surətdə məhv etmişdir. Uzun müddət işğal olunandan sonra şanlı Azərbaycan ordusu torpaqlarımızı azad edib,

erməni ordusunu cəmi 44 gün ərzində darmadağın etmişdir. Bununla bərabər düşmən işğaldan azad etdiyimiz ərazilərdə xarabalıqlara və ekoloji fəlakətlərə əl atmışdır. Onilliklər ərzində düşmən işğal olunmuş əraziləri yalnız Azərbaycanın deyil, həm də beynəlxalq birliyin nəzarətindən kənarda saxlamağa müvəffəq olmuşdur. Dünya birliyinin nəzarətindən kənar ərazilərdə ermənilər beynəlxalq konvensiyalara zidd, o cümlədən təbii ehtiyatların talan edilməsi, su resurslarının çirklənməsi, flora və faunanın məhv edilməsi, həmin əraziləri cinayətkarların xarabalıqları və sığınacaq yeri kimi qeyri-qanuni fəaliyyətlə məşğul olmuşlar.

İndi Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdən biri bütün zərəri, o cümlədən ərazilərimizdə yerləşdirilmiş təhlükəli tullantıların miqdarını aşkara çıxarmaq və yaranış zərərin dəyərini beynəlxalq miqyasda tanıtmağa nail olmaqdır. Ermənistan tərəfindən vurulmuş ziyanın və kompensasiyanın beynəlxalq məhkəmə vasitəsi ilə ödənilməsi və ərazimizdə basdırılmış zərərli tullantıların məhvinin təmin edilməsi mümkündür. Bunun üçün beynəlxalq ekspertlər yuxarıda qeyd edildiyi kimi, həmin ərazidə işləməli və qiymətləndirmə aparmalıdırlar. Belə bir yanaşma müasir təcrübədə olduğu kimi dəymiş zərərin hazırkı və sonradan törədə biləcəyi fəsadları müəyyən edilmək məsələsini daha da aktuallaşdırır. Bu baxımdan ekoloji auditin ölkəmizə dəymiş ciddi zərərin müəyyən edilib, qiymətləndirilməsində rolu artıq öz vacibliyi ilə çıxış etməkdədir.

**Təhlil və qiymətləndirmə**

Prezident İlham Əliyev 1 dekabr 2020-ci ildə xalqa müraciətində Ermənistan tərəfindən işğal olunmuş ərazilərin vəhşicəsinə istismarı faktlarına xüsusi diqqət çəkmişdir. O, qeyd etmişdir ki, işğal olmuş ərazilərimizdə, o cümlədən də Ağdam rayonunda on minlərlə hektar sahədə buğda əkilmişdir. Ermənistan işğal edilmiş torpaqlarda ildə 90 min ton buğda yığmışdır. Ermənistan tərəfindən buğda istehsalının ümumi həcmi işğal olunmuş bu torpaqlarda becərilənlərlə birlikdə 190 min ton təşkil edirdi. Onlar bu məhsulun yarısını bizim torpaqlarımızda toplayırdılar. Bu, torpaqlarımızın qanunsuz istismarı olmaqla Azərbaycana vurulan böyük iqtisadi zərərlərdən biridir. Həmçinin, işğal olunan ərazilərimizdə böyük üzüm və meyvə bağları olmuşdur ki, hazırda onların çox hissəsi dağıdılmışdır. Belə vəziyyət o cümlədən də Ağdam rayonunda öz ciddiliyi ilə müşahidə olunmaqdadır [1].

Prezident İlham Əliyev 14 fevral 2021-ci ildə Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çərçivəsində Bəsitçay Dövlət Təbiət Qoruğunda olarkən bu fikri söyləmişdir: “Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Bundan sonra Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri və digər çaylar Azərbaycan xalqına xidmət edəcəkdir. İşğal dövründə mənfur düşmən Tərtərçay çayını da bağlayıb, bir neçə rayonumuzda yüz min hektardan artıq torpaq susuz qalıb. Bizə qarşı ekoloji terror törədilmişdir” [2]. Belə terrorun nəticəsində Qarabağ ərazisinin ekoloji balansı ciddi şəkildə pozulmuşdur ki, bu problemin də həlli əsaslı kapital qoyuluşu tələb etməkdədir. Lakin, dəymiş zərərin qiymətləndirilməsi bu sahədəki vəziyyətin tam mənzərəsini daha aydın şəkildə göstərə bilər. Xüsusilə də belə problemin həlli ilk növbədə ekoloji auditin aparılmasını ön plana çəkməkdədir.

İşğal olunmuş ərazilərimizdə uzun illər ərzində aparılan ekoloji terrorun tam mənzərəsi torpaqlarımız tamamilə azad olunandan sonra yaranmışdır. Belə ki, 43000 ha sahəsi olan Azərbaycanın işğaldan azad olunmuş ərazilərində (Bəsitçay Dövlət Təbiət Qoruğu - 107 hektar, Qaragöl Dövlət Təbiət Qoruğu - 240 hektar, Qubadlı dövlət təbiət qoruğu - 20000 hektar, Daşaltı Dövlət Təbiət Qoruğu - 450 hektar, Araz Dövlət Təbiət Yasaqlığı - 2200 hektar və Laçın Dövlət Təbiət Yasaqlığı - 20 000 ha), əsasən də xüsusi mühafizə olunan təbii ərazilərdə 24 növ fauna və 70-dən çox bitki növü mühafizə olunmuşdur ki, onların da əksəriyyəti artıq məhv edilmişdir, artıq onlar “Azərbaycan Respublikasının Qırmızı Kitabı”na daxil edilmişdir [3].

Azərbaycandan keçən çayların əksəriyyəti öz başlanğıcını Ermənistan və Qarabağdan götürür. İşğal olunmuş ərazilərdə mövcud olan və yerləşən su mənbələrinin uzun müddət çirklənməsi qiymətli balıq növlərinin yox olmasına və balıq ehtiyatlarının tükənməsinə gətirib çıxarmışdır. Digər işğal olunmuş ərazilər kimi Ağdam rayonu da Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılmış və talan edilmişdir. İşğal olunmuş ərazilərdə məskunlaşmış Ermənistan, Suriya və Livandan köçürülən ermənilər çox gözəl anlayırdılar ki, onlar bu yerlərdə müvəqqəti-

dirlər, bu baxımdan təbiəti köklü şəkildə məhv ediblər. Azərbaycanın işğal olunmuş ərazilərində 152 sertifikatlaşdırılmış təbiət abidəsi (daş ağacı, armud, palıd, vəhşi püstə və s.) var idi. Belə abidələrin də dördü Ağdamda mövcud olmuşdur [4].

Erməni işğalçıları tərəfindən düşmənlə təmas xəttinin yaxınlığında yerləşən Ağdam rayonun əraziləri də qəsdən yandırılmışdır. Bunun nəticəsində ətrafda alov yayılaraq, bütün bitki örtüyünü yandıraraq ətraf mühitə və canlı təbiətə ciddi ziyan vurmuşdur. Rio-de-Janeyro-nun ətraf mühit və inkişaf haqqında bəyanatına əsasən, müharibələr davam edən ərazidə təbiətə və inkişaf prosesinə dağıdıcı təsir göstərməməlidir [5]. Ona görə də bütün dövlətlər hərbi münaqişələr zamanı ətraf mühitin mühafizəsini və qorunmasını təmin edən beynəlxalq hüquqa hörmətlə yanaşmalıdırlar. Lakin, ermənilərin apardığı dağıdıcı terror siyasəti bu beynəlxalq prinsipləri köklü şəkildə pozmuşdur. 2021-ci il iyulun 6-da Ağdam şəhərində Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün yaradılmış əlaqələndirmə qərargahında fəaliyyət göstərən idarələrarası mərkəzin "enerji təchizatı məsələləri" və "ekoloji məsələlər" üzrə İşçi Qruplarının birgə iclası keçirilmişdir [6]. Bu tədbirdə Ağdam rayonunun da enerji infrastrukturunun bərpası və yenidən qurulması, enerji təchizatı üzrə planlaşdırılan tədbirlər, eləcə də ətraf mühitin mühafizəsi, uzun illər ərzində yaranmış ekoloji problemlərin həlli, resurslardan səmərəli istifadənin təmin edilməsi və ekoloji təmiz texnologiyalardan istifadə məsələləri əsas müzakirə predmeti olmuşdur. Belə tədbirlər bir daha deməyə əsas verir ki, dəymiş ekoloji və digər zərərlərin əsaslı şəkildə qiymətləndirilməsi zəruridir. Belə baxış özlüyündə müasir ekoloji auditin tətbiqinə ciddi olan ehtiyacları artırmaqdadır.

Ağdam şəhərinin dayanıqlı və keyfiyyətli enerji təchizatı ssenariləri, eləcə də bərpa olunan enerji mənbələrindən rayonun enerji təchizatında istifadə məsələləri ətrafında aparılan fikir mübadiləsi ekoloji qiymətləndirmə əsasında daha çox səmərə verə biləcəkdir. Qarabağın relyefinin və iqliminin xüsusiyyətləri nəzərə alınmaqla, o cümlədən Ağdamın da su ehtiyatları, əsas su fondu sayılan çay axınları ilə bağlı vəziyyətin araşdırılması üçün monitorinqlərin keçirilməsinə də ehtiyac vardır. Çünki, işğal zamanı həm digər rayonlarda, həm də Ağdam rayonunda su təsərrüfatı infrastrukturu tamamilə dağıdılmış və bu da ekologiyaya ciddi ziyan vurmuşdur. Belə ziyanın qiymətləndirmə və onun bərpası üzrə hazırlanacaq metodologiya ekoloji auditin nəticələrindən çox asılı olacaqdır.

**Nəticə**

Azərbaycan Respublikasına dəymiş ciddi iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və bu problemlərin həlli ilə bağlı məcburi ekoloji auditin təşkili və keçirilmə prosedurları müəyyən olunmalıdır. Ölkədə auditin bir çox qolları (müstəqil, dövlət və daxili audit) fəaliyyət göstərsə də lakin, ekoloji audit daha fərqli xüsusiyyətləri ilə çıxış edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli qərarı ilə "Ekoloji auditor fəaliyyətinin aparılması qaydaları" adlı hüquqi sənəd mövcud olsa da, lakin o çox yığcam və ümumi müddəaları ehtiva edir. Belə ki, bu sənəddə ekoloji auditin aparılma metodologiyası və qiymətləndirmə mexanizmləri kimi bir çox mühüm müddəalar öz əksini tapmamışdır. Müasir təcrübə deməyə əsas verir ki, müvafiq sənəd işğaldan azad olunmuş ərazilərimizə dəymiş ciddi zərərlərin qiymətləndirilməsinin öhdəsindən kifayət qədər gələ bilməz. Bu baxımdan ekoloji auditin aparılması ilə bağlı zəruri olan bir çox baxışların irəli sürülməsi məqsədəuyğun hesab oluna bilər. Ekoloji auditin dövlət tənzimlənməsi sisteminin yaradılması məqsədəuyğundur. Ekoloji audit bir qayda olaraq ekoloji cəhətdən təhlükəli sahələrdə, ərazilərdə və fəaliyyətlər üzrə həyata keçirilməlidir. Müasir təcrübə və yaranmış vəziyyət nəzərə alınmaqla, ekoloji auditin təyin edilməsində aşağıdakı halların əsas götürülməsi zəruri hesab olunmalıdır:

- Təbii fəlakət və münaqişə ərazilərində dəymiş zərərlərin (məbləğinin) müəyyən edilməsi və bərpa edilməsi.
- Qəzaların, ekoloji terrorun və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə fəaliyyətin qiymətləndirilməsi.
- Ölkənin təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi.
- Məcburi ekoloji audit keçirilərkən aşağıdakı məsələlər üzrə monitorinqlər və qiymətləndirmələrin aparılması vacib hesab olunmalıdır:

- Təbii mühitə dəymiş zərərin qiymətləndirilməsi;
- Təhlükəli amillərin təsir səviyyəsinin qiymətləndirilməsi;
- Əhaliyə təsirin potensial təsirlərinin qiymətləndirilməsi;
- Ətraf mühitin və əhalinin sağlamlığının qorunması tədbirlərinin qiymətləndirilməsi;
- Ətraf mühitə texnogen təsirlərin azaldılmasını təmin etmək üçün strategiyaların və tədbirlərin formalaşdırılması;
- Ətraf mühitin çirklənməsinin azaldılmasının hər sxemi üzrə məsrəflərin balansının və faydanın qiymətləndirilməsi;
- Təbii resursların və mühitin qorunmasının optimal strategiyasının müəyyən olunması.

Ekoloji auditin aparılması üzrə işlər nəticəsində ekoloji audit hesabatı və rəyi tərtib edilməlidir. Belə normativ sənədlərin hazırlanması üçün beynəlxalq təcrübədə istifadə olunan zəruri standartlardan istifadə edilməsi məqsədəuyğundur. Ekoloji audit ilə bağlı hazırlanan hesabat və rəydə aparılan təhlil, qiymətləndirmə və monitorinqlərin nəticəsi əsaslandırılmaqla təqdim olunmalıdır. Müvafiq hesabat sənədlərində əsasən təbiətin mühafizəsinin nəticələri, bu sahədə olan zərər və itkilərin maliyyə dəyəri, ekoloji vəziyyət ilə bağlı dövlətə və beynəlxalq təşkilatlara yönələn təkliflər öz əksini tapmalıdır. Ekoloji audit rəyində hesabatların təsdiq edilməsi və ya təsdiq olunmaması üçün xüsusi şəraitin xarakterini açıqlayan izahatlar verilməsi, təbii resursların dəyərləndirilməsinin düzgünlüyünün əsaslandırılması, ekoloji vəziyyətin mövcud vəziyyətini əks etdirən informasiya məlumatları haqqında da açıqlama təqdim edilməlidir. Məcburi ekoloji auditin müvafiq formada həyata keçirilməsi məqsədəuyğun hesab olunar:

- Ətraf mühitin istifadəsi və mühafizəsi ilə bağlı subyektlərin, tərəflərin və təsərrüfat fəaliyyətinin bütün istiqamətlərinin ətraf mühitə təsirlərinin kompleks yoxlanılması şəklində;
- İxtisaslaşdırılmış ekoloji auditor və ya audit təşkilatının təbii mühitin mühafizəsi və təbiətdən istifadə ilə bağlı subyektlərin, aidiyyəti tərəflərin fəaliyyətinin bütün istiqamətlərinin təbii mühitinin ayrı-ayrı komponentlərinə təsirlərinin yoxlanılması şəklində.
- Məcburi ekoloji auditin həyata keçirilməsi müvafiq məqsədlərin əldə olunmasını təmin etməlidir:
- Ətraf mühitin vəziyyətinin ekoloji auditə məruz qalan subyektin obyektlərinin sanitar-mühafizə zonasının hüdudlarında yoxlanılması və bu zaman ətraf mühitə olan təsirlərin müəyyən edilməsi;
- Ətraf mühitin mühafizəsinin və bu sahədə yaranmış vəziyyətin ölkə və beynəlxalq qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması;
- Ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğun olaraq sənədlərin (layihə, texniki, texnoloji, istismar və s.) yoxlanılması;
- İnvestisiya layihələrinin ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğunluğunun yoxlanılması;
- Təbii, texnogen və münaqişə xarakterli fövqəladə halların baş verməsinin mümkünlüyünün qiymətləndirilməsi;
- Ətraf mühitə dəyən zərərin qiymətləndirilməsi.

## İstinadlar


1. https://president.az/articles/48205.
2. https://president.az/articles/50632.
3. https://meclis.gov.az/news.php?id=3146&lang=az
4. https://www.virtualkarabakh.az/az/post-item/26/46/isgal-olunmus-azerbaycan-erazilerinde-ekoloji-veziyyet.html.
5. https://www.un.org/ru/documents/decl_conv/declarations/riodecl.shtml.
6. https://azertag.az/ru/xeber/V_Agdame_sostoyalos_sovmestnoe_zasedanie_rabochih_grupp_Mezhvedomstvennogo_centra_po_voprosam_energosnabzheniya_i_ekologii-1824915.

MƏMMƏDOV Zahid

UNEC, i.e.d., prof., “Elmi fəaliyyətin təşkili və idarəolunması” departamentinin direktoru, İslam Maliyyə Mərkəzinin direktoru

# AĞDAMDA YENİ İQTİSADİYYAT QURUCULUĞU: AĞDAM FORUMU FAİZSİZ BANKÇILIQ, ƏNƏNƏVİ MODA VƏ HALAL QİDA VƏ “LİBERAL ARTS” MODELİNƏ ƏSASLANAN QARABAĞ UNİVERSİTETİ HAQQINDA MÜLAHİZƏLƏR

**Xülasə:** Təqdim olunan məqalədə - Ağdamda yeni iqtisadiyyat quruculuğu: Ağdam Forumu, faizsiz bankçılıq, ənənəvi moda və halal qida və “Liberal Arts” modelinə əsaslanan Qarabağ Universiteti haqqında elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr irəli sürülür. Ölkə Prezidenti tərəfindən müəyyən edilən iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad olunmuş Qarabağ ərazilərində iqtisadiyyatın həmin modelin əsas prinsiplərinə əsaslanaraq Alternativ maliyyə kanallarının tətbiqi, yeni Qarabağ Universitetin təsisatı məsələsi məqalənin əsas müzakirə mövzudur.

**Açar sözlər:** Qarabağ (Ağdam) İqtisad Forumu, yeni iqtisadiyyat quruculuğu, faizsiz bankçılıq, ənənəvi moda və “Halal” brendi, “Liberal Arts” modeli, Qarabağ Universiteti, alternativ maliyyə modeli.

→

## Giriş

Ölkə Prezidenti tərəfindən müəyyən edilən iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad olunmuş Qarabağ ərazilərində iqtisadiyyatın həmin modelin əsas prinsiplərinə əsaslanaraq Alternativ maliyyə kanallarının tətbiqi, yeni Qarabağ Universitetin təsisatı məsələsi bugünkü tədbirin əsas müzakirə mövzuları ola bilər.

Bu gün islam iqtisadiyyatı Azərbaycan üçün daha aktualdır. Qarabağ regionunda kapitaltutumlu iri meqa layihələrinin təminatı üçün alternativ maliyyə qaynaqlarına ehtiyac vardır. İslam iqtisadiyyatının potensialından nə qədər tez istifadə etsək, sahibkarlarımız bundan bir o qədər tez faydalana bilərlər. Qarabağda açılan bu fürsətlərdən istifadə etmək zamanı gəlmişdir. Qarabağda bölgə sahibkarlarının İslam bazarına girmə imkanlarını genişləndirməklə, kiçik və orta sahibkarlığın inkişafına güclü təkan vermək olar. Qarabağda islam iqtisadiyyatının əsas hərəkətverici qüvvələrinin qida və moda sənayesi olduğuna inanırıq. Fikrimizcə, islami maliyyələşdirmə ilk öncə iki sektorun (qida və moda) inkişafına uyğunlaşır ki, bu da maliyyə məhsullarına tələbi stimullaşdıra bilər.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ali təhsil sistemində radikal transformasiyalar müşahidə olunur. Bunlar, daha çox universitetlərin innovasiyalı inkişafda və iqtisadi artımda həlledici rolu ilə bağlıdır. Məhz bu dəyişiklikləri nəzərdə tutaraq, 44 günlük Vətən müharibəsinin yaratdığı ən mühüm imkanlardan biri kimi regionda modern universitet modelinin bənzərsiz nümunəsi olacaq Qarabağ Universiteti yaşadığımız 4-cü sənaye inqilabının tələblərinə uyğun, Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıran ali təhsil müəssisəsi kimi həyatımıza daxil olacaq.

Bu çərçivədə akademik elmin məhsullarının kommersiyalaşması və bazara çıxarılması məsələləri günün ən ciddi müzakirə mövzularıdır.

**Ağdam İqtisad Forumu Şəhərin tanıtımında əsas amil kimi**

Hər ilin sentyabrın 21-də keçiriləcək Qarabağ (Ağdam) İqtisad Forumu (həm milli, həm də beynəlxalq səviyyədə bütün ölkələr və xalqlar arasında sülh ideallarının gücləndirilməsi günü - Beynəlxalq Sülh günü kimi qeyd olunması nəzərdə tutulur) - dünya üzrə siyasət və iş dünyası nümayəndələrinin iqtisadi rifah, sosial ədalət və həmrəylik mövzusunda müzakirə olunan, regionda ən iri və məşhur tədbir kimi qəbul oluna bilər. Bu tədbirin təşkilatçılarından biri BMT və ya YUNESKO ola bilər.

İqtisad Forumun missiyası – regionda siyasi və iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli bir mühit yaratmaqdır. İqtisad Forumda regionda sülh, sosial ədalət və həmrəylik mövzuları ilə bağlı vacib bəyannamələr qəbul edilə bilər və burada iştirakçılar tərəfindən səslənən fikirlər dünya mediası tərəfindən işıqlandırılar və ekspert dairələrində müzakirə mövzusu ola bilər.

Azərbaycan, Qarabağ-Ağdamda keçirilən bu tədbir RF, TC, İran, Gürcüstan və Avropanın iqtisadi və siyasi elitasının nümayəndələrinin iştirakı ilə keçirilən illik beynəlxalq forum statusu qazana bilər. Konfransın təşəbbüskarı Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə Xüsusi Nümayəndəliyi, təşkilatçısı isə Beynəlxalq Ekspertlər cəmiyyəti ola bilər.

Foruma prezidentlər, baş nazirlər, siyasətçilər, millət vəkilləri, iri şirkətlərin rəhbərləri, ekspertlər, yerli hökumət nümayəndələri, mədəniyyət, nüfuzlu elm və media dünyasının iştirakı nəzərdə tutulur.

**Ağdamda yeni iqtisadiyyat quruculuğunun inkişafında alternativ maliyyə mənbələrindən istifadə**

Bu gün dünyanın 92-dən artıq ölkəsində üç yüzdən çox İslam maliyyə institutu fəaliyyət göstərir və onların aktivləri 3.2 Trl. dollar, illik artım templəri isə 10-15% təşkil edir. Qarabağdakı şirkətlər tərəfindən qoyulacaq investisiyalar üçün islami maliyyələşdirmə alətlərinin seçilməsi ənənəvi maliyyənin yüksək xərclərindən və təzyiqlərindən xilas edəcək və investiyanın inkişafı üçün alternativ maliyyə mənbəyi təmin edəcəkdir.

Bu çərçivədə, Malayziya və Körfəz bölgəsindəki təcrübələri araşdırmaq və Qarabağ üçün uyğun infrastruktur və investisiya modellərini inkişaf etdirmək lazımdır. 40 illik islam Bankçılıq təcrübəsinə sahib Türkiyə ilə bu sahədə iş birliyi ilə iki ölkə arasındakı qardaşlığı da gücləndirəcəkdir. UNEC–də fəaliyyət göstərən İslam maliyyə mərkəzi bu işə töhfə verməyə hazırdır.

İslam iqtisadiyyatına artan marağı qarşılamaq üçün son vaxtlar nüfuzlu konsaltinq şirkətləri və reytinq agentlikləri, tanınmış iqtisadçılar və yüksək səviyyəli siyasətçilər mediada bu mövzuda analitik yazılarla çıxışlar edirlər. Thomson Reuters və Dubay İslam İqtisadiyyatının İnkişaf Mərkəzi birgə “Salaam Gateway” adlı bir qlobal informasiya mərkəzi fəaliyyət göstərir. Bu nəşrdə halal sənayesi, İslami maliyyələşdirmə və İslami həyat tərzində fəaliyyət göstərən şirkətlərin fəaliyyəti haqqında geniş məlumat bazaları yerləşdirilmişdir. Biz, buna bənzər informasiya bazasını UNEC İslam Maliyyə mərkəzində qurmaq niyyətindəyik.

Transmilli şirkətlər - General Electric və Goldman Sachs korporativ sukuk - İslam istiqrazları buraxırlar. Qarabağda fəaliyyət göstərən şirkətlər əlavə maliyyə mənbəyi kimi sukuk istiqrazlarının

tətbiqindən yararlana bilərlər.

Ağdam bərpa iqtisadiyyatının alternativ beynəlxalq maliyyə investisiyalarına həm ehtiyacı var, həm də Qarabağ iqtisadiyyatı bir bazar kimi onlara çox cazibədar ola bilər. Ona görə də İslam maliyyəsinin imkanlarından işğaldan azad olunmuş Qarabağ ərazilərinin bərpasında istifadəsi zəruridir. Biz hesab edirik, bu, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri arasında iqtisadi və maliyyə əlaqələrinin inkişafı üçün dayanıqlı platforma ola bilər. Azərbaycanda islam maliyyə modelinin tətbiqi, zəngin ərəb ölkələrindən, ilk növbədə də Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətərdən, eləcə də digər müsəlman dövlətlərindən, o cümlədən Türkiyədən, hətta İrandan belə investorların cəlb edilməsi mümkün olacaq.

Əməkdaşlıq üçün beynəlxalq İslam təşkilatları (İİB və onun filialları, müxtəlif İslam fondları və özəl tərəfdaşlıqları) və inkişaf etmiş İslam iqtisadi ekosisteminə sahib olan ayrı-ayrı dövlətlər (Səudiyyə Ərəbistanı, Malayziya, BƏƏ və s.) var. Bu strukturlar hüquqi mühitin və fiziki infrastrukturun, İslamın və halal sənayenin tələblərinə uyğunlaşdırılmasına kömək edə bilər. Bu sahədə halal məhsul istehsalçılarını və ixracatçılarını dəstəkləyən və halal sertifikatlaşdırma üçün daxili prosedurları inkişaf etdirə bilən, habelə İslam iqtisadiyyatı və faydaları barədə ictimaiyyəti məlumatlandırmaq üçün daha çox tədbir keçirə bilən əlavə mütəxəssislərin təhsil almasına ehtiyac var. Bu, prinsipial olaraq vacib bir amildir, çünki İslami maliyyələşdirmənin xüsusiyyətləri birbaşa qanunvericilik və icra orqanlarından asılı olan xüsusi bir hüquqi baza tələb edir və maliyyə institutlarının fəaliyyəti ilə bağlı bəzi qanunlarda dəyişikliklərin edilməsini zəruri edir.

Azərbaycanda Alternativ maliyyə mənbələrindən istifadə üçün hüquqi bazaya ehtiyac var: “Mudaraba” mexanizmi, “müşarak” mexanizminə, “sukuk” İslam istiqrazları, İcara mexanizmlərinin tətbiqi günün tələbidir. Qarabağın bərpasında iştirak etmək istəyən İslam maliyyə təşkilatları bu mexanizmlərdən istifadə edə bilmir.

Bundan başqa, Alternativ maliyyə modelinin İnkişafına dair Yol Xəritəsi hazırlana bilər. Bu proqramda qanunvericilik, iqtisadi təhsil, alternativ maliyyə xidmətlərindən istifadənin genişləndirilməsi məsələləri əks oluna bilər. Bu sahələrin inkişafı ilə bağlı UNEC–də fəaliyyət göstərən İslam maliyyə mərkəzi tədqiqatları ilə ciddi töhfə verməyə hazırdır.

**Ağdamda “Halal” brendi qurulan qida müəssisələri və moda industriyasının əhəmiyyətli**

İslam iqtisadiyyatı və “ Halal” sənayenin mövcudluğu və əhəmiyyəti bütün dünyada tanınır. “Halal” brendi Qarabağda qurulan qida müəssisələrinin əhəmiyyətli seqmentlərindən biri ola bilər. Bazar nöqteyi-nəzərindən “halal “ - şirkətlər üçün yeni bir sosial öhdəliklər və sosial məsuliyyət modelidir. Üstəlik, təkcə müsəlmanlar “Halal” işarəsini yeni bir təhlükəsizlik, saflıq və keyfiyyət standartı kimi qəbul etmirlər. Xarici müştərilər daha çox “Halal” uyğunluq işarəsi ilə qeyd olunan bir məhsula etibar edirlər. Özəl və transmilli şirkətlər də bu fürsətdən faydalanırlar. Qarabağda Halal standartların tətbiqi qida şirkətlərinə rəqabət üstünlüyü verər və ixrac imkanlarını artırmaqda yardımçı ola bilər. UNEC Aziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyası Halal standartların tətbiqi çərçivəsində tədqiqatları ilə ciddi töhfə verməyə hazırdır. Halal məhsullarla məşğul olan tanınmış çoxmillətli şirkətlər arasında Nestle (İsveçrə), Baskin-Robbins, Metro, Kraft, Gerber, McDonald›s, KFC, Cargill, Nema Food Company, Midamar (ABŞ), Tesco (UK), Alibaba –Çin, Namet Qida, Banvit-Türkiyə və.s şirkətləri Qarabağ bölgəsində fəaliyyət göstərməyə dəvət edə bilərik.

Çin, İtaliya, Türkiyə və Fransadakı moda sənayesi “islam və konservator” geyim moda çeşidinin genişləndirilməsinə mühüm töhfə verir. Türkiyə, Çin, İtaliya moda tekstil şirkətləri Qarabağ iqtisadiyyatının bərpası layihəsinə cəlb olunması məqsədəuyğun olardı.

Moda sənayesi çərçivəsində “islam və konservator” sahələrin inkişafı ilə bağlı UNEC–də fəaliyyət göstərən Dizayn Məktəbi əməkdaşlığa hər an hazırdır.

**“Liberal Arts” modelinə əsaslanan Qarabağ Universiteti**

Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu cəmiyyətin inkişafının əsas göstəricisi deyil, başlı-

casɪ, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə ali təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər.

Biliklər iqtisadiyyatına əsaslanan indiki inkişaf, xüsusən ali təhsil sistemində elmi potensialın və elmi məhsulların kommersiyalaşdırılmasını nəzərdə tutur. Müasir dövrdə universitetlər qlobal dünya iqtisadiyyatının tərkib hissəsi kimi qlobal bilik xidmətləri bazarında ən mütərəqqi bilik və yaradıcı intellektual sahədə aparıcı oyunçular kimi çıxış edir. Bu kontekstdə bir çox dünya ölkələrinin hökumət nümayəndələri yaxşı başa düşürlər ki, onların qabaqcıl universitetlərinin dünyanın intellektual və elmi inkişafı prosesində avanqard sırada olması vacibdir.

Qarabağ Universiteti yaşadığımız 4-cü sənaye inqilabının tələblərini nəzərə alaraq, Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıracaq ali təhsil müəssisəsi kimi həyatımıza daxil olacaq - Qarabağ Universiteti təsisatı prosesində hansı qlobal trend və çağırışlar nəzərə almalıdır?

Məsələn, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradovun fikrincə, "Qarabağ" Ağdamda qurulacaq yeni universitetin adı olmaqla yanaşı, həm də güclü bir universitet brendi olacaq. Bu brendin özəllikləri kimi "tələbə mərkəzli" universitet, öyrətməyə vida edən və öyrənməyi əsas tutan təhsil modeli, fərdi təhsil trayektoriyası əsasında təhsil verən universitet, təhsilin əsas keyfiyyət amili kimi hər bir təhsilalanın "təhsil izi", XXI əsr vərdiş, bacarıq və kompetensiyaların formalaşmasına zəmanət verən adaptiv təhsil modelini göstərmək olar. Həmçinin, distant təhsilin yaratdığı üstünlükləri maksimal dərəcədə reallaşdıran universitet, dünyada öndə olan universitetlərin və tanınmış peşəkarların potensialından bəhrələnən şəbəkə universiteti, rəqəmsal iqtisadiyyat sahəsində ixtisaslaşan tədris və elm mərkəzi, xətti-funksional idarəetməni proseslərin idarəedilməsilə əvəzləyən universitet, "Smart universitet", Şəhid övladlarının təhsil aldığı universitet ". Kembric Universitetinin professoru Qərib Mürşüdov isə hesab edir ki, - "yeni universitetdə tədqiqata əsaslanan təhsil güclü mütəxəssislərin yetişdirilməsinə imkanlar yaradar. Ümumiyyətlə, tədqiqata əsaslanan təhsil daha çox maliyyə tələb edir. Amma bunu kompüter elmlərində və maşın öyrədilmə istiqamətində daha az maliyyə ilə həyata keçirmək olar. Əgər bu istiqamətdə getmək mümkün olarsa, onda texnologiya sənayesi və təhsilin inkişafı eyni zamanda həyata keçirilə bilər. Bunun üçün strategiya hazırlanmalıdır. Ən yaxşı təhsil tətbiqi görəndə və təcrübə olanda mümkündür. Əvvəl qeyd etdiyim kimi, əsasən gənclərin cəlb edilməsi daha məqsədəuyğun ola bilər. Eyni zamanda, mütəxəssislərin qiymətləndirilməsi də yeni üsullar ilə həyata keçirilsə, bu, daha uzunmüddətli nəticələr verə bilər. Mütəxəssislər verdikləri nəticələrə görə qiymətləndirilməlidir. Bu, o demək ola bilər ki, işçilər əgər nəticə vermirsə, onda onların işdən azad edilməsi mümkün olmalıdır. Bunun üçün qısamüddətli müqavilələr haqda fikirləşmək lazımdır".

Kanadanın Vaterloo Universitetinin professoru İlham Axundova görə - "Təhsilin məqsədini yenidən müəyyənləşdirmək, bu dövrdə cəmiyyətin ehtiyaclarına xidmət etmək, gəncləri müəyyən bir iş istiqamətində hazırlamaq və tərbiyə etmək olmuşdur. Humanitar elmlər və mütəxəssislər hələ də vacib olaraq qalacaq, amma gələcəkdə hər bir işçinin müəyyən texniki bacarıqlara ehtiyac duyacağı şübhəsizdir və biz bu gün bütün tələbələrin yeni texnologiyalardan istifadə edə bilmələrini təmin etməliyik".

Təcrübə göstərir ki, dünya səviyyəli universitetlər insanlıq naminə qlobal problemlərin kompleks həlli istiqamətində töhfələr verirlər və bütün dünyada davamlı inkişafa, bəşəriyyətin inkişafına təkan verirlər. Dünya səviyyəli universitetin yaradılmasına beynəlxalq təcrübədən yanaşdıqda üç əsas strategiya ilə fərqlənir:

1) potensialı mövcud olan bir neçə universitetlərin səviyyəsinin artırılması və onların qabaqcıl təhsil müəssisəsinə çevrilməsi;

2) bir neçə universitetin birləşməsi nəticəsində yeni universitetin yaradılması, dünya səviyyəli universitetə xas olan sinergetik inkişafın (effektin) yaradılması;

3) sıfırdan başlayaraq yeni universitetin yaradılması.

Hesab edirik ki, Qarabağ universiteti dünya səviyyəli universitetlərin strategiyasına uyğun olaraq qurmalıdır. Qarabağ universitetinin təsisatını – "Liberal Arts" modelinə uyğun təmin etməyi təklif edirik. Yəni, humanitar, təbii və dəqiq elmləri elə bir şəkildə birləşdirəcək ki, tələbə özü ehtiyac duyduğu proqramları seçir və yüksək vətəndaşlıq məsulliyyətinə uyğun şəxs hazırlanır.

"Liberal Arts" modeli yumşaq və çevik bacarıqların öyrədilməsindən ibarətdir. Üstəlik tənqidi düşüncə, üstəgəl qərar vermək bacarığı. "Liberal Arts" modeli yeni bilikləri öyrənməklə bərabər, yeni fikirlər, məhsullar və ideyalar qabiliyyətinin formalaşmasıdır. Təhsilin dəyəri bir çox faktı xatırlamaqda deyil, dərsliklərdə olmayanları düşünməyi öyrənməkdədir.

Beləliklə, Qarabağ universiteti kimləri hazırlamalıdır? Cavab budur: yalnız faktları deyil, həm də bir peşədən digərinə sürətlə keçməyə imkan verəcək bacarıqları öyrədən bir elm-tədris mərkəzi olmalıdır.

**Nəticə**

**Bu çərçivədə aparılması təklif edilən işlər:**

- Azərbaycan, Türkiyə və digər İslam ölkələrinin akademik dairələri ilə birlikdə işçi qrupu təsis etmək;

- Qarabağın bərpası və inkişafı kontekstində "Ağdamda iqtisadiyyatının inkişafında Alternativ maliyyə modeli: imkanlar və perspektivlər" mövzusunda seminar təşkil etmək və bir SWOT analizi hazırlamaq;

- Qarabağda həyata keçiriləcək İslami maliyyələşdirmə layihələrinin seçilməsi və həyata keçirilməsi üçün layihələrin hazırlanması;

- İslam maliyyə savadlılığının artırılması üçün şirkət və təşkilatlara təlimlərin verilməsi.

- Qarabağ universiteti dünya səviyyəli universitetlərin strategiyasına uyğun olaraq qurulmalıdır. Qarabağ universitetinin təsisatını – "Liberal Arts" modelinə uyğun təmin etməyi təklif edirik.

**İstinadlar**


1. Mamedov Z. F. Mirzayev Mirza. Reforming university finance: emerging trends, challenges and prospects// 55th International Scientific Conference on Economic and Social Development, Baku, Azerbaijan.: 25 June 2020. Book of Proceedings Vol. 2/4 . P 697-708
2. Mamedov Z. F. University development strategies: commercialization and responses to new challenges// Economic and Social Development (Book of Proceedings), 60th International Scientific Conference on Economic and Social Development - XX International Social Congress (ISC 2020). - Moscow, 20-21 October, 2020. P. 101-108
3. Zahid F. Mamedov, Aliyev Shefa. Modern universities: new challenges, trends, paradigms and expectations// Economic and Social Development (Book of Proceedings), 70 th International Scientific Conference on Economic and Social Development - XX International Social Congress (ISC 2020). - Baku, 25-26 June, 2021. P. 325 – 332.
4. Мамедов З.Ф. Модели исламского банкинга: новые тенденции и вызовы для стран СНГ // Экономика и управление: проблемы, решения. 2017. № 4. С. 125-133.
5. Мамедов З.Ф. Исламская банковская система: новые вызовы, проблемы и перспективы развития // Экономика и Управление. 2018. № 4 (150). С. 4-10.

**MƏMMƏDOVA Güntəkin**
AMEA-nın dissertantı, Prezident mükafatçısı

# AĞDAMDA "İŞĞAL MUZEYİ" VƏ ONUN TURİZM ÜÇÜN ƏHƏMİYYƏTİ

**Xülasə:** Təqdim olunmuş tezisdə Ağdamın inkişafı ilə bağlı fikirlər səsləndirilir. Qeyd edilir ki, Ağdamın işğal dövründə xarabalığa çevrilməsi baş vermişdir. Hətta Ağdam Hiroşima ilə müqayisə edilərək fikirlər əsaslandırılmışdır. 44 günlük zəfərlə başa çatan II Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının birliyini, Azərbaycan ordusunun gücünü və rəşadətini göstərdi.

**Açar sözlər:** Ağdam, Qarabağ, işğal, Hiroşima, ərazilər, müharibə.

## Giriş

Ağdam işğaldan azad edildikdən sonra burada başlayan bərpa işləri, dövlət rəhbərimizin dəfələrlə bu rayonda olması onu deməyə əsas verir ki, yaxın illərdə Ağdam nəinki Azərbaycanın, həm də, dünyanın ən gözəl, görməli yerlərindən birinə çevriləcəkdir. Ancaq bizim qarşımızda duran əsas məsələlərdən biri, bu faciəni unutmamaq, gələcək nəsillərə çatdırmaq, həmçinin dünya ictimaiyyətinin diqqətini erməni vəhşiliyinin ifşa olunmasına yönəltməkdir. Bu baxımdan Ağdamda "İşğal Muzeyi" və "Zəfər Muzeyi"nin yaradılması ilə bağlı konsepsiya yüksək qiymətləndirilməlidir və dünya təcrübəsindən də istifadə edilməlidir.

Artıq hamıya məlumdur ki, işğal olunmuş ərazilərimizin içərisində Ağdam daha çox zərbə almışdır. Təsadüfi deyildir ki, hələ 2008-ci ildə "Loneli Planet" jurnalı Ağdamı "Qafqazın Hiroşiması" adlandırmışdır. 2010-cu ildə Əl-Cəzirə internet nəşri isə Ağdama "Ruhlar şəhəri" adını vermişdir. Hətta Ağdam rus media orqanları tərəfindən "Dünyanın 10 kabus şəhəri" siyahısına da salınmışdır. Hiroşima və Volqoqradda yerləşən muzeyləri ziyarət edən biri kimi qeyd etmək istəyirəm ki, bərpa işlərində muzeylərin yaradılmasına çox böyük diqqət verilməlidir. Bu, gələcəkdə həm də, Ağdamın bir turistik bölgə kimi tanınmasına da şərait yaradacaqdır. Bu muzeylərdə gördüklərim ömürlük yaddaşıma həkk olunmuşdur. Ağdamda da, belə muzeylərə ehtiyacımız var.

**Beləliklə:**

1. Ağdamda Hiroşima və Volqaqradda olduğu kimi bir tikili "canlı şahid" kimi saxlanılmalıdır. Bu ya, Ağdam Dram Teatrının, ya da "Çörək Muzeyi"nin qalıqları ola bilər.

2. Muzeylərin yaradılmasında yapon təcrübəsindən istifadə etmək lazımdır. Onlar "Atom evi" adlandırılan binanı bu gün də olduğu kimi saxlaya biliblər.

3. Ağdam şəhəri ilə Hiroşima və Volqaqradın "Qardaşlaşması" məsələsi gündəmə gəlməlidir, bununla da, dünya ictimaiyyətinin diqqətini Ağdama yönəltmiş olarıq.

4. Məzarlıqlarımızın dağıdılması ilə bizə həm də, mənəvi zərbə vuran erməni barbarlığı hər an dünyaya çatdırılmalıdır.

5. Hiroşimada saxlanılan bina ABŞ və Çinin narazılığına baxmayaraq, 1996-cı ildən YUNESKO Mədəni İrsi siyahısına salınmışdır. Volqaqradda yerləşən Mamayev kurqan da bu siyahıya salınmaq üçün namizəddir. Gələcəkdə Ağdamla da bağlı bu addımı atmaq mümkün ola bilər.

## İstinadlar


1. İ.Əliyev. Ağdamda təməlqoyma mərasimində çıxış. 28 may, 2021.
2. Хиросима и Нагасаки. Журнал «Скепсис». 2010. 27 марта
3. Музей мира г. Хиросима. 2012. 27 января.
4. «История Японии» М, 1998 – Т.2.

MƏMMƏDOVA Şəkər
Bakı Dövlət Universiteti, c.f.d., dosent

# AĞDAM RAYONUNUN İQTİSADİ-COĞRAFİ POTENSİALINDAN İSTİFADƏ İMKANLARI

**Xülasə:** Ağdam 23 iyul 1993-cü il tarixdə Ermənistan silahlı qüvvələri tərəfindən (rayon ərazisinin 77,4%-i) işğal olunmuş, 20 noyabr 2020-ci il tarixdə Azərbaycan Silahlı Qüvvələri Ağdam şəhərinə daxil olmuş və işğaldan azad edilmişdir. İşğal nəticəsində Ağdam xarabalığa çevrilmiş, mülki obyektlər, tarixi-mədəni irs nümunələri, dini inanc yerləri, məscidlər, türbələr və s. obyektlər məhv edilib, dağıdılmışdır. Hazırda isə Azərbaycanın ən gözəl guşələrindən biri olan Ağdam rayonunun həyatında baş verən əsaslı dəyişikliklərə nəqliyyat infrastrukturunun yenidən bərpası və əsaslı tikinti işlərinin aparılması ilə bağlıdır. Rayonun iqtisadi-coğrafi potensialı və dövlətin qarşısına qoyduğu siyasət yaxın vaxtlarda Ağdamı regionun dayanıqlı iqtisadi inkişaf mərkəzinə çevirəcəkdir. Bu baxımdan, təqdim etdiyimiz məqalədə Ağdam rayonunun potensial imkanları dəyərləndirilmiş və onlardan istifadə imkanları müəyyən edilmişdir.

**Açar sözlər:** Ağdam, iqtisadi inkişaf, mineral xammal ehtiyatları, sənaye, kənd təsərrüfatı, nəqliyyat, turizm.

→

## Giriş

Ağdam rayonu Azərbaycanın qədim, füsunkar, təbiətli, münbit torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ yüksəkliyinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Rayonun düzənlik hissəsində Antropogen və Neogen, dağlıq hissəsində isə Tabaşir və Yura çöküntüləri yayılmışdır [5]. Sahəsi 1094 km$^2$ olmaqla relyefi əsasən düzənlik və qismən dağlıqdır. Ərazidə geniş yer tutan Qarabağ və Mil düzləri cənub-qərbdən şimal-şərqə doğru tədricən alçalır. Dəniz səviyyəsindən yüksəkliyi 410 m, maksimum yüksəkliyi 1365 m-dir. İqlimi, əsasən, mülayim isti, quraq subtropikdir. Dağətəyi yerlərdə yüksəklik artdıqca iqlim mülayimləşir. Ən çox yağıntı dağətəyi sahələrə düşür. İllik yağıntı 300-550 mm-dir [3, s. 3]. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Çayların suyu yayda azalır və quruyur. Xaçınçay Kiçik Qafqazın Hacı-Yurd (2397 m), Uyuxlu (2316 m), Çilqiyas (2362 m), Çiçəkli (2343 m), Allaqaya (2583 m) dağlarının yamaclarından axan bulaqlardan formalaşır. Çayın 12 qolu vardır. Qarqarçay Kiçik Qafqazın Qarabağ silsiləsinin şərq yamacından axan Xəlfəli çayla Zarıslı çayın qovuşmasından yaranır. Çayın mənbəyi (Zarıslıçay) 2080 m yüksəklikdə yerləşir [6, s. 154].

Hazırda Ağdam rayonunun ərazisi 1,15 min km$^2$, əhalinin sayı 205,1 min nəfər (2020-ci il), əhalinin sıxlığı hər 1 km$^2$-də 178 nəfərdir. Rayonda 1 şəhər, 14 qəsəbə, 123 kənd yaşayış məntəqəsi vardır. Əhalinin 46,3 min nəfəri şəhər, 158,8 min nəfəri kəndlərdə yaşayır [1]. Rayon ərazisində həyata keçirilən quruculuq işləri nəticəsində yaxın gələcəkdə dağıdılmış yaşayış məntəqələrinin bər-

pası, nəqliyyat infrastrukturunun yenidən qurulması, yeni təsərrüfat sahələrinin yaradılması və fəaliyyəti burada siyasi sabitliyin və iqtisadi inkişafın təminatçısı kimi davamlı olaraq mərhələli şəkildə həyata keçiriləcəkdir.

***Ağdam rayonunun iqtisadiyyatının inkişaf istiqamətlərinin müəyyən edilməsi***

Ağdam rayonu əlverişli strateji və iqtisadi-coğrafi mövqeyə malikdir. Rayonun beynəlxalq nəqliyyat infrastrukturuna (avtomobil və hava nəqliyyatı) çıxışı imkanları yüksək qiymətləndirilir, həmçinin Qarabağ regionunun sənaye mərkəzinə çevrilməsi üçün geniş potensialı vardır.

Sənayeni inkişaf etdirmək üçün rayon ərazisində manqan yataqlarının təzahürləri Somxit-Ağdam struktur formasiya zonasına daxil olan üç yataqda Molla Cəlilli, Eldar və Daşsalahlı; yüksək keyfiyyətli sement xammalı və mişar daşı ehtiyatları Çobandağı, Boyəhmədli, Şahbulaqda; suvaq materialları istehsalı üçün lazım olan karbonatlı daşlar və digər xammal yataqları ərazidə aşkar edilmişdir.

Ümumiyyətlə, Ağdam rayonu üzrə tikinti materiallarının mineral xammal ehtiyatları bir sıra alim-tədqiqatçılar tərəfindən öyrənilmiş, onların balans ehtiyatları hesablanmışdır. ədəbiyyat və fond materialları əsasında apardığımız araşdırmalar nəticəsində Ağdam rayonunda olan tikinti materiallarının mineral xammal ehtiyatlarını aşağıdakı kimi qiymətləndirmək olar:

- Gil yataqları: Çobandağ, ehtiyatı 19981 min ton; Boyəhmədli, ehtiyatı 44708 min ton; Şorbulaq, ehtiyatı 25197 min ton; Ağdam, ehtiyatı 192 $m^3$;

- Gil-torpaq: Şahbulaq, ehtiyatı 25197 min ton;

- Əhəngdaşı: Çobandağ, ehtiyatı 140464 min ton; Şahbulaq, ehtiyatı 65071 $m^3$; Şelli, ehtiyatı 150 min $m^3$;

- Mərmərləşmiş əhəngdaşı: Gülablı, ehtiyatı 3999 min $m^3$;

- Çınqıl və qumdaşı: Qaraçay, ehtiyatı 17500 min $m^3$;

- Qum-çınqıl: Xaçınçay, ehtiyatı 12099 min $m^3$.

Bu yataqlar mühüm sənaye əhəmiyyəti kəsb edir. Onların əsasında sement, əhəng, kərpic, beton, üzlük daş və çınğıl istehsal etmək mümkündür. Bunun üçün rayona həm yerli, həm də xarici investisiyalar cəlb edilməli və onlara əlverişli iqtisadi şərait yaradılmalıdır. Məhz bu amil, gələcəkdə rayonun iqtisadi yüksəlişinə və əhalinin iş yerləri ilə təminatına müsbət təsir göstərəcəkdir.

Qeyd edilməlidir ki, Ağdam rayonunda sovet hakimiyyəti illərində regionun inkişafı üçün ən önəmli sənaye sahələrindən biri olan dəmir-beton məmulatı zavodu fəaliyyət göstərirdi. Hazırda isə Ağdam rayonunda 12 sənaye müəssisəsi fəaliyyət göstərir ki, onlarda da 2020-ci ildə 13104.8 min manat dəyərində sənaye məhsulu istehsal edilmişdir. Sənaye məhsulunun dəyərində qeyri-dövlət sektorunun xüsusi çəkisi cəmi 5,2%-dir [2]. Lakin çox acınacaqlı bir hal kimi deyə bilərik ki, rayonda mədənçıxarma sənayesinin potensial imkanlarının olmasına baxmayaraq, bu sahə hələ də inkişaf etdirilməmişdir. Bunu ermənilərin ərazilərimizə təcavüzü və işğalı ilə əlaqələndirmək olar.

Ağdam rayonunda aqrar sənaye sahəsini inkişaf etdirmək üçün də potensial imkanlar vardır. Məsələn, 2020-ci il ərzində Ağdam rayonunda süd məhsulları istehsalının təşkili sahəsi üzrə 1 sahibkarlıq subyektinə 1 investisiya təşviqi sənədi və 1 sahibkarlıq subyektinə 3 təsdiqedici sənəd təqdim edilmişdir. Bundan başqa, heyvandarlığın inkişafına 966 min manat, əkinçiliyin inkişafı üçün 95 min manat məbləğində güzəştli kredit verilmiş, 8203 kənd təsərrüfatı məhsulları istehsalçısına 21962,77 hektar sahədə becərdikləri əkinlərə və çoxillik əkmələrə görə dövlət büdcəsinin vəsaiti hesabına 3711,83 min manat məbləğində əkin subsidiyası verilmiş, 688 pambıq istehsalçısına 5217.7 ton (kondisiya çəkisində) xam pambığa görə 521,8 min manat subsidiya

verilmiş, 11 şəkər çuğunduru istehsalçısına 2,8 min ton şəkər çuğunduruna görə 11,3 min manat subsidiya verilmişdir [8]. Bunlar və digər quruculuq işləri Ağdam rayonunda aqrar sahənin inkişafında mühüm rol oynayır. Son illər respublikanın digər regionlarında olduğu kimi, Ağdam rayonunda da aqrar sahənin inkişafı perspektiv hesab olunur və yaxın vaxtlarda yerli məhsullar əsasında istehsal müəssisələrinin yaradılması da nəzərdə tutulub.

Keçmiş sovetlər dövründə Qarabağın təbii-coğrafi və iqtisadi birliyinin, onun digər regionlarla qarşılıqlı əlaqələrinin təbiiliyinin həyati əhəmiyyəti olan kommunikasiyalar - Yevlax-Ağdam (1963-65-ci illərdə çəkilmişdir) və Ağdam-Xankəndi dəmiryol xətti (1977-ci ildə çəkilmişdir), avtomobil yolları, qaz kəməri, elektrik təchizatı xətləri ilə bağlı olmuşdur ki, bu da regionun təsərrüfat sahələrinin səmərəli fəaliyyəti üçün son dərəcə zəruri idi. Ağdam digər regionlarının iqtisadiyyatı bir-birini tamamlayır, onların arasında qarşılıqlı iqtisadi əlaqələrin güclənməsi isə obyektiv xarakter daşıyır və bunlar bu vahid təbii-iqtisadi kompleksin sistemli şəkildə planlaşdırılması və idarəedilməsi üçün bütöv bır sıra prinsipial amillərlə bağlıdır [4,s. 44].

Respublikada olan magistral dəmir yolu istiqamətinə uyğun gələn Bakı-Qazax avtomobil yolunun uzunluğu 493 km, Bakı-Yalama avtomobil yolunun uzunluğu 185 km, Bakı-Astara yolunun uzunluğu isə 312 km-dir. Onlardan isə müxtəlif yaşayış məntəqələrinə qollar ayrılır. Yevlax-Ağdam-Xankəndi-Laçın avtomobil yollu əhəmiyyətinə görə seçilən yollardan biri olmuşdur [7]. Bu illər ərzində hətta qaz kəməri xətləri hasil edilən mavi yanacağı istehlakçılara çatdırmaq məqsədilə Yevlax-Ağdam-Naxçıvan qaz kəməri çəkilmiş, Azərbaycanın energetika sistemini Gürcüstanın enerji sistemi ilə birləşdirmək, rayonları elektrik enerjisi ilə təchiz etmək üçün Mingəçevir və Şirvandan Ağstafaya qədər (330 kV-luq Şirvan İES-Ağdam-Gəncə-Ağstafa) EVX çəkilmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları Ağdam rayonunda quruculuq işləri ilə bağlı bir sıra tədbirlər planını həyata keçirilmişdir. Belə ki, yerli əhəmiyyətli avtomobil yollarının, eləcə də kəndlərin giriş yollarının və kəndlərarası avtomobil yollarının tikintisinin, yenidən qurulmasının və əsaslı təmiri sahəsində bir sıra işlər həyata keçirilmişdir. Kolqışlaq-Mirəşelli-Əhmədağalı-Çıraxlı (5,6 km), Səfərli-Zəngişalı-Hacılar (15 km) avtomobil yolları əsaslı şəkildə təmir olunmuşdur. Elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində 1 ədəd 110 kV-luq y/st tikilmiş, 1 ədəd 35 kV-luq y/st yenidən qurulmuş, 18 ədəd KTM quraşdırılçış, 4,9 km 110 kV-luq h/x çəkilmiş, 1,5 km 110 kV-luq h/x təmir olunmuş, 3706 ədəd dayaq quraşdırılmış və s. işlər görülmüşdür. İçməli su təchizatının yaxşılaşdırılması sahəsində isə 108 ədəd su nasosu, 14 ədəd transformator, 1475 m su xəti təmir olunmuş, 43 ədəd yeni su nasosu, 5 ədəd sayğac quraşdırılmış və 662 metr yeni su xətləri çəkilmişdir. Rayon ərazisində kanalizasiya sistemi yoxdur [8].

Qeyd edilməlidir ki, Ağdam rayonunun işğal dövründə rayon mərkəzi Quzanlı qəsəbəsi olmuşdur. Dövlət proqramlarının icrası zamanı qazlaşdırma təxminən 100%, elektrik enerjisi, su ilə təchizat təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır.

Azərbaycan Respublikası Prezident İlham Əliyevin 28 may 2021-ci il tarixində Ağdama səfəri zamanı respublika əhəmiyyətli, eləcə də rayonun davamlı iqtisadi inkişafını təmin etmək məqsədilə bir sıra dövlət əhəmiyyətli işlər həyata keçirilmişdir. İlkin olaraq, Ağdam Sənaye Parkının yaradılması (sənaye parkının ərazisi 200 ha) nəzərdə tutulmuşdur ki, burada da qida sənayesi, xidmət sahələri, sosial və texniki zonalar, TIR (Transport International Router) parkının yaradılması planlaşdırılır. Bunlarla yanaşı, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, ət və süd məhsullarının emalı, şərab istehsalı, soyuducu kameraların təşkili işləri də nəzərdə tutulmuşdur.

Hazırda, Ağdam rayonunda yol infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlərin tərkib hissəsi kimi 44,5 km uzunluğunda, 4 hərəkət zolaqlı Bərdə-Ağdam avtomobil yolunun bərpası işlərinə başlanılıb. Avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, 20-dən artıq yaşayış məntəqəsini əhatə edir. Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi isə nəzərdə tutulub. Bununla yanaşı, 125 ha ərazini əhatə edən Ağdam şəhər meşə-parkının salınması işlərinə başlanılıb, ərazisində mənzərəli süni gölün yaradılması nəzərdə tutulub.

Ağdam rayonunun potensial imkanlarından biri də turizm sektoru ilə bağlıdır. Turizmi inkişaf etdirmək üçün ərazinin iqlimi, əlverişli relyef şəraiti, çayları ilə yanaşı antropogen memarlıq abidələri də vardır.

Ağdam şəhərinin Şimal-Qərbində Xındırıstan kəndində yerləşən Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və sair memarlıq abidələri vardır [3, s. 4]. Ağdam rayonunda 145 tarix-mədəniyyət abidəsi Azərbaycan Respublikası tərəfindən dövlət qeydiyyatına alınıb. Onlardan 1-i dünya əhəmiyyətli memarlıq, 3-ü dünya əhəmiyyətli arxeoloji, 3-ü ölkə əhəmiyyətli memarlıq, 96-sı ölkə əhəmiyyətli arxeoloji, 26-sı yerli əhəmiyyətli memarlıq, 4-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi, 4-ü yerli əhəmiyyətli arxeoloji abidələrdir.

**Nəticə**

1. Ağdam rayonunda tikinti materialları sənaye sahəsini inkişaf etdirmək üçün potensial imkanlar vardır. Sənaye sahələrinin inkişafı rayonda iqtisadi inkişafa, eləcə də əhalinin iş yerləri ilə təminatında yardımçı olacaqdır. Buna sovet hakimiyyəti dövründə burada fəaliyyət göstərən dəmir-beton məmulatı zavodu misal ola bilər.

2. Ağdam rayonunda nəqliyyat infrastrukturunun (Bərdə-Ağdam avtomobil və dəmir yollarının) inkişafı beynəlxalq və rayonlararası iqtisadi əlaqələrin qurulmasına və rayonun gələcək fəaliyyətinə müsbət təsir göstərəcək. Nəqliyyat infrastrukturu regiona səfər edən turistlərin sayının artmasına müsbət təsir göstərəcək, onların rahat və komfortlu hərəkətlərini təmin edəcək.

3. Turizm sektorunun inkişaf etdirilməsi üçün hazırda rayon ərazisində quruculuq işləri həyata keçirilir. Təbiət abidələri ilə yanaşı, memarlıq abidələri, həmçinin yaradılması nəzərdə tutulan Ağdam şəhər meşə-parkı da turistlərin marağına səbəb olacaqdır. Rayonda turizm sektorunun inkişafı iqtisadi potensial ilə bərabər, sosial inkişafın təminatçısı kimi də çıxış edəcəkdir.

**İstinadlar**


1. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. – Bakı: 9№-li kiçik müəssisə, – 2021. – 560 s.
2. Azərbaycanın sənayesi Statistik məcmuə. – Bakı: 9№-li kiçik müəssisə, – 2021. – 242 s.
3. Baxşiyev, A. Ağdam ağrıları / A.Baxşiyev. – Bakı: Şuşa, – 2003. – 152 s.
4. Çaxmaqlı, Q. Dağlıq Qarabağ işğaldan əvvəl ...və sonra. – Bakı: Hərbi, – 2009. – 136 s.
5. Əliyev, H.Ə., Budaqov, B.Ə. Əfsanəvi dağlar / H.Ə.Əliyev. – Bakı: Elm, – 1973. – 86 s.
6. Məmmədov Q.Ş və başqaları Azərbaycan ekoturizm potensialı / Q.Məmmədov. 2 cilddə, II cild. – Bakı: Şərq-Qərb, – 2012. – 420 s.
7. Məmmədov, Z.S. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru / Z.S.Məmmədov. – Bakı: Azərnəşr, – 2002. – 86 s.
8. Regionların sosial-iqtisadi inkişafı. Statistik məcmuə. – Bakı: 9№-li kiçik müəssisə, – 2021. – 728 s.
9. Sarıyeva, İ.Əsarətdən qurtulmuş Ağdamın tarixi memarlıq və arxitektura abidələri azərbaycançılığın pozulmaz daşıyıcıları kimi... // – Bakı: Bakı Xəbər. – 2020. – 24 noyabr. – № 204. – s. 10.

MİRZƏYEV Emil
AMEA İqtisadiyyat İnstitutu, elmi işçi

# AZƏRBAYCANIN POST-KONFLİKT ZONALARINDA RƏQƏMSAL AQRAR İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFI MƏSƏLƏLƏRİ

**Xülasə:** Məqalədə respublikamızın işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafında aqrar iqtisadiyyatın inkişafı, xüsusən də onun rəqəmsallaşdırılması məsələləri şərh edilir. Həmçinin, bu ərazilərdə aqrar sferada rəqəmsal texnologiyaların tətbiqinin iqtisadi səmərəliliyə təsiri məsələləri təhlil edilir.

**Açar sözlər:** Aqrar iqtisadiyyat, əmək məhsuldarlığı, iqtisadi effektivlik, rəqəmsal texnologiyalar, post-konflikt əraziləri.

→

## Giriş

İkinci Qarabağ müharibəsində ölkəmizin əldə etdiyi möhtəşəm zəfərdən sonra gündəlikdə duran əsas məsələ işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafıdır. Həmin ərazilərdə istehsal və xidmət sahələrinin təşkili və inkişafı günün vacib tələblərindən biridir. Post-konflikt ərazilərinin bərpası və inkişafı məsələləri öz əksini Azərbaycan Respublikasının Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli prioritetlər”də də tapmışdır. Həmin prioritetlərin biri məhz “işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası”dır.

**Təhlil və qiymətləndirmə**.

Məlum olduğu kimi, aqrar iqtisadiyyat ölkə iqtisadiyyatının vacib sahələrindən biri olmaqla yanaşı, əhalinin qida məhsullarına olan tələbatının ödənilməsinin, sənayenin resurs təminatının, eləcə də məşğulluğun təmin edilməsinin başlıca mənbəyidir. Post-konflikt ərazilərin bərpasında mühüm prioritetlərdən biri “ Ağıllı kənd” layihəsinin tətbiqidir. Bu da, mövcud ərazilərdə kənd təsərrüfatının inkişafında rəqəmsal texnologiyaların tətbiqini zəruri edir. Aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi istehsal və təsərrüfat risklərinin minimuma endirilməsinə, xərclərin azaldılmasına, eləcə də məhsuldarlığın yüksəldilməsinə əlverişli şərait yaradır.

Burada əsas məqsəd – aqrar sahədə vaxt vahidi ərzində istehsal olunmuş məhsul həcminin artırılması və məhsul vahidinin istehsalına sərf olunmuş vaxtın minimuma endirilməsidir. Aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi resurslardan effektiv istifadənin məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas alətidir. Beynəlxalq təcrübəyə əsaslansaq,

görərik ki, aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi olmadan, heç bir səmərəliliyə nail olmaq mümkün deyil. Xüsusi vurğulamaq lazımdır ki, aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi dəyər zəncirinin də səmərəli formalaşmasına təsir göstərir. Belə ki, aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi özünə topdan və pərakəndə satış şəbəkələrini daxil edən mürəkkəb istehsal-logistika zəncirinin formalaşmasına səbəb olur. İstehsal olunmuş ərzaq və kənd təsərrüfatı məhsullarının istehsaldan istehlaka səmərəli şəkildə çatdırılmasının təşkili rəqəmsal texnologiyaların tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır.

Aqrar sahədə rəqəmsal texnologiyalar bitkiçilik və heyvandarlıqda tətbiq edilməklə mövcud sahələrin inkişafında və məhsuldarlığının təmin edilməsində müstəsna əhəmiyyətə malikdir. Bu sahədə respublikamız xarici ölkələrin təcrübəsindən səmərəli şəkildə istifadə edir. Bu məqsədlə "ağıllı fermalar" və "ağıllı istixanaların" yaradılması, həmçinin hibrid bitki toxumlarının və heyvan cinslərinin yaradılması və çoxaldılması istiqamətində İsrail dövlətinin qabaqcıl təcrübəsindən istifadə edilir. Əminliklə demək olar ki, post-konflikt zonalarında aqrar sferada rəqəmsal texnologiyalardan istifadə innovasiyalardan faydalanmağa, aqrar sektorda idarəetmə proseslərinin təkmilləşdirilməsinə, həmin ərazilərdə aqrar sahədə effektiv idarəetmə qərarlarının qəbul edilməsinə əlverişli şərait yaradacaqdır.

**Nəticə və təkliflər**

Post-konflikt ərazilərində aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi məqsədilə aşağıdakıların icrasına xüsusi diqqət yetirilməlidir:

- Post-konflikt zonalarında rəqəmsal texnologiyaların yayılma arealı genişləndirilməli və inkişaf etdirilməlidir;

- Əhalinin, xüsusən də fermerlərin və digər kənd təsərrüfatı işçilərinin müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə bacarıqları formalaşdırılmalı və təkmilləşdirilməlidir;

- Post-konflikt zonalarında rəqəmsal- aqrar iqtisadiyyat üzrə biznes ideyaları toplanılmalı və monitorinqlər təşkil edilməlidir;

- Mövcud zonalarda aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi istiqamətində effektiv biznes ideyaları seçilməli və onların reallaşdırımasına hərtərəfli dəstək göstərilməlidir;

- Mövcud sahədə innovasiyalardan və yenilikçi ideyalardan istifadə sürətləndirilməlidir;

- Post-konflikt zonalarında aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi istiqamətində investisiyaların təşviqi həyata keçirilməlidir;

- Həmin ərazilərdə müvafiq sahədə rəqəmsal texnologiyaların inkişafını dəstəkləyən biznes subyektlərinə dövlət tərəfindən maksimum güzəştlər edilməlidir.

Məlum olduğu kimi, ölkəmizdə, xüsusilə də post-konflikt ərazilərində tətbiq ediləcək "Ağıllı kənd" layihəsinin əsas məqsədi kənd əhalisinin ictimai və sosial rifah halını təmin etmək, onların kəndlərdən şəhərlərə kütləvi axınının qarşısını almaqdır. Bu ərazilərdə robotlaşdırılmış texnikadan istifadə, kənd əhalisinin kompakt xidmətlərə çıxışının təmin edilməsi, bir sözlə, kənd infrastrukturunun yüksək səviyyədə təşkili mövcud layihənin prioritet istiqamətlərindəndir. Bu da özünə, adları yuxarıda çəkilən məsələlərin həlli yollarını daxil edən ağıllı sistemlərin, xüsusən də "Ağıllı kənd təsərrüfatının yaradılmasını gündəmə gətirir. "Ağıllı kənd təsərrüfatı " özünə əsasən " Ağıllı suvarma sistemlərini, dron və GPS texnologiyalarını daxil edir. Həmçinin bu texnologiyalar iqlim dəyişikliklərinin müəyyənləşdirilməsində, bitkiçilikdə və heyvandarlıqda zərərvericilərin aşkarlanmasında əvəzedilməz rola malikdir.

Dünya ölkələrinin qabaqcıl təcrübəsinə əsaslansaq, görərik ki, aqrar iqtisadiyyatın, bütövlükdə aqrar-sənaye kompleksinin rəqəmsallaşdırılması aşağıdakı elementlərdən əhəmiyyətli dərəcədə asılıdır:

- Bitkiçilik və heyvandarlıqda özünə müvafiq sahələr üzrə sistem məlumatlarını və verilənlər bazasını daxil edən vahid rəqəmsal bazanın yaradılması;

- Aqrar sahədə istehsal və emal proseslərinin rəqəmsallaşdırılması;

- Özünə müvafiq sahələrdə iqtisadi proqnozları və statistik məlumatları daxil edən iqtisadi təhlil sisteminin rəqəmsallaşdırılması;

- Məhsulun istehsaldan istehlaka hərəkətini təmin edən, eləcə də aqrar elektron birjaların və ticarət platformalarının əhatə edildiyi vahid satış sisteminin rəqəmsallaşdırılması.

Post-konflikt zonalarında aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin müəyyənləşdirilməsinin, bir sözlə, dəqiq ərazi bölgüsünün formalaşdırılmasının əsas aləti olacaqdır. Burada da, coğrafi informasiya sistemləri (GİS), məhsuldarlığın qiymətləndirilməsi texnologiyası (YMG) müasir rəqəmsal texnologiyaların əsas növləri kimi yüksək əhəmiyyətə malikdir.

Bu sistemlərin iş mexanizminə əsasən demək olar ki, avtomatlaşdırılmış texnologiyalar torpağa aqrotexniki xidmətdən tutmuş, məhsulun yığımına qədər bütün əməliyyatları demək olar ki, insan əməyindən istifadə olmadan, yüksək sürətlə yerinə yetirəcəkdir. Aqrar sahədə proseslərin sadələşdirilməsi, kənd təsərrüfatı istehsalçılarına elektron xidmətlərin göstərilməsi və vahid məlumat bazasının formalaşdırılması məqsədilə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) yaradılmışdır ki, bunu da, aqrar sahənin rəqəmsallaşdırılmasına ilk addım kimi qiymətləndirmək olar. Bütün bunlarla yanaşı, aqrar sahədə rəqəmsal texnologiyaların və ağıllı sistemlərin tətbiqi ilə struktur (texnoloji) işsizliyin də baş verməsinin qarşısı alınmalı, bu sahədə dövlət alternativ əmək sahələrini formalaşdırmalı və tənzimləməlidir

Sonda belə bir nəticəyə gələ bilərik ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafında rəqəmsal texnologiyaların tətbiqi ölkə üzrə ərzaq və kənd tərrüfatı məhsullarına olan tələbi ödəməklə yanaşı ölkəmizin ixrac potensialının artmasında və “Made İn Azerbaijan” brendinin də təşviqinə səmərəli şərait yaradacaqdır.

**İstinadlar**


1. İbrahimov İ.H. “ Aqrar sahənin iqtisadiyyatı”, Monoqrafiya-2016, 656 səh.
2. Ю.Ю. Громов, И.В.Дидрих, О.Г. Иванова, М.А.Ивановский, В.Г.Однолъко. “Информационные технологии“ Учебник- 2015, 260 стр.

MİRZƏYEV Hikmət
AMEA İqtisadiyyat İnstitutu, doktorant

# QARABAĞ İQTİSADİ RAYONUNA XARİCİ İNVESTİSİYALARIN CƏLB OLUNMASI PERSPEKTİVLƏRİ

**Xülasə:** Məqalədə, post konflikt ərazilərə xarici inverstorların cəlb edilməsi üçün güzəştlər və bu güzəştlər haqqında iqtisadi ekspertlərin fikirləri qiymətləndirilmişdir. Həmin ərazilərə investisiya yatırımında maraqlı olan ölkələr və bu ölkələrin siyahısının artırılması üçün müəyyən tədbirlər planı işlənib hazırlanır. Həmçinin, məqalədə xarici ölkələrin hazırda hansı sahələrə investisiya yatırımı etməkdə maraqlı olduqları haqqında məlumat verilmişdir.

**Açar sözlər:** investisiya, post konflikt, xarici investisiya potensialı, iqtisadi inkişaf

→

## Giriş

30 illik vətən həsrətinə son qoyan, dillərə dastan olan 44 Günlük Vətən müharibəsindəki möhtəşəm qələbə bizdən sonra artıq post-konflikt ərazilərinin inkişaf etdirilməsi üçün iqtisadi inkişaf planı hazırlanmağa və bu istiqamətdə maliyyə vəsaiti ayırmağı tələb edirdi. Bu ərazilərdə bərpa işləri 10 il müddətinə mümkün olacaqdır. Məlumdur ki, işğaldan azad olunan ərazilərimiz düşmən tərəfindən qarət edilmişdir. Ərazilər, minalanmış və demək olar ki, boş sahələrdən ibarətdir.

Torpaqlarımızın işğaldan azad olunması həmdə ölkənin iqtisadi potensialının artırılmasına imkan verir. Bilirik ki, Qarabağımız yeraltı və yerüstü sərvətlərlə zəngindir. Bu zənginlik əsrlər boyunca ölkələrin diqqət mərkəzində olmuşdur. Bu ərazilərə iqtisadiyyatın yenidən bərpa olunması ölkəmizin neftdən asılılığını azaldacaqdır. Bu asılılığın azaldılması üçün ərazilərə xarici investisiyaların axınını təmin etmək mühüm məsələlərdəndir. Təbii ki, ərazilərin təbii resurs baxımından zənginliyi, əlverişli tranzit mövqedə olması xarici investorların investisiya yatırımı üçün gizlin mübarizəyə səbəb olacaqdır.

### Təhlil və qiymətləndirmə

Gəlir və ya mənfəət əldə etmək üçün əlindəki pul və ya kapitaldan istifadə edərək qurulan investisiyalara istinad edirik. Əfsanəvi iş adamı Warren Buffett, investisiya qoyuluşunu "gələcəkdə daha çox qazanmaq üçün bir az pul xərcləmək" olaraq təyin edir. Sərmayə qoymağın məqsədi, sərvətinizi artırmaq üçün pulunuzu bir və ya daha çox şəkildə istifadə etməkdir.

Başqa sözlə ifadə etsək, hər hansı bir dönəmdə iqtisadiyyatda istehsal edilən məhsulun (output) yeni quruluşlar, yeni dayanıqlı təchizat və inventardakı dəyişmələr şəklindəki qisminin dəyərinə

investisiya deyilir. İnvestisiya, gələcəkdəki istehlakı artıra bilmək məqsədilə bugünkü istehlakı azaltmağı lüzumlu görürlər [1, s14].

Xarici investisiyaların post-konflikt ərazilərə cəlb edilməsi bu ölkədə yeni iş yerlərinin yaranmasına, yeni texnologiyanın ölkəyə gəlməsinə və həmçinin Azərbaycanın rəqabət qabliyyətliliyinin artırılmasına imkan yaradacaq. Qarabağa nə qədər çox xarici investorlar cəlb olunarsa bu həmin ərazilərdə daha çox iş yerlərinin açılması, geri qayıdan əhali üçün daha etibarlı bir gələcəyin təmin olunması deməkdir.

Bəs xarici investorları Qarabağa necə cəlb edə bilərik? Buna iqtisadçı E.Səfərli öz fikrini bildirmişdir. O qeyd edir ki, xarici investorların cəlb edilməsində ən yaxşı üsul xarici investorlara müəyyən güzəştlərin edilməsidir. Bu güzəştlər təbii ki, vergi və gömrük rüsumları ilə bağlıdır.

O qeyd edir: Bununla bağlı təklif edirəm ki, investorlar 10 il müddətində müəyyən vergilərdən azad olunsun. Bundan başqa istehsal məqsədilə gətirilən avadanlıqlar da gömrük rüsumlarından tam azad olunmalıdır" [2].

Ümumiyyətlə post-konflikt ərazilərə xarici investorların cəlb edilməsinə bir qədər fərli yanaşılmalıdır. Bu ərazilərdə xarici investisiyaları cəlb etmək üçün xarici investorlar üçün yaradılan güzəştlər, biznes mühiti, valyuta kursu, vergi, maliyyə, azad rəqabət mühitinin olması, mülkiyyət toxunulmazlığının olması və s. kimi iqtisadi faktorlar nəzərə alınmalıdır.

Bu gün təkcə xarici investorlar deyil, daxili investorlar da Qarabağa investisiya yatırımında maraqlıdırlar. Onlarla keçirilən sorğudan müəyyən olunub ki, daxili investorlar əsasən turizm və kənd təsərrüfatı sahələrinə yatırım etməkdə maraqlıdırlar.

Bundan əlavə investisiyaların yatırılmasında həm xarici həm də yerli şirkətlərin marağı olmalıdır. Bəzən layihələr müştərək şəkildə işlənməlidir. Bu təbii ki, uzunmüddətli əməkdaşlıq və iqtisadi inkişaf deməkdir.

Bu gün bərpa prosesində Böyük Britaniya, İtaliya və Türkiyə investorları iştirak etsə də 30 il ərzində viran qalınmış torpaqlar üçün daha çox investorların cəlbinə ehtiyac vardır. Daha çox xarici investorları cəlb etməyi hədəfləmək bu ərazilərin dirçəlməsində əvəzsiz rol oynayacaqdır. Lakin, xarici investorların da tələbləri və standartları vardır. Bilirik ki, Qarabağ zonası hələdə təhlükəli zonadır. Bir tərəfdən bu arqumentdə xarici investorlara təsir edir. Bunun üçün ilk növbədə Qarabağ ərazisində hərbi təhlükəsizliyi təmin etməliyik. Ümumi baxışda da götürsək biz özümüz xarici ölkəyə investisiya yatırımı etsək təbii ki, həmin ölkənin hərbi təhlükəsizlik amilini nəzərə alacayıq. Bu gün əlbəttə biz özümüz də xarici investor kimi dünyanın qaynar münaqişə bölgələri olan Suriyaya investisiya yatırımı etmərik.

Bu gün təkcə xarici investorlar deyil daxili investorlar da Qarabağa investisiya yatırımında maraqlıdırlar. Onlarla keçirilən sorğudan müəyyən olunub ki, daxili investorlar əsasən turizm, kənd təsərrüfatı sahələrinə yatırım etmək istəyirlər. Təbii ki, Qarabağın göz oxşayan coğrafi quruluşu bu ərazilərə xarici turistlərin cəlb edilməsində başlıca rol oynayacaqdır. Bu gün əminliklə deyə bilərik ki, bu gün bu ərazilərdə yaradılan turbazalar və kənd təsərrüfatının inkişafı ölkənin büdcə gəlirlərinin artımında uzunmüddətli rol oynayacaqdır. Lakin unutmayaq ki, bu ərazilərin yeraltı və yerüstü sərvətləri zəngindir. Bu Ərazilər Azərbaycan iqtisadiyyatında gəlirlərin artımında və güclü rəqabət qabiliyyətli ölkəyə çevrilməsi üçün əvəzsiz, tükənməyən sərvətdir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Y.Abdullayev öz çıxışında bildirmişdir: "Nəzərə almaq lazımdır ki, Qarabağın geniş turizm imkanları var. Həmçinin aqrar sənaye kompleksinin yaradılması üçün imkanlar mövcuddur. Orada yerli kənd təsərrüfatı mallarının emalı ilə məşğul olan sənaye müəssisələrinin yaranmasına ehtiyac duyulur. Dediyim kimi, xarici, xüsusilə türk sahibkarlarının Qarabağa cəlb edilməsi vacibdir. Bunun üçün onların müdafiəsi ilə bağlı qanun təkmilləşdirilməlidir".[3]

Yeni işğaldan azad olunmasına baxmayaraq artıq Türkiyə şirkətləri Fizuli – Şuşa yolunu inşa edirlər. Həmçinin Türkiyənin məşhur "Ziraat bankı" Şuşada şəhərində filialının açmaq niyyətindədir.

Türkiyənin İş Adamları və Sahibkarlar Dərnəyinin İdarə Heyətinin sədri İ.Öztürk azad edilmiş torpaqlara 50 milyon dollar sərmayə yatırmağı planlaşdırdığını açıqlayıb. Toxuculuq istehsalı çoxmilyonluq investisiyalar üçün əsas sahə kimi müəyyən olunub. [4]

Böyük Britaniyanın investorları Qarabağ ərazisində “Smart” şəhərin yaradılması üçün maraqlıdırlar. İqtisadi ekspert E.Sadiqov xarici investorların cəlb olunması haqqında fikirlərində bildirmişdir ki, **“**Biz azad olunan bölgəmizə investisiya cəlb edərkən tanıdıq-tanımadıq bütün investorları dəvət etməməliyik. Əlbəttə, böyük maliyyə qurumları, potensial investorlar arasında təbliğat tədbirləri həyata keçirmək lazımdır. Lakin ərazidə uzunmüddətli investisiyaları nəzərdə tutan layihələrin icrası zamanı seçim edərkən əsas üstünlüyü Azərbaycana dost olan ölkələrə vermək mütləqdir. O ölkələrə ki, Vətən müharibəsində Azərbaycanı dəstəklədilər, qələbəmiz üçün sevindilər. Bu ölkələrin xaricdə investisiya yatırmaq istəyən sahibkarlarını, şirkətlərini işğaldan azad olunan ərazilərimizə cəlb etməyə çalışmalıyıq”.[5]

**Nəticə**

Azərbaycanın işğal altından azad edilmiş ərazilərin iqtisadi potensialları haqqında statistik göstəricilərdə yetəri qədər məlumat yoxdur. Bu da öz növbəsində ekspertlər tərəfindən bu məsələlərin həll edilməsində müəyyən çətinliklər yaradır.

**İstinadlar**


1. Qloballaşma və Xarici İnvestisiyalar, Natiq Sabiroğlu 289
2. https://www.iqtisadiyyat.az/news/az/35685/Xarici-investorlar-Qarabaa-nec-clb-etmk-olar-V-DEO
3. https://sherg.az/x%C9%99b%C9%99r/146657
4. https://ikisahil.az/post/196716-xarici-investorlar-qarabaga-boyuk-maraq-gosterirler
5. http://www.yenimusavat.info/news/qarabag-ucun-ayrica-investisiya-proqrami-yoxsa_758986.html

**MURADOV Allahyar**
AMEA İqtisadiyyat İnstitutu, elmi işlər üzrə direktor müavini, i.f.d., dos.

**ABDULLAYEVA Rəsmiyyə**
AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.f.d., dos.

# QARABAĞDA İNNOVATİV İQTİSADİYYAT QURUCULUĞU

**Xülasə:** Məqalədə Azərbaycan ordusunun şanlı qələbəsi, Qarabağda aparılan quruculuq işləri haqqında ümumi məlumat verilir. Qarabağda innovasiya əsaslı iqtisadiyyat quruculuğunun siyasi və sosial əhəmiyyəti tədqiq olunur. İnnovasiya əsaslı iqtisadiyyatın qurulmasının struktur modeli təqdim olunur. Təqdim olunan bu modelə görə Qarabağın Kəlbəcər Laçın və Şuşa rayonlarını əhatə edən turizm və kreativ məhsullar üzrə ixtisaslaşmış regional innovasiya sistemi, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarını əhatə edən aqrar emal məhsulları üzrə ixtisaslaşmış innovasiya sistemi, Ağdam, Tərtər, Bərdə və Ağcabədi rayonlarını əhatə edən sənaye məhsulu üzrə ixtisaslaşmış regional innovasiya sistemi qurula bilər. Bu sistemlərin işlək olması və onlar arasında effektli qarşılıqlı əlaqənin qurulması ümumilikdə Qarabağda innovasiya əsaslı inkişafı sürətləndirə bilər.

**Açar sözlər:** İnnovasiya, regional innovasiya sistemi, kreativ məhsullar, texnopark, biznes inkubator, iqtisadi artım, innovativ inkişaf.

## Giriş

Birinci Qarabağ savaşında (*1988–1994-cü illər*) erməni təcavüzkarlarının (xarici havadarları ilə birləşərək) işğal etdiyi ərazilər 27 il sonra, 2020-ci ildə cəmi 44 gün davam edən müharibədə azad edildi. Şübhəsiz ki, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu şanlı Qələbə Ali Baş Komandan İ.Əliyevin qətiyyəti, Azərbaycan əsgərinin qəhrəmanlığı və xalqımızın birliyi ilə qazanıldı. Tarixi təcrübə göstərir ki, vətən savaşında qalib olmaq milli özgüvənin və kimliyin formalaşmasında həlledici rol oynayır. Hazırda biz bunu xalqın davranışında açıqca görürük. Təbii ki, qələbənin təsiri təkcə milli qürurun yüksəlməsi ilə bitmir, bu qələbə eyni zamanda Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsinə də ciddi təsir göstərdi. İndi, dünyanın əksər dövlətləri Azərbaycana daha hörmətlə yanaşırlar. Çünki Azərbaycan uzun illər davam edən, beynəlxalq təşkilatların da həll edə bilmədiyi problemi öz gücü və qüdrəti ilə həll etdi. İndi, qarşımızda duran əsas vəzifə - işğal dövründə erməni faşistləri tərəfindən dağıdılmış, talan edilmiş əraziləri bərpa etmək və insanları öz yurd-yuvasına qaytarmaq, Qarabağı regionun inkişaf etmiş bölgəsinə çevirməkdir.

Bilirik ki, Qarabağ zəngin təbii sərvətlərə, zəngin tarixi keçmişə malikdir. Bu gün Qarabağın işğaldan azad edilmiş ərazilərinin mümkün olan ən qısa müddətdə bərpası, burada yeni texnologiyalara əsaslanaraq qurulacaq infrastruktur, istehsal və xidmət sahələri Azərbaycanın iqtisadi inkişafına ciddi təsir göstərəcəkdir. Ümumən Qarabağda iqtisadiyyat quruculuğu Azər-

baycan iqtisadiyyatının yeni inkişaf mərhələsinin başlanğıcı olacaqdır. Şübhə yoxdur ki, burada qurulacaq innovasiya əsaslı istehsal və xidmət sahələri ölkəmizin nüfuzunun yüksəlməsinə və sosial-iqtisadi inkişafa təsir göstərəcəkdir. Əslində, ərazilərin bərpasına hələ şiddətli döyüşlərin getdiyi dövrdə (dünya tarixində bu az sayda görünmüş hadisələrdəndir) başlanılmışdı ki, bu da, bu torpaqların əsl sahibinin Azərbaycan xalqı olduğunun əsas göstəricisi idi. Keçən bir il ərzində talan edilmiş şəhər və kəndlərin, dağıdılmış infrastrukturun bərpası istiqamətində görülən işlər də deyilənlərə əyani misaldır. Bilindiyi kimi, torpaqlarımızın işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına 100 milyardlarla dollar, mənəviyyatına isə ölçüyə gəlməyəcək dərəcədə zərər dəymişdir. Hazırda, dövlət səviyyəsində Ermənistanın beynəlxalq məhkəməyə verilməsi ilə bağlı ciddi hazırlıq işləri gedir.

***Post-konflikt ərazilərin bərpasının spesifikliyi ilə bağlı baxışlar***

Post-konflikt ərazilərin bərpası dağıntıların dərəcəsindən, müharibənin baş vermə səbəbindən və davametmə müddətindən, daxili və xarici təsir qüvvələrinin müdaxilə səviyyəsindən və s. asılı olaraq spesifik yanaşmalar tələb edir. Bu günə qədər dünya ölkələrinin təqribən 40%-ində post-konflikt ərazilərin bərpası həyata keçirilmişdir. Tədqiqatlar göstərir ki, hər bir post-konflikt ərazinin özünəməxsus xüsusiyyətləri vardır. Bu ərazilər zahirən eyni olsa da, yəni dağıntılar, öz yurd-yuvasından qaçqın və məcburi köçkün düşənlər, minalanmış ərazilər, silahlı birləşmələr və s. baxımdan bir-birinə bənzəsə də, daxili elementlərinə görə fərqlənirlər. N.Müzəffərli və E.İsmayılovun 2010-cu ildə nəşr etdirdiyi "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar" adlı kitabda göstərilir ki, "Azərbaycanda baş verən münaqişə hələ də həllini tapmayan post-sovet ölkələrində baş verən münaqişələrlə eynilik təşkil edir. Lakin prinsipial özünəməxsusluqlar da var: Azərbaycanın işğal altındakı ərazilərindən fərqli olaraq, Şərqi Almaniya heç zaman öz varidatından məhrum edilməmiş, əhalisi ev-eşiyindən qovulmamışdı. Şərqi Almaniya on beş il (indiki tarixlə 27 il) həyatsız qalıb xarabalığa çevrilməyə məhkum olmamışdı. Ona görə də Azərbaycanın qarşısında dayanan vəzifə Almaniya Demokratik Respublikasının dağılmasından sonra Almaniyanın qarşısına çıxmış vəzifələrdən qat-qat daha çətindir" *(Müzəffərli, İsmayılov, 2010, s.17)*. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlar *(BMT və onun alt qurumları, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya İqtisadi Forumu və s.)* və tədqiqatçılar tərəfindən münaqişələrin dayandırılması, post-konflikt ərazilərin bərpası istiqamətində çoxsaylı tədqiqatlar aparılır, müxtəlif məqsədli hesabatlar və proqramlar hazırlanır. Bu hesabat və proqramlarda post-konflikt ərazilərin bərpası və iqtisadi dirçəlişi istiqamətində (infrastruktur quruculuğu, repatriasiya, məşğulluq, minaların təmizlənməsi, keçmiş döyüşçülərdən silahların yığılması, innovasiyalardan istifadə və s.) təklif və tövsiyələr ictimaiyyətə təqdim edilir, onların reallaşdırılması üçün maddi və təşkilati yardım göstərilir.

Post-konflikt dövrünü yaşayan ölkələrin iqtisadi potensialından istifadə imkanları *(UNDP, 2010)*, UNISAD-ın post-konflikt ölkələrində iqtisadi artımın təmin edilməsi yolları *(USAİD, 2009)*, özəl sektorun post-konflikt ərazilərə cəlb olunması *(Sweeney, 2008)*, post-konflikt dövründə innovasiyanın imkanlarından istifadə *(Sarah, Miranda and Norchi, 2010)*, konflikt sonrası dövrdə cəmiyyətlərin transformasiyasında sosial innovasiyalardan istifadə *(Wendy and Gisvold, 2003)*, post-konflikt ərazilərdə iqtisadiyyat quruculuğunun prinsipləri *(Onder, 2021)* və s. bu kimi çoxsaylı araşdırmaların adlarını çəkmək olar.

BMT-nin post-konflikt ölkələrdə Davamlı Milli İnkişaf Strategiyası sənədində göstərilir ki, "post-konflikt ərazilərdə resursların yaxşı idarə edilməsi nəticəsində iqtisadiyyatın bərpası sürətlənəcəkdir. Belə ki, keçmiş döyüşçülər və qaçqınlar kimi xüsusilə həssas, təcrid olunmuş və mümkün pozucu qruplar üçün davamlı dolanışıq vasitələrinin yaradılması, insanların həyatını və dolanışıq vasitələrini təhdid edə biləcək xroniki ekoloji problemlərin (məsələn, torpağın deqradasiyası və suyun mövcudluğu) yumşaldılması, infrastrukturun inkişafına, əmək tələbinə, daxili və xarici investisiyalara və dövlət gəlirlərinə müsbət təsir göstərə bilən təbii ehtiyatlardan və ekosistem xidmətlərindən davamlı şəkildə istifadə etməklə iqtisadi inkişafın dəstəklənməsi iqtisadiyyatın bərpasını sürətləndirən amillərdir" (UNEP, 2009, s.5-7).

Ümumiyyətlə, yuxarıda sadalanan araşdırmaların əksəriyyətində ölkələrdə baş verən daxili mü-

naqişələr (vətəndaş müharibəsi) və ölkələrarası müharibələr nəticəsində yaranmış sosial, iqtisadi, siyasi və hərbi vəziyyət qiymətləndirilir, münaqişə yaşanan ərazilərdə daxili sabitliyin (ölkə səviyyəsində milli, dini və siyasi münaqişələr) və siyasi sabitliyin təmin olunması, dövlət idarəçiliyinin bərqərar olması ilə bağlı məsələlərə xüsusi diqqət yetirilir. Bu araşdırmalarda, əsasən münaqişə dövründə insanların uzun müddət sosial xidmətlər ala bilməməsi, işsizlik, hakimiyyətdaxili çəkişmələr, məhkəmə və qanunvericiliyin işləməməsi və onların nəticələri təhlil olunur, problemin həlli ilə bağlı layihələr, proqramlar irəli sürülür. Onu da qeyd edək ki, Azərbaycanın düşdüyü vəziyyət bir çox ölkələrdəkindən əsaslı şəkildə fərqlənir. Bunlara b*irincisi*, 1988-ci ildən (əslində XX əsrin əvvəlindən) başlayaraq Ermənistanın Azərbaycana qarşı yürütdüyü haqsız ərazi iddiası və xarici havadarlarının dəstəyi ilə ərazimizin 20%-dən çox hissəsini işğal etməsi, *ikincisi*, işğal edilmiş ərazilərdən 600 mindən çox insanın ölkənin başqa regionlarında, hərbi sabitliyin hökm sürdüyü ərazilərdə məskunlaşması, *üçüncüsü*, işğal edilmiş ərazilərin tamamilə dağıdılması, *dördüncüsü*, həmin ərazilərdə Ermənistanın təcavüzkar “ordusu”nun və dünyanın müxtəlif ölkələrindən gətirilən terrorçuların yerləşdirilməsi, *beşincisi*, milli sərvətlərimizin (milli-mədəni və təbii) talan edilərək Ermənistana daşınması və s. aid edilə bilər. Qeyd edək ki, Azərbaycanda məcburi köçkün düşən insanların ölkənin digər regionlarında yerləşdirilməsi, digər post-konflikt ərazilərlə müqayisədə respublikamızın üstünlüyü sayıla bilər. Belə ki, şəhərlərdə məskunlaşan insanlar daha yaxşı təhsil almaq imkanı qazandılar. Bu da, hazırda Qarabağa repatriasiya olunacaq insanların tərkibində insan kapitalının üstünlüyü kimi dəyərləndirilməlidir.

### *Qarabağda innovativ iqtisadiyyat quruculuğunun əlverişliliyi*

İndi Azərbaycan dövlətinin və xalqının qarşısında duran əsas vəzifə işğaldan azad edilmiş ərazilərin yüksək standartlarla bərpa edilməsi və Qarabağı regionun yüksək texnologiyalı məhsul və xidmətlər istehsal edən mərkəzinə çevirməkdir. Bu prosesi Azərbaycanın iqtisadi inkişafının yeni mərhələsi və hərəkətverici qüvvəsi kimi qiymətləndirmək olar. Qarabağda iqtisadiyyatın dirçəldilməsi ölkədə iqtisadi artımda innovasiya amilinin rolunun yüksəldilməsini sürətləndirə bilər. Təbii ki, bu çətin, məsuliyyətli və böyük həcmli kapital tələb edən bir işdir. Bunun üçün elmin bütün sahələrindən olan tədqiqatçıların, ölkədə və ölkədən kənarda fəaliyyət göstərən sahibkarların prosesdə fəal iştirakı tələb olunur.

Hesab edirik ki, Qarabağda innovasiya əsaslı iqtisadiyyatın qurulması, regionda sülhün bərqərar olmasına da həlledici təsir göstərə bilər. Belə bir iqtisadiyyatın reallaşdırılması isə, regional innovasiya sisteminin qurulması istiqamətində “ada yanaşması”na əsaslanan kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Təcrübə göstərir ki, iqtisadi baxımdan rəqabətə davamlı ölkələr sırasına daxil olmaq, əhalinin rifahını yaxşılaşdırmaq üçün ölkədə biznes və innovasiya mühitinin yaradılması zəruri şərtdir. Çünki, yüksək texnologiyalı istehsalın və məhsuldarlığın artırılması, elmi potensialı və insan kapitalını, səhiyyə sistemini, infrastrukturu inkişaf etdirmədən mümkün deyil.

Hazırda işğaldan azad olmuş ərazilərin minalardan təmizlənməsi, paralel olaraq infrastruktur (avtomobil yollarının, hava limanlarının, dəmir yollarının, elektrik stansiyalarının və s.) quruculuğu, sərhədlərin gücləndirilməsi, iqtisadi potensialın və repatriasiya potensialının qiymətləndirilməsi işləri sürətlə davam etdirilir. Fikrimizcə, hazırda Qarabağ, Azərbaycanın innovativ iqtisadiyyat quruculuğu üçün ən əlverişli regionudur. Çünki orada hər şey sıfırdan başlanır. N. Müzəffərlinin fikrincə “post-konflikt ərazilərdə köhnənin bərpası ilə müasir standartlara cavab verən yenisinin tikilməsi arasında uzlaşdırma aparılmalıdır. İşğaldan azad edilmiş ərazilərdəki infrastruktur və istehsal obyektlərinin, sosial-mədəni təsisatların real vəziyyəti, rəsmən qəbul edilmiş bərpa standartları, dövlətin resurs (ilk növbədə maliyyə) imkanları, ərazinin dağıdılmasından bərpa işlərinin başlanmasına qədər keçən vaxtın uzunluğu və bəzi başqaları həmin amillər sırasındadır. Problemin özəlliyi ondadır ki, hətta köhnə obyektlərin işini bərpa etmək mümkün olduqda belə, müasir mütərəqqi texnologiyalara söykənən yeni inşaat bir çox hallarda daha effektivdir. Bu təkcə informasiya-kommunikasiya sistemlərinə deyil (onların köhnə texnoloji zəmində bərpası açıq-aşkar əlverişsizdir və əksərən mənasızdır), məsələn, yol təsərrüfatı kimi ənənəvi infrastruktur elementlərinə də aiddir *(Müzəffərli, İsmayılov, 2010, s.35)*. Hazırda işğaldan azad edilmiş ərazilərdə müşahidə olunan vəziyyət göstərir ki, köhnədən heç bir şey qalmamışdır. Bu, o deməkdir ki, hər bir struktur yenidən qurulmalıdır. Nə qədər qəribə səslənsə də, bu, Qarabağın müqayisəli üstünlüyü kimi dəyərləndirilə bilər. Buradakı quruculuq işləri re-

gionun resurs potensialından səmərəli istifadəsini də diqqətdə saxlamaqla Regional İnnovasiya Sisteminin (RİS) formalaşdırılmasını tələb edir. İƏİT mütəxəssislərinin verdiyi tərifə görə "RİS müvafiq texnoloji və ya funksional sahələr qrupu daxilində kollektiv öyrənmə prosesi yaradan iqtisadi, sosial, siyasi və institusional təşkilatlar arasında qarşılıqlı əlaqələrin məcmusudur *(İGİ, 2021)*. Bunun üçün regionda müasir tələblərə cavab verən Universitet şəbəkəsinin, texnoparkların, biznes inkubatorların, yüksək texnologiyalara əsaslanan istehsal və xidmət sahələrinin yaradılması və onların qarşılıqlı əlaqə mexanizminin təşkili həyata keçirilməlidir. Təbii ki, RİS-in belə bir işlək mexanizmin hazırlanması üçün Qarabağda yeni və innovativ iqtisadiyyatın qurulması imkanları, gələcək inkişaf perspektivləri ilə bağlı ciddi elmi araşdırmalar aparılmalı, elmi müzakirələr keçirilməlidir.

Qarabağda yeni iqtisadiyyat quruculuğunda qeyri-ənənəvi sənaye istehsalına (təkcə Qarabağ üçün deyil, ümumilikdə Azərbaycan və region ölkələri üçün) və intellektual xidmət sahələrinə üstünlük verilməlidir. Hazırda Qarabağda tikilməsi planlaşdırılan "ağıllı kənd", "ağıllı şəhər" və "ağıllı müəssisə" konsepsiyası da Qarabağda innovasiya əsaslı iqtisadiyyat quruculuğunun sürətləndirilməsinin mühüm tərkib hissəsi ola bilər. Bu layihələrin reallaşdırılması Qarabağı regionun və Azərbaycanın müasir dünya standartlarına cavab verən beyin mərkəzinə çevirəcəkdir.

Qarabağda innovasiya əsaslı iqtisadiyyatın qurulması Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılmasına da ciddi şəkildə müsbət təsir göstərəcəkdir. Hazırda Azərbaycanın Qlobal İnnovasiya İndeksində (Qİİ) mövqeyi qaneedici deyil. Hazırda hər bir ölkənin sosial-iqtisadi inkişafı, qlobal rəqabət mühitinə inteqrasiya etməsi hər şeydən əvvəl elm və innovasiyalara əsaslanan iqtisadiyyatın, daha doğrusu, innovativ məhsul və xidmətlər istehsal etmək, beynəlxalq bazarlara yüksək texnologiyalı məhsullar çıxara bilmək imkanlarından asılıdır. Əslində bunun üçün Azərbaycanın real imkanları vardır. Azərbaycanda innovasiya məhsulu yaratmaq üçün formalaşdırılan mühit qismən əlverişli olsa da, innovasiya məhsulunun yaradılması ilə bağlı mövqeyimiz olduqca zəifdir. Qİİ – 2021 hesabatında 132 ölkə arasında Azərbaycanın 80-ci pillədə qərarlaşması buna əyani misal ola bilər. Qİİ-də İnnovasiya mühiti sub-indeksi üzrə ölkəmiz 74-cü yerdə olduğu halda, İnnovativ nəticələr sub-indeksində 91-ci yerdə qərarlaşmışdır. Bu onu göstərir ki, ölkəmizdə innovasiya potensialından yetərincə səmərəli istifadə olunmur.

Bilirik ki, bazara çıxarılan məhsulun innovativlik səviyyəsi rəqabət qabiliyyətinin yüksəldilməsi və ölkədə davamlı iqtisadi artım üçün həyati əhəmiyyət kəsb edir. Çünki rəqabətqabiliyyətli iqtisadiyyata nail olmaq yeni biliklərin yaradılması və istifadəsini tələb edir. Müasir dövrdə dünyada gedən inkişaf prosesinə inteqrasiya etmək üçün iqtisadiyyatlar innovasiya, tədqiqat və araşdırma, yüksək texnologiyalı məhsul istehsalına əsaslanmalıdır. Qarabağda ixtisaslaşmış regional innovasiya sisteminin qurulması (RİS) üçün aşağıdakı struktur sxemini təklif edirik (Bax Şəkil).

Təqdim olunan bu modelə görə Qarabağın Kəlbəcər Laçın və Şuşa rayonlarını əhatə edən turizm və kreativ məhsullar üzrə ixtisaslaşmış regional innovasiya sistemi, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarını əhatə edən aqrar emal məhsulları üzrə ixtisaslaşmış innovasiya sistemi, Ağdam, Tərtər, Bərdə və Ağcabədi rayonlarını əhatə edən sənaye məhsulu üzrə ixtisaslaşmış regional innovasiya sistemi qurula bilər. Bu sistemlərin işlək olması və onlar arasında effektli qarşılıqlı əlaqənin qurulması ümumilikdə Qarabağda innovasiya əsaslı inkişafı sürətləndirə bilər.

Qarabağda belə bir RİS modelinin qurulması və sistemin effektiv işləməsi üçün tələb olunan zəruri təşviq və güzəştlərin verilməsi Qarabağı regionun beyin mərkəzinə çevrilməsində əhəmiyyətli rol oynaya bilər. Son illərdə inkişaf etmiş ölkələrdə RİS-in qurulması istiqamətində tədbirlər görülür. Hazırda İƏİT ölkələri regional innovasiyaları dəstəkləməklə iqtisadi inkişafa daha çox töhfə verməyə səy göstərirlər. Onlar öz güclü tərəflərini inkişaf etdirmək və kursu dəyişmək üçün strategiyaları və siyasət alətlərini müəyyənləşdirir və həyata keçirirlər (OECD, 2013). Şübhəsiz ki, bu tədbirlər ölkələrin innovativ göstəricilərini yaxşılaşdırır. Eyni zamanda, regionların tarazlı inkişafını, bilik, bacarıq və qabaqcıl təcrübələrin sürətlə yayılmasını asanlaşdırır. Tədqiqatçıların *(Doloreux and Parto, 2004, s.19; Isaac, 2012)* fikrincə, "infrastruktur və bilik ötürmə sistemləri, eləcə də firmaların fərdi strategiya və fəaliyyətində innovasiyaların təşviqi regional inkişafın əsas şərtidir".




Şəkil. Qarabağ RİS-in qurulmasının struktur modeli

Yaşadığımız XXI əsrin ilk 21 ili biliyin inkişafı (biliyin istehsalı, emalı, ötürülməsi, iqtisadiyyata və sosial həyata tətbiqi) səviyyəsinə və sosial-iqtisadi tərəqqidə roluna görə əvvəlki dövrlərdən ciddi şəkildə fərqlənir. Məhz XXI **əsrdə sürətlə dəyişən və inkişaf edən rəqəmsal texnologiyalar, süni intellekt, sənayenin robotlaşması, internet əşyaları və s. iqtisadiyyatın strukturunu dəyişməkdədir. Sadalananların 2030-cu ilə qədər iqtisadiyyatın strukturunda və ictimai rifahın təmin olunmasında da ciddi dəyişikliyə səbəb olacağı əsas gözləntilərdəndir. Azərbaycan iqtisadiyyatının bu dəyişikliyə adaptasiyası intellektual potensialın** formalaşdırılmasını zəruri şərtə çevirir. Çünki yaranan yüksək texnologiyalar, süni intellekt, internet əşya və robotlar verilən tapşırığın icrasında nə qədər dəqiq olsa da, onların idarə olunması və xidmət göstərilməsi üçün intellektual əməyə və insan kapitalına ehtiyac artacaqdır.

Xüsusilə Qarabağda qurulacaq yeni iqtisadiyyatın innovasiya əsaslı olması Azərbaycanın inkişafının da impulsu ola bilər. Unutmaq olmaz ki, regional innovasiya sisteminin idarə olunması insan kapitalından səmərəli istifadəni ön plana çıxarır.

Son illərdə qlobal rəqabət bazarında uğur qazanmaq üçün istehsalın intellektuallaşması, robotların, süni intellektin, internet əşyaların istehsal prosesində və sosial həyatda istifadə olunması məhsuldarlığın yüksəldilməsi, zamana qənaət, ekoloji təmizlənmə üçün qaçılmaz hala gəlmişdir. Fikrimizcə, Qarabağda Dördüncü sənaye inqilabı konsepsiyasının reallaşması məhsuldarlığın yüksəldilməsi ilə yanaşı, yaşayış keyfiyyətinin yaxşılaşmasına və ekoloji problemlərin (qlobal istiləşmə) həllinə müsbət təsir göstərəcəkdir. Bu yol Azərbaycanın regionda uğur qazanması, mənfəət, iqtisadi artım, rəqabət qabiliyyəti və inkişaf etməkdə olan (yerli, milli, regional və beynəlxalq) bazarlara çıxması **üçün daha real görünür.**

**Nəticə**

Qarabağda qurulacaq regional innovasiya sistemi, sənayenin, kreativ iqtisadiyyatın, insan kapitalının inkişaf dinamikasını sürətləndirəcəkdir. Əhalinin repatriasiyası, ora köçürüləcək insanların bilik səviyyəsi, daha doğrusu, Qarabağın insan kapitalı, məcburi köçkünlük dövründə xeyli inkişaf etmişdir. Məcburi köçkünlərin böyük əksəriyyətinin şəhərlərdə yaşaması onların təhsilə olan əlyetərliyini artırmışdır ki, bu da məcburi köçkünlər arasında insan kapitalının inkişafına ciddi təsir göstərmişdir.

Qarabağda qurulacaq yeni və innovasiya əsaslı iqtisadiyyat, orada yaradılacaq əlverişli mühit bir sıra, xüsusilə, bilik göstəricilərinin üstünlük təşkil etdiyi Qlobal Rəqabət İndeksi, Qlobal İnnovasiya İndeksi, Qlobal Şəbəkə İndeksi, İnsan Kapitalının İnkişafı İndeksi, Biliyin İnkişafı İndeksi və s. bu kimi beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yüksəlməsinə təsir göstərəcəkdir.

Təqdim olunan bu modelə görə Qarabağın Kəlbəcər Laçın və Şuşa rayonlarını əhatə edən turizm və kreativ məhsullar üzrə ixtisaslaşmış regional innovasiya sistemi, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarını əhatə edən aqrar emal məhsulları üzrə ixtisaslaşmış innovasiya sistemi, Ağdam, Tərtər, Bərdə və Ağcabədi rayonlarını əhatə edən sənaye məhsulu üzrə ixtisaslaşmış regional innovasiya sistemi qurula bilər. Bu sistemlərin işlək olması və onlar arasında effektli qarşılıqlı əlaqənin qurulması ümumilikdə Qarabağda innovasiya əsaslı inkişafı sürətləndirə bilər.

**İstinadlar**


1. Cooke Ph., Uranga M.G, Etxebarria G. (1997) Regional innovation systems: Institutional and organisational dimensions, Research Policy, Volume 26, Issues 4–5, 1997, Pages 475-491, https://doi.org/10.1016/S0048-7333(97)00025-5.
2. Developing National Sustainable Development Strategies in Post-Conflict Countries - WORKING DRAFT - https://sustainabledevelopment.un.org/content/documents/guidance-notes.pdf
3. Doloreux D., Parto S. (2003) Regional Innovation Systems: A Critical Review https://www.urenio.org/metaforesight/library/17.pdf
4. İGİ Global, (2021) https://www.igi-global.com/dictionary/regional-innovation-systems/48087
5. Müzəffərli N., İsmayılov E. (2010) Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar Bakı, "Qafqaz" nəşriyyat evi, 2010. – 270 s.
6. OECD (2013) Reviews of Regional Innovation. Regions and Innovation Collaborating across Borders https://doi.org/10.1787/9789264205307-en
7. OECD Regional Innovation
8. Onder H. (2021)Wanted: Economic principles for post-conflict recovery, Tuesday, February 16, 2021
9. Sarah D., Miranda D., Norchi Ch.H. (2010) Innovations for Post-Conflict Transitions: The United Nations Development Program in the Democratic Republic of Congo. February 2010 Ash Center for Democratic Governance and Innovation Harvard Kennedy School 78 p
10. Sarah D., Miranda D., Norchi Ch.H. (2010) Innovations for Post-Conflict Transitions: The United Nations Development Program in the Democratic Republic of Congo. February 2010 Ash Center for Democratic Governance and Innovation Harvard Kennedy School 78 p
11. Sweeney N.M. (2008) PRIVATE SECTOR DEVELOPMENT IN POST-CONFLICT COUNTRIES A

REVIEW OF CURRENT LITERATURE AND PRACTICE // Cambridge, UK . Editor: Jim Tanburn 2008, 89 p.
12. Sweeney N.M. (2008) Private Sector Development In Post-Conflict Countries A Review Of Current Literature And Practice // Cambridge, UK . Editor: Jim Tanburn 2008, 89 p.
13. UNDP 2010 Capacity Development in Post-Conflict Countries. Global Event Working Paper. UNDP 2010
14. UNDP, (2010) Capacity Development in Post-Conflict Countries. Global Event Working Paper. UNDP 2010
15. UNEP (2009): Integrating Environment in Post-Conflict Needs Assessments. UNEP Guidance Note. Geneva: UNEP. https://wedocs.unep.org/bitstream/handle/20.500.11822/17457/integrating_env_postconflict_needs_assessment.pdf?sequence=1&amp%3BisAllowed=
16. USAID, (2009). A Guide to Economic Growth in Post-Conflict Countries. London: Office of Economic Growth, USAID.
17. USAID. (2009). A Guide to Economic Growth in Post-Conflict Countries. London: Office of Economic Growth, USAID.
18. Wendy S.B. and Gisvold G. (2003) "Conflict Mapping: Innovation in International Responses in Post-Conflict Societies." Human Rights Brief 10, no. 3 (2003): 24-27
19. Wendy S.B. and Gisvold G. (2003) Conflict Mapping: Innovation in International Responses in Post-Conflict Societies. Human Rights Brief 10, no. 3 (2003): 24-27
20. World Bank, (2020) https://databank.worldbank.org/source/world-development-indicators#

**MUSAYEV Yusif**

UNEC, doktorant

# AĞDAMDA MƏŞĞULLUĞUNTƏMİN EDİLMƏSİNDƏ AİLƏ BİZNESİNİN İMKANLARI

**Xülasə:** Məqalədə Ağdamda inşa edilən "Ağıllı şəhər"də əhalinin məşğulluğunun təmin edilməsində ailə biznesinin imkanları, onların sosial-iqtisadi inkişafın təmin olunmasında rolu araşdırılmış, onun perspektiv inkişafı ilə bağlı əməli xarakterli təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** Ağdam, ağıllı şəhər, ailə biznesi, məşğulluq

## Giriş

Prezident İlham Əliyevin müdrik siyasi rəhbərliyi və Azərbaycan ordusunun rəşadəti ilə 44 günlük vətən müharibəsi nəticəsində torpaqların işğaldan azad olunması Azərbaycanın tarixində yeni bir səhifə açmışdır. Mövcud reallıqlar bölgədə yeni konfiqurasiya formalaşdırmaqla bərabər hökumət üçün yeni hədəflər də müəyyənləşdirmişdir. Qarabağ və Şərqi Zəngəzura böyük qayıdışın həyata keçirilməsini yaxınlaşdıran nəhəng infrastruktur layihələrinin surətlə gerçəkləşdirilməsi, o cümlədən, Ağdamda "Ağıllı şəhər" proyektinin tətbiqi burada məskunlaşacaq əhalinin məşğulluq problemlərinin həllini aktual edir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkə iqtisadiyyatına transformasiyası və bölgənin iqtisadi potensialından səmərəli istifadə edilməklə əhalinin məskunlaşdırılması, eləcə də, onların məşğulluğunun təmin edilməsi əsas prioritetlər sırasında görünməkdədir. Reallaşdırılan böyük infrastruktur layihələri, o cümlədən, avtomobil və dəmir yollarının inşası, enerji infrastrukturunun yenidən qurulması, beynəlxalq hava limanlarının tikilməsi, Zəngəzur dəhlizinin yaradılması istiqamətində Azərbaycan dövlətinin qətiyyətli mövqeyi və bütün kommunikasiyaların açılması gözləntiləri işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının artmasına və ölkə iqtisadiyyatına böyük töhfələr verməsinə zəmin yaradır. 2 fevral 2021-ci ildə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər"də 5 əsas hədəfdən birini də "işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış"ın təmin edilməsi təşkil edir. Milli prioritetlərdə işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın həyata keçirilməsi üçün etibarlı məskunlaşma sisteminin formalaşdırılması və yüksək həyat standartlarının tətbiqi yolu ilə bölgənin Azərbaycanın sosial-iqtisadi cəhətdən ən inkişaf etmiş ərazilərindən birinə çevrilməsi qarşıya məqsəd qoyulmuşdur [1]. Bütün bunlar isə, işğaldan azad olunmuş ərazilərdə əlverişli biznes və sahibkarlıq mühitinin formalaşmasını da sürətləndirir.

### "Ağıllı kənd" və "Ağıllı şəhər" təcrübəsi

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasının aktiv fazasında əsas diqqət çəkən məsələlərdən biri də "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarının tətbiq olunması ilə bağlıdır.

Belə ki, Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Zəngilanın rayonunun Ağalı kəndində icra edilən ilk "Ağıllı kənd" layihəsi işğaldan azad edilmiş ərazilərin sosial mənzərəsini müəyyənləşdirir və qaçqın və məcburi köçkünlərin tezliklə bu ərazilərə qayıdacağından xəbər verir[15, 3]. Bundan əlavə, Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam şəhərinin baş planı hazırlanarkən "Ağıllı şəhər" konsepsiyası əsas götürülmüşdür və rayonda "Ağıllı kənd", "Ağıllı şəhər" layihələri icra olunur ki, bu da Ağdamın ən müasir və inkişaf etmiş şəhərlərindən birinə çevrilməsinə səbəb olacaqdır [14].Beynəlxalq miqyasda "Ağıllı kənd" və "Ağıllı şəhər"konsepsiyalarını fəal şəkildə təbliğ edən təsisatlardan biri Avropa Birliyidir. Konsepsiyalar yeni texnologiyaların, xüsusən də internetin geniş tətbiqi, ucqar ərazilərin və kəndlərin tənəzzülünə qarşı qlobal strategiyaların vacib komponentləri kimi qəbul olunur. Bu niyyətlə də, Avropa Birliyi bölgələrin inkişafdan geri qalmasının qarşısını almaq üçün bir sıra birlik ölkələrində yaşayış məntəqələrinin yaradılmasında ağıllı vasitələrdən istifadə təcrübəsini dəstəkləyir. Bu istiqamətdə müsbət təcrübələr Polşa, İsveç və digər Avropa ölkələrində mövcuddur. Avropa ölkələri artıq intellektual cəmiyyətlərə çevrilmişdir və baş verən transformasiyalar qlobal texnoloji yeniliklərdən asılıdır. Layihələrin tətbiqi nəticəsində məsafə anlayışı xeyli dərəcədə əhəmiyyətini itirir və davamlı proseslər nəticəsində mal və xidmətlər, xüsusən də ictimai xidmətlər daha əlçatan olur. Bununla da, informasiya və kommunikasiya texnologiyalarının inkişafı qlobal dünyada bir çox problemlərin həlli üçün bir fürsət kimi qiymətləndirilir[7].Qarabağda müasir şəhərsalma standartlarına cavab verən meqapolisin yaradılması burada məskunlaşacaq sakinlərin məşğulluq problemlərinin də həllini aktual məsələlərdən biri edir. Bəllidir ki, şəhərin baş planında sənaye parkı və sahibkarlar üçün digər imkanların yaradılması nəzərdə tutulmuşdur. Bununla belə, qabaqcıl dünya ölkələrinin iqtisadiyyatlarında böyük paya sahib olan ailə biznesi imkanlarından istifadə Ağdamda insanların davamlı məşğulluğunda və rayonun sosial iqtisadi inkişafında mühüm rol oynaya bilər.

**Ailə biznesinin rolunun təhlili**

Ailə şirkətləri hər yerdə fəaliyyət göstərir. Statistika göstərir ki, ailə firmaları dünya üzrə bizneslərin əksəriyyətini əhatə edir və hər bir xalqın sosial-iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayır [8].Beynəlxalq Maliyyə Korporasiyasının məlumatına əsasən bir çox ölkələrdə ailə biznesi ümumi müəssisələrin 70%-dən çoxunu əhatə edir, iqtisadiyyatın böyüməsində və işçi qüvvəsinin məşğulluğunda əsas rol oynayır [9]. Daha önəmli bir amil ondan ibarətdir ki, ailə müəssisələri gəlirləri artırmaq və iqtisadi fəaliyyət üçün vacib bir biznes infrastrukturu yaradır və bu da öz növbəsində orta təbəqənin inkişafını surətləndirir.

Elmi ədəbiyyatlarda ailə biznesinin hamı tərəfindən qəbul edilən vahid konsepsiyası olmasa da, ən çox işlənən yanaşmalardan birinə görə ailə sahibkarlığı üç meyara əsaslanır.

1. Biznesin idarə olunmasında ailənin iştirakı

2. Ailənin biznesdə kapital payına sahib olması

3. Biznesin növbəti nəsilə ötürülməsi mümkünlüyü

Bu konsepsiyaya əsasən, ailənin biznes sahibi olması və idarəçilikdə iştirakı şirkətin performans və innovasiya prosesinin beynəlmiləl xarakter almasından irəli gələn artmış qeyri-müəyyənlik və mürəkkəbliyin mənfi təsirlərini azalda bilər. Eyni zamanda, qeyri-ailə nümunələri ilə müqayisədə ailə sahibkarları beynəlmiləlləşmənin faydalarını daha yaxşı əldə edə bilirlər. Bundan əlavə, ailə şirkətləri digərlərindən bir sıra cəhətlərinə, o cümlədən, ölçülərinə, faydalarına, böyümə imkanlarına və təmsil etdikləri industriyalara görə də fərqlənirlər [17].

Şəhərlərdə yeni iş yerlərinin yaradılmasına tələbi formalaşdıran bir neçə amillər mövcuddur ki, bunlara aşağıdakıları daxil etmək olar.

1. *Əhalinin sıxlığı*. Əhalinin sıxlığı nə qədər yüksək olarsa, rəqəmsal platformalar da bir o qədər daha yaxşı işləyir. Şəhər sıxlığı həm tələb, həm də təklif tərəfindən yüksək nəticənin reallaşdırılmasına imkan verir.

2. *Şəhər iqtisadiyyatında xidmət sektorunun genişlənməsi*. Şəhər iqtisadiyyatı emal və isteh-

sal industriyasından xidmət sektoruna keçidi surətləndirir və cəmiyyətin inkişafına təkan verir. Beləliklə də, yeni iş yerlərinin yaradılmasına tələbi stimullaşdırır.

3. *Maaşlı məşğulluğun çatışmazlığı*. Əmək bazarının strukturunda mövcud olan dəyişikliklər, xüsusilə də, aşağı ixtisaslı işçilər üçün yaşanan çətinliklər bu qəbildən olan işçi qüvvəsinin məşğulluq problemlərini çoxaldır. Bu mənzərə şəhərlərdə daha güclü şəkildə özünü göstərir. Çünki, şəhər yerləri kənd ərazilərindən daha cazibədar olduğu üçün iş axtaran yoxsul insanları özünə cəlb edir.

4. *Yeni iş istəklərinin meydana çıxması*. Hazırda dünya əmək bazarında daha müstəqil və daha çevik iş formalarına artan tələbatın yarandığının şahidi oluruq. Aparılan araşdırmalar göstərir ki, artıq insanlar tək fəaliyyət sahəsi ilə qənaətlənmirlər və bir neçə iş və peşə sahəsinə sahib olmağa can atırlar. Açıqlanan informasiyalar mövcud vəziyyəti qiymətləndirməyə imkan verir və hesablamalara görə göstərilən kateqoriya üzrə insanların 15%-i artıq iş tapmaq üçün rəqəmsal platformalardan istifadə edir[12]. Ailə biznesi ailə firmaları üçün yerli və qlobal aspektləri birləşdirən kompleks dinamikanı başa düşmək üçün ideal bir kontekstdir[16]. Qloballaşma, rəqəmsal texnologiyalar, sosial və ekoloji narahatlıqlar ailə şirkətlərinin yerli və beynəlxalq fəaliyyətinə təsir göstərir. Ailə firmaları məhsul və xidmətlərini xarici bazara çıxararkən yerli və qlobal mühitlər arasında parçalanır, eyni zamanda daxili bazarda möhkəmlənmiş görünür[4].Çox vaxt ailə firmalarının fəaliyyət göstərdikləri bölgə ilə güclü bir bağlılığı olduğu düşünülür [6].Beləliklə, ailə firmalarının yerli köklərinin həm biznes, həm də ailə səviyyəsində strateji baxışlara necə təsir etdiyini və ailə firmalarının yerli köklərini və regional bağlılığını üstün performansla nəticələnən rəqabət üstünlüyünə necə çevirə biləcəyini daha yaxşı başa düşməyə ehtiyac vardır.

Ailə biznesi xeyli hallarda ailənin özü olaraq da qəbul edilir və ailənin nüfuzu firmanın imicindən çətinliklə seçilir[18]. Bundan əlavə, ailə biznesləri gender bərabərliyi, müxtəliflik və əlverişli iş mühitinin yaradılması da daxil olmaqla öz cəmiyyətlərində inklüziv dəyərləri təşviq edərək sosial inteqrasiyada əsas rol oynayır[5]. Bununla belə, ailə firmaları ilə milli iqtisadiyyat və sosial-iqtisadi inkişaf arasında sıx bağlılıq olmasına baxmayaraq tədqiq olunan mövzuda demək olar ki, çox az empirik araşdırmalar mövcuddur.

**Ağdamda ailə biznesi perspektivləri**

Ailə biznesinin bir çox üstün cəhətlərə malik olması və sosial-iqtisadi inkişafın davamlı xarakter daşımasına müsbət təsiri sahibkarlığın bu növünün Ağdamda məşğulluğun təmin edilməsində səmərəli alətlərdən biri olmasını şərtləndirir.

“Ağdamda təşkil ediləcək sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaqdır. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir”[11]. Ağdamda ilk olaraq əhalinin işğaldan öncəki təcrübəsinə və tarixi ənənələrə söykənən ailə bizneslərinin formalaşması daha səmərəli hesab olunur. Sonrakı mərhələdə isə, ailə sahibkarlığının dünya təcrübəsində uğurlu sayılan digər növlərinin yaranmasına dəstəyin göstərilməsi və onların genişlənməsi Ağdam rayonunda məşğulluğun təmin edilməsinə və rayonun sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verə bilər. Mövcud potensial Ağdamda həm emal, həm də istehsal sektorlarının fəaliyyətinə imkan verir və xüsusilə, kənd təsərrüfatı və turizm sektorunda inkişaf üçün yeni fürsətlər yaradır. Bununla belə, Ağıllı şəhər layihəsinin reallaşması iqtisadiyyatın üçüncü sektoru sayılan müxtəlif xidmət sahələrinin də Ağdamda inkişafını labüd edir. Bu isə, ailə biznesləri üçün yeni fürsətlər kimi qiymətləndirilməlidir [13]. Qarabağın, o cümlədən Ağdamın sənətkarlıq, turizm və kənd təsərrüfatında tarixi ənənələrə və təbii resurslara malik olduğunu nəzərə alsaq, dövlət dəstəyi və planlaşdırılan layihələr bölgədə ailə sahibkarlığı üçün böyük perspektivlər açacaqdır.

Hazırda Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs (ABAD) ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi Ağdamda yeni bir müştərək layihə gerçəkləşdirir. Birgə layihənin əsas məqsədi fermerlər üçün əlverişli biznes şəraiti yaratmaqla müasir kəsim üsullarının tətbiqini və istehlak-

çıların sağlam ət və ət məhsulları ilə təmin olunmasını həyata keçirməkdir. Yeni qəssabxanalar heyvandan insana keçən xəstəliklərin yayılmasının qarşısının alınmasına xidmət edəcəkdir. Sahibkarlara dəstək proqramı çərçivəsində Qida Təhlükəsizliyi İnstitutu öz hesabına yeni kəsim məntəqələrinin tikilməsini yerinə yetirəcəkdir. ABAD isə ailə biznesləri ilə iş təcrübəsinə əsaslanmaqla layihə iştirakçılarının seçimi ilə məşğul olacaq, onların potensialını və biznes idarəetmə bacarıqlarını qiymətləndirəcək, eləcə də qəssablar üçün təlimlər təşkil edəcəkdir [2]. Ağdamda daha çox insanların ailə biznesinə əlçatarlığını artıracaq vasitələrdən biri də özinvestisiya layihələrinə dəstək məqsədilə ABAD, Azərbaycan Beynəlxalq Bankı və Aqrar Kredit və İnkişaf Agentliyi arasında birgə əməkdaşlığa dair niyyət protokolunun imzalanmasıdır.Bu sənədə görə, müştərilərə güzəştli kreditlərin verilməsi, aqrar məhsulların qablaşdırılması və satışının təşkili, istehsal və marketinq sahələrində yeni təcrübələrin əldə edilməsi, logistika, nəqliyyat, sertifikatlaşdırma, ekspert dəstəyi və təcrübə mübadiləsi istiqamətlərində dəstək veriləcəkdir. Onu da qeyd etmək lazımdır ki, ABAD tərəfindən kənd təsərrüfatı və sənətkarlıq məhsullarının istehsalı və satışına dəstək nümayiş etdirilir. Ağdamda aqrar sektorda təbii bal, mürəbbələr, süd məhsulları, kompot, quru meyvələr, tərəvəz məhsulları, içkilər, sənətkarlıqda xalçaçılıq, milli örtüklər, zərgərlik, bəzək əşyaları, dəri məhsulları, dekorativ-tətbiqi sənət nümunələrinin hazırlanması və s. böyük potensial mövcuddur. Rayonda yerli əhalinin Qarabağın sənətkarlıq, milli mətbəx və mədəniyyət nümunələrinin daşıyıcısı olmaqla adı çəkilən məhsulların istehsalında özünəməxsus ənənələrə malik olduğunu nəzərə alsaq bu istiqamətlər üzrə ailə biznesləri böyük rəqabət üstünlüyünə malik olmaqla müəyyən məhsulların xarici bazarlara ixracını da reallaşdıra bilərlər.

**Nəticə və təkliflər.**

Qloballaşan dünyada ağıllı şəhərlərin artması ilə rəqəmsal platformalar üzərindən həyata keçirilən fəaliyyət və iş növlərinə tələbat surətlə artmaqdadır. Bu tip yeni məşğulluq formaları ilə bağlı təşviqlər daha çox şəhər mühitində reallaşdırılır və belə xidmətlərin səviyyəsi və çeşidlərinin genişlənməsi əhalinin sıxlığına da təsir edir. Belə nəticəyə gəlinir ki, reallaşdırılan yeni layihələr Ağdamda sosial-iqtisadi inkişaf üçün güclü impulslar yaradır. Bununla belə, "Ağıllı şəhər"in Azərbaycanda ilk layihə olduğunu və məşğulluq problemlərinin yarana biləcəyini ehtimal edərək aşağıdakı təkliflərin nəzərə alınmasını tövsiyə edirik.

1. Dövlət tərəfindən ailə biznesinin stimullaşdırılması məqsədilə geniş güzəştli kredit paketlərinin təklif olunması.

2. Ailə biznesi ilə məşğul olacaq insanlar üçün peşə təhsili kurslarının yaradılması.

**İstinadlar**


1. "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. E-qanun. 2021.
2. "Easy Support to Family Business" public legal entity (ABAD). (2020). New abattoirs are about to be established in the liberated areas. Available online: https://abad.gov.az/post/163?locale=en
3. Apa. (2021). Azərbaycanda Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Available online: https://apa.az/az/xeber/resmi-xeber/azerbaycanda-serqi-zengezur-iqtisadi-rayonu-yaradilib-651586
4. Baù, M., Block, J., Discua Cruz, A., & Naldi, L. (2021). Bridging locality and internationalization–A research agenda on the sustainable development of family firms. Entrepreneurship & Regional Development, 1-16.
5. Berrone, P., C. Cruz, and L. R. Gomez-Mejia. 2012. "Socioemotional Wealth in Family Firms: Theoretical Dimensions, Assessment Approaches, and Agenda for Future Research." Family Business Review 25 (3): 258–279.
6. Bird, M., and K. Wennberg. 2014. "Regional Influences on the Prevalence of Family Vs. Non-Family Start-Ups." Journal of Business Venturing 29 (3): 421–436.
7. ENRD. Smart Villages: Revitalising Rural Services. EU Rural Rev. 2018, 26.
8. Howorth, C., & Robinson, N. (2020). Family Business. New York, NY: Routledge.
9. IFC. Family Business Governance. Available online: https://www.ifc.org/wps/wcm/connect/

topics_ext_content/ifc_external_corporate_site/ifc+cg/topics/family+business+governance
10. Interfax. (2021). Vusal Qasımlı: The construction boom in Karabakh can revive the entire economy. Available online:http://interfax.az/view/828350
11. İkisahil. (2021). AğdamŞərqiAvropanınəngözəlvə “ağıllı” şəhəriolacaq. Available online: https://ikisahil.az/post/246005-agdam-sherqi-avropanin-en-gozel-ve-agilli-sheheri-olacaq
12. Ménascé, D., Vincent, C. E., & Martin Moreau, M. (2017). Smart Cities and new forms of employment. Field Actions Science Reports. The journal of field actions, (Special Issue 16), 16-21.
13. Musayev, Y. (2021). Development of family businesses in Karabakh region of Azerbaijan: new opportunities and prospects. Economic and Social Development: Book of Proceedings, 449-458.
14. President İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Available online: https://president.az/articles/51777
15. Report. (2021). ZəngilanınAğalıkəndsakinləri “Ağıllıkənd”dəaparılanişlərlətanışolub. Available online: https://report.az/ask/zengilanin-agali-kend-sakinleri-agilli-kend-de-aparilan-isler-le-tanis-olub/
16. Sharma, P., and S. Sharma. 2021. Pioneering Family Firms’ Sustainable Development Strategies. Cheltenham, UK: Edward Elgar Publishing .
17. Tsao, S. M., & Lien, W. H. (2013). Family management and internationalization: The impact on firm performance and innovation. Management International Review, 53(2), 189-213.
18. Zellweger, T. M., and R. S. Nason. 2008. “A Stakeholder Perspective on Family Firm Performance.” Family Business.Review 21.(3): 203–216.

**PAŞA Tanrıverdi**
AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi

# AĞDAM RAYONU İQTİSADİYYATININ RƏQABƏT ÜSTÜNLÜKLƏRİ HAQQINDA

**Xülasə:** Məqalədə Ağdam rayonu iqtisadiyyatının ümumi səciyyəsi verilmiş, rayonun sosial-iqtisadi inkişafına təsir göstərən xarici və daxili amillərin təhlili əsasında rayon iqtisadiyyatının rəqabət üstünlükləri müəyyən edilmiş, hazırda qlobal tendensiyalara və Azərbaycan Respublikasının inkişaf prioritetlərinə uyğun olaraq, işğaldan azad olunmuş Qarabağ regionunun, o cümlədən Ağdam rayonunun strateji inkişaf prioritetləri çərçivəsində rayon iqtisadiyyatının işğaldan əvvəlki vəziyyətinin və ərazinin bərpası və dirçəlişi ilə əlaqədar güclü və zəif tərəflərinin, inkişaf məhdudiyyətlərinin təhlili və qiymətləndirilməsi əsasında mövcud və gələcəkdə qarşılana biləcək problemlər nəzərə alınmaqla müxtəlif sahələri - insan inkişafı, iqtisadi inkişaf, məkan inkişafı, klasterlərin yaradılması, aqrar-sənaye kompleksində investisiya və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və s. əhatə edən tədbirlər üzrə təklif və tövsiyələr işlənmişdir.

**Açar sözlər:** Ağdam rayonu, Qarabağ regionu, rəqabət üstünlükləri, xarici və daxili amillər, iqtisadi inkişaf, insan inkişafı, klasterlər, investisiya və innovasiya fəallığı, aqrar-sənaye kompleksi

→

## Giriş

İşğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayon olmaqla, ölkə ərazisinin 1,3%-i, yeni yaradılmış Qarabağ regionunun 7%-i təşkil edir. Ağdam ərazisinin 92 faizindən çoxu məhsuldar torpaqlardır. Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdam rayonundadır. Burada aqrar sektorun inkişafına geniş imkanlar vardır. Kənd təsərrüfatı bitkiçilik məhsulları istehsalında - tərəvəz, dənli və dənli paxlalılar, şəkər çuğunduru, pambıq, üzüm, meyvə və giləmeyvə, kartof və bostan məhsulları üstünlük təşkil edir. Heyvandarlıq məhsulları istehsalında ət, süd, yumurta və yun məhsullarının payı böyükdür.

Ağdam rayonunun əlverişli coğrafi-iqtisadi mövqeyi, bərəkətli və məhsuldar torpaqları bitkiçilik və heyvandarlıq üzrə fermer təsərrüfatlarının və aqroparkların yaradılması, sənaye məhəlləsinin formalaşdırılması, müalicəvi və idman turizminin inkişafı istiqamətində hərtərəfli inkişaf perspektivləri vəd edir. Sovet dövründə burada - üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq və kənd təsərrüfatının digər sahələri uğurla inkişaf edirdi, xammal bazası mövcudluğu halında isə şərabçılığı inkişaf etdirmək, meyvə-tərəvəz konservləşdirilməsi və emal sənayesinin digər sahələri üzrə istehsalı yoluna qoymaq asanlıqla mümkün olacaq. Aqrar istehsal potensialı ilə yanaşı, Ağdam rayonunda taxılın emalı, heyvandarlıq məhsullarının (süd, gön-dəri və s.) emalı müəssisələrinin qurulması üçün böyük potensial da nəzərə alınmalıdır. Bu region üçün trend hesab edilən tərəvəzçilik sektoru üzrə emal müəssisələri, arıçılıq məhsullarının istehsalı

imkanları da hesablanarsa, təmərküzləşmə və klasterial inkişafın təmin olunması əsasında burada formalaşacaq aqro-sənaye kompleksinin gələcəkdə ölkə iqtisadiyyatına sovet dövründə olduğundan qat-qat artıq töhfə verəcəyini əminliklə demək olar.

Ağdam rayonu regionda böyük ticarət mərkəzinin formalaşması üçün də unikal ərazi hesab edilir. Topdan və pərakəndə ticarət məntəqələrinin işə salınması ilə rayon əhalisinin geniş məşğulluğu da təmin edilə bilər. Bundan başqa, rayonun təbiəti və tarixi abidələri turist cəlb etmək baxımından üstünlüyə malikdir. Ağdamda xüsusilə yay turizm imkanları genişdir.

Bölgədə lazımi infrastrukturun yaradılması məqsədi ilə Ağdamda təməli qoyulan Sənaye Parkı Azərbaycanda beşinci Sənaye Parkı olacaq. İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Ağdamda həyata keçirilən böyük infrastruktur layihələri reallaşdıqdan sonra təkcə sənaye parkında deyil, digər istiqamətlərdə də investisiyaların cəlb edilməsi mümkün olacaq. Sənaye parkında inşaat materialları, kənd təsərrüfatında emaledici məhsullar, o cümlədən şərab, gübrə məhsullarının istehsal edilməsi nəzərdə tutulur. Eləcə də burada xüsusi soyuducu anbar və xidmət sferası fəaliyyət göstərəcək. Burada istehsal edilən məhsullarının bir qisminin xaricə ixrac edilməsi də nəzərdə tutulur.

**Təhlil və qiymətləndirmə**

*Ağdam rayonunun sosial-iqtisadi inkişafına təsir göstərən xarici və daxili amillərin təhlili əsasında aşağıdakı rəqabət üstünlükləri müəyyən edilmişdir:*

**İqtisadiyyat və təbii sərvətlər:**

- rayonun tarixən özünəməxsus iqtisadi-coğrafi mövqeyi;
- sahibkarlığın inkişafı və əhalinin yaşamı üçün əlverişli şəraitin mövcudluğu;
- kifayət qədər geniş, suvarlan və məhsuldar torpaq sahələri;
- müxtəlif təbii ehtiyatlarla, mineral xammalla zənginlik;
- su ehtiyatlarının mövcudluğu;
- meşə ehtiyatlarının yetərliliyi;
- böyük və zəngin təbii ehtiyat potensialı.

**İnsan kapitalı:**

- əlverişli demoqrafik artım;
- əmək ehtiyatlarının yetərliliyi;
- böyük tutumlu istehlak bazarının mövcudluğu;
- güclü bir təhsil mərkəzi olmaq imkanı;
- əhalinin yüksək səviyyədə təşəbbüskarlıq səyləri.

**Nəqliyyat və logistik potensial:**

- beynəlxalq və regional nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi və ya yaxınlığı;
- azad edilmiş rayonlar da daxil olmaqla sərhədyanı bölgələrin inkişaf etmiş nəqliyyat infrastrukturunun mövcudluğu (Naxçıvan dəhlizinin açılması və Böyük İpək yolunun bərpası ilə bu amilin əhəmiyyəti daha da artacaqdır);
- avtomobil və dəmir yollarının mövcudluğu;

**Turizm:**

- əlverişli coğrafi yerləşmə, təbiətin gözəlliyi və zəngin mədəni və tarixi abidələr və irs;
- turistlərin müxtəlif istehlakçı seqmentləri üçün cazibə mərkəzlərinin olması.

*Müasir xarici çağırışların və daxili zəifliklərin təhlili Ağdam rayonunun aşağıdakı problemləri və inkişaf məhdudiyyətlərini vurğulamağa imkan verir:*

**İşğalın nəticələri:**

Ağdam rayonunun əksər kəndlərinin, xüsusən Ağdam şəhərinin əvvəllər mövcud olmuş bütün yaşayış məskənlərinin, ictimai və inzibati binaların, əvvəllər fəaliyyət göstərən hər cür iqtisadi fəaliyyət sahələrinin, kənd təsərrüfatı texnikasının, ictimai iaşə obyektlərinin, məktəb binalarının, vətəndaşların fərdi evlərinin, nəqliyyat və kommunikasiya sisteminin işğal nəticəsində tamamilə dağıdılaraq sıradan çıxarılması;

**İqtisadiyyat:**

- rayonun ölkənin digər sənaye-inkişaf mərkəzlərindən və paytaxtdan uzaq olması;
- iqtisadiyyatın real sektorunun zəif qarşılıqlı əlaqəsi;
- hasilat sektorunun üstünlüyü;
- dərin emal və innovasiya sənayesinin çox az payı;
- regionlararası əlaqələr və klasterləşmə səviyyəsinin yetərli olmaması;
- əsas istehsal fondlarının yüksək dərəcədə köhnəlməsi;
- rəqəmsallaşmanın qeyri-kafi səviyyəsi;
- ölkənin bütün digər kənd rayonlarında olduğu kimi innovativ sahibkarlığın inkişaf səviyyəsinin çox aşağı olması;
- rayon iqtisadiyyatının indiki səmərəsiz və yüksək riskli strukturunun, həmçinin bir müddət infrastruktur məhdudiyyətlərinin qalmasına görə xarici və milli investorların sərmayə qoyuluşlarından çəkinmə ehtimalının mümkünlüyü.

**Emal sənayesinin inkişafına mane olan əsas problemlər:**

- sənaye müəssisələri arasında klasterləşmə və əməkdaşlıq səviyyəsinin olmaması;
- əsas kapitala çox aşağı səviyyədə investisiya qoyuluşu;
- digər regionlarla müqayisədə enerji mənbələrinə qoşulmanın çətinliyi və onların yüksək qiyməti;
- müəssisələrin əsas fondlarının köhnəlməsi;
- müəssisələrin innovasiya fəaliyyətinin olmaması;
- müəssisələrin kommersiya səlahiyyətlərinin kifayət qədər inkişaf etməməsi;
- avadanlıq və onun komponentlərinin təchizatında idxaldan tam asılılığı;
- dövlət dəstəyi almaq üçün prosedurların mürəkkəbliyi.

**Aqrar-sənaye kompleksinin inkişafına mane olan əsas problemlər:**

- innovativ texnologiyalardan istifadənin və müasir texnika və texnologiyalarla təmin olunmanın aşağı səviyyəsi;
- kənd təsərrüfatı məhsullarının saxlanılması üçün imkanların və mövcud güclərin aşağı olması;
- idxal edilən məhsullarla rəqabətin mümkünsüzlüyü və rayonda istehsal olunan kənd təsərrüfatı məhsullarının satışlarının mürəkkəbliyi, o cümlədən respublika pərakəndə satış şəbəkələrinin rəflərinə girmək üçün ciddi maneələr;
- region və bitişik ərazilərin kənd təsərrüfatı məhsullarının keyfiyyətinə, istehsal həcminə və iqtisadiyyatın tələbatına görə balanssız nisbəti;
- aqrosənaye kompleksi iştirakçılarının informasiya və kommunikasiya ayrılığı, sənaye sahələrinin inkişafında mövcud birlik və kooperativlərin zəif fəaliyyəti;
- elmi-tədqiqat və tətbiq işlərinin, seleksiya fəaliyyətinin qənaətbəxş olmaması;
- infrastrukturun kifayət qədər inkişaf etməməsi və enerji mənbələrinin bahalı olması səbəbindən kompleksin aşağı investisiya cəlbediciliyi;
- bəzi ərazilərdə torpağın münbitliyinin aşağı olması, əkin sahələrindən istifadənin və kənd təsərrüfatı təyinatlı torpaqlarının dövriyyəsinin aşağı olması;
- sahədə kadr təminatının aşağı səviyyəsi.

**Turizm potensialından tam istifadə olunmasına mane olan əsas problemlər:**

- bütövlükdə ölkədaxili turizmin inkişafına vahid yanaşmanın olmaması;
- regionlar, həmçinin Ağdam rayonu üçün turizm marketinq strategiyasının olmaması, reklam və müvafiq marketinq tədqiqatlarının aparılmaması;

- beynəlxalq standartlara cavab verən turizm müəssisələrinin az olması səbəbindən, regionun turizm məhsullarının aşağı rəqabət qabiliyyətliliyi;
- işğal nəticəsində tarixi yerlərin və obyektlərin qənaətbəxş səviyyədə saxlanmaması, turizm mərkəzlərinin inkişaf səviyyəsinin qeyri-kafi olması;
- turizm və səyahət sahəsinə investorları cəlb etmək və bu sahəni dəstəkləmək üçün kifayət qədər iqtisadi alət və mexanizmlərin olmaması.

**İnsan kapitalı:**

- nisbətən yüksək ölüm əmsalı (nisbəti);
- nisbətən yüksək demoqrafik yük;
- ixtiraçılıq fəaliyyətinin aşağı səviyyəsi və texnoloji sahibkarlığın zəif inkişafı;
- yüksək ixtisaslı kadr çatışmazlığı;
- təhsilli əhalinin kənd yerlərindən respublikanın digər böyük şəhərlərinə əhəmiyyətli miqrasiyası;
- əhalinin ən iddialı və ixtisaslı hissəsinin, xüsusən də gənclərin bölgəyə qayıdışını əngəlləyən və ya geri qayıtmış olanların təkrar kənara axınına səbəb olacaq şərtlərin qalması.

**Sosial xidmətlər və yaşam keyfiyyəti:**

- əhalinin gəlir səviyyəsində yüksək fərqlilik;
- sosial xidmətlərə əlçatanlığın yarımçıq səviyyəsi;
- yaşam keyfiyyətinin aşağı səviyyəsi;
- sakinlərin fərdi və peşə inkişaf prosesinə cəlb olunma səviyyəsinin yetərli olmaması;
- sosial dəstək tədbirlərinin, əksər əhali kateqoriyasının ehtiyaclarının ünvanlı ödənilməsini hədəf alan meyarların tətbiqində çatışmazlıqların olması.

**İnvestisiya cəlbediciliyi:**

- biznesə yüksək inzibati təzyiqin olması;
- tikinti icazələrinin alınması və müəssisələrin qeydiyyatının çətinliyi;
- sənaye zonalarının kifayət qədər qazlaşdırılmaması və yüksək elektrik tarifləri.

**Nəqliyyat infrastrukturu:**

- aşağı yol tutumu, tənzimləyici tələblərə uyğunluğun aşağı səviyyəsi;
- dağınıq logistik mərkəzlər sistemi və vahid logistik inkişaf strategiyasının olmaması;

**Məkan inkişafı, təbii sərvətlər, ekologiya:**

- müəyyən ərazilərdə işğaldan qaynaqlanan yığılmış ekoloji zərərin və çətin bir ekoloji vəziyyətin olması;
- rayonların inkişaf səviyyəsində əhəmiyyətli fərqlər.

**İnnovativ inkişaf:**

- innovativ fəaliyyətlərin maliyyələşdirilməsi üçün vəsait çatışmazlığı;
- innovasiya bazarında tələb və təklif tarazlığının pozulması
- kiçik və orta müəssisələrin fəaliyyətinin aşağı səviyyəsi;

**Nəticə və təkliflər**

Hazırda qlobal tendensiyalara və Azərbaycan Respublikasının inkişaf prioritetlərinə uyğun olaraq, işğaldan azad olunmuş Qarabağ regionunun, o cümlədən Ağdam rayonunun strateji inkişaf prioritetləri çərçivəsində güclü və zəif tərəflərinə, mövcud və gələcəkdə qarşılana biləcək problemlər nəzərə alınmaqla müxtəlif sahələri əhatə edən aşağıdakı tədbirlərin görülməsini vacib sayırıq**:**

**İnsan inkişafı:**

- rayonun bütün əhalisinin yüksək səviyyəli maddi rifahının formalaşdırılması;
- bərpa olunacaq yaşayış məntəqələrində xüsusi, kollektiv, birgə, kiçik sənaye və tikinti mənətəqələri, kənd təsərrüfatı məhsulları emalı və konservləşdirilməsi sexləri, kustar emalatxanalar və s. açmaqla əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi;
- iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrinin inkişafına və özünüməşğulluq da daxil olmaqla məşğulluğun təmin edilməsinə üstünlük verilməsi;
- rayonda təhsil, səhiyyə və digər sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- əhalinin kütləvi məşğulluğunu təmin edən sosial əhəmiyyətli xidmət sahələrinin inkişafı;
- rayonda əhalinin əmək vərdişlərini, tarixi adət-ənənələrini nəzərə alaraq əvvəllər mövcud olmuş istehsal və məşğulluq sahələrinin, xalq yaradıcılıq-sənətkarlıq sahələrinin, (xalça, gəbə, kilim, gil qablar, misgərlik, əczaçılıq) dirçəldilməsi və inkişafına dəstək verilməsi;
- rayon sakinlərinin hər birinin inkişaf potensialının reallaşması və inkişafı üçün şəraitin yaradılması;
- minimum istehlak büdcəsinə müvafiq olaraq rayonda minimum əməkhaqqı, pensiya təminatı və təqaüdlərin minimum məbləğinin müəyyən edilməsi və onların respublika büdcəsindən ödənilməsinin təmin edilməsi;
- keyfiyyətli demoqrafik inkişaf üçün cəlbedici şəraitin yaradılması, doğum nisbətinin artması və ölüm nisbətinin azalması.

**İqtisadi inkişaf:**

- rayonda iri kapitallı şirkətlərin formalaşması üçün şəraitin yaradılması;
- iqtisadiyyatın klasterli inkişafının aktivləşdirilməsi;
- rayonda iqtisadiyyatın real sektorunun səmərəliliyinin və məhsuldarlığının yüksəldilməsi;
- rayonda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi;
- mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi və dəstəklənməsi;
- rayonda iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi, müqayisəli üstünlüyə malik, əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət sahələri müəssisələrinin həvəsləndirilməsi mexanizmlərinin yaradılması;
- məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması;
- bazarlara, o cümlədən ixrac bazarlarına çıxış imkanlarının asanlaşdırılması, bu istiqamətdə geniş və əhatəli təşviq tədbirlərinin gücləndirilməsi;
- qlobal idxal-ixrac axınlarında rayonun payının artırılması;
- təbii ehtiyatlardan səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin gücləndirilməsi;
- bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi və dəstəklənməsi;
- rayonda müstəqil elmi-tədqiqat mərkəzlərinin və ya paytaxtdakı mərkəzlərin bölmələrinin yaradılması;
- rayonun sosial-iqtisadi inkişafı üzrə elmi tədqiqatların aparılması və kadr hazırlığının təmin olunması üzrə dəstək mexanizmlərin yaradılması;
- rayonda təhsil, səhiyyə və digər sosial xidmətlərin inkişafı məqsədilə mütəxəssislərin regionlara cəlb olunması üçün onların mənzil (və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi) ilə təminatı istiqamətində tədbirlərin görülməsi rayonda rəqəmsal iqtisadiyyatın əsaslarının formalaşdırılması;
- səmərəli təlim və kadr hazırlığı sisteminin formalaşdırılması;
- ölkə ictimaiyyətinin rayonun sosial-iqtisadi inkişafına təsir imkanlarından istifadə edilməsi;

**Məkan inkişafı:**

- rayonlararası sosial-iqtisadi fərqliliyin azaldılması;
- aqlomerasiya proseslərinin inkişafı və onların idarə olunmasının təkmilləşdirilməsi;
- kənd və şəhər kimi məskunlaşmayan ərazilərin qorunması və davamlı inkişafı;

- rayonun özünəməxsus ekosisteminin gələcək nəsillər üçün qorunması və bərpasına əməl etməklə ərazi/təbii ehtiyatların balanslaşdırılmış inkişafı;
- rayonda bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- rayonda texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ istilik mənbələri ilə təminatı;
- kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi;
- rahat və təhlükəsiz mühitin formalaşdırılması;
- institusional ərazi strukturunun təkmilləşdirilməsi;
- şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin xüsusiyyətlərini nəzərə almaqla, onların kompleks inkişafını təmin etmək məqsədilə yerli özünüidarə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;
- regional əmlak kompleksinin səmərəli idarə olunması.

**Sənayedə klasterlərin yaradılması və inkişafı üçün görülməli işlər:**

- rayonun sənaye sahələrinin inkişafını təmin edəcək strateji əhəmiyyətli əsas klasterlərin müəyyənləşdirilməsi və investisiya yuvalarının aşkara çıxarılması üçün dəyər zənciri və biznes bizneslə məşğul olmağın dəyəri barədə araşdırmaların aparılması;
- klasterlərin, klaster idarəetmə şirkətlərinin, klaster inkişaf fondlarının və proqramlarının formalaşmasına və inkişafına müvafiq şərait yaradılması;
- klasterlər çərçivəsində istehsal zəncirlərinin genişləndirilməsinin təşviq edilməsi;
- elmi-tədqiqat mərkəzlərinin iştirakı ilə kiçik innovasiya klasterlərinin yaradılmasına və inkişafına yardım göstərilməsi;
- tamamlanmış infrastruktura malik dövlət və özəl sənaye meydançaları şəbəkəsinin inkişafına şərait yaradılması;
- rayonda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidənqurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi;
- klaster iştirakçıları olan müəssisələrə dövlət dəstəyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi.

**Aqrar-sənaye kompleksində investisiya və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün vacib tədbirlər:**

- aqrar-sənaye bölgələrinin və kənd yerlərinin zəruri infrastruktur dəstəyinin formalaşdırılması və həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və bunların əsasında bəzi sənaye məhsulları istehsalının təşkili üçün lizinq xidmətinin inkişaf etdirilməsi;
- aqrar-sənaye inteqrasiyasının gücləndirilməsi, kənd təsərrüfatında istehsalın intensiv üsullarla artırılması üçün innovativ təsərrüfatçılıq formalarının yaradılması və inkişafının dəstəklənməsi mexanizmlərinin həyata keçirilməsi;
- fermer tərəfdaşlığının və kənd təsərrüfatında kooperasiyanın inkişafının təşviqi;
- sahibkarların və fermerlərin maliyyə mənbələrinə çıxış imkanlarının asanlaşdırılması;
- maliyyə və kredit təşkilatları ilə qarşılıqlı əlaqə sisteminin təkmilləşdirilməsi;
- qrant dəstəyi də daxil olmaqla kredit kooperativləri şəbəkəsinin inkişafı;
- kooperativlər üçün zəmanətli kredit və maliyyə mənbələrinin artırılmasına kömək edilməsi;
- rayonda istehsal fəaliyyəti vacib olan müəssisələrin müvəqqəti də olsa, dövlət himayəsinə götürülməsi, onlara güzəştli kreditlərlə yanaşı, məhsullarının satışı üçün təminat, yaxud dövlət sifarişlərinin verilməsi;
- yeni yaradılacaq müəssisələrə uzunmüddətli əlverişli faizlə kreditlərin verilməsi;
- xırda və orta firmalara, sahibkarlıqla məşğul olan fiziki şəxslərə asanlaşdırılmış şərtlərlə güzəştli və orta müddətli kredit mexanizminin formalaşdırlmasına üstünlük verilməsi;
- hüquqi və fiziki şəxslərdən vergi tutulmasının əlverişli şərtlərinin müəyyən edilməsi;
- təyinatından və istehsal xarakterindən asılı olaraq, ilk növbədə, mikrokredit şəbəkəsinin yaradılması üçün ixtisaslaşmış regional bankların, sığorta təşkilatlarının və investisiya fondlarının təşkili;
- kənd təsərrüfatı işlərini, vençur kapitalında iştirakı, marketinqin inkişafını stimullaşdırmaq üzrə müxtəlif ixtisaslaşdırılmış agentliklər şəbəkəsinin yaradılması;
- rayonda kredit təminatı fondunun (KTF) yaradılması;

- maliyyə və kredit təşkilatları ilə qarşılıqlı əlaqə sisteminin təkmilləşdirilməsi;
- qrant dəstəyi də daxil olmaqla kredit kooperativləri şəbəkəsinin inkişafı zəmanətli kredit və maliyyə mənbələrinin artırılmasına kömək edilməsi;
- xaricdə yaşayan və fəaliyyət göstərən Azərbaycan diasporunun investisiya imkanlarından istifadə edilməsi;
- azad edilmiş ərazilərə müasir texnologiyaları cəlbetmədə vençur kapitalı, kraudfandin və kraudinvestinq modelindən istifadə edilməsi;
- sahibkarlığa mövcud dəstək mərkəzləri şəbəkəsi də daxil olmaqla aqrobiznes institutunun inkişafı, konsaltinq və təhsil xidmətlərinə əlçatanlığı artıraraq aqrar-sənaye kompleksində sahibkarlıq fəaliyyətinin inkişafı;
- bütün mülkiyyət formalarındakı aqrar-sənaye istehsalçıları üçün enerji mənbələrinin (yanacaq və sürtkü yağları daxil olmaqla) əlçatanlığının artırılması üçün optimal şəraitin yaradılması;
- iqlim şəraitində ciddi dəyişikliklər və qiymət dəyişikliyi səbəbindən itki risklərini minimuma endirmək üçün təsirli vasitələrin formalaşdırılması, xüsusilə kənd təsərrüfatı sektoru üçün sığorta sisteminin inkişafı;
- əhalinin texniki yardımlarla təminatının inkişafı, orta həlqə menecerlərinin hazırlanması;
- aqrosənaye kompleksinin inkişafı üçün həmin bölgədən olan ixtisaslı kadrlardan istifadəyə üstünlük verilməsi;
- rayonda ekoloji təmiz məhsul istehsalının inkişafının dəstəklənməsi;
- əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması.

### İstinadlar


1. htpp//1905.az›agdam-rayonu/
2. htpp//afn.az›iqtisadiyyat/97861-adam-rayonu-byk...html
3. htpp//agdam-ih.gov.az
4. htpp//qaynarinfo.az›...adam-rayonu-byuk-iqtisadi...malikdir...
5. htpp//myaghdam.wordpress.com›2010/07/15/agdam-rayonu...
6. htpp//report.az›daxili-siyaset/azerbaycanin...rayonlari...
7. htpp//stat.gov.az›source/regions/
8. htpp//supremecourt.gov.az›static/view/300

**RÜSTƏMOV Elvin**
Geo-Su Group, direktor

# AĞDAM SƏNAYE ZONASINDA SU MƏNBƏLƏRİ ÜZRƏ TEXNİKA VƏ TEXNOLOGİYA MÜƏSSİSƏLƏRİNİN YARADILMASI İMKANLARI

**Xülasə:** İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, əhalinin məskunlaşdırılması, kənd təsərrüfatının inkişafı, sənaye müəssisələrinin yaradılması, infrastruktur və kommunikasiya sistemlərinin qurulması və s. kimi layihələrin regionun inkişafında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, GEO-SU GROUP şirkəti tərəfindən də Qarabağın dirçəlməsi naminə Ağdam şəhərinin sənaye zonasında su mənbələri üzrə texnika və texnologiyalar müəssələrinin yaradılması üzrə araşdırma aparılmış, beş adda müxtəlif təyinatlı müəssisə və mərkəzlərin yaradılmasınının zəruriliyi məqalədə əsaslandırılmışdır.

**Açar sözlər:** Qarabağ-Su, Ağdam-Su, Qazma Qurğusu, Quyu filtri, Quyu nasosu, Təlim Mərkəzi.

→

## Giriş

Müzəffər Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabr tarixində torpaqların ərazi bütövlüyü uğrunda başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində otuz ilə yaxın müddətdə işğal altında olmuş torpaqlar Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü ordu strategiyası nəticəsində işğaldan azad edilmişdir. Yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olan Qarabağda ağıllı şəhər, qəsəbə, kəndlərin yaradılması, əhalinin məskunlaşdırılması, kənd təsərrüfatının inkişafı, sənaye müəsissələrinin yaradılması, infrastruktur və kommunikasiya sistemlərinin qurulması və s. kimi mühüm məsələlər regionun inkişafında mühüm əhəmiyyət kəsb edir.

***İşğaldan azad edilmiş ərazilərdə su ehtiyatlarından istifadə vəziyyəti***

Qarabağın dirçəlməsində digər təbii resurslarla yanaşı su ehtiyatlarından, xüsusi ilə yeraltı sulardan istifadə, yeni su mənbələrinin yaradılması məqsədi ilə işğaldan azad edilmiş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları ərazisində salınması planlaşdırılan yaşayış məntəqələrinin və əkin sahələrinin suya olan tələbatının ödənilməsi üçün mütəmadi olaraq çoxsaylı subartezian quyularının qazılması zərurəti yaranacaqdır.

GEO-SU GROUP şirkətinin fəaliyyət istiqamətinə uyğun olaraq dəstək məqsədi ilə mütəxəssislər tərəfindən araşdırmalar aparılmış və Qarabağın dirçəlməsi naminə (qlobal iqlim dəyişmələrinin yerüstü su ehtiyatlarının azalmasına səbəb olacağını, yeraltı sulardan səmərəli isti-

fadə edilməsinə gələcək illərdə də üstünlük veriləcəyini, Azərbaycanın digər regionlarında hər il qazılan iki yüzdən artıq subartezian quyularının sayının artırılacağını, işğaldan azad edilmiş regionlarda çoxsaylı yeni subartezian quyularının mütəmadi olaraq qazılacağını və hal-hazırda Respublikada on mindən çox subartezian quyularının istismarda olmasını nəzərə alaraq) Ağdam şəhərinin sənaye zonasında **su mənbələri üzrə texnika və texnologiya müəssisələrinin yaradılması** texniki, sosial-iqtisadi baxımdan zəruri hesab edilmişdir.

Bu məqsədlə Ağdam şəhərinin sənaye zonasında aşağıda qeyd edilən müəsissələrin yaradılmasını təklif edirik:

- Ağdam Qazma Qurğuları İstehsalı Müəssisəsi;
- Ağdam Nasos Aqreqatları İstehsalı və Təmiri Müəssisəsi;
- Ağdam Quyu Filtrləri İshtehsalı Müəssisəsi
- Yeraltı sulardan istifadə (qazma, quraşdırma, təmir, istismar) üzrə Texniki-Peşə Məktəbi
- **"Ağdam Su"** və ya **"Qarabağ Su"** brendi altında qablaşdırılmış süfrə suyu istehsalı müəssisəsi.

Qeyd edilən sənaye müəsissələrinin yaradılmasının (yeni istehsal sahələrinin yaradılması ilə xarici istehsalçılardan asılılığın azaldılması, yeni iş yerlərinin açılması, xərclərin optimallaşdırılması, regionun inkişafı və aşağıda qeyd edilən problemlərin həlli məqsədi ilə) əsaslandırılması:

**Ağdam Qazma Qurğuları İstehsalı Müəssisəsi üzrə:**Respublikada subartezian quyularının qazılması əsasən SSRİ dövründə istehsal olunmuş,istismar müddətini başa vurmuş köhnə qazma qurğularından istifadə olunur. İstismar müddətini başa vurmuş qazma qurğularından istifadə quyuların layihə dərinliyinə çatdırılmaması, qazma zamanı tez-tez qəzaların baş verməsi, qazmaya gedən zamanın izafi olaraq artması və s. problemlərə səbəb olur. Bununla yanaşı istismarda olan quyularda dövrü olaraq yuma-təmizləmə işlərinin aparılması, təmirə yararlı olan quyuların təmir-bərpası üzrə qurğular olmadığından bu istiqamətdə işlər qənaətbəxş hesab edilmir. Qeyd edilən problemlərin nisbətən həll edilməsi baxımından son illərdə Türkiyənin sənaye bölgəsi hesab olunan Konya şəhərində istehsal olunmuş qazma qurğularından istifadəyə meyllik nisbətən artmışdır. Türkiyə istehsalı olan qazma qurğularının effektivliyinə və qurğuların hazırlanması texnologiyasının sadəliyinə əsaslanaraq Türkiyə modelini Ağdam şəhərinin sənaye zonasında tətbiq etməklə və müvafiq təcrübəni mənimsəməklə istehsal müəssisəsinin yaradılması texniki-iqtisadi baxımdan səmərəli hesab edilir.

**Ağdam Nasos Aqreqatlarının İstehsalı və Təmiri Müəssisəsi üzrə:** Respublikada on mindən çox subartezian quyuları istismar edilməkdədir. Subartezian quyularının istismarı dərinlik nasosları ilə həyata keçirilir. Bu nasoslar əsasən keçən əsrin ortalarına xas olan istehsal modelində hazırlanmış paslanan materiala malikdir. İstehsal modelinin köhnə olması və modernizasiya edilməməsi müasir dövrün tələblərinə cavab vermir (yüksək elektrik enerjisi sərfiyyatı, soyutma sisteminin quyunun daxilində olan suyun sirkulyasiyasından asılılığı, tez-tez sıradan çıxması və s.). Araşdırma zamanı məlum olmuşdur ki, Türkiyədə son illər istehsal olunmuş paslanmaz materiallı dərinlik nasosları daha modern və texniki baxımdan effektli və iqtisadi cəhətdən səmərəlidir. Bununla yanaşı dərinlik nasoslarının təmiri üzrə ixtisaslaşmış şirkət olmadığı və yalnız ayrı-ayrı kiçik sexlərdə təmir aparıldığından nasosların təmiri effektsiz hesab edilir. Ölkə üzrə istismarda olan subartezian quyularının Kiçik Qafqaz dağlarının ətrafında (Qarabağ və ətrafı) daha çox sayda olmasını və yuxarıda qeyd edilənləri nəzərə alaraq Ağdam şəhərinin sənaye zonasında Nasos Aqreqatları İstehsalı və Təmiri Müəssisəsinin yaradılması texniki-iqtisadi baxımdan səmərəli hesab edilir.

**Ağdam Quyu Filtrləri İstehsalı Müəssisəsi üzrə:** Respublikada subartezian quyuları üçün filtrlər istehsal edilmədiyindən və xaricdə hazırlanmış filtrlərin idxal xərcinin yüksək olması səbəbindən kənd yaşayış məntəqələri üzrə qazılmış subartezian quyularında kustar üsul ilə (loqonda və ya avtogenlə qaydasız formada) hazırlanmış filtrlərdən istifadə edilir. Bu cür normativlərə

uyğun olmayan borulardan filtr məqsədli istifadə quyunun hasilatının gözləniləndən kiçik olmasına gətirib çıxarır. Belə olduğu halda gözlənilən hasilatın əldə edilməsi üçün əlavə quyuların qazılması zərurəti yaranır ki, bu da izafi xərclər ilə nəticələnir. Qeyd edilən problemləri aradan qaldırmaq üçün Ağdam şəhərinin sənaye zonasında Ağdam Quyu Filtrləri İstehsalı Müəssisəsinin yaradılması texniki-iqtisadi baxımdan səmərəli hesab edilir.

**Texniki-Peşə Məktəbinin (yeraltı sulardan istifadə - qazma, quraşdırma, təmir, istismar) açılması üzrə:** Yerüstü su resurslarının azalması yeraltı sulardan daha səmərəli istifadə edilməsi zərurəti yaradır. Subartezian quyularının normativlərə uyğun qazılması, təmiri və istismarı, nasos aqreqatlarının quraşdırılması və istismarı, quyulara texniki xidmətin göstərilməsi, quyuların izafi olaraq işlədilməməsi və s. kimi məsələlər bu sahədə olan texniki işçilərin bilik və bacarıqlarından birbaşa asılıdır. Araşdırmaların nəticəsi göstərir ki, su sahəsində ixtisaslaşmış təlim-tədris mərkəzləri, texniki peşə məktəbləri demək olar ki yox səviyyəsindədir. Bu sahədə olan problemləri və Ağdam şəhərinin sənaye zonasında Texniki-Peşə Məktəbinin (yeraltı sulardan istifadə (qazma, quraşdırma, təmir, istismar)) açılması sosial-iqtisadi baxımdan olduqca səmərəli hesab edilir.

**"Ağdam Su" brendi altında qablaşdırılmış süfrə suyu istehsalı müəssisəsi üzrə :**Ağdam rayonunun yeraltı su ehtiyatları ilə zəngin olması, yeni salınacaq Ağdam şəhərinin əhalisinə görə Respublikanın üçüncü böyük şəhəri olması, coğrafi yerləşməsini nəzərə alaraq, sosial-iqtisadi baxımdan **"Ağdam Su"**və ya **"Qarabağ Su"**brendi altında qablaşdırılmış süfrə suyunun istehsalı olduqca zəruri hesab edilir.

**Nəticə**

Ağdam şəhərinin sənaye zonasında aşağıda adları qeyd edilən su mənbələri üzrə texnika və texnologiya müəssisələrinin yaradılması texniki, sosial-iqtisadi baxımdan zəruriliyi əsaslandırılmışdır;:

- Ağdam Qazma Qurğuları İstehsalı Müəssisəsi;
- Ağdam Nasos Aqreqatları İstehsalı və Təmiri Müəssisəsi;
- Ağdam Quyu Filtrləri İshtehsalı Müəssisəsi;
- Yeraltı sulardan istifadə (qazma, quraşdırma, təmir, istismar) üzrə Texniki-Peşə Məktəbi;
- "Ağdam Su" və ya "Qarabağ Su" brendi altında qablaşdırılmış süfrə suyu istehsalı Müəssisəsi.

**İstinadlar**

1. GEO-SU GROUP şirkətinin müstəqil araşdırma hesabatları: www.geosugroup.com

məqalə →
və tezislər



**RÜSTƏMOVA Vəfa**

AMEA İqtisadiyyat İnstitutu, elmi işçi

# QARABAĞ VƏ ƏTRAF RAYONLARI YENİ İQTİSADİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Xülasə:** Məqalədə 30 ilə yaxın bir vaxta etməni işğalçılarının nəzarəti altında qalmış Qarabağ və ətraf rayonlara dəymiş ziyanlar və onların aradan qaldırılmasında, qarşıya çıxan problemlər göstərilmişdi. Eyni zamanda məqalədə, Qarabağ və ətraf rayonlarının iqtisadi təhlili və qiymətləndirməsi təhlil olunmuş, iqtisadi potensialından və yaranmış problemlər ətraflı izah olunmaqla yanaşı, tarixi faktlara geniş yer verilmişdi.
Tarixi faktlara əsaslanaraq, məqalədə, həm sovetlər, həm də işğal altında olduğu dövrdə, Qarabağ və ətraf rayonlarının iqtisadi potensialı təhlil edilmişdi. Eyni zamanda işğaldan azad edildikdən sonra, dövlət tərəfindən görülən işlər, yeni iqtisadi layihələrin hazırlanması, qarşıya çıxan problemlər kimi mühüm məsələlər yer alır.
Məqalədə, erməni vandalizminin vurduğu ziyanların tez bir zamanda aradan qaldırma zürriyyətini göstərilməklə yanaşı, iqtisadi cəhətdən dəymiş ziyanların miqdarı ön plana gətirilir. Məqalədə ikinci Qarabağ müharibəsindən sonra, görüləcək işlərin, xüsusi ilə də Qarabağ və ətraf rayonlarının yenidən bərpa olunması planı təhlil edilmiş, Qarabağ və ətraf rayonlarının yenidən bərpa olunması üçün təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** Bişkek protokolu, Erməni işğalı, Xocalı soyqırımı, iqtisadi rayonlar, layihə.

→

## Giriş

Azərbaycan Respublikasının zəngin təbii sərvətləri və əlverişli iqtisadi-coğrafi mövqeyə malik olması, əsirlərlə müxtəlif yadelli dövlətlərin hücumuna məruz qalmasına səbəb olmuşdu. Bu münaqişələrdən ən ağrılısı və bu gün də davam edən Ermənistan Respublikasının ölkəmizə qarşı apardığı işğalçılıq hərəkətidir. 1988-1993-cü illərdə erməni millətçiləri, Azərbaycan torpaqlarının 20%-ni işğal etdilər. [7, 7]

Azərbaycan Respublikası erməni millətçilərinin bu vəhşiliyi qarşısında təslim olmadı və beynəlxalq arenalarda, siyasi və ya qeyri siyasi toplantılarda Azərbaycan torpaqlarının itirilməsini, erməni qəsbkarlarının törədikləri vəhşilikləri bütün dünyaya yaymaqla, ermənilərin iç üzünü göstərməyə nail oldu. Heç bir sülh danışıqlarına əməl etməyən ermənilər, yeni torpaqlar üçün yeni müharibəyə hazırlaşmağa başladı. 25 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının çıxışında ermənilərin müharibəyə hazırlaşdıqlarını, Ermənistanın təxribatlarının nəticələrini qeyd etmiş, iyulun 17-dən etibarən sentyabr ayına qədər hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşındığını bildirmişdir [2].

Ermənistan Silahlı Qüvvələri 27 sentyabr 2020-ci il səhər saatlarında təmas xəttini pozaraq böyük qarşıdurmanın yaratmasına səbəb oldular. 44 günlük Vətən Müharibəsində Azərbaycan Respublikasının kimi tarixə öz qələbəsini yazdı. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranması yolverilməzdir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev müraciətində "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoymalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". qeyd etmişdi. Azərbaycanın bu haqlı savaşında qardaş Türkiyə hərbi müttəfiq kimi, beynəlxalq arenada Azərbaycana güclü dəstək nümayiş etdirdi və Azərbaycan ordusu 44 günlük müharibədə düşməni məğlub edərək, tarixi torpaqlarının geri aldı.

Düşmən işğaldan azad edilmiş şəhər və kəndlərimiz xarabazara, meşələri qırılıb və yandırılıb, torpaqlar yararsız hala salınıb. Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli şəhərləri səhranı xatırladır. Bu dağıntıların aradan qaldırılması və erməni vandalizminin törətdiyi cinayətlər və dağıntılar dünya ictimaiyyətinə çatdırılması ilə yanaşı, respublikada yeni iqtisadi quruculuq layihələri hazırlanır. Bütün mövcud problemlərə baxmayaq dövlət səviyyəsində Qarabağın yenidən inşası başlamışdı. Burada əsas məqsəd, dağıdılıb, viran edilmiş Qarabağ və ətraf rayonları yenidən inşa edilərək, iqtisadiyyatının inkişafına nail olmaq, öz yurdından didərgin düşmüş azərbaycanlıları öz evlərinə qayıtmasına nail olmaqdır. Məhz bu baxımdan, Qarabağ və ətraf rayonlarının iqtisadi inkişafına təkan vermək, yeni uğurlara nail olmaq ən aktual məsəllərdən biridir.

**Qarabağ və ətraf rayonlarının iqtisadi təhlili *və qiymətləndirməsi***

Sentyabrın 27-də başlanan və 44 gün çəkən Qarabağ müharibəsi Azərbaycan Respublikasının iqtisadi gücünü sübut etdi. Öz tarixi qələbəsini qeyd etdikdən sonra, Azərbaycan dövləti işğaldan azad etdiyi bu torpaqlarda abadlıq və bərpa işlərinin apar*ılması ilə yanaşı, Qarabağ və ətraf rayonlarının iqtisadi potensialını bərpa etmək, yeni iqtisadi inkişafa nail olmaq üçün, yeni layihələrə start verdi.*

Qarabağ və ətraf rayonlarının iqtisadi təhlili və qiymətləndirməsi bu gün ən aktual məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, Qarabağ iqtisadi rayonu Azərbaycan Respublikasının 14 iqtisadi rayonlarından biridir. Sahəsi 7330 km² olmaqla, tərkibinə Ağdam, Şuşa, Ağcabədi, Bərdə, Tərtər, Füzuli, Xocavənd inzibati rayonları və Xankəndi şəhəri Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» fərmanı ilə Qarabağ iqtisadi rayonu, qurtulmuşdur [3] .

Qarabağ iqtisadi rayonu iqtisadiyyatın 3 sahəsini- sənaye, hasilat, kənd təsərrüfat sahələrini özündə əks etdirir. Sənaye sahəsinin inkişafı əsasən yerli kənd təsərrüfatı xammalının emalına əsaslan güclü iqtisadi potensiala malikdir. Müxtəlif kənd təsərrüfatı məhsulları və konserv məhsullarının istehsalı bu gün həm daxili bazarda, həm də xarici bazarda əsas tələb olunan ehtiyaclar tərkibinə daxildir. Məhz bu sahə qısa bir müddətdə yenidən inşa edilərək, əhalinin həm məskunlaşmasında, işlə təmin olunmasında əhəmiyyətli rol oynaya bilən əsas faktorlardandır.

Azərbaycan Respublikasının iqtisadi potensialından istifadə olunduğundan, bura daha sürətlə inkişaf etməyə başlayır. Məhz bu baxımdan Xankəndində inşa edilmiş müəssisələr keçmiş muxtar vilayətin sənaye məhsulunun yarısından çoxunu istehsal edirdi. 1988-ci illər ərəfəsində Xankəndində, ayaqqabı, ipək kombinatı, tikiş fabrikləri, xalça, süd kombinatı və şərab zavodu fəaliyyət göstərirdi. Elektrotexnika zavodunun, tikinti materialları kombinatının, mebel fabrikinin, asfalt-beton zavodunun məhsulları Azərbaycanın daxili bazarına çıxarılırdı [4].

Qarabağ iqtisadi rayonları içərisində Ağcabədi rayonunun öz yeri vardır. Azərbaycan Respublikasının ən iri kənd təsərrüfatı rayonlarından biri olan Ağcabədi rayonu 1 şəhər, 1 qəsəbə və 39 kənd inzibati ərazi vahidindən və 44 kənddən ibarət olmaqla, ərazisi 1756 km², əhalisi 128100 nəfərdir. Rayonun iqtisadiyyatının əsasını yüngül və yeyinti sənayesi təşkil edirdi. Azərbaycan Respublikasının əsas pambıqçılıq rayonu olmasına baxmayaraq, burada taxılçılıq, üzümçülük, heyvandarlıq və baramaçılıq inkişaf etmişdir. Ağcabədi rayonu da erməni millətçilərinin təcavüzünə məruz qalmışdı.

Ağdam və rayonun bir çox kəndləri işğaldan azad olduqdan sonra, yenidən təhlil edilməli, bu yerlərin iqtisadi analizi aparılmalıdır. Siyasi baxımdan, istərsə də iqtisadi baxımdan mövzunun aktuallığını nəzərə alaraq, həm tarixi, həm də müasir faktları aydınlaşdırmaq lazımdır.

Birinci Qarabağ müharibəsindən əvvəl Ağdam rayonunda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı , 15 şərab zavod, 1 şampan zavodu, 10 istirahət mərkəzi, Qarabağın ən böyük musiqi məktəbləri fəaliyyət göstərməsinə baxmayaraq, bu gün Ağdam xəyallar şəhəri adlanır. Qarabağın ürəyi sayılan Ağdam rayonu, Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Buralar biçənək və otlarla zəngindir. Bu zonada gələcəkdə heyvandarlığı inkişaf etdirmək zəruri hesab olunur. Belə ki, otlaq sahələrin bol olmasına baxmayaraq, burada heyvandarlıq zəif inkişaf etmişdi. Ağdam rayonu ərazisində faydalı qazıntılardan əhəng daşı, gil, çakıldaş, qum, gillicə ilə zəngin olması, bu yerlərdə ağır yeyinti və yüngül sənayeyə inkişaf etməsinə səbəb olmuşdu. Sözsüz ki, bu sahənin də inkişafı əhəmiyyətlidir [5].

Bərdə rayonunun tarixi qədimdir. Bərdə rayonunda 73 müəssisə, 32 məktəbəqədər uşaq müəssisəsi, 76 məktəb, 16 tibb müəssisəsi, 205 mədəniyyət ocağı yerləşir. O, Qarabağ düzündədir, sahəsi 957 $km^2$, əhalisi 138,1 min nəfərdir. Ərazisində zəngin gil, çınqıl və qum yataqları var.

Füzuli rayonu 1993-cü ildə ermənilər tərəfindən işğal edilir. Yalnız, 1994-cü ildə rayonun bir hissəsi işğaldan azad edilir. 17 oktyabr 2020-ci ildə isə tarixində Füzuli rayonu işğaldan tam azad olunmuşdu. Füzuli rayonunda 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri vardır. 51 kənd və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulub Füzuli rayonunun ümumi sahəsi 1390 kvadrat kilometrdir. 2011-ci ildə Füzuli rayonunda istehsal edilmiş 88.1 milyon manatlıq məhsulun və xidmətlərin 50 faizini kənd təsərrüfatı sahələri, 25 faizini sənaye sahələri, 25 faizi xidmət sahəsinin payına düşür [6 ].

**Nəticə**

Hal- hazırda işğaldan azad olan Qarabağı və ətraf rayonlarının bərpası sürətlə aparılır. bu sahədə bir çox problemlər vardır ki, bunlardan biri Ermənistan Respublikasının minalı ərazilərin xəritələrinin tam verməməsi, meşələrdə gizlənən erməni silahlı qüvvələrinin yarada biləcəyi terror hərəkatıdır. Bu iki problemin həll olunması olduqca vacibdir. Bu problemlərin həll olunması gələcəkdə Qarabağ və ətraf iqtisadi rayonlarının tam iqtisadi inkişafına nail olmaq daha asan olacaqdır. Nəzərə alsaq ki, hasilat baxımından Qarabağ iqtisadi rayonunun əsas təbii sərvətləri hesab olunan meşələrdə tapılan müxtəlif ağac növləri, gələcəkdə ağac emalı müəssisələrinin inkişafına kömək etməsi baxımından nəzərə alınmalıdır. Bunun üçün, qırılmış, yandırılmış meşələr müəyyən bir vaxt içərisində yenidən bərpa olunması lazımdır.

Qarabağda sənaye baxımından qısa vaxta bərpa oluna bilən sahə, qida sənayesinin əsas qolu olan şərabçılıqdır ki, bu sahənin istehsalını yaxın dövrdə həyata keçirtmək mümkündür. Sənaye sahələrinin paralel olaraq, kənd təsərrüfatının sahələrinin inkişafına səbəb olacaqdır. Bu yerlədə ipəkçiliyin, heyvandarlığın inkişafı üçün hər cür şərait var. Ən əsası, füsunkar təbiətinin olması bu yerlədə iri miqyaslı sağlamlıq turizmin üçün çox əlverişlidir.

Zəngin təbii ehtiyatlar: meşələr, mineral bulaqları (Turşsu, Şırlan) qiymətli xammal olmaqla yanaşı, Azərbaycan Respublikasının iqtisadiyyatının misilsiz sərvəti hesab olunur. Bu yerlərdə dağıdılmış iqtisadi komplekslərlə bərabər, yaşayış məntəqələrinin tez bir zamanda bərpa olunaraq, yerindən qaçqın və didərgin düşmüş dinc əhalinin geriyə qayıtması ən aktual məsəllərdən biridir. Məhz bunun üçün, hər bir Qarabağ iqtisadi rayonun ayrılıqda təhlil olunmalı, bütün tədqiqi nəticələr toplanaraq tətbiq olunmağa başlanmalıdır.

İşğaldan azad edilən bu torpaqların iqtisadi təhlili və qiymətləndirilməsi ilə yanaşı, qarşıya çıxan problemlər və onların aradan qaldırılması ön planda olmalıdır. Belə ki, erməni və onun havadarlarının təzyiqi davam etmədədir. Onda əsas məqsədimizə çatmaq üçün iki məsələnin həlli vacib hesab olunur:. birincisi, əhalinin təhlükəsizliyinin təmin edilməsi, ikincisi isə dağıdılmış, yerlə - yeksan edilmiş torpaqlarımızın bərpasına nail olmaqdır.

**İstinadlar**


1. https://az.wikipedia.org/wiki/Da%C4%9Fl%C4%B1q_Qaraba%C4%9F_Muxtar_Vilay%C9%99ti
2. https://az.wikipedia.org/wiki/Erm%C9%99nil%C9%99rin_C%C9%99nubi_Qafqaza_k%C3%-B6%C3%A7%C3%BCr%C3%BClm%C9%99si
3. https://marja.az/73384/yeni-iqtisadi-rayonlar-yaradildi-ferman
4. https://az.wikipedia.org/wiki/Xankəndi
5. https://az.wikipedia.org/wiki/A%C4%9Fdam_rayonu
6. https://az.wikipedia.org/wiki/F%C3%BCzuli_rayonu
7. Yaqub Mikayıl oğlu Mahmudov, Kərim Kərəm oğlu Şükürov Qarabağ: Real tarix, faktlar, sənədlər.Bakı, “Təhsil”, 2009. 144 səh.

**RÜSTƏMOV Famil**

AMEA İqtisadiyyat institutu, aparıcı elmi işçi, i.f.d.

# AĞDAMDA AQRAR İSTEHSAL: POTENSIAL, PRİORİTETLƏR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Uzun illər işğal altında qalan, talanan, dağıdılan, məhv edilən torpaqlarımızda iqtisadiyyatın digər sahələri kimi kənd təsərrüfatının da bərpası, yenidən qurulması və inkişafı hazırda qarşımızda duran əsas vəzifələrdəndir. Təqdim edilən məqalədə işğaldan azad olunmuş Ağdam rayonun aqrar potensialı qiymətləndirilmiş, kənd təsərrüfatının bərpası və inkişafı istiqamətləri müəyyən olunmuş, aqrar sektorda ənənəvi istehsal sahələri ilə yanaşı, yeni istiqamətlərində inkişaf etdirilməsi əsaslandırılmış, habelə bu ərazilərdə kənd təsərrüfatının bərpası nəticəsində gözlənilən istehsal göstəriciləri proqnozlaşdırılmışdır.

**Açar sözlər:** aqrar sahə, iqtisadi potensial, iqtisadi artım, aqrar potensial, elektron kənd təsərrüfatı, emal müəssisələri, məhsuldarlıq.

→

## Giriş

Prezident İlham Əliyev Ağdamla bağlı demişdir: “İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq”[5].

İyirmi yeddi ildən artıq düşmən əsarəti altında qalan Ağdam rayonu işğaldan azad edilmiş rayonların arasında əhalisinin sayına görə ən böyük rayondur. İşğaldan öncə Ağdam rayonunda 140 mindən çox insan yaşayırdı. Rayonun əhalisi əsasən kənd yerlərində məskunlaşmışdı və əsas məşğuliyyət növü isə kənd təsərrüfatı olmuşdu.

Çoxşaxəli aqrar potensiala malik olan Ağdamın sərvətləri uzun illər düşmən tərəfindən talan edilmiş, kənd təsərrüfat ilə məşğul olan yerli əhali məcburi köçkün vəziyyətində ölkənin müxtəlif şəhər və rayonlarında məskunlaşmağa məcbur olmuş, yaşayış binaları, ümumi infrastruktur, o cümlədən kənd təsərrüfatı istehsalı üçün zəruri infrastruktur obyektləri (fermalar, anbarlar, emal müəssisələri, irriqasiya sistemləri və s.) darmadağın edilmişdir.

Olduqca əlverişli coğrafi mövqeyə malik olan Ağdam rayonu ölkə ərazisinin 1,3 faizini əhatə edir və onun sahəsi 1150 kvadrat kilometrdir. Rayonun relyefi əsasən düzənliklərdən və qismən də

dağlıq ərazilərdən ibarətdir. Ağdam rayonu Respublikamızın qədim, füsunkar təbiətli ərazisi olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Ağdam rayonu mülayim nəmliyi, qışının yağıntılı və yumşaq, yayının isə mülayim-isti iqlimi ilə səciyyələnir. Yuxarı Qarabağda ən çox suvarılan torpaq sahələrinə malik Ağdam rayonunda əsasən çimli dağ-çəmən, bozqır dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, dağ-qara, boz- qəhvəyi, dağ-şabalıdı, boz, şabalıdı, çəmən-meşə torpaq tipləri yayılıb. Ağdam rayonunun kənd təsərrüfatı torpaqları əsasən Qarqar, Gül yatağı, Xaçın, Qabartı çayları ilə, həmçinin Xaçın çayı üzərində yerləşən Dərbənd su anbarı və Tərtər çay üzərində yerləşən Sərsəng su anbarı hesabına suvarılır.

Eyni zamanda, əkin dövriyyəsinə cəlb ediləcək azad olunmuş ərazilərin suvarılması üçün yeni potensial da yaranıb. Belə ki, Suqovuşan, Xudafərin su anbarları, Ağdam kənd, Vəlvələçay kimi su resurslarının Ağdamın əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi rayonun kənd təsərrüfatının inkişafına əhəmiyyətli töhvə verəcəyi şübhəsizdir. Ağdam rayonunda mövcud olan örüş-otlaq və biçənək sahələri kifayət qədər genişdir və respublikanın müvafiq sahələrinin təxminən 0,8 faizini təşkil edir ki, bu da yerli əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələrini yaşatmağa və inkişaf etdirməyə imkan verəcəkdir. Rayonda düzən ərazilərin və əlverişli təbii-iqlim şəraitinin mövcud olması bitkiçilik sektorunun inkişafı üçün münbit şərait yaradır. Mövcud iqlimin və bol sulu çaylarının verdiyi imkanlara görə rayon sakinləri həm birillik bitkilər, həm də çoxillik əkmələri rahatlıqla becərə biləcəklər. İşğaldan öncə Ağdamda əkinçiliyin əsasən pambıqçılıq, taxılçılıq, üzümçülük və tərəvəzçilik sahələri inkişaf etdirilmişdi. Taxıl zəmiləri, pambıq tarlaları, üzümlüklər, meyvə bağları, yem bitkilərinin əkin sahələri rayon ərazisində geniş sahələri əhatə edirdi.

***Ağdam rayonunun spesifik inkişaf xüsusiyyətləri***

1980-ci illərin statistik məlumatlarına əsaslansaq, həmin dövrdə Ağdamda 28813 hektar ümumi əkin sahəsinin 28267 hektarını üzüm(13042ha), taxıl(7660ha) və pambığın(7565ha) əkin sahələri təşkil etmişdir. Ağdam rayonunda 1988-ci ilin əkin sahələrinin strukturuna diqqət yetirsək, taxıl və pambıq sahələrinin daha geniş sahələri əhatə etdiyini müşahidə edərik. Ağdam rayonunda 1988-ci ildə mövcud olan pambıq sahələri ölkənin ümumi pambıq sahəsinin 2,5 faizini, taxıl sahələri isə müvafiq əkin sahələrinin 1,4 faizini təşkil edirdi.

Ağdamın işğala məruz qalmamış hissəsində 2019-cu ilin əkin sahələrinin strukturuna nəzər saldıqda isə görürük ki, mövcud olan taxıl sahələri ölkədəki taxıl əkini sahəsinin 1,6 faizini, pambıq sahələri isə ölkədəki müvafiq əkin sahəsinin 2,9 faizini təşkil edib. Ağdam rayonunda işğaldan əvvəlki illərdə, daha dəqiq desək, 1980-1988 illərdə taxıl istehsalında 6 faizdən yuxarı artım müşahidə olunub. 1988-ci ildə isə 7,7 min hektar taxıl sahəsindən 30 min tondan çox taxıl biçilib, orta məhsuldarlıq isə 40 sent/ha yaxın təşkil edib, maksimum məhsuldarlıq isə 44,6 sent/ha olub. Bu isə həmin dövrdə nəinki ölkə üzrə, hətta keçmiş SSRİ-də orta məhsuldarlıq göstəricilərindən yüksək olmuşdur. 1988-ci ildə Ağdamda istehsal olunan taxıl ölkə üzrə istehsal olunan taxılın 2,5 faizini təşkil edib. 2019-cu ildə işğala məruz qalmayan Ağdam ərazisindəki müvafiq istehsalın xüsusi çəkisi isə 1,6 faiz təşkil etmişdir. İşğaldan öncəki illər ərzində məhsuldarlığın ölkə səviyyəsindən daha yüksək olması, taxıl istehsalında Ağdam rayonunun yüksək potensial imkanlara malik olduğunu bir daha göstərir.

Statistik məlumatlardan da göründüyü kimi, Ağdam rayonunda tarixən ən çox becərilən kənd təsərrüfatı məhsulu pambıq olmuşdur. 1988-ci ildə 7565 hektar sahədən 19297 ton məhsul əldə edilmişdi. Məhsuldarlıq da olduqca yüksək olmuşdur. Ölkə üzrə pambığın məhsuldarlığı üzrə orta statistik göstərici bir hektara görə 35.4 sentner olduğu halda, Ağdamda bu göstərici 48.3 sentner olmuşdur. Həmin illərdə Ağdamda pambıq istehsalı ölkə üzrə ümumi istehsalın təqribən 3 faizini təşkil edirdi. 2019-cu ilin statistik məlumatlarına görə həmin ildə Ağdam rayonunun işğala məruz qalmamış ərazilərində 2,6 min hektar ərazidən 7,3 min ton pambıq yığılıb ki, burada da orta məhsuldarlıq bir hektarda 28,1 sentner olmuşdur.

Ağdam rayonunun kənd təsərrüfatında potensialı yüksək dəyərləndirilən digər bitkiçilik sahəsi tərəvəzçilikdir. Sovetlər birliyi dönəmində bu bölgədə min tonlarla bostan məhsulu istehsal edilmişdir. 1980-ci ildə 417 hektar ərazidən min tona yaxın bostan məhsulu toplanmışdı. İşğal-

dan əvvəlki illərdə tərəvəz və bostan bitkilərinin əkin sahələri ümumi əkin sahələrinin cəmi 1.7 faizini təşkil edirdisə, son illərdə Ağdamın işğal edilməmiş ərazilərində tərəvəz və bostan bitkilərinin, xüsusilə də kartof, sarımsaq və soğanın əkin sahələrinin xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmışdır. Təkcə 2019-cu ildə 4,5 min hektar əkin sahəsindən 107,5 min ton tərəvəz əldə edilmişdir.

Təhlil göstərir ki, işğaldan əvvəlki dövrdə Ağdam rayonunda tərəvəz məhsuldarlığı ölkə üzrə orta göstəricidən aşağı olduğu halda, bu bitkilərin məhsuldarlığı işğala məruz qalmamış ərazilərdə 2019-cu ildə ölkə üzrə orta göstəricidən yüksək olmuşdur. 1980-1988-ci illərdə Ağdamda tərəvəz istehsalı ölkə üzrə istehsalın cəmi 0,2 faizini təşkil edirdisə, 2019-cu ildə bu göstərici 6,3 faizdən yüksək olmuşdur. Son illərdə Ağdam rayonunun işğala məruz qalmamış hissəsində tərəvəz əkinlərinə, xüsusilə də soğan və sarımsağın istehsalına olan maraq ölkənin iqtisadi göstəricilərində də öz əksini tapmışdır, Ehtimal olunur ki, bu tendensiya azad edilmiş digər ərazilərdə də baş verəcək və bu bölgədə lazımı innovasiyaların tətbiqi nəticəsində digər bitki növləri ilə yanaşı, tərəvəz bitkilərinin əkin sahələrinin genişləndirilməsi və yüksək məhsuldarlığın əldə edilməsinin şahidi olacağıq.

Ağdamın işğala məruz qalmamış hissəsində üzümlük sahələri isə demək olar ki, yoxdur. Halbuki, üzüm istehsalı Ağdam rayonunda ənənəvi təsərrüfat sahələrindən biri hesab olunurdu. Əvvəlki illərlə müqayisədə üzüm əkilən sahələrin və yığılan məhsulun həcmində müəyyən geriləmə müşahidə olunsa da 1988-ci ildə Ağdam rayonunda 15.5 min hektar üzüm əkini sahəsindən 86.1 min ton məhsul yığılmışdır. Ağdam rayonunda üzümçülük təsərrüfatının ən məhsuldar dövrü isə 1985-ci ili hesab etmək olar. Həmin ildə 21,3 min hektar üzüm əkini sahələrindən 104 min tondan çox məhsul götürülmüşdür. 80-ci illərdə Ağdamda üzümçülük təsərrüfatlarında məhsuldarlıq ölkə üzrə qeydə alınan orta məhsuldarlıqdan bir qədər aşağı olsa da, ölkə üzrə ümumi istehsalın təqribən 8 faizini təşkil etmişdir. Bu isə Ağdam rayonunun yüksək üzüm təsərrüfatçılığı ənənələrinə malik olduğunu göstərir.

Əminəm ki, yerli təbiətə, torpağa, iqlimə uyğun, ekoloji cəhətdən sağlam, insan orqanizmi üçün olduqça faydalı yerli, ənənəvi sortlarımızı əkərək, yeni texnologiyaların tətbiqini reallaşdıraraq Ağdamın üzümçülük ənənələrini tezliklə bərpa və inkişaf etdirmək mümkündür. Həmçinin işğaldan azad edilmiş ərazilər üçün qəbul edilmiş tədbirlər planı çərçivəsində digər bitki növləri ilə yanaşı, üzüm əkini sahələrinin artımı və daha yüksək məhsuldarlığın hesabına ölkənin üzümə olan tələbatını tam təmin etmək olar. Süfrə üzümü ilə yanaşı texniki üzüm sortlarının yetişdirilməsi bu regionda şərabçılıq sektorunun yaranması və inkişafına ciddi zəmin olacaqdır. Bu bölgədə şərabçılıq da çox yaxşı inkişaf etmişdi. 1985-ci ildə Ağdam rayonunda 21,3 min hektar sahədə üzüm bağlarının mövcud olması və bu üzümlüklərin ölkədəki payının 8 faizlik bir hissəsini təşkil etməsi üzümçülüyün bu rayonda prioritet sahə olduğunun göstəricisidir. Ağdamda ilk şərab zavodu 1860-cı ildə fəaliyyətə başlamışdır. İşğala qədər isə Ağdamda 16 şərab və 1 şampan zavodu fəaliyyət göstərib. Respublikamızda 70-ci illərin sonlarında ilk çoxtonlu böyük üzüm saxlama soyuducu anbarı məhz Ağdamda quraşdırılmışdı. Bu müəssisənin fəaliyyəti imkan verirdi ki, hətta qış aylarında da Ağdamdan Respublikamızın və keçmiş SSRİ-nin müxtəlif bölgələrinə təzə üzüm məhsulları tədarük edilsin. Bu soyuducu anbar Ağdam rayonunun Qarabağ üzümçülük və şərabçılıq sovxozunda tikilmişdi və o dövr üçün ən yeni texnologiyalara əsaslanırdı.

Lakin meyvə və giləmeyvəliklərin sahəsi 764.8 hektar olub. İllər keçdikcə əkin sahələrinin strukturunda pambıq sahələrinin çoxillik əkmələr və tərəvəz sahələri ilə əvəzləndiyi müşahidə olunur.

Bu bitkilərlə yanaşı, 80-ci illərdə 306 hektar meyvə və giləmeyvə bağlarının mövcudluğu rayonun çoxillik bitki əkinçiliyi ənənəsinə malik olduğunu sübut edir.

Heyvandarlıq sahəsi üzrə də Ağdamın aqrar potensialı yüksək qiymətləndirilir. Sovetlər dönəmində rayonun əksər yerlərində böyük heyvandarlıq kompleksləri, iri qoyunçuluq təsərrüfatları fəaliyyət göstərib. Rəsmi statistikaya əsasən, Ağdam rayonunda 1988-ci ildə 50 min başa yaxın iribuynuzlu, 200 min başa yaxın xırdabuynuzlu mal-qara olmuşdur. 2019-cu ildə isə Ağdamda 40 min başdan çox iribuynuzlu və 100 min başdan çox xırda buynuzlu mal-qara mövcud olub.

1988-ci ildə Ağdam rayonunda süd istehsalı 24 min tondan çox olub. Həmin ildə yumurta istehsalı isə 19,2 milyon ədəd olmuşdur. 2019-cu ildə isə rayonun işğala məruz qalmayan ərazilərində 2563 ton kəsilmiş ət, 37,9 min ton süd, 15,0 milyon ədəd yumurta və 204 ton yun istehsal edilmişdir.

Təhlillər göstərir ki, Sovet İttifaqının tərkibində olduğumuz illərdə Ağdam rayonunda heyvandarlığın demək olar ki, bütün sahələri üzrə məhsul istehsalı artan dinamika ilə inkişaf etmişdir. Bu bölgədə bəslənilən qabayunlu qoyun cinsi yüksək keyfiyyətə malik olub, əti çox dadlı və ləzzətlidir, yüksək südvermə qabiliyyətinə malikdir. Məhsuldarlıq etibarı ilə bu bölgənin qoyun cinsləri ətlik-südlük-yunluq cinslər hesab olunur. Bu heyvanların diri çəkiləri də, yununun məhsuldarlığı və keyfiyyəti də olduqca yüksəkdir. Yaz qırxımında hər heyvandan orta hesabla 1.85 kq, payız qırxımında isə 0.5-0.6 kq yun götürmək olur. Yunun tərkibində çoxlu qulan və ölü tük olur ki, bu da xalçaçılıq üçün mühüm əhəmiyyət kəsb edir. Bu bölgədə bəslənilən qoyun cinslərinin süd məhsuldarlığı da olduqca yüksəkdir, südün yağlılığı isə 6-7 faizdir.

Respublikamıza at cinsləri içərisində ən çox şöhrət qazandıran məhz Qarabağ atlarıdır. Bu atlar öz yüksək keyfiyyət göstəricilərinə görə təmiz qanlı ərəb atları olan köhlənlə bərabər tutulur. Qarabağ atının addımla yeriş surəti saatda 7 kilometrdir. Qarabağ atları düz yerdə qaçmaqda başqa cinslərdən geridə qalsa da, dağa və dağdan enişə yürüşdə onların hamısından sürətlidir. Qarabağ atının hərəkət xüsusiyyətlərindən biri də odur ki, bu atlar ən sürətli yürüş zamanı birdən-birə dayana bilir, minik zamanı isə az tərləyirlər. XX əsrdə Qarabağ cinsinin tarixində ən önəmli hadisə kimi ixtisaslaşmış Ağdam Atçılıq Zavodunun yaradılmasının əvəzsiz rolu olmuşdur. Zavod rəsmi olaraq SSRİ Nazirlər Sovetinin 8 oktyabr 1948-ci il tarixli, 1681 saylı, Azərbaycan SSR Nazirlər Sovetinin isə 27 may 1949-cu il tarixli, 583 saylı qərarları əsasında yaradılmışdır. [4] 1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genefondumuzun əsaslarından olan Qarabağ atları köçkünük həyatı yaşayır. Ağdam Atçılıq Zavodu 1994-cü ildən Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərir.

Ağdamda arıçılığın inkişaf potensialı da yüksək qiymətləndirilir. Sovetlər birliyi dönəmində Ağdam Arıçılıq Sovxozu fəaliyyət göstərmişdir. Yay aylarında Ağdam arıçıları arı ailələrini Kəlbəcər yaylalarına köçürərək yüksək keyfiyyətli bal əldə etmişlər. Rayonun işğala məruz qalmayan ərazilərində hazırda arıçılıqla məşğul olan fermerlər bir sıra güzəştlərdən faydalana bilirlər. Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən “Qafqazda aztəminatlı məcburi köçkün və yerli əhalinin iqtisadi və sosial inkişafı” (EPİC) proqramı çərçivəsində Ağdam rayonunda təşkil olunan uzunmüddətli texniki-təlimlərin 22 iştirakçısına bal arısı ailələri və arılılıq ləvazimatları təqdim edilib. “EPİC” layihəsi Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin sifarişi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) GmbH tərəfindən həyata keçirilir. Qeyd edək ki, ötən il Ağdam rayonunda arıçılıqla məşğul olan 284 arıçıya saxladıqları 4834 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 48 min 340 manat subsidiya ödənilib.

***Nəticə***

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş digər ərazilərimiz kimi Ağdamda da bütün mülki infrastruktur ermənilər tərəfindən məhv edildiyindən yenidənqurma, quruculuq işləri sıfırdan başlanacaq. Bunun üçün böyük investisiyalar və böyük zəhmət tələb olunur, lakin bu məqamın da öz müsbət tərəfləri vardır. Belə ki, bu bölgədə yenidən yaradılan bütün müəssisələr, o cümlədən aqrar müəssislər ən müasir texnika və texnologiyalarla təchiz edilmiş, ən sərt tələblərə cavab verən, yüksək rəqabət qabiliyyətli məhsullar istehsal etməyə imkan verən müəssisələr olacaqdır. Əminəm ki, yaxın gələcəkdə Ağdamda bir sıra aqrar emal müəssisələri, o cümlədən konserv zavodları, üzüm, pambıq, yun, dəri emalı müəssisələri fəaliyyətə başlayacaq. Bu tipli müəssisələrin mövcudluğu təkcə məşğulluq məsələlərinin həllinə deyil, eyni zamanda aqrar istehsalçıların stimullaşdırılmasına, iqtisadi aktivliyin yüksəldilməsinə xidmət edir. Respublikamızın istənilən bölgəsində olduğu kimi, burada da kəndli, fermer əmin olsa ki, əkib-becərdiyi, istehsal etdiyi məhsul əlində qalmayacaq, onu tədarük məntəqələrinə, emal müəssisələrinə təhvil verərək gəlir əldə edə biləcək, o zaman həmin insanlar bütün mümkün vasitələrdən istifadə edərək istehsalı genişləndirəcək, istehsal həcmlərini artıracaqlar. Bu isə öz növbəsində,

məhsuldarlığın artımına, əlavə dəyərin yaranmasına, istehsalda müasir texnika və texnologiyaların tətbiqinə, daha da rəqabətə davamlı məhsul istehsalına gətirib çıxardacaq.

SSRİ dönəmində Ağdam rayonunda kiçik də olsa dəri aşılanması, ilkin emalı müəssisələri mövcud olmuşdur. Hesab edirəm ki, bu ənənələri yaşatmaq və inkişaf etdirmək olduqca zəruridir. Bunun üçünsə ilk növbədə mərkəzləşdirilmiş kəsim sexlərinin yaradılması və kəndlilərin, fermerlərin bu müəssisənin xidmətlərindən yararlanmağa sövq edə biləcək iqtisadi mexanizmlərin işlənib hazırlanması vacibdir. İri kəsim sexlərinin mövcudluğu heyvanların soyularkən dərilərinin bütöv halda əldə edilməsinə, emal üçün daha qiymətli və yararlı olmasına, heyvanların daxili möhtəviyyatlarının tam istifadə edilməsinə, sanitar-ekoloji problemlərin qarşısının alınmasına, bir sözlə tullantısız, müasir texnologiyanın tətbiqinə səbəb olacaq.

Respublikamızda şirin su ehtiyatlarının məhdud olması, torpaqların suvarılması zamanı itkilərin həddən artıq çox olması, ərazilərin qeyri proporsional suvarılması və bunun da nəticəsində torpaqların tez bir zamanda əkinçilik üçün yararsız hala düşməsi, şoranlaşması bərpa olunan ərazilərdə müasir suvarma sistemlərinin, ehtiyat su anbarlarının, irriqasiya qurğularının yaradılmasını zəruri edir.

Ağdamın füsunkar təbiəti, mülayim iqlimi, münbit torpaqları, bol su ehtiyatları imkan verir ki, burada istər bitkiçilik, istər də heyvandarlıqda bu region üçün ənənəvi olmayan sahələr, o cümlədən gülçülük, meyvə-tərəvəzin ənənəvi olmayan növləri, quşçuluq və digər sahələr də yaradılaraq sürətlə inkişaf etdirilsin. Əlverişli coğrafi mövqeyi, eləcə də kommunikasiyaların açılması hesabına burada istehsal olunan məhsullar geniş satış bazarlarına malik olacaqdır. İşğaldan əvvəlki dövrlərdə Ağdam bazarı nəinki, Azərbaycanda hətta qonşu respublikalarda da tanınırdı. Kənd təsərrüfatı məhsulları ilə zəngin olan bu bazarda çoxlu dükanlar, qəssabxana və emalatxana da əhaliyə xidmət göstərirdi. Bazarın kənarında isə dəmirçi, kömürçü, boyaqçı, dülgər, nalbənd, dərzi, pinəçi sexləri də var idi. Respublikamızda Ağdam sənətkarlarının əl işləri hər zaman yüksək qiymətləndirilib.

Onu da qeyd etmək lazımdır ki, 1996-cı ildə qəbul edilmiş qərara əsasən Respublikamızda əkin təyinatlı kənd təsərrüfatı torpaqlarının əvəzsiz olaraq kənd yerlərində yaşayan əhalinin şəxsi mülkiyyətinə verilməsi ilə nəticələnən torpaq islahatları məlum səbəbdən işğal olunmuş ərazilərdə aparılmamışdır. Yəni azad olunmuş ərazilərdə torpaq islahatının aparılması və aqrar sahədə tam olaraq özəl sektorun fəaliyyətinə əsaslanan təsərrüfat subyektlərinin qurulması vəzifəsi də qarşıda durur.

## İstinadlar


1. Azərbaycanın кənd təsərrüfatı. Statistiк məcmuə. «Səda» nəşriyyatı, Baкı, 2002, 287 s.
2. I. Alıyev, İ.Soltanlı “Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri” Bakı “Avropa” nəşriyyatı 2017.
3. Сельское хозяйство СССР: статистический сборник, Москва, Финансы и статистика, 1988. 534с.
4. https://www.agro.gov.az/az/heyvandarliq/atciliq
5. https://banker.az/agdamin-boyuk-potensiali/

**SƏMƏDOV Məhəmməd**
Azərbaycan Dövlət Aqrar Universiteti, aqrar elmlər üzrə fəlsəfə doktoru,

# AĞDAM RAYONUNDA XARİCİ ƏTLİK CİNSLƏRDƏN İSTİFADƏ ETMƏKLƏ YERLİ QARAMAL CİNSLƏRİNİN MƏHSULDARLIĞININ ARTIRILMASI VƏ ƏT KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASI HAQQINDA

**Xülasə:** Azərbaycanda heyvandarlığın tarixi çox qədimdir. Bu sahədə qazanılmış zəngin təcrübə, uzun illər yaranmış və möhkəmlənmiş ənənə, kəndlilərin heyvandarlığa bağlılığı meyli hazırda bu sahənin sabit templə inkişafını təmin edir. Qeyd olunanlar təqdim olunmuş tezisdə əhatəli şəkildə əsaslandırılır. Xüsusi ilə vurğulanır ki, məhsuldarlığın artırılması istiqamətində Ağdam bölgədə ən münasib rayon kimi seçilir.

**Açar sözlər:** Ətlik maldarlıq, çarpazlaşdırma, hibrid, mələz, ət məhsuldarlığı, ətin keyfiyyəti, ət çıxarı, cəmdək çıxarı, Qonur Qafqaz, Zebu hibridi, Santa-hertruda, Limuzin

→

## Giriş

Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycanın müstəqillik əldə etdiyi ilk dövrdə (1991-1993) kənd təsərrüfatının bir çox sahəsi kimi, heyvandarlıq sahəsi də tənəzzülə uğramağa başladı. Mal-qaranın baş sayı və ölkədə heyvandarlıq məhsullarının istehsalı kəskin surətdə azaldı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi və onun təşəbbüsü ilə kənd təsərrüfatında, o cümlədən heyvandarlıqda islahatların başlanılması yaranmış böhran vəziyyətin qarşısını aldı və görülmüş işlər nəticəsində 1996-cı ildən başlayaraq heyvandarlıq bütün istiqamətlərdə inkişaf etməyə başladı.

Ağdam rayonunun təbii-iqtisadi şəraiti imkan verir ki, bölgədə heyvandarlığın ən əsası isə ətlik maldarlığın elmi əsaslarla inkişaf etdirilməsinə ciddi fikir verək. İşğaldan azad olunmuş dağ və dağ ətəyi bölgələrdə az məhsuldar, təbii iqlim şəraitinə daha yaxşı uyğunlaşan qara mal cinsləri ilə süni və təbii mayalandırma aparmaqla yüksək məhsuldar mələzlər almaq mümkündür. Bunun üçün də bölgədə süni mayalanma işini elmi cəhətdən dünya standartı səviyyəsinə çatdırmaq lazımdır ki, heyvandarlıqda rentabelli ət istehsalına nail ola bilək. Alınmış mələzlər yüksək ət məhsuldarlığı və ətinin keyfiyyətinə görə də ana xətti olan yerli və az məhsuldar olan cinslərdən daha çox və keyfiyyətli ət məhsulu alaq.

Ağdam rayonunun ərazisində 1980-ci illərin əvvəlində Çullu kəndində ətlik istiqamətli reproduktor müəssisəsi yaradılmışdır. Əsas məqsədi təsərrüfatlardan çıxdaş edilmiş inəkləri yenidən Zebu, Santa-hertruda və Limuzin cinsli buğaların toxumları ilə mayalandırmaqla 1-ci nəsil sağ-

lam hibrid və mələz cinslər əldə edilirdi. Həmin dövrdə Çullu kəndində Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunun dayaq **məntəqəsi yaradılmışdır. Mayalanma süni və təbii yolla aparılırdı. Məlum hadisələrdən sonra aparılan elmi tədqiqat işləri dayandırıldı. Şükürlər olsun ki, Ali Baş Komandanımız və qəhrəman hərbiçilərimiz tərəfindən Ağdam rayonu işğalçılardan azad olundu.**

**Əhalini ekoloji təmiz ərzaq məhsulları ilə təmin etmək üçün aqrar sahədə çalışan alim və mütəxəssislər qarşısında duran əsas məsələdən biri də xalqımızı daha keyfiyyətli ət və ət məhsulları ilə təmin etməkdir.**

**Təhlil və qiymətləndirmə**

XX əsrin ortalarında dünya əhalisinin artımı ilə əlaqədar olaraq ərzaq çatışmazlığı gözlənildiyi üçün əhalinin ətə olan tələbatını ödəmək heyvandarlıqda intensiv ət istehsalına çalışmaq lazımdır. Bunun üçün az məhsuldar olan heyvan cinslərini daha çox diri çəkiyə malik olan ətlik istiqamətli mallarla çarpazlaşdırmaq vacibdir. Əhalinin ətə olan tələbatının ödənilməsi üçün yeni ətlik cinslərin yaradılması, ətçiliyin intensiv sürətdə inkişafı qarşısında duran əsas məsələdir. Çarpazlaşdırma zamanı canlı kütlə artımı, 10-15%, kəsim çəkisi 15-17%, kəsim çıxarı 3-4% artır. Odur ki, çarpazlaşdırmadan istifadə etməklə respublikamızın hər bir regionunda ət məhsuldarlığının artırılması ilə yanaşı, ətlik mal qrupları da yaratmaq mümkündür.

Azərbaycanda heyvandarlıq sahəsində çalışan alimlər və mütəxəssislər də apardıqları tədqiqatlarla məhz bu işə töhfə verməyə çalışırlar. Bunun üçün dövlətin bu sahəyə ciddi fikir verməsi təqdirə layiqdir. Xaricdən daha çox ətlik istiqamətli damazlıq qara malın gətirilməsi, süni mayalanma işinin təşkili bu sahədə öz töhfəsini verir. Aqrolizinq yolu ilə ucuz qiymətə cins malların fermerlərə satışı, hər baş qara malın mayalanması üçün subsidiyaların verilməsi dövlətin heyvandarlığa dövlət qayğısının bariz nümunəsidir. Bu yolla da qara malın ət məhsuldarlığını, diri çəki artımını, ət çıxarını və ətin keyfiyyətinin yaxşılaşdırılmasına nail olmaq olar.

Qədim zamanlardan Azərbaycanda maldarlığın və qoyunçuluğun inkişafı onu göstərir ki, xalqımız öz milli mentalitetində ət və ət məhsullarından daha çox istifadə edir. Bunun üçün birinci növbədə təbii iqlim şəraiti imkan verir ki, ölkəmizdə ətlik maldarlığın inkişaf etdirilməsi dağ və dağ ətəyi rayonlarda xüsusi əhəmiyyət kəsb edir.

Dünyada yetişdirilən ətlik maldarlıq öz təsnifatına görə iki əsas qrupa bölünür: 1. Amerika mənşəli, 2.Avropa mənşəli.

Amerika mənşəli ətlik maldarlıq daha dolğun, eksteryer cəhətdən möhkəm, kobud konsistensiya tipinə malik olur. Avropa mənşəli ətlik istiqamətli qara mallardan fərqli olaraq cidov hündürlükləri kiçik olur. Qalın və möhkəm dəriyə, enli kəllə quruluşuna malik olurlar. Onlar quru, isti iqlim şəraitinə daha davamlı, quru və kobud yemlərə meyillidirlər. Qan parazitar xəstəliklərinə tutulmurlar.

Avropa mənşəli ətlik istiqamətli mallar öz təsnifatlarına görə 3 qrupa bölünürlər: 1) İngiltərə mənşəli, 2) Fransa mənşəli, 3) İtaliyan mənşəli mallar. Avropanın başqa ölkələrində də yetişdirilmiş ətlik malların qanında da bu ölkələrin mallarından istifadə edilir. Təbii ki, Avropa mənşəli mallarda da ətlilik indeksi öz əksini tapır. Avropa mənşəli malların hündür boya malik olması, uzun ayaqlılığı onlarda diri çəkinin yüksək olmasına öz təsirini göstərir. Təbii iqlim şəraitindən asılı olaraq bir çox xəstəliklər özünü büruzə verir. Avropa mənşəli ətlik mallarda südçülük əlamətləri də özünü büruzə verir. Belə ki, isti iqlimə quru və qaba otlarla yemləməyə məruz qaldıqları üçün Amerika mənşəli heyvanlar süd məhsuldarlığına çox az sahib olurlar. Avropa mənşəli heyvanlarda təbii iqlim şəraiti imkan verir ki, onlarda süd məhsuldarlığı daha çox olsun.

İngiltərə mənşəli ətlik istiqamətli maldarlıq:

1.Aberdin anqus cinsli ətlik istiqamətli maldarlıq: bu cins adından məlum olduğu kimi ingilis mənşəli ətlik cinsdir. Bu cinsin buğaları və inəkləri böyük canlı kütləyə malik deyildir. Buğaların canlı kütləsi maksimum 550 kq, inəkləri 480 kq olur. Həmçinin, yüksək çəki artımı vermək

qabiliyyətinə malikdir. Adətən bu cinsin heyvanları qara rəngli olurlar. Cinsin yaradılmasında Şotland cinsli inəklərdən istifadə edilmişdir.

2.Hollovey cinsli ətlik istiqamətli qara-mal: Bu cins dünyada məşhur olan, tez yetişən, xırda bədən quruluşuna malikdir. Buğaları 680 kq, inəkləri 420 kq olurlar. Cinsin heyvanları qara rəngli olmaqla, uzun tüklü olurlar. Cinsin yaradılmasında aberdin-anqus və şotland cinsli heyvanlardan istifadə edilir.

3.Hereford cinsli ətlik istiqamətli heyvanlar Avropa, Amerika və Asiyada daha geniş yayılmışdır. Cinsin buğalarının orta diri çəkisi 820 kq, inəklərin 520 kq olur. Cinsin nümayəndələrinin rəngi qırmızı-ağbaş, nazik ayaqlı olurlar. Cinsin yaradılmasında yerli ingilis cinslərindən istifadə olunmuşdur.

4.Şorthorn ətlik istiqamətli cinsdir. O, dünyada daha geniş yayılmış yüksək iri çəkiyə malik olmaqla ətlik istiqamətli cinslərin yaradılmasında istifadə olunub. Orta diri çəkiləri buğalarda 950 kq, inəklərdə 620 kq olurlar. Bu cinsin nümayəndələri çox sürətlə böyüyürlər. Cinsin yaradılmasında yerli ingilis mallarından istifadə olunur.

Fransız mənşəli ətlik istiqamətli qara-mal cinsləri:

1.Limuzin ətlik istiqamətli qara-mal cinsi olmaqla, Avropada daha çox geniş yayılmışdır. Çox yüksək sürətlə böyüyür, orta canlı kütləsi buğalarda 1150 kq, inəklərdə 950 kq olur. Çox yüksək dadlı ətə malikdir. Başqa ölkələrdə də geniş yayılmışdır, acıq-qırmızı rəngə malikdir.

2.Şarole ətlik istiqamətli cins olmaqla bərabər, dünyada ən çox yayılan və ən böyük diri çəkiyə malik olan qara mal cinsindir. Çox sürətlə böyümə qabiliyyətinə, böyük əzələ kütləsinə malikdir, ağ rənglidir. Xarici görünüşünə görə simmental cinsinə daha çox oxşayır.

3.Men-anju yerli fransız ətlik istiqamətli cins olmaqla böyük canlı kütləyə malikdir. Buğaların orta canlı kütləsi 1200 kq, inəklərinki isə 800 kq olur. Sürətlə böyümə qabiliyyətinə malikdir. Qırmızı-ala rəngə sahibdir. Şorthorn və manseecki cinslərinin çarpazlaşdırılmasından yaranmışdır.

İtaliyan mənşəli ətlilik istiqamətli qara mal cinsləri:

2. Kiyan - ətlik istiqamətli qara mal cinsidir. Dünyada ən böyük diri çəkiyə malik olan cinslərdən biridir. Çox böyük böyümə qabiliyyətinə malikdir. Buğaların orta diri çəkisi 1400 kq, inəklərin orta diri çəkisi 800 kq olmuşdur. Əzələli, yüksək uzun ayaqlı olmaqla ağ, boz rənglərdə olur.

Amerika mənşəli ətlik istiqamətli qara mal cinslər:

1.Santa-hertruda-Amerika Birləşmiş Ştatlarında yetişdirilmiş dünyanın ən məşhur ətlik istiqamətli cinslərdən biridir. Şorthor, Braman cinslərinin çarpazlaşdırılmasından alınmışdır. Orta köklüyə malik, tezyetişən, hürgücsüz, 520 kq inəklərdə, 820 buğalarda diri çəkiyə malik olurlar. Hürgücsüz, quru iqlimə malik, səhralarda böyümüş cinsdir. Tezyetişəndir, ABŞ-da ən geniş yayılmış cinsdir.

2.Şarbrey-cinsi ətlik istiqamətli olmaqla bərabər müxtəlif sənaye çarpazlaşdırılmasından hibrid Şarole, Braman cinslərinin çarpazlaşdırılmasından alınıb. Çox böyük bədən quruluşuna malikdirlər-inəklərdə 1100, buğalarda 1400 kq-a malik olurlar. Çox böyük sürətlə diri çəkiyə çatırlar.

5. Kuba bramanı – Kuba adasının təbii iqlim şəraitinə uyğunlaşmış cinsdir. Yaşlı buğaların diri çəkisi 700-800 kq, inəklər isə 500-600 kq diri çəkiyə malikdirlər. Bu cins ABŞ-ın Texas ştatında yerli lonqxori inəklərinin Hindistan zebularının çarpazlaşması nəticəsində yaranmışdır. Rəngləri boz və qara rəngdədir.

**SƏMƏDZADƏ Elşad**
i.f.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti

# DAVAMLI İNKİŞAFIN MƏNTİQİ NƏTİCƏSİ – QƏLƏBƏ

**Xülasə:** Müasir dövrdə itirilmiş ərazilərin qaytarılması böyük QƏLƏBƏ-dir. Bu, ümumiyyətlə məsələlərə sistemli yanaşmağın nəticəsidir. Düşünürəm, Azərbaycanın beynəlxalq müstəvilərdəki uğurlu mövqeyi, davamlı inkişafın müxtəlif istiqamətlərində əldə etdiyimiz əhəmiyyətli nailiyyətlər bu və yeni qələbələrimiz üçün zəmindir.

**Açar sözlər:** Qarabağ, Zəngəzur, davamlı inkişaf, qələbə

## Giriş

Azərbaycanın şanlı qələbəsinin əsasında məhz bəşəri təfəkkür səviyyəsinə qalxmağımız dayanır. Bu, ulu öndər Heydər Əliyevin strategiyası nəticəsində gerçəkləşən "Əsrin müqaviləsi", cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə BMT Təhlükəsizlik Şurasına sədrlik, Bakının dünya humanitar fikir mərkəzinə çevrilməsi, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan dövründə Türkiyə ilə artan qardaşlıq münasibətləri nümunələrində özünü göstərir. Azərbaycan dövlət başçısının qlobal geosiyasi prosesləri düzgün hesablaması və strateji addımları bəhrəsini verdi. Beləliklə, Türkiyənin türk ölkələrinə nəqliyyat dəhlizi istəməsi, ABŞ-ın bunu dəstəkləməsi və eyni zamanda Avropadan sıxışdırılan Rusiyanın bu dəhlizdə maraqlı olması QƏLƏBƏ üçün əlverişli zəmin yaratdı.

İşğaldan azad olunmuş ərazilərə səfərdə olan Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral dağıntıları görərkən vurğulayıb: "Füzuli şəhərinin dağıdılması Azərbaycana və Azərbaycan xalqına qarşı erməni vandalizminin və vəhşiliyinin bariz nümunəsidir" (2). Polşanın ölkəmizdəki səfiri Rafal Poborski isə bildirib: "Füzulidəki bu acınacaqlı vəziyyət beynəlxalq ictimaiyyətə çatdırılmalıdır."(3) Ali Baş Komandan düşmən caynağından qopardılan Füzuli şəhərinə səfər edərkən "Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib" deyə vurğuladı (4)

Şübhəsiz, heç bir vicdan sahibi yaşadığı evi yandıran, bar verən ağacı kəsən, qəbirləri belə rahat buraxmayan düşməni və həyatinə mərmi düşən, lakin "Təki əsgərə dəyməsin" deyən azərbaycanlını müqayisə etməz.

### Təhlil və qiymətləndirmə

Qələbəni möhkəmlətmək, zəfəri daha uca etmək üçün bütün cəbhələrdə daim ehtiyatlı olmalı və güclənməli, böyük azərbaycanlı - 10 ildə əsərlərinə 36 000-dən çox istinad olunan Lütfizadənin qeyri-səlis məntiqindən bəhrələnərək, bəşəri təfəkkürümüzün inkişafını davamlı etməliyik.

Bəşəri təfəkkürün təzahür forması, düşünürəm ki, elə davamlı inkişaf məqsədidir. Onun qolu olan iqtisadi inkişaf barədə qələbə amili kimi könlümüzə fərəh verən çox söz deyildiyindən bir ifadə ilə kifayətlənim - görünən dağa nə bələdçilik!

Davamlı inkişafın sosial qolu il bağlı Akademik Z.Səmədzadənin fikirlərini qeyd etmək yerinə düşərdi. Onun vurğuladığı kimi, "cəmiyyətdə taleyüklü məsələlər üzrə konsensusun olması, müxtəlif etnik qrup nümayəndələrinin çiyin-çiyinə Vətənin keşiyində rəşadətlə dayanması, Şuşa məscidində namazın vəhdət şəklində qılınması kimi amillər dayanır".

Davamlı inkişafın qolu olan ekoloji inkişaf üçün də xeyli iş görülür. Belə ki, son illərdə əkilən ağacların sayının milyonlarla ölçülməsi, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq konvensiyalara qoşulma, institusional islahatların aparılması, alternativ energetika çərçivəsində günəş və küləklə dostluğun artması və s. Əlbəttə, bu uğurlar problemlərin olmadığını demir. Lakin problemlərin həlli potensialının yüksək olduğunu deyir. Davamlı inkişaf imkanlarının yüksək olması və ondan səmərəli istifadə həm daxili gücü səfərbər edir, həm də ölkənin beynəlxalq nüfuzunu, ona olan inamı artırır.

Azərbaycan iqtisadçıları atəşkəs dövründə mütəmadi olaraq Qarabağ mövzusuna toxunub, ürək ağrısı və ümidlərlə nə vaxtsa ehtiyac duyulacaq təhlillər aparıb. 2013-cü ildə Prezident yanında Gənclərə Dəstək Fondu Türk Dünyasının əksər yurdundan olan yazarları Qarabağ mövzusunda "Gəldik, gördük, yazdıq" layihəsinə cəlb etdi. Oradakı çıxışımda qarşıya qoyduğum məqsəd qardaş ellərin gücünün Qarabağ ətrafında birləşməsinin müəyyən iqtisadi əsaslarının hazırlanmasına yönəltmək idi. Hərbi qələbədən sonra bir təsisatın yaranması da, zənnimcə, zərurətə çevrilir. Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur Sərmayələri Bankı, İslam İnkişaf Bankı maliyyə qurumları kimi Türk Dünyası İnkişaf Bankının təsisinə ehtiyac var. Qarabağda onun bölməsi yaradılar (5).

Azərbaycanın böyük oğlu, nəhəng təfəkkür sahibi akademik Azad Mirzəcanzadə deyirdi: "Qlobal düşün, lokal hərəkət et". Bu fikri əsas götürərək hesab edirəm ki, Azərbaycan Qarabağ məsələsində qlobal düşündü, qlobal da hərəkət etdi. Vacib bir məqamı da qeyd etmək lazımdır ki, bu böyük nailiyyət qlobal pandemiya ilə mübarizə dövründə baş verib.

**Nəticə və təkliflər**

1. Zəngəzur dəhlizinin maliyyələşməsinə Böyük İpək Yolunun - "Bir kəmər bir yol" layihəsinin bir hissəsi kimi yanaşaraq, Çinin bu prosesə cəlb edilməsi;

2. Gürcüstan dəhlizi də strateji alternativ xətt kimi inkişaf etdirilməsi;

3.Azərbaycan və Türkiyə arasında ticarət birliyinin yaranması;

4. Ermənistanın təzminat ödəmək üçün pulu yoxdursa, aktivləri və ərazi ilə ödəmə tələbinin qoyulması;

5. Laçın dəhlizində sərhədçimiz - iqtisadi məkanımızı qorumaq üçün gömrükçümüzün dayanması;

6. Bütün Azərbaycan ərazisində yeganə ödəniş vasitəsi kimi milli valyutamızın olası tələbinin qoyulması;

7. Məskunlaşmanın iqtisadi təşviq edilməsi. İnfrastruktur qurulduqdan sonra sahibkarların "hücumu" üçün güzəştlər səmərəli olar. İşğaldan azad olan ərazilərdə fəaliyyət göstərənlərə vergi güzəştləri, faizsiz kreditlər, infrastruktur şəbəkələrinə asan qoşulma şərtləri verilə bilər və s. Vətən sərhəddən başlanır, sərhəddə möhkəmlənməliyik;

8. Silahlı Qüvvələrə Dəstək Fonduna köçürmələri nəzərə alaraq, Qarabağ faizsiz bərpa istiqrazlarının buraxılması xalq maliyyələşməsinə təkan verər;

9.Ölkəmizin bütün şəhərlərində qan yaddaşı - işğal-qələbə abidə kompleksi ucaldılsın. Bu, müsabiqə əsasında həmin bölgənin şəhidlərinin və onların iştirak etdiyi döyüşlərin təsviri ilə gerçəkləşsin;

10. Dövlət layihələrinin vaxtında icrası üçün dövlət vəsaiti ilə yanaşı, bank vəsaitindən, zəmanətindən istifadə etmək faydalı olar.

11. Azad olunmuş ərazilərdə mülki və sənaye tikintisi, o cümlədən yol tikintisi, iaşə, kənd təsərrüfatı, turizm, logistika, ticarət, dağ-mədən sənayesi, energetika, mədəniyyətin iqtisadiyyatı və s. bu kimi ənənəvi sahələrlə yanaşı, yeni iqtisadi sahələrin inkişafına ehtiyac var;

12. Minaların təmizlənməsi avadanlıqlarının istehsalının təşkili. Bunu Minalardan Təmizlənmə Agentliyinin cəlbi və məşhur brendlərlə müştərək müəssisə şəklində yaratmaq olar. Avadanlığın satış bazarı da buradadır, sınaq poliqonu da. Bu, müqayisəli üstünlükdür. Rəqiblərin belə imkanları yoxdur. Bu, dövlət vəsaitinə xeyli qənaət deməkdir;

13. Ekologiyanın qorunması və resurslardan səmərəli istifadə üçün tullantıların təkrar emalı;

14.Ölkəmizin müdafiə qabiliyyətinin daim yüksək olması üçün yeni texnologiyalara əsaslanan hərbi sənayenin inkişafı;

15. Rusiya Federasiyasının regiona tarixi marağını, sülhməramlıların Azərbaycanın öhdəliyi kimi 5 il müddətinə burada yerləşdirilməsini nəzərə alaraq, bu ölkə ilə müxtəlif səviyyələrdə dialoqu davam etdirmək, gücləndirmək məqsədəuyğun olar. Bu ölkənin nümayəndələri regionda balansın saxlanılmasını vacib saydıqlarını bildirir. Əlbəttə, Rusiya təşəbbüskarı və aparıcı qüvvəyə malik olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvü kimi Ermənistanla strateji müttəfiqdir, Azərbaycanla isə strateji tərəfdaşdır. Bu tərəfdaşlıq özünü daha çox iqtisadi və humanitar sahədə göstərir. Şimal qonşumuzun ərazisində yaşayan, ölkəmizin tədiyyə balansının müsbət istiqamətlənməsində əhəmiyyətli payı olan 3 milyon həmvətənlimiz amili də nəzərdən qaçmamalıdır. Yəqin, bu balansı saxlamağın səbəbi Rusiya gerbində təsvir olunan ikibaşlı qartaldır. Onun bir başı sağa, o birisi sola baxır. Zənnimcə, reallıqları nəzərə alaraq RF ilə təmas nöqtələri nə qədər çox olsa, danışıq da o qədər uğurlu alınar. Azərbaycanlıların RF-nin ictimai həyatında rolu nə qədər yüksək olsa, işimizin xeyrinə olar.

16. Zaman yetişdikdə danışıqlara bu vacib şərti də əlavə etmək barədə düşünməyi məqsədəuyğun sayıram. Dəhlizdən, təzminatdan əlavə, bu gün erməni əhalisinin Qarabağda yaşadığı, Rusiya sülhməramlılarının qoruduğu hüquqi rejimdə olan ərazi qədər Ermənistandan ərazi tələb edilə bilər. Həmin ərazidə Ermənistandan məcburi köçürülmüş soydaşlarımız Azərbaycan dövlətinin dəstəyi ilə könüllü olaraq yaşaya bilər. Bu ərazi Azərbaycana, Zəngəzur dəhlizinə bitişik ərazi olmalı və Türkiyə sülhməramlıları ilə qorunmasına çalışılmalıdır. Bu ərazidə əmlakın Azərbaycan, Türkiyə və digər beynəlxalq güc dövlətlərinin sığorta şirkətləri tərəfindən sığortalanması məqsədəuyğundur;

17. Azərbaycan rəsmiləri, politoloqlar dəfələrlə Qarabağın erməni əhalisinin ölkəmizin digər azsaylı millətləri kimi Azərbaycan qanunları çərçivəsində yaşayıb fəaliyyət göstərmələri üçün şərait yaradacaqlarını vurğulayıb. Əlbəttə, əsrləri aşan nifaq və qan yaddaşı olduğu halda bu, çox çətindir. Amma Azərbaycan sülhsevərliyi və bunun dünyaya nümayişi, qlobal maraqların gözlənilməsi bunu labüd edir. Ona görə reallıqları nəzərə alaraq, çevik siyasət aparmaq, proseslərə daha çox təsir etmək zərurəti var. Konkret mexanizmlər müzakirə oluna bilər. Amma ümumən sosial-iqtisadi mexanizmlər elə qurula bilər ki, Qarabağda yaşayan ermənilər Azərbaycan qanunları ilə yaşamağı daha sərfəli saysın. Əlbəttə, imkanlar və ümumi islahatlar daxilində. Başqa cür ermənilər dəstəyi Ermənistan və Rusiyadan istəyəcək. Yəni, regionda makro və mikro iqtisadi təşəbbüsü ələ almaq məqsədəuyğun olar. Hər kəsin təhlükəsizliyini təmin edən Sərbəst İqtisadi Zonalardan biri erməni əhalisi ilə mülki təmas xəttində yaradıla bilər.

**İstinadlar**


1. https://socratify.net/quotes/albert-einshtein/17823
2. https://report.az/qarabag/erkan-ozoral-fuzuli-seherinin-dagidilmasi-ermeni-vandalizmi-nin-bariz-numunesidir/
3. https://news.milli.az/politics/899211.html
4. https://president.az/articles/46840
5. E.Səmədzadə. Türk Dünyası vahid iqtisadi məkanının təmin olunmasında Qarabağ problemi-nin həllinin rolu//Gəldik, gördük, yazdıq. Bakı-2013
6. Böyük İqtisadi Ensiklopediya

**SULTANOVA Rəna**

AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d., professor

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİNDƏ İQTİSADİYYATIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Xülasə:** Məqalədə vurğulanır ki, Azərbaycanın işğaldan azad olan ərazilərin iqtisadiyyatının yenidən qurulması və inkişaf etdirilməsi dövlət səviyyəsində yerinə yetirilən problemlərdən biri kimi çıxış edir. Bu baxımdan həmin ərazilərin geniş tədqiq olunması, təbii sərvətlərinin dərindən öyrənilməsi, Qarabağ bölgəsinin spesifik inkişaf xüsusiyyətlərini nəzərə alaraq iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi vacib hesab olunur.
Müəllif Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyatını tədqiq edərək inkişaf yollarını göstərmişdir.

**Açar sözlər:** iqtisadiyyat, təbii resurslar, yataq, xammal, sahə, müəssisə.

## Giriş

Yeni regional təsnifata əsasən, Qarabağ bölgəsi iki iqtisadi rayona bölünür: Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları). İşğaldan azad olan ərazilərin iqtisadiyyatının yenidən qurulması və inkişaf etdirilməsi dövlət səviyyəsində həlli vacib problemlərdən biri kimi çıxış edir. Məhz bu ərazilərin dərindən tədqiq edilməsi, onun yeraltı və yerüstü sərvətlərinin öyrənilməsi, təbii-iqlim şəraitinin müxtəlifliyini nəzərə alaraq iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafının təmin olunması önəmli hesab olunur.

***Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii sərvətlərinin mövcud vəziyyəti və iqtisadi qiymətləndirilməsi***

**Qarabağ iqtisadi rayonu** öz təbii iqlim şəraitinin müxtəlifliyi **və spesifik inkişaf xüsusiyyətləri ilə seçilə**n bir regiondur. Zəngin təbii faydalı qazıntı xammalı potensialına malik olan Qarabağda müxtəlif növ tikinti daşları, gil, qum-çınqıl, tikinti qumu, gips, anhidrid və gəc, perlit, obsidian, vermikulit, əlvan və bəzək daşları yataqları yerləşir. Əsasən bu yataqlar Füzuli, Ağdərə, Şuşa, Xocalı, Xocavənd və Ağdam rayonlarının payına düşür. Belə ki, Ağdərə rayonunda qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc, Şuşa rayonunda üzlük daşı, gil, tikinti daşı, Xocalı rayonunda gil, üzlük daşı, qum-çınqıl, Xocavənd rayonunda üzlük daşı, tikinti daşı, və s., Füzuli rayonunda mişar daşı, gil, qum-çınqıl, Ağdam rayonunda isə mişar daşı, üzlük daşı, gil, qum-çınqıl, sement yataqları yerləşir.

Yuxarıda qeyd olunan yataqlar 30 il ərzində talançılığa məruz qalmış və onların yenidən qiymətləndirilməsi vacibdir.

Vurğulamaq lazımdır ki, Ağdam Qarabağ su yatağının ərazisində yerləşir və burada illik su resursu 1,9 mlrd.$m^3$ təşkil edir [1, səh. 692]. Bu isə öz növbəsində Ağdamı içməli su ilə təmin etməyə və 20 min hektar torpağın suvarılmasına imkan yaradır. Bunun üçün yeraltı artezian quyularından istifadə labüd hesab olunur ki, buradakı mənbələrdə olan sular daimi, dinamik və təhlükəsizdir.

Qeyd etmək lazımdır ki, bu günləri Ağdam rayonunun bərpası istiqamətində qrunt və səth sulardan istifadə önəmli hesab olunur. Məhz bu rayon su resursları ilə zəngin olan bir rayondur və o digər regionların su təminatının təchizatında mühüm rol oynaya bilər.

Ağdam rayonunun təbii-iqlim şəraitinin quru və subtropik olmasını nəzərə alaraq burada kənd təsərrüfatının, yeyinti və yüngül, konserv sənaye sahələrinin, barama toxumu, pambıq, şərab və çörək zavodları, xalça istehsalı, taxıl məhsulları, tikinti materialları və s. sahələrin inkişaf etdirilməsi vacib hesab olunur. Nəzərə almaq lazımdır ki, hələ 1990-cı illərdə burada dəzgahlar, aerokosmik və kommunikasiya avadanlığı istehsal olunur, traktor və avtomobillərin təmiri, asfalt istehsalı müəssisələri fəaliyyət göstərirdi [2, səh. 206].

Vurğulamaq lazımdır ki, rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi.

**Şərqi Zəngəzur iqtisadi rayonuna** Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan və rayonları daxildir. Vurğulamaq lazımdır ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini əhatə edən, Ermənistanla sərhəddə yerləşmiş, sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarını vahid bir iqtisadi rayonda zərurətdən irəli gələrək birləşdirir.

Bu iqtisadi rayon faydalı qazıntılarla çox zəngindir. Bu rayonlarda çox sayda filiz, qeyri-filiz , qızıl, gümüş, çivə, mis, sink, qurğuşun, tikinti daşları, gil, əhəng, daş kömürü yataqları, yeraltı içməli və termal mineral sular mövcuddur. Belə ki, Cəbrayıl rayonunda üzlük daşı, gil, qum, sement, gəc, tikinti daşı, gips, əlvan daşlar, Kəlbəcərdə isə Söyüdlü (Zod) və, Qızılbulaq kimi ən iri qızıl yataqları vardır.

Zəngilan rayonu yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olan ərazilərdən biri hesab olunur. Hələ Sovet dövründə aparılan geoloji axtarışlar nəticəsində burada çoxsaylı müxtəlif növ faydalı qazıntı yataqları aşkar edilmiş və onlardan 6 tondan artıq qızıl (Vejnəli yatağı), 10 tondan artıq gümüş, çox sayda mis konsentratı, mişar daşı, çınqıl, üzlük daşı, gil, qum, soda üçün əhəng materialı olmuşdur. Bu günləri Zəngilan rayonunun işğaldan azad edilməsi ilə bağlı bu yataqların yenidən qiymətləndirilməsi zəruridir.

***Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyatının inkişaf yolları***

Yaxın bir zamanda Ağdam rayonu yenidən Azərbaycanın ən zəngin mədəniyyətə malik, aqrar sənayenin, kənd təsərrüfatının inkişafı üzrə aparıcı rayonlarından birinə çevriləcək. Bu günləri Ağdamın yenidən bərpa edilməsi, onun ağıllı şəhər kimin inkişaf etdirilməsi Azərbaycanın ən gözəl şəhərləri sırasında olacaq. Burada şəhərin infrastrukturunun dünya standartlarına uyğun qurulması, yolların çəkilməsi, inzibati binaların, sosial obyektlərin və digər işlərin görülməsi həlli vacib məsələlərdən biridir.

Tarixən bu regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etmişdir. Kənd təsərrüfatının başlıca sahələri üzümçülük, taxılçılıq, meyvəçilik və tütünçülükdür. Üzümçülük bu regionda daha geniş vüsət almış və kənd təsərrüfatının əsasını təşkil etmişdir.

Vurğulamaq lazımdır ki, kənd təsərrüfatının inkişafında heyvandarlıq da aparıcı rola malikdir. Regionda baramaçılıq (ipək istehsalı) da geniş inkişaf etmişdir.

Regionda pambıq istehsalı da həyata keçirilmiş, lakin onun istehsalı cüzi olmuş və bu əsasən

Füzuli və Ağdam rayonlarında həyata keçirilmişdir.

İqtisadi rayonunun sənaye sahəsi kənd təsərrüfatı xammalının emalına əsaslanır.

Regionda ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında buğda tədarükü üçün zəmin yaranır ki, bu da yeyinti sənayesinin ayrı-ayrı sahələrinin, o cümlədən unüyütmə, şəkər, çörəkbişirmə, ət və süd məhsulları və s. istehsalların inkişafını ön plana çəkir.

**Qarabağ iqtisadi rayonunda** kənd təsərrüfatı emalı müəssisələrinin yaradılması, o cümlədən qida, şərab, konserv və yerli şirniyyat əhəmiyyət kəsb edir. Burada un dəyirmanlarının yaradılması əsas sayılır.

Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral sular diqqəti cəlb edir. Məhz Şuşa şəhərinin 17 kilometrlik məsafəsində yerləşən Turşsu vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur, kəmər vasitəsi ilə isə bu şəhərə içməli su verilir. Regionda mineral su istehsalının təşkili bu bölgədə turizmin inkişafına öz müsbət təsirini göstərəcək.

**Şərqi Zəngəzur iqtisadi rayonu** kənd təsərrüfatının inkişafına əsaslanan bir regiondur. Burada üzümçülük, meyvəçilik, tütünçülük və taxılçılıq (Qubadlı rayonunda cüzi istehsal olunur) sahələri yaradılmalıdır. Bu regionda kənd təsərrüfatının inkişafında heyvandarlıq aparıcı rola malikdir. Qida sənayesinin inkişafının təmin edilməsi, o cümlədən ət və süd məhsullarının, unüyütmə, şərab istehsalının təşkili önəm kəsb edir. Regionda heyvandarlığın inkişafında kombinə edilmiş yem sahələrin yaradılması zəruridir. Bu iqtisadi rayonda mövcud olan termal mineral sular turizm cəlbediciliyi baxımdan çox önəmlidir (İsti su və s.).

Beləliklə, Azərbaycanın gözəl guşəsi olan Qarabağ bölgəsi dövlət rəhbərliyinin apardığı məqsədyönlü iqtisadi siyasət nəticəsində yaxın bir zamanda ən inkişaf etmiş bölgələrdən birinə çevriləcək.

**Nəticə**

1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud olan faydalı qazıntı xammalı potensialını nəzərə alaraq tikinti materialları sənayesinin və metallurgiya sənayesinin inkişafının təmin edilməsi zəruridir.

2. Qarabağ iqtisadi rayonu spesifik xüsusiyyətlərinə görə kənd təsərrüfatı yönümlü olaraq, burada kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və inkişafı **məqsədəuyğun hesab olunur. Bu isə, öz növbəsində, aşağıdakı istiqamətdə aparılmalıdır:**

- regionda üzümçülüyün, taxılçılığın, meyvə**çiliyin, tütünçülüyün və baramaçılığın inkişafının təmin edilməsi.**

- yeyinti sənayesinin ayrı-ayrı sahələrinin, o cümlədən unüyütmə, şəkər, çörəkbişirmə, **ət və süd məhsullarının və şə**rab istehsalının təşkili.

- regionda ipək istehsalının təşkili istiqamətində işlərin görülməsi yüngül sənayesinin inkişafına öz müsbət təsirini göstərəcək.

- Qarabağın incisi olan Şuşanın landşaftını və florasını nəzərə alaraq burada dağ və sağlamlıq müalicəvi turizmin inkişafının təmin olunması labüddür.

3. Şərqi Zəngəzur iqtisadi rayonunun spesifik inkişaf xüsusiyyətlərini nəzərə alaraq burada kənd təsərrüfatının müxtəlif sahələrinin, o cümlədən üzümçülük, taxılçılıq, meyvəçilik, tütünçülük istehsallarının yaradılması əsas hesab olunur:

- regionda qida sənayesinin inkişafının təmin edilməsində unüyütmə, çörəkbişirmə, ət və süd məhsullarının, şərab, alkoqolsuz **içkilərin istehsalının təşkili vacibdir;**

- iqtisadi rayonda heyvandarlığın inkişafında kombinə edilmiş yem sahələrinin yaradılması **zəruridir;**

- **Şərqi Zəngəzur iqtisadi rayonunun landşaftını və florasını nəzərə alaraq burada ekoturizm (dağ), sağlamlıq, müalicəvi və s. alternativ növlərinin inkişafı məqsədəuyğundur.**

**İstinadlar**


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan regionları, Səda, 2020,
2. Azərbaycan regionlarında iqtisadiyyatın dayanıqlı inkişafı. Kollektiv monoqrafiya. Bakı, Elm, 2009, 295 s.
3. Trend.Az İnformasiya Agentliyi , 06 iyul 2021

ŞAHBAZOV Firdovsi
AMEA İqtisadiyyat İnstitutu, i.f.d., aparıcı elmi işçi

# QARABAĞDA İQTİSADİYYATIN STRUKTURU: ƏNƏNƏVİ VƏ YENİ SAHƏLƏRİN VƏHDƏTİ

**Xülasə:** Tezisdə post-konflikt dövrdə Qarabağda iqtisadiyyatın quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəzərdən keçirilmiş, bu sahədə mövcud imperativlər araşdırılmışdır. Qarabağda iqtisadiyyatın yeni strukturu ilə bağlı konseptual yanaşmalar təhlil olunmuş, onun optimal səviyyədə formalaşması üçün zəruri şərtlər müəyyənləşdirilmişdir.

**Açar sözlər:** Qarabağda iqtisadiyyatın strukturu, sahə, bərpa

## Giriş

Post-konflikt dövrdə Qarabağla bağlı ölkəmizin qarşısında duran əsas strateji hədəf – Qarabağın bərpası və hərtərəfli inkişafına nail olmaqdan ibarətdir. Ərazilərin işğaldan azad olunmasından ötən dövr ərzində artıq bununla bağlı kompleks işlərə başlanılmış və uğurla davam etdirilməkdədir. Belə ki, ərazilərin minalardan təmizlənməsi, institusional bazanın formalaşdırılması, inventarlaşma işlərinin aparılması, infrastrukturun qurulması və təsisatların yaradılması kimi əsas istiqamətlər üzrə bir sıra işlər icra edilmiş və bu istiqamətlər üzrə işlər getdikcə geniş vüsət almaqdadır. Heç şübhəsiz ki, enerji, nəqliyyat və kommunikasiya infrastrukturunun müasir tələblər səviyyəsində qurulması Qarabağ iqtisadiyyatının gələcək strukturunun formalaşmasına təsir edən əsas amil olacaqdır.

Qarabağda iqtisadiyyatın arzuolunan strukturuna nail olunması üçün ilk növbədə, konseptual yanaşmalar əsasında bu sahədə vahid siyasətin formalaşdırılması zəruridir. Ənənəvi və qeyri-ənənəvi sahələrin vəhdəti məsələsində isə əsas diqqətin iqtisadi resursların istifadəsi baxımından, bu sahələrin qarşılıqlı əlaqələndirilməsinə yönəldilməsi tələb olunur. Formalaşacaq yeni sahələr o halda səmərəli nəticələr verə bilər ki, onların inkişafı öz növbəsində, ənənəvi sahələrin də dayanıqlı inkişafını stimullaşdırsın.

Görülən işlərin intensivliyi və əhatə dairəsinin genişliyi həmçinin Qarabağda iqtisadiyyatın səmərəli strukturunun formalaşması üçün ilkin zəruri şərtlərin müəyyənləşdirilməsini tələb edir. Bunun üçün ilk növbədə, bu strukturun hansı paradiqmalara əsaslanacağını dəqiqləşdirmək lazımdır.

**Qarabağda iqtisadiyyat quruculuğunun imperativləri**

İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, layiqli yaşayış üçün şəraitin yaradılması, zəruri infrastrukturun qurulması, sosial xidmətlər şəbəkəsinin formalaşdırılması və regionun iqtisadi potensialının reallaşdırılması istiqamətində strateji baxışın müəyyənləşdirilməsi üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bağlı Konsepsiya" (bundan sonra – Konsepsiya) sənədi hazırlanmışdır. Konsepsiya sənədində ərazilərin bərpası prosesində diqqət mərkəzində saxlanılmalı rəhbər prinsiplər müəyyənləşdirilmişdir. Bu prinsiplər: I) yüksək əhali sıxlığına nail olunması; II) infrastruktur təminatının həmin bölgənin fasiləsiz logistik imkanlarına uyğunlaşdırılması; III) əhalinin repatriasiyası zamanı sosial ədalət prinsipinə riayət olunması və mülkiyyət hüquqlarının bərpası; IV) iqtisadi inkişafın dayanıqlılığının təmin olunması; V) tələb olunan investisiyaların həcminin optimallaşdırılması; VI) dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl, həmçinin yerli və xarici investisiyaların cəlb edilməsi, xüsusilə dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə olunması; VII) ərazilərin bərpası prosesinin yerli istehsala daha çox tələb yaratması və beləliklə, ölkə iqtisadiyyatının artımının stimullaşdırılmasından ibarətdir [1, s.3-4].

Aparılan təhlillər Qarabağda iqtisadiyyatın bərpası və hərtərəfli inkişafı üçün geniş potensialın mövcud olduğunu göstərir. İnstitusional sahədə görülən işlər isə mövcud potensialdan səmərəli istifadə edilərək iqtisadiyyatın daha tez bir zamanda bərpasına böyük ümidlər yaradır.

İşğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, daxili və xarici investisiyaların, beynəlxalq təşkilatların ianələrinin cəlb edilməsi nəticəsində mikro, kiçik və orta sahibkarlığın formalaşmasına imkan yaratmaqla, qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaqdır. Əminliklə demək olar ki, Qarabağ ərazisində qeyri-neft sektorunun potensial imkanları genişlənəcək, yeni istehsal sahələri yaradılacaq və nəticədə, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artmaqla yanaşı ixrac yönümlü məhsulların istehsalı da artacaqdır. Bu əminliyin maddi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə öz doğma yurdlarına qayıdan zəhmətkeş və məğrur insanlar təşkil edəcəkdir [3, s.14].

Qarabağda iqtisadiyyatın arzuolunan strukturuna nail olmaq üçün dövlətin daha çox qeyri-ənənəvi sahələrin yaradılmasına və inkişafına dəstək verməsi tələb olunur. Bölgənin malik olduğu işçi qüvvəsinin iqtisadiyyatın ənənəvi sahələri üzrə ixtisaslaşması bu sahələrin daha tez inkişafı üçün böyük üstünlüklər yaradır. Yeni innovativ sahələrin yaradılması üçün isə ilk növbədə, bu sahələrin kadr təminatının formalaşdırılması zəruridir.

Heç şübhəsiz, ona çalışmaq lazımdır ki, müəyyən bir dövr keçdikdən sonra post-konflikt rayonlar, iqtisadi cəhətdən özü-özünü dolandıran bütöv (bitkin) bir regiona çevrilsin, mümkün dərəcədə özünəyetər olsun və eyni zamanda, ölkənin digər bölgələrinə iqtisadi inteqrasiya telləri ilə üzvi surətdə bağlanmış olsun, dövlətin xarici iqtisadi münasibət və əməliyyatlarında tam hüquqla və tam həcmdə iştirak etsin [2, s. 197].

Səmərəlilik baxımından, Qarabağda iqtisadiyyatın yeni strukturunun daha çox müqayisəli üstünlük sahələrin hesabına formalaşdırılması təklif olunur. İşğala qədərki strukturun təhlili göstərir ki, yeni strukturun formalaşdırılması müqayisəli üstünlük prinsipinə əsaslanacağı halda bu daha çox ənənəvi sahələrin bərpası demək olacaqdır.

Regionun rəqabət üstünlüyü sahələri, bütövlükdə ölkənin potensial (gələcək) müqayisəli üstünlükləri nəzərə alınmaqla seçilməlidir. Bölgə iqtisadiyyatına müqayisəli rəqabət üstünlüyü verən müəssisələrin siyahısına həmçinin o müəssisələr də salınmalıdır ki, onlar son istehlaka hazır olan rəqabət qabiliyyətli məhsullar (o cümlədən xidmətlər) istehsal etməsə də, ölkənin öz qlobal (dünyəvi) və dövlətlərarası - regional iqtisadi funksiyalarını həyata keçirməsində bir növ vəsilə rolu oynayır [2, s. 201].

Qarabağda iqtisadiyyat quruculuğunun sürətləndirilməsi üçün həmçinin dövlət-özəl əməkdaşlığının səmərəli formalarının seçilməsi və reallaşdırılması tələb olunur. Bu sahədə Qarabağ Dirçəliş Fondunun imkanlarından istifadə ilə yanaşı digər mexanizmlərin də tətbiqi zəruridir.

Heç şübhəsiz ki, iqtisadi strukturların yaradılması prosesində rəhbər tutulacaq əsas prinsiplərdən birini region əhalisinin mülkiyyət hüquqlarının təmin olunması təşkil etməlidir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın yenidənqurulması və inkişafı 4 alt-istiqaməti: real sektorun qurulması üçün iqtisadi canlanmanın yaradılması, əlverişli biznes mühitinin formalaşdırılması üçün iqtisadi aktivliyin təşviqi, torpaq islahatlarının həyata keçirilməsi və mülkiyyət hüquqlarının bərpası və bölgədə regional ixtisaslaşmanın artırılması üzrə tədbirlərin icrasını əhatə etməkdədir [1, s.19].

Qarabağda iqtisadiyyatın yeni strukturunda ənənəvi və yeni sahələrin nisbəti əhəmiyyətli dərəcədə Qarabağın bərpası ilə bağlı həyata keçirilən tədbirlərin miqyasından və səmərəliliyindən asılı olacaqdır. Odur dövlət proqramının icrası ilə bağlı görülən işlərin mütəmadi monitorinqinin və tələb olunan istiqamətlər üzrə təkmilləşmələrin aparılması vacibdir.

**Nəticə**

Mövcud iqtisadi reallıqların təhlili göstərir ki, Qarabağda iqtisadiyyatın strukturu ilk növbədə aşağıdakıların nəzərə alınması ilə formalaşdırılmalıdır:

1. Qarabağın təbii resurslarının tam şəkildə iqtisadi dövriyyəyə cəlb olunması imkanının yaradılması;

2. Rəqabətqabiliyyətli məhsul istehsalına imkan verən ixracyönümlü sahələrin inkişafının hədəflənməsi;

3. Diversifikasiyalı olmaqla idxalı əvəz edən sahələrin üstün inkişafına nail olunması.

Qeyd olunanları təmin edən strukturun formalaşdırılması üçün həm regionun mövcud üstünlüklərinin nəzərə alınması, həm də iqtisadi vasitələrlə yenilərinin yaradılması zəruridir.

**İstinadlar**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı. Bakı -2021
2. N. Müzəffərli., E. İsmayılov. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar., "Qafqaz", Bakı, 2010
3. Tərbiz Əliyev. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri // İqtisadi artım və ictimai rifah jurnalı, №1, 2021
4. https://president.az/articles/51088
5. https://www.virtualkarabakh.az/

**ŞİRİNZADƏ İradə**

Azərbaycan Memarlıq və İnşaat Universiteti, t.e.d., prof.

**ŞİRİNZADƏ Natiq**

Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat və Layihə İnstitutu, t.f.d.,

# AĞDAMDA İNŞAAT MATERİALLARI SƏNAYESİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Məqalədə Ağdam rayonu ərazisində inşaat materialları istehsalına yararlı olan mineral xammal ehtiyyatları, onların texniki xüsusiyyətləri təqdim edilmişdir. Yüksək keyfiyyətli inşaat hava əhəngi, portlandsement, ağ və əlan sement istehsalı üçün yararlı olan xammalların xarakteristikaları verilmişdir. Mineral yapışdırıcıların istehsalı üçün, eyni zamanda, alternativ xammal ehtiyatlarının mövcudluğu da nəzərə alınmışdır. Həmçinin, kərpic və kirəmit istehsalının mümkünlüyü və vacibliyi, onun istehsalı üçün xammal bazasının və dekorotiv daşların da mövcudluğu qeyd olunmuşdur.

**Açar sözlər:** sement xammalı, əhəngdaşı, gillər, Şahbulaq əhəngdaşı, inşaat hava əhəngi.

→

## Giriş

Məlum olduğu kimi 27 illik işğal müddətində düşmən ordusu Ağdamı tamamilə dağıtmış, sözün əsil mənasında yalnız ruhların dolaşa biləcəyi bir məkana çevirmişlər. İşğaldan azad olduğu gündən 6 ay sonra ölkə prezidenti şəhərin əvvəlki ərazisindən 2 dəfə böyük bir ərazini əhatə edən (1700 h) baş planını təqdim etdi. Baş plana görə Ağdamda 1750 fərdi ev, 23 min mənzil, 15 məktəb, Qarabağ Universiteti inşa olunacaq. Bundan başqa şəhər nəqliyyat-kommunikasiya sistemi qurulacaq, inzibati binalar, ticarət obyektləri, ictimai-iaşə obyektləri, otellər tikiləcək, parklar salınacaq və Ağdam Sənaye Parkı yaradılacaq [1]. Deməli, Ağdam hələ uzun müddət tikinti meydançası olacaqdır.

Yüksək sürətlə həyata keçirilən bu tikinti işləri yüksək keyfiyyətli inşaat materialları və yüksək ixtisaslı inşaatçı kadrlar olmadan mümkün deyildir. Fikrimizcə, gələcəyin möhtəşəm şəhərinin çox böyük peşəkarlıqla və sevgi ilə hazırlanan baş planını həyata keçirmək üçün tikinti işləri də eyni səviyyədə aparılmalıdır. İstənilən tikinti obyektinin müvəffəqiyyəti 3 amildən asılıdır: düzgün layihə, keyfiyyətli materiallar və işin keyfiyyətli icrası. Əlbəttə ki, burada keyfiyyətli material əsas amildir.

XXI əsrin layihəçisi, mühəndisi və nəhayət istehlakçısı hansı xassələrə malik material istədiyinə nəzər salsaq görərik ki, material yüksək istismar xassələrinə malik olmalı, ekoloji cəhətdən təmiz olmalı, yüksək dekorativliyə malik olmalı, müasir insanın rahatlığını maksimum təmin etməli və eyni amanda iqtisadi cəhətdən də səmərəli olmalıdır. Ağdam şəhərində yaşamış insanla oranı

əvvəlki kimi görmək istəyirlər, xəyallarında qalmış Ağdama qovuşmaq istəyirlər. Ağdamdaki evlərin, yaşayış sahələrinin komfortu o dövrə görə ən yüksək olmasına baxmayaraq, indi zaman çox dəyişmişdir. Müasir insanın rahatlıq anlayışı hətta 20-30 il əvvəlkindən çox fərqlidir.

Hər bir tikinti layihəsinin iqtisadi səmərəliliyinin əsas göstəricilərindən biri və ən vacibi - xammal bazasının yaxında yerləşməsidir (nəqliyyat xərclərinin yüksək olduğu bir dövrdə). Ağdam şəhərinin tikintisində də tikinti materiallarının Ağdam və ona yaxın ərazilərdə yerləşməsi önəmli amillərdən biridir.

Qarabağ ərazisi müxtəlif faydalı qazıntılar, o cümlədən, mineral mənşəli inşaat materialları və onların istehsalı üçün xammal ehtiyatları ilə də zəngindir.

Azərbaycan üçün ənənəvi divar materialı əhəngdaşıdır. Ağdam ərazisində keyfiyyətinə və yatağının ehtiyyatına görə Şahbulaq əhəngdaşı yatağı hələ Sovet dönəmindən istismar olunur. Bu yataq Ağdamdan şimal-qərb tərəfdə Çobandağ təpəciyində yerləşir. Şahbulaq yatağının əhəngdaşı təbaşir tərkibli əhəngdaşıdır, ağ və açıq boz rəngli süxurdur. Mütəxəssislərin məlumatına görə [ 2] faydalı layın qalınlığı 60 metrdir.

Şahbulaq yatağının əhəngdaşının kimyəvi tərkibi aşağıdakı kimidir (kütlə üzrə,%):

CaO- 53,20–55,28; $SiO_2$ – 0,02-0,65; $Al_2O_3$ – 0,05-).25; $Fe_2O_3$ – 0,14-0,16; MgO – 0,15-3,14; $SO_3$ – 0,01-0,80; Y.İ. – 42,20-43,80.

Şahbulaq yatağının əhəgdaşı yüksək fiziki-mexaniki xassələrə malikdir. Belə ki, bu süxurların orta sıxlığı 1,8 – 2,3 q/$sm^3$, məsaməliyi – 15 – 30%, sıxılmada möhkəmlik həddi 10-20 MPa intervalında dəyişir.

Şahbulaq yatağının əhəngdaşının çox keyfiyyətli bir divar materialı olduğu inşaatçılara və Ağdamlılara məlumdur. Tarixi mənbələrə görə Qarabağ xanının Ağdam ərazisində tikdirdiyi evinin Şahbulaq yatağının ağ rəngli əhəngdaşından olduğu üçün yerli əhali bu yaşayış məskənini belə adlandırmışdı. Yəni Şahbulaq yatağının əhəngdaşı artıq XVIII əsrdən özünü mükəmməl bir divar daşı kimi təsdiq etmişdir.

Kimyəvi tərkibinə əsasən bu əhəngdaşının portlandsement, ağ və əlvan sement, inşaat hava əhəngi istehsalı üçün əsas xammal ola biləcəyi aydın görünür. Əhəngdaşının təmizliyi, ağlığı hava əhəngi və ağ sement istehsalı üçün çox vacibdir. Şahbulaq əhəngdaşının tərkibində rəngləyici oksid olan $Fe_2O_3$-ün miqdarı çox azdır. Bu amil onu əhəng əsaslı boya və emulsiyaların istehsalına yararlı edir və eyni zamanda, ağ sement istehsalı da yalnız az dəmirli əhəngdaşı xammallarından alınır. Ölkəmizdə hal-hazırda bu növ sement xaricdən gətirilir. Ağ sementin əsas istifadə sahəsi isə kafel-metlax ara doldurucularının istehsalıdır ki, bu məhsul təmir-tikinti işlərində geniş istifadə olunur. Deməli, Ağdam rayonu ərazisində ağ sement istehsalının təşkili və onun da əsasında kafel-metlax ara doldurucuları kimi quru inşaat qarışığı istehsalının təşkili məqsədəuyğun ola bilər.

Məlumdur ki, son illərdə dünyada keyfiyyətli portlandsement istehsalına yararlı əhəngdaşı xammalı (əhəngdaşı sement xammal qarışığının ~75%-ni təşkil edir) tükənir. Əhəngdaşı təbiətdə ən geniş yayılmış süxurlardan olsa da, onların hamısı portlandsement istehsalına yararlı olmur. Sement istehsalı üçün yararlı əhəngdaşlarının tərkibində kalsit ($CaCO_3$) mineralının miqdarı yüksək, maqnezit ($MgCO_3$) mineralının miqdarı isə 5%dən aşağı olmalıdır [3]. Adətən təbiətdə yayılmış əhəngdaşlanın tərkibində maqnezit mineralının miqdarı daha yüksək olur. MgO-in miqdarının çox olması sementin xassələrini pisləşdirir. Onun əsasında hazırlanan məhlul və betonlarda çatların əmələ gəlməsinə səbəb olur. Şahbulaq əhəngdaşının kimyəvi tərkibindən göründüyü kimi isə burada MgO-n miqdarı 3%-ə qədər ola bilər. Deməli, bu əhəngdaşı portlandsement istehsalı üçün də qiymətli xammaldır. Şahbulaq yatağından çox da uzaqda olmayan, Ağdam şəhərinin 7 km cənub-qərbində yeləşən Şelli əhəngdaşı yatağının da əhəngdaşı kimyəvi tərkibinə görə portlandsement, ağ və əlvan sementlər, əhəng yapışdırıcısı üçün yararlıdır. Hətta kimyəvi tərkibcə bu istehsal sahələri üçün daha yararlıdır.

Bu yatağın süxurunun tərkibində $CaCO_3$-ün miqdarı 96-99%-ə çatır. Sıxlığı 2,7 q/sm$^3$-na qədər olan bu daşdan üzlük material kimi istifadə edilə bilməməsinin səbəbi daşlarda sıx çat şəbəkəsinin olmasıdır [2].

Bir ərazidə istehsal müəssisənin layihələndirilməsi zamanı alternativ xammal ehtiyyatları da nəzərə alınmalıdır. Bu nöqteyi-nəzərdən ətraf rayonlarda olan yataqlarda sement istehsalına yararlı bir neçə yatağın əhəngdaşlarını qeyd etmək olar: Ağdamda Çobandağ əhəngdaşı yatağı, Ağdərə əhəngdaşı yatağı, Şorbulaq əhəngdaşı yatağı (Ağdərə rayonu), Dövlətyarlı və Diləqardin (Fizuli rayonu) yataqlarının da əhəngdaşları inşaat hava əhəngi və portlandsement istehsalına yararlıdırlar. Portlandsement istehsalı üçün xammal qarışığın ikinci əsas komponenti gildir. Qeyd etmək lazımdır ki, bu istehsala yararlı gillər ölkə ərazisində çox geniş yayılmışdır və elə Şahbulaq və Şelli əhəngdaşı yataqlarının yaxınlığında Çobandağ gil yatağının gili kimyəvi-mineroloji tərkibinə görə portlandsement istehsalına yararlı gillərdir. Həmçinin Ağdam-Ağdərə yolunun ətrafında Boyəhmədli gil yatağı yerləşir ki, bu gil də həm portlandsement, həmdə kərpic və kirəmit istehsalına yararlıdır. Qeyd etmək lazımdır ki, mütəxəssislər tərəfindən hələ işğaldan öncəki zamanlarda Çobandağ gili və Çobandağ yatağı əhəngdaşı qarışığından portlandsement klinkeri üçün şixta tərkibinin hesablanması və klinkerin alınması laboratoriya şəraitində öyrənilmiş və nəticələr keyfiyyətli sement alınmasına imkan verir.

Fərdi evlərin tikintisində (xüsusilə xarici divarların tikintisində) divar materialları kimi əhəngdaşından istifadə həm ənənəvi, həm də məqsədəuyğundur. Lakin Ağdam şəhərinin baş planında çoxmənzilli binaların da tikintisi nəzərdə tutulur ki, həm fərdi yaşayış evlərinin daxili divarlarının tikintisində, həm də yüksək mərtəbəli binalarda divarların tikintisində keramik kərpiclərin istifadəsi həm texniki cəhətdən (konstruksiyaya düşən yükü azaldır), həm istiliyin mühafizəsi nöqteyi-nəzərindən məqsədə uyğundur. Ağdam rayonu ərazisi adi gil kərpici istehsalına yararlı gil süxurları ilə zəngindir. Yuxarıda adları çəkilən Boyəhmədli və Çobandağ gil yataqları yüksək keyfiyyətli kərpic alınması üçün yararlıdır. Həmçinin, ətraf ərazilərdə də kərpic istehsalına yararlı gil yataqları mövcuddur ki, bunlardan Əskəran rayonu ərazisində Harov gil yatağı, Fizuli şəhəri ətrafında Fizuli gil yatağı və s. böyük gil ehtiyatlarına malik yataqlardır.

Ağdam şəhərinin və erməni işğalından azad olmuş bütün Qarabağın yaşayış məskənlərinin tikintisi zamanı yerli materialların istifadəsi həm iqtisadi cəhətdən əlverişlidir, həm də təbiət qanunları nöqteyi-nəzərindən doğru və məqsədə uyğundur. Tikinti fəlsəfəsinə görə təbiət ən mükəmməl mühəndisdir. Hər bir məkanın iqliminə görə də orada materiallar mövcuddur və bu materialların istifadəsi də ən yararlı hesab olunur. Məsələn, soyuq Sibirdə ağac materialları çoxdur və soyuq şəraitdə ən mükəmməl material oduncaq əsaslı materiallardır. Bu fəlsəfəyə uyğun olaraq Ağdamı onun torpağına təbiətin bəxş etdiyi materialdan istifadə edərək tikək.

**Nəticə**

Ağdam şəhəri hələ uzun müddət tikinti meydançası olacaqdır. Burada sürətlə həyata keçirilən tikinti işləri  yüksək keyfiyyətli inşaat materialları və yüksək  ixtisaslı inşaatçı kadrlar olmadan mümkün deyildir. Gələcəyin möhtəşəm şəhərinin çox böyük peşəkarlıqla hazırlanan baş planını həyata keçirmək üçün tikinti işləri də eyni səviyyədə aparılmalıdır. İstənilən tikinti obyektinin müvəffəqiyyəti 3 amildən: düzgün layihə, keyfiyyətli materiallar və işin keyfiyyətli icrasından asılıdır. Hər bir tikinti layihəsinin iqtisadi səmərəliliyinin əsas göstəricilərindən biri və ən vacibi xammal bazasının yaxında yerləşməsidir (nəqliyyat xərclərinin yüksək olduğu bir dövrdə). Ağdam şəhərinin tikintisində də tikinti materiallarının Ağdam və ona yaxın ərazilərdə yerləşməsi önəmli amillərdəndir. Bir ərazidə istehsal müəssisənin layihələndirilməsi zamanı alternativ xammal ehtiyatları da nəzərə alınmalıdır.

**İstinadlar**


1. https://az.wikipedia.org/wiki/Ağdamın_baş_planı_(2021)
2. Fətəliyev S.A., İmanov Ə.M., Bayramov F.H. Azərbaycan Respublikasında tikinti materiallarının mineral xammal ehtiyyatları. Bakı. 2000. 200 s.
3. Şirinzadə İ.N., Şirinzadə N.Ə. İnşaat materiallarının fiziki-kimyəvi əsasları. Bakı. 2006. 378 s.

**YADİGAROV Təbriz**
AMEA İqtisadiyyat İnstitutu, i.f.d.

# AĞDAMIN TİCARƏT DÖVRİYYƏSİNİN İQTİSADİ ARTIMA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə:** Məqalədə Ağdamın iqtisadi potensialı tədqiq edilərək, 1970-1987-ci illərdə Azərbaycan SSR və Ağdam rayonunun pərakəndə ticarət dövriyyəsi təhlil edilmişdir. Burada eyni zamanda 2010-2020-ci illəri əhatə edən dövr üzrə pərakəndə ticarət dövriyyəsi geniş təhlil edilir.
Məqalədə Zəngəzur dəhlizinin açılmasının dünya dövlətlərinin maraq dairəsində olan bölgə ölkələrinin inkişafına güclü təsiri olduğu göstərilir. Araşdırma nəticəsində Bakı-Horadiz-Meğri-Naxçıvan və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan dəmir yollarının bərpası və istismara verilməsi əsasında Gürcüstan ərazisindən keçən yolun nəqliyyat xərcləri ilə müqayisədə daşıma xərclərinin azalmasının səmərəliliyi müəyyən edilmişdir.
Tədqiqat işində EVievs proqram paketinin tətbiqi ilə Ağdam rayonunun pərakəndə ticarət dövriyyəsinin Azərbaycanın ümumi ticarət dövriyyəsinə təsiri və həmin göstəricilər arasındakı korrelyasiya asılılığı müəyyən edilərək qiymətləndirilmişdir.

**Açar sözlər:** ticarət dövriyyəsi, proqram paketi, adekvatlıq, korrelyasiya, reqressiya, elasiklik əmsalı, ümumi daxili məhsul.

→

## Giriş

İqtisadiyyatın ən dinamik inkişaf edən sahələrdən biri kimi ticarət sahəsi ölkə üzrə iqtisadi artımın inkişafında mühüm rol oynayır. Ticarətin həcminin artırılması ilə bərabər ölkəmizdə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın rəqabətqabiliyyətinin daha da möhkəmləndirilməsinə və müasirləşməsinə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə istiqamətlənmişdir. Belə ki, 02 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamına əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 əsas Milli Prioritetin reallaşdırılması üzrə müəyyən edilmiş prioritet sahələrdən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdış proqramıdır. 2021-ci ilin 28 may tarixində ölkə başçısının Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində şəhər mərkəzinin qurulması üzrə nəzərdə tutulan planın reallaşması Ağdamın iqtisadi potensialının artmasına təsir edərək, əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına istiqamətlənmişdir.

***Ağdam rayonunun iqtisadi potensialının təhlili və qiymətləndirilməsi***

İnkişaf etmiş kənd təsərrüfatı və sənayenin bir çox sahələrini (ağır, yeyinti və yüngül) əhatə edən Ağdamın 1700 hektar ərazisi meşə, 91,3 hektar ərazisi isə kənd təsərrüfatına yararlı torpaq sahəsi

ilə zəngindir. Bu rayonun kənd təsərrüfatında tərəvəz, dənli bitkilər, şəkər çuğunduru, pambıq, üzüm, meyvə və giləmeyvə, günəbaxan, kartof və bostan məhsulları istehsal edilir [4]. Kənd təsərrüfatı üzrə heyvandarlıq məhsullarının istehsalında ət, süd, yumurta və yun məhsullarının payı daha çox üstünlük təşkil edir. Ağdamda işğaldan əvvəlki dövrdə sənaye məhsulları üzrə dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları və s. istehsal olunurdu. Ağdam rayonunda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ – pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları emalı ilə bağlı müəssisələrin sayı digər rayonlarla müqayisədə daha yüksək idi [4]. Dağlıq Qarabağın ermənilər tərəfindən işğal olunması və digər Azərbaycan rayonlarından ayrılması regionun, o cümlədən Ağdamın əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı. Uzun illərdən bəri Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyir, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi. Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin cəmi 0,3 %-i, idxalının isə 1.4 %-i Ermənistan Respublikasının payına düşdüyü halda, Azərbaycana onun ixracatının 33,3 % düşürdü [4].

Qeyd etmək lazımdır ki, Sovet dövründə Dağlıq Qarabağın iqtisadi inkişafında Azərbaycanın digər iqtisadi rayonları ilə bərabər, Ağdam rayonu ilə qarşılıqlı iqtisadi əlaqələrin mühüm rolu olmuşdur. 1985-ci ildə Xankəndi İpək Kombinatına tələb olunan barama xammalının 8%-i Dağlıq Qarabağın özündə istehsal edildiyi halda, 92%-i Azərbaycanın digər rayonlarından gətirilirdi.

Bütün bunlar, keçmiş SSRİ dövründə Ağdamın pərakəndə ticarət dövriyyəsinin həcminin artması ilə nəticələnmişdir. Aşağıdakı diaqramdan bunları daha aydın görmək olar [4]..




***Qrafik 1. Azərbaycan SSR-nin və Ağdam rayonunun 1970-1987-ci illər üzrə pərakəndə ticarət dövriyyəsi***

***Qeyd.** Diaqram müəllif tərəfindən müvafiq illər üzrə hazırlanmışdır*

Qrafikdən göründüyü kimi pərakəndə ticarət dövriyyəsi 1970-1987-ci illər üzrə Ağdam rayonunda artan dinamika ilə inkişaf etmişdir. Tədqiq olunan bütün dövr üzrə Azərbaycan SSR-nin ümumi ticarət dövriyyəsinin əvvəlki illərlə müqayisədə artım tempinə müvafiq olaraq, Ağdam rayonunda da pərakəndə ticarət dövriyyəsinin həcmi artaraq 1987-ci ildə 84,5 milyon rubl olmuşdur ki, bu da 1986-cı illə müqayisədə 5% artım deməkdir. Bu artım sonrakı dövrlərdə də öz əksini tapmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.




***Qrafik 2. Azərbaycan Respublikasının və Ağdam rayonunun 2010-2020-ci illər üzrə pərakəndə ticarət dövriyyəsi, milyon manatla***

***Mənbə:*** *Diaqram müəllif tərəfindən müvafiq illər üzrə hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi, pərakəndə ticarət dövriyyəsi 2010-2020-ci illər üzrə Azərbaycan Respublikasında ticarət dövriyyəsinin əvvəlki illərlə müqayisədə artım tempinə müvafiq olaraq, Ağdam rayonunda da artan dinamika ilə inkişaf etmişdir. Lakin bütün bunlara baxmayaraq işğaldan əvvəlki dövrlərlə müqayisədə pərakəndə ticarət dövriyyəsinin Azərbaycanın ümumi ticarət dövriyyəsindəki payı azalmışdır.

Qeyd etmək lazımdır ki, erməni işğalından əvvəlki dövrdə bir şəhər, 124 kəndi və 1094 kv. km ərazisi olan Ağdamın ərazisinin 77,4%-i, yəni 846,8 kv. km-i, bir şəhər və 80 kəndi 10 noyabr 2020-ci ilədək təcavüzkar Ermənistan Respublikası tərəfindən zəbt edilmişdir. Statistik məlumatlara əsasən işğal nəticəsində rayona 13135 milyon ABŞ dolları məbləğində ziyan vurulmuşdur. Bütün bunlar rayonun sosial-iqtisadi vəziyyətinə mənfi təsir edərək pərakəndə ticarət dövriyyəsinin ölkənin ümumi ticarət dövriyyəsində payının işğaldan əvvəlki dövrlə müqayisədə azalması ilə nəticələnmişdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.




***Qrafik 3. Azərbaycanın pərakəndə ticarət dövriyyəsində Ağdam rayonun payı, %-lə***

***Qeyd.*** *Diaqram müəllif tərəfindən müvafiq illər üzrə hazırlanmışdır*

Qrafikdən göründüyü kimi, Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin ölkəmizin ümumi ticarət dövriyyəsindəki payı 1970-1987-ci illər üzrə artan dinamika ilə müşahidə edilmişdir. 1987-ci ildən 2020-ci ilədək isə bu artım kəskin azalma ilə nəticələnmişdir. Belə ki, 1987-ci ildə Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin Azərbaycanın ümumi ticarət dövriyyəsindəki payı 1,72% olduğu halda, 2020-ci ildə 0,114% olmuşdur ki, bu da 1987-ci illə müqayisədə 93,4% azalma deməkdir. Bütün bunlar erməni işğalı nəticəsində Ağdamda 39 tikinti təşkilatının, 29 kənd təsərrüfatı müəssisəsinin, 27 sənaye müəssisəsinin, 13 kolxoz və 12 sovxozun və 4 ədəd onlara xidmət edən təşkilatların dağıdılması ilə əlaqədardır. Statistik məlumatlara əsasən məhsulları keçmiş SSRİ-nin 125 şəhərinə göndərilən Ağdam Dəzgahqayırma zavodunda 950

nəfər işçi çalışmış, rayonda iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət-xidməti kombinatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi müəssisəsi ilə bərabər ildə 80 min ton məhsul istehsal edən Taxıl Məhsulları Kombinatı mövcud olmuşdur[3,4]. Azərbaycan Respublikasının sənayesi və tikintisində böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngin olan işğaldan azad olunmuş ərazilərdə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəngin ehtiyatları 140 milyon ton və gillər 20 milyon ton), Şahbulaq (25 milyon ton gil), Boyəhmədli (45 milyon ton gil) və digər yataqlardadır. Rayonda 1987/1988-ci tədris ilində ümumilikdə 97 ümumtəhsil məktəbi mövcud olmuşdur ki, burada da təhsil alanların sayı 26800 nəfər təşkil etmişdir. Hal-hazırda isə təhsil müəssisələrində təhsil alanların sayı Ağdam əhalisinin sayının 18,1%-ni təşkil etməklə, 36600 nəfərdir [4].

***Zəngəzur dəhlizinin açılmasının Ağdamın ticarət dövriyyəsinə təsirinin təhlili***

Qarabağın işğaldan azad edilməsi ilə nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində həyat keçirilməsi planlaşdırılan əsas məsələlərdən biri də mühüm regional əhəmiyyəti olan Zəngəzur dəhlizinin açılmasıdır. Bu dəhlizin açılması region ölkələrlə bərabər Ağdam rayonunun iqtisadi potensialının optimallaşdırılmasına müsbət təsir edərək ticarət dövriyyəsinin həcminin artmasını stimullaşdıracaqdır.

Zəngəzur dəhlizinin açılması region ölkələrinin inkişafına təkan verməklə dünyanın güc mərkəzlərinin maraq dairəsindədir. Azərbaycan Şimal-Cənub, Şərq-Qərb layihələrində əsas rola malik olan ölkələrdən biridir. Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin Şimal-Cənub nəqliyyat qovşağına birləşməsi bütün region ölkələrinə əlavə imkanlar yaradacaqdır. Zəngəzur dəhlizinin Türkiyənin İqdır və Qars şəhərlərinə qədər uzadılması mümkündür ki, bu da Gürcüstan ərazisindən keçən yoldan təqribən 340 km qısadır. Bu isə əlavə olaraq 20 tonluq vaqon üçün 400-500 ABŞ Dolları məbləğində daha ucuz başa gəlməsi və daşımaların rentabellik səviyyəsinin artırılması ilə deməkdir. Hesablamalara əsasən müəyyən edilmişdir ki, bu layihənin yerinə yetirilməsi təqribən 433,7 mln ABŞ Dollarına başa gələcəkdir. Bu layihənin reallaşması Azərbaycan tərəfinə 278,6 mln USD, Ermənistan tərəfinə 104,6 mln. USD və Türkiyə tərəfinə isə 52 mln. USD-yə başa gələcəkdir. Layihənin özünü ödəmə müddəti isə 10 il müəyyən edilmişdir. Aşağıdakı cədvəl məlumatlarında quru yolu ilə daşıma marşrutları üzrə daşıma məsafəsi və yolun bərpasına sərf ediləcək xərclər göstərilmişdir.

***Cədvəl 1.Daşınma istiqamətləri üzrə quru yolun bərpasına sərf ediləcək xərclər***

| ***Daşınma istiqamətləri*** | ***Məsafə*** | ***Xərclərin tələb olunan məbləği, mln USD ilə*** |
|---|---|---|
| ***Bakı-Horadiz*** | 266 | 26,6 |
| ***Horadiz-Meğri*** | 108 | 162 |
| ***Meğri-Naxçıvan*** | 41 | 61,5 |
| ***Meğri-Ordubad*** | 11 | 11 |
| ***Ordubad-Julfa-Sədərək*** | 190 | 76 |
| ***Sədərək-Yeraks*** | 4 | 8 |
| ***Yeraks-Gümrü*** | 192 | 19,2 |
| ***Gümrü-Akuryan*** | 13 | 13 |
| ***Akuryan_Doğukapi*** | 0,7 | 1,4 |
| ***Dogukapi-Qars*** | 52 | 52 |
| ***Cəmi*** | 877,7 | 430,7 |

***Qeyd.*** *cədvəl müəllif tərəfindən müvafiq illər üzrə hazırlanmışdır.*

Cədvəl məlumatlarından göründüyü kimi, Azərbaycan tərəfinə düşən yolun uzunluğu digər ölkələrlə müqayisədə yüksək olduğundan, bu yolun bərpasına tələb olunan investisiya məb-

ləğinin daha çox hissəsi (64,2 %-i) də Azərbaycan Respublikasının üzərinə düşür. Bu layihənin reallaşması nəticəsində Azərbaycan üçün ən əsas əhəmiyyətli marşrut kimi Naxçıvana və Türkiyəyə birbaşa əlaqə yaradılmaqla iqtisadi əlaqələr genişlənəcək. Həmçinin Ermənistan-Rusiya, Ermənistan-İran əlaqələri, Çindən Rusiyaya yük daşımalarının artması, Türkiyədən Rusiya və Orta Asiya ölkələrinə yük daşımaları əlavə tranzit gəlirlərinə imkan verəcəkdir. Şimal-Cənub Nəqliyyat Dəhlizi əsasən Hindistandan və İran Körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanmışdır. Şimal-Cənub Tranzit Dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır. Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik Dənizindən keçərək Helsinki şəhərinə 45-60 gün ərzində daşıma müddəti təşkil edirsə, Şimal-Cənub Tranzit Dəhlizi ilə bu müddət 20-25 gün təşkil edir. Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoymuşdur. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilmişdir. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Azərbaycanda İran tərəfinə Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kreditin ayrılması nəzərdə tutulmuşdur. Həmçinin bu layihə yeni tikilmiş Ələt limanının potensial imkanlarından daha çox istifadə etməyə imkan verəcəkdir. Qeyd etmək lazımdır ki, bu layihə çərçivəsində Ermənistan ilə iqtisadi əlaqələrin bərpası da mümkündür. Statistik məlumatlara əsasən 1987-ci ildə Azərbaycandan Ermənistana 451 mln rubl mal ixrac edilmiş, Ermənistandan isə Azərbaycana həmin dövrdə 117 mln rubl mal idxal edilmişdir [4]. Azərbaycandan Ermənistana ixrac olunan mallar üzrə əsasən xam neft, benzin və kimyəvi mallar, Ermənistandan isə daha çox idxal olunan mallar üzrə zinyət əşyaları üstünlük təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin açılması, Ermənistan İran və Rusiyaya daha ucuz nəqliyyat əlaqələrinin qurulmasına şərait yaradacaqdır. Hal-hazırda Rusiya ilə Ermənistan arasında dəmir yolu ilə yük daşınması iqtisadi baxımdan səmərəli deyildir. Quru yolu isə çətin dağ yolları ilə keçdiyindən daşımaların maya dəyərini yüksəldir. Təqribən 20 ton yükün daşınması 4000 ABŞ Dollarına başa gəlir. Statistik məlumatlara əsasən Ermənistan və Rusiya arasında ticarət dövriyyəsi 2,4 mlrd ABŞ Dolları təşkil edir ki, bu da Ermənistanın ticarət dövriyyəsinin 35%-i deməkdir. Hazırda Ermənistanın İranla ancaq çətin relyefdən keçən quru yolu ilə əlaqəsi vardır. İranla dəmir yolu əlaqəsinin qurulmasına cəhd 2009-cu ildə, Ermənistan və İran arasında İrəvan və Təbrizi Sünik üzərindən birləşdirəcək "Cənubi Ermənistan Dəmir Yolu" nun inşası barədə müqavilə imzalandığı zaman edilmişdir. Dəmir yolu xəttinin ümumi uzunluğu 470 kilometr olmaqla tikintisi Ermənistanın illik büdcəsi ilə müqayisə edilən ümumi dəyəri 3,5 milyard ABŞ dollarına başa gələcəkdir. Bu layihə məhdud maliyyə imkanları və siyasi iradə səbəbindən həyata keçirilməmişdir. Son illərdə Ermənistan hökuməti Çini Kəmər və Yol Təşəbbüsü çərçivəsində dəmir yolu layihəsinin maliyyələşdirilməsinə cəlb etməyə çalışsa da bu məsələ hələlik reallaşmamışdır. Bu baxımdan Ermənistanın Naxçıvan üzərindən İrana dəmir yol xətti vasitəsilə nəqliyyat əlaqələri daha səmərəlidir. 1930-1940-cı illərdə Sovet İttifaqı, Bakı ilə Naxçıvan arasında Ermənistanın Meqri bölgəsindən İran sərhədinə paralel olaraq dəmir yolu bağlantısı qurmuşdur. Naxçıvanın Culfa rayonu ilə İranın şimal-qərbindəki Şərqi Azərbaycan Əyalətinin Colfa şəhərindən keçən İran dəmir yolu, 1990 və 1991-ci illərdə Colfa sərhədindən keçən yük mübadiləsi həcmi əsasən İranın idxalının 10%-dən çoxunu təşkil edərək 2,69 və 2,37 milyon ton olmuşdur. Birinci Qarabağ müharibəsindən sonra İran sərhədinə yaxın Füzuli, Cəbrayıl və Zəngilan bölgələri Ermənistanın nəzarətinə keçdiyindən, Naxçıvanla materik Azərbaycan arasında dəmir yolu əlaqəsi kəsilmiş və nəticədə yük mübadiləsində azalmalar müşahidə edilmişdir.

Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin bərpası İranın Ermənistan, Rusiya ilə əlaqələrinə, eləcə də Türkiyənin birbaşa Xəzər dənizi və Qafqaza çıxış əldə etməsinə, Rusiya və Orta Asiya Respublikaları ilə əlaqələrin qurulmasında da mühüm əhəmiyyət kəsb edəcəkdir.

Tədqiqatlar göstərir ki, Zəngəzurdan keçərək Naxçıvan və Türkiyəyə uzanan Bakı-Horadiz-Meğri-Naxçıvan dəmir yolu xətti və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan avtomobil yollarının bərpa edilərək istifadəyə verilməsi regionun inkişafında, xüsusən də Ağdam rayonunun sosial-iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

***Ağdamın ticarət dövriyyəsinin iqtisadi artıma təsirinin ekonometrik qiymətləndirilməsi***

Qloballaşan dünya təsərrüfatında gələcəyə hədəflənən düşünülmüş strategiyaya malik olan dövlətlər dinamik və sabit inkişaf edir. Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı strateji layihələr ölkəmizin iqtisadi qüdrətini daha da artmışdır. Bu layihələrdən biri də **ölkənin sosial-iqtisadi inkişafına dair 5 əsas Milli Prioritetin reallaşdırılması üzrə müəyyən edilmiş işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır.**

İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsi pərakəndə ticarət dövriyyəsinin həcmini artıraraq ölkə üzrə iqtisadi artımın təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Respublikamızda aparılan uğurlu iqtisadi islahatlar hesabına ölkənin bütün regionlarında, o cümlədən Qarabağda kənd təsərrüfatının, ənənəvi sənaye sahələrinin inkişafı, bu sahələrə yönəldiləcək investisiyalar hesabına əldə olunan əlavə dəyərin artmasını şərtləndirərək, ÜDM-in artımına səbəb olacaqdır. Bu baxımdan Ağdamda pərakəndə ticarət dövriyyəsinin ölkə üzrə ÜDM-ə təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı diaqrammada Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsi və ölkə üzrə ÜDM-in həcmi göstərilmişdir[2].




***Qrafik 4. 2010-2020-ci illər üzrə*** ÜDM-in və Ağdamda pərakəndə ticarət dövriyyəsinin həcmi, mln. man.

***Qeyd.*** *Diaqram müəllif tərəfindən müvafiq illər üzrə hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi, ÜDM-in həcmi 2018-2020-ci illər üzrə azalsa da, Ağdamda pərakəndə ticarət dövriyyəsinin həcmi tədqiq olunan bütün dövrlərdə regionda aparılan iqtisadi islahatlar hesabına artan dinamika ilə müşahidə edilmişdir. Qrafik 4-dən istifadə edərək, Ağdamda pərakəndə ticarət dövriyyəsinin ÜDM-ə təsirinin ekonometrik qiymətləndirilməsi məqsədlə Eviews proqram paketindən istifadə etsək aşağıdakı nəticəni alarıq.

***Cədvəl 2***

| | | | | |
|---|---|---|---|---|
| **Asılı dəyişən: Y** | | | | |
| **Metod: Ən kiçik kvadratlar** | | | | |
| **Tarix: 21.09.21 Saat: 06:33** | | | | |
| **Nümunə: 2010 2020 2020** | | | | |
| **Daxil olan müşahidələrin sayı: 11** | | | | |
| Dəyişənlər | Dəyişənlərin əmsalları | Standart səhv | t-Statistikası | Nüm. |
| X | 1456,024 | 196,5337 | 7,408519 | 0 |

| | | | | |
|---|---|---|---|---|
| C | 11301,47 | 7047,79 | 1,603549 | 0,1433 |
| R-kvadrat (determinasiya) | 0,859124 | Orta asılı var | | 62368,2 |
| R-tənzimlənmiş (korrelyasiya əmsalı) | 0,843472 | S.D. asılı var | | 12315,48 |
| S.E. reqressiyadan | 4872,458 | Akaike məlumat meyarı | | 19,98355 |
| Məbləğin kvadratı | 2.14E+08 | Şvars meyarı | | 20,05589 |
| Log ehtimalı | -107,9095 | Hannan-Quinn meyarı | | 19,93795 |
| F-statistika | 54,88616 | Durbin-Uotson statistikası | | 1,471438 |
| Nümunə(F-statistic) | 0,000041 | | | |

***Qeyd.*** *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

**Qiymətləndirmə əmri:**

=========================

LS Y X  C

**Qiymətləndirmə tənliyi:**

=========================

Y = C(1)*X + C(2)

Əvəz edilmiş əmsallar:

=========================

Y = 1456.02383946*X + 11301.4729761 **(1)**

Cədvəldən göründüyü kimi Ağdamda pərakəndə ticarət dövriyyəsi ilə ÜDM  arasında yüksək korrelyasiya əlaqəsi vardır ($R^2$=0,859) Determinasiya əmsalının 0,859 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 85,9% dispersiya nəticə göstəriciləri ilə, 4,1%-i isə digər amillərin təsiri ilə izah edilir [1].

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticələrdən görünür ki, modelə daxil olan sərbəst dəyişənlərin və sərbəst həddin standart səhvləri, əmsalların qiymətlərindən kiçikdir. Eyni zamanda F-Fişer kriteriyası, cədvəl qiymətindən böyük (54,9>5,12) olduğundan reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır [2. səh.297].

Modeldə avtokorelyasiyanın olub-olmaması haqqında nəticəni EViews tətbiqi proqram paketinə əsasən cədvəl 1-də göstərilmiş Darbon-Uotson statistikasına əsasən müəyyən etmək olar. Cədvəldən göründüyü kimi DW=1,471-ə bərabərdir. Bu halda, əhəmiyyətlilik səviyyəsinə 1 izahedici dəyişən (m=1) və n=11 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır [6, səh.324].

Darbon-Uotson meyarlarına əsasən, əgər  olarsa, göstəricilər arasında avtokorrelyasiya olmayacaqdır [6].  oduğundan, tədqiq olunan göstəricilər arasında avtokorrelyasiya olmayacaqdır. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuş Y = 1456.02383946*X + 11301.4729761 modeli adekvatdır.

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqresiya tənliyi ilə Ağdamda pərakəndə ticarət dövriyyəsinin ÜDM-ə təsirinin illər üzrə qiymətləri və standart səhvləri və modelin faizlə xətası müqayisə edilərək qiymətləndirilmişdir. Qiymətləndirmənin nəticəsi qurulmuş (1) modelinin proqnoz məqsədi ilə istifadəyə yararlılığını müəyyən etmişdir.

Tədqiqat nəticəsində yuxarıda **(1)** xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla, səbəb amili hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini müəyyən etmək olar. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır [1, 6].

Burada, yuxarıda göstərilən əlaqə tənliyinin əmsallarıdır. tədqiq olunan dövrlər üzrə Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin hesabi ortası, tədqiq olunan dövrlər üzrə Azərbaycan Respublikasında ÜDM-in hesabi ortasıdır. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş model üzrə aşağıdakı kimi olacaqdır.

$$E = \frac{\alpha \times \bar{x}}{\bar{y}} = \frac{37{,}34545455 \times \ 1456{,}023839}{66228{,}65455} = 0{,}821032414$$

Aparılmış hesablamalar göstərir ki, Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin 1% artması Azərbaycan Respublikasında ÜDM-in 0,82 %artması ilə nəticələnir.

### *Nəticə*

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Ağdamın iqtisadi potensialdan istifadənin səmərəliliyinin yüksəldilməsində əsas məsələlərdən biri, Qarabağın işğaldan azad edilməsi ilə nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində Zəngəzurdan keçərək Naxçıvan və Türkiyəyə uzanan Bakı-Horadiz-Meğri-Naxçıvan dəmir yolu xətti və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan avtomobil yollarının bərpa edilərək istifadəyə verilməsidir. Zəngəzur dəhlizinin Türkiyənin İqdır və Qars şəhərlərinə qədər uzadılması, Gürcüstan ərazisindən keçən yolla müqayisədə daşıma məsafəsinin 340 km azaldılması ilə nəticələnəcəkdir ki, bu da əlavə olaraq 20 tonluq vaqon üçün yükdaşımaların 400-500 USD daha ucuz başa gəlməsi və daşımaların rentabellik səviyyəsinin artırılması ilə nəticələnir.

EViews tətbiqi proqram paketinə əsasən müəyyən edilmişdir ki, Ağdamda pərakəndə ticarət dövriyyəsi ilə ÜDM arasında Y = 1456.02383946*X + 11301.4729761 reqressiya tənliyi ilə ifadə edilən yüksək korrelyasiya asılılığı vardır və Ağdam rayonu üzrə pərakəndə ticarət dövriyyəsinin 1% artması Azərbaycan Respublikasında ÜDM-in 0,82 % artması ilə nəticələnir.

### İstinadlar


1. 1.Aziz Kutlar Eviews ile uğulamalı çok denklemeli zaman serileri. Uuttepe yayınları, Koçaeli Universitetei, 2017, səh.166.
2. 2.http://www.stat.gov.az/
3. 3.https://apa.az/az/xeber/maliyye/Agdamin-isgaldan-azad-edilmsi-yeni-iqtisadi-tsbbuslri-canlandirir-615990
4. 4.Народное хозяйство Азербайджанской ССР в 1987 г. Статистический ежогодник-Б, Азернешр,1988-323с.
5. 5, Султанов Б.И., Очерки истории стальной магистрали Азербайджана» Баку 1997.
6. 6. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel vəEviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı-2020. 352 səh.
7. 7. Зейналов З.А.«Стальной магистрали Азербайджана 100 лет» Баку, 1980.

YUSİFOVA Kəmalə

Azərbaycan Dillər Universiteti

# QARABAĞDA AQROTURİZM: İMKANLAR VƏ PERSPEKTİVLƏR

**Xülasə:** Məqalədə Qarabağda turizm fəaliyyəti geniş rakursda araşdırılmış, onun təşkili səmərəliliyini şərtləndirən amillər aşkar edilmişdir. Qarabağda aqroturizm bazarının mövcud vəziyyətinin xarakterizə edən göstəricilər səciyyələndirilmişdir. Aqroturizmin iqtisadi, sosial, ekoloji və mədəni-tarixi funksiyalarının yerinə yetirilməsi mühiti xarakterizə olunmuşdur. Turizmin bu növünün təşkilati-iqtisadi və hüquqi aspektlərinə vahid müstəvidə yanaşmanın zəruriliyi göstərilmişdir. Aqroturizm bazarında vəziyyətin qiymətləndirilməsi üçün ümumi və özünəməxsus meyar və göstəricilərin təhlilə cəlb edilməsi zərurəti əsaslandırılmışdır.

**Açar sözlər:** aqroturizm, inkişaf perspektivləri, sosial-iqtisadi inkişaf, strateji planlaşdırma.

→

## Giriş

Turizm fəaliyyəti insanlarla bilavasitə təmas qurmağı, xidmət baxımından yanaşmaların müxtəlifliyində düzgün seçim etməyi tələb edir. Bu baxımdan, turizm sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və qiymətləndirilməsi xüsusi diqqət tələb edən məsələdir. Kənd ərazilərində turizm fəaliyyəti şaxələndirilmiş fəaliyyətdir və bu proses davam edir. İnsanların kənd həyat tərzinə göstərdiyi maraq dəyişkən olmaqla inkişaf yönümlüdür.

Azərbaycanın qəti qələbəsi ilə başa çatmış Vətən Müharibəsi Qarabağın yenidən qurulması kimi böyük vəzifələri gündəmə gətirmişdir. Hər kəsin iştirak etmək istədiyi bu işdə strateji planlaşdırma, imkanların qiymətləndirilməsi, onların reallaşdırılması böyük perspektivlər vəd edir. Lakin post-konflikt dövrünün öz tələbləri vardır. Onlara riayət edilməsi nəinki gələcəyin, həmçinin, bu günün sərt reallıqlarını, iqtisadi və sosial inkişaf prioritetlərini nəzərə almağı tələb edir. Bu baxımdan azad edilmiş ərazilərdə aqroturizmin inkişaf perspektivlərinin araşdırılması aktual hesab edilən məsələlərdəndir.

Ali dövlət rəhbərliyi səviyyəsində Qarabağın dünya üçün nümunə olacaq bir bölgəyə çevrilməsi barədə bəyanat, nəinki ölkə vətəndaşlarının, habelə yaxın və uzaq xaricdə yaşayan həmvətənlərin işgüzar fəallığını təşviq edir. Azərbaycanın iqtisadi qüdrəti və əsaslandırılmış bərpa siyasəti Qarabağın yenidən qurulmasına əminlik yaradır. Eyni zamanda, dost ölkələrin bu işdə iştirakı da təşviq edilir.

**Təhlil və qiymətləndirmə**

Qarabağın dirçəlməsində ora qayıdacaq insanlar əsas rol oynayacaqdır. Kənd ərazilərinin bərpası və kənd təsərrüfatının inkişafı aparıcı istiqamətdir. Aqroturizm xidmətləri öz xərcini daha tez çıxardacaq və kənd yerlərində məşğulluğa müsbət təsir edəcəkdir.

Yüksək texnoloji layihələrin poliqonu olacaq Qarabağda təbiətin əvvəlki vəziyyətinin və gözəlliyinin qaytarılması vəzifəsi də durur. Çünki Ermənistan üç onillikdə həmin ərazilərdə həm də ekoloji terror həyata keçirmişdir. **İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafında iqtisadi impuls mənbəyi kimi turizm sahəsi çıxış edir.** Qeyd olunan və bir sıra məsələlərin həllində turizmin, o cümlədən, aqroturizmin böyük rol oynayacağı, ölkə başçısı tərəfindən bəyan edilmişdir. Mütəxəssis araşdırmalarının nəticələri işğaldan azad edilmiş ərazilərdə aqroturizm imkanlarına nikbin baxmaq üçün kifayət qədər əsas verir.

Azərbaycanın bir çox yerlərindən fərqli olaraq, Qarabağ bölgəsi qışı və yayı mülayim olan yaşıllıqlarla zəngin bir məkandır. Bu cür bənzərsiz təbii-iqlim xüsusiyyətləri bölgədə aqroturizmin və kənd-yaşıl turizmin inkişafı deməkdir.

Aqroturizm (kənd turizmi) turizmin mühüm növü və böyük sosial-iqtisadi, ekoloji və bir sıra digər aspektlərdə böyük əhəmiyyətə malik fəaliyyətlər kompleksidir. Bu sahənin dinamik və dayanıqlı inkişafı isə kənd yerlərinin sosial-iqtisadi inkişafının təmin edilməsi, tarazlı regional inkişafa dəstək verilməsi istiqamətində görülən tədbirlərlə bilavasitə əlaqədardır. Kənd ərazilərində qeyri-aqrar fəaliyyət sahələrində işgüzar fəallığın təşviqi, qabaqcıl təcrübədən göründüyü kimi nəinki həmin ərazilərin, habelə aqrar sahənin inkişafında hərəkətverici amil rolunda çıxış edə bilər.

Qarabağda iqtisadi fəallığın dəstəklənməsi baxımından aqroturizmin roluna münasibət bildirmək üçün, aparılmış tədqiqatların nəticələrinə nəzər salmaq kifayətdir. Bu baxımdan, xarici iqtisadi və turizm ədəbiyyatında geniş yayılmış aşağıdakı mövqe ilə razılaşmağı məqsədəuyğun hesab edirik. “Turizm, xüsusilə kənd turizmi kənd rayonlarının inkişafı üçün vacib vasitədir, resursdur. Kənd turizmi, bazarların qloballaşması şəraitində rəqabətə dözməyən kiçik fermer təsərrüfatlarına inkişaf imkanları verir”.

Aqroturizm işğaldan azad edilmiş kənd ərazilərinin idarə edilməsində mühüm amil kimi çıxış etmək iqtidarındadır. İnkişaf etmiş ölkələrdə (İtaliya, Fransa, İspaniya) kifayət qədər böyük regionların sosial-iqtisadi inkişafında aqroturizmin oynadığı rol buna əyani sübut ola bilər. İlk növbədə bu haqqında danışılan regionlara əlavə maliyyə vəsaitləri axını sayəsində artan işgüzar fəallıq sayəsində baş verir. Digər, heç də az əhəmiyyətli olmayan səbəb aqroturizmin daha da şaxələndirilməsi üçün əlverişli şərait yaradan kənd təsərrüfatının çoxfunksiyalılığı amilidir.

Qarabağda kənd təsərrüfatının çoxfunksiyalılığı, özünü daha əyani şəkildə göstərəcəkdir. Burada istehsal, turizm, xalq sənətkarlığı, maddi və mənəvi irsin bərpası, işğalçılar tərəfindən tamamilə dağıdılmış kənd ərazilərinin bərpası, infrastrukturun yaradılması proseslərini müşayiət edəcəkdir. Dövlətin həyata keçirdiyi kompleks tədbirlərin gedişi də turistlər, o cümlədən, həmin ərazidəki aqroturistlər üçün maraqlı olacaqdır.

Vətən müharibəsində əldə edilmiş qələbə sayəsində Qarabağın böyük təbii ehtiyatlarının və milli-mədəni sərvətlərimizin bərpası və turizm dövriyyəsinə cəlb edilməsi imkanı yaratmışdır. Bundan sonra, Azərbaycanda böyüyən gənc nəsil, habelə xarici turistlər 30 illik işğal dövründə ermənilərin Qarabağda törətdiyi vəhşiliklərin şahidi olmalıdırlar. Bunun üçün Qarabağda “qara turizm” inkişaf etdirilməlidir. Məlumat üçün bildirək ki, “qara turizm” qismən yeni fəaliyyət növüdür. O dövlətin həyatında faciəli hadisələrlə əlaqədardır. Bu turizm fəaliyyəti Qarabağda erməni vəhşiliyi barədə həqiqətləri dünyaya çatdırmaq vasitəsi olmalı, açıq səma altında muzeylər yaradılmalı, sənədli filmlər nümayiş etdirilməlidir” [1].

Kənd təsərrüfatı istehsalçıları üçün aqroturizmin fəaliyyət sahəsi kimi rəqabət üstünlüyü məsələsi demək olar ki, araşdırılmamışdır. Belə tədqiqatlar fermer təsərrüfatı üçün alternativ və rəqabət qabiliyyətli fəaliyyət kimi aqroturizmin imkanlarını aşkar etməli və qiymətləndirmə-

lidir. Belə tədqiqatların nəticəsi biomüxtəlifliyin təmin olunması və ənənəvi kənd mənzərəsinin qorunması halında turistin tələbatının ödənilməsinin və ya fermer fəaliyyətinin rəqabət üstülüyündə ərazi amilinin rolu barədə bilikləri artırmaqdan ibarət olacaqdır [2].

Doğrudan da biomüxtəliflik amilinə lazımi diqqət verilməsi Qarabağda aqroturizmin inkişafına və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi perspektivlərini genişləndirəcəkdir.

Nəhayət onu qeyd edək ki, Qarabağda aqroturizmin inkişafının təşviqi, bu bölgədə urbanizasiya proseslərinin arzuolunmaz tempinin qarşısını ala bilər. Bu isə həyati əhəmiyyətli məsələdir. Qarabağın dinamik və dayanıqlı inkişafı, həm də tarazlı inkişaf meyarları üzrə nəinki ölkə regionları, habelə dünya üçün nümunə olmalıdır.

## Nəticə

Qarabağda aqroturizm bazarında vəziyyətin qiymətləndirilməsi üçün ümumi meyar və göstəricilərlə yanaşı, özünəməxsus meyar və göstəricilər də təhlilə cəlb edilməlidir. Aqroturizm regionda yeni iş yerləri açmaqla, tarazlı regional inkişafda mühüm rol oynayır. Qarabağda aqroturizmi inkişaf etdirmək üçün turizm məhsuluna tələb-təklif nisbəti qiymətləndirilməlidir. Aqroturizm işğaldan azad edilmiş torpaqlarda mədəni və mənəvi dəyərlərin, o cümlədən, təbii və tarixi abidələrin bərpası və qorunmasına, xalq sənətkarlığının inkişafına, təbiətə dost fəaliyyətin təşviq edilməsinə xidmət etməlidir.

Beləliklə, hər şey birmənalı olaraq ona dəlalət edir ki, aqroturizmin inkişafı bu gün Qarabağın inkişafının istənilən perspektiv planlarının təbii və ayrılmaz elementi olmalıdır.

## İstinadlar


1. 1. Ə.Cabbarov. İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı//www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/28655-ishghal-sonras-garabagh-igtisadiyyat-vae-turizmin-inkishaf.html.
2. 2. https://az.sputniknews.ru/economy/20201201/425328503/turisticheskij-potencial-karabah- vojna.html
3. 3. Карабах можно превратить в крупнейшее туристическое направление на Кавказе// https:// www.trend.az/business/tourism/3376498.html.
4. 4. Университет Пурдью, США. Материалы исследовательской программы. Discovey park. discoverypark. e-enterprise. purdue.edu

**ZEYNALLI Lətif**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, doktorant

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ RƏQABƏTLİ İNSAN KAPİTALININ İNKİŞAFI PERSPEKTİVLƏRİ

**Xülasə:** "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən, Azərbaycanda iqtisadiyyatın transformasiyası, insan kapitalının formalaşması və inkişafı, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi və əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaş¬dırılması tədbirləri həyata keçirilir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" özündə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet reallaşdırılmasını əks etdirir. Burada reallaşdırılması qarşıya qoyulan prioritetlər içərisində "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" olması bir daha göstərir ki, dövlət tərəfindən qarşıdakı 10 ildə də ölkədə insan kapitalının inkişafında mütərəqqi addımların atılması əsas hədəflərdən biri kimi götürülmüşdür. Məqalənin hazırlanmasında məqsəd, işğaldan azad olunmuş ərazilərdə rəqabətli insan kapitalının formalaşdırılması perspektivlərini araşdırmaqdan ibarətdir.

**Açar sözlər:** Qarabağ, Şərqi Zəngəzur, insan kapitalı, innovasiya, inkişaf

→

## Giriş

Qloballaşma şəraitində insan kapitalının innovativ inkişafı ölkənin rəqabət qabiliyyətinin artırılmasının əsas yolu, dövlətin innovativ və investisiya modelinin inkişafında əsas amildir. Müasir dünyada insan kapitalı getdikcə hər hansı bir ölkənin və cəmiyyətin inkişafı üçün həyat mənbəyinə çevrilib. İnsan kapitalı avadanlıq və ya inventar deyil, ölkənin rəqabət qabiliyyətini, iqtisadi artımını və bütövlükdə ölkə iqtisadiyyatının səmərəliliyini artıran həlledici amildir (Hobdari və başqaları, 2016). Elmi-texniki tərəqqinin, informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə yanaşı, insan kapitalı zəka, bilik, bacarıq, təcrübə və peşəkarlıq daşıyıcısı olaraq mərkəzi yer tutur. İnsan kapitalının inkişafı, insanın təhsil səviyyəsinin, mədəniyyətinin, zehni və mənəvi bacarıqlarının artmasına səbəb olan keyfiyyət və kəmiyyət dəyişikliklərinin davamlı bir prosesidir. İnsan kapitalının inkişafına qoyulan investisiyaların artması davamlı iqtisadi inkişafın əsasını təşkil edən intellektual səviyyənin yüksəlməsinə səbəb ola bilər. Kapital konsepsiyasının insana tətbiqi yeni bir anlayış deyildir. İnsanın və onun xüsusiyyətlərinin kapitalın bir hissəsi ola biləcəyi fikri iqtisad elmi yarandığı gündən bəri tanınmış iqtisadçılar tərəfindən araşdırılmaqdadır (Bildirici və başqaları, 2005). İnsan kapitalı nəzəriyyəsi iqtisadi artımın əsas amili kimi insanın intellektual, yaradıcı və məhsuldar keyfiyyətlərinə diqqət yetirən dünya iqtisadi nəzəriyyəsi və ictimai istehsal şərtlərinə uyğun olaraq tədricən inkişaf etdirilmişdir. İnsan kapitalı anlayışı 1960-

cı illərdə elmə daxil edilmişdir. İnsan kapitalı nəzəriyyəsinin baniləri  G. Becker və T. Schultzdur (Kuzmin və başqaları, 2020).

İnsan kapitalı konsepsiyasını müəyyənləşdirərkən bu dəyərlərin asıl və müstəqil dəyişənlər şəklində yaradılması təhsil və təlimlə sıx bağlıdır. Bundan əlavə, təcrübənin bir bilik kateqoriyası hesab edilə biləcəyini nəzərə alsaq, insan kapitalı fərdlərdə cəmlənmiş biliklərin sinonimi kimi qəbul edilə bilər (Trovato, 2020).

XXI əsrdə dövlətin iqtisadi potensialını təyin edən əsas amil dünyanın sürətlə dəyişən texniki şərtlərinə uyğunlaşma qabiliyyətidir. Bu, insan resurslarından səmərəli istifadə nəticəsində biliklərin və yeni texnologiyaların tətbiqinə əsaslanan «yeni iqtisadi inkişaf keyfiyyəti» kimi başa düşülür. Yeni texnologiyalar əsasında rəqabətli ölkənin inkişafı üçün təcrübə və biliklərdən istifadə edə biləcək yüksək keyfiyyətli mütəxəssislər tələb olunur. Yenilikçi iqtisadiyyatın formalaşdırılmasının kompleks iqtisadi və təşkilati faktorlarının ən mühümü tərkib hissəsi təhsili, peşəkarlığı və zəkanı cəmləşdirən insan kapitalıdır. Buna görə rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılması müasir inkişafın prioritetlərindən və ən vacib sahələrindən biri hesab olunur.

**Təhlil və qiymətləndirmə**

Bazar iqtisadiyyatı şəraitində dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi cəmiyyətin mövcud sosial-iqtisadi strukturundan, onun keyfiyyət xarakteristikalarından əhəmiyyətli dərəcədə asılıdır. İnsan kapitalı səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir. İnsan fərdi və sosial varlıq olmaqla cəmiyyətin ayrılmaz bir tərkib hissəsidir. Məhz insan kapitalının səviyyəsinin yüksək olmasına görə iqtisadiyyatı ikinci Dünya müharibəsi illərində demək olar ki, məhv edilmiş Almaniya və Yaponiya çox qısa bir müddət ərzində iqtisadiyyatın əvvəlki vəziyyətini bərpa etməklə yüksək inkişaf templərinə nail oldular. İnsan kapitalının ən mühüm tərəflərindən biri onun müstəqil olaraq inkişaf etməsidir ki, bu da fərdlərlə vəhdət təşkil edən insan kapitalının özünün daha da təkmilləşdirilməsini, formalaşmasını və yaradıcı keyfiyyətlərinin və xüsusiyyətlərinin üzə çıxarılmasını ehtiva edir. Danılmaz faktdır ki, hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır və bu baxımdan inkişafın əsas məqsədi əhalinin uzun, sağlam və yaradıcı həyat sürməsi üçün əlverişli mühitin təmin olunmasıdır. Müasir şəraitdə dünya miqyasında qlobal inkişaf və insan kapitalının qorunub saxlanılması, onun siyasi-iqtisadi-sosial düşüncələrində cəmiyyət üzvlərinin maddi-rifahının yüksəldilməsi və inkişaf etdirilməsindən başqa heç bir ali məqsədi ola bilməz.

Ölkəmiz zəngin təbii ehtiyatlara, xüsusən də neftə və qaza malikdir. Bununla birlikdə, hökumət insan kapitalının inkişafını ölkənin neft və qaz gəlirlərindən asılılığının azaldılması və xarici təsirlərə davamlılığının gücləndirilməsi üçün zəruri bir şərt kimi qəbul edir. Hökumətin əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft və qaz gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunda sürətli böyüməni davam etdirmək, rəqabət qabiliyyətini artırmaq və inkişaf imkanlarını genişləndirməkdir.

Azərbaycan prezidenti İlham Əliyev ölkənin iqtisadi rayonlara bölgüsünün dəyişdirilməsi ilə bağlı fərman imzalamaqla ölkənin iqtisadi xəritəsində tərkibinə işğaldan azad olunmuş ərazilərin daxil olduğu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaratdı. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olub. Şərqi Zəngəzur iqtisadi vahidinə isə ikinci Qarabağ müharibəsindən sonra Azərbaycanın nəzarətinə keçən Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxil olmuşdur. Qarabağ iqtisadi rayonunda mövcud potensialın, xammal və təbii ehtiyatların, məhsuldar torpaq sahələrinin yüksək olması, ərazilərimizdə məhsul istehsalının artmasına zəmin yaradır. Qarabağ iqtisadi rayonunun sənaye, turizm və aqrar sektorda geniş potensialı var. Bundan başqa, Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından olduqca geniş potensiala malik iqtisadi rayondur. Belə ki, Qarabağ iqtisadi rayonunun ölkə iqtisadiyyatının əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi 0,7%, Şərqi Zəngəzur iqtisadi rayonunun isə cəmi 0,1 faiz təşkil etmişdir. Nəzərə almaq lazımdır ki, işğaldan azad olunmuş ərazilər Azərbaycanda iqtisadi inkişafın yeni drayveri kimi çıxış edəcəkdir. Bu baxımdan, burada rəqabətli insan kapitalınının və müasir innovasiya məkanının

formalaşdırılması Azərbaycanda ÜDM-in artım tempinin sürətlənməsinə səbəb olacaqdır. İndi isə işğaldan azad olunmuş ərazilərdə demoqrafik göstəricilərin səviyyəsinə nəzər salaq:

**Cədvəl 1.** İşğaldan azad olunmuş ərazilərdə demoqrafik göstəricilər

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Əhalinin ümumi sayı (ilin sonuna, min nəfər) | 8997.6 | 9593 | 9705.6 | 9810 | 9898.1 | 9981.5 |
| Regionda olan əhalinin sayı (ilin sonuna, min nəfər) | 855.4 | 910 | 921.2 | 930 | 938.7 | 947.2 |
| Təbii artım | 10065 | 10239 | 9479 | 7478 | 7225 | 7790 |
| Doğulanlar | 14139 | 14674 | 13873 | 12232 | 11883 | 12331 |
| Ölənlər | 4074 | 4435 | 4394 | 4754 | 4658 | 4541 |
| Regionda olan əhalinin sayının əhalinin ümumi sayında payı faizlə (%) | 9.50% | 9.50% | 9.50% | 9.50% | 9.50% | 9.50% |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən də göründüyü kimi, 2010-2019-cu illər ərzində işğaldan azad olunmuş ərazilərdə olan əhalinin sayının əhalinin ümumi sayında payı 9.5% təşkil etmişdir. 2010-2019-cu illərdə doğulanların sayı 12.7% azalmış, ölənlərin sayı isə 11.4% artmışdır. Ümumilikdə təbii artım 22.6% azalmışdır. Buna baxmayaraq, işğaldan azad olunmuş ərazilərdə olan əhalinin sayı 10.7% artmışdır.

**Diqaram 1. Qarabağ iqtisadi rayonu**




**Diaqram 2. Şərqi Zəngəzur iqtisadi rayonu**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2015-2019-cu illər ərzində işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəal əhalinin və məşğul əhalinin sayı 4.5%, orta aylıq nominal əmək haqqı Yuxarı Qarabağda 46%, Şərqi Zəngəzur iqtisadi rayonunda

isə 60.6% artmışdır. Buna baxmayaraq, işsiz statusu almış şəxslərin sayında 2860 nəfərdən 6525 nəfərə qədər artım müşahidə olunur.

**Diaqram 3. Yeni iş yerlərinin sayı**




| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Yeni iş yerlərinin sayı | 2688 | 4486 | 7742 | 15789 | 11053 | 4415 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Diaqram 3-dən də göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə yeni iş yerlərinin sayında 2017-ci ilə kimi artım dinamikası müşahidə olunur. Lakin nəzərə almaq lazımdır ki, artıq bu ərazilərdə yenidənqurma işləri həyata keçirilir, bir çox xarici şirkətlərlə əməkdaşlıq müqavilələri bağlanmışdır. Bu isə gələcəkdə yeni iş yerlərinin artmasına səbəb olacaqdır. Həmçinin iş yerlərinin artması fonunda ixtisaslı kadr ehtiyatlarının fromalaşdırılması da zəruri hesab olunur. Qeyd etmək lazımdır ki, dövlət insan kapitalının inkişafı sahəsində bir sıra sənədlər və proqramlar qəbul etmişdir ki, bunlardan bir qisminə nəzər salaq:

1. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”;

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”;

3. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”;

4. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”.

**Nəticə və təkliflər**

Yuxarıda qeyd etdiklərimiz də göstərir ki, Azərbaycan hökuməti insan kapitalını inkişaf etdirməyi əsas prioritet kimi qarşıya qoymuşdur və vətəndaşların yeni bilik və bacarıqlarını inkişaf etdirmək ölkə gündəmindədir. Bu nöqteyi-nəzərdən əsas diqqət təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsinə; insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılmasına; dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə Azərbaycan ali təhsil müəssisələri arasında ölkə iqtisadiyyatı üçün prioritet sahələr üzrə beynəlxalq ikili diplom proqramlarının təsis olunmasına; Azərbaycanın ali təhsil müəssisələri üçün yüksək elmi-tədqiqat bacarıqlarına malik milli kadrların hazırlanması məqsədilə xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsinə və rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşdırılmasına yönəldilmişdir. Yeni iş yerlərinin açılması, sosial və regional bərabərsizliklərin azaldılması kimi böyük problemlərin öhdəsindən gəlməyi bacaran yeni iqtisadi inkişaf modelinə tədrici keçid ölkədə insan kapitalında yenilənmə və düzəlişlər edilməsini tələb edir. İşğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil, səhiyyə, sosial və digər xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətinin stimullaşdırılması da bilavasitə regionda insan kapitalının inkişafını şərtləndirən məsələlərdəndir. Post-konflikt ölkələrinin təcrübəsinə nəzər yetirdikdə, regionda insan kapitalının formalaşdırılması və inkişafı ilə bağlı ilk olaraq daxili insan kapitalı qiymətləndirilməlidir ki, buna əsas etibarı ilə keçmiş münaqişə zonası əhalisi daxildir. Bu prosesdə məcburi köçkünlərin mərhələli şəkildə, iqtisadi və sosial məsələlər nəzərə alınmaqla öz yerlərinə qayıtması, insan kapitalının inkişafı, xarici və yerli investisiyanın cəlb olunması, iqtisadiyyatın innovativ həllər prinsiplərinə uyğun inkişaf etdirilməsi də prioritet təşkil edir.

## İstinadlar


1. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı http://www.e-qanun.az/framework/13001.
2. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı https://edu.gov.az/upload/ file/ Beynelxaql-emekdashliq/2019/11/elan-DP-PhD-18_11_2019.pdf.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov. az/source/ regions/.
4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI% 20YOL% 20XERI TESI.pdf.
5. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". https:// president.az/articles/50474.
6. Bildirici, M., Sunal, S., Aykac Alp, E., & Orcan, M. (2005). Determinants of human capital theory, growth and brain drain: An econometric analysis for 77 countries. Applied Econometrics and International Development, 5, 2.
7. Hobdari, B., Sun, P., & Goodstein, J. (2016). Multi-dimensional institutional reforms and board human and social capital in emerging markets. In Academy of Management Proceedings (Vol. 2016, No. 1, p. 12132). Briarcliff Manor, NY 10510: Academy of Management.
8. Kuzmin, O., Bublyk, M., Shakhno, A., Korolenko, O., & Lashkun, H. (2020). Innovative development of human capital in the conditions of globalization.
9. Trovato, M. R. (2020). Human Capital Approach in the Economic Assessment of Interventions for the Reduction of Seismic Vulnerability in Historic Centres. Sustainability, 12(19), 8059.

# articles and theses

→

**ABBASOV Ali**

Institute of Control Systems of ANAS, Academic, Doctor of Technical Science, Professor

**ALIYEV Elchin**

Institute of Control Systems of ANAS Doctor of Technical Science, Professor

# CLUSTER APPROACH FOR THE REGENERATION OF THE KARABAKH TERRITORY LIBERATED FROM THE ARMENIAN OCCUPATION

**Summary:** Cluster development approach characterized by a synergistic effect from the combined use of regional resources has been widely used in developed economies to maximise the region's economic potential. This article outlines the main characteristics and benefits of cluster formation and proposes a customised cluster model for the newly liberated Karabakh region that would allow to restore the economy of the region and to provide foundation for the return of the internally displaced people to the territory which would significantly contribute to the Azerbaijan's economic growth.

**Keywords:** regional cluster, cluster model, liberal model, dirigiste model.

## INTRODUCTION

The existing practice of financing regional projects normally entails uncoordinated and ad hoc investing in separate projects which often results in the failure of project implementation due to the insufficient funding or various hindering factors. In comparison to this, cluster approach allows flexible financing of projects from the consolidated budget available for multiple regional projects and from the structured holistic approach to business development. Due to its innate flexibility, cluster approach allows to quickly and optimally redistribute limited resources among various projects which effectively enables smooth implementation of new projects as well as consistent support of the existing ones.

Cluster approach has been efficiently implemented in the world's leading economies and the successful past experience of this strategy may be applied to revive the economy of Karabakh region that was recently liberated from the Armenian occupation and requires a targeted strategy to unleash its economic potential. In order to implement this approach, it is necessary to identify the basic principles of cluster development as well as tools that guarantee its overall efficiency to achieve the synergistic economic effect. This can be achieved by analysing the existing models of successfully operated clusters and identifying their main structural elements to identify the implementation principles.

## 2. Economic cluster by Porter

